

# BƏXTİYAR VAHABZADƏ

## ƏSƏRLƏRİ

*(Publisistika)*

XI *On iki cilddə*

*cild*

Bakı - 2009
"ELM" nəşriyyatı

*Tərtibçi, ön söz müəllifi və redaktoru*
**Ramazan Qafarlı**

**Bəxtiyar Vahabzadə. Əsərləri.** On iki cilddə. XI cild (Publisistika). - Bakı, "Elm" nəşriyyatı, 2009. - 826 s.

*B.Vahabzadə, həm də görkəmli publisistdir. Şairin poetik yaradıcılığının, dramaturgiyasının leytmotivini təşkil edən Vətən sevgisi, milli istiqlal, ana dili, mənəviyyat, haqq-ədalət və s. mühüm ictimai və bəşəri problemlər onun çoxşaxəli publisistikasında - məqalə, çıxış, məktub və müsahibələrində də eyni vətəndaşlıq mövqeyindən və bədii-emosional vüsətlə qaldırılır. Materialın həcmcə genişliyi nəzərə alınaraq, şairin publisistikasının iki cilddə verilməsi məqsədəuyğun sayılmışdır. Bu cildə, əsasən, mühüm ictimai-siyasi, sosial və mənəvi-əxlaqi problemlərə dair yazılar daxil edilmişdir.*

İSBN 5-86874-037-8

V $\frac{4702060000}{055\ (11) - 2009}$ *Qrifli nəşr*

© B.Vahabzadə - 2009

# BƏXTİYAR VAHABZADƏNİN PUBLİSİSTİKASI

*Bəxtiyar Vahabzadənin gələcək nəsillər üçün yadigar qoyduğu irs çoxcəhətlidir. Ədəbi ictimaiyyət vətənpərvər sənətkarı ilk-əvvəl lirik-fəlsəfi şeirlər və epik-lirik, üsyankar poemalar ustası kimi tanıyıb. Sonra o, məzmunlu dramlar - dövrünün ən məşhur səhnə əsərlərini yaradıb, tamaşaçıların böyük rəğbətini qazanıb. Dahi yazarın nəsr əsərləri – hekayələri strukturu, dolğun xarakterləri, ideya-məzmunu, canlı epik lövhələri, dil və üslub xüsusiyyətləri ilə seçilib xüsusi poetik vüsətə malik olsa da, nədənsə, tədqiqatçıların diqqətindən kənarda qalıb. Ədəbi-nəzəri görüşləri isə Səməd Vurğunun yaradıcılıq yoluna həsr etdiyi iri həcmli monoqrafiyasında və Nizamidən, "Kitabi-Dədə Qorqud"dan başlayaraq gənc qələm sahiblərinədək iki min illik dövrdə yaşayıb-yaradan onlarla fövqəladə istedadın sənət möcüzələrinə və xələflərinin uğurlu əsərlərinə yazdığı şərhlərdə öz təsdiqini tapır. Ümumilikdə ədibin ədəbi-bədii, elmi-publisistik yaradıcılığının istiqamətləri müxtəlifdir və xüsusi janr sisteminə, əhatəli mövzu dairəsinə, rəngarəng forma xüsusiyyətlərinə malikdir. Sistemli şəkildə nəzərdən keçirdikdə, aşağıdakı mənzərə ilə rastlaşırıq:*

***1. Nəzm əsərləri:*** *müxtəlif mövzulu silsilə şeirlər və poemalar.*

***2. Dramaturgiyası:*** *dramlar, faciələr, mənzum dram, tele-radio pyeslər və kino-ssenarilər.*

***3. Nəsr əsərləri:***

*a) hekayələr;*

*b) elmi-nəzəri, əbəbi-tənqidi monoqrafiya və məqalələr;*

*c) publisistik yazılar: məqalələr, esselər, ədəbi portretlər, xatirələr, elegiyalar, məktublar, müsahibələr və çıxışlar.*

***4. Tərcümələri.***

*Əvəzsiz söz ustadının müxtəlifyönlü, zəngin yaradıcılığının mühüm hissəsini publisistik yazıları təşkil edir. Onu bütün həyatı boyu ruhundan keçən ümdə məsələlər: tükənməz sevgisinin əsas mənbəyinin - Vətən torpaqlarının qarış-qarış itirilməsi, varlığının göstəricisi - ana dilinin və mənəvi saflığın - əcdadlarının adət-ənənələrinin göz bəbəyi kimi qorunması, xalqının tarixinin təhrifi, ulu əcdadlarına məxsus tarixi abidələrin taleyi, eləcə də müasir dünyanın bir sıra ağrılı problemləri, nəhayət, unutqanlığımız daim düşündürürdü. Şairin poetik yaradıcılığının, dramaturgiyasının leytmotivini təşkil edən Vətən sevgisi, milli istiqlal, ana dili, mənəviyyat, haqq-ədalət və s. mühüm ictimai, bəşəri problemlər onun çoxşaxəli publisistikasında - məqalə, çıxış, məktub və müsahibələrində də eyni vətəndaşlıq mövqeyindən bədii-emosional vüsətlə qaldırılır. Materialın həcmcə genişliyi nəzərə alınaraq, onun publisistikasının iki cilddə verilməsi məqsədəuyğun sayılmışdır. Bu cildə, əsasən, mühüm ictimai-siyasi, sosial və mənəvi-əxlaqi problemlərə dair yazıları daxil edilmişdir.*

### *İnsanlığın əsas göstəricisi - Vətən sevgisi*

*Vətən sevgisi B.Vahabzadə poeziyasında olduğu kimi publisistik əsərlərinin də əsas qayəsini təşkil edir. O, məcnunluğun yeni tipini təqdim edir və doğma torpağa dəlicəsinə vurğunluğunun səbəblərini açıqlayır. Onun tez-tez üz tutduğu xalq atalar sözlərindən süzülüb gələn müdrik fikirləri bu gün (sabah da) gənclərimiz üçün əsl tərbiyə məktəbi və örnəkdir. Əslində şairin publisistik əsərlərində didaktikadan çox, içindəki yanğının nümayişi ilə rastlaşırıq. Saxta dostluq, qardaşlıq, bərabərlik, beynəlmiləlçilik ideyalarına uydurulub milli mənliyini itirən soydaşlarını oyatmağa çağırış ruhlu publisistik əsərlərində insanın ruhunun dərin qatlarında dondurulmuş ən ülvi hislərini, şirin duyğularını - torpaq, yurd sevgisini təzədən canlandırmağa, damarlardan axan qanı coşdurub köklə başlanan qırılmış tellərin bərpasına çalışırdı.*

*Əsrlər boyu Vətən hər bir Azərbaycan türkü üçün iman yeri olub. O, qərib ölkəyə düşəndə doğma yurdundan ötrü təklikdə göz yaşı axıdıb.*

*Gözsüz yaşayıb, amma Vətənsiz yaşaya bilməyib. Qürbətdə keçən ömrünü ömür saymayıb. Ona görə ki, Vətənin bir qışı qürbətin yüz baharından yaxşıdır. Qəflətən kimsə arxadan vuranda türkün «Vay Vətən!» deməsi təsadüfi deyil. Bu da bir həqiqətdir ki, qürbəti görməyən Vətənin qədrini bilməz... Beləcə ana yurdunu böyük məhəbbətlə sevən ulu babalarımız heç vaxt özgəsinin torpağana göz dikməyib, "Yad yerdən Vətən olmaz! - deyiblər. Lap qədim zamanlardan insanların anadan olub boya-başa çatdıqları torpağın müqəddəs hesab edilməsi, «Vətən» sözünün «ana» sözü ilə yanaşı işlədilməsi sonsuz sevgidən doğurdu. Elin igid oğulları doğma yurdu amansız düşmən basqınlarından qorumaq üçün sinələrini sipərə döndərib, lazım gələndə canlarından belə keçiblər. Ocağımızı söndürməyə can atanlar öz ölkələrinədək qovulub, özlərinin ocağı dağıdılıb. Atalarımız deyirdilər ki, "Vətənə gəldim, imana gəldim". "Vətənin bir qışı qürbətin yüz baharından yaxşıdır". "Gözsüz yaşamaq olar, Vətənsiz yox". "Qürbət yerdən Vətən olmaz!" "Qürbətdə keçən ömür, ömür sayılmaz". "Oba yiyəsiz qalanda donuz təpəyə çıxar".*

*B.Vahabzadə körpəlikdən atalarımızın bu müdrik kəlamlarını qulaqlarında sırğa edərək insanlığı böyük məhəbbəti ilə heyrətləndirməyi bacarmışdır. Nədənsə, bəşər oğlu qəlbinin dərinliklərinə nüfuz etmiş ən nəcib duyğularını - sevgisini başqalarından gizlətməyə çalışır. Təkcə Məcnun tanış-bilişinə deyil, küçə-meydanlara çıxıb bütün cəmiyyətə car çəkməkdən usanmır. Bu, onun dəliliyi sayılır. B.Vahabzadənin Vətən sevgisində də məcnunluğa oxşarlıq var. O da hamıya çatdırmaq istəyir ki, Vətəni - daşına, torpağına, iqliminə, suyuna görə sevmirlər. Vətəni vətən olduğuna görə sevirlər. Ona görə də, hər kəsə elə gəlir ki, onun vətəni məmləkətlərin ən gözəlidir. "Mən də belə düşünürəmsə, bunu mənə nöqsan saymayın" – deyən şair öz etirafları ilə o qədər səmimidir ki, hər kəsi düşündürüb ruhunu riqqətə gətirir. Və bundan gözəl sevgi etirafına heç yerdə rast gəlmirik: "Mənim vətənim doğrudan da gözəldir. Ona görə ki, mən bu vətənin vurğunuyam. Əgər vurğunu olmasaydım, vətənimin naminə nəğmələr qoşa bilməzdim. İnsan anasından doğulanda hələ doğulmur. İnsan vurulanda doğulur. Çünki*

*insan sevəndə dünyaya yeni gözlə baxır, onu dərk edir. Mən də vətənimə vurulub dünyanı dərk elədim".*

*Torpağa bağlılıq Azərbaycan xalqının xarakterini müəyyənləşdirən amillərdən biridir. Lakin Vətəni Vətən eləyən xalqdır, orada yaşayan insanlardır. Elsiz obanın, yurdun nə qiyməti var?! Azərbaycan türkünün müdrikliyi qarşısında baş əyən B.Vahabzadə şairliyi ilə ona görə qürurlanır ki, sevgilisi Vətəni böyük şövqlə vəsf edə bilir. Onun bir etirafına diqqət yetirək: "Azərbaycana şairlər ölkəsi də deyilir. Səkkiz yüz il əvvəl Nizami, Xaqani, altı yüz il əvvəl Nəsimi, beş yüz il əvvəl yaşamış Füzuli dünya poeziyasının bahadırlarıdır. Xalqımın şifahi ədəbiyyatı daha zəngindir. Dastan və nağıllarımız qədim mədəniyyətimizdən xəbər verir. Atalar sözlərimiz müdrikdir, bayatılarımız incədir. Bütün bu sənət abidələri ilə tanış olduqca, onları dərindən-dərinə öyrəndikcə xalqımın qarşısında səcdəyə gəlir və azərbaycanlı olduğumla fəxr edirəm".*

*Savaşanlar arasına baş örpəyini atıb qardaş qanının axıdılmasının qarşısını alan qadınlarımızla bağlı mühüm bir adəti xatırladıb Vətən və xalq məfhumlarına eyni prizmadan yanaşan B.Vahabzadə göstərir ki, Azərbaycan xalqı tarixi ənənələr əsasında yetişmiş qocaman bir xalqdır. "Azərbaycan xalqı öz gözəl ənənələrini bu gün də davam etdirməklə yanaşı, yeni bir inkişaf cığırına düşmüşdür. Son 50 il ərzində bu xalq elmin və sənətin müxtəlif sahələrində çox böyük nailiyyətlər əldə etmişdir. Həm texniki, həm təbiət və həm də humanitar elm sahələrində alimlər yetişdirmiş, akademiya yaratmışdır. İndi bizim dünya elminə və sənətinə əlavələr etməyi bacaran M.Topçubaşov, Y.Məmmədəliyev, X.Məmmədov, M.Rəsulov kimi qüdrətli alimlərimiz, Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov kimi bəstəkarlarımız, Səttar Bəhlulzadə, Mikayıl Abdullayev, Tahir Salahov, Toğrul Nərimanbəyov kimi rəssamlarımız, Cəfər Cabbarlı, Səməd Vurğun, Mirzə İbrahimov kimi söz ustadlarımız, Bülbül, Şövkət Ələkbərova kimi müğənnilərimiz vardır".*

*Mənəvi dəyərlərimizi diqqət mərkəzinə çəkməklə xalqımızın dünyadan təcrid olunmasını deyil, Yer üzündəki ictimai və mədəni aləmdə baş verən mühüm hadisələrin içində özünəməxsus yer tutmasını göz qabağı-*

*na qoymaq istəyir, millətinin başqa xalqların ədəbiyyatına, incəsənətinə marağını alqışlayaraq qürurla bildirir ki, "İndi azərbaycanlılar dünya ədəbiyyatının ən böyük nümunələrini öz ana dilində oxuyur. Bizdə alman ədəbiyyatına böyük maraq vardır. Şillerin, Hauptmanın, Brextin pyesləri Azərbaycan səhnəsində göstərilir. Götenin, Heynenin şeirləri əzbərlənir, dərsliklərdə oxunur. Bax, Bethoven, Haydn, Vaqner konsert salonlarımızda səslənir. Marks, Engels, Feyerbax, Hegel, Fixte, Freyd fəlsəfəsi öyrənilir, ali məktəblərdə keçilir." Şair özü də dünya xalqlarının korifeylərinin şeir və poemalarını ana dilimizə çevirib müntəxəbatlarda və toplularda dərc etdirmişdir. Lakin onların külliyatına salınması ilə razılaşmamışdı."Mən Avropa ədəbiyyatı nümunələrini orijinalda olduğu kimi tərcümə etməyə çalışsam da, tam müvəffəqiyyət qazandığıma inanmıram. Ona görə ki, həmin əsərlərin mətnini müxtəlif xarici dillərdən dilçi alimlərimizin sətri tərcüməsində əldə etmişəm. İngilis və alman dillərini bilmədiyimdən dəqiqliyini təsdiqləməkdə acizəm. Doğrudur, o əsərlərdə daha çox mənim ruhum özünə yer alıb. Bununla belə mövzu və ideya özgəsinə məxsusdur, çevirən şəxs kimi onları əsərlərimin içərisinə salsam, haqsızlıq edərəm".*

*B.Vahabzadənin poeziyasının qaynaqlarını arasaq, ilk növbədə, istiliyin, yanğının mənbəyinin hardan gəldiyini düşünəcəyik. Publisistik məqalələrinin birində ("Vətən ocağının istisi") özü odu, alovu aldığı ünvanı göstərir: "Niyə hər kəsə öz vətəninin kolu da əzizdir, külü də. Qanqalı da əzizdir, gəndalaşı da? Qarğası da əzizdir, bülbülü də?.." Bu sorğunun cavabı həm yoxdur, həm də saysız-hesabsızdır. Şair yaradıcılığının hər səhifəsində həmin cavabları verir. Və min illər boyu ulu əcdadlarının cisminin əbədiyyətə qovuşduğu torpağı başqası ilə əvəz etməyin mümkünsüzlüyünü soydaşlarına anlatmağa çan atır. Onun vətən sevgisini fanatizm adlandıranlara qızmır, istehza ilə diş ağardanların tikanlı qənaətləri ilə razılaşaraq daha da qürurlandığını elan edir:"Başqa şeydə demərəm, amma Vətən sevgisində bir az fanatik olmaq lazımdır" - deyir.*

*Müdrik insanın "Vətən kimlərə məxsusdur?" - sualına cavabı da maraqlıdır. Adam düşünür ki, yurdun müstəqilliyi üçün ölümlə*

*dəfələrlə üz-üzə duran B.Vahabzadənin qənaətində Vətən ancaq torpağa qayğı göstərənlərindir. Lakin şair məsələyə realistcəsinə yanaşır və Azərbaycanın bütün övladlarının birliyini arzulayaraq yazır: "Vətən - hamınındır. Vətən - təkcə mənim evim deyil, milyonların evidir. Vətənin qüsuru da, gözəlliyi də həmin bu milyonlara məxsusdur. Buna görə də Vətən mənafeyi qarşısında onun övladlarının hamısı eyni dərəcədə cavabdehdir. Vətən müxtəlif fikirli və əqidəli övladları birləşdirən yeganə anadır".*

*İnsan bir-birinə yaxın olan üç məhfumu həmişə dilinə gətirəndə saflaşır: Vətən! Ana torpaq! Doğma ocaq! Bu kəlmələrdə elə sirr gizlənib ki, hamını duyğulandırır. Vətən milyonları qucağına alıb ovutmağa qadirdir. Ana torpaq bu isti qucağın bir parçasıdır, əkib-becərənlərdən barını, bəhrəsini əsirgəmir. Doğma ocaq nəsillərin sığındığı elə məkandır ki, hər kəsin həyatının istili, soyuqlu anlarını şirin xatirələrə çevirir. Ədib bu üç məkanın insan üçün hədsiz əziz olmasının səbəbini anlatmaq istəyir. O yaxşı bilir ki, dünyanın cənnət kimi bir guşəsində bütün arzularını, istəklərini yerinə yetirsələr də, hər cür nemətləri başından töksələr də, yenə bəşər oğlunun gözü Vətənini axtarır, qəlbi Vətən həsrətilə döyünür, dodaqları "Vətən", "Vətən" deyir. B.Vahabzadənin qənaətinə görə, bunun səbəbini bilmək üçün ana torpağın bir parçası olan insanı, onun təbiətini araşdırmalıyıq. Çünki vurulan insandır.*

### *İnsanın varlığının göstəricisi - ana dili*

*Hər bir söz sənətkarının əsas vəsaiti dildir. Ana dilinin incəliklərini bilməyən nə qədər istedadlı olsa da, iç dünyasına bağlansa da, eşq oduna yanıb külə dönsə də əsl sənət nümunəsi yaratmaqdan məhrumdur. B.Vahabzadə əlinə qələm alıb yazmağa başladığı andan bu həqiqəti dərk etmiş və vətən sevgisi ana dilinin qorunması ilə mübarizə zəminində daha da şiddətlənmişdir. Özünü şair kimi təsdiqləməyə çalışdığı çağlarda yüksək dairələrdə ana dilinin arxa plana keçirildiyini, dövlət sənədlərinin rus dilində aparılmasını, paytaxtda milli məktəblərin çoxunun beynəlmiləşdirilməsini görüb həm dolayı şəkildə*

*poetik əsərlərində, həm də publisistik məqalələrində hamını ayıqlığa, sayıqlığa səsləmişdir. Sovet dönəmində açıq-aşkar rus dilinin tədris və idarəçilikdəki hegemonluğuna, şəbəkələrinin günü-gündən daha da genişləndirilməsinə qarşı çıxmaq imperiyanın məngənəsinə düşmək idi. B.Vahabzadə hələ onda kommunistləri öz silahları ilə vurmağın yolunu tapmışdı. Sovet dövlətinin banisi B.İ.Leninin fikirlərinə və imperiyanın ən ali qanunlar toplusuna söykənərək respublikanın siyasi rəhbərliyini haqqa qaytarmağa təşəbbüs göstərərək yazırdı: "İndi gəlin, görək, biz əməli işdə Leninin dediyi bu tarazlığı saxlaya bilmişikmi? Tarazlıq bir yana, görək, Konstitusiyada yazıldığı kimi, Azərbaycan dili doğrudan-mı Dövlət dilidir? Hamımıza məlumdur ki, yox! Çünki Dövlət dilinin hüququnu qorumuruq. Bunun zərurət olduğunu başa düşməyənlər idarələrdə işləmədiyinə görə ana dilinə biganəlik göstərir, heç bu barədə düşünmür, bunu özlərinə nöqsan da hesab eləmirlər". Bu, əslində milli-mənəvi dəyərlərə qarşı laqeyidliyə, biganəliyə etirazı, üsyanı, soydaşlarının gözünü açmaq təşəbbüsləri idi. Müttəfiq respublikaların heç birində bizdə olduğu qədər öz xalqının dilinə, əlifbasına qarşı düşünülmüş qəsd hazırlanmamışdı. B.Vahabzadə publisistik əsərlərində poeziyasında olduğu qədər cəsarətli idi. O, böyük qardaşın mənfur dil siyasətinin kartlarını rusların öz alimlərinin dilindən tutaraq açır, dilə qəsd edənlərin maskasını yırtır və əslində sovet dövlətinin nadan başçılarının çıxardıqları qeyri-insani qərarların ədalətsizliyini nümayiş etdirərək bildirirdi ki, "Lixaçov yazır: "Böyük mədəniyyəti, böyük milli ənənələri olan böyük xalq, əgər öz taleyini kiçik xalqların taleyi ilə bağlayırsa, xeyirxah olmalıdır. Böyük xalq kiçik xalqa öz varlığını, öz dilini və mədəniyyətini qoruyub saxlamaqda kömək etməlidir". Şair bu sitatla anlatmaq istəyirdi ki, Rusiyanın kommunistləri qardaş xalqların haqqını yeməklə tarixi ənənələrə malik mədəni xalqı - rusları alçaldır, Puşkini, Dostoyevskini, Tolstoyu utandırırlar.*

*Publisistik yazılarındakı üsyankar fikirlərini ona görə qulaqardına vururdular ki, qələmini iti qılınca çevirən B.Vahabzadə V.İ.Leninin kəlamlarından özünə qalxan tuturdu: "Müxtəlif millətlərin azad və mehribancasına birgə yaşaya bilməsi üçün... tam demokratizm olma-*

*lıdır. Heç bir millət üçün, heç bir dil üçün gərək heç bir imtiyaz olmasın! Azlıq təşkil edən millətlərə qarşı azacıq da olsa, təzyiqə, azacıq da olsa ədalətsizliyə gərək yol verilməsin!" (V.İ.Lenin). Adama elə gəlir ki, B.Vahabzadə Leninin fanatıdır və işini-gücünü atıb onun külliyatını əzbərləyib. Əslində belə maraqlı sitatları əqidə dostu alim-jurnalist Şirməmməd Hüseyov ona ötürürdü.*

*Şair "Komsomolskaya pravda" qəzetinin 1988-ci il 16 yanvar tarixli nömrəsində xüsusi müxbir S.Romanyukun "Arqumentlər olmadan" adlı məqaləsini oxuyub bərk təəccüblənir. Məqalədə göstərilirdi ki, Qırğızıstanda "Əmək kollektivində vətənpərvərlik tərbiyəsi və milli tərbiyə" mövzusunda respublika elmi-praktik konfransı keçirilir. Çingiz Aytmatov çıxışında milli dildə uşaq bağçalarının və məktəblərin açılması, qırğızlar tərəfindən rus və qırğız dillərinin öyrənilməsi məsələlərinə dair A.Tokombayevlə polemikaya girir və qırğız dilinin gərəksiz hala düşməsinə etiraz səsini ucaldır. Onun bu mühüm, ağrılı məsələyə tənqidi münasibəti S.Romanyuku özündən çıxardır. Müxbir yazır: "...Ç.Aytmatov həmin konfransın tribunasından bildirir ki, bu iş (qeyri-qırğızlar üçün qırğız dili dərsləri) lüzumsuzdur və acı istehza ilə soruşur: "Əgər qırğızlar öz dillərini bilməsələr, görəsən, qırğız dilini öyrənən ruslar bu dildə kimlə danışacaqlar?" B.Vahabzadə "Komsomolskaya pravda" qəzetinə məktubla müraciət edir və S.Romanyukun qırğız millətinin düşdüyü acınacaqlı vəziyyəti siyasiləşdirməsinin əleyhinə çıxaraq deyir: "Görəsən, S.Romanyuka niyə elə gəlir ki, bu sözlərin arxasında məhz milli məhdudiyyət və milli təkəbbür gizlənir? Məgər ana dilinə, doğma mədəniyyətə məhəbbət, onların inkişaf etdirilməsinə qayğı, ana dilində uşaq bağçaları və məktəblərin olmasını istəmək hər bir xalqın ən adi hüququ deyilmi? Məgər hər bir azad xalqın bu adi, elementar hüququ tələb etməsi milli məhdudiyyət və təkəbbürmü deməkdir? Axı, S.Romanyuk bir qədər əvvəl, həmin qəzetin 1987-ci il 29 noyabr tarixli nömrəsində belə bir fakt gətirmişdi ki, Qırğızıstanın paytaxtı Frunzedə (indiki Bişkekdə) qırğız dilində cəmi bir məktəb var! Bəs, görəsən, bu faciəli fakt niyə "hörmətli" müxbiri narahat etmir! Axı, belə fakt hər hansı xarici ölkədə olsaydı, biz nə hay-küy*

*qoparardıq?!" B.Vahabzadənin yazısını oxuyan Ç.Aytmatov onun bədii yaradıcılığı ilə maraqlanmış, SSRİ Dövlət mükafatına layiq görülmüş əsərlərinin rusca nəşrinə ön söz yazmış və Bakıya şairin görüşünə gəlmişdir.*

*Ana dilini xalqın ruhu, mənəvi dünyası, psixologiyası, "yaradıcılıq taleyi" sayan B.Vahabzadəyə görə, insan ən dərin və ən incə hisslərini yalnız anasından öyrəndiyi, orta məktəbdə möhkəmləndirdiyi dil vasitəsilə ifadə edə bilir. Ancaq ana dili vasitəsi ilə hər kəs öz düşüncələrini, duyğularını və dünyanı necə dərk etdiyini başqalarına anlatmağa qadirdir – hökmünü verərək şeirlərinin rəvanlığı, vüsəti, gücü ondan aldığını açıqlayır: "Mən ana dilində yazıram, ona görə ki, yalnız bu dildə öz fikir və duyğularımı ifadə edə bilərəm. Bu mənada bu dil mənim yaradıcılıq taleyimdir." Sovet dönəmində qazanmaq istədiyi ən böyük uğur ana dilinin rəsmi dövlət idarələrində işlənməsinə nail olmaq idi. Bu mənada şair yazırdı ki, "dəftərxana üzü görməyən, rəsmi idarələrdə işlənməyən dil gec-tez ölümə məhkumdur". Təsadüfi deyil ki, 1989-cu ildə Azərnəşrin hüquq elmləri doktoru M.Cəfərquliyevin rus dilində buraxdığı "Məhkəmə icraatında milli dil problemləri" adlı kitabını böyük sevinclə qarşılamışdı. Şair dərhal müəllifə zəng çalıb kitabın ana dilində də buraxılmasını arzu etdiyini bildirmiş, mətbuatdakı yazısında isə uğurlarından söz açaraq yazmışdı: "Bu kitab bir də ona görə qiymətlidir ki, millətlərarası münasibətlərin günü-gündən kəskinləşdiyi bir dövrdə biz bir daha bilməliyik ki, dil forma deyil, məzmundur. Dil - xalqın mənəvi dünyası, milli xüsusiyyətidir. Buna görə də dil ayrılığı, ruh, psixologiya və mənəviyyat ayrılığıdır. Bir halda ki, belədir, biz bir daha bilməliyik ki, ana dilinə ögey münasibət özümüzə - öz milli varlığımıza ögey münasibətdir. Biz birdəfəlik bu münasibətə son qoymalıyıq".*

*Xalqın gələcəyinə inamını itirənlərin mühüm dövlət postlarında yüksək vəzifələr tutmasını görəndə ədib qəzəbini gizlətmir, havaya görə işlərini quranların azərbaycanlıların namus və qeyrəti sayılan Ana dilini hər zaman istənilən dilə dəyişəcəyinə şübhə etmir və belələrinin maskalarını yırtaraq tövsiyə edir ki, başqa dillərdə bülbül kimi ötüb öz soydaşlarının taleyindən narahatlıq keçirməsinlər, dərdə düşməsinlər,*

*millətinin sabahının işıqlı olacağına əmindir, böyük Füzuliləri, Sabirləri və Üzeyir bəyləri yaradan azərbaycan türklərinin gələcəyinə də, onun dilinə və mədəniyyətinə də inamı hədsiszdir. Vətən, Ana dili problemlərindən danışanda sözünü havaya ötürmür, üzünü konkret insanlara tutur, öz baltalarımızın imtiyazlarının əllərindən alınmasına çalışaraq onları susmağa, irəliyə doğru atılan addımlarda badalaq gəlməməyə, uğurlarımızın qarşısına kötük atmamağa çağırır: "Siz hələ ən adi bir həqiqəti bilmirsiniz ki, Ana dili vaxta görə seçilməməli, Ana dili olduğuna görə bütün dillərdən seçilməli və sevilməlidir. Vətəni də gözəl və səfalı olduğuna görə sevmirlər. Yalnız Vətən olduğuna görə sevirlər..." Vətənin dırnaqarası "uzaqgörən oğulları" kökünə, soyuna qayıtmaq əvəzinə şairə düşmən kəsilib el içindəki nüfuzuna xələl gətirən şaiyələr yayır, qəzetlərdə böhtanlı yazılar yazdırmaqla hirslərini, qəzəblərini soyudurdular.*

*90-cı illərdə qaldırdığı problemlərə tərəfdaşlarının meydana gəldiyini görən B.Vahabzadənin gələcəyə inamı daha da artırdı. Ə.Tahirzadənin "Ana dili və azadlıq" (19 iyul, 1991-ci) məqaləsində "quşu gözündən vurması", şairin 40 ilə yaxın bir müddətdə həm şeirlərində, həm də məqalələrində dediklərini əyani faktlarla daha da dərinləşdirməsi qəlbini riqqətə gətirirdi. "Azadlaq" qəzetinin redaktoruna ünvanladığı açıq məktubunda ("Su başdan bulanar" adı ilə çap olunub) Ə.Tahirzadədən: "...Gürcü, erməni, yaxud eston hakim mafiyası son anda öz millətinin mənafeyini satmağa razı olmur. Çünki ana dili ilə birgə onun təfəkkürünə hopmuş "milli mənafe" duyğusu buna yol vermir. Ancaq daha çox öz əməkçi xalqının hesabına (başlıca olaraq rüşvətlə) dövlətlənmiş və hakimiyyətə çıxmış "Şərq" mafiyası (Azərbaycan, özbək, türkmən, və s.) isə son anda bu sərvəti və hakimiyyəti itirməmək xatirinə "əslində, heç bir mənəvi tellə bağlanmadığı xalqına asanlıqla dönüklük edir..." – fikrlərinin ürəyindən xəbər verdiyini vurğulamaqla kifayətlənmir, Azərbaycanda hökmən rus dilini bilən, Moskvanın mənafeyini qoruyan şəxslərin irəli çəkilməsini bizim faciəmlərimizin başladığı nöqtə sayır. Bu səbəbdən də nə qədər qərar və fərmanlar verilsə də, respublikamızda ana dilinin dövlət*

*statusu qazanmamasını, yenə köhnə hamamda köhnə tasların qaldığını, dəyirmanın öz bildiyini elədiyini, çaxçaxla millətin başını ağrıtdığını ürək ağrısı ilə xatırladır. Başqa xalqların eyni durumda öndə gedənlərin tamamilə özgə tərzdə fəaliyyət göstərdiklərini vurğulayaraq bizimkilərin ibrətlənməsini istəyir. Hələ durğunluq dövründə belə Baltik respublikalarında, Gürcüstan və Ermənistanda ana dili dövlət idarələrində işləndiyi halda Azərbaycanda yenidənqurmadan sonra da bu qədər qərar və fərmanlar verilməsinə baxmayaraq, elə əvvəlki vəziyyətin davam etməsinə yanıb-yaxılırdı.*

*Lakin müstəqillik əldə edilən kimi bir il keçməmiş vəziyyət tamamilə dəyişir. Rus dilini cani-dildən müdafiə edənlər kəkələyə-kəkələyə Ana dilində danışmağa başlyır, övladlarını rus məktəblərindən çıxardıb Azərbaycan məktəblərinə qoyurlar. Demə, B.Vahabzadənin on illər boyu döyülüb-söyülərək qaldırdığı problemin həlli belə asan imiş. Əslində rus dilli "bülbüllər"imizin qarnının azarı başqa imiş. Şair Tünzalə Qasımovanın "Azadlıq" qəzetinin 18 dekabr 1992-ci il sayında dərc olunan "Zəka axınını necə azaltmaq olar?" məqaləsində qaldırdığı məsələyə kəskin cavabında şəraiti düzgün dəyərləndirərək yazırdı: "Necə yəni, özün bu millətə mənsub olasan, bu millətin çörəyini yeyib, bu Vətənin suyunu içəsən, amma onun dilini bilməyəsən? Axı, sən xalqın dilini bilmirsənsə, demək, millətinin ruhuna, mənəviyyatına, tarixinə yadsan. Demək, bu millətə övlad deyilsən". Onun publisistikasında hər şey açıq qoyulur, sözünü üzə vurmaqdan çəkinmir. "Gidi dünya"nın tərs-məzhəb işlərini əvvəllər də görüb heyrətlənmişdi. Dünən onu dil məsələsində qamçılayanlar, "Mənim övladım ana dilini bilməsə də olar" hökmü ilə rusca təhsilin daha vacib olduğunu sübut etməyə çalışanlar görən nə səbəbə tələm-tələsik övladlarını rus məktəblərindən çıxarıb Azərbaycan məktəblərinə verirlər? Bu suala şair sualla cavab verirdi: "Rus dilini ana dili hesab edən bu ziyalılar bəs niyə Rusiyaya qaçmırlar? Əgər səbəb dil məsələsidirsə, bu cənablar gərək Rusiyaya üz tutaydılar. Demək, Rusiyada xoş güzəran tapmayacaqlarını bildiklərindən onlar xoş güzəran arxasınca Türkiyəyə və Amerikaya gedirlər". Bəli, əsas məsələ onların vətənpərvər olub ana dilinə bö-*

*yük məhəbbət bəsləmələri deyil, qazanc mənbələrinin Azərbaycanda, Türkiyədə, ABŞ-da olmasında imiş. Bu yerlərdə artıq rus dili iş görmək bacarığını itirdiyindən Ana dili yada düşüb.*

*B.Vahabzadə qabiliyyətinə və qələminə dərin hörmət bəslədiyi dilçi alim Musa Adilovun "Aydınlıq" qəzetində (30 yanvar, 1993) dərc etdirdiyi "İki dilin bir adı" məqaləsini oxuyub "Doğrudanmı, bu məqaləni dilçi yazmışdır?" - deyə təəccüb edir. Müəllif məqaləsində bizim dilimizi bir dil, türk dilini isə tamamilə başqa dil sayaraq belə nəticəyə gəlir ki, demə, Azərbaycan dili türk dilləri qrupuna mənsub deyilmiş! Şair aksiomun müzakirə obyektinə çevrilməsinin gülünc hal olduğunu bildiyindən M.Adilovun mənasız fikri ilə mübahisəyə girişməkdən vaz keçir. Dilçi-alimin ziddiyyətli qənaətləri ilə özünü tamam dolaşdırdığını isə diqqət mərkəzinə çəkməklə ulu bir xalqın soyuna, kökünə həqarət edənlərin maskasını yırtır: M.Adilov məqaləsindən belə bir sitat gətirir: "Azərbaycan dili zəngin daxili ifadə vasitələri sisteminə sahiblik baxımından türk dilləri içərisində xüsusi yer tutur". Şair bu fikri irəli sürən alimə Bəxtiyarsayağı bir neçə sual verir: "Soruşmaq ayıb olmasın, əgər dilimiz türk dili deyilsə, niyə Adilov onu türk dilləri içərisinə daxil edir? Bir qədər sonra isə müəllif özü də dilimizin türk dili olduğunu açıqcasına etiraf edərək yazır: "İki müstəqil türk dili vardır... Dilimiz yaşayacaqdır, lakin "türk dili" adı ilə yox". Müəllifin dediyi kimi, dilimiz iki müstəqil türk dilindən biridirsə, bəs niyə "türk dili" adlanmasın? Beləliklə, hörmətli alim dilimizin türk dili olduğunu təsdiq edir. Amma heç demə, iki türk dili varmış! İndi sual olunur: Dünyanın hansı millətinin iki dili var? İki rus, iki ingilis, iki fransız, iki alman və s. dili varmı ki, türk dili də iki olsun? Bəlkə, müəllif ləhcələri nəzərdə tutur? Bəli, Amerikada yaşayan ingilislərin dili ilə İngiltərədə yaşayan ingilislərin dili arasında müəyyən ləhcə fərqi var. Amma ikisi də ingilis dilli adlanır. Eləcə də ərəb dili. Əlcəzair, İraq, Səudiyyə Ərəbistanı, Misir və s. ölkələrin hamısında müəyyən ləhcə fərqləri ilə danışılan dil ərəb dili adlanır. Lakin heç kəs bu dili Əlcəzair, İraq, yaxud Misir dili adlandırmır?"*

*Nədənsə, bu gün də "türk" sözü ermənilərlə bir sırada bəzi*

*Azərbaycan sakinlərini də bərk təşvişə salır, gecələr yuxusuna haram qatır. Onların kökünün kimlərə bağlandığı ilə işimiz yoxdur. Lakin damarlarından türk qanı axanların özlərini ulu əcdadlarının adı ilə adlandırmalarından niyə qıcıqlandıqları qəribədir. B.Vahabzadə ilə bu məsələni dəfələrlə müzakirə etmişik. O da, mən də çoxmillətli Azərbaycan əhalisinin hər birinin öz adı ilə adlanmasını normal qarşılamışıq və müxtəlifsoylu dostlarımızın, tanışlarımızın öz dillərini, adət-ənənələrini qorumaq təşəbbüslərini alqışlamışıq. Elə isə bizim babalarımızın türk olması niyə onların qəzəbinin, kininin mənbəyinə çevrilir? Şair hələ 90-cı illərin başlanğıcında M.Adilovun timsalında türklüyümüzə həqarətlə baxanları tənqid atəşinə tutaraq yazırdı: müəllif dilimizi "Azərbaycan türkcəsi adlandırsaydı, onunla razılaşmaq olardı. Lakin o, bunu da qəbul etmək istəmir. Zorla boğazımıza yeridilən "Azərbaycan dili" istilahını müdafiə edir. "Aydınlıq" qəzetinin tərtibçisi, elə bil, qəsdən Adilovun "Dilimizin adı Azərbaycan dilidir" fikrini sübut etməyə çalışan məqaləsinin yanındaca (eyni səhifədə) bu fikri qətiyyətlə inkar edən Hamlet Əsgərsoylunun "Qatıq qara da ola bilər?" məqaləsini vermişdir. Görəsən, bunu tərtibçi qəsdən eləmiş, yoxsa, bu təsadüf Allahın işidir? Paradoksa baxın. Dilimizi "Azərbaycan dili" adlandıran dilçi professora Neft Akademiyasının müəllimi nə gözəl cavab verir: "Qatıq qara da ola bilərmi?" Adilov bəlkə soyadının sonundakı "ov"u da millətimiz üçün doğma hesab edir? Əgər dilçi-alim "ov"u da bizə doğma hesab edirsə, vay bizim halımıza!"*

*Beləliklə, B.Vahabzadənin dil uğrunda mübarizəsi həyatının əsas amalı, hərtərəfli yaradıcılığının mühüm mövzularından biridir. Özünü, kökünü yad təsirlərin yardımı ilə unutmasını xalqımızın ən böyük bəlası hesab edən şair şeirlərində olduğu vüsətlə publisistik yazılarında da xüsusi vurğulayırdı: "Bizim dilimizin türk dili olması, millətimizin də türk adlanması aksiomdur. Yəni, bunun sübuta ehtiyacı yoxdur". O, soydaşlarına kimliyini anlatmaq üçün yaşadığı tarixi hadisələrə üz tutub tutarlı misallar çəkirdi. Stalin-Səməd Vurğun qarşılaşması haqqındakı bir maqalə barədə yazırdı: "Səhv etmirəmsə, Stalinin 60 illiyi münasibətilə 30-40-cı illərdə bir kitab çıxmışdı. O kitab məndə son*

*zamanlara qədər var idi. Orada Səməd Vurğunla Stalin arasında bir dialoq verilmişdi. Təxminən o dialoq belə idi: Stalin S.Vurğundan adını, familiyasını soruşur. O, Səməd Vəkilov deyir. Stalin cavabında deyir ki, sən Vəkilzadəsən. Sonra milliyyətini xəbər alır. S.Vurğun türkəm deyir. Stalin deyir, sən türk deyilsən, azərbaycanlısan. Millətimizin "azərbaycanlı" adlanması bu vaxtdan başlandı".*

*Milli məclisdə dövlət dili məsələsi müzakirə olunanda B.Vahabzadə neçə illik mübarizəsinə nöqtə qoyacaq qərarın çıxarılması təklifini irəli sürmüşdü: "Mənə qalarsa, millətimizin adını "Azərbaycan türkü", dilimizi isə "Azərbaycan türkcəsi" adlandırmaq lazım idi. Çünki Azərbaycan türkü ilə yanaşı özbək, qazax, tatar, qırğız, başqırd və sair türklər də mövcuddur". Təəssüflər olsun ki, o zaman çox az adam onu dəstəkləmişdi. Dövlətin dil siyasəti ən incə problemlərdən biridir. Dilinə qəsd edilməsi xalqın tarixini də şübhə toruna bürümək demək idi.*

*Şair yaxşı başa düşürdü ki, uca kürsülərdən valideynlərə "uşaqlarınızı ana dili məktəblərə verin" bağırmaqla iş bitmir. Əslində dövlət idarələrində, rəsmi dairələrdə ana dili işlənməlidir.*

### ***M ə n ə v i s a f l ı q***

*B.Vahabzadə yüzilliklərin süzgəcindən keçib gələn milli ənənələrə biganəliyi durğunluq illərinin qüsurlarından sayırdı. Laqeyidlik nəticəsində bir sıra gözəl adət və ənənələrin itirilməsini ürək ağrısı ilə vurğulayırdı: "Bu gözəl adət və ənənələri unutmaqla insani hisslərimizi və duyğularımızı, bir sözlə, özümüzü unutmuşuq" – deyirdi.*

*Xalqımızın spesifikliyini göstərən əlamətləri daim gündəmdə saxlamaq, ulularımızın xeyirxahlığını, səxavətliliyini yaddaşlardan silməmək, haqq yolundan dönməmək və b. xüsusiyyətləri həmişə gənc nəslə xatırlatmaq lazımdır. İməclik əski çağlardan ata-babalarımızın faydalandığı adətlərdən biridir. Sovet dönəmində isə istirahət günlərində kütləvi şəkildə təmizlik, yaşıllaşdırma işləri görmək xarakteri almışdı və tarixini həmyerlimiz P.Akimovun Moskvadakı "Bolşevik" fabrikində təşkil etdiyi ictimai hərəkatla bağlayırdılar. Şəmbə*

*günü keçirilən həmin iməclikdə Lenin də iştirak etdiyindən sonralar keçmiş SSRİ-nin ən kütləvi əmək toplantısna çevrilmişdi. B.Vahabzadə Azərbaycanda iməcliyin daha maraqlı formasının olduğunu bildirərək yazırdı: "Götürək iməcliyi. Keçmişdə birinin evi təbii fəlakətdən, ya başqa səbəbdən uçulanda bütün el toplaşıb ona ev tikərdi. Haradasa bulağın gözü tutulanda, el birləşib bulağın gözünü açardı. İndi biz bu adəti yalnız pambıq toplanışında tətbiq edir, rayonda dəlləkdən tutmuş müəllimə və şagirdə qədər hamını tarlaya tökür və adını da iməclik qoyuruq".*

*Elin hər hansı adət və ənənəsi barədə fikir yürüdəndə ehtiyatlı olmağı, yas və toy mərasimləri barədə qəribə qadağanların ("rayonlarda katiblərin əmri ilə toy maşınlarının qabağı kəsilir, gəlinlə bəy hər biri 10 kq.-dan az olmayaraq pambıq yığmamış toya icazə verilmirdi) aradan qaldırılmasını tövsiyə edirdi. Şair "pambığı gənclərin ailə qurmasından daha vacib" sayanların vəhşiliyinə acı-acı gülərək yazırdı: "Bir tanışımın danışdığı əhvalat mənə hələ də rahatlıq vermir. Deyir, Ağdaşa bir qohumumun yasına gedirdim. Rayonun girəcəyində milis maşınımı saxladı və məni rayona buraxmadı. Niyə? Çünki, katib əmr verib. Pambıq tamam yığılıb qurtarmamış heç kəsin ölməyə ixtiyarı yox imiş... El adətinə bu boyda qəsd olar? Biz unuduruq ki, yas, kədərə şərik olub, onu azaltmaq üçün, toy isə sevincə sevinc qatıb onu çoxaltmaq üçündür. Bu gözəl adətlərə qəsd isə xalqa, onun mənəvi dünyasına qəsd idi".*

*B.Vahabzadə xalqının mənəvi dəyərlərinin qorunmasını özünün ən vacib vəzifələrindən biri hesab edirdi. Soydaşlarının iç dünyasını formalaşdıran ilkin əvəzsiz sərvəti – anaların beşik başında oxuduqları laylaları möcüzə kimi dəyərləndirərək yazırdı ki, "analarımızın dilindən qopan yanıqlı laylalar əlvan çiçəklər kimi beşiyimizə səpələnib". Onun qənaətinə görə, "hər bir layla bir rəngli çiçək, bir əsrarəngiz güldür. Biz bu əlvan çiçəklərin içində şirin yuxular tapmış, uyumuş və böyümüşük. Bu laylalar adi şeir parçaları deyil, bunlar doğma vətənimizin bağrından qopan, dilimizin gözəlliyindən və incəliyindən yaranmış vətən sözləri, vətən arzularıdır".*

*Şairin publisistikasında Vətən, xalq, Ana dili uğrunda yorulmadan*

*çarpışan, mənəvi saflığın zirvəsinə qalmış müdrik İnsanın etirafları, çağırışları, nəsihətləri və xalqının işıqlı gələcəyinə sonsuz inamı özünə yer alır. Və xatırladım ki, artıq əbədiyyətə qovuşmuş bu dahi bəşər övladı məşhur bir şerində ən qorxulu düşmənini tapıb hamıya nişan verirdi:*

***Kimdir mənim***
***Ən qorxulu düşmənim?***
***Yaxşımı qoyub***
***Yamanımı danışanmı?***
***Mənim eyiblərimi***
***Məndən yaxşı bilənmi?***
***Arxamca qəh-qəh çəkib***
***Nöqsanıma gülənmi?***
***Yox, yox, yox!***
***Özgələrin gözünü***
***Taxaydım öz gözümə***
***Özgələrin gözüylə***
***Baxaydım öz-özümə.***
***Onda eyiblərimə***
***Özüm düşmən olardım.***
***Onda mən, mən olardım.***

*Publisistik əsərlərində isə B.Vahabzadə xalqının daxili düşmənlərini açıq-saçıq nişan verməkdən çəkinmir.*

***Ramazan Qafarlı***



# VƏTƏN SEVGİSİ



*Barmaqlar qovuşub yumruq olan sayaq, hər qarış torpaq da qovuşub Vətən olur. Hirs və qəzəbi ilə yeri-göyü lərzəyə gətirən dərya damlaya minnətdardır və bu dəryanın dadını, tamını duymaq üçün ordan bir içim su götürmək kifayətdir. Bir içim su ümmandan xəbər verdiyi kimi, hər qarış Azərbaycan torpağı da insanlığın tarixi haqqında çox mətləblər deyir.*

## VƏTƏN SEVGİSİ

Abbas Səhhət çox gözəl demişdir:

*Vətəni sevməyən insan olmaz,*
*Olsa, ol şəxsdə vicdan olmaz!*

Bu iki misra ilə şair insandakı ən ali duyğunun - vətən duyğusunun təhlilini vermişdir. Vətən sevgisi insan duyğularının ən alisi, ən yüksəyi və ən müqəddəsidir. İnsan mənsub olduğu vətəni sevməklə özünü, cəmiyyət qarşısındakı borcunu tapmış olur. Vətən və xalq hissindən məhrum olan şəxs bütün insani hisslərdən məhrumdur. Vətənini sevən adam həyatı sevir, dünyanı sevir. Çünki o nə üçün yaşadığını, nəyin naminə çalışdığını bilir. Vətən sevgisi insana məslək, amal gətirir. Məslək isə ürəyə cəsarət, qollara qüvvət, gözlərə işıq verir. Bizim gözəl bir bayatımız var:

*Əzizim, Vətən yaxşı,*
*Geyməyə kətan yaxşı.*
*Gəzməyə qürbət ölkə -*
*Ölməyə vətən yaxşı.*

İnsanın gəzməyə, görməyə böyük ehtiyacı var. İnsan gəzdikcə, gördükcə daha çox bilir, fikrən kamilləşir. Lakin hara gediriksə,

Vətən də qəlbimizdə bizimlə bərabər dünyanı gəzir. Biz gördüyümüz hər şeyə qəlbimizdəki Vətənin gözləri ilə baxır, hər şeyin dəyərini onunla ölçürük. Səyahətimiz zamanı Vətənimiz bizim gözlərimizdə daha da gözəlləşir, daha böyük dəyər kəsb edir.

Qürbət ölkələrdə biz daha artıq Vətənlə yaşayır, ona qovuşmaq həsrətilə qanadlanır, ona doğru uçuruq.

1961-ci ildə mən, Məmməd Rahim, Osman Sarıvəlli və Yusif Səmədoğlu ilə Fil Dişi Sahili ölkəsində idim. Bu ölkənin vaxtı ilə Bakı vaxtı arasında 5 saat fərq olmasına baxmayaraq, bizim qolumuzdakı saatlar Bakı vaxtı ilə işləyirdi. Biz Bakı ilə nəfəs alırdıq. Vətənə qayıtdığımız zaman gəmiyə yeldən qanad istəyirdik. Bu qanadı isə biz gəmidəki pianoda tapmışdıq. Yusif Səmədoğlu pianoda vətən mahnıları çalır, biz də bu doğma mahnıların qanadlarında Vətənimizə doğru qanadlanırdıq:

*Çal, Yusif, di durma, çal, qadan alım,*
*Sularda səslənsin bizim mahnılar.*
*Vətənin ətrini nəğmədən alım,*
*Çal, yenə qəlbimdə bir fırtına var!*

*Çal, qardaş, bir anlıq qoy qanadlanaq,*
*Özüm dəryadayam, can Vətəndədir.*
*Dalğalar üstündə nəğməyə bir bax,*
*Dəryada deyiləm, dərya məndədir.*

*Nəğmə çalındıqca, qəlb aşdı-daşdı,*
*Gördüm Vətənimi öz qarşımda mən.*
*Anlaya bilmirəm necə sığışdı*
*Bu boyda gəmiyə o boyda Vətən?*

*Doğrusu, bu gecə özgə haldayam,*
*Bilmirəm hardadır yurdum, məskənim.*

*Dənizdə gecədir, mən xəyaldayam.*
*Qızım dərsə gedir bu saat mənim.*

*Bakıda səhərdir, mənimçün, bəli,*
*Burda da səhərdir, saatıma bax.*
*Mənim saatım da ürəyim təki*
*Bakı vaxtı ilə işləyir ancaq!*

"Gəzməyə qürbət ölkə, ölməyə vətən yaxşı" misralarının əsl mənasını mən əcnəbi ölkələrdə olduğum zaman başa düşdüm. Bu bayatı, yəqin ki, qürbətdə yaranmışdır. "Qürbətin od-ocağından vətənin tüstüsü gözəldir" atalar sözü də, yəqin ki, Vətən həsrəti ilə yaşayan bir qəribin qəlbindən doğmuşdur.

Çox zaman eşidirik ki, qürbətdə ölən adamın məzarının üstünə bir ovuc vətən torpağı tökürlər. Vətən həsrəti ilə yaşayıb ölən qəriblərin dərdini xalq bayatılarda çox gözəl ifadə etmişdir:

*Əzizim, ulu dağlar,*
*Çeşməli, sulu dağlar.*
*Burda bir qərib ölmüş,*
*Göy kişnər, bulud ağlar.*

Bu bayatı ürək naləsidir, könül göynərtisidir. Bu nalələr, bu göynərtilər şifahi xalq ədəbiyyatında Vətən obrazının yaranmasına səbəb olmuşdur.

Dünyada hər bir qəhrəmanlığın, fədakarlığın, hər hünərin və zəfərin anası məsləkdir, əqidədir. Məslək və əqidə isə, ilk növbədə, Vətənlə bağlıdır. S.Vurğun demişkən: "Vətənsiz, yurdsuz insanlar yaşar aləmdə məsləksiz".

Xalq qəhrəmanlarını yada salaq, Babək, Koroğlu, Qaçaq Nəbi və s. Bunlar nəyin naminə öz zəmanələrinin haqsızlığına, ədalətsizliyinə qarşı çıxmış, canlarını fəda etmişlər? Vətən və xalq naminə! Böyük

Vətən müharibəsinin qəhrəmanları da eləcə... Mehdi Hüseynzadə... Uzaq Adriatika sahillərində öz doğma Vətəni naminə vuruşdu və özünü Vətənə qurban verdi...

Eşq olsun bu böyük məsləkdən doğan fədakarlığa, qəhrəmanlığa!

Dünyanın ən böyük dahiləri, ədəbiyyat və sənət xadimləri ən gözəl əsərlərini Vətənə həsr etmişlər. Hər bir sənət əsəri onu yaradan müəllifin Vətəninin, xalqının bağrından, mənəvi aləmindən göyərir, Firdovsinin "Şahnamə"si İranın, Götenin "Faust"u Almaniyanın, Hüqonun "Səfillər"i Fransanın, Tolstoyun "Hərb və sülh"ü Rusiyanın, Sabirin "Hophopnamə"si Azərbaycanın öz dərdləri, öz istək-arzuları idi. Biz bunu eyni ilə musiqiyə və rəssamlığa da şamil edə bilərik. Bethovinin Doqquzuncu simfoniyası, Şopenin sonataları, Çaykovskinin romansları hərəsi bir məmləkətin bağrından qopmuşdur. Deməк, sənətkar sənətkarlığından əvvəl vətəndaşdır. O, öz Vətəninin mahnılarını oxuyur. Bir məmləkətin böyük vətəndaşı öz vətəninin mahnılarını oxumaqla dünyanın sevimlisi, dünyanın vətəndaşı olur.

Böyük rus ədibi Tolstoy yazırdı: "Mənim vətənim, mənim doğma torpağım, mənim ana diyarım! Həyatda sənə olan məhəbbətdən böyük, hərarətli, dərin və müqəddəs heç bir hiss yoxdur. Sən mənim məbədimsən, ana diyarım!"

Dünyanın ən böyük dahilərini dahilik zirvəsinə yüksəldən də bu hissdir. Bu böyük hiss olmasaydı, Tolstoy "Hərb və sülh" əsərini - mənsub olduğu rus xalqının bədii tarixini yarada bilərdimi? Rusiyaya olan böyük və dərin məhəbbət Tolstoyun qoluna qüvvət, ürəyinə ilham verdi, onu dünyanın sevimlisi elədi.

Vətən sevgisi yalnız sənətkarların deyil, ən böyük alimlərin, ixtiraçıların da ilham qaynağıdır.

Cahanşümul alimləri yadımıza salaq. Qaliley, Cordano Bruno, Nyuton, Nəsirəddin Tusi, Lomonosov, Mendeleyev, Eynşteyn, Nils Bor. Dəqiq elmlər üzrə mütəxəssis olan bu alimlər necə? Bəli, on-

ları da elmin yüksək zirvələrinə çatdıran ən böyük duyğu yenə də Vətən sevgisi olmuşdur. Onlar da Vətən naminə yaratmış, kəşflər etmişlər. Lui Paster demişdir: "Elmin vətəni yoxdur, amma alimin vətəni var".

Gözəl sözdür! Alim demək istəyir ki, kimya hər yerdə kimyadır. Düsturlar eyni, məqsəd eyni! Lakin hər ölkənin kimya alimi öz vətəninə xidmət etmək məqsədilə yaşayır, yaradır.

Zəmanəmizin ən böyük möcüzələrindən biri olan kosmosun fəthində də məsələ belədir. Nəinki vətəndən, bu boyda planetdən xaricə çıxan, özgə planetlərə qonaq getməyə hazırlaşan kosmonavtın qəlbindəki bu uçuş duyğusunun qaynağı nədir? Vətən, yenə Vətən! Heç bir kosmonavt fəzaya qalxdığı zaman bir də yerə qayıdacağına tam əmin deyildir. Lakin o, cəsarətlə qalxır. Nəyin naminə? Vətənin! Onu göylərə ucaldan duyğu Vətən sevgisidir. Buna görə də yenə Abbas Səhhətə qayıdaq:

*Vətəni sevməyən insan olmaz,*
*Olsa, ol şəxsdə vicdan olmaz!*

"Sənətkar və zaman", Bakı, 1976.

## MƏNİM
## AZƏRBAYCANIM

***(Almaniyada çıxan "Journal" üçün yazılmışdır)***

Bizim vətənimizi - Azərbaycanı bütün qədim qaynaqlarda "Odlar ölkəsi" adlandırırlar. Azərbaycan sözünün ilk iki hecası, yəni "Azər" qədim fars dilində "od" deməkdir. Bir çox tarixçilər vətənimizin adındakı od sözünü qədim zamanlardan bəri Abşeron yarımadasında fışqıran neftlə əlaqələndirirlər. Lakin bu fiziki əlaqədir. Mən bu adı xalqımıza xas olan mühüm bir cəhətlə əlaqələndirmək istəyirəm. Bizim xalq istiqanlı xalqdır. Bu istiqanlılıq və temperament bizə babalarımızdan miras qalıb. Ürəklərimizdə daim yanan atəşin nəticəsidir ki, bizim əcdadımız ta qədim zamanlarda oda tapınmış, atəşpərəst olmuşdur. Babamız Zərdüşt xalqın öz xüsusiyyətinə əsaslanıb atəşpərəstlik dinini meydana atmışdır.

Hər bir xalqın vətəni özünə doğmadır, əzizdir. Buna görə də bizdə belə bir misal var: "Özgə yerin atəşindən öz vətəninin tüstüsü yaxşıdır". Yaxud:

*Əzizim, vətən yaxşı,*
*Geyməyə kətan yaxşı.*
*Gəzməyə qürbət ölkə,*
*Ölməyə vətən yaxşı.*

Vətəni, daşına, torpağına, iqliminə, suyuna görə sevmirlər. Vətəni vətən olduğuna görə sevirlər. Ona görə də, hər kəsə elə gəlir ki, onun vətəni, məmləkətlərin ən gözəlidir. Mən də belə düşünürəmsə, bunu mənə nöqsan saymayın. Mənim vətənim doğrudan da gözəldir. Ona görə ki, mən bu vətənin vurğunuyam. Əgər vurğunu olmasaydım, vətənimin naminə nəğmələr qoşa bilməzdim. İnsan anasından doğulanda hələ doğulmur. İnsan vurulanda doğulur. Çünki insan sevəndə dünyaya yeni gözlə baxır, onu dərk edir. Mən də vətənimə vurulub dünyanı dərk elədim.

Dünyada mövcud olan on bir iqlimin doqquzu Azərbaycanda mövcuddur. Cəmisi 86 min kv.metr sahəyə malik olan (vətənimin böyük bir hissəsi İranda, "İran Azərbaycanı" adlanır) Sovet Azərbaycanı kiçik bir məmləkətdir. Lakin bu ölkənin bir tərəfi qış olanda, bir tərəfi yazdır, bir tərəfi də mülayim təbiətli subtropik zonadır. Dağı qış, aranı yaydır. Dağı da var, dənizi də. Meşəsi də var, səhrası da. Çayı da var, seli də. Sərin bulaqları da var, mineral suyu da.

Mənim vətənim çox qədim mədəniyyətə malikdir. Vətənimin mədəniyyət tarixi eramızdan çox-çox əvvəllərə gedib çıxır. Bakının yüz kilometrliyində tapılan Qobustan qayalarındakı rəsm əsərləri, mağaralarda tapılan qədim alətlər və bəzək şeyləri tarixin ən qədim dövrlərindən xəbər verir.

Tarixin eniş-yoxuşlarından, əyri-üyrü yollarından keçib gələn xalqım bu dolaylarda sarsılmamış, əksinə, daha da bərkimiş, möhkəmlənmişdir. Tarix boyu xarici qəsbkarların hücumlarına məruz qalmış xalqım onlara tutarlı cavab verməyi, onları yerlərində oturtmağı bacarmış və öz istiqlaliyyətini qoruyub saxlamışdır. Bu tarixi döyüşlərin nəticəsi Babək, Koroğlu, Qaçaq Nəbi kimi qəhrəmanlar yetişdirmiş, onların adına nəğmələr, dastanlar qoşulmuşdur.

Azərbaycana şairlər ölkəsi də deyilir. Səkkiz yüz il əvvəl Nizami, Xaqani, altı yüz il əvvəl Nəsimi, beş yüz il əvvəl yaşamış Füzuli dünya poeziyasının bahadırlarıdır. Xalqımın şifahi ədəbiyyatı daha zəngindir. Dastan və nağıllarımız qədim mədəniyyətimizdən xəbər

verir. Atalar sözlərimiz müdrikdir, bayatılarımız incədir. Bütün bu sənət abidələri ilə tanış olduqca, onları dərindən-dərinə öyrəndikcə xalqımın qarşısında səcdəyə gəlir və azərbaycanlı olduğumla fəxr edirəm.

Azərbaycan xalqının psixolojisini, qədim adət və ənənələr əsasında bərkiyib yetişən xarakter xüsusiyyətini izah etmək üçün bir neçə misal çəkmək istəyirəm. İnqilaba qədər mənsub olduğumuz islam dini bizi başqa xalqlarla qohum olmağı qadağan etmişdi. Xalqın təbiətində isə beynəlmiləlçilik var. Azərbaycan xalqı bütün xalqları sevir.

İslam dininin "hicab" (örtünmə) ayəsinə görə qadın çarşab örtməli, kişilərə görünməməlidir. Azərbaycanlılar bu ayəni qəbul etsələr də, qadına hörməti heç zaman unutmamışlar. Məsələn, iki kişi dalaşdığı zaman qadın ortaya girib, öz ləçəyini (örpəyini) vuruşanların ayağı altına salarsa, bir-birinə silah qaldıranlar silahını ləçəyin üstünə atmalı və barışmalıdırlar. Bu, qadın namusunun simvolu olan örpəyə hörmət nişanəsidir.

Başqa bir misal. Kişi heç bir zaman düşməni hesab etdiyi kişiyə qadın yanında hücum etməməlidir. Kürd oğlu Məhəmməd adlı bir igid Kərəm adlı bir qaçaqla düşmən imiş. Məhəmməd eşidir ki, qaçaq Kərəm öz dəstəsiylə bərabər filan gün filan dərədə çadır qurub dincələcək. Məhəmməd həmin gün gecənin yarısı həmin dərəyə gəlir. Uzaqdan gecənin qaranlığında ağaran çadırları görür. Qaçaq Kərəmin çadırını tapır. İçəri girib onu vurmaq istərkən, içəridə qaçaq Kərəmlə yatan arvadını görür. Dərhal geri dönür, çadırın qapısına bir patron atır. O, öz düşmənini arvadının yanında öldürməyi kişilikdən saymır. Səhər yuxudan oyanan qaçaq Kərəm qapının ağzına atılan patronu görür və dərhal başa düşür ki, bu Kürd oğlu Məhəmmədin işidir. Gecə onu öldürmək üçün buraya gəlmiş, lakin arvadının yanında ona toxunmamışdır. Onu arvadına bağışlamışdır.

Azərbaycan xalqı bu ənənələr əsasında yetişmiş qocaman bir xalqdır.

Azərbaycan xalqı öz gözəl ənənələrini bu gün də davam

etdirməklə yanaşı, yeni bir inkişaf cığırına düşmüşdür. Son 50 il ərzində bu xalq elmin və sənətin müxtəlif sahələrində çox böyük nailiyyətlər əldə etmişdir. Həm texniki, həm təbiət və həm də humanitar elm sahələrində alimlər yetişdirmiş, akademiya yaratmışdır. İndi bizim dünya elminə və sənətinə əlavələr etməyi bacaran M.Topçubaşov, Y.Məmmədəliyev, X.Məmmədov, M.Rəsulov kimi qüdrətli alimlərimiz, Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov kimi bəstəkarlarımız, Səttar Bəhlulzadə, Mikayıl Abdullayev, Tahir Salahov, Toğrul Nərimanbəyov kimi rəssamlarımız, Cəfər Cabbarlı, Səməd Vurğun, Mirzə İbrahimov kimi söz ustadlarımız, Bülbül, Şövkət Ələkbərova, Rəşid Behbudov, Zeynəb Xanlarova kimi müğənnilərimiz vardır.

İndi azərbaycanlılar dünya ədəbiyyatının ən böyük nümunələrini öz ana dilində oxuyur. Bizdə alman ədəbiyyatına böyük maraq vardır. Şillerin, Hauptmanın, Brextin pyesləri Azərbaycan səhnəsində göstərilir. Götenin, Heynenin şeirləri əzbərlənir, dərsliklərdə oxunur. Bax, Bethoven, Haydn, Vaqner konsert salonlarımızda səslənir. Marks, Engels, Feyerbax, Hegel, Fixte, Freyd fəlsəfəsi öyrənilir, ali məktəblərdə keçilir.

Azərbaycan yaşlılar ölkəsidir. Burada 100 yaşını ötmüş minlərlə qocalar vardır. 168 yaşlı Şirəli baba respublikamızın ən yaşlı adamıdır. Biz ona el ağsaqqalı kimi hörmət edir, qulluğunda dururuq.

Mənim Azərbaycanım öz kökü üstündə bitən, günü-gündən böyüyən, inkişaf edən, özünü dərk edən, özü ilə öyünməyi bacaran, bununla belə, bütün xalqlara hörmət edən, onların mədəniyyətini qiymətləndirməyi bacaran bir məmləkətdir.

1970.

"Sadəlikdə böyüklük", Bakı, 1978.

## “VƏTƏNİ SEVMƏYƏN İNSAN OLMAZ...”

Məşhur rus pedaqoqu Uşinski rus xanımlarına - analara müraciətən yazmışdı ki, uşaqlara tərbiyə vətən məhəbbətindən başlanmalıdır. Mənsub olduğu Vətəni, xalqı, onun dilini sevdirmək tərbiyənin başlanğıcıdır.

Bu, çox böyük fikirdir. Ona görə ki, əgər biz uşaqlarımızı vətənimizin və xalqımızın adına layiq vətəndaş görmək istəyiriksə, birinci növbədə, ona doğma vətənimizi sevdirməliyik. Bir atalar sözünü xatırlatmaq istəyirəm. “Alim olmaq asandır, insan olmaq çətin”. Bu, çox müdrik sözdür. Hər bir ata-ana öz övladını, ilk növbədə, insan görmək istəyir. Böyük rus ədibi Radişşevin dili ilə desək, “əsl insan vətənpərvər deməkdir”. Bu fikir Abbas Səhhətdə bir qədər başqa cürdür:

*Vətəni sevməyən insan olmaz,*
*Olsa, ol şəxsdə vicdan olmaz.*

Bu iki böyük ədibdən gətirdiyimiz misallardan da aydın olur ki, insanın insanlığını təsdiq edən birinci amil onun vətənpərvərliyidir. Mənsub olduğu xalqı və vətəni sevməyən, onunla fəxr etməyən adamdan insanlıq ummaq özü cəhalətdir. Heç elə bir insan tapılarmı ki, vətən və xalq hissindən məhrum ola, amma ona yaxşı adam

deyələr? Ümumiyyətlə, sevgi hissindən məhrum olan adamlar yaxşı adam ola bilməzlər. Ən böyük sevgi isə vətənə olan sevgidir. Bu müqəddəs hissdən məhrum olanlar nə öz ailəsini sevə bilər, nə də başqalarını.

Dünyadakı bütün gözəlliklər, yaranan hər şey insan məhəbbətinə borcludur. Dünyanın ən böyük dahiləri - alimlər, filosoflar, yazıçılar, rəssamlar vətən məhəbbəti naminə yazıb yaratmışlar. Nizami deyir ki,

*Mehrabı eşqdir uca göylərin,*
*Eşqsiz ey dünya, nədir dəyərin?*

Köhnə dünyanı təzələyən, yenidən quran bütün inqilabçılar, bütün fikir bahadırları, vətən naminə sürgünlərə getmiş, zindanlara düşmüş, can və qan bahasına öz vətənlərini zülmətdən azad etmişlər. Dünyanın ən böyük qəhrəmanları vətən naminə canlarından keçmiş, özlərindən qüvvətli düşmənləri məğlub etmiş, ad və san qazanmışlar. Dünyanın ən böyük kitabları, nəsildən-nəslə keçən sözlər, fikirlər vətən məhəbbətindən od alıb yaranmışdır.

Əgər biz valideynlər balalarımızı həqiqi vətəndaş görmək istəyiriksə, birinci növbədə burdan başlamalı, onlara vətən hissini aşılamalıyıq. Çünki vətəndaş olmayan nə yaxşı insan ola bilər, nə yaxşı dövlət xadimi, nə yaxşı alim, nə də yaxşı ədib, yaxud bəstəkar.

Yuxarıda dediyimiz kimi, biz balalarımızı, hər şeydən əvvəl, yaxşı insan görmək istəyirik. İnsanlığı şərtləndirən əsas cəhətlər hansılardır? Birinci növbədə, vətən sevgisi! İkinci növbədə, zəmanəsinin tələbləri səviyyəsində elmlərə sahib olmaq! Ağıllı, idraklı adam olmaq!

Mən deyərdim ki, ikinci şərt də birinci şərtlə bağlıdır. Çünki müasir elmlərə yiyələnmək üçün də birinci şərt vətən sevgisidir. Əgər belə olmasa, nəyin naminə oxuyub öyrənməyin, elmlərə yiyələnməyin vacib olduğunu məktəbli, yaxud tələbə dərk edə bilməz. Yeniyetmə

qarşısına məqsəd qoyur: oxumalıyam, öyrənməliyəm. İndi ona biz belə bir sual verək: nə üçün? Nəyin naminə?

Əgər o, bu suala düz cavab verə bilsə, demək məqsədinə çatacaq. Əgər elm yolunda addımlayan bir yeniyetmə bunu xırda güzəran, dolanmaq və yaşamaq naminə edirsə, o, adi bir icraçıdan, bir idarə qulluqçusundan uzağa gedə bilməyəcək. Yox, əgər o, vətəninə layiqli bir vətəndaş olmaq, xalqına layiqli oğul olmaq naminə oxuyub-öyrənirsə, elmin zirvələrinə çatacağı şəksizdir. Çünki burada vətən məhəbbəti yüksəliş üçün ona davamlı qanad verəcək. Təyyarənin uçması üçün ona enerji lazım olduğu kimi, insanın uçması üçün də ona od lazımdır, ürək odu! Bu od isə yalnız sevgidir, Vətən sevgisi!

Fransız alimi Lui Paster deyir ki, elmin vətəni yoxdur. Amma alimin vətəni var. O, bununla demək istəyir ki, elm bütün ölkələrdə elmdir. Amma alim öz vətəninə qulluq eləməli, öz vətəni naminə yaratmalı ixtiralar etməlidir. Əgər onun qəlbində öz vətəninə, öz xalqına dərin məhəbbət yoxsa, o heç bir şey yarada bilməz. Abbas Səhhət bir şeirində göstərir ki, hansı sənətin sahibi olursansa ol, vətənini, xalqını lazım olduğu qədər sevə bilmirsənsə, nə sənin sənətindən, nə də elmindən heç bir fayda hasil ola bilməz:

*Tutalım, çox ağıllı tacirsən,*
*İş aparmaqda xeyli mahirsən.*
*İqtidarın, malın, pulun çoxdur.*
*Xalqa ondan, vəli, kömək yoxdur.*

*Tuf, sənin mülkü malı dövlətinə,*
*Həm sənə, həm də şani-şöhrətinə.*
*Pəhləvanlıqda gər müsəlləmsən,*
*Fərz edək zal, ya ki, Rüstəmsən*
*Etmisən şanlı-şanlı fəthü-zəfər.*

*Tapmısan aləm içrə şöhrətlər.*

*Xəncərin qorxudursa dünyanı*
*Millətin olmasa nigahbanı,*
*Tuf, sənə, həm sənin rəşadətinə,*
*Həm də şəmşirinə, şücaətinə!*

Öz vətənini və xalqını dərin məhəbbətlə sevənlər başqa xalqları da sevməyi bacarırlar. Məşhur filosof Helvetsi deyir ki, Vətən sevgisi bizi dünyanı sevməyə aparıb çıxarır.

Bu fikri xalq belə deyir: özünü sevməyən, özgəni sevməz.

Balalarımızı beynəlmiləlçilik ruhunda böyütmək üçün də vətən sevgisi əsas şərtdir. Çünki idrak kiçikdən böyüyə, sadədən mürəkkəbə, məlumdan məchula doğru inkişaf edir.

1973.
"Sadəlikdə böyüklük", Bakı, 1978.

# VƏTƏN
# OCAĞININ İSTİSİ...

Azərbaycanım, doğma diyarım, ata-babalarımın yurdu-yuvası, balalarımın, gələcək nəvə-nəticələrimin yurdu-yuvası, isti ocağım, yeganə dayağım, ana vətənim, ilk sevgim, son məhəbbətim, torpağından yarandım, torpağına qarışıcağım daimi məskənim, qolum-qanadım, ümid yerim, inanc yerim, imanım, gümanım, şöhrətim, şanım, öyüncüm, sevincim, fəxrim, vüqarım, dəyərim, qiymətim, əbədiyyətim mənim!

Bu təşbehlərin içində yalnız bircəsini - "dəyərim" sözünü istədiyim kimi incələyə bilsəm, Azərbaycanımın mənim üçün nə olduğunu oxuculara çatdırmış olaram. Burda böyük nağıl ustası Andersenin "Gümüş pul" adlı hekayəsi yadıma düşdü:

Bir məmləkətin pulu xarici ölkəyə səfər edən birinin cibində yad məmləkətə gəlib çıxır. Pul bu ölkədə əldən-ələ keçir, saxta hesab edilir, xərclənmir, yad ölkədə öz dəyərini itirir. Daxılda bir tərəfə atılan pul bu ölkənin xərclənən, istifadə olunan pullarına baxıb ah çəkib. Fikirləşir ki, axı, öz ölkəmdə mənə filan, filan şeyləri almaq olardı, bəs burda məni niyə sayan yoxdur? Yad ölkədə xərclənməyən pul xiffət eləyir, dərdə düşür... Həmin pul hərlənib yenidən öz ölkəsinə qayıdanda dəyərini tapır, özünə qayıdır, xiffətdən azad olur.

Demək, yalnız pulun deyil, hər şeyin, o cümlədən hər kəsin öz dəyəri, öz qiyməti var. Əşyanın da, insanın da dəyəri onun gərəkliyinin dərəcəsi ilə ölçülür. İnsan da, əşya da nə qədər gərəklidirsə bir o

qədər qiymətlidir, dəyərlidir.

Gərəkliyi təmin edən amil - mühitdir, şəraitdir, vəziyyətdir. Meşədə balta nə qədər gərəkdirsə, evdə onun bir elə əhəmiyyəti yoxdur. Dərzi üçün üskü, yazıçı üçün qələm, dəmirçi üçün çəkic, başqaları üçün eyni qiymətdə deyil.

Demək, mütləq gözəl və mütləq dəyər yoxdur. Məcnun üçün Leylidən, Fərhad üçün Şirindən, Romeo üçün Cülyettadan gözəli yox idi.

Lakin bir də mütləq gözəl var.

Tısbağaya dedilər, dünyanın ən gözəl heyvanını tap gətir. Getdi balasını gətirdi. Tısbağanın balası onun üçün mütləq gözəldir. Bəs ümum üçün?..

Bir şer məclisində şairlərdən biri Vətən haqqında şeir oxudu. Həmin şeirin bəndləri "gözəl vətən" sözü ilə bitirdi. Nazim Hikmət bu şeirə çox əsəbləşdi və şairi yanına çağırıb dedi:

- Əzizim, "Vətən" sözünü "gözəl" sözü ilə bəzəmək yersizdir. Ona görə ki, vətən deyincə gözəllik yada düşür, çünki hər kəsin vətəni onun üçün mütləq gözəldir. Bu, pambığa ağ, bala şirin deməyə bənzəyir.

Bu, həqiqətən belədir. Vətən ona görə gözəl deyil ki, o, doğrudan da, gözəldir, ona görə gözəldir ki, o, vətəndir. Ana da elə.

Qayıdaq Andersenin nağılına. Hər dəfə xarici ölkədə olanda istər-istəməz bu nağıl yadıma düşür. Özümü nağıldakı saxta pul vəziyyətində görürəm. Bir dəfə Lissabonda böyük bir mağazada səfər yoldaşlarımı itirdim. Küçəyə çıxıb dəhşətə gəldim. Məni soyuq tər basdı. Yanımdan sağa, sola gedən adamlara baxıb, bu boyda şəhərdə tək-tənha olduğumu dəhşətli ağrı ilə hiss etdim. Adamlar mənə fikir vermədən yanımdan ötür, mənə lazımsız əşyaya baxır kimi baxırdılar. O zaman düşündüm ki, bu yad şəhərdə çəkilib atılmış bir papiros kötüyündən mənim heç bir fərqim yoxdur. Gerbli pul kimi, insanın da dəyəri onun özünəməxsus gerbi olan Vətənindədir. Qızılın əyarı olduğu kimi, insanın da əyarı onun məsləkidir, əqidəsidir, dünya-

görüşüdür, fikridir, düşüncəsidir. Bəlkə də, bu ölkədə mənim kimi düşünənlər, mənim əqidəmə ortaq olanlar, ən mühümü də mənim dilimdə danışanlar tapılar. Lakin məsələ bununla bitmir. Vətən məfhumu çox geniş məfhumdur. Bizi Vətənimizə bağlayan tellər bir deyil, on deyil, min-mindir. Bu telləri bir-bir saymaq, onları sıralamaq, çözələmək çox çətindir.

Xalq deyir ki, qürbətin ocağından Vətənin tüstüsü gözəldir. Ona görə ki, qürbətin ocağı isti verər, amma səni qızdırmaz, isitməz.

Axı, niyə qızdırmasın? Ocaq hər yerdə ocaq deyilmi?

Ocaq hər yerdə ocaq, istisi də hər yerdə eyni istidir. Amma ocağın altındakı torpaq, üstündəki ocaq daşları və cızıldayıb yanan çırpı səninki deyil.

Qoy, burda oxucu məni ifrata varmaqda günahlandırmasın. Çünki mən öz duyğumu yazıram. Mən belə deyir, mən belə başa düşürəm.

Babam Şəkidən Bakıya - bizə qonaq gəlmişdi. Bir neçə həftə qalmaq niyyətində idi. 2 gündən sonra getmək istədiyini bildirdi. Təəccübləndik. Dedi:

- Sizin çaydan ağzım dad anlamır.

Anam elektrik samovarında çay qoydu. Kişi içdi, başını buladı. Dedi, bu da kömür samovarının dadını vermir.

Mən o zaman babamın bu sözünə ürəyimdə gülmüş, bunu rayona qayıtmaq üçün bir bəhanə kimi başa düşmüşdüm... İndi... yalnız indi babamın sözünə haqq verir və başa düşürəm ki, elektrik samovarının çayı kömür samovarının çayını əvəz edə bilməz. Kömür samovarının çayı, həqiqətən, ayrı cür olur...

- Necə?

Bax, bunu deyə bilmərəm. Bu dadın necəliyini çözələyə bilmərəm. Bunu bilmək yox, duymaq, hiss eləmək lazımdır.

İndi əziz oxucu, qürbət ocağının istisi ilə Vətən ocağının istisini mən necə tutuşdurum, bu istinin üstünlüyünü və gözəlliyini necə incələyim? Bunu da bilmək yox, duymaq, hiss eləmək lazımdır.

Duyğunu açmaq, çözələmək mümkünmü?

Vətən ocağının istisi! Bizi qızdıran, istisi canımıza kərə yağı kimi yayılan bu duyğu nədir? Niyə hər kəsə öz vətəninin kolu da əzizdir, külü də. Qanqalı da əzizdir, gəndalaşı da? Qarğası da əzizdir, bülbülü də?..

Bəlkə, əziz oxucu mənim Vətən hissimi fanatizm hesab edəcək? Olsun! Başqa şeydə demərəm, amma Vətən sevgisində bir az fanatik olmaq lazımdır.

"Vətən ocağının istisi", Bakı, 1982.

## VƏTƏN HAQQINDA DÜŞÜNCƏLƏR

Bir neçə il əvvəl Vilnüsə getmişdim. Şair dostum A.Bukontas mənə şəhərin görməli yerlərini - tarixi abidələrini, qədim kilsələri və muzeyləri göstərir və bunlar haqqında böyük fəxrlə danışırdı. O, Vilnüsün ən adi küçələrindən, binalarından, hətta parklarındakı ağac və çiçəklərdən elə danışırdı ki, mən gördüklərimdən çox onun öz vətəninə heyranlığına heyran qalmışdım. Mənə göstərdiyi binalar, kilsələr, qalalar, muzeylərdəki eksponatlar, parklardakı ağaclar və çiçəklərə bənzərlərini başqa şəhərlərdə və ölkələrdə də tapmaq mümkündür...

Daha doğrusu, bunlar möcüzə deyil. Möcüzə bunlar haqqında ağızdolusu mənə məlumat verən Bukontasın özü idi. O, Vətəninin hər daşını, hər binasını, hər küçəsini öz qəlbinin odu ilə isidib onları mənə möcüzə şəklində çatdırmaq istəyirdi. İstəyirdi ki, mən də gördüklərimə onun qədər heyran qalım, onun kimi vurulum. Mən isə... xəyalımda gördüklərimin öz vətənimdə tayını axtarır, əgər ona bənzərini tapırdımsa sevinir, tapmırdımsa içimdə kədərlənirdim. Bu nə qədər təbii hissdir. Mənim qəlbimdə bələdçimin Vətəni ilə öz Vətənim üz-üzə durmuşdu:

- Axı, niyə belə bir muzey, yaxud belə bir park bizdə olmasın?

Bu sualdan əvvəl başqa sual verilməlidir: - Niyə bizdə Bukontas kimi Vətən dəliləri azdır? Bəli, məhz dəli! Ümumiyyətlə, həqiqi və

böyük sevgi dəlilikdir. Məcnun da, Romeo da, Verter də, Biotriçe də, Anna da... Onlarla, yüzlərlə sevənlər öz sevgilərinin dəlisi deyilmi? Dəlilik fanatikcəsinə sevginin törəməsidir. Deməli, sevgi fanatik vurğunluqdur. Məgər Leyli tam qüsursuz, tam kamil gözəl idi? Əsla! Lakin Məcnun fanatikcəsinə sevdiyinə görə Leylidə heç bir qüsur görə bilmir, görə də bilməzdi. Əgər görə bilsə, qüsuru Leylidə deyil, sevənin sevgisində axtarmaq lazımdır.

Vətən sevgisinə gəldikdə, burada məsələ bir qədər başqadır.

Sevgilini sevməyin müddəti ömür qədərdir. Yəni, burda sevginin müddəti ömrə bərabərdir... Vətən sevgisinin müddəti isə ömürdən o tərəfə keçir. Sevgilini özümüz üçün seviriksə, Vətəni xalqımız üçün, bu xalqın gələcəyi üçün, üzünü belə görə bilməyəcəyimiz nəvələrimiz, nəticələrimiz və kötücələrimiz üçün sevirik... Elə burda da bu iki sevginin dərəcəsini ölçdük... Və gördük ki, Vətən sevgisinin qarşısında qadına olan sevgi məzmunca kiçik və cılızdır. Qadına olan sevgimizdə mənəmlik var. Vətən sevgisində isə onun əvəzinə böyüklük, genişlik və ictimailik var. Çox qəribədir, sevdiyimiz qadını özümüzdən başqa gözümüzün işığı belə sevsə, biz ona düşmən kəsilirik. Vətənimizi sevəni isə, şəxsi düşmənimiz də olsa, biz də sevirik...

İkinci tərəfdən, sevdiyimiz qadının qüsurunu çox zaman görə bilmirik, onun yanlışını da naxış bilirik, amma vətənimizdə və xalqımızda çatışmayan cəhətləri, qüsurları görür və bunları dərhal aradan qaldırmağa, Vətənimizi istədiyimiz səviyyədə görməyə çalışırıq. Bəs, bu, nə üçün belədir?

Çünki əgər sevgilinin qüsuru varsa, təkcə mənə aiddir. Mən onu görə də bilərəm, görməyə də... çünki o, təkcə mənə məxsusdur. Lakin Vətənin gözəlliyi də, qüsuru da Vətən övladlarının hamısına məxsusdur. Vətən - hamınındır. Vətən - təkcə mənim evim deyil, milyonların evidir. Vətənin qüsuru da, gözəlliyi də həmin bu milyonlara məxsusdur. Buna görə də Vətən mənafeyi qarşısında onun

övladlarının hamısı eyni dərəcədə cavabdehdir. Vətən müxtəlif fikirli və əqidəli övladları birləşdirən yeganə anadır. Beləliklə də Vətənin taleyi təkcə məndən asılı deyil, onun vətəndaşlarının hamısından asılıdır. Meşə çaqqalsız olmaz, deyiblər.

Xalqın layiqli övladları ilə bərabər istədiyin qədər bu Vətənə layiq olmayan çaqqallar da var. Bu çaqqallar isə Vətənin oduna qızınır, tüstüsündən qaçır. Sabirin dediyi bu "canlı dəyirmanlar" Vətənin çörəyini yeyir, suyunu içir, havasını udur, çiyninə yük olur. Bunlar Vətənə heç nə vermir, amma istədiyini alır. Evinə bir saat su gəlməyəndə Vətənini də söyür, xalqını da... Belə "canlı dəyirmanların" Vətən sevgisi şəxsi mənafeyində qurtarır. Vəzifəsi, bağı, beşotaqlı mənzili, mənzilində hər cür şəraiti, rahatlığı və güzəranı varsa, Vətən gözəldir. Yoxsa... "Belə ölkədə yaşamaqdansa, ölmək yaxşıdır" - deyə öz qüsurlarını da Vətənin ayağına yazanlar var. Beləsindən gərək soruşasan: sən ki, bu Vətəndən bunları tələb edirsən, bəs sən bu Vətənə nə vermisən? Sən neyləmisən? Hansı bulağın gözünü açmış, hansı ağacı əkmiş, hansı yetimin göz yaşını qurutmusan?

Vətənin nemətlərinə ortaq, dərdinə, azarına biganə olanlar, "mənə nə var" fəlsəfəsilə yaşayırlar, amma yeri gələndə ağızdolusu Vətənin, xalqın adından danışır özünü xalqın layiqli övladı sayır. Ən böyük sevgi Vətən sevgisidir, dedik. Buna görə də bəşəriyyətin tarixində Vətən dəliləri, millət məcnunları üçün şəxsi istək Vətən sevgisindən başlanır. Onların şəxsi istəyi, şəxsi arzusu milyonların istək və arzusunda əriyir, yoxa çıxır. Bu zaman o, bir insan kimi özü vətənləşib amala çevrilir, Vətən timsalına dönür. Bu nöqtədə o, şəxsiyyət səviyyəsinə yüksəlir.

*Bir böyük amala vurulan zaman*
*Özünü yenidən yaradır insan.*
*O böyük amalın çağrış səsində*
*Qayğılar əriyir, məqsəd doğulur.*

*Özünü yaratma mərtəbəsində*
*İnsan kamilləşir, şəxsiyyət olur.*

Babək, Janna d’Ark kimi xalq içindən çıxan qəhrəmanlar, Vətən məcnunları xalqın düşünən beyninə, görən gözünə, vuran qoluna çevrilir. Bu çevrilmədə insan, adilikdən sıyrılıb qeyri-adi şəxsiyyət olur. Bax, belə şəxsiyyətlər tarixin sükançılarıdır. Tarixdə şəxsiyyətin də qəlbini yırtıb, şəxsiyyət sözünü son həddinə qədər böyüdən titanlar mövcuddur.

***

Vətən, ana torpaq! Doğma ocaq! Niyə insan üçün bu qədər əziz olur? Dünyanın cənnət kimi bir guşəsində bütün arzularını, istəklərini yerinə yetirsələr belə, dünyanın bütün nemətlərini başından töksələr belə yenə gözün Vətən axtaracaq, qəlbin Vətən həsrətilə döyünəcək, dodaqların “Vətən”, “Vətən” deyəcək. Bunun səbəbini bilmək üçün ana torpağın bir parçası olan insanı, onun təbiətini araşdırmalıyıq. Çünki vurulan insandır.

Qərbi Almaniyanın Düsseldorf şəhərində yaşlı bir həmyerlimlə görüşdüm. Ramiz Quliyevin “Segah” valını ona hədiyyə verdim. Mənim otağımdaca Segaha qulaq asdıq. Bizə yad olan bu soyuq divarların arasında ucalan doğma səslər bizi isitdikcə hər birimiz öz iç dünyamızı vərəqləyir, susurduq. Bir vaxt başımı qaldırıb gördüm ki, həmyerlimin yanaqları boyu yaş axır. Onun gözlərindən axan adicə yaş idimi? Yox, illərlə qəlbinin başında düyünlənib qalmış vətən həsrəti idi... Mənim heç şübhəm yoxdur ki, əgər kimyagərlər bu yaşla balasını itirmiş ananın göz yaşını tutuşdursalar, hər birinin öz qaynağı və öz tərkibi olduğunu yəqin edərlər. Həsrət yaşı başqa, matəm yaşı başqa, sevinc yaşı isə bambaşqadır.

Ayrı bir xalqın segahdan həzin, segahdan yanıqlı bir mahnısı eloğlumu ağlada bilərdimi? Yox! Ona görə ki, min illərdən bəri

dədə-babalarımızın ruhundan süzülüb gələn Segah eloğlumun qan yaddaşını oyatdı. Çünki Segahda onu yaradan xalqın tarixi səslənir. O, Segaha qulaq asanda 5-10 dəqiqə ərzində xalqının min illərdən bəri keçib gəldiyi tarixini dinlədi. Bu tarix onun damarlarından axan qanda da yaşadığından, bu yaşantı yeni səsə köklənən simlər kimi Segahda öz ahəngini, öz unisonunu tapdı. Çünki qəlbində dədə-babasının ruhu baş qaldırdı. Onu göynədib ağladan Segahda kökünü tapmış həmin ahəng, həmin ruh idi. Bu ruhdan üz döndərən həmişə ağlar qalar. Çünki bu ruhdan üz döndərən, özündən üz döndərir. "El içində, öl içində", "Gəzməyə qürbət ölkə, ölməyə vətən yaxşı", "Yad ocağının alovundan vətən ocağının tüstüsü gözəldir" məsəllərini dədələr sözgəlişi deməmiş, zamanın dolaylarında sarsılıb demişlər.

Bir jurnalda Azərbaycan haqqında məqalə ilə tanış oldum. Məqalə bu sözlərlə başlayırdı: "Azərbaycan nefti ilə məşhurdur". Bu cümlə məni əsəbiləşdirdi. Əgər dünya məni neftimlə tanıyırsa, demək tanımır. Bu cür tanınmaq mənə lazım deyil. Neft təbiətin bizə verdiyi nemətdir. Dağa doğrusu, bu nemət bizə təbiətin bəxşişidir. Aldığı bəxşişlə öyünən adam isə dünyanın ən axmaq adamıdır.

Dünyada mövcud olan 12 iqlimin 9-nun bizim respublikada olması, nefti, pambığı, taxılı, çayı və s... kimi maddi nemətləri mənim xalqımın zahiri gözəlliyidir, mənəvi gözəlliyi deyil. Eyni zamanda, bu maddi nemətlər bizim respublikada olmaya da bilərdi. Bəs onda bizim öyünməyə bir şeyimiz olmayacaqdı?

Bir də xalq təbiətin ona verdiyi bəxşişlə deyil, özü yaratdığı və özü qazandığı ilə öyünə bilər. Neftlə və başqa təbii sərvətlərlə öyünmək - pulu, varı, dövləti ilə öyünməyə bənzər, əsl insan isə, dövləti ilə deyil, ağlı, kamalı və həssas ürəyi ilə, bir sözlə, mənəvi sərvəti ilə öyünməyə haqlıdır. Əslində, öyünməyin özü insana yaraşan sifət deyil. Ümumiyyətlə, öyünmək naqislik əlamətidir. Bununla belə, xalqın əsl sərvəti onun maddi nemətləri deyil, mənəvi dünyası - tarixi, elmi, idrakı və sənətidir. Çox şükür ki, mənim xalqımın

mənəvi sərvəti onun maddi sərvətlərindən geri qalmır.

Mən, ilk növbədə, onunla öyünürəm ki, mənsub olduğum xalq tarixi boyu heç bir xalqı özünə qul etməmiş, heç bir xalqın üzərində hakimlik iddiasında olmamışdır. Qismətinə şükür demiş, özgə torpaqlarına gözünün ucu ilə də baxmamışdır. Bəlkə də, elə bu təbiətinə görə təbiət də onu öz bol sərvəti ilə mükafatlandırmışdır. Bir gün məndən soruşdular:

- Xoşbəxtliyi nədə görürsünüz?

Dedim: - Gözü toxluqda.

İnanmırsınız? Nəfsi özündə, gözü tox adam ona görə xoşbəxtdir ki, dərdi olmur. Dərd isə, əksərən, paxıllığın meyvəsidir. Paxıllıq isə içəridən adamı qurd kimi yeyib çürüdür... Beləsinin gözü həmişə qonşusunun bostanında olur və o, mütləq qonşusunun bostanına daş atmağa, ondan artıq bir tikə qopartmağa çalışır. Burda da çəpər başlanır. Çəpərin payası çəpəri söküb qonşusunun bostanına keçmək istəyən qonşunun başında sınır... Bu, tarix boyu belə olub. Əgər belə olmasaydı, biz bu vaxta qədər öz torpaqlarımıza sahib ola bilməzdik.

“Gəlin, açıq danışaq”, Bakı, 1989.

# İSTİSU DEDİM, ÜRƏYİM YANDI...

## I

Hər qarış torpağın tarixi, ümumən, Vətənin tarixidir. Əgər yurdun öyrənilməmiş, sirri açılmamış bir qarış torpağı varsa, sinəmizə döyə bilmərik ki, bütöv tarix kitabımız var. Barmaqlar qovuşub yumruq olan sayaq, hər qarış torpaq da qovuşub Vətən olur. Hirs və qəzəbi ilə yeri-göyü lərzəyə gətirən dərya damlaya minnətdardır və bu dəryanın dadını, tamını duymaq üçün ordan bir içim su götürmək kifayətdir. Bir içim su ümmandan xəbər verdiyi kimi, hər qarış Azərbaycan torpağı da insanlığın tarixi haqqında çox mətləblər deyir.

Bu mənada dağlar və qayalar vətəni, elə bu dağlar və qayalar kimi mərdanə insanlar Vətəni Kəlbəcər ən incə cizgilərində belə xalqımızın keçmişini yaşadır. Bu dağ rayonunda olarkən göz bəbəyi kimi qorunan, yerli əhalinin ən adi davranışlarında, məişətində yaşayan ilkinlik, qədimlik qəlbimi necə riqqətlə döyündürdüsə, ilkinə, sağlam köklərə arxalanan müasirliyə də bir o qədər sevindim. Bu çox vacib şərtdir. Həyat muzey deyil, natural şəkildə adət və ənənələri nümayiş etdirmək, maddi mədəniyyət abidələrini arxiv səliqəsi ilə yan-yana düzmək əsl hərəkət və dinamikadan uzaqdır. Əsas odur ki, dünənə söykənən bu gün necə görünür. Tarix bizə ona görə gərəkdir ki, bu günümüzü yaradaq, bütün ruhumuzla, fəhm və idrakımızla sabahımızı təsəvvür edə bilək.

Rayon fəalları onun inkişaf meyllərini vaxtında və düzgün görüblər. Elə bil, rayon ictimaiyyəti hələ bir neçə il əvvəldən respublika rəhbərliyinin 1986-1990-cı illərdə və 2000-ci ilədək olan dövrdə Azərbaycanın dağ rayonlarının iqtisadi və sosial inkişafının sürətləndirilməsinə dair kompleks proqram haqqında məsələ müzakirə edəcəyini duyub. Cəsarətlə demək olar ki, burada respublika hökumətinin həllini vacib saydığı böyük sosial, mənəvi problemi - dağ rayonlarını sürətlə inkişaf etdirmək problemini reallaşdırmaq üçün etibarlı zəmin var. Bu zəmin birinci növbədə hərəkətə gətirilmiş insan amilidir - publisistlərin dili ilə desək, adamların qurub-yaratmaq eşqidir. Daş da tapılandır, ağac da, qum da... Vay onda ki, insan tikmək istəməyə, o zaman daşı mamır tutar, taxta çürüyər, qumu yel aparar. Qurub-yaratmaq eşqi indinin özündə Kəlbəcəri cavanlaşdırıb. Rayon mərkəzindən iki-üç kilometr aralıda salınan müasir şəhər fikrimə tutarlı misaldır.

Təzə şəhərdə ucaldılan binalar xalqımızın qədim memarlıq ənənələri ilə müasir arxitektura elementlərini paralel şəkildə birləşdirir. Dünən doğulan yaraşıqlı binalar milyon yaşlı dağların ətəyindən yapışan xoşbəxt balalara yaman bənzəyir. İnzibati binalar, çoxmərtəbəli yaşayış evləri, məktəb, uşaq bağçası, xəstəxana və s. ulu dağlarımızı bir az da hörmətə mindirib. Üzbəüz dayanan dağlara və şəhərə baxanda mənə elə gəldi ki, keçmişlə bu gün, ilkin yaradılanla nəticə diz-dizə verib olmuş və olacağın, keçmiş və gələcəyin əbədi möcüzəsini dərk etmək istəyirlər.

Kəlbəcər belə olacaqdır. Kəlbəcər belə yurddur! Tarixin və indinin qonşu olduğu bu cür yurd yerlərini barmaqla saymaq olar.

## II

Kəlbəcər bənzərsiz olduğu kimi, iki il əvvəl burada yaradılmış tarix və diyarşünaslıq muzeyi də heç bir rayonun muzeyinə bənzəmir. Bənzəmir demək asandır. Amma bu bənzərsizliyi yaratmaq çətindir.

Təkcə bu çətinliyin öhdəsindən ləyaqətlə gəldiklərinə görə hər bir kəlbəcərli əsl vətəndaşdır, öz yurdunu, doğulub boya-başa çatdığı torpağı canı, qanı qədər sevən adamdır.

Bəs bənzərsizlik nədədir? Bu bənzərsizlik necə yaradılıb? Bu sualı özümə vermişəm, muzeylə tanış ola-ola, adamları dindirə-dindirə heyrətlənmişəm. Təəssüf ki, muzey yaratmaq kimi xeyirxah bir iş bəzən rayonlarımızda "bizim də varımızdır" psixologiyasına əsaslanır. Formal yaradılan bu muzeylər tamaşaçı heyrətinə səbəb olmur. Ekspozisiyada yerli şəraiti nəzərə almaq əvəzinə, Azərbaycan tarixinin hər kəsə məlum materialları nümayiş etdirilir. Ona görə də bu muzeylərin qapısını illərlə açan olmur. Halbuki, muzey məktəbdir, mənəvi xəzinədir. Kəlbəcər muzeyinə baxanda isə bir daha duydum və inandım ki, rayonlarımızdakı tarix və diyarşünaslıq muzeylərinin arxiv sükutunu qırmağın vaxtı çatmışdır, mümkün olan işdir.

Kəlbəcər muzeyi, əgər belə demək olarsa, ikiqat muzeydir; içi bir muzey, çölü bir muzey.

Adamı paltarına görə qarşılayarlar, ağlına görə yola salarlar. Qəribədir ki, Kəlbəcər muzeyində xaric-zahir, çöl-iç sərhəddi itir. Muzeyin hardan başlandığını demək çətin olduğu kimi, harda bitdiyini söyləmək də olmur. Bütövlükdə, muzey hər ilməsində bir dünya, hər düyümündə bir aləm yaşayan nəhəng xalçadır. Elə bil, bu xalçanı bütün Azərbaycan əlləri toxuyub, sonra da gətirib ulu dağların sinəsindən asıblar. Xalq dühasını, xalq ilhamını yaratmaq üçün dağlardan etibarlı ayrı bir saxlanc olarmı heç? Büsbütün naxış və ilmələrdən ibarət olan fasada baxıram. Bir fərqi var ki, divar xalçada ilmələr sapdan deyil... daşdandır. Bu da xalq təfəkkürünün yeni möcüzəsi; daş xalça, daş ilmə...

Bu xalçanın əsas müəllifi Kəlbəcər torpağının özüdür. Dağlarda, qayalarda, çaylaq yerlərində bizə məlum olan yeddi rəngin ən azı yüz çalarında daş var. Muzeyin tikintisində bu əlvan daşlardan elə məharətlə istifadə olunub ki, bir rəng, bir çalar ikinci dəfə təkrar edilməyib. Memarlıq nümunələrində sırf xalçaçılıq sənətinin

prinsiplərini gözləmək ənənəsi mənə son dərəcə yeni göründü.

Divarları diqqətlə nəzərdən keçirdikcə qəlbimdən qəribə duyğular boylandı. Mənə elə gəldi ki, xalçalarımıza böyüdücü şüşə arxasından baxıram. İstər-istəməz görkəmli Azərbaycan alimi Xudu Məmmədovun qədim türk xalçaları barədəki fikrinə bir daha şərik çıxdım ki, bizim milli xalçalarda fon olmur. Ayrı-ayrı fiqurlar birləşərək fon yaradır. Kəlbəcər ustaları binanın bəzədilməsində bu üsuldan istifadə ediblər.

Qohum adamları qan birləşdirir, qohum daşları qohum cizgilər. Tarix diyarşünaslıq muzeyinin həyətinə Kəlbəcər yaylaqlarından iri daş parçaları gətirilib. Heyrətli o deyil ki, bu daşlar hansı texnikanın, hansı insan, yurddaş inadının hesabına bura gəlib çıxıb, heyrətli odur ki, bu daşların sinəsində yuva quran cizgilər eynən Qobustandakı qaya rəsmlərini xatırladır. Xatırladır yox, Qobustan rəsmlərinin özüdür. Bir anlığa Kəlbəcərlə Qobustanın arasındakı məsafəni xəyalınızda canlandırın, bir anlığa Azıx mağarası ilə Kəlbəcər arasındakı məsafəni gözünüzün qabağına gətirin, bir anlığa gözü yaşlı Arazdan o tayda, əlçatmaz, ünyetməz doğma qayalıqlardakı Qobustan yazılarına bənzər xətləri cızan daş bıçaqların soyuqluğunu, göynərtisini öz əzalarınızda hiss edin. Sən demə, ulu babalarımız Qobustanda, hüzuruna gedə bildiyimiz və gedə bilmədiyimiz Vətən qayalıqlarında ov ovlayıb, nərə çəkib, tonqal qalayıb, sonra da sadə təfəkkürün işığını qayaların köksünə salarkən Kəlbəcər yaylaqlarında da eyni işi görürmüşlər...

### III

Çölümüz barədə bu qədər. Muzeyin içi də bənzərsizdir. Eksponatların hər birinin mən deyərdim ki, tarixi əhəmiyyəti var. Muzey işindən bir o qədər başım çıxmasa da, onu bilirəm ki, orada nümayiş etdirilən maddi mədəniyyət abidəsi əşya, predmet nə qədər tarixi mahiyyət daşıyırsa, bir o qədər nadirdir. Muzeydə isə bu cür

əşyalar çoxdur. Maraqlı budur ki, milli xəzinənin yaradıcıları maddi əşyayidəlillərlə yanaşı, yerli əhalinin mənəvi dünyasını da nümayiş etdirməyə nail olublar. Bu, böyük uğur sayılmalıdır.

Muzey kəlbəcərlilərin, dağ adamlarının, ümumən, xalqımızın etnoqrafiyası haqqında son dərəcə zəngin məlumat verir. Dağ adamlarının dəyişməz təbiəti, mənəvi eroziyadan uzaq etnoqrafiyası tamaşaçıda heyrət doğurur. Nümayiş etdirilən "Yeddi hünər" oyunu, məncə, bizim uşaqlıqdan yadımızda qalan çilingağac, dirədöymə, mərəmərə, gizlənpaç kimi oyunlardan çox qədimdir. Oyunun ruhu Dədə Qorqud dünyasını xatırladır. "Yeddi hünər" oyununa görə, erkənlik yaşına çatan hər bir adam yeddi hünər göstərməlidir. Məsələn, obanın ən güclü adamı əlindəki qılıncı şaquli vəziyyətdə saxlayır. Sınaqdan çıxarılası cavan uzaqdan gəlib qılınc saxlayanın biləyinə elə qüvvətli zərbə endirməldir ki, qılınc düşsün. Başqa bir şərt belədir: sınanan yeniyetmə ata minməli, sürətlə çapmalı, meydanın ortasına qoyulmuş iri bir erkəyi yerdən qaldırıb atın üstünə aşırmalıdır. Maraqlıdır ki, bu adətlər və oyunlar Kəlbəcərdə bu gün də yaşayır.

Muzeydə nümayiş etdirilən məişət əşyalarının bəzilərini demək olar ki, ilk dəfə gördüm. Sən demə, indi mətbəxdə alüminium məftillərdən hazırlanmış yuyulmuş qab yığılan, müasir görünən rəflər yüz illər bundan əvvəl azərbaycanlıların məişətində işlənirmiş, sən demə, yuyulmuş qaşıqları saxlamaq üçün xüsusi toxunmalar var imiş, həm də bu qabın hər qaşıq üçün xüsusi cibi olurmuş. Qaşıq yuyulandan sonra sapı yuxarı vəziyyətdə həmin qaba qoyulurmuş ki, həm qurusun, həm də təmiz qalsın. Görünür ki, gəlimli-gedimli dünyanın əbədi və əzəli qanunudur: hər təzədə köhnədən nəsə var...

Kəlbəcərin təbiəti mineral yataqlarla zəngindir. Müalicə əhəmiyyətli sular, qiymətli daşlar... Mineral sular və onlardan istifadə barədə bir qədər sonra danışacağam. Muzeydə təbii daş və mərmər nümunələri qoyulub. Təəssüf ki, zəngin yataqların qırtmıxları bu gözəl sarayda "darıxır". Respublikamızın paytaxtında, rayon

mərkəzində tikilən iri sosial binaların layihəsini hazırlayan memar isə bilmir öz binasına nədən üzlük vursun, hansı daşdan pilləkən qoysun ki, zövq oxşasın, gözəllik bəxş eləsin. Dağ rayonları haqqında qərar respublikamızın inşaat meydanları üçün material istehsal edən təşkilatlarını düşündürməli, ayağa qaldırmalıdır ki, Kəlbəcər xəzinəsi əzəmətli binalarımızı bəzəsin. Təbiət kitabdır, oxumasan, oxunmaz!

Muzeydə xoşuma gələn başqa bir cəhət folklora, xalqın minillik ağız ədəbiyyatına göstərilən doğma münasibət oldu. Burada şifahi xalq ədəbiyyatının nümayişi üçün xüsusi otaq ayrılıb. Qalın-nazik dəftərlərdə nağıllar, dastanlar, bayatılar, atalar sözləri, qoşmalar janrlar üzrə qruplaşdırılıb. Maraqlıdır ki, bu nümunələrin əksəriyyəti alındığı adamın səsi ilə lentə köçürülüb. Aşıq Şəmşirin, demək olar ki, başabaş yaradıcılığı ustadın öz səsi ilə lentə alınıb. Bu xəzinə deyil, bəs nədir? Bu sətirləri oxuyarkən sizin də qəlbiniz iftixar hissi ilə döyünmürmü?

Aşıqlar xası ustad Ələsgəri Kəlbəcərə dərin tellər birləşdirir. Dağ yollarından keçəndə onun doğulduğu Göycə mahalı ilə Kəlbəcərin arası beş-on kilometrdir. Aşıq Kəlbəcərin çox yığıncaqlarında olmuş, saz tutub, söz qoşmuşdur. Dağ gözəlləri yüz-yüz otuz il ömür sürəndən sonra ulu dağlarla halallaşsalar da, aşıq Ələsgərin gözəlləmələrində əbədi yaşayırlar. Kəlbəcərlilər fəxr eləyirlər ki, el aşığı el qızlarını vəsf edib. Adam Ələsgər qoşmalarında mələk kimi cilvələnən el qızlarının, Ələsgər gözəllərinin 90-100 yaşında çəkilmiş şəkillərini muzeydə görəndə istər-istəməz köks ötürür. A gidi dünya!

Kəlbəcərdə çox adamdan soruşdum ki, bu muzey ilk dəfə kimin təşəbbüsü ilə yaradılıb? Hamı dedi ki, Şamil Əsgərovun. İndi o, muzeyin direktorudur. Şamil Əsgərov isə başqa cür dedi. Dedi ki, muzeyi yaradan, ilk növbədə, Kəlbəcər camaatıdır.

Heç kimi məcbur etməyiblər. Kim eşidibsə, tarix və diyarşünaslıq muzeyi yaradılıb, qədimdən qalma ən qiymətli yadigarları belə

əsirgəməyib. Hamı, uşaqdan-böyüyə təmənnasız kömək göstərib.

Mən kəlbəcərlilərin böyük sənət həvəsini hələ bir neçə gün irəli ədəbiyyatımızın, musiqi və rəssamlığın incəliklərini dərindən bilən cavan şair Seyidəli Məmmədovla görüşərkən duymuş, yerli adamların sənət yanğısına heyrət etmişdim. Dağ adamı dağa bənzər. Səxavətdə də, torpağa, el-obaya bağlılıqda da.

## IV

Əfsus ki, dağın güneyi kimi quzeyi də var. Əfsus ki, Kəlbəcərin tərifi, sözü-söhbəti, qələmə çətinliklə gələn gözəllikləri olduğu kimi, deməyə çətinlik çəkdiyim qüsurları, həllini gözləyən problemləri də var. Quzeyi güney eləmək, insan gücündən qıraqdır, amma qüsuru aradan qaldırmaq, problemi həll etmək insan əlindədir. Sənin, mənim, fəhlənin, nazirin, raykom katibinin - bir sözlə, bizim əlimizdədir. Nə üçün bu işə hamını qatıram? Çünki Kəlbəcər elə-belə yer deyil. İstər təbii quruluşu, istər təmiz-saf havası, müalicə əhəmiyyəti, istərsə də tarixi abidələrlə zənginliyi baxımından dünyanın nadir guşələrindən biridir. Kəlbəcər doğma Azərbaycanımızın nəfəs alan ciyəridir. Xəstə ürəklərimizin, sızıltılı qol-qıçımızın loğmanı Kəlbəcərdir, onun şöhrətli İstisuyudur. İstisu dedim, ürəyim yandı. Bir görün, biz nəyin qədrini bilmirik? Koroğluya nərə və güc verən bir dirilik suyunun! Əgər Koroğlu həqiqətən də, lap elə müstəqim mənada, dağlarda çağlayan qüdrət suyu, şəfa suyu tapıb içibsə, bu, İstisu olmayıb, başqa nə su ola bilərdi?

Hökumətimizin kurort müalicəsinə, turizmə diqqəti ölkəmizin kurort zonalarını, o cümlədən Kəlbəcəri sürətlə inkişaf etdirmək üçün geniş imkanlar açır. Kəlbəcər məsələsi əlaqədar nazirliklərin, tikinti təşkilatlarının, hər bir ziyalının gündəlik işində özünə yer tutmalıdır. Kəlbəcər, eləcə də respublikamızın şöhrəti olan İstisu hansı problemlərin həllini gözləyir? Onlardan ən vaciblərini bir daha yada salmaq, bu problemlərin həllinə cavabdeh olanların qəlbində isti

duyğular oyatmaq istəyirəm.

Birinci. Dəniz səviyyəsindən 2225 metr yüksəklikdə olan sanatoriyaya gedən yol ilbəil bərbad hala düşür. İndi bu qısa məsafəni 4-5 saata güclə başa vurmaq mümkündür. Yolun qaydaya salınması iqtisadiyyatca zəif olan Kəlbəcər rayonunun imkanı xaricindədir. Zənnimcə, DQMV-nin və ətraf rayonlarındakı tikinti təşkilatlarının köməyi ilə İstisuya gedən yol qısa müddətdə düzələ bilər. Respublika əhəmiyyətli kurorta əl uzatmaq, kömək etmək bütün təşkilatların borcudur.

İkinci. Yolun son dərəcə bərbad olmasına baxmayaraq, yay aylarında buraya müalicəyə gələnlərin sayı sanatoriyanın imkanlarından 15-20 dəfə çox olur. Buna görə də putyovkasız gələnlər dərədən axan çayın qarşısına daş-kəsək tullayıb göl düzəldir və sanitariya qaydalarına əməl etmədən, həkim nəzarəti olmadan gölməçələrdə çimməklə müalicə götürür, onun-bunun evində, yaxud açıq havada gecələməyə məcbur olurlar. Bu vəziyyəti təcili aradan qaldırmaq üçün aran rayonlarının gücündən istifadə etmək lazımdır. Məncə, nəinki ayrı-ayrı rayonlar, hətta imkanlı kolxoz və sovxozlar elə burada layihə əsasında pansionat tikə bilər və əməkçiləri lazımınca müalicə olunarlar. Beləliklə də, biabırçı müalicə üsullarına birdəfəlik son qoyular.

Üçüncü. İstisuyun müalicə əhəmiyyəti dünyada məşhurdur. Bu suyun doldurulması, rayonlara göndərilməsi yenə də bərbad haldadır.

Milyon litrlərlə “qızıl”ın, sözün əsl mənasında, var-dövlətin havayı axıb getməsi, yayın qızmarında Bakının, eləcə də kənd rayonlarının mineral suya möhtac qalması təsərrüfatsızlığa dözülməz misaldır. Hələ bu harasıdır. Ən dəhşətli bəla orasıdır ki, kurortologiya “tədqiqatçıları” İstisu regionunda tədqiqat apararkən mən deyərdim ki, cinayətə yol verirlər. Hər dərədə artezian vurub aradan çıxırlar. Onlar ətrafda termal su tapdıqları ilə öyünüb, quyuları qapamağa məhəl qoymurlar. Sular havayı axıb gedir. Belə getsə, yaxın

10-15 ildə termal su ehtiyatı tam tükənmək təhlükəsində qalacaq. Təbii çeşmənin suyundan səmərəli istifadə edə bilmədiyimiz halda, əlavə artezian quyuları vurmaq, onları bağlamaq cinayət deyilsə, bəs nədir? Baş kurortlar idarəsinin tabeliyində olan idarənin işçiləri isə qazdıqları quyuları qapayacaqlarına söz versələr də, indiyədək əllərini ağdan-qaraya vurmamışlar.

Dördüncü. İstisuda bir dənə də olsa, mehmanxana, yaxud pansionat yoxdur. 1964-cü ildə 300 yerlik iki pansionat binası tikilməyə başlamış, sonra unudulmuşdur. Qəribə burasıdır ki, yarımçıq qalmış binaları tamamlamaq əvəzinə bu yaxınlarda onların biri sökülmüşdür. Təsərrüfatsızlıq o dərəcəyə çatıb ki, digər yarımçıq qalan binanın qarşısındakı qaldırıcı kran 1964-cü ildən bəri pas atıb çürüyür.

Beşinci. İstifadədə olan yeganə sanatoriyada vəziyyət dözülməzdir. 1982-ci ildə zəlzələdən zədələnmiş 11 korpusda, qazanxanada və nömrələrdə təmir işi aparılmır. Kəlbəcər rayonundakı 41 nömrəli mexanikləşdirilmiş səyyar təmir-tikinti dəstəsinin imkanı bu təmiri aparmaqdan çox-çox aşağıdır.

Altıncı. Respublikada bütün sanatoriyaları kurort ticarəti idarəsi təchiz etdiyi halda, nədənsə, İstisu sanatoriyasının təchizatı 1983-cü ildən Azərittifaqa həvalə edilmişdir ki, bu da təchizat işini xeyli çətinləşdirir.

Yeddinci. Rayonun ərazisindən və İstisuyun 17 kilometrliyindən Ermənistanın kurort şəhəri Cermuxa təbii qaz xətti getdiyi halda İstisu təbii qaza möhtacdır. Qonşumuz isə bizim qazımızla ocaq qalayıb əleyhimizə "Ocaq" yazır.

Sanatoriyada xörəklər bəzən odunla bişirilir. Xəstələrə xörək vaxtında çatmır. Üstəlik meşələrimiz qırılıb məhv olur. Öz təbii qazımız öz torpağımızdan keçdiyi halda, ondan istifadə edə bilmədiyimizi düşündükcə adamı heyrət götürür. Mən və mənim kimi adamların əlindən ürək ağrısı ilə yalnız təəccüblənmək gəlir. Amma çox təəssüf! Səlahiyyətli və səlahiyyətsiz yoldaşların heç biri bu vəziyyətə dözməməlidir.

Səkkizinci. Bu məsələlər barədə vaxtilə mərhum yazıçılarımızdan Ə.Vəliyev, S.Rəhimov, sonralar xalq yazıçısı B.Bayramov, Q.Xəlilov, jurnalist-şair Ş.Əkbərzadə mətbuatda çıxış etmiş, səslərini ucaltmış, lakin bir fayda hasil olmamışdır. Mən də öz sözümü deyirəm. Nəticəsi olacaqmı, olmayacaqmı, konkret cavab verə bilmirəm. Hər halda fikirlərimi geniş oxucu kütləsi ilə, bu işin birbaşa cavabdehləri ilə bölüşmək vacibdir. Bu gün söz adamları, mətbuat xalqın həyatı ilə bağlı olan heç bir məsələdən yan keçə bilməz. Fikir verin, indi mərkəzi mətbuatda dərc olunan məqalələrdə yazıçılar, alimlər, jurnalistlər xalqı düşündürən çox ciddi ictimai məsələlər qaldırırlar. Bu, yenidənqurma dövrünün tələbidir. Aşkarlıq və demokratiyanın genişləndiyi bir dövrün tələbidir. Zamanın, dövrün tələbinə biganəlik isə yenidənqurma xəttinə ziddir.

Gəlin, birlikdə düşünək. Əgər biz İstisu kimi qiymətli incinin qədrini bilmiriksə, niyə özümüz öz yaxamızdan yapışıb silkələmirik. Axı, bizim xalq qədirbilən xalqdır. Öz zərimizin, öz xəzinəmizin qədrini özümüz bilməliyik.

“Gəlin, açıq danışaq”, Bakı, 1989.

# VƏTƏN - SƏNSƏN, VƏTƏN - MƏNƏM, VƏTƏN - BİZ!

*(Sosialist Əməyi Qəhrəmanı Əhməd Əhmədovla dialoq)*

**B.Vahabzadə:** - Dünyada hər şeyi zövqə, imkana görə dəyişmək olar, bircə Vətəndən və anadan savayı. Onları seçmirlər. Vətən də tale töhfəsidir, ana da. Yer üzünün xalqları "Vətən" sözünə müqəddəs epitet axtaranda "Ana" kəlməsinin üstündə dayanıblar. Onlar qoynunda yaşadıqları torpağa "Ana Vətən" deyəndə, elə bil, bir yerdə düşünüb-daşınıblar. Müxtəlif əqidəli millətlərin eyni cür düşünmələri, sözün əsl mənasında, dil hadisəsi, təfəkkür möcüzəsidir. Başqa cür ola da bilməz. Axı, Vətən bəşər övladının şan-şərəfi, qeyrəti və namusudur. Bütün sevgilərimizin əvvəli də ona bağlıdır, axırı da...

**Ə.Əhmədov:** - Dövlətimiz öz qanunları ilə Vətənimizin, vətən duyğumuzun keşiyində dayanır. Biz bu müqəddəsliyə xələl gətirən ən kiçik hadisəyə də biganə qalmamalıyıq. Aşkarlığın, demokratiyanın və yenidənqurmanın qarşımızda açdığı geniş üfüqlər papağımızı qabağımıza qoyub ciddi düşünməyə, nöqsanlarımızı açıq deməyə, vətəndaşlıq borcumuzu necə yerinə yetirməyimizə, Vətən məhəbbətimizin məzmununa yenidən baxmağa səsləyir.

**B.Vahabzadə:** - Yadıma bu yaxınlarda oxuduğum bir yazı düşdü. Oradakı bir abzas eynilə əzbərimdədir: "SSRİ ölkəmizdəki

xalqların siyasi ittifaqıdır. Kiçik Vətənini, öz milli kökünü, milli mədəniyyətini dərk etmədən böyük Vətən barədə düşünmək ən azı qansızlıq və nankorluqdur". "Pravda" qəzetindən (7 sentyabr 1987-ci il) götürdüyüm bu fikir həm də o deməkdir ki, hər birimizin fəaliyyət yeri - tarla, ferma, zavod, elmi laboratoriya, yazı masası böyük Vətənin bir parçasıdır, əsl vətəndaşlığımızı təsdiq etmək üçün meydandır. Hər şey kökdən başlayır, elə vətəndaşlıq da...

Mən "Vətən" anlayışının müqəddəsliyini Sabirlə Mirzə Cəlili dərk etməyə başlayandan, Üzeyir bəyin "Koroğlu" uvertürasını dinləyəndən duymuşam...

**Ə.Əhmədov:** - Mən isə cəbhəçi qardaşım İsidən qara kağız gələndə el-obanın "Vətən yolunda şəhid olana ağlamazlar" təskinliyini eşidən gündən anladım ki, "Vətən" qardaş itkisindən də müqəddəs anlayışdır.

**B.Vahabzadə:** - "Pravda"dan gətirdiyim sitata qayıtsaq belə bir sual meydana çıxır: "Bəs xalqın öz kökü, öz mədəniyyəti haradan başlayır?"

**Ə.Əhmədov:** - Ana laylasından! Torpağa bağlılıqdan!

**B.Vahabzadə:** - Bir də ana dilindən! Ana dili milli mədəniyyətimizin bünövrəsidir. Vaja Pşavela "Dil xalqın anasıdır" deyəndə min dəfə haqlıdır. Gürcülər yer üzündə ana dilinə heykəl qoyan ilk xalqdır. Heykəl Tbilisinin görkəmli yerində ucaldılıb, 1984-cü ildən bəri Gürcüstan paytaxtının məktəbliləri bilik bayramı günündə bu abidənin önündə ana dilinə və Vətənə sədaqətli olacaqlarına and içirlər...

**Ə.Əhmədov:** - Dilin namusunu çəkmək - milli mədəniyyətin, ümumiyyətlə, tariximizin keşiyində dayanmaq deməkdir. Axı, dil dünənimiz və bu günümüz deyil, həm də sabahımızdır, əbədiyyətimizdir!

**B.Vahabzadə:** - Təəssüf ki, başqa cür də olur. Bəzən satıcının çəkdiyi, deyək ki, bir kiloqram kartofun içində bir-iki çürüyünü görəndə, yaxud tövlə divarından bir kərpic düşəndə haray sa-

lırıq. Amma dilimizin evini yıxanların, yabançı kəlmələrlə onun müqəddəs südünü "çürüdənlərin" dərsini yaxşıca vermirik. Adamlar tanıyırıq ki, ana dilini bilmir. Maraqlı burasıdır ki, eləsi bundan utanmır, başqaları da ona ana dilini bilməməsini nöqsan tutmur. Demək, dəhşətlisi budur ki, ana dilinə biganəlik xəstəliyi adiləşib. Çünki bu xəstəliyə qarşı mübarizəmiz də yoxdur. Bir azərbaycanlı qadın tanıyıram. 2 il atası ilə bərabər Almaniyada yaşamış və orada alman dilini öyrənmişdir. Azərbaycanda doğulub, Azərbaycan çörəyi ilə böyüyüb, pasportunda azərbaycanlı yazılan bu qadın öz doğma dilini bilmir, bunu ona irad tutduqda isə təəccüblənir və bunu çox təbii hal hesab edir. Demək, iki ilə yad dili öyrənmək mümkünmüş, amma ömür boyu doğma dili bilməmək də olar. Doğma dilə bu biganəliyin səbəbi barədə düşünəndə adamı dəhşət götürür. İndi beləsindən biz vətənpərvərlik uma bilərikmi?

**Ə.Əhmədov:** - Əlbəttə, yox!

**B.Vahabzadə:** - Əksinə, vəzifə başına belələrini gətirirlər və bunlar da Vətənin və Vətən övladlarının taleyini həll edir. İndi, gəl, beləsinin yanında ana dilinin zəruriliyindən danış, o saat kürəyinə "millətçi" damğası vurulur. Halbuki, bağça yaşlı uşaqdan tutmuş, rəhbər işçiyədək hamı ən müqəddəs mədəniyyət abidəmiz olan ana dilimizin qorunmasına cavabdeh olmalıdır. Mən çox dil biləni dünyanın ən xoşbəxt adamı hesab edirəm. Xüsusən də, ortaq ünsiyyət vasitəmiz olan rus dilini kamil bilmək çox vacibdir. Bu dil bütün mədəniyyətlərə körpüdür... hər xalqın ana dili isə o xalqın milli varlığı və yaşamaq haqqıdır...

**Ə.Əhmədov: -** Məktəblərimiz bu sahədə başlıca rol oynamalıdır. Ana dili dərslərinin saatını artırmaq qayğısı dövlət əhəmiyyətli məsələdir.

**B.Vahabzadə:** - Çox düz deyirsiniz. Bir müəllim kimi etiraf edirəm ki, günahın çoxu bizim boynumuza düşür. Bir narahatlığımı da bildirmək istəyirəm. Əvvəllər kənddən ali məktəblərə gələn şagirdlər çox qüvvəli, savadlı olurdular. İndi vəziyyət kökündən

dəyişib. Bunun bir səbəbi də odur ki, şagirdlər dərs ilinin müəyyən hissəsini becərmədə, yığımda iştirak edir, dərsdən soyuyurlar. Ədəbiyyatımıza, mədəniyyətimizə, bir sözlə, elmlərə dərindən yiyələnə bilmirlər. Bunu nəzərə alaraq, məktəblərin bağlanması qəti qadağan edildi. Bu günlər aldığım məlumata görə, yenə də həmin su, həmin dibəkdir. Kənd məktəblərini yenə də məhsul yığımına cəlb edirlər. Sizdə də belədirmi?

**Ə.Əhmədov:** - İndiyədək tarlaya məktəbli, yaxud tələbə buraxdığım yadıma gəlmir. Maşınlarımıza nə gəlib? Lakin haqlısınız. Çox yerdə yığım zamanı məktəblər bağlanır. Bu barədə məktəblinin vətəndaşlıq qeyrətini qapana qoyduğu on beş-iyirmi kiloqram pambıqda yox, təhsildə qazandığı nailiyyətdə görməliyik. Mən əmək tərbiyəsinin əleyhinə deyiləm, lakin hər şeydə əndazə gözlənilməlidir.

**B.Vahabzadə:** - Haqlısınız. İndi zay məhsul buraxan artıq yaxasını qırağa çəkə bilmir. Çünki məhsul qəbuluna xüsusi dövlət nəzarətçisi təyin olunub. Bu, çox yaxşı! Bəs, zay şagird buraxırıqsa, necə? Axı, savadsız, biliksiz məktəbli sabahın zay mexanizatoru, zay həkimi, zay müəllimi, zay kollektiv başçısı, zay rəhbəri olacaq. Zay mütəxəssisin əlindən nə desən gələr: xəstəni öldürər, qarpızı zəhərə döndərər, şişirtmə plan dalınca qaçar, xalqının adını batırar...

**Ə.Əhmədov:** - Lap hədəfə vurursunuz. Elə məktəb islahatında da bu məsələ başda durmalıdır. Vətənin, xalqın sabahını düşünmək bütün sahələrdə güclü mütəxəssislər ordusu yaratmaq qayğısına qalmaq deməkdir. Elmi-texniki inqilab da bunu tələb edir.

**B.Vahabzadə:** - Deməli, gələcəyimizin varisləri bu gün parta arxasında əyləşən balalarımızdır. Lakin maarifin inkişafına dırnaqarası yanaşan, bərbad məktəb binalarının yanından laqeyd ötən, alaq elətdirməyi bilik qazanmaqdan üstün tutan, illərlə məktəbə ayağı dəyməyən nə qədər kolxoz sədri, sovxoz direktoru və partiya işçisi var. Mən belələrinin vəzifədən qovulmasını istərdim.

**Ə.Əhmədov:** - Məktəbin qayğısına qalmayanlar heç təsərrüfatın,

torpağın da qayğısına qala bilməzlər. Onların "işgüzarlığı" gözdən pərdə asmaq üçündür.

**B.Vahabzadə:** - "Vətən" anlayışını torpaqsız təsəvvürə gətirmək mümkün deyil. Min bir bəhrə yetirən torpaqlarımızın dərdinə yanmamaq olmaz. Bunu torpaq oğlu daha yaxşı bilər. Açığı, ətraf mühitimizin, havamızın, suyumuzun vəziyyəti də könülaçan deyil. Məni uzun illərdir ki, bir problem düşündürür: "Xəzərdən balıq çıxarmaq sərfəlidir, yoxsa, neft?" Hər iki sərvəti ziyansız, zərərsiz çıxarmaq olmazmı? Bu çətin ekoloji və iqtisadi problemin həlli barədə düşünəndə Xəzər özü boyda oda dönüb məni qarsır və istər-istəməz Baykalı xilas etməkdə xüsusi xidmətləri olan iki həmkarıma Sergey Zalıginə və Valentin Rasputinə qibtə etməyə bilmirəm. Xəzərin xilası üçün ilk addımlar atsaq da, zalıginliyimiz, rasputinliyimiz hələ çatmır. Burada bir cəhəti də deməliyəm ki, Rusiyada yazıçıları eşidirlər, bizi isə eşidən azdır. Deyirik, yazırıq, amma nə faydası! Yazıçının əlindən deməkdən və yazmaqdan başqa nə gələr?

Buna nə ad verəsən ki, Vətən torpağının yetirdiyi ən gözəl nemətlərdən biri olan qarpız, Bakının küçələrində alan olmadığından çürüyür. Əvvəllər bir adam xəstələnəndə, yaxud zəhərlənəndə qarpız axtarıb tapardılar. İş o yerə çatıb ki, indi qarpız adamı zəhərləyir. Qarpızın çəkisini qəpik-quruş xatirinə zəhərli maddə gücünə artırana cinayətkar yox, cəllad deyərdim.

**Ə.Əhmədov:** - Torpaqlarımızın təhlükə qarşısında olduğu barədə çox yazmısınız. Düz deyirsiniz, faydası yoxdur. Ətraf mühiti, torpağı, suyu, meşəni korlamaqdan usanmırıq. Məsələn, Orconikidze adına suvarma kanalı otuzuncu illərdən işimizə yarayır. Amma onu baxımsız qoyduğumuza görə bu kanal indi xeyirdən çox ziyan vurur. Su ətrafa sızılaraq münbit sahələri şoranlaşdıra-şoranlaşdıra öldürür. Suvarma kanallarının çoxu betona alınmadığından sızma nəticəsində biçənəklər, kanalboyu əkinlər gözlərimizin qabağındaca məhv olur.

**B.Vahabzadə:** - Eroziyaya uğrayan, əslində, Vətən sevgimizdir, vətənpərvərlik duyğumuzdur. Torpaqlarımız məhv olurkən sabahkı

nəslə nəyi miras qoyub gedəcəyik? Bu gün plan göstəricilərini süni yolla şişirtmək xatirinə torpağı çarmıxa çəkiriksə, deməli, gələcəyi indidən "dəfn" edirik. Hələ bitkiçilikdə işlədilən zəhərli maddələr...

**Ə.Əhmədov:** - "Necə olur-olsun, - təki plan dolsun" - bu, halallıq yolu deyil, uçuruma aparan yoldur. Plan xatirinə hər cür şişirtməyə əl atmağın acı nəticələrini görə-görə gəlirik. Yalançı rəqəm nə təknəyə bərəkət gətirir, nə də insana üzağlığı.

**B.Vahabzadə:** - Üstəlik, ayrı-ayrı adamları yox, nəticədə, bütöv kollektivləri bədnam eləyir. Hələ bu harasıdır? Əgər üstündə keyfiyyət nişanı olan ayaqqabı, buz dolabı, yaxud paltar başqa şəhər və respublikalardan üzüqara qayıdırsa, təsərrüfatlarda şişirtmə rəqəmlərin üstü açılırsa, saxtakarlığa görə elm ocağı bağlanırsa, kimlərinsə ucbatından bütöv bir xalqın adına ləkə gəlir. Söhbət düşəndə demirlər ki, bu zay məhsulu filan kollektiv buraxıb, deyirlər ki "Azərbaycan məhsuludur". Bax, məni göynədən də budur.

Bəla burasındadır ki, tələm-tələsik raport vermək azarı hələ də var. "Vaxtından əvvəl" şüarına siz necə baxırsınız?

**Ə.Əhmədov:** - Bəzi hallarda, həqiqətən, vicdanlı əmək belə deməyə haqq verir. Lakin çox zaman özünü doğrultmur. Siz bu barədə "Ədəbiyyat və incəsənət" qəzetində yazmısınız. Vaxtından əvvəl doğulan nə varsa, məhvə məhkumdur. Mətbuat orqanları, nədənsə, "Vaxtından əvvəl" başlığından əl çəkmirlər. "Vaxtından əvvəl" kampaniyaçılığı bir qayda olaraq məhsul itkisinə gətirib çıxarır. Aqrosənaye komitəsinin işçiləri vaxtından tez tarlaya maşın çıxarmağa göstəriş verirsə, texnika açılmamış qozaları şil-küt edirsə, "vaxtından əvvəl"in xeyrindən çox ziyanını görürük. Söz-sözə gələndə sənə göstəriş verənlər yaxalarını kənara çəkirlər. "Mənə nə var?" deyirlər. Bu yerdə sizin "Mənə nə var?" adlı şeiriniz yada düşür.

**B.Vahabzadə:** - Düz 20 il əvvəl yazmışam. Təkcə sonluğu yadımdadır:

*Böyük bir Vətəni,*
*böyük bir eli*
*Tarimar eyləyər*
*"Mənə nə var"lar!*

**Ə. Əhmədov: -** Yadımdadır, hətta Məmməd Araz bu şeirə ayrıca şeir həsr eləmişdi:

*Məndən ötən sənə dəydi,*
*Səndən ötən mənə dəydi.*
*Səndən, məndən ötən zərbə,*
*Vətən, Vətən, sənə dəydi!*

**B.Vahabzadə: -** Məmməd Araz haqlıdır. Düşünülməmiş atdığımız hər addımın zərbəsi əvvəl-axır Vətənə dəyir... Axı, Vətən təkcə yurd-yuva deyil. Vətən sənsən, Vətən mənəm, Vətən bizik. Onun dünəninə, bu gününə və sabahına da hamımız cavabdeh olmalıyıq.

"Gəlin, açıq danışaq", Bakı, 1989.

# İSTİQLAL GÜNÜ

28 May! Vətənimizin çoxəsrlik tarixində ən parlaq, ən şərəfli, ən bəxtəvər bir gün: İstiqlal günümüz! Hər bir xalq üçün dünyada istiqlaliyyətdən, azadlıqdan da böyük bəxtəvərlik olarmı? XX əsrin ilk çərəyində bu bəxtəvərliyi xalqımıza daddıran böyük atamız Məmməd Əmin Rəsulzadədən xəbər aldılar: "Yaratdığın bir il on bir aylıq istiqlaliyyətlə nə qazandın?". O cavab verdi: "Xalqıma azadlığın və istiqlaliyyətin ləzzətini daddırdım".

Gözəl sözdür. Azadlığın ləzzətini dadan Millət onun uğrunda ölümə də hazır olar. Tarix boyu müstəqil olan və 1918-20-ci illər arasında müstəqilliyin və azadlığın nə olduğunu təkrar dadan millətimizin qan yaddaşında azadlıq arzusu həmişə yaşadığından biz onun uğrunda hər cür məhrumiyyətə və ölümə belə hazır olmuşuq. Tarix boyu dedik. Bəli, xalqımız tarixini keşməkeşlərində bəzi vaxtlarda müstəqilliyi itirsə də, həmişə azadlığı uğrunda mübarizə aparmış və gec-tez ona nail olmuşdur.

XX yüz ildə xalqımıza iki il də olsa, azadlığın ləzzətini daddıran ulu M.Rəsulzadənin müqəddəs ruhu önündə bu gün başımızı endirək, onun xatirəsini yad edək, ona rəhmət oxuyaq.

M.Rəsulzadənin yaratdığı dövlət Yaxın və Orta Şərqdə ilk xalq Cümhuriyyəti idi. Bu Cümhuriyyəti o zaman dünyanın bir çox dövlətləri tanıdı və ölkəmizə öz səfirlərini göndərdilər. Təəssüf

ki, bu xoşbəxtlik uzun sürmədi. Bununla belə, dünyanı az-çox dərk edəndən bu günə qədər bu müstəqil xalq Cümhuriyyəti haqqında həmişə nalayiq və təhqiramiz sözlər eşitmiş və oxumuşam. Onu da deyim ki, müəllimlərimdən eşitdiyim, kitablardan oxuduğum bu təhqiramiz sözlərə heç zaman inanmamış və həmişə içimdə bu sözlərə gülmüşəm. Çünki çəkdiyim bəlalardan, başıma gətirilən müsibətlərdən bilirdim ki, Müstəqil Dövlətə malik olan xalqın oğulları da azad və müstəqil ola bilərdi. Çünki mən adi bir həqiqəti - müstəqilliyin imkanlarını və xalqa verə biləcəyi səadəti çox yaxşı anlayırdım. Yaxşı yadımdadır, böyük dirijorumuz Niyazi Türkiyədən bu Cümhuriyyət haqqında yazılmış bir kitab gətirmişdi. Onu oxumaq üçün iki günlüyə mənə vermişdi. Bir gecəyə kitabı su kimi içdim. Sonuncu varaqları göz yaşı içərisində oxudum.

İyirminci illərdən üzü bəri bütün yazıçı və şairlərimiz, tarixçi alimlərimiz xalq Cümhuriyyətimizi zülm və istismar dövləti, yaradıcılırını isə xalq düşməni, vətən xaini adlandıranlar bir anlıq da olsa öz vicdanlarından niyə utanmadılar? Axı, onlar həqiqəti bilirdilər. Həqiqəti yaza bilmədilər, heç olmasa susaydılar...

70 ildə həm şeirimiz, həm nəsrimiz, həm dramaturgiyamız, həm də tənqidi fikrimiz bu respublikanı damğalamaqla məşğul olmuşdur. İndi isə bu günün zirvəsindən həmin əsərlərə baxanda adamı dəhşət götürür. Yalanın böyüklüyünə, həqiqətin ağlar qaldığına təəccüblənir və düşünürük: qoy, bizdən əvvəlki ədəbi nəslin ruhu bizdən inciməsin: bu ədəbi nəsli nə qədər sadəlövh, nə qədər talesiz olmuşdur. Ona görə sadəlövh deyirəm ki, onlar ağ yalanlara necə də inanmışlar; ona görə talesiz deyirəm ki, qan və can bahasına yaratdıqlarının böyük əksəriyyəti bu gün artıq makulaturadır.

1964-cü ildə yazıb gizlətdiyim "Nağıl-həyat" şeirimdə belə misralar var:

*Nadanlar görmüşəm, öz yolundakı*
*Dikə eniş deyir, düzə dik deyir.*

*Yazıqlar görmüşəm, öz qolundakı*
*Dəmir zəncirlərə bilərzik deyir.*

Artıq o günlər arxada qaldı. İndi çox şükürlər ki, hər şeyi öz adı ilə çağırırıq. İndi bugünkü ədəbi nəslin boynuna çox ağır bir yük düşür: Atalarımızın yaratdığı Xalq Cümhuriyyətinin tarixi rolunu riyasız, boyasız, olduğu kimi göstərmək və gələcək müstəqilliyimiz naminə qələm çalmaq!

1992
"Yanan da mən, yaman da mən", Bakı, 1995.

# VƏTƏNİNDƏN QOVULMUŞLAR

Didərginlər, köçkünlər, qaçqınlar... Bu dəhşətli sözlər XX əsrdə bizim dilimizdə neçə dəfə təkrar olunmuşdur...

Kin və küdurəti yerə-göyə sığmayan, qonşunu gözü götürməyən, həmişə gözü qonşu bostanına dikilən erməni milləti əsrdə 4-5 dəfə başımıza bəla açmış, xalqımızı hissə-hissə öz doğma ata ocağından qovmuşdur. Öz yurdundan, isti ocağından didərgin düşən bu binəsiblərin ahı dağı da, daşı da əridər, amma özünü dünyanın ən "ağıllı" və "mədəni" xalqı hesab edən erməni şovinistləri uf demədən bu rəzaləti törətdilər.

Ermənistandan qovulmuş Xanımzər Məmmədova "Kommunist" qəzetinə göndərdiyi məktubda yazır: "Mən 3 oğul böyütmüşəm. Əsgəri xidmətə göndərmişəm ki, sərhədlərimizi qorusunlar. Bəs bunu hansı qanuna yazmaq olar ki, ata-baba yurdunda, doğma elində-ocağında özümüzü qoruyan yoxdur".

Haqlı sualdır. Üç övladını uzaq sərhədlərimizi qorumağa göndərən adam öz doğma yurdunda müdafiəsiz qalmış, onu döyüb doğma ocağından didərgin salmışlar. Belə bir məqamda hansı ədalətdən, hansı insan hüququndan söhbət gedə bilər?

Dünyanın heç bir xalqı, Afrikanın yarımvəhşiləri belə bir qəbrə əl qaldırmaz. Özlərini "dünyanın ən mədəni xalqı" adlandıran ermənilər böyük Azərbaycan aşığı Ələsgərin büstünü uçurdu-

lar. Bu cümlələri yazarkən təhqir olunmuş sənətkarlarımızın xəyalı gözlərim önündə canlandı, gücsüzlüyümdən utandım və ürəyimdə dedim: Dədə Ələsgər, bizi bağışla. Biz sənin müqəddəs məzarını da qoruya bilmədik.

Nə qədər alçaq və şərəfsiz olmaq lazımdır ki, sazı və sözü ilə insanlara xoş duyğular bəxş edən, insanlığa, məhəbbətə çağıran el nəğməkarının qəbrinə əl qaldırasan? Onlar bunu etdikləri zaman heç olmasa öz sənətkarları Sayat Novanı düşünəydilər. O Sayat Novanı ki, əsərlərinin əksəriyyətini Ələsgərin dilində yaradıb. Mən ona da inanmıram ki, Sayat Novanın ruhu bugünkü nəvə və nəticələrinin törətdiyi rəzalətləri onlara bağışlaya.

Erməni millətçilərinin törətdiyi müsibətlərdən, cinayətlərdən bizim xalqın başına açdığı oyunlardan bəhs edən "Vətənindən qovulmuşlar" kitabı gələcək nəsillər üçün bir ibrət dərsidir. Bu gün çəkdiyimiz bu müsibətlərə görə biz yox, qoy onu törədənlər utansınlar.

1991

"Yanan da mən, yaman da mən", Bakı, 1995.

# ARZU

Hörmətli N.Seymur, “Səhər” qəzetinin 25 dekabr 1991-ci il sayında sənin “Bu Vətən kimindir” adlı həcmcə kiçik, məzmunca çox böyük məqaləni oxudum. Əslində bu yazı adi məqalə deyil, nəsrlə yazılmış şeir parçasıdır. Tamamilə doğru deyirsən: Bu gün Qarabağda bizim şərəfimizi qeyrət və namusumuzu qoruyan oğullarımızı dünyaya gətirməklə kifayətlənməyən, həm də bir əsgər kimi əlində silah tutan ana və bacılarımıza heykəllər qoymalı, onların qeyrəti önündə səcdəyə gəlməliyik.

Buna görə də mən sənin məqaləni tərəddüdsüz “Arzu” adlandırardım. Bu arzudan çıxış edərək Sən “Bu Vətən kimindir?” sualına “Bu Vətən onu qoruyanındır, onun namusunu çəkənindir” cavabını verirsən. Kaş sənin bu cavabın düz olaydı...

Əziz qardaşım, bu, sənin və sənin kimi qeyrətli qələm sahiblərinin şairanə arzusudur. Əslində isə bu Vətən, Vətənin qeyrətini çəkənlərin deyil, onun kefini çəkənlərindir. Vətənin kefini çəkənlər vəzifə başında, qeyrətini çəkənlər isə, yazdığın kimi, əlində silah Vətənin keşiyini çəkir.

Bu 70 ildə həmişə belə olub. Ömür boyu Vətənin nə olduğunu bilməyən, gözlərini Moskvaya zilləyən, Vətənin dilindən, dinindən, tarixindən xəbəri olmayan, əksinə, bunlara dodaq büzən, balaları ilə rus dilində danışmağı mədəniyyət hesab edən bu cür eybəcər mənəviyyatı ilə bizə kommunist əxlaqından dərs deməkdən utanma-

yanlar bu gün yenə də həmən hökmündə, həmən təmtərağındadır. Amma o dəhşətli illərdə də Vətənin qeyrətini çəkdiyinə görə əzab çəkənlər bu gün yenə də qapılar dalında əzab çəkməkdədirlər.

Bax, ən böyük dərd budur!

Amma kaş sən dediyin kimi, Vətən, onun namusunu çəkənlərin olaydı.

"Səhər" qəzeti, 27 dekabr, 1991.
"Yanan da mən, yaman da mən", Bakı, 1995.

**ALLAH AMANATI**

“Göyçə” qəzetinin ilk nömrəsini diqqətlə oxudum. Bu adda və bu məzmunda bir qəzetə ehtiyac var idi. Belə bir qəzetin işıq üzü görməsi münasibətilə göyçəli qardaş və bacılarımı təbrik edir və qəzet barədə öz mülahizə və təkliflərimi bildirmək istəyirəm.

Uzun illərdən bəri əsl oğuz övladı kimi tanıdığım, şəxsiyyətinə və mərdanəliyinə dərin hörmət bəslədiyim M.Talıboğlu Musayevin bir fikrinə dəstək vermək istəyirəm. O yazır: “Qəzetdəki yazılar həm də tarixi sənədə çevrilməlidir”.

Tamamilə doğrudur. Biz unutmamalıyıq ki, Göyçə mahalı əski türk-oğuz torpaqlarıdır. Namərd qonşularımız yalnız indi deyil, çox əvvəllərdən Göycə mahalındakı kənd, oba. dağ, dərə, çay, qaya və s. kimi coğrafi adları dəyişməklə qədim Göyçəmizə sahib çıxmışlar. Dünəni və bu günü bilirik, amma sabahı bilmək olmaz. Mən belə hesab edirəm ki, sabah zorakılığın deyil, ədalətin hökmü ilə üzümüzə gülümsəyəcək. Bir də atalar demişkən, buynuzlu qoçun hayıfı buynuzsuz qoçda qala bilməz.

Biz sabahın bu gün açılacağını gözləməməli, tarixi yaddaşımızı heç olmasa hələlik qəzet səhifələrində bərqərar etməliyik. Bunu qəzet əməkdaşlarından və daimi müəlliflərindən rica edirəm.

İkinci təklifim: Göyçə mahalından respublikamızın rayon və kəndlərinə səpələnmiş ailələrin başlarından aşan dərdləri qəzetdə

görünməli, onların qayğılarına biganə olan soyuqqanlı iqtidar sahibləri ifşa olunmalıdır.

Qəzetimizin birinci nömrəsində bəstəkar R.Nəsiboğlunun, E.İsmayılın "Allah amanatı" şeirinə yazdığı nəğmənin not yazısını bilmədiyimdən, mahnı haqqında bir söz deyə bilmərəm. Amma bu şeir, misralardakı yanğı tüstümü təpəmdən çıxartdı. Bu, adi şeir deyil, ata-baba yurdundan, isti ocağından qovulan zavallı didərginlərin torpaq həsrətinə niskilli bir ağıdır. Bu ağı göyçəlilərin dərdini, niskilini quru sözlərlə deyil, od-alova bürünmüş hisslə nə qədər gözəl ifadə etmişdir. Öz el-obasını tərk etmiş didərginin dərdini o yerlərdə "qəbir-qəbir elim qalıb" ifadəsindən güclü və tutarlı demək mümkün deyil.

Fikrin gücünə bax, ilahi: torpağın sahibi olan el də qəbir-qəbir qalarmı? Bəli, isti ocağından qovulmuş göyçəlilərin eli o torpaqlarda sahibsiz qalan qəbirlərdir.

Halal olsun dərdini bu qüdrətdə, bu tutumda deyə bilən qələm sahibinə!

Bəlkə gəldim, mən gəlincə,
Çöllər, Allah amanatı -

misralarındakı ümidə görə də sağ ol, şairim! Ulu Tanrı göyçəlilərin muradını gözündə qoymasın! Beləliklə, tutduğu doğru yolda "Göyçə" qəzetinə böyük uğurlar diləyirəm.

1993.
"Yanan da mən, yaman da mən", Bakı, 1995.

## QARDAŞ DƏRDİNƏ BİGANƏLİK

"Ekran-Efir" qəzetinin 13-19 sentyabr (1993) tarixli sayında şair İsa İsmayılzadə "O yanda qan tökülür, Bu yanda..." məqaləsində düşdüyümüz faciəli vəziyyətdən, milli varlığımıza biganəliyimizdən ürək ağrısı ilə söhbət açır.

Qələm dostumun qarşılaşdığı biganliklə mənim də bir neçə gün əvvəl qarşılaşdığım yadıma düşdü: Füzuli, Cəbrayıl rayonlarının işğalından bir gün sonra boynumda çox böyük haqqı olan, hörmət elədiyim bir dost məni oğlunun toyuna çağırdı. Getməyə bilmədim. Belə şərtləşdik ki, bir saatdan artıq oturmayacağam.

Toy, nə toy! "Bala Nərgiz" kimi bayağı mahnılar və əttökən rəqslər! Cavanlardan tutmuş qocaya, uşaqdan tutmuş böyüyə qədər toy əhli çırtıq çalıb oynayır. Onluq, yüzlük əskinaslar da göydən yağış kimi yağır. Xəzəl kimi yerə səpələnmiş əlvan əskinasların üstündə adamlar çatısı qırılmış dana kimi dingildəyir. Hətta bir dəliqanlı iki ədəd təzə yüzlüyü şama tutub yandırdı.

Gözlərimə inanmadım. Elə bil dünən işğal olunmuş torpaqlarımızın bu adamlara heç bir dəxli yoxdur. "Qeyrətli" kişilər arasında bağlı pul dəstəsini cırıb göyə sovurmaq yarışı gedirdi. Elə bil bununla hər kəs öz qeyrətini və kişiliyini nümayiş etdirmək istəyirdi. Onluq dəstini səpələyən bir cavanı "məğlub etmək" mənim qarşımda əyləşən ağ saçlı (?) bir kişi dərhal ayağa qalxıb, təzə əlillik dəstini

səpələməyə başladı.

Məəttəl qalmışam. Doğurdanmı bu bizik? Doğma torpaqları yad əllərdə çeynənən, bir milyon didərgini olan, vətəninin balaları Bakı küçələrində gəlib-gedənlərə əl açan bir millətin oğlu beləmi olmalıdır? Bu, harınlıqmı, yoxsa biganəlikmi? Yəni, biz öz dərdimizə, öz faciəmizə bu qədərmi laqeydik? Əgər belədirsə, vallah, billah, biz Millət deyilik!

Dözə bilmədim. Əlli manatlıqları göyə səpələyən yaşlı kişi töyşüyə-töyşüyə qarşımda oturanda ona dedim:

- İndi sən göyə pul səpələməklə nə demək istəyirdin?

Heyvan məni başa düşmədi. İzah etməyə məcbur oldum:

- Pulun artıqdı? (Demək istəyirdim ki, arpan artıq düşüb?)

Yenə başa düşmədi. Dedim:

- Sən göyə pul sovura bilirsən, amma mən yox. İndi demək istəyirsən ki, sən məndən artıqsan? Onluğun qarşısına əlillik çıxartmaqla sən cavandan artıq olduğunu demək istəyirsən? Ayıb deyil? Bəs dünən Cəbrayıl, Füzuli rayonlarının əlimizdən getməsi səni ağrıtmır?

Bu arsız-gorsuz adam nə cavab versə yaxşıdır?

- Toyda oynayarlar, yasda ağlayarlar.

Dedim:

- Axı, sənin millətin yas içindədir, o yası niyə görmürsən, küçələrə tökülən qaçqınların halına ağlamırsan?

Susdu... Mən də susdum. Dərhal toyu tərk elədim. Yolda düşünürdüm: millətimizdəki bu soyuqqanlılığı əsrimizin əvvəlində Sabir də görmüş “Bizdə bu soyuqqanları neylərdin, ilahi” - deyə nalə çəkmişdi. 1967-ci ildə yazdığım Sabirin həmin misrasını epiqraf gətirdiyim “Mənə nə var?” şeirimdə təbiətimizdəki bu soyuqqanlılığa üsyan etmişdim.

Demə, daş yayınıb qardaşa dəydi.
Mən elə bildim ki, daş daşa dəydi.

Yurdun o başında yıxılan kəsin
Ağrısı qəlbində gərək göynəsin.

M.Araz da bu fikri dəstəkləyən "Məndən ötdü, qardaşıma dəydi" şeirini yazdı. Bu gün də İ.İsmayılzadə yenə həmin məsələyə toxunur.

Görünür, qardaş dərdinə biganəlik bizdə xroniki xəstəlikdir. İndi ki, belədir, Allah özü bizim fəryadımıza çatsın!

"Ekran-Efir" qəzeti, 20 sentyabr 1993.
"Yanan da mən, yaman da mən", Bakı, 1995.



# ANA DİLİM - VARLIĞIM

*Ana dili xalqın ruhudur, mənəvi dünyasıdır...*

**Bəxtiyar Vahabzadə**



## XALQ!
## YENƏ XALQ!

Sənət aləmində müxtəlif yollar var. Bu yolların hansı ilə istəsən gedə bilərsən, lakin ən yaxşısı budur ki, yolu özün açasan, açılmış çığırlarla getməyəsən. Çünki sənətin ən böyük düşməni yamsılamaqdır. Doğru yol tapmaq üçün, yenə də ən böyük meyar xalqdır, onun mənəviyyatıdır. Xalqı bilmədən, mənəviyyatını duymadan onun qəlbinə yol tapmaq çətindir. Sənət bir ovuc adamlar üçün deyil, kütlə üçün, xalq üçündür. Sənətkar elə etməlidir ki, ən dərin, ən müasir, ən qabaqcıl fikirləri tez və dəqiq xalqına çatdıra bilsin. Buna görə də burada əllaməlik lazım deyil. Ən doğru yol xalqı öz dili ilə dindirməkdir.

Bəzən bizə xalq şeiri çox adi, sadə və bəsit görünür. Lakin diqqətlə baxanda, bu sadəlikdə nə qədər böyüklük olduğuna heyrət edirsən. Mən deyərdim ki, məhz bu cür yazmaq, sadə və aydın yazmaq, xalqın başa düşəcəyi tərzdə yazmaq çox çətindir, lakin vacibdir. Mən sizə Koroğlu qoşmalarından birini misal gətirmək istəyirəm.

Üç yaşından beş yaşına varanda,
Yenicə açılan gülə bənzərsən.
Beş yaşından on yaşına varanda,

Arıdan saçılan bala bənzərsən.

Obrazlara diqqət yetirək. İnsan körpə ikən hələ, açılmış gül deyil, qönçədir. 10 yaşlı uşaq, arıdan yenicə saçılmış, hələ toxtamamış, yetkinləşməmiş bala bənzəyir. Burada başqa bir el misalını da yada salmaq lazımdır. Eldə övlad haqqında deyərlər: "Acılığından yemək olmur, şirinliyindən atmaq olmur". Aşıq buradakı "şirinlik" sözünü bala bənzətmişdir. Bu bal hələ yetkin deyil. O, yenicə saçılıb. O, hələ pətəkdə yetişməlidir. Görün aşığın nə qədər dərin həyat müşahidəsi var. Buna görə də onun obrazları tutarlı və yerli-yerindədir:

On dördündə sevda yenə başına,
On beşində haram girər duşuna.
Çünki yetdi iyirmi dörd yaşına,
Boz-bulanıq axan selə bənzərsən.

İnsanın yetkinlik dövrünə qədəm qoymasını aşıq bəndin ilk misralarında verir. Bu iki misrada gənclik xəyallarından, arzularından söhbət gedir. Son iki misrada isə gəncliyin ən qızğın, ən qaynar dövrü qələmə alınır. İnsan ömrünün müxtəlif dövrləri fəsillərlə nə qədər uyğun gəlir. Yaz aylarında çaylar daşır. Bu zaman dağlardan nərildəyə-nərildəyə axan sellər bulanıq olur. İnsanın ömrünün bu dövrü eləcə qaynar, eləcə çağlar və bozbulanq olur. Aşıq da haqlı olaraq 24 yaşı bozbulanıq axan sellərə bənzədir:

Otuzunda kəklik kimi səkərsən,
İgidlik eləyib, qanlar tökərsən.
Sən qırxında əl haramdan çəkərsən,
Sonası ovlanmış gölə bənzərsən.

Gənclikdən sonrakı dövr... Artıq o, sel kimi çağlar deyil. O, ya-

şadığı illərə baxır, səhv addımlarını düşünür, bəzən də xəcalət çəkir. Bu dövrü şair "sonası ovlanmış gölə" bənzədir.

Əllisində əlif qəddin çəkilər,
Altmışında ön dişlərin tökülər
Yetmişində qəddin-belin bükülər,
Karvanı kəsilmiş yola bənzərsən.

Bu bənddəki sonuncu misraya xüsusi diqqət yetirmək lazımdır. "Karvanı kəsilmiş yol". Aşıq bununla nə demək istəyir? Bəli, 70 yaşında insan təklənir, işə-gücə yaramır. Həmyaşlarının çoxu artıq yoxdur. Bu halında qoca, həqiqətən "karvanı kəsilmiş yola" bənzəyir. Artıq bu yolda gediş-gəliş yoxdur. Bu yolun üstündə yabanı otlar da bitmişdir. Nəhayət, şeirin axırıncı bəndi:

Səksənində sinir yenər dizinə,
Doxsanında qubar qonar gözünə
Koroğlu der, çünki yetdin yüzünə,
Uca dağ başında kola bənzərsən.

Bu bənddə də əsas vurğu sonuncu misranın üzərindədir. 100 yaşlı insan müdrikdir, ucadır. Lakin tək-tənhadır. O, "uca dağ başında kol" misalındadır.

Buradakı həyati detallar, ştrixlər, obrazlar adamı valeh edir. 5 bəndlik bir qoşmada aşıq 100 illik ömrün müxtəlif pillələrini böyük bir ustalıqla ümumiləşdirə bilmişdir. "Bozbulanıq axan sel", "sonası ovlanmış göl", "karvanı kəsilən yol", "uca dağ başında kol" detallarının hər biri ömrün bir pilləsinə nə qədər uyğun, nə qədər münasibdir. Bu şeirin mayası həyatdan, dərin müşahidədən gəlir. Bizi burada forma maraqlandırmır. Biz məzmuna, ondakı ifadə vasitələrinin gözəlliyinə valeh oluruq.

Mən bütün cavan şairlərə xalq ədəbiyyatı qaynaqlarını mükəmməl öyrənməyi, bu böyük dəryada üzə bilməyi, ordan qidalanmağı tövsiyə edərdim.

1969.
"Sadəlikdə böyüklük", Bakı, 1978.



# ANA DİLİM -
# ANA KÖKÜM

Keçən il yazıçıların Moskvada keçirilən Ümumittifaq plenumunda respublikalarda milli dillərin vəziyyəti məsələsi ciddi mübahisə doğurdu. Bu məsələ bizim respublikada da hələ həllini gözləyir. Bu barədə dəfələrlə yüksək kürsülərdən, deməyimizə baxmayaraq, yenə də Konstitusiyamızda Dövlət dili kimi təsbit edilən Azərbaycan dili Dövlət səviyyəsinə qaldırılmamışdır.

Mən Konstitusiyamızın bu barədəki 73-cü maddəsini olduğu kimi xatırlatmaq istəyirəm: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir.

Azərbaycan SSR dövlət orqanlarında və ictimai orqanlarda, mədəniyyət, maarif müəssisələrində və başqa idarələrdə Azərbaycan dilinin işlədilməsini təmin edir və onun hərtərəfli inkişafına dövlət qayğısı göstərir".

Respublika əhalisinin müəyyən hissəsi başqa xalqlardan ibarət olduğuna görə və SSRİ-nin bütün xalqları üçün rus dili ortaq dil olduğundan bu dili hamımızın bilməsi zəruridir. Biz rus dilinin vasitəsilə həm rus mədəniyyəti və həm də dünya mədəniyyəti ilə tanış oluruq. Buna görə də Sovetlər İttifaqında yaşayan başqa xalqlar kimi, hər bir azərbaycanlı öz ana dili ilə yanaşı rus dilini də bilməlidir. Bununla bərabər elə eləmək lazımdır ki, milli münasibətlərdə və dillərin

hüququnda tarazlıq pozulmasın. Axı, V.İ.Lenin dillərə münasibətdə tarazlığın qorunması zərurətindən dəfələrlə söhbət açmışdır.

İndi gəlin, görək, biz əməli işdə Leninin dediyi bu tarazlığı saxlaya bilmişikmi? Tarazlıq bir yana, görək, Konstitusiyada yazıldığı kimi, Azərbaycan dili doğrudanmı Dövlət dilidir? Hamımıza məlumdur ki, yox! Çünki Dövlət dilinin hüququnu qorumuruq. Bunun zərurət olduğunu başa düşməyənlər idarələrdə işləmədiyinə görə ana dilinə biganəlik göstərir, heç bu barədə düşünmür, bunu özlərinə nöqsan da hesab eləmirlər. Beləələri haqqında böyük rus yazıçısı K.Paustovskinin məşhur kəlamını bir daha xatırlatmaq istəyirəm: “Hər bir insanın öz ana dilinə münasibəti onun mədəni səviyyəsi ilə yanaşı, vətəndaşlıq qeyrətini də müəyyən edir. Ana dilini sevmədən, Vətəni sevmək mümkün deyildir. Öz ana dilinə biganə olan adam vəhşidir”.

Ukrayna şairi B. Oleynik SSRİ yazıçılarının plenumunda, çox haqlı olaraq, göstərdi ki, biz rus dili və rus mədəniyyətinin zərurətindən təbii olaraq danışırıq. Bu, bizim beynəlmiləlçi təbiətimizdən irəli gəlir. Ancaq biz öz milli dilimizin, tariximizin və milli məktəblərimizin vəziyyətindən danışanda bəziləri bizə “bunlar da baş qaldırdı” deyir.

Oleynik haqlıdır. Hansı dilin zərurətindən danışsaq, bizi alqışlayır və beynəlmiləlçi adlandırırlar. Amma çaşıb ana dilinin zərurətindən danışan kimi, anasının dilini bilməyən, ona həqarətlə baxanlar bizə şübhə ilə yanaşır, ən yaxşı halda bizi “geri qalmış adam”, özünü isə irəli getmiş, mədəni və müasir adam hesab edir.

Vaxtilə mühüm vəzifədə olan bir yoldaşla bu barədə söhbət edirdik. Mən respublikada dil tarazlığının pozulmasından danışanda o mənə dedi: “Unutma ki, biz beynəlmiləl respublikayıq”. Mən ona cavab verdim ki, elə mən də beynəlmiləlçiliyi tələb edirəm. Çünki “beynəlmiləl” sözünün lüğəti mənası “millətlər birliyi” deməkdir. Biz yalnız bir dili işlədib, respublikanın adı ilə adlanan dili, rəsmi yığıncaqlardan və dövlət idarələrindən qovduğumuz zaman

beynəlmiləlçilik pozulurmu?

Vəzifəli yoldaş mənim bu sualıma cavab verə bilmədi. Məncə, bu haqda ciddi söhbət aparmağın vaxtı çoxdan çatmışdır. Çünki bu məsələ indi ölkəmizdə, ictimai həyatımızın bütün sahələrində baş verməkdə olan yenidənqurmanın mahiyyətindən irəli gəlir.

Böyük rus alimi Lixaçov yazır, “Böyük mədəniyyəti, böyük milli ənənələri olan böyük xalq, əgər öz taleyini kiçik xalqların taleyi ilə bağlayırsa, xeyirxah olmalıdır. Böyük xalq kiçik xalqa öz varlığını, öz dilini və mədəniyyətini qoruyub saxlamaqda kömək etməlidir”.

Rus xalqı bu işdə bizə kömək edir. Milli respublikalarda akademiyalar, universitetlər, yaradıcılıq təşkilatları, teatr və başqa mədəniyyət ocaqları açılır, mədəniyyətimizin inkişafı üçün işlər görülür. Buna görə də respublikada yaranmış indiki vəziyyətin - Azərbaycan dilinə biganəliyin əsas təqsirkarı biz özümüzük. Sovetlər İttifaqının yarandığı gündən ölkəmizdəki bütün xalqlara milli bərabərlik hüququ verilmişdir. İndi bizə nə lazımdır? Özümüzü başqaları ilə bərabərhüquqlu bir xalq kimi dərk etmək! Özümüzə, milli varlığımıza hörmət etmək! Heç kəs bizə yuxarıdan demir ki, övladlarına ana dilini öyrətmə, ana dilində olan məktəblərə biganəlik göstər, dövlət dilində yazılmış ərizəni qəbul etmə! Ana dilində danışma!

Bu yaxşı haldırmı ki, ümumdünya şöhrəti qazanmış, ana dilinin gözəl bilicisi Üzeyir bəyin anadan olmasının 100 illik yubiley iclası ana dilində keçməsin? Eləcə də, ədəbi dilimizin əsasını qoyan Nəsiminin yubileyi.

Dilimizə bu cür biganə olanlar kimdir? Öz kökündən ayrılmış, doğma xalqının dilini, tarix və mədəniyyətini bilməyən, bilmədiyinə görə də bilmədiyinə qənim kəsilən bəzi milli nihilistlər.

Ç.Aytmatov “Oqonyok” jurnalının 1987-ci il iyul nömrəsində yazır ki, “beləl əri “fövqəlbeynəlmiləlçi” adlanır və böyük hörmətə malik olurlar. Mən belələrini milli nihilist adlandırıram. Bu hadisə millətçilikdən daha mürtəce və daha qorxuludur. Milli dilini danan milli nihilistlər də mətbuatda ifşa edilməlidir”.

Milli dillərə biganəliyi milli faciə adlandıran yazıçı bu faciəni çay və göllərin quruması, torpaqların əriməsi kimi ekoloji faciədən dəhşətli hesab edir.

Bir neçə fakt demək istəyirəm.

“Kommunist” qəzetinin 1987-ci il 21 fevral tarixli nömrəsində deyilir ki, Azərbaycan SSR tikinti, mənzil-kommunal təsərrüfatı, yüngül sənaye, əhaliyə məişət xidməti nazirlikləri, Bakı Baş Tikinti İdarəsi, Bakı şəhər Soveti İcraiyyə Komitəsi “Kommunist” qəzetinə abunə yazılmır. Buna görə də bu nazirliklərin və idarələrin ünvanına qəzetdə tənqidi material çap olunanda onlar qəzeti oxumadıqlarına görə bu yazıya illərlə cavab vermirlər, dəyirman bildiyini edir, çax-çax baş ağrıdır.

Demək, bu nazirlik və baş idarələrin minlərlə məsul işçisi evlərində də “Kommunist” qəzetini almır və yerli-dibli oxumurlar. İnsafən, onları qınamalı da deyil. Ana dilini bilmədiklərinə görə o dildə yazılan qəzeti necə oxusunlar? Redaksiya həmin idarələrə zəng çalıb tənqidi yazıya cavab istəyəndə, məlum olur ki, onların yazıdan heç xəbərləri də yoxdur. “Kommunist” qəzetinə niyə abunə yazılmadıqlarını soruşanda Bakı Baş Tikinti idarəsinin partiya təşkilatının katibi M.Tuqanov, görün, redaksiyaya nə cavab verir: “İdarə qəzet almır, mənə nə?.. Heç gələn il də abunə yazılmayacağıq”. Tuqanova bu hökmü və cəsarəti verən amil barədə düşünəndə adamı dəhşət götürür.

Azərbaycan SSR Yüngül Sənaye Nazirliyi isə tənqiddən nəticə çıxarıb bu ildən “Kommunist” qəzetinə abunə yazılıb. Amma səhv düşüb, Azərbaycanda çıxan “Kommunist” əvəzinə, Ermənistanda (!) rus dilində çıxan “Kommunist” qəzetini almalı olublar.

“Kommunist” qəzetində çıxan “Kinayəli elan” məqaləsində oxuyuruq: “Bakı şəhər Soveti İcraiyyə Komitəsinə göndərilən məktublar quyuya atılan daş kimi itir... Qəzetdə çıxan onlarca yazılara illərlə cavab alınmır”.

Görəsən, niyə?

Bakı Soveti kimi mühüm dövlət idarəsinin başında duran sədr öz ana dilində danışa bilmir. Bu adam anasının dilinə hörmət eləmir, bu, onun öz mədəniyyətinin göstəricisidir. Dövlət idarəsinin başında durursa, bəs dövlət dilini niyə bilmir? Əgər Bakı Sovetində işlərin heç olmasa 10-20 faizi ana dilində getsəydi, belə bir adam o vəzifəni tuta bilməzdi. Amma indiki halda, o, ana dilini bilməməsinə görə xəcalət çəkmir, əksinə, bunu ona nöqsan tutmadıqlarına görə fəxr edir.

Adamları vəzifəyə təyin edəndə, əgər onun hər iki dili mükəmməl bilib-bilmədiyi ilə maraqlansalar, belə adamlar yüksək rütbələrə çata bilməz. Rütbələrə can atanlar isə məcbur olub, hər iki dili mükəmməl öyrənər.

Xalq yazıçısı S.Rəhimov, Ə.Vəliyev, B.Bayramov və şair Q.Qasımzadə ilə birlikdə vaxtilə böyük vəzifədə olan bir nəfərin qəbuluna getmişdik.

Kim olduğumuzu soruşdu, dedik. Qəribədir, bu yoldaş heç birimizi tanımadı. Niyə? Ona görə ki, Azərbaycan mətbuatını oxumur və hətta televizorda da Azərbaycan verilişlərinə baxmır. Televizorda, heç olmasa, yerli verilişlərə baxsaydı, hər halda bizi tanımış olardı. Bəs, televizorda yerli verilişlərə niyə baxmır? Çünki ad-familiyasına görə azərbaycanlı olsa da, xalqının dilini bilmir. İndi beləsinə xalqın hansı dərdini deyəsən?

Rusiyada Fadeyevi, Şoloxovu, müasirlərdən Rasputini, Yevtuşenkonu tanımayan, əsərlərini oxumayan adam mədəni hesab edilərmi? Və beləsi böyük rütbəyə çata bilərmi? Yox. Bəs nəyə görə bizdə belələri "mədəni" də olur, hələ bir böyük vəzifələrə də çatır?

Dövlət lazım bilib, orta və ali məktəblərin Azərbaycan bölməsinə rus dilinin, rus bölməsinə isə Azərbaycan dilinin tədrisini daxil edib. D.Bünyadzadə adına Xalq Təsərrüfatı İnstitutunun* rektoru rus bölməsində Azərbaycan dilini ixtisara salmaq və ümumiyyətlə, Azərbaycan dili kafedrasını ləğv etmək haqqında elmi şuranın qərarını çıxarır.

Rektordan soruşan yoxdur ki, necə olur ki, sənə qədər bu institutа Azərbaycan dili lazım idi, sən isə bunu artıq hesab edirsən? Sən hansı səlahiyyətin sahibisən ki, bir ölkənin dövlət dilini lüzumsuz hesab edib onu böyük bir institutun tədris planından siləsən? Səndən mənsub olduğun xalqa xidmət istəmədik, bəs xəyanət nədir?

O, xalqın dilinə qəsd etməkdən çəkinmədi. Çünki o əmindir ki, bundan ötrü ona heç kəs bir söz deməyəcək. Bu hərəkətin onun vəzifəsinə zərrə qədər xələl gətirə bilmək ehtimalı olsaydı, o, bu cəsarəti eləməzdi. Çünki belələri üçün nə vətən var, nə də onun minillik mədəniyyətini qoruyub saxlayan ana dili! Onlar üçün cəmiyyətdə mövqe tutmaq və onu möhkəm saxlamaq ehtirası var. Çünki belələri vəzifəsiz və mövqesiz heç bir şey olduqlarını özləri də yaxşı bilir.

Gürcü xalqı Tbilisidə Ana dilinə böyük bir heykəl qoyub. Sentyabrın 1-də məktəblilər "Ana dili" heykəlinin qarşısında bu dilə sadiq olacaqlarına and içib tədris ilinə başlayırlar. Biz dilimizə heykəl qoymadıq, heç olmasa, gəlin, ona xəyanət etməyək.

Azərbaycan beynəlmiləl respublikadır. Müxtəlif xalqların nümayəndələri respublikada çiyin-çiyinə yaşayırlar.

Bəs onlar yaşadığı respublikadakı xalqın dilini, mədəniyyətini, tarixini, adət-ənənəsini bilirmi? Heç olmasa, öyrənməyə cəhd edirmi? Bu suallara müsbət cavab verməkdə çətinlik çəkirik. Respublikamızda yaşayan başqa xalqların Azərbaycan dilini bilməməsi dilimizə, xalqımıza hörmətsizlik deyilmi?

Xüsusən, xidmət sahələrində işləyənlərin yerli dili bilməsi mütləq vacibdir. Nəyə görə mağazada işləyən satıcıya bir kilo qənd almaq üçün müraciət edən ağbirçək qadın özünə tərcüməçi axtarmalıdır? Təəssüf ki, yerli dili bilməyən adamlar nəinki xidmət sahələrində, hətta mühüm dövlət idarələrində də rəhbər vəzifələrdə sərbəst işləyir, qəbuluna gəlib dərdini ana dilində demək istəyənlərə isə kinayə ilə "men bilmez" deyir.

*O vaxt N.A.Voznesenski adına Leninqrad Maliyyə-İqtisad İnstitutunun Bakı filialına çevrilmişdi. İndiki Azərbaycan Dövlət İqtisad Universiteti - *red.*

Keçən ilin avqust ayında Pribaltika respublikalarında millətçi nümayişlər keçirildiyi barədə mətbuatımızda ciddi yazılar verilmiş Pribaltika hadisələri təhlil edilmişdi. "Pravda" qəzetində dərc olunmuş geniş yazıda yaranmış vəziyyətin səbəbləri təhlil edilərkən orada yaşayan başqa xalqların nümayəndələrinin yerli dillərə biganəliyindən söhbət açılır, bunun yerli xalqlarda ciddi narazılıq doğurduğu göstərilirdi. Qəzet 30 ildən çox Vilnüsdə yaşamış, orada məktəb bitirmiş bir nəfərin fikrini verir: "Adamla rusca danışmaq belə istəmirlər, hətta "salam"a da cavab vermirlər".

"Günah sənin özündədir" - deyə "Pravda" belələrinə cavab verir. Axı, respublikada bu qədər yaşayasan və Litva xalqının tarixini, mədəniyyətini, onun dilini bilməyəsən, bu, sadəcə olaraq, ayıb deyil, bu, ətrafında olan adamlara hörmətsizlikdir".*

Pribaltikada bu cür hallar baş verəndən sonra rus məktəblərində milli dillərin yarıtmaz öyrənildiyini etiraf edirik, tədbirlər görürük. Bəs başqa respublikalarda niyə bu cəhətə fikir verilmir, konkret iş görülmür?

Gərək nəsə baş verə, sonramı ayılaq?

Qonşu Gürcüstan və Ermənistan respublikalarında xeyli azərbaycanlı yaşayır. Bu respublikalarda yaşayan azərbaycanlıların dilinə, adət-ənənəsinə hörmətsizlik ciddi narahatlıq doğurur. Bir neçə il əvvəl mən bu məsələlərlə maraqlanaraq, Gürcüstanın bəzi rayonlarını gəzmişdim. Təxminən yeddi minə qədər azərbaycanlı yaşayan Kəpənəkçi kəndinin mədəni və sosial inkişafı təəssüf doğurur. Kənddə 400 şagird üçün nəzərdə tutulmuş məktəb var. Lakin təkcə orta məktəbdə 1600 şagird oxuyur, səkkizillik və ibtidai məktəblərdə də bu qədər. Bunun nəticəsidir ki, uşaqların bir qismi şəxsi evlərdə (!) təhsil alır.

Gürcüstanın bəzi rayonlarında, o cümlədən, Kaspi, Axmeta, Telavi kimi rayonlarının azərbaycanlılar yaşayan kəndlərində ana dilində

*Bax: "Pravda" qəzeti, 1 sentiyabr 1987-ci il.

məktəblər yoxdur. Bəzi yerlərdə isə Azərbaycan məktəbinə, əhalisi azərbaycanlılardan ibarət olan kolxoz və sovxozlara azərbaycanlı direktorun qoyulmaması hansı məntiqə uyğundur?

Qeyd edim ki, bütün gördüklərim faktlar barədə vaxtilə respublikanın rəhbərlərinə açıq məktubla müraciət etmişəm. Amma nə fayda? Bəzi tədbirlər görülsə də, bu iş başa çatdırılmadı.

Təəssüf ki, son vaxtlar bəziləri aşkarlıq və demokratiya şüarları altında milli məsələlərdən də "söhbət açır" və bu işdə elan olunmuş prinsiplərə biganəlik göstərirlər. Məsələn, İ.Belyayev "İslam və siyasət" adlı böyük məqaləsində* "islamşünaslıqda" ciddi səhvlərə yol verir, Sovet İttifaqının müsəlmanlar yaşayan respublikalarındakı xalqların milli qüruruna toxunan "kəşflər" edir. O, oxucunu islam dininin rəmzi olan idarələrin artması ilə "qorxudur", yeri gəldikcə Qərbin bulvar mətbuatından "faktlar" göstərir. Həqiqi faktlara isə göz yumur. Göz yumur ki, 6 milyona yaxın müsəlman yaşayan Azərbaycan SSR-də indi cəmi 18 məscid, 1,5 milyon əhali yaşayan Bakıda isə cəmi 2 məscid var. Qalanları ya məhv edilib, ya da anbara çevrilib. Yuqoslaviyada isə 2 milyondan bir qədər çox müsəlman yaşadığı halda 1946-1987-ci illər ərzində 800-ə yaxın məscid tikilib və ya bərpa olunub".**

Məlumdur ki, ölkəmizdə yaşayan xalqların çoxunun, o cümlədən, rusların da adam və yer adlarının bir hissəsi tarixən dinlə bağlı olmuşdur. Ona görə də İ.Belyayev müsəlman adlarının "təmizlənməsini" məsləhət görür, amma xristian və s. dinlərlə bağlı adları (Boqdan, Boqdanov, Boqolyubov, Boqomolov, İsayev, Abramov, Qriqoryan, Moisey, İosif və s.) isə "unudur".

Təbiidir ki, xalqlara, onların adət-ənənəsinə, milli qüruruna belə münasibət ölkənin bir çox yerlərində ciddi etiraza səbəb olmuş, qəzetin və müəllifin ünvanına etiraz məktubları göndərilmişdir. Axı, aşkarlıq və demokratiya anarxiya demək deyil. Aşkarlıq açıq söhbət,

*Bax: "Literaturnaya qazeta", 13 - 20 may 1987-ci il.
**Bax: "Yuqoslavskiye novosti" qəzeti, 1987-ci il, 2-4.

vicdanlı söhbətdir. Aşkarlıqdan sui-istifadə etmək, başqalarının milli mənafeyinə, dilinə, adət-ənənəsinə sataşmaq yenidənqurma prinsiplərinə ziddir. Gəlin, bunu unutmayaq. Unutmayaq ki, V.İ.Lenin vaxtilə yazırdı: "Müxtəlif millətlərin azad və mehribancasına birgə yaşaya bilməsi üçün... tam demokratizm olmalıdır. Heç bir millət üçün, heç bir dil üçün gərək heç bir imtiyaz olmasın! Azlıq təşkil edən millətlərə qarşı azacıq da olsa təzyiqə, azacıq da olsa ədalətsizliyə gərək yol verilməsin!"**.

Məqalə "Komsomolskaya pravda"
qəzeti redaksiyasına və
ÜİLKGİ MK-ya göndərilmişdir.
"Gəlin, açıq danışaq", Bakı, 1989.

*V.İ.Lenin. Əsərlərinin tam külliyyatı. 23-cü cild, səh.164.

## İFTİRAYA CAVAB

“Komsomolskaya pravda” qəzetinin 1988-ci il 16 yanvar tarixli nömrəsində xüsusi müxbir S. Romanyukun “Arqumentlər olmadan” adlı məqaləsini oxuyub təəccübləndim. Məqalədə “Əmək kollektivində vətənpərvərlik tərbiyəsi və milli tərbiyə” mövzusunda Qırğızıstanda keçirilən respublika elmi-praktik konfransında Çingiz Aytmatovun çıxışı, milli dildə uşaq bağçalarının və məktəblərin açılması, qırğızlar tərəfindən rus və qırğız dillərinin öyrənilməsi məsələlərinə dair A.Tokombayevlə polemikada onun mövqeyi tənqid edilir.

S.Romanyuk yazır: “...Ç.Aytmatov həmin konfransın tribunasından bildirir ki, bu iş (*qeyri-qırğızlar üçün qırğız dili dərsləri - B.V.)* lüzumsuzdur və acı istehza ilə soruşur: “Əgər qırğızlar öz dillərini bilməsələr, görəsən, qırğız dilini öyrənən ruslar bu dildə kimlə danışacaqlar? Bu sözlərin arxasında milli məhdudiyyət və milli təkəbbür ideyası gizlənmirmi?”

Görəsən, S.Romanyuka niyə elə gəlir ki, bu sözlərin arxasında məhz milli məhdudiyyət və milli təkəbbür gizlənir? Məgər ana dilinə, doğma mədəniyyətə məhəbbət, onların inkişaf etdirilməsinə qayğı, ana dilində uşaq bağçaları və məktəblərin olmasını istəmək hər bir xalqın ən adi hüququ deyilmi? Məgər hər bir azad xalqın bu adi, elementar hüququ tələb etməsi milli məhdudiyyət və təkəbbürmü

deməkdir? Axı, S.Romanyuk bir qədər əvvəl, həmin qəzetin 1987-ci il 29 noyabr tarixli nömrəsində belə bir fakt gətirmişdi ki, Qırğızıstanın paytaxtı Frunzedə* qırğız dilində cəmi bir məktəb var! Bəs, görəsən, bu faciəli fakt niyə "hörmətli" müxbiri narahat etmir! Axı, belə fakt hər hansı xarici ölkədə olsaydı, biz nə hay-küy qoparardıq?!

"Ç.Aytmatov da daxil olmaqla, qırğızlar özləri uşaqlarını ana dilində oxutmaq istəmirlər. Deməli, qırğız məktəblərinə ehtiyac yoxdur", - fikrini təlqin edən müxbirin mövqeyi təəccüb doğurur. Əgər o, obyektiv jurnalistdirsə, niyə bu vəziyyətin səbəbini görmək istəmir, onu araşdırmır?

Çox ciddi səbəblər olmadan heç bir xalq, o cümlədən qırğızlar öz ana dilindən əl çəkməz. Həm də unutmaq olmaz ki, söhbət zəif inkişaf etmiş tayfanın və ya xalqın dilindən getmir, söhbət "Manas" kimi epos yaradan bir xalqın, öz ədəbiyyatı, kinematoqrafiya, mədəniyyət və incəsənət nailiyyətləri ilə nəinki Sovet İttifaqında, hətta dünyada tanınan bir xalqın dilindən gedir. Bu xalq öz uşaqlarını ana dilində oxutmaq istəmir? Xalq da öz ana dilindən imtina edərmi? Bax, məsələnin dəhşətli tərəfi budur. Boynuna ədaləti müdafiə etmək missiyası götürən müxbir bəs buna niyə narahat olmur? Yoxsa, bu, ona sərf eləmir?

Pribaltika respublikaları, Ermənistan və Gürcüstan istisna olmaqla, qalan respublikalarda idarə işlərindən tutmuş iclaslara, elmi yığıncaqlardan tutmuş bədii şuralara qədər bütün işlər, əsasən, rus dilində aparılırsa, valideyn övladının gələcəyi naminə onu rus məktəbinə verməyə məcburdur. Ana dilli məktəblərə biganəliyin səbəbi, bax, budur! Bu əsas səbəbi gördüyü və bunun xalq üçün milli faciə olduğunu bildiyi halda, Ç.Aytmatovun haqlı tələbinə belə insafsızcasına hücum edən Romanyuk və onu dərc edən qəzetin obyektivliyinə necə inanmaq olar?

---

*İndiki Bişkek.

Beynəlmiləlçiliyin başlıca tələbinə görə, xalqların bir-birinə hörməti qarşılıqlı olmalıdır. Bu məsələnin zəruriliyindən danışan məşhur sovet hüquqşünası Y.Kudryavtsev yazır: "Belə bir vəziyyəti məgər normal hesab etmək olarmı ki, bərabərhüquqlu bir millətin nümayəndəsi (fərz edək ki, rus millətinin) on illərlə onunla eyni bərabərhüquqlu digər bir millətin vətənində yaşayır və hətta çox vaxt yüksək vəzifələr tutur, lakin həmin millətin dilində ən adi şeyləri öyrənməyə macal tapmır"*

Bu, bir yana, bəs öz ana dilini bilməyənlərə nə deyəsən?

Təəssüf ki, Azərbaycanda da vəzifə başında olanların, dəqiq elmlərlə məşğul olan ziyalıların bir çoxu ana dilini bilmir. Mən bu yaxınlarda Azərbaycan SSR Ali Sovetinin deputatı kimi seçicilərin tapşırığını həll etmək üçün Bakı şəhər XDS İcraiyyə Komitəsinin sədri O.Zeynalovun qəbulunda oldum. O, mənimlə iki kəlmə ana dilində danışa bilmədi. Halbuki Konstitusiya üzrə respublikada Azərbaycan dili Dövlət dili kimi təsbit olunmuşdur. Ana dilini bilmir, özü bilər. Amma ana dili dövlət dili kimi qəbul olunubsa, dövlət aparatının başında duran bu adamın dövlət dilini bilməməsini nə ilə izah etmək olar?

Maraqlı burasıdır ki, bu cür milli nihilistlər ana dilini bilməməsindən heç olmasa xəcalət çəkmir, əksinə, bunu özləri üçün şərəf və üstünlük hesab edirlər. Bilməməyi üstünlük saymaq! Görün, ana dili nə qədər hörmətdən düşüb ki, onu bilmək deyil, bilməmək üstünlük sayılır.

S.Romanyuk Frunze Pedaqoji İnstitutunun dosenti A.Vasilyevin apardığı bir eksperimentdən misal gətirib göstərir ki, rus dilində imla yazan 246 tələbədən 138 nəfəri qeyri-məqbul qiymət alıb. Təəssüflə qeyd etməliyik ki, bu, tələbələrin rus dilinə biganəliyinin göstəricisi deyil, ümumən, orta və ali məktəblərimizdə tədrisin zəifliyinin sübutudur. Ona görə ki, eyni eksperimenti rusdilli fakültə və məktəblərdə

---

*Bax: "Nedelya" qəzeti, №51, 1987-ci il

aparsalar, yenə ona yaxın nəticə alarlar. Mən buna əminəm ki, əgər həmin eksperimenti qırğız dili üçün aparsalar, onda yəqin ki, daha faciəli nəticə alınar.

Qırğız gənclərinin cəmi 4 faizinin rus dilini bilməməsindən əsəbiləşən müxbir bəs öz ana dilini bilməyən qırğızların neçə faiz olması ilə maraqlanıbmı? Mən müxbirin həqiqətən beynəlmiləlçi olduğuna və bu məsələdə obyektiv mövqe tutduğuna onda inanardım ki, öz ana dilini bilməyənlərin də faizini hesablayıb onlara da beləcə əsəbiləşəydi.

Heç şübhəsiz, rus dili çoxmillətli sovet xalqları üçün ümumi dildir və bu dili bilmək, həm də yaxşı bilmək SSRİ xalqları üçün zəruridir. Lakin müəllifin "Rus dili SSRİ-də ümumdövlət dilidir" fikri bizdə təəccüb doğurur. Bilmək istərdik ki, bu hökmü müəllif hansı rəsmi sənəddən götürmüşdür? SSRİ Konstitusiyasında belə bir maddə, belə bir müddəa yoxdur. Nə üçün? Gəlin, V.İ.Leninə müraciət edək: "Fəhlə demokratiyasının milli proqramı belədir: heç bir millətə, heç bir dilə qətiyyən heç bir imtiyaz verilməməlidir"*. 1977-ci il oktyabrın 7-də qəbul olunmuş SSRİ Konstitusiyasının 36-cı maddəsində oxuyuruq: "Müxtəlif irqlərdən və millətlərdən olan SSRİ vətəndaşları bərabər hüquqlara malikdirlər. Bu hüquqların həyata keçirilməsi SSRİ-nin bütün millətlərini və xalqlarını hərtərəfli inkişaf etdirmək və bir-birinə yaxınlaşdırmaq siyasəti ilə, vətəndaşların...ana dilindən və SSRİ-nin başqa xalqlarının dilindən istifadə etmək imkanı ilə təmin edilir".

Təəccüb doğuran odur ki, S.Romanyuk A.Tokombayevin dili ilə "Komsomolskaya pravda" səhifələrində aşağıdakı kimi araqızışdırıcı mühakimələr irəli sürür: "...Rus dili bütün ölkə miqyasında dövlət dili hesab edilir, elə buna görə də hamının bu dili bilməsi məcburidir", yaxud "Rus dili SSRİ-nin ümumdövlət dilidir". Bu iddialar öz mahiyyəti etibarilə inqilabdan əvvəlki qaragüruhçu, şovi-

*V.İ.Lenin. Əsərlərinin tam külliyyatı, 23-ci cild, səh. 471.

nist “Rus xalqının ittifaqı” təşkilatının ruhuna yaxındır. Məlumdur ki, son zamanlar “Pamyat” adı altında belə bir qrup baş qaldırmağa cəhd göstərir və demək lazımdır ki, onlara kəsərli cavabı verən də elə “Komsomolskaya pravda” qəzeti olmuşdur.

Beynəlmiləlçilikdən ağızdolusu danışan S.Romanyuk bilməlidir ki, “beynəlmiləl” sözü millətlər birliyi deməkdir. Müəllif isə bir dilin təbliğ və tədrisindən danışarkən məhz beynəlmiləlçiliyin əsas şərtini pozur. O yazır: “Respublikada beynəlmiləl tərbiyənin vəziyyəti barədəki suala cavab verərkən A.Tokombayev qeyd etdi ki, son zamanlar “milli müstəsnalıq” və “milli seçilmə” ideyası əmələ gəlməyə başlamışdır”.

Çox gülməlidir. Milli dildə məktəblərin və uşaq bağçalarının açılmasını tələb etmək hər xalqın ən adi və haqlı tələbi deyilmi? Əgər xalqın öz ana dilində tərbiyə almaq və oxumaq haqqı da yoxsa, o nə xalqdır? Bəs onda Oktyabr inqilabı bu xalqa nə gətiribmiş? Aytmatov da öz çıxış və məqalələrində yalnız bunu tələb etmişdir. Milli məktəb və uşaq bağçası tələb etmək məgər “milli müstəsnalıq” və “milli seçilmə” deməkdir?

30-35 illik yaradıcılığı boyu daim beynəlmiləlçiliyi təbliğ edən, əsərlərinin əksəriyyətini rus dilində yazan bir yazıçını “milli məhdudiyyətdə” və “millətçilikdə” günahlandırmaq ən azı savadsızlıq və siyasi korluqdur. “Komsomolskaya pravda” qəzetinin Qırğızıstan üzrə müxbiri olan bu adam uzun illər Qırğızıstanda yaşamasına baxmayaraq, görəsən, qırğız dilini bilirmi? Mən əminəm ki, Aytmatovun rus dilini bildiyinin onda biri qədər o, qırğız dilini bilmir. İndi, görün, kim kimə “milli məhdudiyyət” damğası vurur? Burda bir el misalını xatırlatmaq yerinə düşər: Kor kora kor deməsə, bağrı çatlayar.

Mən təkrar edirəm Ç.Aytmatovdan müxbirin misal gətirdiyi bu sözlər tamamilə doğrudur: “Əgər qırğızlar öz dillərini bilməsələr, görəsən, qırğız dilini öyrənən ruslar bu dildə kimlə danışacaqlar?”

Məgər yalan deyir? Yalanın həqiqət kimi gözlərə dürtüldüyü

durğunluq dövründə belə yalan yazmayan, yalnız həqiqəti yazdığına görə bütün dünyada hörmət qazanan və sevilən Ç.Aytmatov indi bizdə demokratiyanın qol-qanad açdığı bir dövrdə yalanmı danışacaqdı?..

"Məgər dili ləğv etmək olarmı? Axı, dil aeroflotun reysi deyil, ictimai-tarixi kateqoriya olub, hər birimizin rəyindən asılı olmayaraq yaşayır" - yazır Romanyuk. Bəli, dil doğrudan da, ictimai-tarixi kateqoriyadır və kiminsə şəxsi rəyindən asılı olmadan yaşayır. Lakin, nədənsə, Romanyuk unudur ki, dil yalnız ondan istifadə edəndə, həmin dildə danışanda yaşayır və inkişaf edir. Həm də, dil təkcə məişət mövzusunda danışanda, sadəcə olaraq, ondan istifadə edəndə yox, ondan dövlət dili kimi istifadə edəndə yaşayır. S.Romanyuk isə unudur ki, əgər qırğız dilində uşaq bağçaları olmazsa, qırğız məktəbləri də az olar, ya da heç olmaz, əgər qırğız məktəbləri olmasa, tələbələr də, qırğız dilini yaşadan ziyalılar da, yazıçı və alimlər də, qırğız mədəniyyəti xadimləri də olmaz. Hələ ki, "Manas"ın dili birtəhər yaşayır. Belə getsə, yaşayacaqmı? Ziyalısı ana dilində danışmayan xalqın nəinki dili, özü də ölümə məhkumdur. Bu ki, məlum həqiqətdir.

Məhz bu həqiqəti görən, doğma dilinə biganəliyi müşahidə edən böyük yazıçının narahatlığına, vətəndaş mövqeyinə etiraz edən müxbirin mövqeyini düşünəndə adamı dəhşət götürür.

O ki qaldı A.Tokombayevin Aytmatova hücumuna, bu, şəxsi ədavət və şəxsi intiqam hissindən başqa bir şey deyildir. Şəxsi ədavət hissinə görə, çəkişmədə, polemikada qələbə çalmaq xatirinə mənsub olduğu xalqın ən adi haqqına qarşı çıxan Tokombayevin "vətənpərvərliyi" təəssüf doğurur. Öz şəxsi xeyri üçün, xalqının dilinə qarşı çıxan bu adamın başqa xalqın dilinə, tarix və mədəniyyətinə hörmət edəcəyinə inanmaq çətindir.

Adamlara şəxsi qərəz hissinə görə millətçilik damğası vurmağın acı bəhrələrini görmüşük. Ç.Aytmatov kimi ədəbiyyat klassikini bu damğa tutmaz, əgər Tokombayev və Romanyuk bu damğanı vur-

maq istəyirlərsə, unutmasınlar ki, demokratiyanın qanad açdığı indiki yenidənqurma dövründə bu damğa qayıdıb özlərinə dəyə bilər. Çünki indiki cəmiyyətimizə nə "milli nihilistlər" lazımdır, nə də millətçilər.

Nəhayət, təəssüf doğuran bir də odur ki, haqqında danışdığımız yazı qəzetdə oxuculara "Biz beynəlmiləlçilərik" (!) rubrikası ilə təqdim edilir...

"Gəlin, açıq danışaq", Bakı, 1989.



# TARİX, DİL, ƏNƏNƏ

Azərbaycanın beynəlmiləl respublika, Bakının beynəlmiləl şəhər olduğu məlum həqiqətdir. Bunun tarixən belə olması təsadüfi deyil. Ona görə ki, bu respublikanın sahibi olan xalqımızın təbiətinə milli qürur hissindən çox beynəlmiləl hiss hakim olmuşdur. Xalqımızın təbiətindəki beynəlmiləlçilik hissini həm yazılı ədəbiyyatımızda, həm də folklorumuzda görürük. Nizamidən tutmuş bu günə qədərki ədəbiyyatımızda həmişə başqa xalqların oğul və qızları da böyük məhəbbətlə tərənnüm olunmuşdur. Bir atalar sözünü xatırlatmaq istəyirəm: "Qonşum iki inəkli olsun, mən bir inəkli".

Bu, xalqın təbiətindəki böyüklüyün, alicənablığın və xeyirxahlığın ifadəsidir. Bizim xalqın ruhunda heç zaman milli eqoizm olmamışdır. Bunun da nəticəsində bizə pənah gətirən bütün millətlərə öz torpağımızda yer vermiş, onları özümüzdən fərqləndirməmiş, bütün millətlərə eyni gözlə baxmışıq.

Bu, əlbəttə, yaxşı cəhətdir. Lakin bu yaxşı cəhət bəzi hallarda özümüzə qarşı çevrilmiş, nəticədə öz milli varlığımızı, tariximizi və doğma dilimizi unutmuşuq. Biz unutmuşuq ki, beynəlmiləlçilik heç zaman özünü inkarın hesabına olmamalıdır. Öz millətinin mənafeyini uca tutmaq naminə, başqa xalqların varlığını və heysiyyətini tapdalamaq nə qədər qorxuludursa, həddindən artıq beynəlmiləlçi görünmək xatirinə öz xalqının tarix boyu formalaşdırdığı, qoruyub

saxladığı mənəvi keyfiyyətlərə göz yummaq, arxa çevirmək də bir o qədər təhlükəlidir. Biz bu həqiqətə həm beynəlmiləlçilik, həm də vətənpərvərlik kimi ali hisslərin tərbiyə olunmasının əlifbası kimi baxmalıyıq.

Hələ bu vaxta qədər xalqımızın etnogenezi elmi şəkildə müəyyənləşdirilməmiş və buna görə də bugünkü gənclik özünün soy kökündən xəbərsizdir. Tarixçilərimiz xalqın tarixindən çox, ölkənin tarixini yazmışdır. Özü də necə? Hərə bir cür! Hərə bizi bir kökə bağlamışdır. Bu vaxta qədər tarixçilərin eyni fikrə gəlməməsinə, tariximizin elmi faktlar əsasında yazılmamasına necə dözmək olar?

Əlimizdə olan tədqiqat əsərlərinin əksəriyyəti xalqımızın islamiyyətdən sonrakı dövrlərini əhatə edir. Keçmişin dərin qatlarına nüfuz edə bilmir və buna görə də biz xalqımızın tarixi barədə olan bəzi yanlış mülahizələrə qarşı mübarizədə silahsız qalırıq. Xalqımızın atəşpərəstlik və xristianlıq dövrləri haqqında tutarlı elmi əsərlərin kifayət qədər olmaması üzündən, torpağımızda bu günə qədər qalan xristianlıq və atəşpərəstlik abidələrinə qonşu xalqlar göz-görəsi sahib çıxır, biz isə onlara tutarlı cavab verməkdə acizlik çəkirik. Bu abidələr haqqında elmi kitabların yazılması indi daha çox zəruridir. Axı, bu, din tarixi deyil, xalqın tarixidir.

Hər yerdə ağız dolusu deyirik: “Biz qədim xalqıq”. Lakin biz bu qədimliyi elmə çevirə bilmişikmi? Təəssüf ki, yox! Buna görə də qədimliyimiz özümüzü nə qədər heyran edirsə, həmin qədimliyi obyektiv faktlar əsasında, heç nəyi əymədən, gizlətmədən, üzdəniraq stalinçi konsepsiyaların təzyiqi altında dəyişdirmədən, elmi-tədqiqat əsərləri yazılmadığına görə, bu həqiqətə heç kəsi inandıra bilmirik. Qədim tarixin daşıyıcısı olmaq hünərdirsə, həmin tarixə, həmin möhtəşəmliyə layiq tədqiqat əsərləri yaradıb, dünya xalqlarına çatdırmaq, daha böyük hünərdir. Çox təəssüf ki, böyük zəhmət, elmi səriştə, istedad və bacarıq tələb edən, ikinci hünəri qoyub, biz hələ də zəhmət tələb etməyən birinci hünərdən yapışırıq. Burda layiqli elmi kadrların olmaması da öz təsirini göstərir. Açığını deyək ki, bizdə tarixçi kadrların hazırlanmasında əsaslı yenidənqurma işləri aparılmalıdır. Uzun illər boyu tariximizin stereotip və şablonlar

əsasında yazan, köhnə konsepsiyalara qulluq göstərən kadrlara geniş meydan verilmiş, uzun müddət diqqət mərkəzindən kənarda qalan faktlar əsasında daha məhsuldar, daha elmi konsepsiyalar yaratmağa imkan verəcək ideyaları irəli sürən gənclərimiz isə müxtəlif yarlıqlarla damğalanmışlar. Hər yeni ideya baş qaldırmamış başı vurulmuşdur. Fikir müxtəlifliyinə, elmi mübahisələrə geniş yer verildiyi indiki dövrdə respublikamızın tarix elmində əsl aşkarlıq özünü göstərməli, yeni fikirlər, inzibati yolla deyil, elmi mübahisələr yolu ilə saf-çürük edilməlidir.

Şəxsiyyətə pərəstiş və durğunluq dövrlərinin xalqımızın mənəvi dünyasına vurduğu zərbələrdən biri də ana dilimizə lazımınca qiymət verilməməsi olmuşdur. Hər xalqın ana dili o xalqın milli varlığının birinci göstəricisidir. Dilindən məhrum xalq özündən məhrumdur. Sovet İttifaqı çoxmillətli bir ölkədir. Bu ölkəni təşkil edən xalqların bir-birilə ünsiyyət vasitəsi rus dilidir. Ana dili ilə yanaşı rus dilini bilmək, Sovet İttifaqında birləşən xalqların, o cümlədən bizim xalqın başlıca problemlərindəndir. Lakin ana dili əsas götürülməlidir. İndi soruşulur: Biz buna uzun illər necə əməl etmişik? Çox təəssüf ki, uzun illər bizdən ana dilini mükəmməl bilmək tələb olunmayıb, ona görə ki, ana dili tələb səviyyəsinə yüksəlməyib. Bu gün Azərbaycan dili yalnız ünsiyyət vasitəsi olaraq qalmamalıdır. O, yüksək ictimai-siyasi siqlət qazanmalı, elm, texnika, diplomatiya, iqtisadiyyat, fəlsəfə və s. kimi sahələrə aid ən müasir, ən ali informasiyaları ehtiva edən bir orqanizmə çevrilməlidir. Bunun üçün biz hamımız əməli iş görməli, ana dilimizi məşğul olduğumuz sahənin xüsusiyyətinə uyğun işləməklə, bu dili həyatın ən müxtəlif sahələrinə alışdırmalıyıq. Məhz bu şəraitdə, belə geniş vüsət aldıqda dilimiz hörmət qazanar.

Uca kürsülərdən valideynlərə "uzaqlarınızı ana dili məktəblərə verin" deməklə iş bitmir. Dövlət idarələrində, rəsmi dairələrdə ana dili işlənsə, məsələni həll etmiş olarıq.

Yüzilliklərin süzgəcindən keçib gələn milli ənənələrə biganəlik və durğunluq illərinin qüsurlarındandır. Nəticədə bir sıra gözəl adət və ənənələri itirməyə başladıq. Bu gözəl adət və ənənələri unutmaqla insani hisslərimizi və duyğularımızı, bir sözlə, özümüzü unutdu-

ğumuzu bilmədik.

Götürək iməciliyi. Keçmişdə birinin evi təbii fəlakətdən, ya başqa səbəbdən uçulanda bütün el toplaşıb ona ev tikərdi. Hardasa bulağın gözü tutulanda, el birləşib bulağın gözünü açardı. İndi biz bu adəti yalnız pambıq toplanışında tətbiq edir, rayonda dəlləkdən tutmuş müəllimə və şagirdə qədər hamını tarlaya tökür və adını da iməcilik qoyuruq.

Elin hər hansı adət və ənənəsi barədə fikir yürüdəndə ehtiyatlı olmaq lazımdır. Çünki bu adəti xalq elə-belə yaratmayıb. Bu adət min illər boyu yaşayıbsa, demək, onun yaşamağa haqqı var. Demək, o, forma deyil, məzmundur.

Bir zaman yas və toy mərasimləri barədə qadağanlar qoyuldu. Bu qadağanlar o yerə gəlib çatdı ki, rayonlarda katiblərin əmri ilə toy maşınlarının qabağı kəsildi, gəlinlə bəy hər biri 10 kiloqramdan az olmayaraq pambıq yığmamış toya icazə verilmədi. Heç demə, pambıq gənclərin ailə qurmasından daha vacib imiş.

Bir tanışımın danışdığı əhvalat mənə hələ də rahatlıq vermir. Deyir Ağdaşa bir qohumumun yasına gedirdim. Rayonun girəcəyində milis maşınımı saxladı və məni rayona buraxmadı. Niyə? Çünki, katib əmr verib. Pambıq tamam yığılıb qurtarmamış, heç kəsin ölməyə ixtiyarı yox imiş...

El adətinə bu boyda qəsd olar? Biz unuduruq ki, yas, kədərə şərik olub, onu azaltmaq üçün, toy isə sevincə sevinc qatıb onu çoxaltmaq üçündür. Bu gözəl adətlərə qəsd isə xalqa, onun mənəvi dünyasına qəsd idi.

“Şənbə gecəsinə gedən yol”, Bakı, 1991.



## ANA DİLİ

### *(Bir məktuba cavab)*

Culfa rayonundan bir məktub almışdım. Məktub müəllifinin adını qəsdən yazmıram. Çünki məktubuna verəcəyim cavab bir qədər sərtdir. Ancaq onun qaldırdığı məsələ bu gün respublikamız üçün çox vacib olduğundan açıq məktubla cavab vermək istəyirəm ki, məsələdən hamı agah olsun. Həmin adamın məktubunu eyni ilə köçürürəm:

"Bəxtiyar müəllim, salam. Mən də, yoldaşım da uşaq həkimi işləyirik. Bakıda oxuyarkən və hazırda Culfada işləyərkən, yaxud başqa bir yerə gedərkən, rus dilini bilməməyimiz üzündən müəyyən dərəcədə çətinlik çəkirik. Ona görə də uşaqlarımızı orta məktəbdə rus bölməsinə qoyduq. Həm də o vaxt milli məsələ yox idi. İndi bir tərəfdən fikirləşirik ki, Azərbaycana rus dilini bilən "ali orqanlara" məktub, ya ərizə yazarkən, yaxud xalq elçisi kimi ali məclislərdə danışarkən, bu dil lazımdır. Bir tərəfdən də ən yaxın dostlarım uşaqlarını rus bölmələrindən çıxarır. Şəxsən mənim gələcəyə inamım yoxdur. İndi dünya görmüş bir ağsaqqal kimi bu məsələnin həllində sizin məsləhətinizə ehtiyacım var... Bircə cümlə yazın, uşaqların məktəbini dəyişim, ya dəyişməyim. Hər halda, Siz gələcəyi bizdən yaxşı görürsünüz".

Mən istərdim ki, oxucu bu ziyalı yoldaşın məktubundakı qara

şriftlə fərqləndirilmiş cümlələrə diqqət yetirsin. “O vaxt milli məsələ yox idi”. Yəni, demək istəyir ki, uşaqlarımı məktəbə verəndə Azərbaycan dili hörmətli deyildi. Ona görə də onları rus məktəbinə vermişəm! Burdan belə çıxır ki, o zaman ana dili hörmətli olsaydı, bu yoldaş yəqin ki, övladlarını Azərbaycan məktəbinə verərdi!

Halal olsun bu tacir psixologiyasına! Kişi vaxta görə işgörmə prinsipini gizlətmir və sözünə davam edir: “Şəxsən mənim gələcəyə inamım yoxdur”: Yəni, demək istəyir ki, indi ana dilinin hörmətə minməsi ötəri haldır, sabah yenə də bu dil hörmətdən düşə bilər.

Görürsünüzmü, burada da yenə öz xeyrini düşünür. Bununla belə, özünü deyil, məni gələcəyin yaxşı görən adamı hesab edib yazır: “Siz gələcəyi yaxşı görürsünüz”.

Mənim bu yoldaşa cavabım belədir: “Yox, əzizim, mən sənin düşündüyün mənada gələcəyi görənlərdən deyiləm. Əgər belə olsaydı, mən də sənin kimi balalarımı və nəvələrimi Bakı şəraitində rusdilli məktəbə verərdim. Mən bunu eləməmişəm. Amma sən bir şeyi unudursan ki, ana dili millətin namusudur. Namus isə paltar deyil ki, onu havaya və fəslə görə dəyişəsən. El demişkən, namusu itə atıblar, it yeməyib. Amma yeyənlər var.

Barometr kimi havanın dərəcəsini ölçməkdə sən daha çox mahirsən. Ancaq mən bir şeyə təəccüb edirəm: “Sizdə ki, vaxta görə iş görmək qabiliyyəti bu qədər güclüdür, bəs nə əcəb bu vaxta qədər yuxarı mərtəbələrə dırmaşa bilməmisiniz, adi həkim olaraq qalmısınız?

Sizə məsləhətim budur ki, yenə havaya görə iş görəsiniz, çünki özünüz yazırsınız ki, sizin gələcəyə inamınız yoxdur. İnamınız yoxdursa, xalqın namusu və qeyrəti olan ana dilini istədiyiniz zaman istədiyiniz dilə dəyişə bilərsiniz. Sizin kimilər bundan ötrü dərd çəkməyə bilər.

O ki qaldı mənə, mənim böyük Füzuliləri, Sabirləri və Üzeyir bəyləri yaradan xalqımın gələcəyinə də, onun dilinə və mədəniyyətinə də inamım çox böyükdür.

Siz hələ ən adi bir həqiqəti bilmirsiniz ki, Ana dili vaxta görə seçilməməli, Ana dili olduğuna görə bütün dillərdən seçilməli və sevilməlidir. Vətəni də gözəl və səfalı olduğuna görə sevmirlər. Yalnız Vətən olduğuna görə sevirlər, ey vətənimin "uzaqgörən" oğlu!

Nəhayət, sizdən bir xahişim var: Böyük rus pedaqoqu Uşinskinin "Rodnoye slovo" (bizim dilimizə "Ana dili" adı ilə çeviriblər) məqaləsini oxuyasınız, amma diqqətlə!

"Şənbə gecəsinə gedən yol", Bakı, 1991.



## DİL HAQQINDA
## SORĞU

*"Knijnoye obozreniye"*
*qəzeti əməkdaşının suallarına cavab*

**- Ana dili və rus dili Sizin yaradıcılığınızda nə kimi rol oynayır? Hansı dildə yazırsınız və niyə?**

- Ana dili xalqın ruhudur, mənəvi dünyasıdır, psixologiyasıdır. İnsan ən dərin və ən incə hissələrini yalnız anasından öyrəndiyi, orta məktəbdə möhkəmləndirdiyi dil vasitəsilə ifadə edə bilər. Bir sözlə, ana dili - özünü və dünyanı ifadə dilidir. Mən ana dilində yazıram, ona görə ki, mən yalnız bu dildə öz fikir və duyğularımı ifadə edə bilərəm. Bu mənada bu dil mənim yaradıcılıq taleyimdir.

Rus dilinə gəlincə, bu dil mənim dünyaya qapım və pəncərəmdir. Mən rus dili vasitəsilə dünya mədəniyyəti və ictimai fikri ilə tanış olmuşam və rus dilinin köməyilə mənim əsərlərim bəzi xalqların da dilinə çevrilib.

**- Qoşadilliyin inkişafında hansı problemləri görürsünüz? Biz bu sahədə hansı çətinliklərlə qarşılaşa bilərik? Sizcə, ölkəmizin xalqları arasında beynəlmiləlçilik münasibətlərin pozulmaması üçün nə etmək lazımdır?**

- Yuxarıda dediyim kimi, SSRİ-də yaşayan qeyri-rus xalqlarının rus dilini bilməsi vacibdir. Bu məsələdə Ç.Aytmatovun mövqeyini müdafiə edirəm. Belə ki, bir neçə respublika istisna olmaqla (Gür-

cüstan, Ermənistan və Baltik ölkələri) qalan respublikalarda vacib sayılan iki dilin hüquq bərabərliyi pozulur. Burada Ç.Aytmatovun dediyi "sverxinternasionalistlər" (fövqəl beynəlmiləlçilər) kiminsə gözünə daha yaxşı girmək üçün ana dilinə biganəlik göstərir, bununla da özlərinə daha yüksək mövqe qazanmağa çalışırlar.

Bu çox təhlükəli məsələdir. Milli respublikalarda milli dillər rus dili ilə bərabərhüquqlu olarsa, beynəlmiləlçilik pozulmaz, xalqlar arasında inciklik də yaranmaz. Bir misal çəkmək istəyirəm: Bir neçə il bundan əvvəl Azərbaycan ədəbi dilinin əsasını qoymuş böyük şair Nəsiminin Azərbaycanda yubileyi rus dilində keçdi. Mən bu məsələyə etirazımı bildirəndə böyük vəzifəli bir yoldaş mənim etirazıma cavab olaraq dedi ki, biz beynəlmiləlçiyik. Mən ona cavab verdim:

Elə mən də sizdən beynəlmiləlçiliyi tələb edirəm. Amma siz ədəbi ana dilimizin əsasını qoyan bir sənətkarın yubiley gecəsini yalnız bir dildə aparanda bu prinsip pozulur və xalqın mənəviyyatını təhqir etmiş olursunuz.

O, bu sözün qarşısında yalnız susdu. Ən maraqlısı budur ki, bu cür "beynəlmiləlçilər", o cümlədən mənim həmsöhbətim öz ana dilini bilmir. Bəs, ana dilini bilməyən adam beynəlmiləlçi ola bilərmi? Axı, beynəlmiləlә gedən yol millilikdən keçir...

**- Siz ana dilinin təntənəsini necə görmək istərdiniz?**

- Ana dilinin təntənəsi o vaxt mümkün ola bilər ki, o, rəsmi dövlət idarələrində işləsin, onun hüququ tapdanmasın... Ona görə ki, dəftərxana üzü görməyən, rəsmi idarələrdə işlənməyən dil gec-tez ölümə məhkumdur. Biz indidən bu nöqsanı düzəltməsək, sonra gec olacaq.

1987.

"Şənbə gecəsinə gedən yol", Bakı, 1991.



## BİR DAHA
## ANA DİLİ HAQDA

Durğunluq illərindən bəri, bütün yaradıcılıq fəaliyyətim boyu - Ali Sovetin sessiyalarından tutmuş oxucularla görüşlərimdəki çıxışlarıma qədər, universitetdəki mühazirələrimdən tutmuş şeir və məqalələrimə qədər həmişə ana dilimizdən, rəsmi dairələrin bu dilə laqeyd münasibətindən, Dövlət statusu qazana bilməsindən dönə-dönə söz açmışam. Dilimizlə bağlı bütün problemlər məni həmişə düşündürmüş, dilimizin layiq olduğu mərtəbəyə qaldırılması uğrunda əlimdən gələni eləmişəm. Buna görə də ana dilinin indiki vəziyyətindən narahat olan, bu məsələ barədə təzə bir söz deyən hər hansı bir məqalə nəzərimi cəlb edir və bu barədə fikrimi bildirmək istəyirəm.

Mən hüquqçu deyiləm. Lakin ana dilimizi praktik işləndiyi yerlərdən biri də hüquq sahəsidir. Buna görə də dilimizdə hüquq terminologiyasının yaranması və hüquq idarələrində işlədilməsi məsələsi də məni çox düşündürür. Elmin başqa sahələrində olduğu kimi, təəssüf ki, bu sahədə də az iş görmüşük. Məlumdur ki, o ana dilimizin hüquq sahəsi daha çox praktikliyi ilə başqa sahələrdən seçilir. Çünki hüquq öz praktikliyi ilə nitq mədəniyyətini də ehtiva edir. Dünya hüquq tarixində nəhəng natiqlərin olduğunu bilirik, zəmanəmizdə də hüquq sahəsində belə natiqlərə çox böyük ehtiyac var.

Bütün bunlardan bəhs edən bir kitabın yazılmasını gözləyirdik. Nəhayət, 1989-cu ildə Azərnəşr hüquq elmləri doktoru M.Cəfərquliyevin rus dilində buraxdığı "Məhkəmə icraatında milli dil problemləri" adlı kitabı bu boşluğu doldurdu. Kitabı oxuyub çox sevindim və dərhal müəllifə zəng çalıb bu kitabın ana dilində də buraxılmasını arzu etdim.

Budur, indi həmin kitab "Milli dil və məhkəmə icraatı" adı ilə ana dilimizdə də çap olunmuşdur. Mən əminəm ki, bu kitab respublikamızın ədliyyə-istintaq orqanlarının işçiləri üçün lazımlı bir vəsait olacaq.

Etiraf edək ki, konstitusiyamızda Azərbaycan dilinə Dövlət dili hüququ verilsə də bu dil Dövlət dili səviyyəsinə hələ qaldırılmamışdır. Hələ də bir sıra nazirliklər və komitələr, Bakı şəhəri bir yana, rayon və kəndlərimizə də göndərdikləri məktubları və əmrləri rus dilində yazırlar.

İctimai həyatımızın mühüm sahələrindən biri olan məhkəmə icraatında da vəziyyət belədir. Heç kəsdən gizli deyildir ki, bu gün proses iştirakçıları - hakim, xalq iclasçıları, vəkil və müttəhim azərbaycanlı olduğu halda çox zaman məhkəmə iclası rus dilində aparılır, hökm də rus dilində tərtib olunur. Burda istər-istəməz soruşmalı olursan: Görəsən hakimi buna vadar edən nədir? Əgər proses iştirakçılarından heç olmasa biri başqa millətə mənsub olsa, yenə buna dözmək olar. Əslində isə belə olmur. Səbəb aydındır: hakimlər vərdişdən çıxa bilmir, ümumi axara qoşulub gedirlər.

Mən onun da şahidi olmuşam ki, bəzən hakimin rus dilində verdiyi sualı dili yaxşı bilməməyi səbəbilə müttəhim yaxşı başa düşmür və suala başa düşdüyü şəkildə pozuq rus dilində cavab verir. İndiki dövrdə belə vəziyyətin olması adamda təəccüb doğurur. Hələ çar dövründə məhkəmələrdə mütləq tərcüməçi olduğunu bilirik. Amma indi hüquqi dövlət yaratmaq istədiyimiz bir zamanda məhkəmələrdə tərcüməçi-dilmanc ştatının olmamasını nə ilə izah edək? Halbuki qanuna görə, hakim müttəhimi onun istədiyi dildə dindirməyə borc-

ludur. Bunun əksinə, bəzən məhkəmə prosesində tərcüməçinin formal surətdə "heykəl" kimi donmasını da görmüşük.

Müəllif göstərir ki, məhkəmə prosesində dilmanc-tərcüməçinin həyəcanlanmasının, emosiyaya qapılmasının da prosesin düzgün aparılmasına mənfi təsiri ola bilər. Buna görə də məhkəmədə təsadüfi tərcüməçilərdən istifadə etmək olmaz. Bunun üçün işin xüsusiyyətini bilən, professional məhkəmə tərcüməçiləri hazırlamaq lazımdır. Bu işdə müqəssirin, zərərçəkənin dilmanc tərəfindən müşahidə olunan həyəcanlarının ona psixi təsir etmə ehtimalı nəzərə alınmalıdır ki, prosesin obyektivliyinə xələl gətirməsin. Bundan əlavə məhkəmə icraatında ilk dəfə iştirak edən, işin xüsusiyyətini bilməyən dilmanclara izah olunmalıdır ki, dindirilən şəxsin ifadələrində ola biləcək jarqon və aqroları da tərcümə etməli, hətta müttəhimin bəzi nalayiq sözlərində də "təmizlik" aparılmamalıdır, müqəssirin mimika və jestlərini də hakimə çatdırmalıdır.

Göründüyü kimi, müəllif məhkəmədə dil məsələsinin də incə nöqtələrinə baş vurmuş, vəziyyətə psixoloq dərinliyi ilə yanaşa bilmişdir.

Mən bəzən hüquq işçilərinin məclislərində və toplantılarında oluram. Hər dəfə də hüquq işçilərimizin yığıncaqlarında ana dilinin qapı dalında qalmasına təəccüb etmişəm; Sonra görmüşəm ki, bunların bir çoxu nəinki idarədə, öz ailəsində də ana dilində danışmağı özünə kəsir bilir. İndi oxucu desin görək, öz milli varlığının birinci göstəricisi olan doğma ana dilinə biganə qalan, onu qorumayan ədliyyə işçisi xalqının haqqını, hüququnu necə qoruya bilər? Haqqında danışdığım bu kitab bu məsələdən də ürək ağrısı ilə söhbət açır. Kitabda diqqəti cəlb edən birinci cəhət müəllifin ümumi sözlərdən qaçıb canlı faktlara müraciət etməsidir. Müəllifin gətirdiyi misalların çoxu canlı məhkəmə proseslərindən - praktikadan götürülmüşdür.

İkinci mühüm cəhət, dünyanın nəhəng hüquqçularının və filoloqlarının, yazıçı və filosoflarının məhkəmə prosesində ana dilinin əhəmiyyətinə dair fikirlərinə isnad olunmasıdır. O, ölkənin adlı-sanlı

hüquqşünaslarının bu barədə fikirlərinə də öz münasibətini bildirir və bəzi hallarda çəkinmədən onlarla mübahisəyə də girir və bizi gəldiyi qənaətlərə inandırır. Əlbəttə, bunlar müəllifin dünya görüşünün və ümumi səviyyəsinin genişliyini göstərən amillərdir. Buna görə də onun fikirləri hədəfdən yayınmır, mətləb tam aydınlığı ilə açıqlanır. Məsələn, tərcümədə "dəqiqlik" və "tamlıq" terminlərini müəllif zərgər dəqiqliyi ilə bir-birindən ayıraraq yazır: "Dəqiqlik" termini hərfi mənada orijinalın düzgün ifadə olunmasına daha çox yaxındır. "Tamlıq" termini isə müəyyən dərəcədə icra olunmuş tərcümənin keyfiyyətinə qiymət verir".

Üçüncü cəhət - məhkəmə prosesinin tərbiyəvi-profilaktik rolunun yerinə yetirilməsində, demokratikləşdirmə və aşkarlıq tələblərinə əməl olunmasında, həqiqətin müəyyənləşdirilməsin-də, proses iştirakçılarının qanuni mənafelərinin və hüquqlarının təmin edilməsində dil probleminə düzgün yanaşmağın vacibliyinin səriştəli şəkildə işıqlandırılmasıdır.

Nəzəri cəlb edən yaxşı cəhətlərdən biri də xarici ölkələrin, xüsusən Türkiyənin məhkəmə icraatı ilə bağlı məsələlərdən yeri gəldikcə bəhs olunmasıdır. Məncə, bu çox lazımlı məsələdir. Türklərlə dinimizin birliyi, milli psixologiyamızın yaxınlığı əxlaqımızın yaxınlığına dəlalətdir. Türkiyədə qanunvericiliyin xeyli dərəcədə müsəlman hüququnun prinsiplərinə əsaslanması bizi də düşündürməlidir. Mən belə hesab edirəm ki, Türkiyədə olduğu kimi, gələcəkdə bizim qanunvericiliyimizdə də milli və dini xüsusiyyətlər nəzərə alınmalıdır. Çox vacib olan bu məsələ mənim bu vaxta qədər bilmədiyim və bu kitabdan öyrəndiyim bir məsələnin izahında tamamilə açıqlanır.

Mən bu vaxta qədər elə bilirdim ki, bütün dünya lallarının dili eynidir. Çünki lalların dili müxtəlif əl və barmaq hərəkətlərindən doğan işarə dilidir, yəni beynəlmiləl dildir. Heç demə, belə deyilmiş. Lallar da öz milli dillərində danışırmış. Hər millət öz əlifbasında yazıb, öz dilində danışdığı kimi, lalların da öz milli əlifbası və milli işarə dili varmış... Bu məsələlərdən danışan M.Cəfərquliyev haqlı

olaraq göstərir ki, məhkəmə prosesində hər mütəxəssis bütün lalların dilini başa düşə bilməz. Bu, məsələnin bir tərəfi, ikinci mənim diqqətimi çəkən tərəfi, lalların dili olan hərəkət dilində də milliliyin olması məsələsidir. Əgər, məsələn, "su" sözünü rus lal bir işarə ilə, azərbaycanlı isə başqa işarə ilə bildirirsə, bu, milli psixologiyadan gəlir. Biz isə uzun illər öz milli psixologiyamızı danmış, 15 xalq kiçik fərqlərlə eyni cinayət məcəlləsinə tabe tutulmuşdur. Biz onu düşünməmişik ki, bizim öz milli əxlaq normalarımız var və bu normalara görə bizdə cinayət hesab olunan bir şey, başqa xalqda cinayət sayılmaya da bilər.

Bir misal çəkmək istəyirəm: millət vəkilimiz Aydın Məmmədov aprel ayında avtomobil qəzasına düşdü və minlərlə adamın gözü qarşısında dəfn edildi. İnanırsınızmı ki, ailəsi hələ bu vaxta qədər mərhumun ölüm kağızını ala bilmir? Mən bu işi aparan müstəntiqlə görüşdüm. O deyir ki, mərhumun ailəsi meyiti tibb ekspertizasından keçirməyə icazə vermədiyindən onun ölümü haqqında əlimizdə hüquqi əsas yoxdur. Buna görə də heç kəs cəsarət edib ölüm kağızını verə bilməz. Demək, mətbuatın yazmasına, radio televiziyasının dəfələrlə deməsinə, minlərlə adamın qarşısında dəfn olunmasına baxmayaraq, mərhumun həqiqətən avtomobil qəzasından öldüyünü təsdiq üçün tibbi ekspertiza lazımmış.

Axı, hamıya məlumdur ki, ölünün yarılması bizim dinimizə, adət və ənənəmizə ziddir. Hansı azərbaycanlı atasının, anasının, övladının, bir sözlə, yaxun adamının meyitini yarmağa icazə verər? Mən bu sualı müstəntiqə verdim. O dedi siz haqlısınız. Amma mən qanuna tabeyəm.

Meyitin mütləq ekspertizadan keçirilməsi qanunu bu qanunu yazan adamın xalqı üçün, bəlkə də, məqbuldur. Amma bizim adət-ənənəmiz və dinimiz üçün bu, əxlaq xilafındadır. Bəs belə isə, biz nə vaxta qədər Moskvada yazılıb, bütün xalqlara eyni qüvvədə tətbiq edilən qanunun əsiri olacağıq? Buna görə də Cəfərquliyev çox haqlı olaraq göstərir ki, qanunda milli xüsusiyyətlərin nəzərə alınması

vacibdir. Bu ayaqdan, bizimlə eyni dildə danışan, eyni dinə mənsub olan və bu mühüm amillər eyniliyindən doğan psixologiya eyniliyinə malik Türkiyənin qanun məcəlləsi və hüquq normaları ilə tanış olmalı və onlardan istifadə etməliyik.

Məlumdur ki, sosializm ilə qanunçuluq bir yerə sığa bilməz. Çünki sosializm cəmiyyətində ölkəni qanunlar deyil, adamlar idarə edir. Bu kitab bir də ona görə qiymətlidir ki, millətlərarası münasibətlərin günü-gündən kəskinləşdiyi bir dövrdə biz bir daha bilməliyik ki, dilforma deyil, məzmundur. Dil - xalqın mənəvi dünyası, milli xüsusiyyətidir. Buna görə də dil ayrılığı, ruh, psixologiya və mənəviyyat ayrılığıdır. Bir halda ki, belədir, biz bir daha bilməliyik ki, ana dilinə ögey münasibət özümüzə - öz milli varlığımıza ögey münasibətdir. Biz birdəfəlik bu münasibətə son qoymalıyıq.

M.Cəfərquliyevin kitabı bizə hüquq sahəsində ana dilinin vacibliyi fonunda böyük həqiqətlərdən söhbət açır.

1992.
"Yanan da mən, yaman da mən", Bakı, 1995.



## SU BAŞDAN BULANAR

Hörmətli redaktor!

Qəzetinizin 19 iyul, 1991-ci il sayında Ədalət Tahirzadənin “Ana dili və azadlıq” məqaləsini oxuyub həm sevindim, həm də kədərləndim. Sevindim ona görə ki, mühakimələrinə dərin rəğbət bəslədiyim Ədalət bu məqaləsində də quşu gözündən vurub. Mənim 40 ilə yaxın bir müddətdə həm şeirlərimdə, həm də məqalələrimdə dediklərimi əyani faktlarla daha da dərinləşdirib, ürəyimdən xəbər verir.

Kədərləndim ona görə ki, dedikləri həqiqətdir. Çox təəssüf ki, son 70 ildə Azərbaycanda dövlət başçılarımız, iqtidar sahibləri həmişə öz ana dillərinə biganə olub və bu səbəbdən də öz xalqının milli mənafeyi keşiyində durmayıb. Axı, ana dilinin rolu əvəzsizdir. Böyük rus pedaqoqu Uşinskinin dediyi kimi, ana dilində tərbiyə almayan, təhsil görməyən adamlar vəzifə başında öz millətinə və öz vətəninə lazımi səviyyədə xidmət göstərmirlər. Ona görə ki, ana dili xalqın ruhudur, mənəviyyatıdır. Xalqın ruhuna, mənəviyyatına biganə olan adam öz xalqına canı-dildən necə xidmət edə bilər? Dövlət başçısı evdə öz doğma övladları ilə, ömür-gün yoldaşı ilə yad dildə danışırsa, mən bu adamın xalqına ürəkdən xidmət edəcəyinə və bərk ayaqda ona xəyanət etməyəcəyinə inana bilmirəm.

Sözümü böyük məmnuniyyətlə Ə.Tahirzadədən gətirdiyim misalla bitirirəm: "...gürcü, erməni, yaxud eston hakim mafiyası son anda öz millətinin mənafeyini satmağa razı olmur. Çünki ana dili ilə ilə birgə onun təfəkkürünə hopmuş "milli mənafe" duyğusu buna yol vermir. Ancaq daha çox öz əməkçi xalqının hesabına (başlıca olaraq rüşvətlə) dövlətlənmiş və hakimiyyətə çıxmış "Şərq" mafiyası (Azərbaycan, özbək, türkmən, və s.) isə son anda bu sərvəti və hakimiyyəti itirməmək xatirinə (əslində, heç bir mənəvi tellə bağlanmadığı) xalqına asanlıqla dönüklük edir..."

Ona görə ki, yenə də Tahirzadənin dediyi kimi, Azərbaycanda hökmən rus dilini bilən, Moskvanın mənafeyini qoruyan şəxslər irəli çəkilib. Bizim faciəmiz də elə bu nöqtədən başlanır. Buna görə də nə qədər qərar və fərmanlar verilsə də, respublikamızda ana dili dövlət statusu qazana bilmir. Yenə köhnə hamam, köhnə tas! Dəyirman bildiyini eləyir, çaxçax başını ağrıdır. Bir faktı demək istəyirəm: Hələ durğunluq dövründə belə Baltik respublikalarında, Gürcüstan və Ermənistanda ana dili dövlət idarələrində işlənirdi. Bizdə isə yenidənqurmadan sonra da bu qədər qərar və fərmanlar verilməsinə baxmayaraq, elə əvvəlki vəziyyətdir. Çünki rusdilli iqtidar sahibləri bunu istəmir. Nə qədər ki, MK-nın və Prezident aparatının iclasları rus dilində gedəcək, protokollar rus dilində bağlanacaq, bu, elə belə də olmalıdır. Su başdan bulanar.

"Aydınlıq" qəzeti, 2 avqust 1991.
"Yanan da mən, yaman da mən", Bakı, 1995.



## ANA DİLİ -
## DÖVLƏT DİLİ

Tünzalə Qasımovanın "Azadlıq" qəzetinin 18 dekabr 1992-ci il sayında dərc olunan "Zəka axınını necə azaltmaq olar?" məqaləsində qaldırdığı məsələyə mən də öz münasibətimi bildirmək istəyirəm.

Müəllif rus təhsilli azərbaycanlıların ölkədən getməsinin səbəbini, əsasən, ana dilinin dövlət dili elan edilməsində görür və bizi "hövsələsizlikdə" və "tələsməkdə" günahlandırır və əlavə edir ki, "Ahıl yaşında dil öyrənmək dəryada balıq sevdasıdır".

Bu fikirlə şərikəm, dili ahıl yaşında öyrənməzlər. Amma bunu yad dil haqqında demək olar, ana dilini sonradan deyil, körpəlikdən - ananın öz dilindən öyrənərlər. Sonradan öyrənilən dil yalnız özgə dil ola bilər. Çünki:

Anasının dilində
dil açmayan kəs
Millətinin dərdini
anlaya bilməz.

Necə yəni, özün bu millətə mənsub olasan, bu millətin çörəyini yeyib, bu Vətənin suyunu içəsən, amma onun dilini bilməyəsən? Axı, sən xalqın dilini bilmirsənsə, demək millətinin ruhuna, mənəviyyatına, tarixinə yadsan. Demək, bu millətə övlad deyilsən.

Dünən “Mənim övladım ana dilini bilməsə də olar” hökmü ilə rusca təhsilin daha vacib olduğunu bizə sübut etməyə çalışanlar bu gün övladlarını rus məktəblərindən çıxarıb Azərbaycan məktəblərinə verir. Ay gidi dünya! Deməк, rus dili hakim dil olanda övladına rus təhsili, Azərbaycan dili hakim olanda Azərbaycan təhsili verən bu adamlar özünü havaya uyğunlaşdıran əqidəsizlərdir. Təəssüf ki, beləlləri indi də vəzifə atını çapmaqdadırlar.

İndi keçək əsas mətləbə. Mən rus təhsillilərin vətəndən xarici ölkələrə köçmələrinin səbəbini dil bilməməkdə görmürəm: Ona görə ki, rusdilli ziyalılarımızın əksəriyyəti Türkiyəyə gedir. Bu gün Azərbaycanda Dövlət dili olan türk dilindən qaçan bu ziyalılar bəs, görəsən, pənah apardıqları Türkiyədə hansı dildə danışacaqlar? Amerikaya, Fransaya gedənlər necə? Məgər bu ölkələrdə onların ana dili hesab etdikləri rus dili dövlət dilidir? Rus dilini ana dili hesab edən bu ziyalılar bəs niyə Rusiyaya qaçmırlar? Əgər səbəb dil məsələsidirsə, bu cənablar gərək Rusiyaya üz tutaydılar. Demək, Rusiyada xoş güzəran tapmayacaqlarını bildiklərindən onlar xoş güzəran arxasınca Türkiyəyə və Amerikaya gedirlər.

İkinci tərəfdən, məqalə müəllifi Azərbaycan dilini bilmədiyinə görə vəzifəsindən çıxarılan bir nəfərin adını çəkə bilərmi? Azərbaycanlılar bir yana, Azərbaycan dilini bilməyən minlərcə rus məgər bu gün Azərbaycanda yaşamırmı? Onlara “gözün üstə qaşın var” deyən varmı?

Beləliklə, Vətəni dar gündə qoyub firavan həyat dalınca qaçmağı, ana dilini bilməməklə əsaslandırmaq fərariliyə haqq qazandırmaqdan başqa bir şey deyil.

Mən belə bilirəm: Vətənin dilinə, tarixinə, mənəvi dünyasına dodaq büzənlər, onu “otstalıy” damğası ilə damğalayıb bəyənməyənlər Vətəni dar gündə tərk etməli idilər. Bunun belə olacağını hələ o zamanlardan bilirdik. Çünki əqidəsizin torpaq sevgisi də ola bilməz.

Bir polkovnik tanıyıram. Yeganə qızını rus məktəbinə vermişdi. Ailədə də yalnız rus dilində danışırdılar. Buna görə də qız bir kəlmə də ana dilini bilmirdi. Hərbi hissə ilə bərabər Almaniyaya kö-

çüb orada 2 il yaşadılar. Vətənə dönəndə qız təmiz alman dilində danışırdı. İki ilə alman dilini mükəmməl öyrənən bu qız ömrü boyu ana dilini bilmədi. Çünki bu dil ona həyatda lazım deyildi. Beləlləri üçün həyatda lazım olmayan şey ruhda, mənəviyyatda da lazım deyil. Beləlləri ana dilinin qeyrət və namus işi olduğunu hardan bilsin? Beləlləri üçün dil də yalnız rahat güzarana çatmaq vasitəsidir, vəssalam!

Belələrinin onsuz da xalqa, Vətənə heç bir faydası olmayıb, olmayacaq da. Beləlləri qoy hara istəyirsə, getsin. Allah qoysa, müharibə qələbəmizlə qurtarandan sonra Vətənin nemətlərinə sahib çıxmaq üçün geri dönəcəklərinə əminəm.

Bəs indi bunlar nə haray-həşir salıblar? Ana dilinin hörmətə minməsinə niyə dözmür, həyəcan siqnalı çalırlar?

Respublikamızda rus dilinin hakim olduğu zamanlar rus təhsillilər vəzifə kürsüsünün başında bizi küncə basıb meydan oxuyurdular. Biz isə rus dilini onlar qədər bilmir, iclaslarda aksentlə danışdığımız zaman bu “savadlıların” bizə güləcəklərindən qorxub susurduq. Haqqımız hər addımda tapdanırdı. O zaman biz dözüb, Vətənimizi məhz vətən olduğuna görə tərk etmədik. Bəs indi bunlara nə olub? Niyə bu xalqın haqq işinə dərhal etiraz edir,bizi “hövsələsizlikdə” günahlandırırlar?

“Azadlıq” qəzeti, 29 dekabr, 1992.
“Yanan da mən, yaman da mən”, Bakı, 1995.

## QATIQ QARA
## OLA BİLMƏZ

Qabiliyyətinə və qələminə dərin hörmət bəslədiyim dilçi alim Musa Adilovun “Aydınlıq” qəzetində (30 yanvar, 1993) dərc etdirdiyi “İki dilin bir adı” məqaləsini oxuyub “Doğrudanmı, bu məqaləni dilçi yazmışdır?” - deyə təəccüb etdim. Məqalənin adından məlum olur ki, müəllif bizim dilimizi bir dil, türk dilini isə tamamilə başqa dil hesab edir. Deməli, bizim dilimiz türk dilləri qrupuna da mənsub deyilmiş! Mən bu mənasız fikirlə mübahisəyə girişmək fikrində deyiləm. Çünki aksiomu müzakirə etməzlər.

Lakin müəllifə öz sözləri ilə cavab vermək istəyirəm: O, özü həmin məqaləsində yazır: “Azərbaycan dili zəngin daxili ifadə vasitələri sisteminə sahiblik baxımından türk dilləri içərisində xüsusi yer tutur”.

Soruşmaq ayıb olmasın, əgər dilimiz türk dili deyilsə, niyə Adilov onu türk dilləri içərisinə daxil edir? Bir qədər sonra isə müəllif özü də dilimizin türk dili olduğunu açıqcasına etiraf edərək yazır: “İki müstəqil türk dili vardır... Dilimiz yaşayacaqdır, lakin “türk dili” adı ilə yox”.

Müəllifin dediyi kimi, dilimiz iki müstəqil türk dilindən biridirsə, bəs niyə “türk dili” adlanmasın? Beləliklə, hörmətli alim dilimizin türk dili olduğunu təsdiq edir. Amma heç demə, iki türk dili varmış!

İndi sual olunur: Dünyanın hansı millətinin iki dili var? İki rus, iki ingilis, iki fransız, iki alman və s. dili varmı ki, türk dili də iki olsun? Bəlkə, müəllif ləhcələri nəzərdə tutur? Bəli, Amerikada yaşayan ingilislərin dili ilə İngiltərədə yaşayan ingilislərin dili arasında müəyyən ləhcə fərqi var. Amma ikisi də ingilis dilli adlanır. Eləcə də ərəb dili. Əlcəzair, İraq, Səudiyyə Ərəbistanı, Misir və s. ölkələrin hamısında müəyyən ləhcə fərqləri ilə danışılan dil ərəb dili adlanır. Lakin heç kəs bu dili Əlcəzair, İraq, yaxud Misir dili adlandırmır?

Müəllif əgər dilimizi Azərbaycan türkcəsi adlandırsaydı, onunla razılaşmaq olardı. Lakin o, bunu da qəbul etmək istəmir.

Zorla boğazımıza yeridilən "Azərbaycan dili" istilahını müdafiə edir. "Aydınlıq" qəzetinin tərtibçisi, elə bil, qəsdən Adilovun "Dilimizin adı Azərbaycan dilidir" fikrini sübuta çalışan məqaləsinin yanındaca (eyni səhifədə) bu fikri qətiyyətlə inkar edən Hamlet Əsgərsoylunun "Qatıq qara da ola bilər?" məqaləsini vermişdir. Görəsən, bunu tərtibçi qəsdən eləmiş, yoxsa, bu təsadüf Allahın işidir? Paradoksa baxın. Dilimizi "Azərbaycan dili" adlandıran dilçi professora Neft Akademiyasının müəllimi nə gözəl cavab verir: "Qatıq qara da ola bilərmi?"

Adilov bəlkə soyadının sonundakı "ov"u da millətimiz üçün doğma hesab edir? Əgər dilçi alim "ov"u da bizə doğma hesab edirsə, vay bizim halımıza!

"Azərbaycan" qəzeti, 2 fevral 1993.
"Yanan da mən, yaman da mən", Bakı, 1995.



# DİL VƏ ƏLİFBA

## *(Yusif bəylə mükalimə)*

*Sizin Azərbaycan ədəbiyyatı haqqında elədiklərinizlə tanışam. Sizin xidmətiniz əvəzsizdir. Sizin fəaliyyətinizi çoxdan bəridir izləyirəm. Mənim yaradıcılığım haqqında yazdığınız xoş sözlərə görə Sizə minnətdaram. Siz mənim, "Axı, dünya fırlanır" və "Lirika" kitablarımı oxuduğunuzu yazırsınız və məndən xahiş edirsiniz ki, Sizə başqa kitablarımı da göndərim. Təəssüf ki, çap olunmuş bütün kitablarım məndə yoxdur. Lakin olanlarından bəzilərini göndərərəm. İndi isə sorğularınıza cavab yazıram.*

**I sorğu:** Mirzə Fətəli Axundzadənin ərəb alfabesinin latın alfabesi ilə dəyişdirilməsi fikrini doğru buluyormusunuz?

**Cavab:** M.F.Axundzadənin alfabe projesinin nədən ibarət olduğunu mən dəqiq bilmirəm. Lakin, əlbəttə, dünya alfabeləri içərisində latın alfabesini daha üstün tuturam. Çünki latın alfabesi türk dilinin ahəng qanununu və incəliklərini daha dəqiq əks etdirə bilir.

**II sorğu:** Kiril alfabesində qalmaq tərəfdarısınız, yoxsa ərəb, latın və ya başqa alfabeyə (məsəla, göytürk və sairə) keçilməsini arzulayırsınız?

**Cavab:** Kiril alfabesinə qəti etirazımı bildirirəm. Kiril alfabesi bizim dilin qanunlarına uyğun deyil. Ərəb alfabesini də qəbul etmirəm. İndiki zamanda ərəb alfabesini qəbul etmək millətimizi

500 il geri atmaq deməkdir. Bizim latın alfabesinə keçməyimizi istəməyən, kiril alfabesində qalmağımızı istəyən Azərbaycanın indiki rəhbərləri ortaya ərəb əlifbasını atmışlar. Əslində, onlar ərəb əlifbasını da istəmirlər. Azərbaycanın indiki dövlət rəhbərləri istəyirlər ki, biz kiril əlifbasında qalaq. Ona görə ki, Azərbaycanda indiki dövlət rəhbərləri rus dilində təhsil almış, Moskva havası ilə yaşayan, evlərində rus dilində danışan adamlardır.

**III sorğu:** Bilindiyi kimi, bu gün inkişaf etmiş Qərb ölkələrinin işlətdiyi alfabe latın alfabesidir. Yenə bilindiyi kimi, dünyada ölkələr və millətlər arasındakı ilişkilər getdikcə sıxlaşmaqdadır. Siz əgər latın alfabesinə keçilməsini istəyirsinizsə, bu anda türk xalqları arasında mövcud tək latın alfabesi olan Türkiyə latın alfabesini diqqətə alaraq bunun neçə hərfdən meydana gəlməsi fikrindəsiniz? Ayrıca digər türk xalqlarını göz önünə aldığımızda tək (vahid) bir latın alfabesini nə şəkildə düzənlənməsi (tərtib edilməsi) gerektiki düşüncəsindəsiniz?

**Cavab:** Şübhəsiz, latın alfabesi bizi Avropa ölkələrinə yaxınlaşdırır və bu bizim birbaşa Avropa ölkələrindən alacağımız kompüterləri və başqa texniki avadanlığı idarə edə bilməyimizi asanlaşdırar. Üçüncü tərəfdən, əgər bütün türk xalqları latın alfabesinə keçərsə, biz dünyada yaşayan bütün türk xalqları üçün vahid alfabe yaratmış olarıq. Bu isə türk dünyasını bir-birinə yaxınlaşdırar. Moskvanı da qorxudan budur. Ona görə də bu gün üzünü Moskvaya tutan bizim bəzi dövlət rəhbərlərimiz bunu istəmirlər.

**IV sorğu:** Əgər latın və ərəb alfabesi qəbul edilməsi lazım gəldiyinə inanıyorsan, Sizcə, bu nə qədər müddətə olmalıdır?

**Cavab:** Çox az bir müddətə. Latın alfabesinə keçməyə dair fərman verilərsə, millət bu alfabeyə 1 və 2 ayın ərzində sahiblənə bilər. Ona görə ki, orta okullarda millət əcnəbi dillərdən birini (ingilis, alman və ya fransız) onsuz da öyrənmiş və alfabeye yiyələnmişdir. Yeri gəlmişkən, onu da deyim ki, ərəb alfabesinə keçmək məsələsini guya Cənubi Azərbaycandakı qardaşlarımız tələb edir. Bu tələb

Cənubi Azərbaycan qardaşlarımızın tələbi deyil. Bu İran İslam Respublikasının rəsmi dairələrinin siyasi oyunudur. İran İslam Respublikası bu siyasəti bizim İrandakı türk qardaşlarımızın əli ilə yerinə yetirmək istəyirlər. Çox təəssüf ki, bizim Cənubi Azərbaycandakı Azərbaycan ziyalılarımız bu oyuna aldanır və Sovet Azərbaycanına ərəb əlifbasını tələb edən təbliği materiallar göndərirlər. Bu təbliğatı İran mollaları bizim din xadimlərimizin əli ilə həyata keçirmək istəyirlər. Burda bir incə mətləbi də qeyd etmək istəyirəm: İran İslam Respublikasının rəsmi dairələri Azərbaycanı Türkiyəyə qısqanır. Bu da fars dövlətinin klassik politikasıdır.

Keçən il İran Azərbaycanında olduğum zaman cənublu qardaşlarım bu məsələni ortaya atıb dedilər ki, Siz latın alfabesinə keçsəniz, 20 milyonluq cənublu qardaşlarınıza xəyanət etmiş olarsınız. Mən də onlara cavab verdim ki, onsuz da siz hamınız orta okullarda latın alfabesini öyrənmisiniz. İkinci tərəfdən, siz bizim latın alfabesinə keçməmizə mane olmaqla fars şovinizminin dəyirmanına su tökürsünüz. Onsuz da biz ərəb əlifbasına keçən deyilik. Bu, bizim qəti fikrimizdir. Lakin siz ərəb alfabesi məsələsini ortaya atmaqla bizi kiril əlifbasında qalmağa məcbur edirsiniz. Mənim fikrimcə, ərəb alfabesinə keçməkdənsə, kirildə qalmağımız məsləhətdir.

Bununla bərabər, keçmiş tariximizin öyrənilməsi naminə orta okullarda və yüksək okulların (ali məktəblərin) ictimai fakültələrində ərəb əlifbası təbliğ edilməlidir. Üçüncü tərəfdən, mən cənublu qardaşlarıma dedim ki, Siz, birinci növbədə, ana dilinizin qeydinə qalın, sonra alfabe haqqında düşünərsiniz. Dilsiz alfabe nəyə lazımdır? Axı, sizin ana dilində nə mətbuatınız var, nə məktəbiniz.

Bütün bunlardan çıxan nəticə budur ki, biz heç bir müqavimətə baxmadan, tezliklə latın alfabesinə keçməliyik.

**V sorğu:** Türkiyə cümhuriyyətinin quruluşundan sonra (1923) Türkiyədə ortaya çıxan türkcənin sadələşdirilməsi və özləşdirilməsi, qısaca, dil dəyişikliyi hərəkətləri haqqında görüşünüz nədir?

**Cavab:** Mən Türkiyə mətbuatında bu barədə fikrimi dəfələrlə

bildirmişəm. "Türkcənin sadələşdirilməsi və özləşdirilməsi" bayrağı altında aparılan bu siyasət türk dilinin süniləşdirmək, zəifləşdirmək və məhv etmək məqsədi güdür. Bu, erməni Akop Dilaçarın hiyləsi idi. Türkiyə türklərinin dilindəki ərəb və fars sözlərini süni və uydurma sözlərlə əvəz edəndə cənab Akop nə elədiyini çox gözəl bilirdi. Bununla o, Türkiyə türklərinin əlini ümumtürk dünyasından üzür, Türkiyəni öz sınırları daxilində qalmağa məhkum edirdi. Akopun bu siyasətinə aldanan solcu türk filoloqları bu siyasətin əsl mənasını anlamır, böyük Türk millətini xırdalayırdı. Maaləsəf, Atatürk də bu siyasətə qol qoydu. Yazıq o millətin halına ki, onun dilini erməni Akop açacaqmış!

Dünyada tamamilə saf və təmiz dil yoxdur. Rus dilinin 60-70 faizi latın-Avropa və türk-tatar sözləridir. Əgər ruslar öz dillərini saflaşdırmaq üçün əcnəbi sözləri çıxartmaq istəsələr, onda bu dildə heç nə qalmazdı. Buna görə mən türk dilində aparılan "özləşdirmə" siyasətinin tam əleyhinəyəm. Bu məsələdə rəhmətlik Banarlının tərəfindəyəm. Banarlının "Türkcənin sirləri" kitabı mənim masaüstü kitabımdır.

**VI sorğu:** Son 10-15 ildə Azərbaycan yazı dilində bir sadələşmə, bir özləşmə təmayülü gözə çarpmaktadır. Bu konudakı fikirlərinizi bildirirmisiniz?

**Cavab:** Bu təmayülü mən də hiss edirəm. Lakin mən bunu sadələşdirmə deyil, süniləşdirmə adlandırardım. Türk dilinin pozulmaz bir qanunu var - əvvəldə mübtəda, sonda xəbər. Məsələn: "Mən səni sevirəm". İndi bəzi qələm sahibləri bu cümlə quruluşunu çevirib, belə yazırlar: "Sevirəm səni mən". Bu, sadələşdirmə deyil, süniləşdirmədir. Mən belə sadələşdirmənin əleyhinəyəm.

Təşəkkür edirəm.

1991

"Yanan da mən, yaman da mən", Bakı, 1995.

# DİLİMİZİN VƏ MİLLƏTİMİZİN ADI

***MÜXBİR:*** *Bəxtiyar müəllim, bu günlərdə Milli Məclis Azərbaycan Respublikasının dövlət dilini "türk dili" elan etdi. Bu haqda Sizin mülahizənizi bilmək maraqlıdır.*

**B.V.:** Bizim dilimizin türk dili olması, millətimizin də türk adlanması aksiomdur. Yəni, bunun sübuta ehtiyacı yoxdur. Bir misal. Səhv etmirəmsə, Stalinin 60 illiyi münasibətilə 30-40-cı illərdə bir kitab çıxmışdı. O kitab məndə son zamanlara qədər var idi. Orda Səməd Vurğunla Stalin arasında bir dialoq verilmişdi. Təxminən o dialoq belə idi: Stalin S.Vurğundan adını, familiyasını soruşur. O, Səməd Vəkilov deyir. Stalin cavabında deyir ki, sən Vəkilzadəsən. Sonra milliyyətini xəbər alır. S.Vurğun türkəm deyir. Stalin deyir, sən türk deyilsən, azərbaycanlısan. Millətimizin "azərbaycanlı" adlanması bu vaxtdan başlandı. Əslində, bu gün Milli Məclisin çıxardığı fərman millətimizin adının bərpası, özünə qaytarılmasıdır. Amma bu işə hazırlıq lazım idi. Çünki milləti təşkil edən tək-tək adamların hamısı bu məsələni eyni səviyyədə bilmir. Mənə bu məsələ ilə bağlı xeyli zənglər oldu. Zəng edənlərin əksəriyyəti bizim türk adlanmağımıza etiraz edirdi. Adamlarla şəxsi söhbətlərimdən və telefon zənglərindən mən bu qənaətə gəldim ki, millətimizin türk, dilimizin türk dili adlanmasından sonra guya biz Türkiyə türklərinin

ləhcəsində danışmalı və yazmalı olacağıq.

Bu məsələdə xalqı qınamaq olmaz. Ona görə ki, son əlli ildə dünyamıza yeni nəsillər gəlmişdir. Bunlar bu vaxta qədər özlərini "azərbaycanlı" hesab edir və türk deyəndə Türkiyə türklərini nəzərlərinə gətirirlər.

Bütün bunlara görə hesab edirəm ki, Milli Məclis tələsgənliyə yol verdi. Bu ciddi məsələni hazırlıqsız həll etdi. Mənə qalarsa, millətimizin adını "Azərbaycan türkü", dilimizi isə "Azərbaycan türkcəsi" adlandırmaq lazım idi.

Çünki Azərbaycan türkü ilə yanaşı özbək, qazax, tatar, qırğız, başqırd və sair türklər də mövcuddur.

***MÜXBİR:*** *Bəxtiyar müəllim, xalqın dərd-səri Qarabağda, respublikada gedən ədalətsiz müharibədir. Parlamentdə hər cür məsələlər həll olunur, bu əsas məsələdən başqa...*

**B.V.:** Bəli, çox təəssüf ki, bu gün Ali Sovetdə millətimiz üçün vacib olan məsələlər unudulur, bəzən ikinci və üçüncü dərəcəli məsələlərin həllinə daha çox yer verilir. Məsələn, mən belə hesab edirəm ki, bu gün Ali Sovetin qarşısında duran iki vacib məsələ var. Birinci: işğal olunmuş torpaqlarımızın geri qaytarılması məsələsi, ikincisi: iqtisadiyyat, yəni millətin maddi ehtiyacları. Çox təəssüf ki, bu gün Ali Sovet bu iki əsas məsələdən yan keçir. Mən bir millət vəkili kimi bundan çox narazıyam.

***MÜXBİR:*** *Bildiyiniz kimi, Azərbaycan Yazıçılar Birliyinin orqanları olan "Ədəbiyyat qəzeti"nin, "Azərbaycan", "Ulduz" jurnallarının vəziyyəti acınacaqlıdır. Belə ki, onlar özlərini dolandıra bilmirlər. Bağlanmaq qorxusu addımbaşı onları izləyir. Halbuki, ikinci cahan müharibəsi illərində adamlar bir parça çörək əldə etmək üçün yorğanını satanda dövlət "Ədəbiyyat qəzeti"inə dotasiya verirdi. Onu yaşadırdı. Bir millət vəkili kimi, bir şair kimi bir-*

*başa sizin qəzet olan "Ədəbiyyat qəzeti"nin düşdüyü ağır vəziyyət haqqında parlamentdə məsələ qaldırmısınızmı? Əgər bu məsələni qoymuşsunuzsa, nə cavab almısınız, yox, əgər bu haqda danışmamışsınızsa, nə üçün?*

**B.V.:** Çox təəssüf ki, son altı ayda Ali Sovetin sessiyası keçirilmir. Bütün məsələləri Milli Məclis həll edir. Mən Milli Məclisin üzvü idim. Beş ay əvvəl, bəzi məsələlərə etiraz əlaməti olaraq, Milli Məclisdən çıxdım və bir yazıçı kimi, əlbəttə, yazıçılara, ümumən ziyalılara olan soyuq münasibət məni də incidir. Və bu münasibətin nəticəsidir ki, bu gün Yazıçılar Birliyinin orqanları "Ədəbiyyat qəzeti", "Azərbaycan", "Ulduz" jurnalları çox acınacaqlı vəziyyətə düşmüşdür. Bu gün iqtidarda olanların bir çoxu cəbhədəki məğlubiyyətlərdə yazıçı və şairləri günahkar bilir. Yazıçıların cəbhəyə gedib, orda əsgərlərimizə şeir oxumamalarından gileylənirlər. Sözlərindən belə çıxır ki, torpaqlarımızın əldən getməsinə şairlər günahkardırlar. Bu gülməli deyilmi? Əvvəla, yazıçı və şairlərimizin əksəriyyəti, içində mən olmaqla, tez-tez cəbhələrdə və qospitallarda olur, bütün vəziyyətdən xəbər tuturuq. Məsələn, son zamanlar üç dəfə cəbhədə olmuşam. Üç-dörd dəfə də Bakıdakı hərbi qospitallardakı görüşlərdə iştirak etmişəm. Bu görüşlərdə dəfələrlə Sabir Əhmədli, Nəriman Həsənzadə, İsmayıl Şıxlı, Anarla rastlaşmışam. Əgər bu yazıçıların cəbhə və qospitallardakı görüşünü iqtidar görməməzliyə vurursa, bunun günahkarı biz deyilik. İkinci, buna "keçi suyu bulandırdı" deyərlər. Öz məğlubiyyətlərində, qoy, başqalarını günahkar bilməsinlər. Öz günahlarını bizim üstümüzə atmasınlar.

Onlar bizi günahkar hesab etməklə cəbhədəki uğursuzluqlarına bəraət qazandırmasınlar.

"Ədəbiyyat qəzeti"nin, "Ulduz", "Azərbaycan" jurnallarının düşdüyü acınacaqlı vəziyyətə gəldikdə isə, bütün bunlara yazıçılara, ziyalılara olan laqeydliyin nəticəsi kimi baxıram. Milli Məclisdən

elə buna görə çıxmışam. Bir yerdə ki, ziyalı sözünə, yazıçı sözünə etinasız yanaşırlar, mənim orada işim yoxdur. Qaldı bir millət vəkili, "Ədəbiyyat qəzeti"nin təəssübünü çəkən bir yazıçı kimi, Ali Sovetin qarşısında məsələ qaldırmaq hələ ki, mənə nəsib olmayıb. Ona görə ki, yuxarıda qeyd etdiyim kimi, Ali Sovetin sessiyası altı aydır ki, çağırılmır.

"Ədəbiyyat qəzeti", 8 yanvar, 1993.
"Yanan da mən, yaman da mən", Bakı, 1995.



# ANA DİLİ, YENƏ ANA DİLİ

Milli şüurun formalaşmasında və özünüdərkin yetkinləşməsində anadilli təhsilin əhəmiyyətini sübut etməyə ehtiyac yoxdur. Bir vətəndaş kimi fərdin yetişməsində anadilli təhsilin zəruriliyi barədə dünyanın ən böyük filosof və pedaqoqları cild-cild kitablar yazmışlar. Bunların arasında böyük rus pedaqoqu K.D.Uşinskinin “Ana dili” kitabı xüsusi əhəmiyyət kəsb edir. Ana dilimiz uğrunda apardığım 50 illik mübarizəmdə həmişə bu kitaba söykənmiş, mənə olan hücumlarda bu kitabdan qalxan kimi istifadə etmişəm. K.D.Uşinski yazırdı: “Əgər uşağın danışdığı dil onun anadangəlmə milli xarakterinə yaddırsa, bu dil uşağın mənəvi inkişafına ana dili qədər güclü təsir göstərə bilməz”.

Sovet hakimiyyəti illərində rus dilini rus kimi bilməyənlərə iş verilmədiyindən valideynlər övladlarını rus məktəblərinə verir, anadilli məktəblərimizin sayı ildən-ilə azalırdı. Rusdilli məktəblərdə isə milli şüurdan məhrum, özünü kiçik, özgəni böyük sayan manqurtlar yetişirdi. Həmin manqurtlar bu gün keçmişin nostalgiyası ilə yaşayaraq, özlərini “bakinets” adlandırır, Bakıdan rusların, ermənilərin, yəhudilərin köçməsinə onların əvəzinə “yerazlar”ın və kəndlərdən gələnlərin artmasına təəssüflənir, keçmiş “beynəlmiləl” Bakını itirdiklərinə görə vay-şivən qoparırlar. Soy-kökündən uzaq-

laşmış, dilindən və dinindən ayrı düşmüşlər istiqlalımızı qəbul etmir, yenə gözlərini Şimala dikir, çoxmillətli, kosmopolit və simasız Bakının xiffətini çəkirlər. Bu, mənim özünü ziyalı adlandıran "bakinets"lərimin əqidəsi, o da Ermənistanın təkmillətli respublikaya çevrilməsi ilə öyünən və 1996-cı ilin martında erməni balalarının rus dilində təhsilini qadağan edən erməni ziyalısının öz milli varlığı yolunda mübarizəsi.

"Müxalifət" qəzetinin 1996-cı il 25 dekabr sayında C.C.Bəydillinin "Bakinets"in nostaligiyası", məqaləsi məhz bu baxımdan xoşuma gəldi. Məqalədəki fikirlərə əlavə olaraq demək istəyirəm ki, bu gün özünü "bakinets" adlandıran, dilinə və dininə yabançı adamların xiffətini çəkdikləri rus, erməni və yəhudi qardaşları Bakıya mədəniyyət gətirmədikləri kimi, gedəndə də bir şey aparmadılar. Qoyub getdikləri isə ruslaşdırılmış yerli qardaşları oldu. İndi biz bunun acısını yaşayırıq. Böyük problemlərin həllindənsə, manqurt təfəkkürün yaratdığı yaraları sağaltmaqla məşğuluq.

Mən Türkiyədə müalicəm zamanı belə bir prosesin şahidi oldum. Sovet dövründə Azərbaycanda gedən ruslaşdırma siyasəti nəticəsində rus dilində təhsil önə çəkildiyi kimi, Türkiyədə də uzun zamandır ki, ingilisdilli təhsil millətin gələcək bəlalarının əsasını qoyur. Allah bizi ikinci belə bir bəladan qorusun!

Türkiyənin prezidenti hörmətli S.Dəmirəl əvvəlcə xəstəxanaya mənə baş çəkməyə gəldi. Müalicəm bitdikdən sonra isə öz yanına, Çankaya köşkünə çağırtdırdı. Hər iki görüşümüz zamanı mən ona dünyanın müxtəlif yerlərində yaşayan türk xalqları arasında ortaq anlaşma dili ilə bağlı fikirlərimi bildirdim. Süleyman bəy də ortaq türk ədəbi dili, bütün türk xalqlarının anlaya biləcəyi danışıq dilinin zərurətini və bu sahədə lazımi addımların atılmasının vacibliyini söylədi. Biz bu işin ağırlığını öz üzərinə götürən mərkəzin yalnız Bakıda yaradılması fikrinə gəldik. Həm elmi - intellektual potensialı, həm də digər türkdilli xalqlarla əlaqə yaratmaq imkanı baxımından Bakı daha əlverişlidir.

Əlbəttə, bu, ağır və çətin bir işdir. Lakin bu gün türkdilli xalqların ziyalıları, millətin gələcəyini düşünən hər bir şəxs bu işin vacibliyini dərk edərək qüvvələri birləşdirməlidir.

Türkiyədə olduğum müddətdə "Aydınlıq" qəzetində professor Oqtay Sinanoğlunun geniş bir yazısını oxudum. Bu yazıda Oqtay Sinanoğlu Türkiyədə açılan və açılmaqda olan ingilis məktəblərinin gələcəkdə türk ruhunu, türk mənəviyyatını zədələyəcəyinə zəmin olduğunu bildirir.

Mən ingilis və qeyri Avropa dillərinin öyrənilməsinin əleyhinə deyiləm. Amma uşaqları formalaşdığı dövrdə milli kökdən və milli ruhdan ayırmağın, onları özgə ruhda böyütməyin təhlükəli olduğunu cümhur başqanına öz timsalımızda izah etdim. Sinanoğlunun qaldırdığı bu məsələnin törətdiyi ağır nəticələri 2 əsrə yaxın müstəmləkə həyatı keçirən biz əsir türklər yaxşı bilirik.

O. Sinanoğlunun məqaləsinin surətini S.Dəmirələ verdim. İndi həmin məqaləni bizim oxuculara təqdim edirəm.

"Zaman və mən", Bakı, 1999.



## MƏMURLAR YENƏ DƏ ÖZ ÖVLADLARINI ANADİLLİ MƏKTƏBLƏRDƏ OXUTMURLAR

*Hələ 30-35 il bundan əvvəl xalq şairi Bəxtiyar Vahabzadə M.F.Axundzadəyə həsr etdiyi "Saraydaxma" şeirində Şəki xan sarayı ilə ondan 60-70 metr kənarda olan Mirzə Fətəlinin doğulduğu daxmanı müqayisə edərək yazmışdı ki, xalqı o zaman fars dilində fərmanlar verən saraylar yox, belə daxmalar yaşatdı. Və tarix o saraylardan deyil, bu komalardan gəlib keçdi. B.Vahabzadənin fikrincə, bu gün də bizim dilimizi, milli adət-ənənələrimizi qoruyub saxlayan həmin daxmalardır: "Baxın, bugünkü idarəçilər, nazirlər, yüksək rütbəli məmurlar yenə də öz övladlarını anadilli məktəblərdə oxutmur və evdə də onlarla rus dilində danışırlar. Qəribə burasıdır ki, bundan xəcalət çəkmir, əksinə, bunu özlərinin üstünlüyü hesab edirlər".*

*Sovet imperiyasından xilas olub müstəqil dövlət yaratmağımıza baxmayaraq, vəzifə sahiblərinin övladlarını indi ABŞ-da, İngiltərədə və başqa Avropa məmləkətlərində oxutmasına toxunan B.Vahabzadə "deməli, yenə də milləti, onun dilini qoruyub saxlayanlar sadə insanlardır" deyir. "Ən ürək ağrıdan cəhət burasıdır ki, sovet dönəmində rus dilini mükəmməl bilməyənləri işə götürmürdülərsə, indi də ingilis dilini bilməyənləri qapı arxasında qoyurlar. Mən heç də əcnəbi*

*dillərin öyrədilməsinə qarşı deyiləm" deyir. Şair misal kimi öz ailəsini göstərir. "Mənim övladlarım və nəvələrim ana dilində təhsil alsalar da, ingilis və rus dillərini bilirlər. Övladımın biri isə bunlardan başqa fars dilini də mükəmməl bilir. Əcnəbi dilləri bilmək vacibdir". Lakin B.Vahabzadə xüsusi olaraq vurğulayır ki, bu, ana dilinin hesabına olmamalıdır.*

- Yaxın günlərdə çox sevdiyim istedadlı gənc Rafael Hüseynov məni Bakıda yeni açılmış "Amerika" Universitetinə dəvət etmişdi. Universitetin həyətində bir neçə tələbə qıza rast gəldim. Onlardan iclasın harda keçəcəyini xəbər aldım. Heç biri mənə ana dilində cavab verə bilmədi. Mənimlə bərabər iclasa gələn professor Nurəddin Rzayev qəsdən onlara ingilis dilində eyni sualı verdi. Sualımızı həm rus, həm də ingilis dilində bülbül kimi ötərək cavablandırdılar. Mən bu dəfə onlardan rus dilində soruşdum: "A vı ne znaete svoy rodnoy əzık?" Rus dilində qayıtdılar ki, "xeyr, ana dilimizi bilmirik". Mən də əsəbi şəkildə onlara dedim ki, "lap əcəb eləyib bilmirsiniz. Bu dil kimə lazımdır ki?".

İndi mən soruşuram: bu tələbələr vəzifə sahibi olandan sonra çörəyini yeyib, suyunu içdikləri Vətənin namusunu və şərəfini qoruyacaqlarmı? Sualıma böyük rus pedaqoqu Uşinskinin sözü ilə cavab verirəm: "Bu uşaqlar böyüyüb məmur olandan sonra üzlərinə nə qədər vətənpərvərlik maskası taxsalar da, onlar öz ana vətənlərinə deyil, dillərində təhsil aldıqları millətə qulluq edəcəklər". Çünki görkəmli alman filosofu V.Humboldtun dediyi kimi, "Xalqın dili onun ruhudur və xalqın ruhu onun dilidir. Bundan da güclü olan eyniliyi təsəvvür etmək çətindir".

Ona görə də dilə biganə olanlar xalqa da, onun ruhuna da, ənənəsinə də, tarixinə də biganə olacaq və bu xalqı özündən çox aşağı hesab edəcəklər. Bu faciəni bütün qəlbi ilə hiss edən, ömrünün 35 ilini Amerikada yaşamış böyük kimyaçı alim, son illərdə doğma vətəni Türkiyəyə qayıdan Oqtay Sinanoğlu Türkiyədə ingilisdilli məktəblərin ildən-ilə çoxaldığını görüncə, buna qarşı çıxmağa baş-

ladı. 1996-cı ilin dekabr ayında mən Türkiyədə müalicə olunduğum zaman onun yerli “Aydınlıq” qəzetində çap elətdiyrdiyi bir məqaləni oxuyub çox həyəcanlandım. O yazır ki, Türkiyədə təhsilə ildə 1 milyard dollara yaxın pul xərclənir. Əcnəbi ölkələrdə təhsil alan türk balaları üçün isə ildə 7-8 milyard dollar sərf olunur.

Alim məqaləsini bu sözlərlə başlayır: “Əgər bir milləti məhv etmək istəyirsinizsə, onun təhsilini yabançılaşdırın”.

Bu məqaləni bir-iki gün sonra Türkiyənin cümhur başqanı Süleyman Dəmirəl cənablarına təqdim etdim. Və Sovet imperiyası dövründə biz azəri türklərinin bu faciəni yaşadığımızı ona çatdırdım. O, mənim ağrımı hiss etdi. Lakin buna nə dərəcədə əlac edəcəyini deyə bilmərəm. Mən bu ağrımı bizim möhtərəm prezidentimizə də dəfələrlə demişəm və hətta Uşinskinin “Ana dili” məqaləsini ona təqdim etmişəm.

Humboldtun dediyi kimi: “dil millətin ruhudur”. Bu fikri daha da dərinləşdirərək böyük türk alimi Faruk Qədri Timurtaş, görün, millətin bir millət olaraq yaşaması və tərəqqisi üçün ana dilində təhsilin vacib olduğunu necə ifadə edib: “Dil məsələsi bir milli müdafiə məsələsidir. Dilimizi qorumaq vətən və milləti qorumaqla birdir. Çünki dil Vətən qədər, tarix qədər, gələcək qədər əzizdir. Dil də bayraq kimi müqəddəsatdandır. Bəlkə, hamısının ifadəsi olduğu üçün hamısından öndədir. Dil olmayınca, millət də olmaz.”

Mənim istiqlal uğrunda apardığım 50 illik mübarizəm, əsasən, ana dilimizin dövlət idarələrindən qovulmasına qarşı olub. Bu barədə mən onlarla məqalə və şeir yazmışam, hətta dram əsərlərimdə də bu məsələyə toxunmuşam.

Sovet dövründə məni eşidən yox idi. Mənə təəccüblü gələn budur ki, müstəqil dövlət olan bugünkü Azərbaycan Cümhuriyyətində də mən bu məsələyə istədiyim səviyyədə nail ola bilmirəm. Yenə də bəzi idarələr və nazirliklər öz vərdişlərindən dönə bilmir. Müdafiə Nazirliyi, Azərbaycan hava yolları, dəniz nəqliyyatına nəzarət edən təşkilatlar Azərbaycan dövlət dilini yaxın buraxmır.

*- Bəxtiyar müəllim, adlarını çəkdiyiniz qurumlarda dövlət dilimizin aşağılanmasının səbəbi nədir?*

- Birinci səbəb, bu qurumlara rəhbərlik edənlərin özlərinin ana dilini bilməməsidir. Biz onları yaxşı tanıyırıq. Onlar loru ana dilində birtəhər danışa bilir. Ədəbi dilimizi isə bilmir və yüksək kürsülərdən rus dilində danışmalı olurlar. Bəziləri də toplantılarda əvvəlcədən kiminsə tərəfindən yazılmış mətni üzündən oxuyur və elə oxuyur ki, dediyini özü də başa düşmür.

Mən hesab edirəm ki, adamları böyük vəzifələrə təyin edəndə başqa cəhətləri ilə yanaşı, onların dövlət dilini hansı səviyyədə bilmələri də yoxlanılmalıdır.

*- Ölkəmizdə rus dilinin güclənməsi, rusca danışanların sayının yenə artması "yuxarı"danmı gəlir?*

- İnsafla desək, rus dili sovet dövründəki səviyyədə işlənmir. İndi nazirliklərimizin əksəriyyəti bütün dövlət işlərini dövlət dilində aparır. Prezident təmiz ana dilində danışır. Amma bu azdır. Bu dərdin müalicəsini bağçalardan, məktəblərdən başlamaq lazımdır. Rusiyanın Azərbaycandakı səfiri Bloxin çıxışlarının birində fəxrlə dedi ki, Azərbaycan müstəqil olandan sonra rus məktəblərinin sayı artıb. Mən dərhal təhsil nazirimiz Misir Mərdanova telefon açıb Bloxinin dediyinin həqiqət olub-olmadığını soruşdum. O mənə dedi ki, "Bloxin bir qədər şişirdir. Amma övladlarını rusdilli məktəblərdə oxutmaq istəyən valideynlər yenə də çoxdur".

*- Dilimizin hakimiyyətini qorumaq üçün nə etmək lazımdır?*

- Dediyim kimi, məktəblərdən başlamaq lazımdır. 1992-ci ildə Ermənistan parlamenti qərar çıxarıb: "Yerevandakı rus məktəbləri yalnız ruslar üçün olmalıdır. Heç bir erməni balasının rus məktəblərində oxumağa ixtiyarı yoxdur!"

Əgər bizdə də belə bir fərman olsa, nəinki yeni nəsil, hətta evində ailəsi ilə rus dilində danışan "kübarlarımız" anadilli məktəblərdə oxuyan uşaqlarının xətrinə milliləşərlər. Mənim təklifim belədir: Anadilli məktəblərdə rus və ingilis dillərinin tədrisini və onun meto-

dikasını o səviyyədə gücləndirmək lazımdır ki, şagird orta məktəbi bitirəndə bu dillərdə sərbəst danışa və yaza bilsin.

*- Və nəhayət, sonuncu sual: bizim dilimizin adı nədir?*

- Bir neçə il bundan əvvəl bu barədə qəzetlərdə müzakirə açılanda mən, Sabir Rüstəmxanlı, Anar, H.Abbaszadə, Zəlimxan Yaqub fikrimizi bildirmişdik. Və təkcə həmin müzakirədə yox, ondan çox-çox əvvəllər də eyni fikri söyləmişdim: Dilimizin adı azəri türkcəsi, millətimizin adı isə azəri türküdür.

Samirə

"Yeni müsavat", 4 yanvar, 2000.
"Ədəbi düşüncələr", Bakı, 2000.



# MƏNƏVİYYAT





# ANA LAYLASI,
# UŞAQ DÜNYASI

Biz hamımız laylalarla böyümüş, laylalardakı istək və xəyallarla qol-qanad açmışıq. Bizim alabəzək beşiklərimizi laylalar yırğalayıb. Analarımızın dilindən qopan yanıqlı laylalar əlvan çiçəklər kimi beşiyimizə səpələnib.

Laylay dedim yatasan,
Qızıl gülə batasan.
Qızıl gülün içində,
Şirin yuxu tapasan.

Nə qədər gözəl, nə qədər şairanə! Qızıl gül dediyi zaman analarımız laylaları nəzərdə tuturdu. Hər bir layla bir rəngli çiçək, bir rəngin gülüdür. Biz bu əlvan çiçəklərin içində şirin yuxular tapmış, uyumuş və böyümüşük. Bu laylalar adi şeir parçaları deyil, bunlar doğma vətənimizin bağrından qopan, dilimizin gözəlliyindən və incəliyindən yaranmış vətən sözləri, vətən arzularıdır.

Bu sözlərin şirinliyindən özümüz də hiss etmədən, bizim varlığımıza, mənəviyyatımıza vətənimiz işıq kimi süzülmüşdür. Bu şirin, bu doğma səslər, sözlər bizim yaddaşımızda sehrli nağıllar kimi həkk olunmuş, bizi harasa, gözəl bir dünyaya çağırmış, biz bu möcüzəli nəğmə ilə ətə-qana dolmuşuq. Axı, hər xalqın dili, o xal-

qın düşüncəsindən, mənəviyyatından, ruhundan doğur. Nə üçün biz suya "su", torpağa "torpaq" demişik? Bu sözlər ilk dəfə necə yaranmış? Kim deyə bilər ki, "su", yaxud "torpaq" hansı keyfiyyətinə görə belə adlandırılmışdır?

Rənginəmi, səsinəmi, şəklinəmi görə? Bu kəlmələr həm səsinə, həm rənginə, həm şəklinə, həm də mənasına görə həmin dildə danışan xalqın ruhunun və zövqünün ifadəsidir. Körpə ikən biz hələ mənasını başa düşmədiyimiz bu kəlmələrdəki doğmalığı və istiliyi hiss edir, onlardakı səslərin musiqisi ilə qidalanırıq. Bu nəğmə, bu musiqi, sonralar isə onlarda ifadə olunan məna bizi vətənimizə, onun təbiətinə, sakinlərinə incə tellərlə bağlayır.

Ana beşik başında layla deyir. Layladakı doğma sözlər nəğmənin ahəngində daha da gözəlləşir, hələ dünyanı dərk etməyən körpə, sözlərlə ahəngin vəhdətindən yaranmış gözəllik aləminə qanadlanır, uçur və yuxunun içində gülümsünür. Bu pak, bu təmiz təbəssüm nədir? O, nəğmənin qüdrətindən yaranmış əfsanəvi gözəllik dünyasını fəhmlə hiss edir. Bəlkə də, yuxu görür. Yuxusunda nağıllar, əfsanələr dünyasına qanadlanır... Ana qəlbindən süzülən doğma sözlər və doğma xallar, körpəni beşiyində ikən vətənlə, onun abhavası və ruhu ilə tanış edir.

Budur, laylalardakı qüdrət və gözəllik! Kim deyə bilər ki, cəbhələrdə böyük qəhrəmanlıqlar göstərən atalarımızın, babalarımızın fədakarlığında, əzmkarlığında, bir sözlə, vətənsevərliyində bu doğma sözlərin - şirin laylaların rolu olmamışdır? Bizim ata-babalarımız yadellilərə qarşı vuruşarkən məgər düşməndən yalnız kəndlərimizi, şəhərlərimizi, bir sözlə, daş torpağımızı qoruyurdular? Xeyr! Onlar həm də mənsub olduqları xalqın mənəviyyatını, ruhunu, bu ruhun ifadəsi olan nağıl və dastanlarımızı, bayatı və laylalarımızı qoruyurdular:

Nərgizi üzüm, laylay,
Yaxana düzüm, laylay;

Sən böyü, mən qocalım,
Toyunda süzüm, laylay.

Körpə beşikdə ikən anasından yalnız süd əmmir, südlə bərabər bu laylalardan süzülən ruhu, mənəvi şərbəti də içir. Süd uşağı cismən böyüdürsə, laylalar və nəğmələr onu ruhən böyüdür. Onun üçün də laylalar körpələrimiz üçün ana südü qədər vacibdir. Yenə də xalqımız demişkən, nəsil artırmaq heyvan işidir, əsil atırmaq insan işi! Biz vətənimiz üçün əsilli, mənəviyyatlı balalar böyütməliyik. Bu məqsəd üçün, biz laylalarımızı, nağıllarımızı sevməli və balalarımıza da sevdirməliyik.

Mən bir ailə tanıyıram. Ata və ana hər ikisi işlədiyindən üç yaşlı körpələrinin xatirinə kənddə yaşayan analarını öz yanlarına gətirdilər. Bir gün gəlin işdən gəlib görür ki, nənə nəvəsinə nağıl danışır. Nənə öz taleyini axtaran qəhrəmanın tilsimli bir qalaya gəlib çıxmasından danışırmış. Qəhrəman, qala qapısına nə qədər hücum edirsə, onu aça bilmir. Bu zaman ağacdakı bir quş qəhqəhə çəkib gülür və qəhrəmana deyir: “Sən o qapını qol gücünə aça bilməyəcəksən, çünki o qapı sehrlidir. Bunun üçün sən tilsimi açmaq sirlərini öyrənməlisən. İçəri girəndən sonra qalanın girəcəyində bir at görəcəksən, bir də it! Atın qabağında ət, itin qabağında ot olacaq. Sən əti itin qabağına, otu atın qabağına qoymalı; yəni hər kəsin yemini özünə verməli, sonra üst qatlara çıxmalısan”.

Bu nağılı eşidən gəlin əsəbiləşir və ərinə bildirir ki, uşağın tərbiyəsini nənəyə tapşırmaq olmaz. Çünki o, uşağa mövhumi nağıllar danışır. Nə sehr, nə tilsim?

Beləliklə, nənəni yenidən kəndə göndərirlər. Lakin bu gənc ata və ana nə qədər səhv etdiklərini bilmədilər. Onlar bilmədilər ki, nənənin danışdığı xəyal dolu nağıllar, uşaq təxəyyülünün inkişafı üçün hava və su kimi lazımdır. Eləcə də laylalar”!

Laylalara uşaqları yatıran nəğmə kimi baxmaq olmaz. Laylalar uşaq dünyasının zənginləşməsində, uşaq təxəyyülünün oyanmasın-

da və genişlənməsində çox böyük əhəmiyyətə malikdir. Axı, laylalar böyük arzu və xəyallarla doludur:

Bürünüb, dona bülbül,
Köç edər sona bülbül.
Balam dil açan günü,
Mat qaldı ana bülbül.

Ananın aləmində sözləri qırıq-qırıq deyən bala danışığından şirin bir nəğmə ola bilərmi?! Anaya elə gəlir ki, balasının yarımçıq dediyi kəlmələr o qədər şirin və o qədər dadlıdır ki, o, bülbülü də mat qoya bilər. Dünyada bülbül nəğməsindən şirin nəğmə yoxdur. Lakin o da uşaq danışığının qabağında sönükdür.

Oxşasın dilim səni,
Böyütsün elim səni,
Meydanda at oynadan,
Bir igid bilim səni.

Bu laylalarda ana qəlbinin böyük arzuları dil açıb danışır. Ana balasını igid, qəhrəman görmək istəyir. Uşaq onsuz da böyüyəcək. Lakin heç bir ana öz övladını cəmiyyətə, xalqa faydasız bir adam görmək istəmir. Ana istəyir ki, övladı ilə yalnız o özü deyil, el-oba fəxr eləsin, öyünsün. Bu böyük arzu və xəyallarla dolu laylaları beşikdə ikən balalarımızın qulağına pıçıldamalıyıq.

1973.
"Sənətkar və zaman", Bakı, 1976.





# ANA

Ana və övlad! Onların qarşılıqlı məhəbbəti, ananın övlada, övladın anaya borcu dünya ədəbiyyatının, incəsənətinin və ictimai fikrinin baş mövzularından olmuşdur. Ananın müqəddəsliyi, analıq hissinin böyüklüyü haqqında o qədər yazılmış ki, doğrusu, bu barədə təzə söz tapmaq, təzə söz demək çətindir. Ananın bala haqqında olan arzuları heç bir ölçü tanımır. Övladın altmış yaşı olsa da, o, ana üçün yenə də körpədir, baladır.

Mən belə bir rəvayət eşitmişəm: məşhur bir şairin 60 illik yubileyi keçirlirmiş. Yubiley gecəsində həmin şairin 90 yaşlı anası da iştirak edirmiş. Ana narahat baxışlarla tez-tez səhnədə əyləşən oğluna baxır, əsəbiləşirmiş. Nəhayət, ana ayağa qalxıb səhnədəkilərə müraciət edir:

- O qapını örtün, uşağa soyuq dəyər.

Sən demə, ana bayaqdan açıq qapının qabağında əyləşmiş şair oğluna soyuq dəyəcəyindən qorxurmuş.

Nə qədər gözəl, nə qədər təbii hissdir. Bəli, balanın neçə yaşı olur-olsun, bala kim olur-olsun, bunun ana üçün heç bir təfavütü yoxdur. O, ana üçün hər zaman, hər yerdə uşaqdır, baladır.

Ananın bala haqqında arzularına dair, xalq nə qədər bayatılar, oxşatmalar yaratmışdır:

Balama qurban inəklər,
Balam nə vaxt iməklər?!

Yaxud:

Balama qurban qulunlar,
Balam nə vaxt dil anlar?!

Bala iməkləyir də, ayaq da açır, dil də öyrənir, ancaq ananın arzuları yenə tükənmir. Ananın arzularından arzu doğur. Bala məktəbə gedir, məktəbi qurtarır, ali məktəbə girir, işləyir, evlənir. Ana indi də balası üçün başqa arzular bəsləyir:

Arzudan arzu doğdu,
O qurtardı, bu doğdu.
Ana bir vaxt gördü ki,
Ömrü axıra yetmiş.

Arzuların oduna
Öz ömrünü əritmiş.
Ana öz balasının
Yolunda can çürütdü,
Bala anaya çatdı,
Bala ananı ötdü.

Ah! Yenə də ananın
Arzuları bitmədi.
Bu arzular, arzular,
Ananı tərk etmədi.
Düşdü əldən, ayaqdan
Ana tamam qocaldı.

Dünyadan köçəndə də
Ananın ürəyində
Yenə bir arzu qaldı.
Ana getdi dünyadan
Balanın çiçəklənən
Ömrünün yaz çağında.

Ananın arzuları
İndi də təkrar oldu
Balasını böyüdən
Balanın dodağında.

Beləcə həyat davam edir. Axı, bu günün anası dünənin övladıdır.

Əgər məndən soruşsalar ki, dünyada ən gözəl nəğmə nədir? Mən tərəddüdsüz deyərdim: Ana laylası. Əgər məndən soruşsalar ki, dünyada ən maraqlı və ən gözəl kitab hansıdır? Mən deyərdim: Anamın danışdığı nağıllar. Əgər məndən soruşsalar ki, dünyada ən təhlükəsiz, ən gözəl sığınacaq haradır? Mən deyərdim: Ana qucağı.

Biz bütün bu gözəl nemətləri hələ körpəlikdən duymuş və dadmışıq. Mən deyərdim, bütün böyük şəxsiyyətləri böyüdən, onları dahiliyə qaldıran da ana nəğməsidir, ana südüdür, ananın danışdığı nağıllardır. Böyük ingilis filosofu Q.Bokl çox gözəl demişdir: "Maraqlıdır ki, dahilərin əksəriyyətinin gözəl anaları olmuşdur. Dahilər atalarından çox, analarından öyrənmiş, ana tərbiyəsi ilə yüksəlmişlər".

Dünyanın ən öyük təbiətşünasları, fizikləri, Kainatın və təbiətin sirlərlə dolu olduğunu bu açılmamış insan idrakının ilk sadəlövh döyüşünü, insanın sirlər dünyasına yürüşünü ilk dəfə anaların danışdığı nağıllarda öyrənməmişlərmi? Nağıllar xəyallarla doludur. Hər bir ixtira, birinci növbədə, xəyala, fantaziyaya borcludur. Təsəvvür edin, körpə Leonardo da Vinçi başını anasının dizi üstə qoyub onun

danışdığı nağıllara qulaq asır. Ana, uçan xalçadan (Şərqdə), yaxud uçan atdan (Qərbdə) danışır... Bu xəyal, bu arzu körpənin qəlbinə süzülür. Xəyal üstünə xəyal gəlir. Körpə gülümsünür... İndi o, həmin atın belində süzür... Körpə böyüyür, xəyal, arzu, ideala çevrilir və nəhayət, dəmir atın - təyyarənin ilk modeli yaranır...

İnsan idrakının bu gün gördüyümüz bütün nailiyyətləri ibtidai halda analarımızın danışdığı nağıllarda yaşayır. Demək, bəşəriyyətin yaratdığı bütün xariqələr, öz gücünü, mayasını, ilk sıçrayış nöqtəsini istinadgahını, ana qucağından götürür. Hər şeyin əvvəli anadan başlayır. Əlifbadakı ilk hərfin də "a" ilə başlaması təsadüfi deyil. Biz dilimizi də "ana" dili" adlandırırıq. Çünki bizə ilk dəfə doğma dilimizi də öyrədən ananın özüdür.

Savadsızdır mənim anam
Ancaq mənə say öyrədib
Ay öyrədib,
İl öyrədib
Ən vacibi dil öyrədib mənim anam.
Mən bu dildə hiss etmişəm,
Həm sevinci, həm də qəmi.
Bu dil ilə yaratmışam,
Hər şeirimi, hər nəğməmi.
Yox, mən heçəm
Mən yalanam,
Kitab-kitab sözlərimin
Müəllifi - mənim anam.

Həm də analar, danışdığı nağıllarda öz övladlarına şər qüvvələrə qarşı, Kainatın və təbiətin sirlərinə qarşı mübarizədə inam təlqin edirlər...

Nəğmələri ilə insanın yaralarına məlhəm qoyan böyük bəstəkarlar

məgər öz operalarının, simfoniyalarının, gözəl mahnılarının mayasını ana laylalarından götürməmişlərmi? Nizami, Şekspir, Puşkin kimi poeziya bahadırlarının yaratmış olduğu qəhrəmanlar analarının danışdığı nağıllardan gəlmirmi? Nəhayət, böyük rus şairi Nekrasovun dediyi kimi: "Biz bacımızı, qardaşımızı, arvadımızı və atamızı sevirik. Ancaq çətin ayaqda həmişə anamız yada düşür".

Ana qucağı! O, ən müqəddəs, ən pak, ən qərəzsiz və ən təhlükəsiz isti yuvadır. Orada insan dünyanın bütün dərdlərindən, bəlalarından uzaqdır. Biz bütün gücümüzü, qüdrətimizi, ilhamımızı oradan götürürük. Ana qucağı vətəndir, doğma torpaqdır, təsadüfi deyil ki, bizim dilimizdə "ana" sözü ilə "vətən" sözü sinonimdir.

Bizim qədim abidəmiz olan "Kitabi-Dədə Qorqud"da ana Allahla eyniləşdirilir. Çünki ana da Allah kimi yaradıcıdır. "Dədə-Qorqud" qəhrəmanlarından Uruz, ana haqqını, "tanrı haqqı" adlandırır. Bizim nağıllarımızda anaya lazım olduğu kimi xidmət etmək Kəbəni satın almaqla bir tutulur.

Salur Qazanın evi talan edilir. Qazan düşməninin imarətinə gəlir. Ona belə deyir:

Mərə Şüklü Məlik!
Dənliyin altın ban evlərimi gətirib durursan,
Sənə kölgə olsun.
Ağır xəzinəm, bol axçam gətirib durursan,
Sənə xərclik olsun.
Qırx incə belli qızla Burla xatunu gətirib durursan
Sənə yesir olsun.
Qırx yigitlə oğlum Uruzu gətirib durursan,
Qulun olsun.
Tovlatovla şahbaz atlarım gətirib durursan,
Sənə minnət olsun.
Qatar-qatar dəvələrimi gətirib durursan,

Sənə yüklət olsun.
Qarıcıq anamı gətirib durursan, mərə kafir,
Anamı vergil mana.
Savaşmadan, vuruşmadan qayıdayım.

Beləliklə, Qazan xan, var-dövlətindən də, kənizlərindən də, arvadından da, oğlundan da anasını üstün tutur. O, düşməndən yalnız qoca anasını istəyir. Bu yerdə adam Qazan xanın qarşısında baş əyməyə bilmir. Yox, Qazan xanın yox, əslində, bu gözəl abidəni yaradan incə təbiətli, böyük mənəviyyatlı, böyük ənənəli xalqın qarşısında baş əymək lazımdır. Demək olar ki, "Kitabi-Dədə Qorqud" boyları ana və analıq haqqında dərin və mənalı, müdrik və əzəmətli nəğmələrdir.

Bəli, Azərbaycan xalqı üçün ana bu qədər əziz, bu qədər müqəddəsdir. Diqqətlə baxılsa, bayaq misal gətirdiyimiz boyda da ana, vətən timsalı kimi götürülür. Vay olsun o adamın halına ki, bu müqəddəsliyi, bu paklığı və bu böyüklüyü görməyə, ona arxa çevirə. Anasına - vətəninə, xalqına arxa çevirənlərin, faciəli aqibətini C.Məmmədquluzadə "Anamın kitabı"nda çox gözəl qələmə almışdır:

Ananın üç övladının hərəsi bir tərəfdə təhsil alıb vətənə qayıdır. Onlar öz vətənlərini, ana dillərini sevmir, vətənə xor baxırlar. Ana öz doğma övladlarının dilini başa düşmür. Çünki onlar özgə dillərdə danışırlar. Ana yalnız qızı Gülbaharın dilini başa düşür. Çünki yalnız Gülbahar ananın öz dilində danışır. Bu hala dözməyən sonbeşik Gülbahar qardaşların yad ölkələrdən gətirdikləri kitabları yandırır, yalnız bir kitabı - ananın kitabını saxlayır. Bu övladların ataları, həmin kitaba öz vəsiyyətini yazmışdır. Gülbahar yazını oxuyur: "Mən etiqad edirəm ki, mənim də balalarım dünyada hər yanı gəzib-dolansalar, yenə əvvəl-axır anaları Zəhranın ətrafında gərək dolanalar; çünki ay və ulduz Şəmsin parçaları olan kimi, bunlar da

analarının ayı və ulduzlarıdır. Vay o kəsin halına ki, təbiətin həmin qanununu pozmaq istəyə".

Mirzə Cəlilin bu sözü bizim gəncliyimiz üçün ən böyük nümunə, ən müqəddəs kitab olmalıdır. Mən bundan böyük söz tanımıram. Öz doğma anasına, öz vətəninə arxa çevirən kimdirsə, onun insanlıqda payı yoxdur. Öz anasına, bu ananın dilinə və vətəninə arxa çevirənin başqa bir anaya, başqa bir vətənə oğulluq edəcəyinə inanmaq çox çətindir.

1971.

"Sənətkar və zaman", Bakı, 1976.





## ÇÖRƏK

Bir neçə il bundan əvvəl iki nəfər dostumla restoranda nahar edirdim. Qonşu masada əyləşən bir gənc, əlindəki çörək parçası ilə boşqabı silib, çörəyi külqabına atdı. Kənar masada əyləşmiş kişi, gəncin bu hərəkətinə dözmədi, onu danladı. Tutaşdılar. Gənc oğlan yaşlı kişini ağır sözlərlə təhqir edib dedi:

- Gördüm boşqabım suludur, çörəklə qurutdum. Bunun sənə nə dəxli var? Sən başqasının işinə qarışma.

Burada biz də dözmədik. Yaşlı kişiyə qahmar çıxdıq. Gənci töhmətlədik. Eyni sözləri o bizə də dedi: - heç kəs başqasının işinə qarışmasın. Mən neylədiyimi özüm bilirəm.

Gəncə çörəyin müqəddəsliyi barədə çox sözlər dedik. Bunun müqabilində o, bizi “geri qalmış qalstuklu dindarlar” adlandırıb restoranı tərk etdi.

Çörəyi müqəddəs saymaq, ona and içmək, uzaq yerlərdən gələn hörmətli qonağı duz-çörəklə qarşılamaq kimi gözəl adətlərimiz gerilikdirmi? Nəhayət, bunların dinlə, mövhumatla bağlılığı vardımı? Qətiyyən!..

Ulu babalarımız islamiyyətdən çox-çox əvvəl, icma dövründən belə çörəyi müqəddəs sanmış, sünbülə tapınmışlar. Ən gözəl xeyir-duamız, alqışımız çörəklə bağlı olmuşdur:”çörəyin bol olsun”, “təknəndən çörək əskik olmasın” və s.

Baharın ilk günlərində səməni göyərdilməsi və onun haqqında mahnı oxunması taxılın əziz və müqəddəs tutulması ilə bağlıdır. Ona görə ki, taxıl torpaqdan öz-özünə göyərmir. O, insan zəhmətilə yetişir. Zəhmətlə bağlı olan hər şey bizdə müqəddəs sayılmışdır.

Pinəçilər və dəmirçilər qarşılarındakı dəzgaha and içərlər. Bu, onlar üçün ən müqəddəs anddır. Əgər dəzgaha and içdilərsə, dediklərində zərrə qədər də yalan ola bilməz. Ona görə ki, onların çörəyi dəzgahdan çıxır. Pinəçi və dəmirçi üçün dəzgah yazıçı və jurnalist üçün qələm, rəssam və rəngsaz üçün fırça çörək ağacıdır. Məhz buna görə də müqəddəsdir!

Gənc gedəndən sonra yaşlı kişi üzünü bizə tutub dedi:

- O da bizim kimi müharibənin ağır illərində yaşasaydı, çörəyin qədrini bilərdi.

Kişi haqlı idi. Müharibə illərində yaşayanlar, yəni orta və yaşlı nəsil çörəyin nə olduğunu yaxşı bilir. O nəsillər 300-500 qram çörəklə işləyib vuruşmuş və qələbə çalmışlar. O zaman heç kəs çörəyi yerə atmaz, onun hər qramının qədrini bilərdi.

Əlbəttə, heç kəs o ağır illərin geri qayıtmasını istəməz. El demişkən, "o günlər getsin, bir də gəlməsin". İndi hamının çörək təknəsi doludur. Məsələ bunda deyil. Məsələ ağır zəhmət bahasına meydana gələn, mayası alın təri olan, xalqın dili ilə desək "daşdan çıxarılan çörəyin" qədrini bilməkdə, zəhmətə hörmətdədir.

Engels demişkən, "insanı insan edən zəhmətdir". İnsan öz xaliqi olan zəhmətə qiymət verməyi bacarmırsa, ondan nə ummaq olar?

Dünyada heç bir şey zəhmətsiz başa gəlmir. Daş daşın üstünə öz-özünə qonmur. Toxum öz-özünə taxıl, taxıl öz-özünə un, un öz-özünə çörək olmur. Gördüyün hər şeyin ilkinə bax. Meyvədə çiçəyi, bulaqda qaynağı, köynəkdə pambığı, sonda ilki gör! Bunu görməyi bacarırsansa özünü, mahiyyətini, cəmiyyətdəki yerini, başqalarında olan borcunu görə biləcəksən. Əks təqdirdə, nə özünü dərk edəcəksən, nə də ətrafını.

Biz çörəyi uşaqlıqdan müqəddəs saymışıq. Nənəm təndirdə

çörək bişirər, babam təndir başında qəlyanını sümürərdi. Qonşulardan kim gəlsə idi, çörəyə baxıb "bərəkətli olsun" deyərdi. Təndirdən çıxan ilk çörəyi kəsməmişdən əvvəl öpərdilər.

Taxıl - un evin yuxarı başında qoyular, zəmini ayaqlayana "sünbül ana inciyər" deyərdilər.

Eradan əvvəlki saxsı qablara baxaq. Onların üstünə taxıl-sünbül şəkli həkk olunmuşdur.

Naxələf adam haqqında "çörəyi dizinin üstündədir" deyilər. Bir-birinə pislik eləmək istəyəndə başqası "bir yerdə çörək kəsmisiniz" deyərkən o, bu yoldan daşınar, bir yerdə kəsilmiş çörəyə qarşı dura bilməz.

"Duz çörək - düz çörək" adlandırılmış, öz kökünü, torpağını dananlara "çörək gözünü tutsun" deyilmişdir.

"Başqasının işinə qarışma" nə deməkdir? Heç kəs heç kəs üçün başqası deyil. Biz hamımız bir ananın, bir torpağın övladlarıyıq. Əgər sən öz torpağından ayrılıb onun üstündə min cür əziyyətlə yetişdirilən, ana sandığımız bu torpağın bəhrəsi olan çörəyi əsgi əvəzinə işlədirsənsə, mən sənin boğazından yapışıb, həqiqəti sənə öyrətməliyəm. Çünki mən öz atamın, öz anamın oğluyam. Çünki mənim atam, babam mənə yerə atılmış çörək parçasını yerdən qaldırıb öpməyi və onu hörmətlə divara qoymaq dərsini öyrədib. Əgər sən öz ata-babandan bu dərsi öyrənməmisənsə, mən sənə öyrətməliyəm. Sənin o dəhşətli müharibə illərindən xəbərin yoxdursa, mən sənə loğman şairimiz S.Vurğunun dili ilə deməliyəm:

Torpağa düşməsin havayı bir dən
Çörək bol olarsa, basılmaz Vətən.
Tökülsün xırmana çöllərin varı,
"Boşaldım" deməsin elin anbarı.
Bu gün əsgər gedən mərd oğulları
Gəlin, duz-çörəklə yola salaq biz.
Dildən-dilə düşsün tarla nəğməmiz.

Müharibə illərində hər sünbül dənəsi, qızıl parçası kimi qiymətli idi. Çünki hər sünbül dənəsini biz düşmənin gözünə batan bir ox, bir güllə sanırdıq. Müdrik şairimiz də haqlı olaraq "çörək bol olarsa basılmaz Vətən" - deyirdi.

Bəs bu gün? Bu gün niyə çörəyin qədrini lazım olduğu kimi bilməyək? Ona çəkilən zəhməti qiymətləndirməyək?

Atasının qazancı ilə restorana gəlib ucuz qiymətə aldığı, asanlıqla əldə etdiyi çörəyin qədir-qiymətini bilməyən o gənc, yediyi nemətlərin yetişdirildiyi ana torpağımızın qədrini hardan biləcək? Torpağa sadəcə torpaq kimi baxanlar, onun nə üçün "Ana torpaq" adlandırdığının da fərqinə varmaz, onun uğrunda ölümə getməyin zərurətini də dərk edə bilməz. Torpağın üstünə alın təri tökməyən, torpağın nemətlərini yeyib, onun sirlərindən xəbərsiz olan, çörəyin meyvə kimi ağacda yetişdiyini zənn edən bəzi gənclər, əlindəki tikənin üstündə öz zəhməti olsaydı, bəlkə də, o tikə ilə boşqab qurulamazdı. Zəhmətsiz və asan əldə edilən nemətin qədir-qiyməti olmazmış!..

Rəvayətə görə, ata tənbəl oğlunu zəhmətə alışdırmaq üçün hamballığa göndərir. Oğul işdən qaçır, anasından pul alır. Axşam "qazanmışam" deyə atasına verir. Ata pulu ocağa atıb yandırır. Oğul qəhqəhə çəkib gülür. Bu hal bir neçə dəfə təkrar olunur. Oğul hər dəfə ocaqda alışan pula baxıb gülür. Nəhayət, ana oğluna pul vermir, oğul bütün günü işləyib bircə manat pul qazanır, axşam atasına verir, bu dəfə də ata pulu ocağa atmaq istəyəndə oğul onu saxlayır.

- Neyləyirsən, bütün günü işləyib bunu qazanmışam, sən də ocağa atırsan?

Ata bilir ki, bu dəfəki manat oğlunun öz qazancıdır. Bu bir manatın üstündə yandığı üçün onun ocaqda yanmasına razı ola bilmir. Çünki manatın üstündə onun alın təri var.

Demək, öz zəhmətini qiymətləndirməyi bacaran, başqasının da zəhmətinə hörmət etməli, onu qiymətləndirməlidir. Öz kökündən,

torpağından ayrılıb, hardan gəlib hara getdiyini bilməyən, başqasının zəhmətini qiymətləndirməyən, çiyninə qədər saç uzadıb cinsiyyətini belə itirən, mədəniyyəti yamsılamaqda, müasirliyi “cins” şalvarda görən dibçək çiçəkləri, əsl insan və əsl vətəndaş olmaq istəyirlərsə, ilk növbədə, üstündə gəzdikləri torpağı, onun sirlərini, onun tarixini bilməli, onun qarşısında diz çökməyi bacarmalıdırlar. Belələri üçün müqəddəs heç bir şey yoxdur. Onu yaşadan çörəyin qədrini bilməyən bir adamdan nə gözləyəsən? O, çörəyə hörmət etmədiyi kimi, qarşısındakı yaşlı adama da hörmət etmədi. Əgər belələrinin sayı az olsaydı, bəlkə də, bu barədə danışmağa dəyməzdi. Mən adamlar tanıyıram ki, üstündə meyvə olmayanda meyvə ağaclarını bir-birindən seçə bilmir. Əynindəki paltarın al gün altında pambıq becərən qızların zəhməti sayəsində meydana gəldiyindən xəbərsizdir. Belələri atalarının qoltuğunda rahat güzəran keçirib. Beş il hökumətdən təqaüd alıb oxuyur, məktəbi bitirəndən sonra əynindəki paltarı becərən, çörəyini, yağını, meyvəsini göndərən ana və bacılarımızın, ata və qardaşlarımızın balalarına dərs demək, yaxud onlara səhiyyə xidməti göstərmək üçün kəndlərimizə getmək istəmir.

Restoranlarda kənardan gəlmə caz havalarına qatlanıb açılan həmin gənclər bir neçə illiyə kəndlərimizdə işləsələr, heç olmasa, yedikləri nemətin necə hasil olduğunu bilərdilər...

Bütün bunları deməkdə məqsədim nədir?

Çox yerdə gördüyüm çörəyə hörmətsizlik! Əgər ölkəmizdə çörək ucuz qiymətə satılırsa, biz onu qiymətsizmi hesab etməliyik? Hava da boldur və müftədir. Görək, bir dəqiqə havasız yaşaya bilərikmi?

Şəhərimizin yuxarı məhəllələrində qoyun və mal saxlayanlar var. Onlar zəhmət çəkib yaxın kəndlərdən ot gətirmək əvəzinə mal-qaraya çörək yedirirlər. Hər kəsin öz xörəyini özünə versək yaxşı olmazmı? Çörək otdan ucuz satılırsa, otdan asan əldə edilirsə və buna görə bizə bir söz deyən yoxdursa, insan üçün yaradılan neməti heyvanamı verməliyik?

Bundan başqa, evlərdə, restoran və bufetlərdə gündə nə qədər

artıq çörək zibil qutularına atılır, havayı korlanır. Əgər çörək ucuz satılırsa, bu o deməkdirmi ki, çörək çox asan başa gəlir? Bu məsələlərdən danışan traktorçu, iki dəfə Sosialist Əməyi Qəhrəmanı A.Gitalov "Çörək haqqında düşüncə" adlı məqaləsində çox maraqlı faktlarla göstərir ki, 200 minlik bir şəhərdə bir gündə orta hesabla 6 ton çörək küçəyə atılır.

Əlbəttə, bu dəhşətdir! Bu işdə hamı bir olmalı və çörəyin belə insafsızcasına israfına yol verilməməlidir! Biz bununla ana torpağı və onun üstündə çəkilən insan zəhmətini qorumuş olarıq!

1972.

"Sənətkar və zaman", Bakı, 1976.





# MƏNƏVİ DAYAQLARIMIZ

***(Dialoq)***

**B. V a h a b z a d ə:** - Xudu müəllim, bədii sənət nümunələrimizin zənginliyi, klassik şeirimizdə müxtəlif elm və estetika məsələlərinin qoyuluşu, elmi təfəkkürlə poetik təfəkkürün həyata, gözəlliyə münasibətindəki oxşar və fərqli cəhətlər, bu əlaqələrin öyrənilməsi məsələləri, bilirəm, Sizi çox maraqlandırır. Siz bu məsələlərə yalnız bir alim və ya oxucu kimi yox, mən deyərdim, əsl ədəbiyyat adamı, şeir bilicisi kimi yanaşırsınız. Xüsusən, bugünkü şeirimizin vəziyyəti, onun inkişaf yolları və gələcəyi haqda söhbətlərimiz məni həmişə təsirləndirir. Şeirdən, sənətdən söz açmadığımız görüşümüzü xatırlamıram, ancaq Sizin fikirləriniz mənim üçün hər dəfə təzədir. İstərdim ki, bugünkü söhbətimizi də buradan başlayaq - indiki şeirimizdən. Poeziyamızın müasir mənzərəsi Sizə bir elm adamı kimi, inciməsəniz deyərdim, bir az kənardan baxan adam kimi, necə təsir bağışlayır?

**X. M ə m m ə d o v:** - Özünüz yaxşı bilirsiniz, mən şeiri həmişə oxuyuram və sevirəm. Təkcə özümüzünkü ilə yox, müxtəlif xalqların klassik və müasir poeziyası ilə tanışam. Həmişə də təzə oxuduqlarımı, hansı xalqın arasında yarandığından asılı olmayaraq,

istər-istəməz, öz şeirimizlə tutuşdururam. Axı, biz gördüklərimizə, eşitdiklərimizə bildiklərimizin “gözü” ilə baxırıq. Belə hallarda poeziyamızın bu gün də yüksək səvyyəli olduğu haqqındakı nəticəmə daha çox inanıram. Bu, mənim fərdi münasibətim olsa da, poeziyamızı yüksək səviyyəli görmək arzusundan yaranmayıb; hər birimiz kimi, bütün sahələri belə görmək istərdim. Ancaq elə sahələr var ki, sənətimiz də ona yüksək deyib. Bir oxucu kimi, məni bugünkü poeziyamızda razı salan nədir? Ənənəvi şeir ruhunun saxlanması; həyata, hadisələrə geniş nəzərlə, yüksəklikdən baxmaq, zərrədə dünyanı duymaq, bəşəri ümumiləşdirmələr və sair. Qədim bir ingilis şairinin dili ilə desək:

Kainatı qum dənəsində,
Göyləri çöl çiçəyində gör.
Sonsuzluğu ovcunda,
Əbədiyyəti bir anda saxla.

Poeziyamız üçün çox səciyyəvi olan bu ənənə uğurla yaşadılır. Şeirimizdə didaktika azalır, quru nəsihətçilik, ritorik, çılpaq, bəsit danışıq - antipoeziya meydandan çıxır. Səmimiliyə, böyük ümumiləşmələrə güclü həvəs hiss olunur.

**B. V a h a b z a d ə:** - Sizin bu fikirlərinizə mən də şərikəm.

**X. M ə m m ə d o v:** - Sual necə qoyulsa da, mən sənətdən nə gözlədiyimi danışmalıyam. Belə halda başqalarının vəziyyətinin mənimkindən yaxşı ola biləcəyinə inanmıram. Kim şeirdən nə gözləyirsə, şeirin vəzifəsini onda görür. Elə buna görədir ki, “Şeir nədir?” sualının bu günə qədər elmi cavabı yoxdur. Qədim Roma şairlərindən Lukretsi “Şeylərin təbiəti” adlı poeması ilə elmdə yaxşı tanınır. Qədim dünya insanlarının təbiət haqqında ən qiymətli bilikləri bu kitabda şeirlə yazılıb. Ancaq heç bir qədim, ya yeni kitabda bu poemanın şeiriyyətindən danışana rast gəlməmişəm. Görünür, şeirin bir təsvir vasitəsi kimi istifadə olunduğu yazıları əsl

şeirdən fərqləndirmək lazımdır. Şeir formasında deyilmiş elə fikirlər var ki, onlar nəsrlə deyilsə, heç bir şey itirməzdi. Şeir sözləşmiş musiqidir. Bizə yad bir dildə oxunanda da şeiri duyuruq. Buna səbəb poeziyadakı musiqidir. (Əlbəttə, bizim aktyorların əruz vəznində yazılan şeirləri oxuyarkən Tehran radiosunu yamsılamalarını nəzərdə tutmuram).

İnsanı öz-özünə və beşiyi olan Kainata bağlayan bir birlik var. İnsan bu birlikdə köklənmiş sim kimidir. Bu birliyi pozan - istər sevinc, istər kədər, istər heyrət olsun - onu duyğulandırır, qəlbini səsləndirir. Bəs sevinc, kədər, heyrət kimi emosiyaların arxasında nə durur! İnsan - kainat birliyinin qarşılaşdığı yeni qaydalar, yeni bağlılıqlar... Şeirin mahiyyəti göründüyü qədər sadə olsaydı, o, hamıdan qabaq mənim öz gözümdən düşərdi. Bu sxemi misallarla tutuşduraq. Siz "Təyyarələr" şeirində insanın bir sıra xüsusiyyətlərinin yaratdığı duyğuları müasir oxucuya çox tanış olan təyyarə obrazı ilə çatdırmağa çalışmısınız. Təyyarədən insan aləmini açmaq üçün model kimi istifadə olunub. Təyyarənin özü insanlaşdırılıb. O, yavaş-yavaş ölə bilməz. Təyyarə ölmür, sınır, yanır... Öz-özlüyündə insanla təyyarə arasındakı oxşarlıq, təyyarənin insanlaşdırılması emosiya doğuran bənzəyişlərdir. Belə bir sadə sxemdə duyulmuş qaydadan şeirə gəlib çıxmaq üçün neçə keçid lazımdır. Bu keçidlərin birindəki uğursuzluq şeirin taleyini həll edər. Həmin keçidlərin hər birini ayrı-ayrılıqda adlamaq, şair kimi duymaq çətin deyil. Amma şair olmaq üçün bu çox azdır. Nizami deyir: cahanı güldürdüyü üçün Günəş özü də gülür. Yəni, ey insan, sən başqasını xoşbəxt eləsən, özün də xoşbəxt olarsan. Şair bu fikrini necə nəhəng bir obrazda ümumiləşdirir. Təbiət hadisəsi, kosmik obraz insan mənəviyyatının modelinə çevrilib. Məncə, şeiriyyət bundan başlanır.

**B. V a h a b z a d ə:** - Sözünüzə qüvvət üçün bir misal da mən çəkim: Hüseyn Hüseynzadənin "Damcılar" şeiri yadınızdadırmı?

Ayrılanda uçub itər havada,

Birləşəndə selə dönər damcılar.

Burada söhbət təkcə damcıdanmı gedir? Yox, misraların ciddi ictimai-fəlsəfi mənası var.

**X. M ə m m ə d o v: -** Nəbi Xəzrinin bu misralarına fikir verək:

Sandım ki, çiynimə yarpaq düşəndə,
Təbiət əlini çiynimə qoydu.

Bu misralar çox xoşa gəlir. Yarpağın düşməsi adi hadisədir. Ancaq yarpağın çiyinə düşməsi insanla təbiətin birliyi rəmzi kimi mənalıdır: mən təbiətlə ayrılmazam, birlik pozulmayıb, bu qayda qorunur, yaşayır. Bir sözlə, dünyadakı obyektiv qaydalar, bağlılıqlar insanın daxili duyğularını başqalarına çatdırmaq üçün bir vasitəyə çevrilir. Çox hallarda çalışıb belə duyğuların elmi təsvirini vermək olardı, ancaq bununla başqasında duyğu oyanmazdı. Xarici aləmlə insanın daxili aləmi arasında oxşar qayda tapılanda, elə bil, birindən o birinə körpü atılır. Bu birlikdə insan özü kosmik ölçüdə görünür.

Elmdə təbiətin bir qanunauyğunluğunu izah etmək üçün onun başqa qanunauyğunluğundan geniş istifadə olunur. Bir-birinə obraz ola bilən belə qanun-qaydaların tapılması elmdə böyük kəşfdir və belə tapıntıdan alim də sənətkar qədər həyəcanlanır. Təbiətdə tapılan qaydalar çox mücərrəd olduqda elm adamları, əksinə, insanın daxili aləmindəki qaydalara əl atırlar. İndi fizikada "qəribəlik ədədi", "heyranlıq ədədi", "Maksvell Demonu" kimi anlayışlar belə yaranmışdır. Vaxtilə insanla bağlı olan cazibə də təbiəti təsvir etmək üçün elmə bu yolla gəlmişdir. Söz yox ki, söhbətin çərçivəsi belə məsələləri geniş əhatə etməyə imkan verməz. Ancaq elm və sənət məsələsinə ötəri olsa da, toxunub, hər iki sahə arasındakı məqsəd birliyini yada salmaya bilmərəm; həm elmin, həm də sənətin bəşəri bir qüvvə kimi məqsədi - insan kainat birliyinin və bu birliyin əsasında duran qaydaları qorumaqdır.

**B. V a h a b z a d ə:** - İnsanın təbiətlə vəhdətdə götürülməsi, kosmik hadisənin insan mənəviyyatında, insan hisslərinin isə təbiət hadisəsində qarşılığının axtarılması, müştərək təhlil, tutuşdurma, müqayisə... Bütün bunlar klassik şeirimizi təbiət elmlərinə çox yaxınlaşdırmışdır. Vaxtımız olsa bu məsələyə bir də qayıdarıq - Sizin fikrinizi bilmək üçün. İndi isə, zəhmət olmasa, o qayda məsələsini bir az xırdalayın. Qaydanı qorumağın həm elm, həm də sənət üçün başlıca məsələ olmasını necə başa düşək?

**X. M ə m m ə d o v:** - Qaydasızlıqdan fərqli olaraq, qaydanı saxlamaq, onu artırmaq üçün məqsədli iş görülməlidir. Bir də, bu iş arasıkəsilmədən görülməlidir və bütün xırda işlər qaydanı saxlamaq məqsədinə qulluq etməlidir. Nizami "Gəmi sükançının çoxluğundan batar" dedikdə çoxməqsədliliyin məqsədsizlik olduğunu, bunun da qaydasızlığa gətirdiyini, sonuncunun da fəlakətlə qurtaracağını nəzərdə tuturdu. Bayaq dediyimiz kimi, qaydalı duyğular - obrazlara sığan duyğular dünyadakı qaydaların təsirindən yaranır, doğulur. Bunlar gözəllik duyğumuzun, heyranlıq, heyrət, qüssə kimi duyğularımızın əsasıdır. İstər elmdə, istərsə də sənətdə yaradıcılığın ilkin stimulları bu duyğulardır. Kainat öz qaydalarının qəribəliyi ilə elm adamını heyran edir, axtarışa, bəzən lap ümidsiz axtarışa aparır; kainat qaydalarının insan düşüncəsindəki gözəllik şəkli ilə sənət adamını, Balzakın rəssamı kimi mütləq mükəmməllik axtarmaq dərəcəsinə qədər reallıqdan ayırır. Burdan aydınca görürük ki, sənət və elm bu birliyi öz-özündən qorumaq, onu daha da etibarlı etmək yollarıdır. Buna görə ölkəsindən, zamanından asılı olmayaraq, elmlər, sənətlər arasında bir məqsəd birliyi duyulur. Buna görə sənət, elm bəşəridir, buna görə insanın qulağına qaydanın nəğməsi ardıcıl oxunmalıdır. Yoxsa, gözəlliyi bir dəfə tərənnüm edib bununla da işi qurtarmaq olardı. Ədəbiyyatımızda yüz ildən yüz ilə keçib yaşayan bəşəri ideyalar olub. Bu ideyaların hər biri onlarca "Leyli və Məcnun"larda, "Xosrov və Şirin"lərdə, "Yeddi gözəl"lərdə işlənib saxlanılıb, ancaq heç vaxt təkrar olunmayıb. Ədəbi ideyalar hər dövrün öz obrazları,

formaları ilə yaşadılır.

Qayda özü dəyişilməsə də, onun doğurduğu emosiyalar, gözəllik hissi, heyranlıq, heyrət, "daxili təbəssüm" və bu kimi müsbət emosiyalar həmişə yeniləşir, yeni çalarlar alır. Buna görə də yeni sənət dilinə, yeni ifadə vasitələrinə ehtiyac yaranır.

Gözəlliyə, qaydaya heyranlığın - həyatın özünü özündən qorumaq, özünü anlamaq yolu olmasına saysız-hesabsız misallar gətirmək mümkündür. Gözəllik körpələrin, çiçəklərin, mühafizəsi kimi azmı şey deyir? Burdan poeziyanın yaxın vəzifələrindən biri aydınca görünmürmü? - Gözəlliyə, qaydaya həssaslıq yaratmaq, ümumi bir ehtiyaca çevirmək! Bu isə qaydasızlığın, eybəcərliyin əsasının rədd edilməsidir. Mən qayda dedikdə ictimai qaydaları da nəzərdə tuturam. Sənət bu yolla didaktik məqsədlərinə daha yaxşı çatır.

**B. V a h a b z a d ə:** - Ancaq qaydanın qorunması yenə bir az qaranlıq qaldı. Həyatda olan qaydanın və gözəlliyin indi kəşf olunması o demək deyil ki, əvvəldən yox idi. Məsələn, Eynşteyn nisbilik nəzəriyyəsini tapıb. Lakin nisbilik təbiət qanunu kimi həmişə mövcud olub. Eynşteyn bu qanuna heç nə əlavə etmədi. Onu açıb göstərdi. Nisbiliyin özündəki gözəlliyi duydu. Hisslərimiz biliyə çevrildi.

**X. M ə m m ə d o v:** - Sözsüz. Eynşteyn obyektiv olanı kəşf etdi. Bəxtiyar müəllim, elm adamları ilə sənət adamlarını belə müqayisə edə bilərik: hər sənətkar insan-kainat birliyinin öz seçdiyi obrazlarla şəklini yaradır; neçə sənətkar varsa, bu birliyin o qədər də bədii əksi var. Elm adamlarına gəldikdə isə, onlar bu birliyin vahid elmi şəkli, portreti üzərində işləyirlər. Məsələn, söhbətimizdən qabaq yapon şairi Dzyun Takaminin şeirini oxuduq. Bədii kəşfə nümunə kimi bu şeiri deyim: "Pəncərənin önündən bağçadakı ağaclara baxdım; elə bildim canlı varlığa toxundum".

Sərbəst çevirsən, belə səslənərdi, elə deyilmi? Şair dəfələrlə pəncərə önündə dayanıb. Ancaq baxışı ilə canlı varlığa dəydiyini

bu gün duyub. Bu, poetik kəşfdir. Elmlə sənətin birliyi və fərqi çox sadələşdirilmiş şəkildə belədir. Biri mövcud qaydanın bəşəri, rəmzi təsvirini yaradır, o biri isə qaydanın subyektiv şəklini çəkir. Daha doğrusu, qaydanın obrazını subyektivcəsinə seçir. Bir sözlə, mən poeziyanın qaydaya qulluq etdiyini, daha doğrusu, qaydanı tərənnüm etdiyini duyduqda onu apoeziya kimi qəbul edirəm. Məzmun və forma qaydasızlıqla bir yerə sığan anlayışlar deyil.

**B. V a h a b z a d ə:** - Burda Füzuli ilə Sabir birləşirlər. Füzuli gözəlliyi tərənnüm edir, Sabir çirkinliyi qamçılayır. Başqa-başqa qütblərdə dayansalar da, məqsəd birdir, çünkü eyni ideal uğrunda mübarizə aparırlar.

**X. M ə m m ə d o v:** - Şeirdə ictimai kəsərlə yanaşı, bədiilik əsas şərtdir. Elə bir bədiilik ki, qoyulan problem aradan qalxanda əsərə ikinci həyat versin. Məsələn, deyək ki, xurcun bir vaxt məişətdə lazım olub. Məişətdəki əhəmiyyətini itirəndə isə bədiiliyi - naxışları ona sənət əsəri kimi ikinci ömür verib. Mənə elə gəlir ki, qayda, gözəllik axtaranın, görənin, Füzuli demişkən, pislik görməyə, dünyadan şikayət etməyə vaxtı qalmaz. Yaxşını görə bilmək yaradıcılıqdır. Qaydasızlıqdan hiddətlənmək isə...

**B. V a h a b z a d ə:** - Bu fikir mənə mübahisəli görünür: çünki gözəlliyə heyran ola-ola pisliyi də görmək olar. Pisliyə qarşı mübarizə, əslində, dolayı şəkildə gözəlliyə səcdə deməkdir. Ədəbiyyatımızda tənqid pafosunun, Sabir qəzəbinin kökü buradadır.

**X. M ə m m ə d o v:** - Söhbəti müasir şeirimizdən, poeziyamızdan başlamışdıq və dedim ki, şeir formasında yazılan əsərlərin hamısı poeziya sayıla bilməz. Biruninin yazdığına görə, qədimdə hindlilər qrammatikanı da, farmokologiyanı da şeirlə yazırmışlar. Bu, yadda saxlamaq və əzbərləmək üçün əlverişli olurmuş. Satirik şeiri mən çox gərəkli, ancaq başqa bir janr hesab edirəm. Mənə elə gəlirdi ki, Siz də bu fikirdəsiniz. Tanışlığımız müddətində satirik şeir yazdığınız və oxuduğunuz yadıma düşmür. Bugünkü poeziyamızda məhz gözəlliyə heyranlıq, xalqın böyüklüyünü görmək,

insan ucalığını tərənnüm etmək hissi qüvvətlidir. Daha doğrusu, neqativ şəkildə gözəllik tərənnüm olunduğuna və onun yaxşı qarşılandığına rast gəlməmişəm. İndiki vaxtda bunu təbii hesab edirəm. Həyatın gözəlliyini, yaşarı cəhətlərini görüb, onu nəğmələşdirən poeziyanı mən daha çox sevirəm. Bir rüşvətxor haqqındakı söhbəti, onun "qamçılanmasını" poeziyanın böyük idealı ilə çətin "uyuşan" görürəm. Rüşvətxorların, yerində olmayanların ifşası üçün başqa janrlar, başqa mübarizə metodları və orqanlar var.

**B. V a h a b z a d ə:** - Görünür, mənim "Qiymət" poemam da bu qəbildəndir...

**X. M ə m m ə d o v:** - Başqa əsərlərinizlə müqayisə eləsək, həmin poema ön sırada duran əsəriniz deyil. Ancaq yaxşı yazılıb. Ümumiyyətlə, neqativ obraz yaratmaq, satira Sizin janrınız deyil. Bir də, bu janrın taleyi belədir. Heç teatrlarımızda qədim yunan komediyası oynandığını görmüsünüzmü?

**B. V a h a b z a d ə:** - Yox, görməmişəm, lakin...

**X. M ə m m ə d o v:** - Yunan faciələri bu gün də sevilə-sevilə oxunur, ən böyük səhnələri bəzəyir. Ancaq bilirsiniz nə qədər yunan komediyası var? Mənfiliyi doğuran problemlər köhnəlir, aradan çıxır... Nə üçün şeirlərinizin, heç olmasa, iyirmi beş faizində gözəlliyi neqativ şəkildə təqdim etməmisiniz? Nə üçün bizim sevimli şairimiz Səməd Vurğun bu yoldan az istifadə edib? Keçmişdə, orta əsrlərdə şairin nəsihətnamələr yazıb, həcvdən, satiradan istifadə edib hakimləri yumşaltmaqdan başqa çarəsi yox idi. İndi müəllimin və başqalarının layiqli olub-olmamasını təşkilat, kollektiv həll edir. Mənə elə gəlir ki, bizim şəraitimizdə adamın nəzərdə tutulan işə layiq olmağıdını müəyyən edib, vəzifəni ondan qorumaq, - vəzifəni bu adama tapşırıb, poema və satira vasitəsilə onu "insafa" gətirməkdən dəfələrlə asandır. Adi bir vətəndaş kimi mənim belə mənfiliklərə münasibətimi yaxşı bilirsiniz. Belələrindən yorulub, sənətdə ümid, kömək, təskinlik axtaranda da şeirdə onların portretinə rast gəlmək kimə xoş olar? Elmi iş də yaradıcılıqdır. Yenilik tapmaq arzusu ilə

yaradıcılıq imkanlarımız arasında uçurum gördüyümüz vaxtlar olur. Gözlədiyin nəticələr alınmır. Ümidsizliyə qapılırsan, idealından küsməli olursan. Poeziyamızda böyük söhbətlər tapaq, idealımızla, arzumuzla barışaq, səhər işə yeni qüvvə ilə gedək. Şeir belə mənəvi dayaq olmalıdır...

**B. V a h a b z a d ə:** - Mirzə Fətəli Axundzadə yaxşı deyib: "Əgər nəsihət və moizlərin insanlara təsiri olsaydı, Şeyx Sədinin "Gülüstan" və "Bustan" əsərləri əvvəldən axıra qədər nəsihətdir, bəs nə üçün İran camaatı 600 ildən bəri onları oxuyur, lakin oradakı nəsihət və moizələrə heç də əhəmiyyət vermir. Buna görə də bizə kritika lazımdır". Sizin fikriniz satirik poeziyanın əhəmiyyətini kiçiltmirmi?

**X. M ə m m ə d o v:** - Məncə, eybəcərliyi qamçılayanda da poetik gözəlliyə çevrilən, yüksək sənət ideallarına yaxınlaşan, sənət modeli kimi həmişə yaşaya bilən yaradıcılığı xırda məişətçilikdən, ötəri dedi-qodu səçiyyəli yazılardan ayırmaq lazımdır. Ümumiyyətlə, götürdükdə isə həyata, gözəlliyə bağlılığı gücləndirən, insanda işığı, özünə inamı, ümidi artıran sənəti daha çox sevirəm. Xalqa böyük tarixin, onu ucaldan şərəfli qəhrəmanlıq tarixinin öyrədilməsi tərəfdarıyam. Şeirdən də, ilk növbədə, belə bir təsir gücü gözləyirəm.

**B. V a h a b z a d ə:** - Bu, ədəbiyyatın vətəndaşlıq pafosu ilə birbaşa bağlı məsələdir. Mən də poeziyanın gücünü xalqın ideal və mübarizələrinə xidməti ilə ölçərdim. Tarixən də belə olub. Qılıncımız korşalanda - sözümüz itiləşib. Sərhədlərimiz balacalaşanda düşüncələrimizin, idrakımızın, arzularımızın üfüqləri genişlənib. Özümüz səngəri tərk edəndə də şeirimiz səngərdən çıxmayıb. Bəlkə klassiklərimizin yaradıcılığındakı böyük ümumiləşdirmələr, ensiklopedik genişlik də buradan gəlir. Onlar xalqın, Vətənin taleyini dünya miqyasında, insanlığın taleyi ilə birgə götürürlər. Biz klassik şeirimizin səviyyəsinə yalnız xalqın mənəvi aləmi ilə daha sıx bağlı olan yüksək ideallar barədə gözəl sənət dilində söhbət açan əsərlər yaratmaq yolu ilə yaxınlaşa bilərik. Buna görə də mənim sənət ide-

alım - böyük məqsədlərə bağlı olan narahatlıq və yanğındır. Xırda, intim, məişət duyğularından yaranmış şeirin mənzili uzaq olmaz.

**X. M ə m m ə d o v:** - Əslində, hər bir intim duyğuya da - əgər bu duyğu əsl sənətkara məxsusdursa - ictimailik, vətəndaşlıq yad deyil. Məsələn, Dzyun Takaminin balaca bir şeiri də var: "Qışda soyuq gah ayaqları, gah əlləri üşüdür, qəm isə həmişə birbaş ürəyə sancılır". Məgər bu hissi vətəndaşlıq duyğusundan, ictimai pafos dediyimiz yüksək sənət məziyyətindən kənarda təsəvvür etmək olarmı? Adi bir hiss texniki tərəqqi dövrünün yüksək inkişaf etmiş ölkəsində yaşayan bir insanın ürəyindəki zərifliyi göstərir, bizi ona yaxınlaşdırır. Sonra bu yaxınlıq onun yaşadığı ölkəyə də aid olur. Əsl sənətin oyatdığı dalğalar çox geniş yayılır, onun assosiativ təsiri adi tənqidçi və sənətşünas qəliblərindən çox-çox mürəkkəbdir.

Vətəndaşlıq tələbi indiki sənət qarşısında bir mühüm vəzifə də qoyur: keçmişimizlə gələcəyi bağlamaq. Oxucunu klassik ədəbiyyatımızı başa düşmək səviyyəsinə qaldıra bilmək!

**B. V a h a b z a d ə:** - Siz müasir şeirin rolu, əhəmiyyəti, vəzifələri ilə bağlı ciddi məsələlərə toxundunuz. Mən bayaq müasir şeirimiz barəsində fikrinizi soruşanda da diqqətinizi bura yönəltmək istədim. Doğrudan da sənətin vəzifəsi çox mürəkkəbdir, çətindir və getdikcə daha artıq çətinləşir. Mən bir qələm sahibi kimi, bu ağırlığı həmişə hiss etmişəm. Poeziyanın müsbət ideala xidməti, zəriflik, gözəllik, inam, vətəndaşlıq, müasir sənətin keçmişlə gələcək arasında körpüyə çevrilə bilməsi - mənə bir daha Səməd Vurğunu xatırladır. Mən Vurğun sənətinin gücü, sirri barədə tez-tez düşünürəm. Ona ümumxalq məhəbbətinin kökünü tapmağa çalışıram. Görürəm ki, bu böyük məhəbbətin bir səbəbi S.Vurğunun xalq ideyalarına yaxınlığıdır. Böyük sənət xalq istəyinin barometridir - onun mənəviyyat ölçüsüdür. Vurğun sənəti də belə idi. Bu sənətdə xalq özünü görürdü, özünə inanırdı. O, xalqın öz gözəl dilində danışırdı. Adidə qeyri-adilik görürdü, sadə şəkildə dünyəvi problem qaldırdı. Bütün varlığı ilə kökə, ənənəyə bağlı idi. Həm də başdan-ayağa xalqa inamla, sevgi

ilə yoğrulmuşdu, onu ucaldırdı, böyüdürdü... S.Vurğun, doğrudan da, körpü idi. Xalqın möhtəşəm tarixi onun sənətində bir daha canlanır və romantik vüsətlə gələcəyə qovuşurdu...

Bu baxımdan, mən müasir şeirimizdən, qələm dostlarımın yaradıcılığından da çox danışa bilərəm. Rəsul Rzadan, Əli Kərimdən, Nəbi Xəzridən, Hüseyn Hüseynzadədən...

Əli Kərimin "Babəkin qolları" şeiri yadınızdadırmı? Qolları kəsilən Babək döyüş həsrətindən qovrula-qovrula dostlarına üz tutub deyir:

Aman, dostlar,
Hücum çəkin qoşun-qoşun.
Orda mənsiz qılınc
çalan,
Qollarımla bir
vuruşun.

Görün, keçmişə nə qəribə baxışdır! Tarixlə bugün arasında necə möhkəm körpü salınıb! Nəsimi şəhidliyini də Əli Kərim heyrətli poetik dilə çevirib. Təpədən dırnağadək soyulub, dinməyən adamdakı "sirri-xudanı" tapmaq üçün 600 ildir "idrak çırpınır pələng kimi".

600 ildir bəşər
düşünər,
çatmaz yenə
məşəqqətli ölümün
Nəsimi zirvəsinə.

Məncə, bizi "keçmişi anlamağa, gələcəyi görməyə" belə şeirlər hazırlaya bilər... Belə şeirlər bir də ona görə lazımdır ki, xalq keçib gəldiyi yollara baxsın, özünə, öz gücünə, qüdrətinə inansın... Babasının timsalında özünü dərk etsin.

X. M ə m m ə d o v: - Haqlısınız. Əli Kərimi şeirimizdə müəyyən bir mərhələnin başlanğıcı hesab etsək, yanılmarıq... Onun şeirləri haqqındakı ilk geniş söhbətimiz yadımdadır, şeirlərini oxudun, izah etdin. Cəmi bir həftə sonra Əli Kərimlə həmişəlik vidalaşdıq.

Mən Kainatdakı qaydanın qorunmasında şeirin rolundan danışdım. Əli Kərim də dünyanın qaydasının pozulmasından qorxur. "Qayıt" şeirində necədir:

Qayıt, yerinə qoy, Ayı, Günəşi, -
Yenə olduğu tək görüm həyatı.
Qayıt, gözüm nuru, könlüm atəşi,
Qayıt, sahmana sal bu Kainatı!

**B. V a h a b z a d ə:** - Gözəldir!

**X. M ə m m ə d o v:** - Görün, insan mənəviyyatında sahmanın pozulması Kainatla, kosmik obrazlarla necə bağlanıb! Görün, şair sevgiyə, insan münasibətlərinə necə yüksək səviyyədən baxır, bu münasibətlərin dramatizmi, gərginliyi necə ümumiləşdirilir! Şeir də bir gözəllik kimi kainatımızı sahmana salmalıdır! İnsan münasibətləri şeirin əbədi mövzusudur. Mən bir elmi işçi kimi hiss edirəm ki, bu münasibətlərdə bir sadələşmə yaranır, bəzi konfliktlər aradan çıxır. Dünənki ciddi münaqişələrin səbəbləri yanından biz bu gün təbəssümlə ötüb keçirik. Bəziləri belə düşünürlər: indi ki belədir, deməli, insan münasibətlərinə dair sənət sabah gərək olmayacaq. Onlar unudurlar ki, münasibətlər sadələşdikcə, mənəviyyat, daxili dünya mürəkkəbləşir. Həyat adlanan varlıq bir bütövlükdür. Bir şeydən uzaqlaşarkən, ona başqa tərəfdən yaxınlaşırsan. Ən ideal sənət də mənəvi toqquşmanın təsirindən, onu qaydaya salmaq uğrunda mübarizədən yaranır.

**B. V a h a b z a d ə:** - Psixologizmin də kökü buradadır. Zahiri münaqişələr azaldıqca, psixoloji toqquşmaların meydanı genişlənir. Mən fərdlər arasındakı toqquşmalardan çox, fərdin öz

içindəki toqquşmanı göstərməyi üstün sayıram. Bu sənətdə içə baxışdır, çətindir. Lakin böyük yoldur. İndi mən öz içimdəki döyüşü verməliyəm. Mənim mübarizəm özümlə öz aramda gedəcək. Söhbətim daxilimdəki ikinci səslə olmalıdır.

**X. M ə m m ə d o v:** - Yəqin "İkinci səs" pyesiniz də həmin ehtiyacdan yaranıb. Bu göstərir ki, gələcək şeirin yolu psixologizmdir. Hadisəçilik aradan çıxır. Əli Kərimi misal gətirdik. Nədir onu fərqləndirən? Niyə çox sevirik onu?

**B. V a h a b z a d ə:** - Mənim fikrimcə, Əli Kərimin yaradıcılığı hələ açılmayıb. O, gələcəyin şairidir.

**X. M ə m m ə d o v:** - Daxilə yönəlmiş fikir! Əli Kərimin baş mövzusu budur. Mən arzu edərdim ki, cavanlar bu cəhətə daha artıq meyl eləsinlər.

Bütövlüyə meyl sənətlə yaşıddır. Hər bir sənət adamı elə ilk şeirlə, ilk məqalə ilə hissin, mövzunun və Kainatın bütöv əksini verməyə çalışır. Bir baxışda Kainatı bütünlükdə görmək arzusu - sənətkarı alimləşdirən, alimi sənətkarlaşdıran və hər ikisi üçün emosional gərginlik kökü olan səbəbdir. Arzu ilə imkan arasında təzad əbədidir. Arzu imkana sığsa, arzu olmaz! Bu konfliktdən sənətkar necə qurtarır? Kosmik poeziya, kosmoqoniya bu yoldakı uğurlu addımlardan yaranıb. İnsanı konfliktdən çıxarmaq meyli... Onun Kainatla bağlılığını açmaq... Ömrün qısalığına, arzuya yetə bilməməyimizə fəlsəfi bəraət, təsəlli... Ulduzlarla insan taleyi arasında bağlılıq. İnsanın torpağa, çiçəyə çevrilməsi...

**B. V a h a b z a d ə:** - Bunlar əsl poeziyanın mövzularıdır. Bəs elm adamları bunlara necə baxır?

**X. M ə m m ə d o v:** - Elm adamı isə bu konflikti yüngülləmək üçün gəncliyinə qayıtmağa cəhd edir (sənət elmin gəncliyidir - deyirlər). Ana qucağına - sənətə qaçır. Sənət humanistdir. Ən böyük alimlər onun qucağında sığınacaq tapıb. Ehtiyacı olsa da, insan hər kəsdən kömək almır. Sənəti bir mənəvi kömək kimi təqdim edənin şəxsiyyətinin əhəmiyyəti çox böyükdür. Bu mənada, sənətkarın, ya-

radıcılığın nüfuzunu qorumaq və ucaltmaq mühüm amildir. Sənət alim üçün yaradıcılıq məktəbidir. Gözəlliyə, qaydaya vurğunluq məktəbidir. O, qabiliyyəti itiləyir.

Forma sadəliyi ilə məzmun dərinliyinin üzvi birliyi əsərə yaşarılıq verən cəhətlərdəndir. Sadəlik, heyranlıq, mürəkkəblik heyrət yaradır. İstənilən mövzu, istənilən forma seçilə bilər, ancaq bu, poetik fikirlə doğrulmalıdır.

**B. V a h a b z a d ə:** - Elə sənətin başlıca xüsusiyyətlərindən biri yaradıcı adamın sərbəstliyidir. Mənim öz təcrübəmdən gəlmə qənaətim belədir. Hərdən düşünürəm, müasir fikri qəzəldə vermək olarmı? Bəzi təcrübələrim də var. İnanın, elə fikirlər var ki, onu yalnız qəzəldə və ya qoşmada demək olar. Sərt qanunları olan forma məgər dərin fikir deməyə imkan vermirmi? Füzuli şeirindən dərin nə ola bilər?

**X. M ə m m ə d o v:** - Bu, ümumiyyətlə, elmi qanunauyğunluqdur. Forma çərçivəsi xəyalın meydanını genişləndirir. Məhdudiyyət kəşfin anasıdır. Forma məhduddursa, fikir sıxılır, yığcamlaşır, büllurlaşır. Dərinlik burdan gəlir. Memarlıqda yer, konstruksiya, material məhdudiyyəti sənət möcüzələri ilə nəticələnib. Əcəmi abidələrini, İçərişəhər tikilərini yada salaq...

Qəzəl, dodaqdəyməz, cığalı təcnis çərçivədir. Ancaq bu, fikri yığcamlaşdırır, düşüncəyə monolitlik verir. Əksinə olanda, sərbəstlik müstəqim mənada sərbəstliyə çevrilir.

**B. V a h a b z a d ə:** - Forma nəqliyyatdır, çatdırma vasitəsidir, baxır onunla nə daşıyırsan. Qoşma forması fikrin gur axınından doğur. Poemalarımda, bəzən özümdən asılı olmayaraq, gözlənilmədən forma dəyişilir, araya qoşma düşür. Mən bunu qəsdən eləmirəm, sözün axarı qoşma tələb edir. Mən buna təbbi baxıram. Bizim təfəkkürümüz qoşma, gəraylı, bayatı ilə yoğrulub. Belə ənənədən imtina nəyə gərəkdir? Fikrimizcə, düşüncəmizə əngəl olan, inkişafımıza mane olan ənənədən qorxmaq və qaçmaq lazımdır, əksinə, fikrimizə kömək edən, ona dayaq olan ənənədən niyə qaçaq? Ənənə

haqqında bir söz oxudum. Yaman xoşuma gəldi: “Ənənəsi olmayan ancaq inkubator cücələridir”.

**X. M ə m m ə d o v:** - Forma həm də bədii dillə bağlıdır. Onu pozsan, elə bil yad adamla yad dildə danışırsan, tərcümə dilində danışırsan. Fikrin böyüklüyü deyirsiniz. Məncə, böyüklük mürəkkəblikdə, dolaşıqlıqda yox, - sadəlikdədir.

**B. V a h a b z a d ə:** - Buna görə də biz folklorumuzu layiqincə öyrənməliyik. Etiraf edək ki, bu zəngin xəzinəni lazımi qədər bilmirik. Xüsusən, bəstəkarlarımız. Biz sənətkarlar bir həqiqəti bilməliyik ki, xalqa nə qədər yaxınlaşsaq, o qədər dərinləşəcək və ucalacağıq.

**X. M ə m m ə d o v:** - İstənilən janra uyğun söhbəti folklorda tapa bilərsiniz. Nəyin xalqa nə qədər lazım olduğunu orada görə bilərsiniz. Xalq özündə böyüklük axtarır. Bu yolla özünü tərbiyə edir. Buna görədir ki, bütün dünyada folklora, xalq sənətinə böyük bir dönüş var. Biz də bu cür olmalıyıq.

**B. V a h a b z a d ə:** - Klassik ədəbiyyatımızda da xalqı, insanı ululaşdırmaq, uca tutmaq meyli var. Nizaminin qəhrəmanlarını xatırlayaq...

**X. M ə m m ə d o v:** - Bəzən, səhvən, dastan desələr də, Nizaminin poemaları elə bayaq dediyiniz psixologizm nümunəsidir. Mən “Xosrov və Şirin”i müasir psixoloji roman kimi oxuyuram. Firdovsi dastan deyir - əxlaqi nəticə çıxarır, Nizami, Füzuli isə hadisədən poetik bir obraz kimi istifadə edirlər.

**B. V a h a b z a d ə:** - Təəssüf ki, klassikanı, keçmişi də hələ az öyrənmişik. Elə elmimizin tarixi də layiqincə araşdırılmayıb.

**X. M ə m m ə d o v:** - Məncə, bu məsələləri ayırmaq düz olmaz. Əslində, bizim klassikanı öyrənmək üçün gərək elm sahələrini də yaxşı biləsən. Fəlsəfə, tarix, təbiətşünaslıq, kimya, astronomiya, etnoqrafiya və sair. Klassik irsimiz, doğrudan da, qoşa qanadlıdır. Bədii söz tariximizi müasir elmi metodoloji baxımdan araşdıranda təzə-təzə səhifələr açılacaq. Elə Sizin sevdiyiniz bir bayatını götürək: “Dünya bir pəncərədir, hər gələn baxar, gedər”, yaxud el

sözünə baxaq: “Dünyanı özümlə aparmayacağam ki...”. Bu, həyata materialist münasibəti deyilmi? Yaxud “Kuzə dilə gəlib dedi ki, mən də sənin kimi idim, bu günə qaldım” (Məhsəti Gəncəvi); insanın gülə-çiçəyə sevrilməsi - maddənin itməməsi, bir haldan başqa hala çevrilməsi deyilmi? Keçmişin hər naxışında yatan sirləri açmasaq, gələcəyə yarımçıq çatarıq.

**B. V a h a b z a d ə:** - Hələ bir Füzuli dəryasına baş vur, gör, nələr var! “Leyli və Məcnun” ölməz fikirlər xəzinəsidir. Bu xəzinənin qapısını nəsillərin üzünə geniş aça bilmişikmi?

**X. M ə m m ə d o v:** - Klassik ədəbiyyatımızı yaxşı bilmirik. Nə üçün Nizaminin, Xaqaninin əsərlərinin bu günə yaraşan tərcüməsi, çapı olmasın? Niyə bu sahədə yarış yoxdur?

**B. V a h a b z a d ə:** - Bu yaxınlarında görkəmli bəstəkarımız Qara Qarayevlə maraqlı bir müsahibə verilmişdi. “Jurnalist” məcmüəsində. O, publisistika ilə məşğul olan bəstəkarlardan danışanda, iyirminci əsr publisistika tariximizin Üzeyir Hacıbəyli kimi nəhəng nümayəndəsinin adını çəkmir. Bu, məni çox təəccübləndirdi. İkinci bir adam tanımıram ki, həm publisist, həm bəstəkar, həm yazıçı, həm musiqi nəzəriyyəçisi, həm xalq sənətinin bilicisi kimi sənət idealımız onda - Üzeyir Hacıbəylidə olduğu kimi cəmləşə bilsin.

**X. M ə m m ə d o v:** - Bu, bəlkə də, müsahibəni aparan jurnalistin diqqətsizliyindən olub. Yoxsa...

**B. V a h a b z a d ə:** - Xudu müəllim, söhbətimizi müasir şeirlə başlamışdıq. Onunla da qurtaraq. Şeirdə müasirlikdən, informasiya zənginliyindən söhbət gedir.

**X. M ə m m ə d o v:** - Mən şeiri hissdən, emosiyadan ayırıb, informasiya vasitəsinə çevirməyi yanlış yol sayıram. “Müasir görünmək” üçün şeiri təzə, dəbdə olan istilahlarla doldurmaq nəyə gərəkdir? Şeirdə hər şey təbii olmalıdır. Şairlərdən kimin isə dediyi kimi, şeir ağaca yarpaqlar gələn kimi gəlməlidir. Müəllif şeirdə savadlı, elmli görünmək istəyəndə adamı inandıra bilmir. Təsəvvür eləyin ki, Siz fiziklərin qonağısınız, başlayıbsınız onlarla çox da

dəqiq bilmədiyiniz elmi istilahlarla danışmağa. Bu, xoşa gəlməz. Onlar şairlə görüşəndə şeir dilini, şair söhbətini eşitmək istəyirlər. Şeir öz dilini qorumalıdır.

Elmdə ən qorxulu şey dünyanın sadələşdirilməsidir. Dünyanın maketi elə sadələşir ki, guya hər şey adidir, həll olunub qurtarıb, heç bir yenilik yoxdur. Belə vaxtda poeziya köməyə çatır. O, səni sadəlik illüziyasından xilas edir. Tutaq ki, elmdə, nağıldakı kimi, qapıları açа-aça gedib, qırxıncı otağa çatmısan, bütün otaqları görmüsən, o yanda daha heç nə yoxdur. Amma sənət hər otaqdan təzə bir aləm açmalıdır, təzə yollar başlamalıdır. Bu baxımdan, şeirimizin böyük gələcəyinə inanıram. Dayağı, kökü olan sənət ölməzdir.

**B. Vahabzadə:** - Kök dediniz, yadıma Hüseyn Hüseynzadənin təzə bir şeiri düşdü: ağacın kökləri bir-birinə dəymir, yarpaqları isə bir-birinə dəyib dalaşır. Gör, nə yaxşı tutub! Köklər niyə dalaşmır? Çünki hərə öz işindədir, bekar dayanmırlar, torpağa bağlıdırlar. Havadan asılı qalanlar isə... Əgər biz də hərəmiz öz işimizi görsək, irili-xırdalı rişələr kimi torpaqdan həyat qüvvəsi, güc, şirə çəkib gətirsək, poeziya ağacımız ucaldıqca ucalar, dünyanın hər tərəfindən daha aydın görünər...

1976.
"Sadəlikdə böyüklük", Bakı, 1978.





## SON ZƏNG

***(Orta məktəbi bitirən gənclərə müraciət)***

Hörmətli gənclər! Orta məktəbi bitirməyiniz münasibətilə Sizin hamınızı təbrik edirəm. Bu vaxta qədər keçdiyiniz yol, gələcək ömür yolunuzun astanası hesab olunur. Əsl yol bundan sonradır.

Yəqin ki, Sizin bir qisminiz ali məktəblərə qəbul olunacaq, bir qisminiz əmək cəbhəsinə atılacaq. Hər ikisi gözəldir, şərəflidir. Mənim Sizin hamınıza bir neçə tövsiyəm var:

Mən ali məktəb müəllimi olmaq etibarilə bilirəm ki, gənclərin əksəriyyəti ali məktəblərə qəbul olunmaq arzusu ilə yaşayır. Bu arzunun özü çox gözəldir. Lakin məlumdur ki, orta təhsili yenicə bitirmiş bütün gənclər ali məktəblərə həmən il qəbul oluna bilmir. Əlbəttə,bu, imkansızdır. Qəbul imtahanlarında kəsilən, yaxud balı çatmayan gənclər bu uğursuzluqdan bədbinləşməməli, öz fikrində ardıcıl olmalıdır. El gözəl deyib: "Niyyət hara, mənzil də ora", ancaq buna yenə el demişkən "Allahdan buyruq, ağzıma quyruq" fəlsəfəsi ilə nail olmaq mümkün deyil, çalışmaq, tər tökmək lazımdır. Arzuya çatmağın yolu zəhmətdən keçir.

İkinci tövsiyəm:

Həyatın mürəkkəbliyi barədə dünyanın bütün ağıllı adamları - filosoflar, alimlər, yazıçılar cild-cild kitablar yazmışlar. Lakin biz

həyatın mürəkkəbliyini kitablardan çox, həyatın özündən öyrənirik. Sizin ata və analarınız, baba və nənələriniz həyatın eniş-yoxuşundan çıxdıqlarına görə həyatın mürəkkəbliyini kitab müəllifləri qədər bilirlər. Çünki yaşa dolmuş hər insan özü canlı bir kitabdır.

Bizim çəmiyyətimiz Siz cavanların qarşısında inkişaf üçün bütün qapıları açsa da, həyat bir rəngli deyil, onun yüz rəngi, yüz çaları var. Buna görə də həyatda Sizin büdrəmələriniz də olacaq. Bu büdrəmələrdə əgər Siz başqalarını deyil, özünüzü günahkar bilsəniz gələcək sizindir, yox, əgər bu büdrəmələrdə özünüzə haqq qazandırıb başqalarını günahkar bilsəniz, inkişafınız dayanacaq, Siz ömrün yollarında çətin yüksələcəksiniz.

Bu fikri izah etmək üçün Sizin öz həyatınızdan bir misal gətirmək istəyirəm. Bəzən olub ki, Siz müəllimlərinizin verdiyi qiymətlərdən narazı olmusunuz. Valideynlərinizin qarşısında bu aşağı qiymətə layiq olmadığınızı sübut etmək üçün müxtəlif bəhanələr gətirir və deyirsiniz ki, "Müəllim qəsdən mənim qiymətimi aşağı saldı, yaxud kəsdi". Bu iddianı o qədər təkrar edirsiniz ki, axırda yalana özünüz də inanırsınız. Elə ki, inandınız, bu fikir beyninizə həkk olunur, nəhayət, bütün qüsurlarınızda özünüzü deyil, başqalarını günahkar tutursunuz. Mən deyərdim ki, insan həyatında bütün fəlakətlərin, büdrəmələrin kökü burdan başlanır. Bu, özünü görməməkdir. Özünü görməmək isə insanı inkişafdan qoyar.

Əvvəla, heç bir müəllim öz şagirdini qəsdən kəsməz. İkincisi tutaq ki, belədir, tutaq ki, sən əvvəlcədən bilirsən ki, müəllim səni kəsmək istəyir. Onda sən elə çalışmalısan ki, müəllimin qəsdi baş tutmasın. Bu çalışmaq isə yenə sənin xeyrinədir.

Mən istəyirəm ki, Siz filosof Ziyəddin Göyüşovun yenicə çapdan çıxan "Daxilə pəncərə" kitabını oxuyasınız. Bu kitabda müəllif böyük şəxsiyyətlərin özünü görə bilmə, öz daxilinə baxa bilmə barədəki fikirlərini misal gətirir və göstərir ki, insan öz nöqsanlarına, ilk növbədə, özü düşmən kəsilməlidir.

Hər işdə, hər büdrəmədə günahı özündə görmək insanı daim yüksəldər.

Kimdir mənim
Ən qorxulu düşmənim?
Yaxşımı qoyub
Yamanımı danışanmı?
Mənim eyiblərimi
Məndən yaxşı bilənmi?
Arxamca qəhqəh çəkib
Nöqsanıma gülənmi?
Yox, yox, yox!
Özgələrin gözünü
Taxaydım öz gözümə
Özgələrin gözüylə
Baxaydım öz-özümə.
Onda eyiblərimə
Özüm düşmən olardım.
Onda mən, mən olardım.

Tövsiyəm odur ki, özünüzə vurulmayasınız. Nöqsanlarınızı görə biləsiniz.

İnkişafın yeganə yolu budur.

Həyata qədəm basan Siz cavanlara həyatın eniş-yoxuşlu yollarında böyük uğurlar diləyirəm.

1977.
"Sadəlikdə böyüklük", Bakı, 1978.





# OXUD MƏKTƏBİNDƏ

Bu il iyul ayının son günlərində səhər universitetə dövlət imtahanına getdiyim zaman Sabir bağının qarşısında bir avtobus dayandığını gördüm. Avtobusdan əllərində çiçək olan bir dəstə oğlan və qız düşdü. Maraqlandım, dayandım. Gənclər çiçək dəstələrini böyük Sabirin heykəli qarşısına qoyub nizamla düzüldülər. Sonra arxası mənə tərəf olan müəllimin təklifi ilə Sabirdən şeir deməyə başladılar. Maraqlanıb yaxınlaşdım. Müəllim köhnə tanışım Nurpaşa Hümmətov, uşaqlar isə onun direktor olduğu Şəki rayonu Oxud kənd orta məktəbini bu il qurtarmış məzunlar idi. Mən Mirpaşa müəllimi gənclik illərindən tanıyırdım. Filoloji elmlər namizədi olan bu müəllim sözün həqiqi mənasında maarif fədaisidir. O, ömrünü maarifə həsr etmiş, Azərbaycan dilinin tədris metodikasına dair onlarla məqalə və elmi işin müəllifidir. Onun bir üstün cəhəti də ondan ibarətdir ki, o bütün ömrü boyu məktəblə yaşayır, təlim verdiyi şagirdlərin yalnız tədrisi ilə deyil, həyatları, düşüncələri, istək və arzuları ilə birgə nəfəs alır, onların sənət seçmələri, institutlara qəbul olunmaları, ali təhsil almaları üçün əlindən gələni əsirgəmir. Bu adamın məktəbdən ayrı sözü, söhbəti, fikri, düşüncəsi, istək və arzusu yoxdur. Onun məbədi məktəb, amalı gözəl təhsil və tərbiyə, qanadları şagirdləridir. Məqsədi saflıq, məsləki vətəndaşlıqdır. Bu adam üçün şəxsi mənafe, şəxsi istək, fərdi amal yoxdur.

Söhbətdən məlum oldu ki, hər il məktəbi qurtaran şagirdləri son imtahandan sonra Şamaxı və Bakıya gətirmək, böyük fikir bahadırlarımızın qəbrini, ev muzeylərini və heykəllərini ziyarət etmək bu məktəbin köhnə ənənəsidir. Şagirdlər məktəbyanı sahədə öz əlləri ilə becərdikləri çiçəklərin bir hissəsini Şamaxıda Sabirin və S.Əzimin qəbirləri üstünə qoyur, sonra Bakıya gəlir, böyük sənətkarların ev muzeylərini gəzir, heykəlləri qarşısına çiçək qoyur, onların abidəsi önündə məktəbi qurtarmaları barədə raport verir, Vətənə və xalqa onlar kimi xidmət edəcəklərinə and içirlər.

Gözəl ənənədir! Mən şagirdləri bir-bir dinlədim. Sabir Rəhimov adlı bir şagird böyük şairin heykəli qarşısında deyirdi:

"Böyük şair, böyük vətəndaş, mən sənin adını daşıyıram. Adı daşımağa nə var ki, mən çalışacağam ki, sənin əməllərini, sənin fikirlərini qəlbimdə daşıyım. Vətənimi sənin kimi sevim, sənin kimi şair olmaq hər adamın işi deyil. Mən çalışacağam ki, sənin kimi yaxşı vətəndaş olum!"

Eşq olsun, bu amala, bu əqidəyə! Eşq olsun, bu amalın toxumlarını balalarımızın qəlbinə səpən vətəndaş müəllimlərə!

Nurpaşa müəllim məktəbdən mənə elə maraqlı söhbətlər etdi ki, bu il mütləq onların məktəbinə gələcəyimə söz verdim. Bu il sentyabrın ilk günlərində Oxud məktəbində oldum.

Məktəbin dəhlizində nəzərimi ilk cəlb edən "Nümunəvi atalar və analar" başlıqlı lövhə oldu. Həmin lövhədə kəndin qabaqcıl adamlarının şəkilləri asılmışdır. Bu şəkil sanki şagirdlərə yol göstərir, onları şərəf lövhəsində şəkilləri asılan adamların yolu ilə getməyə çağırır. Məlum oldu ki, kolxoz idarəsində də yaxşı oxuyan nümunəvi şagirdlərin şəkilləri asılmışdır. Beləliklə, valideynlərin və övladların bir-birlərinin gözəl əməllərini bilmələri üçün düşünülmüş bu qarşılıqlı lövhələr çox gözəl təşəbbüsdür. Ümumiyyətlə, bu kənddə kolxozla məktəb arasında gözəl əlaqə yaranmışdır. Kolxoz məktəbə, məktəb kolxoza əlindən gələn köməyi əsirgəmir. Valideynlərin və hami təşkilat olan kənddəki N.Nərimanov adına kolxozun köməyi ilə son üç ildə məktəb üçün altı yeni sinif otağı, yeməkxana, klub, ema-

latxana binası, geniş üzgüçülük hovuzu yaradılmışdır. I-III siniflərdə təhsil alan bütün şagirdlərin pulsuz isti yeməklə təmin olunmasına da kolxoz yardım göstərir. Yüz beş nəfər günü uzadılmış qrup şagirdi (I-III siniflər üzrə) dərsdən sonra nahar edir, qrup məşğələləri ilə məşğul olur.

Yay istirahəti günlərində məktəbin V-X sinif şagirdlərinə tərtib edilmiş cədvəl əsasında idman müəllimi Səlahəddin Əhmədovun rəhbərliyi ilə üzgüçülük öyrədilir.

Məktəbdə yeni proqram materialının tədrisi üçün faydalı olan fizika, kimya, coğrafiya, rus dili (linqafon vasitəsilə) ədəbiyyat, tarix və başqa fənlər üzrə zəngin kabinetlər yaradılmışdır. Məktəbin dörd kabinetində şagirdlərə kino qurğuları vasitəsilə müntəzəm olaraq tədris filmləri göstərilir.

Məktəbdə radio qovşağı yaradılmışdır. Azərbaycan SSR Televiziya və Radio Verilişləri Komitəsinin məktəbə bağışladığı MEZ-15 markalı maqnitofon və səs gücləndirici aparatlar vasitəsilə böyük tənəffüslərdə və növbələr arasında şagirdlər üçün maraqlı verilişlər aparılır. Verilişlərin ayrıca redaksiya heyəti vardır. Həmin redaksiya heyəti aşağıdakı mövzular üzrə verilişlər təşkil edir:

1. İdeyasiyasi və elmi mövzularda söhbətlər.
2. Məktəb və ailə.
3. Kəndin qabaqcıl əmək adamları.
4. “Sinif jurnalını vərəqləyərkən” - şagirdlərin həftəlik qiymətləri.
5. Görkəmli ədiblərin və şairlərin yaradıcılıqları mövzusunda ədəbi-bədii söhbətlər.
6. Məktəb bədii özfəaliyyət dram kollektivinin çıxışları.
7. “Gənc ədəbiyyatçılar” dərnəyinin proqramı əsasında VIII-X sinif şagirdlərinin yeni çap olunmuş bədii əsərlər haqqında müstəqil rəy - inşa yazıları və s.

“Sinif jurnalını vərəqləyərkən” seriyasından olan verilişlər hər həftənin V günü səslənir. Həmin günü bütün valideynlər intizarla gözləyir. Tədris işləri üzrə direktor müavini Bəylər Məmmədov

siniflər üzrə şagirdlərin həftəlik qiymətlərii oxuyur, şagirdlərin əvvəlki həftələrdə aldıqları qiymətlərlə son həftənin qiymətləri tutuşdurulur. Sonra qiymətlər arasındakı fərq və səbəblərin öyrənilməsi valideynlərə tapşırılır.

Təsəvvür edin. Məktəbdən evlərə verilən radio verilişləri vasitəsilə evdə oturan qoca baba və nənələr də öz nəvələrinin məktəbdəki fəaliyyətindən xəbər tutur. Babalar və nənələr bilir ki, həftə ərzində onun nəvəsi özünü məktəbdə necə aparmış, hansı qiymətlər almışdır. Bu işin nə qədər böyük tərbiyəvi əhəmiyyəti vardır və bu tədbir həm də pedaqoji baxımdan nə qədər faydalıdır. Redaksiya heyətinin tərtib etdiyi proqram şagirdlər arasında şüurlu intizamı möhkəmləndirmək, bir-birlərinə örnək olmaq, şəxsi yaradıcılıq qabiliyyətini inkişaf etdirmək və valideynlərlə əlaqəni genişləndirmək məqsədi daşıyır.

"Məktəb və ailə" seriyasından olan verilişlərə yaxşı oxuyan şagirdlərin valideynləri də cəlb olunur. Onlar övladlarının yaxşı oxuması üçün ailədə gördükləri işlərdən danışır və başqa valideynləri də bu işə sövq edirlər.

Məktəb radio verilişləri haqqında valideynlər balaları ilə məktəbə maraqlı məktublar göndərirlər. Həmin məktublardan biri - 7 uşaq anası Z.Məmmədovanın məktubu ilə tanış oldum. O, yazır: "Hörmətli müəllimlər, verilişlərinizi dinləyirik. Uşaqlarımızın məktəbdəki fəaliyyəti ilə tanış olmaq üçün bu çox yaxşı üsuldur. "Ana məhəbbəti" haqqındakı veriliş məni ağlatdı. Bizim balalarımızı öz balalarınız kimi böyütdüyünüzə görə sağ olsun, əziz müəllimlər!"

Oxud məktəbində gördüyüm bu gözəl işlər, şagirdlərin əsl vətəndaş kimi yetişməsi üçün görülən tədbirlər özü böyük vətəndaşlıq örnəyidir. İnsanı ana doğur, məqsəd, amal yetişdirir. Məqsədsiz, amalsız insan heç bir işdə, heç bir yerdə cəmiyyət üçün faydalı ola bilməz. Yuxarıda dediyim kimi, Nurpaşa müəllimi mən çoxdan tanıyırdım. Müəllim dediyim zaman həmişə orta məktəbdə ədəbiyyat müəllimim İbrahim Cəfər, bir də Nurpaşa müəllim yadıma düşür. Nurpaşa müəllim başdan-başa ruhdur, mənəviyyatdır, fikirdir,

düşüncədir. Səhərdən-axşama qədər məktəbdə sevimli şagirdlərinin yanındadır. Dərs dediyi hər bir şagirdin rənginin solması, kefsizliyi, dərsə soyuqluğu onun şəxsi kefsizliyi, şəxsi dərdidir. Şagirdlər ona ürəklərini aça bilir. O, evlərə gedir, valideynlərlə söhbət edir, dərsdə müvəffəq ola bilməyən şagirdlərin uğursuzluqlarının səbəbini öyrənir. Valideynlərlə əl-ələ verib şagirdə kömək edir, onu düşdüyü vəziyyətdən çıxarır. Bakıda, Moskvada və başqa şəhərlərdə təhsil alan keçmiş şagirdləri ilə məktublaşır, onların sonrakı həyat yolunu izləyir, Moskvada təhsildə olan bir şagirdinin arxasınca ora getdiyinin, - onu düşdüyü vəziyyətdən xilas etmək üçün rektorun qəbulunda olduğunun, sonralar da rektorla yazışdığının şahidi olmuşam.

Nurpaşa müəllimin kabinetində 50-ci ildən bəri məktəbi qurtaran məzunların sonrakı həyat yolu - təhsilləri, işləri, fəaliyyətləri haqqında geniş məlumat kitabçası vardır. Bu kitabça öz övladlarını həyat səhnəsinə çıxaran, onların ömür yolunu izləyən bir ana qəlbinə bənzəyir. Bu kitabça ürək kimi döyünür, ağıl kimi düşünür, balaca bir kənddən uzaq şəhərlərə titrək ana əlləri kimi uzanır.

Nurpaşa müəllim sinfin daxilində müəllim, sinifdən xaricdə qayğıkeş atadır. O, gözəl bir bədii əsərin qəhrəmanı ola bilər. Öz varlığını heç kəsə sezdirmədən kiçik ürəklərə yol tapan bu təvazökar insan özünün haray-həşirsiz, sakit həyatı və fəaliyyəti ilə elə böyük bir qəhrəmanlıq göstərir ki, bu qəhrəmanlığın izi və sorağı yetişdirdiyi gözəl insanların həyat və fəaliyyətində yaşayır!

*1975.*
*"Sadəlikdə böyüklük", Bakı, 1978.*





# XƏTİR-HÖRMƏT, QƏDİR-QİYMƏT

Yeni adətlər barədə axır vaxtlar tez-tez söhbətlərin getməsi təsadüfi deyil. Köhnə adətlərin bir qismi artıq zəmanəmizin tələblərinə düz gəlmir. Zaman özü onları sıxışdırıb aradan çıxarır. Köhnədən əl çəkirik. Bəs, yeniləri? Yenilərini də zəmanəmizin ahəng və tələblərinə uyğun olaraq yeni nəsil özü əsrin kök səsi üstündə yaradır. Bu işdə yaşlı nəslin vəzifəsi nədir? Yeni adətlərə qarşı durmamaq, onu düzgün yola yönəltmək!

Lakin köhnə adətlərin hamısını "köhnə" adı ilə aradan çıxartmaq da düz olmazdı. Bu işdə son dərəcə ehtiyatlı olmaq, əsrimizin tələblərinə uyğun gələn, əxlaq normalarını qoruyan, tərəqqimizə təkan verən adətləri qoruyub saxlamaq, onları daha da inkişaf etdirmək hər bir vətəndaşın müqəddəs borcudur. Belə adətlərimizdən biri böyüyə hörmət etmək, ona çəmiyyət üçün həmişə gərəkli olduğunu bildirməkdir.

Nağıllarımızda fiziki güclə mənəvi güc, qılıncla ağıl həmişə vəhdətdə verilmişdir. (Koroğlu həm qəhrəmandır, həm də müdrik aşıq). Ağılsız güc heç bir tilsimi aça bilməmiş, qəhrəman qılıncla edə bilmədiyini müdrik məsləhətlərin gücü ilə etmişdir. Folklorumuzdan gələn bu ənənəni biz bu gün də qoruyub saxlayırıq. Ağsaqqalarımıza hörmət edir, onların ağıllı məsləhətlərini eşidirik. Bu

cəhət nəsillər arasında əlaqəni möhkəmləndirir, fiziki güclə mənəvi gücü birləşdirir.

Bu günlərdə bir dostumun atasının yasında iştirak etmək üçün Ağdamın Novruzlu kəndinə getmişdik. Əlbəttə, mərhumun yaxın adamlarına təsəlli vermək üçün hüzr məclislərinə getmək, başsağlığı vermək bütün xalqların, o cümlədən də bizim xalqımızın qədim və gözəl adətlərindən biridir. Toy toy kimi, yas da yas kimi olmalıdır. Yəni, toyda gülmək, oynamaq, şənləmək, yasda isə hüzr sahiblərinin dərdinə şərik olmaq vacibdir. Bu cəhət kəndlərimizdə daha aydın görünür. Kənddə bir evin toyu bütün kəndin şadlığına, bir evin matəmi bütün kəndin kədərinə çevrilir. Bu cəhət elliyin, ümumiliyin, ictimaiiliyin və ən ümdəsi də insaniliyin ifadəsidir.

Son zamanlar mətbuatımızda da yeni adət və ənənələr haqqında çox yazılır. Lakin mən deyərdim ki, otaqda əyləşib təsəvvürümüzdə yeni adət və ənənələr uydurmaqdansa, həyata çıxmaq, orda gördüklərimizi yaşatmaq hər birimizin borcudur.

Mən Novruzlu kəndində şahidi olduğum hüzr məclisini təsvir etmək istəyirəm.

Doxsan ilə yaxın yaşamış mərhum Hüseyn kişi həmin kəndin ağsaqqalı olmuşdur. Bütün kənd onu başbilən seçmiş, onun müdrik məsləhətlərini dinləmişdir. İndi kənd əhli onun matəmində qonaq kimi deyil yas sahibi kimi iştirak etməyi, el ağsaqqalını layiq olduğu şərafətlə yola salmağı özünə borc bilir. Bu hörməti, əlbəttə, o özü qazanmışdır.

Cənazə qəbrə qoyulanda klarnetin müşayiətilə xanəndə zəminxarə üstündə Füzulinin məşhur:

Anıb tənhalığı qəbr içrə nifrət eyləmə zinhar,
Təriqi-üns tut kim hər ovuc torpaq bir adəmdir.

- qəzəlini oxudu. Bundan sonra kənd ağsaqqaları və ziyalıları mərhumun xeyirxah işləri barədə nitq söylədilər.

Şərəfli ömür üçün cismani ölüm hələ ölüm deyildir. Belə adamlar uzun müddət xatirələrdə və yaddaşlarda yaşayır. Xoş o adamın halına ki, özgələrinin yaddaşında nur topası kimi yaşayır və özündən sonrakı dünyaya işıq kimi süzülür, adamları xeyirxahlığa, yaxşıdığa, mənəvi gözəllik və təmizliyə çağırır.

Mərhum Hüseyn kişi bu kəndə 1917-ci ildə qərib kimi gəlmiş, indi elin atası kimi dünyadan gedir. Məclisə toplaşanlar bir-bir söz alıb mərhum barədə öz xatirələrini danışır, onu xoş sözlərlə xatırlayırlar. Arada bir yaşlılar Nizami, Xaqani, Füzuli, Seyid Əzim Şirvani, Sabir və müasir şairlərimizin ibrətamiz, hikmətli şeirlərini oxuyur, cavanlara izah edirlər. Hüzr məclisində söhbət düzlükdən, təmizlikdən, gözəllikdən və bu yüksək keyfiyyətlərin insana verdiyi izzətdən, cəmiyyətə gətirdiyi bəhrələrdən gedir. Söhbət hərlənib rayonun iqtisadiyyatı üzərinə gətirilir. Rayonu daha da yüksəltmək üçün nələrin lazım olduğunu hərə öz biliyi daxilində izah etməyə çalışır. Bu söhbətlər söhbət xatirinə deyil, bu, həm yas sahiblərinə təsəlli verir, həm də adamları öz borcları barədə düşünməyə məcbur edir. Sonra mərhumun səsi yazılmış maqnitofon lenti səslənir. Bu, mərhumun ölümündən bir qədər əvvəl balalarına və nəvələrinə elədiyi vəsiyyətdir. Həmin vəsiyyət əvvəldən axıra şərəflə yaşamaq, elin hörmətini qazanmaq barədə tövsiyələrdən ibarətdir. Qocanın öz səsiylə deyilən bu sözlər hamıya təsir edir. Məclisdə əyləşənlər istər-istəməz öz əməlləri, öz işləri barədə düşünməli olur: Həyat nədir? Mən bu dünyaya nə üçün gəlmişəm? Nəyin naminə çalışmalı, nədən ötrü yaşamalıyam? Ölüm nədir? Necə yaşamalı ki, ölüm qorxulu olmasın?

Bu sualların cavabını hikmətli atalar sözlərində, məsəllərdə, böyük sənətkarlarımızın əsərlərində tapırıq. Belə məclislərdə mərhum haqqında deyilən mənalı söhbətlər və ibrətamiz şeirlər cavanlarımıza dünyada şərəflə yaşamaq təlimi verir.

Ertəsi gün Ağdam rayonunun başqa bir kəndinə - mədəni yüksəlişi ilə respublikamızda tanınan Qaradağlı kəndinə getdik. Bu

kənddəki Telman adına kolxoza on üç ildən artıq sədrlik edən ordenli Allahverdi Allahverdiyev vaxtilə tələbəm olmuşdur. Buraya gələnə kimi bu kənd barəsində çox eşitmiş, çox oxumuşdum. Eşitmişdim ki, son on ildə bu kənddən mərkəzə bir dənə də olsun şikayət ərizəsi və yaxud imzasız məktub getməmişdir. Eşitmişdim ki, son on ildə bu kənddə bir dənə də cinayət baş verməmiş, xırda münaqişə və ailə anlaşılmazlıqlarını kənd ağsaqqaları özləri həll etmiş, məhkəmələrə ehtiyac olmamışdır. Nəhayət, eşitmişdim ki, bu kənddə kolxozun ictimai fondu hesabına yeddiillik musiqi məktəbi və uşaq bağçaları açılmışdır. Eşitmişdim ki, bu kənddə beş nəfər Sosialist Əməyi Qəhrəmanı var. Nəhayət, qəzetlərdən bilirdim ki, kolxoz hər hektardan 33,5 sentner məhsul götürməklə bu il pambıq planını 145 faiz, hər hektardan 216 sentner məhsul götürməklə üzüm planını 223 faiz, hər hektardan 32 sentner taxıl götürməklə respublika miqyasında rekord göstərici əldə etmişdir.

Hər bir müəllim üçün keçmiş tələbəsinin əmək cəbhəsindəki uğurlarını görmək onun başucalığıdır. Mən bu məqsədlə Qaradağlıya gəldim. Tələbəmin nailiyyətlərinin səbəblərini öyrənmək istədim. Əlbəttə, səbəb çoxdur. Mən bir mühüm cəhəti demək istəyirəm.

Kənd camaatı ilə söhbətlərimdən aydın oldu ki, bu kənddəki qələbələrin əsas səbəbi qarşılıqlı hörmət və qarşılıqlı inamdır. Kolxoz ellik təsərrüfatdır. Buradakı hər şey hamınındır. Kolxozçu əldə etdiyi qazancın həm onun özünə, həm də elliyə aid olduğunu, onun gəlirinin göz bəbəyi kimi qorunduğunu, ona xəyanət olunmadığını bildiyi zaman bütün varlığı ilə çalışır, kolxoz işi üçün əlindən gələni əsirgəmir. Bu inam hissi ellik təsərrüfatın çiçəklənməsinə səbəb olur. Bu kənddə yeni bir təşəbbüs, yaxud məsələ qaldırılanda həmin məsələ kolxoz idarə heyətinin müzakirəsi çərçivəsində qalmır. Kəndin bütün ağsaqqaları bu işə cəlb edilir. Çoxdan əmək qabiliyyətini itirib təqaüdə çıxan qocalar kolxoz idarəsinə çağırılır, onların məsləhəti eşidilir. Burada iki mühüm cəhət var, birincisi, “Məsləhətli don gen olar”, “Yüz ölç, bir biç”, “Tək əldən səs çıx-

maz", "El gücü, sel gücü", "El bir olsa, zərbi kərən sındırar", "Birlik dirilikdir" kimi müdrik atalar sözlərinə riayət, ikincisi, vaxtilə böyük işlər görmüş ağsaqqalara indi də yararlı olduqlarını bildirib, onların könlünü ələ almaq!

Əldən-ayaqdan düşmüş qocalara hörmət ən böyük insanilikdir. Unutmaq lazım deyil ki, bu qocaların fiziki gücü olmasa da, sözləri çox güclüdür. El onları dinləyir, məsləhətinə qulaq asır. İnsana onun vaxtilə elədiklərinə görə indi də hörmət etmək - bu gün əmək cəbhəsində külüng vuranlarda da öz zəhmətinə inam və qarşılıqlı hörmət hissi yaradır.

Qocanın, böyük həyat təcrübəsi keçmiş bir insanın işə cəlb olunması onu fərəhləndirir, onda yaşamaq, daha çox yararlı olmaq hissi yaradır. Vətənimiz uzunömürlülər ölkəsidir. Bu uzunömürlülüyü həkimlər dağlarımızın havası, çaylarımızın suyu, torpaqlarımızın zənginliyi ilə izah etməyə çalışır. Mən bura bir şeyi də əlavə etmək istərdim. Bizim adətlərimizdəki ağsaqqala hörməti!

Bəzi kapitalist ölkələrində əksər hallarda pansionatlara düşən qocalar burda yalnız ölümlərini gözləyirlər. Onlar bilirlər ki, bu dünyadakı son mənzilləri olan pansionat - həyatla ölüm arasında salınmış körpüdür. Bu körpü onu ölümə aparır. O, burda artıq heç kəsə, heç bir şeyə lazım olmadığını dərk edir. Dünyada insan üçün gərəksizliyini dərk etməkdən ağır nə ola bilər? Mən deyərdim ki, qocalar üçün yaradılmış bu üzdəniraq pansionatlar insanlığa qarşı qəbahətdir. Ona görə də xarici ölkələrin alimləri bizim ölkədəki uzunömürlülüyün sirrini abhavamızda yox, ilk növbədə, adət-ənənəmizin insaniliyində axtarmalıdırlar.

İnsan təbiəti həmişə başqalarından məhəbbət və hörmət gözləyir. Atalar çox gözəl deyib ki, heyvan boğazı ilə, yəni çox yeməklə, insan qulaqları ilə, yəni yaxşı söz eşitməklə kökələr, gözəlləşər. "Qarnım üçün demirəm, qədrim üçün deyirəm" atalar sözü də bu fikrin ən gözəl ifadəsidir. Qədir-qiymət, xətir-hörmət! Budur insanı yaşadan, budur insanı yaşatmağa çağıran qüvvət! Qədir-qiymət, xətir-hörmət

bilinməyən bir yerdə nə xeyir olar, nə bərəkət, nə ürək olar, nə də ürəksiz çəkilən zəhmətin bəhrəsi!

Hüzr məclisində olduğum Hüseyn kişinin çox yaşamasının da, böyük ehtiramla dünyadan yola salınmasının da, Novruzlu və Qaradağlı kəndlərində gördüyüm böyük naliyyətlərində və mədəni yüksəlişin də əsas səbəblərindən birini qarşılıqlı hörmətdə və inamda axtarmaq lazımdır.

*1976.*
*"Sadəlikdə böyüklük", Bakı, 1978.*





# MÜQƏDDƏS HİSSLƏR

Sevgi insanın ən ali, ən yüksək və ən müqəddəs hissidir. Sevgi insan həyatının ziynəti, günəşi və şeiriyyətidir. Məhəbbət insan ürəyində daima yanan bir atəşdir. O yanır, bizi isidir, həyəcanlandırır və yaşadır. Onun yanğısı iliklərimizə qədər işləyir, işığı isə həyat yolumuza nur səpir. Biz bu işığın yolu ilə gedir, arzularımıza çatırıq. İnsan məhəbbətlə yaşayır, məhəbbətlə mübarizə edir, məhəbbətlə ucalır, dünyanın və Kainatın sirlərini dərk edir. Haqlı olaraq dünya ədəbiyyatında məhəbbət şairi adlandırılan Füzuli eşqin gücünə çox yüksək qiymət verərək göstərir ki, məhəbbət insanları kamala çatdırır. O bizə dünyanın, həyatın və kainatın sirlərini dərk etdirir.

Böyük şairimiz Nizaminin dediyi kimi:
Mehrabı eşqdir uca göylərin,
Eşqsiz ey dünya nədir dəyərin?
Eşqin qulu ol ki, doğru yol budur.
Ariflər yanında bil, eşq uludur.

...Eşqsiz bir adam bir neydir qırıq,
Yüz canı olsa da, ölüdür artıq.
Eşqin süzişindən gözəl şey nə var?
Onsuz nə gül gülər, nə bulud ağlar.

Eşq, məhəbbət məfhumuna mücərrəd bir şey kimi baxsaq, onu lazımınca dərk edə bilmərik. Yaxud sevgini yalnız müxtəlif cinsdən olan iki nəfərin bir-birinə bəslədiyi münasibət mənasında anlamaq insanın bu böyük hissini məhdudlaşdırmaq deməkdir. Məhəbbət çox böyük və çox dərin bir hissdir. Lermontov demişkən: "Hörmətin hüdudu var, məhəbbət isə heç bir hüdud tanımır".

Sevgi həyatın mənası, insan varlığının mahiyyəti, xilqətin mayasıdır. Dünyanın ən böyük psixoloqları, yazıçı və mütəfəkkirləri məhəbbət haqqında çox dərin, çox qiymətli fikirlər söyləmişlər. Bu alim və yazıçılar hərəsi sevgiyə bir cür qiymət verir. Daha doğrusu yürüdülən fikirlərin hər biri sevgi hissini bir cəhətdən izah edir. Söylənilən fikirlərin hamısı isə demək olar ki, bir nöqtədə birləşir; həyatın cövhəri, bəzəyi və dünyadakı bütün gözəlliklərin əsası sevgidir.

Ev tikən bənnanın ürəyində eşq olmasa o, binanı istədiyi kimi tikə bilməz. Bir rəssamın ürəyində məhəbbət olmasa o, təbiətin ecazkar gözəlliklərini adi, cansız bir parça üzərində canlandıra bilməz. Bir şairin ürəyində sevgi alovu yanmasa o, insanların qəlbində çırpınan böyük hissləri, böyük çırpıntıları canlı sözlərə çevirə bilməz. Nəhayət, bir bəstəkarın ürəyində məhəbbət olmasa o, insan hisslərini, insan duyğularını, onun kədər və sevincini bizi valeh edən səslərin dilinə çevirə bilməz.

Bu gün Aya yol açan bir alimin ürəyində məhəbbət olmasa o, min-min kilometrləri bir neçə saata qət edən, ayın başına dolanan raketi ixtira edə bilməz. Demək, Ayın başına dolanan o raket də insan sevgisinin fəzadakı qələbəsidir. Görünür, pərvanə işığın, bülbül gülün başına məhəbbətlə dolandığı kimi, raket də Ayın başına dolanır. Nizami çox gözəl demişdir:

Əgər yüksələrsə göyə doğru su,
Yenə də torpaqdır ən son arzusu!

Hər şey kainatda eşqə bağlıdır.
Filosoflar bunu eşq adlandırır!

Doğrudan da belədir! Yer üzündəki bütün gözəlliklər: tikilən binalar, salınan yollar, yazılan əsərlər, ixtira edilən mürəkkəb maşınlar hamısı insan məhəbbətinin nəticəsidir. Bir sözlə, məhəbbət hər cür qəhrəmanlığın və fədakarlığın anasıdır. Əgər Mehdi Hüseynzadənin qəlbində böyük Vətən məhəbbəti olmasaydı o, bu gün dastan olub, dillərdə gəzən əfsanəvi qəhrəmanlıqları göstərə bilərdimi? Məhəbbətdən məhrum olan adam, əqidədən də, məsləkdən də məhrumdur! Belə adamlar yalnız özləri üçün yaşayan cılız təbiətli, yoxsul mənəviyyatlı sürünən adamcığazlardır! Başqası üçün yaşamaq, onun kədəri ilə kədərlənmək, sevinci ilə sevinmək, onun qeydinə qalmaq, nəhayət, əgər lazım gələrsə, onun səadəti yolunda şəxsi səadətindən keçmək nə qədər gözəldir! Böyük fransız yazıçısı Balzakın dediyi kimi: "Sevgi insanlığın bütün gözəl keyfiyyətlərinin məcmuudur". Böyük rus mütəfəkkiri Çernışevski demişkən, "Sevgi insanın bütün daxili qüvvələrini səfərbər edir. Kim bunu sınaqdan keçirməyibsə, sevginin mənasını başa düşə bilməz!"

Bu mənada sevginin əzab və əziyyətləri də insan üçün xoşdur. Məhəbbətin əzabları insana fərəh gətirir. Bu fərəhi yalnız və yalnız sevənlər başa düşə bilər. Burada yenə də böyük Füzuliyə müraciət etməmək mümkün deyil:

Eşqdən canımda bir pünhan mərəz var, ey həkim,
Xəlqə pünhan dərdim izhar etmə, zinhar, ey həkim.

- deyə şair, sevginin əzablarını özünə səadət hesab edir. Bu əzabdan, bu dərddən yaxa qurtarmaq istəmir. Əksinə, bu dərdi yüz dərmandan artıq hesab edir və həkimə deyir ki:

Var bir dərdim ki, çox dərmandan artıqdır mənə,
Qoy məni dərdimlə, dərman eyləmə var, ey həkim.

Füzuli məhəbbətin bəla və müsibətindən zövq alır və Allaha yalvarır ki, sevgilisinin gözəlliyini gündən-günə artırsın və onu sevgilisinin dərdinə daha çox mübtəla eləsin:

Yarəb, bəlayi-eşq ilə qıl aşina məni,
Bir dəm bəlayi-eşqdən etmə cüda məni.
Getdikcə hüsnün eylə ziyadə nigarimin,
Gəldikcə dərdinə betər et mübtəla məni.

Göründüyü kimi, məhəbbət şairi fədakarlığa çağırır, sevən adam özünü unudur, o, yalnız sevgilisini, onun səadətini düşünür.

Öz şəxsi səadətini düşünməmək, özün üçün yaşamamaq, başqası üçün yaşamaq! Budur insanın ən ali, ən yüksək keyfiyyəti! Beləliklə, doğrudan da məhəbbət insanın ən gözəl sifətlərini üzə çıxarır. İnsanı təmizləyir, yüksəldir, ucaldır!

Müasir rus yazıçılarından Lapin “Sevgiyə inanın” kitabında latviyalı bir qızın ona yazmış olduğu məktubdan misal gətirir. Qız yazır:

“Mənim bir yoldaşım var, 19 yaşlarında olarkən hamıya islah olunmaz kobud və dalaşqan bir adam kimi görünürdü. O, kiçik bir şey üstündə hamını təhqir edirdi. Sevəndən sonra onu tanımaq olmurdu. O, zahirən də dəyişmişdi. Onun dəcəlliyi, sırtıqlığı və pinti görkəmi harda qaldı? Oğlan özünə qarşı daha ciddi və tələbkar oldu. Əvvəlki davakardan əsər-əlamət qalmadı. Onu dəyişən nə idi? Əlbəttə, məhəbbət!”

Demək, məhəbbət insanın xarakterini də dəyişə bilmək qüdrətinə malikdir.

Bəziləri iddia edirlər ki, keçmişdə adamlar sevmədən evlənirdilər. Buna baxmayaraq, boşanma az olurdu. İndi isə sevib evlənirlər, amma bir-birilə yola getmir və tez ayrılırlar. Bu, nə üçün belədir?

Bizcə, burada məsələnin ictimai mahiyyətinə getmək lazımdır. Feodalizm və kapitalizm dövründə kişi qadınına şəxsi malı kimi

baxırdı. Cəmiyyətin mövcud qanun-qaydaları qadını bir əşyaya çevirmişdi. Qadın mövcud qanunlar çərçivəsindən kənara çıxa bilmir və ərin itaətkar bir qulu vəziyyətində qalırdı. Məhz buna görə də keçmişdə qadın ərinin bütün dediklərinə boyun əyir, etiraz etmir və şəxsi duyğu və düşüncələrini boğaraq məhv olub gedirdi.

Feodalizmdən dövrümüzə qədər ailə çox böyük inkişaf yolu keçmişdir. Əgər feodalizm dövründə qadının yalnız zahiri gözəlliyinə qiymət verilirdisə, zəmanəmizdə qadının zahiri gözəlliyi ilə yanaşı, daxili gözəlliyi, mənəvi gözəlliyi də nəzərə alınır. Odur ki, indi bəzi ailələrdə ərlə arvad arasında olan çəkişmələr əksər halda xarakter müxtəlifliyində zövq müxtəlifliyində özünü göstərir. Qadınlar böyük mənəvi inkişaf yolu keçmişlər. Onların özlərinə məxsus müstəqil fikri, zövqü və düşüncəsi vardır. Buna görə də zəmanəmizdə ailə qurmaq istəyən hər bir cavan, ilk növbədə, zövq eyniliyinə, fikir eyniliyinə diqqət yetirməlidir!

Məhəbbət aləmi də bir döyüşə bənzəyir. Burada hərənin öz taleyi var. Məhəbbətin adı birdir. Onun əzabları və zövqləri isə hərəyə bir cür təsir edir. Hərə sevgini bir cür anlayır. Buna görə də hərə bir cür sevir, bir cür də sevilir! Bütün bunlarla yanaşı, məhəbbətə inanmaq və onu hər cür kənar təsirlərdən qorumaq da lazımdır. Elə ki, ər öz arvadını başqaları ilə müqayisəyə başladı, orada məhəbbətə əlvida! Müqayisə başlayan yerdə məhəbbət qurtarır.

Qısqanclıq məhəbbətin yol yoldaşıdır və eyni zamanda, qatı düşmənidir! Ağacı qurd içindən yediyi kimi, ailəni də qısqanclıq yeyib məhv edə bilər. Şübhə və bu şübhənin dalınca düşmək, çox hallarda, əsassız olaraq ailələri dağıdır. Əgər sevişənlər bir-birlərinə qısqanırsa, burada çox ehtiyatlı hərəkət etmək lazımdır! El demişkən, mərdi qova-qova namərd etmək olar.

Əgər bir müəllim sinifdə özünü yaxşı aparmayan şagirdlərin üstünə "səs salmayın" - deyə qışqırsa, o, heç bir zaman sinifdə sakitliyi təmin edə bilməz. Müəllim uşağın pis hərəkətlərini onun üzünə vurmamalıdır. O, şagirdin nalayiq hərəkətlərini açıb ağartma-

malıdır! Həqiqi pedaqoq sinifdə "səs salmayın" - deyə qışqırmaz. Əksinə, çox sakit bir vəziyyətdə dərsə başlar və dərsi elə qurar ki, elə danışar ki, uşaqlar istər-istəməz ona qulaq asmağa məcbur olarlar. Müəllim, birinci növbədə, öz rəftarı, hərəkətləri və danışığı ilə uşaqların məhəbbətini qazanmalıdır. O, yalnız bununla şagirdləri ələ ala bilər.

Ailədə də ərindən şübhələnən, qısqanan bir arvad haray-həşir salarsa, özü gülünc vəziyyətdə qalar. Əksinə, o, çox ehtiyatla hərəkət etməli, bayaq dediyimiz kimi, mərdi qova-qova namərd etməməlidir. O, elə etməlidir ki, ər özü öz hərəkətlərindən utansın və ailəyə daha artıq bağlansın.

1960.
"Sadəlikdə böyüklük", Bakı, 1978.





# DUYMAQ, ANLAMAQ!

Neçə il əvvəl Füzuli rayonundan - Aydın Əliyev adlı bir nəfərdən maraqlı bir məktub almışdım. Əlbəttə, hər gün aldığımız onlarla məktubun hamısına cavab yazmaq imkanımız olmur. Bu məktuba dərhal cavab yazdım. Çünki məktub müəllifi çox mühüm bir məsələyə toxunurdu.

Aydın məktubunda mənim, böyük alman bəstəkarı Bethoven haqqında yazdığım silsilə şeirləri bəyəndiyini, klassik qərb musiqisinə olan dərin sevgimi təqdir etdiyini yazır, sonda - bu musiqinin Azərbaycanda kütləvi şəkildə yayılmadığına, rayon və kəndlərimizdə kifayət qədər sevilmədiyinə təəssüfləndiyini bildirirdi. Mən cavab məktubumda Aydına təşəkkürümü bildirməklə son vaxtlar sevimli bəstəkar və dirijorumuz Niyazinin Ü.Hacıbəyov adına simfonik orkestrlə rayonlarımızda konsertlər verdiyini, Qərb və rus bəstəkarlarının simfonik əsərlərini ciddi-cəhdlə təbliğ etdiyini yazıb onu əmin etdim ki, klassik musiqinin onun kimi pərəstişkarları olan ölkədə sənətin bu növünü xalqımız doğma musiqisi kimi sevəcəkdir.

Keçən ay Aydın qoltuğunda bir dəstə plastinka və bir neçə kitab bizə gəldi. Bethovenə, Baxa, Çaykovskiyə, Vaqnera, doyunca qulaq asdıq... Onu da deyim ki, Aydın bu bəstəkarların əsərlərini həyəcansız, sakit dinləyə bilmir. Plastinka hərləndikcə bir musiqi

cümləsi bitməmiş, növbəti cümləni ağzında çalır... və melodiyanın mənasını izah edir:

- Bax, bu parçada insanın tale ilə təkbətək vuruşu təsvir olunur.
- Siz Bethoven haqqında nə oxumusunuz?
- R.Rollanın "Bethoven" və "Jan Kristof" əsərlərini.
- Bəs Çaykovski haqqında?
- "Görkəmli adamların həyatı" seriyasından İ.Kuninin "Çaykovski" kitabını.
- Ən çox sevdiyiniz bəstəkar kimdir?
- Üzeyir bəy, Bethoven və Çaykovski.
- Çaykovskinin hansı əsərini daha çox sevirsiniz?
- Amerika pianoçusu Van Klibernin ifasında Birinci konsertini - deyib həmin əsəri əvvəldən axıra qədər ağzında çaldı.

Mən bunu mərhum qələm yoldaşımız Məsud Əlioğlunda da görmüşdüm. O, "İtaliya kapriççiosu"nu və Listin "Birinci rapsodiyası"nı ağzında çalardı.

Aydın Əliyev Füzuli rayonunun məişət xidməti kombinatında qaynaqçı-mexanik vəzifəsində işləyir. 1935-ci ildə anadan olmuş, ali təhsil ala bilməmişdir.

- Simfonik musiqiyə belə böyük hərislik sizdə nə zamandan başlayıb?
- Uşaqlıqdan. Gözümü açıb evimizdə patefon, Qliyerin və Üzeyir bəyin operaları yazılmış plastinkalar görmüş, onlarla böyümüşəm. "Koroğlu" operasının uvertürasına atamın hər gün qulaq asdığı və dərin-dərin düşündüyü gözlərimin qabağındadır. Atam 1941-ci ildə cəbhəyə getdi, qayıtmadı. Lakin mənə böyük bir irs - musiqini başa düşmək, onunla yaşamaq, onun hər naləsini ürəyin tellərindən keçirib həyəcanlanmaq, ondan həzz almaq irsini qoyub getdi. Bundan sonra mən özüm bu səpkili musiqi əsərlərini axtarmağa başladım. Radioda simfonik konsertlər verilən gün mənim bayramım olardı. Musiqi gözəl hisslərlə yanaşı, məndə həmişə gözəl assosiasiyalar oyadır. Mən insanı düşündürən musiqini bir də ona görə sevirəm ki,

o mənə yaşadıqlarımı yenidən yaşaya bilmək imkanı verir.

- Bunu bir qədər izah edərsinizmi?

- Xatirə, yaşanmış duyğuların yenidən yaşaması deyilmi?

- Məsələn.

- Uşaq idim. Dağda bir buğanı zəncirləmişdilər. Birdən, nə oldusa, buğa dartınıb zəncirini qırdı və nərildəyə-nərildəyə dərə aşağı qaçmağa başladı. Bu, vəhşi bir heyvanın zəncirə üsyanı idi. Biz uşaqlar o zaman buğanın bu üsyanına və qələbəsinə əl çalıb şaqqanaq çəkdik. Ona görə ki, uşaqlar da azadlığı sevir. Zaman keçdi. Mən bu hadisəni unutdum. Bu yaxınlarda təsadüfən radioda Şapoşnikovun "Naxçıvan eskizləri"ni dinləyirdim. Birdən, haradansa, həmən buğa əhvalatı yadıma düşdü. Əsərin üçüncü hissəsi mənə zəncirini qıran buğanın nəriltisini xatırlatdı. Bu cür musiqilər qəlbimi işıqla doldurur, məni Vətənimizə və xalqımıza layiq bir vətəndaş kimi yaşamağa çağırır, qələbələrə səsləyir. Gözəl nəğmələrin iki qanadı olur: keçmiş və gələcək! Mən skripka və fortepiano konsertlərinin qanadında keçmişə, - ötən günlərimə uçur və buradan gələcəyimə baxıram.

Keçmişi yenidən yaşamaq! Ötənlərə qayıtmaq! Ötən günləri musiqidən başqa heç bir qüvvə o şəkildə bizə yenidən qaytara bilməz. Bəlkə, elə buna görədir ki, insan qəlbi musiqiyə bu qədər aludədir. Musiqiyə qulaq asarkən insan, həyatı olduğundan daha gözəl və daha mənalı görə bilir. Gözlərimizi qapayıb diləklər dünyasına səfər edir, arzularımıza qovuşur, gülümsünürük. Bəlkə, elə buna görə də məşhur göz professoru Filatov "Ölümündən 1000 il sonra sənə yenidən həyat versələr istərsənmi?" - sualına, "Əgər yer üzündə yenə musiqi olsa, ikinci həyatı istərəm" cavabını vermişdi.

Demək, musiqi həyatı məna ilə doldurur, gözəlləşdirir, insanı insan kimi yaşadır.

Aydın danışdıqca həyəcanlanır, musiqi barədəki düşüncələrini mənə aşılamaq istəyirdi.

- Mən gözəl bir musiqi parçasını dinləyəndə özümü dünyanın ən xoşbəxt adamı hesab edirəm.

Mən:

- Xoşbəxtlik nisbi anlayışdır, - deyincə o:

- Elədir, amma bu məsələyə bir balaca əlavəm var, - deyib ayağa qalxdı, gətirdiyi plastinkalardan birini - Bethovenin 14-cü sonatasını radiolanın üstünə qoyub dedi:

- Dinləyək!

Bethovenin sevgilisinə həsr etdiyi "Aylı sonata" adı ilə məşhur olan bu əsəri mən də çox sevirəm. Sakit gölə daş atılarkən suyun üzündə getdikcə böyüyən halqalar kimi musiqi dalğaları da halqalanır, bizi harasa məchul və sehrli bir dünyaya - nağıl dünyasına aparır.

Sonata qurtarınca o:

- Bu anlarda xoşbəxt deyildinizmi? - deyə üzümə baxdı.

Mən:

- Elədir - deyincə, Aydın:

- Demək, ən böyük xoşbəxtlik xoşbəxt olduğun anlarda xoşbəxtliyi hiss etmək, anlamaqdır. Mən, ümumiyyətlə, musiqiyə bir də ona görə minnətdaram ki, o, insan xarakterindəki bəzi qüsurları yonan rəndəyə bənzəyir. Mənim də bəzi qüsurlarım olub. Onları musiqi rəndəsi elə yonub, elə hamarlayıb ki, bəzən özüm-özümü tanıya bilmirəm.

- Bethovendə hansı cəhəti sevirsiniz?

- Mübarizliyi. Qəhrəmanlığı. Bilirsinizmi, qəhrəmanlığı hərə bir cür başa düşür.

- Məsələn, siz necə başa düşürsünüz? - deyə sınayıcı nəzərlərlə onun üzünə baxdım.

O:

- Məncə, hər əlinə qılınc götürən hələ qəhrəman deyil. Ən böyük qəhrəman bəşəri əzablara, dünyəvi kədərə qələbə çalan, həyatın xırdalıqlarına yuxarıdan baxmağı bacarandır. Mən Bethoveni dinləyəndə gündəlik həyat qayğılarından ayrılır, ucalır, böyüyürəm. Bu imkanı mənə verdiyinə görə Bethovenə, onun qanadlı duyğula-

rının arxasınca qanadlana bildiyimə, təbiətin mənə verdiyi anlamaq, duya bilmək qabiliyyətinə görə də ürəyimə minnətdaram.

Anlamaq, duya bilmək! Bu da özlüyündə bir istedaddır. Vay o adamın halına ki, nə anlaya bilir, nə duya bilir.

Bir məclisdə iki nəfər bərk mübahisə eləyirdi. Onlardan biri haqsız idi. Bunu özü də hiss edir, lakin təslim olmaq istəmirdi. Haqlı aramla və məntiqlə fikrini sübut edincə, haqsız mübahisəni zarafata yönəltmək üçün:

- Necəsən, qanmayım atan yansın? - deyib qəhqəhə çəkdi. Ətrafdakılar hamısı gülüşdü. Lakin bu söz haqlını cin atına mindirdi. Bayaqdan aramla danışıb haqlı olduğunu sübut edən bu adam bu sözə əsəbiləşməsində də haqlı idi. Ona görə ki, həqiqətən, qüvvətli məntiqin qabağında müqabil tərəfin sübutlarını anlamamaq, qanmayan üçün deyil, qanan üçün böyük əzabdır. Haqsız da bunu bildiyindən onu "necəsən, qanmayım" sözü ilə acıqlandırmaq və məğlub olduğunu danmaq istəyirdi.

Aydın musiqini, musiqi vasitəsilə də dünyanı, həyatı dərk etmək, anlamaq yolunda olması ilə fəxr etməkdə haqlıdır. Ona görə ki, dünyaya məna gözü ilə baxmaq bizə dünyanı olduğundan daha gözəl və daha mənalı göstərir, bir sözlə, ömrümüzü gözəlləşdirir.

Mən bu gözəl düşüncələrin sahibi olan adi, lakin adiliyində qeyri-adi olan insanı oxucularla tanış etməyi özümə borc bildim.

1978.<br>"Sadəlikdə böyüklük", Bakı, 1978.





# DİLİ YOXDUR,
# O, DANIŞIR

Vətənimiz dünyanın ən çox kitab oxunan ölkəsidir. Yüz min tirajlarla nəşr olunan kitab yenə də xalqın gün-gündən artan ehtiyacını tamamilə ödəyə bilmir. Kitab aclığı, böyük fikirlər, dərin düşüncələrlə yaşayan xalqımızın böyük arzular eşqinə qanadlanan təbiətindən irəli gəlir.

İngiltərə, Almaniya Federativ Respublikası, İtaliya və Türkiyə kimi ölkələrdə şeir kitablarının ən yüksək tirajı iki, ya üç min olur. Lakin bu az tiraj da oxucuların tələbatından yüksəkdir.

5 milyon yarım əhalisi olan respublikamızda kitablarımın 30-50 min tirajla nəşr edildiyini və dərhal satıldığını dediyim zaman xarici ölkələrdəki həmkarlarım buna inana bilmirdilər.

Bununla bərabər, kitab mütaliəsində, xüsusən gənclərə kitabı sevdirməkdə, hələ də qüsurlarımız vardır. Mən bu qüsurların səbəbini, əsasən, orta məktəblərimizdə görürəm. Ona görə ki, orta məktəbdə gənclər formalaşma dövrünü keçirir, biliyin əsası, bünövrəsi orta məktəbdə qoyulur, ali məktəblərdə isə həmin bünövrə üzərində elm binası qurulur.

Alim və yazıçıları tez-tez orta və ali məktəblərə görüşə çağırır-

lar. Əlbəttə, gənclərin tərbiyəsində, əsl insan kimi yetişməsində bu görüşlərin əhəmiyyətini inkar etmək istəmirəm. Lakin görüşlər də formal səçiyyə daşımamalı, müəyyən məqsəd güdməlidir. Burada yalnız görüşə gələnlər deyil, görüş obyekti olan alim, yaxud yazıçı da öyrənməlidir. Yazıçı, müzakirəsinə gəldiyi əsərinin oxuculara necə çatdığını, nəyi bəyəndiklərini, nəyi bəyənmədiklərini, bir sözlə, oxucunun tələbini də bilmək istəyir. Bu, gələcək işi üçün ona çox lazımdır. Klassiklərdən birinin dediyi kimi, yazıçının demək istədiyi fikir çox zaman tam mənasında öz bədii ifadəsini tapa bilmir. Mətləbin kökləri yazıçının qəlbində qalır. O budaqları, bəzən də yarpaqları yazıya köçürə bilir. Yarpaqdan budağa, budaqdan kökə getməyi oxucunun şəxsi təhlilinə buraxır. Bu, oxucuya da yazıçı ilə bərabər düşünmək, təhlil etmək, mətləbi araşdırmaq, əsərdə qoyulan məsələ ilə sonra da alışıb yanmaq imkanını verir. Bir halda ki, bu cəhət bədii əsərin xüsusiyyətidir, onda əsərin müzakirəsi yalnız yazıçının üzünə diferamba oxumaqdan ibarət olmamalı, mübahisə şəklində aparılmalıdır. Çox təəssüf ki, yazıçılarla görüşlər belə olmur. Çıxışlar çox zaman sənətkarın ünvanına deyilən şit tostlara bənzəyir. Yaxud da görüşə çağırılan yazıçı haqqında dərsliklərdə, qəzet və jurnallarda yazılanların üzünü köçürüb eynilə oxuyurlar.

Bu yaxınlarda məni orta təhsil aldığım məktəbə dəvət etmişdilər. Vaxtilə oxuduğun məktəbə gəlmək, 40 il əvvəl dərs danışıb qiymət aldığım sinif otağına baş çəkmək, həmyaşlarınla o yan bu yana qaçdığın uzun dəhlizlərə baxmaq, qayğısız uşaqlıq illərini yad eləmək insan üçün nə qədər xoşdur. Lakin açığını deyim ki, mən doğma məktəbimdən kədərlə ayrıldım. Ədəbiyyat müəlliminin, ümumən, yaradıcılığım haqqında oxuduğu bir saatlıq məruzədə bir dənə də olsa öz fikri yox idi. Məruzə iki cildlik əsərlərimə yazılan ön sözlə yeddinci sinfin dərsliyində haqqımda yazılmış oçerkin qarışığından ibarət idi.

Orta məktəbin yuxarı siniflərində ədəbiyyatdan dərs deyən bu

müəllim əsərlərim haqqında ikicə kəlmə öz sözünü, öz fikrini deyə bilməzdimi? Buradan çıxan məntiqi nəticə belədir: bu müəllim keçdiyi bütün mövzuları yalnız dərslik səviyyəsində deyir, mövzu haqqında əlavə materiallar bir yana, adını çəkdiyi bədii əsərlərin özünü belə oxumur. Deməli, bu müəllimin şəxsi mütaliəsi yoxdur. Bir halda ki, özü oxumur, əlbəttə, belə bir müəllimin bədii əsər haqqında şəxsi fikri də olmayacaqdır. Bu cür müəllimlər şagirdlərində kitaba, şəxsi mütaliəyə, həvəsi və məhəbbəti necə oyada bilər? Müəllim öz üzərində çalışmırsa onun şagirdlərindən nə gözləyə bilərik? Həmin görüşdə mən bu məsələyə çox ciddi şəkildə toxundum. Hiss etdim ki, "zəhmət çəkib" haqqımda yazılanları varağa köçürən müəllim çıxışımdan narazı qaldı. Olsun! Lakin mən buna əminəm ki, həmin müəllim ədəbiyyatın bir elm, bir sənət olaraq nə mahiyyətini, nə məqsədini, nə də xüsusiyyətini bilir. O, bədii əsərlərdən həzz almır. Ona görə də bu müəllimin, zövqü və hissi formalaşmaq üzrə olan balalarımıza ədəbiyyatı sevdirə biləcəyinə inanmaq çətindir.

Müəllim çox zaman keçdiyi ədəbi əsərin neçənci ildə, harada, hansı janrda və hansı üslubda yazıldığı haqqında məlumat verməklə işini bitmiş hesab edir. Amma bu çox azdır. Bu quru, statistik məlumat bədii əsərin məqsədi və mahiyyəti deyil, vasitələridir. Müəllim isə vasitəyə məqsəd kimi baxmaqla ədəbiyyatın ədəbiliyini, gözəlliyini əlindən alır. Ədəbi əsərin bir həyat, bir duyğu və düşüncə ifadəsi olduğunu unudur. Müəllim şagirdlərin qarşısında aktyor kimi alışıb yanmalıdır. Şagird ədəbiyyat dərsində quru məlumatdan çox, bədii həzz almalı, müəllimi gözəl bir tamaşaya baxır kimi dinləməlidir. Müəllim yalnız bu zaman haqqında danışdığı yazıçını və onun əsərini, ümumiyyətlə, ədəbiyyatı gənclərə sevdirə bilər.

Orta məktəb elmlər barədə ümumi məlumat verir. Bu elmlərdən birini seçməyi şagirdin öz ixtiyarına buraxır. Ali məktəb isə gəncləri bir elm üzrə ixtisaslaşdırır. İstər orta və istərsə ali məktəblərimiz proqram üzrə dərslik səviyyəsində məlumat verməklə kifayətlənməməlidir.

Dərs proqramını ağacın kökünə bənzətsək bu barədə əlavə məlumatı hərəsi bir tərəfə şaxələnən qolbudağa bənzətməliyik. Qol-budağı bilmədən kökü yaxşı dərk etmək mümkün olmadığı kimi, əlavə məlumatsız da əsas proqramı tam mənada dərk etmək mümkün deyil. Əlavə məlumatı isə nə dərsliyin, nə müəllimin əvvəlcədən müəyyən edilmiş proqram üzrə verməyə imkanı yoxdur. Burada müəllimin vəzifəsi gənclərdə kitaba sevgi hissini aşılamaq olmalıdır. Şəxsi mütaliənin verdiyini heç bir müəllim və heç bir məktəb verə bilməz. Buna görə də bizdə gənclərimizə kitaba böyük məhəbbət hissini hələ uşaqlıqdan aşılamalı, onların mütaliə qabiliyyətini artırmalıyıq. Elə eləmək lazımdır ki, şagird kitabı qiymət almaq xatirinə deyil, könüllü, öz şəxsi təşəbbüsü və sevgisi ilə oxusun.

Məlumdur ki, məqsədli sevgi əsl sevgi ola bilməz. Məqsəd sevgiyə deyil, sevgi məqsədə qulluq etməlidir. Şagird kitabı sevsə bu sevgidən əsl böyük məqsədin hasil olacağı labüddür. Dünyanın ən böyük dahiləri, elmin və sənətin zirvəsinə, yalnız məktəblə deyil, şəxsi mütaliə ilə çata bilmişlər. Böyük rus ədibi Maksim Qorki ardıcıl təhsil və davamlı bir məktəb görməmişdir. Özünün yazdığı kimi, onun iki müəllimi olmuşdur. Biri həyat, ikincisi kitab.

Dahi rus ədibi F.M.Dostoyevski yazır: "Boş vaxtlarını nəyə sərf edəcəklərini bilmədən, məşğuliyyət və əyləncələr axtaran adamları görəndə, əlimə bir kitab götürüb öz-özümə deyirəm: Bunun yalnız bircəsi bir ömrə bərabərdir".

Dili yoxdur, o, danışır
Ötənlərdən xəbər verir.
Ata kimi sənə bəzən
Kitab doğru yol göstərir.

Ürəyi yox, söhbətilə
Döyündürür ürəkləri.

Ayağı yox, qarış-qarış
Gəzir ancaq o hər yeri.

Yalan deməz, böhtan deməz,
Hər xəbəri o, düz verir.
Gözü yoxdur, bu dünyanı
Görmək üçün o, göz verir.

*1978.*

*"Sadəlikdə böyüklük", Bala, 1978.*





## AMAL NƏ DEMƏKDİR?

Şair H.Arifin "Mən qorxardım ölümdən, dünyaya məndən sonra gələnlər olmasaydı" - fikri, ölüm qorxusu altında sarsılan bütün insanlar üçün həyat devizidir. Spinoza demişkən, insanın böyüklüyü ordadır ki, öləcəyini bilə-bilə həmişə gözəllik haqqında düşünür.

Bu nöqtədə insan fərdilikdən çıxır, ümumiləşir. Bu, zərrənin özünü külldə tapmasıdır. Ölüm qorxusunu keçirməyən insan ola bilməz. Bu qorxu ömrün zirvəsində daha dəhşətli olur. İnsan ölümün yaxınlaşdığını hiss edəndə həyatı daha yaxından görür, ona daha incə tellərlə bağlanır. Ağrı-acısı ilə bərabər şirinliyini dərk edir, ondan ayrılmaq istəmir. Vaqif "Toybayramdır bu dünyanın əzabı" deyəndə, həyatın şirinliyini, gözəlliyini dərk etdiyini təsdiq edirdi.

Həyatdan üzüləndən sonra təsəllini həyatın davamında görən şair (H.Arif) öz "mən"inin məhdud çərçivəsindən çıxır, fərdin fövqünə yüksəlir, mənanı yalnız öz şəxsi mənafeyində deyil, ümumin mənafeyində tapır. İnsan öz varlığını ümumi varlığın bir hissəsi sayanda fərdi varlıqdan yuxarı qalxıb, ümumi varlığı təsdiq edir. İnsan xalqın mənafeyini öz mənafeyindən üstün tutmağı bacaranda hər cür qorxudan, həm də ölüm qorxusundan azad olur. Demək, ölüm qorxusundan da xilas olmağın yeganə yolu - özünü böyük görməməkdə, özünü zərrə sayıb öz mənafeyini küllün mənafeyində tapmaqdadır.

Bu, necə mümkün ola bilər?

Heç kəs inkar etməz ki, hər kəsin həyatı özü üçün çox əziz və şirindir. Lakin ömür yolunda elə böyük amal və məqsəd tapmaq olar ki, o, insana həyatından da əziz, həyatından da şirin olsun. Həyatını amalı yolunda qurban verənlər azmı olub? Nəsimilər, C.Brunolar, dekabristlər, inqilabçılar, fədailər, Vətən müharibəsi qəhrəmanları və s... bir sözlə, məqsəd, əqidə və amal sahibləri. Məgər onlar üçün həyatları əziz deyildimi? Məgər onlar yaşamaq istəmirdilərmi? Məgər onlar həyatın gözəlliyini və şirinliyini bizim qədər dərk etmirdilərmi? Əksinə! Onlar həyatın nə qədər əziz və şirin olduğunu bizdən yaxşı bilir, yaşamaq istəyir, həyatın bütün gözəllik və şirinliyini bizim kimi dadmaq istəyirdilər.

Bu ayaqdan görün həyatdan üstün tutulan amal nə deməkdir? Həyatı hər şeydən üstün tutmaq, insanı nə qədər kiçildirsə, amalı həyatdan üstün tutmaq bir o qədər böyüdür. Həyatı hər şeydən üstün tutanlar, yaşamaq xətrinə hər cür alçaqlığa gedə bilər, amalı həyatdan da üstün tutanlar isə əqidəsi, amalı naminə ölümə getməyə hazır olar.

Onlar həyatı çox sevdiklərindən ölüm naminə deyil, məhz həyat naminə ölümü qəbul edirlər. Çünki onlar sürünüb yaşamağı yaşamaq hesab etmir, xırda adamlar "nə olur olsun, təki yaşayım" - deyir, bundan ötrü namuslarını, şərəf və izzətlərini belə qurban verirlərsə, məslək adamları həyatın ləkələnməsini qəbul etmir, həyatı öz gözəlliyi və böyüklüyü ilə sevir, bu gözəlliyi və böyüklüyü qoruyur, bu gözəlliyə və böyüklüyə qəsd olanda onun yolunda canlarını belə verməyə hazır olurlar. Çünki onlar üçün həyat yalnız gözəlliyi, şərəfi və ləyaqəti ilə həyatdır. Gözəlliyi, şərəfi, ləyaqəti əlindən alınan zaman onlar həyatı həyat hesab etmirlər.

Ümumiyyətlə, böyük arzular böyük təhlükələrdən keçib həqiqət olur. Vətənin böyük oğulları ona görə böyük olur ki, Vətən onlara

böyük dərd verir. Bu böyük dərdi hər oğul öz ürəyində əridib, onu sevincə çevirmək qüdrətinə malik ola bilməz.

*"Vətən ocağının istisi", Bakı, 1982.*





# MƏNƏVİ TƏMİZLİK

Mənəvi təmizlik, daxili təkamül bizim ədəbiyyatımızın və folklorumuzun baş mövzularından olmuşdur. Nəsimi poeziyası başdan-başa insanın qüdrətinə inam, insan mənəviyyatına alqış poeziyasıdır. Nəsimiyə və onun ardıcıllarına görə insan mənəvi cəhətdən təmizlənməklə Allahı - həqiqəti və özünü dərk edə bilər. Mənəvi təmizlik və yüksəklik dediyi zaman hürufilər nəyi nəzərdə tuturdu?

İlk növbədə, dünya nemətlərinə, yəni maddi nemətlərə aludə olmamaq, nəfsi boğmaq, tamaha qul olmamaq! Əksinə, nəfsə, tamaha hakim olmaq! Nəfsə hakim ola bilmək, insanın öz-özünə hakim olması, hisslərini cilovlaya bilməsi deməkdir.

Əlbəttə, bu fəlsəfi görüşün mistik tərəfi də var. Yəni, bu dünyaya göz yummaq, səadəti xəyali dünyada aramaq! Biz müasir materialist dünyəvi görüş baxımından bu fəlsəfi sistemin mistik tərəfini atır, onun proqressiv tərəfini götürürük.

Bu cərəyanın proqressiv tərəfi insan qüdrətinə inamda və mənəvi təkamüldədir. Nəsimi "ənəlhəq" dediyi zaman insanı Allah səviyyəsinə ucaldır, insanın mənəvi təkamül yolundakı qələbəsini təqdir edir. Bu nöqtədə hürufilər insanı qarnı ilə deyil, mənəvi dünyası ilə yaşamağa çağırır.

Mənəvi təkamüldə əsas amil insanın öz-özünə kənardan baxa bilməsi, öz eyiblərini görə bilməsi ilə şərtlənir. A.Bakıxanov gözəl demişdir: "Gözlü o adamdır ki, özünü görə bilsin". Özünü görə bilən

adamın ittihamçısı, yəni prokuroru öz içində olur, həmin ittihamçı o adamın əməllərini tənzim edir. Bu amilə görə insan öz-özünə vurulmamalı, yaxşı əməlləri ilə bərabər pis əməllərini də görə bilməlidir. Bunu bacaran adam içindəki eqoizmi, xudbinliyi öldürür, özünə təvazökarlıq hissini aşılayır.

Gənclərin tərbiyəsində bu cəhət əsas amil kimi götürülməlidir. Ona görə ki, bir çox cinayətlər və pisliklər xudbinlikdən, eqoizmdən doğur. Təvazökar adamlar özünün yaxşı cəhətləri ilə yanaşı başqalarının da yaxşı cəhətlərini görə bilir, qiymətləndirə bilir.

Özünü mənfi və müsbət cəhətləri ilə birgə tam halda görə bilmək, özünü dərk etmək, özünü kəşf etmək deməkdir. Qədim filosoflardan biri çox gözəl demişdir: “Hər bir insan özünün öz xüsusi Xristofor Kolumbu olmalıdır”.

Öz eyiblərini görə bilən adam tezliklə bu eyibdən, bu qüsurdan xilas olmağa çalışacaq. Qüsurdan xilas olma səyi insanı daxilən təmizləyər, uculdar, saflaşdırar. Ona görə də qədim mütəfəkkirlər insanı “öz-özünü yaradan varlıq” adlandırmışlar.

Bizim müasir ədəbiyyatımızın əsas problemlərindən biri də özünü yaradan insana bu prosesdə kömək etməkdən, əllərindən tutub onu qaldırmaqdan ibarət olmalıdır.

Vətənpərvərlik - dünya ədəbiyyatının həmişə tərənnüm etdiyi mövzudur. Bəzən gənclərdən soruşuruq:

- Nədir vətənpərvərlik?

Cavab verirlər:

- Vətəni sevmək!
- Vətən qarşısındakı borcları ödəmək!
- Lazım gələrsə Vətənin yolunda ölümə getmək!
- Vətənin tapşırıqlarını sözsüz yerinə yetirmək! Və s.

Bu cavabların hamısı ayrılıqda doğrudur. Lakin bunu dərindən hiss etmək, başa düşmək və doğrudan da lazım gələrsə, Vətən uğrunda ölümə hazır olmaq üçün gənclərimizdə ictimai hissin tərbiyəsinə çalışmalıyıq.

İnsan ölümündən qorxmadığı zaman daxilən böyüyür, mənən azad olur. İnsan öz varlığını ümumi varlığın bir hissəsi sayan za-

man fərdi varlıqdan yuxarı qalxır, ümumi varlığı təsdiq edir. İnsan öz şəxsi mənafeyini ümumun mənafeyi içərisində əritdiyi zaman o, fərddən çıxıb şəxsiyyət səviyyəsinə yüksəlir.

Bir atalar məsəlini misal gətirmək istəyirəm: Üç qardaş səfərə çıxır. Yolda əyləşib nahar elədikləri zaman quldurlar qəflətən hücum edib böyük qardaşı çomaqla döyürlər. Bu zaman ortancıl qardaş qalxıb quldurların üstünə hücum çəkir. Döyüş başlanır. Kiçik qardaş döyüşə əhəmiyyət vermədən yeməyini davam etdirir bu zaman ortancıl qardaş quldurun birini kiçik qardaşın üstünə itələyir. Quldurun ayağı kiçik qardaşın qarşısındakı nimçəyə toxunub onu qırır. Xörəyinin dağıldığını görən kiçik qardaş yalnız bu zaman ayağa qalxır, quldurların üstünə düşüb onları əzişdirir.

Bu misalla xalq nə demək istəyir? Xalq demək istəyir ki, yalnız öz mənfəətimizə toxunanda deyil, ümumiyyətlə, haqq tapdananda hamı bir nəfər kimi ayağa qalxmalıdır. Demək istəyir ki, vətən və xalq vahid bir orqandır. Hər birimiz isə onun üzvləriyik. Bir halda ki, hər birimiz vahid bir ölkənin və xalqın hissələriyik, demək, birimizin kədəri hamımızın, hamımızın kədəri həm də hər birimizindir. Bu nöqtədə insan mənəvi cəhətdən böyüyür, kamilləşir, Vətən səviyyəsinə yüksəlir, onunla vəhdət təşkil edir.

Biz gənclərimizə bu hissi, Vətənin vahid bir orqan olduğu və bizim hər birimizin bu orqanın ayrı-ayrı üzvləri olduğumuzu hiss etdirməli, başa salmalıyıq. Bax, buradan da vətənpərvərlik hissi özözünə yaranar.

Vətənpərvərlik - mücərrəd deyil, konkret hissdir. Ona görə də bu hissi gənclərimizə ümumi şəkildə deyil, konkret amillərlə aşılamalıyıq.

Ədəbiyyatın ən mühüm vəzifələrindən biri müasir insanın mənəvi aləmini nəinki əks etdirmək, onun yaranmasına təkan olmaqdan ibarətdir. Bunun üçün elə bir ideal tələb olunur ki, o, orta əxlaq normalarının və standart əxlaqi görüşlərin fövqünə yüksələ bilsin.

İdeala - ən yüksək arzuya çatmaq, təkamülə qovuşmaq eşqi insanı daxilən ucaldır, təmizləyir və mənən böyüdür. Çünki insanın təbiəti belədir ki, o, həmişə olduğundan daha yaxşı və daha gözəl

görünmək istəyir. İnsanın bu istəyində sənət və ədəbiyyat onun ən yaxın köməkçisinə çevrilə bilər. Ədəbiyyatımızın ən vacib vəzifələrindən biri ideal axtarışlarında insana doğru yolu göstərə bilməsidir.

S.Rəhimovun "Mehman" əsərindəki prokuror Mehman ideal dərəcədə təmiz hüquq işçisidir. O, özü ideal dərəcədə təmiz olduğundan hamıdan eyni təmizliyi tələb edir. Vay o gündən ki, ədliyyə işçisinin özü natəmiz ola-ola başqalarından təmizlik tələb edə. Yenə folklorumuza müraciət edək:

Bir qadının uşağı xəstələnir. Uzaq bir şəhərdə yaxşı bir həkimin olduğu və bu xəstəliyin əlacını bildiyini anaya deyirlər. Ana həmin şəhərə gəlir. Həkim uşağa baxıb anadan soruşur: - Bu uşağın ən çox yediyi nədir? Ana cavab verir ki, xurma! Həkim deyir, get sabah gəl, uşağın dərmanını deyim.

Ana gecəni küçələrdə keçirir, ertəsi gün gəlir həkimin yanına. Həkim uşağa deyir: - Bala, bir neçə gün xurma yemiyəsən. Ana təəccüb edib həkimdən soruşur: Elə bu? Həkim deyir: Bəli. Ana deyir: - Sən bunu dünən deyə bilməzdin? Həkim cavab verir: - Yox! Ona görə ki, dünən mən özüm xurma yemişdim. Özüm yediyim halda uşağa xurmanı necə qadağan edə bilərdim?! Onda mənim sözümün kəsəri olmazdı. Bu gün bu uşağın xatirinə xurma yeməmişəm ki, sözümün kəsəri olsun. "Xurma yemə" dediyim zaman sözüm ağzımda titrəməsin.

Bu adi misal, əxlaq normalarının qorunmasında nə qədər mənalı və nə qədər tərbiyəvi əhəmiyyətə malikdir.

*"Vətən ocağının istisi", Bakı, 1982.*





# LƏYAQƏT

Ləyaqət hər kəsin dəyəridir, insanlıq sifətidir. Ləyaqətini itirən adam həm dəyərini, həm də insanlıq sifətini itirmiş olar. Buna görə də hər həs ilk növbədə özü öz ləyaqətini qorumağı bacarmalıdır. A.P.Çexov kiçik qardaşına yazdığı məktubda deyir ki, öz ləyaqətsizliyini ancaq böyük ağıl, gözəllik və təbiətin kamilliyi qarşısında dərk etmək olar... Adamlar qarşısında isə həmişə öz ləyaqətini başa düş və qoru.

Xalqımızın böyük oğulları yoxsul yaşasalar da, həmişə öz ləyaqətlərini başa düşmüş, şahlar, xaqanlar qarşısında belə alçalmamışlar. Böyük Nizami deyir ki, şair qapısında padşah böyüklərin böyüyü, padşah qapısında şair isə gədaların gədasıdır.

Dünya nemətləri üçün vəzifə sahiblərinin qarşısında əyilməmək, öz ləyaqətini saxlamaq ulularımızın gələcək nəsillərə ən böyük vəsiyyəti olmuşdur. Belə olduğu təqdirdə səlahiyyət sahiblərinin də vəzifəsi, onlardan asılı olanların ləyaqətini öz ləyaqəti kimi qorumaqdan ibarət olmalıdır. Öz səlahiyyət üstünlüyünü bildirmək üçün qarşısındakının ləyaqətini alçaldan vəzifəli şəxs özü bilmədən öz ləyaqətini də alçaltmış olur. Çünki o, bu hərəkəti ilə tutduğu vəzifəyə layiq olmadığını göstərir.

Mənəvi zənginliyin göstəricisi olan şəxsi ləyaqəti maşın, mebel, komfort kimi maddi dəyərlərə dəyişənlərin ömür yolu yaltaqlıq və

köləlik deyilən bataqlıqdan keçir. Həmin bataqlığın çirkabına bulaşan adamda nə mənəviyyat olar, nə də şəxsi ləyaqət! Bir qayda olaraq özündən böyük qarşısında quyruq bulayanlar özündən kiçiyə qənim kəsilib ondan da eyni əyilməni tələb edir.

Bunlar həqiqətdir. Lakin, əslində, heç kəs şəxsi ləyaqətinin alçaldılmasını istəməz. Bəzən insan özü istəmədən alçalmalı olur, daha doğrusu, onu asılı olduğu alçaq alçaldır. Ləyaqət tapdalananda, ləyaqət meyarı itəndə isə insanlıqdan söhbət gedə bilməz.

Xalq arasında belə bir məsəl var: mərdi qova-qova namərd edərlər. Son vaxtlar bəzi vəzifəli şəxslər ləyaqətli, saf adamların şəxsiyyət və mənliyini tapdalaya-tapdalaya onları hörmətdən salırlar. Rayonda bir nömrəli vəzifəni tutan adam tənqidolunmaz, "səhvsiz", toxunulmaz hesab edilir. O isə yaranmış vəziyyətdən sui-istifadə edir, özünün "bir nömrəliliyini" daha da dərinləşdirir. Bu vaxt aşağı vəzifəlilər arasında bir növ seçilmə gedir: ləyaqətini itirib "bir nömrəliyə" baş əyənlər və mənliyini üstün tutub "bir nömrəliyə" etiraz edənlər. Təbiidir ki, birincilər əyilə-əyilə yaşamaqda davam edirlər. İkincilər isə sıxışdırılır, əziyyət çəkir, gözümçıxdıya salınır. Amma ləyaqətlərini itirmir, öz düzgün yollarından yayınmırlar. Gec-tez isə haqq yerini tapır...

Bəzən isə bütöv bir kollektivin taleyini rəhbər vəzifə tutan bir ləyaqətsiz adama tapşırırlar. O isə vəziyyətdən sui-istifadə edir, özünün və tabeliyində olan adamların mənliyini tapdalayaraq, xalqın, cəmiyyətin sabahını düşünmür.

D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutu bu cür ləyaqətsizliyin və öz mənafeyini güdən bir qrup adamın güdazına getmədimi? Ali məktəbi varlanmaq mənbəyinə çevirən bir qrup ləyaqətsizin ucbatından o boyda institut bağlanmadımı? Niyə? Niyə institutda ləyaqətli, mənliyinə hörmət edən adamlar tapılmadı ki, vaxtında bu təhsil ocağının ləğv olunmasının qarşısını alsın? Əlbəttə, institutda ləyaqətini itirmiş adamlar olduğu kimi təmiz, mənliyinə hörmət edən işçilər, vicdanlı alimlər də az deyildi. Amma, görünür,

birincilər onları üstələmişdi! Bax, bu, bəladır. Bu, faciədir!

Ötən il Ali məhkəmənin səyyar kollegiyası respublikanın rayonlarından birində rəqəmləri şişirdərək, dövlətin külli miqdarda pulunu mənimsəmiş bir qrup adamın cinayət işinə baxırdı. Qəribədir ki, bir rayonda eyni vaxtda bir neçə yerdə (!) məhkəmə iclası gedirdi.

Cinayətkarlar bəd əməllərini ört-basdır etmək üçün saxta əmək haqlarını, saxta "maaşları" adi adamların - kolxozçuların adına yazaraq mənimsəmişdilər. Cinayətin üstü açılarkən təbii ki, o vaxta qədər nə saxta "maaşlar"dan, nə də saxta cədvəllərə qol çəkib pul mənimsəyən adamlardan xəbəri olmayan adi adamlar şahid kimi məhkəmə iclaslarına dəvət olunurdular. Mən o vaxt belə adamların bəzilərinin söhbətini eşitmişdim. Adamlar məhkəməyə getməkdən qəti imtina edirdilər. "Axı, mən niyə milisə, məhkəməyə gedim, - deyirdilər, eşidən-bilən nə deyər". Bu, adi adamın, adi kolxozçunun vəzifəli şəxsin tutduğu bəd əməllərə etirazı idi. Ən başlıcası isə, öz ləyaqətini qoruması idi. Bir tikə çörəyini ömrü boyu halallıqla qazanan kolxozçu ləyaqətini belə qoruyurdu. Etimad göstərilib vəzifəyə irəli çəkilən nankor isə ləyaqətini itirə-itirə alçalmış, müttəhimlər kürsüsündə əyləşmişdi...

Bu əhvalatdan sonra həmin rayonda briqadir olmaq istəyən tapılmırdı. Çünki dünənki briqadirlər bir qrup cinayətkarın toruna düşmüş, bu gün isə cəza alırdı. Sabah da bu vəziyyətin təkrar olunmayacağına isə zəmanət verən yox idi...

Elə həmin rəqəmşişirtmə azarına tutulmuş rayonlardan biri də Bərdədir. Bir neçə il əvvəlin söhbətidir. Respublika Ali Sovetinin sessiyasında deputat kimi çıxış etməliydim. Həmin ərəfədə Bərdədə olmuş, uşaq evinin - yetimlər evinin həyətinin də şumlanıb pambıq əkildiyini öz gözlərimlə görmüşdüm. Şübhəsiz, plan dalınca qaçan rayon rəhbərləri uşaqların oynaması üçün həyət saxlamayanda, o torpağı da şumlayanda nə vicdan əzabı çəkmiş, nə də narahat olmuşdular.

Mən sessiyada çıxış edərkən bu məsələdən danışdım, bu barədə

narahatlığımı bildirdim. Fasilə zamanı kafedə nahar edirdim. Elə bu vaxt həmin məsələyə bilavasitə cavabdeh olan vəzifəli bir adam stola yaxınlaşıb mənə dedi:

- Xahiş edirəm, gedin şairliyinizlə məşğul olun! Haranı əkirik-biçirik, biz bilərik, sizə nə?

"Biz bilərik!" İndi durğunluq illəri dediyimiz dövrün ən böyük bəlası! Yəni, "yuxarılar", vəzifəlilər bilər, "aşağılar", "qara camaat" isə bilməməlidir!

Görürsünüzmü, haqqında danışdığım adam o qədər harınlaşmışdı ki, yetim uşaqların oynamalı olduğu bir parça torpağı da öz vəzifə şöhrətinə qurban verməkdən çəkinmirdi. Hətta əməlindən utanmaq əvəzinə, mənə, mənim dediyim həqiqətə qarşı çıxırdı. Mənim etirazıma "şair işi deyil" - deyirdi. O, heç anlamırdı ki, ümumiyyətlə, "şair işi" nədir, şair nə iş görür. Digər tərəfdən, o, bir adi həqiqəti də anlamırdı ki, mən sessiyada şair kimi çıxış etmirdim, xalq elçisi kimi, deputat kimi danışırdım. Amma təəssüf ki, o da deputat idi, o da xalq elçisi idi. Yeri gələndə, xalqın adından danışa da bilirdi...

Həmin vəzifəli şəxs də sonralar şişirdilmiş rəqəmlərin güdazına getdi, öz ləyaqətsizliyinin qurbanı oldu. Gec deyilmi?

Yeri gəlmişkən, qeyd edim ki, mən bizim seçki sistemində aşkarlıq və demokratiya prinsiplərinin inkişaf etdirilməsi tərəfdarıyam. Yerli sovetlərə ötən seçkilərdə keçirilən eksperiment qaydası ürəyimdən oldu. Bir neçə namizəd irəli sürülsün! Xalq kimi məsləhət bilir, qoy onu seçsin.

Bizdə isə qəribə vəziyyət yaranıb. Filan vəzifəyə deputatlıq düşür. Filan vəzifəyə təyin edildinsə, avtomatik surətdə deputat da seçilirsən. Bu nə deməkdir? Məgər adamı vəzifəmi deputat edir? Axı, bəzən vəzifəyə ləyaqətsiz adam da yol tapır, amma beləsinin deputat olması, xalqın adından danışması faciədir.

Gəlin, bu barədə düşünək. İtirdiklərimizi indiki aşkarlıq və demokratiya dövründə bərpa edək, səhvlərimizi düzəldək. Yoxsa, insanlıq və ləyaqət meyarını bərpa edə bilmərik.

Mərkəzi qəzetlərin birində dəhşətli bir məqalə oxudum: 13 yaşlı Saşa mağazada növbədə olarkən ona xəbər verirlər ki, xəstəxanada yatan anasının halı xarablaşmış və o özünü dərhal anasına yetirməlidir. Uşaq özünü itirir. Aldığı şeylərin pulunu kassaya verərkən 25 qəpiklik kəsmiyin pulunu verməyi unudur. Satıcı onu saxlayır, milisə zəng çalır, uşağı milis idarəsinə aparırlar. Orada uşağı saatlarla saxlayır, akt bağlayırlar. Saşa and içir ki, xəstəxanada anamın halı dəyişdiyindən mən çaşmış, kəsmiyin pulunu ödəməyi unutmuşam. Uşağa inanmır, ona anket doldurtdurur, dilindən iltizam alırlar.

"... Mən 5 nömrəli mağazadan ərzaq alarkən kəsmik üçün 25 qəpik verməyi unutmuşam... Mən söz verirəm ki, gələcəkdə heç zaman, heç yerdə bunu təkrar etməyəcəyəm".

Bu formal yazı-pozudan sonra uşağı buraxırlar. Uşaq anasına baş çəkir, amma əhvalatı ona bildirmir, evə gəlir, riyaziyyatdan sabahkı tapşırığı həll edir, sonra toqqası ilə özünü asır.

Riyaziyyat məsələsini həll edən uşaq, həyat məsələsini həll edə bilmir. Çıxış yolunu ölümdə görür!

Siz uşaqdakı düzgünlüyün dərəcəsinə baxın, ölüm qarşısında sabahkı tapşırığını yerinə yetirir, vicdani borcunu ödəyir. Ölümə gedirkən borcunu yerinə yetirən uşaq oğurluq edərmi?

O, ölümü ilə şəxsi ləyaqətini qoruyub ona vurulan oğru ləkəsini üstündən atdı. Təhqir olunmuş 13 yaşlı uşağın əlindən bundan başqa nə gələ bilərdi?

Bu uşağın səmimiyyətinə inanmayan, 25 qəpik üçün ona oğru damğası vuran mağaza işçilərinin özləri, görəsən, doğrudanmı bu qədər təmizdirlər?

İstintaq göstərir ki, bir neçə gün əvvəl həmən mağazanın düz min manat əskiyi çıxıbmış. Bəlkə, onlar uşağın unutduğu 25 qəpiklə həmin min manat əskiyin üstünü örtmək istəyirmişlər? Camaatın cibini kəsən oğrular 13 yaşlı günahsız uşağı 25 qəpik üçün danlayanda bəs niyə ürəkləri ağrımadı? Axı, oğru hamını oğru bilər. İstintaq

zamanı qəsəbənin milis rəisi nə desə yaxşıdır? "Biz təlimatın hansı bəndini pozmuşuq ki, bizi günahlandırırsınız?".

Yox, yoldaş rəis, sən təlimatı pozmamısan, bəs uşağın həyatını necə? Yalnız təlimatın qulu olan, xəstə anasının dərdindən yaralanan uşaq qəlbinin iniltilərini duymayan sənin kimi daşürəklilər insan ləyaqətinin toxunulmazlığını, müqəddəsliyini hardan bilsin? İnsana hörmət üçün əvvəlcə özün insan olub, insan qəlbinin dərinliklərinə baş vurmağı bacarmalıydın.

Həmin milis rəisi ölümündən sonra uşağın öz əli ilə yazdığı "mən söz verirəm ki, gələcəkdə heç zaman, heç yerdə bunu təkrar etməyəcəyəm" sözlərini oxuduğu zaman "gələcəkdə" sözünün qarşısında bir an da olsa düşündümü? Hanı onun gələcəyi? 25 qəpiyin qurbanı olan bu gələcəyi biz indi kimdən tələb etməliyik? Yox, bu gələcək 25 qəpiyin deyil, insan ləyaqətini anlamamağın, qansızlığın, vicdansızlığın, nəhayət, qanun adına qanunsuzluğun qurbanıdır.

İndi, gəl, başqasının düzgünlüyünə inanmayan, adamlara şübhə ilə baxan, özü oğru olduğundan hamını oğru görən bu adamcığazların qarşısında ləyaqətini qoru, görüm necə qoruyursan?!

Moskvaya getmək üçün təyyarəyə bilet almışdım. Xəstələndiyimə görə bileti qaytarmalı oldum. Aerokassada oğluma deyirlər ki, bilet sahibinin pasportunu gətirməlisən. Pasportu göndərdim. Bu dəfə də deyirlər ki, ya bilet sahibinin özü gəlməlidir, ya da etibarnamə gətirməlisən. Bu, qəsdən adam incitmək deyil, nədir? Yaxud, bu inamsızlıq nədən ötrüdür, görəsən?

Bununla əlaqədar, yeri gəlmişkən, bir məsələyə də toxunmaq istəyirəm. Başqa bir şəhərə uçmaq üçün azı 10-15 gün əvvəlcədən bilet dərdinə qalmalısan. Bu nə üçündür? Şəhərlər arasında gediş-gəliş ehtiyaca görə təşkil olunmamışmı? Görəsən, bu boyda ölkədə təyyarə çatmır, yoxsa benzin? Hamısı çatır, əyri məqsədlər üçün qəsdən işi çətinləşdirirlər. Çünki uçuş günü üçün artıq qiymətə bilet alanları çox görmüşük.

Vəziyyət elə gətirib ki, ən adi şeyləri çox vaxt minnət və xahişlə

əldə edir, bu minnət və xahişlə də özümüzdən asılı olmayaraq, ləyaqətimizi alçaltmağa məcbur oluruq. Müasir rus yazıçısı Ruslan Kireyev yazır: "Ləyaqət! Qorxuram elə bir vaxt gələ ki, izahlı lüğətlərdə bu sözün qabağına "köhnəlib" yazalar".

İməcilik el adətidir. Dədə-babadan görmüşük ki, kəndə bulaq çəkiləndə, ya körpü salınanda, yaxud da imkansız bir adama ev tikiləndə, bir sözlə, fövqəladə bir məsələdə kənd camaatı bir gün, ya beş gün əlbir olub o işi başa çatdırır. İndi rayonun bütün peşə sahibləri - həkim, müəllim, dəllək, aşpaz, şagird, pinəçi, satıcı müntəzəm olaraq iməcilik adına tarlalara tökülür, kolxozçunun işini görürlər. Bu nə deməkdir? Olmazmı, hər kəs öz işini görsün, hər kəs öz vəzifəsini yerinə yetirsin? Plan adına plansızlıq o yerə çatıb ki, bəzi rayonlarda ticarət planı "göstərişlə" doldurulur. Satılmayan mallar məcburi satdırılır. Göstərişə görə, hər idarə öz işçilərinə filan qədər xalçanı almağa məcbur etməlidir. İdarə başçısı ehtiyacı olub-olmadığını soruşmadan hər işçiyə bir, ya iki xalça "satır", pulunu isə maaşdan çıxır. Bu nə üsuldur? Adama da zorla mal satarlar? Bəlkə, göstəriş verən mənim ehtiyacımı məndən yaxşı bilir?!

İnsanın ehtiyacını ondan yaxşı bilib ona zorla mal satanda alanın ləyaqəti tapdanmırmı? İnsana xeyrini, şərini göstərişlə bildirəndə əxlaq və mənəviyyat pozulmurmu? Əxlaq ayaq altına salınan xalça qiymətindədirmi? Bununla nəyi alıb, nəyi satdığımızı dərk edirikmi? Nəticədə uduruq, ya uduzuruq? Gəlin, bunun hesabını çəkək. Gəlin, indi balalarımızı düşünək.

Bakının dənizkənarı bulvarında buruğun üstündə termometr var. Bir dəfə onu nəvəmə göstərmiş, havanın istilik dərəcəsini onunla ölçüldüyünü uşağa başa salmışdım. Bu il yayın isti günlərində uşaq buruğun üstündəki termometrin nə üçün söndüyünü soruşdu. Əlbəttə, mən termometrin nə üçün söndürüldüyünü bilirdim. Bakıda hərarət 40 dərəcəni ötəndə həmişə buruğun üstündəki termometri söndürürlər. Səbəbi hamıya məlumdur: hərarət 40-ı ötəndə şəhərdə iş dayandırılmalıdır. Çox doğru qanundur. Çünki 40 dərəcədən

artıq istilikdə görülən işin bir faydası da olmaz. Bu haqlı qanuna əməl etməmək üçün termometr söndürülür. İndi mən həqiqəti təbliğ edən bir yazıçı, bir vətəndaş və nəhayət, nəvəsini tərbiyə edən bir baba kimi nəvəmə termometrin söndürülmə səbəbini olduğu kimi izah edə bilərəmmi? Əgər düzünü desəm, bu uşaq böyüyüb riyakar olmayacaqmı? Biz indidən ona yalan, oğurluq və əyrilik dərsi öyrətmirikmi?

Gəlin, heç olmasa uşaqlarımızı düşünək. Onların xətrinə insanlıq ləyaqətimizi qoruyaq.

Düz əyilər, qırılmaz. Həyatın fəlsəfəsi belədir. Ömrüm boyu çoxlu əmək adamı ilə, alimlə, ziyalı ilə, incəsənət ustası ilə görüşmüşəm. Onlarla səmimi söhbət etmişəm. Nə yaxşı ki, adamların əksəriyyəti həyatın bu həqiqətini düzgün anlayır. Nə yaxşı ki, çox adam ləyaqət meyarını, ləyaqət ölçüsünü yüksək tutur, ona səcdə edir. Yoxsa, həyat adiləşər, cılızlaşardı. Yoxsa, yaşamaq da mənasını itirərdi...

"Gəlin, açıq danışaq", Bakı, 1989.





# HARAM TİKƏ VƏ YA "AĞ QIZIL"IN QARA LƏKƏSİ

Şifahi xalq ədəbiyyatımızın, xüsusən nağıllarımızın əksəriyyətinin ideya məzmunu halallıq təlqin edir, ədalət qanunlarından, düzgünlükdən söhbət açır. Halal tikənin şirinliyi, xeyrin şər üzərində qələbəsi barədə çox oxumuşuq, çox eşitmişik. Xalq ruhu, xalq ədəbiyyatı bizi belə tərbiyə edib. Bir sözlə, xalq bizi belə öyrədib.

Amma ürək ağrısı ilə qeyd edək ki, son vaxtlar halal-haram meyarı da dolaşdırılır. Birini digərindən ayırd etmək çətinləşir. Bax, bu faciədir!

Nağıllarımızın birində deyilir ki, Loğman yağla şorun qiyməti eyni olan şəhərdən qaçmışdır. Amma vay o gündən ki, şor yağdan baha satıla! Görəsən, Loğman onda neylərdi?

Heç kim övladını əliəyri, oğru görmək istəməz. Bütün valideynlər uşaqlarını düzlük, halallıq ruhunda tərbiyə etməyə çalışır. Lakin övlad üçün, uşaq üçün atanın sözləri yox, əməlləri daha unudulmaz dərs olur. Ata əyri yolla qazandığı pulu evə gətirib halallıqdan nə qədər danışsa da uşaq həyat dərsini atanın əməlindən alır.

Atanın ikiüzlülüyü - sözü ilə əməlinin ikiliyi övlada da sirayət edir. Vicdanı pak uşaq belə ikiləşmə mühitində böyüyübsə onun gələcəkdə təmiz olacağına kim zəmanət verə bilər?

Son vaxtlar kənd təsərrüfatı sahəsində rəqəmləri şişirtməklə dövlətin külli miqdarda pulunu mənimsəyən adamların bəd əməlləri haqqında mətbuat çox yazır. Cinayətkarlar müttəhim kürsüsündə əyləşir. Kimdir onlar? Dünənki kolxoz sədri, sovxoz direktoru, raykom katibi, hətta nazir! Halbuki kolxoz sədri vaxtilə kəndlərimizdə el ağsaqqalı sayılıb. Kolxoz sədri sözükeçən, "qanbarışdıran" ağsaqqal olub. M.İbrahimovun "Böyük dayaq" romanı və bu əsər üzrə çəkilən filmdə kolxoz sədri - el ağsaqqalı Rüstəm kişi nəyin qurbanı olur? Xalqdan ayrı düşdüyü üçün dayağını itirməyin! Bunu faciə hesab edən yazıçı hələ 50-60-cı illərdə belə faktların sabahkı faciəsini göstərmişdir. İndi isə kolxoz sədrinin, idarə və rayon rəhbərinin müttəhimlər kürsüsündə əyləşməsi adi hal alıb. Çünki xalqdan ayrı düşmək, adamlarla oturubdurmamaq, onların dərd-səri ilə maraqlanmamaq özü adiləşib. "Qara volqalar" vəzifə adamını iclasdan-iclasa, kabinetdən-kabinetə güclə çatdırır. Onların xalqla görüşməyə nə vaxtları var, nə də həvəsləri.

Respublika mətbuatında bir rayon partiya komitəsinin, onun birinci katibinin yenidənqurmaya rəhbərlik sahəsində yarıtmaz işi tənqid edilirdi. Birinci katibin kabinetdən çox az-az çıxması, adamları qəbul etməməsi, hətta rayon partiya komitəsinin qapısında xüsusi növbətçi saxlatdırıb, yanına gələnləri geri qaytarması kimi faktları oxuyanda adamı dəhşət bürüyür. Bəs belə adam böyük bir rayona necə rəhbərlik edir? Beləsi nəinki vəzifəyə, heç insanlığa da layiq deyil. Amma nə fayda, o, düz beş il böyük bir rayonun rəhbəri olub! Biz isə indi ayılmışıq ki, ondan rəhbər işçi olmaz.

Pambıq Azərbaycanın ən qiymətli sərvətlərindəndir. Təsadüfi deyil ki, pambığa "ağ qızıl" deyib şəninə nəğmələr qoşmuşuq. İllər boyu fəxr etmişik torpağımızın bu qiymətli sərvəti ilə, onu becərən, min bir əziyyətlə toplayan adamların əməyi ilə.

Amma sonra öyrənmişik ki, bir qrup adam ad-san qazanmaq üçün "qəhrəman" olmaq üçün halallıq qanunlarını pozub. Başqa əkin sahələrini, otlaqları şumlayıb pambıq əkdirib. Bu torpaq sahələrini

uçotdan gizlətməklə hər hektarın "məhsuldarlığını" birə-beş artırıb. Hamısı da plan xətrinə!

Çox tez-tez eşidirik ki, filan briqada, yaxud, filankəs planı "vaxtından əvvəl 150, yaxud 180 faiz yerinə yetirib". Vaxtından əvvəl 150-180 faiz necə mümkün ola bilər? Ya plan əvvəlcədən azaldılır, ya məlumat yalandır. Planı öz vaxtında, həm də 100 faiz ödəmək daha düzgün, daha halal olmazmı? Biz təbiətin övladlarıyıqsa, gəlin, anamız təbiətdən öyrənək, ona bənzəyək, onun qanunlarını pozmayaq. Bu bizə, bizim sabahımıza, bütövlükdə insan nəslinə baha başa gələ bilər. Təbiətdə günəş öz vaxtında doğur, öz vaxtında batır. Ağaclar vaxtında çiçəkləyir, vaxtında meyvə verir. Əgər istilər tez düşüb ağaclar vaxtından əvvəl çiçəkləyirsə (son zamanlar təbiətin belə şıltaqlıqları az olmur), yaz yağışları və dolu çiçəkləri sonradan məhv edir, o il meyvə olmur.

Əgər uşaq doqquz aydan qabaq dünyaya gəlirsə, o da hardasa şikəst olur, zəif olur. Təbiətin qanunları belədir. Elə buna görə də keyfiyyətli məhsul istəyiriksə, gəlin, plan məsələsində bu "vaxtından əvvəl" sözündən, ümumiyyətlə, plan qovhaqovundan əl çəkək. Hər məhsulu öz vaxtında, həm də keyfiyyətlə toplayaq.

Bəzən "vaxtından əvvəl" ifadəsinin qarşısına bir epitet də qoyuruq. "Nəyin bahasına olur-olsun, plan vaxtından əvvəl ödənilməlidir!". Gəlin, bu cümləni xırdalayaq. Necə yəni, nəyin bahasına olur-olsun? Oğurluq, yalan məlumat və ən nəhayət, can bahasına da olur-olsun plan doldurmaq nə dərəcədə düzgündür? Belə tələb nə dərəcədə humanistdir?

Təbiidir ki, şişirdilmiş rəqəmlər, saxta maaş cədvəlləri, saxta imzalar belə "tələbatla əlaqədar yaranır. Uçotdan gizlədilən torpaqlar əkilir, raportlar verilir. Qış düşəndə məlum olur ki, biçənəklər pambığa çevrildiyi üçün mal-qaranın qış yemi yoxdur. Harama öyrənən əllər bu işə də "əncam" çəkməkdə çətinliyə düşmürlər. Yenə də saxtakarlıq baş alıb gedir.

5-6 adamın topladığı məhsulun bir nəfərin adına yazılması

faktını unutmuşuqmu? Nəticədə, 5-6 nəfərin hesabına şöhrətlənən adam utanmadan əmək "pəhləvanlığını" öz qanuni haqqı hesab edir. Haqqını yediyi adamların gözünün içinə baxmaqdan da çəkinmirdi. Təsəvvürə gətirmək olmur ki, insan nə qədər alçalmalı, həya, abır və vicdanını nə qədər itirməlidir ki, çiyinləri üstündə ucaldığı adamları özündən aşağı hesab edib onlara yuxarıdan aşağı baxsın. Başqasının təpiyi altında çiyinləri əzilən, haqqı tapdanan, zəhməti itən bu adamlarda həqiqətə və düzgünlüyə inamı öldürməklə nə boyda cinayətə yol verdiyimizi düşündükmü? İndi biz nə qədər çalışmalıyıq ki, o adamlarda ədalətə olan inamı qaytaraq.

Vəzifə atına minəndən sonra şair və yazıçı olub, cızmaqaralarını çap etdirənlər də tanıyırıq. Ən dəhşətlisi odur ki, bu sayıqlamalar müəyyən məqsədə çatmaq üçün tanınmış peşəkar yazıçıların, tənqidçilərin məqalələrində də təqdir olunmuş, əsl yazıçılara nümunə göstərilmişdir. Belə olanda ədalət meyarı, düzlük qanunu harada qalır?

Ötən il "Trud" qəzeti respublika pambıqçılıq sənayesi naziri F.Salmanovun məhkəmə işindən hesabat dərc etmişdi. Qəribədir ki, yazının adı "Qara pambıq" qoyulmuşdu. Əlbəttə, nə bu sərlövhə, nə də, ümumiyyətlə, pambıq sahəsindəki əliəyriliklər pambığın "ağ qızıl"lığına şübhə oyatmır, onun dəyərini azaltmır. Pambıq milli sərvətimiz olaraq qalır. Söhbət əliəyriliklə yığılan, pambıqtəmizləmə zavodu-fabrik-mağaza-alıcı konveyerini kağız üzərində "keçən" pambıqdan gedir. Söhbət o pambıqdan gedir ki, həqiqətdə olmaya-olmaya çoxlarının var-dövlət mənbəyinə çevrilmiş, axırda isə əlaqəsi olan əliəyrilərin üzünü qara etmişdir. "Ağ qızıl" bir qrup adam üçün "qara ləkəyə" çevrilmişdir.

"Vəzifə borcu" deyilən yüksək bir anlayış var. Bu anlayış vicdanla, ləyaqətlə, düzlüklə bilavasitə əlaqədardır. Vəzifəli adamda şəxsi mənafe, şəxsi maraq ön sıraya keçirsə, onda "vəzifə borcu" deyilən anlayış adiləşir, - tutulan vəzifə isə dolanmaq, hətta varlanmaq vasitəsinə çevrilir...

Rayonlarımızdan birində heyvandarlıq məsələlərinə həsr olunmuş müşavirədə deyilmiş daha bir fakt da saxta uçot "təcrübəsinə" misal ola bilər. Məlumdur ki, qoyunların döl vaxtı qış-yaz aylarına təsadüf edir. Quzu, adətən, yanvarda və sonrakı ilk aylarda doğulur. Amma döl faraş olanda dekabr ayında, hətta bir az da əvvəl doğuş ola bilər. Bu da təbii prosesdir və onu tezləşdirmək və ya ləngitmək mümkün iş deyil. Həmin müşavirədə isə məlum oldu ki, kolxoz və sovxozlarda noyabr-dekabr aylarında doğulan quzular uçota alınmır. Yeni il, yanvarın biri gözlənilir. Çünki əvvəl uçota alınan quzular köhnə ilə sayılır. Nəticədə, yeni ildə yüz qoyundan yüz əlli bala "almaq" planı çətinləşir. Bu məqsədlə iki ay, bəlkə də, daha çox vaxt keçir, quzular uçotsuz, nəzarətsiz böyüyürlər. Rayonun heyvandarlıq mütəxəssisləri isə bu quzuların dünyaya gəlməsini "görmür", yanvarın birindən "işə başlayırlar". "Yuxarıdan" hesabat gözləyən mütəxəssislər də prinsiplə razılaşır, nəticədə nəzarətsiz quzuların da uçotu saxtakarlıq "pilləsindən" keçir.

İndi mətbuatımız həyatımızın müxtəlif sahələrində aşkar edilmiş mənfi hallardan, ayrı-ayrı saxtakarlıq faktlarından tez-tez söhbət açır. Adamlar hətta illər boyu "qapalı" sayılan mövzularda belə ciddi yazılar oxuyur, cəmiyyətdəki mənfi halların kökünü kəsmək yolları ilə maraqlanırlar. Təbii ki, bütün bunlara görə ölkədə gedən yenidənqurma və aşkarlıq siyasətinə, cəmiyyətin daha da demokratikləşdirilməsi prinsipinə borcluyuq.

Mətbuatda mənfi halların ölkəyə vurduğu iqtisadi zərərdən də danışılır. Bəs belə halların vurduğu mənəvi və sosial zərəri kim hesablayacaq? Adamlara əvvəlki inamı, əvvəlki əqidəni kim qaytaracaq?

Yuxarıda pambıq sahəsində rəqəmlərin şişirdilməsindən söhbət açdıq. Axı, vaxtilə respublikamız dəfələrlə Ümumittifaq "sosializm yarışı"nda qalib gələrək, keçici bayraqlar almış, biz də "qələbələrin" şəninə nəğmələr qoşmuşuq. Bu rəqəmlərə aludə olaraq, hər şeyi unutmuşuq. "Bir milyon ton Azərbaycan pambığı hazırdır!" - deyə

ölkəyə səs salmışıq. İndi məlum olur ki, bu rəqəm yalan imiş.

Belə saxtakarlıq dövrünün yetirməsi olan gənc oğlan və qıza biz halallıq dərsini indi necə keçək? Axı, onlar çox vaxt haramı halaldan ayıra bilmirlər. Misal üçün, nümunə üçün uzağa da getmirlər: qonşudakı "skladçı Həmidi", "dükançı Rzanı", nə bilim daha kimi göstərirlər. Çünki əliəyrilik hələ də davam edir. Çünki dövlət əmlakını oğurlayanların, saxta maaşlara qol çəkənlərin hələ heç də hamısı cəzasını almayıb. Onlar hələ də bizim səxavətimizdən sui-istifadə edir, hələ də mənfi toxumlar səpməkdə davam edirlər.

Belə halların yeniyetmələrin mənəviyyatına vurduğu zərbə isə heç bir ölçüyə gəlmir. Nəticədə, biz ataların, valideynlərin düzlüyə çağırışı, vicdanlı olmağa dəvəti havadan asılı qalır. Onda nağıllarımızın halallıq prinsipi də, ədalətə çağırışı da köməyə gəlmir.

Son vaxtlar həyata keçirilən bir sıra konkret tədbirlər mənfi halların kökünü kəsməyə yönəldilib. Bizim hər birimiz bu tədbirlərin müşahidəçisi yox, iştirakçısı olsaq, hər birimiz çalışdığımız sahədə düzlük, halallıq toxumu səpə bilsək, bu tədbirlər də kağız üzərində qalmaz. Uşaq da, böyük də dərin məna tutumu olan bir el məsəlini qulağında sırğa edər.

Haram tikə diş qırar!

"Gəlin, açıq danışaq", Bakı 1989.





## YENİYETMƏ VƏ ZAMAN BARƏDƏ DÜŞÜNCƏLƏR

İnsanlığın birinci şərti, başlıca sifəti onun vətəndaşlığıdır. Vətənini, xalqını sevməyən başqa xalqı və başqa ölkəni də sevə bilməz. Mənim möhkəm əqidəmə görə, bütün dünyanın dəyərli adamı olmaq üçün ilk növbədə öz Vətəninin vətəndaşı olmalısan.

Sənətindən asılı olmayaraq, hər kəs öz sahəsində Vətənə övladlıq borcunu verməli, Vətənin qüdrəti üçün səyini əsirgəməməlidir. Böyüyən nəsil də bu ruhda tərbiyə edilməlidir. Gənc oğlan və qızlar dünyanı vətəndaş gözü ilə görməyi, vətəndaşlıq düşüncələri və hissləri, vətəndaşlıq həyəcanı və narahatlıqları ilə yaşamağı bacarmalıdırlar. Biz yazıçılar, müəllim və valideynlər, bütün ictimaiyyət ümumi qüvvə ilə ona nail olmalıyıq ki, gənc nəsil qabaqcıl ideallara, insanpərvərliyə, atababalarımızın vətən pərvərlik ənənələrinə hədsiz sədaqət ruhunda böyüsün. Şair və yazıçının kitabı, müəllimin canlı sözü uşaq və yeniyetmələrin qəlbində yüksək vətənpərvərlik hissləri oyatmağa yönəlməlidir. Gənclərimiz dərk etməlidirlər ki, onlar hər şeydən əvvəl, vətən daşdırlar, öz Vətəninin övladlarıdırlar: Vətənin şərəfi hər kəsin şəxsi şərəfidir, insanın ən ulu, müqəddəs borcu Vətən borcudur.

Biz, sadəcə, vətəndaş yox, fəal vətəndaş tərbiyə etməkdən danışırıq, elə vətəndaş ki, xeyri, ədaləti, həqiqəti, şərəfi qızğın müdafiə etsin, şərə, laqeydliyə, ikiüzlülüyə, şərəfsizliyə, ideya düşmənlərimizə qarşı barışmaz olsun.

Bu da bir həqiqətdir ki, əsl insanı, vətəndaşı səciyyələndirən başlıca cəhət onun məsləki, inamıdır. Bunsuz dolğun mənalı həyat, həqiqi əmək, Vətənə və xalqa namusla xidmət etmək mümkün deyildir. Mən bu düşüncələri "Leninlə söhbət" poemamda ifadə etməyə çalışmışam. Şeirin dili yığcam və aydın olduğu üçün oxuculara fikrimi bu dillə də çatdırmaq istərdim:

Məslək!, Amal!
Əsl insanın yol yoldaşı!
Ömür üzük,
Məslək isə üzük qaşı.
Hər üzüyün qaşındadır öz
dəyəri...
Məslək varsa -
O bilir ki, yaşamağın mənası nə,
Məslək yoxsa -
O bir yükdür həm dünyaya,
həm özünə...

Bu misraları davam etdirmək də olar. Lakin ümumiləşdirsək, deyə bilərik ki, insan inamı, əqidəsi ilə qiymətləndirilir. İnam, əqidə, məslək həm də şəxsiyyətin vətəndaşlıq yetkinliyinin mühüm göstəricisidir: məsləkli adam qorxmaz və cürətlidir, fədakar və işgüzardır; məsləksiz isə, əksinə, qorxaq və yaltaqdır, söyüd ağacı kimi tez-tez o tərəf-bu tərəfə əyilir, belə adamın öz əqidəsi, öz sözü yoxdur, sevgisi də, nifrəti də bəlli olmur, öz varlığını bir "sağ ol"a satmağa, yeri gələndə duman kimi əyilməyə, insanlıq şərəfini

mədəsinə yedirməyə hazırdır. Belələrinə yüksək vətəndaşlıq duyğuları və əməlləri yaddır, bir sözlə, insani hisslər yaddır. İnsan inam deməkdir, o, inamın övladıdır.

İnsan inamla yaşayır, inamla da gələcəyə addımlayır. Ədalətə və həqiqətə inam cəmiyyətimizin hər bir üzvü üçün, o cümlədən böyüyən nəsil üçün də yol göstərən bir mayakdır, həyat kompasıdır. İnam, əqidə tərbiyəsi yetkin şəxsiyyətin formalaşdırılmasının əsasını təşkil edir. Əqidəsi cilalanmamış, möhkəmlənməmiş gənc əsl şəxsiyyət vətəndaş ola bilməz. Əqidə, inam insan həyatına rəhbərlik edir, ona yön verir. İnsanın ideyasiyasi və əxlaqi ideyalara möhkəm inanması, əqidə bağlaması onun həmin istiqamət də düzgün hərəkət etməsinə, çətin anlarda özünü itirməməsinə, mərd və mübariz olmasına kömək göstərir. İdeya həyatı, yüksək mənəvi həyat insan fəaliyyətinin daxili enerjisini təşkil edir. Bəzi adamlarda, o cümlədən yeniyetmə və gənclərdə müşahidə olunan əxlaqımıza zidd hərəkətlərin köklərini məhz burada zəngin - ideya həyatının olmamasında, hər şeyə laqeydlikdə, arzu və amalların bəsitliyində, eqoist hisslərlə yaşamaqda ancaq özü üçün, öz şəxsi tələbatlarını ödəmək üçün yaşamaq meylində axtarmaq lazımdır. Əgər hələ həyata baxışı, əqidəsi, mənəvi idealları möhkəmlənməmiş tək-tək yeniyetmə və gənclər həyata şəxsi meyllər gözlüyü ilə baxarsa, yemək-içmək, dəbdəbəli həyat sürmək onların həyat idealına çevrilərsə, bu, tərbiyənin əsl fəlakəti olardı. Məktəb, ailə, ədəbiyyat və incəsənət, bütün ictimaiyyət gəncləri yüksək ideallarla, bəşəri hisslərlə, vətəndaşlıq duyğuları ilə yaşamağa hazırlamalıdır. İdeya! Mənəvi tərbiyənin əsas vəzifəsini mən bunda görürəm.

Hazırda, coşğun elmi-texniki tərəqqi dövründə bu vəzifənin əhəmiyyəti azalmır, əksinə, qat-qat artır. Deyirlər ki, XXI əsr robotlar əsri olacaq. Mən buna inanıram. Ancaq, bu da məlumdur ki, indidən istehsal prosesi getdikcə daha çox avtomatlaşır, robotlaşır. Bu iş intensiv şəkildə davam edir. Lakin texnika nə qədər inkişaf

etsə də onu yaradan, idarə edən insandır. Ən mükəmməl texnika belə hazırlıqsız adamın əlində lazımi səmərə verə bilməz, tez sıradan çıxar. Odur ki, istehsal prosesində, ümumiyyətlə, cəmiyyət həyatında insan amili mühüm rol oynayır. Bu sahədə ədəbiyyatın rolu böyükdür. Ədəbiyyat qüdrətli tərbiyə vasitəsidir; o, insanın dünyagörüşünün, həyat ideallarının, mənəvi aləminin formalaşdırılmasında, bir vətəndaş kimi yetiş məsində geniş imkanlara malikdir. Təsadüfi deyil ki, ədəbiyyatı "həyat dərsliyi", "insanşünaslıq elmi" adlandırırlar. Müəllim də tərbiyə edir, yazıçı da. Lakin onların hər biri özünəməxsus vasitələrdən istifadə edir: müəllimin sözü bilavasitə uşaq şüuruna təsir edirsə, bədii ədəbiyyat öz canlı obrazları ilə daha çox qəlbə nüfuz edir, onun vasitəsilə isə şüura təsir göstərir. Ətraf aləmi, siyasi və mənəvi ideyaları ağılla və ürəklə dərk etmək isə tərbiyə işində çox mühüm şərtdir, hiss və ağıl birləşəndə ideyalar daha yaxşı dərk olunur, daha tez inama və əqidəyə çevrilir. Odur ki, həm müəllim, həm də yazıçı insanın qəlbinə və ağlına qida verməlidir; onu düşündürməyi, həm də həyəcanlandırmağı bacarmalıdır. Əlbəttə, burada söhbət bəsit hisslərdən yox, ümdə, ən güclü hisslərdən - vətəndaşlıq qüruru, sevinci, məsuliyyəti, vətəndaşlıq borcu, ləyaqəti, şərəf və vüqar hisslərindən gedir. Yüksək əxlaqi və siyasi ideyaları şüura çatdırmaq insanı vətən daşlıq həyatı aləminə daxil etmək deməkdir. Belə vacib hisslərlə, ideallarla tərbiyə edilənlər elmi-texniki tərəqqinin tələblərini daha yaxşı yerinə yetirər, cəmiyyətə daha çox fayda verər, özləri də xoşbəxt olarlar.

Böyük tərbiyəvi əhəmiyyətə malik olan yüksək ideyalı bədii əsərlər yaratmaq üçün sənətkarın özünün vətəndaşlıq mövqeyi, xalqla bağlılığı, öz xalqının tarixindən, ənənələrindən qidalanması az rol oynamır. Sənətkar nə qədər öz xalqının tarixinə, ruhuna kök atarsa, bir o qədər ucalar. Təbiətin qanunu da belədir: kökü torpağın dərin qatlarına gedən ağac daha çox boy atır. Puşkin, Sabir, Ü.Hacıbəyli, S.Vurğun belə ucalmayıbmı? Dahi Puşkin öz dayəsinin tərbiyəsindən,

onun danışdığı rus xalq nağıllarından yetişmişdir. Amma vaxtilə Rusiya ailələrində və məktəblərin də tərbiyəçilik edən on minlərlə fransız və alman dayəsi Rusiyada bir Puşkin yetişdirə bilmədi.

Müasirlərimizdən dünyaca tanınmış qırğız yazıçısı Çingiz Aytmatovu götürək. O da əsl xalq qaynağından çıxmışdır: körpəliyi xalq içərisində, çobanlar arasında keçmişdir. Manasdan tərbiyə almışdır. Təpədən dırnağadək qırğızdır. O, dünya şöhrəti qazanmış əsərlərində də xalq ruhunu, xalq psixologiyasını və ənənələrini əks etdirir.

Lui Paster deyir ki, elmin vətəni yoxdur, amma alimin vətəni var. Alim bilməlidir ki, hansı xalqa, ölkəyə qulluq edir və niyə qulluq edir. Bu sözləri eyni ilə sənətkarlara da, yazıçı və şairlərə də, müəllimlərə də şamil etmək mümkündür: vətəndaş olmayan şəxs nə əsl mənada yazıçı, nə də müəllim ola bilər. Bu, hiss isə uşaqlıqdan tərbiyə olunmalıdır.

Məlumdur ki, bugünkü məktəblilər gələn əsrin əməkçiləri olacaqlar, əsrin əzəmətli vəzifələrini onlar yerinə yetirəcəklər. Gənc nəslin həyata və əməyə hazırlanması, hərtərəfli və ahəngdar inkişafı, özlərinə şüurlu surətdə peşə seçmələri indi həmişəkindən daha çox aktuallıq kəsb edir.

Mən Azərbaycan SSR Ali Sovetinin deputatı kimi gənclərin tərbiyəsi üzrə daimi deputat komissiyasının üzvüyəm. Odur ki, bu məsələ elə mənim xalq elçisi kimi birbaşa vəzifəmə daxildir. Gəncliyin bir xüsusiyyəti də ondan ibarətdir ki, onlar həmişə təsirdə olurlar, daha doğrusu, gənclik özünü həmişə kiməsə oxşatmağa çalışır. Biz ədəbiyyata gəldiyimiz zaman özümüzü Səməd Vurğuna oxşatmağa çalışırdıq. Tək ədəbiyyatda yox, həyatda da ondan öyrənirdik, hətta hərəkətlərini də təqlid edirdik. Orta məktəbdə oxuduğum illərdə müəllimim İbrahim Cəfəri təqlid edirdim. Onun danışıq tərzi, ədəbiyyata olan böyük məhəbbəti, çılğınlığı bizi maqnit kimi özünə çəkirdi.

Bu misalları ona görə çəkirəm ki, gənclik dövrümüzdə bizim təqlid

etdiyimiz belə adamlar var idi. Vay o gəncliyin halına ki, onun təqlid edəcəyi adamlar olmasın! Buna görə də gəncliyi ləyaqətli görmək istəyiriksə, gərək biz özümüz ləyaqətli olaq. Burada K.Marksın bir sözü yadıma düşür: “Tərbiyə edənin özü tərbiyə olunmalıdır”. Əgər evdə ata-ana, məktəbdə müəllim, ictimai yerlərdə ağsaqqallar özlərini təqlidə layiq apara bilməsə, ağılda, davranışda, əməyə münasibətdə, ideya-mənəvi baxışlarında yüksək səviyyədə durmasa, bizim gənclikdən ləyaqət ummağımız yersizdir. Tərbiyəsizdən nə tərbiyə gözləmək olar! Ona görə də mən tərbiyə məsələsində, birinci növbədə, böyüklərin ləyaqətli olmasını vacib hesab edirəm.

Gənc nəslin həyata və əməyə daha yaxşı hazırlanması məsələsinə gəlincə, qeyd etmək lazımdır ki, bu məsələ təkcə məktəbi və ailəni yox, hamını ciddi düşündürür. Ölkəmizdə həyata keçirilən məktəb islahatının da başlıca ideyası məhz uşaq və yeniyetmələrin əmək tərbiyəsini və peşə hazırlığını kökündən yaxşılaşdırmaqdan ibarətdir. Lakin bu islahat da hələ elə bir səmərə vermir. Çünki bu islahatın özündə də qüsurlar az deyil.

Gizli deyildir ki, məktəbi bitirən oğlan və qızların bir qismi özlərinə əmək sahəsi, həyat yolu seçməkdə səhvlərə yol verir. Bəzən təsadüfi peşə seçmək halları, gənclərin maraq və qabiliyyətinə zidd olaraq kortəbii şəkildə ali məktəblərə axını müşahidə olunur. Peşə seçmək işində belə təsadüflər, səhvlər həm gənclər üçün, həm də cəmiyyət üçün zərərlidir. Gənclərimizdə sadə peşələrə maraq oyatmaq, onlara öz meyl və qabiliyyətlərini, habelə cəmiyyətin tələbatını nəzərə almaqla şüurlu həyat yolu seçməkdə kömək göstərmək lazımdır. Əlbəttə, bu mühüm məsələni təkcə təbiətin üzərinə atmaq olmaz. Bu işdə baza müəssisələrinin əmək kollektivləri, ictimaiyyət, elm, mədəniyyət və yaradıcılıq təşkilatları yaxından iştirak etməlidir: Gənclərin nəzərində sadə peşələrin nüfuzunu yüksəltməkdə yazıçı və şairlərimiz çox iş görə bilər. Cəmiyyətimizdə sadə peşələrin rolu, əməyin və əmək adamlarının əzəməti məktəbin tərbiyə işində də,

bədii əsərlərdə də özünə layiqli yer tutmalıdır. Mən vaxtilə "Sadə adamlar" poemamda bu məsələdən bəhs etmişəm:

Yoxdur vəzifənin, işin, sənətin
Böyüyü-kiçiyi zəmanəmizdə.

Həqiqətdə də, çoban olub ən ali mərtəbəyə yüksəlmək mümkündür. Alim adını alıb rəzil kökə düşmək də olar. Hər şey peşənin düzgün seçilməsindən, insanın əməyə münasibətindən, zəhmətsevərliyindən asılıdır. Pis həkim olmaqdansa bacarıqlı fəhlə olmaq min dəfə yaxşıdır. Halal əməyi ilə yaşayıbyaradan zəhmət adamlarımız öz fənnini bilməyən savadsız müəllimdən və savadsız alimdən qatqat üstündür.

Gənclərlə peşəyönümü işini elmi əsasda və ciddi sistemdə qurmaq lazımdır. Gəncləri həyata, əməyə həm zehni və fiziki cəhətdən, həm də mənəvi-psixoloji cəhətdən hazırlamaq vacibdir.

Məktəbi bitirən hər bir gənc bilməlidir ki, o, hansı əmək üçün yarar

lıdır, hansı sahədə Vətənə, xalqa daha yaxşı xidmət edə bilər və daha çox fayda verə bilər.

Məktəbdə bütün təlim-tərbiyə işi şəxsiyyətin hərtərəfli və ahəngdar inkişafını təmin etməyə, hər bir gəncə öz qüvvə və qabiliyyətinə uyğun peşə tapmaqda kömək göstərməyə, əməyin vətəndaşlıq başlanğıcını dərk etdirməyə yönəldilməlidir. Burada müəllimin hazırlığından, onun şəxsiyyətindən çox şey asılıdır.

Müəllim, ilk növbədə, mənəvi təmizlik timsalı olmalıdır. Məktəbin əsas vəzifəsi tərbiyə vəzifəsidir. Deməli, müəllim, hər şeydən əvvəl, tərbiyəçidir, o, yetirmələrinin ağlını, qəlbini, xarakterini, dünyagörüşünü tərbiyə etməlidir, ləyaqətli vətəndaşlar yetirməlidir. Bunun üçün müəllimin böyük vətəndaş ürəyi olmalıdır. Vətəni, onun tarixini, mədəniyyətini, dilini, ədəbiyyatını bilməyən,

sevməyən, daha doğrusu, özü birinci növbədə vətəndaş olmayan müəllim necə əsl vətəndaşlar yetişdirə bilər?! Hər bir müəllim, tədris etdiyi fəndən asılı olmayaraq, uşaq və yeniyetmələri Vətənə namuslu xidmət etməyə hazırlamalıdır. Hər şey buradan başlayır. Elm, bilik sonrakı məsələdir. Mən inanmıram ki, bir adam yaxşı vətəndaş ola, amma eyni zamanda savadsız ola; vətən sevgisi mütləq onun öz biliyini artırmağa gətirib çıxaracaqdır.

Mən bununla müəllimin öyrətmə vəzifəsini məhdudlaşdırmaq istəmirəm. Biliksiz müəllim işıqsız çıraq, quruyan bulaq kimidir. Savadsız müəllim olmaq ən böyük cinayətdir; o, neçə-neçə uşaq nəslini şikəst edə bilər, cəmiyyətə nə qədər "zay məhsul" verər. Odur ki, müəllim kadrlarının hazırlanmasına çox böyük diqqət və məsuliyyətlə yanaşmaq lazım gəlir.

Müəllim üçün vacib keyfiyyətlərdən biri öz sənətinə, fənninə və uşaqlara məhəbbətin olmasıdır. Belə məhəbbətdən məhrum olan şəxslərdən (onlar nə qədər hazırlıqlı olsalar da!) yaxşı müəllim çıxmaz. Əsl müəllim öz fənninin vurğunu olmalı, bu sevgini, vurğunluğu yetirmələrinə də aşılamağı bacarmalıdır. Yaxşı deyiblər ki, özü alışmayan başqasını da yandıra bilməz.

Məktəbdə oxuduğum illəri xatırlayıram. Ədəbiyyat müəllimimiz İbrahim Cəfər ədəbi simalardan, bədii əsərlərdən hissiz, həyəcansız danışa bilməzdi. Heç yadımdan çıxmaz. Bir dəfə dərsimiz Məhəmməd Hadidən idi. Müəllim ürək ağrısı ilə onun həyatından epizodlar danışırdı. Deyirdi ki, böyük şair küçələrdə dolanıb şeirlərini satırmış. Ölüb, lakin indi də məzarını tapa bilmirik. (Sonralar Məhəmməd Hadinin məzarı tapılmışdır: şair Gəncədə dəfn edilmişdir - B V.). Bunu deyib üzünü kənara çevirdi. Gördük, çiyinləri atılır. Bildik ki, müəllim ağlayır. Çox çəkmədi ki, o, dərsin ortasında sinfi tərk etdi. Mən də onun dalınca çıxdım. Gördüm, pəncərədən baxıb, gözünün yaşını silir. Mən müəllimə yaxınlaşıb ağlamasının səbəbini soruşdum. O mənə baxmadan dedi: "Get burdan. Sən nə anlayırsan

ki, sənə nə deyim?". Məndə bir şübhə yarandı: görəsən, Hadidə nə hikmət var ki, müəllim mənə demədi. Gecə-gündüz Hadini mütaliə etməyə başladım. Həmin anlarda müəllimim mənim ürəyimdə Hadi toxumu, vətəndaşlıq toxumu səpdi...

Bax, əsl müəllim, vətəndaşmüəllim belə olar; özü yanayana yandırar. Onda tədrisin də, tərbiyənin də rolu birəbeş artır. Belələrinə isə vətəndaş tərbiyə etməyi canla-başla tapşırmaq olar.

"Gəlin, açıq danışaq", Bakı 1989





# VİCDAN, NAMUS VƏ LƏYAQƏT

Bu məqalədə insanı insan edən daxili dünyamızdan və mənəvi tələblərimizdən söhbət açmaq istəyirəm. Çünki bu tələblər və ehtiyaclar insanı başqa canlılardan ayıran ən birinci amildir. Biz uzun illər yalnız maddi ehtiyaclarımızı ödəmək haqqında fikirləşmiş - bütün dünya üçün adi olan bir cüt ayaqqabı, yaxud adi yaşayış üçün vacib olan qida maddələri tapmaq, balalarımızı ərsəyə çatdırmaq arzusu ilə yaşamışıq, mənəvi ehtiyaclar barədə düşünməyə isə nə vaxtımız olub, nə də tələbimiz. Dəhşətə baxın! İnsanlarda mənəvi zənginliyə tələbin olmaması insan cəmiyyətinin yoxsullaşması deyilmi? Cəmiyyət üçün bundan da böyük kəsir olarmı?

Bəs biz bu acınacaqlı həqiqətə necə gəlib çıxdıq? Uzun əsrlər boyu mənəviyyatımızı yetişdirən Nizamilərin, Füzulilərin, Üzeyir bəylərin övladları olan bugünkü nəslin mənəvi cəhətdən bu cür yoxsullaşmasını necə qəbul edək? Zəngin yeraltı sərvətlərə, münbit torpaqlara - qızıldan tutmuş mineral sulara malik olan, ehtiyacından dəfələrlə artıq pambıq, tərəvəz, bostan bitkiləri və taxıl yetişdirən, dünyanın on iki iqlimindən doqquzuna sahib olan bu xalq, niyə maddi ehtiyac içərisində yaşamalıdır ki, onun mənəvi dünyası ilə məşğul olmağa vaxtı və arzusu olmasın? Dünyanın ən gözəl dillərindən biri-

ni yaradan, son dərəcə zəngin folklora və musiqiyə malik olan xalqın son illərdə öz mənəvi dünyasına - dilinə, ədəbiyyatına və musiqisinə biganəliyini nə ilə izah edək? Bu gün bu müdhiş sualların cavabını kim verə bilər?

Uzun illər bizim mətbuatımız, radio və televiziyamız bu barədə

söhbət açmağı lazım bilməmiş, bizi anamız təbiətlə mübarizəyə çağırmış və nəticədə biz insanlığımıza qarşı durmağa məcbur edilmişik. Bu gün təəssüflə deməliyəm ki, başqasının ağrıacısını hiss etmək, köməksizə əl uzatmaq, yardım göstərmək kimi insani hisslərə biganə olmuş, dədəbabamızdan miras qalan şəfqət duyğusunu korşaltmışıq. Bunun da nəticəsində hər kəs öz haqqını ön plana çəkmiş, cəmiyyət və insanlıq qarşısındakı borcunu unutmuş, "mənəmlik" və xudbinlik insanın əsas keyfiyyətinə çevrilmişdir. Elə bir məqama gəlib çatmışıq ki, adamlar yalnız öz haqqını tələb edir, özündən başqasını görmək istəmir. Özünü birinci görmək və bunu başqalarına da təsdiq etdirmək arzusu insanlığımızı əlimizdən almış, bizi mənən yoxsullaşdırmışdır. Mən bir neçə il əvvəl bu barədə "Hansı medal düşür" adlı bir şeir yazmışdım.

Dənizdə, havada min yarış gedir,
Dərinə, zirvəyə axtarış gedir.
Dağın zirvəsinə yol açan kəsə,
Uzaq məsafəyə tez qaçan kəsə,
Buz üstə süzənə,
İpdə gəzənə,
Dərinə üzənə medal paylanır.
Bu, onu haqlayır,
O, bunu danır.

Birinin qəsdini pozur, rədd edir
Başqa birisinin gücü, qüvvəti.
Birinin fərəhli qələbəsidir

Birinin kədərli məğlubiyyəti.
Hamı başqasını ötmək istəyir,
Hamı “mənəm” - deyir, hamı “mən” - deyir.
Bilmirik, başqası nə deyir bizə...
Tək öz arzumuza, öz hissimizə
Biz boyun əyirik, bəzən qul təki...
Amma düşünmürük,
öz içindəki
“Mənəmlik” hissini öldürən kəsə,
Hər kəsin yerini düz görən kəsə,
Özgəni özünə görk edənlərə,
Özgənin haqqını dərk edənlərə
Hansı medal düşür, hansı xal düşür?
Burda da araya qeylü-qal düşür.

Mən bu şeiri yenidənqurma siyasətinə keçid ərəfəsində, yəni 1984cü ildə yazmışdım. İndi ortaya atılan yeni təfəkkür tərzi məhz bunu tələb edir. Yeni təfəkkür tərzi bütün dünyada insanlığın qarşısında yeni üfüqlər açdı. Birbirinə qarşı duran iki system uzun illər silahlanma yarışı keçirdi. Bu gün zaman göstərir ki, qarşıdurma siyasəti bizə çox baha başa gəldi. Yenidənqurmadan doğan yeni təfəkkür, bizi silahlanma yarışından çəkindirdi. Dünyada əminamanlıq başlandı. Bu mənada kosmosda aparılan yarışlar da yarışlıqdan çıxarılmalı, bəşəriyyətin mənafeyi zəminində birgə tədqiqat aparılmalı, deşilmiş azon qatından törəyəcək fəlakətlər nəzərə alınmalıdır.

Bu yeni təfəkkür tərzi nədən doğdu? Düşünən adamlar gördü ki, kəşf olunan atom və hidrogen silahları yalnız bir xalqın və bir məmləkətin deyil, bütün dünyanın fəlakətinə səbəb ola bilər! Onu da deyim ki, hələ atom, hidrogen silahlarının kəşfindən çoxçox əvvəllər, keçən əsrlərdə Didro, Russo kimi dahilər elmlərin bəşəriyyəti dəhşətli fəlakətlərə çatdıracağını xəbər vermişdilər.

Dövlətlər miqyasında qarşıdurma siyasətinə qələm çəkilən bir

zamanda ayrıayrı fərdlərin "mənəmlik" yarışına da yenidən baxılmalı, hər şey ümuminsanlığın mənafeyi zəminində ədalətin, həqiqətin təntənəsinə yönəldilməlidir. Bu gün mən belə hesab edirəm ki, "Hansı medal düşür" şeirimdə dediyim kimi, fərdlərin "mənəmlik" yarışı başqa şəkil almalı, öz "mən"ini ön plana deyil, arxa plana çəkmək, başqasının da üstünlüyünü görə bilmək uğrunda yarış başlanmalıdır. Biz yalnız bu yolla ruhumuzu və mənəviyyatımızı xudbinlik xəstəliyindən xilas edər, cəmiyyətimizi saflaşdıra bilərik. Nə qədər ki, özümüzün vurğunuyuq, başqalarının da haqqını və üstünlüyünü görə bilmirik, cəmiyyətin xəstəliyi davam edəcək və biz də həmişə öz mənliyimizin əsiri olaraq qalacayıq. Tək bir fərdin xudbinliyi bu qədər dəhşətli ikən bu ayaqdan bütöv bir millətin eyni xəstəliyə tutulması görün cəmiyyəti hansı fəlakətlərə apara bilər. Vaxtilə Hitler öz xalqına milli eqoizm xəstəliyini aşılamaqla onu fəlakətə sürükləmədimi? Tarixdə belə faktlar çoxdur... Şükür, çox şükür ki, bizim xalqımız bu qorxulu milli eqoizm xəstəliyindən çox uzaqdır. Biz həmişə özümüzü bir inəkli, qonşunu isə iki inəkli görmək istəmişik.

Bununla belə yuxarıda dediyimiz kimi, bizim təbiətimizdə fərdi eqoizm güclü olduğundan bəzən "mən", "biz"dən üstün tutulur. Yəni, bəzən şəxsi mənafeyimiz ümumi mənafeyimizdən öndə gedir. Bu yerdə yunan filosofu ilə bir mükalimə yada düşür:

Filosofdan sordular:

- Səncə ən böyük adam kimdir?

Filosof cavab verdi:

- Özü haqqında kiçik fikirdə olan adam.

Sordular:

- Bəs ən kiçik adam kimdir?

Dedi:

Özü haqqında böyük fikirdə olan adam.

Gözəl hikmətdir. İnsan özü haqqında nə qədər böyük fikirdədirsə, bir o qədər kiçik adamdır. Gəlin, biz özümüzü olduğumuz

dan artıq göstərmək yarışından əl çəkək, başqasının da üstünlüyünü görmək, başqasının dərdinə, azarına şərik olmaq, başqasının dərdinə alışa bilmək yarışına başlayaq. Yalnız o zaman könlümüz təmizlənər, ruhumuz yüksələr və bununla da ədalət tərəzisində öz çəkimizi ağır görmərik. Böyük mütəfəkkir Mövlana Cəlaləddin Rumi demişkən: "Göründüyün kimi ola bilmirsənsə, olduğun kimi görün". Mövlana əməlləri yaşına uyuşmayan ağ saqqallı bir nadandan soruşdu:

- Sən böyüksən, ya saqqalın?

Nadan cavab verdi:

- Mən saqqalımdan 20 yaş böyüyəm.

Mövlana:

- Səndən 20 yaş kiçik olan saqqalın ağarmış, amma sən hələ də qaranlıqlar içindəsən!

Cəhalət və nadanlıq qaranlığı içərisində yaşayan, özünə kənardan baxmağı bacarmayan, buna görə də öz qüsurlarını görə bilməyən adamla heç bir dildə danışmaq mümkün deyil. Belələri üçün şəxsi mənafe, şəxsi rahatlıq böyük bir xalqın mənafeyindən yüksək tutulur. Beləsi özünü dünyanın mərkəzində görür, elə görməyənləri isə korluqda günahlandırır. Beləsindən hansı mənəvi keyfiyyətləri gözləmək olar?

İnsanı insan edən birinci keyfiyyət onun mənəvi təmizliyidir. Məncə mənəvi təmizliyin əlamətləri əsasən üç amildə özünü göstərir: Vicdan, namus və ləyaqət! Dünya ədəbiyyatının Dəmirçi Gavə, Məcnun, Kərəm, Hamlet, Kardeliya, Jan Valjan, Raskolnikov, Çatski və s. kimi klassik obrazları məhz bu üç keyfiyyəti özündə birləşdirdiyinə görə bəşəriyyətin təqlidə layiq simvolik obrazlarına çevrilmişlər.

Məcnun ilk növbədə vicdanına görə sevilir. O, rəqibi İbn Salamın ölümünə göz yaşları tökür. "O, dostum idi, deyildi düşmən" deyə onun Leyliyə olan sevgisini qiymətləndirir, başqasının mənafeyi və "mən"i içində öz şəxsi mənafeyini və "mən"ini əridir. Dəlilik

dərəcəsinə enməklə bərabər həqiqəti unutmur, bununla da namusunu və insani ləyaqətini sona qədər saxlayır.

Eləcə də... atasının namusu, həqiqətin müdafiəsi yolunda çarpışan Şahzadə Hamlet! Onun gözlərinə görünən atasının kölgəsi deyil, həqiqətin müdafiəsinə qalxan daxili səsi - yəni vicdanı idi. Bu vicdan ona rahatlıq vermir, onu həqiqətin və ədalətin müdafiəsinə çağırır. O, vicdanın səsinə səs verib həqiqət və namus yolunda mübarizəyə atılır. Amma bu mübarizədə o, bir an da olsa, insanlıq ləyaqətini itirmir, düşmən ilə mərdmərdanə döyüşür.

Raskolnikov isə bir qədər başqa cürdür. O, insanlıq ləyaqətini itirəndən sonra vicdanın səsini eşitməyə başlayır və özünü ədalət məhkəməsinə təhvil verməklə namus və ləyaqətini özünə qaytarır.

Jan Valjanın insani keyfiyyətlərini izah üçün əsərdəki bir epizodu xatırlatmaq istəyirəm: keşişin evində gecələyən Jan Valjan onun gümüş çəngəl-bıçağını oğurlayıb gedir, polis onu yaxalayıb keşişin yanına gətirir. Yenicə həbsxanadan çıxan Jan Valjan düşünür ki, o, yenidən həbsxanaya qayıtmalı olacaq. Keşiş isə çəngəl-bıçağını və əlavə gümüş şamdanlarını da ona bağışladığını deyib Jan Valjanı azad etdirir. Keşişin bu böyük xeyirxahlığı qarşısında dünənki məhbus Jan Valjan heyrət edir və bütün gecəni keşişin evinin başına dolanır, əllərini göyə qaldırıb Allaha yalvarır, dünyadan xeyirxahlığın və insanlığın tamam çəkilmədiyinə şükür edir. Beləliklə, keşişin yaxşılığı və xeyirxahlığı Jan Valjanın vicdanını yuxudan oyadır, qəlbinin dərinliyində uyumaqda olan insanlıq ləyaqətini, namus və vicdanını ona qaytarır. Burdan çıxan nəticə nədir? İnsanda gözəllik və xeyirxahlıq duyğularını pisliyə pisliklə deyil, məhz yaxşılıqla oyatmaq olar. Beləliklə, keşiş alicənablığı və xeyirxahlığı ilə Jan Valjana elə bir dərs verir ki, onun bundan sonrakı həyatı vicdan, namus və ləyaqət yoluna düşür. Bundan sonra o, pisliyə də, yaxşılığa da yalnız yaxşılıqla cavab verir. Tərsanə canisi kimi Jan Valjan adı ilə bir başqasının həbs olunduğunu eşitdiyi gecə o, yata bilmir. Onun əvəzinə başqasının həbs olunmağına dözə bilmir. Səhər məhkəməyə

gedib özünü təslim etməklə əvəzinə tutulan günahsızı həbsdən xilas etdirir. Bax, budur, insanlıq, bax, budur vicdan, namus və ləyaqət!

Dünyanın böyük yazıçıları insanın mənəvi yüksəkliyini məhz bu üç keyfiyyətdə görmüş, insanlıq üçün məhz bu keyfiyyətləri əsas cəhət bilmişdir. Bəs bu keyfiyyətlərə yiyələnmək üçün nə lazımdır? İnsan nə etməlidir ki, bu üç keyfiyyətə malik olsun? Məncə, bunun üçün ilk növbədə hər kəs özünə kənardan baxmağı, özünə və əməllərinə nəzarət etməyi bacarmalıdır. Daha doğrusu, hər kəs özündə özünənəzarət hissini tərbiyə etməlidir. Özünənəzarət, özünə kənardan baxmaq isə yalnız vicdanın gözü ilə mümkündür.

Atam heç bir məktəb görməmiş adi bir adam idi. Gecələr "bismillah" deyib, yatağına girəndən sonra yorğanın altında özü-özü ilə danışardı. Bir dəfə soruşdum:

- Ay ata, sən hər gecə yorğanın altında özünözünlə nə danışırsan?

Dedi:

- Özüm-özümlə iclas eləyirəm.

Güldüm.

Dedi:

- Gülmə, əsl iclas adamın özününözü ilə elədiyi söhbətdir. Yorğanın altında özümözümə hesabat verirəm. Bu gün hansı yaxşı bir iş tutdum, əlimdən hansı xəta çıxdı, kimin qəlbinə toxundum.

Bu sözlər ömrüm boyu qulağımda cingildəyib və məni həmişə bəd əməllərimə görə etirafa çağırıb. Dünyada tam səhvsiz insan ola bilməz. Hamı səhv edir. Lakin sonradan bu səhvin səhv olduğunu anlamaq, etiraf etmək və təkrar etməmək vicdan və namus işidir.

Səhvlərim - alnımdakı qırışlarım,
Səhvlərim - qəlbimdəki vuruşlarım.
Başqaları keçər, bəlkə, taqsırımdan,
"günahkaram, keç" - sözümə.
Bağışlaya bilməmişəm

öz səhvimi mən özümə.
Səhvlərim boğazımdan bərk yapışıb,
Yuxumu da dara çəkir.
Vicdanımı ora çəkir, bura çəkir.
Əzablarda mən özüməm,
Öz könlümün öz səsiyəm,
Rahatlıqda özgəsiyəm.

Bəli, rahatıqsa, demək vicdanımızı yuxuya vermişik. Vicdan həmişə oyaq olmalıdır ki, özümüzə onun gözü ilə baxıb, əməllərimizə nəzarət edə bilək, insani ləyaqətimizi itirməyək.

Bununla belə, insanın hüququnu, namus və ləyaqətini ilk növbədə içində yaşadığı cəmiyyət və bu cəmiyyətin ədalətli qanunları qorumalıdır. Lakin biz bunu inzibati amirlik və bürokrat dövlət sistemindən uma bilmərik. H.Cavid, B.Çobanzadə, S.Mümtaz və minlərlə bunlar kimi cəmiyyətin gözü olan adamlar Allah gücünə malik olsaydılar belə, Stalin rejimi dövründə özlərini qoruya bilməzdilər. İnsanlıq ləyaqətini addımbaşı alçaldan bir rejimdə - qorxu və repressiyanın hökm sürdüyü bir zamanda hansı ləyaqətdən, hansı vicdan və namusdan söhbət gedə bilər? Odur ki, insanlığa xas olan üç sifət - vicdan, namus və ləyaqət ilk növbədə cəmiyyət tərəfindən qorunmalı, yalnız bundan sonar ayrı-ayrı fərdlərdən umulmalıdır. Yalnız belə bir cəmiyyətdə qanuni dövlətdən söhbət gedə bilər. Biz yalnız indi buna doğru gedirik. Lakin bir çox mühüm məsələlərin həllində hələ də inzibati amirlik üsulu hökm sürməkdədir. Bir misal çəkmək istəyirəm: Azərbaycan SSR Ali Sovetinin sessiyalarından birində gündəlik oxundu. Sədr müzakirə olunacaq məsələlərə kimin əlavəsi olduğunu soruşdu: Gəncədən gələn bir deputat Kirovabadın köhnə adının özünə qaytarılması məsələsinin gündəliyə salınmasını təklif etdi. Mən əminəm ki, bu təklif deputatların 99 faizinin ürəyindən idi. Buna baxmayaraq, MK-nın katiblərindən biri bu məsələyə 3 aydan sonra baxmağın daha münasib olduğunu və

birinci təklifin gündəlikdən çıxarılmasını təklif etdi. Mən bu yoldaşı başa düşürəm, çünki, o və ondan yuxarıdakı yoldaşlar bu məsələni əvvəlcə mərkəzlə razılaşdırmaq istəyirdilər. Bunu deputatlar da başa düşürdü. Beləliklə də birinci təklif səs çoxluğu ilə qəbul olunmadı. Əlbəttə, hər şey zahirən qanunla gedirdi. Əslində isə, belə deyildi. Hamı öz ürək səsinin əleyhinə səs vermişdi. Ona görə ki, birinci təklifin əleyhinə səs verən deputatlar yaxşı bilirdilər ki, bu iş bizdə yenə də yuxarıdan həll

olunmalıdır. Yenə də aşağının səsi eşidilmirdi. İndi soruşulur: Bizi uca kürsülərdən yenidənqurma və demokratiyaya çağıranlar bu hərəkətlə yenidənqurmanı və demokratiyanı inkar etmədilərmi? Xalqın vəkili hesab olunan deputatlar yenədəmi gözlərini yuxarıya - dirijor çubuğuna zilləməlidir? Bəs onda bunun hasarı yenidənqurma və demokratiya oldu? Bəs, biz nə zaman SSRİ xalq deputatlarının qurultaylarında gördüyümüz aşkarlığa və demokratiyaya nail olacağıq? Hər məsələdə Moskvanı bizə nümunə göstərənlər niyə bu məsələdə Moskva demokratiyasından dərs götürmürlər? Məncə, yuxarılar birdəfəlik bilməlidirlər ki, onların dirijor çubuğu aşağıların qəzəbinə səbəb olur. Belə də oldu. Heç üç saat keçməmiş Gəncədən gələn deputatın təklifi yenidən səsə qoyulmalı oldu. Qəribədir, bayaq təklifin əleyhinə səs verənlər, indi lehinə səs verdilər. Niyə? Çünki, dirijor çubuğundan razılıq alınmışdı. Bir neçə saat ərzində bir-birinə zidd olan iki təklifin ikisinə də səs verənlərdən soruşmaq istərdim: bəs, vicdan və ləyaqət hara getdi? Bu demokratiya tamaşası nə vaxta qədər davam edəcək? Şəxsiyyət də bu qədər cırlaşarmı? Təəssüf ki, belə demokratiya tamaşasında vicdanın susması və insan ləyaqətinin tapdanması adi normaya çevrilir. Çünki bizdə insan hələ də daxilən və mənən azad deyil, kimdənsə, nədənsə asılıdır. İnsan dediyi sözün və elədiyi hərəkətin izlənildiyini bildiyi zaman mənəvi azadlığını itirir və qula çevrilir. Sovet İttifaqında demokratiya və aşkarlığın iri addımlarla irəlilədiyi bir zamanda hələ bizim içimizdə qorxu, nədənsə və kimdənsə asılılıq yaşamaqdadır. Sözümün canı budur ki,

mənəvi azadlıq olmayan yerdə insanlıqdan, vicdandan və namusdan söhbət gedə bilməz.

Böyük Sabir demişkən:

Kim ki, insanı sevər, aşiqi-hürriyyət olur,
Bəli, hürriyyət olan yerdə də insanlıq olur.

"Şənbə gecəsinə gedən yol", Bakı 1991





# YANAN DA MƏN, YAMAN DA MƏN

Bu el ifadəsi nə münasibətlə yadıma düşdü? Keçdiyim ömür yolunu, bu yolun dolaylarına səpələnmiş yaxşıyaman şeirlərimi, pyeslərimi, hər növ yazı-pozumu xatırladıqca düşünürəm ki, yanan da mənəm, yaman da mən. Xahiş edirəm, bu cümlədəki "mən" sözünü ancaq poetik "mən" obrazı kimi qəbul edəsiniz, çünki söhbət yalnız özümdən, təkcə mənə aid "yanğıdan", "yamanlıqdan" getmir. Dost və tanışlarım arasında elə şair və yazıçılar, elə alimlər, ziyalılar var ki, həmişə "yanıblar" və "yaman kişi" olublar. Mən hətta elə keçmiş partiya və dövlət xadimləri də tanıyıram ki, bu gün onların tüstüləri başlarından çıxır və yenə də "yaman kişi" olmaqda davam edirlər.

Nədir bu yanğı, nədir bu yamanlıq?

Bu, məslək bütövlüyü, əqidə səadət yanğısıdır: elə bu keyfiyyətlərə görə onlara vurulan yamanlıq damğasıdır. Həmişə öz əqidə və məsləkinin alovunda yananlar eyni zamanda "yaman kişi" olublar. İmadəddin Nəsimi kimi. Mənim də adım həmişə bu "yananlar, yamanlar" siyahısında olub. Kommunistlər vaxtilə bizi bəyənmirdilər ki, onların kommunist ideallarını tərənnüm etmir və ya lazımınca, ürəkdən tərənnüm etmirik: Millətçiyik, "böyük" rus

qardaşının kommunist-imperiya siyasətinin əleyhinəyik; mövcud quruluşun şanlı gələcəyinə inanmırıq, onun düşməniyik. Bir sözlə, "yaman kişiyik".

İrticanın cövlan etdiyi bir dövrdə "Gözəl sözlər" adlı bir şeir yazmışdım.

Azadlıq, səadət, demokratiya!..
Bu gözəl sözlərə dünya əl çalır.
Əslində, hər biri bir kələk, riya...
Mənim bu sözlərə yazığım gəlir.

Doğrudan da, əsarət, bədbəxtlik və diktatura məngənəsində boğulan respublikamda, onun xalqının dilində belə dəbdəbəli sözlərin mövcud olmasına ikiüzlülük və riyakarlıqdan başqa nə ad vermək olar? Diktatura şəraitində öz ülvi mənasını itirmiş bu sözlərə adamın yazığı gəlməsin, neyləsin bəs? Belə şəraitdə bəlkə, məşhur diplomatlardan birinin obrazlı şəkildə dediyi kimi hərəkət etmək lazımdır: "Dil - fikri ifadə etmək üçün deyil, fikri gizlətmək üçündür?"

Kommunist əqidə fədailəri də elə bunu istəyirdilər. Belə olmadıqda isə, yəni silahı yalnız söz olan qələm sahibləri dildən fikirlərini gizlətmək üçün yox, onları xalqa çatdırmaq üçün istifadə edəndə, "yaman kişi" olurdular. Mən də elə buna görə - fikirlərimi heç də həmişə gizlətmədiyim üçün dəfələrlə "yaman kişilik" rütbəsinə nail olmuşam. Yanmağımla yamanlığım bir-birinə düz mütənasib olub. Nə qədər çox "yanıb-tökülmüşəmsə", bir o qədər çox "yaman kişi" olmuşam. Belə bir müqayisəyə görə oxuculardan üzr istəyirəm.

Niyyətim özümdən demək deyil. Bu gün məni düşündürən konsepsiya - cəmiyyətimizin dəyişən, "dialektik" ikiüzlülüyü, zorakılığı məni məcbur edir ki, özümün görüb-eşitdiklərimi, şahid olduğum məqamları qələmə alım.

Uzun illərin təcrübəsindən bilirəm ki, vaxtilə yalnız şeirlərimdə hiss olunan yanğı tədricən əməli fəaliyyətlərimə, hərəkətlərimə də

keçib. Şeirimin səsi çatmayan partiya, dövlət iqamətgahlarına özüm getmişəm, bir növ, "ictimai-siyasi fəaliyyətə" başlamışam.

Heç yadımdan çıxmaz. Ötüb keçən illərin birində içimdəki bu "yamanlıq" yanğısı məni o zaman MK-da birinci katib olan bir eloğlumuzun hüzuruna gətirib çıxarmışdı. Hiss edirdim ki, "yaman kişi" olmaq üçün gedirəm. Amma getməyə bilməzdim. İçimdəki yanğı məni rahat buraxmırdı.

"Birinci"nin gen-bol, işıqlı kabinetində təxminən bir saata qədər onunla üz-üzə oturduq. Mən deyirdim, o qulaq asırdı. Aylardan bəri ürəyimdə üst-üstə qalanmış ağrılarımdan, respublikanı başına alıb gedən rüşvətxorluqdan, alverdən, ana dilimizin ayaqaltı olmasından, irili-xırdalı bütün dərdlərimizdən o ki var danışdım. İnsafən, bir dəfə olsun sözümü kəsmədi. Heç sual da vermədi, əlavə izahat da istəmədi. Mən belə asudə, qorxusuz-hürküsüz şəraitdə sözümü deyə bildiyim üçün necə də sevinirdim. Ürəyimdə bir yüngüllük duyurdum. Amma sözümü yekunlaşdırdığımı hiss edən "birinci" bu həyəcanlarım müqabilində nə desə yaxşıdır:

-Şair, bunlar hamısı məlum, ancaq bilmək istəyirəm, bunları söyləməyə səni kim vəkil eləyib?

Bəli, lap beləcə dedi: "Səni kim vəkil eləyib?" Elə bil canıma od düşdü, üstündən də bir dərya soyuq su çiləndi. Ona cavab verməyə söz tapmadım. Tapsaydım da, faydası nə idi? Bütün respublikanın taleyi ilə yaşamalı olan bir adam, çox adi bir həqiqəti dərk eləmək istəmirdi ki, bütün bunlar həm də mənim işimdir, onun işidir, o birisinin işidir. Qapıları şeirin, sənətin üzünə bağlı zənn etdiyim o iqamətgahdan çıxarkən dəhşət içində düşündüm ki, bu qapılar həm də bütün xalqın, onun dərdlərinin üzünə bağlıdır.

O illərin obrazlı ifadəsi ilə desək, "respublikanın bir nömrəli kommunisti" belə düşünürdüsə, onun yan-yörəsindəkilər, görəsən, necə düşünür, necə yaşayırdılar? Məlum məsələdir...

Lakin həmişə düşüncə tərzi eyni axarla davam etsəydi, bütün "bir nömrəli" kommunistlər öz əqidə köhlənlərindən bərk-bərk tutsaydı-

lar dərd yarı idi. Onların ixtiyarında olan totalitar vasitələr dən daha güclü bir qüvvənin - zamanın hökmü ilə hər şey alt-üst olan kimi, məhz həmin adamlar öz əqidə köhlənlərindən hamıdan tez düşdülər. Hamıdan tez və hamıdan uca səslə demokratiyadan dəm vurmağa başladılar. Uzun illər boyu onların və bütün qohum-əqrəbalarının qulluğunda olan kommunist rejiminin əleyhinə gurultulu nitqlər söylədilər. Hətta elələri də tapıldı ki, uzun illər boyu bu rejimin rəngbərəng vəzifə kürsülərini pillə-pillə qalxandan sonra, axırıncı pillədə durub: "Mən heç vaxt kommunist olmamışam" deyə aləmə car çəkdilər. Dünən bizə beynəlmiləlçilikdən, xalqlar dostluğundan, marksist ideologiyasının əbədiliyindən dərs deyənlər, bu yoldan sapdığımıza görə danlayanlar, bu gün eyni həvəs və eyni ehtirasla Məmməd Əmin Rəsulzadədən misallar gətirir, milli varlığımızın zərurətindən danışır, yenə də bizim kimi "zamandan geri qalanlara" ağıl öyrədirlər.

Dünən Türkiyəni "otstalaya strana" kimi lənətləyib gözünü Moskvaya dikənlər bu gün Türkiyəni su yoluna döndəriblər. Türkiyə çilçıraqları və dublyonkaları ilə evini və əynini bəzəyir, bu məmləkətin "peredovaya strana" olmasından danışırlar, bizi isə bu inkişafı görməməkdə günahlandırırlar. Dünən balalarının rus dilində qırıldatmalarını mədəniyyət hesab edənlər, bizim kimiləri, yəni övladlarını ana dilli məktəblərdə oxudanları geridə qalmışlar cərgəsinə yazanlar, indi bala və nəvələrini Türkiyəyə oxumağa göndərirlər, özü də türk ləhcəsində kəkələməklərini gözümüzə soxurlar. Dünən Rəsulzadələrin, Mirzə Balaların, Xanxoyskilərin ünvanına min bir iftira yağdıranlar bu gün onların əvəzsiz fəaliyyətlərindən danışmağa bizə macal vermirlər.

Yaxşı yadımdadır, bir vaxt məni soyadımdakı "zadə"yə görə, Emin Sabitoğlunu, Yusif Səmədoğlunu isə "oğlu"ya görə MK-nın ideologiya şöbəsində necə dara çəkdilər. Həmin adamlar bu gün də "vəzifə" köhlənində çapırlar. Bu yaxınlarda iştirakçısı olduğum iki dialoq yadıma düşür: bir kommunist eloğlumla mənim aramda olub.

Adını çəkməyəcəyəm, yazımı oxusa (ümumiyyətlə, qəzet-jurnal oxuyursa), yəqin ki, özünü tanıyacaq.

Kommunist partiyasının hələ taxt-tacda olduğu günlər idi. Həmin "dostum" da öz taxt-tacında möhkəmcə oturmuşdu. Növbəti kommunist yığıncaqlarının birində onunla üzləşdik. Mənim yaxamda üçrəngli bayrağımızın döş nişanını görüb, bütün kommunistlərə xas olan məkrli bir jestlə ona baxdı və:

- Bu nədir, - deyə soruşdu, - julik bayrağını (bu onun ifadəsidir) taxmısan döşünə?

Aradan bir müddət keçmiş, biz yenə görüşdük. Kommunist partiyası artıq taxt-tacından salınmışdı. Amma mənim tanışım hələ öz təxti-rəvanında - rəngbərəng telefonlar düzülmüş stolunun arxasında oturmuşdu. Telefonlarla bəzənmiş bu communist stolunun əlavə bir "bəzəyi" də diqqətimi cəlb etdi; stolun ən fəxri yerində üçrəngli bayrağımız "dalğalanırdı". Keçmiş kommunist "dostum" onu fəxrlə mənə göstərməyə çalışır, "təzə əqidəsini" nümayiş etdirmək istəyirdi.

Mənim dilim gəlmədi ki, ondan soruşum: "Bu julik bayrağı nədir qoymusan stolunun üstünə?". Bəli, dilim gəlmədi. Ona görə ki, onun nə cavab verəcəyini təxminən bilirdim. Bilirdim ki, ikinci dəfə amansız bir dönüklüyün, riyakarlığın şahidi olacağam. O, məni inandırmağa çalışacaqdı ki, belə lazımdır: bu, zamanın tələbidir. Sözdə. İçəridən isə mənə güləcəkdi. Yenə "yanan" da mən olacaqdım, "yaman" da. O isə öz kefində, öz işində. Üçrəngli bayrağın kölgəsində gizlənib, "öz kommunizmi"nin işıqlı gələcəyinə doğru irəliləyəcəkdi.

Bu nöqtədə mən kommunizmin işıqlı gələcəyi sözlərini dırnaq içində yazmağa ehtiyac hiss etmirəm. Həmin riyakar, ikiüzlü kommunistlər KOMMUNİZMİN İŞIQLI BU GÜNÜNDƏ yaşamırlar məgər? Onlar yenə hakimiyyət başında, yenə fərman, hökm sahibidirlər. İllərdən bəri qanına-canına işləmiş communist əqidəsi ilə qeyri-kommunist bir cəmiyyəti idarə edirlər. İşləri də həmişəkidir:

çalıb-çapmaq, xalqın malını, pulunu, qəlbini talamaq! Keçmiş ray-kom katibləri indi icra hakimiyyəti başçılarıdır. Keçmiş icrakomlar yenə mənzil, torpaq alveri ilə, vəzifə sövdəkarlığı ilə məşğuldurlar. Əsas və gizli əməlləri budur, amma qeyri-əsas, açıq-aşkar işləri də var. Bunu hamı görür. Onlar lap bu yaxınlaracan başlarının üstündən növbə ilə Brejnevin, Andropovun, Qorbaçovun iri, rəngli portretlərini asardılar, vəzifə kürsüsü olan stollarının sol böyründə öz respublika-sının yerli padşahlarına xüsusi guşə ayırmışdılar. Onların formaca bir az kiçik, əzmunca bir az qəşəng şəkilləri birbirini əvəz edirdi. Mahiyyətcə, bunlar da oyun idi, fırıldaq idi: öz iyrənc əməllərini gizlətmək üçün bir pərdə idi.

Bu günlərdə bir neçə nazirin, icra hakimiyyəti başçısının kabine-tin də oldum. Gözlərimə inanmadım: yenə də o divarlar portretsiz, o stollar şəkilsiz deyildi. Divarda Məmməd Əmin Rəsulzadənin iri portreti, stolun üstündə respublika prezidentinin kiçik, rəngli şəkli, uzaqdan göz qamaşdırırdı. Brejnev-Andropovdan Məmməd Əmin Rəsulzadəyə keçdi!..

Məmməd Əmin Rəsulzadə - Ayaz Mütəllibov! - necə məntiqsiz ardıcıllıq! Ona görə ki, Mütəllibov xruşşovların, brejnevlərin, and-ropovların varisidir. Amma başının üstündə M.Ə.Rəsulzadənin şəkli asılıbsa, masanın üstündə Mütəllibovun şəkli deyil, Əbülfəz bəyin şəkli olmalı idi. Bax, buna deyərlər ardıcıl məntiq!

Riyakarlıq rəmzi olan bu gülünc mənzərəni seyr edə-edə düşünür sən: görəsən, bu adamlar - nazirlər, hakimiyyət başçıları, özgələrdən demirəm, özləri özlərindən utanıb-qızarırlarmı? Onlar bir-birinə tam zidd olan bu qütbləri necə tez, necə asanlıqla birləşdirə biliblər, ila-hi:

Elə həmin anda da düşünürəm ki, yox elə deyil, onların əqidələri, - əgər buna əqidə demək olarsa, - əsla dəyişməyib. Heç dəyişən də deyil. Onlar yenə özlərinin miskin, mənəviyyatsız dar dünyalarının hayındadırlar. Yenə öz şəxsi firavan həyatları üçün “portret-portret” oyunu oynayırlar və bu oyunları əqidə, məslək adı ilə bizlərə sırımaq

istəyirlər.

Bütün bunlardan sonra içəridən bizi yandıran təzadlı fikirlər qovşağında düşünürəm ki, əslində, bu kommunist əqidəliləri (yəni əqidəsizləri) qınamaq da düz deyil. Axı, əqidə, məslək çox böyük mənəvi sərvətdir. Bunlar ən yüksək mənəviyyatla, dərin əqli yetkinliklə bağlı mürəkkəb insani keyfiyyətlərdir. Yüksək əqidəli olmaq üçün yalnız təmiz olmaq, özgə qazancına göz tikməmək kifayət deyil: eyni zamanda, dərin zəkalı olmaq, elmə, mədəniyyətə yiyələnmək lazımdır. Gecəgündüz gizli, qara əməllərini düşünənlər, vəzifə, mənzil, torpaq alverində ən müasir "üsullar" axtaran keçmiş partokratiyanın əqidə dərdinə qalmağa vaxtı harda idi?

Bütün bunlar təəssüf və təəccüb doğuran dərdlərimizdir. Ən böyük təəccüb və təəssüfümüz budur ki, 70 ildə formalaşan, möhkəmlənən qeyri-həyati, qeyri-insani bu rejimin məngənəsində yanan da bizik, yaman da!

Amma, gəlin, taleyin bu acı qismətindən çox da gileylənməyək. Buna haqqımız yoxdur. Ona görə ki, biz - bütün "yananlarımız" - "yamanlarımız", eyni zamanda, olduqca aciz, fərasətsiz adamlarıq. Ancaq yanıb-yaxıla bilirik. Əlimizdən özgə bir iş gəlmir.

Kommunist "Rəsulzadəçilər" də bunu görür və başımızda qoz sındırırlar. Təəssüf, çox təəssüf!..

*"Axtarış" qəzeti, 28 fevral 1992*
*"Yanan da mən, yaman da mən", Bakı 1995*





# SAQQAL DARAĞI FABRİKİ

Köhnə bir dostumla oturub respublikamızın dərdlərindən ürək yanğısı ilə danışırdıq. Söhbətimiz təxirəsalınmaz, zəruri ehtiyaclarımızdan gedirdi. Mən dedim ki, uzun illər Mərkəz bizim respublikamıza xammal mənbəyi kimi baxdığından, müxtəlif çeşidli xammalımızı son məhsula çevrilən fabrik-zavodlarımız çox azdır.

Bunu mənim dilimdən eşidən dostum:

- Atan oldu rəhmətlik, elə buna görə də sənə bir sualım var, deyə stulunu çəkdi düz qənşərimə. - İndi de görək, bu ağır günlərimizdə bizim respublikaya hansı fabrik-zavod daha vacibdir?

Dedim:

- İqtisadçılarımızın yazdıqlarından bildiyimə görə yetişdirdiyimiz on min tonlarla üzümü Rusiyaya xammal kimi satırıq. Biz bu məhsulu şərab kimi satsaq, 10-15 qat artıq qazanc götürə bilərik. Bunun üçün də üzümçülük bölgələrimizdə yeni şərab zavodları tikmək çox vacibdir.

Dostum:

- Tapmadın, - dedi.

Bir az fikirləşib dedim:

- Qəzetlərin birində oxumuşam ki, cənub bölgələrimizin birin də şəkər çuğunduru əkməyə başlamışıq. Qəndə də ehtiyacımız çoxdur. Yaxşı olar ki, çuğundur məhsulu yığılana qədər bir şəkər fabriki tikək.

Dostum cavabımdan razı qalmayıb, başını yellədi.

Dedim:

- Eşitdiyimə görə, mineral sularımız şüşə qıtlığından havayı axıb gedir. Badamlıda, İstisuda şüşə zavodları tiksək, mineral sularımızı xarici ölkələrə də satıb valyuta qazana bilərik.

Dostum yenə cavabımdan razı qalmadı.

Dedim:

- Onda özün de.

Dostum böyük bir şey kəşf etmiş kimi özündən razı görkəm alıb, başladı, nə başladı:

- Bizə bu saat ən vacib olan şey bel qayışı, bir də malların üstünə vurulan etiketlərdir. İndi gərək biz, ilk növbədə, toqqa və etiket fabrikləri tikək.

Gülmək məni tutdu:

- Əşi, zarafat vaxtıdır?

O isə heç halını pozmadan:

- Vallah, mən zarafat eləmirəm, - dedi.

- Əşi, bu dar macalda hər dərdimiz qurtarıb, təkcə toqqamız çatmırdı?

- Bəli, - dedi. - İndiki zamanda toqqa çox vacib şeydir. Nədən ki, ətin, yağın qıtlığında yediyimiz ərzağın keyfiyyəti olmadığından, şalvarımız əynimizdən düşür. Buna görə də hökumət düşünüb ki, heç olmasa, toqqalarımız keyfiyyətli olsun ki, şalvarımız əynimizdən düşməsin.

Dedim:

- Bax, məsələnin bu vacib tərəfini mən bilmirdim. İndi bildim. Bəs etiket nəyimizə lazımdır?

- Bəs toqqalarımızı dünya bazarlarına göndərəndə alıcılar bilməsin ki, aya, dünya standartları səviyyəsində olan bu matah mal haranın istehsalıdır? Bəli, bu buraxdığımız toqqaların etiketinə yazılacaq. Beləliklə, toqqalarımızın hesabına bizim balaca kəndimizi dünya tanıyacaq. “Vətən”, “Vətən” deməklə Vətəni tanıtmaq olmaz. Amma toqqamız tanıdacaq. Bu da bizim biznesin vətən pərvərlik tərəfi. Burada dözə bilməyib dedim:

- Mən ölüm, zarafatı boşla.

- Əşşi, nə zarafatzarafat salmısan? İnanmırsan, al, oxu, - deyə

dostum cibindən bir qəzet çıxarıb qoydu stolun üstünə. Baxdım ki, 24 dekabr (1991) tarixli “Səhər” qəzetidir. Oxudum: “İranın “Keş pud korporeyşn” şirkəti Xırdalanda yeni fabrik tikintisinə başlamaq niyyətindədir. Fabrik bel qayışları, malların üzərinə vurulan etiketlər buraxacaqdır. İran tərəfi Azərbaycandan polad və taxta-şalban alacaqdır”.

Dostum məndən xəbər aldı:

- Deyə bilərsənmi, bəs biz bu poladı və taxta-şalbanı hardan alıb verəcəyik?

Dedim:

- Bəlkə, sən deyəsən?

Dostum dedi ki, polad heç, amma son iki-üç ildə Rusiya bizə taxta-şalban vermir. Buna görə də tikintilərimiz dayanıb.

Dedim:

- Mən tapdım. Respublikamızın ərazisinin 40 faizinə qədəri bir zaman meşə idi. Bu meşələri qırıb yerində pambıq əkmişik. İndi vur-tut 6 faiz meşəmiz qalıb. Onu da qırıb verəcəyik bel qayışına. Amma məni narahat eləyən bir şey də var. İndi ki, belə başlamışıq, gəlin, bir vacib məsələni də unutmayaq. Axır vaxtlar cavanlarımız saç uzadır, saqqal buraxır. Gəlin, İran şirkətindən xahiş eləyək ki, cavanlarımız üçün bir dənə də saqqal darağı fabriki açsın.

Bu yerdə əllərimi göyə açıb Allaha yalvarmağa başladım:

- İlahi, bu çətin günlərimizdə olanqalan poladımızı bel qayışına, taxta-şalbanımızı etiketlərə dəyişən başbilənlərimizi sən saxla!

*"Səhər" qəzeti, 3 yanvar 1992*
*"Yanan da mən, yaman da mən", Bakı 1995*





# GEDƏNİN ARXASINCA...

***(Azərbaycan Respublikası Ali Sovetinin on ikinci çağırış birinci sessiyasındakı çıxışı əsasında, 8 fevral, 1991)***

Hörmətli millət vəkilləri!

Mən dünən Qarabağ məsələsinin müzakirəsində burda olmamışam. Özümü pis hiss etdiyimə görə evə getmişdim. Lakin sessiyanın gedişinə əvvəldən axıra qədər televizorda baxdım və çox təəssüfləndim. İçində yaşadığımız cəmiyyətin qaydaları bizi elə şikəst eləyib ki, 70 illik tariximizdə vəzifədə olanın yaltağı, vəzifədən gedənin isə qənimi olmuşuq. Müqəddəs hisslər, insani duyğular unudulur. Elə buna görə də bu kökə düşmüşük.

Heydər Əliyevin dünənki çıxışına mən diqqətlə qulaq asdım. O, bizi Qarabağ məsələsinin dərin təhlilinə çağırdı. O, bizə demək istəyir di ki, Qarabağ məsələsində, bu üç illik mübarizəmizdə bizim işlənmiş, vahid konsepsiyamız olmamışdır. Məgər düz demirdi? Əliyev dedi ki, biz həmişə müdafiədə olmuşuq. Amma onu da bacarmamışıq. Nəhayət, o bizi hücuma çağırdı. Axı, böyük sərkərdələrdən birinin dediyi kimi, ən böyük müdafiə hücumdur.

Biz bu gün bu məsələləri müzakirə etmək əvəzinə, bu mühüm

məsələni kənara qoyub Əliyevdən keçmiş ədavətimizin intiqamını almağa çalışırdıq. Şübhəsiz, Əliyevin fəaliyyətində müəyyən qüsurlar olmuşdur. Lakin bu qüsurların bir çoxu zamanın qüsurları idi. Mən dünən televizora baxarkən xəcalət çəkdim. Mən dədələrimizdən bizə miras qalan əxlaq normalarının, insanlıq qaydalarının dağılmasına acıdım. Bəs harda qaldı ənənəmizdəki "basdığını kəsməmək" mərdanəliyi? İndi fikirləşirəm, görəsən, biz niyə bu qədər xırdalandıq? Mən dünən bütün gecəni yata bilməmişəm, axı dədələrimiz belə namərdliyi eləməzdi. Silahsız adama silah qaldırmaq əgər qəhrəmanlıq sayılarsa, vaxtı ilə qarşısında "bəli-bəli" dediyimiz adamı bu gün təhqir etmək də o qədər "qəhrəmanlıq" sayıla bilər. Beş dəqiqəlik təsəvvürünüzə gətirin. Dünənki vəziyyətə düşmənlərimiz baxsaydı, bizim nankorluğumuza, dönüklüyümüzə qəhqəhə çəkib gülməzdimi? Beləliklə də, biz düşmənlərimizin dəyirmanına su tökdük.

Onu da unutmayaq ki, 1970-ci illərdən tam hazır olmalarına baxmayaraq, ermənilər Əliyev vəzifədən gedəndən sonra bizim başımıza bu oyunu aça bildilər. Əliyev sipər kimi onların qabağında dayanmışdı. Biz bu gün böyük həyat təcrübəsinə və siyasi-diplomatik biliyə malik olan, bütün ömrü boyu siyasət qazanında qaynayıb bərkiyən bu Vətən oğlunun ağlından, təcrübəsindən istifadə etmək əvəzinə, vətənin taleyinə tüpürüb şəxsi ambisiyamızı qabağa çəkdik. Ali Sovetin sessiyası məgər qisas almaq yeridir? Rəhmətlik Sabir nə qədər gözəl deyib:

Zülmətsevər insanlarız üç-beş yaşımızdan,
Fitnə göyərir torpağımızdan, daşımızdan.
Biz zülm eləyib bac alırıq qardaşımızdan,
Çıxmaz, axa bilməz də bu adət başımızdan.
Əcdadımıza çünki həqiqi xələfiz biz,
Öz qövmümüzün başına əngəl kələfiz biz.

Qarabağ məsələsinin müzakirəsinə şəxsi ədavət hissimizi qarışdırmaq bizim türk soyumuza yaraşardımı? Bu gün biz bütün qüvvələrimizi birləşdirib. Qarabağ məsələsinin həllinə yönəltməliykən zirvədən enən adamdan intiqam və zirvədəkindən pay almaq üçün mikrofon qabağında növbəyə durmuşuq. Budurmu bizim etikamız, əxlaqımız?

Mən bu səhnəni görərkən istəristəməz vaxtı ilə Qambay Məmmədovun ifşa səhnəsi yadıma düşdü. Onda da, dünən olduğu kimi, zirvədəkinə xoş gəlmək üçün mikrofon qabağında növbəyə durmuşdular. Şübhə etmirəm ki, indi də Əliyevin üstünə düşənlərin yuxarıdan umacağı var. Doğrusu, mən gözləyirdim ki, hörmətli sədr qalxıb ağızları köpüklənə-köpüklənə danışan bu adamları yerində oturdacaq və müzakirənin istiqamətini mətləbə yönəldəcək... Təəssüf ki, belə olmadı. Bu gün Əliyevin üstünə kəkələyənlərə baxıb ləzzət alanlar, unutmasınlar ki, sabah da bu gündən onlar üçün var. Niyə biz gördüklərimizdən nəticə çıxarmırıq? Gəlin, unutmayaq ki, dünya fırlanır, yaz da, qış da təkrar olunur.

Vaxtilə H.Əliyevin vəzifəyə gətirdiyi indiki yüksək vəzifə sahibləri bu gün ona adicə Allah salamını verməkdən belə çəkinir, heç onun üzünə baxmaq da istəmirlər. Demək, bu adamların yuxarıdakına verdiyi salam da rüşvət imiş. Bəs hanı dədəbabanın "duz-çörək" ənənəsi? Duz-çörəyi tapdalayan bu adamlara tutduqları yüksək vəzifə halaldırmı? Demək, bu adamlar adicə insanlıq normalarını unudan, şəxsi mənafelərini ümumxalq və vətən mənafeyindən üstün tutan vəzifə düşkünləridir.

Bəs bu gün H.Əliyevə hücum çəkənlər kimdir? Onun dünənki yaltaqları! Yaltağın cəllada çevrilməsi də dəhşətli olurmuş, ilahi!

H.Əliyev vəzifə başında olanda bu adamlar onun şəxsiyyətinə deyil, tutduğu mövqeyə hörmət edir və ondan daha böyük vəzifələr umurmuşlar.

Bu adamları yaxşı tanıyırıq. Bunlar vaxtilə H.Əliyevin

ətəyindən dörd əllə yapışır, şəklini vəzifə stolunun üstünə qoyur, onun böyüklüyündən bizə mühazirə oxuyur, bizi də onun şəxsiyyəti önündə səcdəyə çağırırdılar. Bəs indi həmin şəxsiyyətə nə oldu? Vəzifəsini itirən kimi şəxsiyyətini də itirdi? Aman çəkmək lazımdır üzünə "Vətən Məcnunu" maskası taxan belə "vəzifə məcnunlarının" əlindən!

Yazıq Vətən, yazıq xalq! Gör, sənin taleyin kimlərin əlindədir? Görəsən, bu adamlar vəzifəyə ali insanlıq və əxlaq normalarını itirmək üçünmü yüksəlmişlər? Ya bəlkə, elə-belə olmalıdır? Bəlkə, bu cəmiyyətdə vəzifəyə qalxmaq və orada uzun müddət qalmaq üçün insanlığı itirmək vacib şərtdir? Görünür, bizim cəmiyyətdə bu ali əxlaq normasıdır.

Amerikada prezidentin vəzifədən götürülməsi, onun şəxsiyyətinə xələl gətirmir. O, yalnız vəzifəsini itirir. Ona olan münasibət isə olduğu kimi qalır. Bizdə isə vəzifədən gedən vəzifəsi ilə bərabər ona olan münasibəti də itirir. Demək, bizim totalitar sistemdə adamlara hörmət şəxsiyyətə görə deyil, tutduğu mövqeyin dərəcəsinə görədir. Demək, biz hər şeydən əvvəl, insanlığımızı itirmişik. Biz bu gün buna ağlamalıyıq.

"Birlik" cəmiyyəti yaradan, ağzı köpüklənə-köpüklənə xalqı birliyə çağıran "vətənpərvərlər" sessiyadakı çıxışında yaratdığı cəmiyyətin adını və məqsədini unudub Əliyevin üstünə hücuma başladı. Bir ona deyən olmadı ki, ey xalqı birliyə səsləyən oğul, bəs bu birliyi pozmaq nədir? Bəs harda qaldı sənin birlik şüarın? Sən bununla kimə və nəyə xidmət edirsən? Sənin deputat platforman budurmu? Sən niyə seçicilərini aldadır, seçkiqabağı bir söz deyir, seçiləndən sonra tamam başqa cəbhə tutursan? Görünür, elə bu "xidmətinə" görə də seçdirilmisən. Bəli, sən seçilməmisən, məhz seçdirilmisən!

Qazaxıstanın birinci katibi Kunayevin məgər qüsurları olmamışdırmı? Olmuşdu, özü də çox! Kunayev həmin rəhbərdir ki, Qa-

zaxıstan torpağının kosmik uçuşlar meydanına çevrilməsinə qol çəkmiş və bununla da torpağın ekologiyasının korlanmasına səbəb olmuşdu. Amma bu gün qazax xalqı həmin Kunayevi əlləri üstündə saxlayır. Bəs biz? Biz isə vaxtı ilə kiçiklik elədiyimizə indi böyüklük eləmək istəyir, içimizdəki çirkabı onun üstünə tökməklə öyünürük. Bəs hanı ağsaqqala hörmət ənənəsi? Dünən danışmaq üçün növbəyə duranlara belə bir sualım var: Bu gün dediyiniz sözləri bəs o zaman niyə demirdiniz? Onda qorxurdunuzsa, bu gün dırnaqiçi "qəhrəmanlığınızla" çox da öyünməyin. Dünən qarşısında tir-tir əsib səcdə elədiyinin bu gün enməsindən istifadə eləyib, onun üzünə sillə çəkmək heç bir millətdə kişilik sayılmayıb.

Hamımıza məlumdur ki, indi xalqımız çox ağır günlər yaşayır. Doğma torpağımızın taleyi həll olunan bir dövrdə biz təklənmişik. Görünən düşmənlə mübarizə aparmağa nə var ki... Lakin görünməyən düşmənlərimiz daha güclüdür. Görünən düşmənin də əli böyüklər ətəyindədir. Belə bir şəraitdə vəziyyətimizin ağırlığı göz qabağındadır. Əgər bu ağırlığı biz hamımız başa düşürüksə, indi bizim xırda hisslərlə məşğul olmağa ixtiyarımız yoxdur. İndi bizim aramızdakı xırda ədavəti unutmaqdan, şəxsi xeyrimizi cilovlamaqdan, bütün mənafelərimizi Vətənin taleyinə bağlamaqdan başqa ayrı yolumuz olmamalıdır.

Bu gizli deyil, uzun əsrlərdən bəri bizim milli psixologiyamız da fərdilik güclü olmuşdur, öz şəxsi mənafeyimizi ümumin mənafeyindən üstün tutumuş, "mən"i "biz"dən qabağa çəkmişik. Buna görə də bir-birimizlə çəkişmiş, özümüzün daha çox haqlı və daha çox üstün olduğumuzu sübuta çalışmışıq.

Lakin bu gün, Vətənin və millətin taleyi həll olunan bu ağır günlərdə, gəlin, şəxsi mənafeyimizdən və şəxsi ədavət hissimizdən əl çəkək, Vətənin taleyində yumruq kimi birləşək. Quru yer üstündə xalqımız üçün ilk müstəqil dövlət yaradan böyük atamız M.Ə.Rəsulzadəni eşidək. O, vaxtı ilə demişdir: "İstiqlaliyyəti olma-

yan xalqın xırda çəkişmələrlə məşğul olmağa ixtiyarı yoxdur".

Gəlin, bu müdrik sözləri qulaqlarımıza sırğa edək və iki atalar sözlərini də yadımıza salaq: "Gedənin dalınca danışmazlar", bir də "Yıxılan ağaca balta çalmazlar".

*"Respublika" qəzeti, 16 fevral 1991*

*"Yanan da mən, yaman da mən", Bakı 1995*





## “AZƏRBAYCAN” QƏZETİNİN OXUCULARINA

Redaksiya heyətinin üzvü olduğum “Azərbaycan” qəzetinin ünvanına 500 manat pul aldım. Həmin məbləği Perm vilayəti Çusovskoye qəsəbəsində məhbus olan Kazımov Tofiq Nəbi oğlu adlı bir eloğlumuz mənim adıma göndərmişdi. O, mənim ünvanıma yazdığı açıqlamada bu məbləği “Xalqımızın ehtiyacı olan fonda keçirməmi xahiş edir”.

Açıqlamanı oxuyub dəhşətə gəldim. Məhbəsdə olan, əmək haqqına düşən cüzi məbləğdən kəsib, Vətənimizin bu günündə xalqa yardım əli uzadan bu vətənpərvərin qəlbinin böyüklüyünə heyrət etdim. Bu, qeyrət simvoludur. Bu, böyük vətən daşlıqdır. Minlərindən, milyonlarından keçə bilməyən, Vətənin bu dar günündə öz milyonlarından cüzi bir hissəsini xalqına qıymayan varlılar da tanıyırıq. Amma cüzi qazancından kəsib 500 manatı Vətəninə qıyan uzaq bir məsafədən Vətənə əl uzadan Tofiq Kazımovun vətəndaşlıq hissi önündə baş əyməmək, onun qəlbinə səcdə qılmamaq mümkün deyil! Vətənin çörəyi halal olsun belə Vətən övladına!

Əziz oxucular! Tofiq Kazımovun açıqlanmasını eyni ilə sizin mühakimənizə təqdim edirəm: “Hörmətli Bəxtiyar müəllim! Sizin adınıza 500 manat teleqrafla, 500 manat poçtla göndərdiyim pulu

sizdən xahiş edirəm, mənim xalqımın ehtiyacı olan fonda keçirəsiniz. Mənim bir məhbus kimi hələ ki, buna gücüm çatır. Xalqıma uğur arzulayıram".

P.C. Mən həmin məbləği Qarabağa Xalq Yardımı Komitəsinin hesabına keçirdim.

"Azərbaycan" qəzeti, 28 dekabr 1991
"Yanan da mən, yaman da mən", Bakı 1995





# NƏNƏM MƏNƏ KOR DEYİB...

Hörmətli redaktor!

Qəzetinizin 26 iyun (1991) tarixli nömrəsində dərc olunan A.Səmədin "Acı həqiqət daha xoşdur" məqaləsi ürəyimdən tikan çıxartdı. Məqalədə müəllifin toxunduğu məsələ barədə mən də yazmaq istəyirdim. Macal tapmırdım. Dərc etdiyiniz məqalə həmin mətləb barədə fikrimi bildirməyə bir təkan oldu. A.Səməd çox gözəl deyir: "20-30-cü illərdə və sonrakı illərdə M.Ə.Rəsulzadəni necə söyürdüksə, indi həmin avazla mədh edirik. Həmin avazla da düşmüşük N.Nərimanovun üstünə. Təzə bir "xalq düşməni" obrazı da yaradırıq".

Müəllif tamamilə haqlıdır. Biz böyüklərimizi həmişə ya söymüşük, ya öymüşük. Belə olmaz, qardaşlar! Gəlin, yalnız bu günün havasına oynamayaq. Keçdiyimiz yollara nəzər salaq, bu gün havaya uyub söydüyümüz şəxsiyyətin bugünkü baxımdan səhv hesab etdiyimiz dünənki əməlini, yaxud yazısını tarixilik baxımından təhlil edək. Həmin yazının, ya əməlin nə vaxt və hansı şəraitdə meydana çıxdığını nəzərə alaq.

Zaman keçəndən sonra bu günün zirvəsindən baxıb dünənki əməlin qüsurlu olduğunu bilmək və görmək hünər deyil. Bugünkü yazımıza, yaxud əməlimizə də sabah nəvə-nəticələrimizin necə baxacağını biz hardan bilirik? Onda gəlin ehtiyatlı olaq! Böyüklərimizi

bu gün tənqid edəndə sabahımızı düşünək və bir də unutmayaq ki, tənqid etmək çox asandır, uçurmaq asan, qurmaq çətin olduğu kimi.

Böyük M.F.Axundzadənin, A.Bakıxanovun, N.Nərimanovun yazılarına bu günün ölçüsü ilə yanaşsaq, çox səhv taparıq. Bu günün arşınıyla ölçsək, nəinki onlar, heç bir klassikimiz bu ölçüyə tab gətirə bilməz. Mən Nizamidən, Füzulidən, Q.Təbrizidən, filosof Bəhmənyardan, eləcə də memar Əcəmidən bu günün ideyalarını necə tələb edə bilərəm? Buna bizim heç haqqımız da yoxdur. Hər sənətkarı, hər alimi öz zəmanəsinin içində təhlil etməli, onların əməllərini öz zamanlarının ölçü vahidi ilə ölçməli və qiymət verməliyik! "Nənəm mənə kor deyib, gəlib-gedəni vur deyib" şüarı ilə əlimizə dəyənək götürüb keçmişimizi baltalamaq mədəni millətə yaraşmaz. Niyə, qonşularımızdan öyrənmirik? Mən inanmıram ki, bir erməni, ya gürcü öz keçmişini baltalasın, dədəsinin üzünə tüpürsün? Gəlin özümüz özümüzə çirkab atmayaq.

M.F.Axundzadə dinə münasibətində ifrata varıbsa, bəs onun Azərbaycan ictimai fikrində böyük bir dönüş yaratdığını, yeni sosial ədəbiyyatın banisi olduğunu, Mirzə Cəlil məktəbinin təməl daşlarını qoyduğunu unudaqmı? Eləcə də Bakıxanov və N.Nərimanov! Bu böyük şəxsiyyətləri məşhər ayağına çəkənlərə bircə sözüm var: Tənqid etdiyin şəxsiyyətlərin bu millətə göstərdiyi xidmətin yüzdə biri qədər xidmət göstərməmiş onlar haqqında yaxşı, ya pis söz deməyə sənin mənəvi haqqın yoxdur. Əvvəl bu mənəvi haqqı qazan, ondan sonra əlinə qələm götürüb "Nənəm mənə kor deyib" - de!

1991
"Yanan da mən, yaman da mən", Bakı 1995





# UNUTQANLIQ

Hörmətli redaktor!

Qəzetinizin 16 fevral 1993-cü il tarixli nömrəsində Ordubad şəhərinin ağsaqqalı Cəbrayıl Həsənli dədənin mənim adıma ünvanlanmış yazısını oxudum. Andronikin o tərəflərdə törətdiyi faciələrin canlı şahidi olan Cəbrayıl kişinin ürək yanğısı ilə yazdığı məqalə hər bir vətəndaşın qəlbini qanatmaya bilməz. Deyim ki, bu kişinin yazdıqları ötüb-keçən tarixdir. Lakin bizim bədbəxtliyimiz həmin tarixi unutmağımız olmuşdur. Daha doğrusu, o tarixi bizə unutdurdular; və bu unutqanlığımızdan da bugünkü faciəmiz törəndi.

Yaxşı yadımdadır, 1966-cı ildə Yerevan Universitetinin prorektoru çıxışlarının birində Naxçıvanın qədim erməni torpağı olduğunu demiş və millətini bu torpağı geri almağa çağırmışdı. S.Vurğunun 60 illik yubileyi gecəsində Bakı Universitetinin professoru Abbas Zamanov erməni prorektorunun torpaq iddiasını xatırladıb bizim respublikanın rəhbərlərini bu iddiaya cavab verməyə çağırdı. Bizim o zamankı rəhbərlər A.Zamanovun səsinə səs vermək əvəzinə onu işdən və partiyadan çıxartdılar.

Partiya iclasında A.Zamanovu professor Əli Sultanlı, marksizm-leninizm müəllimi Muxtar (soyadını unutmuşam), bir də mən müdafiə elədik. O da yadımdadır ki, dosent Raifə Həsənova bitərəf qaldı.

Üç gündən sonra məni KQB-yə çağırdılar, öyüd-nəsihət verdilər. Tapşırdılar ki, bir də bu "qələti" eləməyim. Sonra eşitdim ki, Ə.Sultanlını və Muxtar müəllimi də "dara" çəkiblər.

KQB-nin verdiyi "öyüd"ə cavab olaraq mən "Torpaqdan pay olmaz" adlı bir şeir yazdım. Şeir əldən-ələ gəzdi. (Həmin şeiri 1991-ci ildə çap olunmuş "Nağıl-hekayə" kitabıma salmışam).

Bir qədərdən sonra məni yenidən KQB-yə çağırdılar. O da yadımdadır ki, məni Abdullayev adlı bir mayor çağırmışdı. O, mənə "Torpaqdan pay olmaz" şeirimi göstərib dedi:

- Bu kimin şeiridir?

Dedim, bilmirəm.

O, nə qədər təkid elədisə də, mən qəti surətdə rədd etdim.

O, dedi ki, üslub sizin üslubunuza oxşayır. Hər oxuyan bu şeirin sizin tərəfinizdən yazıldığını təsdiq edir.

Uzun çək-çevirə və bir qədər də hədə-qorxuya baxmayaraq, şeirin müəllifliyini boynuma götürmədim.

Bunlarla nə demək istəyirəm?

O zaman bizdən torpaq iddiası qaldıran erməni prorektorunu 1-2 aydan sonra universitetə rektor göndərdilər, bizdə isə boş və yalan iddiaya cavab verən A.Zamanovu işdən və partiyadan çıxarıb illərlə ac qoydular. Onu müdafiə edənləri isə çarmıxa çəkdilər.

1828-ci il işğalından zəmanəmizə qədər imperiya siyasəti həmişə başımıza gətirilən müsibətləri bizə unutdurmağa çalışıb. Buna nail də olub. Amma bir həqiqəti də boynumuza alaq ki, imperiya siyasəti çox münbit zəminə düşürdü. Çünki unutqanlıq xəstəliyi bizim zatımızda da var. Mən uzun illər xalqımızın milli psixologiyasını öyrənməyə çalışmış və ən nəhayət, bu qərara gəlmişəm ki, bizim millətdə yaxşılıqları heç vaxt unutmamaq, amma ona olan pisliklərin üstündən qələm çəkmək şakəri var.

Mən bununla bir xalq üçün başqa xalqa qarşı həmişə kin və küdurətlə yaşamağı müsbət hal hesab etmirəm. Lakin ona olan pislikləri, yəni tarixi yaddaşı unutmamağı, həmişə ayıq-sayıq olma-

ğı, “itlə yoldaş ol, çomağı əlindən buraxma” fəlsəfəsini özünə bayraq etməyi vacib sayıram.

Bax, bu ayıq-sayıqlığımızın olmaması və türkəsayalığımız ucbatından çoxəsrlik düşmənimiz olan erməni qılığımıza elə girdi ki, 5-10 il əvvəl başımıza gətirdiyi müsibətləri unudub, “axçilər”i evimizin gəlini də elədik.

Nəticəsi göz qabağındadır. Unutqanlığımız sayəsində bu gün millətimizin halalca adından da imtina edirik. Bu günə qədər öz adımızdan başqa hər adı kürəyimizə yamayıblar. Amma indi öz doğma adımızı özümüzə qaytaranda buna başqası yox, özümüzünkülər etiraz edir. Məgər yalnız bu fakt, bizim tarixi yaddaşımızı unudub, manqurtlaşmağımıza sübut deyilmi?

Bəli, unutqanlığın bəhrəsi manqurtluqdur.

Buna görə də Cəbrayıl dədənin məqaləsini dərc eləməkdə çox yaxşı iş görmüsünüz. Bəlkə, belə yazılar bizi bizə qaytardı. Buna görə də redaksiyaya və məqalənin müəllifi Cəbrayıl dədəyə dərin təşəkkürümü bildirirəm.

“Naxçıvan” qəzeti, 2 mart 1993
“Yanan da mən, yaman da mən”, Bakı 1995





# MƏKRLİ YALAN VƏ BÖHTAN KİMƏ GƏRƏKDİR?*

Azərbaycan Respublikası Ali Sovetinin orqanı "Azərbaycan" qəzetinin 29 oktyabr tarixli nömrəsində "Xoruzun quyruğu görünür" sərlövhəli yazı dərc olunmuşdur.

Bizi nə müxalifət qəzeti, nə də onunla söz savaşına qoşulan rəsmi orqanın növbəti atəşi maraqlandırır. Bizi təəccübləndirən elmi-siyasi, ictimai və hətta nəzəri mükalimənin, mübarizənin yalan və böhtanlarla müşayiət olunmasıdır. Ən dəhşətlisi isə qeyrət və namusla yaşayıb, Azərbaycan dövlətçiliyi və həqiqi istiqlaliyyət uğrunda fədakarlıqla mübarizə aparan, bu yolda həyatını belə əsirgəməyən Məhəmməd Əmin Rəsulzadənin ünvanına ədalətsiz və gərəksiz deyilən sözlərdir.

"Azərbaycan" imzası ilə dərc olunmuş yazıda deyilir: "Elçibəy və onun komandası Azərbaycanın var-dövlətini xaricə daşımaqda babaları M.Ə.Rəsulzadənin yolu ilə hərəkət etmişlər". Anonim donosçunun M.Ə.Rəsulzadə haqqında bu prokuror ittihamı və məhkəmə hökmünü andıran qarayaxmasının vaxtilə kimlər, hansı orqanlar tərəfindən uydurulduğu, xaricdəki agentlərə ötürülüb Azərbaycanın istiqlalı uğrunda mübarizəni davam etdirən mücahidləri və onların liderlərini gözdən salmaq məqsədinə "xidmət" etdiyi tarixdən

---

*Məqalə professor Şirməmməd Hüseynovla birgə yazılmışdır.

xəbəri olanlara məlumdur. KQB-çilərin bu uydurmasını yenidən siyasət meydanına gətirmək istəyənlər gərək bilsinlər ki, o vaxtlar M.Ə.Rəsulzadənin Azərbaycanı kiminlə birlikdə tərk etdiyinin üstü vurulmurdu.

M.Ə.Rəsulzadənin "Azərbaycanın var-dövlətini xaricə daşımasına" gəldikdə isə, bu uydurma və böhtanı yazan və yayanlara xatırlatmaq lazımdır ki, 1920-ci il aprelin 27-də Azərbaycanın istiqlalına son qoyulduqdan sonra M.Ə.Rəsulzadə gizli işə keçmişdi. 3 aydan artıq Lahıc və İsmayıllı rayonunun müxtəlif kəndlərində qeyrətli və qədirbilən kişilərin evlərində qalmış, hətta "Əsrimizin Səyavuşu" əsərinin bir neçə fəslini orada yazmışdır. Sonralar Qaraməryəmdə həbs olunub, Bayıl həbsxanasına salınmışdı. Onu ölüm hökmü gözləyirdi. Bu arada, yəni 1920-ci ilin noyabr ayının əvvəllərində İ.V.Stalin Bakıya gəlmişdi. Hətta noyabrın 6-da Oktyabr inqilabının 3-cü ildönümünə həsr olunmuş təntənəli yığıncaqda məruzə ilə çıxış da etmişdi.

Həmin günlərdə İnqilab komitəsinin və Azərbaycan hökumətinin başçısı N.Nərimanov M.Ə.Rəsulzadənin həbsdə olduğunu İ.V.Stalinə xəbər vermişdi. Stalin onu Bayıl həbsxanasından çıxarıb, öz vaqonunda Moskvaya aparmışdı. Birinci rus inqilabı dövründən M.Ə.Rəsulzadəni yaxşı tanıyan Stalin beləcə, kişicəsinə hərəkət etmişdi. O, M.Ə.Rəsulzadəni namuslu, qeyrətli, əqidəli bir adam kimi tanıyırdı.

M.Ə.Rəsulzadə təxminən ilyarım Moskvada nəzarət altında işləyəndən sonra 1922-ci ilin payızında Peterburqa elmi ezamiyyətə getmiş və oradan Finlandiyaya qaçmağa müvəffəq olmuşdu. Əliboş, cibi boş... Apardığı Azərbaycanın dərd-qəmi, milli qeyrəti, istiqlal məfkurəsi, xalqın gələcəyinə inam və inancı idi. Axı, M.Ə.Rəsulzadə "Azərbaycanın var dövlətini" qaçqın çağında, həbsxanalarda özü ilə necə daşıya bilərdi? Fövqəladə komissiyanın nəzarəti altında olan Stalinin şəxsi vaqonundamı?

Təəssüf, qəzəb və nifrət doğuran budur ki, Şərq və Qərb

M.Ə.Rəsulzadəni həqiqi demokrat, Azərbaycanın istiqlal məfkurəsinin

yaradıcısı, Azərbaycan Xalq Cümhuriyyətinin lideri kimi tanıyır, onun öz vətənində isə adına qara yaxılır.

Bircə nümunə: 1990-cı il, iyun ayının 14-də Tehranda nəşr olunan "Keyhani-həvaye" qəzeti yazırdı: "Rəsulzadəni tanıyanlar onu böyük inqilabçı, Şərqin mütəfəkkir və ağıllı, hətta bənzəri olmayan bir şəxsiyyət kimi tərif ediblər. Məlumatı çox, istidlalda (nəticə çıxarmaqda) qüdrətli, hövsələli və hər məsələdən intiqad edəndə (danışanda) insaflı olub, demək olar ki, tamam ömründə bir dəfə də yalan danışmamışdır. Həmişə sabitqədəm olmuş və heç vaxt acıqlanmaz idi. Heç vaxt mübaliğə etməz idi. Xalq məfkurələrini aydınlaşdırmaqda, yəni ruznaməçilik yaratmaqda və başqa xidmətləri, o cümlədən məşrutə inqilabında etdiyi yardımlar yaddan çıxan bir şey deyildir".

Bu, Tehranda verilən qiymət, bu da Bakıda Ali Sovetin orqanında totalitar rejim dövründə uyudurulmuş saxtakarlığın təkrarından ibarət olan böhtan!

Xəcalət çəkiləsi, təəssüf ediləsi deyilmi?

"Aydınlıq" qəzeti, 5 noyabr 1993
"Zaman və mən", Bakı 1999





## DİNİ DƏYİŞMƏK NƏ DEMƏKDİR?

Hörmətli redaktor,

Qəzetinizin 11 aprel tarixli sayında "İslamı təhlükə gözləyirmi?" başlığı altında 3 din xadiminin qeydlərini oxudum. Mən də bu məsələyə, xüsusən din xadimlərinin fikirlərinə öz münasibətimi bildirmək istəyirəm. Çünki son dərəcədə yaralı olan bu məsələ axır illərdə məni çox düşündürür.

Son illərdə Krişnaçılıq Azərbaycanda yayılmışdır. Mən Krişna cəmiyyətinin sədri Ağaəli Qasımova belə bir sualla müraciət edirəm:

Əgər Krişna, Siz dediyiniz kimi, Allahı idrak elmidirsə (mən buna şübhə etmirəm), onda bəs islam nədir? Fəlsəfəsi və təlimi nədən ibarətdir? Siz yəqin ki, Allahı idrak etmək məqsədilə Krişnanı qəbul etmisiniz. Çox yaxşı, onda belə bir sualım var: Məgər İslam dini vasitəsilə Allahı dərk etmək mümkün deyilmi ki, siz özgə dinə pənah aparmısınız?

Əlbəttə, Ana yasamıza görə bizdə din və vicdan azaddır. Bu, vətəndaşın öz işidir. Ancaq daim bilmədiyini öyrənməyə can atan bir ziyalı kimi, bilmək istərdim: siz öz dədə-babanızın etiqad etdiyi İslamı və ondan doğan müxtəlif təriqətləri, xüsusən təsəvvüfü kifayət

qədər bilirsinizmi? Siz bilirsinizmi ki, bu gün Sizin başqa dinlərdən üstün sayıb qəbul etdiyiniz Krişna təlimi təsəvvüfə nə qədər yaxındır?

Təsəvvüfə görə, Allahı idrakın özünün idrakdan keçdiyini bilirsinizmi? Əgər bilirsinizsə, evin içini qoyub çölündə həqiqət axtarmaq nə dərəcədə doğrudur?

Bu ağrılı məsələdə mən pravoslav kilsəsinin ruhanisi müqəddəs ata Alekseyin və Bakı İslam Universitetinin rektoru Hacı Sabir Həsənlinin fikirləri ilə tam razıyam.

Din dəyişmək hadisəsinə tarixin müxtəlif dönəmlərində rast gəlmişik. Lakin mənim müşahidəmə görə, son zamanlar rastlaşdığım bu hadisə savadsızlıqdan və əqidəsizlikdən qaynaqlanır. Din dəyişən adamdan hər iki dini müqayisə edib, sonra nəticəyə gəlmək üçün dərin bilik tələb olunur. O, vaxtilə olduğu və sonar qəbul etmək istədiyi dinlərin bütün incəliklərini, mahiyyətini və fəlsəfəsini bilməlidir. Buna görə də mən dinini dəyişənlərdən sormaq istəyirəm: sən qəbul etdiyin dinin hansı üstün cəhətini və inkar etdiyin dinin hansı cəhətinin səni qane etmədiyini bilirsənmi?

Şəkidə bir məclisdə müsəlman dinini qəbul edən bir mühəndis rusla tanış oldum. Ona dinini dəyişdirməsinin səbəbini və seçdiyi islam dinini dərindən bilibbilmədiyini sordum. O, mənə islam dininin mahiyyətini elə anlatdı ki, ona heyran qaldım. Yaxud, mənim 35 illik alman dostum Əhməd Şmide islam dinini nə üçün qəbul etdiyini mənə elə gözəl açıqlamışdı ki, mən onun bütün varlığı ilə müsəlman olduğuna inanmışam.

Hamımıza gün kimi aydındır ki, son illər sərhədlərimizin şəffaflaşmasından yararlanan missionerlər respublikamıza doluşmuş, bir ata və bir anadan doğulmuş vahid milləti müxtəlif din və məzhəblər vasitəsilə parçalamaq məqsədini güdürlər. Müqəddəs ata Aleksey çox gözəl deyir ki: “azad vicdan siyasi baxışlardan mütləq azad olmalıdır”. Xaricdən gələn din dəllallarının təbliğatına uyub din dəyişmək və bunu Allahı idrakla bağlamaq 5 yaşlı uşağı aldatmağa bənzəyir. Əslində, yalnız Krişna deyil, bütün dinlər Allahı dərketmə

yolu deyilmi?

Mən Hacı Həsənlinin bir fikrinə tam şərikəm ki, islamı təbliğ edən din xadimlərimizin elmi biliklərinin zəif olması, son zamanlar başqa ölkələrdən gəlmiş hərtərəfli təhsilə malik din mübəlliğlərinin savadı və bu savaddan doğan məntiqli mülahizələri ölkəmizdə başqa dinlərin yayılmasına səbəb olmuşdur. Hüzr məclislərini aparan ruhanilərimizin söhbətlərinin aşağı səviyyədə olması, elmdən çox xurafata bənzəməsi, hətta yas sahibələri ilə qiymət sövdələşməsi ziyalılarda onlara qarşı ikrah hissi oyadır, müqəddəs dinimizi gözdən salır.

Son 4-5 ayda mənə poçtla 2 "İncil" göndərilmişdir: birini Şamaxıdan Saşa adlı tanımadığım bir nəfərdən, ikincisini isə Bakıdan naməlum bir ünvandan almışam. Amma öz Quranımızın bazarda çox baha qiymətə satıldığını necə başa düşək?

Mənim bütün müqəddəs kitablara, o cümlədən də "İncil"ə böyük hörmətim var və onu çoxdan oxumuşam. Göndəriblər, sağ olsunlar. Ancaq... onun tanımadığım naməlum mənbələrdən gəlməsi və bunun arxasında duran məqsəd bizi düşündürməlidir.

Hörmətli redaktor, Siz çox yaxşı eləyib bu lazımlı məsələyə qəzetinizdə yer vermisiniz. Arzu edərdim ki, bu məsələni başlamısınız,

davam etdirəsiniz. Qoyun, hər kəs öz fikrini desin, geniş müzakirə açılsın. Məncə, bu məsələ dövlət səviyyəsində müzakirə olunmalı, hələ yetkinləşməmiş gənclərimizin dini və milli əqidə tərbiyəsinin istiqaməti barədə dərindən düşünməliyik.

*"7 gün" qəzeti, 16 aprel 1996*

*"Zaman və mən", Bakı 1999*





## ALLAH FƏRYADIMIZA ÇATSIN

Şair İ.İsmayılzadənin "Ekran-efir" qəzetinin 13-19 sentyabr (1993) tarixli sayında çap olunan "O yanda qan tökülür, bu yanda..." məqaləsində düşdüyümüz faciəli vəziyyətdən, milli varlığımıza biganəliyimizdən ürək ağrısı ilə söhbət açılır.

Qələm dostumun qarşılaşdığı biganəliklə mənim də bir neçə gün əvvəl qarşılaşdığım yadıma düşdü: Füzuli, Cəbrayıl rayonlarının işğalından bir gün sonra boynumda çox böyük haqqı olan, hörmət elədiyim bir dost məni oğlunun toyuna çağırdı. Rədd edə bilmədim. Amma belə şərtləşdik ki, bir saatdan artıq oturmayacağam.

Toy, nə toy! "Bala nərgiz" kimi bayağı mahınlar və əttökən rəqslər! Cavandan tutmuş qocaya, uşaqdan tutmuş böyüyə qədər toy əhli çırtıq çalıb oynayır. Onluq, yüzlük əsginaslar da göydən yağış kimi yağır. Xəzəl kimi yerə səpələnmiş əlvan əsginasların üstündə adamlar çatısı qırılmış dana kimi tullanıb-düşür. Hətta bir dəliqanlı iki ədəd yüzlüyü şama tutub yandırdı.

Gözlərimə inanmadım. Elə bil, dünən işğal olunmuş torpaqlarımızın bu adamlara heç bir dəxli yoxdur. "Qeyrətli" kişilər arasında paçkaları cırıb pulları göyə sovurmaq yarışı gedirdi. Elə bil, bununla hər kəs öz qeyrətini və kişiliyini nümayiş etdirmək istəyirdi. Onluq

paçkasını səpələyən bir cavanı "məğlub etmək" üçün mənim qarşımda əyləşən ağ saçlı bir kişi dərhal ayağa qalxıb, iyirmi beşlik paçkasını səpələməyə başladı.

Məəttəl qalmışdım. Doğrudanmı, bu bizik? Doğma torpaqları yad ayaqlarda tapdanan, bir milyon didərgini olan, vətəninin balaları Bakı küçələrində gedib-gələnlərə əl açan bir millətin oğlu beləmi olmalıdır? Bu, harınlıqmı, yoxsa, biganəlikmi? Yəni, biz öz dərdimizə, öz faciəmizə bu qədərmi laqeydik? Əgər belədirsə, vallah, billah, biz millət deyilik!

Dözə bilmədim. İyirmi beşlikləri göyə səpələyən yaşlı kişi tövşüyə-tövşüyə qarşımda oturanda ona dedim:

- İndi sən göyə pul səpələməklə nə demək istəyirdin?

Heyvan məni başa düşmədi. İzah etməyə məcbur oldum:

- Pulun artıqdı? (Demək istəyirdim ki, arpan artıq düşüb?)

Yenə başa düşmədi.

Dedim:

- Sən göyə pul sovura bilirsən, amma mən yox! İndi demək istəyirsən ki, sən məndən artıqsan? Onluq paçkasının qarşısında iyirmi beşlik çıxarmaqla sən cavandan artıq olmaq istədiyini deyirsən? Ayıb deyil? Bəs dünən Cəbrayıl, Füzuli rayonlarının əlimizdən getməsi səni ağrıtmır?

Mənə nə desə yaxşıdır?

- Toyda oynayarlar, yasda ağlayarlar.

Dedim:

- Bəs, axı, sənin millətin yas içindədir, o yası niyə görmür, küçələrə tökülən qaçqınların halına ağlamırsan?

Susdu... Mən də susdum və dərhal toyu tərk elədim. Yolda düşünürdüm: millətimizdəki bu soyuqqanlığı əsrimizin əvvəlində Sabir də görmüş, "Bizdə bu soyuq qanları neylərdin, ilahi?" - deyə nalə təpmişdi. 1967-ci ildə yazdığım "Mənə nə var?" şeirində təbiətimizdəki bu soyuqqanlılığa üsyan etmişdim:

Demə, daş yayınıb qardaşa dəydi,
Mən elə bildim ki, daş daşa dəydi.
Yurdun o başında yıxılan kəsin
Ağrısı qəlbində gərək göynəsin.

M.Araz da bu fikri dəstəkləyən "Məndən ötdü, qardaşa dəydi" şeirini yazdı. Bu gün də İ.İsmayılzadə yenə həmən məsələyə toxunur.

Görünür, qardaş dərdinə biganəlik bizdə xroniki xəstəlikdir. İndi ki, belədir, Allah özü bizim fəryadımıza çatsın!

"Ekranefir" qəzeti, oktyabr 1993
"Zaman və mən", Bakı 1999



## DİLDƏ, ƏMƏLDƏ, FİKİRDƏ BİRLİK!

Uzun illər türk dünyasından ayrı yaşasaq da, bir zaman mütləq doğma qardaşlarımıza qovuşacağımıza inanırdıq. Çünki biz bilirdik ki, su axdığı yerdən bir də axmalıdır. Sovet imperatorluğu dövründə qazax, özbək, tatar, türkmən, qırğız, başqırd qardaşlarımızla azçox əlaqələrimiz vardı. Lakin türk dünyasının mərkəzi hesab etdiyimiz Türkiyə ilə heç bir ilişgimiz yox idi. O zamanlar biz Türkiyə türklərinin həsrəti ilə yaşayırdıq. Heç bir azəri türkünün dilinə belə gətirə bilmədiyi qovuşmaq, qaynaşmaq arzusu, ulu Tanrıya min dəfə şükür olsun ki, həqiqətə çevrilmişdir. İndi Bakının küçələrini gəzərkən addımbaşı Türkiyə türklərinə rast gəlir, bir-birimizlə salamlaşır, hal-əhval tuturuq. Biz bu gün nail olduğumuz bu həqiqətə sevinməli, lakin yerimiz də saymamalı, bizi birləşdirəcək böyük amallara doğru yürüməliyik.

Mən indiki münasibətlərimizi yetərincə saymıram. Yuxarıda dedim ki, biz Türkiyəni türk dünyasının paytaxtı hesab edirik. Əgər bu, doğrudan da belədirsə, gərək təşəbbüsü və işgüzarlığı Türkiyə öz əlinə ala. Təəssüflə deməliyik ki, mən türk qardaşlarım da bu təşəbbüskarlığı görə bilmirəm. Sovet imperatorluğu çökəndən sonra da türk qardaşlarım "Batı", "Batı deyə durur. Batılaşma xülyası artıq

bitmədimi? Mən elə gəlir ki, artıq Türkiyə üzünü Batıdan Doğruya çevirməli, üzünü rus əsarətindən qurtarmış doğma qardaşlarına tutmalıdır. Türkiyə bilməlidir ki, o, yalnız 65 milyondan ibarət deyildir, onun ətrafında böyük türk dünyası var.

Türk dünyasının mövcudluğunu, daha böyük gələcəyini istəyiriksə, mədəni və elmi əlaqələrimizi genişləndirməliyik. Mən anlaya bilmirəm, nə üçün türk teatrları gəlib bizdə tamaşalar verməsin,

nə üçün bizim teatrlarımız Türkiyənin böyük şəhərlərində qastrol verməsin? Mən arzu edirəm ki, bizim dəqiq elmlər sahəsində çalışan alimlərimiz Türkiyə alimləri ilə müştərək işlər aparsın, kəşflər eləsinlər. Türk yazarlarının əsərləri Azərbaycanda, Azərbaycan yazarlarının əsərləri Türkiyədə nəşr edilsin.

Mən Türkiyə dövlət teatrlarının repertuarları ilə tanışam. Türk

teatrları ildə 15-20 əsəri tamaşaya qoyur. Amma bunların 90 faizi rus və Qərb dramaturqlarının əsərləridir. Niyə türk teatrları bütün Şərq aləmində dramaturgiyanın əsasını qoyan M.F.Axundzadənin, dramaturgiyanı Şekspir və Şiller səviyyəsinə qaldıran C.Cabbarlının, türkçülüyü təbliğ edən H.Cavidin mənzum pyeslərini tamaşaya qoymasın?

Mən 2 il bundan əvvəl ümumi atalarımız olan Göytürklərin böyük dövlətçiliyindən bəhs edən "Göytürklər" pyesimi Türkiyə Kültür Bakanlığının teatrla məşğul olan şöbəsinə təqdim etdim. Amma ordan heç bir səs-soraq gəlmədi.

Bir neçə il bundan əvvəl təklif verdik ki, Böyük Türk dünyasının Elmlər Akademiyasını yaradaq. Bu akademiyaya bütün elmləri tədqiq edən sahələr daxil edilsin və hər Türk dövlətindən sahələr üzrə alim və tədqiqatçılar cəlb etməklə, elmlərin ortaq terminoloji lüğətini hazırlayaq. Təkliflərimizi böyük rəğbətlə qarşılayan türk qardaşlarımız sonra təklifi tamam unutdular.

Əgər bu gün arzularımızın bünövrəsini qoymasaq, sabah gec olacaq. Türk dünyasının iftixarı olan İsmayıl Qaspralı hələ o zaman

"Dildə, əməldə və fikirdə birlik" şüarını ortaya atmışdı. Bu şüar hələ də arzu olaraq qalır. Bütün bunlara rəğmən, mən gələcəyimizə nikbinliklə baxıram. Bizim həyata keçirə bilmədiyimiz idealları, bu gün olmasa da, gələcəkdə nəvələrimiz əl-ələ verib, yerinə yetirəcəklər.

"Zaman" qəzeti, 3 aprel 1998
"Zaman və mən", Bakı 1999





# ƏSRİN
# GÖRÜŞÜ

Dünyamız yeni bir əsrə qədəm qoymaq üzrədir. Ömrünü başa vurmaqda olan XX əsr bəşəriyyət tarixində humanizmdən çox, dəhşətli müharibələri, kütləvi insan qırğınları, ideologiyaların toqquşması, nəhəng imperiyaların dağılması, müstəqil milli dövlətlərin yaranması, zamanın axarını dəyişən böyük kəşfləri, ilk atom bombasının partladılması, kosmosun fəthi ilə xatırlanacaq. Beləliklə, XX yüzilliyin elmi nailiyyətləri bəşəriyyəti xoşbəxtlikdən çox, bədbəxtliyə düçar etdi.

Əsrimizin böyük yazıçısı Çingiz Aytmatov sovet imperiyası dağılandan sonra bir yazısında demişdi ki, kommunizm və kapitalizm ideologiyalarının mübarizəsi Sovetlər İttifaqının çökməsilə sona yetdi. Bundan sonra mədəniyyətlərin qarşıdurmasını gözləmək olar. Biz bunun əlamətlərini Yuqoslaviyada müsəlman türklərlə xristian serblər, müsəlman albanlarla xristian serblər, müsəlman çeçenlərlə xristian ruslar, yəhudilərlə müsəlman ərəblər və nəhayət, azəri türkləri ilə xristian ermənilər arasında gedən müharibələrdə görməkdəyik. Bu isə bəşəriyyəti daha böyük fəlakətlərə apara bilər.

Belə bir zamanda dinlər arasında sülhə, barışa körpü ola biləcək hər bir təşəbbüsü alqışlamaq gərəkdir. İnsanlığa barış gətirən dinlərarası dialoqun başlanılması məhz bu zərurətdən doğmuşdur.

Bu gün dünyada mövcud olan 3 səmavi dinin hər birinin əsas qayəsi, özünü idrakdan keçən Allahı idrak düşüncəsidir. Bu düşüncə dinləri birləşdirən böyük amildir. Biz bu gün dinləri bir-birindən ayıran cəhətləri deyil, ortaq dəyərləri birləşdirməkdə əbədi sülhə, əbədi əmin-amanlığa qovuşmuş olarıq.

Türkiyənin ilahiyyat alimlərindən biri kimi dünyada tanınan Fətullah Gülən Əfəndinin bu təşəbbüsü və bütün təhdidlərə baxmayaraq, Roma papası ilə görüşməsi əsrimizin ən böyük və tarixi hadisəsi kimi qiymətləndirilməlidir. Bu gün F.Güləni Papa ilə görüşə getdiyinə görə qınayanlar sabah öz nəvə-nəticələrinin qəzəbinə düçar ola bilər. Əslində, bu böyük insane xristianların ayağına deyil, əbədi sülhün və əminamanlığın ayağına getmişdir. Sülh və səadət naminə atılan hər addımı alqışlamaq lazımdır. Görəsən, bu görüşün faydasını heçə endirmək istəyənlər sabah tökülməsi ehtimal olunan qanların qarşısı alınanda daha nə bəhanə tapacaqlar?

Əməl və əqidəsinə yaxından bələd olduğum, türk dünyasına əvəzsiz xidmətlərini bu gün də davam etdirən əməl qardaşım F.Gülənin bu istəkləri ilə bir neçə il bundan əvvəl tanış idim. Böyük Atatürkün "Yurdda sülh, cahanda sülh" şüarını bayraq edən Fətullah Əfəndinin dinlər arasında dialoq təşəbbüsü həm xristian, həm yəhudi və həm də müsəlman dünyasının mütərəqqi adamlarının ürəyincədir.

"Zaman" qəzeti, 26 mart 1998
"Zaman və mən", Bakı 1999





## GEYİNMƏK,
## YOXSA SOYUNMAQ?

“Egitim-bilim” dərgisinin builki mart sayında müəllimə Hənifə xanım Dumanoğlunun “Sınıfdan atılsam da Türkiyə sınıfında öyrətmənəm” adlı ürək ağrıdan yazısını və onun şagirdlərinin bu haqsız işə etirazlarını oxuyub çox təəssüfləndim.

Hənifə xanımın mütəvaze yazısından onun əsl müəllimtərbiyəçi olduğunu anladım. Bu gözəl insanı baş örtüsünə görə öz sevimli şagirdlərindən ayırmaq, müəllimlik hüququnu əlindən almaq nə dərəcədə ədalətlidir və demokratikdir?

Əvvəla, vətəndaşın necə geyinməsinin kimə nə dəxli var? İkincisi, əgər bir ölkə öz vətəndaşının necə geyinməsinə müdaxilə edəcəksə, bunun harası demokratiya oldu? Üçüncüsü, əgər dövlət qadınların geyiminə müdaxilə etmək hüququna maliksə, qoy, onda ilk növbədə, türkə və müsəlmana yaraşmayan açıq-saçıq geyinmiş qadınların ədəbsizliyinə etiraz etsin. Nəyə görə, ədəbli geyinmək qüsur və geriçilik, amma anadangəlmə lüt-üryan gəzmək isə mədəniyyət və irəliçilik hesab olunmalıdır?

Məktəb kimi tərbiyə ocağına atalarımızın bizə miras qoyduğu ədəb-ərkanla, öz əxlaqı və abır-həyası ilə gəlmək nə zamandan gerilik hesab olunub?

Çox düşünəndən sonra sizə verdiyim bu sualların cavabını özüm

tapdım: məlumdur ki, Həvva anamız anadangəlmə çılpaq gəzirdi. Sonradan utanmaq və abır-həya meydana gəldi. Və ilk nənələrimiz abırsız yerlərini örtmək üçün ağac yarpaqları və heyvan dəriləri ilə geyinməyə başladı. Qadın və kişilərin geyinməyə başlaması sivilizasiyaya doğru ilk addım hesab olundu. Amma indi Batının təsiri ilə Türkiyə geri qayıdıb yarımvəhşi əcdadımızı təqlid edir - soyunmağa üstünlük verir. Soyunmayan qadınları ədəb və tərbiyə ocağı olan məktəblərdən qovur.

Elmin və mədəniyyətin başqa sahələrində olmasa da, Allaha şükürlər olsun ki, Türkiyəmiz soyunmaq məsələsində Batını da önlədi.

Mənə irad tutub deyə bilərsiniz ki, siz başqa bir ölkənin vətən daşı kimi bizim daxili işlərimizə müdaxilə etməyin. Haqlısınız, amma bir məsələni də unutmayın ki, mən də sizin kimi türkəm və müsəlmanam. Aramızdakı sərhədlər açılandan və sizin televiziya kanallarınızı seyr edəndən sonra bizim qadınlarımız da sizing qadınlar kimi soyunmağa başlayıblar.

Sonra, Sizə xatırlatmaq istəyirəm ki, sovet diktatura rejimində 70 il müstəmləkə həyatı yaşasaq da, bizim bir çox hüquqlarımız əlimizdən alınsa da, rus dövləti bizim qadınlarımızın geyiminə qarışmadı. Mən istərəm ki, demokratik Dövlət imicini qazanan Türkiyə bunu nəzərə alsın.

***2000***
***"Ədəbi düşüncələr", Bakı 2000***





# TARİX, TARİXİ ABİDƏLƏR





# TARİXİ ADLARI DƏYİŞMƏK OLMAZ

Hörmətli redaksiya!

"Şəki fəhləsi" qəzetinin 13 dekabr 1979-cu il tarixli nömrəsində dərc olunmuş "Belə küçə adlarını dəyişək" adlı məktubu oxudum. Müəllif qaldırdığı məsələdə "Kommunist" qəzetində dərc olunan bir məqaləyə istinad etsə də, orada yürüdülən fikrin əsl məqsədini dərk edə bilməmişdir. Ona görə də məktubda göstərilən məsələ ilə əlaqədar mən də öz fikrimi bildirmək istəyirəm.

Mənə elə gəlir ki, həqiqətən, Şəki şəhərində "Klub", "Pedməktəb", "Məktəb", "Fakültə" kimi küçə adlarını dəyişmək vacibdir. Çünki küçələrə verilən bu adlar heç bir məna daşımır. Lakin "Otaq eşiyi", "Şərbablar", "Qurcana" və s. kimi adlar xalqımızın tarixi ilə bağlı olduğundan bu adlara toxunmaq olmaz. Yenilik yenilik xatirinə deyil, ictimai məzmun xatirinə olanda məna kəsb edir.

Yeri gəlmişkən, burda bir vacib məsələyə də toxunmaq istəyirəm. Şəkidə bir "Əğvanlar" küçəsi var idi. Bu küçəyə camaat "Əfqanlar" da deyirdi. Bu küçədə yaşayan mərhum yazıçımız Sabit Rəhman bunun "Əğvanlar" olduğunu mənə demişdi. Bildiyimiz kimi, Şəkinin əfqan xalqı ilə heç bir tarixi ilişiyi yoxdur. Şəkinin Kiş kəndində Əğvan kilsəsinin bu gün də durduğunu və qədim tariximizin mü-

hüm bir dövrünün əğvanlarla bağlı olduğunu yada salsaq, bu adın gerçəkliyini doğrultmuş olarıq. Dil hadisəsinə görə "v" səsinin "f" ya keçməsi adi haldır. "Q" səsi ilə də "f" səsi yerini dəyişərək "əğvan" "əfqan" şəklini almışdır.

Sonralar S.Rəhmanın burda yaşadığını nəzərə alaraq, küçəni onun adı ilə adlandırdılar. Mən bunu tarixə qəsd sayır, küçənin əvvəlki adının, yəni "Əğvanlar"ın özünə qaytarılmasını, mərhum yazıçımızın adına isə başqa bir küçənin verilməsini arzu edərdim. Unutmaq olmaz ki, gələcəyin tarixçisi "Şərbablar", "Əğvanlar" və yaxud "Otaq eşiyi" adı ilə xalqın hansı dövrdəsə keçdiyi yolun, yaxud yaşadığı bir vəziyyətin izinə düşə bilər. Gəlin, tarixçilərin əlindən bu imkanı almayaq, əksinə, toponimiyamızı dərindən öyrənək. Məhəllə, kənd, dağ, çay, dərə adları elə-belə gəlişigözəl adlar deyil, qəbilələrin, yaxud onların başçılarının adları ilə, bu başçıların müəyyən fəaliyyəti ilə əlaqədardır. Biz bu adları dəyişdirməklə kökümüzə, tariximizə balta çalmış oluruq. Məhz buna görə də vaxtilə dəyişdirilmiş "Şəki" adını hökumət yenidən bizə qaytardı.

Bu işdə son dərəcə ehtiyatlı olmaq lazımdır.

Məktubun müəllifi M.Səlimov yoldaşın Şəkidəki küçələrdən birinin görkəmli Aşıq Molla Cümənin adı ilə adlandırılması təklifini isə alqışlayırıq.

"Vətən ocağının istisi", Bakı 1982





# GƏLİN, BİZ DƏ DÜŞÜNƏK

Qədim abidələr onları yaradan xalqın keçib gəldiyi yollardan, bu yollarda çatdığı fikir və xəyal məqamından xəbər verən nişangahlardır. Özünü neçə-neçə nəsillərə göstərib əsrlərin burulğanından keçib gələn bu abidələr susan daş nəğmələrdir.

Bu nişangahlar bizə ulu əcdadlarımızın zövqündən, ruhundan, istedadından və idrakından xəbər verir. Onların üstündəki oymalar, rəsmlər və yazılar ulularımızın keçən əsrlərdən əsrimizə göndərdikləri məktublardır. Bu məktubları biz dönə-dönə oxumalı, onlara səcdə qılmalı və qoruyub biz də bizdən sonrakı nəsillərə çatdırmalıyıq.

Professor Davud Axundovun "Azərbaycanın qədim və ilk orta əsrlər dövrü memarlığı" kitabı (rus dilində, Azərnəşr, 1986) bu cəhətdən olduqca qiymətlidir. Alim Azərbaycan memarlığı və incəsənəti tarixinin kifayət qədər öyrənilməmiş bir sahəsini - qədim və ilk orta əsr memarlarının, rəssam və heykəltəraşlarının yaradıcılığını tədqiq etmiş, memarlıqda və incəsənətdə mövcud olmuş qanunauyğunluqları araşdırmış və bu yolla tarixi abidələrimiz barədə sanballı bir əsər yaratmışdır.

Kitabdakı elmi mühakimələr, cədvəllər, habelə 300-ə qədər şəkil Azərbaycan memarlığı barədə, zəngin tarixi abidələrimiz barədə ətraflı məlumat verir. Digər tərəfdən, monoqrafiya Azərbaycan memarlığının köklərini izləməyə, araşdırmağa, bununla da memarlıq abidələrimizin tarixini öyrənməyə imkan verir.

D.Axundov qədim və ilk orta əsrlər Qafqaz Albaniyasının memarlığı və incəsənəti sahəsində tanınmış mütəxəssis olduğu üçün alimin Qafqaz Albaniyasının abidələri barədə söhbəti xüsusi maraq doğurur.

Kitab Azərbaycan memarlığı, qədim abidələrimiz barədə qiymətli tədqiqat əsəridir. Bu əsər abidələrimiz, onların tarixi barədə görkəmli alimin gələcək nəsillərə yadigarıdır. D.Axundovun bu kitabını "qədim və ilk orta əsrlər dövrü abidələrimizə abidə" adlandırsaq yanılmarıq. Ümumiyyətlə, tarixi abidələri göz bəbəyi kimi qorumaq, onları "danışdırmaq", "sirlərini-söhbətlərini" öyrənmək hər bir vətəndaşın borcudur. Çünki abidələr var ki, hələ tədqiq olunmayıb, hələ araşdırılmayıb. Bəlkə tariximizin hansı dövrü barədə isə elə bu abidə nəsə qiymətli söz deyəcək? Kim bilir?

Tarixi abidələrin dövlət tərəfindən qorunması barədə Qanun var. Çox yaxşı! Amma bu barədə bir qanun da var: vicdan qanunu, mənəviyyat qanunu! Bu torpaqda böyüyüb boyabaşa çatan hər bir vətəndaş bu torpağın keçmişinə, beləliklə, öz keçmişini öyrənməyə borcludur. Bu, adicə borc deyil, müqəddəs borcdur!

İndi soruşulur: bu müqəddəs borcu və vəzifəni biz layiqincə yerinə yetirə bilirikmi? Bəzi rayonlarımızda müəyyən işlər görüldü. Lakin bu, kifayət deyil. Bir çox abidələrimiz uçulub tökülən kərpiclərinin, ovulmuş daşlarının məlul gözləri ilə bizə baxıb bizdən imdad gözləyir. Biz isə laqeyd baxışla və soyuq ürəklə onların yanından ötür, yaralarına məlhəm qoymuruq. Bu gün biz biganəlik göstərdiyimiz kimi, gələcək nəsillər də bizim indi yaratdıqlarımıza laqeyd olsalar, heç kəs onları töhmətləndirə bilməz.

Bir misal. Qədim Gəncə tariximizin izlərini qoruyub saxlayan abidələrimizlə zəngindir. Lakin bu abidələrin bir qismi bizim gözlərimizin qarşısında soyuqqanlılığımız üzündən məhv olub gedir. Bu yerdə böyük Sabirin “Bizdə bu soyuq qanları neylərdin, ilahi?” - misrası yada düşür. Anlaya bilmirəm, biz nə zaman özümüzü dərk edib, özümüzə qiymət verəcəyik?

10-12 il bundan əvvəl qədim Gəncədə IX əsrin yadigarı olan Comərd qəssab məqbərəsi var idi. İndi hanı? Ət kombinatına istilik xətti çəkiləndə onu “uf” demədən öz əlimizlə dağıtdıq. Demək, babaların ruhunu mədəmizə qurban verdik! Bəs hanı bizim milli vüqar hissimiz və milli qeyrətimiz?

Gəncəçayın üstündəki 3 körpüdən biri son illərə qədər dururdu. O da dağıldı. Xalq da özünə, öz keçmişinə bu qədər etinasız olarmı? Biz özümüz özümüzə qiymət verməyəndə kim bizə qiymət verəcək?

Milli mədəniyyət abidələri ilə zəngin olan şəhərimizdən biri də

Ordubaddır. Bu abidələrdən ən maraqlısı böyük astronom Nəsirəddin Tusi nəslinin gömüldüyü Pir Eyvaz türbəsidir. Jurnalist Nəriman Həsənəliyevin yazdığına görə* bu qəbiristanda böyük xəttatların əllərilə naxışlanıb yazılmış baş daşları buldozerlərin ağzına verilib məhv edilmiş, türbələr dağıdılmışdır. Nəsriyyə nəsli türbələrinin yerində avtomat oyuncaq sexi açılmışdır. Adamı dəhşət götürür. Biz nəyi nəyə dəyişdiyimizi başa düşürükmü? Jurnalist sözünə davam edərək yazır ki, “Böyük Çinar Məscidi” gecə vaxtı rayon rəhbərləri tərəfindən Culfa rayonundan təcili çağırılmış adamların “köməyi” ilə sökülmüş, yerində isə Ermənistandan (!) dəvət olunmuş memarın “quraşdırdığı” layihə əsasında Mədəniyyət evi tikilmişdir. Binanın interyeri xaçla doldurulmuş, milli memarlığımızdan çox uzaq üslubda işlənmişdir.

Burada yenə Sabir yada düşür:

*Bax: “Ulduz” jurnalı, 1987-ci il, № 12.

Kim nə deyər bizdə olan qeyrətə,
Qeyrətimiz bəllidir hər millətə.

Vaxtaşırı mətbuatda müxtəlif tarixi abidələrə bəslənən biganə münasibətdən söhbət açan yazılar dərc edilir. Bu yazıları oxuyanda adamı dəhşət bürüyür.

"Kommunist" qəzetində dərc edilmiş "Bizə varis demək olarmı?" sərlövhəli yazıda Quba rayonu ərazisində dağıdılan, unudulan abidələrdən söhbət açılır. Yazı belə başlayır: "Yüz-yüz, min-min illərin burulğanından adlayıb bu günə gəlib çatan tariximizin bünövrə daşları, ulu babalarımızın qeyrət yadigarları itib-batır, talanır, dağıdılır. Nə hay-haray qoparırıq, nə qol çırmayıb iş görürük. Bizə varis demək olarmı?"

Sahəsi bir hektara qədər olan X əsrin yadigarı Yeddilər qalasının divarlarını söküb daşıyan, inşaat materialı kimi istifadə edənlərin qeyrətsizliyindən niyə haray qoparmırıq? Ev əşyası tapmaq məqsədilə qalanın daxilində "qazıntı aparanları" niyə daş-qalaq eləmirik? Söhüb qalası, Subaba türbəsi niyə baxımsızlıq ucbatından məhv olub gedir? Niyə tarixin bu daş yadigarları öz "sirləri", "söhbətləri" ilə birlikdə məhv edilir? Niyə onları danışdırmırıq?" "Danışdırmaq" bir yana qalsın, heç olmasa qoruyub saxlaya bilək.

Mən belə misallardan çox çəkə bilərəm. Amma bu cümlələri yaza-yaza özüm-özümdən və çiyinləri üzərində ucaldığımız Nizamilərin, Füzulilərin, Tusilərin müqəddəs ruhundan utanıram.

Bu yerdə hind xalqının böyük qızı İndira Qandinin "Mənim həqiqətim" kitabındakı bir mətləb yadıma düşdü. Həmin kitabda İndira Qandi modern sənaye yaratmağın Hindistan üçün nə qədər zəruri olduğunu dediyi yerdə göstərir ki, "bəzən tərəddüd edirik, olan imkanlarımızı vacib ehtiyaclarımıza sərf edək, yoxsa, tarixi abidələrimizin qorunub bərpa edilməsinə?"

Göründüyü kimi, böyük vətənpərvər tarixi abidələrin qorunma-

sını ən vacib ehtiyaclarla yanaşı qoyur və əlavə edir ki, kökümüzü, tariximizi qoruyub gələcək nəsillərə çatdırmaq bir xalq kimi özümüzü qoruyub saxlamaq deməkdir. Çünki keçmişinə hörmət etməyən xalqın sabahı da yoxdur.

Gəlin, biz də bu barədə düşünək. Amma düşünmək də azdır, bir az fədakar olaq!

1987

"Gəlin, açıq danışaq", Bakı 1989





## TARİX NƏ DEYİR?

Mənim Vətənim Azərbaycan çox qədim tarixə malikdir. Ölkənin tarixi insanın tarixi ilə ölçülürsə, bu ölkə çox qədim insan məskənidir. Füzuli rayonunun Azıx kəndi yaxınlığında aşkar edilən mağara SSRİ ərazisində insan yaşamış ən qədim və ən nəhəng mağara sayılır. Alimlərin deməsinə görə, bu mağaranın milyon yarım yaşı var.

Milyon yarım, bəlkə ondan da o yana, 2 milyon il insan məskəni olan bu torpaq Azərbaycan xalqının vətənidir. Azıx mağarasında tapılan çənə sümüyü ibtidai icma dövrü insanının, yəni mənim ulu əcdadımın çənə sümüyüdür.

Arxeoloqlarımızın son illərdəki araşdırmaları xalqımızın hələ bizim eradan çox-çox əvvəl oturaq həyat keçirdiyini aşkar etdi. Tunc dövrünün sonuna aid Mərdəkandan, Şüvəlandan tapılan alətlər, hörgülər, qəbirlər, silahlar, heyvan və insan təsvirləri bu yerlərdə yüksək mədəniyyətə malik oturaq əhalinin yaşadığını sübut edir.

Qobustanda 6 mindən çox qaya təsviri... 10-12 min il bundan əvvəl yaşamış ulu əcdadımızın sərt qayalar üstündə döyünən qəlbi, düşünən beyni... Bu təsvirlərin çoxunun daş alətlə, döymə üsulu ilə həkk edilməsi onların ibtidai icma quruluşu dövrünə aid olduğunu

göstərir.

Bu sirli təsvirlər babaların nəvələrə, ulu keçmişin bu günə yazdığı daş "məktublar"dır. Fərasətimiz varsa, bu "məktub"ları olduğu kimi oxuyub, biz də gələcək əsrlərə göndərməliyik. Qoy, nəsillər və əsrlər arasındakı bağlar qırılmasın. Çünki xalq yalnız bu gün yaşayanlardan ibarət deyil. Xalq - dünən yaşamışların, bu gün yaşayanların və sabah yaşayacaq nəsillərin tamlığı və vəhdətidir. Biz bu torpaq üstündə dünən yaşamışların və sabah yaşayacaq nəvə və nəticələrimizin ruhunu bu gün öz qanımızda yaşadırıq. Belə olmasa, yəni nəsillər arasında bağ qırılsa, dünənki kök bizdən adlayıb, sabaha işləməz. Vay o adamın halına ki, ulu əcdaddan miras aldığı əmanətə, qana və qandakı ruha xəyanət edə, onu özündən sonrakı nəslə ötürə bilməyə!

On beş əsrlik tarixi olan Beyləqan, Qutqaşen (indiki Qəbələ) rayonunun Çuxur-Qəbələ kəndi yaxınlığında yerləşən Qədim Albaniyanın paytaxtı Qəbələ şəhəri... Keçən il bu şəhərin xarabalıqlarını dolaşır, torpaqda babamın ayaq izlərini axtarırdım. Bu yerlərdən kimlər gəlib, kimlər keçib... Şəhərin başında hansı buludlar oynayıb. Şəhər dağılıb, amma nəsillər davam edir. Yaddaş nəsildən-nəslə keçir. Qan və qandakı ruh babadan övlada, övladdan nəvəyə, nəticəyə keçir, beləcə xalq yaşayır. Belə olduqda kim deyə bilər ki, mənim şimallı, cənublu xalqım 15-20 milyondan ibarətdir? Axı, bu sayın içində indi xarabalıqlarını gördüyüm Qəbələ şəhərinin sakinləri, eləcə də Əcəmi, Nizami, N.Tusi, Nəsimi, Füzuli və onlarca, yüzlərcə ulularımız yoxdur. Axı, indi yer üzündə onların yalnız cismi yoxdur. Əslində, onlar bizdə, bizim ruhumuzda, qanımızda yaşayır. Nə sirli dünyadır bu dünya! "Gəlimli-gedimli dünya! Son ucu ölümlü dünya" – deyib Qorqud dədəmiz! İndi bu müdrik kəlamı deyən atamıza kim ölü deyə bilər? Bu gün onun sözü ilə bərabər özü də bizdə yaşamırmı? Onun hər kəlamı bu gün bizi sehrləyib düşündürür. O, müdrik kəlamları ilə əsrlərin qaranlığından boylanıb bizə salam göndərir. Biz də onu öz yaddaşımızda və qanımızda yaşatmaqla onun sala-

mına cavab verir və bu salamı sabahkı nəsillərə ötürürük. Bax, bu vəhdətdə, bu birlikdə heç bir xalqın sayını olduğu kimi demək olmaz.

Qədim Mingəçevirdən tapılan ilk mis əridən və ilk dulus kürələri, ilk toxuculuq dəzgahı, araba modeli, qandalla dəfn olunmuş insan, ilk alban yazısı, ilk taxta tabut qəbirlər və s. Bunlar neçə min il əvvəlki keçmişimizdən sirli nağıllar danışır.

Qazax rayonunda Şomutəpə deyilən yerdən tapılmış daş dişli ilk oraq Cənubi Qafqazda ən qədim biçin aləti sayılır. Bu oraq və Kültəpə (Naxçıvan) yaxınlığından tapılan alətlər Eneolit mədəniyyətinin Azərbaycanda geniş yayıldığını göstərir. Bu mədəniyyətin bizim olmadığını, bu torpaqlara sonradan, yəni XI əsrdə gəldiyimizi iddia edənlər də var. Bəs tarix özü, onun yazılı abidələri nə deyir?

Gürcü salnaməsi hələ bizim eradan əvvəl IV əsrdə, yəni, təxminən 2400 il bundan qabaq bu torpaqlarda türkdilli qəbilələrin yaşadığını xəbər verir. Salnamədə göstərilir ki, buntürklər, başqa sözlə, turanlılar gələcəkdə fars hökmdarı Keyxosrovu öz sərhədlərindən sıxışdırıb çıxarmaq üçün Kaspi dənizindən Kür çayı boyunca yuxarı yeriyərək, 28000 ailə ilə Msxetiyə gəldi. Msxeti Mamasaxli və bütün kartvellərin, yəni gürcülərin müsaidəsi ilə farslara qarşı mübarizədə öz köməklərini vəd edən buntürklər Msxetidən qərbdə qaya kahalarında yerləşdirildi.*

İkinci misal: xəlifə I Müaviyənin (661-680) məsləhətçisi Übeyd ibn Şəriyyə əl-Cürhumidən soruşur: “Sən Allah, Azərbaycan haqqında əlaqəniz, təlaşınız və xatirəniz nədir?” Übeyd ibn Şəriyyə xəlifəyə belə cavab verir: “Azərbaycan ta qədimdən türklər ölkəsidir”.**

Bu sözlər eramızın VII əsrində deyilib. Amma “Ta qədimdən” sözünün bizi tarixin hansı dövrünə apardığını demək çətindir.

Bir çox qədim qaynaqlar və tarixçilər də hələ eradan çox-çox

*Kartlis Çxobreba (gürcü tarixi). Грузинский текс, том I, Тбилиси, 1955, стр. 35.

**Bax: Azərbaycan SSR EA-nın məruzələri, XXX c., Bakı, 1974, səh. 86.

əvvəllər Azərbaycan torpağında türkdilli qəbilələrin yaşadığını xəbər verir.

Bunları mən demirəm, tarixi faktlar, tarixi sənədlər deyir. Bununla bərabər, tarixi dəlil-sübutlardan daha güclü bir amil var ki, mən onu hər şeydən üstün tuturam. Bu, mənim bu torpağa gözəgörünməyən tellərlə bağlılığım, izaholunmaz hisslərlə məcnunluğumdur. Çünki bizim kökümüz bu torpağın dərin qatlarına elə işləyib ki, biz öz ləyaqətimizi və mənəvi varlığımızı yalnız bu torpağın üstündə hiss edə bilərik.

Qan yaddaşı deyilən bir fəhmi hiss var. Alimlər bu hissin, bu yaddaşın mexanizmini, başqaldırma səbəblərini hələ aça bilməmişlər. Amma bu yaddaş bizdən asılı olmayaraq, baş qaldırır və bizim qulağımıza qəribə sirlər pıçıldayır.

Hərdən darıxanda Bakıdan çıxıb üz qoyuram dağlara, meşələrə, çöllərə... Keçdiyim yerlərin hər addımında ulu əcdadımın ayaq izlərini görürəm; yarpaqların pıçıltısında, qartalların qıy vurmasında, sel sularının şırıltısında onların səsini eşidirəm. Bu torpaq məni çəkir. Bu torpağın üstündə özümü dünyanın ən qüdrətli, ən güclü adamı sayıram. Niyə bu qüdrəti, bu gücü mən qürbət torpağında hiss edə bilmirəm? Məgər, torpaq torpaq deyilmi? Yox! Kimyəvi tərkibi bir olsa da, bu torpaq, bu yurd bizə məlum olmayan qan yaddaşı və fəhm hissi ilə bizi özünə bağlayır. Vətənimin görmədiyim, ömrümdə bir dəfə də olsa keçmədiyim bir obasından keçəndə hər qaya, hər daş, hər döngə mənə tanış gəlir, elə bil, bu yeri nəvaxtsa görmüşəm. Əslində, mən görməmişəm, ulu əcdadım görüb, mənim qanımda dilə gəlir. Mənə bu yerləri tanış göstərən damarlarımdakı qan yaddaşıdır.

Mənim ulu əcdadım bu torpaqdan yaranmış, bu torpaqda boy atmış, bu torpaqda yaşayıb, bu torpağa qarışmışdır. Mən belə bilirəm. Buna əsasım da çoxdur. Başqa cür düşünən varsa, qoy, bunun tərsini sübut etməyə çalışsın. Mənim üçün bunu sübut etməyə ehtiyac yoxdur. Babamın göbəyi burda kəsilib, hazırda özüm də bu torpağın

sahibiyəm. Bu torpaq da xalqımın adı ilə adlanır.

Qədim yüzilliklərin daş kitabələri gözlərim önündə vərəqlənir: İsgəndərdən tutmuş Pompeyə, Kirdən tutmuş ərəblərə qədər yadellilərin bu torpağa hücumları... bu torpaq uğrunda axıdılan qanlar, qırğınlar... Bu ulu torpaq mənim qanımla suvarılıb. Uğrunda qan tökülməyən torpaq isə yalnız torpaqdır, o Vətən ola bilməz. Torpaqda o zaman Vətən olmaq haqqı qazanır ki, bu torpağın üstünə qan və alın təri tökülmüş olsun. Əgər belə olmasaydı, bu torpağı Vətən adlandırmağa bizim haqqımız çatmaz və onu hər gələnə peşkəş edər, onun uğrunda qanlar axıtmazdıq. Bir hökmdarın başqa bir hökmdarla müəyyən səbəb dolayısı ilə müharibəsi adi haldır. Heç bir hökmdar razı olmaz ki, onun ölkəsi başqa bir hökmdar tərəfindən işğal edilsin, yaxud cahangirlik, “mənəm”lik iddiasında olan bir azğının özündən zəif ölkənin üstünə basqını da tarix üçün qeyri-adi deyil. Bəs, Babək? Görəsən, hökmdar olmayan Babəkə nə düşmüşdü ki, bu torpağın yolunda gəlmə ərəblərə qarşı qılınc qaldırırdı? Çünki o, uzun əsrlər boyu bu torpaqda yaşamış, sümükləri bu torpağa qarışmış dədəbabasının müqəddəs məzarını, ruhunu və şərəfini gəlmələrdən müdafiə edirdi. O, rəva bilməzdi ki, dədə-babasının yurdu gəlmələrin tapdağı olsun. Babəkin 20 illik müqavimətinin nəticəsidir ki, gəlmə ərəblər bizi “qılınc müsəlmanı” adlandırırdı. Bəli, biz qılınc gücünə müsəlmanlaşmış qədim xristianlar, bütpərəstlər və atəşpərəstlərik. Ölkəmizin ərazisində onlarla qədim Ağvan kilsələrinin və məbədlərinin varlığı buna əyani misallardır.

Bununla bərabər, bu da bir həqiqətdir ki, heç bir xalq dünya bina olandan həmişə eyni torpaqda yaşadığını sübut edə bilməz. Xalqlar ən qədim dövrlərdən müxtəlif səbəblərlə daim bir yerdən o biri yerə köç etmişlər, heç bir xalq yalnız bir torpaqda bənd alıb qalmamışdır. Bunun əksini düşünənlər tarixdən xəbərsizdirlər. Burada yalnız nisbət məsələsi ola bilər. Beləliklə də, müəyyən ərazinin tarixi orada yaşayan xalqın tarixindən, əksər halda, daha qədim olur. Daha doğrusu, ərazinin tarixi ilə orada yaşayan xalqın tarixi çox halda

üst-üstə düşmür. Bu, inkaredilməz bir həqiqətdirsə, indi hansı xalqa "Bu, sənin yerin deyil" demək olar? Əgər bunu demək olarsa, gərək Amerikada yaşayan bütün avropalıları, Macarıstanda yaşayan macarları və Anadoluda yaşayan türkləri indiki vətənlərindən dərbədər salasan.

Tarixdə təbii və qeyri-təbii axınlar olmuş və indi dədə-babaların haqq-hesabını nəvələrdən tələb etmək ən azı ağılsızlıq və nadanlıqdır.

86,6 min kvadrat kilometr əraziyə malik quzey Azərbaycan dünyanın əsas iqlimlərinə və bütün naz-nemətlərinə malikdir. Bu torpaqda yaşayan xalqın özü səxavətli və qəlbi geniş olduğundan təbiət də öz səxavətini bu xalqdan əsirgəməyib. Çünki biz həmişə qonşunu iki inəkli, özümüzü bir inəkli görmək istəmişik.

Maldar da olmuşuq, yaylağa da köçmüşük, nədənsə, bəzən bunu bizə nöqsan tuturlar. Əvvəla, dünyaya dədə-babası köçmə maldarlıqla məşğul olmayan xalq az tapılar. İkinci tərəfdən, yaylağa köçmək təbiətə yaxınlıqdır, təbiət qədər saf və təmiz olmaqdır. Bəli, biz çəpər, tərəzi və alver düşkünü olmamışıq. Buna görə yalandan, böhtandan, alıb-satmaqdan, adam aldatmaqdan xəbərimiz olmayıb. Amma bizi aldadanların cavabını həmişə mərdi-mərdanə döyüşdə verə bilmişik. Biz aldatmamışıq, amma aldandığımız vaxtlar olub. Nəticədə isə yenə biz qalib gəlmişik.

Hələ 1904-cü ildə görkəmli rus publisisti, yazıçı və jurnalisti, "Kavkaz" qəzetinin redaktoru V.L.Veliçko "Kavkaz. Russkiye dela i mejduplemennıye voprosı"* kitabında bu diyarda yaşayan xalqların tarixi keçmişini, ümumi səciyyəsini şərh edərək, azərbaycanlılar haqqında yazırdı: "Azərbaycanlıların qanı xeyirxahlıqla yoğrulub. Onlar təbiətən alicənabdır, mərddir, qəlbiaçıqdır. Zehni və əxlaqi keyfiyyətlərə malikdirlər"*.

Biz at belində doğulmuş, at belində böyüyüb ərsəyə çatmış, at belində də iqlimdən iqlimə keçmişik. Bunun nəyi qüsurludur ki,

*Величко В.Л. Кавказ. Русские дела и междуплеменные вопросы. С.-Петербург, 1904, стр. 149.

təbiətin saflığı, xeyirxahlığı qanımıza, ruhumuza çökmüş, özümüzü də saflaşdırıb mənən gözəlləşdirmişdir.

Dədə Qorqud dastanlarında oğuz bəylərinin mənəvi dünyasını - igidliyini, qorxmazlığını, bunlarla bərabər, saflığını, acizə əl tutmalarını, insaf və vicdana arxalanmalarını oxuduqca babalarımızın böyüklüyü, mərdliyi və təmizliyi önündə səcdəyə gəlməmək mümkün deyildir.

"Bamsı Beyrək" boyunda bir ölkədən başqa ölkəyə mal aparan bəzirganları Evnük qalasının adamları talayır. Bəzirganların böyüyü tutulur, kiçiyi özünü Oğuz hüduduna yetirir. Bundan sonra çəmənliklə dincələn Baybura bəyin oğlu bəzirganı dinləyir, başındakı 40 igidlə Evnük qalasının talançıları ilə döyüşə yollanır. Talançılardan bəzirganların malını geri qaytarır.

Bəzirganlar bu yaxşılığın əvəzini vermək üçün qaytarılan mallardan istədiyini götürməyi Baybura bəyin oğluna təklif edir. İgid tacir, ya alverçi deyildi ki, parka-purçaya, qızıla, daşqaşa tamah sala. Ər oğlu ər öz igidliyinə və dədə-baba ənənəsinə uyğun atların içindən bir ayğırı, bir altı qanadlı gürzü və ağ kirişli yayı seçir.

Bəzirganlar başlarını aşağı dikir. Bunu hiss edən igid:

- Çoxmu istədim? - deyincə, bəzirganlar:

- Xeyr, amma bizim bir bəyimiz oğlu vardır. Bu üç şeyi ona hədiyyə aparırıq - dedilər.

İgid:

- Bəyinizin oğlu kimdir?

Bəzirganlar:

- Bayburanın oğlu - dedilər. Amma qarşılarındakının Bayburanın oğlu olduğunu bilmədilər.

İgid bu sözü eşidincə, atına qamçı vurub, onlardan uzaqlaşdı.

Ertəsi bəzirganlar Bayburanın hüzuruna gəldilər. Bəyin yanında oturan igidi tanıyıb, əhvalatı atasına danışdılar. Ata sevindi və bəzirganlardan soruşdu:

- Mənim oğlumun igidliyi ona ad qoyacaq qədər varmıdır?

Dedilər:

- Daha artıq!

Baybura bəy qeyrətli oğuz bəylərini çağırdı. Dədəm Qorqud gəldi, oğlana ad qoydu:

- Ünümü anla, sözümü dinlə, Baybura bəy, Allah-təala sənə bir oğul vermiş, tuti versin... Qarşı yatan qara dağlardan aşar olsa, Allah-təala sənin oğluna aşıt versin. Qanlı - qanlı sulardan keçər olsa, keçid versin. Bunun adı boz ayğırlı Bamsı Beyrək olsun. Adını mən verdim, yaşını Allah versin.

Bamsı Beyrək bəzirganlardan dədə-babasının cəngavərlik ənənəsinə uyğun ərməğan istədiyi kimi, Dədəm Qorqud da oğlana öz igidliyinə uyğun ad verir: "Bamsı Beyrək!"

Belə misalların sayını artırmaq da olar.

Bütün bunlar oğuz babalarımızın yüksək mənəviyyatından, gözəllik duyğusundan və incə zövqündən xəbər verir. Budur, babalarımızın mənəviyyat və mədəniyyəti, dünyagörüşü, zövqü və fəlsəfəsi!

Ulu babalarımız dünyanın maddi nemətləri ilə yaşamamış, mənəvi dünya ilə nəfəs almış, mərd olmuş, namərdliyin nə olduğunu bilməmişlər. Oğuzlar düşmənini heç zaman arxadan vurmamış, ona tələ qurmamış, sözünü demiş, onunla üzbəüz vuruşmuşlar. Dastanda hadisələr Azərbaycanda cərəyan edir və göstərilir ki, oğuzlar gürcü, erməni və abxazlarla qonşudur. Hadisələr Bərdənin, Gəncənin, Dərbəndin, Əlincə qalasının və Göycə gölünün ətrafında cərəyan edir.

Dastan bu sözlərlə başlanır: "Rəsul Əleyhüssəlam zamanına yaxın Bayat boyundan Qorqud ata deyilən bir ər qopdu". Burdan aydın olur ki, dastan Məhəmməd peyğəmbərin zamanından çox əvvəl - yəni VII əsrdən qabaq yaranmışdır. Bədii cəhətdən bu qədər kamil və qüdrətli bir əsəri yaradan xalq bu ölkədə uzun əsrlər boyu bərqərar olub, torpağın dərinliklərinə kök atmasaydı yurd-yuva, doğma ocaq, ana torpaq hissi onda bu qədər möhkəm və dərin ola bilməzdi. Vətən

hissi burdakı bütün obrazların iliyinə, qanına elə işləyib ki, onun yolunda bunların hər biri ölümə hazırdır. Burdan belə nəticə çıxır ki, dastan VII əsrdə yaranıbsa da, onu yaradan xalq daha qədimlərdən bu torpaqda yaşamış, bu torpağın dərinlikliyinə kök atmışdır.

Dastanların bədii dəyərini və bunu yaradan xalqın Azərbaycanda daha qədimlərdə kök atdığını göstərən ingilis filoloqu Cofrey Lyuis yazır: "İslam tarixindən xeyli əvvəl yaranmış bu dastanlar köçəri oğuzların həyat tərzi ilə islam mədəniyyətini birləşdirir".

İngilis aliminin dediyi "İslam tarixindən xeyli əvvəl" sözü üzərində düşünmək lazımdır. Bu "xeyli" sözü eradan əvvələ gedib çıxmırmı?

Dünya folklorunun incilərindən sayılan bu böyük əsər yalnız kamil və böyük xalqın təfəkküründən, hiss və duyğularından süzülə bilərdi. Namusu, şərəfi, kişiliyi və mərdliyi, mənəvi böyüklüyü və saflığı təbliğ və tərənnüm edən bu əsər oğuzların mənəvi dünyasının aynası, üstündə yaşadıqları torpaq isə öz qanları ilə suvardıqları qanuni torpaqlarıdır.

Dağ çeşmələrinin şırıltısından, at kişnərtilərindən, küləklərin vıyıltısından, quşların nəğməsindən nəğmə alan bu xalqa "şair xalq" (N.Tixonov) deyilməsi təsadüfi deyildir. Dilimizi öyrənmək istəyən böyük rus şairi M.Lermontov yazırdı ki, "Avropada fransız dili nədirsə, Qafqazda türk dili də odur"*.

Bizim dilin təsiri və gözəlliyi o qədər böyük olmuşdur ki, başqa xalqların aşıqları və şairləri də bu dildə dəyərli əsərlər yaratmışlar. XIII-XIV əsrlərdən bəri onlarla erməni şairi və aşığı bizim dildə şeir yazıb, divan bağlamışlar. Frik və Bluz Hovanes (XIII əsr), Tilkuransi (XIV əsr), Bağişesi (XV əsr) türk dilində, lakin erməni hərfləri ilə yazılmış gözəl şer parçaları qoyub getmişlər. XVI əsrdə Vanlı Kuçak (Nahapet Kuçak), XVIII əsrdə Qul Harutyun, XVIII əsrdə Sayat Nova, Miran, Bağıroğlu, Əmiroğlu, Qul Eqaz, Turab dədə, Şamçı Melko, Kiçik Nova, Artem, Harutyun Bequm, XIX əsrdə Keşişoğlu,

*Лермонтов М.Ю. Полное сбор. соч., т.V., М.-Л., 1937, стр. 393.

Doni, Qəssaboğlu, Zərgər, Dəllək Murad, Şirin (Hovanes Karapetyan), Miskin Bürci, Mahubi Gevork, Çərkəzoğlu, Turinc, Artunoğlu, Kamil (Bağdasar), Bədəl, Əzbər Adam, Bünyadoğlu, Nirani, Cahil oğlan, Kənha, Həllacoğlu, Mayif, Sərdaroğlu, Sazayi, Gərdişi və b. Bunlardan başqa, yaşadıqları illəri dəqiq bilmədiyimiz Yetim oğlan, Babacan, Məhcubi, Miskin Stepan, Voskanoğlu, Qeyrətli, Talaloğlu, Qitçi Tittos, Zülaloğlu, Məlul və b. erməni aşıqları türk dilində yazmışlar. Bu ənənə Aşıq Avak, Aşıq Vartan kimi el sənətkarlarının timsalında sovet hakimiyyəti dövründə də davam etdirilmişdir.

Türk dilində yazdıqlarına görə bu sənətkarların bir çoxu, görün düyü kimi, özlərinə türk adları götürmüşlər. Aşıq Doni, Aşıq Tatevos, Stepanos Yerest kimi aşıqlar isə bir çox qoşmalarını yarı erməni, yarı türk dilində yazmışlar. Erməni folklorçusu Q. Tarverdiyan 400-ə qədər erməni aşığının əsərlərini topladığını yazır və deyir ki, bunlardan yalnız 20-25 nəfəri erməni, qalanları isə yalnız türkcə yazmışdır.*

Erməni aşıq və şairlərinin türk dilində yazıb yaratmalarının səbəbini hərə bir cür izah edir. Məşhur erməni tarixçisi Leo daha düzgün mövqedə duraraq, bunu türk dilinin zənginliyində və səlisliyində görür. O yazır: "Aşıqlar üçün nağıllarda, mahnılarda təsvir olunan həyatı ifadə etmək üçün türk dili erməni ləhcələrindən daha səlis, daha ifadəli və daha zəngindir"**.

Çox maraqlı haldır ki, ermənicə yazan aşıqlar da türk şeir vəznini (heca vəzni - yeddilik, səkkizlik, onbirlik, ondördlük, onbeşlik və s.) və formalarını (qoşma, gəraylı, dübeyti, müxəmməs və s.) qəbul etmişlər. Bunlardan başqa, qədim erməni dili qrabarda həmqafiyə sözlər olmadığından, sonralar xalq sənətkarları sətirlərin sonundakı qafiyəni təmiz bildikləri qonşu türk dilindən götürməli olurdular. M. X.Abeğyan yazır: "Klassik qrabarda hayreni (bayatı) şeiri qafiyəsiz

---

*Bax: Erməni aşıqları. I cild. Yerevan, 1937. səh. 19. (Bundan sonra verilən bütün erməni mənbələri erməni dilindədir).

**Leo. Erməni tarixi. III cild, Yerevan, 1946, səh. 1072.

yazılırdı. Belə ki, bizim dilimiz qafiyə sarıdan kasıbdır, dilimizdə həmqafiyə sözlər azdır. Şifahi xalq yaradıcılığında qafiyə XI-XII əsrdən sonra yaranmağa başladı. Xalq nəğmələrini yaradanlar qafiyə üçün onlara aydın olan türk dilinə müraciət edirdilər"*.

Şeir formalarını başqa xalqdan götürmək və ayrı dildə bu formalarda şeir yazmaq mümkündür. Lakin vəzni götürmək çətin məsələdir. Ona görə ki, hər xalqın dili o dilin təbiətinə və quruluşuna uyğun vəznini yaradır. Bizim doğma vəznimiz olan heca vəzni türkdilli xalqların dilindəki sait və samit səslərin söz içindəki quruluşundan və düzülüşündən doğmuşdur. Bu quruluşa və bu düzülüşə uyğun gəlməyən dil, heca vəznini qəbul edə bilməz. Belə olduğu təqdirdə bəs necə olmuş ki, erməni dilində də heca vəzni ilə şer yaza bilmişlər. Qədim erməni dili - qrabarla, yeni erməni dili aşxarabarın quruluşu arasındakı fərqi və bunun səbəbini 50 ilə qədər axtaran erməni alimi, erməni dilinin böyük mütəxəssisi, professor H. Acaryan bu barədə belə deyir: "Erməni dilinin strukturundakı dəyişiklik nədən törəmişdir? Niyə erməni dili strukturuna, quruluşuna görə öz əhatəsində olan və onu işğal edən dillərə - latıncaya, yunancaya, fransızcaya, ərəbcəyə, aysoricəyə və hətta kürdcənin strukturuna, quruluşuna uyğun olaola, birdənbirə bunlardan uzaqlaşır, türktatar dillərinin strukturuna uyğun laşır? Bu oxşayış təsadüfdürmü? Erməni dilinin strukturunun, quruluşunun dəyişməsinə səbəb nədir?"**

Səbəb aydın deyilmi? Quruluşca latın, yunan, fransız, ərəb və kürd dilləri qrupuna yaxın olan erməni dili qonşusu türk dillərinin təsirinə məruz qalmış və öz strukturunu dəyişmişdir. Bu uyğunlaşmanın nəticəsidir ki, erməni şair və aşıqları türk dilinin təbiətindən və quruluşundan doğan heca vəznini də qəbul etmişlər. Buradan yazının əvvəlində dediyimiz bir məsələnin daha tutarlı təsdiqi də meydana çıxır. Məlumdur ki, bu dilin başqa bir dilin strukturuna uyğunlaşması 50-100 ilin işi ola bilməz. Bu dəyişiklik üçün əsrlər - ən

* M. X. Abeğyan M.X. Xalq qusanlarının mahnıları. Yerevan, 1940, səh. 19.
** Bax: Erməni dilinin tarixi. II hissə. Yerevan, 1951, səh. 191.

azı 500-1000 il lazım idi. Qədim erməni dilindəki türk təsiri isə hələ eramızın VII əsrindən özünü göstərməyə başlayır. Erməni dilindəki bu dəyişiklik türkdilli xalqın bu torpaqlarda daha qədim zamanlardan yaşamasının aşkar sübutudur.

Dil, vəzn və formanı qəbul edən erməni sənətkarları ermənicə yazdıqları şeirlərini də bizim aşıq havaları üstündə oxuduqlarından vəzn və forma ilə bərabər bu vəzn və formadan doğan musiqini də qəbul etməli olmuşlar. Getdikcə bu musiqi də onlar üçün doğmalaşmışdır. Təsadüfi deyil ki, Qaregin Levonyan Azərbaycan şeirinin erməni xalqı arasında geniş yayılmasının əsas səbəbini məlahətli musiqimizdə görür.*

Məncə, Q.Levonyanın dediyi əsas səbəb deyil, səbəblərdən biridir. Ona görə ki, əvvəl söz, sonra həmin sözün üzərində mahnı yaranır. Acaryanın dediyi kimi, erməni dilinin təbiəti, quruluşu Azərbaycan dilinin təbiətinə və quruluşuna uyğunlaşmasaydı, Azərbaycan vəznləri erməni dilinin təbiətinə, ruhuna yatmaz, bu dildə yeddilik, onbirlik, ondördlük və s. ölçülərdə şeir yaratmaq mümkün olmazdı. Bu bir həqiqətdir ki, bizim doğma vəznimiz olan heca vəzni, yalnız türkdilli xalqlara aiddir. Bu vəzni türkdilli xalqlardan başqa yalnız erməni şeirində görmək mümkündür. Deməк, bu eyniliyi musiqidən əvvəl dil təsirində axtarmaq lazımdır. Çünki dil vəzni, vəzn də musiqini yaradır.

Azərbaycan xalq havaları ilə oxumaq üçün həm ermənicə, həm də azərbaycanca nəğmələr yaradan erməni aşıqlarından Baydzare “Bağçada güllər”, “Yar bizə qonaq gələcək”, “Kərəmi” adlı Azərbaycan havalarına uyğun ermənicə şeirlər yazmışdır.”**

Q.Levonyan yazır: “Türklərlə yanaşı yaşayan erməni aşıqları öz adlarını türk aşıqlarından götürmüş, mahnılarını isə qədim Asiya havalarında oxumaq üçün türk havalarına uyğunlaşdırmışlar”. Görkəmli erməni yazıçısı X.Abovyan isə yazırdı: “Çox qonaq get-

*Bax: Q.Levonyan. Əsərləri. Yerevan, 1963, səh. 35.

**Bax: Aşıq Baydzarenin Varşam Trdatyan mahnıları, I cild, Tiflis, 1895.

diyim, yaxud şəhərdən keçdiyim vaxtlarda diqqətimi toplayırdım ki, görüm xalq danışarkən, kef edərkən nədən daha çox həzz alır. Dəfələrlə görürdüm ki, meydanda, küçədə adamlar durub bir kor aşığa hayıl-mayıl qulaq asır, pul verir, ağızlarının suyu axır. Məclisdə və toyda sazandarsız heç çörək yemək olardımı? Dedikləri türkcə idi...”*

Tarixin ən qədim dövrlərində yanaşı yaşamış ermənilər və türklər həmişə bir-birinə kömək göstərmişlər. XVIII əsrdə erməni və türklər iki xalq arasında fitnə-fəsad salanlara qarşı əhdnamə bağlamışdılar. Məsələn, Gəncənin 80 məhəlləsində yaşayan Azərbaycan əhalisinin əhdnaməsində deyilir: “Bu və ya başqa yerdə ermənilərə zərər verməyə qoymayacağıq. Qoy, onlar hər cəhətdən arxayın və rahat olsunlar... Bunun üçün birgə and içmişik, birgə söz vermişik, bizim andımız, şərtimiz, əhdimizə götürdüklərimiz daş üzərində həkk olunmuş kimi daimidir”**

Xalq həmişə belə düşünmüş və əhdinə sona qədər sadiq qalmağa çalışmışdır. Lakin bəzən özünü xalqının “böyük patriotu” kimi qələmə verən cızmaqaraçılar vətənpərvərlik maskası altında gizlənib iki xalqın arasını vurmağa çalışır, araya ədavət toxumu səpirlər. Belələrindən biri yalan və uydurmalarla dolu “Ocaq” kitabını yazan, adının da, familiyasının da kökü dilimizdən gələn Zori Balayandır (zor-bala). Hər dövrdə beləlları tapılır.

Erməni yazıçısı, inqilabçı demokratı Mikael Nalbandyan vaxtilə bir məqaləsində belə yalançı vətənpərvərlərin obrazını çox gözəl çəkmişdir: “O, təqribən 40 yaşlı bir adamdır... Müxtəlif kitablar oxumağa həvəs göstərir. O, həmişə özünü vətənpərvərlərdən biri hesab etmiş və indi də hesab edir. Niyə də etməsin - özünü vətənpərvər saymaq, yaxud başqalarının gözündə vətənpərvər kimi görünmək çox çətin işdirmi? Mən bunu başqa xalqlar barədə deyil, yalnız bizim ermənilər barədə deyirəm. Çünki başqa xalqlarda vətənpərvər kimi şöhrətlənmək nə qədər çətindirsə, bizim xalqda bir o qədər asandır.

*Bax: Abovyan X. Seçilmiş əsərləri, I cild, səh. 9

**Bax: Erməni-fars münasibətləri haqqında. Yerevan, 1927, səh. 88.

Nə üçün? Onun üçün ki, erməni orda-burda bir-iki gurultulu ibarə eşidən kimi öz guşəsinə çəkilib özü-özünü vətənpərvər hesab etməyə başlayır. O, öz xalqına xoş istəklərlə üz tutur... O, milləti tərifləyir, millətin qüsurlarını özgələrdən gizlədir. Guya o, erməni xalqını elə sevir ki, bu xalqın qüsurlarını üzə çıxaranlara nifrət bəsləyir, böhtan və söyüşlə onlardan qisas alır və... daha nə istəyirsiniz - sürgündə ömrünü başa vuran və var-yoxdan olan bir zavallının qərib diyardakı qəbrini müqəddəsləşdirir.

Bax, belə bir adam - ah, acı həqiqət - avam kütlənin gözündə hörmət qazanır. O, qarnını köpürdüb, bığlarını eşir, bizdən hörmət və ehtiram gözləyir.

Uzaq ol bizdən, həyasız axmaq, çəkil gözümüzdən, yalançı və şərəfsiz insan, biz sənin fırıldaqlarına bələdik, sənin fitnə-fəsadın bizə məlumdur"*.

Çox böyük vətəndaşlıq cəsarəti, məsuliyyət hissi və müdrikliklə deyilmiş bu sözlərin yazıldığı vaxtdan bir əsrdən artıq bir müddət keçmişdir. Onun müəllifi təhsilcə və ixtisasına görə təbib idi, savadlı, istedadlı təbib, Moskva universitetinin məzunu M.Nalbandyan həm də ictimai-siyasi və tarixi-əxlaqi xəstəlikləri görən, müayinə və müalicə etməyə çalışan həkim-jurnalist-publisist idi. Onun yazdıqlarını oxuyursan və məəttəl qalırsan, fikirləşirsən, necə olub ki, M. Nalbandyan gördüyü, qamçıladığı, ifşa və nifrət etdiyi "yalançı və şərəfsiz" adamlar, "böhtan və söyüşlə" özünə "vətənpərvər" adı qazandırmağa çalışanlar, "qarnını köpürdüb, bığlarını eşib... hörmət və ehtiram görməyə cəsarət edən" avantüristlər bizim zəmanəmizə qədər də gəlib çıxmışdır. Həm də belələrinin içərisində, nə qədər təəccüblü görünsə də, həkim-yazıçı-publisist və hətta əməkdar idman ustası olanlar da vardır. Beləsinə elə gəlir ki, xalqların və millətlərin tarixini ağına-bozuna baxmadan təhrif etmək, öz avantürist meylləri və fantaziyasına uyğun şəkildə yazmaq da olar, çap etmək də. Həm də acınacaqlısı budur ki, kimlərinsə himayədarlığı

*Nalbandyan M. Ölülərin sorğusu. Seçilmiş fəlsəfi, ictimai-siyasi əsərləri. M., 1954, s. 182-183.

ilə cəzasız qalmaq mümkündür. Lakin belələri əvvəl-axır kor kişinin oğlu kimi bədnam olacaq, tarixin zibil qutusuna atılacaqlar. Bununla əlaqədar bir ibrətamiz faktı oxucuların nəzərinə çatdırmaq istəyirəm. 1971-ci ildə elmi jurnallardan birində məşhur sovet alimi akademik İ.Piotrovskinin "Redaksiyaya məktub"u dərc olunmuşdur. Onu diqqətlə oxudum. Məni o qədər tutdu ki, surətini çıxartdırdım. Qoymuşam yazı masasının üstünə. Nə qədər dərin və tutarlı məktubdur. Elmi dürüstlüyün, dəqiqlik və məsuliyyətin bariz nümunəsidir. Onu oxumağı tarixlə məşğul olan hər kəsə məsləhət görərdim. Söhbət nədən gedir? 60-cı illərdə Ermənistan EA nəşrlərində, bir sıra kütləvi mətbuat orqanlarında sensasiya xarakterli yazılar və məlumatlar dərc olundu ki, guya respublika ərazisində eramızdan əvvəl XIX-XVIII əsrlərə aid hajas heroqlif yazısı meydana çıxarılmışdır. Hətta həmin dövrə aid sikkə belə tapılmışdır. Tezliklə bu yazıları "oxuyanlar" da peyda oldu. Onların məzmunu "açıldı". Bu "kəşf" barədə hətta xarici mətbuat səhifələrində yazılar çıxdı. Akademik İ.Piotrovski məktubunda bütün bu hay-küyün əsassız olduğunu, heç bir elmi dəlil və faktla sübuta yetirilmədiyini göstərir.

Müəllif sovet, o cümlədən Ermənistan şərqşünaslarının, alim-mütəxəssislərinin rəyinə istinad edərək yazır ki, Metsomar yazıları haqqında əsl həqiqət budur ki, əvvəla, onlar eramızdan əvvəl XIX əsrə aid deyil, eramızın XIX əsrinə aiddir. İkincisi, tapıntı hayas yazısı deyil, kufi xətti ilə yazılmış Azərbaycan sözləridir, özü də əvvəllər Metsomar yaylasında yerləşmiş azərbaycanlı Zeyvə kəndi sakinlərinə məxsusdur. Üzdəniraq yeni yazı kəşfçiləri ərəb əlifbası ilə yazılmış sözləri sağdan-sola oxumaq əvəzinə, soldan sağa oxumuş, bəzi düzəlişlər etmiş və həqiqətlə heç bir əlaqəsi olmayan fantastik uydurmalara yol vermişlər. O ki qaldı sikkələrə, sən demə, bunlar da XII-XIII əsrdə Azərbaycan Atabəylərinin sikkələri imiş*.

Azərbaycan və erməni xalqları həmişə qonşu olmuş, araqarışdıranlara qarşı öz sözünü demişlər. Bu cəhətdən Azərbaycan və

*Bax: Академия Наук Армянской ССР. Историко-филологический журнал. 3 (54), Ереван, 1971, стр. 302-303.

erməni dillərində çıxan “DəvətQoç” bolşevik qəzetinin 1906-cı il 4-cü nömrəsində erməni şairi Suren Haqverdiyanın “Məhəbbət” sərlövhəli şeiri çox maraqlıdır. Erməni şairinin Azərbaycanca yazdığı, qəzetdə erməni hərfləri ilə dərc edilmiş şeiri günahsız qurbanlara qarşı çıxır, iki qonşu milləti sülhə, dostluğa çağırır:

İstər isək bizlər yaxşı gün görək,
Lazımdır ki, ürək ürəyə verək.
İstər isək xilas olaq bəladan,
Sizlik, bizlik gərək çıxsın aradan.
Gəl qardaşım dost olaq,
Hər xətadan qurtulaq,
Qardaşlıqda keçilən
Günləri yada salaq.

Şair araya ədavət düşməmişdən əvvəlki dostluq günlərini yada salmağı, yenə həmin o günlərə qayıtmağı tövsiyə edir. Maraqlı burasıdır ki, C.Məmmədquluzadə də “Kamança” pyesində erməni Baxşının çaldığı segahın təsiri ilə ötən günləri yada salıb deyir:

- Elə çalır ki, keçən günləri gətirir qoyur adamın qabağına.

Qəhrəman yüzbaşı Baxşıya:

- Adə, erməni, tez kamançanı yığışdır, get burdan, yoxsa, atamın goru haqqı, bu yoldaşlarımın başına and olsun, bu qəməynən bu saat səni də öldürərəm, özümü də öldürərəm”. Niyə? Çünki hər iki xalqın musiqi aləti kamança öz naləsi ilə keçən günləri - iki xalqın bir-birinə can deyib can eşitdiyi günləri, Qəhrəman yüzbaşının dediyi kimi, gətirib qoydu onun gözlərinin qabağına. Qəhrəman yüzbaşı keçən günlərin şirin xatirəsindən keçə bilmir. Bu məqamda o, həm özünü, həm də erməni xalqının nümayəndəsi Baxşını günahkar bilir. Buna görə də erməniyə “səni öldürərəm demir”, özümü də öldürərəm, səni də” deyir. Bıçağı əlindən düşür, əsir Baxşını azad edir.

Bəli, tarix də, görkəmli yazıçılarımız da belə deyir.

Mən tarix mütəxəssisi deyiləm. Sadəcə olaraq, bu torpağın oğlu kimi oxuduqlarımı, eşitdiklərimi, gördüklərimi bir daha saf-çürük edib bu yazını yazdım. Şübhəsiz, tarixçi alimlərimiz daha sanballı söz deyə bilərlər, həm də deməlidirlər. Çünki tarixlə "oynayan", tarixi "müasirləşdirən" "alim" və "yazıçılar" indi də peyda olurlar. İndinin özündə torpaqlarımızı qazıb daş basdıranlar tapılır ki, bir neçə ildən sonra yeni "kəşflərlə" aləmə səs salsınlar. Səs salsınlar ki, bura da bizimdir. Dəlil-sübut üçün isə süni basdırılmış daşı kifayət hesab edirlər...

Bu mənada Azərbaycan tarixini, onun sirli-sehrli keçmişini dərindən bilmək hər birimizin müqəddəs borcudur. Bəs biz bu borca nə dərəcədə sadiq qalırıq? Tariximizi gənclərimizə öyrədə bilirikmi? Öyrədə bilirikmi ki, onlar sabah saxta daş basdıranları, bu daşlardakı saxta yazıları ayırd edə bilsinlər? Onları tariximizə saxta iz salanlardan qorumağa hazırlaya bilirikmi? Təəssüf ki, yox!

Təəssüf ki, Azərbaycan tarixi barədə kütləvi-siyasi kitablar azdır. Bəzən tarix kitablarımız o qədər qəliz, akademik dildə yazılır ki, onu oxuyan adi oxucu nə bir şey anlayır, nə bir şey öyrənə bilir.

Bəzən tarixi pis bilmələrinə görə gənclərimizə irad tuturlar. Guya gənclər az oxuyurlar. Yox, əzizlərim, gənclər oxuyurlar, biz onlara nəyi oxutmağı bilmirik. Biz onlara tariximiz barədə sanballı kitablar verə bilmirik. Görəsən, nəşriyyatlarımızın Azərbaycan tarixinə, onun müxtəlif dövrlərinə dair vaxtaşırı kütləvi kitablar buraxmasına nə mane olur?

Məgər faciə deyilmi ki, XV əsrin görkəmli sərkərdəsi və diplomatı, Ağqoyunlu dövlətinin əsasını qoymuş Uzun Həsəni bugünkü gənc, hətta bəzən ziyalı belə tanımır.

Biz niyə Səfəvilər dövlətinin əsasını qoymuş dövlət xadimi və şair Şah İsmayıl Xətainin bir "şah" sözünə görə bəzən adını çəkə bilmirik? Niyə başqa xalqlar dövlət başçısı olmuş çarlara, imperatorlara abidə qoyurlar, biz Xətainin "şahlığından" ehtiyat edirik? Biz tariximizi gənclərimizə beləmi sevdiririk? Yəqin ki, tariximizi

belə öyrətdiyimiz və belə öyrəndiyimiz üçün onu saxtalaşdırmaq istəyənlərin işi asanlaşır. İllərin, əsrlərin sınağından çıxaraq, bu günümüzə çatan daş abidələrdə, digər yazılı qaynaqlarda "düzəliş" aparılması da bu biganəliyimizin bəlası deyilmi? "Ocaq" kitabındakı (Z.Balayan) saxta faktları, saxta "vətənpərvərlik" motivlərini heçə endirmək üçün dəlil-sübutumuz çoxdur. Amma pərakəndə şəkildədir. Toplanıb sanballı kitab şəklinə, tariximizə yaraşan abidə şəklinə salınmayıb.

Bu mənada kişi qeyrətli alimimiz Fəridə Məmmədovanın "Qafqaz Albaniyasının siyasi tarixi və tarixi coğrafiyası" (rus dilində, "Elm", 1986) adlı kitabı çox qiymətlidir. Bu kitabın əsas məziyyətlərindən biri budur ki, müəllif külli miqdarda qaynaqlara, o cümlədən orta əsrlərdə yaşamış erməni müəlliflərinin əsərlərinə istinad edərək, Azərbaycanın ərazi bütövlüyünü - istər Sünik olsun, istər Ərsaq, istər Kambisena olsun, istər Qoqarena, bunların hamısının qədim Albaniya torpaqları olduğunu sübut edir.

Müəllif sübut edir ki, bu torpaqlar qısa müddətə erməni çarlığı tərəfindən zəbt edilsələr də, heç vaxt Ermənistan torpaqları olmamışdır və bu torpaqlarda erməni dillilər yaşamışlar. Bu torpaqlar, ümumiyyətlə, Albaniya ərazisi Atropatena ilə birlikdə qədimdə bizim indiki Şimallı və Cənublu Azərbaycanımızın ərazisini təşkil etmişdir. Bu ərazinin aborigenləri – yerli əhalisi hələ eramızın əvvəllərində bu yerlərə kütlə halında axıb gəlməyə başlamış türkdilli qəbilələrlə birlikdə hələ ərəb istilasından çox qabaq təşəkkül tapmış Azərbaycan xalqının əsasını, kökünü təşkil etmişdir.

Maraqlıdır ki, F.Məmmədova erməni tarixini qədimləşdirmək istəyən saxta tarixçilərin saxta dəlil-sübutlarını alt-üst edir, tarixi qaynaqlara sonradan əlavə edilmiş "düzəlişlərin" öz "tarixini" göstərir.

Təsadüfi deyil, bu cür sanbalına, elmi səviyyəsinə görə F.Məmmədovanın kitabı əldən-ələ keçir, həvəslə oxunur. Amma Azərbaycan dilində, həm də kütləvi tirajla buraxılması da zəruri tələbat olaraq

qalır. Qoy, bu kitab hər bir azərbaycanlının stolüstü kitabı olsun. Heç olmazsa, tariximizin bir dövrü haqqında sanballı tədqiqat əsərinin varlığı ilə fəxr edək!

Amma nə fayda, bu kitabın da əleyhinə çıxan yalançı "vətənpərvərlər" tapıldı. Yerevanda çıxan "Qrakan tert" ("Ədəbiyyat qəzeti") qəzeti F.Məmmədovanın kitabının "qızışdırıcı mövzu"da olduğu barədə çıxış etdi. Qəribədir ki, bu kitabda verilmiş faktlara qarşı çıxmaq üçün qəzet özünə havadar da tapdı: SSRİ EA Tarix İnstitutunun direktor müavini A.N.Saxarov.

Akademik Ziya Bünyadov bu məsələyə öz kəskin münasibətini bildirib*, yalançı "vətənpərvərləri" və onların saxta "sübut-dəlillərini" ifşa etdi. Alim yazır: "Bir cəhət də şübhə doğurur: antik və orta əsrlər dövrü problemlərinə həsr olunmuş, yazılışı, heç şübhəsiz, professional bilik tələb edən doktorluq dissertasiyası kimi təqdim və müdafiə olunmuş, qədim tarix mütəxəssiləri və mediyevistlər tərəfindən yüksək qiymətləndirilmiş bir tədqiqat əsərini A.Muşqenyan kimi bir filoloq heyrətamiz kobudluqla yerə vurur. Lakin bundan da çox təəccüb doğuran "rəsmi cavab" yazmış A.N.Saxarovun hədsiz məddahlığıdır".

Daha sonra Z.Bünyadov yazır: "Son zamanlar bəzi erməni alimləri və onların təəssübünü çəkən digər alimlər alban mövzusunu inhisara alıb, digər regionların, o cümlədən Azərbaycanın alimlərini bu problemlə məşğul olmaqdan məhrum ediblər. Bu "qadağan"ın "ləzzətini" ilkin dadanlardan biri elə mən özüm oldum".

Tariximizin bu dövrünün tədqiqinə qadağa qoyanlar nəyə arxalanıblar? Deyək ki, durğunluq illərinin durğunluğuna. Bəs bu dövrün tədqiqat əsərinə hücum çəkənlər indi nəyə arxalanırlar? Məgər aşkarlıq yalnız belə qarafikirlilərinmi əlqolunu açıb? Məgər aşkarlıq tarix elminə, onun nailiyyətinə hücum etmək üçünmü verilib?

Yazının əvvəlində söhbət açdığım kimi tarix, ana tariximizin yadigarları bizə çox şey deyir. Bu yadigarlar bizə qədimliyimizdən,

*Bax: "Ədəbiyyat və incəsənət" qəzeti,15 yanvar 1988-ci il.

ululuğumuzdan, təmizliyimizdən söhbət açır, həqiqəti söyləyir. Bəs biz - indiki nəsillər nə deyirik? Bu barədə də kifayət qədər danışdıq. Burada öz biganəliyimizdən də, araqızışdıranlardan, onların saxta əməllərindən də söz açdıq. İndi bir fikir verin, görün, tarix nə deyir, bizim bəzi üzdəniraq "alimlər", "akademiklər", "yazıçılar" nə deyir?

"Gəlin, açıq danışaq", Bakı 1999





# DAĞLIQ QARABAĞ: İDDİALAR VƏ HƏQİQƏT*

Cəmiyyətimizin bütün həyat sahələrini inqilabi surətdə yenidən qurmaq xətti həyata keçirildiyi bir dövrdə, təəssüf ki, bəzi kölgəli, məhdud, xudbin meyllər də üzə çıxır. Parisdə Erməni-Fransa İnstitutunun və erməni veteranları assosiasiyasının təşkil etdiyi qəbulda akademik A.Aqanbeqyan demişdir: "Mən istərdim ki, (respublikanın şimal-şərqində yerləşən) Qarabağ Ermənistanın olsun. Mən iqtisadçı kimi belə hesab edirəm ki, o, Azərbaycana nisbətən Ermənistana daha çox bağlıdır! Mən bu istiqamətdə bir təklif irəli sürmüşəm. Ümidvaram ki, yenidənqurma, demokratiya şəraitində həmin problem öz həllini tapacaqdır"**.

Fitnəkar xarakter daşıyan bu bəyanat SSRİ-nin Konstitusiya əsaslarını sarsıtmaq məqsədi güdür. Bu həm də sağlam təfəkkürə sığmayan bir hərəkətdir. Çünki özünü sovet alimi, sovet vətəndaşı

*Bu məqalə tarix elmləri doktoru, professor Süleyman Əliyarovla birgə yazılmışdır.

**"Humanite" 18 noyabr 1987-ci il, səh 17.

adlandıran bir şəxs Sov.İKP MK Baş katibinin ABŞ-a sülh səfəri ərəfəsində xarici ölkə Kommunist Partiyası orqanının səhifələrində bir Sovet respublikasının başqa Sovet respublikasına qarşı ərazi iddiaları barədə boşboğazlıq etməyi özünə rəva bilmişdir. Aqanbeqyan kimi şəxslər, əslində, əlaltdan iş görərək SSRİ-nin V.İ.Leninin sağlığında sabitləşmiş milli dövlət strukturunun təftiş olunmasını təklif edir. Aqanbeqyanın həmfikri, tarix elmləri doktoru S.Mikoyan bu məsələ barəsində "nəzəriyyəbazlığa" uyaraq, "Literaturnaya qazeta"nın (2 sentyabr 1987-ci il) səhifələrində yazır: "Yığcam tarixi əraziyə malik "yerli olmayan" millətin böyük bir qrupunun inzibati cəhətdən nə üçün həmin millətin "yerli" ola biləcəyi respublikaya deyil, başqa bir respublikaya tabe olduğunun səbəblərini cəsarətlə, qərəzsiz müzakirə etməyə ehtiyac vardır. Hətta Sovet hakimiyyətinin ilk çağlarında inzibati ərazi bölgüsündə yol verilən nöqsanlar bu gün problem yaratmaqda davam edə bilər, işin kökünə qayıtmadan bunları həll etmək mümkün deyildir".

Aqanbeqyanın, Mikoyanın və başqalarının "proqram kredosu" izahat tələb edir:

Birincisi, Qarabağın Ermənistana iqtisadi "bağlılığı" barədə gülünc "dəlili" bir kənara qoysaq (Azərbaycan SSR-in şimal-qərb rayonları Gürcüstanla, şimal rayonları isə Dağıstanla iqtisadi əlaqə saxlayır, lakin onların statusu üçün bunun nə əhəmiyyəti ola bilər?), "yerli olmayan" millətləri müttəfiq respublikaların tabeliyindən çıxarıb ərazi cəhətdən elə respublikalara birləşdirmək təklif olunur ki, həmin respublikalarda onlar "yerli" millət olsun lar. Əslində, bu, milli tərkib etibarilə "saf" respublikalar yaratmaq iddiasından başqa bir şey deyildir. Beləliklə, Sovet muxtariyyətinin mahiyyəti şübhə altına alınır. Halbuki, Sov.İKP-nin və Sovet dövlətinin 70 illik təcrübəsi V.İ.Lenin tərəfindən işlənib hazırlanmış Sovet muxtariyyəti sisteminin böyük həyati gücünü bütün dünyaya nümayiş etdirir. Elə bir sistemin ki, onun daxilində, məsələn, Qarabağ ermənilərinin mənafeyi Azərbaycan SSR-in tərkibindəki Dağlıq Qarabağ Mux-

tar Vilayətinin simasında, Gürcüstandakı abxazların və osetinlərin mənafeyi Gürcüstan SSR-in tərkibindəki Abxaz Muxtar Respublikasının və Cənubi Osetiya Muxtar Vilayətinin simasında tam təmin edilmişdir. Bu tarixi faktı yalnız o şəxslər inkar edə bilərlər ki, SSRİ xalqlarının birliyi praktikasının özülü olan beynəlmiləlçilik onların təbiətinə yaddır. Lakin bir halda ki, iqtisadçı Aqanbeqyan "iqtisadi əlaqələrə" istinad edir, obyektiv faktlara müraciət edək: Azərbaycan SSR-in yalnız iki böyük sənaye rayonundan – Bakı və Gəncə rayonlarından Dağlıq Qarabağ Muxtar Vilayətinə 60 milyon manatlıq, Mil-Qarabağ, Araz boyu və Şəki rayonlarından isə buraya 16,5 milyon manatlıq mal gətirilir. Deməli, muxtar vilayətə gətirilən 100 milyon manatlıq məhsulun 3/4 hissəsi (76,5 faizi) Azərbaycan SSR-in adları çəkilən beş rayonunun payına düşür. Bəs Ermənistan SSR-dən vilayətə nə qədər məhsul gətirilir? Vurtut 1,5 milyon manat dəyərində, bu isə gətirilən bütün məhsulun 1,5 faizindən çox deyildir.

İndi də DQMV-dən kənara çıxarılan məhsulu götürək: muxtar vilayətdən ixrac olunan məhsulun ümumi dəyəri 150 milyon manatdır, bunun da düz 1/3 hissəsi Azərbaycan SSR-in payına, 2/3 hissəsi isə qalan respublikaların payına düşür. Ermənistan SSR-i ayrıca götürsək, oraya yalnız 40 min manatlıq və ya 0,04 faiz həcmində mal aparılır. Buradan belə bir nəticə alınır: iqtisadi baxımdan Ermənistan SSR-ə "daha çox bağlılıq" haqda "iqtisadçı" Aqanbeqyanın bəyanatı əsassızdır. Həm də Dağlıq Qarabağ Muxtar Vilayətinin bütün müttəfiq respublikalarla geniş iqtisadi əlaqəsi, başlıca olaraq, Azərbaycan SSR hesabına əldə edilmişdir. Çünki Azərbaycan SSR-dən muxtar vilayətə gətirilən məhsulun dəyəri, buradan respublikamıza qaytarılan məhsulun maya dəyərindən iki dəfədən də artıqdır.

İkincisi, Sovet hakimiyyətinin ilk çağlarında milli məsələdə buraxılmış "səhvlər" barədə danışıqlar da qərəzli məqsəd güdür.

Təsadüfi deyil ki, "Humanite"nin müxbiri "böyük" erməni (adı çəkilən hesabatda işlənən ifadədir) Aqanbeqyanın sözlərini belə

şərh edir: “Yeri gəlmişkən, qeyd edək ki, Qorbaçov 1987-ci il noyabrın 2-dəki məruzəsində milli məsələnin həllindəki təəssüfediləcək gecikməni qeyd etmişdir”. Təəccüblüdür ki, SSRİ-də milli məsələnin həll edilməməsi haqqında uydurma tezis Böyük Oktyabr Sosialist İnqilabının 70 illiyinə həsr olunmuş məruzənin adına çıxılır.

Hamıya bəllidir ki, Sovet hakimiyyətinin ilk illərində Cənubi Qafqazda milli dövlət quruculuğu Sovet respublikaları yaradılması sahəsində böyük iş görülmüşdür. V.İ.Lenin 1921-ci il 14 aprel tarixli məktubunda həmin respublikalar haqqında yazmışdı: “Onların sıx ittifaqı burjuaziya şəraitində görünməmiş dərəcədə və burjua quruluşunda mühüm olmayan milli sülh nümunəsi yaradacaqdır”*.

Burjua hökmranlığı dövründə erməni və Azərbaycan xalqlarının dərin milli ədavətə məruz qaldıqlarını necə unutmaq olar! N.Nərimanov 1922-ci ildə Cənubi Qafqaz ölkə partiya komitəsinin orqanı “Zarya Vostoka” qəzetində yazırdı: “Sonralar Cənubi Qafqaz sovetləşənədək iki il ərzində bu Zaqafqaziya respublikaları arasında silahlı toqquşmaya bais olan çəkişmələr məhz ərazi üstündə baş verirdi.

Cənubi Qafqazın nə qədər gənc qüvvəsi həlak oldu, nə qədəri eveşiksiz qaldı, nə qədər ailə ocağı dağıdıldı, doğma torpaqdan ayrı düşmüş nə qədər qaçqın indi aclıqdan məhv olmaqdadır. Və bütün bunların hamısı da Zəngəzura, Qarabağa, Zaqatalaya, Loriyə və başqalarına görədir”**.

Vaxtilə belə olmuşdu. Lakin Sovet hakimiyyətinin ilk illərindəcə əsaslı dəyişikliklər baş verdi, milli sülh yarandı. Bunun necə və nəyin bahasına əldə edildiyini N.Nərimanovun həmin məqaləsində görmək olar:

“Azərbaycan və Ermənistan sovetləşəndən sonra onlardan birincisi Zəngəzuru məmnuniyyətlə Ermənistanın ayrılmaz hissəsi elan

* Lenin V.İ. Əsərlərinin tam külliyyatı, 43-cü cild, səh. 214.

**Нариманов Н. Избранные статьи, речи и письма, B., “Язычы”, 1987, стр. 54.

edir, ikincisi isə Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi elan edir.

Gürcüstan sovetləşəndən sonra o da Azərbaycan ərazisi hesab edərək, Zaqatala barədə danışmaqdan tamamilə imtina edir...

...Azərbaycan özünün təbii sərvətlərini bütün sovet respublikalarının ümumi malı elan edir...

Qəribədir ki, bu vaxta qədər həmin respublikaların zəhmətkeşlərinin heç bir rəsmi və qeyrirəsmi yığıncağı bu güzəştlərə etiraz etməmişdir"*.

Beləliklə, Dağlıq Qarabağ üçün ciddi şəkildə Sovet muxtariyyəti işlənib hazırlandı. 1923-cü il iyulun 7-də Azərbaycan SSR-in tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil edildi. Zəhmətkeşlərin beynəlmiləl prinsipinə üstünlük verilməsini qoruyub saxlamaqla, milli əlaqələrin və milli birliyin keyfiyyət cəhətini nəzərə almaq barədə Lenin tələbi ön plana çəkildi.

Dağlıq Qarabağın muxtariyyəti məsələsi məhz Lenin mövqeyindən həll edildi. Hələ Ermənistanda daşnaklar hakimiyyətdə olarkən A.İ.Mikoyan PK(b)PMK-ya, V.İ.Leninə məruzəsində yazırdı (çox maraqlıdır ki, S.Mikoyan öz atasının miras qoyub getdiyi sənədlərdən obyektiv istifadə etmək istəməmişdir!): "Erməni hökumətinin agentləri olan daşnaklar Qarabağı Ermənistana birləşdirməyə can atırlar, lakin bu, Qarabağ əhalisi üçün öz həyat mənbəyindən - Bakıdan məhrum olmaq və heç vaxt, heçnə ilə bağlı olmadıqları İrəvana bağlamaq demək olardı (kursiv bizimdir - B.V., S.Ə.) Erməni kəndləri də beşinci qurultayda Sovet Azərbaycanını tanımağı və onunla birləşməyi qərara almışlar"**.

1920-ci il iyunun 5-də RK(b)P MK-nın Qafqaz bürosu

*Нариманов Н. Избранные статьи, речи и письма, В., "Язычы", 1987, стр. 55-56.

**Sov. İKP MK yanında MLİ-nin partiya arxivi, f. 461, s. I. q. 45452, v. I, sitat bu mənbədən gətirilir: C.B.Quliyev. Lenin milli siyasəti bayrağı altında (rusca), Bakı, 1972, səh.302.

Q.K.Orconikidze və A.M.Nazaretyanın təklifi ilə Qarabağ məsələsini müzakirə edərək qərara almışdı: “Müsəlmanlar və ermənilər arasında milli sülhün, yuxarı və aşağı Qarabağın iqtisadi əlaqəsinin, onun Azərbaycanla müntəzəm əlaqəsinin zəruriliyini nəzərə alaraq Dağlıq Qarabağ Azərbaycan hüdudlarında saxlanılsın, ona geniş muxtariyyət verilsin...”*

İndi bütün bunlar unudulur. Belə bir faktın da üstündən sükutla keçirlər ki, Qarabağ və Zəngəzur məsələsi iki respublikanın qarşılıqlı razılığı ilə həll olunmuşdu. Sovet Azərbaycanının Ermənistan SSR-ə güzəştə getdiyi ərazi çox geniş idi və həmin güzəşt nəticəsində Azərbaycan ərazisi təxminən 9 min kvadrat kilometr azalıb 86,7 min kvadratkilometrə enmişdi. S.Mikoyanın sözlərilə söyləsək, “işin kökünə” qayıdaq. Qarabağ barədə iddialara tarixi don geyindirməyə çalışırlar. Guya bu diyar keçmişdə Ermənistana məxsus olmuş və ermənilər tərəfindən məskunlaşdırılmışdı. Həmin versiyanın tərəfdarları tarix səhnəsində zorakılıq edir, vaxtilə Qarabağı qədim Qafqaz Albaniyasının vilayəti hesab edən erməni alimlərinin (K.Patkanov, N.Emin, K.Şahnazaryan, Y.Manandyan, İ.Orbeli. S.Yeremyan və başqalarının) əsərlərini belə təftiş etməkdən çəkinmirlər.

Uzaq tarixi keçmişdə indiki Azərbaycan SSR-in əhalisi, başlıca olaraq, Qafqaz albanlarından ibarət idi. Məşhur sovet qafqazşünası SSRİ Elmlər Akademiyasının müxbir üzvü K.V.Trever albanları “Cənubi Qafqazın üç əsas qədim xalqından biri, Cənubi Qafqaz Azərbaycanı və Dağıstan xalqlarının əcdadlarından biri” adlandırır, onların “qədim və yüksək mədəniyyətə” malik olduqlarını xatırladırdı**.

SSRİ tarixi mütəxəssisləri arasında bununla bağlı yekdil fakir

*Sov. İKP MK yanında MLİ-nin partiya arxivi. f. 461. s. I. q. 45452, 1, səh. 303.

**K.V.Trever. Qafqaz Albaniyasının tarixi və mədəniyyətinə dair oçerklər (rusca), SSRİ EA nəşri, M.-L., 1959, səh. 3.

mövcuddur:

"Getdikcə albanların əksəriyyəti Azərbaycan xalqının tərkibinə daxil oldu və müsəlmanlaşdı, onların kiçik azlığı isə (Şəkidə və Dağlıq Qarabağda) ermənilərə qovuşub erməniləşdi."*

"Qarabağın və qismən Azərbaycan SSRin başqa vilayətlərinin (Naxçıvan MSSR-dən savayı) erməniləri onun (alban əhalisinin) nəsilləridir. Deməli, qədim Albaniya əhalisi həm də indiki azərbaycanlıların və ermənilərin bir hissəsinin ümumi əcdadıdır. Buna görə də həmin məsələdə Azərbaycan və erməni alimləri arasında gedən və təəssüf doğuran mübahisələr əsassızdır"*.

Fikrimizcə, qədim dövrdə mövcud olan vəziyyət tamamilə aydındır. Bütün orta əsrlər boyu (Azərbaycan və erməni xalqlarının öz dövlət quruluşundan məhrum olduqları ərəb xilafəti və monqollar dövründən başqa) Qarabağ Azərbaycandakı feodal dövlət birləşmələrinin bir hissəsi olmuşdur. Belə ki, bu ərazi XII-XV əsrlərdə Azərbaycanın Atabəylər, Qaraqoyunlu və Ağqoyunlu dövlətləri tərkibində inzibati vahid olmuşdur. Qarabağ torpaqları sonralar paytaxtı Təbriz şəhəri olan Səfəvi dövlətinin tərkibində yaradılmış üç Azərbaycan bəylərbəyliyindən biri idi (1501-1736-cı illər).

"Nüzhətül-qülub", "Zeyl-e tarix-e quzide", "Təkmilatül-əxbar" və başqa tarixi əsərlərdə bu əyalət, adətən "Aran Qarabağı" adlanmışdır (Aran orta əsrlərdə Kür və Araz çayları arasındakı Azərbaycan torpaqlarının adıdır). Bunu XVII əsr erməni müəllifi Təbrizli Arakelin "Tarix kitabı" da təsdiq edir. Müəllifə görə, Qarabağ albanlar ölkəsidir: "Sonra vardapet... albanların ölkəsinə, Qarabağa yola düşdü..."**.

1737-ci ildən 1828-ci ilə kimi Aran torpaqları Azərbaycan feodal dövlətinin - Qarabağ xanlığının özülü olmuşdur. İran təcavüzünə qarşı qətiyyətlə mübarizə aparan Qarabağ xanlığı İbrahim xanın

*Petruşevski İ.P. Azərbaycanda və Ermənistanda feodal münasibətlərinin tarixinə dair oçerklər (rusca) L., 1949, səh. 52.

**"Nauka", 1973, səh. 226.

dövründə rus dövləti ilə sıx diplomatik əlaqələr saxlamışdır. Bu əlaqələrin xarakteri II Yekaterinanın 1783-cü ildəki fərmanında birbaşa öz əksini tapmışdır: "İbrahim xana gəldikdə isə, əgər onun rus himayəsinə qəbul edilməsi bir çətinlik, yaxud şübhə ilə qarşılanmırsa, onda çar İrakli ilə görülən iş rəhbər tutula bilər (Gürcüstana aid olan tarixi Georgi müqaviləsi nəzərdə tutulur - B.V., S.Ə.). Oxşar şərtlərlə onun himayəyə götürülməsi oranın müqavimətsiz ələ alınmasına və oradakı bir çox qonşuların bu iki hökmdardan nümunə götürməsi üçün təkana səbəb ola bilər". İbrahim xan və Qafqazın baş komandakı P.D.Sisianov tərəfindən 14 may 1805-ci ildə bağlanmış ikitərəfli müqaviləyə görə, Qarabağ xanlığı Rusiyaya birləşdirildi. Sıx tarixi və

mədəni əlaqələrlə Azərbaycana bağlı olan Qarabağ xanlığını bir siyasi amil olmaqla özünə birləşdirən Rusiya dövləti, bu ölkədən ötrü Azərbaycanın qalan hissəsi üçün səciyyəvi olan inzibati idarə statusu müəyyən etdi:

1822-ci ildə ləğv edilən xanlığın yerində Cənubi Qafqazın "müsəlman" əyalətlərindən biri olan "Qarabağ əyaləti" rəsmi olaraq yaradıldı. Buna görə də Rusiyanın dörd nazirliyi (xarici illər, daxili işlər, hərbi və maliyyə nazirlikləri) tərəfindən buraxılan dördcildli "Cənubi Qafqazdakı Rusiya torpaqlarının icmalı" (SPb, 1834) kitabında Qarabağ "müsəlman əyalətləri" tərkibinə

daxil edilmişdir. 1828-ci ildən sonra yaradılan "Erməni vilayəti", təbii olaraq, "müsəlman əyaləti" sayılmırdı, halbuki, 30-cu illərin kameral sayımına görə onun əhalisinin 46,3 faizi (İrandan və Türkiyədən buraya köçürülən ermənilər gəlməzdən qabaq isə 73,8 faizi) müsəlman - türklərdən, yəni azərbaycanlılardan ibarət idi. Deməli, çar Rusiyası hökuməti də Qarabağı rəsmən "erməni vilayətinin", yəni indiki Şərqi Ermənistanın bir hissəsi saymırdı və saymaq üçün bir tarixi tutalqa tanımırdı.

1840-cı ildən Qarabağ torpaqları Şimali Azərbaycanın əksər torpaqlarını özündə birləşdirən yeni yaradılmış Kaspi vilayətinin

qəzaları tərkibində; 1868-ci ildən Şimali Azərbaycanın iki iri inzibati vahidindən biri olan Yelizavetpol (Gəncə) quberniyasının tərkibində; 1920-ci ildən isə Azərbaycan SSR tərkibində mövcud olmuşdur.

Beləliklə, bütün tarix boyunca, xüsusən son 1600 ildə nə bütövlükdə Qarabağ əyaləti, nə də onun dağlıq hissəsi heç vaxt erməni dövlət birləşmələrinin tərkibində olmamış, əksinə, Azərbaycanın siyasiiqtisadi və mədəni həyatının tərkib hissəsi kimi tanınmışdır. Aqanbeqyanla görüş haqqında hesabatda söylənən "Azərbaycan Respublikasına birləşdirilmiş qədim erməni torpaqları - Qarabağ və Naxçıvan" - sözləri Aqanbeqyan "auditoriyasının", xüsusən orada iştirak edən Daşnaksutyun partiyası "veteranları"nın ekspansionist xülyalarını əks etdirir. Belə xülyaların tarixi isə qədimdir. Hələ 1904-cü ildə rus publisisti V.L.Veliçko yazırdı: "Biz hələ bədnam Böyük Ermənistan barədə və özünün bütün qonşularını mədəniləşdirmək kimi dünya miqyaslı bir missiyanı öz boynuna götürən ermənilərdən söz açan cəfəng dərsliklərdən danışmırıq. Həmin kilsə məktəblərində paytaxtı Tiflis olmaqla az qala Voronejə qədər Böyük Ermənistanın xəritələri də intişar etdirilirdi"*.

Hazırda Dağlıq Qarabağda erməni əhalisinin sayca üstünlüyündən çox danışılır. Ən ilkin rəsmi rus qaynağına, 1832-ci ilin kameral sayımına görə, Qarabağ əyalətində 34,8 faiz erməni və 64,8 faiz azərbaycanlı olmuşdur**. Nəzərə almaq lazımdır ki, 1828-ci il Rusiya-İran müqaviləsinə görə ilk illər ərzində İrandan Qarabağa və Şimali Azərbaycanın başqa əyalətlərinə intensiv surətdə erməni əhalisi köçürülmüşdür. XIX əsrin 80-ci illərinin sonuna yaxın Dağlıq Qarabağın daxil olduğu Şuşa qəzasında ermənilərin sayı artıq 58 faiz, azərbaycanlıların sayı isə 42 faiz idi***.

---

*Величко В.Л. Кавказ. Русские дела и междуплеменные вопросы. С.-Петербург, 1904, стр. 101.

**Zaqafqaziyadakı Rusiya torpaqlarının icmalı (rusca). III hissə, SPb, 1834. "V" cədvəli.

***1896-cı il üçün Qafqaz təqvimi (rusca), V bölmə, səh. 48-61.

Həmin dövrdə Rusiyanın İranda səfiri olmuş yazıçı A.S.Qriboyedov 1828-ci ildə ermənilərin İrandan Qarabağa köçürülməsi məsələsindən bəhs edərək yazırdı ki, onlar bizim təzə torpaqlarda yerləşdirilərkən hər şey düşünülüb danışılmamış, bağışlanmaz dərəcədə naşılıq göstərilmişdir. "Ermənilərin İrandan bizim əyalətlərə köçürülməsi haqqında qeydlər" adlı həmin yazıda daha sonra oxuyuruq: "Ermənilərin əksər hissəsi müsəlman mülkədar torpaqlarında yerləşdirilmişdir. Yayda buna birtəhər dözmək olardı. Ev sahibinin - müsəlmanların bir çoxu köçüb gedirdi, başqa dinə mənsub olan gəlmələrlə az-az rastlaşırdılar."*

Nəhayət, o, bu qənaətə gəlir: Müsəlmanlara təlqin edilməlidir ki, hazırkı sıxıntılı vəziyyət uzun sürməyəcəkdir. İndi biz gərək "ermənilərin qalması üçün ilk dəfə müsaidə edilən torpaqlara onların əbədi yiyələnəcəyi qorxusunu müsəlmanların beynindən çıxaraq"**

Bu qorxu əbəs deyilmiş...

Rus imperiyası əhalisinin birinci – 1897-ci il sayımına görə isə "ana dili" üzrə burada yaşayan erməni və azərbaycanlıların sayı müvafiq olaraq 53 və 45 faiz idi (mötərizədə qeyd edək ki, rüsvayçı "Ocaq" kitabının müəllifi Z. Balayan utanmadan göstərir ki, XIX-XX əsrin başlanğıcında guya Qarabağ əhalisinin 96-98 faizi ermənilərdən ibarət idi. Öz xalqına bu boyda yalan danışmaq olarmı?!). Xüsusilə, Birinci Dünya müharibəsi illərində qaçqınların sayı artdıqca, Qarabağda ermənilər bir qədər də çoxalırdı. Beləliklə, Rusiya dövlətinin himayəsi altında Azərbaycan xalqı öz müqəddəs torpağında erməni xalqına sığınacaq verdi.

Lakin 1948-1953-cü illərdə SSRİ xalqlarının münasibətlərində görünməmiş olan və görüləsi ola da bilməyən bir hadisə baş verdi. Stalin bir qələm çəkməklə, 100 mindən artıq azərbaycanlının

*Bax: Грибоедов А.С.Сочинения в 2-х томах, Т. 2. Библиотека "Огонёк". Издательства "Правда". М., 1971. стр. 340.

**Yenə orada. səh. 341.

Ermənistan SSR-dən zorla çıxarılmasına, deportasiya edilməsinə razılıq verdi. Yüz illərdən bəri neçə-neçə nəslin yaşadığı evlər və ocaqlar dağıdıldı. Günahsız adamlar indiyədək anlaya bilmirlər ki, onları Ermənistan ərazisindəki doğma yurdlarından nə üçün məhrum etmişlər. Aydın olurdu ki, Ermənistan SSR-i yekcins milli tərkibli respublikaya çevirmək xətti rəsmi istiqamət almışdır. Azərbaycan SSR-ə ərazi iddiaları vermək də sistem halını aldı. Həmin vaxtdan indiyədək bu iddialar demək olar ki, həmişə Azərbaycanın məğlubiyyəti ilə nəticələnmişdir. Bu qəbildən olan sonuncu təhqiramiz hadisə cəmi üç il qabaq Qazax rayonun da 5 min hektardan artıq barlı-bəhərli əkin sahələrinin Azərbaycandan qoparılması ilə nəticələnmişdir.

Görünür, bütün bunlar müəyyən zəncirvari reaksiya yaradır ki, bu da torpaqlarımızın hissə-hissə parçalanmasına səbəb ola bilər. İndi artıq gürcü tarixçiləri arasında da Şəki əyaləti - Azərbaycanın beş rayonunun ərazisi barədə iddialar eşidilir*.

Həm də bu cür iddialara elə bir vaxtda yol verilir ki, Gürcüstan SSR hüdudlarında "yığcam bir ərazidə" 300 mindən artıq azərbaycanlı yaşayır. Onlar 50-ci illərdə böyük kütləsi zorla respublikadan çıxarıldıqdan sonra indiyədək Ermənistan SSR-də yaşayan 200 minə yaxın azərbaycanlı kimi, heç bir milli muxtariyyətə malik deyillər.

1828-ci ildən bəri Azərbaycan xalqı iki hissəyə bölünmüşdür. Sovet millətləri birliyində Azərbaycan xalqı öz milli dövləti - Azərbaycan Sovet Sosialist Respublikasını ləyaqətlə təmsil edir. Xalqımızın İranın tabeliyindəki Cənubi Azərbaycanda yaşayan hissəsi isə bu cür milli dövlət hüquqlarından məhrumdur. Orada Azərbaycan dili, on milyondan artıq Cənubi azərbaycanlının bütün milli mədəniyyəti amansız təqiblərə məruz qalır. Belə bir şəraitdə təbiidir ki, Cənubi Azərbaycan xalqının bütün ümidi Azərbaycan SSR-ədir.

*Bax: Musxelişvili D.L. Şərqi Gürcüstanın tarixi coğrafiyasından (rusca), Tbilisi, 1982.

İnamla demək olar ki, öz millətinin dirçəlişini və saadətini başqalarının bədbəxtliyi üzərində qurmağa can atanların, erməni ədəbiyyatının klassiki, Azərbaycanın yetirməsi Aleksandr Şirvan zadənin peyğəmbərcəsinə söylədiklərini unudanların vətəndaşlıq aləmi, daxili aləmi məhdud və acınacaqlıdır. A.Şirvanzadə, haqlı olaraq, demişdir: Cənubi Qafqaz sacayaq kimidir, ayağının birini qırsan, bütünlüklə yıxılıb böyrü üstə düşəcək.

A.Aqanbekyan kimi şəxslər yaxşı bilirlər ki, Azərbaycan xalqı uzun əsrlər boyu öz tarixi əcdadlarının torpağı olan Qarabağda və Naxçıvanda ermənilərlə birgə yaşamış, onları din ayrı qardaş adlandırmışdır. Eləcə də torpaqlarında ta qədimdən azərbaycanlılar yaşayan erməni xalqı da bu hisslərlə yaşamışdır. Lakin belə şəxslər üçün bütün bunlar azdır. Onlar hər şeyi öz əllərinə almaq, həm də buna nail olmaq istəyirlər ki, xalqımız öz torpaqlarına sahib olmaq hüququndan məhrum edilsin. XX yüzilliyin başlanğıcında bəzi erməni alimləri Gürcüstan barədə də bu cür iddialarla çıxış edir, sübut etməyə çalışırdılar ki, “Gürcüstan əslində Gürcüstan deyil, qədim Ermənistandır”. O vaxtlar böyük gürcü demokrat yazıçısı İlya Çavçavadze bu barədə yazmışdı: “Məgər ermənilərin səpələnməsi bizim ürəyimizcədir? Allah-təala onlara güc və bacarıq versin ki, tərk edib getdikləri yerdə birləşsinlər. Amma qoy özgə varına göz dikməsinlər, bizi öz varımızdan məhrum etməyə can atmasınlar, bizim adımızı alçaltmaqla ad çıxarmağa çalışmasınlar. Bizim torpağımız çox da olsa, az da olsa, hər halda sizə sığınacaq verdik, qanadımız altına aldıq, sizinlə qardaşlaşdıq. Öz evimizdəcə bizimlə düşmən kimi rəftar etməyin”*.

Böyük demokrat yazıçının fikri bu gün də aktualdır. Xüsusən, Dağlıq Qarabağ ətrafında hay-küy qaldıran, ərazi iddiasına düşən bir yığın indiki “vətənpərvərlər” üçün. Lakin bu cür iddialar Konstitusiyamıza, sovet quruluşunun təbiətinə ziddir. Belə iddialar xalq-

*Çavçavadze İ. Erməni alimləri və fəryad qoparan daşlar (rusca), Tiflis. 1902. səh.80, 123.128.

lar arasına nifaq salmaqdan, milli münasibətləri gərginləşdirməkdən başqa bir şey deyildir.

Əslində isə, yenidənqurma prosesinin həyata keçirildiyi indiki dövrdə başlıca vəzifə milli siyasətin Lenin prinsiplərini ardıcıllıqla həyata keçirməkdən, Azərbaycan və erməni xalqlarının dostluğunu möhkəmlətməkdən ibarət olmalıdır. Dövrün tələbi belədir.

*"Gəlin, açıq danışaq", Bakı, 1989.*





## BİR NEÇƏ MÜHÜM PROBLEM

***(Məqalə akademiyanın hesabat iclasındakı çıxış əsasında yazılmışdır).***

Tarix bəzən xalqın qarşısına böyük problemlər qoyur, onu imtahana çəkir. Onun bir xalq kimi yaşamağa qadir olub-olmadığını sınaqdan çıxarır. Bu gün bizim tarix və xalq qarşısında məsuliyyətimiz bütün ağırlığı və böyüklüyü ilə çiyinlərimizdədir. Gələcək bizdən bu günlərin haqq-hesabını istəyəcək. Burada azacıq da olsa səhvə yol vermək gələcək nəsillər qarşısında xəcalətimizə çevrilə bilər. Ona görə də mən hər şeydən əvvəl hamını, xüsusən alimlərimizi bu tarixi məsuliyyəti dərk etməyə dəvət edirəm. Gəlin, xırda hisslərdən, şəxsi mənafedən doğan çəkişmələrdən uzaqlaşaq, inqilabi yenidənqurmanın qarşıya qoyduğu problemlərin həll edilməsi üçün səylərimizi birə-on qat artıraq. Respublikamızın iqtisadiyyatını, elmini, mədəni və sosial inkişafını müasir tələblər səviyyəsinə qaldırmaq üçün əlimizdən gələni əsirgəməyək.

Buna necə dözmək olar ki, hələ də Azərbaycan tarixinin, ədəbiyyat tarixinin, elm və incəsənət tarixinin işlənib hazırlanmış vahid konsepsiyası yoxdur və bu konsepsiyanın olmaması çoxcildlik tarix kitabımızın ortaya çıxarılmasına ciddi əngəl törədir. Çünki

hər sahənin tarixini yazan, məsələyə vahid konsepsiyadan yanaşmır, hərə bir söz deyir. Bu vəziyyətdən çıxmaq üçün müzakirələrin çərçivəsini genişləndirmək lazımdır. Bunun üçün Akademiyanın institutları çərçivəsindən kənara çıxmaq, respublika ali məktəblərində çalışan alimləri də müzakirələrə cəlb etmək lazımdır.

Bizim tarix elmimizin vahid konsepsiyasının olmaması ilə bağlı Azərbaycan xalqının təşəkkül probleminə toxunmaq istəyirəm. İndiyə kimi bu məsələ “qapalı” olduğundan, biz ona toxunmaqdan çəkinmişik. Təşəbbüsləri də ehkamçı mövqelərdən çıxış edən yoldaşların açıq və ya gizli göstərişi ilə yarımçıq qoymuşuq. Etnogenez problemi üzrə dəfələrlə seminar və ya “komissiya” adı altında toplaşmışıq. Amma nəticədə heç bir iş görülməmişdir və görülmür. Nəhayət, Qarabağ hadisəsi baş verdi və aydın oldu ki, biz bu problemi araşdırıb işləmədiyimiz üçün tərksilah vəziyyətindəyik və bu vəziyyətdən Qarabağ hadisəsinin dirijorları çox böyük ustalıqla istifadə etməkdədirlər. Yaxşı tanıdığımız Sero Xanzadyan mətbu çıxışlarının birində açıq-açığına yazmışdır ki, Azərbaycan alimlərinin özlərinin yazdığına görə, Azərbaycan xalqı XII əsrdən sonra yaranmış bir xalqdır və buna görə də qədim çağlarda, ümumiyyətlə, XII əsrə qədər Qarabağ torpağı bu xalqın, yəni olmayan bir xalqın torpağı ola bilməzdi.

İndi üzümü sizə tuturam, tarixçi qardaşlarım, nə vaxta qədər siz xalqımız üçün deyil, xanzadyanlar üçün işləyəcəksiniz? Tarixi abidələrə münasibət məsələsi təkcə Akademiya ictimaiyyətinə deyil, bəlkə də, daha çox respublikamızın rəhbər təşkilatlarına: Mərkəzi Komitəyə, Ali Sovetə, Nazirlər Sovetinə və onların səlahiyyət dairəsinə aiddir. Mən burda abidələrin qorunmasının vəziyyəti haqqında uzun-uzadı danışmağı artıq sayıram. Ancaq bu məsələ ilə bağlı iki konkret təklif vermək istəyirəm:

Birinci. Azərbaycanın bütün tarixi abidələri içərisində çox böyük yeri və qiyməti olan iki Xudafərin körpüsü xilas edilməlidir. Arayış vermək istəyirəm. İran ilə bağlanan müqavilə üzrə Araz üstündə daha

bir su anbarı tikilməsi nəzərdə tutulmuşdur. İşlər artıq getməkdədir və layihə üzrə hər iki körpü suyun altında qalıb məhv olmalıdır. Halbuki, bu körpülər Azərbaycan memarlıq fikrinin və sənətinin tayı bərabəri olmayan nadir inciləridir. Körpünün biri 15 tağlı, o biri isə 11 tağlıdır. Müqayisə üçün xatırladım ki, bu böyüklükdə - 15 və 11 tağlı körpülər nəinki Azərbaycanda, Cənubi Qafqazda və ön Asiyada demək olar ki, yoxdur. Bu, 15 mərtəbəli göydələni buldozerin ağzına verib məhv etməyə bərabərdir. Əgər belə bir cinayəti öz əllərimizlə etsək, dünyanın mədəni xalqları bizi lənətləməzmi? Bu cinayəti tutsaq, bundan sonra tariximizdən və tarixi irsimizdən bir xalq kimi danışmağa bizim mənəvi haqqımız olarmı? Və nəhayət, axı, bu körpülər Şimali Azərbaycanı Cənubi Azərbaycanla bağlayan yeganə tellərdir. İndi bu telləri biz öz əllərimizlə kəsmək səviyyəsinə “ucalmışıqmı?”. Məgər bizim ucalığımız bundanmı ibarətdir?

Yuxarıda adlarını çəkdiyim yüksək təşkilatlar dərhal işə qarışmalıdır. İctimaiyyəti səfərbər etməyə isə biz öz boynumuza götürməliyik. Elin gücü selin gücüdür. Yəqin ki, hamımız “İzvestiya” qəzetinin 6 aprel (1989-cu il) tarixli nömrəsində “Proekt veka... no kakoqo?” adlı məqaləni oxumusunuz. Görün, Gürcüstanın elmi ictimaiyyəti, ziyalıları və respublikanın rəhbər təşkilatları böyük birlik hissi ilə Araqvi çayının axarı boyu Şimali Qafqaza çəkiləcək dəmir yolunun ekoloji yararsızlığını necə sübuta yetirmişlər.

İkinci təklifim: respublikada tarixi abidələri qoruyan cəmiyyət var. Ancaq kağız üzərində, rəhbəri isə Qurban Xəlilov yoldaşdır. Təklif edirəm, bu cəmiyyət bu yaxınlarda Azərbaycan KP Mərkəzi Komitəsi yanında yaranmış “Müşavirə” qrupunun ixtiyarına verilsin. Yalnız bu yolla bu cəmiyyətin fəaliyyətini kağız üzərindən çıxarıb praktiki fəaliyyət axarına və ictimayyətin nəzarəti altına almaq olar.

Bir çox mədəni millətlər xalqın tarixinə əbədi daxil olan görkəmli dövlət xadimlərini, sərkərdələrini, elm və mədəniyyət xadimlərini adi qəbiristanlıqda deyil, xüsusi xiyabanlarda və Panteonlarda dəfn

edirlər. Bu xiyabanlar və Panteonlar xalq üçün müqəddəs and yeri hesab olunur.

Biz bunun birini yox, ikisini yaratmışıq. I və II dərəcəli. Amma bu dərəcələrin necə və nəyə əsasən təyin olunduğunu hələ heç kəs bilmir. Götürək, birinci dərəcəli Fəxri xiyabanımızı. İndi, görək, burda yatanların hamısımı həqiqətən xalqın fəxridir? Xalqın fəxri olmadan, göstərişlə fəxri xiyabanda yatan mərhumların ruhu məni bağışlasın. Axı, ad, ünvan mahiyyətə uyğun olmalıdır.

Birinci dərəcəli fəxri xiyabanda H.Zərdabi, Üzeyir bəy və S.Vurğunla yanaşı, elə adamlar yatır ki, dəfnindən 5-10 il sonar kim olduğunu bilmirik. Baş daşının üstündəki ad və familiya heç nə demir. Əgər mərhumun daşıdığı ad heç nə demirsə, o, necə fəxrə çevrilib Fəxri xiyabanda yatmaq hüququ qazanmışdır? Bu suala necə cavab verək?

Bəs, bu fəxri xiyabanın müəyyən bir statusu olmalıdır, ya yox?

Çox fikirləşəndən sonra məlum olur ki, bu mərhumlar vəzifələrinə görə bura düşüblər.

Unudulur ki, mövqe və vəzifə şəxsin mahiyyəti ola bilməz. Təyin ilə verilən üstünlük əmrlə də alınır. Bir mahiyyət ki, təyin və əmrlə verilir və alınır, onu adamın şəxsi üstünlüyü hesab etmək olarmı?

Respublikamızda şəhər və kəndlərimizin tarixi adlarının, habelə küçə və məhəllə adlarının bərpası sahəsində xeyli iş görülüb. Lakin hələ tamamilə qurtarmayıb. Bu sahədə alim və ziyalılarımızın

üzərinə çox böyük məsuliyyət düşür.

Mərkəzi mətbuatda Stalinin, Beriyanın ifşası ilə əlaqədar materiallar çap olunur. Bu materiallar şəxsiyyətə pərəstiş dövrünün nöqsanlarını, ölkəyə və minlərlə günahsız müqəssirə tutduğu divanı bütün eybəcərliyi ilə üzə çıxarır. Bəs, Bağırovun, Markaryanın, Qriqoryanın, Yemelyanovun törətdiyi cinayətlər nə zaman bizim mətbuatda öz əksini tapacaq? N. Nərimanova atılan böhtanlar barədə nə vaxt yazılacaq? Bu sahənin mütəxəssisləri niyə susurlar?

Bir qeydim də islamla bağlıdır. Bildiyimiz kimi, Rusiyada xris-

tianlığın qəbul edilməsinin 1000 illiyi təntənə ilə qeyd olundu. Bu, əlbəttə, çox böyük hadisədir, demokratiya və aşkarlıq prinsiplərindən irəli gəlir və Rusiyanın tarixi-mədəni həyatında çox mühüm rol oynamış bir amilə obyektiv münasibətin nəticəsidir. Belə bir tarixi anda mən istər-istəməz islama olan birtərəfli münasibəti yada salmaya bilmirəm. Hər bir ədəbiyyatçı, mədəniyyət tarixi ilə məşğul olan hər bir kəs bilir ki, islam dininin mahiyyətini, qayda-qanunlarını, fəlsəfəsini, insana münasibətini və s. bilmədən, öyrənmədən, Azərbaycan və ümumiyyətlə, Şərq mədəniyyətinin və ədəbiyyatının min bir məsələsini açmaq, təhlil etmək mümkün deyil. Ona görə də klassik ədəbiyyatımıza aid neçə-neçə tədqiqat işi yarımçıqdır, qarşısına qoyduğu problemi bütün tamlığı ilə işıqlandıra bilmir. Heç olmasa, Nəsimini yadımıza salaq. Mənə belə gəlir ki, islamın tədqiqinə, öyrənilməsinə, bir predmet kimi tədrisinə münasibət dəyişməli, bu sahədə əsaslı işlər görülməlidir.

Biz bu gün tarixi abidələrimizin qorunmasından, vaxtilə haqsız təqiblərə məruz qalan, adı mədəniyyətimizin tarixindən zorla silinən şəxsiyyətlərimizin qanuni hüquqlarının bərpa olunmasından, yaradıcılıqlarının lazımi səviyyədə öyrənilib, təbliğ olunma zərurətindən ürək ağrısı ilə söz açırıq. Bu, təkcə yaddaş və tarix qarşısında övladlıq borcumuzu yerinə yetirmək deyil, bu həm də bugünkü və gələcək nəsillərə örnək olmaq, necə və hansı ideal naminə yaşamaq, xalqın tarix boyu yaratdığı mənəvi dəyərlərə sədaqət və ehtiram bəsləməyi bacarmaq ruhunu təlqin etmək deməkdir. Çünki, keçmişimizi yadda saxlamasaq, bu günümüzü və ən başlıcası isə sabahımızı da düzgün qiymətləndirə bilmərik. Bu baxımdan, çox zəruri və həddən artıq incə olan bir məsələni qeyd etməmək olmaz. Bu, kadr məsələsidir.

Açığını deyim ki, bizdə ideya, fikir eroziyası olduğu kimi, kadr eroziyası da baş verir. Onlarla, yüzlərlə istedad sahib sizlikdən, biganəlikdən, arxasızlıqdan özünə layiqli yer tapa bilmir, daxili tələbatına uyğun gəlməyən işlə məşğul olur və beləliklə də, yavaş-yavaş mənəvi gücünü, enerjisini itirir, eroziyaya uğrayır. Bunun

əvəzində isə elmə, sənətə o qədər də dəxli olmayan adamlara, kimlərinsə dostuna, qohumuna, yaxınına xüsusi "parnik" şəraiti yaradılır və yarımistedad yavaş-yavaş diyirlənərək, onlarla, yüzlərlə istedadlının taleyini həll edir. Atalarımız deyiblər: "Dad yarımçıq əlindən".

Çox təəssüf ki, taleyimiz çox vaxt belə yarımçıqların əlinə düşür, ona görə də ümumittifaq və dünya miqyasına çıxa bilmirik, adamlarda vəzifə xəstəliyi ənənə halını alır, gecəsini gündüzünə qatıb elmin, sənətin adi zəhmətkeşi, fədaisi olmaq arzusu ilə yaşayanların sayı isə get-gedə azalır. Belə olmaz! İstedadlı ilə istedadsızı bir tərəziyə qoymaqla, bəzən istedadsıza əslində layiq olduğundan daha yüksək bir şərait yaratmaqla, adamların bizə və həqiqətə, ədalətə olan inamını itirir, milli elmimizin, milli mədəniyyətimizin sabahı naminə Fərhad kimi külüng çalmağa hazır olan neçəneçə gənc istedadın qəlbindəki yaradıcılıq məşəlini söndürürük.

*"Şənbə gecəsinə gedən yol", Bakı 1991*





# ŞƏNBƏ GECƏSİNƏ GEDƏN YOL

Qarabağ hadisələri başlanandan indiyə qədər əlimə qələm alanda bütün vücudum lərzəyə gəlir. Qələm içimdəki qəzəbi və etirazı istədiyim şəkildə yazıya çevirə bilmir. Hiddətim və qəzəbim fikrimi dəqiq ifadə etməyə imkan vermir. Çünki xalqıma edilən gözgörəsi zülm o qədər böyük, haqsızlıq o qədər dəhşətlidir ki, bunları insan ağlı dərk edə bilmir.

Zülmün və haqsızlığın bu dərəcədə ola biləcəyini təsəvvürümə gətirə bilməzdim. Öz gözlərimlə görsəm də ağlımla qəbul edə bilmirəm. Qəlbimə və ağlıma sığmayan bu dəhşətləri və üstümüzə yağış kimi yağdırılan böhtanları hansı sözün qüdrəti ilə deyim? Hansı ifadələrlə cümlələrə düzüm? Şahidi olduğum bu müsibətlər heç bir dilin məhdud qrammatik qaydalarına sığışmır... Erməni mafiyası o qədər güclüdür ki, yalan və uydurmaları ilə bizim həqiqətimizi bucağa qısmış, bis isə nə edəcəyimizi də bilmirik. Burada deyiblər ki, oğru elə qışqırdı ki, doğrunun bağrı yarıldı. Biz tək qalmışıq, səsimizə hay verən yoxdur. Hətta yaxın qonşumuz, dinbir qardaşımız, Dağıstanın xalq şairi R. Həmzətov da yüksək səviyyəli bir müzakirədə Qarabağın Mərkəzə tabe olunmasını təklif etdi. Xalq şairi N.Xəzri bununla əlaqədar yazdığı məqaləsində ona çox tutarlı cavab verdi *(Bax: "Yeni fikir" qəzeti, 1990, № 3-4).*

Erməni lobbisinin bütün dünyanı ələ aldığı bu günlərdə Moskva mətbuatından tutmuş, bütün dünya mətbuatına qədər hamısı ünvanımıza böhtanlar yağdırır. Bu yerdə İ.Çavçavadzenin məşhur sözləri yada düşür; çünki vaxtilə eyni müsibəti ermənilər gürcülərin də başına açmışdı. İ.Çavçavadze yazır: "Guya ki, biz heç bir vaxt olmamışıq və sanki heç bu gün də yoxuq... ruhən yoxsul, düşüncəsiz, səfeh, azğın, savadsız, mədəniyyətsiz, etibarsız, ikiüzlü, qorxaq - bax, budur onların təsəvvüründə bizim mənəvi və fiziki varlığımızın mənzərəsi! Öz xeyirlərinə bizim adımızı alçaltmaq, yox etmək istəyən ermənilərin sözü ilə, görün, biz nə imişik və bu gün nəyik. Onlar sözlə və yazıları ilə bütün dünyanı inandırmağa çalışırdılar ki, biz məhz keçmişdə də belə şərəfsiz və ləyaqətsiz olmuşuq, bu gün isə ondan da betərik".

Bu sözləri İ.Çavçavadze, elə bil, bu gün bizim haqqımızda demişdir. Böyük yazıçı sözünə davam edərək yazır: "Ermənilər mənliyimizi təhqir etmək, milli ləyaqətimizi tapdalamaqla kifayətlənmir, bizi yer üzündən yerli-dibli silmək üçün bütün tariximizi, salnaməmizi, tarixi yadigarlarımızı, abidələrimizi puça çıxarır, bizə mənsub olan hər şeyi... müxtəlif hiylələrlə özlərinə çıxırlar... Nədən ötrü toz-duman qaldırılıb, nədən ötrü belə hay-həşir qoparılıb, göy guruldayıb, ildırım çaxıb? Ondan ötrü ki, bütün dünyaya sübut etsinlər: Cənubi Qafqazda ta qədimdən yalnız erməni xalqı yaşamış və bu diyarın gələcəyi də onlarındı".

Ermənilərə xas olan bu cəhəti rus jurnalisti V.L.Veliçko da vaxtilə təsdiq edərək yazmışdır: "Neft mədənlərinin sahibləri olan erməni messenatları Ermənistanın "xüsusi" tarixinin yaradılması üçün, bu balaca xalqın və onun qəhrəmanlarının yüksəlməsi üçün səylə çalışırlar... o cümlədən, onlar öz tarixi "xidmətlərini" və indiki "üstünlüklərini" sübut etmək üçün tüfeyli üsullardan istifadə edir, fürsəti əldən vermirlər, belə ki, özlərini tərifləyərək, tarixi daha aydın və layiqli olan qonşu xalqlara kölgə salmağa çalışırlar. Onlar tarixi-arxeoloji sahədə Gürcüstanı həyasızcasına soyurlar. Abidələrdən gürcü yazılarını qopardır, kiçik pravoslav kilsələrini və boş kilsələri

ələ keçirirlər".*

Ağıl qabağında səcdə etməyə hazıram. Lakin hiylə, kələk, saxtakarlıq ağıl deyil. Kələkdən və hiylədən isə həqiqət deyil, böhtan, yalan və saxtakarlıq cücərər.

İndi gəl, yalanın qabağında dayan və bu uydurmalara hövsələ ilə cavab ver. Bu boyda yalana hövsələ dözər? Amma sakitləşəndən, əsəblərini cilovlayandan sonra başa düşürsən ki, bu çox təbiidir. Çünki yalan, böhtan yalançının və fırıldaqçının yaşama vasitəsidir. O, başqa xalqa böhtan atmasa yaşaya bilməz. Çünki atalar demişkən, yersiz gəldi, yerli qaç...

Bu saxtakarlar özləri çox yaxşı bilir ki, onların əcdadı bu torpaqlara gəlmədir. Onlar bu torpaqlara sahib olmaq, bu torpaqlarda öz yaşama haqlarını doğrultmaq üçün mütləq yalan danışmalı, ev sahibinə böhtan atmalı, doğrunu bucağa qısmalıdırlar. Bədbəxtlikdən onların Avropa və Amerikada havadarları da çoxdur. Öz küdurətlərinə və başqa xalqlara atdıqları böhtana görə, qonşuları tərəfindən qovulan bu millət dünyaya pəlpətöyün toxumu kimi səpələnib. Əfsanəvi "dənizdən dənizə" və "Böyük Ermənistan" mifinə görə biz öz torpağımızın da sahibi deyilik. İ.Çavçavadze demişkən, "guya ki, biz heç bir vaxt olmamışıq və sanki bu gün də yoxuq". Qarabağ hadisələri başlayandan bu günə qədər başımıza gətirilən müsibətləri xronoloji surətdə yazmaq, bunları tarix və gələcək nəsil üçün bir ibrət dərsi kimi qoymaq məqsədilə bu yazıya başladım. Lakin yuxarıda qeyd etdiyim kimi o qədər əsəbiyəm ki, nizamı itirmişəm, haradan başlayıb, harada qurtaracağımı da bilmirəm. Buna görə də nizamı və xronologiyanı pozsam, oxucu məni bağışlasın.

## TARİXDƏN SƏHİFƏLƏR

Qarabağ hadisələrinin mahiyyətini dərinliyi ilə bilmək və bunu səbrlə təhlil etmək üçün əsrin əvvəllərində baş vermiş və bu gün

*Veliçko V.L. Rus işi və qəbiləarası məsələlər. Əsərlərinin tam külliyyatı. Sankt-Peterburq, 1904, səh. 62.

eyni ilə təkrar olunan hadisələri ötəri də olsa nəzərdən keçirmək vacibdir. Əlimizdə olan tarixi sənədlərdən aydın olur ki, ermənilərin 1918-ci ildən sonrakı torpaq iddialarının kökləri çox dərindir. O zaman Azərbaycan ərazisində azərbaycanlıların ermənilər tərəfindən kütləvi qırğını saman altından su yeridən güclü bir əlin gizli göstərişi ilə törədilmiş və bunu böyük dramaturqumuz C.Cabbarlı "atan kazaklardır" atmacası ilə qələmə almışdı. Özünü "bolşevik" və "sosialist" adlandıran Şaumyan, T.Əmirov, S.Lalayev o zaman daşnakların liderləri ilə birləşərək Bakıda, Şamaxıda və Naxçıvanda minlərlə günahsız azərbaycanlını qətlə yetirmişdi. Buna baxmayaraq, güclü erməni lobbisi Türkiyədə və Azərbaycanda ermənilərin kütləvi qırğını barədə əfsanəni "genosid" adı ilə dünyaya məharətlə yaymağı bacardılar. Burda deyiblər, adımı sənə qoyum, səni yana-yana qoyum...

Mən məlum sənədlərdən bir-iki faktı gətirməklə kifayətlənəcəyəm.

"Azərbaycan" qəzetinin 1918-ci il, 14-cü nömrəsində oxuyuruq: "İnsanların qarəti ilə məşğul olan quldur dəstəsinin tanınmış başçısı T.Əmirov "sosialist" ordusunun başçısı olduqdan sonra Bakıda altı minə yaxın köməksiz müsəlmanı qırdı. Martınovun içki yoldaşı olan alçaq Styopa Lalayev isə başçılıq etdiyi daşnaksakan (yəni sosialist) bandası ilə birlikdə bir sıra məhəllələri müsəlmanların ziyalı nümayəndələrindən azad etdi.

Lalayev onları evlərindən çıxarıb elə küçədəcə güllələyirdi. Şaumyan və onun kimi "demokratiya rəhbərləri" isə deyəsən, öz başçıları üçün buna bənzər gözəl metodlar axtarıb tapdılar... Şamaxı "əksinqilabçıları" ilə döyüşə göndərildilər... "Qırmızı sosialist" dəstəsinin "sosialistlərindən" Əmirov və Lalayevin başçılığı ilə Şamaxının bütün müsəlman əhalisini qılıncdan keçirmiş və qırxa yaxın kəndi darmadağın etmişlər".

Daşnakların törətdiyi bu vəhşilikləri üzə çıxarmaq üçün o zaman Kojemyaka adlı birisinin başçılığı ilə bir komissiya təşkil olu-

nur və bu komissiya qırğınların təşkilatçısı kimi Lalayevin əleyhinə ittiham aktı tərtib edir. Kojemyaka S.Lalayevi komissiyaya çağırıb onun həbs olunduğunu bildirdiyi zaman Lalayev onu təhqir edib Şaumyana zəng vurur. Şaumyan da telefonda Kojemyakaya təpinib bildirir ki, "Lalayevi həbs etmək yaxşı deyil, bu nə şıltaqlıqdır siz eləyirsiniz".

Demək, cənab Şaumyanın fikrinə görə Lalayevin minlərlə azərbaycanlını qırması yaxşı işdir, amma bu qatili həbs etmək yaxşı iş deyil. Biz bədbəxtlər isə qatilin arxasında duran şaumyanlara, əmirovlara abidələr ucaltmış, onları millətimizin xilaskarı bilmiş, adlarına dastanlar bağlayıb şeirlər qoşmuşuq.

Maraqlıdır ki, hələ 1912-ci ildə Rusiyanın Vanda, Ərzurumda və Bitlisdə baş konsulu olmuş general Mayevski "Vanda olan hadisələr, ermənilərin qırılması" adlı raportunda yazırdı: "Erməni xalqı heç kimin yox, yalnız ağlını itirmiş rəhbərlərinin qurbanı olur. Məhz onların rəhbərliyi sayəsində minlərlə qan qardaşları məhv oldular. Lakin bunun əvəzində onlar heç də ictimai vəziyyətlərinin yaxşılaşdırılmasına nail ola bilmədilər, əksinə, ən acınacaqlı və çıxılmaz vəziyyətə düşdülər".

Lakin təəssüf ki, ayrı-ayrı erməni "ziyalılarının" bu həqiqəti dərk etməməsi nəticəsində tarixi faktlar saxtalaşdırılmış, həqiqət gizlədilmişdir. Ona görə də hələ keçən əsrdən erməni təbliğatının nəticəsində yer üzündə olan bütün türklər "mədəniyyətsiz", "vəhşi" bir millət kimi, ermənilər isə dünyanın ən fağır, əzabkeş, dilsiz-ağızsız, amma mədəni bir milləti kimi qələmə verilmişdir. Bu işdə tarix boyu türklərin Afrika və Asiyadakı hakimiyyətinə qısqanan və onları bu qitələrdən qovmağa çalışan ingilislərin də böyük rolu olmuşdur. Uzun müddət türklərin içində yaşayan bir neçə avropalı səyyah, yazıçı türklər haqqında yayılmış təbliğatın əsassız olduğuna əmin olub bu barədə maraqlı kitablar yazmışlar.

Məşhur alman yazıçıjurnalisti Hans Bart 1896-cı ildə Romada və sonralar dəfələrlə Almaniyada və Türkiyədə çap olunan "Türk,

özünü qoru" (İstanbul, 1988, Türk Dünyası Araşdırmaları Vəkfi) kitabında bu məsələdən geniş şəkildə bəhs edir. Hans Bart yazır: "Türklər çox böyük məziyyətlərə malik millətdir... Etimad və dürüstlük, başqa dindən olanlara da insancasına münasibət, ölçülü davranış, spirtli içki içməmək, alicənablıq və qonaq pərvərlik... Xəstəlik dərəcəsində təmizlik türklərə xas olan məziyyətlərdir" *(səh. 11-12).*

Bundan sonra müəllif bəs Avropada nə üçün türkləri vəhşi kimi qələmə verirlər? - sualına özü cavab verir: "Türklər, xristian olmadıq ları və protestantlıq ruhu da fanatik və qatı bir əqidəyə sahib olduğu üçün yuxarıda saydığımız məziyyətləri nəzərə alınmadan barbar olaraq damğalanmaqdadır" *(səh. 12).*

***

Ermənilərin bizdən torpaq iddiası 70 ildən sonra yenidən baş qaldırdı. Niyə məhz indi? Hər dəfə zamanın dönüş nöqtələrində ermənilərin bizdən torpaq iddiası tələb edir ki, biz bu dönüş nöqtələrinin siyasi mənasını araşdıraq. Niyə bu boş iddia məhz bir-birinə bənzəyən zamanlarda meydana çıxır? Əgər dərindən düşünsək, bu nöqtələrin ictimaisiyasi mahiyyətini açsaq, bizə çox şey məlum olar.

Ermənilərin bu iddiasına bugünkü demokratikləşdirmə dövründə özümüz cavab verməli ikən, onları yerlərində oturtmalıykən, biz köməyi yenə kənardan umub işin ədalətlə həll olunacağını gözlədik. Umduğumuz yerə isə bizim haqqımızı müdafiə etmək əvəzinə bizi dəfələrlə güzəştə getməyə məcbur etdi. Bilmirəm, bu bizim təbiətimizin yumşaqlığından irəli gəlir, yoxsa başqa səbəb var?! Hər halda bir şeyi etiraf edək ki, biz belə məzlumuq. Amma unuduruq ki, təbiətimizdəki bu məzlumluq 70 il bundan əvvəl özünü doğrultmadığı kimi, bu gün də doğrultmayacaq. Çünki zalimə güzəştə getmək məzluma zülm eləməkdir.

Kömək umduğumuzun məsləhətilə getdiyimiz güzəştlərdən nə

qazandıq? Yaxud, məsələnin həllində kömək umduğumuz nə qədər obyektiv hərəkət etdi?

Bu ölkə başqa bir ölkəyə torpaq iddiası ilə hücum çəkirsə və torpaq sahibi müdafiə mövqeyində durursa hakim vəzifəsini icra edən BMT birinci ölkənin iddiasını dəf etmək və aranı sakitləşdirmək üçün işğalçıya "Dayan!" deməlidir, yoxsa müdafiə olunana? Heç şübhəsiz, birinci növbədə işğalçının cilovunu yığmalıdır. "Hakimimiz" Moskva isə bizdən güzəşt ummaqla, ermənilərə deyil, bizə "dayan!" - deyir. Soruşmaq ayıb olmasın, biz hansı qanunsuz hərəkətə yol vermişik ki, bizə dayan deyirlər. Bəlkə müdafiədən də dayanmalıyıq?

Təzada diqqət yetirin: 1988-ci il iyunun 13-də Dağlıq Qarabağ Vilayət Partiya Komitəsi Azərbaycan Kommunist Partiyasının tərkibindən çıxmaq haqqında qərar qəbul edəndə Sovet İttifaqı Kommunist Partiyası bu qeyri-qanuni qərara öz münasibətini bildirmədi. Yalnız susdu. 1989-cu ilin dekabr ayının 1-də Ermənistan SSR Ali Soveti Dağlıq Qarabağın oyuncaq milli şurası ilə birlikdə "Ermənistan SSR-i və Dağlıq Qarabağı birləşdirmək haqqında" Konstitusiyaya zidd olan qərar qəbul edəndə də SSRİ Ali Soveti yenə susdu.

Mərkəzi hökumət tərəfindən cəza almadığını görən erməni millətçilərinin həyasızlığı və azğınlığı o yerə çatdı ki, 200 min azərbaycanlını öz doğma torpaqlarından qovandan sonra da ürəkləri soyumadı. 10 minlərlə erməninin Azərbaycan torpaqlarından didərgin düşməsi də onları narahat etmədi. Beləliklə, onlar öz millətlərinin də başına növbəti bəla açdılar.

Erməni xalqının Azərbaycanda yaşayan namuslu övladları erməni millətçilərinin haqsız tələblərinə qarşı çıxır və bu hərəkətə etirazlarını bildirirlər. Təqaüddə olan keçmiş pilot Georgi Rantikoviç Dorantsev erməni millətçilərinin nalayiq hərəkətlərinə etiraz əlaməti olaraq özünü öldürmüşdür. Arvadına yazdığı məktubda o, intiharının səbəbini belə izah edirdi: "Məni həyatdan belə tez məhrum edənlər öz ekstremistləri ilə birlikdə Ermənistan və DQMV, bütün

bu millətlərarası münasibətlər oldu".

Şuşa çörək zavodunun texnoloqu Aşxen Qriqoryan Moskva televiziyasına verdiyi müsahibəsində erməni millətçilərinin haqsız tələblərinə qarşı çıxdığı üçün onu ölümlə hədələmişlər, Zori Balayan isə Yerevanda çıxan "Kommunist" qəzetində onu təhqir etmişdir. Buna baxmayaraq, A.Qriqoryan yenə həqiqətin müdafiəsindən əl çəkmir. O yazır: "Azərbaycan xalqının heç bir günahı yoxdur. Bütün günahlar erməni ekstremistlərindədir. Biz sakit yaşayır və işləyirdik. Erməni ekstremistləri Qarabağın Ermənistana verilməsi ideyasını ortaya atdılar. Lakin biz çox gözəl bilirdik ki, Qarabağ Azərbaycanın olmuş və Azərbaycanın olacaq" *("Azərbaycan" qəzeti, 1989, № 5).*

Azərbaycanlıları Ermənistandan qovandan və Ermənistanı monomilli respublika elan edəndən sonra erməni ziyalıları təcili olaraq Ali Sovetin növbədənkənar sessiyasını çağırmaq və orada Azərbaycanda və Dağlıq Qarabağda yaşayan ermənilərin təhlükəsizliyini qorumaq məsələsini qaldırdılar. Demək, onlar azərbaycanlıların Ermənistandan qovulmasını qanuni hesab edir, amma ermənilərin Azərbaycandan öz xoşlarına getməsini qanunsuz sayıb, bizim daxili işlərimizə qarışmağı belə lazım bildilər. Görəsən, bu haqqı onlara kim verib? Deyək ki, biz buna da dözdük, bəs iki xalq arasında həqiqəti və ədaləti bərpa etmək vəzifəsini boynuna götürən mərkəzi hökumət buna necə baxır? Bəs bu məsələdə Moskva niyə susur? Axı, hər kəs öz millətinin haqqını müdafiə etdiyi kimi, azərbaycanlılar da öz qanuni haqqını müdafiə etməkdə haqlıdır. Adam bu suallara cavab tapmadıqda dəli olmaq dərəcəsinə gəlir. Əslində, cavab tapılıb. Çünki bu qaranlıqda xoruzun quyruğu görünür. Onda istər-istəməz C.Cabbarlıya rəhmət oxuyub deyirsən ki, yoxsa, "atan kazaklardır?".

Biz indi guya hüquqi dövlət yaradırıq. Əgər belə isə, niyə bu gün qarşı-qarşıya gələn iki mənafeyin birinə addımbaşı haqq qazandırıb, ikincisinin isə haqqını tapdalayırlar? Hələ bu bir yana dursun, onların haqsız tələbini susdurmaq və yerində oturtmaq əvəzinə, addımbaşı bizdən güzəşt tələb edirlər. Biz güzəştə getdikcə onların

tələbləri daha da böyüyür, daha geniş miqyas alır. Axı, biz əvvəlcədən mərkəzin təkidi ilə güzəştə getməsəydik, bu gün tələblər bu şəkildə şişməzdi.

Biz çox güzəştə getdik və hər güzəştdə uduzduq. Artıq güzəştə yer qalmayıb, bıçaq sümüyə dirənib. Bundan o yana yol yoxdur. Buna baxmayaraq, yenə də mərkəz məsələnin siyasi yolla həllini irəli sürür. Ermənistanın göz görəsi təcavüzündən sonra onların bu təcavüzünə SSRİ Ali Soveti siyasi qiymət vermədi. Bundan sonra məsələnin siyasi yolla həlli necə mümkün ola bilər?.. SSRİ Ali Soveti bir tərəfdən Dağlıq Qarabağın qanuni Azərbaycan torpağı olduğunu təsdiq edir, o biri tərəfdən isə Ermənistan Ali Sovetinin Dağlıq Qarabağın Ermənistana "ilhaq edilməsi" haqqındakı qərarına münasibətini bildirmir. Bunu necə başa düşək? Məncə aydındır. Mərkəzdə bəziləri "dovşana qaç, tazıya tut" siyasəti yeridir.

Litvalılarla polyaklar, çeçen-inquşlarla osetinlər arasındakı münaqişə ilə SSRİ Ali Soveti məşğul olmadığı halda, Dağlıq Qarabağ probleminin dəfələrlə müzakirəyə qoyulması erməni millətçilərinin nazı ilə oynamaq deyilmi?

Dağlıq Qarabağda Azərbaycanın ən münbit torpaqlarına sahib olan, iqtisadi göstəriciləri Azərbaycanın başqa yerlərindən daha üstün olan ermənilərin vəziyyəti doğma torpaqlarını itirməyə məcbur olmuş Krım tatarlarının və Mesheti türklərinin vəziyyətindən o qədər ağırdırmı ki, Ali Sovet bu problemə dəfələrlə qayıdır və yenə də erməniləri razı sala bilmir?

Ermənistanda baş verən zəlzələnin vurduğu ziyanı bərpa etmək üçün az qala bütün dünya məşğul ikən bir qədər sonra Tacikistanda baş verən zəlzələnin iki gündən sonra tamam unudulmasını hara yazaq? Yəni müsəlmanların dünyadakı artımı xristian dünyasını bu qədər narahat edir? Bəlkə, bizim bilmədiyimiz başqa səbəblər də var?

Hələlik, gəlin, o səbəbləri qoyaq bir tərəfə. Gəlin, öz günahlarımızdan özümüzün özümüzə etdiyimiz qəsdlərdən də danışaq...

## QƏFLƏT YUXUSU

Burda bir atalar misalı yerinə düşər: Uşaq atasına deyir ki, dovşan həyətimizdə yuva tikib. Ata da deyir ki, bala, bu dovşanın cəsarətini göstərmir, bizim qəflət yuxusunda olmağımızı göstərir.

Sovet İttifaqında ən zəhərli və insan həyatına zərbə endirən zavodları bizim respublikada tikiblər. Niyə? Rəhbərlərimizin boşluğundan. Buna razılıq verən rəhbərlərimiz heç olmasa gecələr yataqlarına girdikləri zaman öz vicdanları qarşısında hesabat verirlərmi? Sumqayıtda, Gəncədə və Bakıda tikilmiş zəhərli zavodlar millətimizin tədrici genosidi deyilmi? Bizim rəhbərlər isə kimyəvi zavodların Azərbaycanda tikilməsini uzun illər özünün qələbəsi və xalqın xoşbəxtliyi kimi gözümüzə dürtmüş, fəlakətimizi bizə səadət kimi yedirtmişdir. Yalnız yuxarının "sağ ol"unu qazanmağa çalışan, ömründə bir dəfə də olsa millətinin qeyrətini çəkməyən bu rəhbərlər Sumqayıt şəhərini "ölü zonaya" çevirmişlər.

Bu rəhbərlər Sumqayıtda ləhmə və palçıq içində dikt taxtası və köhnə dəmir lövhələrlə quraşdırılmış daxmalarda ömür sürən, zavodların buraxdığı zəhərli tüstü ilə tənəffüs edən, bu havadan sümükləri də əriyən minlərlə azərbaycanlı ailələrinin acınacaqlı güzəranı barədə heç düşündülərmi? Həmin daxmalarda yaşayan ailələrdə doğulan uşaqlar dünyaya göz açmamış, hələ ana nəvazişi görməmiş, ilk addımlarını atmamış ömürlərini bizim "qeyrətli rəhbərlərə" bağışlayıb dünyanı tərk edirlər.

Statistik məlumata görə Sumqayıtda doğulan 7 uşaqdan biri ölü, ikisi şikəst dünyaya gəlir. Sumqayıtın havası qəbul olunmuş normadan o qədər artıq zəhərlidir ki, körpələr ana bətnindəki oksigen çatışmazlığı üzündən ölü doğulurlar. Hamilə qadınların 70 faizində birinci dərəcəli qan azlığı müşahidə edilmiş, ürək-damar xəstəlikləri respublikadakı ümumi vəziyyətdən 31 faiz yüksəkdir. Ən qəribəsi budur ki, belə dəhşətli vəziyyətdə olmasına baxmayaraq, Sumqayıtın adı ölkənin ekoloji cəhətdən bərbad şəhərlərinin siyahısına da

düşmədi... Burda kimin əli var, görəsən?

Oxucu, əgər dözə bilərsənsə, "Azərbaycan" qəzetinin 3-cü nömrəsində *(1989-cu il)* Sumqayıtda yaranmış uşaq qəbiristanlığı haqqında gedən yazını oxu və Sumqayıtdakı bu milli genosidə görə rəhbərlərimizə "afərin" de!

Pambıq rayonlarımızda plan xatirinə millətin başına səpilən DDT zəhəri, herbisidlər, pestisidlər məgər genosid deyilmi? Yenə plan xatirinə məktəbli balalarımızı pambıq tarlalarında min cür əzab-əziyyətə qatlaşmağa məcbur etmək, ilin dörd-beş ayını təhsildən məhrum etmək mənəvi genosid deyilmi? Niyə SSRİ-də yaşayan xalqlar içərisində yalnız türkdilli xalqlar pambıq əkib becərməlidir?

Özbəkistan Yazıçılar İttifaqının birinci katibi A.Yaqubov demişkən, "pambığın bizim taleyimizə yazılmasında türk dünyasına düşmən münasibətdə olan Stalin diktaturasının və ondan qalan irsi ənənələrin böyük günahı var" *("Ədəbiyyat və incəsənət" qəzeti, 27 oktyabr 1989-cu il.)*.

Mən bu fikirlə tamamilə şərikəm və Yaqubovun o fikrinə də şərikəm ki, Stalinin türk xalqlarına, müsəlman dünyasına şəxsi münasibəti daha dəhşətliydi. Yaqubov yazır: "Yadımdadır, müharibədən əvvəl bizim kəndə 6-7 gürcü ailəsi sürgün olunmuşdu. Onların hamısı gürcü müsəlmanları idi. Qafqazdan Mehseti türklərinin, balkarların, çeçenlərin, inquşların, Krımdan tatarların ellikcə sürülməsi də təsadüfi deyildir - bunun arxasında Stalinin SSRİ-dəki türkmüsəlman dünyasına nifrəti dayanırdı".

Stalin dövründə başqa yerlərə sürülən millətlər içərisində qeyritürkmüsəlman milləti yoxdur. İndi gəl, burda qanma!

Sovet İttifaqında yalnız türkmüsəlman millətlərinin əlifbası kiril ilə əvəz olunub. Heç Stalinə və Mikoyana deyən olmayıb ki, əlifba dəyişmək millətlərin xeyrinədirsə, bəs erməni və gürcü əlifbasını niyə dəyişmədiniz? Niyə öz millətinizi bu "xoşbəxtlikdən" məhrum etdiniz? Bu sualın onlara verilməcəyinə əmin idilər, çünki onlar bizim rəhbərlərin qorxaqlığını, cahilliyini və nadanlığını, ən mühümü

də tutduqları vəzifədən ötrü namuslarından belə keçəcəklərini yaxşı bilirdilər.

Xruşşov dövründə 100 min ton pambıq planı olan ermənilər bundan da imtina etdilər. Çünki onların rəhbərləri bizim rəhbərlər kimi millətlərinə qənim deyildilər. Onlar çox yaxşı bilirdilər ki, yalnız özünü məhv edən xalq əl əməyinə əsaslanıb pambıq əkər. Bu məlum həqiqəti görəsən bizim respublikanın rəhbərləri bilmirdilərmi? Bilirdilər. Amma onlar millətin taleyini harda düşünmüşdülər ki, burda da düşünəydilər? Onlar yuxarının təşəkkürünü qazanmaq üçün millətin məhvinə belə qol çəkərdilər. Necə ki, çəkdilər! Və təsadüfi deyil ki, o zaman yazdığım bir şeirimdə belə bir misra var idi: "Bir ulduza bir milləti qurban verən oğlan".

Həmin rəhbərlərin rayonlara təyin etdikləri özlərinə bənzər katiblər də həmin siyasəti yeridirdilər. Rayonlara gələn birinci katiblərin çoxunun ilk işi rayonda rus məktəbi açmaq idi. Çünki yuxarı təbəqəyə mənsub olduqlarından onların övladları Azərbaycan məktəbində oxuya bilməzdi. Bu, onlar üçün əskiklik sayılırdı.

Rus məktəblərində oxuyan şagirdləri bir qayda olaraq pambığa aparmaq yasaq idi, çünki rayonda yaşayan başqa millətlərin uşaqları pambıq yığa bilməz. Pambıq yığmaq "səadəti" yalnız bizə mənsub idi. Bakıda ali məktəblərdən yalnız Azərbaycan fakültələri pambığa aparılırdı. Çünki nazirlər, Mərkəzi Komitə işçiləri, eyni zamanda vəzifə etibarilə böyük, ürəkcə kiçik rəhbərlərin yağ içində böyrək kimi bəslənən, pambıq kimi ağappaq balaları qızmar günəşin altında pambıq yığa bilməzdi...

Bu sətirləri yazarkən düşünürəm: İlahi, biz o zaman bu cür haqsızlıqlara necə dözmüşük?!

Bu suala cavab vermək üçün 1974-cü ildə yazdığım adsız bir şeirimdən parçanı misal gətirmək istəyirəm:

Sabir demiş: "biz ərlərik".
İş yerinə

Özgəsinin sözlərin "əzbərlərik".
Toz-torpağı yel sovurar,
Dənəsi də yelə qalmaz.
Vallah, billah, belə qalmaz, belə qalmaz!
Bu inamla yaşamışam...
Amma neynim:
Bizim kimi zəvzəklərin
İgidliyi dözüm olsun.
Sabir demiş:
"Heyvərəlik", "boşboğazlıq" bizim olsun,
Gələcəyin övladları iş görəcək.
Amma dua əvəzinə "lənət" deyib
Qəbrimizə tüpürəcək".
Deyəcəklər, ey babalar,
Yaş yetirib, kal oldunuz,
Görə-görə kor oldunuz,
Dinə-dinə lal oldunuz.
Səbrinizə heyrətdəyik,
Siz dözümdə fil oldunuz.

Mir Cəfər Bağırovdan tutmuş, indikinə qədər hansı rəhbərin qəlbi xalq üçün ağrıyıb? Hamısı tutduğu mövqeyini düşünüb, kreslosundan bərk yapışıb. Yuxarı dırmaşmaqdan ötrü xalqı tapdalayıblar! Amma onlar bu xalqa görə rəhbər olduqlarını heç düşünməyiblər. Bu xalq olmasaydı, onları hansı xalqın başı üstünə rəhbər təyin edəcəkdilər? Rəhbərlərimizdəki bu nadanlığı, bu cəhaləti, bu eqoizmi düşündükcə adamı dəhşət götürür. Hələ mən xalqın mənəviyyatına, dilinə, mədəniyyətinə, musiqisinə etdikləri qəsdi demirəm.

Yaxşı yadımdadır, bir neçə il bundan əvvəl jurnalistlərin qurultayında Gəncədən gələn Nüşabə adlı bir gənc jurnalist Nizami yubileyinin yaxınlaşdığını və heç olmasa, böyük Nizaminin xatirinə Kirovabada öz köhnə adının qaytarılmasını təklif etdi. Həmin məclisdə

Moskvadan gələn bir yoldaş da əyləşmişdi. O zaman kı respublika rəhbəri məclisdə əyləşən Moskvadan gələn nümayəndəyə xoş gəlsin deyə bu haqlı tələbi irəli sürən qızı təhqir etdi. O, öz vəzifəsini çox yaxşı bilirdi. O bilirdi ki, onu layiq olmadığı halda bu boyda vəzifəyə Nizaminin qeyrətini çəkmək üçün deyil, Kirovun hörmətini qaldırmaq üçün qoyublar. Çünki onun babası Nizamidən heç xəbəri də yoxdur. Kitablarını görüb, amma oxumayıb. Niyə oxusun? Bundan ona nə fayda? Buna görə də öz faydasını yaxşı bilən rəhbərimiz Nizami qəhrəmanının adından götürülmüş qeyrətli Nüşabə qızımızı nalayiq sözlərlə təhqir edib Moskvadan gələnin "hörmətini" qazanmağa çalışdı. O vaxtlar xalqın hörmətini itirmək, onun vəzifəsinə xələl gətirə bilməzdi. O vaxtlar xalqın hörmətini itirməklə, o, heç nə itirməzdi. Amma indi vəziyyət dəyişib.

Mən o zaman ona da əmin idim ki, Moskvadan gələn qonaq öz içində bizim rəhbərə gülür, çünki namuslu adam öz mədəniyətinə, öz tarixinə, öz şöhrəti və vəzifəsi naminə qılınc çəkən adamı sevə bilməz. Eləsi başqa millətin nümayəndəsi olsa da mədəniyyətinə qənim kəsilən adamın cəhalətinə gülər. Çox qəribədir ki, bu əhvalatdan bir neçə gün sonra "Sovetskaya kultura" qəzetində, həmin qəzetin əməkdaşı Fərhad Ağamalıyevin məqaləsi dərc olundu. O, da Nüşabədən xəbərsiz Nizami Gəncəvinin xatirinə Kirovabad şəhərinə "Gəncə" adının qaytarılmasını irəli sürürdü. Bunu oxuyan rəhbərimiz qəzəblənir, dərhal Kirovabad şəhər Partiya Komitəsinin birinci katibinə zəng vurub tapşırır ki, "Sovetskaya kultura"da çıxan məqaləyə cavab olaraq yerli ziyalıların adından bir məqalə təşkil olunsun. Elə də olur, Ağamalıyevin məqaləsindən düz 3 gün sonra bir qrup kirovabadlının adından "Mı - kirovobadtsı" adlı bir məqalə çap olunur. Az sonra isə Moskva mətbuatında yeganə nümayəndəmiz olan Ağamalıyevin millətçilik toxumu səpən müxbir kimi işdən azad olunmasına "şərait yaradırlar"...

Biz isə bu gün dizimizə döyürük ki, Moskvanın bütün mətbuat orqanlarında ermənilərin nümayəndəsi olduğu halda, bizdən bir

nəfər də yoxdur. Niyə yoxdur? Çünki bizim rəhbərlərimiz ömründə bu barədə düşünməyib. Az-çox olanları isə burada törətdiyi fırıldaqlar orda açılmasın deyə, ya vəzifəyə gətirib burda başını əziblər, ya da bayaqkı əhvalat kimi burdan ora barmaq uzadıb işdən qovdurublar.

Ermənilər isə bunun əksini elədilər. Mikoyan Kremldəki 50-55 illik fəaliyyəti dövründə yüzlər və minlərlə ermənini Moskvaya aparıb tədricən böyük vəzifələrdə yerləşdirdi. Başqa respublikaların üzünə bağlı olan təhsil ocaqlarını, hərbi-diplomatik məktəbləri və diplomatik korpusları ermənilərin ixtiyarına verdi. Bu gün Moskvada elə bir nazirlik, elə bir redaksiya, elə bir elmi müəssisə yoxdur ki, orda azı bir, ya iki nəfər erməni çalışmasın.

Mərkəzi Komitədə baş katibin köməkçisi və sağ əli Şahnazarov, millətlərarası münasibətlər şöbəsinin müdir müavini Brutens, iqtisadiyyat sahəsi üzrə müşavir Aqanbeqyan, SSRİ Nazirlər Soveti sədrinin müavini Sitaryan, SİTA baş direktorunun müavini Xaçaturov, SSRİ quru qoşunları komandanının birinci müavini general-leytenant Ter Qriqoryan, Dövlət Statistika Komitəsi sədrinin birinci müavini Poqosov, “İzvestiya” qəzeti baş redaktorunun müavini Melikyans və s. onlarla bu kimi səlahiyyət sahibi olan erməni hər yerdə bizim puçumuzu burur, səsimizin lazımi yerlərə çatmasına əngəl törədirlər. Onlar mərkəzdən bizim respublikanın bütün işlərinə mane olur, hər məsələdə bizi qapı dalında qoyurlar. Dağlıq Qarabağ hadisələri baş verəndən bu günə qədər bir Azərbaycan yazıçısının, yaxud jurnalistinin bu məsələ ilə əlaqədar bir yazısının mərkəzi mətbuatda yol tapa bilməməsi bunun ən gözəl sübutu deyilmi?

Təsadüfi deyil ki, bir dəfə Xruşşov yarızarafat, yarıgerçək Mikoyana “erməniləri hər yerdə yaxşıca yerləşdirmisən”, - demişdi.

Gözümü dünyaya açandan indiyədək həmişə Azərbaycanın partiya və sovet orqanlarının aparatında – MK-da və Nazirlər Sovetində, inzibati orqanlarda, elm və mədəniyyət idarələrində, bir sözlə, ən mühüm vəzifələrdə ermənilərin işlədiyini görmüşəm. Buna həmişə

təəccüb edər, ərkim çatan "böyüklərdən" bunun səbəbini öyrənmək istərdim. Bu "böyüklər" də məni "başa salıb" sakitləşdirməyə çalışırdılar ki, bu belə də olmalıdır. Nədən ki, Azərbaycan beynəlmiləl respublikadır və əhalisinin müəyyən hissəsi ermənidir. Onda mən də onlara deyirdim ki, Ermənistanın da əhalisinin müəyyən hissəsi azərbaycanlıdır, bəs niyə orda vəzifə başında azərbaycanlı görünmür? Əhalisinin 99 faizi azərbaycanlı olan rayonlarda belə çox vaxt raykom katibləri, sovxoz direktorları azərbaycanlı olmur. Onda başqa səbəb tapmayan "böyüklər" deyərdi ki, biz geniş ürəkli olmalıyıq. Əcəb izahdır! Budur, indi biz genişürəkliyimizin bəhrəsini dəririk. Uzun illər Bakı sovetinin sədri və ya müavini bir qayda olaraq erməni olduğundan şəhərin Ermənikənd adlanan hissəsi abad olmuş, küçələrin böyük əksəriyyəti erməni adı ilə adlandırılmış, Bakının milli sifəti pozulmuş, bununla da gələcək "Böyük Ermənistan" tələblərinə zəmin hazırlanmışdır.

Bu dərdi də çəkmək olardı. Adamı yandıran orasıdır ki, bu gün biz beynəlmiləlçiliyimizi sübut etmək üçün fəxrlə "biz milli ayrıseçkiliyə yol verməmiş, erməniləri vəzifə başına gətirmiş, onlara hər cür şərait yaratmış, küçələrimizə erməni məşhurlarının adını vermişik" - deyəndə, onlar bu faktı bizim xeyirxahlığımıza sübut kimi deyil, bacarıqsızlığımıza, fərli adamlarımızın olmamasına sübut kimi izah edirlər.

Milli kadrlarımızı qapı dalında qoyub, erməniyə vəzifə verəndə Sabir, S.Əzim Şirvani, Məhəmməd Hadi, Ömər Faiq Nemanzadə, Bəhmənyar, N.Tusi, Əcəmi, Şah İsmayıl Xətai, Babək, Qaçaq Nəbi kimi onlarla məşhur adamlarımızı saymayıb Avakyan, Şaumyan, Osipyan və bu kimi onlarla avantüristin adına Bakıda küçə adı verməyimizin nəticəsi ancaq belə olmalı idi.

Bizimki başdan bulanıb. 70 ildə bizə başçı olan neçə-neçə manqurt tanıyırıq. Bütün varlığı ilə yalnız tutduğu vəzifəni qoruyan, vəzifə əlindən getməsin deyə mərkəzin qarşısında quyruq bulayan, milli hissdən məhrum olan bu karyeristlər görəsən bircə dəfə də olsa

xalq haqqında, Vətən haqqında, məhv olan torpaqlarımız barədə düşünüblərmi? Görəsən bu rəhbərlər ömründə bir dəfə də olsun xalqın tarixi ilə maraqlanıblarmı?

Milli psixologiyamızı öyrəniblərmi? Bu xalqın zəif və qüvvətli cəhətləri ilə maraqlanıblarmı? Hindistanı 300 illik müstəmləkə vəziyyətindən xilas etmək üçün min cür əzab-əziyyətlərə qatlaşan C.Neru "Hindistanın kəşfi" əsərində yazır ki, xalqa xidmət etmək üçün ilk növbədə xalqı yaxşı tanımalısan. Bu məqsədlə Neru böyük Hindistanı qarış-qarış gəzmiş, ən ucqar kəndlərində olmuş, xalqın özünəməxsus ruhunu, psixologiyasını, adət və ənənəsini, ən mühümü də qüvvətli və zəif cəhətlərini öyrənmiş, Hindistanı özü üçün yenidən "kəşf" etmişdir. Rəhbər buna deyərlər! Gördüyüm 5-6 rəhbərin hansı öz xalqını Nerunun heç olmasa onda biri qədər tanıyırdı? Heç biri! Əksinə, bu rəhbərlərin heç biri (İ.Mustafayevdən başqa) xalqın nə dilini əməlli-başlı biliblər, nə tarixini, nə də bu xalqın milli psixologiyasını. Bunun əvəzində "xalq çox geridir" deyə ona yuxarıdan baxıblar.

Bir dəfə yaşıdım və tərcüməçim, erməni şairi Paruyr Sevak mənə dedi ki, bizdə milli mənada süpürgəçi necə düşünürsə, rəhbər də o cür düşünür. Sizdə isə əksinə. Rəhbəriniz bir cür düşünür, xalq tamam başqa cür.

O, bu sözü mənə Bakıda erməni poeziyası günləri keçirilən zaman demişdi. Bir həftə müxtəlif yerlərdə görüşlərə getdik. Həmin görüşlərdə mən P.Sevakdan etdiyim tərcümələri oxuyurdum. Mənim xalq tərəfindən alqışlarla qarşılanmağımı altdanaltdan müşahidə edən Sevak yenə bir gün dedi ki, səni xalq sevir, amma yuxarılar yox. Amma məni xalqla bərabər, yuxarılar da sevir.

P.Sevak xalqın milli hisslərini dilə gətirən bir şair idi. Durğunluq dövründə bütün ölkədə milli dərdlərdən bəhs edən şairlər, yazıçılar kölgədə idi. O cümlədən də mən. Ermənistanda isə məsələ tamam başqa cür idi. Hələ o vaxtlar da Ermənistanda xalqın taleyini düşünən, dərdlərindən danışan milli şairlər daha çox hörmətdə

idi. P.Sevak partiyanın üzvü deyildi. O, xalqın milli duyğularını oyadan, özünü dərk etməyə səsləyən "Susmayan zənglər" poemasından sonra daha çox nüfuz qazandı. Bu poemaya görə ona fəxri filoloji elmlər doktoru adı verildi və onu SSRİ Ali Sovetinə deputat seçdilər. Həmin illərdə məni isə "Gülüstan" poemasına görə "çarmıxa" çəkdilər. Kitablarımı kitabxanalardan götürdülər, universitetdən çıxartdılar. Biz bu müsibətləri görə-görə, xalqımızın taleyini qonşularımızın taleyi ilə müqayisə edə-edə, qəlbimizə çəkilən dağlara dözə-dözə yaşadıq və yaratdıq. Rus dilinin zərurətindən danışdığımız zaman beynəlmiləlçi, ana dilimizin zərurətindən danışanda isə millətçi olduq, damğalandıq, hamısına dözdük, amma Allah bilir, necə dözdük!

Durğunluq dövrü arxada qaldı. Heç olmasa, indi ayılaq. Vaxtilə babalarımız Marağadan qovulmuş erməniləri bağrına basdı, onlara yer verdi. Dünənki kirayəçi isə bu gün bizim evimizə sahib olmaq istəyir.

1828-ci ildə Cənubi Azərbaycanın Marağa kəndindən köçürülən ermənilər qurduqları kəndin adını burda da Marağa adlandırdılar. Bundan 150 il sonra, yəni 1978-ci ildə köçürülmələrinin

150 illiyi münasibətilə həmin Marağa kəndində abidə ucaltmış, abidənin fasadına da "Marağa-150" sözlərini yazmışdılar. Qarabağı Ermənistana calamaq fikrinə düşəndə isə abidənin fasadındakı yazını örtmək üçün üstünü sementləmişlər. Torpaq qeyrətini çəkən oğullarımız həmin abidənin şəklini çəkib bizə təqdim etmişlər.

Ermənilər dünən öz əlləri ilə yaratdıqlarını bu gün inkar edirlər. Bu boyda hiyləyə əl atan, həqiqətin üstünə pərdə çəkən saxtakarların qarşısına biz bu gün necə çıxa bilərik? Etiraf edək ki, biz müdafiəni də bacarmırıq. Onların yalanı çox vaxt bizim həqiqətimiz dən də güclü çıxır.

1989-cu ildə M.Qorbaçovun rəhbərliyi altında toplanan SSRİ xalq deputatlarının görüşündə erməni yazıçısı V.Petrosyan həyasızcasına deyib ki, xalq şairi B.Vahabzadə bir kitabında erməni xalqını yer

üzündən silmək lazım olduğunu yazmışdır. İftiranın böyüklüyünə baxın! Bu vaxta qədər bilmirəm ki, mən bu sözü hansı kitabımda yazmış, yaxud harada demişəm?

Erməni millətçiləri bizi alçaltmaq və hörmətdən salmaq üçün insana yaraşmayan ən alçaq və eybəcər hərəkətlərə də əl atırlar. Bu, yalnız indinin işi deyil, tarix boyu belə olmuşdur. “Raboçaya tribuna” qəzetinin 11 fevral 1990-cı il nömrəsində Vorkuta şəhəri fəhlə tətil komitəsinin üzvlərindən biri olan Ş.Şeyxəhmədov yazır: “Tətilin qızğın vaxtı Vorkutaya kimlər gəlmədi?! Rusiya cəbhəsinin demokratlar ittifaqı və s. Buraya Dağlıq Qarabağdan da “qonaqlar” gəldi. Onlar gələn kimi vorkutalılardan məni və mənim kimiləri azərbaycanlı bilib (mən dağıstanlıyam) tətil komitəsindən qovmağı tələb etdilər və ortalığa 50 min manat pul qoydular. Ciddi ehtiyacımız olsa da, maaş almasaq da tətilçi yoldaşlarım Dağlıq Qarabağ ermənilərinin mənfur ianəsindən imtina etdilər. Aramıza nifaq salmaq istədiyinizə görə pulunuzu da götürüb rədd olun burdan, - dedilər”.

Bu boyda alçaqlıq kimin ağlına gələ bilər?

Bir neçə azərbaycanlını hörmətdən salmaq üçün tənbəllik etmədən basabasa uzaq Vorkutaya gedən və bu iş üçün 50 min manatından keçən adam cildindəki bu iblislərin bizə bəslədiyi kinin, qərəzin dərəcəsini nə ilə ölçmək olar?

Onlar nə öz vicdanlarından utanır, nə də başqalarından. İstədikləri böhtanı istədikləri yerdə, heç nədən çəkinmədən deməyi bacarırlar. İnsan ki, vicdanını itirdi, ondan hər alçaqlığı gözləmək olar. Vay ona ki, bu xəstəlik bütöv millətə sirayət edə. Onun qarşısını almaq müşkül məsələdir. İndi görün, biz nə boyda qorxulu düşmənlə üz-üzə gəlmişik.

İllər boyu ermənilər bu hücuma hazırlaşıblar, biz isə yatmışıq. Xeyr, əslində xalq heç vaxt yatmayıb, xalq həmişə ayıq olub, - rəhbərlərimiz yatıb. Arada inciklik olmasın deyə, rəhbərlər həmişə xalqı susdurub.

60-cı illərdə Yerevan Universitetinin prorektoru açıqaşkar çıxış edib, Naxçıvanın və Qarabağın Ermənistan torpağı olduğunu söyləmişdi. O zamankı erməni rəhbərləri həmin prorektora gözün üstə qaşın var demədilər. S.Vurğunun Akademiyada keçirilən xatirə gecəsində Abbas Zamanov Ermənistan Universitetinin prorektorunun yersiz iddiasına cavab verdi. Biz isə rəhbərimizin göstərişi ilə A.Zamanovu partiyadan çıxartdıq, universitetdən qovduq. O zaman tarixçi Muxtar Qasımov, professor Əli Sultanlı və mən Abbas Zamanovun partiyadan çıxarılmasının əleyhinə səs verdik. Bundan sonra bizim üçümüzü də təqib etməyə başladılar. Abbas isə uzun müddət işsiz qaldı. Beləliklə də, özümüz-özümüzə qənim kəsildik. Allah sənə rəhmət eləsin, Sabir, nə gözəl demisən:

Turanlılarız, adiyi-şuğlü sələfiz biz,
Öz qövmümüzün başına əngəl kələfiz biz.

Yerevan Universitetinin prorektorunun Naxçıvan və Qarabağ iddiasına cavab olaraq o zaman yazdığım "Torpaqdan pay olmaz" şeirimi bir məclisdə oxudum. Həmin şeir xalq arasında yayıldı. Bir gün məni Dövlət Təhlükəsizliyi Komitəsinə çağırdılar. Getdim, məni "çarmıxa" çəkdilər, uzun müddət radio-televiziyaya həsrət qoydular.

Axı, bizim "böyüklər" o zaman erməni iddiaçılarına verdiyimiz cavablara görə bizi susdurmasaydılar, vaxtında biz onları yerlərində oturtsaydıq, bəlkə də bu gün bu şəkildə yeni iddiaya başlamazdılar. Bizim böyüklər heç olmasa indi ayılalar!

Millətlər arasına ədavət toxumu səpən, araqızışdıran, hər iki tərəfdən yüzlərlə günahsız insan ölümünə səbəb olan, minlərlə adamı öz isti yurd-yuvasından didərgin salan Z.Balayan bu gün Azərbaycandan SSRİ xalq deputatı olmuş, biz isə balayanların fitnə-fəsadına qarşı çıxmış Etibarımızın və X.Rzamızın həbsinə göz yumuruq. Bu dərdi hara yazmaq olar?

Bu çətin zamanda biz xalqımızın haqqını müdafiə edə biləcək ağıl-

lı adamları, ələlxüsus iqtisadçıları, hüquqşünasları deputat seçməli və onları ali məqsədlərin müdafiəsi üçün mərkəzə göndərməliydik. İndi görək bu mübarizədə, bu çətin məqamda ermənilər qurultaya kimləri göndərdi, biz kimləri? Onlar Ermənistan SSR Elmlər Akademiyasının prezidenti Ambarsumyanı, universitetin rektoru Ambarsumyanı, yazıçı Suren Ayvazyanı, saxtakarlıq pəhləvanı İgityanı və s. Biz isə rus dilini bilməyən sağıcıları, fəhlələri, bir-iki nəfər də ağzı qatıq kəsməyən və danışmaqdan çox susmağı bacaran ziyalıları.

Bizim deputatlar erməni deputatları tərəfindən xalqımıza edilən hücumların qabağında susdu və susmaqla da özlərinin "ədəbli" olduğunu sübut etməyə çalışdılar. Heç demə, hələ çar hakimiyyəti illərində, yəni 1906-cı ildə bizim millət vəkillərinin bir qismi də beləcə susmuş və bu susmağı o zaman da ədəb hesab eləmişlər. O zaman bu mütiliyə dözməyən Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin" jurnalında, görün, nə yazmışdır: "Aman günüdür, biz müsəlman millətini yetmiş iki millətin vəkillərinin içində biabır etməyəsiniz. Elə rəftar etməyin ki, desinlər, bu müsəlmanlar biədəb, bihəya və sırtıq millətdir. Aman gündür, mənim bu nəsihətimi nəzərdə saxlayasınız. Bunun da çarəsi heç dinməməkdir" *("Molla Nəsrəddin", 16 iyun, 1906).*

Bəli, Mirzə Cəlil necə ki, demişdi, aradan 83 il keçəndən sonar yenə də elə olur. Müasir deputatlar da "ədəb gözləyib" dinmədilər.

Heç demə, 1906-cı ildən bu yerə biz bir addım belə irəli getməmişik. Sədi demişkən: "Həmin xakəm ki, həstəm".

Deputatlarımızın məharətlə susma "fəaliyyətlərini" görüb "Xalq deputatlarına açıq məktub" adlı şeir yazdım:

Sənə səs verdim ki, yoldaş deputat,
O yüksək kürsüdə səsin gur olsun,
Sənə öz səsimi verən ki, mən,
Qulağın kar olsun, gözün kor olsun.
Sənə səs verdik ki, hər qarış yerin
"Əzəli sahibi mənəm" - deyəsən.

Sənin torpağına göz dikənlərin
Dərsini verməkdən çəkinməyəsən.
Sənə səs verdik ki, elin, obanın
İstəyi, arzusu axsın səsindən.
Bar-bar bağırasan: suyun, havanın
Millətin kökünü çürütməsindən.
Dedinmi bunları?
Yox! Bir dinsənə!
Sənə şəklənmişdi qulaqlarımız.
Ağzına su alıb susdun... Bəs sənə
Millətin vəkili necə deyək biz?
Xalqını söydülər üzünə qənşər,
Sən susdun...
Vəzifən susmaqmış məgər?
Xalqın şərəfini qorumayan kəs,
Xalqın deputatı necə oldu bəs?
Susmağa göndərdim məgər mən səni?
Ora getməmişdin sən əsnəməyə.
Sən ora getmişdin xalqın dərdini
Xalqın dili ilə açıq deməyə.
Lal gedib, lal gəldin... sən kimsən bu gün?
Xalqın vəkiliykən xalqa yad oldun.
Yoxsa, dinməməyi bacardığınçün
Bu xalqın adından deputat oldun?
Biz öz haqqımızı bilmədik yenə,
Heç demə, millətin vəkilliyinə
Aşkarlıq dövründə lal-kar gərəkmiş.
Bizə aşkarlığı inkar gərəkmiş.

Deputatlarımız bu şeirdən ibrət dərsi götürmək əvəzinə məndən incidilər. Mən də onlara dedim ki, bizim deputatlarla Ermənistan deputatlarını müqayisə edəndə təsəvvürümdə belə bir mənzərə canlanır: Braziliya futbol komandasının qarşısına biz Yevlax komandası

ilə çıxmışıq. "Ay bərəkallah, nə gözəl canlarıq".

İndi respublikanın istər rəhbərliyini, istərsə də ən adi vətəndaşını düşündürən ən mühüm məsələ köçkünlər məsələsi olmalıdır. 250 min köçkünü balaca bir respublikaya necə yerləşdirmək, onları mənzillə, işlə necə təmin etmək olar? Balaca məsələ deyil. Daha doğrusu bu, bizim qüvvəmizdən və daxili imkanlarımızdan çox yuxarıdır. 55 milyon əhalisi olan, ərazisi bizim respublikanın ərazisindən 14-15 dəfə böyük olan, bir illik ərzaq istehsalı 2-3 ilə çatan Türkiyə Bolqarıstandan köçən 300 min köçkünün ehtiyaclarını ödəməkdə çətinlik çəkir. 7 milyon əhalisi olan, istehsal etdiyi ərzağı özünə güclə çatan, tikinti materiallarını kənardan alan, yerli əhalisinin müəyyən faizi mənzil növbəsinə dayanan Azərbaycan 250 min köçkünün dağ ehtiyaclarını necə ödəyə biləcək? Amma ödəməlidir. Bu bizim namus və vicdan borcumuzdur. Bəs nə edək? Ermənistanda baş verən zəlzələnin vurduğu ziyanı ödəmək üçün milyardlarla pul ayrıldı. Tacikistan zəlzələsi isə tez unuduldu. Bizim hörmətli Şeyximiz Paşazadə cənabları sağ olsun ki, qurultayda bunu deputatların yadına saldı.

Bəs imkanlarının böyük bir qismi öz ixtiyarında olmayan balaca bir respublikaya 250 min köçkünün pənah gətirməsi də bir növ zəlzələ deyilmi? Biz öz gücümüzlə bu yükü çəkə bilmərik. Ermənistana verilən yardımın cüzi bir hissəsi qədər bizə yardım düşmürmü? Axı, bunlar məhz Ermənistandan qovulublar. Axı, on illərlə verdiyimiz aldığımızdan dəfələrlə çox olub. İndi bu dar ayaqda verdiyimizin cüzi bir hissəsini köçkünlərimizi təmin etmək üçün bizə qaytarmaq olmazdımı? Biz dilənçi deyilik, biz haqqımızı tələb edirik. Biz istərdik ki, bizim nümayəndələr SSRİ xalq deputatlarının qurultaylarında bu məsələni qaldırsınlar. Amma bu vacib məsələyə heç toxunan olmadı.

Ziyalı deputatlarımızdan yalnız birini misal gətirmək istəyirəm: Moskvada yaşayan hüquq elmləri doktoru və bizim akademikimiz Cahangir Kərimov. Azərbaycan dilini yerlidibli bilməyən, ömrü boyu Moskvada yaşayan, xalqın taleyi ilə ömründə bir dəfə də olsa

maraqlanmayan, adından başqa heç bir şeyi azərbaycanlı olmayan bu adam Azərbaycanı necə təmsil edə bilərdi? Bu hələ bir yana, həlledici anda bizim bu deputatımız erməni dəyirmanına su tökdü və "Azərbaycan kommunisti" *(1989, № 5)* jurnalında yazdı: "Müttəfiq respublikalar arasındakı sərhədlər müvafiq respublikaların qarşılıqlı sazişinə əsasən dəyiş dirilə bilər (maddə 78). Bəs belə razılıq olmayanda problem necə həll edilməlidir? Bu suala SSRİ Konstitusiyası cavab vermir. Məntiqə görə, müttəfiq respublikalar arasında razılıq olmayanda məsələ SSRİ Ali Soveti Millətlər Sovetinin müzakirəsinə verilməli və təkliflər SSRİ Ali Soveti palatalarının birgə iclasında müzakirə olunmalıdır...".

Bu təkliflə görə bu gün mübahisə və münaqişəyə səbəb olan Dağlıq Qarabağ məsələsində Azərbaycan SSRİ Ali Sovetinin, bütövlükdə Azərbaycan Sovet Sosialist Respublikasının konstitusiya hüququ tapdalanırdı. Deyilənə görə, İgityan qurultayda xalqımızı "faşist" adlandıranda bizim deputatlar C.Kərimova deyib ki, çıx ona cavab ver. C.Kərimov isə İgityanın əvəzinə bizimkilərə cavab verərək deyib ki, "Siz hamınız gedəcəksiniz, amma mən burda qalacağam. Məni ermənilərin əlinə verməyin". Bax, xalqın deputatı belə olar! Afərin bu deputata! Mən Kərimovdan küsmürəm, onu bu xalqın deputatı edəndən küsürəm. Cahangiri deputat edən, gərək ona deyəydi ki, Azərbaycan akademiyasının üzvlüyünü və Azərbaycan xalqının deputatlığını qəbul edə bilirsən, bəs bu xalqın mənafeyini müdafiə etməkdən niyə qaçırsan?!

İndi soruşulur: bizdə seçki həqiqətən demokratik qaydada getsəydi, Azərbaycan xalqı özünə beləsini deputat seçərdimi? Unutmayaq ki, demokratiya sözü "demos" və "krotos" sözlərindən yaranıb, yəni, xalq hakimiyyəti. Belə isə bəs həmişə xalqın sözünü deyən Ziya Bünyadov, Əbülfəz Əliyev, Etibar Məmmədov, Süleyman Əliyarov, Nəcəf Nəcəfov, Y.Səmədoğlu, N.Rzayev və bunlar kimi özünü xalqa qurban verməyə hazır olanlar, görəsən, niyə qapı dalında qaldı? Təəssüf ki, bizim səlahiyyət sahibləri hələ əsl demokratiyanın, yenidənqurmanın, aşkarlığın mahiyyətini dərk etməyiblər.

Bizim respublika bu gün də 50-60-cı illərin havası ilə yaşayır, yenə də deputatlar yuxarıdan təyin edilir. Bəli, məhz təyin edilir! Demokratiya, yeniləşmə prinsipi bizim respublikada addımbaşı tapdanır. Baltik ölkələri və başqa respublikalarda demokratiya artıq öz işini gördüyü bir zamanda, bizim respublikada demokratiya tələb edənləri prokurorluğa çağırıb, istintaq aparırlar.

Xalq deputatlarının I qurultayında, başqa respublikaların deputatları hüquqi yolla öz xalqlarının haqqını tələb etdikləri və lazım gələn yerdə heç kəsdən çəkinmədən mübahisəyə girişdikləri halda, bizim respublikanın deputatları mühafizəkar qüvvələrə səs verir, sükut planını artıqlaması ilə yerinə yetirirdilər. Ən maraqlısı isə budur ki, onlar Bakıya qayıdandan sonra susmağın qələbə olduğunu bizə sübut etməyə çalışdılar. Bir soruşan olmadı ki, deyin görək, susub nə qazanmısınız? Xalqımızın ünvanına deyilən təhqirimi? Bizi sakit etmək üçün dedilər ki, xalqımızı təhqir edən İgityanı məhkəməyə vermişik. İnandıq. Amma o vaxtdan il keçdi. İndi soruşuruq: məhkəmənin axırı nə oldu? Niyə bizi addımbaşı aldadırsınız? Niyə başımızın altına yastıq qoyursunuz? Bundan sonra xalqın qəzəb kasası doldu. Bir çox ziyalılar, o cümlədən də mən xalq deputatlarının qurultayına, “Pravda” və “İzvestiya” qəzetlərinə məktub yazdıq. Gözlədik ki, bizim də məqalələrimiz və etiraz məktublarımız mərkəzi qəzetlərdə çap olunar. Çap olunmaq bir yana qalsın, heç məktublarımıza cavab da vermədilər.

## MƏRKƏZİ MƏTBUATIN YALANLARI

Keçən il Dağlıq Qarabağda xüsusi idarə üsulu yarandı. Biz buna etiraz etmədik. Başımızı aşağı salıb əmrə tabe olduq. Bir qədər keçəndən sonra erməni millətçiləri, xüsusi idarə üsuluna da etiraz etməyə başladılar. Əslində, etiraz bizim tərəfimizdən olmalı idi, çünki bu idarə üsulu Dağlıq Qarabağın bütün səlahiyyətini öz əlinə almışdı. Doğma torpaqlarımızda bizim hökmümüz yerimirdi. Dağlıq Qarabağın əsas sahələrdə idarəsi mərkəzi nazirliklərə

tabe etdirilmişdi. Bir sözlə, Azərbaycan torpağı tam mərkəzin və Ermənistanın tabeliyinə verilmişdi. Qazandıqları bu üstünlüklərə baxmayaraq erməni millətçiləri yenidən etiraz mitinqlərinə başladılar. Biz isə quzu kimi susduq. Bəs bu barədə mərkəzi qəzetlər nə yazdı? Elə yazdılar ki, əhvalatlardan xəbərsiz ümumittifaq oxucusu başa düşə bilmədi ki, yenidən başlanan çaxnaşmalara səbəb hansı tərəfdir. Qəzetlər Dağlıq Qarabağda yenidən tətillərin başlanması, idarə və müəssisələrdə işin dayandırılması barədə yalnız məlumat verməklə kifayətləndilər. Bu məlumatlardan isə oxucu elə başa düşdü ki, Qarabağda hakimiyyətin əllərindən çıxmasına görə azərbaycanlılar tətilə başlayıblar. Görəsən, aşkarlıq budurmu? Niyə mərkəzi mətbuat həqiqəti tam aydınlığı ilə yazmır? Niyə yazmır ki, bu "oyunda" hücumda olan kimdir, müdafiədə olan kim?! İstər-istəməz fikirləşməli olursan: Həqiqətin bu şəkildə gizlədilməsində məqsəd nədir görəsən? Qarabağ hadisələrinin başlanğıcından bu günədək yaranan münaqişənin əsas səbəbkarı mərkəzi mətbuatda göstərilmədi. Mərkəzi mətbuat elə yazdı ki, guya biz qonşunun haqqını tapdayırıq. Erməni millətçilərinin haqsız hücumları və xalqımızın ünvanına deyilən nalayiq sözlər hamısı cavabsız qaldı. İş o yerə çatdı ki, ABŞ senatı da bu məsələdə bizi günahkar bildi. Mən Amerika senatını o qədər də günahlandırmıram. Çünki onlar işin içində deyillər. Onlar bu barədəki bütün məlumatı Moskva mətbuatından alır və nəticəni də bu əsasda çıxarırlar.

SSRİ-də insan hüquqlarını müdafiə bayrağı qaldıran akademik Saxarov da, arvadı Yelena Bonner də (qızlıq familiyası Əlixanyandır) təkidlə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsini ədalətli hesab edirdi. Qəribədir, Saxarov bir yandan tək-tək adamların haqqını müdafiə şüarı ilə meydana atılır, digər tərəfdən doğma torpağını Ermənistana vermək təklifi ilə böyük bir xalqın haqqını tapdayır, tarixi həqiqətə göz yumurdu. Gəl, indi beləsinin səmimiyyətinə inan. Ömrü boyu Saxarovun alimliyi ilə insanlığı bir yerə sığışmamışdır. O, bir tərəfdən bütün bəşəriyyəti təhlükə altına salan hidrogen bom-

bası ixtira edir, ikinci tərəfdən insan hüquqlarını müdafiə bayrağı qaldırırdı. Axı, hydrogen bombası ilə insan hüququ bir yerə sığışa bilməzdi. Saxarov alim və vətəndaş şəxsiyyətində bir-birinə tam zidd olan bu iki qütbü necə birləşdirə bilmişdi? Onun şəxsiyyətindəki bu ziddiyyəti yaxşı müşahidə edən akademik V.Ginzburq yazır: "Əgər Saxarov hələ o zamanlar hidrogen bombasının ixtirasını özünə borc bilərək, onun yaranmasına uzun illər vaxt sərf etsəydi, o, fizika elmini daha böyük kəşflərlə zənginləşdirə bilərdi" ("Pravda", 16 dekabr 1989-cu il).

Hidrogen bombasının kəşfini özünə borc bilən bir adamın hansı haqla insan hüquqlarını müdafiə etmək istədiyini anlamaq çətindir. Eləcə də, onu erməni millətçilərinin bostanını sulamaq üçün bizim bostanımıza daş atması səmimiyyətdən uzaqdır.

1989-cu il avqustun əvvəlində Naxçıvan Muxtar Respublikasından Ermənistana gedən qatarların maşinistləri tətil elan etdilər. Buna görə də bu ərazidə qatarların hərəkət cədvəlləri pozuldu. Dərhal SSRİ Yollar naziri N.S.Konerev mərkəzi televiziyanın "Zaman" proqramında çıxış edərək, bu xəbəri dünyaya yaydı. Konerevin verdiyi məlumatdan belə çıxdı ki, azərbaycanlılar qəsdən tətil edib, qatarların hərəkət cədvəlini pozur ki, Ermənistana ərzaq çatdırılmasın. Amma nazir Azərbaycan dəmiryolçularının etdikləri tətilin əsl səbəbini göstərmədi. Əslində isə, nazir bu səbəbi yaxşı bilirdi. Lakin bu səbəbi demək ona sərf eləmirdi. Nazir çox yaxşı bilirdi ki, Azərbaycandan Ermənistana gedən qatarları ermənilər gülləyə tutur, maşinistləri döyür, təhqir edirlər. Nazir çox yaxşı bilirdi ki, Azərbaycandan Ermənistana gedən qatarlarda 9 nəfər azərbaycanlı dəmir yol işçisi döyülmüş, xəstəxanaya düşmüş və 1 nəfər də öldürülmüşdür. Nazir çox yaxşı bilirdi ki, Azərbaycandan gələn qatarları partlatmaq üçün ermənilər dəmir yoluna bomba qoyurlar. Təsadüfi deyil ki, mərkəzi mətbuatın verdiyi belə birtərəfli məlumatdan ilham alan Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsi bürosunun çıxardığı qərar başdanayağa həqiqəti təhrif edirdi. Qərar haqqında

Ermənistanda çıxan "Kommunist" qəzetinin verdiyi məlumatda oxuyuruq: "Son vaxtlar Azərbaycan dəmir yolunda və bir sıra nəqliyyat kommunikasiyalarının fəaliyyətində fasilə nəticəsində respublikanın maddi-texniki təchizatı pozulmuş, tikinti materiallarının, ərzağın, yanacağın kəskin çatışmaması baş vermiş, zəlzələ zonalarının bir sıra obyektlərində tikintinin sürəti aşağı düşmüş və tikinti dayanmışdır" ("Azərbaycan müəllimi" qəzeti, 30 avqust 1989-cu il). Çox güman ki, həmin qərarı hazırlayanların özləri çox yaxşı bilirdilər ki, Azərbaycan dəmir yolunda yaranmış vəziyyətin səbəbkarları elə onların özləridir. Amma Moskva onlardan xəbər almır ki, kimdir Azərbaycandan gələn qatarların qabağını kəsən, maşinistləri döyən, söyən, öldürən? Kimdir dəmir yolunu partladan? Niyə mərkəz onlardan soruşmur ki, öz günahlarınızı azərbaycanlıların boynuna niyə yükləyirsiniz? Əksinə, Moskva verdiyi birtərəfli məlumatla onları cinayətə daha da şirnikləndirir.

1989-cu il dekabrın 7-də Ermənistanda zəlzələnin bir illiyi münasibətilə mərkəzi radionun "Mayak" verilişi o barədə məlumat verib deyir ki, zəlzələdən bir il keçməsinə baxmayaraq, hələ də Spitakda tikinti işləri yaxşı getmir və bu ləngimənin səbəbini bizim üstümüzə atır. Guya Azərbaycan dəmiryolçuları bir neçə gün tətil etdiklərinə görə Spitaka tikinti materialları daşınmamışdır. Bu böhtançı xəbərdə Moskva tikinti materiallarının çatışmazlığını öz üstündən atır və bir güllə ilə iki dovşan vurur. Həm günahı bizim boynumuza yıxır, həm də ara qızışdırır. Bu da köhnə üsuldur.

Görəsən, nəyə görə Moskva mətbuatı və televiziyası yalnız faktı deməklə kifayətlənir? Dediyi faktın səbəblərini araşdırmır və bu məsələdə susur.

Bu yalan xəbərlə kifayətlənməyən mərkəz dekabrın 10-da televiziyanın "Zaman" verilişində eyni xəbəri başqa şəkildə təkrar etdi.

Dekabr ayında *(1989)* Yessentukidə müalicədə idim. Vestibüldə ortayaşlı bir gürcü birdən mənə tərəf çevrilib:

- Siz çox səbrli xalqsınız, - dedi.

- Nə barədə? - deyə ondan xəbər alınca:

- Dünən "Zaman"da sizin ünvanınıza deyilən böhtanı eşitmədiniz? - dedi.

Dünən gecə "Zaman" xəbərlər proqramını dinləmiş və bütün gecəni yata bilməmişdim. Gürcü mənim alışan qəzəbimin üstünə, elə bil, od tökdü və sözünə davam etdi:

- Bütün dünya onlara kömək edir. Spitakı və Leninakanı yenidən tikirlər. Amma tikinti materialları ardıcıl çatdırılmadığından iş ləng gedir. Bunun günahını sizin xalqın üstünə yıxırlar. Mən başa düşmürəm, sizin rəhbərlər buna necə dözür və niyə etiraz etmirlər?

Gürcü tamamilə haqlı idi. Biz susuruq. Mərkəz də günahı bizim üstümüzə yıxmaqla özünü təmizə çıxarır. Beləliklə də, bütün dünyanı bizə qarşı çevirir. Görəsən, bunun arxasında hansı məqsəd durur?

Mərkəzi mətbuatın və radio-televiziyanın bu cür birtərəfliliyi, bəzən isə saxtakarlığı 1990-cı il yanvarın əvvəlində baş verən Naxçıvandakı sərhəd hadisələrində də özünü göstərdi. Naxçıvan Xalq Cəbhəsinin təşəbbüsü ilə Şimali Azərbaycanla Cənubi Azərbaycan arasında uzanan sərhədin dağıdılmasını mərkəzi mətbuat, bir dəstə başıpozuq narkomanın və sərxoşun xuliqan hərəkəti kimi qiymətləndirdi. Eyni ata və eyni anadan olan 2 qardaşın iki əsrə yaxın bir müddətdə bir-birinə olan həsrətini və bu həsrətə etirazını xuliqan hərəkəti adlandırmağın özü xuliqanlıq deyilmi? Bir xalqı iki yerə parçalamaq, onları bir-birinə həsrət qoymaq, ağızlarını yumruqla tıxamaq, səslərini çıxartmağa belə imkan verməmək ədalətdirmi?

Deyilənə görə, hər iki tayın cavanları aradakı sərhəd taxtalarını yandırıb Araz çayına girmiş, qışın şaxtasında çayın içində görüşmüş, qucaqlaşmış, ağlamışlar. Dünyanın cahanşümul əsərləri üçün material ola biləcək bu səhnənin yaradıcılarını nalayiq sözlərlə ləkələyənlər özləri tarix qarşısında ləkəlidir.

Bir çox məsələlərdə Sovet hökuməti ilə İran hökumətinin mənafeyi toqquşsa da, Azərbaycan məsələsində mənafelər birləşmişdir. Çünki onların hər biri vahid Azərbaycanın bir tikəsinə sahib olub oturmuş-

dur və heç biri sahib olduğu tikədən keçmək istəmir. Buna görə də hər ikisi bu milli hərəkatı xuliqan hərəkət kimi damğalamaqla dünya ictimaiyyətinin diqqətini əsas mətləbdən yayındırmağa çalışır. Hər iki hakim mətbuatın (fars, rus) o taylı-bu taylı Azərbaycanın birləşmə arzusunu eyni səs, eyni avaz və eyni köhnə bayatı ilə damğalaması təsadüfi deyil. Eyni məqsədi güdən bu iki "hakimə" etirazını bildirən ordubadlı bir qadın "Azadlıq" radiosuna verdiyi müsahibəsində haqlı olaraq bildirir ki, bu hərəkatda iştirak edənlərin əksəriyyəti qadınlar idi. Azərbaycan qadını isə tarixində spirtli içkinin nə olduğunu bilməmiş, narkotik maddələrin varlığından belə xəbəri olmamışdır. Beləliklə, Moskva və Tehran radiolarının hərəkət iştirakçılarını narkoman və sərxoş adlandırması böhtandır. Qadın haqlıdır. Çünki bu böhtançıların bir xalqın başı üstündə əsr yarımdan artıq oynatdıqları qılıncın parıltısından gözləri o qədər qamaşmışdır ki, Azərbaycan xalqının qanını o qədər içmişlər ki, başları gicəlləndiyindən əsl həqiqəti görmək istəmirlər.

1986-cı il dekabrın 17-də Alma-Atada baş verən milli hərəkatı da mərkəzi mətbuat bir dəstə narkomanın xuliqanlığı adlandırmışdı. Əlbəttə, bu köhnə bayatı idi. Bu cür uydurma xəbərlər xalqın milli azadlıq arzusunu pərdələmək, bu böyük hərəkatı siyasi qayədən məhrum etmək, onu gözdən salmaq məqsədi daşıyırdı. Amma belə uydurma xəbərlərlə cidanı çuvalda gizlətmək olmaz.

Beləliklə də xalqın haqqını müdafiə edənləri, heç bir şeydən çəkinmədən həqiqəti deyənləri narkoman və xuliqan adları ilə damğalamaqla Moskva özünü təmizə çıxarmaq istəyir. Bu üsuldan o qədər istifadə ediblər ki, qorxuram, xarici ölkələr bu fikirdə ola ki, Sovet İttifaqında haqq sözü deyənlər və həqiqəti müdafiə edənlər hamısı narkomanlar və xuliqanlarmış.

Təəssüf ki, "bizi-bizdən qoruyan" sərhəd keşikçiləri də başa düşmək istəmirlər ki, Azərbaycanın vəziyyəti sərhəd respublikalarından (Moldaviya istisna olmaqla) heç birinə bənzəmir. Çünki Azərbaycanın sərhədindəki dirəklər torpağın üstündən keçmir, iki

yerə parçalanmış xalqın sinəsindən keçir. Bu sərhəd bir xalqla başqa xalqı bir-birindən ayırmır, eyni xalqı bir-birindən, yəni qardaşı qardaşdan ayırır.

Bu gün biz buna sevinməliyik ki, qardaşların, heç olmasa, ayda bir dəfə görüşməsi üçün Sovet hökuməti İran hökuməti ilə razılığa gəldi. Amma onu da etiraf edək ki, əgər biz bunu hökumətlərin ixtiyarına versəydik, bu saziş yüz il beləsinə başa gələ bilməzdi. Bu işi yenə də xalq öz iradəsi ilə yoluna qoydu. Eşq olsun xalqın bu əzmkarlığına və birliyinə!

70 il doğmaca bacısına həsrət qalan, uzaqdan da olsa üzünü görə bilməyən 85 yaşlı bir qocanın televiziyadakı çıxışı və bu savab işi görənlərə minnətdarlığı önündə baş əymək lazımdır.

İki yerə parçalanmış bütün millətlərin dərdini dünya bildiyi halda, Birləşmiş Millətlər Təşkilatında hər birinin məsələsi dəfələrlə müzakirəyə qoyulduğu halda bu yaşımda hələ mən bir dəfədə görməmişəm ki, iki yerə parçalanmış Azərbaycanın dərdi barədə bir səlahiyyətli və nüfuzlu təşkilat söz açsın, bu məsələni müzakirə etsin! Bəs biz bu milli yaramızı nə vaxta qədər ürəyimizin dərinliyində gizlədəcək və dünyaya bildirməyəcəyik? Birdəfəlik bütün dünyaya bildirməliyik ki, Sovet Azərbaycanı və İran Azərbaycanı adı ilə iki yerə parçalanmış Azərbaycan vahid bir torpaqdır, hər ikisinin əhalisi isə eyni millətdir.

Ermənistanın Azərbaycandan torpaq iddialarına və təcavüzkar siyasətinə SSRİ Ali Soveti siyasi qiymət vermək istəmir. Amma Litva Kommunist Partiyası Ümumittifaq Kommunist Partiyasının tərkibindən çıxmaq istəyəndə Moskva dərhal Mərkəzi Komitənin plenumunu çağırır və Litva Kommunist Partiyasının bu hərəkətinə siyasi qiymət verib onu pisləyir. Azərbaycan kommunistlərinin keçmiş rəhbəri Vəzirov da plenumda birinci çıxış edib Litva kommunistlərinin bu hərəkətinə mənfi qiymət verdi. Amma Ermənistan susdu. Elə oradaca Vəzirov Mərkəzi Komitəyə, Siyasi büroya müraciət edib deyə bilərdi ki, bizi niyə müdafiə etmir-

siniz? Ermənistanın Azərbaycandan tarixi torpaq iddialarına və təcavüzkarlığına niyə münasibətinizi bildirmirsiniz? O, bunu deyə bilmədi. Gəlin, heç olmasa Ermənistanın təcavüzünə qarşı bizim Ali Sovetin qərarını dünyaya bildirək. Bu qərarı dərin elmi-hüquqi sənəd kimi ingilis, alman, fransız, ispan, türk, Çin, ərəb və s. kimi dillərinə, eyni zamanda müttəfiq respublikaların dillərinə çevirib rəsmi dairələrə, mətbuat orqanlarına çatdıraq.

Niyə Berlini iki yerə bölən beton hasarlar götürüləndə biz bunu təfəkkürün təzahürü kimi qiymətləndirib alqışladığımız halda, vahid Azərbaycanı iki yerə bölən sərhəd dirəkləri götürüləndə bu, xuliqanlıq və ekstremist hərəkət adlanır? Nəyə görə eyni hərəkətə qiymətlər müxtəlif olmalıdır? Görəsən, mərkəz bunu nə ilə izah edər?

Avqustun 1-də *(1989-cu il)* SİTA-nın verdiyi məlumatda göstərilirdi ki, Azərbaycan SSR-in Laçın rayonunda bir qrup adam Ermənistandan Dağlıq Qarabağa tikinti materialları aparan maşınlara basqın etmişdir. SİTA-nın məlumatı burda qurtarır. Basqının səbəbini isə göstərməyi lazım bilmir. Heç demə, 12 erməni avtomaşınında tikinti materialları adı ilə partlayıcı qurğular üçün xüsusi detonatorlar aparılırmış.

Həmin detonatorlar bizim milislər tərəfindən müsadirə ediləndə erməni sürücüləri etiraz etmiş və burda dalaşma başlanmışdır. Vəziyyət belə olduğu halda ədalətli hakim vəzifəsini boynuna götürən "böyük qardaşımız" niyə hadisələrə düzgün qiymət vermir, niyə haqlı olduğumuz halda mərkəzi mətbuat səhifələrində bizi yol kəsməkdə, qonşunu blokadaya salmaqda günahlandırır? Əlbəttə, tikinti materialları aparan avtomaşınlara basqın etsəydik, mətbuat bunu yazmaqda haqlı olardı. Faktı yazıb, onun səbəbini göstərməmək isə ikiqat cinayətdir. Bunlar açıq-aydın göstərir ki, Ermənistan SSR Dağlıq Qarabağ ermənilərini tam müasir silahlarla silahlandırır.

Tikinti materialları adı ilə vaqonlarda daşınan silahlar, o cümlədən raket başlıqları təsadüfən Ələt stansiyasında aşkar edilmişdir. Əgər Dağlıq Qarabağa raket başlıqları göndərilirsə, demək, Xankəndidə

(Stepanakert) raketlər də var. Bunu biz də bilirik, Ələt stansiyasında həmin silahları aşkar edən rəsmi orqanlar da. Biz, heç, biz neyləyə bilərik? Bəs mərkəzi hökumət hara baxır? Niyə ağzına su alıb? Niyə bu məsələnin özəyinə getmir? Niyə bu silahların hardan əldə edildiyini və hara, nə üçün göndərildiyini, kimə qarşı çevriləcəyini öyrənib tədbir görmür?

Ən maraqlısı budur ki, mərkəzi mətbuat bu barədə məlumat da verməyi lazım bilmir. Allah eləməmiş, bu hadisə əksinə olsaydı, yəni biz Ermənistanda yaşayan azərbaycanlılara silah göndərsəydik, Moskvanın bütün informasiya orqanları ağız-ağıza verib bizim əleyhimizə növbəti kampaniyaya başlayacaqdı.

"Politiçeskoye obrazovaniye" jurnalının 3-cü nömrəsində *(1989-cu il)* Vil Dorofeyevin "Zametki publisista o stixiynom bedstvii v Armenii i ne tolko ob etom" adlı məqaləsi isə daha dəhşətlidir. Həmin məqalədə müəllif məhsul yığımının qızğın dövründə azərbaycanlıların kütləvi surətdə Ermənistandan "köçmələrinə" görə bizi günahlandırır. Guya azərbaycanlılar məhsul yığımının qızğın dövründə Ermənistana zərbə vurmaq üçün qəsdən Azərbaycana "qonaqlığa" gəliblərmiş. Həqiqəti bu qədər də təhrif etmək olarmı? Görəsən, müəllif doğrudanmı bilmir ki, azərbaycanlıları doğma yurdlarından döyə-döyə çıxardıblar? Hansı millət min cür əzab-əziyyətlərlə qurduğu ocağını elə-belə tərk edər? Bunu yazan müəllif, görəsən, dediyi bu boyda yalandan utanmırmı? Bu yalanla o kimə xidmət edir və bununla nə demək istəyir? Doğrusu, mən bu məqaləni oxuyanda qışqırmaq, həqiqətin tapdanmasına etiraz olaraq bağırmaq, bütün dünyanı yalana qarşı üsyana çağırmaq istədim. Amma nə edək ki, səsimizə səs verən yoxdur. Biz şər və böhtan içində boğuluruq. Mənə elə gəlir ki, mərkəzi mətbuatın təsiri altına düşmüş Dorofeyev kimilər erməni millətçilərinin bizim haqqımızda dedikləri "mədəniyyətsiz", "vəhşi" sözlərini təsdiqləmək istəyirlər. Erməni millətçilərinə qulluq göstərən bu adamlar görəsən Spitakda azərbaycanlı körpələrini borunun içinə salıb hər iki başının qaynaqlan-

masını eşitməmişlərmi? Əgər bunu eşitməyiblərsə, zəlzələ ilə əlaqədar Ermənistanın köməyinə gələn fransızların iki gündən sonra ordan getmələrinin səbəbini öyrənəydilər. Bu cənabların Ermənistandan qovularkən 48 nəfər azərbaycanlının öldürülməsindən də xəbərləri yoxmuş? Yəqin ki, xəbərləri var. Lakin bu, onlara sərf eləmir. Bununla belə, müəllif məqaləsində tez-tez Sumqayıt hadisələrini xatırlatmaqdan çəkinmir. Çünki bizi rüsvay etmək üçün bu, ona lazımdır. Müəllifə görə Sumqayıtdakı "qanlı səhnə" hadisələrin əsas təkan verici qüvvəsi imiş. Müəllifdən soruşmaq istərdik: Qarabağ hadisələrini Sumqayıta bağlamaqla nə demək istəyirsən? Bəs Xocalı faciələrindən niyə danışmırsan? Bəs Ermənistanın Quqark rayonunda 12 nəfər azərbaycanlının başının kəsilib yandırılmasından, ümumiyyətlə, burada 70 nəfərin öldürülməsin dən niyə danışmırsan? Sumqayıt hadisəsini genosid hesab edən cənablar vaxtilə Ermənistan əhalisinin 43 faizinin azərbaycanlılar olduğu halda, bu gün orda bir nəfər də azərbaycanlının qalmamasını niyə genosid adlandırmırlar? Niyə bu faktı danırlar ki, Ermənistandan qovulan zaman öldürülən azərbaycanlıların sayı Sumqayıtda öldürülən ermənilərin sayından on qat çoxdur?

Faktlara ayıq gözlə baxanda məlum olur ki, Sumqayıt hadisəsi də erməni daşnaklarının əli ilə həyata keçirilib. Həmin hadisədən üç gün sonra Fransa televiziyası Sumqayıt hadisəsini olduğu kimi göstərmişdir. Adam təəccüb edir: hadisənin qızğın vaxtında onu kim çəkmiş və nədən ötrü çəkmişdir? Çəkiliş qrupu hadisənin qızğın vaxtında hardan peyda olmuşdur? Belə bir hadisənin olacağını əvvəlcədən hardan biliblər ki, operatorlar həmin saatda orada hazıra nazir olublar?

Ən təəccüblüsü isə, qırğını törədənlərdən birinin erməni E.Qriqoryan olmasıdır *(bax: "Bakinski raboçi", 4 noyabr 1988-ci il).*

Fransa jurnalisti Aryel Kiru yazır, "Ermənistan milli istiqlaliyyət birliyinin nümayəndələri M.Yermakyan və M.Zurabyan qətiyyətlə

bildirmişlər ki, 1988-ci il 28-29 fevral Sumqayıt hadisələrinin təşkilatçıları azərbaycanlılar deyil. Onlar demişlər: “Bizim əlimizdə faktlar və sübutlar var” *(bax: “Azərbaycan” qəzeti, 1989, № 11).*

Çox qəribədir, xarici mətbuat heç olmasa bu məsələdə hərdən həqiqəti yazır, biz isə burda yalan və böhtan içində çapalayırıq.

Burda istər-istəməz bir atalar sözü yada düşür: “Kor kora kor deməsə, bağrı çatlar”. Bizim müdrik babalar bu misalı öz zəmanələri üçün demişdilər. İndi dövran dəyişib, kor-kora deyil, kor gözlüyə kor deyir.

Ermənistanda rus dilində çıxan “Kommunist” qəzetində *(14 dekabr 1989-cu il)* Yerevan Zoobaytar institutunun kafedra müdiri B.Mirzoyan öz mal-heyvanı ilə məşğul olmaq əvəzinə “statistika” ilə məşğul olmuş, “Statistika nə deyir?” adlı bir məqalə yazmışdır. Yalan və uydurma ilə dolu olan bu yazıda göstərilir ki, 1959-1979-cu illər arasında Azərbaycan SSR-dən 130 min rus köçmüşdür.

Siz bu hərifin hara iynə batırdığına diqqət yetirin. Amma bunu yazarkən bəs onun vicdanı harda gizlənmişdi? Niyə düşünmədi ki, bunu yazmağa mənim haqqım yoxdur. Axı, Ermənistanda ermənidən başqa ayrı millət qalmayıb. İnsan vicdanını bir beləmi itirər? O, sözünə davam edərək yazır, “70-ci illərdə məhz Azərbaycan qəribə bir rekord qazanmış, azsaylı millətlərin mütləq azalmasına, o cümlədən rusların 8,8 faiz, ermənilərin 1,7 faiz, gürcülərin 16,2 faiz, ukraynalıların 9,6 faiz azalmasına nail olmuşdur”.

Bizim Azərinform mal həkiminə belə bir sual verib: “Əgər SSRİ-də əhalinin milli əlamətə görə yerləşdirilməsinin uçotu, ümumiyyətlə, aparılmırsa, görəsən bu rəqəmlər haradan götürülmüşdür?”.

Mən isə ona başqa sual verərdim: Əgər bir respublikada başqa millətlərin yaşaması yaxşı haldırsa, bəs sənin respublikan niyə bu yaxşılıqdan imtina edir? Bəs 200 min azərbaycanlını doğma yurdundan qovmaq nə deməkdir?

Bizi “vəhşi” adlandıran erməni millətçiləri öz vəhşiliklərini niyə görmürlər? Dünyanın heç bir xalqı, Afrikanın yarımvəhşiləri

belə qəbrə əl qaldırmaz. Özlərini mədəni adlandıran bu vəhşilər böyük Azərbaycan aşığı Ələsgərin qəbrini dağıdıb, sümüklərini təhqir etdi. S.Vurğunun büstünü uçurdular. Bu cümlələri yazarkən, təhqir olunmuş sənətkarların xəyalı gözümün qabağında canlandı, gücsüzlüyümdən utandım. Dədə Ələsgər, bizi bağışla, - dedim. Biz sənin müqəddəs məzarını da qoruya bilmədik. Nə olar? Zaman var, tarix var!

Nə qədər alçaq olmaq lazımdır ki, sazı və sözü ilə insanlara xoş duyğular bəxş edən, insanlığı məhəbbətə çağıran el nəğməkarının qəbrinə əl qaldırasan? Onlar bunu etdikləri zaman heç olmasa öz sənətkarları Sayat Novanı düşünəydilər. O Sayat Novanı ki, əsərlərinin əksəriyyətini Ələsgərin dilində yazıb. Mən ona da inanıram ki, Sayat Novanın ruhu bugünkü nəvə və nəticələrinin bu hərəkətini onlara bağışlamaz.

Azərbaycanda olan alban abidələrini öz adına çıxan və onların qorunması üçün bizim daxili işlərimizə barmaq uzadan bu nadanlar əmin olsunlar: biz abidəyə, müqəddəslərin məzarına əl qaldıracaq səviyyədə alçalmamışıq. Biz nəinki öz abidələrimizə, düşmən abidəsinə də əl qaldırmırıq. Biz heç kəsin torpağına daş basdırıb, sonra şivən qoparıb "bu yerlər bizimdir" deməmişik. N.Çavçavadze demişkən: "Fəryad qoparan daşları bizim torpaqlarımıza basdırmaqdan əl çəkin!".

***

Mərkəzi qəzetlər və mərkəzi radioteleviziya 1989-cu il noyabr ayının əvvəlində belə bir xəbər yaydı ki, Azərbaycan SSR-in Qazax rayonu ərazisində bomba partlayışı nəticəsində Ermənistan SSR-in İcevan rayonunun sakinləri S.S.Davityan, A.V.Melikbekyan və Kozlitin yaralanmış və xəstəxanaya aparılmışdır.

Bu xəbərdən belə çıxır ki, Azərbaycan SSR-in sakinləri bomba partladıb bir rusu və iki ermənini yaralamışlar. Bəs həqiqət

necədir? Əslində, həmin rusla iki erməni Azərbaycan SSR-in Qazax rayonu ilə Ermənistanın İcevan rayonu sərhədində vaxtilə ucaldılmış "Zaqafqaziya respublikalarının dostluğu" abidəsini partlatmaq istədikləri zaman qəlpələr özlərinə dəymiş və yaralanmışlar. Demək, öz əməlləri öz başlarında çatlamışdır. Bəs həqiqət belə isə, nəyə görə informasiya orqanları hadisəni adı və ünvanı ilə yerli-yataqlı bildirmir? Niyə həqiqəti cinayətkar tərəfin xeyrinə gizlədirlər?

Dağlıq Qarabağda əmin-amanlıq yaratmaq üçün ora göndərilən SSRİ Daxili İşlər Nazirliyinin xüsusi qoşun hissələri bu barədə görəsən nə fikirləşir? Axı, bütün bu biabırçılıqlar onların gözü qarşısında baş verir. Biz Ağdamdan Şuşaya gedə bilmirik. Maşınlar daşa basılır, sürücülər döyülür. Dağlıq Qarabağdakı Azərbaycan kəndlərinə yalnız vertolyotla gedib-gələ bilirik. Bunu görən və bu haqda danışan yoxdur. Amma biz bir neçə gün Ermənistana yanacaq göndərməyəndə mərkəzi mətbuat "blokada" - deyə bağırır.

Dağlıq Qarabağda Azərbaycan kəndləri blokada vəziyyətində olduğu halda, A.Volski "Pravda" qəzetindəki məqaləsində (8 dekabr 1989-cu il) bunun tam əksini yazaraq göstərir ki, guya azərbaycanlılar Dağlıq Qarabağı blokadaya almışlar. İndi buna nə deyəsən? Bəs A.Volski öz gözləri ilə gördüyü həqiqəti dananda, həqiqətin tam əksini deyəndə, görəsən bir anlıq da olsa özü-özündən utanmırmı?

Azərbaycan kəndlərinə ərzaq daşıyan avtomaşınların qarşısını kəsir, yükünü boşaldır və sürücülərini döyüb geri qaytarırlar. Beləliklə, Dağlıq Qarabağdakı Azərbaycan kəndlərinin və Şuşanın ermənilər tərəfindən 1 ildən artıq davam edən blokadası Moskvanın tükünü də tərpətmir. Bu barədə nə yazırlar, nə də deyirlər. "Sobesednik" həftəliyində *(1989, N 47)* isə belə üstüörtülü bir xəbər oxuyuruq: "Stepanakert ətrafında körpü dağıdılmışdır, 200 nəfərlik azğınlaşmış kütlə ŞuşaAğdam yolunu bağlamışdır. Növbəti ərzaq avtokalonunu müşayiət edən əsgərlər dağlardan atəşə tutulmuş, onların üstünə kislata, benzin şüşələri, partlayıcı qurğular atılmışdır".

Vəssalam. İndi ümumittifaq oxucusu bu xəbərdən nə anlasın?

Körpünü dağıdan, yola benzin şüşələri və dağıdıcı qurğular qoyan hansı tərəfdir? Ağdamla Şuşa arasındakı əlaqəni kəsib Dağlıq Qarabağdakı Azərbaycan kəndlərini ərzaqsız qoyanların adı, ünvanı niyə açıq-aşkar göstərilmir?

Mərkəzi mətbuatın müxbirləri içərisində nəhayət həqiqəti görən və onu Ümumittifaq oxucusuna çatdırmaq istəyən bir nəfər namuslu adam tapıldı. "Oqonyok" jurnalının əməkdaşı G.Rojnov 1989-cu ilin oktyabr ayında Yerevanda və Bakıda olmuş, hadisələri diqqətlə öyrənib təhlil etmiş və öz şəxsi müşahidələri əsasında obyektiv bir məqalə yazmışdır. Lakin özünün dediyi kimi Moskvanın qəzet və jurnalları onun məqaləsini nəşr etməkdən boyun qaçırmışdır. Niyə? Çünki bu vaxta qədər Dağlıq Qarabağ hadisələri barədə mərkəzi mətbuatda yazılanlardan belə çıxır ki, "Azərbaycan qaniçən işğalçı, qonşusu isə bu işğalın günahsız qurbanıdır".

Müxbir sözünə davam edərək yazır ki, "həqiqət isə bunun tərsinə idi... Mənim yazdıqlarım mənə qədər yazılanları inkar edirdi...". Bu inkar isə erməni mafiyasının əlində oyuncaq olan mərkəzi mətbuat işçilərinin xoşuna gəlməmişdi.

Hər yerdən əli üzülən G.Rojnov yazıldığı tarixdən 4 ay sonar məqaləsini bizim "Vışka" qəzetində nəşr etdirməyə məcbur olur *(11 fevral 1990-cı il).* Aşkarlıq budurmu?

"Kommunist" qəzetinin müxbiri Z.Sultanov yazır ki, (31 avqust 1989-cu il) Şuşadan Bakıya, Ağdama və respublikanın müxtəlif rayonlarına gedən 9 avtobus və bir yük maşını karvan halında yola düzəldi. Günortadan xeyli keçmişdi, maşın karvanını xüsusi qoşun hissəsinin əli avtomatlı əsgərləri müşayiət edirdilər. Lakin yolun yarısında əsgərlər geri qayıtdılar. Dedilər ki, göstəriş belədir".

Görəsən, bu hansı göstəriş idi? Və bu göstərişdən məqsəd nədir? Məqsəd aydındır. Yolda ermənilər avtobus və maşınlara hücum edir və 21 nəfəri ağır yaralayırlar. Yaralıları Ağdam rayon mərkəzi xəstəxanasının cərrahiyyə şöbəsinə gətirirlər.

İndi kimdən xəbər alasan, bəs Mərkəzdən göndərilən xüsusi qo-

şun hissələri Ağdamda kimi və nəyi qoruyur? Ermənistandan qovulmuş Xanımzər Məmmədovanın “Kommunist” qəzetinə göndərdiyi məktubdan bir parçanı oxuculara çatdırmaq istəyirəm: “Mən üç oğul böyütmüşəm. Əsgəri xidmətə yola salmışam ki, sərhədlərimizin keşiyində dursunlar. Bəs bunu hansı qanuna yazmaq olar ki, ata-baba yurdunda, doğma elində - Oxçoğluda özümüzü qoruyan yoxdur?”.

Haqlı sualdır. Üç övladını uzaq sərhədlərimizi qorumağa göndərən bu ana, öz doğma yurdunda müdafiəsiz qalmış, onu döyüb, doğma ocağından didərgin salmışlar. Belə bir məqamda hansı ədalətdən, hansı insan hüquqlarından danışmaq olar? Axı, bizim rəhbərlər Helsinkidə insan hüquqlarını müdafiə aktına qol çəkiblər. Bəs belə isə Xanımzər ananın haqqı harda qaldı?

Ana sözünə davam edərək yazır: “11 ay sərhəd məftillərinə sığınmağa məcbur olmuşuq. Min bir müsibətlə canımızı xilas etmişik. Var-dövlətimizi, ev-eşiyimizi itirdik, cismani cəzalara məruz qaldıq, el-obadan didərgin düşdük, hüququmuz tapdalandı. Dərdimizi kimə deyək? Axı, biz sovet vətəndaşıyıq. Qəribədir, qonşularımız da, mərkəzi mətbuat da elə mövqe tutur ki, məəttəl qalırsan... Bir yandan deyirlər ki, “təcili yardım” maşınları benzin olmadığı üçün işləmir, amma bircə sətir sonra yaddan çıxarırlar: yüzdən çox maşın Dağlıq Qarabağa tikinti materialları aparır, amma qoymurlar. Bax, beləcə, adamları çaşdıra-çaşdıra əsəbləri ilə oynayırlar”.

Xanımzər ana tamamilə doğru deyir. Adamları çaşdırmaq istəyirlər. Biz gərək bu yalanların arxasında duran həqiqətləri başa düşək. Bu həqiqət də ondan ibarətdir ki, mərkəzi mətbuat bizi güzəştə çağırır. Başa düşmək olmur, güzəşt deyəndə nəyi nəzərdə tuturlar? Əgər müvəqqəti idarə üsulunu nəzərdə tuturlarsa, xeyrimizə olmasa da, biz buna da söz demədik. Bundan sonra başqa oyun çıxdı. Dağlıq Qarabağın iqtisadiyyatını müstəqilləşdirdilər. Allah bundan betərindən saxlasın. Amma buna da şükür edək ki, hələ doğma torpaqlarımızı qonşuya bağışlamağımızı bizdən tələb etmirlər. Amma xırdaxırda çox bağışlamışıq.

## SUALLAR, SUALLAR...

Məgər, bir neçə il bundan əvvəl Kəmərli kəndinin ən səfalı yerindən 2500 hektar torpağı ermənilərə bağışlamadıqmı? Bundan bir qədər sonra Didvan dəryaçasının sahilində də onlara torpaq vermədikmi? Bunlar azdırmı? Daha kifayətdir. Xalq ayağa qalxmış, keçmiş rəhbərlərin "ürəkgenişliyinə" dözə bilmir. Həmin rəhbərlər bu qədər səxavətlidirsə, qoy 67 gözlü otaqlarından birikisini Ermənistandan qovulan didərginlərə bağışlasınlar. Bunu eləmirlərsə, Vətən torpağının hesabına səxavətlərini nümayiş etdirməsinlər. Çünki Vətən torpağı millətin, xalqındır.

Son hadisələrdə isə 200 min azərbaycanlının yaşadığı 170 yaşayış məntəqəsini onlara bağışlamadıqmı? Bu da onlara yetmədi? Yox, çünki dişlərində şirə qalıb, həyasızcasına yenə "Qarabağ" deyib dururlar. İndi soruşulur: Ermənistanın partiya və sovet rəhbərlərinin rəyi və göstərişi olmasaydı, erməni millətçiləri 200 minə yaxın azərbaycanlını öz halal yurdundan qova bilərdimi? Hamımız bilirik ki, yox! Çünki Ermənistanda rəhbər işçi yalnız və yalnız daşnak ünsürlərinin dediyini təkrar edir. Əgər belə olmasaydı, bu yaxınlarda Ermənistan rəhbərləri daşnak partiyasının liderləri ilə birlikdə iclas keçirib yenə də Qarabağ tələbini irəli sürə bilərdilərmi? Daşnaklar çoxdankı arzularını Ermənistanın partiya rəhbərlərinin əli ilə həyata keçirdilər. Onlar Ermənistanda monomillət yaratdılar. Bizim partiya və sovet rəhbərlərimiz isə Azərbaycan xalq cümhuriyyətinin xaricdəki nümayəndələrini söyür, xalqın mənafeyi uğrunda tətilə başlayan gənclərimizi xuliqan və nadan adlandırmaqdan həzz alır.

Xalqın haqqını müdafiə naminə payızın sazağında bir aya qədər Azadlıq meydanında dayanan bu gənclər niyə xuliqan adlandırılmalı idi? Onlar evmi yarırdı, adammı döyürdü, yolmu kəsirdi, yaxud şəxsi mənafeləri üçünmü üsyan edirdilər? Heç soruşan olmadı, bu 100 minlər nə istəyirdi, görəsən; Bəlkə, hökumətdən ölkədə qıt olan yağı, əti, unu, sabunu, qəndi tələb edirdi? Yoxsa, əlindən çıxmaqda olan torpağının namusunu müdafiə edirdi? Niyə biz gənclərimizin

bu vətənpərvərlik duyğularını qiymətləndirmək əvəzinə, onların üstünə böhtan atdıq? Xalq cəbhəsinin liderlərindən olan Etibar Məmmədovu ifşa etmək, xalqın gözündən salmaq üçün televiziyaya ağıldan kəm bir narkomanı çıxarıb, onun dili ilə vətənpərvər bir oğlumuzu böhtanlarla ləkələmək istədik. Torpağını müdafiə məqsədilə meydana yığılan gənclərimizin bir qismini həbs etdik, ziyalılarımızı hədələdik və prokurorluğa çağırdıq.

Xalqı inzibati orqanlarla hədələyənlər vətən və milli hisslərdən məhrum olan, elə buna görə də vəzifə kürsüsünün yuxarı pilləsinə dırmaşanlardır. Başa düşmək olmur, xalqın dilini, mədəniyyətini, tarixini bilməyən, bilmədiyinə görə də bu xalqı sevməyənlər xalqa necə xidmət edə bilər? Təəssüf ki, belələrinin vəzifəyə gedən yolu çox hamar olur. Çünki vəzifə başında ondan ana dilini deyil, rus dilini bilmək tələb olunur. Milli hissləri axtalanmış beləəri səlahiyyət sahibi olduğundan, ana dilinin vacibliyindən danışanları dərhal ləkələyir, özü kimi milli hissdən məhrum olanları ətrafına toplayır. Beləəri isə öz şəxsi mənafeyini vətənin və xalqın mənafeyindən üstün tutur. Daim stolunu itirmək qorxusu ilə yaşadığından vətənin və ana dilinin qeyrətini çəkənlərdən ehtiyat edir.

Əgər özümüzünkülər özümüzə düşmən kəsiliblərsə, biz haqqımızı tapdayan başqalarına qarşı necə mübarizə apara bilərik? Bu gün Azərbaycan dilinin dövlət dili səviyyəsinə qaldırılması barədə hökumətin çıxartdığı qərara qarşı çıxanlar kimlərdir? Respublikamızda yaşayan başqa millətlərin nümayəndələri Azərbaycan dilini öyrənmək üçün kurslar açılmasını tələb edir, ana dilinə qarşı çıxanlar isə öz dilini bilmədiyinə görə vəzifə atına minmiş həmin nazirlərin, müdirlərin, sədrlərin övladlarıdır.

Bir misal çəkmək istəyirəm: bir dəfə mən televiziya ilə çıxış edib öz dilini bilməyən, bilmədiyinə görə bilmədiyinin düşməni olan bir neçə vəzifəli şəxsin adını çəkmiş və onları bu qüsurlarına görə tənqid etmişdim. Bundan bir qədər sonra həmin vəzifəli şəxslər mənim haqlı tənqidimdən nəticə çıxarmaq əvəzinə, Mərkəzi Komitəyə bir məktub yazıb millətçilik üstündə mənim cəzalandırılmağımı tələb

etdilər. Çox qəribədir ki, bu savadlı nadanlar hələ də elə güman edirlər ki, adamın öz dili uğrunda mübarizə aparması və konstitusiyada dövlət dili kimi təsbit olunan ana dilinin dövlət idarələrində işlənməsini tələb etməsi millətçilik imiş. Ən dəhşətlisi budur ki, ana dilinə düşmən kəsilən bu milli nihilistlər, özlərini çoxbilmiş hesab etsələr də müasir dünyanın ən vacib tələblərindən belə xəbərsizdirlər. Qarabağ hadisələrində bizim başımıza oyun açan, milli mənafelərini saxtakarlıqla sübuta yetirməyə çalışan qonşuların haqsız hücumlarından da nəticə çıxara bilmədilər.

Şair Qabil "Molodyoj Azerbaydjana" qəzetinin 1989-cu il 16 fevral tarixli nömrəsində "Naş dolq, mı v otvete" adlı məqaləsində ana dilinin zərurətindən və onun respublikamızda lazımi səviyyədə işlədilməməsindən şikayətlənir. Buna cavab olaraq V.Quluzadə və T.Əsgərova adlı "azərbaycanlılar" Qabilin ana dilinin zərurəti haqqında dediyi fikirlərə hücum çəkir və göstərirlər ki, dünyanın ən mədəni ölkəsi olan Amerikada müxtəlif millətlərin yaşamasına baxmayaraq, orda yalnız bir dil - ingilis dili işlədilir, başqa dillərə ehtiyac qalmır. Deməli, bizim respublikada da yalnız rus dili işlənməlidir...

Gördünüzmü, düşmən öz içimizdədir? Bu cür ruslaşmış azərbaycanlılar, təəssüf ki, çoxdur və bu gün bizim millətin bir nömrəli düşməni, əslini və nəslini itirmiş, adından və familiyasından başqa heç bir şeyi azərbaycanlı olmayan həmin bu manqurtlardır. Bunlar millətin xeyrinə ortaq, şərindən isə qaçaqdırlar. Vətən adından xarici ölkələrə gedən nümayəndələrin başında çox vaxt vətənin dilini, ədəbiyyatını, tarixini bilməyənlər gedir və orada guya bu xalqı, bu mədəniyyəti təmsil edirlər. Amma ürəklərində nə bu vətəni sevirlər, nə onun tarixini, nə mədəniyyətini, nə də dilini. Dilimizə kasıb, xalqımıza mədəniyyətsiz, mədəniyyətimizə də bəsitlik damğası vurmaqdan çəkinmirlər. Yazıq Vətən, yazıq xalq! Gör, kimlərin lağına hədəf olmusan!

Respublikamıza rəhbərlik edənlərin də bir qismi çox təəssüf ki, adətən ruslaşmış azərbaycanlılar olmuş, buna görə də dövlət idarələrindən ana dilini qovmuşlar... Belə rəhbər xalqın və vətənin

qeyrətini çəkərmi? Əsla!

Bunun da nəticəsində bizim bəzi rəhbərlər gərgin münaqişəli günlərdə ermənilərin şəhərə qayıtdığını xəbər verib, bizdən muştuluq istəyirdi. Siz bir fərqə baxın, indi kimin adını nə qoyaq?

Bizim rəhbərlər Bakıda yaşayan erməniləri qorumaq üçün ordu çağırır, heç düşünmür ki, bəs ermənilər 200 min azərbaycanlını öz yurdundan qovanda, onların rəhbərləri niyə ordu çağırıb bizim kiləri müdafiə etmədi?

***

1988-ci il fevral-mart aylarında Ermənistandan və Dağlıq Qarabağdan həmin il dekabr ayında isə yenə də Ermənistandan on minlərlə azərbaycanlı başıaçıq, ayaqyalın, pulsuz-parasız Azərbaycana qaçmalı oldu. Bütün bu rəzalətlərə və təhqirlərə Moskva etirazını bildirmədi, qaçqınların maddi təminatını Azərbaycanın öhdəsinə buraxdı. Bir qədərdən sonra isə Özbəkistandan qaçan 40 min Mesheti türkünü bağrımıza basmalı olduq. Moskva bunların da təminatına qarışmadı. Ən maraqlısı bu idi ki, bu qaçqınların heç biri mərkəzi mətbuatda öz adı ilə adlanmadı, "daimi yaşayış yerlərini müvəqqəti tərk edənlər" adlandırıldı. Bu bədbəxtlər doğrudanmı öz doğma yurdlarını müvəqqəti tərk etmişdilər? Xeyr! Bunun belə olmadığını onda da bilirdik. Zaman göstərdi ki, onlar Azərbaycanın vətəndaşı olaraq qalacaqlar.

Bakıda fövqəladə vəziyyət elan olunduğu ərəfədə *(20 yanvar 1990-cı il)* xüsusi göstərişlə şəhərdəki hərbi qulluqçuların ailələri nəyə görəsə köçürüldü və köçürülən rusları "qaçqın" adlandırdılar. Qəribə deyilmi? Zorla qovulanlar "daimi yaşayış yerlərini müvəqqəti tərk edənlər", hökumətin əli ilə hansı niyyətləsə köçürülənlər isə "qaçqın" adlandırılır və SSRİ Nazirlər Soveti dərhal onların təminatı haqqında qərar qəbul edir. Söhbət "1990-cı il yanvarın 1-dən sonra Azərbaycan SSR-i məcburi tərk etmiş vətəndaşlara yardım göstərilməsi sahəsində əlavə tədbirlər haqqında" SSRİ Nazirlər So-

vetinin qərarından gedir.

Nə üçün bu qərar məhz indi çıxarıldı? Məgər 1990-cı il yanvarın 1-dək ölkədə qaçqın yox idi? Nə üçün məhz 1990-cı il yanvarın 1-dən sonra? Həm də ən dəhşətlisi budur ki, 1990-cı il yanvarın 1-dən sonra köçürülənlərin xərci Azərbaycan SSR-in büdcəsindən çıxarılmalıdır. Bəs Ermənistandan və Özbəkistandan zorla qovulan qaçqınların problemləri ilə əlaqədar xərcləri respublikaya kim ödəmişdi? Bu ayrı-seçkilik nədən ötrüdür? Ən mühümü də yuxarının göstərişiylə hərbçilərin mütəşəkkil şəkildə köçürülən ailələrini mülki şəxslərə çevirib "qaçqın" adlandırmaq, bununla da xalqları bir-birinin üstünə salışdırmaq görəsən hansı məqsədi güdür?

İndi gəl, bütün bu haqsızlıqlara, ayrı-seçkiliyə, zorakılığa, ağ yalanlara döz görüm, necə dözürsən? Vallah, mərkəzi qəzetlərin böhtan dolu qərəzli yazılarını oxuya bilmirəm. Ürək partlayır, ürək dözmür, gücüm qələmə çatır. Mərkəzi mətbuata etirazımı bildirirəm. Orda isə bizim məktubları oxuyub kənara atırlar. Hamıya məlumdur ki, bu işlərdə çox güclü və gizli bir əl var...

Mərkəzi hökumət ermənilərdən tutulmuş ən müasir silahların hardan əldə edildiyini və kimə qarşı işlədiləcəyini nə soruşur, nə də bu işlərin kökünü, qaynağını öyrənmək istəyir. Hərbi təlim görmüş, hərbi geyimli erməni zabit və döyüşçülərini tuturuq, Moskva buna da göz yumur və bu iş üstündə onları ittihama çəkmir. Beləliklə də ermənilərin ciddi hərbi hazırlığına göz yumulur... Burda deyiblər, arxalı köpək qurd basar.

Nəhayət, Ermənistanın açıqaşkar bizdən torpaq iddiasını, işğalçılıq qəsdini bir dəfə də olsa ittiham etməməsi, Şaumyan və Xanlar rayonlarının kəndlərinə və Dağlıq Qarabağa soxulmuş "saqqallıları" cəzalandırmaması, onların özbaşınalığına siyasi qiymət verməməsi ermənilərin hücumda, bizimsə müdafiədə olduğumuzu göstərməməsi Moskvanın açıqaydın birtərəfli mövqe tutmasını göstərir.

Bütün bunlardan sonra bizim rəhbərlərin yenə də Moskvadan ümid umması, mərkəzin müdaxilə edəcəyini gözləməsi və məsələni ədalətlə həll edəcəyinə inanması nə qədər gülüncdür.

Vəzirov Azərbaycan KP MK-ya birinci katib təyin olunan gündən dəfələrlə onun yanında olmuş və hər dəfə ona demişdim ki, sənin öz şəxsi konsepsiyan, öz prinsipin olmalıdır. Sən isə yalnız və yalnız Qorbaçovun dediklərini etməyə çalışırsan. Qorbaçov burdakı vəziyyəti sənin qədər bilə bilməz. Sən konkret vəziyyətdən çıxış et. Yuxarının əmrini yerlə, şəraitlə uyğunlaşdır. Kimə deyirsən, ümumiyyətlə, bu adamda müqabil tərəfi dinləmək və onu təhlil etmək qabiliyyəti yox idi. Bu adam yalnız özündən yuxarını dinləmək "qabiliyyətinə" malik idi.

Vəzirovla axırıncı təklikdə görüşümüz yanvarın 11-də *(1990-cı il)* oldu. Çox əsəbi idim. Ona erməni mafiyasının əməllərindən danışdım. Bir söz deмədi. Amma gülümsəməsindən bildim ki, ürəyində mənim haqlı olduğumu bilir. Əlavə etdim ki, sən Qorbaçovla xalqın arasında qalmısan, indi zaman başqadır. Sən xalqın tələblərinə əməl etməliykən Qorbaçovun çaldığına oynadın. Buna görə də xalqın hörmətini qazana bilmədin. Mənim və bir neçə ağsaqqalın məsləhəti budur ki, üzüsulu vəzifədən gedəsən. Mənə dedi ki, iki dəfə bu barədə Qorbaçovla danışmışam, ərizəmi qəbul etməyib. Gülüb dedim ki, əlbəttə, qəbul etməz. Çünki ona səndən sərfəlisini tapmaq çətindir. Onda dedi ki, bir neçə ağsaqqalın imzasıyla Qorbaçova məktub yazın və xahiş edin ki, məni vəzifədən götürsün. Bu sözdən sonra daha ona nə deyəsən?

Yanından birbaşa evə gəldim. Heç 10 dəqiqə keçməmişdi, Vəzirov məni telefona çağırdı. Dedi ki, mənim yanıma gəlib deyirlər ki, guya sən mənə vəzifədən getməyi təklif etmisən. Mən telefonda donub qaldım. Yalnız onu deyə bildim ki, bu, yalnız mənim təklifim deyil, bir neçə ağsaqqalın təklifidir. "Nu xoroşo, ladno" - deyib dəstəyi asdı.

O, mənə zəng elədiyi zaman yanında kimsə varmış. Həmin adam mənim ona təklifimi kimdənsə eşitmiş və ona qulluq göstərmək məqsədilə adamlar arasında belə bir sözün yayıldığını demişdi. Vəzirov isə mənim tərəfimdən belə bir təklifin olmadığını "sübut üçün" mənə zəng çalmışdı. Amma qulluq göstərən yaltaq telefonda

mənim ona nə cavab verdiyimi hardan bilə bilərdi?

Ən maraqlısı budur ki, bu əhvalatdan düz bir həftə sonra, yəni yanvarın 18-də Şeyxülislam Paşazadə, N.Rzayev, İ.Şıxlı, H.Həsənov, R.Zeynalov və mən Vəzirovun otağında Girenko və Primakovla görüşdüyümüz zaman Vəzirov məni bir kənara çəkib ogünkü zənginin mənasını uşaqcasına izah etməyə başladı:

- Yanımda biri var idi. Mən ona sübut etmək istədim ki, sən məni istəyən adamsan və sən mənə vəzifədən getmək təklifini eləməmisən.

Əlbəttə, mən bunu onsuz da başa düşmüşdüm. Amma bu məlum həqiqəti onun mənə bir sirr kimi açması çox gülünc, həm də sadəlövhlük idi.

Bütün bunlardan sonra mən indi də başa düşə bilmirəm ki, uşaq təbiətli bu sadəlövh adam uzun illər xarici ölkələrdə necə diplomat işləyə bilmişdir? İndi belə bir adam bu boyda respublikaya rəhbər ola bilərdimi? Təpədəndırnağa qədər qüsur içində olan bu qəribə adamın qüsurlarını təəssüf ki, H.Əzizoğlundan başqa üzünə qənşər deyən olmadı. Biz yalnız gedənin arxasınca danışmağı bacarırıq.

Vəzirov haqqında deyilən bir söz onun kimliyini çox yaxşı xarakterizə edir: "Bu adamın yaşı artıb, ağlı artmayıb. Hələ də komsomol ağlındadır".

Vəzirov adi bir həqiqəti başa düşmürdü ki, Moskva ermənilərlə bizim aramızdakı münaqişənin bu mərtəbəyə çatmasını istəməsəydi, elə ilk günlərdən iddiaçıları yerində oturdardı. Lakin elə burda da həm Qorbaçov, həm də onun müti köləsi Vəzirov Azərbaycan xalqının bu qədər müqavimət göstərə biləcəyini, ölümdən belə qorxmayacağını, doğma torpağından keçməyəcəyini güman etmirdi. 80 ildə ermənilər bizim rəhbərlərin "səxavəti" sayəsində bizdən parça-parça torpaqlar qoparıblar, biz susmuşuq. Onlar elə güman edirdi ki, bu dəfə də onlar bizə "xox" gələn kimi Qarabağdan əl çəkəcəyik. Amma sonra yaxşıca anladılar ki, bu millət onların güman etdiyi kölə millət deyil, bu millət canından keçə bilər, amma torpağından yox! Əslinə qalsa, millətimin bu boyda dözümünə, fədakarlığına, torpaq yolunda

bu qədər əzmkar olacağına heç mən özüm də indi inandığım qədər inanmırdım. Amma qəlbimin dərinliyində bir inam qığılcımı var idi. Heç demə, xalqımın ruhunda "istiqlal marşı" yaşayırmış:

Basdığın yerləri "torpaq" deyərək keçmə, tanı!
Düşün altındakı minlərlə kəfənsiz yatanı.
Sən şəhid oğlusan, incitmə, yazıqdır atanı.
Vermə, dünyaları alsan da bu cənnət vətəni!
Kim bu cənnət vətənin uğrunda olmaz ki fəda?
Şühəda fışqıracaq torpağı sıxsan, şühəda!
Canı, cananı, bütün varımı alsın da xuda
Etməsin tək vətənimdən məni dünyada cüda.

40 il səpdiyim toxumların bu gün meşə olacağına bu qədər inamım yox idi. Mən elə güman edirdim ki, 70 ilin rəzaləti, fəlakəti, xüsusən 1937-ci ilin qorxusu millətimi elə əzib ki, əcdadımızdan qanımıza keçən qeyrət damarlarımızda donmuş, günəş işığı da onun buzunu çətin əridə.

İki hadisə danışacağam. 1988-ci ildə ilk komendant saatı qoyulan günün ertəsi küçəmizdə baş verən bir hadisə məni sarsıtdı. Tində dayanmış bir tankın üstündəki rus əsgərləri əllərində avtomat ətrafdakı camaatı atacağı ilə hədələyirdi. Buna görə 5-6 qadın rus dilində əsgərləri söyüb sinələrini irəli verdilər: - Atmasan kişi deyilsən, - alçaq, - dedilər.

O biri qadın:

- Rus ordusu tarix boyu işğalçı olub. Niyə bundan utanmırsınız? - deyə əsgərin üzünə tüpürdü.

Əsgər qadını nalayiq sözlərlə söyəndə ətrafdakı kişilər tankı daşa basdılar. Tankçılar sürüb getmək istəyəndə gənc bir qadın özünü tankın altına atıb dedi:

- İndi sür görüm, necə sürürsən.

Mən bu mənzərəni görəndə öz-özümə dedim:

- Belə qadınları olan millətə ölüm yoxdur.

İkinci hadisə, 1990-cı il yanvarın 16-sı idi. Axşam çağı həyətdən yüksələn "Allahü-Əkbər" səsinə eyvana çıxdım. Son iyirmi ildə abidələrimizi bərpa idarəsinə çevrilmiş, bizə qonşu olan məscidin minarəsinə 5-6 nəfər gəncin qalxdığını gördüm. Onların əlində milli respublikamızın üç rəngli bayrağı dalğalanırdı. Bu gənclər minarənin qülləsinə atamız Məmməd Əmin Rəsulzadənin qaldırdığı bayrağı sancıb ordan "AllahüƏkbər" - deyə qışqırmağa başladılar. Onlar 20-25 yaşlarında olardı. İlahi, bu üç rəngli bayrağımızın müqəddəsliyini onlar hardan bilirdi? Onlara bu təlimi kim vermişdi? "Allahü-Əkbər"i ürəyində vird edənlərin dilini kəsdikləri zaman dünyaya gəlmiş bu cavanlar bu müqəddəs kəlamın sirrini və gücünü hardan bilirdi? Heç demə, qulaqlarının eşitmədiyi, dillərinin demədiyi, gözlərinin görmədiyi üç rəngli bayraq, Məmməd Əminin ruhu və "Allahü-Əkbər" nidası onların qan yaddaşında yaşayır, onları gizli bir od ilə içəridən alışdırırmış. Bu ilahi sirrə necə məəttəl qalmayasan?

Ruhumun səndən ilahi, budur ancaq əməli
Dəyməsin məbədimin köksünə naməhrəm əli.
Bu zamanlar ki, şəhadətləri dinin təməli,
Əbədi yurdumun üstündə mənim işləməli!
Amin!

***

Çox qəribə bir zamanda yaşayırıq. 70 ildə öyrəşdiyimiz adətlər, vərdişlər, qaydalar gözlərimiz önündə dağılır, yeniləri ilə əvəz olunur: rəsmi kürsülərdən həyatın ümumi axarından partiyanın geri qaldığını deyir, günlərlə, həftələrlə tətil elan edib tələblər irəli sürürük. Xalq deputatlarının qurultaylarında Siyasi Büro üzvlərini rəyasət heyətində deyil, parterdə, deputatların içində görürük. Baş katibi öz təklifi ilə sağ ikən tənqid edir, onunla açıq mübahisəyə girişirlər. Siyasi Büro üzvlərinin iri şəkillərini şəhərlərin meydançalarında görmürük. Bir respublikanın partiya təşkilatının ümumit-

tifaq partiya təşkilatının tərkibindən çıxmaq istədiyini eşidirik. Ömrümüz boyu tənqid etdiyimiz müstəqil milli cümhuriyyətimizin üç rəngli müqəddəs bayrağı altında nitq söyləyirik. Bütün bunlar isə bizdə təəccüb və heyrət oyadır. Halbuki, bütün bunlar dünya üçün çox adi üstünlüklərdir. Amma neyləyəsən ki, uzun illər fikir və düşüncələrimizə qıfıl vuran totalitar sistem bizi ən adi hüquqlardan məhrum etmişdi.

Bütün bunlarla yanaşı, indiki keçid dövründə biz hələ söz janqlyorluğu ilə məşğuluq. Əməlimiz sözümüzdən geri qalır. Hələ sözümüzü və səsimizi dünya ictimaiyyətinə çatdıra bilmir, hələ öz yağımızda qovruluruq... Çünki bizim xalq deputatlarımızın siyasi səviyyəsi hələ qurultayın səviyyəsindən çox aşağıdır. Qurultayda səsimiz gur eşidilmir. Ən mühümü isə hələ bizim milli konsepsiyamız və milli proqramımız yoxdur... Bu gündən sabahına baxa bilməyən, indisindən gələcəyinə gedən yolu təyin etməyən, hara və nə üçün gedəcəyini bilməyən, bir sözlə qibləsini tanımayan millət həmişə döyülməyə məhkumdur. Biz birinci növbədə bu haqda düşünməliyik.

***

Xalq deputatlarının I qurultayı yeni bir tədbirə əl atdı: Dağlıq Qarabağ Muxtar Vilayətində real vəziyyəti öyrənmək üçün (guya real vəziyyət məlum deyilmiş) SSRİ Ali Sovetinin komissiyası yaradılsın. Adam təəccüb edir: bu komissiya hansı real vəziyyəti öyrənəcəkmiş? Axı, Qarabağın tarixi də, orda yaranan vəziyyət də, ermənilərin iddiası da, bu iddiaya qarşı azərbaycanlıların etirazı da SSRİ hökumətinə məlum idi. Bəs bizim deputatlar niyə bunu demədi? Niyə xalqın haqqını müdafiə edə bilmədi? Orda xalqın deputatları kimi vuruşmaq bir yana, heç müdafiəni də bacarmırlar. İkinci tərəfdən, həqiqətən bu komissiyaya real vəziyyəti öyrənmək lazım idisə, komissiya üzvləri Ermənistana getdikləri kimi, Azərbaycana da gələ bilməzdilərmi? Niyə bizim deputatlar bunu tələb etmədi?

Komissiyanı maraqlandıran sualları görəsən, torpağın sahibinə niyə vermədilər? Ən mühümü də budur ki, bizim torpağın taleyini komissiya niyə həll etməlidir? Yəni onlar bizim torpağın tarixini bizdən yaxşı bilirlər? Məgər bu komissiyaya məlum deyildir ki, ermənilər bura Marağadan Qriboyedovun əli ilə köçürülmüşlər? Niyə komissiya belə bir mühüm faktın üstündən sükutla keçir? Yoxsa, komissiya üzvlərini tarix maraqlandırmır? Xüsusi idarə üsulunun rəhbəri A.Volski və Dağlıq Qarabağın 1920-ci ildə Azərbaycana "ilhaq edilməsindən" narazılığını təsadüfi bildirmirdi *("İzvestiya", 8 noyabr 1989-cu il).* A.Volskinin sözündən belə çıxırdı ki, guya 1920-ci ilə qədər Dağlıq Qarabağ Ermənistana məxsus olmuş, 1920-ci ildə isə bu torpağı Azərbaycana ilhaq ediblər. Başa düşmək olmur ki, tarixin hansı dövründə Dağlıq Qarabağ Azərbaycandan ayrılıb ki, indi onu kimə isə qaytarmaq lazım gəlsin?

Bütün bu dediklərimizdən sonra torpağımızın taleyini həll etmək üçün komissiya yaradanlar niyə unudurlar ki, axı, biz sözdə də olsa suveren dövlətik. Bir tərəfdən bizim suverenliyimizi təsdiq edir, ikinci tərəfdən elə Dağlıq Qarabağ məsələsini həll etmək üçün komissiya yaradırlar. Kimdir bu komissiyanın üzvləri? Onlar nə haqla suveren dövlətin daxili işinə barmaq uzadıb, mənim torpağımın taleyini həll etməlidir?

***

Milyardlarla gəlirin müqabilində illik büdcəmizin 4 milyard manat təyin olunması nə deməkdir? Nəyə görə gəlirimizin yalnız cüzi hissəsi özümüzə qayıtmalıdır? Bizə güllə atan qonşularımızın gəlirçıxarındakı kəsiri bizmi doldurmalıyıq? Dəniz neftçilərinin canları bahasına dalğalar qoynundan çıxar dıqları neftin, ana və bacılarımızın al günün altında zəhər uda-uda qadınlıqlarını itirə-itirə misqal-misqal topladıqları pambığın hesabına qazandıqlarımızla qonşumuzun gəlirkəsirini nə qədər dolduracağıq? Millətimizin fiziki genosidi bir yana, mənəvi genosidinə necə və nə qədər dözək? Maraqlı bu-

rasıdır ki, 130-140 milyon olmalarına baxmayaraq ruslar inqilabın gətirdiyi rəzalətlər nəticəsində ərimədiklərinə, milli varlıqlarını itirmədiklərinə görə bu gün sevinir və bununla öyünürlər. Assimilyasiya olunmaq həqiqətən fəlakət idisə, niyə bir zaman xırda xalqların "böyük" rus xalqının içində əriməsini onlar üçün səadət sayırdılar? Bir zaman bütün rəsmi mərkəzi qəzetlər və jurnallar "Sliyanie narodov" rubrikası altında məqalələr çap edir, xırda xalqların əriməsini tərəqqi kimi qələmə verirdilər. "Sobesednik" həftəliyində *(1989, № 48)* oxuyuruq: "XX-əsrdə rus xalqı rus-yapon müharibəsindən tutmuş durğunluq illərinədək görünməmiş sınaqlara dözməli olmuşdur. Bu, təhlükəli faciələr zənciridir. Bununla belə mən tarixə nikbin baxıram; xalq yaşadı, müstəqilliyini, mənəviyyatını qorudu, assimilyasiyaya uğramadı, yer üzündən silinmədi".

Bunu yazan yazıçı Y.Mamleyev əgər doğrudan da yazıçıdırsa və özünü ədalətli adam hesab edirsə, bəs "Böyük qardaşın" xırda xalqların başına açdığı min cür oyundan, xalqları soyub talamasından, insafsızcasına assimilyasiyaya uğratmasından niyə danışmır? 130 milyonluq xalqın əriyə bilməsindən ehtiyat edən yazıçıdan soruşuram: Bəs onda 1, 2, 3 milyonluq xalqlar neyləsin? Bu xalqlar öz milli varlıqlarını, dillərini, tarixlərini qorumaq istədikləri zaman niyə onların başında qoz sındırırsınız? Siz onsuzda çoxsunuz, qorxmayın, qızlarınız gənclərimizə sahib ola-ola, həmişə bizim hesabımıza artmış və bunu qanuni hal hesab etmişsiniz.

## MİLLİ XUDBİNLİK

Bu gün ermənilər barbar bağırıb bütün dünyaya bildirirlər ki, "nam tesno". Eyni fikri vaxtilə Hitler də Almaniyada monomillət yaradandan sonra deyirdi. Nasional-sosialistlərin ən birinci proqramı ondan ibarət idi ki, guya almanlar dünyanın ən ağıllı millətidir, bütün başqa millətlər isə aşağıdır. Almanlar təmiz qana malik olan ari irqə mənsubdur, dünya isə millətlər arasında düzgün və ədalətli bölünməyib, almanların payına az torpaq düşüb, biz ari irqə mənsub

olduğumuza görə dünyanın ən gözəl və ən münbit torpaqlarına sahib olmalıyıq.

"Nam tesno" deyə eyni fikri indi erməni daşnakları irəli sürür. Onlar da iddia edirlər ki, erməni xalqı dünyanın ən qədim, ən ağıllı, ən mədəni və ən təmiz qanlı xalqıdır. Guya onların ağlı, zəkası və potensial qüvvələri o qədər böyükdür ki, 3 milyonluq xalq Ermənistan ərazisinə sığa bilmir. 1988-ci il dekabrın 7-də Ermənistanda baş verən zəlzələdə yaralanmış adamlara kənar respublikadan gətirilmiş qanı vurmaq istəyəndə çoxları buna etiraz etmiş, damarlarında aşağı ayarlı millətlərin qanını daşımaq istəmədiklərini bildirmişlər. Eqoizmin dərəcəsinə baxın! Onların fikrincə, guya erməni xalqının qanı ən yüksək ayarlı qandır. Onların damarlarına başqa xalqın qanı vurularsa erməni xalqının milli üstünlüyü aşağı düşə bilər. İndi buna nə deyəsən?

Dünyadakı bütün millətlərdən "üstün" və "ağıllı" olduqlarına baxmayaraq, tarix boyu həmişə başqa millətlərin, xüsusilə türklərin zülmünə məruz qalmalarına görə özlərini "əzabkeş millət" adlandıran erməni ziyalıları bu əzabkeşliyi dünyanın gözünə dürtür, bundan həzz alır və ağlaşma qururlar. Ədəbiyyatları da əsasən bu ağlaşma üstündədir. Bu yasqurma və yasdan ləzzət alma onlarda xəstəlik dərəcəsinə çatıb. Bu xəstəliyə elm dilində ictimai mazoxizm deyilir. Alim İsmixan Yusifov kəşf səviyyəsində olan "Latış dostuma məktub" məqaləsində ("Gənclik", dekabr, 1989) bu məsələyə toxunaraq yazır ki, mazoxizm prosesində bədən nə qədər fiziki işgəncə alarsa, baş bir o qədər həzz alar. Əgər bənzətmə aparsaq, görərik ki, xalq daha çox iztirab çəkdikcə, erməni ziyalıları bir o qədər çox ləzzət alırlar. Məgər tarixdə erməni xalqı kimi və ondan da çox iztirab çəkən xalqlar azmı olmuşdur? Lakin ermənilər ağlaşmanı incəsənət dərəcəsinə qaldırmış, onu ayinləşdirmişlər.

Yer üzündə yəhudilər qədər əzab çəkən, döyülən, söyülən, qırılan və təhqir edilən ikinci bir millət yoxdur. Amma bütün bu əzab-əziyyətlər üçün onlar heç vaxt yas qurmamış, tarixin amansız yollarında çəkdikləri iztirabları, dönə-dönə qırılmalarını dünyanın

gözünə soxmamışlar. Qabiliyyətləri isə bütün dünyaya çığır-bağırsız da məlumdur.

Onların fikrincə, vaxtilə dənizdəndənizə “Böyük Ermənistan” yaratmış bir xalq həmin imperiyanı bərpa etməlidir. Bu fikirdən faşizm qoxusu gəlmirmi? Əvvəla, “Böyük Ermənistan” ideyası mifdir, ermənilər heç zaman Qara dənizlə Xəzər dənizi arasındakı torpaqlara sahib olmamış, ikincisi də ermənilər heç də dünyanın ən ağıllı xalqı deyildir. Ümumiyyətlə, dünyadakı xalqların ağıllı, orta ağıllı və ağılsız deyə dərəcələrə bölmək son dərəcədə gülüncdür. Hər xalq bir cəhətdən üstün ola bilər. Ancaq bütün cəhətlərdə üstünlüyü bir xalqa vermək ağlasığan deyil. Bu cür milli eqoizm xəstəliyinə tutulmuş bütün xalqların taleyini fəlakət gözləyir. Vaxtilə faşist Almaniyası da bu xəstəliyin ucbatın dan fəlakətə düşmədimi?

Ukrayna şairi B. Oleynikin dediyi kimi “özünü yüksəltmək üçün başqasını alçaldanın özü alçaqdır”. “Dədə Qorqud”, “Koroğlu”, “Aşıq Qərib” kimi dastanları, görkəmli erməni şairi A.İsahakyanın “inci” adlandırdığı bayatıları, Götenin səcdə qıldığı Nizami, Füzuli kimi söz sənətkarlarını, Üzeyir Hacıbəyov, Qara Qarayev, Fikrət Əmirov, Niyazi kimi böyük musiqi xadimlərini yaradan xalqı necə vəhşi adlandırmaq olar? Bu hansı ədalətə sığar?

Çox şükür, bizim xalqımız bu cür ifrat milli eqoizm xəstəliyinə tutulmayıb. Bizim heç bir yazıçımız, heç bir alimimiz heç bir xalq haqqında heç zaman onu alçalda biləcək bir kəlmə də söz deməyib. Biz yalnız onu deyirik ki, xalqlar cərgəsində bizim də öz yerimiz var. Biz heç vaxt qonşunu alçaltmamış, onun toyuğuna kiş deməmişik. Bax, budur bizim xalqın böyüklüyü!

İngilis dramaturqu Alan Eynbern “Dostlar olmayanda” pyesində çox maraqlı bir məsələyə toxunur. Pyesdən çıxan nəticə budur ki, insanlar arasındakı gərginliyi götürmək, ziddiyyəti aradan qaldırmaq üçün (o ziddiyyət antoqonist olsa belə) gərək hər kəs özünə qərəzsiz, ədalət hissi ilə kənardan baxa bilə, başqasının da böyüklüyünü görə bilə. Yalnız bu zaman insanlar bir-birini başa düşər, biri digərinə hörmət edər.

Eləcə də xalqlar, millətlər. Nə qədər ki, xalqlar biri digərində yalnız mənfi cəhətlər axtaracaq, o birisinin üstün cəhətlərini görə bilməyəcək, biri digərini alçaltmağa çalışacaq, dünyada əminamanlıq və səadət axtarmaq qaranlıq otaqda iynə axtarmağa bənzər. Əslində birinin digərində yalnız mənfi cəhətlər axtarması onun cəhalətidir. Çünki yer üzündə mütləq pis və mütləq yaxşı yoxdur, hər şey nisbidir.

## SABAH ŞƏNBƏ İDİ...

Yanvarın 19-da gecə saat 12-də ən müasir silahlarla silahlanmış ordu Bakıya daxil olub yalın əllə torpağını müdafiə etmək istəyən oğullarımızı, qızlarımızı qanına bələdi. İki yüz ilə yaxın bir müddətdə torpağımızdan sorub apardıqları qızıl neftlə bərabər qızıl qanımızı da tökdülər. Nə idi çiçəyi burnunda ölən yeniyetmələrimizin, torpağımızın bütövlüyünü qorumaq istəyən cavanlarımızın, qız-gəlinlərimizin günahı? Vətən torpağını sevmək, onu qorumaq, istəmək haçandan günah hesab olunmuşdur? Şəhid olan bu gənclərin ata və babaları məgər 40-45 il bundan əvvəl rus torpağı yolunda öz canlarından keçməmişdimi? Atababaların o zaman sizə göstərdiyi o xidmətin, fədakarlığın cavabını beləmi qaytararlar, ey nankorlar? 200 ildir mən sənin qulun oldum, nökərin oldum, gün çıxandan gün batana qədər sənin üçün əlləşdim, sənə canım və qanım bahasına neft verdim, pambıq verdim, taxıl verdim, özüm becərdiyim məhsula özüm həsrət qaldım, sənə göndərdim. Sən mənim hesabıma dünyanın ən qüdrətli dövləti oldun, indi bu idi mənim yaxşılıqlarımın əvəzi? Biz bu sitəmi götürdük, Allah götürməsin!

Sən məni suveren respublika elan etdiyin heç bir il deyil, nə tez sözündən dönüb özün suveren elan etdiyin ölkənin üstünə basqın etdin? Bəs hanı mənim suverenliyim? Sən haçan öz dediyin sözün, altından imza atdığın müqavilənin dalında durmuşdun ki, indi də durasan? Zamanın təbii və qanuni hökmünə boyun əyib xalqlara cüzi azadlıq verməyə məcbur olmuşdun. Bu cüzi azadlıqdan istifadə edib

qaldırdığımız başı nə tez kəsdin?

Yox, başqa cür də ola bilməzdi. Çünki qəddarlıq, zalımlıq sənin təbiətindədir. Sən öz təbiətinə necə xilaf çıxa bilərdin?

O qanlı Şənbə gecəsi ağsaçlı Azərbaycan xalqı min illik qəhrəmanlıq tarixini dünyaya yenidən göstərdi. O, öz varlığını bir daha sübut etdi. O sübut etdi ki, bu xalq azadlığı yolunda ölümə də hazırdır. Ölümə hazır olmayan millət isə azadlığını qazana bilməz. Yalın əllə özünü tankın üstünə atan cavanlarımız sübut etdilər ki, bu millət üçün azadlıq zəruriyyət səviyyəsinə yüksəlmişdir. Azadlığını zəruriyyət bilən bir xalq isə artıq yetkin xalqdır. Bu cavanlar silahla deyil, ölümlərilə ölüm saçan tanklara meydan oxuyarkən artıq ölümün o tayına - yəni ölümdən yüksək olan şəhidlik mərtəbəsinə yüksəldilər. Bu mərtəbədə onlar Babəkin, Nəsiminin və Koroğlunun xeyir-duasını qazandılar. Onlar məlum həqiqəti bir daha təsdiq etdilər ki, vətən oğulları vətən uğrunda ölməyi bacarmasa Vətən dirilməz. Vətən uğrunda ölməyi bacaran oğullarımızın şücaəti sayəsində biz indi özümüzü dünyaya tanıda bildik. Biz bu şöhrəti kölə əməyimizlə əsrlər boyu Rusiyaya verdiyimiz neftin, pambığın və başqa məhsulların sayəsində qazana bilməmişdik. Verdiklərimizin müqabilində həmişə başıqapazlı, gözü-kölgəli idik. İndi bizi hamı tanıdı və hamı bildi ki, külün altında od közərirmiş. Bu odla zarafat etmək olmaz. Bununla belə igidlərimizi qanına bələyən hökm sahibindən soruşmaq istərdim, lay divar oğullarımızın ömrünü oğurlamaq, qız-gəlinlərimizi, ana və bacılarımızı gözü yaşlı qoymaq, ocaqlarımızı söndürmək səlahiyyətini sənə kim vermişdi? Bu qədər vicdansızlıq olar? Mən telestudiyanın həyətində dəyənəkli rütbə sahiblərindən birinə təsadüfən rastlaşıb bu sualı ona verdim. Cavab verə bilmədi. Üzünə tüpürüb keçdim. Sonra özözümə fikirləşdim: mən hansı vicdanı ondan soruşurdum? Olmayan bir şeyi adamdan necə ummaq olar? Böyük rus yazıçısı Soljenitsının dediyi kimi “2 il ərzində 2 milyondan artıq insanı ölüm düşərgələrində məhv edən” bir hakimdən hansı vicdanı tələb edirsən?

Zəlzələ ilə əlaqədar Qorbaçov Ermənistanda olanda onu ermənilər

günahlandırdılar ki, bizim ərazidə zəlzələ olacağını niyə əvvəlcədən öyrənib bizə xəbər verməmisən? Gülməli sual olsa da ermənilərdən çəkindiyindən Qorbaçov onlara mülayimcəsinə cavab verib dedi ki, zəlzələni əvvəlcədən müəyyən edən cihaz hələ dünyada icad olunmayıb. Amma Bakıya qoşun göndərib bizim qırılmağımızda birbaşa Qorbaçovun öz əli olmasına baxmayaraq, bizimkilərdən heç kəs cürət edib ona "xalqımızı niyə qırdın?" sualını verə bilmədi.

Ən böyük qırğın Bakının girəcəyində, XI Qızıl Orduya ucaldılmış "Qızıl Ordu" abidəsinin ətrafında olmuşdur. İndi xalq abidənin başına qara bayraq sancır, ətrafına isə hər gün təzə qərənfillər düzür. Bununla ürəyindəki nifrət alovunu soyudur. 1920-ci il aprelin 28-də Azərbaycana gələn ordu 1990-cı il yanvarın 20-də yenidən gəldi və adına ucaldılmış abidənin önündə yenidən xalqımızın qanını tökdü. Beləliklə də "adına layiq" iş görüb öz işğalçı adını bir daha "doğrultdu".

O qanlı Şənbə gecəsi qəlbimizə elə dağ çəkildi ki, bu dağın sızıltısı hələ bundan sonra yüz illər davam edəcək və çəkdiyimiz bütün əzab və zilləti bizə həmişə xatırladacaq. Təqvimlərimizdə 20 yanvar qara hərflərlə yazılacaq və gələcək nəsillər bu rəqəmi tarix kimi yadda saxlayıb, tarix boyu qatilimizə lənət oxuyacaq.

Nə ədavət, nə gerçək,
Vallah yoxdu o gecə.
Zülm zalım əlilə
Haqqı boğdu o gecə.
Tunc zirehli ilanlar
Tökdü qırmızı qanlar.
Həqiqəti yalanlar
Küncə sıxdı o gecə.

Kimə deyim dərdimi?
Qəsbkar namərdəmi?
Yetmiş ilin dərd-qəmi

Gözdən axdı o gecə.

Analar amanından
Sinələr oldu şanşan.
Şəhidlərin qanından
Şimşək çaxdı o gecə.

Qara geydi bu Vətən:
Yox hayına bir yetən.
Həyata hamiləykən
Ölüm doğdu o gecə.

Nə deyək bu vəhşətə,
Bu zülmə, bu dəhşətə?
Allah bu müsibətə
Necə baxdı o gecə.

Şəhidlər xiyabanı bizim xalqın and yeri, Şənbə gecəsi isə qatillərimizə nifrət gecəsi kimi yaddaşlara həkk olunacaq.

Mən uzun illərdən bəri xalqımız üçün müqəddəs bir and yeri düşünürdüm. İstəyirdim ki, elə bir müqəddəs yerimiz olsun ki, gənclərimiz ora gedib Vətənimizin səadəti yolunda son damla qanlarına qədər mübarizə aparacaqlarına, xalqımıza sədaqətlə qulluq edəcəklərinə and içsinlər. Elə bir yer arzu edirdim ki, ora məbəd kimi baş vuraq, ordan təmizlənib çıxaq. Belə bir yer hara ola bilərdi? Əvvəlcə ağlıma Fəxri xiyaban gəldi. Sonra təəssüflə fikirləşdim ki, orda Üzeyir bəylə, Mirzə Cəlillə yanaşı heç bir müqəddəsliyə layiq olmayan elələri də yatır ki, ora xalq üçün məbəd ola bilməz.

Bu gün məzarlarına baş endirdiyimiz, ruhları qarşısında səcdəyə gəldiyimiz şəhidlərimiz bizi bu çətinlikdən xilas edib, xalqa müqəddəs and yeri bağışladılar. Mən istərdim, Vətən dara düşəndə, yaxud böyük bir amalın arxasınca gedəndə oğul və qızlarımız Şəhidlər xiyabanına gəlib onların müqəddəs türbəsinə and içsin və

sonra Vətənin çağırışına yollansınlar. Belə anlarda və ümumiyyətlə, əziz günlərdə ağsaqqal və ağbirçəklərimiz də Şəhidlər xiyabanına gəlsinlər və desinlər:

- Ey torpağımız üçün torpağa dönən şəhidlərimiz, ruhunuz xalqımıza duaçı olsun!

Övladlarımızı qırdılar... Heç olmasa bundan sonra çıxıb gedələr... Yox! Bu həyasızlar hələ üstəlik bizə şər də atırlar. Xəstəxanalara soxulur, həkimləri qorxudurlar. Semaşko adına şəhər xəstəxanasının həkimi Firuzə xanım deyir: "Güllələrin qana boyadığı adamları elə hey xəstəxanaya daşıyırdılar. Camaatın hamısı, hətta uşaqlar axışıb gəlir, qan vermək üçün növbəyə durur dular. Yaralananlar arasında 13-16 yaşında uşaqlar, yeniyetmələr də vardı. Xəstəxananın həyəti, yolları gülləyə tutulur, qan vermək istəyənlər yanımıza buraxılmırdı. Əsgərlər işıqlarımızı da söndürdü. Həkimlər şam işığında operasiya etməyə məcbur oldu".

Bu qansızlıq, bu vicdansızlıq hansı ölkədə mümkündür? Fevralın 8-də (1990-cı il) "Azadlıq" radiosu Münxendən xəbər verdi ki, yaralıların müalicəsi üçün Fransadan Moskvaya 50 ton tibbi ləvazimat göndərilmiş, mərkəz isə onu Bakıya çatdırmaq istəmir... Niyə? Bəs Ermənistandakı zəlzələdən sonra xarici ölkələrdən dərmanla bərabər göndərilmiş silahları niyə böyük məmnuniyyətlə Yerevana çatdırırdılar? Bu ayrı-seçkilik nə deməkdir? Özün yaraladığın bədbəxtlərin müalicəsinə əl uzatmamağın bir yana, bəs xaricin uzatdığı əli niyə geri qaytarırsan?

***

Bu işlərin kökü çox dərindədir. Bu dərinliyə adi gözlə deyil, ağıl və məntiq gözü ilə baxmaq vacibdir. Əks təqdirdə, hadisələrin mahiyyətində duran məqsədi görmək mümkün deyil. Yanvarın 13-də Bakıda bir neçə erməni ailəsinə və erməni kilsəsinə hücum əvvəlcədən tərtib edilmiş ssenari əsasında hazırlanmışdı. Bu ssenarinin mahiyyətini başa düşməyən bəzi beyniqanlı cavanlarımız

səhvə yol verdilər. Mən bunu eşidəndə hönkür-hönkür ağladım. Birinci ona görə ki, günahsız adamlara əl qaldırmaq, qan tökmək heç bir qanuna sığışmayan, insanlıqdan kənar hərəkətdir. Mən bir azərbaycanlı kimi kiminsə fitvasına uyub bu cinayəti törədən öz həmvətənlərimə, doğmalarım olsa belə, tökdükləri qanı bağışlamaram. Kilsəni yandırmağa gəlincə, bu da bağışlanılmaz cinayətdir. Hansı dinə mənsub olur-olsun, dini məbəd müqəddəs sayılmalı və toxunulmamalıdır. Çünki kilsə də məscid kimi Allah evidir. Məscidə də, kilsəyə də, budda məbədinə də, sinaqoqa da əl qaldıran eyni dərəcədə cahildir, nadandır... Bununla belə "əgər azərbaycanlılar erməni mədəniyyətini bilsəydilər qədim erməni kilsəsini yandırmazdılar" *("Literaturnaya qazeta", 7 mart 1990-cı il)* deyən akademik D.S.Lixaçov Ermənistanda son 30-40 il ərzində dağıdılmış onlarla məsciddən xəbərsizdirmi? Bəlkə, akademik kilsəni mədəniyyət abidəsi hesab edir, məscidi yox?

İkinci tərəfdən, ona görə ağladım ki, bu qanlı cinayətin nəyinsə proloqu olduğunu hiss etmişdim. Mənim bu qənaətə gəlməyimə bir səbəb də var idi: bu əhvalatdan bir neçə gün əvvəl Azadlıq meydanındakı mitinqdə erməni təcavüzündən qorunmaq üçün Vəzirovun qeyri-qanuni yolla silah düzəltməyə icazə verdiyini demişdilər. Mən bu xəbəri eşidəndə, əvvəlcə, təəccübləndim. Sonra... Bunun nəyəsə hazırlıq olduğunu başa düşdüm. Çünki mən də, bir çoxları kimi, Vəzirovun hansı yuvanın quşu olduğunu çox yaxşı bilirdim. Onu da bilirdim ki, bizim silah düzəltməyə heç bir imkanımız yoxdur. Bu havaya atılmış sözdür. Bu sözün mahiyyətinə getməyən, onu dərk etməyən boşboğazlarımızda çoxdur. Mən bu həqiqəti başa düşmüşdüm ki, ordunun Bakıya basqını üçün rəsmi orqanlar tərəfindən ikinci və üçüncü zəmin yaradılır. Əlbəttə, bütün bunlar artıq real bir qüvvəyə çevrilən və xalqın məhəbbətini qazanan Azərbaycan Xalq Cəbhəsini, xalqın milli demokratik hərəkatını boğmaq üçün hazırlıq idi. Sumqayıtdakı hadisə eynən belə başlanmış, əvvəlcədən qızışdırılmışdı. AlmaAtada, Gürcüstanda və Özbəkistanda da eyni plan əsasında qanlar axıdılmışdı.

Qanlı Şənbə gecəsinin ertəsi, yəni yanvarın 20-də mən Qorbaçovun adına aşağıdakı məzmunda teleqram göndərdim: "Cənab Qorbaçov, Azərbaycan xalqı o qədər geri qalmış xalq deyil ki, indiki vaxtda İslam respublikası yaratmaq fikrinə düşsün. Bu, tökdüyün qana haqq qazandırmaq üçün sənin uydurduğun böhtandır. Sən özün bunu çox yaxşı bilirsən, sənin əllərin və vicdanın mənim xalqımın qanına bulaşıb. Sən Stalinin törətmədiyi cinayəti törətdin, tarix bunu sənə bağışlamayacaq. Xalqımın qanını töküb sonra ona başsağlığı göndərmək dəhşətli ikiüzlülükdür. Sənin rəhbər olduğun partiyadan çıxmağı özümə şərəf sayıram".

Həmin gün MK-nın ətrafına toplanan mitinqə gəlib partiyadan çıxdığımı elan etdim:

- Mən dünənki qanlı terrordan sonra partiyadan çıxıram və bütün həmvətənlərimi buna çağırıram.

Törədilmiş qanlı cinayət bir yana, bizi yandıran budur ki, son illərdə demokratiya bayrağı qaldıran və bu bayraqla dünyanı öz tərəfinə çəkmək istəyən, dünya ictimaiyyətini aldadan bu ölkə öz cinayətinə - Azərbaycanda tökdüyü qana haqq qazandırmaq. üçün bizim üstümüzə böhtan yağışı yağdırmaqla məşğuldur. Elə bil üstümüzə yağdırdığı güllə yağmuru azmış, güllədən min dəfə dəhşətli olan yalan və böhtan gülləəri ilə indi də qəlbimizi dağlayır. Amma bu yalanın içində özləri də başlarını itirmişlər. Xarici işlər naziri Şevardnadze ordunun Bakıda yaşayan erməniləri müdafiə məqsədilə göndərildiyini deyirsə, müdafiə naziri Yazov eyni cinayəti başqa səbəblə izah edərək "Azğınlaşmış xalq cəbhəsi hərəkatını" yatırmağa gəldiklərini bildirir. Qorbaçov isə "İslam respublikası" yaratmaq niyyətində olduğumuzu bildirərək, ordunun bu niyyətin qarşısını almaq üçün yeridildiyini göstərir. Amma, əslində ən doğru fikri elə Yazov demişdi: Ordu Azərbaycanda özünü göstərən demokratik hərəkatı boğmaq məqsədilə gəlmişdi. Amma niyyətini yerinə yetirə bilmədi. Xalqın qəlbində baş qaldıran milli azadlıq duyğusunu boğmaq mümkün deyil, əksinə, onların törətdiyi qırğın bu hissi daha da gücləndirdi. Xalqın qəlbində çoxdan bəri bu rejimə oyanan

nifrəti daha da alovlandırdı, çünki təsir əsk təsirə bərabərdir. Bu qanlı cinayəti xalq heç bir zaman bu rejimə bağışlamayacaq.

Ordu evlərin pəncərələrinə, xəstəxanalara, təcili yardım maşınlarına, dinc əhaliyə atəş açırdı. Dünya tarixindən məlumdur ki, ən dəhşətli müharibələrdə belə, xəstəxanalara, evlərə, təcili yardım maşınlarına ən azğın ordular da atəş açmamışdır. Nə qədər uşaq, qadın, qoca, həkim və tibb bacıları bu vəhşiliyin qurbanı oldu. Qanlı cinayətə haqq qazandırmaq üçün ordu ən çirkin işlərə əl atdı: yataqxanalardan azərbaycanlı tələbələri götürüb əllərinə patronsuz silahlar verir, damların üstünə qaldırıb şəkillərini çəkirlər ki, dünyaya sübut etsinlər, "Ordu dinc əhaliyə qarşı deyil, silahlı döyüşçülərə qarşı vuruşurmuş".

Başqa bir misal: hadisədən sonra bir neçə gün gecələr atışma səsi eşidirdik. Sonra məlum oldu ki, əsgərlər bir-birilə "atışırmış". "Salyan kazarmasının" əsgərlərinə mülki paltar geydirib onları kazarmanın qarşısındakı binaların üstünə çıxarmış, barıtsız, boş gilizlərlə səhərə qədər atışma təşkil etmişlər. Həmin binalarda yaşayanlar danışır ki, gecələr atışma səsindən yata bilmirdik. Səhər durub görürdük ki, nə ölən var, nə yaralanan. Amma binaların qarşısında boş gilizlər yerə səpilmişdir.

***

Yanvarın 20-də Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri Elmira Qafarovanın dünya ictimaiyyətinə verdiyi bəyanatda deyilirdi:

"SSRİ Ali Soveti Rəyasət Heyəti tərəfindən respublikamızın Bakı şəhərində fövqəladə vəziyyət elan edilməsi ilə əlaqədar olaraq Azərbaycan xalqı, respublikanın bütün vətəndaşları adından qəti etirazımı bildirirəm. Fövqəladə vəziyyəti yeritmək üçün ağır döyüş texnikası, avtomat silahlardan istifadə olunmuş, dinc əhaliyə qarşı amansız tədbirlər görülmüşdür... Bu isə çoxlu insan tələfatına gətirib çıxarmışdır. Həlak olanlar arasında gənclər, qadınlar, qocalar, uşaq-

lar vardır. Tam məsuliyyət hissilə bildirmək istərdim ki, Azərbaycan SSR Ali dövlət hakimiyyəti və idarə orqanları Bakı şəhərində fövqəladə vəziyyətin tətbiq edilməsi barədə qərar qəbul etməmişlər və SSRİ Ali Soveti Rəyasət Heyətində belə bir qərarın qəbul olunmasına razılıq verməmişlər. Tökülən qan üçün bütün məsuliyyət bu qərarı qəbul etmiş və bilavasitə onun icrasını təmin etmiş SSRİ orqanları və onların vəzifəli şəxslərinin üzərinə düşür. Azərbaycan xalqı özünün oğul və qızlarının bu cür faciəli surətdə həlak olmasını heç kəsə bağışlamayacaqdır".

Azərbaycan SSR xarici işlər naziri H.Sadıqov həmin bəyanatı müxtəlif vasitələrlə dünya ictimaiyyətinə çatdırdı. Xarici İşlər Nazirliyinin əməkdaşları Moskvada olan xarici ölkələrin kütləvi informasiya vasitələrinin müxbirləri ilə əlaqə saxlamış və bəyanatın əsas qayəsini onlara izah etmişlər.

Amma nə olsun? ABŞ prezidenti C.Buş işğal ordusunun Azərbaycana basqınını, respublikada baş qaldıran demokratik hərəkatın boğulmasını təqdir edərkən başqa dövlətlər nə edə bilərdi? C.Buşun bu mövqeyi nə ilə əlaqədardır? Bəlkə, onunla əlaqədardır ki, ABŞ-ın Panamanı işğal etməsindən hələ çox vaxt keçməmişdi... BMT-nin nümayəndəsi də Qorbaçovdan soruşmadı ki, Litva SSR-dən ayrılmaq istəyəndə sən litvalıların hüzuruna təşrif aparıb qarşılarında diz çökdün və yalvardın ki, bizdən ayrılmayın, amma Azərbaycanda milli suverenlik ovqatı hiss edən kimi ora qoşun çəkib xalqı qanına boyadın. Bu iki münasibəti necə izah edərsən? Bəs hanı ədalət, bəs hanı həqiqət? Bu nə ayrı-seçkilikdir ki, xristian xalqının hüzuruna gedib qarşısında diz çökürsən, müsəlman xalqını isə eyni arzuya görə qırıb-çatırsan? Bəs Ermənistanda da ermənilərin fitvası ilə Dağlıq Qarabağda yanan odu niyə görmürsən? Yoxsa, yenə eyni səbəb? Bəli, əsl od Ermənistanda və Qarabağda yanır. Amma söndürmək üçün Bakıya qoşun çəkilir!

Azərbaycan haqqında "Pravda" qəzeti, bir dəfə də olsa, həqiqəti yazmır, amma tibb elmləri doktoru V.Əfəndiyevin dililə böhtanlar yağdırır (4 fevral 1990-cı il). Həmin məqaləyə görə, guya

indi Azərbaycanda baş verən hadisələrin əsl səbəbkarı 9 il əvvəl Azərbaycandan getmiş Heydər Əliyev və onun adamlarıdır. Vallah, bişmiş toyuğun gülməyi gəlir. Əliyevdən sonar Azərbaycanda üç katib dəyişib, üçünü də Qorbaçov özü təyin edib. Bununla belə, guya bu gün Azərbaycanda baş verən bütün qüsurların səbəbkarları Qorbaçovun təyin etdiyi katiblər deyil, Brejnevin təyin etdiyi Əliyev imiş...

Bu məqamda qüsurların məhz Əliyevin boynuna yüklənməsinin səbəbi nə imiş? Bu il yanvar ayının 25-də Azərbaycan SSR-in Moskvadakı daimi nümayəndəliyində xarici jurnalistlərlə keçirilən müsahibəsində respublikanın keçmiş birinci katibi H.Əliyev çıxış etmiş, öz imkanı daxilində Azərbaycanda baş verən hadisələrin mahiyyətini açmağa çalışmış və orda Qorbaçovun milli məsələlərin həllindəki qüsurlarından danışmışdır ki, bu da kimin sə xoşuna gəlməmişdir. Mən V.Əfəndiyevin "Əliyevçilik, yaxud da xoş əyyamların xiffəti" adlı məqaləsini oxuyan kimi bunun yazılmadığını, əslində təşkil edildiyini hiss etdim.

Belə də oldu. Gözünə döndüyüm həqiqət dərhal üzə çıxdı. V.Əfəndiyev "Kommunist" və "Bakinski raboçi" qəzetlərinin 8-fevral tarixli nömrəsində, sonra isə "Pravda"nın öz səhifələrin də *(13 aprel)* "Pravda"nı təkzib edərək yazdı ki, "Çap olunan məqalədən mənim xəbərim yoxdur, onu mənim adımdan qəzet özü yazmışdır".

İndi bu boyda saxtakarlığa əl atan qəzetin doğrudan da "Pravda" (həqiqət) olduğuna inan görüm, necə inanırsan? Demək, haqqımızda nə qədər böhtan, şər və uydurma varsa, "Pravda" böyük məmnuniyyətlə çap edir. Mənim və mənim kimi çoxlarının hadisələrin düzgün izahını verən məqalələri isə redaksiyanın yeşiklərində mürgü döyür.

***

Sov.İKP MK-nın fevral (1990-cı il) plenumunda A.Mütəllibov erməniləri dostluğa, qardaşlığa çağırarkən Ermənistan KP MK-nın

keçmiş birinci katibi Arutyunyan yenə də köhnə zurnasını çalaraq, Dağlıq Qarabağın Mərkəzə tabe olunmasını tələb etdi. Əgər Qorbaçov məsələni birdəfəlik kəskin qoysaydı, beləlləri cəsarət edib bir daha Qarabağ sözünü dillərinə gətirməzdilər. Görünür, o, özü bunu istəmir. Bizə çoxdan məlumdur ki, başımıza açılan bu oyunlar təkcə balaca bir xalqın, erməni lobbisinin işi deyil. Bu işlərin başında erməni mafiyasına istiqamət verən, onu güclü silahlarla təchiz edən, hətta açıq-açığına müdafiəsinə keçib hər məsələdə Azərbaycan xalqını təkləyən Qorbaçov özü durur.

Yanvarın 21-də səhər bir qrup ziyalı akademiyaya toplaşdıq. Bu qərara gəldik ki, bu gün Ali Sovetin növbədənkənar sessiyasını çağırmalı, ordunun təcili olaraq Bakıdan çıxmasına dair qərar qəbul etməliyik. Bu məqsədlə mən dərhal radioteleviziya verilişləri komitəsinə gedib, radio ilə çıxış etməyə icazə aldım. Təxminən bir saatdan sonra mən efirdən respublika deputatlarına müraciət edib bu gün saat 6-da fövqəladə sessiya çağırıldığını elan etdim.

Dediyimiz vaxtda deputatların üçdə iki hissəsi toplandı və sessiya başlandı.

Vəzifəli deputatlar - rayon partiya komitələrinin birinci katiblərinin çoxu, MK katibləri (H.Həsənov istisna olmaqla), nazirlər sessiyaya gəlmədi.

Sessiyanı Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri E.M.Qafarova açdı. Deputatlar 1990-cı il yanvarın 1921-də Bakıda faciəli hadisələr zamanı həlak olanların xatirəsini bir dəqiqəlik sükutla yad etdilər. Sessiyanın aşağıdakı gündəliyi təsdiq edildi:

1. Sessiyanın işinin səlahiyyətli olması haqqında;

2. SSRİ Daxili İşlər Nazirliyi daxili qoşunlarının, SSRİ Müdafiə Nazirliyinin və Dövlət Təhlükəsizliyi Komitəsinin hərbi hissələrinin 1990-cı il yanvarın 19-da başlanmış hadisələrin gedişində Bakının dinc əhalisinə qarşı qanuna zidd əməlləri haqqında;

3. Bakı şəhərinə qoşunlar yeridilməsi ilə bağlı faciəli hadisələrin törədilməsi şəraitini və səbəblərini tədqiq etmək üçün deputat komissiyası yaradılması haqqında;

4. SSRİ xalqlarına, dünyanın bütün xalqlarına və parlamentlərinə müraciət haqqında;

5. Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında SSRİ Ali Soveti Rəyasət Heyəti fərmanının icrasının dayandırılması və qoşunlarının şəhərdən çıxarılması barədə.

Sessiya Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında SSRİ Ali Soveti Rəyasət Heyəti fərmanının icrasının dayandırılması barədə qərar qəbul etdi və qoşunların şəhərdən çıxarılması tələbini irəli sürdü və hərbi hissələrin qanuna zidd hərəkətləri haqqında qərar qəbul etdi. Faciəli hadisələrin səbəblərini öyrənmək üçün deputat komissiyası yaradıldı.

Deputatlar SSRİ xalqlarına və eləcə də dünyanın bütün xalqlarına və parlamentlərinə müraciət qəbul etdi. Sessiyada uzun mübahisələr getdi... Xalq Cəbhəsi İdarə Heyətinin üzvləri təkid edirdilər ki, qərarın sonuna bir bənd də əlavə olunsun: “48 saatın ərzində ordu şəhərdən çıxmasa, respublikamız SSRİ-nin tərkibindən ayrılır”.

Mən və o zaman MK-nın katibi işləyən H.Həsənov bu bəndin qərara salınmamasını təklif etdik. Deputatlar bizimlə razılaşdılar. Çünki... bu bənd yeni faciəyə səbəb ola bilərdi...

Sessiya səhər saat 8-ə qədər davam etdi. Qərarın hazırlanması üçün gecə saat 3-də fasilə elan edildi. Fasilədə birdən Oljas Süleymenov yadıma düşdü və ordan Oljasa zəng vurdum, yuxudan oyatdım. Vəziyyəti danışdım və xahiş etdim ki, mümkün eləsə Bakıya gəlsin. Mütləq gələcəyini bildirdi və doğrudan da iki gündən sonra özünü bizə yetirdi. Xəstə olmasına baxmayaraq, SSRİ xalq deputatı kimi bizə çox böyük kömək elədi. Allah razı olsun.

Bütün şəhər qaraya və qırmızıya bürünüb.

Qara bayraqları uca binaların damına, ağacların budaqlarına, elektrik dirəklərinə, evlərin balkonlarına, heykəllərin postamentinə kim sancır və nə vaxt sancır? Xalq bu qara bayraqlarla qanımızı tökənlərə daxili nifrətini, qəzəbini və etirazını bildirir. Bundan başqa əlimizdən nə gələr? El matəmi elin iradəsilə yarandı. Göstərişsiz, tapşırıqsız... Xalqın kədəri gözəgörünməz tellərlə xalqı elə birləşdirdi

ki, burda səbəb, məqsəd, mənafe axtarmağın özü günahdır.

Oljasla şəhəri gəzirik.

Adamlar vurulan yerlərə daş qoymuş, üstünü qara kələğayı ilə örtüb, dövrəsinə qərənfil düzmüşlər. Yol kənarında deşim-deşim olmuş minik maşınlarının da damlarını eləcə qara kələğayı və qərənfillərlə bəzəmişlər. Bu dəhşətli mənzərəyə baxmaq və ağlamamaq üçün daşürəkli olmalısan. Mən bir şeyi heç cür ağlıma sığışdıra bilmirəm, bu faciəni törədən əsgərlər və zabitlər məgər insan deyildimi? Onlar matəm libası geymiş, qara və qırmızı naxışlar bu küçələrdən necə laqeyd keçə bilir və insan olduqlarını necə unuda bilirlər? Onlar hər gün Şəhidlər xiyabanına axışan insan selinə, ana və bacıların fəryadına, beli bükülmüş ataların, saqqal buraxmış cavanların gözlərindəki nifrət şimşəyinə necə sakit baxa bilirlər? Görünür, onları bura yalnız müasir silahlarla deyil, həm də tarixlərindən qanlarında yaşayan “bosurmana” nifrət silahıyla göndəriblər. Bu vəziyyəti başqa cür izah etmək heç cür mümkün deyil.

Başqa vaxt bir qərənfilin qiyməti üstündə çənə döyən ətraf kəndlərin gülçüləri hər gün Şəhidlər xiyabanına təzə qərənfillər gətirir, ziyarətə gələnlərə paylayır, özləri də qəbirlərin üstünə gül dəstələri qoyurlar.

Bizim “alverçi”, “müftəxor”, daha nə bilim nə damğaları ilə arxalarınca deyindiyimiz həmin bu əliqabarlı, öz əməyi ilə yaşayan gülçülər matəmimizə 40 gün təmənnasız qərənfil yağışı yağdırdı. Şəhid qanından rəng alan qərənfillərdən məzarlara gedən yolların üstündə al qırmızı cığırlar yaratdı. Cinayətə qarşı alovlanan qəzəblərini onlar da bununla soyutdu.

Özünü kənara çəkib xalqımızın başına gətirilən müsibətləri uzaqdan seyr edən, bu işə can yandıranların fədakarlığına isə dodaq büzüb qulp qoyan bir para ziyalılarımızı alverçi və müftəxor adlandırdığımız həmin bu gülçülərlə müqayisə edəndə rəhmətlik Sabirin aşağıdakı misraları yada düşür:

Bir bölük boşboğazıq heyvərəlik adətimiz,

Doludur lənət ilə, qeybət ilə söhbətimiz.
... Hər sözə çulqaşarıq, hər bir işi qurdalarıq,
Harda bir nur görürsək ona qarşı olarıq.
Bəzinə diş qıcadıb, bəzinə quyruq bularıq.

Dəstədəstə xiyabana gələn adamların sifəti nifrət və qəzəb ifadəsi ilə möhürlənib. Üzlərində qəm möhürü, dərd buludu, çiyinlərində vətən dərdi gəzdirən adamlar sıralanmış məzarları, məzarların baş ucunda dikəlmiş şəhid şəkillərini ağrı ilə süzə-süzə addım-addım yeriyir və ürəklərindən yalnız eyni fikir, eyni sual keçir: "Bu nə oyundur bizim başımıza gətirdilər, nə idi günahımız? Niyə biz haqlı ikən haqsız olduq? Kimdir bizi haqsız eləyən? Və nə üçün? Nə üçün? Nə üçün?.."

Axı, Qarabağ münaqişəsi başlanandan bu yerə biz həmişə müdafiədə olmuş, yalnız torpağımızı qorumağa çalışmış, qonşunun hücumunu dəf etmək istəmişik. Bunu Moskva da çox yaxşı bilirdi.

Bəs vəziyyət belə olduğu halda nə üçün "Bakını Beyruta, Azərbaycanı Livana" çevirmək üçün dişinə qədər silahlanmış erməni millətçilərini yerində oturtmaq əvəzinə, özünü qorumaq istəyənin üstünə qoşun çəkdilər? Adam fikirləşdikcə dəli olmaq dərəcəsinə gəlir. Nəticədə, qırılan da biz olduq, təqsirkar da...

## SON MƏNZİLƏ

Yanvarın 22-də Azərbaycan xalqı azadlığı və milli müstəqilliyi uğrunda həlak olmuş nakam övladlarını son mənzilə yola salırdı. Səhər saat 8-də bir qrup deputat Ali Sovetin binasından çıxıb Azadlıq meydanına gəldik. Bir saatdan sonra meydan insan axını ilə doldu.

Saat 10-da ilk cənazələr göründü. 42 cənazənin önündə mollalar, birinin önündə yəhudi senaqoqunun ravvinləri, o birisinin önündə isə rus kilsəsinin keşişləri - hər biri öz dini dualarını oxuya-oxuya meydana daxil oldular. Yeddi şəhidin cənazəsi isə təcili yardım maşınlarında gətirilir. Məlum olduğu kimi əsgərlər yaralılara xidmət

göstərən tibb heyətinə də atəş açmışlar. İki milyonluq şəhərdə bir təbəssümlü üz görmək mümkün deyil. Əsrlər boyu bayram günlərində cavanlarımızın fəxrlə qalxdıqları Qız qalasının zirvəsində indi qara bayraq dalğalanır, binaların balkonlarından, elektrik dirəklərindən və hətta maşınların antennalarından asılan qara bayraqlar sanki bir-birinə "başın sağ olsun" - deyir. Bu, el matəmidir. Burda hamı bir nəfərə deyil, hamı bir-birinə başsağlığı verir. Gəmilərdən fit səsləri nalə çəkir, fəryad qoparır. Bakı öz tarixi boyu belə matəm mərasimi görməyib. Azadlıq meydanında on minlərlə qadın ağı deyir saçını yolur. Matəm mitinqi başlanır. Çıxış edənlər qatillərin cəzalandırılmasını tələb edir.

Saat 12-də matəm alayı Dağüstü parka tərəf addımlayır. İlk cənazənin önündə Şeyxülislam Hacı Allahşükür Paşazadə, respublikanın elm və mədəniyyət xadimləri gedirlər...

...Saat 4-də 51 şəhid torpağa tapşırılır... Fevralın 1-də isə 75-ci şəhid dəfn edildi. Hələ xəstəxanalardakı yüzlərlə yaralının ömrü harda bitəcək - kim bilir?! 1918-ci ilin mart ayında Şaumyanın əli ilə qırılan on mindən artıq azərbaycanlı vaxtilə "Çənbərəkənd" deyilən həmin bu yerdə dəfn edilmişdi. Şəhərin yuxarı hissəsində göz dağı kimi qaralan erməni xəyanətinin bəhrəsi olan bu qəbiristanlığı yeni nəslə unutdurmaq üçün sonralar qəbiristanlığın yerində park saldılar. Bu gün dəfn olunan şəhidlərimiz 1918-ci ildə dəfn edilən şəhidlərin qucağına sığınır. Köhnə şəhidlərimizin müqəddəs ruhu bu gün torpaqdan baş qaldırıb yeni şəhid dəstəsini salamlayır: "Allah sizə rəhmət eləsin!".

Bəzən Babək, Cavanşir, Cavad xan, Qaçaq Nəbi kimi tarixi qəhrəmanlarımız haqqında oxuduğumuz kitablarda onların qorxmazlığından, şücaət və cəsarətlərindən əfsanəyə bənzər elə epizodlara rast gəlirik ki, adam bu boyda fədakarlığa inana bilmir. Bəzən mənə elə gəlir ki, yəqin xalq öz qəhrəmanını görmək istədiyi mərtəbədə əfsanələşdirmiş və onlar haqqında məlumat bizə şişirdilmiş və böyüdülmüş halda çatmışdır. Şənbə gecəsinin şəhidlərinin cəsarət və qəhrəmanlığını öz gözlərimlə görəndən sonra mən qəhrəmanlıq na-

ğıllarımıza bir daha səmimiyyətlə inandım.

Dünənə qədər hər gün rast gəldiyimiz, milyonlardan biri kimi tanıdığımız bu adi cavanlar bir gecənin içində nə boyda böyük qəlbə malik olduqlarını öz ölümləri ilə təsdiq edib qeyri-adiləşdilər. Şənbə gecəsi onların adilikdən qeyriadiliyə addım gecələri oldu. Heç demə, ömrümüz boyu adlarını fəxrlə çəkdiyimiz tarixi qəhrəmanlarımız da elə Şənbə gecəsinin oğulları kimi adi adamlarmış. Zaman keçəcək, xalq bu igidlər barədə dastanlar yaradacaq, şair və yazıçılarımız kitablar bağlayacaqdır.

Deyilənə görə qanlı Şənbə gecəsi respublikamızın doğum evlərində dünyaya gələn 10 uşaqdan səkkizi oğlan olmuşdur. Təbiətin bu möcüzəsinə məəttəl qalmamaq mümkün deyil. O gecə təbiət öz gizli möcüzəsilə ölənlərimizin yerini doldurmuşdur. Çünki haqq bizim tərəfdədir. Haqq hardadırsa, Allah da ordadır!

Namərd gülləsinə qurban gedirkən
Gözünü sabaha dikdi şəhidlər.
Üçrəngli bayrağı öz qanlarıyla
Vətən göylərinə çəkdi şəhidlər.

O şənbə gecəsi, o qətl günü
Mümkünə döndərdik çox namümkünü.
Xalqın qəlbindəki qorxu mülkünü
O gecə dağıdıb sökdü şəhidlər.

Tarixi yaşadıb diləyimizdə
Bir yumruğa döndük o gecə biz də.
Yıxıb köləliyi, ürəyimizdə
Cəsarət mülkünü tikdi şəhidlər.

Zalım öyünməsin zülmləriylə,
Min bir böhtanıyla, min bir şərilə.
Həqiqət uğrunda ölümlərilə

Ölümü kamına çəkdi şəhidlər.

Onlar susdurulan haqqı dindirər,
Qaraca torpağı qiymətləndirər.
Donan vicdanları qeyrətləndirər
Axı, el qeyrəti çəkdi şəhidlər.

İnsan, insan olur öz hünərilə,
Millət, millət olur xeyirşərilə.
Torpağın bağrına cəsədlərilə
Azadlıq toxumu əkdi şəhidlər.

Xalqımız 40 gün dədəbaba qaydası ilə matəm saxladı. 40 gün bütün respublika işləmədi. Xalq başına açılan müsibətə etiraz əlaməti olaraq tətil elan etdi.

İşləmədiyinə görə Bakı və Sumqayıt fəhləsi maaş almadı. Gəncə və Şəki kimi şəhərlərin də fəhlələri tətilə qoşulub işləmədi. Ən ucqar kəndlərdən və rayonlardan camaat boğazından kəsib tətilçilərə ərzaq və pul göndərdi. Yalnız Gürcüstanın Borçalı mahalında yaşayan azərbaycanlılar Bakıya 41 maşın ərzaq gətirdilər. Bunlar isə Bakı və Sumqayıt fəhlələrinin ehtiyacını ödəyə bilməzdi. Bununla belə xalq hər cür əziyyətə və məhrumiyyətlərə dözdü. 40 gün, yəni şəhidlərin qırxına qədər tətili davam etdirdi. Belə bir əzmkar xalqın səcdəsinə necə gəlməyəsən?

Mən bir daha inandım ki, bu xalqı qırmaq olar, əzmək olar, amma sındırmaq olmaz. Bütün kəndlər, şəhərlər matəm keçirdi. Xalqın matəmi onun təhqirə qarşı qəzəbi, etirazı və nifrətinin ifadəsi idi. Üsyanımız matəm şəklində özünü göstərdi. Bütün el-obada, ən kiçik kəndlərdən tutmuş şəhərlərə qədər hər yerdə cümə axşamları keçirildi. Sabahına gümanı olmayan yoxsullar belə boğazdan kəsib şəhidlərə ehsan verməyi özünə borc bildi. Küçələrdə çadırlar quruldu, ehsan qazanları asıldı.

Ey mənim dözümlü xalqım, görə bilmədiyimiz, qiymətləndirə

bilmədiyimiz ürəyinə, bu ürəkdə yatan namusuna, qeyrətinə qurban olum! Sən nə qədər böyüksənmiş! Bəzən səndən, sənin "səviyyəsizliyindən" gileylənir, "niyə bizim kimi düşünə bilmir", "siyasi mədəniyyəti çatmır" - deyirik. Bəli, bu həqiqətdir ki, xalq kütləsi ziyalı səviyyəsində düşünə bilmir. Amma etiraf edək ki, ziyalı da xalq qədər dözümlü, xalq qədər ardıcıl, əzmkar və mətanətli deyil. Ziyalı tez təsirə düşə bilir, bəzən aldanır. Xalqı isə bütövlükdə aldatmaq mümkün deyil, xalq minillik ənənəsinə bağlı olduğundan təhtəlşüur fəhmi ilə yaxşını pisdən, xeyri şərdən ayırır və hər əsən küləyə başını əymir.

Xalqın matəmdəki bu birliyi, vahidliyi bütün ziyalıları düşündürməli, biz xalqın bu vəhdətini təhlil etməli, milli psixologiyamızı dərindən öyrənməli və dönə-dönə xalqın qarşısında səcdəyə gəlməliyik.

Oktyabr, 1989 - mart 1990.
"Şənbə gecəsinə gedən yol", Bakı 1991.





# TARİXSİZ BİZ HEÇİK

Canlı olan abidələrimizin qorunması məsələsi dövlət səviyyəsinə qaldırılmalıdır. Vaxtilə Hindistanın Baş Naziri İndira Qandi çox maraqlı bir kitab yazmışdı. O müdrik qadının həmin kitabından parçalar Rusiyanın mərkəzi mətbuatında çap olunur, geniş təbliğ edilirdi. Kitabın bir yerində deyilir ki, biz o qədər də varlı dövlət deyilik. Ancaq büdcəmizdəki vəsaitin hansı daha vacib sahələrə xərclənməsi müzakirə olunanda bəzi deputatlar belə bir fikir irəli sürdülər: Hindistanın müasir texnikaya, texnologiyaya ehtiyacı var. Məhz ona görə də Qərbdən güclü texnika almalıyıq. O zaman mən təklif etdim ki, müasir texnika öz yerində, buna sözüm yoxdur. Amma müasir texnika ilə yanaşı, qədim və qiymətli abidələrimizin bərpasını da unutmamalı, həmin sahəyə diqqəti artırmalıyıq. Çünki tarixsiz biz heçik. Ənənəsi, keçmişi olmayan millətin gələcəyi yoxdur. Gələcəyimizi təmin etməkdən ötrü keçmişimizi bərpa etməliyik.

Bu mənada "Abidə" qəzetinin çap olunmasını alqışlayıram. İstərdim ki, bu qəzet tariximizin canlı şahidi olan maddi abidələrimizin göz bəbəyi kimi qorunub saxlanması sahəsinə öz töhfələrini versin.

"Abidə" birinci nömrəsindəki "Oxuculara" adlı proqram

məqaləsində tamamilə haqlı olaraq yazır: Əlbəttə, bərpaçılıq dar mənada başa düşülməməlidir. Yəni bu, yalnız respublikamızın ərazisindəki maddi nemətlər aləmini əhatə etmir, eyni zamanda, ədəbi-yazılı abidələrimizlə, musiqi tariximizlə, adət-ənənələrimizlə bağlı qaynaqlarımıza da aiddir".

Yeri gəlmişkən, "Abidə" vasitəsilə bir arzumu bildirmək istəyirəm: Məlumdur ki, Knyaz Sisyanov Bakıya hücum edəndə onu bizim qədim Qoşa Qala qapısının yaxınlığında bir işğalçı kimi qətlə yetirmişlər. Bax, həmin yerdə o anı, o səhnəni müasirlərimizin, bizdən sonrakı nəsillərin gözü önündə canlandıran bir abidə ucaldılsa, qəhrəmanlıq tariximizin bir səhifəsi də yaddaşımıza əbədi həkk olar.

"Abidə" qəzeti, 15 aprel 1992.
"Yanan da mən, yaman da mən", Bakı 1995.





## TARİXİMİZİ SAXTALAŞDIRAN "ALİM"

Hörmətli Kamil Vəli!

Sənin "Yeni müsavat" qəzetinin 21 iyul sayında İqrar Əliyevə verdiyin cavabı oxudum. Dünya və Azərbaycan tarixçilərinin çox böyük bir hissəsi səninlə həmfikirdir. Mən sənin "İqrar Əliyevin erməni dəyirmanına su tökməsi" kəlamına yalnız bir şeyi əlavə etmək istəyirəm: O, erməni dəyirmanından əvvəl rus-sovet imperiya dəyirmanına su tökmüşdür.

Bu həmin imperiya idi ki, "türk" sözündən oddan qorxan kimi qorxduğu üçün Türküstanın adını dəyişib Orta Asiya qoydu. Bu həmin imperiya idi ki, Türküstanda və Azərbaycanda bir çox tarixi şəhərlərin adlarını dəyişib ruslaşdırdı: Bişkeki Frunze, Düşənbəni Stalinabad, Gəncəni Kirovabad, Biləsuvarı Puşkin, Beyləqanı Jdanov, Noraşeni İliç kimi türklüyə uyğun gəlməyən, tariximizi inkar edən adlarda əvəzləndirdi, yalnız türk xalqlarının əlifbasını özünün kirilinə dəyişdirdi. Bu da qəribədir ki, Sovet imperiyasının tərkibində olan xalqların içərisində bu siyasət yalnız müsəlmantürk xalqlarına tətbiq olunurdu.

Azəri türkləri Anadolu türklərinə həm mənşəcə (Oğuz), həm dilcə, həm də coğrafi cəhətcə daha yaxın olduğundan biz rus so-

vet imperiyası üçün başqa türk xalqlarından daha qorxulu idik. Bu da imperiyanı düşündürməyə bilməzdi. Məsələ belədir ki, 40-50 illərdə Azəri türklərində Anadolu türklərinə böyük sevgi və böyük meyl var idi. O dövrün gəncləri olan bizlər, 1918-ci il mart-sentyabr hadisələrində Anadolu türklərinin özlərinin bir neçə Qərb dövlətinin təcavüzünə məruz qalmalarına baxmayaraq, Azərbaycana qoşun göndərib bizi erməni təcavüzündən xilas etdiklərini atalarımızdan eşitmişdik. Və buna görə də o zamanın həm yaşlılarında və həm də onların övladları olan bizlərdə Türkiyə türklərinə böyük məhəbbət formalaşmışdı. Bu məhəbbəti millətin ürəyindən çıxartmaq üçün sovet imperiyasına bizim türk olduğumuzu inkar edən elmi tarixi konsepsiya lazım idi. Və bunu sənin bu gün polemikaya girdiyin İqrar Əliyevə rəsmən tapşırdılar. O da bunu can-başla yerinə yetirdi və elmlər doktoru, sonralar da imperiya siyasətinə xidmətinə görə institut direktoru oldu. Amma yalanı elmi həqiqət kimi qələmə vermək, əlbəttə, çox böyük zəhmət tələb edirdi. İqrar bu zəhmətə qatlaşdı. Çox çətinliklə olsa da, bu yalanı "elmi" həqiqət kimi millətə sırıdı. İnsafən, bu işdə kişinin böyük zəhməti olub.

Məlum həqiqətdir ki, sovet imperiyasının belini iqtisadiyyat elminin siyasiləşdirilməsi qırdı. Yəni, bu elmi, sadəcə olaraq, "İqtisadiyyat" deyil, "Siyasi iqtisadi" adlandırılıb, iqtisadiyyatı siyasiləşdirdilər. Beləliklə də, sovet məkanında böyük imkanlara malik olan iqtisadiyyatı siyasətə qurban verdilər. Bu yaramaz konsepsiyanı bütün elmlərə, o cümlədən də tarix elminə tətbiq etdiklərinə görə İqrar Əliyev elmə yox, siyasətə qulluq göstərdi.

Hörmətli Kamil Vəli! İndi sən nə demək istəyirsən? İndi bu kişi uzun illik əziyyətini necə yerə vursun? Axı, əgər o, bu konsepsiyadan əl çəksə, onun 50 illik "elmi" fəaliyyəti yerə vurulmazmı? Həqiqətən, əgər o, bu konsepsiyadan əl çəksə, onun bütün elmi fəaliyyəti sıfıra enmiş olar. İnsafınız olsun, bu kişi 50 il eyni çastuşkanı püləyib. İndi birdən-birə bayatıya necə keçsin? Ona görə də mən səndən və sənin kimi düşünən bütün alimlərdən xahiş edirəm, ondan əl çəkin. Çünki o, yaşının ixtiyar çağında özünü inkar edə

bilməz. İqrar Əliyev 50 il dediyi və yazdığı uydurmalara elə can-dildən inanıb ki, bu gün ondan əl çəkəsi deyil. Sən o kişiyə əziyyət verib, niyə onu polemikaya çağırırsan?

Özünü türk oğlu türk bilən Nəsimi, Füzuli, M.F.Axundzadə, Zərdabi, Mirzə Cəlil, Sabir, Əhmədbəy Ağaoğlu, Əlibəy Hüseynzadə, Cavid kimi dahilərdən ağıllı olduğunu zənn edən bu adamla mübahisəyə girməyə dəyərmi? İqrarın konsepsiyasından belə çıxır ki, öz milli varlığını bilən və öz türklüyü ilə oyünən bu nəhəng korifeylərdən də əl çəkməliyik. Deməli, biz türk deyiliksə, bu cahanşümul türk oğullarını milli ədəbiyyatımıza və fakir tariximizə daxil etməyə də haqqımız yoxdur.

Bir də, günah onda deyil, bizdədir. Əgər biz, biz ola bilsəydik millətimizin tarixini ömrü boyu saxtalaşdıran, bizi onun-bunun quyruğuna calayan bir adamın tarix elmimizin başına gətirilməsinə qarşı səsimizi ucaldardıq. Qonşumuz Gürcüstanda, yaxud Baltik yanı ölkələrdə belələrini tarix elminin başına deyil, heç ayağına da yaxın buraxmazdılar. İndi ki, belədir, sizdən bir daha xahiş edirəm: qoy ölmüş, imperiyanın sağ qalmış "tarixçisi" öz yalanları ilə nə qədər istəyir məzələnsin və təktük həmfikirlərini də məzələndirsin. Tarixi saxtalaşdıran "tarixçiləri" tarix özü damğalayır.

"Yeni Müsavat" qəzeti, avqust 1999.
"Ədəbi düşüncələr", Bakı 2000.





# PROBLEMLƏR





# "MƏN",
# YOXSA, "BİZ"?

C.Məmmədquluzadə demişkən, hərdən papağımı qabağıma qoyub fikirləşirəm: "Aya, mən kiməm və mənim qiymətim nədədir?" Özüm özümə cavab verirəm: "Mən böyük tarixi olan qədirbilən, gözəl bir xalqın oğluyam". Yəni, dəryanın bir damcısıyam. Belə olduğu surətdə damcının qiyməti nədədir? Əlbəttə, dəryanın içində olmasında. Damcı dəryadan ayrıldımı, ya buxar olub havaya uçacaq, ya da torpağa hopacaq. İndi ki, belədir, gərək mən heç bir zaman özümü "biz"dən ayırmayam. Ona görə ki, hər bir insanın gücü onun xalqa bağlılığındadır. Anteyin gücü torpaqda olan kimi. Xalqın min illərdən bəri yaratdığı müdrik sözlər də bunu deyir: "Tək əldən səs çıxmaz", "El gücü, sel gücü", "El bir olsa, zərbi kərən sındırar".

İndi, görək, özünün yaratdığı bu müdrik sözlərə el necə əməl eləyib və eləyir? Bizim qəribə adətlərimiz var: adamı ölənə el yığılıb əl tutar, evi olmayana ev tikər, evlənənə kömək edər, imkanı olanlar isə ellik bulağı çəkər, yaxud körpü salar. Ev sahibi son tikəsini qonağa verər. Kimliyindən asılı olmayaraq, qonaq şərafətli sayılar və s... Gözəl adətlərdir! Bu gözəl adətlərdən imtina etmək olarmı? Ellik iş görmək xalqın vəhdətinə, birliyinə və həm də kamilliyinə dəlalət

edir. Adət və ənənələrimiz də bizi bu elliyə və birliyə çağırır. (Bu gün nail olduğumuz quruluşun prinsipləri də bunu tələb edir.)

Amma hayıf ki, bu gün həmin adətlərin bəzisi unudulur. Bəzi hallarda fərdiyyətçilik ümumiçilik hissini üstələyir. Aramızda elələrinə rast gəlirsən ki, odu öz qabağına çəkməyə çalışır.

Bəzən deyirlər: "Filankəs yaxşı adamdır". Bəzən də deyirlər: "Filankəs başıaşağı, zərərsiz adamdır". Gəlin, bunların fərqini aydınlaşdıraq. Unutmayaq ki, başıaşağı, zərərsiz hələ "yaxşı adam" demək deyil. Başıaşağı adam "dəymə mənə, dəyməyim sənə" prinsipini əsas tutan, özü üçün yaşayan, xeyrə-şərə yaramayandır. Belələrindən ehtiyat etmirik, amma iyrənirik.

Bəs, yaxşı adam kimdir? Yaxşı adam hamını özünə deyil, özünü hamıya borclu biləndir. Beləəri başqaları üçün yanan çıraq misallıdır. Yaxşı adamlar borc hissini dərk edənlər, nə üçün yaşadıqlarını bilənlər, başqasının səadətindən həzz almağı bacaranlardır. Belə adamlar üçün "mən" yoxdur, "biz" var. Daha doğrusu, o öz "mən"ini "biz"in içində əritməyi bacarır.

Faktlara keçək. Son günlərdə Saatlı, Şamaxı, Ağdam rayonlarının bir neçə kəndində olmuşam. Hər dəfə eldə, obada olduğum zaman orada əvvəllər görmədiyim yeniliklərdə qarşılaşıram.

Əlbəttə, bunların hamısı ürəyimizi dağa döndərir və bizi təzə nəğmələr qoşmağa ruhlandırır. Lakin insanın təbiəti çox qəribədir. Nədənsə, "bəsdir" sözünü demək istəmirik. Çünki uçuşdan uçuş doğur. Bir həqiqətdir ki, həyat axır, dəyişir, gözəlləşir. Hər vaxtın öz hökmü olur. Dünənin qələbəsi bu gün üçün qələbə sayıla bilməz. Bu günün öz qələbəsi, öz tələbi olmalıdır.

Ağdam rayonunda dövlət dram teatrı təzədən işə başlamışdır. Yeni sənaye ocaqları, təzətəzə yaşayış binaları tikilir. Camaat tarlada gecəni gündüzə qatıb dövlət planını doldurur. Şəhərdə də, kənddə də həyat qaynayır.

Şəhərin Sabir, Məşədi Abbas küçələrindən keçirik. Cərgə ilə düzülmüş bir və ya ikimərtəbəli daş binalar, uca hasarlı, güllü-çiçəkli

həyətlər, naxışlı dəmir darvazalar adamda gözəl hisslər oyadır. Bəs küçələr? Çox təəscüf ki, həyətlərdə, evlərdə və hasarlarda gördüyümüz səliqə-sahman və təmizlik küçələrdə yoxdur. Ağdamın özündə asfalt zavodunun olmasına baxmayaraq, şəhəri kəndlərlə birləşdirən yollara və şəhərin küçələrinə hələ də tamamilə asfalt döşənməmişdir. Bir çox küçəyə ayağını basanda toz-duman aləmi götürür. Bunlar bir yana qalsın, küçələri həyətlərdən ayıran hasarların çöl tərəfi zir-zibil yığınıdır. Elə bil, hamı təkcə hasardan içərinin təmizliyinə cavabdehdir, hasardan kənarın isə heç kəsə dəxli yoxdur. Sual olunur, eyni küçədə yaşayan bütün ailələr həmin eyni yolla gəlib-getmirlərmi? Məgər bu toz-torpaqlı, zir-zibili küçələr hamının deyilmi? Nə üçün hasardan içərilər gül-çiçək içində, hasardan çöllər isə zir-zibil içində olmalıdır?

Ağdamın 15 kilometrliyində olan Novruzlu kəndinə gedirik. Beş dəqiqənin içində maşınımız tozdan ağappaq ağardı. Novruzlu kəndi! Bu kənd öz "Novruzlu" şərabı ilə ölkədə məşhurdur. Camaatın dediyinə görə vaxtilə bu kənddə səksənə qədər üzüm növü olmuşdur. İndi bu növlərdən yalnız 15-20-si becərilir. Kənd sonralar yenidən tikilmişdir. Ağdam şəhərində gördüyümüz təzə binalardan kənddə də var. Burada da hasarlı evlər, güllü-çiçəkli həyətlər, həyətlərdə meyvəsinin ağırlığından budaqları sınan alma, armud, nar ağacları. Amma küçələr, Ağdamda olduğu kimi, toz-torpaq, zir-zibil içində.

Məktəbə getdik. Məktəbin nə darvazası var, nə hasarı. Otaqları dar, dəhlizləri ensiz, səliqəsiz. Dedilər ki, məktəbdə sinif otaqları çatışmır. Buna görə də üç-dörd ildir ki, məktəb üçün təzə bina tikilir. Lakin bu bina hələ bünövrədən yuxarı qalxmamışdır.

Xəstəxanaya getdik. O da məktəb kimi. Xəstəxananın yerləşdiyi balaca binanın bir tərəfində klub, bir tərəfində kənd soveti yerləşir. Bina özü köhnə, içərisi səliqəsiz.

Əlbəttə, elə kəndlərimiz də vardır ki, orada biz bunların əksini gördük. Uzağa getmək lazım deyil, götürək bu Novruzlunun böyründəki Xındırıstan kəndini. Bu kənddə evlər, həyətlərlə yanaşı,

ictimai binalar da gözəldir, səliqəlidir. Yaxud, Tovuz rayonunun Qovlar qəsəbəsini götürək. Burada şəhər tipli internat-məktəb, xəstəxana, mədəniyyət sarayı o qədər gözəl və səliqəlidir ki, adam valeh olmaya bilmir. Bu cür kəndlərimiz çoxdur. Lakin, yeri gəlmişkən, mən burada bir məsələyə də toxunmaq istəyirəm.

Kəndlərimizdə tikilən nümunəvi mədəniyyət evləri xalqın mədəni səviyyəsini əks etdirir. Kənd camaatı müəyyən tədbirlər münasibətilə işdən sonra ora toplaşır. Buradakı söhbətlər də ümumi səciyyə daşıyır. Burada bir ailənin deyil, bir kəndin taleyindən və həyatından söhbət gedir. Mədəniyyət evində əgər bir mühazirə dinlənirsə, yaxud bir şairin gecəsi keçirilirsə, oradakı danışıqlar şəxsi söhbət dairəsindən kənara çıxır, ictimai məzmun alır. Burada artıq bir ailənin, bir kəndin söhbəti qurtarır. Respublikamızın, bir az da o yana getsək, dünyanın taleyi haqqında düşüncələr başlanır. Beləliklə, bir kəndin mədəniyyət evinə böyük Vətənimiz və dünya qonaq gəlmiş olur.

Mədəniyyət evləri bizim ictimai ocaqlarımızdır. Burada kəndin, xalqın və Vətənin vəhdəti özünü göstərir.

Novruzlu kəndində isə hələ mədəniyyət sarayı yoxdur. Kəndin ağsaqqalları ilə söhbət etdik. Söhbəti çox uzaqlardan başladıq. İnsandan, insanlıqdan, adət-ənənədən. 85 yaşlı Hüseyn kişi dedi:

- İnsan ona deyərəm ki, tək özünü fikirləşməsin. Tək özünü fikirləşənin bayquşdan nə təvavütü?

Söz çox xoşuma gəldi. Dedim:

- Düz deyirsən, əmi, amma, gəl, indi sizin kəndə baxaq. Maşallah, gözəl evləriniz, gözəl bağça-bağınız. Bəs məktəbiniz? Xəstəxananız, kitabxananız niyə elə deyil?

Kişi bayaqdan şaqqıldatdığı təsbehini kənara qoyub dik üzümə baxdı:

- Necə bəyəm, bacıoğlu?

Dedim:

- Əmi, düz buyurursan ki, adam gərək tək özünü düşünməyə, el-

liyi düşünə. İndi, gəl görək, bu dediyin sizin kəndinizdə var, ya yox? Həyət-baca özünüzünküdür, gözəldir, səliqəlidir. Məktəb, xəstəxana elliyindir, amma səliqəsizdir, bu günə münasib deyil. Buna necə baxırsınız?

Kişinin qaşları çatıldı, gecdən-gec dilləndi:

- Elə mənim də dediyim odur ha... Ay camaat, eşitdinizmi? - deyə üzünü əyləşənlərə tutdu.

Bu yerdə 14 il əvvəl yazdığım poemanın bir bəndi yadıma düşdü:

Deyirəm insanmı, insanmı, görən,
Vətən namusuyla yaşamayanlar?
Heyhat, hələ çoxdur evini vətən,
Qohum-qardaşını millət sayanlar.

Mətləbimi camaata xırdalamaq istədim:

- Hər bir evdə bir ailə yaşayır. Məktəbdə isə 500-600 ailənin uşağı. Hər bir kəndə işıq həmin kənddə olan məktəbin pəncərələrindən düşür. Həmin kənddə çalışan müəllim, aqronom, həkim, zootexnik məgər vaxtilə bu birmərtəbəli, uçuq hasarlı məktəbdə oxumayıbmı? Yaxud, hazırda Bakıda müxtəlif müəssisələrdə çalışan görkəmli mütəxəssislərimizin, alimlərimizin və yazıçılarımızın bir çoxu həmin bu kənd məktəblərindən uçmamışmı? Götürək, elə mənimlə bu kəndə qonaq gələn dünyanın tanıdığı alim dostum Xudu Məmmədovu. Xudu vaxtilə bir neçə il həmin bu Novruzlu məktəbində oxumuşdur. Demək, hal-hazırda bu məktəbdə oxuyan balalar içərisində gələcəyin xuduları da ola bilər. İndi bu kənd Xudu Məmmədovla fəxr edir. Bəs elə isə Xudu kimilərini yetişdirən və yetişdirəcək bu məktəbə ögey gözlə baxmaq rəvadırmı? Bəs elə isə nə üçün evimizi, həyət-bacamızı özümüzünkü bilək, məktəbi özgəninki? Ev, həyət-baca mənim kidir, küçə, yol, xəstəxana, kitabxana bizimkidir. Niyə mənim ki mənə əziz, doğma, bizimki bizə yad, ögey olmalıdır?

“Mən”dən “biz”ə keçmək vaxtı çoxdan gəlib çatmışdır. “Mən” olan yerdə heç bir inkişaf ola bilməz. Gəlin, “mən”liyin yağında yanmayaq. Xalqın özünü bir xalq kimi dərk etməsində, ictimai tərəqqisində yeganə yol “mən”lə “biz” arasındakı körpüdədir. Bu körpü çoxdan qurulub, üstündən keçmək lazımdır.

1971.
“Sənətkar və zaman”, Bakı 1976.



# QƏBUL İMTAHANLARI BARƏDƏ

21 ildir universitetdə işləyirəm. Bu müddətdə bir dəfə də olsun, qəbul imtahanı götürməmişdim. Bu il götürməli oldum. 19-gün davam edən qəbul imtahanları zamanı müşahidə elədiklərimi, keçirdiyim həyəcanları, məni narahat edən fikirləri geniş oxucu kütləsi ilə bölüşmək istəyirəm.

Mən, əlbəttə, yalnız dil və ədəbiyyat imtahanları barədə fikrimi deyəcəyəm. Xüsusən, filologiya fakültəsinə daxil olanlar haqqında. İmtahan müddətində bu nəticəyə gəldim ki, humanitar fakültələrə, xüsusən filologiya fakültəsinə ərizə verənlərin əksəriyyəti bilik və ümumi səviyyə etibarilə zəif abituriyentlərdir. Texniki fakültələrə, xüsusən fizika-riyaziyyat fakültəsinə ərizə verənlərin əksəriyyəti qüvvətli gənclər olurlar. Onlar nəinki ixtisas seçmək istədikləri riyaziyyatı, fizikanı, habelə ədəbiyyatı və tarixi də yaxşı bilirlər. Buradan belə bir nəticə çıxır ki, ümumən, orta məktəbdə zəif oxuyanlar humanitar fakültələri özlərinə bir sığınacaq hesab edirlər. Onlar elə güman edirlər ki, filologiya fakültəsində oxumaq çox asandır, orda daldalana bilərlər. Əlbəttə, əslində, belə deyildir.

Bütün elmlər gözəldir. Bir şərtlə, ona dərin məhəbbət olsun.

Əsl gözəllik, mahiyyətdə olan gözəllik, sevgi vasitəsilə dərk olunur. Adam sevmədən gözəlliyi görə bilər, amma dərk edə bilməz. Gözəlliyin idrakı sevgi yolundan keçir. Orta məktəblərdə zəif oxuyanlar isə bu müqəddəs yoldan keçmədən, onu tez qavranan, asan dərk olunan bir fənn sanıb, bu fakültəyə can atırlar. Ədəbiyyat fakültəsinə həqiqi məhəbbətlə, sevib gələnlə, daldalanmaq üçün gələni ayırmaqdan ötrü imtahan götürən müəllim çox usta olmalıdır. Nədədir bu ustalıq? Yazı işlərindən başlayaq. Abituriyentə üç mövzu verilir. Bunlardan birini seçib yazmalıdır. Məsələn:

1. Cəlil Məmmədquluzadənin "Ölülər" pyesində İskəndər surəti.
2. Səməd Vurğunun "Vaqif" pyesində Vaqif surəti.
3. Mənim Azərbaycanım.

Bu mövzuların ikisi konkret, birisi isə mücərrəd, yəni sərbəstdir. Birinci və ikinci mövzuları yazanlar, adətən, eyni ilə kitabdan köçürürlər. Hətta kitabdakı səhvi də dərk etmədən onun əsiri olurlar. Məsələn, orta məktəbin ədəbiyyat kitabında İskəndər surəti haqqında, necə olubsa, belə bir cümlə işlədilmişdir: "İskəndərdə həyat eşqi yoxdur". Əlbəttə, burada fakir dəqiq deyil. Bu cümlənin müəllifi demək istəyir ki, İskəndər mübariz deyil, passivdir. Bu fikrin özü də mübahisəlidir. Ancaq mətləb ondadır ki, abituriyent bu fikrin mənasını dərk etmədən onu olduğu kimi köçürür. (çox hallarda durğu işarələrinə qədər.)

Konkret mövzuları yazanlar orfoqrafiya səhvi buraxmırlarsa, durğu işarələrini yerli-yerində qoya bilirlərsə, onlara "əla" qiymət verirlər. Mən bunu tamamilə səhv hesab edirəm. Ona görə ki, belə abituriyentlər oxuduqlarının əsiridirlər. Onlarda yaradıcılıq qabiliyyəti yoxdur. Onlar oxuduqlarını dərk edə bilmirlər. Nəhayət, sadəcə icraçıya çevrilirlər. Beləsi ali məktəbi qurtarandan sonra ən uzağı pedant müəllim olacaqdır. Əgər ali məktəbi qurtarandan sonra elm aləminə gəlsə, burada fəryad qoparmaq lazımdır. Beləsi elmə heç bir şey əlavə edə bilməyəcək, yaradıcı alimlərin əl-ayağına dola-

şacaq. Yazdıqları isə məlumların təkrarından başqa bir şey olmayacaq. Beləsinə ədəbiyyat aləmində alim yox, təzkirəçi deyirlər. İndiki zamanda bizə quru faktları sadalayan təzkirəçilər yox, fakta yaradıcı münasibət bəsləyən, öz sözünü deyən alimlər lazımdır.

Mən istərdim ki, üçüncü, sərbəst mövzuda yazan, xırda-para səhvi də olsa, dörd səhifəlik vərəqə öz qəlbini qoyan, öz hisslərinin tərcümanına çevrilən abituriyentlərə üstünlük verilsin. Qoy, onun cümlələri ütülü olmasın, hamar olmasın, məlum fikirləri belə öz sözü ilə desin. Öz sözünü demək istedadın ilk əlamətləridir. Biz ali məktəbə belələrini seçməliyik.

Mən Ermənistandan gələn Telli adlı bir gəncin sərbəst yazı işindən danışmaq istəyirəm. Onun "Mənim Azərbaycanım" mövzusunda yazdığı iş belə başlanır: "Mən doğma Bakımı birinci dəfə görürəm. Mən bura təhsilə gəlmişəm. Doğma vətənimdən qanad almağa gəlmişəm... Bizim evimiz dəmir yolunun kənarındadır. Vaqonlar bizim evin yanından ötüb keçir. Vaqonların üstünə yazılır: "Yerevan - Bakı". Vaqonlar ötüb keçərdi, arxasınca baxardım. Relsləri, qollarını mənə doğru uzadan anamın qollarına bənzədərdim. Vaqonların dalınca anama doğru uçar, uçardım".

Bu yazı işinə bizim hörmətli dilçilərimiz aşağı qiymət vermək istədilər. Ona görə ki, yazının müəllifi hələ "ç" ilə "k"nı seçə bilmirdi. Ona görə ki, "qanad" əvəzinə "qanat yazmış, ona görə ki, "qatar" əvəzinə "vaqon" yazmış və bir neçə yerdə vergül xətası buraxmışdır.

Tutulan səhvlər doğrudur. Bəs məzmun? Bəs buradakı təmiz hisslər, obrazlı təfəkkür, ümumiləşdirmə, yaradıcılıq nə olsun? Mən deyərdim ki "ç" ilə "k", "t" ilə "d" hərflərini qarışıq salan bu gənc çox yaxşı ədəbiyyatçı ola bilər. Qarşımızda əyləşib bizə imtahan verən gənclərə bu baxımdan yanaşmaq lazımdır. Müəllim pedant oldusa, ali məktəb üçün seçdiyi gənclər də pedant olacaq. Mən imtahan qaydalarındakı bu pedantizmin əleyhinəyəm.

Ədəbiyyatdan şifahi imtahan üçün tərtib olunan biletlər, məncə,

abituriyentin bilik və idrak səviyyəsini öyrənməyə tam əsas vermir. Biletlərdəki suallar orta məktəbin proqramı dairəsin dədir. Məsələn, Seyid Əzim Şirvaninin din və mövhumat əleyhinə şeirləri". Bu suala cavab vermək üçün abituriyent orta məktəb proqramında olan bir-iki satirik şeirin adını çəkir və onları kitab cümlələri ilə izah edir: "Seyid Əzim bu şeirləri ilə zəmanəsini qamçılamış, mollaları, ruhaniləri ifşa etmiş, satira atəşinə tutmuşdur.

Bu cavabdan sonra abituriyentdən satiranın nə olduğunu soruşduqda cavab verə bilmir. Göründüyü kimi, standart sualların cavabı da standart olur. Hiss edirsən ki, ali məktəbə daxil olmaq istəyən bu gənc mütəxəssisi olmaq istədiyi elmin mahiyyətini dərk etmir. Hiss edirsən ki, abituriyent bu fakültəyə məhəbbətdən gəlmir. Nə olur-olsun, ali məktəb diplomu almaq xatirinə gəlir.

Bizcə, suallar orta məktəbin proqramı dairəsində verilmək şərtilə, abituriyentin ümumi səviyyəsini, dünyagörüşünü, dərketmə qabiliyyətini, nəhayət, istedadını öyrənmək məqsədi də güdməlidir. Abituriyentin "Hacı Qara"nın neçənci ildə, kim tərəfindən yazıldığını bilməsi hələ onun bilik səviyyəsini və qabiliyyətini öyrənməyə əsas vermir.

Qəbul imtahanları ali məktəbin astanasıdır. Verdiyimiz qiymət isə abituriyentin bu astanadan içəriyə, yaxud çölə atılan ilk addımıdır. Burada son dərəcə ehtiyatlı olmaq lazımdır. Respublikamızda orta məktəbi ildə on minlərlə gənc bitirir. Bunların 90 faizindən çoxu ali məktəbə can atır. Bu faktın özü çox gözəldir. Xalqımızın müasir dövrdə elmə, tərəqqiyə doğru uçuşudur. Lakin indi, görək, bu gənclərin hamısı ali məktəbə layiqdirmi? Üçüncü, dördüncü dəfə qəbul imtahanları verənlər var. Hər dəfə gəlir, ya kəsilir, ya da müsabiqədən keçmir. Belələrinə aşağı qiymət yazanda fəryad qoparır. Bu yerdə müəllimin əlindən qələm düşür. Hiss edirsən ki, qarşındakı bu gəncin taleyi sənin qiymətindən asılıdır. Yuxarı qiymət verə bilmirsən, çünki layiq deyil, aşağı qiymət də verəndə o müsabiqədən keçə bilməyəcək. Belələrinə ya birdəfəlik kifayətdir deməli, ya da

onlar haqqında ayrı bir tədbir düşünmək lazımdır.

Ali məktəblərimiz həm keçən illərdən qalan, həm də orta məktəbi bu il bitirən gəncləri əhatə edə bilməz. Bütün gənclərin ali təhsil eşqi ilə yaşadığı bir zamanda onları seçən, yaxşını pisdən, ortanı əladan ayırmaq vəzifəsini boynuna götürən müəllimin məsuliyyəti nə qədər böyükdür. İmtahan qəbul edən müəllim, birinci növbədə cəmiyyət qarşısında boynuna götürdüyü vəzifənin çətinliyini dərk etməlidir.

Ölkəmizdə avqustun 1-i ilə 20-si arası ən məsul dövrdür. Bu 20 gündə ali məktəblər cəmiyyətin diqqət mərkəzində olur. Minlərlə ata-ana imtahanların gedişini izləyir. Kənd və rayonlarımızda onlar hər gün telefonla əlaqə saxlayırlar. Övladın aldığı yaxşı qiymət valideynin gözündə bir ümid çırağı yandırır, aşağı qiymət ümidə, arzuya endirilən bir zərbə kimi səslənir. Əllər telefonda, gözlər intizarda, ürəklər həyəcanda...

Belə bir vəziyyətdə əlinə qələm alıb qiymət yazan müəllim unutmamalıdır ki, bu anlarda onun qələmi talelər həll edir. Qiymətin bir dərəcə aşağı və yuxarılığı yüzlərlə, minlərlə gəncin gələcəyində sükançıdır. Bu mənada biz köhnə qiymət ölçüsünə yenidən baxmalıyıq. 30 il əvvəlki qiymət ölçüsü indi artıq yaraya bilməz. Otuz il əvvəl mürəkkəb cümləni tabeli, yaxud tabesizə ayıra bilmək qiymət üçün ölçü ola bilərdisə, artıq bu gün üçün bu ölçü yaraya bilməz. İndi cümlə ilə bərabər, sözün kökünə, sözün mahiyyətinə rəng və salarlarına getmək lazımdır. Ədəbiyyat fakültəsinə daxil olmaq istəyən bir gəncdən xəbər aldım: Füzulinin

Yaxşı görünür surəti məhvəşlərin əmma
Yaxşı nəzər etdikdə sərəncamı yamandır -

beyti xoşuna gəlirmi, buradakı gözəllik nədədir? Yaxud, Səməd Vurğunun "Car çəkir çarxların çaxnaşıq səsi" misrasındakı gözəllik nədədir?

Cavab verə bilmədi. Əgər abituriyent Füzulinin bir beytdə işlətdiyi

iki "yaxşı" sözünün müxtəlif mənalarını, rənglərini və Səməd Vurğunun bir sətrində "ç" səsinin üç dəfə işlənməsindən doğan mənanı və gözəlliyi hiss etmirsə, dərk etmirsə, ondan nə ədəbiyyatçı?

Beləliklə, biz suallarımızda abituriyentin yaddaşını yox, onun ümumi səviyyəsini, zövq dərəcəsini öyrənməyə çalışmalıyıq.

Yaddaşı möhkəm olanlar əksərən oxuduqlarının əsiri olurlar. Onlar dərslikdə yazılanları, cümləbəcümlə, sözbəsöz, tarixi ilə yerli-yerində tutuquşu kimi söyləməyi bacarırlar. Həmin fikirləri öz sözləri, öz ifadə tərzləri ilə deməyi isə bacarmırlar. İstedadlı isə, əksinə, bəzən tarixlərdə çaşır, fikri öz ifadə tərzində, bəzən baş-ayaq, dolaşıq desə də, dərk etdiyini, düşündüyünü deyir. Qəbul imtahanı götürən müəllim burada tələsməməli, istedadı yaddaşdan ayırmağı bacarmalıdır.

İstedad oxuduğunu olduğu kimi deməz. Onu öz qəlbinin, öz ağlının prizmasından keçirib təqdim edər. Burada prizmaya düşən şüanın sınma qanununu nəzərə alsaq, hər şey bizə aydın olar. Şüa prizmanın əks tərəfindən sınıb çıxdığı kimi, istedad da aldığını olduğu kimi vermir, onu dəyişdirib təqdim edir. Bu sınma şüanın mənbəyinə uyğun gəlmədiyindən pedant müəllim abituriyentin cavabını səhv kimi başa düşür. İmtahan götürən müəllim bu incə nöqtəyə xüsusi diqqət yetirməlidir.

Texniki fakültələrə ərizə verib ixtisas fənlərindən yüksək qiymət alanlar bəzi hallarda yazı işindən kəsilir və ali məktəbə qəbul olunmurlar. Beləlari haqqında ayrıca düşünmək lazımdır. Əks halda, biz ali məktəbin qapılarını istedadların üzünə qapamış olarıq. Çünki istedad norma tanımır. O, fikrini ütülənmiş cümlələrlə ifadə etmir. Biz onu qrammatik normalar qəlibinə sala bilmərik. Çünki onun öz istedadına münasib öz üslubu var. Çünki o, istedadının dili ilə danışır. Bunu təyin etmək isə müəllimdən son dərəcə həssaslıq, vaxt, səbr və hövsələ tələb edir.

120-130 nəfəri doqquz-on saat ərzində saf-çürük etmək, qabiliyyəti müəyyənləşdirmək, yaddaşı istedaddan ayırmaq çox

çətin məsələdir. Buna görə də, məncə, imtahan qaydaları haqqında yenidən düşünmək, əsrimizə münasib təzə imtahan qaydaları tapmaq zəmanəmizin ən aktual məsələlərindən biridir.

1971.

"Sənətkar və zaman", Bakı 1976.



# BİR KƏND MƏKTƏBİNDƏ

Alim dostum Xudu Məmmədovla Göyçaydan gəlirdik. Şamaxıdan ötdük, Leninabad kəndinin yanından keçdiyimiz zaman bu kənddə yaşayan Əlibala Zərbəliyev yadıma düşdü. Onun haqqında şirin-şirin danışmağa başladıq. Əlibala kənddəki "Günəşli" sovxozunun zootexnikidir. Cavandır. Şeirin, sənətin divanəsidir. Ədəbiyyatımızda yeni yaranan əsərlər haqqında, yazılarım haqqında öz mülahizələrini mənə tez-tez yazır. Suallar verir. Müasir dünyamızın hadisələri ilə yaşayır. Bu hadisələrin ədəbiyyatdakı əksini izləyir. Bir sözlə, tam mənada müasir adamdır. Bütün bunlara görə də onu görmədən kəndin yanından ötə bilmədim. Kəndə burulduq. Kəndin girəcəyində məktəbi görüb dayandıq. Məktəbə girdik. Dəhlizdə məktəbin direktoru Heybət Şikarovla qarşılaşdıq. Məktəblə tanış olmaq istəyimizi bildirdik. Sevindi. Kimya laboratoriyasına, emalatxanaya, sinif otaqlarına, məktəbin səliqə-sahmanına baxdıq, fərəhdən ürəyimiz dağa döndü.

Məktəbdə gördüyümüz hər şey gözəl idi. Ancaq kənd və rayon məktəblərimizin heç birində görmədiyimiz üç məsələ bizi daha ar-

tıq fərəhləndirdi. Bunlardan birincisi, məktəbin yanında təşkil olunan ölkəşünaslıq muzeyidir. Məktəb o qədər də geniş deyil. Sinif otaqları çatışmır. Buna baxmayaraq, məktəbin direktoru bu muzeyin təşkilini vacib saymış, sinif otaqlarından birini bu iş üçün ayırmışdır. Bu balaca muzeydə eksponatlar dövrlərə və məzmuna görə təsnifləşdirilmişdir.

- Bəs bu eksponatlar haradan toplanmışdır?
- Kəndin özündən.
- Kim toplamışdır?
- Tarix müəlliminin rəhbərliyi ilə şagirdlər.

Həftənin müəyyən günləri tarix müəllimi yuxarı sinif şagirləri ilə bərabər kəndin ətrafında qazıntı işləri aparır və buradan tapılanlar - tariximizin müxtəlif dövrlərinə aid müxtəlif ölçülü küplər, pullar, bəzək, zinət şeyləri, döyüş və məişət ləvazimatı (qara çıraq, oraq, qılınc, qalxan, zindan, xış) muzeyə gətirilir.

Bu tapıntıların hansı dövrə aid olduğu hələ dəqiq müəyyənləşdirilməmişdir. Eksponatlar hələlik təxmini olaraq təsnifləşdirilmişdir. Təəssüf ki, bu vaxta qədər bizim dövlət tarix muzeyinin bunlardan xəbəri yoxdur. Dövlət tarix muzeyində gördüyümüz qədim və maraqlı tapıntılar bizi o qədər də heyrətləndirmir. Çünki bu, muzeyin bilavasitə öz vəzifəsidir. Bizi heyrətləndirən məktəbin təşəbbüsüdür. Əsl tapıntı budur! Eksponatlara baxdıqca fərəhdən nə edəcəyimizi bilmirdik.

Xudu Məmmədov qulağıma pıçıldadı:

- Bax, budur əsl vətəndaşlıq! Bu barədə yazmalısan!

Mən fikirləşirdim. Həmin muzeyi təşkil etməyə bu adamları məcbur edən nədir? Bu fikir ürəyimdən keçən kimi "məcburiyyət" sözünə gülməyim tutdu, axı, "məcburiyyət" sözü borc və vətəndaşlıq sözlərinin qarşısında nə qədər gülməli görünür. Vətənini, xalqını sevən adam üçün nə məcburiyyət? Bu gözəl təşəbbüsü məktəbin müəllim heyətinə pıçıldayan onların vətəndaşlıq hissi deyildirmi? Bu hiss varsa, hər şey var. Bu hiss yoxsa, hansı sənətin sahibi olursa-

olsun, o adam quru icraçıdan başqa bir şey deyildir.

Bu məktəbin müəllimləri də icraçı kimi proqram əsasında dərs deməklə vəzifələrini bitmiş hesab edə bilərdilər və heç kəs də onları təşəbbüssüzlükdə təqsirləndirə bilməzdi.

Yeri gəlmişkən, onu da deyim ki, müəllimlərin bir qismi dərs proqramının və metodikanın əsiri olur. Beləleri proqramdan bir addım da kənara çıxmağı nöqsan sayır. Əlbəttə, metodikanı bilmək və proqramı əsas tutmaq lazımdır. Lakin, mən deyərdim ki, hər dərsin öz ab-havası, öz xüsusiyyəti olur. Müəllim dərhal o ab-havanı tutmalı və dərsini o kök üstə kökləməyi bacarmalıdır. Hər dərs, dərsin özündə yaranmalıdır. Burada əvvəlcədən müəyyən olunmuş rels üstündə getmək olmaz. Müəllim dərsin yaradıcısıdır, hakimidir. Əks təqdirdə, dərs standart və cansıxıcı olar? Müəllimin yaradıcı təşəbbüsü özünü göstərməz.

Təşəbbüs sözünün kökü ürəyə bağlıdır. Ürəyində böyük duyğular olmayan adamdan heç bir böyük əməl də gözləmək olmaz.

Müəllim heyətinin ikinci təşəbbüsü məktəb çərçivəsindən kənara çıxır, daha böyük ictimai məzmun alır. İki il bundan əvvəl kollektiv bu qərara gəlir ki, şagirdlərin qüvvəsi ilə məktəbin nəbatat bağında bir abidə ucaltsın: naməlum əsgərin abidəsini! Bunu həyata keçirmək üçün istirahət günləri şagirdlər "Günəşli" sovxozunda işləyirlər. Onların qazancı toplanır, Bakı memarlıq emalatxanasının hesabına keçirilir. Heykəltəraşlar ömrünü Vətənə qurban verən azərbaycanlı əsgərin gözəl bir abidəsini yaradırlar. Abidənin əsasına həmin kənddən Vətən müharibəsində həlak olan döyüşçülərin şəkilləri həkk edilir. Onun düz ortasında isə seyfə bənzər bir dolab düzəltmişlər. Həmin dolabda şəkilləri divara həkk edilən şəhidlərin məktubları və qısa tərcümeyi-halları saxlanılır. Şəkillərin birinin altında iki sətir şeir yazılmışdır:

Ey Vətən, şirinsən baldan,
şəkərdən

Əyilib öpəydim o doğma
yerdən.

Mən şeirin müəllifini xəbər aldım.

- 20 yaşında şəhid olmuş leytenant Balabəy Məmmədovun "Xəyal" adlı şeirindədir, - deyə cavab verdilər. Bundan sonra Heybət müəllim şeiri bütünlüklə əzbərdən dedi. Şeir, həqiqətən, o zaman üçün xəyal idi. Bu gün isə həmin döyüşçünün xəyalı həqiqət olmuşdur.

Əsgər o zaman arzulamışdır ki, kəndlərinin ətrafında üzüm bağları salınsın, bu gün həmin yerdə "Günəşli" sovxozunun üzüm tənəkləri sıralanmışdır.

Söhbətin şirin yerində birdən abidənin başından asılmış zəng cingilti ilə səsləndi. Məktəbin həyətində oynayan uşaqlar siniflərə doluşdular.

Təəccüb etdik. Məlum oldu ki, məktəbin zəngi abidənin başından asılmış zənglə calaşdırılmışdır. Belə ki, məktəbin zəngi çalınanda, abidənin zəngi də səslənir. Zəng səsləri ilə, elə bil, məktəb, 26-27 il bundan əvvəl onun yolunda həlak olmuş keçmiş şagirdlərini də dərsə çağırır. Axı, o cavanların ömürləri kimi, təhsilləri də yarımçıq qalmışdır. Yox, bəlkə də, indi məktəb bu zəng səsləri ilə keçmiş şagirdlərinin ruhuna xatirə nəğməsi oxuyur.

Gözlərimizin yaşını silib, iftixarla məktəbə baxdıq. Bir anlığa bizə elə gəldi ki, Vətəndən çoxçox uzaqlarda həlak olmuş bu igidlər yenə bizimlədirlər. Bax, indicə o şəhidlər, siniflərə doluşan uşaqlarla bərabər müəllimlərin dərsinə qulaq asmağa getdilər...

Ey Vətən yolunda haraysız, səssiz
Ölən ərənlər!
Siz ey təmənnasız, qəsdsiz, qərəzsiz
Canını bizlərə qurban verənlər,
Eşq olsun sizə!

Eşq olsun o polad iradənizə!

Məktəbin üçüncü təşəbbüsü. Keçən il həmin bu məktəbi bitirənlər şagirdlər üçün emalatxana tikiblər, builki müdavimlər isə məktəbdə idman salonu tikməyi qərara almışlar. Beləliklə, hər buraxlışın məktəb üçün bir yadigar qoyub getməsi artıq bir ənənəyə çevrilmişdir. Bütün bunlardan sonra Heybət müəllim üzünü bizə tutub dedi:

- Sonra elə bilərsiniz ki, başımız belə işlərə qarışıb, təhsil işləri...

Bu yerdə Xudu Məmmədov onun sözünü kəsdi:

- Yox, elə fikirləşmirik. Bu işlərin özü də təhsil üçündür...

Həqiqətdə də, belədir. Ölkəşünaslıq muzeyi təhsil üçündür, - desək, çox az olar. Əgər tarix müəllimi Vətənimizin başına gətirilən müsibətlərdən, bu müsibətlərə qarşı xalqın üsyanından soyuq rəqəmlər əsasında danışırsa, muzey balalarımıza, Vətənimizi candan əziz tutan babalarımızın ayaq izlərini göstərir.

Muzey özümüzü özümüzə tanıdır.

Şəhidlər üçün tikilən abidə isə balalarımıza nə üçün yaşayıb, nəyin uğrunda ölmək dərsini öyrədir. Cəsarətlə deyə bilərik ki, abidənin verdiyi dərs sinifdəki dərsdən daha tutarlı və daha mənalıdır. Abidə bir də balalarımıza onu öyrədir ki, qəhrəmanlar fövqəladə məxluq olmurlar. Onlar bizim öz içimizdən çıxırlar. Uşaq inanır ki, kənddə hər gün gördüyü qoca Məmməd kişinin oğlu, indi isə qəhrəman kimi tanınan Balabəy neçə il bundan əvvəl onun kimi adi bir uşaq olmuş, onun oxuduğu məktəbdə oxumuş, bəlkə də, bu gün onun əyləşdiyi partada əyləşmişdir. Uşaq inanır ki, qəhrəmanlığa gedən yol onun əyləşdiyi partadan başlayır. Təhsil və tərbiyə üçün bundan böyük əyanilik ola bilərmi?!

Nəhayət, məktəb üçün emalatxana və idman salonu tikmək balalarımızı ictimai əməyə həvəsləndirir. Soruşulur, həmin emalatxanadan onu tikənlər istifadə edəcəklərmi? Yox! Bəs nəyə görə tikmişlər? Özlərindən sonra gələnlər üçün. Məşhur atalar sözü yada

düşür: "Əkiblər yemişik, əkirik yesinlər". Eşq olsun, xalqımızın təbiətindəki bu yüksəkliyə, bu böyük hissə! Eşq olsun, bu ənənəni qoyanlara və davam etdirənlərə! Nəhayət, eşq olsun, bu ictimai duyğuya!

Elə buna görədir ki, bu məktəbdə təhsil işləri də yaxşı qurulmuşdur. IX sinifdə ədəbiyyat dərsinə qulaq asdıq. Ata-baba müəllimin dərsindən razı qaldıq. Məktəbdə təhsil işlərinin yaxşı qurulduğunu göstərmək üçün təkcə bunu demək kifayətdir ki, keçən il həmin məktəbi qurtaranlardan 16 nəfəri ali məktəblərə, 6 nəfəri isə texnikumlara daxil ola bilmişdir.

Gördüklərimdən belə bir nəticəyə gəldim: istəsək, hər şey edə bilərik! Buna görə də üzümü respublikanın bütün kənd məktəblərinin rəhbərlərinə tutub deyirəm: haqqında danışdığım məktəbdən örnək götürün!

1970.
"Sənətkar və zaman", Bakı 1976.



# AĞDAM,
# MƏRZİLİ KƏNDİ

Mən alim dostum Xudu Məmmədovla Ağdam rayonuna iki məqsəd üçün gedirdik. Yenicə açılmış Ağdam Dövlət Teatrın da tamaşaya hazırlanan pyesimlə əlaqədar yaradıcı heyətlə tanış olmaq və Xudu Məmmədovun Ağdam zəhmətkeşləri ilə görüşünü keçirmək. Səfərimiz haqqında təəssüratımı yazacağım əvvəlcədən heç ağlıma da gəlməzdi. Lakin Bakıya o qədər böyük və zəngin bir təəssüratla qayıtdım ki, yazmamağı bacarmadım.

Biz indi elə bir zamanda yaşayırıq ki, şahidi olduğumuz hər hadisə, eşitdiyimiz hər söhbət yalnız bir-iki adama deyil, hamıya, xalqa, cəmiyyətə aiddir. Adi məclislərdə olan söhbətlər, hətta mən deyərdim ki, nahar masası arxasında olan danışıqlar yalnız o ailəyə, yaxud o ailənin əziz qonağına deyil, rayona və bütöv bir xalqa aid olur. Doğrusunu deyim ki, bəzən mənə elə gəlir ki, məni narahat edən fikirlər yalnız ziyalılara məxsusdur. Mən Xudu Məmmədovun zəhmətkeşlərlə keçiriləcək görüşündə rayon camaatına demək istəyirdim ki, Ağdam, onun 16 kilometrliyində yerləşən Mərzili kəndi böyük Vətənimizə Xudu Məmmədov kimi bir alimi bəxş

etdiyinə görə sağ olsun. Lakin mərzililər bilməlidilər ki, öz ixtira və kəşfləri ilə bu gün dünya alimlərini heyrətdə qoyan, altı ay London laboratoriyalarında ingilis alimləri ilə bərabər işləyib təzə kəşflərlə Vətənimizə dönən bu alimlə yalnız bir kənd, bir ölkə yox, dünya xalqları fəxr edir. Demək istəyirdim ki, bir obadan çıxmış bir adam hamıya, hamı bir adama məxsusdur. Demək istəyirdim ki, Ağdam, Bakı, Gədəbəy, Naxçıvan, Şəki, Lənkəran və sair şəhərlərimiz bir vahid bədənin ayrı-ayrı hissələridir. Buna görə də yaxşı olar ki, Bakıda bir Ağdam küçəsi, Ağdamda bir Bakı küçəsi, Şəkidə bir Gəncə küçəsi olsun.

Feodal xanlıqları dövründən qalma məhəlləçilik, yerliçilik kimi üfunət verən xırda hisslərə birdəfəlik son qoyaq və bilək ki, biz bir atanın, bir ananın övladlarıyıq. Atamız Qazanxan, anamız Burlaxatun, atamız Qaçaq Nəbi, anamız Həcərdir.

Bəli, mən bu fikirlərimi görüş gecəsində demək istəyirdim. Ancaq məndən əvvəl çıxış edənlər yuxarıdakı fikirlərimi daha gözəl və daha mənalı, mən deyərdim daha fəlsəfi şəkildə elə dedilər ki, bu mətləblərə elə toxundular ki, mən özözümdən utandım. Bir sözlə, öyrətməyə gəlmişdim, öyrənəsi oldum. Məclisdə qəribə təkliflər irəli sürüldü. Dedilər ki, bütün Cənubi Qafqaz tarzənlərinin Qurban Pirimovun doğulduğu Gülablı kəndində hər il müsabiqəsi keçirilsin. Dedilər ki, Vaqifin yaşayıb-yaratdığı Şuşa şəhərində hər ilin müəyyən günlərində poeziya müsabiqəsi keçirilsin. Dedilər ki, filarmoniya rayonlarımızda simfonik konsertlər versin, simfonik əsərlərin məzmununu izah edən mühazirəçilər göndərsin və sair və sair.

Gözəl təkliflərdir. Beləliklə, bir alimin şərəfinə toplanmış məclis, Azərbaycan mədəniyyətinə aid gözəl təkliflər məclisi oldu.

Səhərisi gün biz içərisində hazırlıq işləri görülən teatra getdik. Rayonun hələlik teatr binası yoxdur. Teatr üçün yeni bir bina layihəsi hazırlanıb. İndilik rayon mədəniyyət evini müasir teatra uyğunlaşdırmaq üçün təmir işləri gedir. Bir tərəfdə daş və taxta-şalban qalaqları,

bir tərəfdə daşdələn maşınlar, binanın içində rəngsazlar, dülgərlər... Aşağı mərtəbədə isə balaca bir otaqda məşq gedir. Burada təmir işləri ilə yaradıcılıq işləri müvazi aparılır. Bizi yaradıcı heyətlə tanış etdilər. Əksəriyyəti cavanlardır. Onlar böyük bir əzm, böyük bir yaradıcılıq eşqilə işə başlayıblar. Aktyorların bəziləri səhnəyə ilk dəfə çıxacaq; bu cavanların üzlərindəki utancaq təbəssüm, gözlərindəki atəş keçirdiyi həyəcanları necə gözəl ifadə edir. Hələlik ortada heç bir şey yoxdur. Lakin böyük bir səy, məqsəd, ideal var, arzu və istək var. Mən deyərdim, eşq olsun bizim adamlarımızdakı böyük arzulara, böyük ideallara! Adları hələ heç bir qəzetə düşməyən, heç kəsin tanımadığı bu cavan sənətkarlar içərisindən gələcəyin böyük aktyorları çıxacağına mən şübhə etmirəm. Masaaraxası məşq başlandı... Biz gözlərimizə inanmırdıq. Biz onların ustalığını, oynadıqları obrazı hansı səviyyədə dərk etdiklərini yalnız intonasiyalarından, sözləri ifadə tərzlərindən müəyyənləşdirə bilirdik. Bunu isə onlar çox gözəl bacarırdılar. Onlar hamısı çırpınır, həyəcan keçirir, obrazla yaşayırdılar. Böyük səy var. Deməli, qələbə də olacaq.

Günün ikinci yarısı biz alimin doğulduğu Mərzili kəndinə getdik. Bu kənd maldarlıq, əkinçilik və üzümçülüklə məşğuldur. Kəndin küçələrindən keçirik... Xudu mənə izah edir ki, müharibəyə qədər bu kənddə bir dənə də olsun bina olmamışdır. Evlər torpaq damlardan ibarət imiş. Kəndin kənarından baxan da yastıyapalaq damlar gözlə belə görünmürmüş. Uzaqdan çəmən tüstülənirmiş. Yaxına gələndə həmin tüstülənən çəmənin ev olduğunu bilirsənmiş. İndi bütün kənd bir və ikimərtəbəli daş binalardan ibarətdir. Ancaq kəndin kənarında yalnız bircə torpaq damı, muzey kimi saxlayıblar. Sədr deyir ki, indi içində adam yaşamayan bu damı biz qəsdən saxlamışıq. Tərəqqimizi hər gün görmək üçün.

Kənd demək olar ki, təzədən salınmışdır. Lakin evlər nizamla düzəlməmişdir. Pərakəndədir. Binanın birinin üzü qüzeyə, o birinin üzü güneyə baxır. Mən bunun səbəbini xəbər alıram. Sədr bunu kəndin ərazi quruluşu ilə izah edir. Ancaq düzünü deyim ki, kəndi

gəzdikcə bu hal mənə xoş gəlir. Bu nizamsızlıqda qəribə bir nizam və qəribə bir ahəng hiss edirəm. Kəndin küçələrindəki eniş-yoxuş və dolaylar xalqımızın qədim eniş-yoxuşlu tarixinə bənzəyir. Burada simmetriya yoxdur. Lakin daxili bir gözəllik və ahəng var.

Bu zaman Xudu cavan bir oğlanla görüşür, qucaqlaşıb-öpüşür.

Xudu üzünü mənə tutub:

- Bu mənim günəbaxan dostumdur  dedi. - Müharibə illərin də hər ikimiz kolxozda günəbaxan işləyərdik.

Doğrusu başa düşmədim. Günəbaxan nə deməkdir? Mənim təəccübümü hiss edən Xudu izah elədi:

- Bizim kənddə əmək günlərini hesablayan adama günəbaxan deyirlər.

Oğlan Xudunun fikrini tamamlamaq üçün:

- Aradan iyirmi dörd il keçib - dedi. - Mən yenə də günəbaxanam. Dostum Xudu isə indi özü gün olub, aləm ona baxır.

Dostlar deyib-gülür, zarafatlaşırlar. Bu səmimi, şirin söhbətlər məni o qədər kövrəltmişdi ki, kənd haqqında, bu kəndin gözəl, işgüzar və ağıllı adamları haqqında düşünür, düşünürdüm.

Biz bayaq sədrin dediyi həmin muzey-damın qarşısında dayanmışıq. Xudu deyir ki, mənim qırx yaşım var. Bu yaşda mən doğma kəndimi üç pillədə görmüşəm. Torpaq damlı kənd, evləri birmərtəbəli kənd, indi isə ikimərtəbəli, daş binalı kənd. Yəqin ki, on ildən sonra bu kənd tamamilə başqa cür olacaq. İnkişafdakı sürətə, sürətdəki vüsətə bax.

Xudu tamamilə doğru deyir. Əlbəttə, bu bizim əsrin, bizim zamanın qələbəsidir. İndiki sürət də iyirmi il əvvəlki sürət deyil. Hələlik, kəndi qoyaq bir tərəfə. İyirmi il əvvəlki kolxoz sədrinin zahiri görünüşünü, psixologiyasını və dünya görüşünü bu gün bizi kənddə qarşılayan kolxoz sədri ilə müqayisə edək. İyirmi il əvvəlki kolxoz sədrinin əynində qalife şalvar, belində enli toqqa, başında buxara papaq var idi. Fikirləri atasının fikrindən azca fərqli, adını ya yaza bilirdi, ya da yox. Qarşımızdakı kolxoz sədri ali təhsilli, özü təzə,

fikri təzə, sözü təzə. Əynində kostyum, boğazında həmrəng qalstuk.

Bunlar elə böyük həqiqətdir ki, bizə çox adidənadi görünür. Bəs bunlar bizdə niyə təəccüb doğurmur? Çünki şəhərlə bərabər kənd, kəndlə bərabər şəhər elə sürətlə artıb yüksəlir ki, biz bu yüksəliş pillələrini tuta bilmirik, bu haqda düşünə bilmirik. Çünki sürət böyükdür. Yalnız müqayisə edəndə biz bu inkişafı görür və heyrətlənirik. Kəndin kənarındakı torpaq damı görməsəydim, bəlkə, mən özüm də bu böyük fərqi hiss etməz, illər arasındakı təzadı görməz və bunun haqqında danışmazdım. Buna görə də kənd camaatı, o muzey damı eksponat kimi saxlamaqda çox yaxşı iş görür.

Məktəbə gəlirik. Vaxtilə alimin oxuduğu məktəbə. Məktəbin dəhlizlərində dünyanın ən böyük dahilərinin - Qalileydən tutmuş Loboçevskiyə qədər, Nizamidən tutmuş Üzeyir bəyə qədər, elm və sənət bahadırlarının şəkilləri asılmışdır. Müəllimlər bizi əhatə edir. Bunlardan bir çoxu vaxtilə Xudunun sinif yoldaşı olmuşdur. Xudu həmin bu məktəbdə əlifbanı öyrənmiş, bu məktəb onu Moskvanın elm laboratoriyalarına təhvil vermişdir. Kənd məktəbi - Moskva Elmi-Tədqiqat Kimya İnstitutu! Nə qəribə əlaqə, nə böyük poeziya!

Biz müəllimlərlə söhbət edirik. Bu məktəbdə əcnəbi dillərin təlimi xüsusilə gözəl qurulmuşdur. Qarşımızda 8-ci sinifdə oxuyan bir uşaq dayanmışdır. Müəllimlər deyir ki, bu uşaq və onlarla bunun kimiləri rus və ingilis dillərində danışmağı bacarırlar. Maraqlanırıq. Xudu həmin uşaqla ingiliscə danışır. Uşaq ingilis dilində cavablar verir.

Fərəhdən gözlərim yaşarır. Bu tərəqqi, bu yüksəliş hansı vətəndaşı fərəhindən qəhərləndirməz? Təsəvvür edin, ucqar Azərbaycan kəndində iki həmyerli - bir alim, bir uşaq, bir-biri ilə ingiliscə danışır. Bu uşaq on-on beş ildən sonra, bəlkə də, ikinci bir Xudu olacaq. Bəli, mən buna inanıram. Bu mütləq belədir. Xudu iyirmi beş il əvvəl həmin məktəbdə oxuduğu zaman kim deyə bilərdi ki, bu uşaq gələcəyin alimidir? Bu gün bizimlə ingiliscə və rus dillərində danışmağı bacaran bu uşaqdan biz daha böyük şeylər gözləməyə haqlıyıq.

İndiki halında bu uşaq iyirmi beş il əvvəlki Xududan üstün deyilmi? Bəli, belədir. Mənim fikirlərimi gözümdən oxuyurmuş kimi kolxoz sədri sözə başladı:

- Bizim bu məktəbimizdən hər il onlarla şagird ali məktəbə qəbul olunur. Bu uşaqlar kəndə qayıdanda bizim indiki həyat şəraitimizi bəyənmirlər. Yaxşı edirlər ki, bəyənmirlər. Bəyənsəydilər inkişaf olmazdı. Bu şagirdlər isə yəqin ki, özlərindən əvvəlkiləri bəyənməyəcək. Bu, çox təbiidir, həmişə irəli, həmişə qabağa.

Bu, müasir kolxoz sədrinin düşüncələridir. Eşq olsun, bizim adamlarımızdakı bu yüksəliş eşqinə, bu böyük amala, bu həvəsə! Bəli, həmişə bu günü bəyənməmək, sabaha baxmaq, zamanla səsləşmək lazımdır.

Mərzili kəndi dünyanın xəritəsində balaca bir nöqtədir. O, hər gün dəyişir. O, inkişafdadır. Böyük olub yerində sabit durandan, kiçik olsa da, daim dəyişən, daim böyüyən daha gözəldir.

1968.

"Sənətkar və zaman", Bakı 1976.



## FORMA, YOXSA, MƏZMUN?

Bir sənədə qol çəkdirmək üçün böyük bir ticarət idarəsi rəisinin qəbuluna getmişdim. Növbəsi məndən əvvəl olan yaşlı kişi rəisə müraciət etdi:

- Mən 45 il müəllim işləmişəm, hələ ömrümdə heç bir böyük vəzifə sahibinin qapısını döyməmişəm. Oğlanlarımı evləndirmiş, qızlarımı köçürmüşəm. İndi sonbeşik qızımı köçürürəm. Bütün atalar kimi, mən də qızımı xoşbəxt eləmək istəyirəm. Xahiş edirəm, mənə bir dəst importnı mebel...

Bu xahişdəki iki söz barədəki düşüncələrimi hörmətli oxucularla bölüşmək istəyirəm: birinci söz "xoşbəxtlik", ikinci söz "importnı".

Bu qoca müəllim nə üçün övladının xoşbəxtliyini ona vermək istədiyi "importnı mebel"də görür? Yəni, o, bu qədər dayaz düşünür? Köçən qıza cehiz vermək yaxşı adətlərimizdəndir. Təzə ailə təzə tikilən yuvadır. Bu yuvaya ailə üçün minimum lazım olan şeyləri vermək, ailənin möhkəmlənməsinə kömək etmək xeyirxah işdir. Lakin biz bir-birilə bəhsə girib, bunu ifrata vardırmağın əleyhinəyik. Ata qızını köçürərkən ona ər evində lazım olacaq bütün şeyləri – yorğan-döşəkdən tutmuş, xalça-palaza qədər, çay servizindən tut-

muş, xörək servizinə qədər, mebeldən tutmuş, paltaryuyan maşına qədər, televizordan tutmuş, royala qədər, hər şeyi verməsi vacibdirmi?

Bəlkə də, keçmişdə - qızlarımızın savadı olmadığı, yalnız ərinin qazancı ilə yaşadığı dövrdə bu, vacib idi. Bəs indi? İndi valideynlərin öz balalarına verdiyi təhsil və sənət onlar üçün ən böyük və heç bir zaman köhnəlməyən cehiz deyilmi?

Qıza, köçərkən, ailə üçün lazım olan hər şeyi vermək hansı kitabda, hansı qanunda yazılmışdır? Görək, bu, dünyanın hansı mədəni xalqının adət və ənənəsində vardır? Elə bu məsələ barəsində də gəlin, atalarımızın müdrik bir sözünü yada salaq: “Yaxşı övlad neyləyir ata malını...”

Əgər övlad namusludursa, zəhmətkeşdisə, o özü qazanacaq və istədiyini ala biləcək; yox, əgər zəhmətdən qaçacaqsa, alın təri tökməyi bacarmayacaqsa, ona verilən malın, dövlətin nə mənası?.. Onları da havaya sovuracaq.

Bu, məsələnin bir tərəfidir. İkinci tərəfi isə bir sıra rayon və kəndlərimizdə hələ də davam edən “mehir-başlıq” məsələsidir.

Keçən il rayonlarımızın birində bir nişan məclisində idim. Məclis dağılandan sonra qızın atası oğlanın atasını bir tərəfə çəkib onunla söhbət elədi. Sonra məlum oldu ki, qız atası oğlandan “mehir-başlıq” istəyir.

- Nə qədər? - deyə soruşdular.

- Beş min manat.

Dəhşət məni götürdü. Məgər ata öz qızını satırmı? Məgər qızının dəyəri bu qədərdirmi?

Sonra mənə izah etdilər ki, ata alacağı bu pula qız üçün cehiz düzəldəcək.

Bu alver kimə və nəyə lazımdır? İkinci tərəfdən, əgər ata öz qızına hədiyyə vermək istəyirsə, bunu kürəkəninin hesabına niyə eləyir? Məgər evlənən oğlan bilmir ki, onun evinə nə lazımdır? Burada qayınata öz kürəkənini niyə düşünmür? Gələcək ailəyə həqiqətən bu

şeylər lazımdırsa, bu barədə niyə yalnız qız evi düşünməlidir? Qohum olan adamlar biri digərinin imkanını nəzərə almalıdır, ya yox? Nəhayət, özü dediyi kimi, "qırx beş illik əmək fəaliyyəti dövründə heç bir vəzifə sahibinin qapısını döyməyən" bu müəllim nə üçün indi böyük ticarət idarəsi rəisinin qapısını döyməlidir? Buna onun qızı və kürəkəni necə baxır?

Bu məsələ ilə əlaqədar olaraq şəhərimizdə tikilən yeni binalar və onların müasir tələblərə necə cavab verdiyi barədə də bir-iki kəlmə demək istərdim. Son zamanlar istər xarici, istərsə də bizim mətbuatda memarlığa aid maraqlı fikirlər söylənilir. Mütəxəssislərin bir çoxu qeyd edir ki, günün tələblərinə uyğun olaraq, müasir binalarda otaqlar daha çox havalı, daha çox işıqlı və geniş olmalıdır. Və qeyd olunur ki, müasir mebellər - ləvərə dolab, stol və kreslolar otaqların genişliyinə əngəl törədir, rahat dincəlməyə imkan vermir. Bununla bağlı, köhnə ənənəvi memarlıqdan zəmanəmizə uyğun şəkildə istifadə məsələsi irəli sürülür. Tamamilə doğru məsələdir. Gəlin, kənd və rayonlardakı evlərimizi yada salaq. Bu evlərdəki üslubdan götürüləsi müsbət cəhətlər çoxdur. Dədə-babalarımız masadan və kürsüdən istifadə etməmişlər. İndi bunlar bizə lazımdır. Lakin dədə-baba evlərində dolabları əvəz edə bilən taxçalar və rəflər var. Təzə binalarda həmin taxçaları və rəfləri yeniləşdirərək özümüzə qaytarmaq olmazmı? Belə olsa, otaqlarda sərbəst hərlənmək və rahat nəfəs almaq üçün bir genişlik yaranar. Axı, standart mebellər bizim fərdiyyətimizi öldürür. Dolabları, onların içindəki büllur qabları çox zaman muzey eksponatı kimi kənardan seyr edirik. Parıltılı mebellər bizim rahatlığımızı təmin etmir, əksinə, əlimizdən alır. Çox zaman onlar bizə deyil, biz onlara qulluq edirik.

Müəllimin xahişindəki "importnı" sözünə keçək. Bu gizli deyil ki, bizdə xarici malların alıcısı çoxdur. Əgər məsələ yalnız satılan şeylərin "importnı" lığına aid olardısa, bu barədə düşünmək əlaqədar təşkilatlara həvalə edilərdi. Lakin dərd bundadır ki, bəzi hallarda əşyalar adamları "idarə etməyə" başlayır. Əşyalar psixolo-

giyalara təsir edir.

Əyninə əzik-üzük "cins" şalvar geyən, xarici firmaların etiketlərini belindən damğa kimi asan, gözünə rəngli eynək taxan, saçlarını çiyinlərinə qədər uzadan bir gənc "Jiquli" maşınının sükanı arxasında əyləşmişdir. Maşının da böyrü-başı, arxa və qabaq aynaları xarici emblemlərlə və parnoqrafik şəkillərlə bəzədilmişdir. Maşının içində isə yapon maqnitofonu hərlənir, xarici caz havaları çalınır:

Biz bu gəlmə səslərə -
Bu uydurma, bu saxta,
Bu düzəlmə səslərə
Əsrin səsimi deyək?
Mən bilmirəm,
özgənin
Qabağından qalanı
Axı, niyə kövşəyək?
Məgər yenilikmidir
Özünü bəyənməyib
Özgəni doğma tutmaq?
Geyib özgə çəkməsi,
Yerişini unutmaq?
Başa salın bir məni.
Gözəl nəğmələrimiz
var ikən
nədən ötrü
Yamsılayaq özgəni?
Yenilikmi?
Bağışla,
Yamsılamaq - ən böyük
Köhnəlikdir, köhnəlik!

Belələrini hər gün görürük. Ancaq maraqlı burasdır ki, cavanların yaxasından tutub bir deyən yoxdur ki, "əzizim, bu hoqqabaz meymunçuluqla sən nə demək istəyirsən? Sən bizə nəyi sübut etmək və nəyi inkar etmək istəyirsən?!

Bəlkə, bunlar, sadəcə, formanın təqlididir deyə açıbağartmaq lazım deyil? Yox, dərindən baxsaq, belə deyil. Xarici şəkil-şüklünü, geyim-gecimini öz varlığında əks etdirən bu gənc, həmin şeylərə uyğun şəkildə də düşünməyə başlayır. Xarici musiqinin eybəcər səs-küyünə əyilib-qalxan, o havaya züy tutan gəncin düşüncə tərzi, dünyabaxışı, fikri və əqidəsi də o formaya uyğun məzmun alır. Əslində, buna məzmun deməzlər. Çünki yamsılamaqda, meymunçuluqda heç bir məzmun və mündəricə ola bilməz" Ona görə ki, təqlid, yamsılama şəxsiyyətsizlikdir, fərdiyyətsizlikdir! Öz meyvəsi və öz sifəti olmayan söyüd ağacı külək hansı tərəfdən əssə o tərəfə əyildiyi kimi, belələri də tez təsir altına düşən, simasız, şəxsiyyətsiz adamlardır! Onlar öz şəxsiyyət və varlığını kənardangəlmə zövq və düşüncə tərzi içərisində əridib özünü heçə döndərir. Məqsəd ölür, məslək yox olur!

Biz istəyirik ki, gənclər hansı Vətənə mənsub olduqlarını və bu Vətən qarşısındakı borc hissini heç bir zaman unutmasınlar; yalnız bu zaman onların simaları da olar, məslәkləri də. Yalnız bu zaman onlar nəyə qulluq elədiklərini, nəyin uğrunda yaşadıqlarını və yeri gəldikdə, nəyin naminə ölmək lazım olduğunu dərk edərlər. Nəyin naminə yaşadığını və nəyə qulluq etdiyini bilən adam isə heç bir zaman özgəsini yamsılamaz, öz siması olar.

1974.

"Sənətkar və zaman", Bakı, 1976.



# BORC HİSSİ

“İntelligent” sözü “intellekt”dən, Azərbaycan dilində olan “ziyalı” sözü “ziya” (işıq) sözündən yaranmışdır. Formaca müxtəlif olsa da, bu sözlərin məzmunu eynidir. Həqiqətdə də, ağıl işıq deməkdir. Daha doğrusu, dünyamızdakı bütün işıqlı şeylər ağıldan doğur. Bəşəriyyətin gələcəyə gedən yollarını ağıl işıqlandırır.

Lakin ziyalı sözü yalnız biliklə, savadla məhdud deyil. Bu gün işlənən “intelligent” sözü daha geniş məna kəsb edir. İntelligent deyilən zaman mən nəyi nəzərdə tuturam? Şübhəsiz, savad, bilik, şəxsi dünyagörüş, mədəniyyət vacib şərtlərdəndir. Lakin keçmişdə bizim elə babalarımız olmuş ki, onlarda istənilən səviyyədə savad olmamışdır. Lakin onlar təbiətən ziyalı adam olmuşdur. Bəs belə isə, ziyalılığı tamamlayan başqa cəhətlər nədən ibarətdir? Mən tərəddüdsüz deyərdim. Birinci növbədə vətən və xalq qarşısındakı borc hissindən!

Mən universitetdə müəllliməm. Beşinci kurslara mühazirə oxuyuram. Bu adamlar artıq ali təhsilə yiyələnmiş savadlı, bilikli cavanlardır. Lakin təəssüf ki, mən onların bəzisinə intelligent deməzdim. Niyə? Mən belələri ilə tez-tez söhbət edirəm. Bütün dünyadakı ən məşhur skripka çalanlardan tutmuş kino ulduzlarına qədər, rejissor-

lardan tutmuş müğənnilərə qədər, müğənnilərdən tutmuş ən məşhur futbolçulara qədər hamısını tanıyırlar! Çox hallarda bu adamların tərcümeyi-hallarını da bilirlər. Bu məşhur adamların həyatlarındakı sensasiyalı, hay-haraylı hadisələrlə, xəbərlərlə yaşayan cavanlar çox zaman bütün dünyanı silkələyən daha ciddi siyasi, ictimai hadisələrə biganə olurlar. Buna heyfslənmək lazımdır. Hamının qulağına tez-tez çata bilən, tək-tək məşhur adamların həyatı, nailiyyəti ilə bağlı xəbərləri bilməyə nə var ki? Bəs bütün bəşəriyyətin və dünyanın taleyi ilə bağlı olan, xalqların müqəddəratını həll eləyən böyük hadisələrə biganə olmaq nədir? Məgər XX əsrin vətəndaşı bunlardan imtina edə bilərmi? İtaliyada təzə çıxan bir aktyorun, ya Amerikadakı bir futbolçunun yeni qələbəsini bilmək və ondan ağzı köpüklənə-köpüklənə danışmaq mədəniyyətmi sayılır? Çox təəssüf ki, bəzi cavanlar bunu mədəniyyətin zirvəsi hesab edir.

Uzaq qohumlarımızdan birinin evinə getmişdim. Ev sahibəsi cavan bir qadındır. Onun evində zəngin kitabxanası var. Bu kitabxanada müasir və klassik Avropa və Amerika yazıçılarının əsərləri toplanmışdır. Bir göz otaqdan ibarət olan bu mənzilin iki yerində Heminqueyin şəkilləri asılmışdı. Bunlar hamısı çox gözəl! Lakin mən baxdım ki, bu qadının kitabxanasında bir dənə də olsun Azərbaycan ədibinin, yaxud aliminin kitabı yoxdur.

Mən qadından xəbər aldım: "Siz Heminqueyi çoxmu sevirsiniz?" O bunu gözləyirmiş kimi ədəbin əsərlərindən, obrazlarından danışmağa başladı. Mən hiss edirdim ki, o, sevdiyi yazıçının əsərlərinin mahiyyətini dərk edə bilməyib. Çünki o əsərlərin yalnız süjetini danışırdı. Yazıçı və onun ideyası süjetdə deyil, obrazların məsləkində, mübarizə proqramında gizlənir. Heminquey yaradıcılığının mahiyyəti onun vətəndaşlığında, əsrin ən qabaqcıl ideyaları ilə səsləşməsindədir.

İndi, görək, bu qadın bir vətəndaş olaraq, Heminquey ideyalarına sadiqdirmi? Heminquey öz xalqının ləyaqətli oğlu idi, bəs onun oxucusu, özünü öz xalqının ləyaqətli qızı hesab edə bilərmi? Əgər elə hesab edirsə, bəs nə üçün onun kitabxanasında Azərbaycan təmsil

olunmur?

Burda N.Nərimanovun "Bahadır və Sona" povestindəki bir obraz yadıma düşdü. Bu qız xarici ölkədə təhsil alıb bir neçə əcnəbi dil bilməsi və öz dilini bilməməsi ilə fəxr edir. Bu, mədəniyyətdirmi? Qətiyyən! Bu, təqliddir, bu mədəniyyətsizliyin ən bariz nümunəsidir.

Belə adamlar mədəniyyəti zahirdə görürlər. Əgər o qadın özünü dərk eləsəyli, onun evində Nizaminin də, M.F.Axundzadənin də, C.Cabbarlının da kitabları olardı. Göteni oxuyan və sevən bu qadın bilmir ki, onun pərəstiş etdiyi Göte, Nizamini özündən qat-qat yüksək sənətkar hesab etmişdir.

Mən yuxarıda dedim ki, borc hissini intelligentliyin əsas şərtlərindən biri hesab edirəm. Dünya hadisələrindən, təzə dəblərdən, yəni axınlardan və cərəyanlardan xəbərdar olub, bir insan kimi öz ictimai borcunu başa düşməyən, vətəndaşlıq vəzifəsini bilməyən, həyatın mənasını dərk etməyən, nəyinsə naminə yanmağı, alışmağı özünə məslək seçməyən bir adamı mən kamil intelligent hesab etmirəm. Əcl itelligent bircə şeyi bilməlidir: mən nəyin naminə yaşayıram?

Əgər o, əsl insandırsa, bu sualın cavabını tapacaq. O biləcək ki, çörəyi ilə qidalanıb, havası ilə tənəffüs edib, suyu ilə nəşvü-nüma tapdığı bu vətənə, bu torpağa borcludur. O öz borcunu dərk edincə, vəzifəsini də biləcəkdir. Vəzifə vətənə xidmətdir. Vətənə xidmət üçün isə insana nə lazımdır? Savad, bilik və mədəniyyət! Deməli, hər şey borc hissindən başlanır. Qalan şeylər ondan sonra gəlir.

Mən həyata yenicə atılan bütün cavanlarımıza, birinci növbədə, bunu arzu edirəm. Və intelligentliyin əsas şərtini bunda görürəm.

1970.

"Sənətkar və zaman", Bakı, 1976.



# HƏYAT - ÖLÜM

İnsan qədim zamanlardan həyatın əbədi olmadığını qəbul edə bilməmiş, təbiətin bu amansız hökmündən yaxa qurtarmağa çalışmış, ölməzlik haqqında qəribə rəvayətlər və miflər uydurmuşdur. Əfsanələrdə İsgəndərin “abi-həyat” dalınca səfərə çıxması, nağıllardakı “tilsimli alma”, “əbədiyyət ağacı”, “şaqren dərisi” insanın ölüm qarşısındakı qorxusunun və əbədiyyət axtarışlarının bədii təzahürləridir.

“Dədə Qorqud” dastanlarında öz fiziki gücünə, cəsarətinə güvənib adamlara qan udduran, əzrayıla meydan oxuyan Dəli Domrul kimi azğın belə, ölümün qarşısında özünü itirir, yaşamaq üçün özündən qat-qat zəiflərə əl açır.

Yaxud dünyaya sahib olmaq arzusu ilə çırpınan, ölkələri öz qarşısında diz çökdürən İsgəndəri böyük Nizami, ölüm qarşısında diz çökdürür. Ölümün gəldiyini hiss edən İsgəndər görün kimlərə əl açıb yalvarmağa başlayır:

Hanı, xəbər verin xəzinədara
Bəlkə, rüşvət verib məni qurtara.

Mənim zərb qılınclı qoşunum hanı?
Qovsun canımdakı bu qızdırmanı.
Mən hər bir bilikdən xeyli dərs aldım,
Ölümün önündə çarəsiz qaldım.

Bunlar, əlbəttə, ölümün fəlsəfi anlayışıdır. Bu anlayış insane ölümlə vuruşmağı deyil, bu labüd həqiqətlə barışmağı təlqin edir.

Beləliklə, bütün çarələrin və axtarışların faydasız olduğunu kəsdirən insan, nəhayət, ölüm həqiqəti ilə barışmış, "ölüm haqdır, çıxmaq olmaz əmrdən" (Aşıq Alı) - deyə onun labüdlüyünü istər-istəməz qəbul etməyə məcbur olmuşdur. Buna görə də Qorqud Dədəmiz dünyanın tərifini belə verir: "Gəlimli-gedimli dünya, son ucu ölümlü dünya".

Ölümü qəbul etməmək - həyatı inkar, özündən sonra gələnləri inkar deməkdir. Davamçını sevmək! Ona güvənmək! - ölüm zərurətini qəbul edən insanın yeganə təsəllisi, bax, budur! H.Hüseynzadə necə də gözəl demişdir: "Mən qorxardım ölümdən, dünyaya məndən sonra gələnlər olmasaydı".

Övladların, nəvə və nəticələrin dünyaya gəlişi, bizim davamımız, bizim yeni şəkildəki təsdiqimizdir. Koroğlunun "Mənmi qocalmışam, ya zəmanəmi?" sualına cavab olaraq "Körpə nəvələrin gül çöhrəsində gül kimi yenidən açılan bizik" - misraları ölümə meydan oxumaq, ondan qisas almaq istəyən insanın özü-özünə təsəllisi, özünü başqalarında tapmasıdır.

Ölüm - yer üzündə əbədi olan həyatın yeniləşməsidir. İnsan da ölümün zəruriyyətini dərk edəndə həyatı dərk etmiş olur. Ölümün haqq olduğunu qəbul edən insan ömrünü ölüm barədə mənasız düşüncələrə deyil, həyata, onun gözəlləşdirilməsinə sərf edir. "Bu müvəqqəti həyat bizə nə üçün verilmişdir? Həyatın mənası nədir, yaşamaqda qayə nədir, məqsəd nədir? Bir sözlə, mən nə üçün yaşamalı, nəyin naminə çalışmalıyam?"

Bu suallar qarşısında duran insan mənən böyüməli, yüksəlməli, insan arzularının zirvəsinə ucalmalıdır. Bu nöqtədə insan yaşamaq

amalını - yəni qayəsini tapır:

Ölümdən qorxmayan de kimdir, de kim?
Qayəsiz yaşamaq ondan qorxulu!

Bəs qayə nədir? Öz səadətini başqalarının göz yaşları və fəlakəti ilə təmin etmək də qayə ola bilərmi? Bunun da cavabını dahilər gözəl vermişdir. Böyük Nizami dünya nemətlərindən ötrü insan qanı tökən fatehlər fatehi İsgəndərə Bərdə hökmdarı Nüşabənin dili ilə dərs verir. Nüşabə İsgəndərə nahar süfrəsi önündə xörək əvəzinə daş-qaş təklif edir. İsgəndər: "Daş-qaş yeyilərmi, bu nə deməkdir?" - deyincə Nüşabə: "Faydasız, yaramaz boylə daş üçün, bu qədər vuruşmaq, çarpışmaq neçin?" - deyə fatehlik qəsdinin mənasızlığını ona başa salır.

Bəs elə isə yaşamaqda qayə nə imiş? Qayə, başqalarının səadəti naminə, Vətənin, xalqın və ümumən, bəşəriyyətin naminə çalışmaqdır. Bu böyük qayənin içində fərdin özü də, onun mənafeyi də vardır.

Alim dostum Xudu nə gözəl deyib:

Bu qala bizim qala.
Həmişə bizim qala.
Qurmadım özüm qalam,
Qurdum ki, izim qala!

"Özümün deyil, izimin qalması üçün çalışmaq" insan duyğularının gözəlliyi, böyüklüyü, xariqüladəliyidir! İnsanın dünyada

qoyduğu iz, cığır - onu əbədiyyətə apara biləcək yeganə yol ola bilər. Beləliklə, yaradıcılıq eşqi, qurub tikmək arzusu, bəlkə də, qədimdən bu günə qədər insanın ölməzlik axtarışlarının təzahürüdür. İstər folklorumuz, istərsə min illik yazılı ədəbiyyatımız xalqımızın dünyaya fəlsəfi baxışıdır.

Əzizim, baxar gedər,
Su gələr, axar gedər.
Dünya bir pəncərədir,
Hər gələn baxar gedər.
Yaxud:
Əzizim, harayından,
Hər ilin, hər ayından,
Gündə bir kərpiç düşür,
Ömrümün sarayından.

Bütün bunlar ömrün məhdudluğunu ürək ağrısı ilə qəbul edən insanın ölüm həqiqətinə oxuduğu acı nəğmələrdir. Bu nəğmələrdə gizli bir üsyan, açıq bir etiraz səslənir. Lakin bu, insanın həyat və dünya haqqındakı düşüncələrinin yarısıdır. Həyat nədir? Dünya nədir? Onun dönüb dolanan çərxi nədir? Dünya fəlsəfəsindən, fəlsəfi axın və cərəyanlardan xəbərsiz, ömründə məktəb görməyən, əlinə bir kitab almayan, savadsız aşıqlarımız bu böyük sualların izinə düşmüş, onlara cavab axtarmışlar:

Mən aşıq, ay nədəndir?
Fələk can oynadandır.
İnsan əsli torpaqdan,
Torpaq əsli nədəndir?

Həyatın, təbiətin mahiyyətinə varmaq, şeylərin bəzəyini yox, özəyini görmək ehtirası, ədəbiyyatımızın əsas yönü, baş mövzusu olmuşdur:
Nizami:

Bu yerdə, bu göydə nə varsa, əlbət,
Bunlara, şübhəsiz, var bir nəhayət.
Bəs bu kainatdan de görüm kənar
Başqa bir aləmə gedən yol da var?

Var isə nə üçün bilməyir heç kəs
Yox isə - yoxluğa yol ki, gedilməz.

Nəsimi:

Ey məni nahəq deyənlər, qandadır bəs yarədən?
Gəl, gətir isbatini, kimdir bu şeyni yarədən?
Odü su, torpağü yeldən boylə surət bağlayan,
Boylə dükkan yasıyan kəndü çıxarmı arədən?
Gəl, mana bir söylə ki, kimdir sənin nitqindəki?
Söyləyən, söylətdirən, dinlətdirən hər arədən?

Füzuli:

Nə dairədir bu dövrü-əflak?
Nə zabitədir bu mərkəzi xak?
Cismə ərəzi kim etdi qaim?
Narə nədən oldu nur lazım?
...Hər xilqətə gərçi bir səbəb var,
Aya, səbəbi kim etdi izhar?

Ölməzlərimizin verdiyi bu böyük suallar dünyanın, kainatın, varlığın və yoxluğun, həyatın və ölümün mahiyətini bilmək, dərk etmək arzusundan doğan sorğulardır. Bu sorğuların cavabını hələ tapmayan insan, ona məlum olmayan sirlərin əbədi sorağındadır. Sualı olmayan elm elm deyil, sualsız sənət də heç sənət deyil. Belə böyük suallarla çırpınan bir ədəbiyyatı yaratmış xalqın yas mərasim lərində oxunan qəsidələr, yas sahiblərinə təsəlli olmaqla bərabər, ora toplaşanları da həyat və ölüm, varlıq və yoxluq haqqında dərin-dərin düşüncələrə dalmağa məcbur edir. Düşünməyi bacarmayan, həyat naminə yaratmağı da bacarmaz.

Bəzi yas məclislərində insanı yaratmaq, qurmaq arzusundan daşındıran, onun əlini-qolunu bağlayan məzar qoxulu qəzəl və

qəsidələrin oxunması adamlarda ikrah hissi oyadır. Yaxud, baş daşlarının üstünə bəzən elə gülünc və iyrənc sözlər, ara şairlərinin şeirləri yazılır ki, oxuyanı düşündürmək əvəzinə güldürür. Həmən səbəblərə görə də bu kitabın tərtibini lazım bildik.

Qədim Orxon kitabələrində bir baş daşındakı yazı bu gün də bizi düşündürür: "Göydəki Günəşdən, yerdəki elimdən doymadım..." Nə gözəl söz! Bu, bizə mərhumun zövqünü və dünyagörüşünü açır: Göydəki Günəşdən doymamasında onun həyat eşqini, yaşamaq həvəsini, yerdəki elindən doymamasında isə vətəndaşlığını görürük. Rəhmət olsun, ana torpağa qovuşan bu böyük duyğulu, böyük ürəkli insana, vətəndaşa!

Dünyanın vəfasını aşıqlarımız belə ifadə edir:

Abbas Tufarqanlı:

Bu dünya karvansaradır
Hər gələn qonar, əylənməz.

Aşıq Hüseyn Bozalqanlı:

Bu qoca dünyanın yoxdu vəfası.
Gah boşalıb, gah da dolan görmüşəm.

Dəllək Murad:

Fələk biçinçidir, bu dünya zəmi,
Biçilən zəmidən mürgüzar olmaz.

Aşıq Bəsti:

Qoca cadugərdi, aldadar səni.
Cavanlıq donunda qalan bu dünya.
və s. və i.a.

Bunlar hamısı müxtəlif obrazlarla deyilmiş məlum həqiqətlərdir. Bununla bərabər, aşıq bu "vəfasız dünyada" bizə necə yaşamağın təlimini də verməyə çalışır. İstəyirik ki, hörmətli oxuğu xüsusilə bu mətləbə diqqət yetirsin:

Xəstə Qasım kimə qılsın dadını?
Canı çıxsın, özü çəksin odunu.
Yaxşı igid yaman etməz adını,
Çünki yaman addan ölüm yaxşıdır.

Həyatın və ölümün mahiyyətini bundan gözəl və bundan gərəkli demək olarmı? Burada aşıq "həyat yaxşıdır, ya ölüm?" sualının fizioloji mənasına deyil, mənəvi mənasına toxunur. Əlbəttə, heç kəs bir dəfə verilən həyatdan keçmək, onu ölümə dəyişmək istəməz. Lakin cəmiyyət qarşısında xəcalətli yaşamaqdan ölümü üstün tutan aşıq, həyatın qayəsini, məqsədini ön plana çəkir, bizi namusla, şərəflə yaşamağa çağırır. Bu məsələyə toxunan aşıq Şenlik də bizə adı, sanı qorumaqla kişi kimi, mərdanə yaşamağı təlqin edir:

Təmiz saxla adı, sanı,
Dost düşmənin yaxşı tanı.
Mərd igid deməz yalanı,
Yanar oda qalasan da.

Burada da yenə ölüm riyakar yaşamaqdan üstün tutulur.
1978.
"Sadəlikdə böyüklük", Bakı, 1978.



# TƏBİƏTİ QORUYAQ

Təbiəti qorumaqla biz özümüz özümüzü qorumuş oluruq. Çünki biz təbiətdən ayrı deyil, onun üzvi bir hissəsiyik. Daha doğrusu, biz təbiətlə ahəng təşkil edirik. Biz təbiəti öyrənəöyrənə özümüzü öyrənir, özümüzü dərk edirik.

Dünyanın ən böyük təbiətşünaslarından F.Engels təbiətlə insane arasındakı bağlılıqdan danışdığı zaman qəribə bir fikir irəli sürür: "Faktlar hər addımda bizə xatırladır ki, biz təbiət üzərində heç də bir istilaçının özgə xalq üzərində hökmranlıq etdiyi kimi hökmranlıq etmirik. Təbiət üzərində ondan xaricdə olan birisi kimi hökmranlıq etmirik, - əksinə, biz bütün canımız, qanımız və beynimizlə təbiətə mənsubuq, onun daxilindəyik!".

Bu fikrini sübut eləmək üçün Engels Kubada gübrə məqsədilə meşələri yandırıb, külünü qəhvə ağaclarının dibinə tökən İspaniya plantasiyaçılarının nə qədər pis iş gördüklərindən danışır. Çünki burada xeyir zərəri ödəmir. Çünki güclü tropik yağışları bundan sonra torpağın açıq qalmış üst qatını yuyub aparır və torpaq bundan böyük ziyan çəkir. Engels fikrini bu sözlərlə yekunlaşdırır: "Təbiət

üzərindəki qələbələrimizlə çox da öyünməyək. Hər bir belə qələbə üçün təbiət bizdən intiqam alır".

Təbiətdə çox qəribə bir qanunauyğunluq var. Bu qanunauyğunluğa biz sənət adamları harmoniya, ahəng adı vermişik. Təbiətdə daşan sellərlə torpaq arasında, meşələrlə quşlar arasında, böcəklərlə çiçəklər arasında qəribə bir ahəng vardır. Bu ahəngi pozmaq təbiətin hüsnünə xələl gətirmək deməkdir. Yadınızdadırmı, bir vaxt çinlilər taxıla ziyan vurduğuna görə sərçələri qırdılar. Lakin bunun nəticəsi çox pis oldu. Sərçələrin azalması təbiətin ahəngini pozdu.

Həm yerin, həm göyün,
Sirrini aşkar
Oxudum bir gülün ləçəklərindən.
Böcəklər, çiçəklər, güllər, arılar,
Kim deyir ayrıdır biri-birindən!
Eşqdir yaşadan təbiəti də
Çiçəklər torpağın min bir rəngidir.
Böcəklə çiçəyin məhəbbəti də
Ana təbiətin öz ahəngidir.

Təbiətə sənətkar gözü ilə baxsaq, burada başqa şeylər görərik. Təbiətə qıymaq, gözəlliyə qıymaq deməkdir. Ən böyük söz ustalarımız, ən gözəl əsərlərini təbiət gözəlliyinə həsr etmiş, onu vəsfdən doymamışlar.

Bunu biz ən çox XX əsr ədəbiyyatımızın klassiki S.Vurğunun yaradıcılığında görürük. 1947-ci ildə Nizami yubileyinə gəldiyi zaman görkəmli rus ədibi A.Fadeyev və S.Vurğunla ova çıxan tanınmış rus şairi N.Tixonov sonralar yazdığı xatiratında belə deyir: "İndi ay işığına bürünmüş talalardan keçərkən dağ ətəklərinin payız meşəsi şirəsindən çəkilmiş dəmir qoxulu havasını əmərək fikirləşirdim ki, Fadeyev və S.Vurğun kimi adamlar üçün təbiət hər şeydir. Bu adamlarla təbiət arasında böyük və daxili... bir ahəng vardır.

...Şəhərlərin heç bir sevinci onlar üçün xoş rayihəli və səksəkəli

sükut dolu bu xumar payız gecəsinin yerini verə bilməz”.

N.Tixonov ov səfərində şairin “Muğan” poemasından meşələrə həsr olunan parçanı xatırlayaraq yazır: “Yalnız qısa nidalarla kifayətlənən ovçular saatlarla meşələri gəzir və bənövşəyi, qırmızı, sarı, al, yaşıl yarpaqlar dənizi içərisində öz şikarlarını axtarırdılar, lakin onlar öz güllələri ilə meşə gözəlliyinin sakit əzəmətini poza bilmirdilər. Bu gözəlliyin dalğaları hər tərəfdən üstümüzə gəlirdi. S.Vurğun tamamilə haqlı olaraq yazmışdı:

“Meşələr, meşələr, doğrudan da siz.
Yayda da, qışda da bir baharsınız.
...Yelin qabağını dağ kimi kəsən
Sizsiniz, nə qədər lütfkarsınız”.

Yəqin ki, həmin bu illərdə “Muğan” poeması şairin fikrində yaranırdı. Mingəçevir tikintisi ilə əlaqədar olaraq Samux meşəsi, orada yaşayan heyvanların və quşların taleyi şairi çox düşündürmüş və bu düşüncə də poemada öz əksini tapmışdır.

Yerdə car çəksə də çarxların səsi,
Od tutub yansa da göyün nəfəsi,
Ceyranlar düzdədir... quşlar yuvada.

Sanki “bu nəhəng tikintilər də təbiətin hüsnünü pozmayacaq” - deyə şair öz-özünə təsəlli verirdi.

1969.
“Sadəlikdə böyüklük”, Bakı, 1978.



## MARAQLI TƏKLİFLƏR
***(Yeni adət və ənənələr barədə)***

"Ədəbiyyat və incəsənət" qəzeti yeni adət və ənənələr barəsində İ.Şəfiyev adlı oxucudan maraqlı bir məktub almışdır. Şəfiyev yoldaşın toy və yas mərasimləri barəsindəki təklifləri həm orijinal, həm də təqdirəlayiqdir. Məktubdan məlum olur ki, yeni təkliflər irəli sürən bu yoldaş köhnə, öz funksiyasını artıq çoxdan itirmiş adət və ənənələrdən əl çəkməyi, yenilərinin yaranmasını istəyir. Bu təşəbbüsün özü gözəldir, təqdir olunmalıdır.

Məktub müəllifi təklif edir ki, cənazə evdən, yaxud ictimai bir yerdən qaldırılmamışdan əvvəl mərhumun tərcümeyi-halı oxunsun. Bu, dünya ilə üzülüşməkdə olan mərhumun dünyaya son sözü və ailəsi, vətəndaşları qarşısındakı hesabatıdır. Mənə elə gəlir ki, bu təklif çox gözəldir.

Vətən və xalq yolunda canından keçən inqilabçıların, Vətən müharibəsi qəhrəmanlarının, xalqın rifahı və səadəti naminə kəşflər edən alimlərin, əmək qəhrəmanlarının, sənətkarların, bir sözlə, seçilmiş adamların adlarını öləndən sonra əbədiləşdirmək məqsədilə görülən bütün tədbirlər (heykəl qoymaq, küçələrə, məktəblərə, ki-

tabxanalara, elmi idarələrə, mədəniyyət ocaqlarına onların adlarını vermək və s.) ölülər üçün deyil, dirilər üçündür. Yəni özündən əvvəl yaşamışların keçdiyi şərəfli həyat yolundan ibrət götürmək üçün dirilər ölülərin adına abidələr ucaldır, onlardan yaşamaq dərsini öyrənir. Demək, dirilər ölüləri yaşatmaqla həm də yaşamağın qayə və məqsədini onlardan öyrənmək istəyir. Bu mənada diriləri ölülər idarə edir. Heç kəs öz varlığını özünə borclu deyil, özündən əvvəlkinə borcludur. Damarlarımızda ata-babalarımızın qanı axır, dodaqlarımızda ata-babalarımızın danışdığı dil, yaratdığı məsələlər, bayatılar, nağıllar səslənir. Biz əsrlərin o tayından gələn böyük bir zəncirin son həlqələriyik. Bu həlqələr bir-birindən üzülsə, nəsillər arasındakı əlaqə üzülər. Beləliklə də, dünənimizi bilmədən, sabahımızı qura bilmərik.

Kim öz atası ilə fəxr etmir? Yeri gələndə atasından bir misal çəkib bununla öz fikrini təsdiq etmək istəmir? Ölmüş atamız haqqında yaxşı bir söz eşitmək bizi fərəhləndirməklə bərabər, həm də özümüz haqqında düşünməyə məcbur edir. İstər-istəməz qəlbimizdən belə bir duyğu ötür. “Kaş, mənim övladım da məndən sonra mənim atam haqqında eşitdiyim belə xoş sözlərdən eşidə biləydi, mənim övladım da atasının adı çəkiləndə mənim duyduğum fəxr hissini duyaydı”. Bu duyğunu ikinci duyğu təqib edir: “Bəs bunun üçün nə lazımdır?” Cavab: “Atam kimi şərəflə yaşamaq, onun adına layiq olmaq”. Demək, ölülərə hörmət, dirilərin həyat yolunu, yaşamaq qayəsini müəyyənləşdirir. Ataların qiymətli sözlərini yada salaq: “İnsan dünyadan iki şey apara bilər, ya rəhmət, ya da lənət”.

Kim dünyadan lənət aparmaq istəyr? Heç kəs! Demək, ölüyə rəhmət oxumağın ölü üçün deyil, yenə də diri üçün əhəmiyyəti var. Bütün xeyirxah adamlara oxunan rəhmət onun yaşadığı zaman elədiyi əməllərinə görədir. Demək, insan rəhməti yaşayarkən qazanır, öləndən sonra deyilir.

Buna görə də Şəfiyevin yas mərasimində mərhumun tərcümeyihalının oxunması təklifini doğru təklif hesab etmək lazımdır.

Mərhumun cənazəsi başında onun tərcümeyi-halı oxunduqca, mərasimə toplaşanlar istər-istəməz mərhumun elədiklərini öz əməlləri ilə tutuşdurmalı olacaq. Ürəklərdə bəd əməllərlə xeyir

xah əməllərin mizantərəzisi qurulacaq. Hər kəs öz vicdanı qarşısında hesabat verməli olacaqdır. Dini kitablarda adı çəkilən "mizantərəzi"ni mən belə başa düşürəm.

Hər bir hüzr məclisində oxunan tərcümeyi-hallar bizə necə yaşamaq, məktub müəllifinin dediyi kimi, "nəyin naminə çalışmaq dərsini öyrətməklə, bizdə həyat məsuliyyətini artıra bilər". Axı, yaşamaq sadəcə yaşamaq deyil, bir məqsəd üçün yaşamaq deməkdir. Məqsəd, əqidə həyatı mənalandırır, çünki məqsəd, əqidə həyatdan da üstündür. Axı, insan əqidə naminə həyatından da keçməyi bacarır.

Şəfiyev davam edərək yazır: "Şairlərimiz cənazənin evdən qaldırılma və qəbrə endirilmə mərasiminə aid dərin məzmunlu, fəlsəfi şeirlər yazmalıdır. Şeirlər təxminən bu mövzuda olmalıdır: "Ey burda yatan qardaş və bacılarımız, ata və analarımız, baba və nənələrimiz, biz sizin ziyarətinizə gəlmişik. Bu gün sizin nəslinizdən birini yanınıza gətirmişik. Bu adam sizin şərəfinizi layiqincə qorumuş, həyatını sizin qoyub getdiyiniz mənəvi sərvətləri - doğruluğu - düzgünlüyü, sədaqəti - ədaləti, adəti və ənənəni qorumaq kimi şərəfli bir işə sərf edib... İndi onu qəbul edin". Dəfn mərasimi bitəndən sonra yenə ölülərə müraciətən təxminən bu sözləri əks etdirən şeirlər yazılmalıdır: "Bizim babalarımız və nənələrimiz, atalarımız və analarımız, qardaşlarımız və bacılarımız, biz indi sizi müvəqqəti tərk edirik. Sizin ad və şanınızı, şərəf və şöhrətinizi, bizə miras qoruyub getdiyiniz gözəl adət və vərdişləri göz bəbəyimiz kimi qoruyub saxlayacaq, nə qədər ki sağıq, sizing adınıza layiq xeyirxah işlər görəcək, yanınıza alnıaçıq, üzüağ gələcəyik. Biz buna and içirik, and içirik, and içirik! Sizə min rəhmət! Sizə min rəhmət!"

Mən bu təklifin və şeir kimi yazılan bu sözlərin müəllifinə əhsən deyirəm. Heç bir dində dəfn mərasiminin bu məzmunda "dualarla" icra edildiyini bilmirəm.

Ölülərə müraciətən deyilmiş bu ibrətli sözlər də yenə dirilərə aiddir. Çünki bu günün dirisi, sabahın ölüsüdür. Qəbir evinə qədər ki yol hələlik ixtiyarımızdadır. Yuxarıdakı sözlər bizə hələlik ixtiyarımızda olan ömrün yolunu şərəflə keçmək, bu dünyadan rəhmət apara bilmək öz əlimizdədir - təlimini verir.

Bir neçə il əvvəl "Ədəbiyyat və incəsənət" qəzetində "Qədir-qiymət, xətir-hörmət" adlı bir məqalə dərc etdirmişdim. Həmən məqalə Ağdam rayonunun Novruzlu kəndində iştirak etdiyim yas mərasimini təsvir edirdi. Mərasimdə mərhumun dostları, yaxın adamları mərhum haqqında xatirə danışır, onun xeyirxah əməlləri - kəndin abadlığı üçün elədiyi işlər yad olunurdu. Eyni zaman da, həyat, onun mənası, ölüm, onun labüdlüyü barədə klassik şairlərimizin fəlsəfi şeirləri oxundu və təhlil edildi. Burada Füzulinin məşhur:

Eylə sərməstəm ki, idrak etməzəm dünya nədir,
Mən kiməm, saqi olan kimdir, meyi-səhba nədir?

qəzəli barədəki mübahisələr məni valeh etdi. Mən hüzr məclislərində klassik şairlərdən şeirlər oxunub təhlil edildiyini bir çox rayonlarımızda, xüsusən Abşeron kəndlərində çox görmüşəm. Deməк, bu ənənə kiminsə tərəfindən uydurulmamış, xalqın öz ruhundan doğmuş, buna görə də onun yaşamaq haqqı vardır.

Yeni adət və ənənələr barədə son zamanlar istər mətbuatımızda, istərsə də müxtəlif məclis və mərasimlərdə tez-tez söhbətlər gedir. Bu yazılar və söhbətlər təsadüfi deyil, zamanın öz tələblərindən doğur.

Nağıllarda və qədim kitablarda təsvir olunduğu kimi, dədə-babalarımız 40 gün 40 gecə, yaxud 7 gün 7 gecə toy edirdilərsə, sürət əsrinin adamlarının buna nə ehtiyacı var, nə imkanı. 30 il əvvəl 2 günə qət etdiyimiz yolu indi 2 saata gedir, lakin bu sürət də bizi təmin etmir. Hər şey bu ayaqdan... İndi zamanımızın öz adətləri və qaydaları yaranmalıdır və yaranır. Bu, bizim iradəmizdən asılı deyil.

Buna görə də bir-iki nəfərin kabinetdə əyləşib özündən uydurduğu adət, yaxud qayda heç bir zaman xalq tərəfindən qəbul edilə bilməz. Yeni şəraitə, yeni dövrə uyğun, əsrin tələblərindən doğan adətləri xalq özü tədricən yaradır. Bizim vəzifəmiz yaranan həmən adətlərə və qaydalara təkan vermək, onu düzgün istiqamətə yönəltməkdir. Yuxarıda danışdığım yas mərasimindən sonra bu qərara gəldim ki, həyat - ölüm, əbədiyyət, həyatın məna və məqsədi, ölüm qarşısında düşüncələr mövzusunda yazılmış ən gözəl şeir incilərini toplamaq və kitab halında nəşr etdirmək! Buna görə də "Gəlimligedimli dünya, son ucu ölümlü dünya" adlı bir kitabın tərtibini boynuma götürdüm. "Gənclik" nəşriyyatının planına saldırdım. S.Vurğunun "Dünya" şeirinin:

Bir də görürsən ki, açılan solur,
Düşünən bir beyin bir torpaq olur.
Bir yandan boşalır, bir yandan dolur,
Sirrini verməyir sirdaşa dünya -

bəndi həmin kitabın epiqrafı olacaq. Bu kitabı nəşr etdirməkdə məqsədim odur ki, hüzr məclislərində oradan örnəklər oxunsun və təhlil edilsin. Bu məsələni və oxucu Şəfiyevin təkliflərini Nazirlər Sovetinin nəzdində təşkil edilmiş vətəndaşlıq adət və ənənələrinin tətbiqi komissiyasının nəzərinə çatdırmaq istəyirəm.

*1978.*
*"Sadəlikdə böyüklük", Bakı 1978.*



## HƏYATIN ROMANTİKASI

***(Yazıçı və mühiti)***

Hər bir yazıçı öz dövrünün övladıdır. Onun yaratdığı əsərlər də həmin dövrün aynasıdır.

Öz köküme dayanmaqla
Öz yurdumun, torpağımın
övladıyam.
Budaq-budaq qollarımla
Öz atamdan daha artıq
Mühitimin, öz çağımın
övladıyam.

Həmin mühitdə yetişib, həmin çağda yaşamaq hələ mühitin və zamanın övladı olmaq demək deyil. Bunun üçün həmin mühitin havası ilə nəfəs almaq, həmin zamanın ruhu ilə yaşamaq gərəkdir.

Keçən il bir rəssamla Moskvadan Bakıya uçurduq. Təyyarədən Günəşin batmasını seyr edirdik. Buludların üstündə idik. Bizdən aşa-

ğıda qalan buludlar qarla örtülmüş geniş düzənliyə bənzəyirdi. Bu qar düzənliyinin üstündə batan günəş qəribə bir mənzərə yaratmışdı. Bizə məlum olan rənglər buradan tamam başqa cür görünürdü. Çünki həmişə buludlara yerdən baxmışdıq. Göydən baxanda buludların rəngi necə də dəyişərmiş! Rəssam buludların rənginə çox diqqətlə baxırdı. O, bu vaxta qədər görmədiyi təzə rənglər tapmışdı. Müasir rəssama bu yeni rəngləri 910 kilometr yüksəklikdə uçan təyyarə bəxş etmişdi... Keçən əsrin rəssamı bu rəngləri görə bilməzdi. Çünki onun belə bir imkanı yox idi. Beləliklə, yeni dünya və bu dünyanın kəşfləri sənətkara yeni mövzular və yeni duyğular bəxş edir. Buna görə də dünyanın bütün ölkələrində ən qüdrətli sənət

karlar müasir səviyyədə durmağı bacaran, həyata müasir gözlə baxan sənətkarlardır.

Sənətkar bu səviyyədə durduqca daim yeni söz deyəcək. Çünki günlərin heç biri o birinə bənzəmir. Əsrimizdə günlərin, həftələrin hərəsi bir mühüm hadisənin adı ilə bağlıdır. Əgər sənətkar həqiqi sənətkardırsa və öz zamanının səviyyəsində durursa, o, bu yenilikləri qələmə aldıqca həmişə təzə söz deyəcək. Nə özünü, nə də başqalarını təkrar edəcək, təsvir etdiyi yeniliklərlə bərabər özü də yeniləşəcək, yüksələcək.

Yox, kosmosa qalxmadı
İnsan.
Əslinə baxsan,
Axırıncı kosmonavt
Cansız maşına deyil,
Güvənib öz qəlbinin
Atəşinə, oduna
Qalxdı insan ağlının
Bugünkü hüduduna.

İnsanın bügünkü uçuş imkanı hələlik Aya qədərdir. Bu sərhədin

genişlənəgenişlənə bir gün ən uzaq ulduzlara çatacağına əminik. Həmişə yenilik, həmişə təzə üfüqlər arxasınca yüksəlişimiz yalnız elmitexniki nailiyyət deyil, həm də mənəvi yüksəlişdir və daxili təkamüldür.

Bir neçə il bundan əvvəl Şəkidə heyvandarlıq kompleksi yaradıldı. Keçən il mən kompleksdə oldum. Burada süd sağımından tutmuş, yem daşınmasına qədər hər şey mexanikləşdirilmişdi. Çox böyük nailiyyətdir. Lakin bir yazıçı kimi mən bu nailiyyətin başqa tərəfini də sağıcıların mənəvi yüksəlişini görürəm. Burada texniki yüksəliş adamlarımızı mənəvi təkamülə gətirib çıxarır. Südü elektriklə sağan sağıcının mənəvi dünyası əllə sağan sağıcının mənəvi dünyasından fərqli olmalıdır. Belə ki, adi sağım işində sağıcının nail olduğu sürət onu ətalətdən qurtarır, mənən dəyişdirir, müasirləşdirir. Eləcə də pambığın əllə deyil, maşınla yığılması. Pambığı maşınla yığan mexanizator dünənki pambıqçı deyil. O, müasir maşının sirlərinə sahib olan, müasir dünyamızın tərəqqisi ilə nəfəs alan yeni insandır.

Bir neçə il bundan əvvəl Bərdə rayonunun "Kommunizm" kolxozunda mexanizator Tərlan Musayevanın sahəsində olduq. Bu gənc qız hər cəhətdən müasir adamdır. Maşını idarə edən qız,

heç şübhəsiz, maşına uyğun paltar geyməlidir. Əynindəki kombinezon, başındakı beret onu döyüşə hazır vəziyyətdə olan əsgərə bənzədirdi. Hərəkətləri, davranışı, əynindəki paltarı mindiyi maşına münasibətdir. Burada da texniki tərəqqi mənəvi tərəqqini gətirir. Respublikamızda yaranmış yeni tipli müasir sənaye ocaqları da orada çalışan fəhlələrin psixologiyasına, mədəni səviyyəsinə öz təsirini göstərir. Əgər 10-15 il əvvəlki fəhləyə natamam orta savad kifayət edirdisə, indi mürəkkəb cihazlar hazırlayan zavodların fəhlələrinə bu savad bəs eləmir. Fəhlələrdən indi dərin bilik, intellekt və mədəni səviyyə tələb olunur. Bütün bunlar elmi-texniki inqilabın təcəssümü və ictimai şüurda böyük dönüşdür. Biz yazıçıların vəzifəsi tərəqqinin, təkamülün bu tərəfini daha artıq görməli və göstərməliyik. İlk növbədə, zamanı qabaqlamaq, gələcəyi görmək

və bu mənəvi təkamülü fəlsəfi baxımdan qiymətləndirməyi bacarmalıyıq.

Hər dəfə qarşımızda duran yeni vəzifələri düşündüyüm zaman istəristəməz böyük ədibimiz Cəfər Cabbarlının "Dönüş" pyesinin qəhrəmanlarından biri olan yazıçı Qüdrət Aslan yadıma düşür. Cəfər Cabbarlı ölkəsinin bugünkü nailiyyətlərini qabaqcadan hiss edirmiş kimi sanki indiki yazıçıların qarşısında böyük problem lər qoymaq məqsədilə bu obrazı yaratmışdır. Vaxtilə yaxşı yazıçı olan Qüdrət Aslan zamandan geri qalır, əsrlə ayaqlaşa bilmir. Bu, əlbəttə, yazıçı üçün böyük faciədir. Cəfər Cabbarlı həmin faciədən qorunmaq üçün bizi həyata ayıq gözlə baxmağa və zamanla səsləşməyə çağırır. Çünki o özü bir yazıçı kimi zamanı qabaqlamağı bacarırdı. Bu cəhətdən onun "Almaz", "Yaşar", "Dönüş" kimi əsərləri bizim üçün örnəkdir. Biz bu günün yazıçıları Cəfər Cabbarlı məktəbindən öyrənib, xalqımızın, dövlətimizin səsinə vaxtında səs verməli, duyğularımızı zamanın səsinə kökləməyi bacarmalıyıq.

Mənəvi təkamüldə əsas amil insanın özözünə kənardan baxa bilməsi, öz eyiblərini görə bilməsi ilə şərtlənir. A.Bakıxanov gözəl demişdir: "Gözlü o adamdır ki, özünü görə bilsin". Özünü görə bilən adamın ittihamçısı öz içində olur. Həmin ittihamçı o adamın əməllərini tənzim edir.

Vətən və xalq vahid bir orqandır. Hər birimiz isə onun üzvləriyik. Bir halda ki, hər birimiz vahid Vətənin, xalqın hissləriyik, demək, birimizin qayğısı hamımızın, hamımızın qayğısı birimizin olmalıdır. Yalnız bu nöqtədə insan mənəvi cəhətdən böyüyür, kamil ləşir, Vətənlə birləşir.

Ədəbiyyatımızın ən mühüm vəzifələrindən biri müasir insanın mənəvi aləmini nəinki əks etdirməkdən, habelə onun təşəkkülünə təkan verməkdən ibarətdir. Bunun üçün elə bir ideal tələb

olunur ki, o, orta əxlaq normalarının və standart əxlaqi görüşlərin fövqünə yüksələ bilsin.

İdeala, ən yüksək arzuya çatmaq, təkamülə qovuşmaq eşqi in-

sanı daxilən ucaldır, təmizləyir və mənən böyüdür. Biz insanın bu keyfiyyətini, bu cəhətini daha qabarıq şəkildə göstərməliyik. Mən belə hesab edirəm ki, son zamanlar biz ideal, müsbət qəhrəman məsələsini bir qədər unutmuşuq. Biz əlayağa dolaşan tüfeylilərə, inkişafımıza əngəl olan qanqallara əsərlərimizdə daha çox yer verir, cəmiyyəti irəli aparan müsbət adamların obrazının yaranmasına az diqqət yetiririk. Burada tərəzinin gözünü əyməmək, gəncliyi mənfiliyin timsalında deyil, müsbətin, ideal obrazların timsalında tərbiyə etmək məsələsini unutmamalıyıq. Bu məsələdə Səməd Vurğunun ədəbiyyatda romantika, gözəlliyə uçuş mövqeyindən çıxış etməli, işıqlı cəhətləri ön plana çəkməliyik. Şübhəsiz, cəmiyyətdə yaxşılıqlarla bərabər pisliklər də mövcuddur. Lakin aparıcı qüvvə yaxşılıqdır, yaxşıları göstərməklə onları nümunəvi qəhrəman səviyyəsinə qaldırmaqla biz pislikləri və eybəcərliyi döymüş oluruq.

Gəncliyin təqlid edə biləcəyi müsbət qəhrəmanlar  bu günün Almazlarını və Yaşarlarını yaratmaq, ədəbiyyatı bu yolla inkişaf etdirmək, ümumdünya səviyyəsinə qaldırmaq bizim qarşımız da duran əsas vəzifədir.

*“Vətən ocağının istisi”, Bakı, 1982.*



## JURNALİST

Biz doğma Bakımızın küçələrində, bəzən də uzaq qərib şəhər lərdə çiynində fotoaparat, əlində qələm və dəftərçə tələsik addımlarla küçənin bu tayından o tayına keçən, müxtəlif idarə və ev qapılarını cəsarətlə döyən, bəzən icazəli, bəzən icazəsiz müxtəlif peşə sahiblərinə yanaşan cavan, yaşlı adamlara tez-tez rast gəlirik. Geyimləri də yerişləri kimi, elə bil, onlar üçün vaxtın çatışmazlığından gileylənir, çiyinlərində aparat yellənir, sağ ciblərində təzə qəzetlər, sol ciblərində yenicə tamamlayıb, səliqəsiz halda ciblərinə qoyduqları qeydlər, yaxaları açıq, hərəkət ləri narahat, üzləri gülər bu adamlar bizim mətbuat işçiləri, jurnalistlərdir. Onların ən çox işlətdiyi sözlər:

- Bağışlayın, sizi narahat etsəm də, bir dəqiqə...

Lakin onlar bu bir neçə dəqiqəlik tələsik söhbətlərdə böyük xariqələr yaratmış adamların illər uzunu çəkdikləri böyük zəhməti, fədakarlıq və qəhrəmanlıq dastanını bir neçə səhifəyə sığışdırır, xalqa çatdırır.

Jurnalist əməyinin bir neçə dəqiqəsi uzun və şərəfli ömürlərin abidəsi kimi səslənir.

Onlar həmişə cəmiyyətin önündə gedir, qəzet səhifələrindəki hər təzə imzaları ilə bizə böyük bir yenilikdən xəbər verirlər. Onlar hələ heç kəsin tanımadığı adamları bizə tanıtdırır, meydana çıxardıqları təzə qəhrəmanların şöhrəti ilə fəxr edir və bu iftixar onların mükafatına çevrilir.

Jurnalistin böyük əməyi, bir növ, kosmonavtları göyə qaldıran gəmilərin ixtiraçıları olan, bu gün cəmiyyətin tanımadığı alimlərin əməyinə bənzəyir.

Əgər əmək qəhrəmanları, böyük ixtiraçı alimlər və incəsənət xadim ləri işlərin qəhrəmanlarıdırsa, jurnalist özü bu günün, hər yeniliyin, hər xoş xəbərin çarçısıdır, qəhrəmanıdır. Otuz-qırx il qələmini süngüyə çevirib ölkəmizi kənd-kənd, oymaq-oymaq, şəhər-şəhər gəzən bu adamlar hamı haqqında yazır. Lakin bir dəfə də olsa, özü haqqında yazılmasını heç kəsdən ummur. Jurnalist xoş xəbərlərin ilk qaranquşu, canlı həyatın katibi, günün danışan dilidir. Mətbuat işçisi ən ayıq adam, tükü-tükdən seçməyi bacaran bir psixoloq, bir əməlpərvərdir. Jurnalist, hər şeydən əvvəl, böyük amal və böyük duyğularla yaşayan vətəndaşdır. Bu böyük vətəndaşın ürəyi cəmiyyətin ürəyi ilə bir döyünür. Onun nəbzində dünənin yox, bu günün və hətta bu saatın, bu dəqiqənin nəbzi vurur. Onun gözləri hamıdan iti, qəlbi hamıdan həssas, fikri hamıdan aydın olmalıdır. Biz onu ən çətin yerlərdə hamıdan qabaqda görürük. Jurnalistin gözü obyektə tuşlanan fotoaparatın gözü qədər həyatı dəqiq və düzgün görür.

Biz səhər tezdən yuxudan qalxır, əl-üzümüzü yuyan kimi qəzet lərə baxmaq, gündəlik hadisələrdən xəbərdar olmaq, təqvimdə gördüyümüz günün havası ilə nəfəs almaq istəyirik. Qəzeti oxuyub bir kənara qoyuruq, lakin oxuduğumuz bu şad və bəzən də kədərli xəbərlərin qəzet sütunlarına nə cür gəlib düşdüyündən xəbərimiz olmur. Jurnalist kiçik bir xəbəri ilk qaynaqdan alıb bizə çatdırmaq üçün bəzən qatar və təyyarələrdə uzaq məsafələri qət edir, hadisə yerinə gedir, müxtəlif çətinliklərlə adamları tapır, onlardan məlumat toplayır və dərhal redaksiyaya çatdırır. Biz isə səhər-səhər evimizdə

rahat oturub bu xəbərləri həyəcanlı, həyəcansız oxuyuruq.

Gəlin, qəzetlərin hər nömrəsində məqalə və məlumatların altındakı imzalara hörmətlə baxaq. Müəlliflərinin bu şərəfli və çətin əməyinə görə onlara sağ ol deyək. XX əsrin ən böyük yazıçılarından biri E.Heminquey yazıçılığa jurnalistlikdən gəlmişdir. Hələ müharibədən əvvəl İspaniya hadisələrində biz onu cəbhənin ön xəttində görmüşük. O, göydən yağan bombaların, yerdən yağan güllə yağmurunun altında irəli getmiş, ən gözəl əsərlərini müharibə alovları içərisində yaratmışdır. Eyni sözləri görkəmli rus ədibi və jurnalisti İlya Erenburq haqqında da demək olar. Erenburq məşhur "Sülh uğrunda" adlı oçerklərini və publisistik məqalələrini Böyük Vətən müharibəsi cəbhələrində yaratmışdır. O zaman Hitler "Katyuşa" kimi yeni tipli sovet silahı ilə bərabər, Erenburq kimi qüdrətli qələm sahiblərinin, jurnalistlərin qələmindən də eyni dərəcədə qorxurdu.

Bəzən belə iddia edirlər ki, yazıçı təxəyyül, jurnalist isə faktlar əsasında yaradır. Məncə, bu fikir o qədər də dəqiq deyildir. Yazıçıya həyatı fakt lazım olduğu qədər jurnalistə də bədii təfəkkür və

təxəyyül lazımdır. Jurnalistlərin ən gözəl yazıları bu iki amilin faktla təfəkkürün vəhdətindən yaranmışdır.

Yeri gəlmişkən, deyək ki, bəzi hallarda qəzetlərdə oxuduğumuz məqalələr bədii təfəkkürdən və təxəyyüldən məhrum olur. Oxucular belə yazılardan ikrah edir. Axı, quru fakt və rəqəm oxucuda gözəl hisslər və fikirlər oyada bilməz. Əsl jurnalist bu faktların və rəqəmlərin arxasında duran böyük duyğulardan, arzulardan danışmalı, faktları ümumiləşdirməli, onları poetikləşdirməlidir. Əmək qəhrəmanlarımız tarlalarda və neft mədənlərində misilsiz igidliklər göstərir. Jurnalist bu qəhrəmanlığı, sadəcə, təsvir etməklə kifayətlənə bilməz. O, bunun səbəbini, qəhrəmanı igidliyə səsləyən böyük duyğuları, bir sözlə, onun insani sifətlərini də göstərməyi unutmamalıdır. Axı, journalist faktların deyil, canlı həyatın katibidir.

İndi Azərbaycanda böyük jurnalistlər ordusu yaranmışdır. Bu or-

dunun qoca və cavan nümayəndələri çoxdur. Sevindirici haldır ki, bu gözəl qələm sahibləri birbirindən yalnız yaşca və

işlədikləri orqanın adı ilə deyil, üslubca da, xətcə də fərqlənirlər. Mətbuat günü münasibətilə mən yazıçılar ordusu adından qələm dostlarımız olan jurnalistləri təbrik edir, qələmlərinin daha kəsərli olmasını arzulayıram. Onlar cəmiyyətimizi irəli aparan qəhrəmanların şərəfli əməyini daha artıq işıqlandırsınlar, tüfeylilərə, əliəyrilərə qarşı daha amansız olsunlar.

*"Dərin qatlara işıq", Bakı, 1986.*



## VAXT VƏ İNSAN HAQQINDA DÜŞÜNCƏLƏR

XX əsr insanının ən böyük qazancı sürətdir. Bu sürət az vaxt ərzində çox iş görmək arzusundan doğmuşdur. Bu arzunun nəticəsidir ki, insan arabadan avtomobilə, avtomobildən təyyarəyə mindi, xışdan traktora, məktubdan telefona, lələkdən avtoqələmə, ülgücdən, elektrik üzqırxanına, ocaqdan qaza, teatrdan televizora, sayğacdan kibernetik maşınlara keçdi. Bunlar hamısı vaxtdan vaxtı oğurlamaq, artıq vaxt qazanmaq, əməyi yüngülləşdirmək üçündür.

Haşiyə: Əldə etdiyimiz sürətin hesabına babalalırımızın bir günə gördüyü işi bir saata görmək imkanı qazandıq... Bununla bərabər, yenə də vaxt çatmır. Hamımız üçün vaxt azlıq edir. Tanış-bilişlə, dostaşna ilə, qohum-qardaşla görüşməyə, ata-analarımızın qəbrini ziyarət etməyə vaxtımız çatmır. Görəcəyimiz işləri də vaxtında və lazımi səviyyədə görməyə vaxtımız azlıq edir. Ən vacibi, duyğu və düşüncələrimizlə başbaşa verib, onları çözələməyə, iç dünyamıza baş vurmağa vaxt tapmırıq. Bu, niyə belədir? Bəs, sürət hesabına qazandığımız o artıq vaxt hara getdi? Babalarımızın 24 saata gördüyü işi bir saata gördüyümüz halda, bəs qazandığımız 23 saat hanı?

O vaxt nəyə sərf olunur? O vaxtın yerini mənə göstərən olsa, mən onun ətəyindən tutar, onun əli ilə nələr eləməzdim... Babam üçün bir saat 5 kilometrlik ŞəkiKiş yoluna sərf olunan vaxt isə, mənim üçün qitədən-qitəyə uçuş müddətidir. Belə olduqda, bir saat babam və mənim üçün eyni vaxt ölçüsü, eyni müddət ola bilərmi? Mən qazandığımız vaxtı, saatın, günün və ayın ömründən çıxar, yeni vaxt ölçüsü yaradardım. Yəni, 60 dəqiqədən ibarət olan 1 saatdan 59 dəqiqəni çıxar, bir saata bir dəqiqə deyərdim.

Bir dəqiqədə bir saatın işini görən, bir saatı bir dəqiqə, bir ayı bir gün kimi yaşayan insanın xarakteri də bu sürətin təzyiqi ilə dəyişir, başqalaşır. Buna görə də heç şübhəsiz çağdaş insanın xarakteri, zövqü arasında çox böyük fərq və uçurum olmalıdır. Baba ilə nəvə arasındakı uçurumda bir əsrin hadisələri, təlatümləri, kəşfləri və yenilikləri dayanır. Demək, bizi başqalaşdıran, xarakterimizi dəyişdirən fikir, düşüncə, zövq, baba ilə nəvəni təmsil edən iki vaxt arasında meydana gəlmiş ictimai və mənəvi yeniliklərə borcludur.

Əsrlər arasındakı fərqlər əsrimizdən əvvəlki əsrlərdəmi bu qədər kəskin olmuşdur? Mənimlə babam arasında olan fikir, düşüncə, zövq fərqinin ölçüsü babamla öz babası arasında olan fikir

və zövq fərqinin eynidirmi? Şübhəsiz, hər şey hər zaman dəyişir, yeniləşir. Babamla da öz babası arasında zövq, düşüncə fərqinin olması labüddür. Lakin bu fərq əsrimizdə daha kəsgin şəkil almışdır. Bunu yalnız ictimai formasiyaların müxtəlifliyi ilə deyil, həm də buna münasib mənəviyyat dəyişiklikliyi ilə şərtləndirməliyik. Əsrimizin çox böyük təlatümlər, ictimai hadisələr, ictimai çevrilişlər, inqilablar, kəşflər və möcüzələrlə yüklənməsi, nəsillər arasında fərqin və uçurumun kəsginləşməsinə gətirib çıxarmışdır. Əyani bir misal: 7 arxa dönənimdən atama qədərki nəsillərin nəqliyyat vasitəsi at, araba olduğu halda, atamınkı avtomobil, mənimki isə təyyarədir. İndi biz bu sürətdən qorxmağa başlamış, elə bil ki, vaxta "dayan!" deyə yalvarmaq istəyirik. XX yüzilliyin bu sıçrayışı əsrin adamlarının xarakterində də saçrayış şəklində özünü göstərdi.

Amerika hindiləri bir zaman belə deyərdi: "Sabah bu günün başqa adıdır". Yəni, sabah heç bir cəhəti ilə bu gündən seçilməyəcək. Çünki o zaman vaxt ləng ötür, günlər birbirinə bənzəyirdi. Atalarla oğulların düşüncə tərzində də kəsgin fərq ola bilməzdi. Bu gün belə Hindistanda yaşayan bir çox xalqların dilində, o cümlədən hind dilində "dünənlə" "sabahın" eyni sözlə ifadə olunması da maraqlı hadisədir. İndisə... Bir yandan tələsir, bir yandan da tələsməyin faydasızlığını dərk edib təzadlar içərisin də çırpınırıq. Biz nə qədər tələssək də, təbiət öz təbiətindən çıxmır, bəlkə də, bizim atılıb düşməyimizə içiniçin gülür... Biz tələsirik, təbiətdə isə heç bir şey tələsmir. Günəş vaxtında doğur, vaxtında batır. Bahar vaxtında gəlir, qış da öz vaxtında gedir. Biz isə onları qabaqlamaq istəyir, vaxtdan vaxtı oğurlamaq arzusu ilə yaşayırıq. Bizim bu canfəşanlığımıza təbiət gülməsin, neyləsin? Bu da bir həqiqətdir ki, əgər vaxdan öz vaxtında istifadə etməsək, vaxt ölür. Vaxtın dəyəri tələbatdan doğur, çünki dünyada hər şey nisbidir. Müəyyən müddətdə görüləsi iş həmin vaxtın dəyər ölçüsüdür. Əslində, nə az var, nə çox... Miqdar da tələbatın övladıdır. Eyni vaxt, o müddətdə görülən işlə az, yaxud çox görünə bilər. Bayatıda deyildiyi kimi "İl var, bir günə dəyməz, gün var, min aya dəyər".

Vaxtı tutub saxlamaq, hardasa gizlətmək, lazım olduğu zaman xərcləmək mümkün deyil. Onu lazım olduolmadı, istifadə etməyə, xərcləməyə məcburuq... İşgüzar adamlar vaxtını görəcəyi işlərə görə bölür. İş arzunun, diləyin həyata keçirilmə vasitəsidir. Vaxtı günə, aya, ilə bölmək olar, amma arzulara bölmək olmaz:

Ömrümüzü günə, aya bölmüşük,
Min arzuya, min diləyə böl görüm...

Təzadlar... Təzadlar... Bu təzadlar təlatümündə dəyişən, mürəkkəbləşən xislətimiz, xarakterimiz...

İndi qazandığımız sürətlə ayaqlaşmaq üçün qollarımızdakı saa-

tın əqrəbləri bizi burdanora, ordanbura qovur, amma vaxta çata bilmirik. Amma bir şeyi unuduruq ki, biz vaxtı qova-qova həm də özümüzü özümüzdən qovur, təkləşir, öz təbiətimizdən, öz varlığımızdan və mahiyyətimizdən uzaqlaşırıq...

Bir zamanlar
Mən özümə bənzəyirdim,
öz baharım, öz nübarım.
Heç kimsəyə
yoxdu mənim bir oxşarım.
Bəs, aradan nə keçdi ki,
Özözümü danan oldum,
Bircə sözlü gerçək idim,
Neçə sözlü güman oldum.
İndi mən də mən deyiləm,
oyam, buyam.
Öz ömrümün oğrusuyam.
Özözümlə görüşməyə,
İçimdəki ağrıları
Ağlım ilə ürəyimin arasında
bölüşməyə
Vaxt tapmıram.
Günüm keçir orda, burda,
Ərimişəm qayğılarda.
Bu oxşarlıq, bu eyniyyət çəmənində
Mən özümü itirmişəm, karıxmışam.
İndi dönüb özüm üçün darıxmışam.

Bu təzadlar təlatümündə başqa bir sual meydana çıxır: Sürət hesabına qazandığı vaxt insanı xoşbəxt edə bildimi? Bu nöqtədə qazandığımızla itirdiyimiz üzüzə dayanır:

Baş vururuq gah suya,
Əl atırıq gah oda.
Tapdığımız qədər də
İtiririk dünyada...

İçindən çalxanmadan
Süd də dönüb yağ olmur.
Nəyisə itirmədən
Nəyisə tapmaq olmur.

Sürətdən qazandığımız vaxt bizim əlimizdə ikən biz ona hakim kəsilə bilmir, əksinə, daha artıq onun quluna çevrilirik.

Qazancın iki ucu:
Həm xeyri, həm bəlası.
Yollardakı qəzalar
Sürətin öz bahası.

Bir yandan qazanır, bir yandan uduzuruqmu? Daha doğrusu, qazancımız ziyanımızamı çevrilir?

Hara gedir bu sürət,
Hara gedir bu gərdiş?
Bizim qazandığımız
Bizə qənim kəsilmiş?

Hələ bu harasıdır? Sabahın robotlarının imkanlarını düşünəndə adamı dəhşət götürür. Bu barədə dünya ədəbiyyatında yaranmış fantastik romanlarda insanın yaratdığı robotlar insanı və onun yaratdığı minilliklərin sivilizasiyasını məhv edir. Ulu babalar uydur duğu nağıllarda təyyarəni xalça kimi təsəvvür edir, sürəti xoşbəxtlik sayırdı. Bu əsrin adamı isə sürətdən qorxmağa başlamışdır:

Nağıl döndü gerçəyə
Bu məqamda biz artıq
Sürəti yox,
əyləci
Tapana minnətdarıq.

Qəlbinin dərinliyində sürətə “dayan!” deyən insan, həm də sürətin əsiridir, çünki ona möhtacdır. Çünki az vaxt içərisində çox iş görə bilməsə, vaxt onu tapdayıb üstündən keçəcək. Vaxtla ayaqlaşmağın yolu yenə sürətə pənahdır.

İnsanın təbiətində həmişə bir axtarış hərisliyi var. Bax, bu həris lik tərəqqinin, inkişafın uçuş nöqtəsidir. İnsanın bu hərisliyi məchulu məluma, qaranlığı işığa, arzunu həqiqətə çevirir. İnsan həmişə axtarır. Bu axtarış yollarında yıxılanda tapır. Yıxılanda onu tapır ki, arxın bu tərəfindən deyil, o biri tərəfindən tullanmalı idi. Deməк, insan axtaraaxtara nəyisə itirir, itirdiyi yerdə nəyisə tapır. İtirdiyindən öyrənir, öyrəndiyindən tapır. Tapdığıyla itirdiyi bir yerdə olur, 2 tapıntını bir yerdə görə bilmir. Tapanda itirmək var, tapanda tapmaq yoxdur. Günəşlə Ayı bir yerdə görmək mümkün olmadığı kimi. El demişkən, iki xoşbəxtlik bir yerdə ola bilməz.

Yaratdığımız nəhəng zavodlar, fabriklər, robotlar, maşınlar təbiətin gizli sərvətini ixtiyarımıza verir, işimizi yüngülləşdirir.

Bir-birindən doğan inkarlar, təzadlar... Bu təzadları öz içindən keçirən, bu təzadlardan bəzən baş açan, bəzən aça bilməyən... İnsan psixologiyası mürəkkəbləşir və bunlar onun xarakterini dəyişdirir.

Müasir İran yazıçısı Firudin Tonkabani “Tənbəlliyin tərifi” hekayəsində əldə etdiyimiz tərəqqini yumoristik olaraq insanın tənbəlliyi ilə izah edərək yazır ki, liftlər, elektrik üzqırxanları, paltar yuyan maşınlar, avtomatlar, hesablayıcı maşınlar, tərəqqiyə avtomat düymələr və s... hamısı insanın tənbəlliyinin nəticəsində icad olunmuşdur. Hekayə belə qurtarır: “Bilmirəm, hardasa oxumuşam, ya-

xud eşitmişəm, əgər tənbəl olmasaydıq, biz hələ yenə də kahalarda yaşayardıq".

Elmi-texniki tərəqqiyə ironik baxış təsadüfi deyil. Qazandığımız la itirdiyimizin qarşılaşmasından doğan bu eyham artıq müasir insanı düşündürməyə başlamışdır. Təbiət insanı elə yaradıb ki, o gərək həmişə hərəkətdə olsun. Hərəkətsiz insan ölüdür. Hərəkət insanın yaşama stimuludur. İnsan evində oturub kinoya, teatra baxır. İş o yerə çatıb ki, qalxıb televizorun düyməsini də basmağa darılır, "Molniya" ilə kanalı dəyişir, beləliklə, liftlər, molniyalar, avtomatlar, robotlar insanı hərəktsizləşdirir. Bunun da nəticəsin də qazandığının bahasını hipertoniya, infarkt kimi xəstəliklərlə ödəməli olur.

Təbiətin verdiyi yun və pambıq paltarları sintetika ilə dəyişmiş, xəstəliklərimizi otələflə deyil, kimyəvi dərmanlarla müalicə edir, yaratdığımız fabrik və zavodların tüstüsü içərisində boğuluruq, özümüzü əməllərimizin hədəfinə çevirmişik.

Təzada baxın! Öz sərvətlərini böyük səxavətlə bizə bəxş edən anamız təbiətin anasını ağladır, onun sinəsinə dağ çəkirik... Bunu da bilirik ki, havanın zəhərlənməsi və ətraf mühitin çirklənməsi bizə çox baha başa gəlir. Yenə qazandığımız yerdə uduzur, tapdığımız yerdə itiririk.

Kibernetik maşınlar, avtomatlar, robotlar, fabriklər, həqiqətən, insanın işini, zəhmətini xeyli yüngülləşdirir. Bununla belə, insanın fantaziyasını əlindən alır, düşüncəsini şablonlaşdırır, onu öz bildiyi kimi düşünməyə qoymur. Daha doğrusu, düşüncədən qanadı alır. Bir misal: kənddə idim. Uşaqlar məftildən qayırdıqları araba ilə oynayırdılar. Şəhər uşaqlarının fabrikdə düzəldilən bəzəkdüzəkli, şablon oyuncaqları ilə kənd uşaqlarının özlərinin düzəltdiyi əyriüyrü, bəzəkdüzəksiz fərdi oyuncaqları müqayisə edin! Fabriklərdə mütəxəssislərin düzəltdiyi, xüsusi rəssamların boyadığı şablon oyuncaqlar uşaqların fantaziyasını əlindən almırmı? Onların təbiətini oyuncaqları kimi şablonlaşdırmırmı? Hələ körpə ikən oyuncaqlarını özləri düzəldən kənd uşaqlarında yaradıcılıq qabiliyyəti baş qaldırır,

təxəyyülləri zənginləşir, fərdiyyətləri müəyyənləşir. Onların hər biri öz oyuncağını özü istədiyi kimi, öz zövqünə uyğun şəkildə yaratdığı zaman, o, özünü də yaradır. Birinin oyuncağı o birinə bənzəmir. Burdan da fərdiyyətin müxtəlifliyi meydana çıxır.

Bundan başqa, insan üçün zəhmətlə əldə etdiyi nə varsa, qiymətli olur. Zəhmət dəyərin dərəcəsini müəyyənləşdirir. Oyuncağını özü düzəldən uşaq, əvvəla, körpəlikdən zəhmətə alışır, ikincisi, düzəltdiyinin qədirqiymətini bilir. Ancaq hazır oyuncağa zəhmətsiz malik olan uşaq üçün oyuncaq maraqsız və qiymətsiz olur. Daha doğrusu, maraq bir iki saatdan sonra ölür. Zəhməti ilə özünə oyuncaq düzəldən uşaq üçün isə həmən oyuncağın qiyməti ona çəkdiyi zəhmətin qədəri qədər qiymətlidir. Buna görə də uşaq özü düzəltdiyi oyuncağı göz bəbəyi kimi qoruyur və əlinin zəhməti ilə öyünür. Bu oyuncaqla o, yalnız əylənmir, eyni zamanda, öz qabiliyyətini nümayiş etdirir.

Bir el misalı: Ata tənbəl oğluna tapşırır ki, mütləq işləməli, hər axşam ona qazancını təhvil verməlidir. Oğlan bütün günü veyillənir, axşam yalvaryacarla anasından aldığı bir abbasını atasına təhvil verir. Ata pulu alıb ocağa atır, oğlan gülür. Bu, bir həftə davam edir. Bir gün ana oğluna başa salır ki, daha pul yoxdur, mütləq işləməlisən. Oğul ertəsi gün erkən işə gedir, bütün

günü daş daşıyır, vurtut 10 qəpik pul qazanır. Axşam şəstlə 10 qəpiyi atasına verir. Ata eyni qayda ilə pulu ocağa atanda oğul qışqırır:

Ay ata, neyləyirsən? Bu 10 qəpiyi qazanmaq üçün bütün günü çiynimdə daş daşımışam. Necə qıyıb onu ocağa atırsan?

Bu dəfə ata gülür.

Özü qazanmadığı 20 qəpik ocağa atılanda gülən oğlan, özü qazandığı 10 qəpiyin ocağa atılmasına üsyan edir. Çünki bu 10 qəpik də onun zəhməti, alın təri var.

...Beləliklə, insanın insanlıq dərəcəsi ən qədim zamanlardan onun çəkdiyi zəhmətlə, zəhmətin qədəri ilə ölçülmüşdür.

Demək, zəhmət insanın dəyər ölçüsüdür. Bu mənada F.Engelsin "İnsanı insan edən zəhmətdir" düsturu fikrimizi tamamlayır.

Belə olduğu təqdirdə, asan əldə edilən xoşbəxtlik insanı heç vaxt tam mənada xoşbəxt edə bilməz. Bu mətləbin üstünə qayıdacağıq.

Haşiyə: Yazıçı əlinə qələm götürəndə nə yazacağını əvvəlcədən ümumi şəkildə bilir. Amma yazı məqamında çox vaxt əvvəlcədən düşünülməmiş məsələlər, problemlər ortaya çıxır. Budaqdan budaq ayrıldığı kimi, fikirdən də fikir doğur... Bir vaxt ayılıb görürsən ki, əsas mətləb qaldı bir tərəfdə, tamam başqa məsələyə, ayrı bir mətləbə gəlib çıxdın. Nə olar? Bu da bir yoldur. Getdiyin yolda atın başını çəkmək də olar, çəkməmək də... Əgər sən əvvəlcədən məlum olan yolla getsən, məlum mənzərələrlə qarşılaşacaq, yol da sənin üçün maraqsız olacaq. Amma atın başını çəkməsən, sənə tanış olmayan cığırlara düşəcək, bu cığırlarda yeni mənzərələrlə qarşılaşacaq, yol da yolçu üçün maraqlı olacaq. Mən də mətləbdən mətləbə, fikirdən fikrə, müşahidədən müşahidəyə keçdikcə özüm də özüm üçün açılır, bildiklərimi zamanın tərəzisində çəkir və görürəm ki, şəxsi müşahidəmdən çıxaraq dediklərim, çoxdan, lap çoxdan bəşəriyyətə məlumdur. Bəzən mən açıq qapını döyür, içəridə kimsənin olmadığını bildiyim halda cavab gözləyirəm. Heç demə, bu, eləbelə də olmalıymış... Hər qələm sahibi öz zəmanəsinin təlatümlərini, birbirini inkar edən təzadlarını öz qəlbindən keçirib dünyaya təzə gözlə baxmaq istəyən də əvvəlcə elə güman edir ki, onun gördüyünü yalnız o görür. Gördüklərini yazıya köçürəndə fikirlər, duyğular cisimləşir, aydınlaşır, yalnız onda başa düşür ki, onun gördüklərini çoxdan görüb, çoxdan deyiblər. Heç demə, dünyada deyilməmiş söz, duyulmamış hiss yox imiş. Bəs onda nə olsun? Deyilməmiş bir fakir qalmayıbsa bəs biz nə yazırıq və niyə yazırıq? Məsələ belədir ki, əgər biz özümüzə qədər deyilənlərin hazır düsturlarını təhlildən keçirib, onları təsdiq ediriksə bu, mənasızdır. Çünki klassiklərin təsdiqə ehtiyacı yoxdur. Lakin əgər biz öz müşahidəmiz əsasında bizdən asılı olmayaraq həmən nəticələrə gəliriksə, bu, maraqlıdır. Burda maraqlı

olan mənzil başı deyil, mənzilə çatana qədərki yoldur. Mənzil başına çoxdan açılmış məlum yolla gəlmək başqa, açılmamış, məchul yol isə tamam başqadır.

C.Cabbarlının "Aydın" pyesində Aydının aşağıdakı sözlərinə diqqət yetirin: "Mən istəyirəm sevdiyim məni sevməsin. Ona çatmaq ümidi ilə yüksəlmək, çırpınmaq, çarpışmaq, yuxusuz gecələr, qanlı vuruşmalar, əzab, göz yaşları, mübarizə..."

Bu, nə deməkdir? Necə yəni mən istəyirdim, sevdiyim məni sevməsin? Bu real düşüncədirmi? Real deyil, lakin həqiqətin başqa tərəfidir, yaşamaq üçün stimuldur. Nədir yaşamaq? Hər nəfəs alan, hər çörək yeyib çay içən, 8 saat işləyib 8 saat yatan yaşayırmı? Yox! Yaşamaq nəyinsə uğrunda çarpışmaq, nəyinsə eşqinə alışıb yanmaqdır. Gözəllik nəyəsə malik olmaqda deyil, malik olmaq istəyinin uzaqlığında, əlçatmazlığındadır. Yalnız ona çatmaq arzusunda həyat məna kəsb edir, məzmunlaşır, gözəlləşir.

Mən bu fikrə "Aydın"ı oxuyandan sonra gəlməmişdim. Mən bu fikrə öz müşahidələrimdən, öz daxili yanğımdan gəlib demişdim:

Yaşamaq yanmaqdır, yanasan gərək
Həyatın mənası yalnız ondadır.
Şam əgər yanmırsa yaşamır demək,
Onun da həyatı yanmağındadır.

Əgər yanmırsansa yaşamırsan... Sönmüş şam kimi ölüsən! Həyat yalnız mübarizədə, nəyinsə eşqinə alışıb yanmaqda məzmunlaşır, məna kəsb edir. Bu fikri yunan filosoflarından üzü bəri bütün düşünən adamlar deyib. Lakin hər biri öz müşahidəsindən, öz mübarizəsindən, öz yanğısından çıxaraq... deyiblər.

Gəlirəm əvvəlki mətləbin üstünə: Asan əldə edilən xoşbəxtik insanı xoşbəxt edə bilməz. Belinski deyir ki, Romeo Cülyettaya qovuşsaydı, onların həyatında əsnəmə dövrü başlanacaqdı. Demək, gözəllik arzunun özündə deyil, ona çatana qədərki iztirablı yolda-

dır.

Ay haqqında olan gözəl əfsanələr, Aydan torpaq gətirməklə bitdi... Daha doğrusu Ay adiləşdi. Xəyal puç oldu...

Nəsimi deyir: “Mənəm haqq, mənəm həqiqət”. Yəni, mən həqqi, həqiqəti dərk etmək qüdrətinə malikəm. Başqa sözlə, mən qadirəm... Bu da həqiqətdir ki, insan hələ beyninin bütün imkanların

dan istifadə edə bilmir. Alimlərin fikrincə, istifadə etdiyimiz 6-ca faizdir. Əgər planetimiz XXI əsrə salamat çatarsa yəqin ki, insan beyninin imkanları daha da genişlənəcək... Onda qadir insanın vay halına! Mən insanın qüdrətindən qorxuram. Mən ondan qorxuram ki, qeyri adiliklər adiləşə, dünyadan gözəllik köçə! İnsanda heyrət qalmaya!..

- İnsan heyrətlənə bilməsə nə olacaqmış?.. Heç nə, maşın!.. Əlbəttə, maşın insanı çox yerdə əvəz edə bilər... Amma insan kimi heyrətlənə bilmir, sevə bilmir.

Heyrətsiz və sevgisiz dünyanı təsəvvürünüzə gətirə bilirsinizmi?

Bir dəfə Qara dəniz sahilində bir qayanın üstündə oturub dənizə tamaşa edirdim. Qayalara toxunub şırıldayan suyun səsi... nəğməsi... Adama elə gəlir ki, dəniz sahilə nəsə deyir, ondan nəsə tələb edir... Məhz əsəbi tələb... fikirləşirdim: su nədir? Nədən əmələ gəlib? Cavab məlumdur: yağışdan... Yağış nədən əmələ gəlib? Cavab məlumdur: Buluddan. Bəs bulud? və s... Bu zaman mənimlə bir sanatoriyada qalan otaq yoldaşım çiynimə toxundu:

- Nə fikirləşirsən?

Dedim:

- Fikirləşirəm ki, bu su nədir?

Kişi əlini əlinə vurub güldü:

- Hələ bilmirsən? Su H2Odur.

Afərin! Bayaqdan şırıltısı ilə qulaqlarıma nəğmə oxuyan su, heç demə, H2O imiş. Deməsəydi, bilməyəcəydim. Sağ olsun!

Mənim qulaqlarıma min bir sirr pıçıldayan suyu bu kişi düstur

qəlibinə saldı... Bax beləcə, düstur qəliblərində yaşayan, gözəllik duyğusundan və heyrətdən məhrum adamlar sənə sevginin də düsturunu deyə bilər: “Sevgi dəmirlə maqnitin əlaqəsindən törəyib”.

Beləlləri üçün qeyri-adilik anormallıqdır. Hər şeyin yalnız maddi tərəfini görüb, mənəvi dünyadan xəbərsizlər sevgiyə də dəlilik kimi baxır, insanın ən ali hissini belə maddiyyat tərəzisin də ölçürlər.

“Bir sevgi ki, sənə xeyir gətirmir, neyləyirsən onu?” Sevgi və xeyir! Bir az da irəli getsə, qazanc! Sevgini, gözəllik duyğusunu xeyir və qazancla ölçmək! Nə böyük mənəvi yoxsulluq!

1949-cu ildə Daşkəsənə getmişdim. İnsan ləpiri dəyməyən dağların gözəlliyindən doymaq mümkün deyildi. Əyri-üyrü yollarla at belində dağların zirvəsinə qalxdıq. Təmiz dağ havasının, dağ çiçəklərinin ətrindən bihuş olduq...

Keçən il də Daşkəsənə getdim. Altı üstünə çevrilmiş, sinəsi dağıdılmış dağlara yazığım gəldi. Boyca özündən min dəfələrlə kiçik olan insan bu “gözəllik məskəni” olan dağların başına nə oyun açır... Adam dəhşətə gəlir.

Nəhənk dağları əridib dəyirman kimi üyüdüb lazım olan filizi bir tərəfə, filizsiz böyük daş parçalarını isə başqa bir tərəfə atır. Bu gərəksiz daş qalaqlarından yaranmış eybəcər təpələr rayonun bütün ərazisinə səpələnmişdir.

1949-cu ildə gördüyüm çəmənçiçəkli dağların yerində daş qalaqlarından yaranmış təpələr silsiləsi uzanıb gedir. Təbiət insanın əlilə nə qədər miskinləşmiş, nə qədər eybəcərləşmiş!

Təbiəti bu qədər amansızcasına dağıdan insan bu dünyadan nə istəyir? sualını verməmək mümkün deyil. İnsan dağlardan xeyir istəyir, qazanc götürür... Nə olar, bu da əsrin tələbidir.

Bu dağlardan götürdüyümüz maddi qazancı görməklə bərabər, bu qazancın arxasında gizlənən mənəvi ziyanı niyə görə bilmirik? Biz dağları dağıdarkən bugünkü qazancımızla bərabər sabahkı ziyanımızı da görməyi bacarmalıyıq. Bunun üçün bizə sabahı görməyi bacaran mənəvi göz lazımdır. Mənəvi göz isəalışıb yanan ürəkdən

baxır, sinəmizdə elə bir ürək yox isə, biz hansı gözlə sabaha baxıb ordakı dəhşətləri görə bilərik?

"Literaturnaya Litva" jurnalında yol çəkmək üçün 2 şam ağacını kəsdirən kolxoz sədrinin məhkəməyə verildiyini oxuyanda başdan-başa məhv edilən Sultanbud meşəsinin faciəsini düşündüm. Dünən gözümüzün qabağında ana torpağımıza çəkilən bu dağa biz etiraz səsimizi ucaltmadıq, amma sabah bunun cəriməsini verməli olacağıq. Kim verəcək o cəriməni? Bu gün məni yandıran budur ki, sabah bu cəriməni bu torpağın sahibi olan nəvələrimiz verməli olacaq. Biz isə babalarımızdan miras qalan torpağımızı nəvələrimizə sağsalamat təhvil vermişik deyə qəbrimizdə rahat yatacağıq. Onda gərək üstümüzü örtən torpaq bizi yandıra, özünü bizə haram bilə!

Bəs indi biz sabahkı ziyanımızı biləbilə bu gedişlə hara gedirik?

Hər şeyə qadir olan insan zəkası bu axının qarşısını almaqda niyə aciz olmalıdır? Akademik Həsən Əliyev "Həyəcan təbili" (1982) kitabında doğrudan da qulağımızın dibində təbil vurur, bizi ayılmağa çağırır. İndi bütün dünyada təbiəti mühafizə idarələrinin yaran ması görünür bu istəyin nəticəsidir.

"Musiqi, dünya və təbiət haqqında" adlı annotasiyasında Amerika bəstəkarı Pol Uniter yazır ki, "Biz insanlara insanlığın ilk nəğmələrini qaytarmalıyıq". Bu bəstəkar "ekoloji cazın" yaradıcısıdır. O, saksofonda canavarın, quşların, delfinlərin səsini nəğmələrinə gətirir. O, sülhün müdafiəsini təbiətin qorunmasın dan ayırmır. Hər ikisini eyni götürür.

Yevgeni Yevtuşenko yazır ki, "Mən Pol Uniterin ana təbiətin gözəlliklərinin tərənnümünə həsr olunan musiqisini keçən ilin iyununda BMT-nin binasında eşitdim. Təbiət səslərinin simfoniyasına iki min nəfər diplomat heyranlıqla qulaq asdı. Burada güllə qabağında özünü itirən canavarlarının naləsi səslənirdi. Bəli, neytron bombası əsrində 2 ayaqlı vəhşilərlə müqayisədə canavar günahsız quzulara bənzəyirdi. Bəstəkar Farli Mouetin "Ey canavarlar bağırmayın" kitabında canavar, öz xeyirxahlığı ilə millətlər arasına ədavət toxumu

səpən insandan üstün tutulur" ("Litqazeta", 30 yanvar, 1985, № 5).

İnsan öz zəkasının qüdrətilə təbiəti və kainatı hökmü altına alandan, dərk olunmazları dərk edəndən, qeyriadiləri adiləşdirən dən sonra həyat darıxdırıcı, maraqsız və mənasız olmazmı? İndi kainatla insan başbaşadır. İnsan kainatın, təbiətin və həyatın daha böyük sirlərini açandan sonra onun kainatdakı vəzifəsi bitmirmi?

Oxucu bu suala gülə bilər... Elə mən özüm də qəlbimin dərin liyində gülürəm. Eyni zamanda, həqiqət həqiqətdir. İnsan ki, bu sürətlə gedir, onun qarşısını heç bir qüvvə ala bilməz. Amma bu da bir həqiqətdir ki, dünənin sirri bu gün açılandan sonra bizə daha minmin sirrin varlığından xəbər verir. Deməк, sirr açıldıq ca azalmır, əksinə, çoxalır.

Bu anlaşılmaz ziddiyyətlər, başbaşa gəlmiş fikirlər təlatümün də çırpınır, sualların cavabı da çətinləşir. İnsan az bildikcə, elə güman edir ki, hər şeyi bilir.

Gəncliyimdə bu dünyanı bilməməkdən
Vallah, elə bilirdim ki, bilirəm mən.
Onda hökm verərdim ki,
Bu yaxşıdır, bu yamandır.
Bu doğrudur, bu yalandır.
Cavanlığın hökmü qəti!
Bu qətilik çəkiciylə
Çox əzmişəm həqiqəti.
Zidd qütblər arasında
Vurnuxmayıb
Gah qazanıb, gah yanmışam
Bu günsə mən
yaxşıyla pis,
haqla nahaq
qarayla ağ
Arasında dayanmışam.

Dayandığım bu nöqtənin adı çalar.
Bu nöqtədə yaxşı da var, yaman da var.
Doğru da var, nöqsan da var.
İndi çalar çalasında
Mən ehtiyat məktəbini bitirmişəm.
Zidd qütblər arasında sərhəd çəkən
Hüdudları itirmişəm.
Heç bilmirəm bu halıma
Mən ağlayım, yoxsa, gülüm?
İtkin salıb inamımı təkamülüm.

Yalnız bunu inamla deyə bilərəm ki, gəncliyimlə müqayisədə yetkinləşən, kamilləşən idrakım inamımı itkin salıb. İndi bir çox məsələlərdə şübhə inamı üstələyir. Ehtiyat gəlir. Ehtiyat isə hakim ola bilməz. O, yalnız passiv müşahidəçidir.

İnsan, özünə belə məlum olmayan səbəbdən birdən-birə tutulur. Əvvəl bunun səbəbini axtarır, görür səbəb yoxdur. Amma bu çox dəhşətli kədərdir. Çünki "Səbəbsiz kədərin, səbəbsiz qəmin, səbəbi səbəbdən yüz qat ağırdır".

Elmdə olan son kəşf insanın ovqatını, onun öz ixtiyarına verir. Heç demə insanın beynində "endorfin" deyilən morfiyə bənzər bir şirə varmış. Bunu alimlər "insanlıq üçün anaşa" adlandırır.

Mütəxəssislər bu təəccüblü və anlaşılmaz maddənin beyində tapılmasından təşvişə düşüblər. Bu kəşfin müəlliflərindən biri Amerika alimi Ç.Li deyir: "Endorfin xoşbəxtliklə əlaqəlidir. Mən filosofluq eləmək, gələcək haqqında proqnoz vermək istəmirəm, çünki qorxuram siz məni dəli hesab edəsiniz".

Bu nə deməkdir?

Görünür alim insanın xoşbəxtliyini onun öz əlinə verməkdən törəyə biləcək müsibətləri indidən görür. İnsanın xoşbəxt ola bilməsi nəyə görə müsibət törətməlidir? Məgər dünyanın bütün ağıllı adamları alimləri, yazıçıları, filosofları, mütərəqqi dövlət xadimləri insa-

nın xoşbəxtliyinə çalışmırlarmı? Bütün bu kəşflər, ixtiralar, kitablar, bədii əsərlər, nəğmələr, rəsm əsərləri hamısı insanın xoşbəxtliyi naminə yaranmırmı?

Fəhlənin də, kəndlinin də, ziyalının da zəhməti insanın xoşbəxtliyinə yönəlməmişmi? Əsas qayəmiz, məqsədimiz xoşbəxtlik deyilmi? Bəs belə isə "endorfin"i tapan alim, xoşbəxtliyin insanın öz ixtiyarına verilməsindən niyə qorxuya düşüb?

İnsan istədiyi zaman beynindəki "endorfin"lə özünə gözəl ovqat yarada bilər və bununla da onun xoşbəxtliyi təmin olunarsa həyat qayəsizləşər, insan fəaliyyətsizləşər, mübarizədən dayanar. Asan əldə edilən xoşbəxtlik isə xoşbəxtlik deyil, əksinə, çox böyük bədbəxtlikdir. Yenə gəldik yuxarıda dediklərimizə. Zəhmətlə qazanılmayan, hazır əldə edilən xoşbəxtliyin ömrü qısa, məzmunu boş, mahiyyəti puçdur.

Əgər endorfini tapan alim, onu özünə tətbiq edib özünü xoşbəxt edərsə, buna onun haqqı var. Çünki bu xoşbəxtliyi öz kəşfi ilə o, özü qazanıb. Özü qazandığına görə də buna onun mənəvi haqqı var. Lakin başqasının bu cür xoşbəxtliyə mənəvi haqqı olmamalıdır. Əgər o, bu xoşbəxtliyə hazır şəkildə nail olarsa, onun üçün bunun zərrəcə mənası olmayacaq. Çünki o, bu xoşbəxtliyin uğrunda mübarizə aparmadığına, onun yolunda zəhmət çəkmədiyinə görə bunu xoşbəxtlik kimi dərk edə bilməyəcəkdir.

"Endorfin"i qoyaq bir tərəfə, real həyata gələk: ləyaqəti olmayan, lakin nüfuzlu atasının yaxud dostunun hesabına cəmiyyətdə müəyyən mövqe tutan adamlar həmən mövqedə sona qədər duruş gətirə bilirmi? Yaxud tutduğu mövqenin qədrini bilirmi?! Yox! Buna görə də layiq olmadığı mövqeni kiminsə köməyi ilə tutan adamın tezliklə büdrəyib yıxılması qədər təbii nə ola bilər?

İkinci tərəfdən, insan istədiyi zaman özünə istədiyi ovqatı yarada bilərsə bu, bizdən asılı olmayan qanunauyğunluqlara, təbiətin və həyatın öz nizamına zidd getmək deyilmi? Təbiət heç zaman öz nizamını, öz qanunauyğunluğunu pozmur. Bu ona bənzər ki, təbiət

qışda ağacları çiçəkləndirsin, yayda qar yağdırsın. Bu nizamın dağılması nə qədər eybəcərdirsə, insanın istədiyi zaman özünə istədiyi ovqatı yaratması da bir o qədər eybəcər görünür.

Bu da qazandığımız yerdə uduzmağın başqa təzahürü!

*"Dərin qatlara işıq", Bakı, 1986.*



## GƏLİN,
## AÇIQ DANIŞAQ...

İnsan üçün ən müqəddəs varlıq anadır. Qəribədir ki, biz təbiətə də ana deyə müraciət edirik: ana təbiət! Bəs təbiətə ana qayğısı ilə yanaşırıqmı? Onun qarşısında övladlıq borcumuzu həmişə dərk edə bilirikmi? Təəssüf ki, yox! Öz sərvətlərini böyük səxavətlə bizə bəxş edən anamız təbiətin anasını ağladır, onun sinəsinə dağ çəkirik. Bilirik ki, havanın zəhərlənməsi, ətraf mühitin çirklənməsi bizə çox baha başa gəlir. Amma onlara qarşı ciddi mübarizəyə qalxmağa tələsmirik. Qazandığımız yerdə uduzur, tapdığımız yerdə itiririk. İtirəitirə də susuruq. O vaxt ayılırıq ki, itirdiyimiz qazancımızdan çoxdur.

Təbiət öz səxavətini respublikamızdan əsirgəməyib. Səfalı meşələrimiz, ayna göllərimiz, gur sulu çaylarımız, zəngin sərvətli torpaqlarımız, ulu dağlarımız var.

Dünyanın ən böyük gölü kimi məşhur olan Xəzər Azərbaycanın yaraşığıdır desək, yanılmarıq. Bəs təbiətin bu yaraşığını biz necə qoruyuruq? Onu gələcək nəsillər üçün necə hifz edirik? Cavab birdir: çox pis!

Fikrimizi sübut etmək üçün SSRİ Elmlər Akademiyasının Xəzər

problemlərinə həsr olunmuş yığıncağında deyilən sözləri xatırlatmaq yerinə düşər: “Dövlət Hidrometerologiya Komitəsinin apardığı aviomüşahidələrə görə Xəzər sularında neftli örtüyün həcmi bir neçə yüz kvadrat kilometrə qədər uzanır... Təkcə 1985-ci ildə Xəzər dənizinə çirkab suları ilə birlikdə 10,2 min ton, dənizə tökülən çaylar vasitəsilə 104,2 min ton neft və neft məhsulları axıdılıb”.

SSRİ Nazirlər Sovetinin ətraf mühitin mühafizəsi və təbii ehtiyat lardan səmərəli istifadə olunması komissiyasının sədr müavini P.İ.Poletayev isə yazır: “Tarlaların gübrələnməsi, zərərvericilərə qarşı zəhərli maddələrin işlədilməsi nəticəsində, habelə yeraltı, yerüstü suların şorlaşması və duzlaşması nəticəsində Xəzər dənizi hövzəsində suda yaşayanların nəsli tükənmək üzrədir. Xəzər balıqlarının başının üzərində “Domokl qılıncı” parlayır”.

Bizim Xəzərə, onun təbii sərvətlərinə münasibətimiz belədir.

50-ci illərdə Xəzərdən mövsüm ərzində 300 min ton balıq ovlanırdısa, indi bu rəqəm gücbəla 70 min tona çatır. Ürək ağrısı ilə deməliyik ki, artıq Xəzərdə siyənək, acgöz və ilan balıqlarının

növləri çoxdan qeybə çəkilib.

Deməli, bir tərəfdən Xəzərdən neft çıxarır, o biri tərəfdən neftdən heç də az qiymətli olmayan balıqlardan əl üzürük. Demək, yenə qazananda uduzuruq.

Xəzərə, onun sərvətlərinə belə biganəlik, şübhəsiz, Xəzərətrafı mühitə, orada yaşayan əhalinin orqanizminə də təsirsiz qalmır.

SSRİ Yazıçılar İttifaqının nəzdində oçerk və publisistika şurası sədrinin müavini V.Kazakov yazır: “Gəlin, aşkarlıq dövründə açıq danışaq: Xəzər boyu regionunun havasında hidrogen oksidlərinin, kükürdlü qazın, xlor və azotun insan ömrünə balta çalan digər zəhərli aşqarların miqdarı yol verilən həddən qatqat çoxdur”.

Məgər bu faktlar etiraz səsi ucaltmaq, “həyəcan təbili” çalmaq üçün kifayət deyilmi? Biz etirazımızı indi də bildirməsək sabah gec olacaq. Çünki bir neçə il əvvəl indi durğunluq illəri adlandırılan

dövrdə belə etirazlara fikir verən yox idi. Çox vaxt maddi nemətlər istehsalı xətrinə mənəvi və sosial zərərin miqdarına baxılmırdı, heç olmasa, indi zərərin yarısından qayıdaq.

Yazıçı və publisistlərimizin etiraz səsini mətbuatda, radio və televiziyada son vaxtlar tez-tez eşidirik. Televiziyanın Xəzər mövzusuna həsr etdiyi verilişlərə çox vaxt tanınmış yazıçılar, alimlər, publisistlər dəvət olunur. Onlar da Xəzərin baxımsızlıq üzündən çirkləndiyindən, ətraf mühitin, atmosferin zəhərlənməsin dən ürək ağrısı ilə danışırlar. Çox yaxşı. Bəs bu verilişlərin faydası nə olur? Belə söhbətlərlə Xəzərin "yarası" sağalırmı? Təbii ki, yox! Halbuki televiziyanın imkanı var ki, bəzi müəssisələrin Xəzərə çirkab suyu axıtmasından söhbət açılarkən kameranı belə müəssisələrin rəhbərlərinin düz üstünə tuşlasın, yazıçının etirazına konkret cavabdeh şəxsdən cavab istəsin. Yoxsa, uşaqdan böyüyə hamı bilir ki, çirkli suyu Xəzərə axıtmaq olmaz. Bəs, filan müəssisə niyə çirkli suyunu distillə etmədən dənizə axıdır. Bunu tamaşaçı bilmir. Bəzən verilişdə iştirak edən yazıçı da bilmir. Amma televiziya ekranı bu suallara cavabı da, ona məsul şəxsləri də tez tapa bilər və tapmalıdır. Yoxsa, belə verilişlərin nə faydası olar, nə də təsiri!

Bu sahədə rus yazıçılarının, xüsusən V.Rasputinin, S.Zalıginin Baykal gölünün saflığı uğrunda apardığı mübarizəyə həsəd aparmalı oluruq. Xəzər isə gözümüzün qabağında əldən gedir.

Bakının 40 kilometrliyində yerləşən və bir vaxtlar şəninə gənclik şəhəri kimi nəğmələr qoşulan Sumqayıt gözümüzün qabağında "qocalır". Sumqayıt yaşca qocalsa dərd yarı idi, Sumqayıt ekologiya cəhətdən qocalır. Kükürdlü qaz və xlor turşusu Sumqayıtın "nəfəsini" kəsir. Mütəxəssislərin fikrincə, Sumqayıtdakı üç iri müəssisənin istehsal etdiyi xlorun vurtut 20 faizindən istifadə olunur, qalan 80 faizi texnologiyanın yarıtmazlığı üzündən ya qaz şəklində havaya buraxılır, yaxud maye şəklində Xəzərə axıdılır.

Bu, faciə deyilmi? Yerevanda bir kauçuk zavodunun tikintisinə

bütün şəhər etiraz edir, erməni yazıçısı isə bu etirazı mərkəzi mətbuat səhifələrində "Yerevan fəlakətdə" adlı yazı ilə ümumiləşdirir, bir şəhərin harayını bütün ölkəyə yayır. Biz isə hər gün atmosferə zəhərli qaz buraxan zavodlarımızla fəxr edir, onların istehsal gücündən, gətirdiyi qazancdan bəhs edən rəqəmlərə "heyran qalırıq". Halbuki Sumqayıt bütünlüklə belə kimyəvi zavod lar şəhəridir. Bakı və Sumqayıt şəhərlərində havanın radiaktiv şüalanma səviyyəsi yol verilən həddən qatqat çoxdur!

Sumqayıt şəhər xəstəxanasında bir neçə ildir ki, böyrəkdə və öd kisəsində daşlaşmuş duz qalıqlarını çıxarıb, adamlara sağlamlıq bəxş edirlər. Belə həkimlərin əlləri var olsun. Hətta xəstəxanada böyrək və öd kisəsindən çıxan daşların kiçik "muzeyini" də təşkil ediblər. Bu "muzey"in həkimlərin məharətini göstərmək üçün, yoxsa, başqa xəstələrə görk olmaq üçün təşkil edildiyini bilmirik. Amma onu bilirik ki, hətta ən müvəffəqiyyətli əməliyyatdan sonra belə bu cür xəstələr yarımcan olurlar. Öd kəsəsi kəsilmiş adamdan hansı iş qabiliyyəti tələb etmək olar? Hər halda, Sumqayıt həkimləri xəstələri həyata qaytarmaq üçün əllərindən gələni əsirgəmirlər. Bəs, görəsən, belə xəstəlik lərin Sumqayıtda daha çox yayıldığını müəyyən edən, onun yaranma səbəblərini araşdıran mütəxəssislər varmı? Bəlkə, bu xəstəliklərin də əsas "səbəbkarı" şəhərin kimya zavodları və onun içməli suyudur? Əgər belədirsə, onda öd və böyrək daşlarından ibarət "muzey" xəstəxanada yox, şəhər partiya komitəsində yerləşdirilməlidir!

Atmosferi zəhərləyən, ətraf mühiti çirkləndirən zavodlar respublikanın başqa yerlərində də var. Təxmini hesablamalara görə, Qaradağ sement zavodunun sobalarından atmosferə ildə təqribən 100 min ton istehsalat tozu atılır. Biz isə həmin toxu sora-sora susuruq.

Gəncə alüminium zavodunun fəsadlarının qarşısını almaq üçün mütəxəssislər çox çalışır. Halbuki zavod vaxtilə şəhərdən uzaq yerdə tikilməli idi ki, indi də bu qədər problem çıxmasın.

Ötən il yolum Daşkəsənə düşmüşdü. Nə görsəm yaxşıdır? Mədən tullantıları komakoma torpağa səpələnmiş, qəlpələrdən təpələr yaranmışdır. Daşkəsənin təbii sərvətlərindən istifadə etmək vacibdir. Lakin dağları insafsızcasına dağıdıb məhv etməyə, gül-çiçək li yaylaqlarımızı xarabazara çevirməyə heç kəsin haqqı yoxdur. Bu amansız zülmü təbiət bizə bağışlayacaqmı? F.

Engels hələ keçən əsrdə demişdi: "Təbiət üzərindəki qələbələrimizlə çox da öyünməyək. Hər belə qələbə üçün təbiət bizdən intiqam alacaq". İndi təbiət bizdən bu intiqamı alır. Təbiətin bakirəliyinə və gözəlliyinə qıyıb onu bu hala salan adamların özlərinin təbiəti dağılmırmı?

Təbiətin sümüyünə dirəndik,
İliyini sorasıyıq, sorası.
Əlimizlə bu anamız torpağın
Dağlanmamış, görən, qaldı harası?

Yaranışdan biz övladıq, o ana,
Bu sitəmi necə qıydıq biz ona?
Hara gedir, o fırlanafırlana,
Sinəsində çalınçarpaz yarası?

Elə zəmanəmizin böyük sənətkarı Ç. Aytmatov da "Cəllad kötüyü" romanında bu məsələni qlobal şəkildə qoyur.

Bir traktorçu daha çox qazanc əldə etmək məqsədilə daha böyük sahəni şumlayarkən, o, nə keyfiyyəti, nə də gələcəkdə əldə olunacaq məhsulu düşünmür və anamız torpağa bu vəhşi münasibət onu bizdən incidir. Beləsi, eyni zamanda, öz mənəvi dünyasına da qəsd edir.

Vicdanını unudub, "belə də keçər" fəlsəfəsi ilə yaşayan belə adamlardan nə gözləmək olar? Əgər təbiətlə əlaqəsi olan hər kəs

tutduğu işin məsuliyyətini özü öz vicdanı ilə vərəvurd eləmirsə,

başqasının ona bu məsuliyyəti xatırlatmasının heç bir faydası yoxdur.

Azərbaycanda lap qədim dövrlərdən bəri torpağa and içiblər", torpaq haqqı" deyiblər. Çörək torpağın neməti olduğundan, çörək kimi, torpaq da müqəddəs sayılır. Çox təəssüf ki, müqəddəs

saydığımız torpaqlarımızın bir qismi şoranlaşmış (Şirvan, Muğan), bir qismi isə əriyib toza çevrilmişdir. Azərbaycan təbiətinin vəhşicəsinə dağıdılması, torpaqlarımızın məhv olması, çaylarımızın quruması, meşələrin qırılması, ümumdövlət əhəmiyyətli Xəzərin çirkab gölünə çevrilməsi barədə yazıçı və alimlərin 30 ildən bəri yerli və mərkəzi mətbuatda çıxış etmələrinə baxmayaraq, hələ də ciddi bir tədbir görülmür. Bu faciənin əsas səbəbi pambıqçılıq rayonlarında kənd təsərrüfatının monokultur əsasında aparılması, suvarma işlərində qanunqaydanın pozulmasıdır. Bir yerdə hər il yalnız pambıq əkilirsə, bu da selləmə suvarma tələb edirsə, torpaq ölür. İri suvarma kanalları betona alınmadığından suyun sızması nəticəsində ətrafda biçənəklər məhv olur.

"Literaturnaya qazeta" 1986-cı il iyulun 30-da V.Sokolovun "Vicdan toksikozu" və 1987-ci il yanvarın 7-də "Davam edən toksikoz" başlıqlı yazılarını dərc etdi. Ümumittifaq auditoriyası qarşısında yığım zamanı pambıq yarpaqlarını tökmək üçün işlənən çox zəhərli butifos dərmanının ağır nəticələrindən söhbət açdı. Butifos bizim respublikada da 1988ci ilə qədər ətraf mühiti həddindən çox zəhərləmişdir. Selitranın tərəvəzçilik və bostançılıq təsərrüfatlarında ifrat dərəcədə işlədilməsi nəticəsində, nəinki bostantərəvəz məhsullarının tərkibində nitratların miqdarı artmış, hətta insan orqanizminə elə təsir göstərmişdir ki, nəticədə uşaqlar şikəst doğulur, yeniyetmə qızlar analıq qabiliyyətini itirir, qaraciyər hepatiti kütləvi halda yayılır.

Həmin məsələyə yenidən qayıdan qəzet (18 mart, 1987-ci il)

butifosun pambıqçılıqda tətbiq edilməsinə yasaq qoyulması haqda SSRİ Dövlət Baş sanitariya həkiminin qərarını da dərc etdi. SSRİ Baş prokurorunun hökmü dərc olundu. Bizim yerli mətbuat isə heç olmazsa, bu mühüm Dövlət sənədləri haqda məlumatı respublika ictimaiyyətinə çatdırmağı da lazım bilmədi. "Literaturnaya qazeta" yazırdı ki, hətta Qaraqalpaq Muxtar Respublikasında butifos ehtiyatlarının məhv edilməsi barədə Özbəkistan SSR Prokurorluğu hökm çıxarmışdır. Belə işlərin xüsusi nəzarətə götürülməsi ilə əlaqədar bizim mətbuat da vaxtlıvaxtında hüquq-mühafizə orqanları qarşısında məsələ qaldırmalıdır. Axı, söhbət adamların sağlamlığından, gələcək nəslin taleyindən gedir.

Kimyəvi zəhərlərlə zərərvericiləri qırır, torpağın sabahını məhv etməklə isə özümüz zərərvericiyə çevrilirik. Bunları gördükcə, düşünürsən, görəsən, təbiəti mühafizə idarələri nə üçün yaradılıb? Bu idarələrin fəaliyyəti nədən ibarətdir? Hüququ olmayan idarə kimə və nəyə lazımdır? Orada 35 nəfərin dolanması üçünmü?

P.S. Bu qeydləri çapa hazırlayarkən mətbuatda "Ölkədə təbiəti mühafizə işinin kökündən yenidən qurulması haqqında" Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin qərarı dərc olundu. Qərarda deyilir ki, təbiəti mühafizə funksiyaları müxtəlif nazirliklər və baş idarələr üzrə həddən artıq səpələndiyinə görə təbiətdən istifadənin idarə edilməsinin təşəkkül tapmış sistemi müasir təsərrüfatçılıq tələblərinə cavab vermir. Digər tərəfdən, təsirli iqtisadi vasitə və stimullar olmadığından müəssisə və təşkilatlar sərəncamların dakı təbii ehtiyatlardan səmərəli istifadə etməyə və təbii mühitin çirkləndirilməsinin azaldılmasına maraq göstərmirlər.

Bütün bunları və təbiəti mühafizə funksiyalarının pərakəndəliyini nəzərə alaraq, nazirlik və baş idarələrin müvafiq bölmələri əsasında SSRİ Dövlət Təbiəti Mühafizə Komitəsi təşkil etmək qərara alınmışdır. Bu komitə təbiətin mühafizəsi və təbii ehtiyatlardan istifadə sahəsində mərkəzi dövlət idarə orqanı olub, təbiət üzərində dövlət

nəzarətini həyata keçirəcəkdir.

Bu qərar həyatımızın bütün sahələrini əhatə edən yenidən qurmanın təbiəti mühafizə işindən də yan keçmədiyini göstərir. Bu qərar təbiətə biganəlik buzunun sındırılması barədə siqnaldır.

*"Gəlin, açıq danışaq", Bakı, 1989.*



**ADLARIMIZ**
**BARƏDƏ**

Dünyada hər şeyin öz adı var. Ad yalnız şeylərin birbirindən seçilməsi üçün ona verilən ünvan deyil, həm də onun əmanətidir, səciyyəsidir. Hər kəsin ad günü onun yaşıdır, yəni tarixidir. Ulu dədəmiz Qorqudu xatırlayaq: rəvayətə görə, canlı və cansız hər şeyə və hər kəsə Qorqud dədə ad qoyarmış. Amma necə? Bax, məsələ bu necənin üstündədir. O, şeylərə, yaxud adamlara ilk ağlına gələn adı deyil, mütləq funksiyasına, oxşarlığına, əlamətinə və səciyyəsinə görə ad verirmiş. Yenə də, rəvayətə görə, Dədə dörd şeyin adında səhv etmişdir: iynəyə tikən, tikənə sökən, gəlinə ayıran, ayrana isə doyuran deməli imiş.

Bu rəvayətdə xalq demək istəyir ki, adları eləbelə vermək olmaz, ad xarakterdən, sifətdən, əlamətdən, funksiyadan doğmalıdır. Dilimizdə sözlər bu prinsip əsasında yaranmışdır. Məsələn,

götürək “dolma”, yaxud “dolça” sözlərini. Hər iki söz “dolmaq”, yaxud “doldurmaq” funksiyasından, “qazayağı”, yaxud “qurdağzı” bitki və çiçəyin adı oxşarlığından: “Çəmənli”, “Çeşməli”, “Söyüdlü” kənd adları isə kəndlərin səciyyəsindən, əlamətin dən yaran-

mışdır. Adam adları da bu sonuncu prinsipə görə yəni xarakterinə, əlamətinə, xüsusiyyətinə görə verilir. Məsələn, qəhrəman buğa ilə güləşdiyinə görə ona Buğac adının verilməsi kimi...

Çox təəssüf ki, adqoymanın bu prinsipləri son zamanlar unudulmuşdur. Ayrıayrı müəssisələrə, idarə və institutlara uyğunsuz adlar qoyulmuşdur. Məsələn, Bədən Tərbiyəsi İnstitutunun inqilabçı S.M.Kirovun, Azərbaycan Dövlət Akademik Dram Teatrının M.Əzizbəyovun, Azərbaycan Dövlət Opera və Balet Teatrının M.F.Axundovun adı ilə adlanması nə dərəcədə düzgündür?

Bakıda iki ali məktəbin və elmitədqiqat institutunun Kirovun adı ilə adlandırılması bəzən qarışıqlıq yaradır. Hələ vaxtilə "Literaturnaya qazeta" bu məsələdən söhbət açaraq, ölkədə 50-dən çox şəhər və kəndin Kirovun adını daşıdığını göstərmiş, belə "təşəbbüskarlığın" mənfi cəhətlərini izah etmişdir.

Biz M. Əzizbəyovun da, M.F.Axundovun da adlarının əbədiləşdirilməsi əleyhinə deyilik. Amma respublikanın Akademik Dram Teatrı məhz Azərbaycan dramaturgiyasının bünövrəsini qoymuş M. F. Axundovun adını daşısa daha düzgün olmazdımı? Belə misalların sayını çoxaltmaq da olardı. Amma nə ehtiyac?

Son vaxtlar qəribə bir adqoyma-addəyişmə kampaniyasının da şahidi olmuşuq. Görkəmli partiya və dövlət xadimlərinin adını əbədiləşdirərkən tələsiklik edib şəhərlərin, qəsəbələrin, küçələrin adını dəyişmişik. Uşaq böyüyüb boyabaşa çatınca doğulduğu küçənin adı bir neçə dəfə dəyişdiyindən hərcmərclik, qarışıqlıq yaranır. Necə ola bilər ki, illər boyu Şahdağ kimi tanıdığımız, vüqarına, əzəmətinə baş əydiyimiz dağın adını dəyişdirək? Göygölün adını dəyişsək nə qədər gülünc olar. Bəs şəhər və kənd adlarını dəyiş mək daha gülünc deyilmi? Bu, tarixlə oynamaq, keçmişi ələ salmaq deməkdir.

Bir neçə il əvvəl yolum qonşu Gürcüstan respublikasına düşmüşdü. Əhalisinin çoxu azərbaycanlılar olan Qardabani, Marneuli, Bolnisi, Dmanisi rayonlarını gəzdim. Bu ərazidə əsrlərdən bəri yaranmış və yaşamış tarixi toponomikanın çox asanlıqla, həm də

heç bir əsas olmadan dəyişdirilməsi, hətta tərcümə olunması təəssüf doğurur. “Qarayazı” “Qardabani” olub, “Borçalı” “Marneuli” kimi “müasirləşib”, “Başkeçid” “Dmanisi”yə çevrilib, “Ağbulaq” “Tetritskaro” adını alıb. Niyə? Yer adlarının tərcüməsi, tarixi adların bu cür “müasirləşdirilməsi” nə dərəcədə düzgündür? Belə “müasirləşmə” yerli əhalini təhqirdən başqa bir şey deyil.

Nədənsə, biz küçə adlarının da qoyulmasında tələsiklik edir, bu işdə də qətiyyət göstərmirik. Nəinki bu sahədə yol verilmiş nöqsanları düzəltməyə tələsmirik, hətta birbirinin ardınca səhvləri artırırıq. Coğrafi, tarixi, milli və etnik adları dəyişməklə, tariximizə, keçmişimizə qəsd edirik.

Hamıya məlum həqiqətdir ki, şəxsi adlar başqa dilə tərcümə olunmur. Amma biz bu prinsipi də dəyişməyi bacarırıq. Bakıdakı Yuxarı Dağlıq küçəsi “Verxnyaya naqornaya”, Şəkidəki “Şərq” küçəsi

“Ul. Vostok” olur. “Qax” “Kaxi”, “Balakən” “Belokanı”, “Mərdəkan” “Mardakyanı” şəklinə salınır. Əgər bu cür getsə, kim inad eləyə bilər ki, 100200 ildən sonra bu adlar öz tarixi kökündən, milli bünövrəsindən uzaq düşməyəcək? Öz tarixindən ayrılmış ad və öz adından ayrılmış tarix isə gectez mahiyyətini və əhəmiyyətini itirməyə məhkumdur. Bu yaxınlara kimi Bakı metrosu stansiyalarının da adını tərcümə etmək dəbdə idi. Nə yaxşı ki, bu səhv artıq düzəldilib. Amma tam yox. Yoxsa, metro stansiyalarında “Azizbəyov”, “Meymar Adjemi  Memar Adjemi” kimi səhvlər aradan qaldırılardı.

XII əsr Azərbaycan memarlığının görkəmli nümayəndəsi Əcəminin adının metro stansiyasına verilməsi hər bir azərbaycanlının ürəyində iftixar hissi doğurur. Lakin bu işin də yarımçıq görülməsi bizi təəssüfləndirir. Görəsən, stansiyanın girəcəyində dahi memarın həyat və fəaliyyətini əks etdirən lövhə asmaq çətindirmi? Axı, memar Əcəmini nəinki şəhərimizin qonaq

ları, hətta bəzi yerlilərimiz də (təəssüf doğursa da) tanımır.

İndi biz Bakıya adların funksiyadan, səciyyədən yaranma prin-

sıpi ilə nəzər salsaq, küçələrin, meydançaların, müəssisələrin çoxunun adında nöqsan görərik. Məsələn, M.Əzizbəyovun abidəsinin N.Nərimanov prospektinin başında, N.Nərimanovun abidəsinin Cənubi Sovet meydanında, C.Cabbarlının abidəsinin Sabunçu vağzalının qarşısında, eləcə də Nəsiminin abidəsinin Dövlət Bankının arxasında qoyulması nə dərəcədə düzgündür?

Nizami adına Azərbaycan Ədəbiyyatı muzeyinin ətrafında yeni salınmış meydançanın "Nizami meydançası" adlandırılması da bu baxımdan məqsədəuyğun olmazmı? Bu meydança həm də Nizaminin abidəsi olan sahə ilə birləşir.

Vaxtilə Bakının bəzi küçələrinə son dərəcə yöndəmsiz və uyğunsuz adlar verilmişdir ki, bu adların dəyişdirilməsi barədə düşünmək vaxtı çoxdan çatıb. Bunlardan bir neçəsini xatırlatmaq istəyirəm: Xreptovaya, Tramvaynaya, Diaqonalnaya, Kislotnaya, Zavodskaya, Kirpiçnaya, Kraynaya, Krivaya və s. Əsərlərində Azərbaycanın füsunkar təbiətini, adamlarını, ictimai həyatını böyük məhəbbətlə və ehtiramla tərənnüm edən dekabrist yazıçı BestujevMarlinskinin, Azərbaycan dilində ilk "Vətən dili" dərsliyini yazan A.O.Çernyayevskinin adına Bakıda küçə olmaması nə dərəcədə düzdür? Eləcə də, böyük inqilabçı Səttarxan, Şeyx Məhəmməd Xiyabani, Bağır xan, dövlət xadimlərindən Ş.Xətai, Babək, alimlərdən Bəhmənyar, N.Tusi, Nəvvab, M.Kazımbəy, H.Hüseynov, sərkərdələrdən Mehmandarov, Ə.Şıxlinski, yazıçılardan Ə.Haqverdiyev, F.Köçərli, Ə.Cavad, R.Rza, S.Rəhimov, S.Yesenin və başqalarının adlarına şəhərimizdə küçələrin olmamasını nə ilə izah etmək olar?

Böyük inqilabçı satirikimiz M.Ə.Sabirin adını daşıyan küçə İçəri şəhərdə cəmi 6-7 yapalaq binadan ibarətdir. Halbuki, yuxarıda adını çəkdiyimiz yöndəmsiz, mənasız-məzmunsuz küçə adları isə şəhərimizdə kifayət qədərdir.

Azərbaycan paytaxtı özünün inqilabi və beynəlmiləl ənənələri ilə məşhurdur. Bu ənənə şəhərin küçə adlarında da yaşayır. Bakının ən yaraşıqlı küçələri müxtəlif millətlərdən olan inqilabçıların,

alimlərin, yazıçıların və s. adını daşıyır. Bəs bu ənənə başqa respublikalarda Azərbaycanın görkəmli adamları barəsində necə davam etdirilir? Təəssüf ki, bu suala da ürəkaçan cavab vermək olmur. Bakının Tbilisi prospektini respublika paytaxtının baş yolu adlandırmaq olar. Amma Tbilisidə "Bakı" küçəsi döngəyə bənzəyir. Şəhərdə aparılan yenidənqurma işləri ilə əlaqədar olaraq M.Ş.Vazeh küçəsi ləğv olunub, M.F.Axundov küçəsi isə cəmi bir neçə evdən ibarətdir. Uzun illər Tbilisidə yaşayıb-yaratmış A.Bakıxanov və C.Məmmədquluzadə kimi Azərbaycan klassiklərinin adına küçə qoymaq isə tamam unudulub. Beynəlmiləlçilik gözəl şeydir. Amma bir şərtlə ki, ikitərəfli olsun.

Axı, ad tarixdir, elmi mənbədir, sənəddir. Adlar özündə tarixi yaşadır. Belə olan halda adlara biganəliyi tarix bizə bağışlamaz.

*"Gəlin, açıq danışaq", Bakı, 1989.*



# ŞƏXSİ FİKİR
# İCTİMAİ DUYĞU

Şəxsi fikir şəxsi məqsədə deyil, ümumi məqsəd və mənafeyə xidmət edəndə xalq fikrinin ifadəsinə çevrilir. Buna görə də biz belə şəxsi fikri həm də ictimai fikir adlandıra bilərik. İctimai fikir isə elə-belə havadan yaranmır. Həyatın, ictimai şəraitin özündən doğur. İctimai şəraitdən doğan şəxsi fikir isə böyük arzudan, böyük tələbdən və böyük ağrıdan cücərir. Bir atalar sözü fikrimizi tam ifadə edər: "Ürək yanmasa, gözdən yaş gəlməz". Cəmiyyətdə insanları narahat edən, dərindərin düşündürən, ürəkləri ağrıdan dərdlər olmasa fikir də yaranmaz. Bu mənada indi əsas məqsəd beyinlərdə cücərən, ürəklərdə yanğıya çevrilən, ağızlarda sözə dönən fikrə qol-qanad verməк, onu cəmiyyətə çatdırmaqdan ibarətdir. Buraxdığımız səhvləri və bu səhvlərdən doğan ağrıları yox etmək, atalarımızın yaratdığı yeni cəmiyyəti daha da inkişaf etdirmək və qoruyub saxlamaq üçün qüsurları malalamaqla deyil, onların əlacını tapmaqla məşğul olmalıyıq.

Bir nəfərin bütün elm sahələrində əvəzsiz mütəxəssis olduğu, bioloqlara, dilçilərə, fiziklərə, şairlərə, bəstəkar və rəssamlara

“yuxarıdan” dərs dediyi vaxtlar yadımızdadır. Belə olanda insan kütləşir. Onun öz sözü, öz fikri olmur. Deyilənə “bəlibəli” söyləyir, mütiləşir.

Əslində isə, hər məsələ barədə hər kəsin şəxsi fikri ola bilər. Əsas məqsəd şəxsi fikri məhz sırf “şəxslikdən”, şəxsi mənafe və şəxsi məqsəd yükündən azad etmək, onu ictimai mənafeyə yönəltməkdən ibarətdir. İctimai mənafe isə ictimai duyğunun məhsuludur.

Açıq deməliyik ki, son zamanlar adamlarda ictimai duyğu zəifləmiş, “mən” “biz”dən qabağa keçmişdir. Gördüyümüz nöqsanlara bəzən göz yumur, gördüyümüzü görmək istəmirik. Bu laqeydlik və soyuqqanlılıq cəmiyyətimizə yaraşan sifət deyil. Vaxtilə böyük Sabir “Bizdə bu soyuqqanları neylərdin, ilahi?” deyə laqeydliyə qarşı çıxmışdı. Bəs indi? Bəs, biz niyə soyuq qanlığa, laqeydliyə qarşı üsyan qaldıra bilmirik?

Quba rayonunun sakini Səfurə İsayeva 12 uşaq anasıdır. Evi olmadığın dan rayon üzrə Azərbaycan SSR-nin deputatı rəssam M.Abdullayevə müraciət etmiş, deputat bütün əlaqədar təşkilatların qapısını döysə də, İsayevanın arzusunu yerinə yetirə bilməmişdir.

12 övlad böyüdüb tərbiyə edən ananın xahişinə əlaqədar təşkilat ların bu biganəliyinə nə ad verək?

Meşələrin qırılması və ziyanverici həşəratlara qarşı kimyəvi mübarizə nəticəsində torpaqlarımız məhv olur. Biz bu günü düşünür, sabahı unuduruq. Kimyəvi mübarizəni bioloji mübarizə ilə əvəz etməyin vaxtı çatmamışmı? Bax, burada da hər şeyi bir nəfərin vəzifə adamının şəxsi fikri həll edir. Ümumi fikir, ümumi mənafe nəzərə alınmır. Çox təəssüf!

Bir neçə il əvvəl Litvada idim. İki kənd arasında yol çəkilər kən nəhəng bir ağacı kəsdirdiyinə görə təbiəti mühafizə komitəsi rayon icraiyyə komitəsinin sədrini məhkəməyə vermişdi. İnsafsızcasına qırılıb xəritəmizdən silinən Sultanbud meşəsi yadıma düşdü. Təbiətə etdiyimiz bu qəsdə, gələcəyimizə göstərdiyimiz bu laqeyd

münasibətə kim cavab verməlidir, deyə düşündüm...

Orta məktəb şagirdlərinin ilin 56 ayını pambıq alağına və yığımına aparılması elimizə və mədəniyyətimizə qəsddir. Bu məsələyə ziyalılarımızın etinasızlığını bizə heç kəs bağışlamaz. Dərs proqramını bütünlüklə keçə bilməyən həmin şagirdlər, proqramı tam keçən Bakı məktəbliləri ilə eyni hüquqda ali məktəblərə qəbul imtahanlarını necə verə bilərlər? İkinci tərəfdən, qəbul imtahanı götürən müəllimlər kənd məktəblərindəki bu vəziyyəti bildiyi halda hansı haqla onlardan proqram dairəsində imtahan qəbul edə bilər?

Respublika Dövlət Mükafatı Komitəsinin üzvü kimi mən xalq qəhrəmanı haqqında çəkilən bir filmin müsabiqəyə təqdim olunan başqa filmlərdən üstün olduğunu deyib, mükafatın bu filmə verilməsini təklif etmişdim. Özünün iştirak etdiyi filmə deyil, xalq qəhrəmanı haqqında çəkilən filmə mükafat veriləcəyini eşidən görkəmli bir aktyorun xalq qəhrəmanının ünvanına təhqiramiz sözlər söylədiyinin şahidi oldum. Dəhşət məni götürdü. Aktyor şəxsi mənafeyindən ötrü xalqın fəxr etdiyi bir qəhrəmanı necə alçalda bilərmiş! İndi beləsinin sənətinə necə inanasan? Öz şəxsi mənafeyindən ötrü hamını tapdayan, mənsub olduğu xalqın belə tarixinə arxa çevirən bu cür nadanlara vətəndaş demək olarmı? Ən mühümü də budur ki, beləsinin şəxsi fikri özünə qulluq elədiyinə görə o fikir heç kəsə lazım deyil. Çox təəssüf ki, indi bizdə evini Vətən, qohuməqrəbasını millət sayanlar əmələ gəlib. İndi bizim ilk vəzifəmiz bu məhdud hissə, bu eybəcər duyğuya qarşı mübarizə olmalıdır. İndi biz, ilk növbədə, Vətəndaşlıq uğrunda mübarizə aparmalıyıq!

Kimdir Vətəndaş? Hamını özünə deyil, özünü hamıya borclu bilən, haqqından çox borcunu düşünən, Vətən üçün, xalq üçün özünü çıraq kimi yandıran, “mən”ini “biz”in içində əritməyi bacaran adam!

Bunun üçün orta məktəblərdən başlamalı, tədrisin əsas qayəsini biliklə yanaşı, ictimai duyğuların aşılanmasına yönəltməli, bir sözlə,

əsl vətəndaş yetirməliyik.

Alimlərdən biri çox gözəl demişdir: “Şagirdin beyni boş anbar deyil ki, ora bilik doldurmağa çalışasan, müəllimin vəzifəsi şagirdin qəlbində arzu məşəli yandırmaqdan ibarət olmalıdır”. Məncə, müəllim bu məşəli yandıra bilsə, şagird özü o məşəlin işığı ilə elmin qaranlıq guşələrini işıqlandıra biləcək.

Son zamanlar orta məktəbdə texniki fənlərin tədrisini genişləndirmək məqsədilə ədəbiyyat dərslərinin azaldılmasını tələb edənlərə qarşı “Literaturnaya qazeta”da dərc olunan məqalələri alqışlayıram. Müəlliflər çox haqlı olaraq göstərirlər ki, texniki fənlərin tədrisini genişləndirmək ədəbiyyat dərslərinin hesabına olmamalıdır. Çünki texniki fənlər şagirdlərə bilik verirsə, ədəbiyyat onları əsl insan olmağa, vətəndaş olmağa hazırlayır.

Orta məktəbin əsas vəzifəsi isə biliklə bərabər, yuxarıda dediyimiz kimi, ürəklərdə məşəl “yandırmaq”, şagirdləri vətəndaş kimi formalaşdırmaqdan ibarətdir. Heç bir texniki fənn insanı insan kimi yetişdirmək, ürəklərə amal toxumu səpib mənəviyyatı zənginləşdirmək qüdrətinə malik ola bilməz. Buna görə də biz bilikdən əvvəl, uşaqların mənəvi dünyasını cilalandırmalı, onlara nəyin naminə yaşayıb, nəyin naminə gözəl mütəxəssis olmaq hissini təlqin etməliyik. Bu isə ədəbiyyatın vəzifəsidir. Bu vəzifəni yerinə yetirməsi üçün ədəbiyyatın nüfuzunu daha da qaldırmaq əvəzinə saatlarını azaltmaq səhv olar.

Şəxsi fikir müstəqil düşüncədən doğur. Bu vərdişi də uşaqlıq dan başlamaq lazımdır. Çox təəssüf ki, biz orta məktəblərdə uşaqlara müstəqil fikir söyləmək vərdişi əvəzinə çox zaman tutuquşuluq öyrədirik. O.Çaykovskaya “Düz söz” məqaləsində* haqlı olaraq yazır: “Biz, əslində, uşaqları istədiyi kimi düşünmək tərzindən məhrum etmirikmi?”

Başqa bir misal. Kiyev kinostudiyasının çəkdiyi “Mən və başqaları” adlı sənədli film bu cəhətdən çox maraqlıdır. 6 yaşlı 12 nəfər

uşaq böyük bir stolun arxasında əyləşir. Stolun üstündə biri ağ, biri qara iki piramida fiquru qoyulmuşdur. Eksperimentçi qadın uşaqlara deyir: “Uşaqlar, indi bura Petya adlı bir uşaq gələcək.

Siz hamınız deməlisiniz ki, piramidaların ikisi də qaradır. Hə, indi deyin görək, piramidaların hər ikisi nə rəngdədir? Uşaqlar bir ağızdan “ikisi də qaradır”, deyə cavab verirlər. Petya içəri girir. Qadın uşaqlardan soruşur: “Piramidalar nə rəngdədir?” Hamısı xorla qışqırır: “Qara!” “İkisidəmi qaradır?” Cavab: “İkisi də.” Onda qadın Petyaya deyir ki, “Ağ piramidanı mənə ver”. Petya ağ piramidanı qadına verir. Qadın deyir: “Bəs bayaq deyirdin, piramidaların ikisi də qaradır. İndi mənə ağ piramidanı verirsən?” Uşaq başını aşağı dikib ağlayır və cavab verir: “Mən bilmirəm”.

Uşağı ağladan nədir? Yalanla həqiqət arasındakı anlaşılmazlıq! Onun “mən bilmirəm” cavabı isə onu dolaşdıran vəziyyətin, yəni yalanın üzünə çəkilən şilləsidir. Uşaq böyüyəndən sonra bu şillə də böyüyüb onun özü ilə cəmiyyət arasında uçurum yarada bilər. Biz bundan qorxmalı, hələ orta məktəbdən uşaqlara həqiqətdən çəkinməmək, həqiqəti şillə kimi yalanın üzünə vurmaq təlimini verməliyik. Yalnız həqiqəti deyənlər şəxsiyyət səviyyəsinə yüksəlir və yalnız belələri cəmiyyət üçün faydalı ola bilər. Amma yalanlara hələ uşaqlıqdan adət edənin böyüyərkən simasız, mənən puç bir məxluqa çevriləcəyi labüddür. Belələrindən birini O. Çaykovskaya belə xarakterizə edir: “O, “başa düşməmək elmi”nin mütəxəssisi oldu. Bu necə elmdir? Sonralar bir nazirliyin işçisi bu “elmi” mənə izah etdi: “Mənə başa düşməmək üçün maaş verirlər. Mənim təəccübləndiyimi görən bu adam fikrini belə xırdaladı: misal üçün, mənim yanıma bir direktor gəlir və deyir ki, zavodun yenidən qurulması üçün mənə filan qədər fəhlə, filan qədər material və filan qədər pul lazımdır. Mən özüm mühəndis olduğumdan çox yaxşı bilirəm ki, o, haqlıdır. Ancaq nazirliyin işçisi kimi mən onu başa düşməməliyəm və onun istədiklərini yarıbayarı azaldıram”.

Mühəndis kimi anlamaq, nazirliyin məmuru kimi anlamamaq! Bir cür düşünüb ayrı cür danışmaq xəstəliyi davam etdikcə biz qarşımıza qoyduğumuz böyük məqsədlərə necə çata bilərik?

*"Gəlin, açıq danışaq", Bakı, 1989.*



# XALQI ÇÖRƏKLƏ İMTAHANA ÇƏKMƏK OLMAZ

Hər gün onlarla adam qapımı döyür. Dərdlərinə, arzularına əlac umurlar. Bacardığımı edirəm. Amma elə dərdlər var ki, mənim imkanımdan çox yuxarı olduğundan təsəlli verməkdən başqa əlimdən heç nə gəlmir.

Əlac umanların əksəriyyəti ən aşağı səviyyədə dolana bilməyənlərdir. Adamlar var ki, maaşı, yaxud təqaüdü adicə yavan çörəyə çatmır. Umduqları da yalnız bu qədərdir. Belələrinin əksəriyyəti vəziyyətin ağırlığını, bazar iqtisadiyyatına keçid dövrünün çətinliklərini, infilyasiyanın törətdiyi iqtisadi natarazılığı çox yaxşı başa düşür və bunun təbiiliyini qəbul edir.

Bununla bərabər, əgər onun qazancı yavan çörəyə də çatmırsa, bəs o necə yaşamalıdır?

Axı, hər şeyə dözmək olar, aclığa dözmək mümkün deyil. "Ac adam özünü qılınca çapar" kəlamını unutmamalı, milləti aclıqla imtahana çəkməməliyik.

Rayonlarımızın çoxunda artıq bir neçə həftədir ki, unun olmamasın dan çörək zavodları, sexləri işləmir. Azçox imkanı olanlar

əldə baha qiymətə satılan çörəyi ala bilir. Axı, təqaüdçülərin və az maaş alanların alverçidən çörək almaq imkanı yoxdur. Bəs, onlar neyləsinlər?

Qəzetlərdən aldığımız məlumata görə, əhalinin çörəklə təminatı ilə məşğul olan adamlar bu məsələ ilə vaxtında maraqlanmamış, zaman keçmiş, taxıl yığımı vaxtı ucuz qiymətə ala biləcəyimiz unu indi baha qiymətə almağa məcbur olmuşuq. Ola bilər. Lakin vəzifə kürsüsündə əyləşən bir soyuqqanlının laqeydliyinin ağrısını bütün millətimi çəkməlidir?

Öyrəndiyimə görə, son bir aya qədər həm Bakı, həm də rayonların çörək zavodlarında 56 il əvvəlkindən 2 dəfə artıq çörək bişirilir. Bəs eləysə, niyə çörək çatmır? Çünki o zamanlar camaat çörəkdən başqa yağ, ət, süd, pendir, meyvə-tərəvəzlə də qidalanırdı. İndi bu kimi qida maddələrinin qiyməti o qədər bahalanıb ki, camaat onları ala bilmir, yavan çörəklə əvəz edir. Çörəyin də qiymətini bu qədər artıranda əksəriyyətin maaşı heç yavan çörəyə də çatmır. Biz gözlə görünən bu adi həqiqəti niyə başa düşmək istəmirik?

Siyasətdə uzaqgörənlik əsas şərtdir, 7 milyonluq xalqın taleyini həll etmək kimi tarixi məsuliyyəti öhdələrinə götürənlər, xalqı fiziki cəhətdən məhv həddinə çatdırmaq qorxusunu düşünməlidirlər. Əgər burnunun ucundan uzağı görməyənlər yenə iş başında qalsalar və sosial ədalətsizlik prinsipi son həddə çatsa, onda müstəqilliyə, istiqlala, demokratiyaya, gələcəyə hansı ümid və inam qalacaq?

Məsələ belə durur: bu həqiqəti dərk etməyin vaxtı gəlib çatıb xalqı çörəklə imtahana çəkmək olmaz.

*"Aydınlıq" qəzeti. 31 dekabr, 1994.*
*"Yanan da mən, yaman da mən", Bakı, 1995.*



# ƏDAVƏTƏ
# HAQQIMIZ VARMI?

Dünyanı az-çox başa düşəndən bu yana Sovet cəmiyyətinin yalan üzərində bərqərar olduğunu bilmiş və yazılarımda imkanım daxilində bu quruluşun bəzi eybəcərliklərini göstərməyə çalışmışam.

Hələ 1959-cu ildə Füzuliyə həsr etdiyim "Şəbi-hicran" poemasın da yazırdım:

Sərvət getsə qəm deyil, sərvət gələr yenə də,
Bu qəmdir ki, bir xalqın ruhuna, eşqinə də
Qəsd edələr... ay aman!
Ələmlərin, dərdlərin hamısından bu yaman.

Bəli, Sovet imperiyası yalnız maddi sərvətlərimizi deyil, bəzi milli sərvətlərimizi, dilimizi, ruhumuzu əlimizdən almışdır.

Mən, bütün yaradıcılığım boyu böyük mütəfəkkirimiz M.F.Axundzadənin Mirzə Mülküm xana verdiyi məşhur reseptdən (bu günün eybəcərliklərini tarixə, yaxud başqa ölkəyə köçürməklə bu günü ifşa etmək) istifadə edərək "Yollar-oğullar", "Mərziyə",

"Ağlar-güləyən", "Gülüstan", "Təzadlar" və s. poemalarımda, "Neo", "Latın dili", "Haydpark", "Dan yeri", "Şan-Yan deyir" və s. şeirlərində Sovet imperializminin bir gün dağılacağını, başımıza gətirilən müsibətləri göstərməyə çalışmışam.

Son beş ilin hadisələri imperiya boyunduruğundan xilas olacağımıza bizdə tam inam yaratdı. Bu işdə AXC-nin tarixi rolunu deməmək insafsızlıq olardı. AXC-nin müxalifətdə kommunistlərlə əlbəyaxa olduğu zamanlar mən elə güman edirdim ki, Sovet imperiyası dağılan kimi, hər şey öz qaydasına düşəcək. Lakin mən deyən olmadı. Cəbhələr dəyişdi, indi tamam başqa çətinliklərlə üzüzə gəldik. Mən AXC-nin hakimiyyətə gəlməsi üçün həm qələmimlə, həm də əməli fəaliyyətimlə əlimdən gələni eləmişəm. İndi həm iqtidarda olanların, həm də onlara qarşı duranların fəaliyyətini kənardan seyr edir və düşdüyümüz vəziyyətə təəssüflənirəm.

Doğrusu, mən bu vəziyyəti gözləmirdim.

Bircə şey məlumdur ki, çoxdan gözlədiyimiz günü müstəqilliyimizi qazanmışıq. İlk uğurlarımız da var. Biz indi müharibə aparaapara dünyanın təqdir edəcəyi bir cumhuriyyət qururuq. İndi biz hamımız istiqlalımızı göz bəbəyi kimi qorumalı, ilk addımlarını atan müstəqil dövlətimizin inkişafına kömək etməli, bu işdə əlimizdən gələni əsirgəməməliyik. Axı, iki yüz ilə yaxın bir müddətdir ki, bizim xeyrimizişərimizi bizə başqası öyrətmiş, taleyimizi başqası həll etmiş və bu haqsızlığa dözməyən Axundzadələr, Mirzə Cəlillər, Sabirlər, Məhəmməd Hadilər millətimizin imzasını "övraqihəyatda" görmək istəmişlər. Şükür Allaha, indi yüzdən artıq dövlət bizi tanımış, BMT-yə üzv seçilmiş, millətlər cərgəsində imzamız görünməyə başlamış dır. Əgər bunlar həqiqətdirsə, bəs biz nə üçün "şadlığımıza şitlik" edirik? Axı, bu günü bizə hədiyyə vermədilər. Biz bu günü qanımız və canımız bahasına qazandıq. Qan və can bahasına qazandığımız bu gün bizə niyə bəs bu qədər ucuz görünür?

Bu gün millətin taleyini və gələcəyini düşünən bir vətəndaş kimi öz düşüncələrimi deməyi özümə vətəndaşlıq borcu bilirəm.

İndi partiyalar və qəzetlər, iqtidarda olanlarla olmayanlar bir-birinin üstünə çirkab atır və bir-birini günahlandırır. Hakimiyyətdən düşən dünənki iqtidar sahibləri isə bu vəziyyətdən ləzzət alır və deyirlər: "Buyurun, bu da hakimiyyət. İndi niyə bir-birinizi qırırsınız?"

Ən dəhşətlisi budur ki, bizim indiki vəziyyətimizi müşahidə edən Kremldəki dünənki cəlladımız da pusquda durub məqam gözləyir. Vaxtilə "Bakını Beyruta, Azərbaycanı Livana döndərəcəyik" deyən erməni də bizim daxili çarpışmamızdan ləzzət alır və bundan istifadə etməyə çalışır.

İndi mən soruşuram: belə bir vəziyyətdə birbirilə didişən tərəflərimiz bu qarşıdurmanın bizi hara apara biləcəyini bilirlər, ya yox? Əgər bilirlərsə, bəs niyə biləbilə düşməni sevindirib, onun dəyirmanına su tökürlər?

Xalq cəbhəsinin hansı mübarizələrdən, hansı çətin və dolayı yollardan keçib gəldiyini, hansı hücumlara məruz qaldığını, döyülüb söyüldüyünü, neçəneçə nadan və cahilin dili ilə təhqir edildiyini yadımıza salaq. Və bilək ki, bu gün qazandığımız istiqlala bu adamların fədakarlığı sayəsində nail olmuşuq. Şübhəsiz, xalq cəbhəsinin müəyyən partiyalara və qurumlara ayrılmasını, bunların arasında müəyyən dərəcədə fikir ixtilafının olmasını başa düşmək olar. Rəqabət həmişə olub və olmalıdır. Lakin rəqabətin düşmənçiliyə çevrilməsini anlamaq mümkün deyil.

Müxalifət iqtidarın güzgüsüdür. Bundan qorxmaq lazım deyil. Lakin gördüyümüz kimi, indi iqtidarın dediyi müxalifətin boğazından keçmir, müxalifətin dediyi iqtidarın. Mən indiki müharibə şəraitində hər iki tərəfdən bu qarşıdurmaya son verilməsini xahiş edirəm. Mən S.Rüstəmxanlının (13 avqust, 1992, "Yeni fikir") o fikriylə şərikəm ki, nə qədər ki, müharibə aparırıq, siyasi partiyaların və qurumların fəaliyyətini dayandırmaq lazımdır. İndi siyasi çəkişmələr vaxtı deyil. İndi hamımız çəkicimizi eyni zindana vurmalıyıq.

Biz hələ siyasi çəkişmələrdə bişməmişik. Müxtəlif siyasi parti-

yaların müharibə şəraitində hansı səviyyədə rəqabət apara biləcəyini hələ əxz etməmişik. Kipr məsələsi meydana çıxanda Türkiyədəki bütün partiyalar bir günün içində birləşib Kipr problemini həll etmədimi? Bu hadisə niyə bizə dərs olmur? Axı, dünya gör-götür dünyasıdır! Mən burda bizdən də bir nümunə gətirmək istəyirəm.

Azərbaycan Xalq Demokratik Partiyasının liderlərindən R.Turabxanoğlunun bu yaxınlarda “Mənlik” qəzetində gedən bir müsahibəsini oxudum.Siyasi cəhətdən son dərəcə yetkin olan bu adam öz partiyasına rəqib olan partiyaların və ictimai qurumların da üstün cəhətlərini ürək genişliyi ilə təqdir edir. O göstərir ki, bu gün iqtidarda olan dünənki XC-nin uğurlarını, üstün cəhətlərini, ələlxüsus İsgəndər Həmidovun fəaliyyətini görməmək mənəvi korluqdur.

Öz siyasi rəqibləri haqqında dediyi bu ədalətli sözlər onun obyektivliyini və vətəndaşlığını, ən ümdəsi də siyasi kamilliyini göstərir.

Məni ağrıdan odur ki, bu gün bir-birinə diş qıcırdanlar dünən eyni cəbhədə çiyin-çiyinə vuruşan, birbirinə arxa olan, eyni ağrı-acıları dadan adamlardır. Axı, dünən bu adamlar vətən və millət naminə öz həyatlarını girov qoymuşdular. Bəs bu gün iqtidara gələndən sonra bunlara nə oldu ki, bir-birlərinə düşmən kəsildilər?

Vətənin və millətin taleyi Qarabağda həll olunan bir məqamda hansı fikir ayrılığı ola bilər?

Dünən istiqlalımız uğrunda apardığımız mübarizədə yumruq kimi birləşən bu adamların vəzifə bölgüsündə ixtilafa düşmələri xalqın yumruğunu yerə dirəyir, bu uğurda can verən əskərlərimizin ruhunu incidir.

Bu günlərdə “Xalq qəzeti”ndə yazıçı Gəray Fəzlinin “Amalımız, xəyalımız Qarabağ” adı məqaləsini oxudum. Yazıçı ürək ağrısı ilə göstərir ki, “indi bütün qurumlar, partiyalar, hərəkatlar, nəzəriyyələr ancaq cəbhəyə, Qarabağa xidmət etməlidir”.

Bu çağırışı biz bir-biri ilə ixtilafda olan bütün qəzetlərdə, bir-biri ilə çəkişən bütün partiyaların çağırışında oxuyuruq. Amma nə

edəsən ki, bu yalnız quru çağırış, quru söz olaraq qalır. Televiziyadakı çıxışlarda, qəzetlərdəki məqalələrdə elə dəhşətli şeylər oxuyuruq ki, adam varından yox olur. Necə yəni, iqtidara gəlmək üçün torpağı əldən vermək? Mən buna inana bilmirəm. Dünən öz həyatlarını istiqlalımız yolunda qurban verməyə hazır olan adamlar bu gün necə ola bilər ki, vəzifə kürsüsünə çatmaq üçün vətən torpağını ermənİyə satsın? Mən bundan dəhşətli alçaqlıq və namussuzluq tanımır və buna inana bilmirəm.Lakin İ.Həmidovun müsahibəsindən (“Xalq qəzeti”, 18 avqust, 1992) məlum olur ki, aramızda “pul alıb, əvəzində düşmənə sirr verənlər də çoxdur”.

Mən bu yaxınlarda bir neçə rayonda olmuş və bu rayonlarda qəribə hadisələrlə qarşılaşmışam. Dünən eyni amal uğrunda vuruşan xalq cəbhəsinin üzvləri bu gün vəzifə başında olan dünənki dostuna, silahdaşına qənim kəsilir. Bəs dünən onları birləşdirən amal, ideya hara getdi? Burdan belə bir məntiqi nəticə çıxır ki, demək, dünən də onları amal deyil, sabahkı gündən umduqları vəzifə birləşdirirmiş. Əgər bizim amalımız bu qədər cılızsa, vay bizim halımıza!

Böyük Çin filosofu Konfusi deyir ki, əgər xalq öz dövlətinə və bu dövlətin başında duranlara inansa, hər cür müvəqqəti əzab-əziyyətə dözər və hər çətinliyə qələbə çala bilər.

Dövlətimizin başında duranlar bu gün xalqın gözü qarşısında bir-biri ilə əlbəyaxadırsa, xalq hər gün qurban verəverə həm maddi və həm də mənəvi çətinliklərə dözə bilərmi? Mən bilmirəm, bu adamlar hansı haqla xalqın ona bəslədiyi inamı qırır? Niyə xalqa imkan vermirlər ki, o, yalnız öz dərdi ilə, məişət qayğıları ilə məşğul olsun, yuxarıdakıların dərdini çəkməsin? Mən sözümü şeirlə bitirmək istəyirəm:

Nə çox imiş bu torpağa göz dikən,
Baxa-baxa gözümüzə mil çəkən.
Düşmənimiz dostumuzdan çox ikən,
Türkün türklə ədavətə haqqı yox.

Sinəsini yarmalıyıq zülmətin,
Bu məqsədlə getdiyimiz yol çətin.
Hər gün necə şəhid verən millətin
Bir-birilə ədavətə haqqı yox.

*"Xalq qəzeti", 5 sentyabr, 1992.*
*"Yanan da mən, yaman da mən", Bakı, 1995.*



## AYININ MİN OYUNU VAR...

İttifaq dağıldı, dərhal "yeniləşmiş ittifaq" adı ilə köhnə imperiyanı bərpa etmək istədilər. Daha doğrusu, tələnin həcmini və rəngini dəyişdilər, ilan vuran ala çatıdan qorxduğu üçün köhnə çatıdan gözü qorxmuş bədbəxtlər təzə çatıya yaxın düşmədilər. Bu dəfə "Dostluq" adı ilə təzə tələ qurdular. Burda deyiblər, ayının min bir oyunu var, bir armudun başında. Tələ həmin tələdir, çulunu dəyişib. Həsən keçəl, yaxud keçəl Həsən. Nə fərqi var?

"İttifaq, "dostluq", "suverenlik", "qardaşlıq", "bərabərlik" sözlərini çox eşitmişik. Göz qamaşdırıcı bu gözəl sözlərin çəkici altında bizi o qədər əziblər ki, adamın bu sözlərdən də zəhləsi gedir. Çünki 70 ildə bu sözlər öz həqiqi mənasından çıxıb əks məna alıb. Siyasət gör sözlərin başına nə oyun açıb. Bunları düşün dükcə millətin əsrlər boyu yaratdığı sözlərdən belə iyrənirik.

Bu mənada üçlüyün yaratdığı yeni "Sodrujestvo" birliyinə ehtiyatla yanaşmalı, götürqoy eləməli, yüz ölçüb, bir biçməliyik.

"Üçlük" 1992-ci ildə bağlanmış İttifaq müqaviləsinin qüvvədən düşdüyünü elan etdi. Bunu biz də alqışlayırıq. İndi bu yeni yaranmış

"Sodrujestvo"nun arxasında başqa niyyət yoxsa, onda

Rusiya əvvəlcə 1920-ci ilə qədər olan müstəqil Azərbaycan Demokratik Cümhuriyyətinin zorakılıqla işğal olunduğunu qeyd etməli və bu gün həmin müstəqil Dövlətin varlığını tanımalıdır. Yalnız bundan sonra biz "Sodrujestvo"ya giribgirməmək məsələsini həll edə bilərik.

Son neçə gündə bunları düşünürdüm. Dünən Almaniyada Azərbaycan kultur ocağının təşkilatçılarından "Ana dili" qəzetinin naşiri Nurəddin Qərəvidən bir telefonoqram aldım. Həmən telefonoqramı "Azadlığ"ın oxucularına təqdim edirəm:

### AZƏRBAYCAN MİLLİ ŞURASINA VƏ PARLAMENTİNƏ

Hörmətli millət vəkilləri! Azərbaycanın tarixində Azərbaycanın mənafeyini qoruyub, onun müstəqilliyini əldə etmək üçün belə tarixi mövqeyyət, məqam ələ düşməmişdi. Bu tarixi mövqeyyətdən istifadə etmək sizlərin və bütün azərbaycanlıların milli və tarixi vəzifəsidir. Çünki xalqımızın, Vətənimizin azadlığı üçün belə bir tarixi mövqeyyət daha bir də əlimizə düşməyəcəkdir. Azərbaycan ruslar tərəfindən yaradılmış guya sözdə yeni birliyə qatılmamalıdır. Keçən 71 illik acı təcrübəni yaddan çıxartmamalıyıq. Bu 71 ilin içində Azərbaycana vurulan xəsarətlər hamıya məlumdur.

Azərbaycan tam bir müstəqil ölkə kimi əvvəlki SSRİ cümhuriyyətləri ilə ikili dostluq və ticarət münasibətləri qura bilər, amma bu cür ittifaqlara hər ünvan altında olursaolsun girmək, Vətənə,

gələcək Azərbaycan nəslinə xəyanət sayılır. Verilən müstəqillik qərarına sadiq qalınmalıdır, milli varlığımız buna bağlıdır.

Hörmətlərimizlə,

*Azərbaycan həkimlər birliyi,*
*Azərbaycan kültür ocağı,*
*Bonn, "Ana dili" qəzeti.*
Nurəddin QƏRƏVİ.

*1991.*
*"Yanan da mən, yaman da mən", Bakı, 1995.*



## “YENİLƏŞMİŞ İTTİFAQ” NƏDİR?
## (İMKANIMIZ, HAQQIMIZ)

Suveren və müstəqil respublika olmaqla, SSRİnin bütün başqa respublikalardan daha çox imkanımız və haqqımız olduğu halda bizim başçılarımız bu imkandan və qanuni haqdan imtina etdi. Yeraltı və yerüstü sərvətlərimiz, 12 iqlimdən doqquzuna malik olmağımızdan doğan müxtəlif adlı, müxtəlif çeşidli təhsil yetişdirməyimiz bizim imkanlarımızın genişliyinə sübutdur. Bunlar müstəqil yaşaya bilməyimiz üçün bizə böyük imkan verir. Bunu sovetlər ittifaqının tanınmış iqtisadçıları da dəfələrlə demiş və sübut etmişlər ki, respublikalar içərisində Azərbaycanla Belorusiya heç bir ölkədən asılı olmadan müstəqil yaşaya bilər.

Buna baxmayaraq, bizim bəzi kommunist “iqtisadçılarımız” və prezidentimiz iddia edir ki, indi bizə, birinci növbədə, iqtisadi müstəqillik lazımdır. Siyasi müstəqilliyi isə iqtisadi müstəqillikdən sonra əldə edə bilərik. Burdan belə çıxır ki, məhbus azad olandan daha xoşbəxtdir. Burdan belə çıxır ki, dustaq məhbəsdə ikən özünə yaxşı iş yeri axtarmalıdır. Bu, o qədər sadəlövh və kökündən yalnış bir fikirdir ki, bu mühakiməyə bişmiş toyuğun da gülməyi gələr. Çün-

ki siyasi azadlığı və müstəqilliyi olmayan bir xalq iqtisadi cəhətdən necə müstəqil ola bilər? Axı, bu, adi bir həqiqətdir: Siyasi azadlığı olmayan, başqasının qapazı altın da yaşayan xalq daşdan qızıl da çıxartsa, qazandığını onun əlindən alacaq, onu dilənçi kökünə salacaqlar. Məgər 70 il belə olmayıb? Biz nəyə arxayın olub qapaz altda yaşayayaşaya iqtisadi azadlıqdan dəm vururuq? 70 il biz Mərkəzə milyon tonlarla neft, uran, Daşkəsən dağlarının dağılması hesabına müxtəlif filizlər, zəhərlənməyimiz hesabına müxtəlif kimyəvi məhsullar, pambıq, üzüm və başqa kənd təsərrüfatı məhsulları vermədikmi? Bəs, biz bunlardan nə qazandıq? Nə it yiyəsi olduq, nə gön yiyəsi! Əlimiz xəmir, qarnımız ac. Məhsulu Mərkəz apardı, bizə isə gedən məhsulun zəhəri, korroziyaya uğramış və sinəsi dağdağ olmuş, çürümüş torpaqlarımız qaldı. Bununla belə, Mərkəz yenə bizdən əl çəkmək istəmir. Çünki hələ soyulmalı dərimiz, talan olunmalı şeylərimiz var. Yoxsa, Mərkəz bizim qara qaşımıza, qara gözümüzə vurğun deyil.

Düzəltmək istədiyi yeni ittifaqın adını “Yeniləşmiş ittifaq” qoymaqla Mərkəz yenə gözümüzə kül üfürür. Guya, bütün məsələ adda imiş. Məgər bu yeniləşmiş ittifaqda məhsulumuz özümüzün kü olacaq? 70 il bizi “azadlıq”, “bərabərlik”, “dostluq” kimi gözəl sözlərlə aldadıblar. Yenə həmin hamam, həmin tas, tələ isə həmin tələdir. Bu təzə tələyə düşən öz ağlının kəmliyindən küssün!

İmkanımızı dedik, amma nə faydası, keçmişdə aldandığımız kimi, yenə aldandıq. Xalq aldanmadı, xalqın başında durnalar bilə bilə, qanaqana aldandılar.

Haqqımıza gəlincə, Mərkəz bizdən çox, heç bir xalqın haqqını tapdamamışdır. Qarabağ məsələsi və bu çəkişmədə Moskvanın həmişə erməni tərəfində olması, bizi addım başı güzəştlərə vadar etməsi, haqqımızın tapdanması deyildimi?

Mərkəz Ermənistan da daxil olmaqla, onun üzünə duran xristian respublikalarının başını sığalladığı halda, bizi tankların altında əzmədimi? Mərkəzin bu bədxahlığının və zülmünün qarşısında bi-

zim quzu bala kimi referendumda iştirak etməyimiz nə dərəcədə düz idi?

Ali Sovetin son sessiyasında (8 fevral, 1991) rus generalı bizim milləti tərifləyib dedi ki, siz beynəlmiləl millətsiniz. Siz övladlarınızı məmnuniyyətlə rus ordusuna verdiyiniz halda, ermənilər və gürcülər öz milli ordularını yaradır.

Bizim deputatlar generalın bu sözünə çox sevinib əl çaldılar. Deputatlarımız onun fərqinə varmadılar ki, rus generalı bizim kölə təbiətimizdən razı qaldığını bildirir. Və ən dəhşətlisi budur ki, biz öz köləliyimizi üstünlüyümüz kimi başa düşürük. Amma deputat Tamerlan Qarayev rus generalına çox yaxşı cavab verdi.

O dedi ki, indi ki, biz sizə bu qədər sadiqik, bəs niyə siz hər yerdə ermənini müdafiə edir, bizi onun ayağı altına verirsiniz?

İkinci tərəfdən, bu "yeniləşmiş ittifaqın" nədən ibarət olduğunu heç kəs bilmir. Əvvəl ittifaq ittifaq idi. İndi biz hansı cəmiyyətdə, hansı formasiyada yaşadığımızı da bilmirik. Buna görə də avara vəziyyətindəyik. Keçmiş ittifaqda totalitar sistemin çox qüvvətli və gözqamaşdırıcı ideologiyası var idi. Çürük də olsa, bu ideologiyanın üzərində duran ittifaq elə bununla da dünyaya meydan oxuyurdu. İndi bu ideologiyanın iç üzü açılmış, boş bir nağıl olduğu dünyaya və bizə məlum olmuşdur. Əvvəllər bu ittifaq Varşava paktı ilə Şərqi Avropa ölkələrini də öz pəncəsində saxlayır və bu birliklə yenə də dünyaya meydan oxuyurdu. İndi bu birlik də dağıldı. Əvvəllər dünyada yalançı

millətlər dostluğu şüarı üzərində yaradılmış imperiya ruslaşdırma siyasəti aparır, xırda xalqların milli mənliyini tapdayırdı. İndi imperiya özünü qorumaq və saxlamaq üçün millətlər arasına ədavət toxumu səpmiş, bununla xalqlar dostluğu adlanan cəfəngiyat da iflasa uğramışdır.

Bütün bunlardan sonra başa düşmək olmur, hansı yeniləşmiş ittifaqdan söhbət gedə bilər? Gücü, qüdrəti, ideologiyası, paktı, birliyi dağılmış, xərabələrində bayquş ulayan bu ittifaq bizə nə verə

bilər? Görəsən, bizim başçılarımız bütün dünyaya məlum olan bu həqiqətləri bilmir, yoxsa, bilmək istəmir? Mən belə başa düşürəm ki, bizim başçılarımız 70 il eşitdiyimiz yalanlara yenə uyur və milləti yenidən, əvvəlkindən daha dəhşətli boyunduruq altına sürükləyir. Başçılarımız unudur ki, bu xəyanətləri ilə onlar tarix qarşısında cavab verməli olacaqlar. Heç olmasa, gələcəkdə yaşayacaq övladlarını düşünsünlər.

Mən başçılarımızdan gileynənəndə qurultay ərəfəsində Prezidentin qəbulunda olan yazıçıların təkliflərini xatırladım... Prezident referendumda iştirak etməyin bizim üçün zəruri olduğunu uzun-uzadı izah edib bu barədə yazıçıların fikrini bilmək istədi.

Xalqın qabaqcıl dəstəsi hesab olunan yazıçılar bu məsələnin müzakirəsindən yan keçib, biri teatrımızda təmirin ləngiməsindən, o biri də mənzilində suyun olmamasından şikayətləndi. Sabir burada deyib: "Qaç, at basdı, millət gəlir".

Əgər bu yazıçıların qəlbində vətən və millət dərdi olsaydı və onlar özlərini bu millətin bir parçası bilsəydilər, millətin ağrısı onların qəlbində göynər və onlar referenduma etiraz əlaməti olaraq aclıq elan etmiş övladlarımızın haqlı tələbindən danışar, Prezidentdən bu barədə bir daha düşünməyi xahiş edərdilər...

Amma yazıçılarımızın çıxışlarından belə məlum oldu ki, bizim heç bir milli dərdimiz, azarımız yoxdur, hər şey öz yerindədir. Təkcə mənzilimizin suyu çatışmır. El buna "saqqal darağımız çatmır" deyər və yazıçılarımız yaxşı ki, bu dərdi vaxtında Prezidentimizə yetirdi. O da, inşallah, bu məsələni Mərkəzə çatdırar, Mərkəz də yəqin ki, bizə saqqal darağı göndərər. Allah qoysa!

*1991.*
*"Yanan da mən, yaman da mən", Bakı, 1995.*



## KİM BİLİR?

İstiqlaliyyətin hər bir millətə zəruri olduğunu sübut etmək üçün çox da böyük istedad sahibi olmaq lazım deyil. İnsanın təbiətin də həmişə azadlıq arzusu yaşayır. Doğmaca övlad da müəyyən yaşa çatandan sonra ata himayəsindən çıxmaq, müstəqil yaşamaq istəyir. Eləcə də millətlər. Sovet imperiyası bizə heç zaman övlad gözü ilə baxmayıb. Əksinə, həm maddi sərvətlərimizi, həm də mənəvi sərvətlərimizi sümürüb talayıb. Belə bir zülm və istismar boyunduruğu altında hansı millət yaşamaq istər ki, biz də istəyək? Yeganə yolumuz istiqlaliyyətimizi qazanmaqdır. Gizli deyil ki, bundan əvvəlki sessiyalarımızda həmişə durğunluq, ətalət hökm sürərdi. Bu sessiyada isə qəribə bir canlanma əmələ gəldi. Deyəsən, yavaşyavaş demokratiyaya öyrəşirik, yavaşyavaş bürokratiyanın nümayəndələri pisi yaxşıdan, şəri xeyirdən ayırmağa başlayırlar. Məhz elə buna görə də böyük çətinliklərdən sonra respublikamızın müstəqilliyi haqqında konstitusiya qanunumuzun qəbul edilməsinə nail olduq. Deputatların hamısı yekdilliklə bu məsələnin lehinə səs verdi. Amma bu o demək deyildir ki, biz indi tam müstəqilik. Çətinliklərimiz olacaq. Azadlıq, istiqlaliyyət, heç bir millətə hədiyyə kimi verilmir. Hər bir azadlıq

müəyyən qurban tələb edir. Mənə görə, tox olub kölə olmaqdansa, müəyyən qədər ac olaq, amma istiqlaliyyətimiz olsun. İstiqlaliyyət və tam azadlıq olandan sonra hər şey düzələcək. Mən istəyirəm ki, millət öz xeyrini, şərini özü həll eləsin. Rusiyanın, eləcə də bizim öz iqtisadçılarımız da sübut edirlər ki, respublikamızın potensial imkanları çoxdur.

Yəni, Azərbaycan özüözünü saxlaya bilər. Bir halda ki, belədir, biz biriki illik çətinliklərdən qorxmamalıyıq. Cəsarətlə istiqlaliyyətə doğru getməliyik. Əlbəttə, tam istiqlaliyyətə doğru.

Böyük atamız Məmməd Əmin Rəsulzadə 1918-ci ildə verilən imkandan istifadə eləyib. Şərqdə ilk milli demokratik respublika yaratdı. Biz bu gün həmin respublikanı bərpa etməliyik. İndi məqam dır. Əgər bu məqamdan istifadə edib, demokratik respublikamızı bərpa edə bilməsək, gələcək nəsillər bunu bizə bağışlamaz. Çünki kim bilir, belə bir məqam, belə bir şans bir də ələ düşəcəkmi?

Allah bizim köməyimiz olsun!

*"Ədəbiyyat" qəzeti, 25 oktyabr 1991.*
*"Yanan da mən, yaman da mən", Bakı, 1995.*



# QIZIM, SƏNƏ DEYİRƏM, GƏLİNİM, SƏN EŞİT

***(Türkiyədə nəşr olunan kitaba ön söz)***

Türkiyəmizdə yayınlanacaq yeni kitabım üçün ön söz yazmağı Yayımlar idarəsi mənə tapşıranda nə yazacağım barədə çox düşündüm. Özüm öz şeirlərim haqqında nə yaza bilərdim? Axı, ön söz, bir növ müəllifi təqdim etmək məqsədi güdür. Şübhəsiz, Türkiyə məni, mənim yaradıcılığımı Azərbaycan qədər tanıya bilmir. Sonra fikirləşdim ki, bəlkə də, bu daha yaxşıdır. Qoy, Türkiyədəki oxucular məni əsərlərimdən tanısın.

Bununla belə, mən düşünürəm ki, mənim şeir sənəti haqqında mülahizələrim türk oxcusu üçün maraqlı olar. Dünyanın ən böyük filosofları, bilginləri və şairləri hələ bu vaxta qədər "şeir nədir?" sualının tam cavabını verə bilməmişlər. Biri demiş: "Şeir ürəyin ən incə, ən dərin, ən zərif duyğularının ifadəsidir". Biri demiş: "Şeir gözəlliyin nəğməsidir", biri demiş: "Şeir insan əzablarının və iztirablarının təcəssümüdür", bir başqası demiş: "Şeir həyatın aynasıdır" və s... Necib Fazil Qısakürəksə demiş, "Allahı bulamamacasına aramaq olan şeirin qayəsi ilk dayanak və çıxış nöqtəsi olaraq din təməlinə möhtacdır".

Bu təriflərin hər biri müəllifin öz nöqteyi-nəzərindən doğrudur. Lakin bu təriflərin heç biri şeirin tam tərifini verə bilmir. Buna görə də mən "şeir nədir?" sualına öz nöqteyi-nəzərimi demək istəyirəm: "Mənim üçün şeir dərdimin, istəyimin, arzumun danışan dilidir". Bizdə bir bayatı var:

Mən dərdlərə yol oldum,
Yandım, dönüb kül oldum.
Dilləndirdi dərd məni,
Oxudum, bülbül oldum.

Bəli, bülbülü oxudan onun dərdi olduğu kimi, şairi də dilləndirib oxudan onun dərdidir. Bu mənada xalqımın 180 il Rus imperializminin yumruğu altında çəkdiyi çilələr, əzab və əziyyətlərdir əlimə qələm verib məni şair edən. Odur ki, bu yumruq altında mənim yazdığım şeirlərimə birmənalı, üzdən baxan oxucu misralarımın özünü deyil, onun arxasında gizlənən mənanı arayıb bulmalıdır; Əkstəqdirdə, mənim şeirlərim türk oxucusuna tam aydın ola bilməz. O zamanlar mən qapalı yazmalı idim, amma mahir Azərbaycan oxucusu mənim qapalı misralarımın üst qapağını aça bilmiş, onların arxasında gizlənən əsl mətləbi görə bilmiş, gilasa baxıb, içindəki çəyirdəyi görmüşdür. Xalqımın yaşadığı çilələr, əzab və əziyyətlər ona bu çəyirdəyi görmək imkanı verirdi. Azad və firavan bir millət, bəlkə də, mənim qapalı dediyim mətləbləri tam açıqlığı ilə dərk edə bilməzdi. Axı, mən bu zavallı xalqın övladı olduğumdan onun dərdlərini yazırdım. Allah heç bir milləti başqa millətin köləsi etməsin!

On doqquzuncu yüz ildə yaşamış böyük ədibimiz M.F.Axundzadə demiş ki, əgər mövcud quruluşu açıq tənqid edə bilmirsənsə, zamanı və məkanı dəyişdir, ürək sözünü yaz, anlayan anlayacaq.

Mən uzun illər böyük ədibimizin bu məşhur resepti əsasında yazmış, totalitar sistemə bu yolla öz etirazımı bildirmişəm. Bu üsulu

dəstəkləyən bir ata sözü də var: "Qızım, sənə deyirəm, gəlinim, sən eşit".

Sizə təqdim etdiyim bu kitabda qəlbimin dərinliyində gizlənən duyğularımı yəni, gilasın içindəki çəyirdiyi hörmətli Türkiyə oxucuları bula bilərlərsə, mən özümü adım kimi bəxtiyar hesab edərəm.

*1993.*

*"Yanan da mən, yaman da mən", Bakı, 1995.*



## BİZ VƏ ONLAR

“Böyüklərin” toplaşdığı mühüm bir məclisdə (23 oktyabr, 1990. Nazirlər Sovetində) böyüklərdən biri məlumat verdi ki, müdafiə naziri Yazova dəfələrlə müraciət edib ki, gələn ildən çağırışçıların 50 faizinin Azərbaycanda xidmət etməsinə icazə versin. Bununla belə, Yazov susur, razılığını bildirmir. Mən qalxıb sual verdim.

- Ermənistan və Gürcüstan milli ordusunu yaradanda Yazova müraciət etmişdimi?

Dedi: - Yox! Onlarda məsələ başqa cürdür. Onların adi camaatı övladını əsgər vermir. Cavanlar dağlara çıxır, dəstə-dəstə toplanır. Nəticədə, ordu yarada bildilər. Amma bizimkilər dirəşmir. Əsgərliyə çağırılan quzu kimi gedir, etiraz etmir.

- Niyə? Niyə bizimkilər belə quzuya dönüblər? Çünki rusdan yox, öz böyüklərindən qorxurlar. Erməni çağırışçısı xidmətdən boyun qaçıranda öz böyüyündən arxayındır. Bilir ki, böyüyü onu rusun ayağına verməyəcək. Onun ərköyünlüyünü götürəcək. Amma bizim böyük rusun xoşuna gəlmək üçün özününkünün başını kəsməyə hazırdır. Sübut istəyirsən? Götür, son hadisələrdə həbs etdirdiyimiz Etibarın, Xəlilin taleyini. Bu boyda həngaməni törədən, yüzlərlə erməninin və azərbaycanlının qanına bais olan Balayanı, Manuçarovu, Kapu-

tikyanı və onlarla başqa yanı erməni rusun əlinə verdimi? Əksinə, onları deputat elədi. Biz isə Balayanın günahlarından yüz dəfə, min dəfə günahı az olan, millətinin qeyrətini çəkən oğulların başına nə oyunlar açdıq? Tutub, rusa təslim etmədik? Belə olduğu təqdirdə, millət başına nə kül töksün? Millət öz böyüklərindən qorxmasın, neyləsin? Siz böyüklər qorxuda-qorxuda milləti qula döndərmiş, kişiliyini əlindən almısınız. İndi də köləliyindən şikayətlənirsiniz.

*1990.*
*"Yanan da mən, yaman da mən", Bakı, 1995.*



## ELMİMİZ NƏ ÜÇÜN GERİ QALIR?

Elmimizin geri qalmasının səbəbləri çoxdur. Mən ən vaciblərini deyəcəyəm.

Birinci səbəb alimlərimizdə vətəndaşlıq duyğusunun zəifliyi, şəxsi duyğunun ictimai duyğudan qüvvətli olmasıdır. Bu, yalnız alimlərimizə xas deyil, bu bəla, ümumiyyətlə, hamımıza aiddir. "Mən"in "biz"dən üstün olması bizim bəlalarımızın əsasını təşkil edir. Aqillərdən biri çox gözəl deyib: "Elmin vətəni yoxdur, amma alimin vətəni olmalıdır", yəni alim bilməlidir ki, hansı vətənə, hansı xalqa və nə üçün xidmət göstərir.

Çox təəssüf ki, bizim alimlərimizin əksəriyyətində ictimai duyğu zəifdir. Biz özümüz elmə qulluq etməli ikən, bizim elmimiz özümüzə qulluq edir. Yəni, dissertasiyalar yazıb maaşımızı artırmaqla məşğuluq. Elmə elm kimi xidmət etmir, elmə güzəranı yaxşılaşdırmaq vasitəsi kimi baxırıq. Demək, "mən" "biz"dən qabağa keçir. Burdan da elmi kadrların seçilməsindəki əyintilər meydana çıxır. Kimlər gəlir elmə? İstedadı ilə deyil, fərasəti və məharəti ilə elm zirvəsinə dırmaşa bilənlər, ziqzaqlardan əyiləəyilə keçə bilənlər...

Bir misal demək istəyirəm. 1972-ci ildə universitetin filologi-

ya fakültəsində qəbul imtahanı götürürdüm (40 illik müəllimlik fəaliyyətimdə birinci və axırıncı dəfə o zaman qəbul imtahanında olmuşam). Abituriyentlərin əksəriyyəti orta məktəbin proqramında olan məlum “Hacı Qara”, “Vaqif”, “Sevil” və s. mövzularda sərbəst iş yazır, amma mücərrəd mövzulardan çəkinirlər. Niyə? Ona görə ki, onlarda bu şablon mövzuların şparqalkaları var, gizlində köçürürlər. Bu köçürmə əməliyyatı abituriyentlərin istedadını və qabiliyyətini bildirə bilməz. Mən istedad axtarırdım. Bu isə mücərrəd sərbəst mövzularda özünü göstərə bilər.

Uşaqlardan biri “Mən niyə Vətənimi sevirəm” mövzusunda sərbəst iş yazırdı. Gözüm bunu aldı və uşaq yazdıqca başının üstündən onun yazısını izləyirdim. Yazısı təxminən belə idi: “Mən Ermənistanın filan kəndindənəm. Bizim kəndin yanından Yerevan-Bakı qatarı keçir. Mən həmişə stansiyaya gələr, Yerevan-Bakı qatarının arxasınca baxar, onu həsrətlə yola salardım. Sonuncu vaqonun arxasınca baxarkən mənə elə gələrdi ki, qoşa relslər mənə doğru uzanan anam Bakının qollarıdır. O məni bağrına basmaq istəyir”.

Bax, bu, istedad nümunəsidir. Çünki bu yazıda şablon yoxdur, Bu yazı Vətən həsrətilə yaşayan gənc bir ürəyin hərarətli çırpıntılarıdır.

Buna baxmayaraq, nə olsa yaxşıdır? Bu yazını yoxlayan müəllim, yazıda iki vergül, bir orfoqrafik səhv tapdığından ona 3 qiymət vermişdi. Buna nə demək olar? Abituriyent istedadlı, ona qiymət verən müəllim isə istedadsız bir pedant olduğundan istedadı qiymətləndirə bilməmişdir.

Bəlkə, başqa səbəb də var. Demək çətindir. Yalnız onu demək olar ki, faciəmizin əsası elmi və zəkanı qiymətləndirmək səlahiyyətində olanlarda həmin abituriyentin qəlbindəki Vətən hissinin olmamasıdır.

Biz nə qədər ki, elmi kadrları istedada və zəkaya görə deyil, münasibətə görə seçirik, elmimiz bir addım da irəli gedə bilməyəcək.

Elmi kadrları seçənin bircə amalı olmalıdır: o bilməlidir ki, Vətənin gələcəyi üçün alim seçir. Etiraf edək ki, qonşularımız elmi kadrları öz şəxsi arzuları naminə deyil, məhz Vətənin gələcəyi naminə seçdiklərindən elmləri bizdən çox irəlidir. Axı, indiki zamanda Vətənin gələcəyi, o Vətənin elmindən asılıdır. İndi elmsiz xalq, silahsız əsgərdir. Bəs biz Vətənin və xalqın inkişafında elmin əhəmiyyətini nə zaman dərk edəcəyik?.. Bunu tam mənasında dərk edib, Vətənin və xalqın mənafeyini hər cür şəxsi hissimizdən irəli çəkmək üçün biz, sözün həqiqi mənasında, özümüzü dəyişməli, yenidən qurmalıyıq.

İkinci sualın cavabını verməkdə acizəm. Elmimizin bugünkü təşkili strukturu barədə mərhum alimimiz Xudu Məmmədov təxminən 10 il bundan əvvəl Akademiyamızın rəyasət heyətinə bir məktubla müraciət etmişdi. Mən xahiş edirəm, o məktub tapılıb müzakirə olunsun.

Üçüncü sualın cavabını birincidə vermişəm: Əksərən, istedadlı gənclər elmə cəlb olunmur.

Dördüncü suala da cavab verməkdə çətinlik çəkirəm.

Beşinci sual məni təəccübləndirir. Çünki elmin bütün sahələri və problemləri mühümdür və hamısına diqqəti artırmaq vacibdir.

Altıncı sualın cavabını birinci sualın cavabında vermişdim. Amalı, ideyası böyük Vətən sevgisi ya olmayan, ya da zəif olan alim məktəb yarada bilməz!

*"Azərbaycan kommunisti" jurnalı, 1989, № 11.*
*"Yanan da mən, yaman da mən", Bakı, 1995.*



# ÖN SÖZ*

Mən sovet rejimi ilə barışmayan, onu qəbul etməyən, xoş günlər arzusu ilə yaçayan dindar bir ailədə böyümüşəm. Uşaq yaşlarımdan Sovet rejiminin zülmünü, zorakılığını (1930-cu ildə Şəki üsyanı, üsyandan sonra qırğınlar və sürgünlər, ata və əmilərimin həbsi və s.) öz gözlərimlə görüb, ağlımla dərk etmişəm. Belə ki, hələ uşaqlıqdan qəlbimdə o rejimə nifrət toxumları səpildi. Həmin bu toxumlar sonradan cücərib şeirlərə çevrildi.

Qələmim püxtələşdikcə mövcud quruluşa nifrətim də ildən-ilə dərinləşir və bu gizli hissimi ifadə etmək üçün yollar axtarırdım. Hələ kifayət qədər təcrübəm və səriştəm olmadığına görə, Universitetdə oxuduğum müharibə illərində sözümü birbaşa deyir və əlbəttə, bu cür şeirləri çap üçün yazmır, arxivimdə gizlədirdim. Bu illərdən başlayaraq 1989-cu illərə qədər rejimə qarşı yazdığım əsərləri iki qismə bölmək olar: bir qismi birbaşa, açıq-aşkar rejimin qüsurlarını, törətdiyi faciələri əks etdirən yazılar, o biri qismin isə senzuranı aldatmaq üçün təsvir olunan hadisəni, nəql olunan əhvalatı, yaxud şahidi olduğum faciəni ya tarixə, ya da xarici ölkələrə keçirmək yolu

ilə yazılan əsərlər.

Birinci qismə aid olunan əsərlər, əlbəttə, çap üçün deyil, arxivim üçün yazılırdı. Bu əsərlərin böyük bir qismi ilk dəfə "Nağıl-həyat" (1991), "Ümidə heykəl qoyun" (1993), "Körpü çaydan uzaq düşüb" (1996) adlı kitablarımda "Sandıqdan səslər" başlığı altında işıq üzü görmüşdür.

Rejimin dəhşətlərindən heç şeyi gizlətmədən açıq-aşkar bəhs edən bu şeirlərin yaranma tarixi və səbəblərindən danışmazdan əvvəl senzuranı aldatma yolu ilə eyhamlar və rəmzlərlə yazdığım şeirlərdən bəhs etmək istəyirəm. Burda böyük filosof şairimiz M.F.Axundzadənin "Zamanı, yaxud məkanı dəyişməklə sözünü demək üsulu"ndan istifadə edirdim. 1959-961-ci illərdə xarici ölkələrə səyahətə çıxmağın bu işdə mənim dadıma çatdı. Bu münasibətlə yazdığım "Ələddinin çırağı", "Özünə yalvarsana", "Ehramların önündə", "Aclardan toxlara", "Taqikəsra önündə", "Baba Gur-Gur", "Açıq şəhər", "Latın dili" və s. şeirlərimdə guya yadellilər tərəfindən işğal edilib talanan ərəb ölkələrindən söhbət gedir. Amma ağıllı oxucu sətirlərin arxasında gizlənmiş məkanı tapır, nəyə və hara işarə etdiyimi anlayırdı. Məsələn, Tanyerə həsr etdiyim "Açıq şəhər" şeirimdə yazırdım:

Ağaclar oldu sənin,
Meyvələri özgənin.
Balan xoş günə həsrət,
Özün özünə həsrət.

...Oldun yadlara möhtac
"Yersiz gəldi, yerli qaç".

Öz oğluna, qızına
Güzaran çətin oldu.
Gələn qara ehtiyac,

Gedən ismətin oldu.

70-ci illərdə böyük fizik, hidrogen bombasının atası Saxarov Sovet rejiminə qarşı çıxdığı fikirlərinə görə təqib olunmağa başladı. O zaman Sovet diktaturasına qarşı olan bütün açıq fikirli adamlar Saxarova rəğbət bəsləyirdi. Mən bu böyük şəxsiyyətə rəğbət bəsləməklə yanaşı, bir yol tapıb onun rejimə olan etirazını qələmə almaq istəyirdim. O zaman qəzetlərdə oxudum ki, "ABŞ-da "başqa cür düşünənlərin" adı "qara siyahıya" düşür və bu adamlardan biri də "Xalqlar arasında sülhü möhkəmləndirmək üçün" Beynəlxalq Lenin və Nobel mükafatları laureatı Laynus Polinqdir". Bu xəbər Saxarovun ədalətli mübarizəsini qələmə almaq üçün mənim əlimə tutalqa verdi. L.Polinq haqqında sovet qəzetlərinin yazdığı yuxarıdakı cümlələri epiqraf götürərək "Dan yeri" şeirimi yazdım. Lakin ağıllı oxucu mənim dediklərimin İ.Polinqə və ABŞ-a deyil, məhz Saxarova və Sovetlər İttifaqına aid olduğunu dərhal başa düşür:

Hökumətlər cərgəsində öz yerin var,
Hidrogenin, atomun var,
Nələrin var, nələrin var.

...Belə qorxunc silahları olan ölkə
Qorxarmı heç?
Sən qorxursan, dünən, bu gün
Min hidrogen bombasından
Qorxuludur sənin üçün
Qanan bir baş, yanan ürək.
Sən atomdan qorxmamısan
Bir fikirdən, düşüncədən qorxduğun tək.
Boyaları həqiqətdən,
Həqiqəti rəzalətdən,
Öz gözüylə gördüyünü boş nağıldan

Seçə bilən bir ağıldan
Niyə qorxdun?
Əgər Laynus böhtançısa, yalançısa,
Niyə onun dediyini
Məmləkətdən gizlədirsən,
Niyə onu həbs edirsən?

...Ey Vətənçin alışanlar,
Qismətiniz ölüm, zindan!
Sən qorxursan,
Bu qorxunun ağırlığı
Sənin haqsız əməlinin
Çəkisidir, dəyəridir.
Üfüqdəki al rəngə bax,
Dan yeridir, dan yeridir.

1968-ci ildə Daşkənddə mənim də iştirak etdiyim "Afrika və Asiya yazıçılarının müşavirəsi" keçirildi. Bu münasibətlə mən "Neo" adlı bir şeir yazdım. Şeirdə məhkum bir xalqın nümayəndəsinin dililə öz dərdimizi dilə gətirmişdim.

Sizin kimi bir insanıq,
Biz nə daşıq, nə dəmirik.
Yetər, artıq biz heç kəsə
Yamaq olmaq istəmirik.
Yaman dərddir özgəsinə yamaq olmaq.
Yaman dərddir
Azadlığın həsrətinə damaq olmaq.
Yaman dərddir
Gözün ola, amma görə bilməyəsən.
Yaman dərddir, əlin ola,
Evindəki zirzibili

Sən süpürə bilməyəsən.
Yaman dərddir, dilin ola,
Nə danışıb, nə dinəsən.
Yaman dərddir, ağlın ola,
Başqasının ağlı ilə düşünəsən!

Bu üsuldan istifadə edərək yazdığım şeir və poemalar kifayət qədərdir.

50-ci illərin sonunda Əlcəzair xalqı fransız imperializminə qarşı böyük azadlıq mübarizəsinə başladı. 8 il davam edən böyük istiqlal hərəkatı, nəhayət, əlcəzairlilərin qələbəsi ilə qurtardı. Mən 1964-cü ildə bu mübarizəyə "Yollar oğullar" adlı bir poema həsr etdim. Poemanı çap etmək üçün "Azərbaycan" dərgisinə verdim. O zaman dərgidə çalışan qələm yoldaşım (artıq rəhmətə getmiş bir şair) açıq imzası ilə Yazıçılar İttifaqının sədri Mehdi Hüseynə, KQB-yə və MK-ya məktubla müraciət edərək bu əsərdə Əlcəzair-fransız münasibətindən deyil, məhz rus-Azərbaycan münasibətindən bəhs olunduğunu və bu əsərin antisovet cəbhəsindən yazıldığını iddia etdi. Əsər müzakirəyə verildi.

Bu gün mən xatirəsi önündə böyük minnətdarlıq və şükranlıq hissiylə deməliyəm ki, mənim həmkarımın yazdığı donos nə qədər həqiqət olsa da, məni o bəladan Mehdi Hüseyn xilas etdi.

Yadımdadır, M.Hüseyn mətbəədə artıq yığılmış həmin əsərin üstündə bu sözləri yazmışdı: "İmperializmə qarşı yazılmış əsər nə vaxtdan antisovet hesab olunub? Aktual mövzuya həsr olunmuş bu əsərin nəşr olunmasının məsuliyyətini öz boynuma götürürəm".

Beləliklə də, əsər çap olundu.

Əsrin qəhrəmanı ərəb oğlu Mustafanın dili ilə deyilən:

Dağ olub üstümə qat-qat qalınca,
Məndən uca dağlar kölgə salınca,
Daş olub dağlardan uzaq olaydım.

Gündən işıq alan bir ay olunca,
Bir evi nurladan çıraq olaydım. -

misraları əsərin əsas leytmotivi idi.

Mənim ən böyük mübarizəm isə sovet dövründə ayaqlar altında tapdanan, qapılar arxasında qalan ana dilimizin uğrunda həm əməli işimdə, həm də yaradıcılığımda ardıcıl mübarizə idi. Mən bu mövzuya onlarla məqalə, onlarla şeir və poema həsr etmişəm. Demək olar ki, bütün poemalarımın ricət hissəsində dolayısı ilə bu və ya başqa şəkildə dilimizin rəsmi dövlət idarələrindən qovulmasına etirazımı bildirmiş, onun hüququnun qaytarılmasını arzulamışam. Məsələn, 1988-ci ildə yazdığım "İki qorxu" poeması:

Vətəndən qovuldu ana dilimiz,
Ana dili dedik gəlmə, yad dilə.
Ərəbcə danışdıq ölülərlə biz,
Rusca qırıldatdıq dirilər ilə.

Elə həmin poemada o zaman haqq və hüquqlarımızın tapdanmasına, ağ yalanların cövlan etməsinə, ana dilimizin əridilməsinə qarşı bəzən açıq, bəzən də müxtəlif üsullardan istifadə edərək yazdığım şeirlərdən bəhs edərək yazıram:

Ağır qəm yüküdür bunlar bir ömrün,
Açılsın tökülsün, deyirəm, bu gün
Mənim ürəyimin gizli sirləri.
Ey cavan oxucum, bu şeirləri
Qoruyub mən bu gün çatdırdım sənə,
İndi də verirəm müzakirənə.
İstərəm biləsən ürəklərimiz
Susmadı... kölgədə yatan olmadıq;
O vaxtlar qəhrəman olmasaq da biz,

Yalana aldanan nadan olmadıq.

Ana dilimizə həsr etdiyim bir çox şeirlərimdən başqa, məqalə və poemalarımda ana dilinin hər bir xalqın milli varlığının birinci göstəricisi olduğunu dəfələrlə vurğulamışam. Bu tipli yazılarımın hamısında "Dil yoxsa, millət də yoxdur" fikrini bayraq etmiş, mübarizəmi bu proqram əsasında aparmışam. Bu cəhətdən 1962-ci ildə Sabirə həsr etdiyim "Ağlar-güləyən" və 1984-cü ildə Güney Azərbaycanının fədakar qızı Mərziyə Üsküyüyə həsr etdiyim "Mərziyə" poeması əsas yer tutur. "Mərziyə" poemasında bir millət üçün Ana dilinin mənasını, mahiyyətini tərənnüm edən və dilimizin bugünkü durumunu əks etdirən ayrıca fəsil var. Bu fəsil belə bitir:

Ey bu günü dilimdilim
Parçalanan ana dilim,
Sinəsində od qalanan ana dilim,
Qapıların arxasında
Boynu bükük qalan dilim,
Var ikən yox olan dilim,
Ayaqlarda kilim dilim,
Savaşlarda bir qəhrəman,
Barışlarda həlim dilim.

Sovet hakimiyyəti illərində vəziyyət elə idi ki, rus dilini mükəmməl bilməyən adamlar nə vəzifədə, nə də elmi sahədə yüksələ bilmir, ehtiyac içərisində yaşamalı olurdu. Ona görə də valideynlər öz uşaqlarını rus məktəblərində oxudur və nəticədə Azərbaycan məktəblərinin sayı ilbəil azalırdı. Bu vəziyyəti çox yaxşı bilsəm də, mən öz uşaqlarımı Azərbaycan məktəblərində oxudur və övladlarını rus məktəblərinə verən ailələrlə həmişə mübarizə aparır və onların "daxili işlərinə" qarışdığıma görə belə ailələrin nifrətini qazanırdım. Bir gün mənə məlum oldu ki, mənim uşaqlarıma an dilində

dərs verən müəllimlərin əksəriyyəti öz uşaqlarını rus məktəblərində oxudular. Mən 1967-ci ildə belə müəl limlərə qarşı "Riyakar" adlı bir şeir yazdım:

Mənim övladıma ana dilində
Dərs verən "ağıllı" müəllimə bax.
"Vətən", "Vətən" deyir, öz övladını
Əcnəbi dilində oxudur ancaq.
Özgəyə "dilini öyrən" deyirsən,
Özünsə bu dili bəyənməyirsən.

Niyə özümüzü ögey sayaq biz,
Niyə atamızı tanımayaq biz?
Özgəni sevirsən? İnanmıram mən.
Özünü sevməyən özgəni sevməz.
Vətənin dilinə gərəksiz deyən

Vətənin özünü necə sevir bəs?
Üzünə dursaydı yediyin çörək,
Rəzil olduğunu yəqin qanardın.
Dilimi dansaydım mən də sənin tək,
Sən kimə dərs deyib pul qazanardın?

Bəli, o zaman mən və mənim kimi ana dilinə hörmət edən, onun gələcəyini düşünənlər olmasaydı, özünü ağıllı bilib övladını rus məktəblərində oxudan Azərbaycan məktəblərinin müəllimləri kimə dərs deyəcək və evində öz millətinə düşmən hazırlayan balalarını hansı maaşla dolandıracaqdı? Heç yadımdan çıxmaz, kiçik oğluma ədəbiyyat dərsi verən yaşlı müəllimlə o zaman aramızda belə bir söhbət olmuşdu. Mən ondan soruşdum:

- Siz öz övladınızı rus məktəbində oxutmaqla düzmü iş görürsünüz?

O:

- Bəli.

Mən:

- Demək, siz bu işi ağıllı hərəkət hesab edirsiniz?

O:

- Bəli.

Mən:

- Onda siz məni səfeh hesab edirsiniz?

O:

- Allah eləməsin.

Mən:

- Sizin məntiqinizdən belə çıxır ki, mən də ağıllı olsaydım, sizin kimi övladlarımı rus məktəbinə verərdim. Verməmişəmsə, demək, mən sizin kimi ağıllı deyil, səfehəm. Demək, siz səfehlərin uşaqlarına dərs deyirsiniz. Səfehlərin uşaqları da özləri kimi səfeh olar. Amma unutmayın, səfehlərə dərs deyənin özü də səfehdir.

Söz müəllimi güllə kimi tutdu. Amma cavab verə bilməyib mənimlə xudahafizləşmədən çıxıb getdi. Mən ertəsi günü "Riyakar" şeirimi yazdım.

Ana dilimizin qəsdən, şüurlu surətdə assimilə edilməsinə qarşı 1967-ci ildə yazdığım və bunun üstündə təqiblər və təhdidlərlə qarşılaşdığım şeirlərdən biri də "Latın dili"dir. Şeirin sonunda Kasablanka yazmaqla özümü senzuradan qorumaq istəmişdim. Lakin şeir çap olunandan bir qədər sonra məni məşhər ayağına çəkdilər. Şeirin məzmunu belədir: Latın xalqı indi ölü xalqdır. Amma latın dili bütün elmlərdə istilah olaraq yaşamaqdadır. Buna görə bu dildə danışan millətin özü ölsə də, dili yaşayır. Amma dünyada elə millətlər var ki, özləri yaşasa da, dillərini öldürüblər.

Buradan eyhamın əridilməkdə olan ana dilimizə vurulduğu aydın olmurmu?

Öz dərdimizi dilə gətirmək üçün məkanı xarici məmləkətlərə, yaxud da tarixə keçirmək ("Yollar - oğullar" - Əlcəzairə "Mərziyə"

və "Bağışlayın səhv olub" - İrana, "Amerika gözəli" - ABŞ-a, "Təzadlar" - Vyetnama və ABŞ-a, "Ağlar-güləyən" - tarixə, "Dan yeri" – ABŞ-a, "Şanyan deyir" - Çinə, "Haydpark" - İngiltərəyə və s.) üsulu ezop dili ilə yazılmışdır. Bu üsulun arxasında duran mətləbi oxucuya daha aydın çatdırmaq üçün 1981-ci ildə qələmə aldığım "Başqasının yasında" şeirində yazmışdım:

İçimi göstərmədim cahil tutan güzgüyə,
Üzdə gülüb, içimdə müşgülümə ağladım.
Millətimin dərdini ünvanlayıb özgəyə,
Başqasının yasında öz ölümə ağladım.

Açıq-aydın hədəfə birbaşa vurduğum şeirlərin isə izaha, açıqlamaya ehtiyacı yoxdur. Həyatda gördüyüm, lakin dilə gətirə bilmədiyim yalnız kağızlara köçürüb arxivimdə saxlamaqla təsəlli tapdığım şeirlər mənim ürək ağrılarımdır.

1956-cı il oktyabr ayında universitet tələblərini müəllimlərin rəhbərliyi ilə Şamxora (indiki Şəmkir - red.) pambıq yığımına göndərmişdilər. Mən bir neçə gün Şamxorda pambıq yığımında oldum. Bizim millətimiz üçün pambığın nə boyda fəlakət olduğunu, qızgəlinlərimizin insanlıqdan çıxdığını, əyilibqalxmaqdan analıqlarını itirdiklərini gördüm və orda "Pambıq" adlı bir şeir yazdım:

Havaya sovrulur əlimin rənci,
Qocaya döndərdin cavanı, gənci.
Yazı əkinçiyik, qışı dilənçi,
Düşmüşük əlindən azara, pambıq.

Anamınbacımın yeyib ətini,
Gözündə qoyursan hər niyyətini.
Çəkirsən kəndlinin heysiyyətini,
Hərrac malı kimi bazara, pambıq.

...Hər zülmə, cəfaya sinə gərmişik,
Xeyiri, qazancı yelə vermişik.
Səni biz əkmişik, biz becərmişik,
Yüklənib gedirsən bəs hara, pambıq?

1961-ci ildə Yaltaya yaradıcılıq evində işləməyə getmişdim. Tatar türklərinin öz halalca torpağı olan Krımdan Orta Asiyaya sürgün edildiyini bilirdim. Burada addımbaşı tatartürk izlərinə rast gəlir və bu boyda haqsızlığa dözə bilmirdim. Nəhayət, Krım türklərinin facisini əks etdirən şeirmi yazdım:

Krım, Yalta, Qızıldaş... Bir xalqın ata yurdu
O, xalqa yad, ay allah, gəlməyə vətən oldu.
İndi necə ayıraq burda xeyirdən şəri,
Axı, haqqın gözləri oyumoyum oyulmuş.
Torpağın altındadır torpağın sahibləri,
Gəlmələr torpaq üstə torpağa sahib olmuş.

Eyni mövzunu 1980-ci ildə Krımın Aluşta şəhərində olduğum zaman başqa şəkildə "Aluştada Əmət xan Sultanın heykəli önümdə" adlı şeirimdə qələmə aldım. İkinci Cahan hərbi illərin də Krım türklərini Krımdan sürgün etdilər. Həmin müharibədə Rusiyanın müdafiəsində böyük qəhrəmanlıqlar göstərmiş Krım türkü Əhməd xan Sultan iki dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldüyünə görə, ona qanun üzrə vətənində heykəl qoyul malı idi. Əmət xan vətənə qayıdıb görür ki, uğrunda vuruşduğu ruslar onun millətini öz halal torpaqlarından sürgün etmişlər. Ondan soruşurlar: "Sənin heykəlini millətin sürgün olunduğu yerdə qoyaq, yoxsa, doğulduğun Aluştada?" O, öz doğma vətənini seçir. Paradoksa baxın: Millətin qovulduğu yerdə həmin millətin oğluna heykəl!

Sənin ana torpağında özünə yox,
Təkcə sənin heykəlinə yer verdilər.
Sənə sənin öz haqqını göstərdilər.
...heykələ bax!
Qəzəb yağır baxışından.
Sən dostunla düşmənini
Seçəmmədin, ey Əmət xan.
Sən qəzəblə nə baxırsan Qərbə sarı?
Döndər, döndər sən Şimala
O qəzəbli baxışları.
Qərbdə deyil, qardaş, sənin
Şimaldadır öz düşmənin.
O düşmən ki, torpağına sahib olub
Səni dandı.
...Heykələ bax! Dayanıbdır əzəmətlə,

Ləyaqətlə,
Öz xalqının şərəfini
Qoruyan bir igid kimi.
Döşündəki o ulduzlar
Əldən çıxan torpağının əvəzimi?
...Ey vətəndə daşa dönüb yalqız qalan,
Sən döyüşdün
Düşməninin düşməniylə nahaq yerə.
Döşündəki nişanlardan
Bu gün gərək Vətən boyda
Dərd göyərə, qəm göyərə.

Arxiv şeirlərim içərisində 1964cü ildə yazdığım "Nağıl həyat" şeiri, mənə görə, kəskinliyi və bədiiliyi etibarı ilə daha tutar lıdır. Anama müraciətən yazılmış bu şeir Vətəni və milləti "maladesə" qurban verən ölkə rəhbərlərinin satqınlığına həsr olunmuş dur. Şei-

rin əvvəlində anama üz tutub günümüzün dəhşətlərini unutmaq üçün mənə nağıl danışmasını istəyirəm. Çünki nağılların sonu xoşbəxt sonluqla bitir. Şeirin ikinci hissəsində isə nağıllardan bezib real həyata qayıdıram:

Danışma, ay anam, danışma, kiri.
Beynimə batmayır bu əfsanələr.
Divlər görmüşəm ki, nağıl divləri
Onların yanında toyuğa bənzər.

Nadanlar görmüşəm, öz yolundakı
Dikə eniş deyir, düzə dik deyir.
Tülkülər görmüşəm, öz qolundakı
Dəmir zəncirlərə bilərzik deyir.

Quldurlar görmüşəm, özgə yer deyil,
Yurdunu talayıb asudə yatmış.
Tacirlər görmüşəm, simuzər deyil,
"Malades" sözünə vətəni satmış.

Beləliklə, məncə, Sovet rejiminə ayna tutan "Sandıqdan səslər" başlığı altında yazıb, arxivimdə saxladığım bu şeirlər mənim yaradıcılığımda xüsusi yer tutur.

*"Sandıqdan səslər" (2002) kitabına ön söz.*



# MÜSTƏQİLLİK BAHARININ İLK QÖNÇƏLƏRİ

Türkiyəyə növbəti səfərdən qayıtmışam. Amma bu səfər əvvəlki adi və ya qeyriadi səfərlərdən deyildi. Bu dəfə mən Türkiyəyə azad və müstəqil bir ölkənin vətəndaşı kimi getmiş dim. Azad və müstəqil Azərbaycanın rəsmi hökumət nümayən dəliyi tərkibində getmişdim. Bu rəsmiyyət də mənim şair sərbəstliyimə mane olmurdu.

Hər cür kommunist maneələri aradan götürülmüşdü. Türklər bunu çox yüksək səviyyədə qarşıladılar, qonşuluq, dostluq, din, dil qardaşlığı münasibətlərindən daha ulu olan bir səmimiyyəti ilə çox qiymətli insanlıq məhəbbəti ilə qarşıladılar. Hər yerdə hiss edirdik ki, türk xalqı Azərbaycanın müstəqilliyinə elə bizim qədər, bəlkə daha çox sevinirlər. Bu sevincin ifadəsi olan iqtisadi əlaqələr barədə oxucular yəqin ki, artıq eşidiblər. Mən ancaq bir faktı, şair kimi ürəyimin ən zərif hissələrini həyəcana gətirən bir insanlıq müqaviləsini mən bu humanist akta özgə ad tapa bilmirəm, xüsusi qeyd etmək istəyirəm. Türkiyə hökuməti Azərbaycana bir milyon ton taxılla kömək edəcəkdir. Onun 900 min tonunu barter üsulu ilə alacağıq. 100 min ton isə qardaş Türkiyənin müstəqil Azərbaycana,

necə deyərlər, bayram hədiyyəsi, müstəqillik hədiyyəsidir. Daim günəşli, baharlı bir torpaqda aclık deyilən müsibətin cövlan etdiyi bir vaxtda bundan qiymətli hədiyyə nə olan bilər?

Ticarət, yüngül sənaye, rabitə, mədəniyyət və başqa sahələrdə imzalanan müqavilələr də tezliklə öz bəhrəsini verəcəkdir. Bu səfər bir şair kimi şəxsən mənim üçün də xüsusilə əlamətdar oldu. Ankarada "Kültür Bakanı" nəşriyyatında təzə çapdan çıxan pyeslər kitabımı mənə verdilər. Daha iki kitab - publisist məqalələr və şeir kitablarım çapa hazırlanır.

Məni xüsusiylə riqqətə gətirən bir xoş xəbəri də qəzetinizin oxucularına çatdırmaq istəyirəm. Məlum olduğu kimi, indi Türkiyənin ali məktəblərində çoxlu azərbaycanlı tələbə oxuyur, bundan belə oxumaq istəyənlərin sayı daha çoxdur. Yeni tədris ilində 50 azərbaycanlı arzusuna çatıb. Bundan başqa, daha 39 həmyerlimiz lap təzəlikcən yerbəyer olub.

"Azərbaycanı tanıtmaq" dərnəyinin (cəmiyyətinin) sədri Seyfəddin Altaylı məndən xahiş etdi ki, onun bilavasitə təşəbbüsü ilə Türkiyənin müxtəlif ali məktəblərinə qəbul edilən və təqaüdlə təmin olunan 39 tələbənin valideynlərini sevindirin.

*"Axtarış" qəzeti, 29 yanvar, 1992.*
*"Yanan da mən, yaman da mən", Bakı, 1995.*



# BİZİM
# KİMİMİZ VAR?

Son zamanlar bəzi qəzetlərdə Türkiyə və türklər haqqında xoşagəlməz sözsöhbətlər baş alıb gedir. Bu daşların haradan və nə məqsədlə atıldığı məlumdur. Lakin bu daşın haradan və nə məqsədlə atıldığını bilməyən, ümumi axına qoşulub danışanlar olmasaydı, mən bəlkə də bu məsələyə öz münasibətimi bildirməzdim.

Mən el-obada həmişə Türkiyə türklərinə dərin rəğbət və minnətdarlıq sədaları eşitmişəm. Dədəmin, babamın, əmilərimin dilindən "türk" sözü düşməzdi. Dədəm o zamankı ermənimüsəl man davasında Əsgəranda qıçından yaralanmışdı. O, deyərdi ki, 1918-ci il mart davasında türklər köməyimizə gəlməsəydi, ermənilər bizim axırımıza çıxacaqdı. Mən uşaqlığımda bütün yaşlılardan bu sözü eşidərdim və bu söz mənim və mənim yaşıdlarımın ürəyinə Anadolu türkünə rəğbət və məhəbbət toxumu səpmişdi. İndi Türküyə ilə aramızdakı sərhəd rejimi yumşalandan və gedişgəliş başlanandan sonra Anadolu türklərinə qarşı yaranmış bu xoşagetməz sözsöhbətlər məndə çox böyük təəssüf hissi oyadır. Aradabərədə eşidirik: "Türklər filan fabriki, filan müəssisəni, filan oteli aldılar", yaxud "türklər

sərvətimizi daşıyır”.

Bu cahilanə söhbətə adam məəttəl qalır. Əvvəla, türk bizdən heç nəyi müftə almır, öz pulu ilə alır. Aldığı fabrik və otelləri bizimlə şərik işlədəcək, qazandığını isə tən yarı bölcək. Dünya standartları səviyyəsində tikəcəyi fabrik və zavodlarla, təmir edəcəyi otellərlə bizi dünya bazarına çıxaracaq.

Əgər biz, doğrudan da, bu qədər öz mülkiyyətimizin və sərvətimizin qədrini biləniksə, 510 il əvvəl nəinki sərvətimizə, milli varlığımıza, dinimizə, dilimizə, imanımıza, namusumuza, vicdanımıza, bir sözlə, bütün mənəviyyatımıza müftəcə sahib çıxan Sovet imperiyasının talançılığına qarşı niyə çıxmır, köləliyimizə şükür edib otururduq? Çünki bunları biləbilə qorxumuzdan susurduq. İndi isə qazandığımız azadlıqdan istifadə edib düşmənimizə yönəltməli olduğumuz nifrətimizi, qəzəbimizi bizim bütün dərdlərimizə şərik olan doğmaca qardaşımızın üstünə tökürük. Bəs ayıb deyil?

Dünən bir yas məclisində yaşlı bir kişi mənə deyir ki, Siz bir deputat kimi dilimizin və əlifbamızın dəyişib, türkləşməsinə niyə etirazınızı bildirmədiniz?.. Soruşuram: Siz hansı əlifbadan və hansı dildən danışırsınız? Məlum olur ki, bu nadan 1938-ci ildən keçdiyimiz kiril əlifbasını doğmaca əlifbamız, son zamanlar işlət diyimiz “çağdaş” kimi doğmaca sözlərimizi isə yad sözlər sanırmış. İlahi, adam da doğması ilə ögeyini bir belə çaş sala bilərmiş?

İndi belələrindən soruşuram: Sən ki, özünü bu qədər vətən pərvər hesab edirsən, bəs 510 il əvvəl Allahın ərizəsini də özgənin dilində yazanda, iclaslarda hamı bülbül kimi rus dilində ötəndə niyə bir dəfə etiraz səsini ucaldıb demədin ki, “Axı, bu yazıq millətin öz dili var?” Əksinə, sən o zaman bunu adicə qayda bildin. Bəs indi niyə bu özünəqayıdışı xor görürsən? Adam da bu qədər xeyrinişərini, doğmasınıyadını, özünüözgəsini tanımayıb, nadanlığı ucundan özünə düşmən olarmı?

İndi belə sözlər də eşidirik: “Sovet hökuməti bizə yaxşılıqdan başqa nə eləmişdi?” Xudaya, bu boyda unutqanlıq olar? İndi mən belələrinə üzümü tutub deyirəm: Sovet imperiyası səni qul eləmişdi.

Öz sərvətinin sahibi deyildin. Dinini, imanını, məzhəbini, dilini, milli varlığını əlindən almışdı. Sənin müstəqil

demokratik dövlətini yıxıb, yerində diktaturalı totalitar rejim yaratmışdı. 1930cu illərdə kolxoz hərəkatına qarşı çıxan Şamaxı, Gəncə, Şəki üsyanlarını qan dənizində boğmuşdu. 1937-ci ildə 50 minə qədər ziyalını Sibir buzlaqlarında məhv eləmişdi. İkinci cahan müharibəsində yarım milyona yaxın gəncini Rusiya torpaqlarının müdafiəsində həlak etdirmişdi. Nəhayət, lap dünən 1990-cı il, 20 yanvarda millətini tankların altında əzmədimi? 1988ci ildən bu günə kimi erməninin Qarabağ iddiasını dəstəkləmirmi? Erməni ilə birləşib səni qırmırmı? Bunları nə tez unutduq?

İndi isə Türkiyə türklərinin bizə elədiklərindən danışaq. Yuxarıda dediyim kimi, 1918-ci ildə özü üç dövlətin basqınına məruz qalmasına baxmayaraq, Azərbaycana qoşun göndərdi və bu torpaqda yüzlərlə şəhid veridi. Həmin adamlara demək istərdim: "Şirvan tərəfə gedəsi olsan, Şamaxı ilə Mərəzə arasında, yolun sol tərəfindəki türk zabitinin məzarına bax. O, Anadoludan bura gəldi və sənin torpağın yolunda şəhid oldu. Heç olmasa, o məzardan utan! 1920ci ildə bolşeviklər sənin respublikanı dağıdanda həmin hökumətin böyük liderlərinə öz qoynunda sığınacaq verdi. Məhəmməd Əmin Rəsulzadələr, Mirzəbalalar, Əli bəy Hüseynzadələr, Əhməd bəy Ağayevlər endirilən bayrağımızı Ankarada dikəltdilər.Son günlərə qədər Kəngərlilərin, Ə.Qaracaların, C.Ünalların dəyanəti sayəsində mühacirətdə milli dövlətimizi yaşatdılar. İkinci cahan müharibəsi illərində Almaniyanın ölüm düşərgələrində can verən əsirlərimizə sahib çıxdılar. Nəhayət, 1990cı ildə Milli Respublikamız yenidən bərpa olunanda onu birinci tanıyan Türkiyə oldu. Ermənilərin Qarabağ iddiası meydana çıxanda bizim haqq səsimizi dünyaya Türkiyə çatdırdı.

Ağ evdə bizdən ötrü Buşlarla, Klintonlarla döşdöşə gələn yenə də Türkiyədir. Nəhayət, 20 Yanvar hadisəsi baş verəndə Türkiyənin bütün məscidlərində şəhidlərimizin ruhuna xütbə oxudub ehsan verən, bütün İslam dünyasını ayağa qaldıran türklər deyildimi?

Təmənnasız göndərdikləri taxıl və başqa ərzaq məhsulları, nəhayət, keçən ay bizə faizsiz 250 milyon dollar borc verdilər. Keçən ildən 2000 tələbəmizi, 300 ataanasız şagirdimizi təmənnasız, hələ üstəlik təqaüd verərək, öz məktəb və universitetlərində oxutmurmu? Bəs, adam da bu qədər haqqı danıb, naşükür olarmı?

Bəlkə, bu ağzıgöyçəklər istəyir ki, bu gün türklər gəlib cəbhədə bizim əvəzimizə vuruşsunlar? Yox, bəylər, hər xalq öz torpağını özü qorumağı bacarmalıdır. Bəlkə, bu ağzıgöyçəklər istəyir ki, tarlalarda tənbəlliyimiz ucundan çürüyən pambığımızı da gəlib türklər yığsın? Sovet rejimi dövründə hər il imperiyaya 700 min ton pambıq verən xalq keçən il özümüz üçün 300 min ton pambıq yığa bilmədi. Bəs bunun günahı kimdə idi? İstanbulda Qapalı carçıda bir Azərbaycan türkü türk tacirindən bir köynəyi istədiyi qiymətə ala bilmirsə, tacir qiymət üstündə onunla çənə döyürsə, məgər bu, türkün yamanlığına dəlalət edir? Gəlin, küçəbazar münaqişəsini ümumiləşdirib, böyük bir millətə şamil etməyək.

Sözümü bu məsələ barədə mənimlə həmfikir olan qələm sahibi Nurəngiz xanımın sözləri ilə bitirmək istəyirəm: "Bu gün dünyanın bütün türk məskənləri içərisində Qərbin məkrlərinə qalxan ola biləcək yeganə güc varsa, o, Türkiyə dövlətidir. Bu gün sayılan dövlətlər sırasında durur Türkiyə və bu gün bütün zavallı türklərin ana qapısında ayaqları üstündə möhkəm duran bir qüdrətin labüdlüyü ilə fəxr etməyə dəyər. Məgər bu sabitlik bizim üçün də təsəlli deyil? Onlardan başqa bizim kimimiz var, axı?"

*Aprel, 1933.*
*"Yanan da mən, yaman da mən", Bakı, 1995.*



## SƏNƏT SƏNƏT ÜÇÜNDÜR, YOXSA XALQ ÜÇÜN?

***(Ali Fuat Azqurun şeir kitabı haqqında)***

Türkiyənin ədəbiyyat aləmində teztez eşitdiyim və son zamanlar Azərbaycan ədəbiyyatına da siraət etmiş "Sənət sənət üçündür" prinsipi və cərəyanı məni çox narahat edir. Sovet dönəmin də ədəbiyyat və sənət imperiyanın təbliğatına qurban edildiyin dən, bu məqsədə haqq qazandırmaq üçün "Sənət xalq üçündür" şüarından çox məharətlə istifadə edirdilər. Əslinə baxsanız, bu ədəbiyyat, bu sənət xalqa deyil, imperiyaya xidmət edirdi. O zaman yazılan əsərlərin bir çoxunun ömrü isə imperiyanın yıxılması ilə sona çatdı. Bununla birlikdə, sovet dövründə yaşayan yazıçıların bir qismi sözün gerçək mənasında "Sənət xalq üçündür" prinsipinə əməl edərək yazmağı bacardılar. Bu yazıçılar müxtəlif ədəbi üsullar və rəmzlərdən faydalanaraq, əsir edilmiş Azərbaycan türklərinin dərdlərini göstərir və sovet imperiyasının çirkinliklərini təsvir edirdilər.

Elə həmin yazıçılar "Qızım, sənə deyirəm, gəlinim, sən eşit" mi-

salı ilə ölkənin dərdlərini xarici ölkələrə aid edir və öz sözlərini, düşüncələrini bu yolla dilə gətirirdilər.

Mən 1981-i ildə yazıb arxivimdə gizlətdiyim bir şeirimdə belə demişdim:

İçimi göstərmədim cahil tutan güzgüyə
Üzdə gülüb, ürəkdə müşkülümə ağladım.
Millətimin dərdini ünvanlayıb özgəyə
Başqasının yasında öz ölümə ağladım.

Millətin dərdindən, başına gətirilən müsibətlərdən danışan əsərlər isə, şübhəsiz, “Sənət xalq üçündür” prinsipinə xidmət edir. Buna görə də mən bir yazıçı kimi, ədəbiyyat və sənətdə “Sənət sənət üçündür” prinsipini qəbul etmir və “Xalqa, Vətənə xidmət göstərməyən sənət kimə və niyə lazımdır?” - deyə düşünürəm. Ata yurdum kimi qəbul etdiyim Türkiyədə də təəssüf ki, son zamanlar heç bir məqsədi, qayəsi olmayan tapmaca ədəbiyyatı ortaya çıxmışdır. Bu cür şeirləri anlamaq isə mümkün deyildir.

Keçən il dekabr ayında Ankarada müalicə olunduğum zaman əlimə çağdaş türk şairi Ali Fuat Azqurun “Əruzun meltemi ilə” adlı şeirlər kitabı keçdi. Oxudum, çox bəyəndim. Kitab büsbütün çox açıq əruz vəzni ilə və şirin, gözəl türk dilimizdə yazılmışdır.

Mən çağdaş türk şairlərinin heca və əruz vəznlərindən imtina etmələrini də anlaya bilmirəm. Biz bir şeyi anlamalıyıq ki, böyük şairlərimizin işlətdikləri əruz artıq türk əruzudur, türk rənginə boyan mış əruzdur. Böyük Mehmet Akifin, Yəhya Kamalın, yaxud böyük Azərbaycan şairi Sabirin istifadə etdikləri əruz bizim milli ruhumuz və milli boyamızla cilalanmış xalis türk əruzudur. Eləcə də, indi şeirlərindən bəhs etmək istədiyim Ali Fuat Azqurun işlətdiyi vəzn bizim öz doğma əruzumuzdur. Bu vəzn fars və ərəb əruzundan

fərqlidir.

Türk dilində səslilərin (saitlərin) çoxluğu əruz vəzninə özəl bir gözəllik verir. Bu gözəlliyi və səslər arasındakı daxili ahəngi Yəhya Kamalın əsərlərində daha aydın görə bilirik. Əruzun şeirə musiqi ahəngi gətirdiyini bildiyimiz, iç ölçülərdəki dalğavarı enişqalxışlar üzərində sözlərin qalxıbenməsindən aldığımız həzzi və bütün bunların şeirin məzmununa da təsir etdiyini gördüyümüz, böyük ustadlar tərəfindən cilalanıb türkləşdiyini də hiss etdiyimiz halda bu gözəl vəzndən niyə əl çəkməliyik? Ancaq şeir məzmundan əlavə, həm də musiqidir, ahəngdir. İndi biz şeirdən bu musiqini, bu ahəngdarlığı nə üçün qopartmalıyıq? Elmimizi, texnikamızı qərbsayağı etməyimizi anlayırıq. Ancaq şeirin qərbsayağı edilməsini anlamaq mümkün deyildir. Gerçəkdən də bizim şeirimiz Qərbin şeirindən üstündür. Qoyun, şeir yazmağın yolunu Qərb bizdən öyrənsin, biz Qərbdən yox.

Ən çağdaş fikir və duyğuları ana vəznimiz olan hecada, çoxdan türkləşmiş və bizimləşmiş əruz vəznində söyləmək mümkün deyilmi? Qardaşım! Bizim qarşımızda dəyərli vətən şairi Mehmet Akifin "İstiqlal marşı" və "Çanaqqala şəhidlərinə" adlı çağdaş ruhda yazılmış, qəlbin dərinliklərinə işləyən, dünyanın şah əsərlərindən sayılan gözəl örnəklər var. Vətənsevər lik mövzusunda yazılmış bu şeirlərin dünya ədəbiyyatında tayıbərabəri yoxdur. Ali Fuat Azqurun şeirlərindən mən Yəhya Kamalın ətrini aldım. Bəzi türk araşdırıcıları Yəhya Kamaldan "Sənət sənət üçündür" prinsipi ilə yazan dekadent şair kimi söz edirlər.Mən bütün şair hissiyyatımla deyə bilərəm ki, Süleymaniyyə camisinə baxıb "Mən də bir varisin olmaqla bu gün məğruram" və eyni camidə namaz qılan Mehmetciyə baxıb:

Könlüm, dilim, qanım və mizacımla sizdənəm
Dünya və axirətdə vətəndaşlarım mənim, -

deyən doğma ana dilimi "ağzımda anamın südü" adlandıran şair "Sənət sənət üçündür" deyil, "Sənət xalq üçündür" prinsipini rəhbər edən bir millət ozanıdır. Ali Fuat Azqur şairin məqsəd və vəzifəsini belə anladır:

Yox bizdə yalan, öylə xəyal məhsulu bir söz
Misralarımız mütləqa bir xatirə gizlər
Qəlbimdə, - deyirsən, - bir alov var,
ya da bir köz,
Bir gerçəyi anlatmada dosdoğru bu sözlər.

Doğrudur, tamamilə doğrudur. Buna ürəkdən şərik çıxaram. Şair yalan danışmaz. O ancaq və ancaq bir gerçəyi anlatmaq üçün sözlərdən istifadə edər, şair davam edərək yazır:

Şair dediyin dərd ilə dost, möhnətə eşdir,
Gah buzdağa, gah vulkana bənzər bir atəşdir
Gün ortası hər gün aranan eyni günəşdir.
Həsrət yaşarıq, yar ilə olsaq belə bizlər.

20 yanvar, 1990-cı ildə rus ordusu Azərbaycan türklərini qətl edincə Ali Fuat Ankaradan öz etiraz səsini ucaltdı. O, "Azərbaycanın işğalı haqqında" adlı şeirində vulkan püskürməsinə bənzər şeiri ilə haykırdı:

Qəmlənmə, Azərbaycana çökmüşsə bir afət,
Heç yanma, bu gün yurdunu sarmışsa
cinayət,
Bir şanlı zəfər müjdəsi gizlər bu fəlakət
Gec-tez boğacaq zalımı tökdürdüyü qanlar.

Və bununla birlikdə 1956-cı ildə rus ordusu Macarıstanı və 1968-ci ildə Çexoslovakiyanı yenidən işğal edərkən şair Ankaradan gur səsini yüksəltdi:

Bir ölkəyə haydutca girirsən, ama bil ki,
Bir tək kişinin qəlbinə əsla girəməzsən.
Məhkum da edərsən bir ara fərdləri, bəlkə,
Bir milləti lakin əbədi sindirəməzsən.

Çünki şair haqqın və həqiqətin zəfərinə bütün varlığı ilə inanır və Ali Fuat Azqur kimi şairlər bu inancla qələmə sarılırlar. Məncə, şairi şair edən, onu haqq uğrunda, ədalət uğrunda yazmağa təşviq edən səbəb də Allaha olan inancdır. Bu cür şeirlər xalqa, onun taleyinə olan inam örnəkləridir. Lakin modernizm adı altında gizlənən mənfəətçilər və yenilikçilər "Sənət sənət üçündür" prinsipi adı altında ədəbiyyatı və sənəti xalqdan, onun taleyin dən, yeni nəsli əski nəsildən ayırmaq məqsədi güdür. Bu isə yalnız ədəbiyyat və sənət üçün də deyil, millət üçün və millətin tarixi vəhdəti üçün də çox qorxuludur.

Hürriyyət ölür, sinədə bayraq yaşamazsa,
Toplum çözülür ölkədə əxlaq yaşamazsa,
Ancaq yenə hər qiymətin üstündəki haqdır
Dövlət çökər, əfkarda əgər haqq yaşamazsa.

Mən bu rübaini yazan şairin əllərindən öpürəm. Mən sinəsin də dövlətin bayrağını dalğalandırmayan, millətin əsrlərdən bəri yaşayan əxlaqını, adətini, gələnək və görənəklərini (ənənələrini) qorumayan, fikrində hər qiymətin üstündə olan haqqı, ədaləti yaşatmayan insanın vətən övladı olduğuna inanmadığım kimi, bu hisslərdən məhrum

olan şairin də şairliyinə inanmıram.

Bax, bunun üçün kitabını böyük məhəbbətlə oxuduğum Ali Fuat Azqurun şeirləri məni duyğulandırdı və həyəcana gətirdi. Bu şeir kitabı qarşısında içimdə məmnuniyyətimi dilə gətirmək ehtiyacı oyandı və buna cavab olaraq bu yazımı yazdım. Bu şerləri qayəsinə, aydınlığına və zamanla ahəngdarlığına görə "Zəmanəmizin türküləri" adlandırıram.

*"Zaman" qəzeti, 18 oktyabr, 1997.*
*"Zaman və mən", Bakı, 1999.*



# ÜZ, YOXSA, ASTAR?

Hörmətli redaksiya!

Qəzetinizin 14 avqust (1993) tarixli sayında “Son poçtumuzdan” başlığı altında verdiyiniz “Siyasət” adlı məqaləni oxudum. İki məsələyə görə bu məqaləyə öz münasibətimi bildirmək istəyirəm:

Birinci: Bu yazını çap etdiyinizə görə sizə təşəkkürümü bildirirəm.

İkinci: Mənimlə bağlı yazıda izah olunmalı bir məsələnin açıqlan masını vacib bilirəm:

İyunun 4-də baş verən Gəncə hadisəsindən sonra keçirilən Milli Məclisin iclasında fasilə zamanı mən bu gərgin vəziyyətdən xilas olmaq və çıxış yolu tapmaq üçün Əbülfəz Elçibəylə görüşdüm. Söhbətimizdən məlum oldu ki, o, Heydər Əliyevi Bakıya dəvət etmiş və bu münasibətlə onun dalınca xüsusi təyyarə göndərmişdir. Elçibəy onu da əlavə etdi ki, Heydər Əliyevlə bu gün səhər bir daha telefonla danışmış, təəssüf ki, o, Bakıya gəlmək istəmədiyini demiş-

dir. Biz Elçibəylə bu qərara gəldik ki, onun gəlməsi üçün mən də təşəbbüs göstərin. Mənim təşəbbüsümə ehtiyac qalmadı. Elçibəylə olan bu söhbətimizdən bir gün sonra Heydər Əliyev Bakıya gəldi və Gəncəyə getdi. İyunun 15-də Milli Məclisdə Heydər Əliyevin Ali Sovetin sədri vəzifəsinə seçilməsi məsələsi qaldırıldı. Bu iclasda Heydər Əliyevə qarşı səslər ucalanda Əbülfəz Elçibəy çıxış etdi və dedi ki, respublikanı bu böhran vəziyyətindən xilas etmək üçün Heydər Əliyevin köməyinə ehtiyacımız var və çıxışının sonunda o, millət vəkillərini Heydər Əliyevə səs verməyə çağırdı.

Elçibəyin bu çağırışına baxmayaraq, bəzi millət vəkilləri, o cümlədən iclasda sədrlik edən Tamerlan Qarayev alternativ namizədirəli sürməklə Heydər Əliyevin seçilməsinə əngəl törətməyə çalışdı. Mən yalnız bundan sonra çıxış edib Elçibəyin təklifini dəstəklədim.

Elçibəyin əqidə yoldaşı kimi tanıyan və mənim yaradıcılığımı çox sevən, lakin yuxarıda sözü keçən çıxışımdan sonra məni öz əqidəmə zidd çıxmaqda günahlandıran tələbə Naibə İbrahimovadan soruşuram: bütün Azərbaycanın gözü qarşısında Heydər Əliyevin Ali Sovetə sədr vəzifəsinə seçilməsini təklif edən Əbülfəz Elçibəy özü olduğu halda və mən yalnız onun təklifini dəstəklədiyimə görə, niyə öz əqidəmdən üz döndərmiş oluram? Niyə tələbə İbrahimova məsələnin hamının gözü qarşısında olan əsl üzünü görmür, astarı üzə çıxarır? Burdan belə çıxır ki, təklifi edən günahkar deyil, həmin təklifi müdafiə edənsə günahkardır? O ki qaldı Əbülfəz Elçibəyin xarakterindəki böyüklüyə, bu, onu yaxından tanıyanların hamısına, o cümlədən də mənə çoxdan məlumdur. Mən onu 60cı illərdən tanıyıram. O, heç zaman öz xarak terinə, xarakterindəki obyektivliyə xəyanət etməmişdir.

Elçibəy öz ağıllı cavabı ilə yalnız bir tələbəyə deyil, bütün Azərbaycan gənclərinə dərs vermişdir. O, başa salmışdır ki, yalnız

bir hərəkətlə, yaxud bir çıxışla hər hansı bir adamın uzun illərdən bəri davam edən fəaliyyətinə qiymət vermək, onu "öz əqidəsinə xəyanət edən" adam kimi qiymətləndirmək olmaz.

Çünki çox şey vəziyyət və şəraitdən doğur.

*Avqust, 1993.*
*"Yanan da mən, yaman da mən", Bakı, 1995.*



**DİNİ SAVADSIZ**
**MOLLALARDAN QORUMALI**

"Yeni Azərbaycan" qəzetinin 3 iyul, 1996-cı il tarixli sayında dərc edilən "Beləmi olur islama qayıdış?!" (B.Mirzə) sərlövhəli məqaləni böyük maraqla oxudum. Yazı ürəyimdən tikan çıxartdı.

...Cəmiyyətin tərəqqisində, həyatın sosialiqtisadi yüksəlişin də dinin əvəzedilməz rol oynaması, bəzən adama elə gəlir ki, qədim dövrlərdən bəri hamıya gün kimi aydındır. Amma tarixə ötəri nəzər salanda və günümüzün hadisələrini diqqətlə təhlil edəndə görürsən ki, bu aydınlıq heç də həmişə yüksək səviyyədə olmayıb.

Şəkidə axund Fərəculla Pişnamazzadə adlı son dərəcə savadlı bir din xadimi vardı. Türkiyədə, İranda mükəmməl dini təhsil almış dı. Xeyirxahlığı, müdrikliyi hamıya bəlli idi. Onun bir moizəsinə qulaq asmaq, cildcild maraqlı, məzmunlu kitab oxumağa bərabər idi. Axundu dinləmək mənə də qismət olmuşdu. Onun danışdığı bir rəvayəti teztez xatırlayıram:

Bir ərəb yaraqlanıb ova çıxmışdı. Onun ailəsinin axşam azuqəsi bugünkü uğurundan asılı imiş. Ərəb səhranı o başbu başa dolaşır, rastına ov keçmir. Axşamçağı evə korpeşman qayıtmaq istəyən vaxt uzaqdan gözünə bir qaraltı dəyir. Yaxınlaşanda görür ki, bir müsafir su qırağında əlüzünü yuyur, yüklü dəvəsi də kənarda otlayır. Ovçu müsafiri öldürüb, onun dəvəsinə sahib çıxmaq istəyir. Yayını müsafirə tərəf çevirəndə yuxudan ayılan kimi olub özözünə deyir: "Onu öldürsəm, bu cinayəti heç kəs bilməyəcək. Amma Allah hər şeyi görür. Öz bəd əməlini ondan gizlədə bilməyəcəyəm. Allahın qəzəbinə düçar olmaqdansa, axşam ac yatsaq yaxşıdır. Xaliq özü bizə ruzi yetirər".

O, əliboş evə qayıdır. Eşidir ki, məscidə Məhəmməd Peyğəmbərin düşməni olan dairələrdən bir təmsilçi gəlib. Ovçu da məscidə gedir. Görür ki, minbərdə bir kişi oturub. Allahın, peyğəmbərin, Quranın, islamın əleyhinə danışır. Dinləyicilərini də öz fikirlərinə yavaşyavaş inandırır. Ovçu görür ki, bu adam bir qədər əvvəl onun səhrada öldürmək istədiyi adamdır. Minbərə yaxın laşır, qonağa bir az əvvəl başına gələn əhvalatı danışıb deyir:

- Əgər mən Allaha, Qurana inanmasaydım, sən çoxdan ölmüş olardın. Mən Allahdan qorxub səni öldürmədim. İndi əleyhinə danışdığın Allahtəala və Quran səni xilas elədi. Allah xofu böyük nemətdir. Gəl, sən onu bizim ürəyimizdən çıxartma. Yoxsa, dünyanı qətl, cinayət, pis əməllər bürüyər.

Hacı Fərəculla Pişnamazzadənin vaxtilə söylədiyi bu məsəl mənim Allaha olan etiqadımı birə min artırdı. Mən başa düşdüm ki, cəmiyyətin sağlam olması üçün hər bir adamın qəlbində Allah xofu olmalıdır. Belə xofu, qorxunu isə din xadimləri yaratmalıdır.

Təkcə elə bu, dinin cəmiyyətdə oynaya biləcəyi rolu aydın göstərir. Son dövrün hadisələri içərisində dinə qayıdış təqdirəlayiq hadisədir. Yeni qəbul etdiyimiz Ana yasamıza görə din və vicdan

azaddır. Bunun nəticəsidir ki, son zamanlar yeni məscidlər tikilir, dini ayinlər icra olunur, ziyarətgahlar təmir edilir, Azərbaycanın hər bir vətəndaşı mənsub olduğu dinə xidmət göstərir.

Mən Allaha indi deyil, lap uşaqlıqdan ailə tərbiyəsinin nəticəsi olaraq həmişə inanmış, valideynlərimin tutduğu yolu sözsüz qəbul etmişəm. Hələ o zamanlar dinin hörmətdən düşməsini qəbul eləyə bilmirdim. Yeri gəlmişkən, buna etirazımı da bildirirdim. İstiqlalımıza qovuşanda mən, milli azadlığımızla yanaşı, dini azadlığımızı da alqışlamışam.

Bayaq adını çəkdiyim Hacı Fərəculla Pişnamazzadə (müharibə illərində Şeyxülislamın müavini idi) deyərdi ki, "dinimizi savad sız mollalardan qorumalıyıq". Mən o zaman həmin sözlərin mənasını tam açıqlığı ilə qavraya bilməmişdim. Lakin indi, din azadlığı əldə ediləndən sonra, o rəhmətliyin sözlərinin həqiqi mənasını anladım.

Din, hər şeydən əvvəl əxlaq təmizliyi, mənəviyyat ucalığıdır. Cəmiyyətdə mənəvi təmizliyi və ruhaniliyi təbliğ etmək missiyasını boynuna götürən ruhanilərimiz bu vəzifəni necə yerinə yetirirlər? Axı, təmizliyi, ruhaniliyi təbliğ etmək istəyən adamın özü ilk növbədə ruhani aləmə qulluq etməli, özü mənən təmiz olmalıdır. Peyğəmbərimizin müqəddəs məzarını ziyarət edib "hacı" rütbəsi almaq üçün ətəkətək pul tökən, rüşvət verən adamın "hacı" lığına necə hörmət eləyək? Heç müqəddəs adı da pulla qazanar lar? Əgər o, Allah adamıdırsa, gərək bu işi tutmaya. Çünki llah hər şeyi görəndi, biləndi. Deməli, Allah sənin haram yolla halala çatmaq istədiyini də görür. Əgər belədirsə, haram yolla həccə getməyinin Allah yanında heç bir dəyəri yoxdur. Bundan çıxan məntiqi nəticə belədir ki, haramlıqla həccə gedən adam Allahın verəcəyi dəyərin deyil, tam başqa dəyərin yolçusudur.

Qəzetlərdə arasıra oxuyurq: "Filankəs maaşı hesabına filan yerdə məscid tikdirir". Buna necə inanaq? Axı, indi maaş hesabına heç quş

hini də tikdirmək olmaz. Haram pulla Allah evi tikdirmək günah deyilmi? Müqəddəs Quran nüsxələrinin astronomik qiymətə satılması, qəbir yerlərinin hərraca qoyulması, Quranın pulla oxunması, Bakının hər tininə bir nəzir qutusu qoyub dinlə, ruhani dəyərlərlə alver edilməsi islamı həqiqətən hörmətdən salmırmı? Oxuduğum məqalənin müəllifi B.Mirzənin dediyi kimi, "Din bizim günlərin ən böyük biznes sferasına çevrilib. Budurmu islam? Beləmi olur islama qayıdış?!"

Lakin onu da qeyd etməliyəm ki, ruhanilərin də maddi ehtiyac ları var. Onlara da pul, ərzaq, paltar, ev, yanacaq lazımdır. Bu ehtiyacları ya dövlət ödəməli, ya da yetişməkdə olan sahib karlar. İndi dövlətimizin imkanı məhduddur. Ona görə sahibkarlar qəlbdən din xadimlərinin ehtiyaclarını ödəməlidirlər. Bu məsələ həll olunsa, dəfn mərasimlərini aparan, Quran oxuyan, kitab açan, kəbin kəsən, dua yazan mollalar öz din qardaşlarından haqq almazlar. Onda dinin nüfuzu da yüksələr.

Hüzr məclislərinin başında oturan molla bilməlidir ki, indiki millət artıq 7080 il bundan əvvəlki millət deyil. Camaat tükütük dən seçir. Buna görə də molla məclisə uyğun danışmağı bacar malıdır. Məclisi ələ almaq üçün molla məclis səviyyəsində olmalıdır. Amma çox vaxt belə olmur. Hüzr məclisləri aparan molla çox zaman ağla batmayan, çağdaş adamlarda gülüş doğuran nağıllar danışır, cəfəng fikirlər söyləyir. Bununla da öz cahilliyini, avamlığını, savadsızlığını göstərir. Buna görə də heç kəs ona qulaq asmaq istəmir. Məclisdəkilər öz aralarında söhbət etməyə başlayırlar. Onda molla hirslənir, məclis əhlini dinə, Allah kəlamına hörmətsizlikdə günahlandırır. Amma öz günahını görmür. O, müasir səviyyədə durub öz elmi, dini, fəlsəfi görüşüylə məclisi ələ almağı bacarmalıydı. Bunun üçün mükəm məl savad, bilik lazımdır.

Etiraf etməliyik ki, erməni kilsəsi dini mərkəz olmaqla ya-

naşı, həm də milli mərkəzdir. Bəs bizdə vəziyyət necədir? Hansı məclisimizdə elmi əsaslarla milli məsələlərdən söhbət gedir? Hansı məclisimizdə bugünkü məğlubiyyətimizin səbəbləri təhlil olunur? Hansı məclisimizdə ümmətdən kənara çıxıb millətin dərdlərindən bəhs olunur?

Məqalə müəllifi ürək ağrısı ilə xəbər verir ki, son zamanlar 12 min azərbaycanlı gənc boynuna xaç taxıb. Bəs məscidlərimiz nə ilə məşğuldur? Din xadimləri çox zaman bunun səbəbini varlı missionerlərin bizim cavanları pulla ələ almasında görürlər. Hacı Sabir Həsənli bir məqaləsində haqlı olaraq yazır ki, bəzi gənclərin xaçpərəstliyə meyl etməsinin səbəbləri bir çox ruhanilərimizin zəifliyi və savadsızlığından irəli gəlir.

Hacı Sabir haqlıdır. Xarici filmlərdə və Moskvanın televeriliş lərində xristian din xadimləri ağıllı və savadlı moizələr oxuyurlar. Heç bir dini savadı olmayan müasir gənc, bu moizləri bizim hüzr məclislərimizdə mollalarımızın elədiyi dayaz, ikrah doğuran söhbətlərlə müqayisə edir, üstünlüyü xaçpərəst din xadim lərinə verir, nəticədə o dinə meyl edir.

Yaralı məsələlərdən biri də son zamanlar xarici ruhanilərin əhali arasında apardıqları məzhəb ayrılığı təbliğatıdır. Belə təbliğat çox təhlükəlidir. Bizim ruhanilər bu ayrılığın mənasızlığını elmi dəlillərlə sübut eləyən mühazirələr oxuya bilmirlər. Əksinə, hərəsi bir məzhəbə qulluq edən qonşu ölkələrdə təhsil alır, Vətənə dönəndə onların xeyli hissəsi məzhəb ayrılığının təbliğatçılarına çevrilir.

Atamdan eşitdiyim bir əhvalat yadıma düşür. O deyirdi ki, 1912ci ildə Şəkidə sünnilərlə şiələr arasında çox mənasız bir iş üstə dalaşma olmuşdu. Ertəsi gün axund Pişnamazzadə şəhərin ən hörmətli adamlarıyla görüş keçirir. Ora sünnilərin ruhanisi çox savadlı, ləyaqətli bir şəxsiyyət olan Nurməmməd əfəndini dəvət edir. Axundla əfəndinin əmmamələri birbirindən seçilirmiş. Görüşə toplaşanların gözləri

qabağında axund öz əmmaməsini götürüb əfəndinin başına qoyur, əfəndinin əmmaməsini isə özü örtüb, deyir:

- Bundan sonra şəhərin sünniləri dini işlərçün mənim yanıma, şiələr də əfəndinin yanına getsin.

Axund bununla demək istəyirdi ki, məzhəb ayrılığı boş şeydir. Hər ikisi islama xidmət edir. Atam danışırdı ki, həmin əhvalat dan sonra şəhərdə sünnişiə anlaşılmazlığına son qoyuldu. Bax, indi bizə belə ağıllı, tədbirli, elmli ruhanilər lazımdır. Belələrini xalq sevir. Heç təsadüfi deyil ki, Molla Fərəculla Pişnamazzadəyə xalq onun öz sağlığında da böyük məhəbbət bəsləyirdi, indi də bəsləyir. Biriki il bundan əvvəl şəhərin böyük küçələrin dən birinə axundun adı verilib. Şəkililər Nurməmməd əfəndini də böyük ehtiramla xatırlayırlar.

Bütün mədəni ölkələrdə olduğu kimi, Azərbaycan Respublikasında da din dövlətdən ayrıdır. O, dövlət işlərinə qarışmır və qarışa da bilməz. Bununla belə, din cəmiyyət hadisələrindən, xalqın taleyilə bağlı olan problemlərin həllindən kənarda durmamalıdır. Ümumiyyətlə, həyatdan təcrid olunmuş sxolastik din yoxdur. O, hər bir ictimaisiyasi hadisəyə öz təsirini göstərməlidir.

Din sovet hakimiyyətinə qədər ictimaisiyasi, sosial həyatda fəal iştirak edərdi. Müsəlman Şərqinin çox yerində Cümə məscidləri tikilirdi. Burada həm ibadət keçirilirdi, həm də hər həftənin cümə günləri din başçıları, el ağsaqqalları məşvərətə yığılırdı. Onlar camaatın dərdsərindən danışır, qarşıya çıxan çətinlikləri aradan qaldırmaq yollarını götürqoy edirdilər. İndi həmin ənənəni bərpa etmək çox zəruridir.

Mənə belə gəlir ki, bu qaydalar əsasında müəyyən dini proqram hazırlanmalı, dini işlər həmin proqramla idarə olunmalı, onun həyata keçirilməsinə nəzarət edilməlidir.

Dindarlıqla əlaqədar mən öz mülahizələrimi bildirdim. Söz yox ki, qəzetin başqa oxucularının da mülahizələri ola bilər. Ona görə

də arzu edərdim ki, "Yeni Azərbaycan" qəzeti B.Mirzənin "Beləmi olur islama qayıdış?!" məqaləsi ətrafında müzakirə açsın. Yaxşı olar ki, müzakirəyə dindarlar, alimlər, yazıçılar, filosoflar, ümumiyyətlə, fəal oxucular cəlb olunsun, dini işlər üzrə əsaslı həyati gücə malik proqram hazırlansın.

*Şəki, 5 iyul 1996.*
*"Yeni Azərbaycan" qəzeti, 20 iyul, 1996.*
*"Zaman və mən", Bakı, 1999.*



## TARİXİ ŞƏXSİYYƏTLƏRİ SİYASİ OYUNLARA QATMAYAQ*

Siyasi və milli eyforiyadan uzaq durub tariximizi azçox tədqiq edən hər bir mütəxəssisə bəllidir ki, istiqlaliyyətimizi itirdiyimiz son neçə əsrdə Azərbaycan güclü siyasət və dövlət xadimləri sarıdan korluq çəkmişdir. Əlbəttə, bunun obyektiv və subyektiv səbəbləri vardır. Lakin bu çətin və məşəqqətli dövrlərdə belə xalq tarixi yaddaşına, qüdrətli dilinə, zəngin ədəbi irsinə, torpağına, güclü məişət mədəniyyətinə, inam və inancına söykənərək öz milli mövcudiyyətini hifz edə bilmişdir.

Dünyanın siyasi xəritəsini, bəşəri tərəqqi və inkişafın məcrasını dəyişən XX əsr bütün dünya kimi Azərbaycanı da milli intibah, siyasi oyanış, müstəqillik və istiqlal yoluna cəlb etmişdir. Əsrin birinci iki onilliyində sürətlə cərəyan edən milli istiqlal hərəkatı öz

*Məqalə prof. Ş.Hüseynov və C.Həsənovla bircə yazılmışdır.

öndərlərini, görkəmli xadimlərini tarix səhnəsinə çıxartmışdı. Bütün varlığı ilə xalqına bağlı, dövrün tələbləri səviyyəsində duran bu istedadlı dövlət və siyasət adamları iftixar mənbəyimiz, nümunə məktəbimiz, hətta səcdəgahlarımızdır. Onlar vətəni, milləti, torpağı hifz edib, bizə tapşırıb dünyalarını dəyişiblər.

Varislik millətin yetkinlik əlamətidir. Tarixi səriştəsizlərin əlinə vermək, tarixi şəxsiyyətləri, hakimiyyət hərislərinin siyasi oyunlarına cəlb etməyə imkan yaratmaq çox böyük xatadır. İman və inanc, milli birlik və bütövlük əsrlərin və nəsillərin vəhdətindən yaranır. Tarixi yaddaşsızlıq, keçmişi təftiş və inkar bizə çox baha başa gəlmişdir. Böyük təəssüf və həyəcan hissi ilə qeyd edirik ki, belə cəhdlər indi də özünü göstərir. Son vaxtlar Azərbaycan milli qurtuluş hərəkatının tanınmış ideoloqu və lideri M.Ə.Rəsulzadə haqqında yazılan və yayılan məkrli yalan və böhtanlar bunu açıqca göstərir. Anlaşılması çətin olan müəmma isə budur ki, rəsmi dövlət qəzeti sayılan, əslində bu funksiyasını yerinə yetir mək səviyyəsindən çox-çox aşağıda dayanan "Azərbaycan" qəzeti bu şərəfsiz "missiyanı" öz öhdəsinə götürmüşdür.

Bir neçə vaxt bundan əvvəl, M.Ə.Rəsulzadəni riyakarcasına Azərbaycanın varyoxunu oğurlayıb aparmaqda günahlandıran Ali Sovetin orqanına "Aydınlıq" qəzeti səhifələrində layiqli cavab verilmişdi.

Məlumdur ki, bundan çox keçməmiş görkəmli ictimaisiyasi xadim M.Ə.Rəsulzadənin anadan olmasının 110 illiyini qeyd etmək haqqında Azərbaycan prezidentinin fərmanı elan edildi. Yubiley komissiyası M.Ə.Rəsulzadə irsinin dirçəldilməsi, tədqiqi və təbliği ilə bağlı tədbirlər planı hazırlayıb təsdiq etdi. Bütün şüurlu həyatını Azərbaycanın müstəqilliyi, milli varlığımızın qorun ması və bəşəri dəyərlər səviyyəsinə yüksəldilməsi işinə sərf etmiş M.Ə.Rəsulzadənin təvəllüd gününün ilk dəfə öz doğma vətənin də

qeyd edilməsi ictimaiyyət tərəfindən rəğbətlə qarşılandı. Buna hamımız sevindik. Axı, süni surətdə, hətta tarixi şəxsiyyətlərin də "qarşıdurmasını" yaratmaq milli birlik və həmrəyliyə ziyan vura biləcək hərəkətdir.

Lakin rəsmi dövlət qəzetində özlərinə yuva salmış meydan qızışdıranlar bu dəfə də heç bir əxlaqimənəvi əndazəyə sığışmayan üsula əl atdılar. Fevralın 3də "Azərbaycan" qəzetində M.Ə.Rəsulzadə ilə bağlı birbirini inkar edən iki iri yaz M.Ə.Rəsulzadənin anadan olmasının 110 illiyinə həsr olunmuş yubiley gecəsində Azərbaycan Respublikası baş nazirinin müavini Elçin Əfəndiyevin məruzəsi və mütəxəssis tarixçilər üçün kimliyi bəlli olmayan Namiq Fərəc Sığırlı adlı birisinin "Eksprezident Ə.Elçibəy cənablarına açıq məktub"u dərc olundu.

Əgər səriştəsiz, mövzu ilə əlaqədar ədəbiyyatdan və tarixi həqiqət lərdən uzaq olan məktub sahibinin cızmaqarası məsləki və sahibi bəlli olmayan qəzetciklərdə dərc olunsaydı, ona baş qoşmağa dəyməzdi. Lakin Ali Sovetin orqanı olan rəsmi dövlət qəzetində, həm də məlum rəsmi sənədlərdən və yubiley şənliklərindən sonra belə bir məkrli yazının dərc olunması M.Ə.Rəsulzadə irsinə, şəxsiyyətinə qarşı köhnə kinküdurətin yaşadığından və yenidən dirçəldilmək meylindən və təhlükəsindən xəbər verir. Bu, ciddi məsələdir, yalan və böhtanı isə cavabsız qoymaq olmaz.

Sığırlı, öncə, M.Ə.Rəsulzadəni "ziddiyyətlərlə dolu həyat sürmüş bir xadim", "müxtəlif cərəyanlar içində bulunmuş", "sərgüzəştlərlə mali bir həyat yaşamış", "bir firqeyisiyasiyyəni təmsil etmiş" adam kimi təqdim etməyə cəhd göstərir. Həm də inandırıcılıq üçün Ə.Hüseynzadəyə istinad edir. M.Ə.Rəsulzadənin 1920-1922-ci illərdə Moskva sürgünü dövründə yazdığı və 1923cü ildə İstanbulda nəşr etdirdiyi "Azərbaycan cümhuriyyəti" əsərinə Hüseynzadənin əvvəlcədən yazdığı və adı çəkilən kitabda verilmiş rəyindən bir

“ittiham çələngi” düzəltmək istəyir. Əvvəla, M.Ə.Rəsulzadə “ziddiyyətlərlə dolu həyat sürmüş bir xadim” deyildir. Bu, müəllifin kimlərəsə xoş gəlmək üçün uydurduğu məkrli yalan və böhtandır. 40 ilə yaxın bir müddətdə M.Ə.Rəsulzadəni tanıyan, onunla inqilab və milli istiqlal mücadiləsi məktəbi keçmiş İranın məşhur ictimaisiyasi xadimi S.H.Tağızadə yazmışdır: “Rəsulzadəni tanıyanlar onu böyük inqilabçı, Şərqin mütəfəkkir və ağıllı, hətta bənzəri olmayan bir şəxsiyyət kimi tərif ediblər. Məlumatı çox, istidlalda (nəticə çıxarmaqda) qüdrətli, hövsələli və hər məsələdən intiqad edəndə (danışanda) insaflı olub, demək olar ki, tamam ömründə bir dəfə yalan danışmamışdır. Həmişə sabitqədəm olmuşdur”.

Görünür, Sığırlı Ə.Hüseynzadənin M.Ə.Rəsulzadəyə müraciətlə “Siz ...sərgüzəştlə mali (dolğun) bir həyat yaşadınız!” sözlərinin mənasını ya anlamayıb, yaxud bilərəkdən təhrif edir. Axı, “sərgüzəştlərlə mali bir həyat” dedikdə söhbət macəralı, ziddiyyətli həyatdan getmir, söhbət “fəal bir mücahidlik”, təqib, təhdid və başına gətirilən əhvalat və hadisələrdən gedir.

Sığırlı Ə.Hüseynzadənin “Siz Azərbaycanda bir tərəfi, bir firqəyi, bir firqəyisiyasiyyəyi təmsil ediyorsunuz” sözlərin

dən bərk yapışıb M.Ə.Rəsulzadəni ümummilli zəmindən qopartmağa təşəbbüs edir, onu istiqlal hərəkatının digər xadimləri ilə qarşı-qarşıya qoymağa cəhd göstərir. Lakin digər siyasi firqə və qüvvələrin kimlərdən ibarət olduğunu, nə istədiklərini, kimlərə və nəyə qulluq etdiklərini açıqlamır. Halbuki, bu sualların cavabı elə “Azərbaycan cumhuriyyəti” kitabına M.Ə.Rəsulzadənin yazdığı “Müqəddimə”də vardır. Bu, hər şeydən əvvəl, Azərbaycanın müstəqilliyinə, istiqlal məfkurəsinə, müsavatçılığa balta çalanlar, onu yenidən imperiya boyunduruğuna çəkən bolşeviklər, Azərbaycan kommunist partiyası idi. Təəssüf ki, 20-ci illərin əvvəllərində Ə.Hüseynzadə kimi bir mütəfəkkir belə gəlişigözəl şüarlara, müstəqil Sovet Azərbaycanı

barədəki yalan lara uymuşdu. M.Ə.Rəsulzadə məhz belələrini nəzərdə tutaraq 1923-cü ildə adı çəkilən kitabında yazırdı: “Milli Azərbaycan ilə şimdiki Azərbaycan arasındakı fərqi bir çoxları idrak etmiyorlar. Azərbaycanın müstəqil ikən getgedə bütün hüququnu Rusiyaya nədən tərk edildiyini, azərbaycanlıların buna nə üçün razı olduqlarını soranlara rast gəldik. Bolşeviklərin Azərbaycan milləti tərəfindən çağırılmış olduqlarına inananlar var. Bolşeviklərə qarşı çıxarılan üsyanlar nasıl anlaşılmış, nasıl tələqqi (qiymətləndirmə) edilmiş?!... Bu da pək fəci (faciəli) bir hekayə. Bolşevik idarəsində bulunan Azərbaycanı məsud görənlər də yox deyil. Xülasə, cəhlidən müqəvvəlig (bilməzlikdən hasil olan) bir çox sui təfəhhümlər, yanlış təsəvvürlər... Sonra: “Vətənim, Azərbaycan xəlqi dəxi bolşevik istilası altında inləməkdə ikən Türkiyənin möcüzeyizəfərini mənimsəməklə sevinmişdir”.

Tarixi hadisələrin və şəxsiyyətlərin qiymətini “qələm pəhləvanları” deyil, zaman özü verir. M.Ə.Rəsulzadənin müdafiə etdiyi “bir tərəf” bütöv Azərbaycan, onun xalqı, istiqlaliyyəti, gələcəyi idi.

Müəllif iddia edir ki, “Azərbaycançılıq məfkurəsini” Məmməd Əmin deyil, M.F.Axundov, H.Zərdabi, M.Şaxtaxtinski, Mirzə Cəlil yaratmışdır. Əvvəla, biz Azərbaycanın işıqlı adamlarının qarşıqarşıya qoyulmasını yolverilməz hesab edirik. Daha sonra isə, milləti yaşatmaqla, milli ideologiya yaratmaq arasındakı fərqi gərək dərk edəsən. Q.Zakir də, M.P.Vaqif də, M.F.Axundov da, H.Zərdabi də, M.Şaxtaxtinski də, Mirzə Cəlil də, M.Ə.Sabir də və onlarca digər tanınmış ədib və şairlərimiz, publisistlərimiz millətin, xalqın ruhunu mənəviyyatını yaşadan şəxslərdir. Dövləti olmayan millətin mövcudluğunun başlıca təminatı tarixi yaddaş, dil və ədəbiyyatdır. Yəni, bu adamların böyük xidməti ondadır ki, onlar milləti ölməyə qoymadılar, bu böyük xəzinə zəminində tarix səhnəsinə çıxmış Məmməd

Əminin böyüklüyü ondadır ki, o, millətə qurtuluş yolunu göstərdi. Azərbaycançılıq da daxil olmaqla, bitkin bir istiqlal məfkurəsi, milli ideologiya yaratdı. Başçılıq etdiyi Milli Şura tərəfindən Azərbaycan Xalq Cümhuriyyəti elan edilməklə "Azərbaycan kəlməsi sadə coğrafı, etnoqrafik və linqvistik bir kəlmə olmaq dan çıxaraq siyasi bir amal oldu" ("İstiqlal" qəzeti, 28 may, 1933).

Bayraq məsələsini də Sığırlı çox qarışdırır. Gərək, bu məsələdən söhbət açanda "bitərəf demokrat" unutmayaydı ki, üçrəngli, ayulduzlu bayraq indi bizim parlament tərəfindən təsdiq edilmiş dövlət simvolumuzdur və onu təhqir etməyə, onun haqqında cəfəngiyat danışmağa heç kəsin haqqı yoxdur. Buna "Azərbaycan" qəzeti icazə versə də, dövlət simvolları və rəmzləri haqda qanun icazə vermir. Tarixi həqiqətə gəldikdə isə, Sığırlının "Azərbaycanın istiqlal bayraqları daim birrəngli olmuşdur" fikri yanlışdır və yalnış olduğu qədər də məkrlidir. Gərək ki, əlinə qələm alan hər kəs bilməmiş deyildir ki, qırmızı bez deyəndə hansı bayraq nəzərdə tutulur və bunun qırmızı türk bayrağına və eləcə də bayrağı qırmızı olan digər xalqlara qətiyyən dəxli yoxdur. Bayrağı rənglərlə qiymətləndirmək məsələni çox bəsitləşdirmək deməkdir. Bayraq elə bir dövlət simvoludur ki, orda millətin keçmiş tarixi deyil, gələcək inkişaf perspektivləri, yəni taleyi də təcəlli tapmalıdır. M.Ə.Rəsulzadə yazırdı: "Yüzillik əsarət dərsi ilə ikiillik hürriyyət qovğası bizi özümüzə tanıtdı. Birlik və istiqlaliyyətimizin işarəsi olaraq əlimizdə türklüyümüzü, müsəlmançılığımızı və çağdaş bir xalq olduğumuzu göstərən istiqlal bayrağı vardı... Yazıqlar olsun ki, ...canımız və malımız qorxusundan bu istiqlal bayrağını bir bezə dəyişdirdik". Bax, bu bez qırmızı da ola bilərdi, sarı da, göy də və s. Lakin bizim bəxtimizə onun qırmızısı düşmüşdü. Digər tərəfdən, "Difai"nin gizli hərbi birləşmələri tərəfindən Gəncədə ilk müstəqil Azərbaycan Cümhuriyyətinin "Difai"nin gizli hərbi birləşmələrinin əldə etdiyi istiqlaliyyət nəticəsində elan edildi-

yini yazmaq və belə yazını dərc etmək bisavadlıqdan başqa bir şey deyildir. Azərbaycan Cümhuriyyəti hökuməti öz qərarı ilə 1918-ci il iyun ayının 21-də dövlət bayrağı haqqında qərar qəbul etdi. Bu, qırmızı rəngli, ayulduzlu bayraqdan ibarət idi. Bu bayraq 1918-ci ilin 9 noyabrına qədər simvol kimi qaldı. Lakin bu məsələ tarixilik, millilik, müasirlik baxımından ətraflı şəkildə öyrənilərək, 1918ci il, noyabr ayının 9da Azərbaycan Cümhuriyyətinin dövlət bayrağı haqda hökumət qərarı elan edildi. Yəni hələ Sığırlının general Tomsonun ayaqları altına atdığı qırmızı rəngli Azərbaycan bayrağı Tomson Bakıya gəlməmişdən bir həftə əvvəl göy, qırmızı və yaşıl rəngli, üzərində aypara və səkkizbucaqlı ulduz işarəsi olan üçrəngli dövlət bayrağı ilə əvəz edilmişdi. Az sonra Azərbaycan parlamenti də bu bayrağı dövlət simvolu kimi təsdiq etdi (bax: Azərb.Resp. MDUTA f.895, s.1, iş 14, v.78). O ki qaldı, Sığırlının "al bayraq" haqqında Ə.Cavadın eyni adlı şeirinə istinad etməsinə, burada da müəllif saxtakarlığa yol verib. Hər halda heç kəsin rəngləri öz istədiyi kimi yazmağa haqqı çatmır və "al" ifadəsi "parlaqlıq" mənasını daşıyır. Al qırmızı da ola bilər, al yaşıl da, al mavi də. Yəni hər bir rəngin parlağı da var, tutqunu da. Azərbaycan bayrağın da hər üç rəngin parlaq çalarlarından istifadə edildiyi üçün bir sıra yazılarda buna al bayraq deyirlər. Və Əhməd Cavad da 1919cu ilin iyulunda yazdığı "Al bayraq" deyəndə məhz bunu nəzərdə tuturdu. Əgər Sığırlı zəhmət çəkib Ə.Cavadın "Al bayraq" şeirindən üç ay əvvəl 1919-cu ilin aprelində yazdığı "Azərbaycan bayrağına" adlı şeirini oxusaydı, böyük istiqlal şairimizi öz saxta fikirlərinə şərik etməyə cəhd göstərməzdi. Ə.Cavad 1919-cu ilin aprelində yazırdı:

Türküstan yelləri öpüb alnını,
Söyləyir dərdini sana, bayrağım!
Üçrəngli əksini quzğun dənizdən,

Ərməğan yollasın yara, bayrağım!

Rəsulzadə bayrağında qüsur axtarmaqla “müəllif” və onun arxasında duranlar nə demək istəyirlər? Bunun arxasında gizlənən təsəvvüf imperiyasına yarınmaq həvəsidir və bizi narahat edən də budur.

Müəllif V.Çıraqzadənin kitabından yekə bir iqtibas gətirməklə sübut etmək istəyir ki, “istiqlal bəyannaməsini” elan edənlər arasında M.Ə.Rəsulzadənin adı yoxdursa, deməli, Xalq Cümhuriyyətinin yaradıcısı kimi onu qəbul etmək olmaz. O yazır: “Göründüyü kimi, məhz “Məmməd Əmin Rəsulzadə” adı bu tarixi qətnamənin mətnindən kənarda qalmışdır. Bunu bilərək, indi məhz Məmməd Əmini milli istiqlal hərəkatımızın şəriksiz liderinə çevirmək nə dərəcədə insaflıdır?”.

Bizə belə gəlir ki, tarixə nabələdliklə yanaşı, hələ bir çoxumuzun təfəkkürünün Rəsulzadənin milli istiqlal ideologiyasını dərk etmək səviyyəsindən çox uzaq olması da bu məsələdə az rol oynamır. Sığırlı zəhmət çəkib M.Ə.Rəsulzadənin nəzəri irsini və əməli fəaliyyətini öyrənsəydi, liderlə onu əhatə edənlərin arasındakı fərqi özü üçün ayırd edərdi. O ki qaldı, M.Ə.Rəsulzadənin adının İstiqlal bəyannaməsində olmamasına, tarixdən məlumdur ki, hadisələrin gedişini əvvəlcədən görən M.Ə.Rəsulzadə bu ərəfədə istiqlal bəyannaməsini imzalayan şəxslərin təkidiylə nüfuzlu bir siyasi xadim kimi, Osmanlı imperatorluğu ilə Batumda danışıqlar aparırdı. 1918-ci il, iyun ayının 4-də bəyannamədən 6 gün sonra M.H.Hacınski ilə birlikdə M.Ə.Rəsulzadə Azərbaycan Cümhuriyyəti adından Batum müqaviləsinə imza atdı. Bu müqavilə əsasında alınan əsgəri yardımın Azərbaycan xalqının taleyində necə böyük rol oynadığı, Azərbaycanın azad edilməsində nə kimi faydalı bir iş olduğu danılmaz həqiqətdir.

Əgər Sığırlının, “Azərbaycan” qəzetinin və bəzi dairələrin

Ə.Elçibəylə ədavəti varsa, bunun üçün M.Ə.Rəsulzadəyə hücum çəkməyə, onun ruhuna toxunmağa hacət yoxdur.

M.Ə.Rəsulzadə Azərbaycan milli ideologiyasının böyük yaradıcısı, milli hərəkatımızın fədakar öndəri olmuşdur. Gəlin, tarixi şəxsiyyətlərimizi müasir siyasi oyunlara cəlb etməyək.

*"Aydınlıq" qəzeti, 25 fevral, 1994.*
*"Zaman və mən", Bakı, 1999.*



## KLİP MUSİQİNİ VƏ SÖZÜ ZORLAYANDA...

Son bir neçə ildə bütün dünyada, o cümlədən də bizdə mahnılara klip çəkilir. Bu, əlbəttə, mahnını daha da canlandırmaq, əyaniləşdirmək məqsədi güdür. Təəssüflər ki, bir çox hallarda klip adlanan bu əyani təsvir vasitələri, görüntülər, şəkillər mənzərələr, diqqəti, fikri, hissi yayındırır və təsəvvürü öldürür. Niyə? Ona görə ki, oxunan sözlə, mətləblə, musiqi duyğusu ilə çəkilən əcayibqərayib şeylər üstüstə düşmür; mahnıya dəxli olmayan görüntülər tutarla deyilmiş mətn və musiqinin özündən duyğuları mağa, onunla yaşamağa mane olur. Ümumiyyətlə, musiqi mücər rəd olduğundan, hissə tuşlandığından təsəvvürə və fantaziyaya onsuz da qanad verir. Amma mahnının fonunda verilən düşünülməmiş, mənasız klip diqqəti yalnız bir təsvirə yönəltməklə fantaziyanı və təsəvvürü zorlayır.

Musiqinin gözəlliyi məhz orasındadır ki, hər dinləyən onu öz ovqatına uyğun çalarlarla qavrayır. Buna görə də o, konkretləşə bilməz. “Muğam” poemasını yazanda ayrıayrı muğamların (“Rast”, “Şur”, “Segah” və s.) şəxsən mənim dünyama onun təsirini təsəvvürümdə canlandırıb yazmışdım. Sonra mən öz təsəvvürümdən doğan misrala-

rı R. Quliyev və Habil kimi qüdrətli ifaçılara oxudum. Xatircəmliklə dedilər ki, bunlar sənin şəxsi təəssüratının şerdə canlandırılmasıdır. Əlavə etdilər ki, eyni muğamı biz başqabaşqa ovqatda eyni cür çala bilmirik. Hər ovqatın öz muğamı yaranır. Əgər ifaçının ovqatından asılı olaraq muğam xalları, dönüşləri dəyişirsə, demək, dinləyici də eyni musiqi parçasını müxtəlif ovqatlarda müxtəlif təəssüratla qavrayır.

Bir şair kimi qənaətim budur ki, kliplə dinləyicinin hissini və təəssüratını istədiyimiz istiqamətə yönəltməyə haqqımız yoxdur. Klip dinləyicinin qavramına, təəssüratına, təxəyyülünə mane olur. Hətta uyğun hesab etdiyimiz klipdə də (o da qala klip xatirinə klip qondarasan) musiqi ayrı duyğu oyada, görüntülər səni bir başqa səmtə sürükləyə bilər.

Televiziyanın yaradıcı adamları, elə bilirəm, bu incə mətləbə diqqətlə yanaşmalıdırlır.

*"Ekranefir" qəzeti, 1117 may, 1998.*
*"Zaman və mən", Bakı, 1999.*



# ŞƏXSİYYƏTLƏR





## MEHDİ HÜSEYN HAQQINDA XATİRƏ

Yazıçı üçün biliyin, mütaliənin nə qədər zəruri olduğunu mən Mehdi Hüseyndən öyrənmişəm. Onun əlindən kitab düşməzdi. Hər dəfə onunla görüşəndə yeni çapdan çıxmış bir kitabı oxuyub-oxumadığımı məndən xəbər alardı. Odur ki, 1950-ci illərin biz ədəbi gəncliyi Mehdi Hüseynlə görüşməkdən ehtiyat edər, dövri mətbuata, mərkəzi qəzet və jurnallara baxmadan onun yanına getməzdik.

Mehdinin bilik dairəsi çox geniş idi. O, yalnız ədəbi əsərləri oxumaqla kifayətlənməz, təbiət elmləri, xüsusən fizika və astronomiya aləmindəki yeni kəşflərdən dərhal xəbər tutardı. Ədəbiyyat, tarix və fəlsəfə isə onun ruhu və canı idi. Təsadüfi deyil ki, elmi dərəcəsi olmamasına baxmayaraq, universitetin elmi şurası 1964cü ildə mənim doktorluq dissertasiyamın müdafiəsi üçün Mehdi Hüseyni dördüncü rəsmi opponent təyin etdi.

Mərhum yazıçımız Qərb və rus ədəbiyyatını mükəmməl bilirdi. O, xüsusən Lev Tolstoyun aşiqi idi. "Hərb və sülh" romanında döyüş səhnələrini, Andrey Balkonskinin yaralandığı, ölümlə əlləşdiyi səhnəni elə həyəcanla danışardı ki, həmin səhnə gözümüz önündə yenidən canlanardı.

Biz, o zamanın gəncləri, onu çox sevirdik. Ona görə ki, o, hamımızın əsərini oxuyar və məsləhətini bizdən əsirgəməzdi. 1954-cü ildə yeni yazdığım "Sadə adamlar" poemamı "Azərbaycan" jurna-

lına təqdim etdim. O zaman Mehdi jurnalın redaktoru idi. Bir həftə keçməmiş o məni redaksiyaya çağırıb əsər haqqında fikrini söylədi. Fikir, əsasən, müsbət idi. Bununla belə, bəzi fəsillərin uzun olduğunu, başqa əsərlərimdən bu poemaya düşən duyğuların artıq olduğunu söylədi. Təəccüb etdim. Demək, bu ustad yazıçı mənim vaxtilə yazdığım əsərləri unutmamış, yazılarıma həssaslıqla yanaşmış, uğurlarımla bərabər, qüsurlarımı da görə bilmişdir. Bu qayğıkeşlik bütün yazıçılara xas olan cəhət deyildi.

1948-ci ildə o zamankı ədəbi gəncliyin əsərlərindən ibarət bir almanax çap olunmuşdu. Almanaxın redaktoru S.Vurğun, ön sözün müəllifi M.Hüseyn idi.

Həmin ön sözdə M.Hüseyn ilk şerləri çap olunan gənclər barədə ürəkdolusu danışır, bizi oxuculara təqdim edirdi. Yazıçının bu qayğıkeşliyi ilə yanaşı, möhkəm prinsipiallığı, sözü üzə şax deməyi də var idi. O, ədəbiyyatda güzəştdən başqa hər şeyi bacarırdı. İdeyasız, məqsədsiz, zəif yazılar mətbuata yol tapanda o əsəbiləşər, prinsipsizliyə, simasızlığa dözməzdi.

Cəsarətlə deyərəm ki, ədəbiyyat aləmində S.Vurğunu M.Hüseyn qədər sevən ikinci adam tanımıram. Bununla belə, S.Vurğunun bəzi mücərrəd yazılarını M.Hüseyn qədər amansız tənqid edən ikinci adam da olmayıb. Bax, bu idi əsl yazıçı sifəti; əsl yazıçı prinsipiallığı!

Ömrünün son illərində mərhum yazıçımız yazmaqdan çox, ümumən, ədəbiyyatımızın taleyi barədə düşünərdi. Tez-tez məni evinə çağırar, gecə saat ikiyəüçə qədər söhbət edərdik. Bu söhbət bəzən mübahisəyə çevrilərdi. Yaş fərqimizin çox olmasına baxmayaraq, onunla razılaşmayanda dəlillərimi səbrlə dinlər, nəhayət, öz əks dəlilini irəli sürərdi. Sonralar bildim ki, eyni məsələ barədə məndən başqa, İ.Şıxlı və İ.Hüseynovla da danışarmış.

Bir dəfə sözarası mənə dedi ki, İ.Hüseynov və İ. Şıxlı da sənin kimi düşünür. Deyəsən, mən təslim olmalıyam.

Beləliklə, yazıçı özündən qatqat cavan və təcrübəsiz yazıçıların

fikri ilə də hesablaşır, çoxluğun qarşısında qənaətindən əl çəkməyi özünə ar bilmirdi.

Başqalarının əsərləri haqqında öz fikrini bildirdiyi kimi, həmişə istəyirdi ki, qələm yoldaşları da onun əsərləri haqqında öz fikirlərini çəkinmədən desinlər.

"Rəqiblər" hekayəsini yenicə yazmışdı. Məsud Əlioğlu ilə bərabər onlara getmişdik. Xeyli söhbətdən sonra dəftərini çıxarıb həmin hekayəni bizə oxudu. Çox xoşumuza gəldi. "Rəqiblər", həqiqətən, gözəl hekayə idi. Bu əsər indi də müasir nəsrimizin ən yaxşı örnəklərindən sayıla bilər. Təriflədik. Yaman əsəbiləşdi.

- Yəni, deyirsiniz bunun heç qüsuruzadı yoxdur? - deyə dəftəri bir tərəfə atdı.

Məsud:

- Var, - dedi.

- Bəs niyə demirsiniz?

- Onda imkan ver, - deyə Məsud sözə başladı. Hekayənin bir qüsuru var. Sənin obrazların hamısı özün kimi ütülü, hamar cümlələrlə danışır. Obrazlarının dilində fərdilik yoxdur.

Söz yazıçını yaman tutdu.

- Səninlə tamamilə şərikəm, deyə qalxıb Məsudu bağrına basdı.

Bu, onun qəlbinin böyüklüyü idi. Buna görə də o öz qüsurlarına birinci növbədə özü amansız olur və əsərdənəsərə inkişaf edirdi.

*"Vətən ocağının istisi", Bakı, 1982.*





# MƏSUD ƏLİOĞLU

Məsudun ilk məqaləsi 1949cu ildə çap olunan “Mənim dostlarım” adlı ilk kitabım haqqında idi. Məqalə o zaman çox yaxşı qarşılandı. Ona görə ki, bu yazıda şablon yox idi. Ona görə ki, ürəkdən yazılmışdı. Buna görə də səmimi idi. Məsud yalnız yazılarında deyil, həyatda da səmimi adam idi. Onun ürəyi ilə dili arasında məsafə yox idi. Həmişə düşündüyünü deyər, dediyinə də hamını inandırardı.

Məqalə “Şairin dostları kimdir?” - adlanırdı. Burda müəllif kitabın adını (“Mənim dostlarım”) sual şəklində qoymuş və suala cavab verərkən kitabın toxunduğu məsələləri və mövzuları birbir sadalayır və izah edirdi. Tənqiddə bu üsul o zaman üçün həm yeni, həm də maraqlı idi. Beləliklə, o, ilk məqaləsi ilə şablondan qaçdı, tapdanmış yolla getmədi.

Yalnız elm və sənət aləmində deyil, həyatda da, insanlara münasibətdə də, rəftarda da Məsud şablonu sevmir, - desəm azdır, o, şablona, əvvəlcədən müəyyən edilmiş qaydalara hələ ilk gəncliyindən müharibə elan etmişdi. O, heç bir çərçivəyə sığmır, qaydalara və süni etiketlərə üsyan edir, bunların əsiri olan adamlara nifrət bəsləyirdi.

Məsud hər yerdə özü idi. O, düşdüyü mühitə uyğunlaşmaz, əksinə, öz bacarığı, istedadı, ürəkləri ələ almaq qabiliyyəti ilə dərhal mühiti özünə uyğunlaşdırardı.

Məsud Əlioğlu 44 illik ömrünü hər yerdə, həmişə, bütün şəraitdə yalnız özü kimi yaşadı. Çünki, o, ətrafı özü kimi duyur, özü kimi qavrayırdı. Münasibətini də özü kimi bildirirdi. O, ömrü boyu öz ağlı ilə düşündü, öz gözü ilə gördü, öz qəlbi ilə duydu. Nəyinsə, kiminsə xatirinə başqa cür düşünmədi, başqa cür görmədi.

Öz fikrinə, öz duyğusuna heç bir boya və rəng çəkmədən, özünü inkar etmədən olduğu kimi oldu, olduğu kimi yaşadı. Bir sözlə, o, göründüyü kimi oldu, olduğu kimi göründü. Buna görə də Məsud heç zaman yalan danışmadı. O, bir hadisə, ya məsələ barədə fikrini bildirdiyi zaman bu fikrin ətrafa necə təsir bağışlayacağı barədə düşünməzdi.

Bir dəfə bir məclisdə Məsud hörmətli bir yoldaş haqqında sağlıq deyən adamın sözünü kəsib dedi:

- Sən filankəsin şərəfinə sağlıq deyirsən. Sağlığına şərikəm. Amma mən sənin sözünü kəsib deyirəm ki, içək bu badələri qəlbi ilə dili bir olan adamların sağlığına.

Sağlıq deyən pərt oldu. Yenidən ayağa qalxıb dedi:

- Əvvəla, de görək sözümü niyə kəsirsən? İkinci, de görək sən öz sağlığınla nə demək istəyirsən?

Məsud:

- Onu demək istəyirəm ki, sən ikiüzlü və riyakar adamsan. Bu gün sağlığına gözəl sözlər dediyin adam barəsində bir həftə əvvəl filan yerdə, filankəsin yanında (məni göstərirdi) nalayiq sözlər deyən sən deyildinmi?

Məsud düz deyirdi. Doğrudan da, bir neçə gün əvvəl həmən adam bu gün tərifini göyə qaldırdığı adam haqqında mənim yanımda çox nalayiq sözlər demişdi.

Sağlıq sahibi Məsudu yaxşı tanımadığından bu açıqsaçıqlığı gözləmirdi. O, kəkələyəkəkələyə özünü təmizə çıxarmağa çalışdısa da, bir şey çıxmadı. Çünki məclisdəkilərin əksəriyyəti o adamın riyakar olduğunu yaxşı bilirdi. Buna baxmayaraq, o adam utanmadan, həyasızcasına üzünü mənə tutub:

- Bu nə danışır? Niyə mənə böhtan atır? - dedi.

Mən susurdum. Mən şərəfinə sağlıq deyilən adamın düşdüyü vəziyyətə acıyır, baxışlarımı onun nəzərindən yayındırmağa çalışır dım. Vəziyyət son dərəcə gərgin idi. Odla su arasında qalmışdım. Bu zaman həmin riyakar, məclisi bu vəziyyətdən xilas etməyin çarəsini məndə gördüyünü bildirən bir işarə ilə yenə üzünü mənə tutdu:

- Niyə dillənmirsən? Niyə demirsən ki, mənə şər atır?

Mən nə deyə bilərdim? Axı, Məsud şər atmırdı... Lakin o, bir yerdə haqlı idi ki, hər düzü hər yerdə demək olmaz.

Elə bu zaman ürəyimdən ikinci bir fikir keçdi: “Niyə olmaz?”

Bu dəfə Məsud mənə hücum elədi?

- O, düz deyir? Niyə dillənmirsən?

Daha dözmək olmazdı. Dedim:

- Siz ikiniz də haqlısınız. Haqsız yalnız mənəm. Çünki deyənin yox, eşidənin qulağını kəsərlər.

Bu eyhamdan hər şey aydın oldu. Şərəfinə sağlıq deyilən hörmətli adam dinməzcə qalxıb getdi. Məclisə pərtlik düşdü. Araya nə qədər başqa söz qatıb söhbətin yönünü dəyişməyə çalışdılarsa da bir şey çıxmadı. Məclis öz ləzzətini itirdi. Camaat bir-bir qalxıb getdi.

Məclis sahibinin pərtliyi birə on idi. Axı, o, dost və tanışlarını şənləndirmək üçün evinə dəvət etmişdi, pərt eləmək üçün yox. Lakin Məsud onun evində iki qonağını təhqir eləməklə onun məclisinə dilxorçuluq gətirmişdi.

Yolda mən Məsudu danladım, o da məni. Danlağımızda ikimiz də haqlı idik. Lakin mənim haqqımla onun haqqı başqabaşqa qütblərdə dururdu. Mən bir baxımdan, o isə tamam başqa baxımdan haqlı idi.

Gecəni səhərə kimi yata bilmədim. Mən mütləq haqlını axtarırdım, tapa bilmədim.

Əgər bu əhvalata müəyyən baxımdan yanaşmasaq, o əhvalatı yalnız mücərrəd insanilik ölçüsü ilə ölçsək Məsud haqlı idi. Ona görə ki, riyakar, yaltaq, simasız adamlar yerindəcə ifşa olunmadıq ca

güngündən artır. Namuslu adamlar etika xatirinə normaları gözləyir, susur. Bu da beləlǝrinin cücərib artmasına səbəb olur. Elələri normaları güdmədən yerindəcə ifşa edilsə, eybəcər hərəkətlərini ikinci dəfə təkrar etməzlər. Həqiqətən, Məsudun o gecəki açıq hücumundan sonra həmən adamın çox ehtiyatlı olduğunu, özünü yığışdırdığını müşahidə edirdik. O, çox yerdə Məsudun dalınca danışır, lakin o olan yerlərdən, qaçırdı.

Bütün bunlarla bərabər, o məclisdəki konkret hadisəni xəyalıma gətirəndə tüklərim ürpəşir, riyakarın həyasızlığına əsəbiləşir, ev sahibinin zəhmətinə heyfsilənir, şərəfinə sağlıq deyilən hörmətli yoldaşın düşdüyü vəziyyətə acıyıram.

O şəraitdə Məsud bəlkə də ətrafı nəzərə alıb susmalı idi. Çünki cəmiyyətin hamı tərəfindən qəbul edilmiş normaları, insanlar arasında rəftar qaydaları mövcuddur. Bu normalar və qaydalar pozulanda adamlar arasındakı münasibət eybəcərləşir, mühit öz gözəlliyini itirir.

Bu iki birbirinə zidd mühakimənin hər biri ayrılıqda doğrudur. Lakin ikisi bir araya sığmır. Məqama görə bunlardan birini düzgün hesab etmək, birini götürmək lazımdır.

Məqama görə! Əgər bu prinsipi qəbul etsək, eyni hadisəni məqamlara görə müxtəlif cür qiymətləndirmək olar.

Məsələn, Məsudun hərəkəti o şəraitdə, o məqamda yanlışdır. Ona görə ki, o şəraitdə cəmiyyətin qəbul etdiyi normanı pozmağa ehtiyac yox idi. Daha doğrusu, Məsudun o hərəkəti vacib ehtiyacdan doğmurdu. O öz hərəkətilə ikiüzlünü ifşa etməklə yanaşı, həm özünü, həm də məclis iştirakçılarını pis vəziyyətdə qoydu. Demək, burda özlüyündə yaxşı və təqdirəlayiq olan bir hərəkətin nəticəsi haçalandı. Simasızın ifşası kimi yaxşı və faydalı bir iş, həm də layiqsiz və pis bir işlə nəticələndi. Burda yaxşılıq mütləqdən çıxıb nisbiləşdi. Həmin iş başqa şəraitdə və başqa məqamda mütləq yaxşı iş kimi də qiymətləndirilə bilər.

Məsudun hərəkəti emosional, hissi hərəkətdir. Burda məqsəd,

strategiya gözəl, onun vasitəsi, yəni taktikası eybəcərdir. Taktikanı eybəcərlikdən xilas etmək üçün hisslə bərabər ağıl, düşüncə lazımmış!

Bütün bunlarla bərabər düşünürsən, etika və normalar naminə riyakarlıq kimi eybəcər bir xəstəliyin gözümüzün qarşısında yayılmasına niyə yol verməliyik? Normaların, etik qaydaların pozulması qorxuludur, yoxsa, simasızlıq, riyakarlıq xəstəliyi?

Cavab aydındır. Etik normaların pozulması cəmiyyəti çürüdə bilməz. Çünki o, xəstəlik deyil. Riyakarlıq, simasızlıq isə elə bir xəstəlikdir ki, cəmiyyəti iylədib çürüdə bilər. Odur ki, bu xəstəliyə amansız olmaq, onu məhv etmək üçün etik normalardan keçmək olar. Bir şeyi bilmək lazımdır: nəyi nəyin naminə qurban verirsən. Qurban verdiyimiz qazandığımızın qarşısında kiçikdirsə, onu qəbul etmək mümkündür.

Bir neçə gündən sonra Məsud mənə təxminən bu məzmunda məktub yazmış, məndən incikliyinin səbəbini bu şəkildə izah etmişdi. Mən bu gün Məsuda tam haqq verirəm. Məsudun təbiəti o qədər saf və təbii idi ki, o, heç bir saxtalığı götürə bilmirdi. Həm də o, hər cür saxtakarlığı fəhmlə hiss edir, duyurdu. Əslində, son dərəcə sadəqəlb olan bu adamı uşaq da aldada bilərdi. Lakin o, hər şeyi hisslə əvvəlcədən görə bildiyindən onu aldatmaq çətin idi. Çünki o, yalnız bilmirdi, həm də duyurdu.

M.Əlioğlu böyük rus tənqidçisi Belinskini və bütün tələbələrin istəklisi olan M.C.Cəfərovu özünə ustad hesab edirdi. Onun o qədər qüvvətli yaddaşı vardı ki, Belinskinin Puşkin haqqındakı və M.Cəfərin “Füzuli sevir” məqalələrini əzbər bilirdi.

Musiqi yaddaşına heyrətlənərdik. İstər Qərb və istərsə Şərq musiqisinin ən gözəl örnəklərinin pərəstişkarı idi. Sevdiyi mahnıları özünəməxsus iniltili səslə oxumağı da bacarırdı. F.Əmirovun, H.Cavidin sözlərinə yazdığı “Nə dərd olaydı, nə dərman” mahnısını heç bir xanəndə onun qədər məharətlə oxuya bilməzdi. Məsudun ifasında həmən mahnı indi də qulaqlarımda səslənir. Mənə elə gəlir

ki, bu səs indi mənim qəlbimdən gəlir.

Çaykovskinin birinci konsertini, "İtaliya kapriçiosunu", Bethovenin beşinci simfoniyasını, Qriqin "Pergünt"ünü, Oqinskinin "Polonez"ini əvvəldənaxıra qədər mızıltı ilə bütün musiqi alətlərini təqlid edərək oxuyardı. Bir sözlə, Məsud, xarakterindəki əlvanlıq, hisslərindəki dərinlik, fəhmindəki düzgünlük və yazılarındakı özünəməxsusluq ilə bir möcüzə idi. O, bəzən hisslərini cilovlaya bilməməsində və etik çərçivələri vurub dağıtmasında heyrətamiz möcüzələr yaradırdı.

Göyçayda mərhum rejissor T.Kazımov və Məsudla bir məclisdə idik. Birdən olduğumuz evə tanımadığımız bir nəfər də gəldi. Dinməzcə kənarda əyləşdi. 10 dəqiqə keçməmiş Məsud bu adamla tutaşdı. Ev sahibi pis vəziyyətə düşdü.

Bu əhvalatdan bir müddət keçmiş həmən ev sahibi ilə təsadüfən Bakıda görüşdük. O mənə dedi ki, o adamla tutaşmaqda Məsud haqlı imiş. Çünki o adam məclisə təmiz niyyətlə gəlməyibmiş.

Heç demə, fəhminin gücü ilə Məsud o adamın qəlbini oxuyubmuş.

Məsudun təbiətindəki bu çılğınlıq ətrafında baş verən hadisələrə onun laqeyd, soyuqqanlı olmamasından irəli gəlirdi. O, "mənə nə var" fəlsəfəsi ilə yaşaya bilmirdi. Bütün bu keyfiyyətləri ilə Məsud, gözəl bir əsərin qəhrəmanı olmağa layiqdir.

Biz insanlar malik olduğumuz səadəti öz vaxtında qiymətləndirə bilmirik. Mən Məsudu ilk gəncliyimdən sevmiş, ömrümün 20-25 ilini onunla dostluq eləmişəm. Həmişə mənə elə gəlirdi ki, Məsud da adi qələm yoldaşlarımdan biridir. Təbiətin dəki qeyriadiliyə, qaydasızlığa görə onu danladığım hallar da olurdu. Lakin onun təbiətindəki üstünlükləri gözəllikləri, özünəsığmazlığı o zamanlar lazımi qədər qiymətləndirə bilməmişdim. Biz onu tez itirdik. Yalnız itirdikdən sonra onun təbiətindəki gözəlliyi, üstünlüyü dəyərləndirməyə başladıq. Buna yalnız heyfslənmək lazımdır. Lakin min təəssüf bir borcu ödəyə bilmir. Sözümü mərhum şairimiz Ə.Kərimin aşağıdakı şeri ilə

bitirmək istəyirəm:

Bəzən haqq qazanır insan öləndə
Hətta unudulur ağır günahı.
Hamıya dərd olur cavan getməyi
“Olduqca az görüb, az yaşamağı”
Deyirlər: “Bilsəydik ayıq olardıq
Onu qoyardıqmı heç gözdən iraq?
Hər bir dərdinə də çarə qılardıq
Nə bilək, o belə az yaşayacaq...”
Eh, bu gün nə qədər xəyala daldım
Eh, qəlbim nə qədər alışdı, dindi.
Sən mənim qədrimi biləsən deyə,
Bu cavan yaşımda ölümmü indi?

*“Vətən ocağının istisi”, Bakı, 1982.*





# ƏBƏDİ
# İZ

Xudu Məmmədov elm aləminə qədəm qoyduğu ilk gündən parlaq bir ulduza çevrildi. Kristalloqrafiyada yeni bir mərhələ sayılan, dahi Con Bernkalın dediyi kimi, canlı və cansız aləm arasında körpü saldı. Quruluşla funksiya arasındakı qanunauyğunluqları öyrənən Xudu son illər həmin uğurlu işin davamını heç kəsin ağlına belə gətirmədiyi bir sahəyə yönəltdi: Azərbaycan memarlığının, miniatür və rəssamlıq sənətinin, xalçaçılığının, hətta musiqi və şeirinin də forması ilə məzmun əlaqələrinin türkdilli xalqlara və o sıradan bizə aid olan sırf milli qanunlarını kəşf edib yeni bir məktəbin əsasını qoydu.

Xudunun rəhbərliyi altında müxtəlif elm və sənət sahələrində çalışan elmi işçilər və sənətkarlar inşaat institutunun memarlıq və kompozisiya kafedrasının nəzdində hər həftə seminar məşğələləri keçirirdilər. İlk uğurlarla sevinməyə əsas var idi. Nəticələr elmi müzakirələr çərçivəsindən çıxıb həyata qədəm qoymuşdu.

Ensiklopedik biliyə malik olan Xudu elmin və sənətin bütün sahələrində öz sözü, öz prinsipi və öz cəbhəsi olan böyük bir şəxsiyyət idi. Dediyi sözdən, tutduğu cəbhədən deyil, sözünə, əqidəsinə inamından və tutarlı dəlillərlə apponentini öz fikrinə inandıra bilmək qüdrətindən irəli gəlirdi.

Bütün bunlarla yanaşı o, təvazökarlıq etalonu idi. O, heç za-

man öz biliyini və istedadını nümayiş etdirmək, elmi mübahisədə məğlubiyyətə uğratdığı adamın üzərindəki qələbəsini bildirməz, əksinə “Mən belə düşünürəm”, - deyə utanautana başını aşağı dikərdi.

25 illik dostluğumuz müddətində biz onda azacıq da olsa tamah və nəfs əlaməti görmədik. İlahi, insan nə qədər gözü tox, sözü bütöv ola bilərmiş!

Bütün bu gözəl xüsusiyyətlərinə görə Xudunun obrazı gözlərimiz də əsl insanlıq nümunəsi kimi canlanır.

Üzeyir bəyi çox sevirdi Xudu. Əslində “sevirdi” demək çox az idi. O, Üzeyir sənətinin pərvanəsi idi və milli musiqimizin inkişafını yalnız və yalnız onun seçdiyi və getdiyi yolda görürdü. Bir sözlə, Üzeyir bəy onun səcdəgahı idi. Xudunun öz doğma ocağında deyil, məhz Üzeyir bəyin ocağında canını canından əziz tutduğu torpağına təslim etməsi təsadüfmü? Xeyr! Bu yerdə taleyin və qanunauyğunluğuna heyrət etməmək olmur.

Bir bayatımız var:
Bu qala bizim qala,
Qaldıqca bizim qala.
Qurmadım özüm qalam,
Qurdum ki, izim qala.

Xudu beləcə elmimizdə, sənətimizdə və ürəyimizdə əbədi və dərin iz qoyub getdi.

*“Şənbə gecəsinə gedən yol”, Bakı, 1991.*





**BİZİM XUDU-**
**SİRRİ XUDA**

Mən Xudunu 30 ildən artıq bir müddətdir ki, tanıyırdım. Lakin əsl dostluğumuz 1965ci ildən başladı. 1965ci ildən ta ölümünə qədər elə həftə olmazdı ki, Nurəddin, mən və o bir neçə dəfə görüşməyək. Bu görüşlər zərurət idi. Bəs bu zərurət nədən doğurdu? Fikirdən, əqidədən, milli dərdimizdən. Xudu geoloq idi, mən şair, Nurəddin həkim. Demək, bizi ixtisasımız birləşdirə bilməzdi. Bizi fikir ümumiliyi birləşdirirdi. Mən Xudunu ruhi və mənəviyyatı ilə bütövlüklə dərk edənə qədər, Vətənə və millətə özüm kimi aludə olan, onun yolunda hər cür cəfaya sinə gərə bilən ikinci bir adamın olduğuna inanmırdım. Xudunu dərindən başa düşəndən, onun bütün hisslərinə, duyğu və fikirlərinə bələd olandan sonra, dedim mənə şükür! Xudu məndən beşbetərmiş!.. Bundan sonra bir az rahat nəfəs aldım və inandım ki, bu bədbəxt millətin halına məndən də artıq yanan varmış. Bu mənim üçün bir təskinlik idi. Ona görə ki, mən bəzən Vətən və millət sevgimdə ifrata vardığımı düşünür və bəzən hisslərimi cilovlamağa çalışırdım və fikirləşirdim ki, yəni bu boyda ölkədə məndən ağıllısı yoxdur? Xudu ilə tanışlığımızdan sonra mən öz hisslərimə inanmağa başladım, çünki o, məni təsdiqlədi. Buna görə də bizim teztez üçlükdə görüşməyə, dərdimizi bölüşməyə ehtiyacımız var idi. Ona görə ki, biz birbirimizi tamamlayırdıq. Bizim görüşlərimiz hər üçümüzün təbii ehtiyacı idi.

Xudu içində yaşadığımız sistemin məhvə labüd olduğunu, cəmiyyətin təbii qanunları nəticəsində yaşamağa qabil olmadığını dəlillərlə sübut edərdi. O, cəmiyyətdəki hər şeyi təbiət qanunları ilə ölçərdi. O, deyərdi ki, əgər cəmiyyətdə təbiətə yad bir qanun yaranarsa, bu qanunun yaşamağa haqqı yoxdur. Bu mənada kommunizm insanın təbii hisslərinə ziddir. Kommunizm cabinet də yaranmış fantastik bir ideologiyadır, insana qarşı çevrilən bir ideologiya cəmiyyətdə duruş gətirə bilməz. O, bunu təbiət qanunları əsasında elə sübut edərdi ki, mən buna inanmaya bilməzdim.

Xudu təbiətin qoynunda böyümüşdü. O, mineral daşların, bitkilərin, ağacların, torpağın dilini çox yaxşı bilirdi. Onun ruhunda və mənəviyyatında Azərbaycan iqlimi, Azərbaycan təbiəti yaşayırdı. Ən başlıcası o, biologiyanı dərindən bilirdi. Nəinki biologiyanı, o bütün təbiət elmlərini gözəl bilirdi. Yalnız təbiət elmlərini deyil, ictimai elmləri, incəsənəti, onun daxili qanunlarını, fəlsəfəni, ədəbiyyatı, tarixi mütaliə etmişdi.

Burada bir haşiyə: Xudu bəzən Mirzə Cəlilə əsəbləşərdi. Deyərdi ki, - Mən Moskvaya aspiranturaya oxumağa getdiyim zaman, özümlə yalnız bir yazıçının - Mirzə Cəlilin əsərlərini aparmışdım. Üç illik aspirantura dövründə mən Moskvada Azərbaycanın ətrini Mirzə Cəlildən alırdım. Moskva mühitində elmin, tərəqqinin, mədəniyyətin yüksəlişini görüb, bundan sonra Mirzə Cəlili oxuyanda, millətimin geriliyinə, cəhalətinə əsəbiləşirdim və deyirdim: “Bu Mirzə Cəlil, yəni millətimizdə bir yaxşı cəhət görməyib?” “Bu çox təbii sual idi, daha doğrusu, müasir şəhər olan Moskva mühitində bu sual çox təbii səslənirdi. Axı, bu sualı vaxtı ilə Çəmənzəminli də vermişdi. Xudu deyirdi ki, uşağı döyməklə tərbiyə etmək olmaz, uşaqda özünə inam yaratmaq lazımdır. Mirzə Cəlil dövründə bizim millət hələ də uşaq misallı idi. O deyərdi ki, “tənqid tərbiyə üsulu ola bilməz. İnam tərbiyə üsuludur”. Çox qəribədir. Xudunun tələbələr ilə görüşlərinə mən də gedərdim. Xudu gənclərə müraciətən həmişə deyərdi: “Siz bir şeyə inanın, gələcəyin Nils Borları, Nəsrəddin

Tusiləri sizing içinizdədir". O, bu təlqini ilə gənclərdə özlərinə inam hissi oyatmaq istəyirdi.

Azərbaycan ictimai fikir tarixində Xudunun ən çox sevdiyi şəxsiyyətlərdən biri də Mirzə Cəlil idi. Mən bu barədə ayrıca danışacağam. Amma burada yenə bir haşiyə çıxmaq istəyirəm.

Mən quruluşumuzda gördüyüm eybəcərliklərə teztez əsəbiləşər və açığını deyim ki, bəzən özümdən çıxardım. Onda Xudu gülərdi. Mən yenidən əsəbiləşər və deyərdim: "Ə, nəyə gülürsən? Məni ələ salırsan?" Deyərdi: "Yox e, sənə yazığım gəlir. Sən Mirzə Cəlil kimi yuxarı qalx, bu eybəcərliklərə yuxarıdan bax və gül, çünki bu cəmiyyət gülməyə layiqdir. Bu cəmiyyət Mirzə Cəlilin dediyi "Dəlilər yığıncağıdır". Onda mən deyərdim, nə oldu, bəs Mirzə Cəlili bəyənmirdin? O isə təzədən gülüb, deyərdi: "Allah eləməsin, mən nə karəyəm ki, Mirzə Cəlili bəyənməyim. Mirzə Cəlil mənim qəlbimin əkssədasıdır, onu çox sevdiyimdən, özümözümə qarşı çıxıram. Axı, Mirzə Cəlil mənim özüməm. Məgər hər Azərbaycan türkünün ürəyində bu gün bir Sabir, bir Mirzə Cəlil, bir Üzeyir bəy yatmırmı? Amma bəzən adam özözündən də, öz yaxınından da gileyli olur. Gileyim çox sevdiyimdəndir".

Təmkinli adam idi Xudu. Çox adam olan məclisdə o, saatlar la susardı, mübahisədə iştirak etməzdi. Lakin sonunda elə bir söz deyərdi ki, bizim iki saatlıq mübahisəmizə yekun vurar və öz tizifəhmiylə hamımızı heyrətləndirərdi.

Bir gün Xudunun kəndinə getmişdik. Xudunun qohumları dərhal bizim şərəfimizə qoyun kəsməli oldular. Mən etiraz etdim, çünki mənim xatirimə qoyun, yaxud bir cücə kəsiləndə mən bu ölümün günahını özümdə görür, bu günaha batmaq istəmirəm. Buna görə də mən ev sahibinin əlindən bıçağı alıb kənara atdım. Qohum nə qədər mənə and verib, təkid etsə də, razılıq vermədim. Bütün bu hadisəni seyr edən Xudu gülüb mənə yanaşdı:

- Sən indi o qoyuna yaxşılıq elədin?

- Bəs necə?

Xudu dedi:

- Sən qoymadın ki, o bədbəxt qoyun qoyunluqdan azad olsun. Axı, qoyun, qoyun olduğu üçün qoyundur. Gərək qoyaydın ki, o kişi kimi ölsün.

Xudunun alimliyini, onun dünya elminə verdiklərini alimlər bilər. Mən onun kəşflərinin dəyəri haqqında alim sözü deyə bilmirəm. Lakin bildiyim və hiss etdiyim qədərini deyəcəyəm. Çünki mən onun mühüm bir kəşfinin sənətimizdəki təzahürünü bilirəm. Allah rəhmət eləsin Rəsul Rzaya. Onun klassik şeirimiz haqqındakı bir fikrini misal gətirmək istəyirəm. O deyərdi ki, Füzuli şerinin ölməzliyinin birinci səbəbi odur ki, o, misrada sözləri eləbelə düzmür, sözləri bir-birinin içinə geydirir. Geydirdiyinə görə də sözlərin arasında boşluq olmur. Boşluq olan yerə hava dolar və kənardakı sözləri çürüdər.

Rəsul Rzanın dediyi bu mətləb yalnız şeirə aid deyil, ümumən, Azərbaycan sənətinə aiddir. Musiqimiz də belədir, memarlığımız da, xalçaçılığımız da, hətta şəbəkə sənəti də. Şəbəkədə bir dənə də olsun mıx işlənmir (Şəki xan sarayı bunun ən yaxşı nümunəsidir).

Şəbəkədə fiqurlar birbirinin içinə geydirilir. Belə ki, iki fiqur arasındakı boşluq da, kənardakı fiqurların eyni ölçüdə, eyni şəkildə təkrarıdır. Bu, sənətdə lakonizmdir. Bəs şeirdə? Şeir də həmin qanun əsasında yazılır:

Deyildim mən sənə mail, sən etdin əqlimi zail,
Mənə tən eyləyən qafil, səni görcək utanmazmı?

Gəlin, bu beyti təşkil edən sözlərdən bircəsini götürək. Mümkündürmü? Yaxud, bu iki mislada bircə dənə artıq söz, yaxud vergül, nöqtə varmı? Rəsul Rza demişkən, burda sözlər bir-birinin içinə geydirildiyindən, birbiri ilə məntiq və fikrən bağlıdır.

Sözlər arasında heç bir boşluq yoxdur. “Mail, zail, qafil” – iç qafiyələri isə, şəbəkədəki rənglərin təkrarıdır. Bu isə, şeirdə, şəbəkədə, musiqidə harmoniyadır. Və ən ümdəsi az sözlə, az rənglə,

az səslə yaranmış böyük bir fikir, yəni lakonizmdir.

Xudu elmdə bunu kəşf etmişdir. Yəni o, sübut etmişdir ki, maddəni təşkil edən atomların quruluşu da, bu qanun əsasında qurulmuşdur: İki atomun arasındakı boşluğun özü də (əgər o varsa) həmin şəklin təkrarıdır. Beləliklə, atomların quruluşunda fon yoxdur. Bu fonsuzluğu fəhm ilə hiss edən nənələrimiz, xalça sənətində bu quruluşdan istifadə etmişlər. Sual oluna bilər: mikraskop olmadığı bir zamanda bizim savadsız nənələrimiz, atomun quruluşundan xəbərsiz olan şəbəkə ustalarımız və memarlarımız bunu hansı hissin gücü ilə sənətlərinə tətbiq edə bilmişlər? Xudu bütün ömrü boyu bunu axtarırdı və buna görə də o, bizim xalqın milli psixologiyası ilə çox maraqlanırdı. Bu məsələ bizim üçümüzü də düşündürərdi. Əlbəttə, bu çox dərin məsələdir və mən, ümumiyyətlə Xudu, onun təbiəti, xarakteri, dünya baxışı haqqında, onun böyük şəxsiyyətini aça biləcək bir kitab yazmaq istəyirəm. Bu mənim Xudunun ruhu qarşısında ödənməmiş borcumdur.

- Bu kitabı yazsanız, çox yaxşı olar.

- Hələ düşünürəm, amma Nurəddin yazdı.

- Çapdan çıxıb?

- Xeyr, qurtarmaq üzrədir. Əvvəl istədik ki, bir yerdə yazaq, sonra düşündük ki, hərəmiz bir cür yazsaq, daha yaxşı olar. Əslinə baxsan, mənim bu işi ləngitməyimin bir neçə səbəbi var. Birinci səbəbi odur ki, düşdüyümüz Qarabağ düyünü əl-qolumu bağlayıb. Bu düyündən, çıxmaq barədə düşüncələrimiz bizi başqa şey haqqında düşünməyə qoymur, əlimə qələm ala bilmirəm.

Qarabağla əlaqədar xırdapara məqalələrdən başqa heç nə yaza bilmirəm. Yəni indi şeir vaxtıdır? İkinci səbəb: Mən 1953-cü ildən 1990-cı ilin yanvar qırğınına qədər gündəlik yazmışam. Bu gündəlikdə Xudu ilə bağlı xatirələr çoxdur. Mübahisələr, çəkişmələr, məktublaşmalar və s. bu gündəlikdən qırmızı bir xətt kimi keçir. Mən gərək gündəliklərimi tökəm qabağıma, Xudu ilə bağlı xatirələrimi üzə çıxaram və kitabımı bunun əsasında yazam, onda kitab olan can-

lı, diri, yəni faktlar əsasında. Ümumiyyətlə, mənim dünyadan getmiş dostlarım - yazıçılar, rəssamlar, alimlər, bəstəkarlar haqqında yazmaqdan xoşum gəlmir. Yazanda gərək elə yazasan ki, özündən heç nə uydurmayasan. Doğrusunu deyim ki, bəzən qələm yoldaşlarımız haqqında elə xatirələr oxuyuram ki, məni gülmək tutur. Belə xatirələrdə bəzən xatirənin qəhrəmanından çox, müəllifin öz obrazı görünür. Uzağa getməyək, bu yaxınlarda Xudu haqqında bir xatirə oxudum. Xatirə müəllifi yazır: "Xudu mənə dedi ki, sən çox istedadlı adamsan, hayıf ki, batırsan". Onu yaxından tanıyanlara məlumdur ki, Xudu heç kəsi üzünə qənşər tərifləməzdi. Mən bütün yazılarımı Xuduya və Nurəddinə oxuyar, onların fikrini bilməmiş çapa verməzdim. İkisi də fikirlərini açıq deyər, bəyənmədiklərini bildirərdilər.

Xududa çox güclü analitik ağıl var idi. O, bu analitik ağılla mənim yazılarımı təhlil edər və bəzən də mənə maraqlı mövzular da təklif edərdi. Onun mürəkkəb süjetlərdən xoşu gəlməzdi. O deyərdi ki, poema və dramlarında əsəri artıq hadisələrlə yükləmə, süjeti yalnız sadəcə bir hadisənin ətrafında qur.

Xudu həyatda özü sadə olduğu qədər də, bədii əsərlərdən sadəlik umardı. O, deyərdi ki, ən böyük fikirlər sadə ifadədə böyük ola bilər. Mənim "Sadəlikdə böyüklük" məqaləmdə də irəli sürdüyüm fikirlər bu qaynaqdan bəhrələnmişdir. 1968ci ildə "İkinci səs" pyesimi yazdım. Bu pyes bioqrafikdir. Bioqrafiyamın bu tərəfini Xudu çox gözəl bilirdi. Pyesi dostlarıma oxudum. Əsasən, bəyəndilər. Amma pyesdə süjet bir qədər kənar hadisələrlə yüklü idi. Xudu və Nurəddin həmişə olduğu kimi, yenə də məni sadəliyə çağırdılar və biriki epizodu pyesdən çıxarmağı təklif etdilər. Mən üzdə razılaşdımsa da, bu epizodlardan əl çəkmək istəmədim. Bu epizodlar bioqrafiyamla bağlı olduğuna görə mənə çox doğma idi. Məşq zamanı gördüm ki, bu epizodlar əsərin inkişafına həqiqətən əngəl törədir. Və mən həmin epizodları pyesdən çıxartdım.

Xudu vəziyyətə görə söz danışmazdı. Kimə isə xoş gəlmək

üçün, kiminsə ürəyinə yol tapmaq üçün söz deməzdi. Düşündüyünü deyərdi. Amma bunu elə deyərdi ki, qarşısındakının qəlbinə toxunmasın. Yumşaq deyərdi, amma hədəfə düz vurardı.

Geyimində, gecimində, həyata münasibətində olduğu kimi, sənətdə də təmtəraqdan, dəbdəbədən, zahiri pafosdan xoşlanmazdı. O, hər şeyin mahiyyətinə varmağı sevəri, onun üçün mahiyyət əsas idi, forma yox. O, deyərdi ki, gözəl məzmun varsa, o özü ilə istəristəməz gözəl forma da gətirəcək. Buna görə də formadan ötrü baş sındırmağa dəyməz. Forma məzmunun balasıdır, məzmun formanın yox".

Biz bu məsələləri o qədər müzakirə etmişdik ki, bəzən bu fikrin hansımıza aid olduğunu ayırd edə bilməzdik. Üçümüz də çox zaman eyni düşünərdik. Buna görə də bizi yaxından tanıyanlar bizə həmişə "qəribə üçlük" deyərdilər. Burda bir həqiqət var idi. Çünki ixtisaslarımızın müxtəlif olmağına baxmayaraq, çox zaman eyni məsələ haqqında müxtəlif yollarla eyni nəticəyə gələrdik.

- Bəxtiyar müəllim, bir zaman mənim bir tanışım Xudu müəllimin laboratoriyasında işləyirdi. O, o zaman deyirdi ki, Xudu müəllimin laboratoriyasına bir neçə dəfə su buraxmışdılar. Ona maneçilik göstərmək istəyirdilər. Bu həqiqətdirmi?

- O zaman mənə bunu demişdi. Əlbəttə, Xudunu istəməyənlər də var idi.

- O boyda alimi bəs niyə Akademiyaya həqiqi üzv seçmədilər?

Orada seçkilərin necə keçdiyini Siz məndən yaxşı bilirsiniz. Nəyə görə bizdə düşünən ziyalıları tədricən öldürürlər? Təkcə Xudu müəllimi demirəm, başqa ziyalılarımıza da münasibət belədir.

- Bunu mən də öz üzərimdə hiss etmişəm, özü də dəfələrlə. Son seçkilərdə məni də Akademiyaya həqiqi üzv seçmədilər, pozdular. Mən bu barədə bir şeir də yazmışam. Bu məsələ ilə əlaqədar bir misal çəkmək istəyirəm. Vaxtilə Rusiya akademiyasına Maksim Qorkini seçmədiklərinə görə, Çexovla Korolenko Akademiyanın üzvülüyündən imtina etmişdilər. Onlar yazmışdı ki, Maksim Qorki-

nin üzv olmadığı Akademiyada biz özümüzü artıq hiss edirik.

Bunun başqa nümunəsini mən Xudunun özündə görmüşəm. Bir zaman Akademiyada Xuduya müxbir üzv seçilməsi üçün sənədlərini verməyi təklif etmişdilər. O zaman Xudu sənədlərini vermədi. Bunun səbəbini soruşanda o dedi ki, vaxtilə mənim müəllimim olmuş Zülfüqarla yarışa girmək istəmirəm. Çünki o həmin yerə məndən daha çox layiqdir. Həmən seçkilərdə Zülfüqar müəllim müxbir üzv seçildi. Xudu növbəti seçkilərdə sənədlərini müxbir üzvlüyünə verdi, amma çox çətinliklə keçdi. Niyə? Çünki, istedadlı adamların düşməni daha çox olur. İnsana hər şey bağışlayırlar, istedadı və qabiliyyəti isə bağışlamırlar. Çox hallarda istedad insanın düşməninə çevrilir. Xudu heç kəsə qibtə eləməzdi. Ən mənfi adamda belə bir müsbət keyfiyyət tapardı və o çox zaman Peyğəmbərlə əlaqədar bir misal çəkərdi. Peyğəmbər bir nəfərlə yol gedirmiş. Qarşılarına it leşi çıxır.

Yanındakı adam burnunu tutub "Leş nə pis qoxuyur", deyir. Peyğəmbər isə: "Nə gözəl dişləri var bu itin" deyir. Mütləq pisdə də yaxşını görmək qabiliyyəti var idi bizim Xudunun. Mən ona Xudu yox, çox zaman "SirriXuda" deyərdim. Bu söz dostlarımızın arasına yayılmışdı. Hamı ona "SirriXuda" deyərdi. O, həqiqətən Xudanın sirri idi. Bax, bu keyfiyyətlərinə görə də mən Xudu haqqında yazmaq istədiyim kitabda onun elmindən çox şəxsiyyəti barədə söz açmaq istəyirəm. Çünki o, şəxsiyyəti etibarilə nümunəvi adam idi. Mən istəyirəm ki, yetişən gənclik həmin kitab dan Xudunun şəxsiyyətini öyrənsin və cavanlarımız özünü Xuduya bənzətməyə çalışsınlar.

Mülayimliyi, yumşaqlığı ilə bərabər, onun sərt üzü də var idi. Bu sərtlik onun öz əqidəsinə sədaqətindən gəlirdi. O, hər şeydə güzəştə gedə bilərdi, amma əqidə məsələsində fikrindən dönməz və prinsipini əlində bayraq edərdi. Burada da bir haşiyə çıxmaq istəyirəm. Akademiyanın keçmiş prezidentlrindən biri Xudunu yanına çağırıb ona deyir ki, "Sən çox baş aparırsan, sənə aid olmayan məsələlərə qoşulursan. Səndə, deyəsən, vəzifə eşqi var". Xudu ona cavab verir

ki, “Məndə vəzifəyə həvəs olsaydı, indi sənin yerində oturardım”.

- Yaxşı cavabdır.

- Yuxarıda dediyim kimi, Xudu ancaq öz sahəsini deyil, elmin başqa sahələrini də gözəl bilirdi, xüsusilə biologiya sahəsindəki yeni kəşfləri izləyərdi. O, deyərdi ki, canlı aləmi bilmədən cansız aləmi öyrənmək mümkün deyil.

O, riyaziyyatı da gözəl bilirdi. Mənim qızımı riyaziyyatın tətbiqi sahəsinə istiqamətləndirən Xudu oldu. Onun ensiklopedik ağlı var idi. Buna görə də Xudu Akademiyada elmin təşkili barədə böyük bir yazı yazmışdı. O, həmin yazını Akademiyanın rəhbərliyinə təqdim etmişdi. Lakin bu yazıya heç kəs əhəmiyyət vermədi; Hər dəfə Akademiyanın rəhbərliyi dəyişəndə Xudu həmin yazını yeni rəhbərliyə təqdim edirdi. Lakin faydası olmadı. Mən ona inanıram ki, Xudu Akademiyanın başında olsaydı, o bütün elimlərə istiqamət verə bilərdi. Məsələn, o, tarixçilərdən çox gileylənirdi. Deyirdi ki, bizdə tarix elminin konsepsiyası yoxdur. Tariximiz barədə yazanlar isə bizim mənşəimizi əsl soyumuzdan başqa bütün soylara bağlaya bilirlər. Buna görə də yazılan tariximiz başdanayağa qədər yalandır.

- Doğrudur, Xudu müəllim soy, kök məsələlərində də möhkəm fəaliyyət göstərirdi. Yadınıza gəlirmi, İqrar Əliyevin konsepsiyasına qarşı necə döyüşürdü?

- Hamısı yadımdadır. Bax, elə buna görə də millətinə xor baxan lar, millətinin soykökünü dananlar ona düşmən kəsilmişdi.

- Bəxtiyar müəllim, indi yetişən ziyalıların hər birisinin öz sahəsin də müəyyən yeri var. Siz Xudu müəllimin yerini necə görürsünüz? Təkcə öz sahəsində yox, ümumən, Azərbaycanın tarixində.

- İctimai fikir tarixində mən Xudunu Həsən bəy Zərdabi ilə müqayisə edərdim. O, Zərdabi səviyyəsində bir şəxsiyyət idi. O, Handini çox sevərdi. Handinin “Hindistanın kəşfi” əsərini dönədönə oxumuşdu. Niyə? Ona görə ki, Handi Hindistanın istiqlaliyyəti uğrunda mübarizəyə başlamamışdan əvvəl Hindistanı qarışqarış gəzmiş, xalqın adətənənəsini, ruhunu, mənəviyyatını öyrənmiş, yal-

nız bundan sonra millətini necə xilas etmək proqramını yazmışdı. Axı, milləti dərindən bilmədən, onun psixologi yasını öyrənmədən, xalqı öz dalınca aparmaq mümkün deyil. Buna görə də Xudu teztez səfərə çıxardı, elimiziobamızı qarış-qarış gəzərdi. O, bizim xalqın təbiətində oturaqlıqla bərabər köçəriliyin mahiyyətini, psixologiyasını açmaq istəyirdi (dağdan-arana, arandandağa). Və bu münasibətlə "Baharın ardınca" adlı bir yazı yazmışdı. Demək istəyir ki, xalqın psixologiyasında həmişə baharın ardınca qaçmaq xüsusiyyəti var. Bu yazıda o, köçəriliyə xas olan adətlər, vərdişlər bunların mahiyyəti barədə söz açırdı. Bu çox maraqlı bir əsərdir. Təəssüf ki, yarımçıq qaldı, tamamlaya bilmədi. Biz həmin yazını onun arxivindən tapmışıq. Nurəddin onu çapa hazırlayır.

Bizim üçün Azərbaycan mədəniyyətində 5 zirvə var idi: Füzuli, Mirzə Cəlil, Sabir, C.Cabbarlı Üzeyir bəy. Mən Xudu qədər Üzeyir bəyin böyüklüyünü, tariximizdəki yerini dəyər ləndirməyi bacaran ikinci adam tanımıram. O, Üzeyir bəyin "Azərbaycan musiqisinin əsasları" kitabını dəfələrlə oxumuş və təhlildən keçirmişdi. "Muğam" poemasını yazarkən o, mənə bu kitabı oxumağı tövsiyə etdi. Biz bəzən gecələr üçlükdə həmin kitabı oxuyar, incələyərdik. Üzeyir bəy bu əsərində musiqimizin əsaslarını göstərməklə kifayətlənməmiş, özündən sonra gələn bəstəkar nəslinə bu qaynaqdan istifadə etmək yollarını da göstərmişdi.

Üzeyir bəy özü bir bəstəkar kimi, demək olar ki, bütün əsərlərində muğam qaynağından məharətlə bəhrələnərək misilsiz sənət nümunələri yaratmışdı. Biz bəzən 23 saat yorulmadan "Koroğlu"nun uvertürasını: "Leyli və Məcnun"dakı "Şəbi-hicran" melodiyasını, "Sənsiz" və "Sevgili canan"ı dinlər və təhlil edərdik. Bizim heç birimiz musiqiçi olmasaq da böyük bəstəkarın muğam qaynağından necə qidalandığını özünün "Azərbaycan musiqisinin əsasları" kitabından öyrənərdik. Məsələn, "Sənsiz" romansının Segah üstündə, "Sevgili canan"ın isə Şüştər üstündə yazıldığı, ən əsası isə bu muğamlardan necə istifadə etdiyi bizim üçün çox maraqlı

idi. Üzeyir bəyin öz yaradıcılığı bu istifadənin ən gözəl nümunəsi idi. "Sənsiz" və "Sevgili canan" musiqi tariximizdə romans janrının misilsiz etalonu idi. Biz buna təəssüf edirdik ki, böyük Üzeyir bəy bu iki romansla musiqimizdə milli romans janrının cığırını açdı, amma özündən sonra bu janrda "Sənsiz" və "Sevgili canan"a tay ola biləcək örnəklər yaranmadı.

- Tamamilə doğrudur.

- Götürək "Koroğlu"nun uvertürasını. Musiqi tariximizdə heç bir əsər bu qədər, bu dərinlikdə xalqın ruhunu, mənəvi dünyasını ifadə etməmişdir. Buna görə də mən deyərdim ki, bu əsər bizim xalqın musiqi məbədidir. Bu əsəri dinləyən hər bir azərbaycanlı gözünü qırpmadan Vətənin yolunda ölümə gedə bilər. Üvertüranı sakit dinləmək mümkündürmü? Burada həm xalqın incə ruhu, zərifliyi, həm də qəhrəmanlığı vəhdətdədir. İlahi, bu kiçik musiqi parçasında zərifliklə qəhrəmanlıq, lirika ilə təmtəraq necə birləşə bilərmiş?! Təbiətən sakit olan Xudu, Üzeyir bəydən danışan da yerində sakit otura bilməzdi. Deyirəm, taleyin nə qəribə oyunları var. Məgər Xudunun canını Üzeyir bəyin evində tapşırması təsadüfi idimi? Xeyr! Bu boyda təsadüf ola bilməzdi. O öz canını, canından artıq istədiyi Üzeyir bəyin ruhuna təslim etməli idi, çünki o, Üzeyir bəyin evinə həmişə "məbədim" deyərdi. Bu da qəribədir ki, o gün "Xalq Cəbhə"sinin ilk təsis iclası "Cəngi" klubunda keçirilməliydi. İclasa bir gün qalmış Üzeyir bəyin evində keçirmək qərarına gəldilər. Deyilənə görə, Məzahir Əfşar Xudu müəllimdən xahiş edib ki, ora getməsin.

- Bəli, mən də, Nurəddin də ona demişdik ki, getməməyin məsləhətdir. Heç yadımdan çıxmaz. Birlikdə dəniz kənarına gəzməyə çıxmışdıq. Opera teatrının yanından keçəndə, Xudu dedi ki, "Gənclər" teatrına baxaq (teatr yenicə təmirdən çıxmışdı). Xudu binanın memarlığına aid bir neçə qüsur dedi. "Nizami" küçəsi ilə evə tərəf gəldiyimiz zaman, Nurəddin bizə onlara getməyi təklif etdi. Mən, evdə işim olduğundan təklifi qəbul etmədim. Onda Nurəddin

dedi ki, sabah axşam görüşək. Xudu dedi ki, sabah axşam mən Üzeyir bəyin evində "Xalq Cəbhəsi"nin təsis yığın cağında olacağam. İkimiz də getməyini məsləhət bilmədik, çünki iki dəfə infarktdan yatdığını bilirdik. Xudu dedi ki, söz vermişəm, getməyə bilmərəm. Biz hardan biləydik ki, o Üzeyir bəyin evinə dünyasını dəyişmək üçün gedir.

Axşam evdə oturmuşdum. Telefon zəng çaldı. Kim isə ağlar bir səslə "Bəxtiyar müəllim, Üzeyir bəyin evindən zəng çalıram. Xudu müəllim özünü pis hiss edir, özünüzü yetirin bura", - dedi. Mən başı alovlu gəldim. Gördüm ki, evin aynabəndində Xudu uzanıb, Nurəddin ona süni nəfəs verir... Faydası olmadı... Nurəddin başını qaldıranda məni gördü. Bu zaman hönkürtü ilə mənim boynumu qucaqlayıb "Xudumuz getdi", - dedi.

İndi biz Xudusuz qalmışıq. Lakin Xudusuz bir günümüz də olmur. Yenə görüşürük. Lakin elə bir hadisə, elə bir əhvalat olmur ki, biz o məqamda Xudunu xatırlamayaq. Xududan teztez misallar çəkir, bu an baş verən hadisəyə "Xudu necə münasibət bəslərdi", - deyə birbirimizin üzünə baxırıq. Bu baxışlardakı məna və fikir eynidir. Biz hər ikimiz yaxşı bilirik ki, bu məsələyə Xudunun münasibəti necə olardı. Biz ikimiz ayrılıqda Xudusuz yetimik. Allah heç kəsi dostsuz eləməsin!

*"Xəzər" jurnalı, 1992 № 4.*
*"Yanan da mən, yaman da mən", Bakı, 1995.*





# ONUN SUSMAĞI DA DANIŞMAQ İDİ

Biz üç dost idik. Professor-cərrah Nurəddin Rzayev, kristal loqrafalim Xudu Məmmədov və mən. Hər həftə azı iki dəfə axşamlar görüşər, eşitdiyimiz, gördüyümüz, yaxud oxuduğumuz təzə xəbərləri birbirimizə çatdırardıq. Əsasən hər birimizin ayrılıq da oxuduğumuz kitabları birbirimizə verər və sonra bunları müzakirə edərdik. Bu dostluq, bu ünsiyyət 24 il davam etdi. Allah Xudumuzu bizim əlimizdən tez aldı. O, təkcə bizdən getmədi, millətimizdən getdi. İndi iki dost qalmışıq. Amma Xudu bu gün də bizimlədir. Nurəddinlə yenə teztez görüşürük. Lakin elə görüşümüz olmaz ki, biz orda Xudunu xatırlamayaq. Yox, düz demədim, onu biz xatırlamırıq, o özünü bizə xatırladır.

Yəqin buna təəccüb edəcəksiniz. Bu dünyadan gedən adam özünü necə xatırlada bilər? Bəli, bu həqiqətdir. Bu gün bizim elə söhbətimiz, elə mübahisəmiz olmur ki, o söhbətə, o mübahisəyə Xudu müdaxilə etməmiş olsun. Söhbətin şirin yerində ya mən, ya da Nurəddin qeyriixtiyari “Xudu demişkən” sözü dilimizdən çıxır. Xudunun vaxtı ilə dediyi tutarlı söz ilə söhbətimizə yekun vururuq.

Bəli, dünyada elə adamlar var ki, onların ölülüyü dirilərdən daha çox diridir. Çünki bu adamlar yaşayırkən başqalarının bir neçə ildə

daşıdığı həyat yükünü bir gündə daşıya bilir. Onların ömrü zaman çərçivəsindən kənara çıxır. Bu ömür zamanla deyil, məhdud zaman içərisində yaşadıqları böyük fikirlərin və duyğuların ağırlığı ilə ölçülür. Xudu altmış il cismən yaşayıb. Lakin mənən onun ömrü bu gün də davam edir. Onun ömrü yaratdıqlarında və bu yaratdıqlarını dərk edən hər kəsin ömründə yaşayır. Demək, bu ömür sabah da davam edəcək və nəhayət, bu ömür onun öz canın dan çox sevdiyi xalqının ömrünə qarışacaq və millətin ömründə davam edəcək.

Xudu gördüyü, müşahidə etdiyi hadisələri, vəziyyətləri öz qəlbinin süzgəcindən keçirib, ona öz münasibətini mütləq bildirməli idi. Onda çox dərin analitik ağıl var idi. O, hadisələrə üzdən yanaşa bilməzdi. Onu təhlil edərdi, özü də necə? qatbaqat, laybalay. O, hadisənin mahiyyətinə varıb, onu təhlil edib, bu barədəki fikrini və şəxsi münasibətini elə bildirərdi ki, biz bu fikrin qarşısında sarsılardıq. Hadisənin və vəziyyətin səbəbini və mahiyyətini Xudu ağlı və məntiqi ilə üzə çıxarılması bir möcüzə idi. Buna görə də biz onun çıxardığı nəticə qarşısında sarsılmaya bilmirdik. Çünki bu nəticədə şübhəyə heç bir yer qalmırdı. Biz onun çıxardığı nəticə qarşısında hər dəfə sarsıldığımıza görə Xudu fenomenini və Xudu möcüzəsini “sirri xuda” adlandırardıq.

Xudunun böyük alim olduğu alimlərə məlumdur. Lakin o, alimliyindən əvvəl böyük insan, böyük vətənpərvər idi. O, xalqının dəlisiydi. O, millətin tarixini, ədəbiyyatını, folklorunu, özünəməxsus xüsusiyyətlərini dərindən bilir və bunlarla fəxr edirdi. Onun heç bir şəxsi arzusu və istəyi yox idi. Onun bütün istək və arzuları xalqın istək və arzularına qarışmışdı. O, özünü xalqının içində görmüşdü. Buna görə də onda şəxsi tamah və nəfs yox idi. O, təvazökarlıq və tamahsızlıq simvolu idi. Xudu çox az danışardı, məclisdə bəzən saatlarla susardı. Lakin onun susmağı da danışmaq idi. Çünki o, susmaq xatirinə susmurdu. Burada da bir məna var idi. O, Nurəddinlə

mənim mübahisəmə bəzən bircə atmaca ilə müdaxilə edib fikrimizi yekun laşdırardı. Bu atmacanın fikir yükü və təsiri uzun zaman bizi düşündürərdi.

Bizim söhbətlərimiz əsasən içində yaşadığımız cəmiyyətimizin totalitar sistemin təbiətindən doğan müsibətlər barədə olardı. Xudu deyərdi ki, "bu sistemin yaşamaq haqqı yoxdur. Çünki bu sistem heç bir təbiət qanununa uyğun gəlmir. Buna görə də bu sistemin qanunları da özü kimi uydurmadır. Yalanın və uydurmanın isə ömrü qısa olmalıdır". Bəzən mən şahidi olduğum bir hadisəni yanayana danışanda o, gülər və soruşardı: buna niyə təəccüblənirsən?

Mən:

-Bəs belə də şey olar? Bu boyda haqsızlığa necə dözüm?

O, yenə gülüb deyərdi:

-Mən haqsızlığa heç təəccüblənmirəm. Sən də yaxşı bilirsən ki, bu cəmiyyət özü haqsızlıq üzərində qurulub. Mən sənin haqsızlığa təəccüblənməyinə təəccüblənirəm.

Bu məntiqin qabağında mən susar, onun dediyi böyük həqiqətə təslim olardım. Xudu haqqında yüzlərlə belə misal gətirə bilərəm.

Mən qırx ilə yaxın bir müddətdir gündəlik yazıram. Bu gündəliyin əsas qəhrəmanlarından biri Xududur. Onun dediyi müdrik sözlər, atmacalar hələlik gündəliyimdə yatır. Dostum Nurəddinlə keçən il bu qərara gəldik ki, Xudu haqqında ikimiz birlikdə bir kitab yazaq. Nurəddin tələsdi. Kitabı təkbaşına yazdı. Mən gecikdim. Ona görə ki, son hadisələr gündəliklərimi səhmana salmağa, Xudu haqqında yazdıqlarımı nizamlamağa imkan vermədi. Lakin əziz oxucularıma söz verirəm ki, bu yaxın illərdə mən öz borcumu yerinə yetirəcək, dostum haqqında onun adına və böyük şəxsiyyətinə layiq bir kitab yazacağam. Həyatı və şəxsiyyəti gəncliyə nümunə ola biləcək böyük insan haqqında yazacağım bu kitab mənim ən yaxşı yazılarımdan biri olmalıdır.

İstəyirəm ki, mənim bu kitabım gənc oxucularıma yaxşı bir hədiyyə olsun. Gənclər onu təqlid etsinlər. Vətənimizi, ana dilimizi, xalqımızı onun kimi sevsinlər. Vətənimizə onun kimi xidmət etməyi bacarsınlar.

*1991.*
*"Yanan da mən, yaman da mən", Bakı, 1995.*





# CAMAL KAMAL

Müasir özbək poeziyasının görkəmli nümayəndəsi Camal Kamalın şeirlərini həm orijinaldan, həm rus mətbuatından böyük həvəs və məmnuniyyətlə oxumuş və bir qismini dilimizə çevirişəm. Onun şeirləri həmişə mənim qəlbimdə əks-səda oyatmışdır. Çünki bu şeirlərdə öz hissimi, fikir və duyğularımı tapmışam. Bir neçə il bundan əvvəl şairin "Bir danə, bir danə" rədifli qəzəlini və "Uluqbəy" şeirini çevirib bizim "Ədəbiyyat və incəsənət" qəzetində çap etdirdim. Bu şeirlər Türkiyədə böyük əks-səda oyatdı, Türkiyənin bir çox qəzet və jurnallarında çap olundu.

Bu şeirlər eyni kökdən olan dillərin müqayisəsində, türk dilçi alimlərə material verdi. Hansı sözün və ifadənin, yaxud deyim tərzinin özbəklərdə necə, bizdə və Türkiyədə necə işlənməsi və tələffüzü barədə xeyli məqalələr dərc edildi. Buradan mənə bir daha aydın oldu ki, şeirin gözəlliyi təkcə poetik tərəfdən deyil, ona sırf elmiqrammatik yanaşmağa da imkan verir. Bundan sonra mən C.Kamalın əsərlərini imkan düşdükcə dilimizə çevirmək bu əsərlərdən ibarət bir kitabça buraxmaq fikrinə düşdüm. Bu arzumu özbək dilini yaxşı bilən qələm yoldaşlarımdan X.Rza və Ə.Muxtara bildirdim və biz bu çətin, lakin şərəfli işə başladıq. Nəhayət, həmin kitabı Azərbaycan oxucusunun müzakirəsinə verdik.

60-cı illərdə ədəbiyyata gələn və gəlişi ilə dərhal özbək ədəbi ictimaiyyətinin diqqətini cəlb edən C.Kamal haqqında Özbəkistanın

xalq şairi Şükrulla yazır: "Deyəsən 60-cı illərin əvvəlləri idi. Buxaralı şair Camal Kamalın bir silsilə şeiri "Şərq ulduzu" idi - çap olunmuşdu. Tanımadığım gənc şairin şeirlərini oxudum. Bu şeirlər məni o dərəcədə sehrlədi ki, uzun müddət mən ancaq həmin müəllif haqqında düşündüm. Bu şeirlər özbək poeziyasına istedadlı bir şairin gəlişindən xəbər verirdi... Onun şeirləri heç kəsin şeirinə oxşamır".

Xalq şairinin dediyi oxşamazlıq nədir və onun poetik dünyasında Şükrulla kimi məni də sehrləyən əsas amil nədən ibarətdir?

İlk növbədə həyat hadisələrinə, onu əhatə edən aləmə poetik və fəlsəfi baxış, həyatın təzadlarını görmək və göstərmək, bu təzadlardan çıxardığı məna və bu məna ilə oxucusunu düşündürə bilmək qabiliyyəti! Bu fikrimi təsdiq etmək üçün Camalın qoşma formasında yazdığı "Hardadır" şeirindən 2 bəndi missal gətirirəm. Qoy oxucu özü mənim fikrimin doğruluğunu kəsdirsin:

Vədəbaz kəslərin vəfası yoxdur,
Yalanın, riyanın mənası yoxdur.
Alanda Hatəmə bənzəyən çoxdur,
Görəsən, verəndə... Hatəm hardadır?

Mərdin dövlətidir namus, bir də ar,
Namərdə pislikdən savayı nə var?
Matəmə oxşayır çox zaman toylar,
Lakin toya oxşar matəm hardadır?

Nə gözəl müşahidədir. Yalnız müşahidəmi? Yox! Müşahidədən çıxan, bizi düşünməyə vadar edən təzad! Və təzaddan çıxan nəticə!

İnsan psixologiyasında ikilik  xeyirlə şərin, yaxşılıqla yaman lığın əbədi mübarizəsi ədəbiyyatın ən qədim mövzuların dandır. Bu mövzuya nə qədər əsərlər həsr olunmuşdur. Buna baxmayaraq, bu əbədi mövzuya hərə bir tərəfdən yanaşdığından, onu hərə öz dövrünə münasib işlədiyindən bu mövzu həmişə təzə görünür. C. Kamalın

“Uluqbəy” şeiri eyni mövzunu tamam başqa tərəfdən işıqlandırmış, müasir dərdləri dilə gətirmişdir. Tarixdən məlumdur ki, məşhur özbək astronomu, Teymurləngin nəvəsi Uluqbəyi hakimiyyət naminə öz doğma oğlu Əbdüllətif öldürmüşdür. Bu tarixi faktı şair “Əbdüllətif də mən, Uluqbəy də mən” deyə insan təbiətindəki ikiliyin xeyirlə şərin əbədi mübarizəsi kimi götürmüş, məlum hadisəni xalqın faciəsi kimi ümumiləşdirmişdir.

“Kəsdi özümüzü öz qılıncımız” deyən şair, yaxşılıqla yamanlığın, xeyirlə şərin qanımızda yanaşı yaşadığına təəssüflənir, bizi Əbdüllətifliyə lənətə, Uluqbəyliyə yüksəlməyə çağırır:

Yaşasın qanlarda Uluqbəyimiz,
Ölsün ruhumuzda Əbdüllətiflik!

Əbdüllətiflik “əqidəsi” ilə yaşayan insan bu gün əlindəki atom bombaları ilə özü özünü məhvə aparır. Lakin insanın qəlbində insanlığı ucaldan elə bir od da var ki, o, bu odun hərarəti ilə dünyanı cənnətə döndərə bilər. Odur ki, şair insana müraciətən yazdığı bir şeirində yenə bu ikiliyə toxunaraq deyir:

Sənin qəlbindəki od çox müqəddəs,
Əlindəki oddan qorxuram ancaq.

C.Kamalın çoxşaxəli yaradıcılığında tərcümə də mühüm yer tutur. O, Əbu Əli ibn Sina, C.Rumi, Bualo, Puşkin, Ş.Petefi, L.Ukrainka kimi dünya klassiklərini böyük ustalıqla özbək dilinə çevirmişdir. “Böyük ustalıqla” sözünü mən təsadüfən işlətmirəm. Mən onun şahidiyəm, Camal Şekspirin tərcüməsinə başlamazdan əvvəl ingilis dilini öyrənirdi. Bu, əlbəttə, tərcüməçilik kimi çox çətin və şərəfli işə böyük məsuliyyət hissi ilə yanaşmağın nəticəsidir. Qələm dostum, Azərbaycan ədəbiyyatının da bir neçə nümunəsini, o cümlədən, bu

sətirlərin müəllifinin də bir sıra əsərlərini eyni məsuliyyət hissi ilə özbəkcəyə çevirmişdir.

Qardaş özbək ədəbiyyatının fərhadlarından biri - Camal Kamalın kitabını Azərbaycan oxucularına təqdim etməyi özümə şərəf sayıram. Çünki şairin zəhməti buna layiqdir.

*"Şənbə gecəsinə gedən yol", Bakı, 1991.*





# ÖMÜRDƏN SƏHİFƏLƏR

Uşaqlıq dövrü insan ömrünün bünövrə daşıdır. Sonrakı arzular, xəyallar, düşüncələr bu daşa söykənib qanadlanır. İnsanın ağlı, düşüncəsi, zövqü, ruhu, psixologiyası, istedad və qabiliyyəti və hətta sağlamlığı da bu dövrdə formalaşır.

Dünyaya göz açdığımız zaman ilk dəfə gördüyümüz, havasını udub suyunu içdiyimiz, ömrümüzdə ilk dəfə ayağımızı basdığımız torpaq - Ana Vətəndir. Sonralar min ölkəyə gedə bilər, min ölkənin suyunu içib havasını uda bilər, neçəneçə torpağın müvəqqəti sakini ola bilərik. Lakin bu torpağın, bu ölkənin heç biri bizə doğma torpağımızı əvəz edib Ana Vətən ola bilməz.

Əslində torpaq kimyəvi tərkibinə görə hər yerdə torpaqdır.

Bəs onu bizə Vətən edən nədir? Bu mənada Vətən - çox geniş məfhumdur. Vətən yalnız torpaq deyil, Vətən - hər şeydən əvvəl mənəvi keyfiyyətləri ilə bu torpağın üstündə yaşayan xalqın dili, tarixi, mədəniyyəti, adətənənəsi, bir sözlə, ruhu və psixologi yası ilə Vətəndir. Vətənə bu mənəvi keyfiyyətləri ilə bağlanmış adam Vətəni uğrunda hər fədakarlığa, hətta ölümə də gedə bilər. Təsadüfi deyil ki, böyük türk şairi C.Kuntay "Topraq əgər uğrunda ölən varsa, vatandır" demişdir. Torpağın uğrunda ölən yoxsa, o torpaq Vətən ola bilməz... Torpaq o zaman vətən ola bilər ki, biz bu torpağa mənəvi keyfiyyətlərinə görə bağlanmış olaq və yalnız bu zaman biz onun uğrunda ölümə hazır ola bilərik.

Vətəndə yaşayıb onun mənəvi keyfiyyətlərinə biganə olan, adını daşıdığı xalqın dilini, tarixini, mədəniyyətini bilməyən, onları sevməyən, onların uğrunda ölümə belə hazır olmayan adam Vətənin içində vətəndaş deyil, "mənəvi mühacir"dir.

Mən bu barədə "İki mühacir" şeirimdə yazmışdım:

Adam tanıyıram, yuxularında
Üzər balıq kimi yad sularında.
Uçar NyuYorka, uçar Londona,
"Mənəvi mühacir" deyərdim ona.

O, elin içində elinə özgə,
Torpağına özgə, dilinə özgə,
Havasına özgə, suyuna özgə,
Əcdaddan baş alan soyuna özgə.
Doğma ocağına, közünə özgə,
Özü də bilmədən özünə özgə.
Özgəyə doğma.
Vətəndən savayı hər şeyə doğma.

Vətənin və xalqın mənəvi dünyasına dilinə, musiqisinə, ruhuna, psixologiyasına biz uşaqlıqda yiyələnirik. "Bir insan kimi, vətən daş kimi hər kəs uşaqlıqda formalaşır" sözünü eləbelə demir lər. Vətən ana südü ilə eşitdiyimiz laylalar, mahnılar, bayatılar və nağıllarla bizim ruhumuza süzülüb orda məskunlaşır. Bu mənada uşaqlıq qoynunda ərəərsəyə çatdığımız Vətəndir. Axı, hamı uşaqlıqda ana qoynunda böyüyür, ana qoynunda yetişir.

Mən insan ömrünü şərti olaraq 3 dövrə bölərdim: uşaqlıq noğul dövrü, gənclik - nağıl dövrü, ahıllıq və qocalıq isə - ağıl dövrü.

Əlbəttə, bu bölgünü hamıya eyni adla şamil etmək olmaz. Çünki ömrün noğul dövründə zəhər dadanlar, nağıl dövründə macərasız və nağılsız yaşayanlar olduğu kimi, ağıl dövründə də ağıllanmayanları

çox görmüşük.

Mən bu yazıda ömrümün noğul dövrünün bəzi səhifələrini vərəq ləmək istəyirəm. İlk vərəqi açmamışdan əvvəl özümözümdən soruşuram: Noğul dövrüm, doğrudanmı noğul kimi şirin olmuş? Ya həyatın acılarını elə bu dövrdən dadmağa başlamışam?

Mən olanları olduğu kimi yazım, suala, qoy, oxucu özü cavab tapsın.

Hər halda uşaqlıq dövründə insan dünya qayğılarından azaddır.

Dünyanın əzabəziyyətindən, min cür haqsızlıqlarından xəbər sizdir. Əmdiyi südün, sonralar isə yediyi çörəyin hardan gəldiyini, hansı əzablar bahasına qazanıldığını bilmir. Yalnız elə buna görə ömrün uşaqlıq dövrünü noğul adlandırmağa dəyər.





# ÖMRÜN NOĞUL DÖVRÜ

Ömrümdə ilk dəfə göy gurultusunu eşidib qorxudan anamın üstünə qaçdığım və o səsin nə olduğunu soruşduğum indiki kimi yadımdadır. Anam məni bağrına basıb:

- Qorxma, - dedi, - Mələklər göydə at çapır.

İlahi, bu nə gözəl sözdür. Sözün sehrinə büründüm. Göydə at çapan mələkləri xəyalımın gözlərilə gördüm. Əyninə ağ tüldən paltar geymiş gözəl mələklər şahə qalxan köhlən atlar belində buludların üstündə gör necə çapırlar. Heç demə, göy gurultusu, atların kişnərtisi və ayaqlarının tappıltısı şimşək isə nallarından qopan parıltı imiş. Bu xəyallar məni necə əyləndirərdi... Necə sevindirərdi...

Bundan sonra hər dəfə göy gurultusunu eşidəndə at belində çapan qanadlı mələklər gözlərim önündə canlanar və bu lövhə məni xəyalımda qurduğum arzular dünyasına aparardı. Mələklər məni də özləri ilə birlikdə buludlardan yuxarı qaldırar, qulağıma göylər barədə sehirli nağıllar pıçıldardılar. Bu nağılları onlarmı danışardı, ya mən özüm uydurardım?.. Bilmirəm, amma necə şirin idi bu nağıllar; necə dadlı idi bu xəyallar!.. Bəs indi hara getdi o şirinşəkər xəyallar? Xəyalımda qurduğum sehrli saraylar, simsim duası ilə üzümə açılan qapılar?

Bəs sonra dünyanın bərkiniboşunu, istisinisoyuğunu, ağrısınıacısını dadandan sonra vaxtilə iki kəlmə sözlə açılan o qapılar niyə üzümə bağlandı? Niyə qapılar dalında qaldım? "Meşin qapılar" şe-

irini yazdım və həqiqəti dilə gətirən bu şeirin uzun müddət əzabını çəkməli oldum? Həmin şeirin nəşr olunduğu "Köklər-budaqlar" kitabım yasaq olundu, kitabxanalardan götürüldü. Onda dedim, ilahi, biz bu dünyaya əzab və məhrumiyyət çəkmək üçünmü gəldik? Bu suallar ətrafında düşünəndə də yeganə təsəlli və sığınacaq yerim yenə uşaqlıqda eşitdiyim nağıllar olardı. Çünki nağıllarda qəhrəmanın başına min cür bəla gəlsə də, dolaşıq macəralar içində çırpınsa da, bu əhvalatların sonu xoşbəxtliklə bitir: nağıllarda xeyirşərə, həqiqətyalana, düzəyriyə qələbə çalır (kaş həyatda da belə olaydı).

Qoy, nağıl oxusun siyasətçilər.
İnsanın qəlbinə nağıl nur çilər.
Nağıl dinləyənin fikri ucalır,
Xəyaldan yol açır o, həqiqətə.
Həmişə nağılda qələbə çalır
Həqiqət yalana, işıqzülmətə.

Bu nağıllardan və qanadlı xəyallardan bir mətləb agah olardı ki, mənim gördüyüm real dünyadan başqa nəsə mənim görə bilmədiyim ayrı bir dünya, sirli və sehrli bir aləm də mövcuddur.

- Nədir bu ayrı dünya, sirlisehrli aləm?

Uşaqlığımdan bu günə qədər həmişə mənə sirr olan bu dünya barədə düşünmüşəm, indi də düşünürəm. Bu düşüncə, bu xəyal, idrakımızda izlər açır, bizi məchullar dünyasına aparır... Var olsun bizi məlumlardan məchullara, real dünyadan əfsanəvi dünyalara uçuran "nədir?" sualının arxasınca aparan qanadlı xəyallar.

"Nədir?" - sualından doğan düşüncə qolumdan tutub məni idrak pillələri ilə qaldırmış, həmin sual sonralar misralara çevrilmişdir.

Şeir yazmağın özü də məgər sirr deyilmi? Niyə yazırıq? Yazmaya bilərikmi? Nədir şeiri bizə yazdıran? O daxili qüvvə haradan gəlir? Onun qaynağı nədir?.. və s... Suallar... Suallar... Bir sözlə, cavabsız suallar və izaha gəlməyən sirlər mənadır, idrakın uçuş nöqtəsidir.

Eşitdiyimiz nağıllar, əfsanələr, əsatirlər nə qədər sehrli və möcüzəlidirsə, bir o qədər gözəldir, bir o qədər mənalıdır, hikmətlidir.

Çünki, bu sirlər, möcüzələr uşaq xəyalına qanad verir, uçurur, fantaziyasını genişləndirir. Amandır, analar, nənələr, babalar, uşaqlara sirli, möcüzəli nağıllar danışın, onlara uçmaq üçün qanad verin.

Anam mənə danışardı ki, atasının at ilxısı varmış. Bir gün qardaşı atasına deyib ki, səhərlər onun köhlən atının yalmanı və quyruğu hörüklü, özü isə tər içində olur. Bu sözdən ata fikrə getmiş, ertəsi gün oğlunun sözünü təsdiq etmiş və demişdi ki, bu, cinlərin işidir. Cinlər hər gecə xəlvəti gəlib atları tövlədən çıxarır, yalmanını və quyruğunu hörüb çapırlarmış... Anam nağıla bənzər bu əhvalatı danışarkən dəfələrlə eşitdiyim cin söhbətindən tüklərim bizbiz olar, içimdən bir göynərti keçər, ağlayardım. Bu sirli göynərtinin nə olduğunu və məni niyə ağlatdığını deyə bilmərəm. Amma onu bilirəm ki, içimdən keçən bu giziltidə, bizə məlum olmayan sirli bir dünyanın mövcudluğunu bildirər və bu mənə xoş gələrdi. Qorxduğumu görən atam isə dərhal:

- Ay bala, nə cin, nə şeytan? - deyib anamı danlamağa başlardı.

Amma atam bilməzdi ki, qorxunu dağıtmaq üçün dediyi bu sözlərlə mənim xəyallarımı dağıdır, başqa bir dünyanın varlığına inamımı puç edirdi. Bəli, mən sirli-sehrli bir dünyanın varlığına - cinə də, şeytana da, divə də, mələklərə də inanmaq istəyirdim. Çünki bu inam xəyalımda qəribə möcüzəli əhvalatlar qurmağa imkan verirdi.

Sonra anam deyərdi ki, cinlərin gecələr atları minib yormaması üçün yalmanlarına iynə sancarlarmış. Demək, cinlər iynədən qorxurmuş?! Niyə məhz iynədən?

Cinlərin dəmirlə höc olması barədə nağıllarda və rəvayətlərdə çox əhvalatlar var. Gecələr hamamda cinlərin səsküyünü, çalıbçağırmasını dəf etmək üçün yerə mıx çaxılması, eləcə də gün tutulanda mis döymək və s...

Uşağın qorxuluğunu almaq üçün ona cəftə suyu içirilməsi,

yastığının altına bıçaqkəsərti qoyulması nə deməkdir? Niyə məhz dəmirdən düzəldilən bıçaq və cəftə? Qorxunun məhz dəmirlə, metalla əlaqələnməsi nə deməkdir? Biz bu sualların cavabını öyrənmək üçün cin məfhumu altında babaların nəyi nəzərdə tutduğunu, cinin iynə, mıx və ümumiyyətlə, metalla əlaqəsinin nədən ibarət olduğunu öyrənməliyik.

Görürsünüzmü, sadəcə nağıl hesab etdiyimiz, yalnız uşaqlar üçün maraqlı saydığımız nağıllar bizim qarşımızda necə dərin suallar qoyur. Bu suallar bizi xəyaldan həqiqətə, həqiqətdən xəyala aparır. Mərhum alim dostum Xudu Məmmədov deyərdi ki, elmin zirvəsi sənət, sənətin zirvəsi isə elmdir.

***

Bir gün, 10 aylıq körpə ikən anam məni yatırıb nənəmin otağına, gəlinlərlə birgə düyü arıtlamağa keçir. Başları işə elə qarışır ki, məni tamamilə unudurlar. Mən yuxudan oyanıb ağlayıram. Səsimi eşidən olmur. Bu hal bir saatdan artıq davam edir. Sonralar anam danışardı ki, mən o zaman o qədər ağlamışam ki, səsim tutulmuş, gözlərim hədəqəsindən çıxmış, ağzım köpüklənmiş, ən dəhşətlisi isə dəbə (qrija) olmuşam. Bunu müəyyənləşdirən həkim lər mütləq operasiya olunmağımı vacib bilmişlər. O zaman Şəkidə yaxşı cərrah olmadığından belə qərara gəliblər ki, məni Bakıya aparsınlar. Lakin maddi imkan olmadığından 4 yaşına qədər əzabəziyyət içində olmuşam. Teztez məni sancı tutarmış.

Nəhayət, babamın rəyilə qardaşlar yığılıb atama əl tutmuş, mənim operasiya məsələmi həll etmişlər. Yola hazırlaşdığımız bugünkü kimi yadımdadır.

...Anam mənim paltarlarımı ütüləyirdi. Birdən qonşudan dəhşətli bir qışqırtı eşitdik... Bu zaman usta əminin bizimlə qonşu həyətin arasında olan ala qapıdan keçib qışqırığa tərəf qaçdığını gördüm. Məlum oldu ki, qonşunun 20 yaşlı oğlu Ənvər çardaqdan özünü asıb.

Əmim özünü yetirir, kəndiri kəsir, ölü onun ayaqları altına düşəndə, o da özündən gedir. Bu minvalla əmim bir ay yatır.

Ənvər niyə özünü öldürüb?

Bu zamanın faciəsi idi. Ənvərin atası Hüseynbala və əmisi Əlibala bizim "Yuxarı baş" məhəlləsinin varlılarından idi. Böyük mülklərinin birinci mərtəbəsi başabaş ipək fabriki - Davel idi... Mənim atam və Cahangir əmim də bir müddət həmin fabrikdə fəhlə işləmişdilər. Sovet hökuməti qurulandan sonra, fabrik də daxil olmaqla, bütün varidatı əlindən çıxan bu ailə tamam müflisləşir. Hüseynbala bu müsibətə dözməyib ölür. Əlibala isə baş götürüb harasa qaçır, gördüm deyən olmur. Hüseynbalanın böyük oğlu Hidayət başqa bir ipək fabrikində mühasib işləyib birtəhər ailəsini dolandırır, 1927-ci ildə orta təhsilini başa vuran Ənvər isə ali təhsil almaq eşqilə yaşayırmış. Lakin onu "burjuy oğlu" olduğuna görə ali məktəblərə qəbul etmirlər. O, bu məqsədlə çox qapılar döyür, ali məktəbə qəbul üçün lazım olan arayışı ona vermirlər. Nəhayət, tıncıxıb çıxış yolunu özünü öldürməkdə tapır. Qəribədir, o zaman uşaq olsam da, Ənvər haqqında uzun müddət evdə gedən söhbətlər məni də ağrıdır, mərhumun çıxılmaz vəziyyətinə təəssüflənirdim. Ənvərin vaxtsız və faciəli ölümü məhəlləmizdə böyükdən tutmuş kiçiyə kimi hamını sarsıtdı. Onun dəfn mərasimi indi də gözümün qarşısın dan getmir. Bu mərasim insanları süni surətdə siniflərə ayıran, milləti birbirinə qarşı qoyan, zamana qarşı kütlənin üsyanı idi. Varlı balası olduğuna görə ağıllı gənclərin üzünə məktəb qapılarının bağlanması ədalət idimi? Axı, bu gəncin günahı nə idi? Fabrik açıb yüzlərlə yoxsulu bir parça çörək sahibi eləmək hansı zəmanədə qəbahət sayılıb ki, indi sayılır? Həm də o zaman Şəkinin "Yuxarı baş" məhəlləsində camaatın əksəriyyəti odunçuluq la məşğul olan bir vaxtda onların bir qismini fəhləliyə cəlb etmək nöqsan idimi?

Bir də camaat ona yanırdı ki, fabrik sahibi Hüseynbala kişi son dərəcə xeyirxah olmuş, ehtiyacı olana əl tutduğu halda, bu gün onun balasına heç kəs yardım əlini uzada bilməmiş, çarəsiz qalan gənc

əlacı ölümdə görmüşdür. Bu insafsızlıq, bu nəməkbəharamlıq idi hamını zülümzülüm ağladan.

Qonşuda olan bu faciəli ölüm hadisəsi bizi səfərdən saxladı... Ənvərin yalnız qırxını verəndən sonra Bakıya yola düşdük.

Mən böyüklərin söhbətindən Bakının obrazını xəyalımda yaratmışdım: o tərəfbu tərəfə qaçışan qırmızı rəngli tramvaylar, küçələrdə tüstülənən qır qazanları, onların altında yatan üzügözü qapqara "ciqanlar" və s. Xəyalımda Bakını necə canlandırmışdımsa, eləcə də gördüm. Xüsusilə, tramvayı görən kimi tanıdım. Sonralar bu barədə fikirləşəndə özüm də təəccüb edərdim ki, mən görməmişdən əvvəl xəyalımda tramvayı necə canlandıra bilmişəm?

Basin küçəsində yerləşən indiki 4 nömrəli xəstəxanada yatdım. Anam da yanımda qalırdı.

Qaldığımız palata uzun və enli bir dəhlizin tən ortasında idi. Dəhlizin baş tərəfində enli qapının üstündə bəzən qırmızı işıq yanar dı. Anam məni əməliyyata hazırlamaq üçün həmin qırmızı işığı göstərib deyərdi ki, bax, orda səni sağaldacaqlar, bir də heç vaxt sancın olmayacaq. Nəhayət, bir gün məni də başında qırmızı işıq yanan qapıdan keçirib əməliyyata apardılar. Yadımdadır, burnuma pis qoxulu bir əsgi dayadılar, vəssalam. Daha heç nədən xəbərim olmadı. O zaman Bakıda məşhur olan cərrah Qayıbov məni operasiya elədi. Sonralar anam danışardı ki, əməliyyat olan günün gecəsi bizim palata ilə yanaşı palatanın xəstəsi qoca bir kişi yanımıza gəlmiş və bir qədər əvvəl gördüyü yuxusunu anama danışmış, ona təsəlli vermişdir.

Qoca yuxuda görübmüş ki, mən əlimdə oynatdığım mağaradan ip açıram. İp uzanır, uzanır, mən də ipin arxasınca gedir, onu başqa mağaraya sarıyıram. Qoca yuxusunu belə yozmuş ki, mənim ömrüm uzun olacaq. Anam bu yuxudan çox sevinmiş və qocaya təşəkkür eləyibmiş. Bu yuxu anama böyük ümid vermiş, ondan sonra mənim ömrümün uzun olacağına inanmış, nə qədər ağır xəstəliklər keçirsəm də, başıma bir iş gələcəyindən qorxmamışdır. Mən böyüyüb ailə sa-

hibi olandan sonra da anam tez-tez xəstə qocanın yuxusunu xatırladır və deyərdi:

- Sənin ömrün uzun olacaq!

***

Ailəmiz çox böyük idi. Babam, nənəm, beş oğul, iki qız, dörd gəlin və nəvələr. Zəkəriyyə kişi ailənin başçısı idi. Hər axşam bu böyük ailə atanın otağına toplaşar, oğullar gündəlik qazancları barədə hesabat verər, iş yerində şahidi olduqları maraqlı hadisələri ataya nəql edərdilər. Ailənin gəliri də, çıxarı da atanın əlindən gəlib keçirdi.

Axşamlar ailənin bir yerə toplaşdığı otaq indi də gözümün qarşısındadır. Bu otağa "Zal otağı" deyərdilər. Otağın baş tərəfin də döşək üstə arxasında tirmə yastıq dədə əyləşərdi (Zəkəriyyə kişiyə oğullar "dədə", gəlinlər isə "ağa" deyərdi). Biz uşaqlar isə babaya "baba" deyər, əmilərimizin hərəsini isə bir adla çağırardıq. Məsələn, böyük əmi olan Ələşrəfə yazı-pozu bildiyinə görə "Mirzə əmi", mənim atama "Ağa əmi", Şirəli əmiyə "usta əmi", Cahangir əmiyə isə əmilərin hamısından balaca olduğuna görə "bala əmi" deyilərdi. Mirzə əminin arvadına "gəlin xanım", usta əminin arvadına "gəlin bacı", mənim anama "mama", Cahangirin arvadına isə "Balaxanım" deyərdik.

Otağın sağ tərəfində döşək üstə atam və əmilərim, sol tərəfində gəlinlər, aşağıda samovarın yanında hələ o zaman evdə olan bibim Fatma əyləşər, ailəyə xidmət edərdi. Yaxşı yadımdadır, babam bir iş üçün ayağa qalxanda sağdan və soldan oğullar və gəlinlər dərhal ayağa qalxar, kişi çıxandan sonra əyləşərdilər. Dədə otağa daxil olanda yenə hamı ayağa qalxar, əyləşəndən sonar əyləşərdilər. Qazanc da bir idi, qazan da bir. Ailənin bütün məsələlərini dədə həll edərdi. Dədənin rəyi olmadan nə oğullar, nə də gəlin lər heç bir məsələni təkbaşına həll edə bilməzdilər. Sabahkı məsələlər dədənin göstərişi

ilə axşamdan həll olunar, şamdan sonra hər "mikroailə" öz otağına çəkilərdi.

Bu qayda, bu nizam o zaman bütün Azərbaycan ailələri üçün qəbul olunmuş adi bir norma idi. Heç kəs bu normadan kənara çıxa bilməzdi. Çünki ağsaqqal, ağbirçək nüfuzlu müqəddəs hesab olunurdu. Xanım babamın ikinci arvadı idi. Buna baxmayaraq, ailədə ögeydoğmalıq qətiyyən hiss olunmurdu. Xanımın adı da xanım idi, özü də. O, dörd gəlinin dördünə də eyni gözlə baxar, ögey övladlarından olan nəvələrini və özündən olan övladlarını, gəlinlərini eyni dərəcədə hörmət hissi ilə tərbiyə edərdi. Savadı yox idi. Amma onda daxili bir mədəniyyət, daxili bir təmkin və dözüm var idi. O, heç zaman bu gəlindəno gəlinə, o oğuldan bu oğula heç nə deməz, gəlinlərindən olan xırda incikliyi nə oğullarına, nə də ərinə bildirməzdi.

Yuxarıda təsvir etdiyim müqəddəs ailə qanunları, davranış qaydaları müasir oxucuya bəlkə də qəribə görünər və bəziləri ağsaq qala pərəstiş dərəcəsinə etiraz eləyə bilər. İndiki vəziyyət və şərait baxımından təsvir etdiyim həyat tərzi çox güman ki, mümkün deyil. Lakin ucqar rayon və kəndlərimizdə belə ailələrin olduğunu, indi də ata kultunun saxlandığını bilirik. Şəhərlərdə yeni şəraitin tələbləri köhnə həyat tərzinin qorunub saxlanmasına imkan vermədiyindən biz yeni həyat tərzi ilə istəristəməz barışmalı oluruq. Bununla yanaşı, bir çox köhnə adət və ənənələrin - xüsusən ailədə ağsaqqal və ağbirçək nüfuzunun saxlanmasındakı yaxşı və müsbət cəhətlərin unudulmaması barədə düşünmək vacibdir. Bu barədə indi daha çox danışmalı, adət və ənənəmizdəki müsbət cəhətləri müasir gəncliyə xatırlatmalıyıq. Qoy, indiki gənclik ata və babalarının həyat tərzini bilsin və oradan əxlaqımızı gözəlləşdirən və tərəqqimizə mane olmayan cəhətləri götürsünlər.

Mən vaxtilə yazdığım bir şeirdə "Hər köhnə pis deyil, hər yeni yaxşı" demişdim. İndi də bu fikirdəyəm. Hər yeni yalnız yeni olduğuna görə yaxşı ola bilməz, hər köhnə də köhnə olduğuna görə

pis ola bilməz. Dədəbaba adətlərində elə gözəl cəhətlər var ki, biz bu gün onları təəssüflə xatırlamalı, həm də yaşatmağa çalışmalıyıq. Ona görə ki, o adət və ənənələrdə ibrət götürüləsi, istifadə olunası çox gözəl cəhətlər var.

Məlumdur ki, indi ailələr çoxsaylı olmur. Övladlar evlənən kimi ataanadan ayrılırlar. Ona görə ki, indi hər kəs müstəqil yaşamaq, xeyrini, şərini özü bilmək istəyir. Bu cəhət yalnız bizdə deyil, bütün dünyada belədir. Bəs müstəqil yaşayan kiçik ailələrdə ərlə arvad arasında indi daha çox özünü göstərən ziddiyyəti, konflikti nə ilə izah etmək olar? 1015 və daha çox üzvü olan ailələr də vaxtilə münaqişə olmadığı halda 23 üzvü olan indiki ailələr də teztez baş verən münaqişəni və bu münaqişənin boşanmaya gətirib çıxaran səbəblərini harada axtarmaq lazımdır? Səbəbi mənafelərin toqquşmasında axtarsaq, bu hal çoxsaylı ailələrdə daha çox olmalı idi. Çünki ailədə nə qədər adam varsa, o qədər də mənafe var. Bəs nəyə görə çoxsaylı və çoxmənafeli keçmiş ailələr də boşanma son dərəcə nadir hallarda olardı? Statistik məlumat lara görə yeni qurulan 3 ailədən biri boşanma ilə nəticələnir. (Başqa millətlərdə vəziyyət daha pisdir).

Mən bu mənfi halın səbəbini ailələrdə, məhz ağsaqqal nüfuzunun olmamasında, bunun da nəticəsində hörmət və nəzakət pərdəsinin aradan götürülməsində görürəm. İndiki ailələrdən ağsaq qal və ağbirçək sıxışdırılıb çıxarılmışdır. Yeni yaranmış üzdəniraq “Qocalar evləri” bunun ən yaxşı sübutudur. Evdə ağsaq qal nüfuzu və ağbirçək nəfəsi, ailə üzvlərinin vəhdəti və yapış qanıdır. Ailədə ağsaqqal nüfuzu ailə üzvləri arasında qarşılıq lı hörmət və nəzakəti yaradan mühüm amildir. Bu mühüm amildən əl çəkməyin nəticəsi indiki ailələr üçün təhlükə yaratmışdır.

Böyüyə ehtiram, o gələndə ayağa qalxmaq, ona yer göstərmək, böyüyün qarşısında ədəblə oturmaq, onun sözünü kəsməmək və sairə və sairə. Bunlar köhnəlikdirmi? Bilmirəm nədir, amma vacib olduğuna şübhəm yoxdur.

Ailə üzvləri arasında - istər ataana ilə övladlar, istər ərlə arvad və istərsə də qayınana və qayınata ilə gəlinlər arasında çox incə nəzakət və qarşılıqlı hörmət pərdəsinin olması zəruridir.

Dediyim pərdənin aradan götürülməsi ailədə hərcmərcliyə gətirib çıxarır. Baş ayağa keçər, ayaq başa. Onda, gəl, payını apar. Müasir pedaqogika belə hesab edir ki, valideynlər övladları ilə o qədər açıq olmalıdır ki, oğul da, qız da heç bir məsələni valideynlərin dən gizlətməməli, ürəklərindən keçəni açıqsaçıq danışmağı bacarmalıdır. Deməli, aradan ismət və abırhəya pərdəsi götürül məlidir (?).

Yox, əzizim, eyni düsturu, eyni qaydanı bütün millətlərin məişətinə eyni ölçüdə tətbiq etmək kökündən yanlışdır. Axı, hər xalqın özünəməxsus milli psixologiyası var. Biz azərbaycan türkləri hələ öz milli psixologiyamızı elmi surətdə öyrənməsək də onun xüsusiyyətləri ümumi şəkildə hamımıza məlumdur. Lakin kül altında elə közlər var ki, biz hələ üfürüb o közləri üzə çıxarmamışıq. Əcdaddan keçən qanımızda, genimizdə, cövhərimiz də uyuyan, üzə çıxmasına məqam gözləyən mənəvi külçələrimizdən hələ xəbərimiz yoxdur. 1988-ci ilin fevralmart hadisələrinə qədər xalqımızın məhv edildiyini zənn etdiyimiz milli heysiyyatdan və buna qarşı tüğyana gələ biləcək etiraz və üsyan səsindən xəbərimiz vardımı? Vallah, billah, o hadisələrə qədər çoxları elə bilirdi ki, bizim milli heysiyyatımız sıfırdadır. Amma qarşımızda açılan meydan və vaxtın yetişdirdiyi məqam bizim yatan heysiyyatımızı bir yumruqla oyatdı. Çoxları buna təəccübləndi. Doğrusunu deyim ki, mən xalqın mənəvi gücünə, hələ məhv olmamış milli heysiyyatına həmişə inanmışam, amma onun bu dərəcədə olduğunu bilmirdim.

Mətləbdən uzaqlaşmayaq. Dedim ki, hər xalqın özünəməxsus milli psixologiyası var. Gözünüzün qarşısına hələ kökündən ayrılmayan bir azərbaycanlı ailəsi gətirin. Hamı yığışıb televizorda əcnəbi, yaxud rus filminə baxır: lüt kişi ilə qadın yataqda eşələnir. Bu vəziyyəti övladlarının yanında seyr edən ata indi başına nə kül töksün? Övladlarının üzünə necə baxsın? Eləcə də övladlar ataları-

nın yanında xəcalət təri tökməlidir.

Bu hal həmin filmi çəkən xalq üçün bəlkə də qəbul edilə bilər. Amma bizim üçün övladların iştirakı ilə həmin filmə baxmaq qəbahətdən də o yana qəbahət və əxlaqsızlıqdır. İndi soruşulur: parnoqrafik səhnələrlə dolu filmlərə bir yerdə baxan ata ilə övladlar arasında nəzakət və hörmət pərdəsi qalarmı? Qalmaz! Buna görə də eyni əxlaq normasını bütün xalqlara eyni dərəcədə tətbiq etmək olmaz...

Bütün bunlardan sonra mən bu fikirdəyəm ki, övladlarla valideyn arasında mütləq məsafə saxlanmalıdır. Bu məsafə ataana nüfuzunun saxlancıdır. "Ana haqqı tanrı haqqıdır" məsəlini biz eləbelə deməmişik. Biz bununla ananı tanrılaşdırıb müqəddəsləşdirmişik. Bəs indi hanı bu müqəddəslik? Biz bu gün valideynlərimizi ailədən sıxışdırmaqla hara gedirik? Bu həqiqətdir ki, valideynin övlada dediyi söz, elədiyi tələb yalnız və yalnız övladın xeyrinədir. Axı, övlad yalnız bu günü düşünürsə, valideyn bu günlə bərabər sabahı da düşünür. Çünki valideynin bildiyini övlad bu yaşda bilə bilməz.

Yaxşı yadımdadır. Atam sözünü birbaşa deməz, mənə anam vasitəsilə çatdırardı. Etiraz edə bilməsəm də onun mühakimələrinə içimdə gülür və düşünürdüm: "Bu kişi adını da yaza bilmir. Mənimsə dünyaca savadım olmasına baxmayaraq bu, mənə yol göstərir...". Əlbəttə, bu düşüncə mənim nadanlığım idi. Çünki 5-10 kitab oxumaqla özümü ondan ağıllı bilirdim. Unudurdum ki, mən kitablardan oxuduğumu bilirəm, o isə həyatdan oxuduğunu bilir. Atamın o vaxt dediklərinin nə qədər doğru və mənə lazımlı olduğunu mən onun o zamankı yaşına çatandan sonra bildim.

Atam çox zabitəli adam idi. Mən orta məktəbi bitirənə qədər o, mənimlə bir dəfə də olsa, əməllibaşlı söhbət eləməmişdi. Daha doğrusu, o, belə bir açıqlığa yol verməzdi. O, mənə məktəb xərcliyini də özü verməzdi, anamdan alardım. Aramızda açılmayan bir sərhəd var idi. Mənimlə özü arasında o qədər böyük məsafə saxlamışdı ki, elə güman edirdim ki, o, mənimlə heç maraqlanmır, mənim işlərimdən

onun əsla xəbəri yoxdur və hətta o, mənim neçənci sinifdə oxuduğumu da bilmir.

Bir dəfə bərk xəstələnmişdim. Qızdırma içində yanır, sayıqlayırdım. Anamla atam mənim xəstəliyim barədə pıçıldaşırdılar.

Qızdırma içində yansam da atamın mənim xəstəliyimlə maraq lanmasına təəccüb etdim. Bir də baxdım ki, atam qızdırmamın dərəcəsini bilmək üçün əlini başıma qoyub. Yalnız onda bildim ki, atam da məni istəyirmiş. Atamın bu istəyindən vəcdə gəlib üzümü anama tutdum:

- Atam heç bilmir ki, mən neçənci sinifdə oxuyuram...

Bir də baxdım ki, atamın gözləri yaşla dolub. Mən onun ağladığını görməyim deyə, üzünü yana tutub dilləndi:

- Niyə bilmirəm, qırışmal, doqquzuncu sinifdə oxuyursan. Kişinin cavabından təəccübləndim. O, mənim neçənci sinif də oxuduğumu bilirmiş... Elə bu, mənə bəs idi. Xəstəliyimi də unutdum.

Müasir pedaqoqlar qoy məni bağışlasın. Sonralar özüm də ata olanda atamın tərbiyə metodunun doğru olduğuna inandım.

Qayıdıram fikrimin əvvəlinə: Azərbaycan ailələrində ata və analarla övladlar arasında sədd qorunmalı, ağsaqqal nüfuzu saxlanılmalıdır. Çünki, bu bizim milli psixologiyamızın əsas cəhət lərindəndir.

Kənd küçələrində cavan adamlar at belində yol getməzlər. Çünki o, atın üstündə olduğu zaman qarşısına piyada qocalar çıxa bilər. Gənc adamın at belində qocaya salam verməsi ədəbsizlik sayılır. O, yalnız kənddən çıxandan sonra ata minə bilər. Mən bu adətin qarşısında baş əyir və belə adətlərin davam etdirilməsini arzulayıram.

Bəzən televizora baxanda əsəbiləşirəm. Bir də baxırsan ki, 20-25 yaşlı gənc, qıçını qıçının üstünə aşırıb bir əlini o biri kürsünün söykənəcəyinə uzadıb arsızarsız irişir. Televiziya ilə çıxış edən hər kəs bilməlidir ki, ona milyonlar baxır. O, danışdığı anda minmin evlərin qonağıdır. Bu minlərin və milyonların içində özü yaşda gənclər də var, babası yaşda qocalar da. Əgər belədirsə, o gəncdən soruşmaq lazımdır: "Evdə, babanın və atanın yanında qıçını qıçı-

nın üstünə aşırırsanmı? Əgər evdə belə etmirsənsə, bəs xalqın qarşısında niyə bu hərəkətə yol verirsən? Yox, əgər evində ata və babanın hörmətini saxlamayıb qıçını qıçının üstünə aşırırsansa, sən çox ədəbsiz adamsan".

Elə ailələr görmüşəm ki, "papa" sevimli "sınok"unun papirosunu yandırır, çox qəribədir, bu ədəbsizliyi müasirlik hesab edirlər. Əgər müasirlik budursa, mən belə müasir olmaq istəmirəm. Əgər mənim övladlarım mənim yanımda artıqəskik danışmırsa, mən gələndə ayağa qalxırsa, mənim yanımda papiros çəkmirsə və bunu müşahidə edən müasir adam məni köhnəlikdə günahlandırırsa, qoy günahlandırsın. Mən onun istədiyi kimi müasir olmaqdansa, belə köhnə olmaq istəyirəm.

***

Bu vaxta qədər yazdığım tərcümeyi-halların heç birində göstərmədiyim bir mühüm məsələni indi yazıram. Bütün rəsmi sənədlərdə atamın adını Mahmud, anamın adını isə Gülzar yazmışam. Əslində, Mahmud ağa mənim atabir, anaayrı qardaşım, Gülzar isə qardaşımın arvadıdır.

Bəs, bu niyə belə olmuş, mən niyə bu yanlışlığa yol vermişəm?

Əslində, mənim atamın adı Zəkəriyyə, anamın adı isə Xanımdır. Mahmud ağa Zəkəriyyənin oğlu, Xanım isə Mahmud ağanın ögey anasıdır. 1921-ci ildə Mahmud ağa Gülzarla evlənmiş, illər keçmiş, övladları olmamışdır. Mən 1925-ci ildə doğularkən, ögey qardaşım məni öz atasından oğulluğa götürmüşdür. Mən bunu bilməmişəm, gözümü açarkən Mahmud ağanı ata, Gülzarı isə ana kimi tanımışam. Yalnız 1946-cı ildə, 21 yaşında baba kimi tanıdığım Zəkəriyyə ölərkən, onun yasında doğmaca nənəm, yəni Xanımın anası mənə həqiqəti demiş, lakin mən buna inana bilməmişəm. Daha doğrusu, inanmaq istəməmişəm.

İndi bu cümlələri yazarkən, o ağrılı yas gecəsində nənəmin

dediklərini xatırlayanda məni dəhşət bürüyür. O zaman keçirdiyim həyəcanları sözlə izah etmək çətindir. 21 il "ata", "ana" kimi tanıdıqlarım, əslində, mənim atam və anam deyilmiş. Baba və nənə dediklərim isə atam və anam imiş.

1946-cı ildə biz artıq Bakıda yaşayırdıq. Aldığımız teleqrama görə Şəkiyə yasa gəlmişdik. Doğma anam Xanımın oğlu İsfəndiyar müharibədən qayıtmamış, indi əri ölmüş, ikinci oğlu, yəni mən isə başqasına töhfə verilmişdim. Xanımın bundan sonrakı güzəranı anasını, yəni nənəmi narahat etmiş, ona görə də bu vaxta qədər gizli qalan sirri mənə açmışdı. Onu da deyim ki, qoca nənəm bu sirri mənə Xanım anadan gizli demişdi. Xanım ana sirrin açıldığını biləndə anasına bərk təpindi. Amma deyilən deyilmiş, həqiqət öz işini görmüşdü.

Mən o gecə yata bilmədim. Qoca nənəmin yerli-yataqlı dediklərinə inanırdım. Ən mühümü də o idi ki, qəlbimin dərinliyində Xanım nənəyə həmişə gizli bir məhəbbət yaşayırdı. Bu məhəbbətin, bu yaxınlığın nə olduğunu dərk edə bilməsəm də, Xanım ananın mənə ögey nənə olduğuna heç cür inana bilmirdim. İkinci mühüm cəhət bu idi ki, mən 9 yaşımda doğma ata və anamdan ayrılıb, Mahmud ağa və Gülzarla Bakıda yaşasamda həmişə Şəki, oradakı doğma ocağımız gizli bir hiss ilə məni özünə çəkirdi. Bakıda əmioğlu kimi tanıdığım, əslində isə, qardaşım oğlu olan Hikmət yay tətillərində Şəkinin adını belə tutmazdı. Mən isə il boyu yay tətilini gözləyir, may ayı gələn kimi Şəkiyə qanadlanırdım. Bunu hiss edən analığım Gülzar həmişə məni Şəkiyə qısqanar, yay aylarında Bakı bağlarına köçmək istər di. Mahmud ağa ürəklərdə gedən bu hiss döyüşünü başa düşər, həmişə mənə tərəf olardı.

Şəkiyə gələndə mənim sevincimin həddihüdudu olmazdı. Biz anamla o zaman Şəkinin aşağı hissəsinə köçmüş Şirəli əmimgilə (əslində, ögey qardaşım) düşərdik. Elə həmin gün mən baba ocağına getməyə, babam və nənəmlə görüşməyə can atardım. Gülzar ana mənim bu həyəcanıma qısqansa da etiraz etməz, mənə "Yuxarı başa"

babamgilə getməyə izn verər, özü isə getməzdi.

Nənə və baba kimi tanıdığım ana və atamla hər görüşüm həm mənim üçün, həm də onlar üçün bayram olardı. Hər dəfə nənəm (əslində, anam) məni bağrına basıb, hönkürhönkür ağlardı. Böyük qardaşım İsfəndiyar orduya gedəndən sonra qocalar o zaman hələ evdə olan Firuzə bacımla başlarını aldadar, arxasız qaldıqlarını unutmağa çalışardılar. 1940-cı ilin yanvarında İsfəndiyar orduya getdi. 1941-ci ildə müharibə başlandı. Yeganə ümidləri cəbhədən qayıtmadı. Bu zaman qocalar mənə ümid gözü ilə baxmağa başladılar. Deyəsən, ürəklərinin dərinliyin də təbii bir təəssüf və peşimançılıq baş qaldırmışdı.

Xanım ana Gülzarı gəlinlərinin hamısından çox istəyirmiş, ona görə ki, Gülzar qərib idi. Onun yer üzündə nə ataanası var idi, nə də qohumqardaşı. Qəlbi sınıq idi. 1918ci ildə itkin düşmüş bacı-qardaşlarını axtararmış. Digər tərəfdən, birinci ərindən də Gülzarın övladı olmamışdı. Bizim ocağa düşəndən sonra nə qədər həkimə göstərmiş, davadərman eləmişdilərsə də faydası olmamışdı. Həkimlər sonsuz qalacağını üzünə deyiblərmiş. Buna görə də Gülzar ana teztez tənhalığa çəkilər, xısınxısın öz dərdinə ağlarmış. Mən boynuna düşəndə Xanım ana özü ilə demək olar ki, həmyaş olan 4 oğuldan utanırmış, çox vaxt xəcalətdən boyu bərabəri oğullarının üzünə çıxa bilmirmiş. Hətta ara mamaçası ilə görüşmüş, uşağı tələf etmək istəmiş, bundan duyuq düşən Gülzar Xanım ananın ayaqlarına döşənmiş, uşağı saxlamağı və ona bağışlamağı xahiş edibmiş. Xanım ana Gülzarın istəyini ərinə bildirmiş və razılaşmışlar. Mən dünyaya gələn kimi Gülzar ana məni bağrına basmış, "bu mənimdir" demişdir. Bütün ailə Gülzarın istəyini qəbul etmiş və qeydiyyatda atam Mahmud ağa, anam isə Gülzar yazılmışdır.

Gülzar, erməni-azərbaycanlı münaqişəsində itkin düşənlərdən idi. Kəndlərindən baş götürüb qaçmış, ərini və ailəsini itirmiş, Şəkinin çox nüfuzlu ailələrindən biri onu övladlığa götürmüş və sonralar atama ərə veriblərmiş. Atasızanasız, qohumsuz-qardaşsız

olduğundan bizim ailədə heç kəs onun xatirinə dəyməzmiş. O biri gəlinlər əziz günlərdə, yaxud bayramlarda ata evinə qonaq gedəndə mütləq onu da özləri ilə aparar, əzizləyərdilər.

Gülzar ana mənim tərbiyəmə və təhsilimə çox diqqət yetirmiş, ali təhsil almağım, həyatda uğur qazanmağım üçün özünü çıraq kimi yandırmışdır. Balasını sevməyən, onun yolunda hər cür əzaba qatlaşmayan ana tapmaq çətindir. Bizdə bütün analar balalarının başına dolanan pərvanə misallıdır. Lakin Gülzar ananın mənə bəslədiyi sevgi, göstərdiyi qayğı heç bir ölçüyə sığmazdı. Yalnız onu deyim ki, məktəbdə oxuduğum zaman böyük tənəffüs vaxtı o, mütləq özünü yetirər, məni yedirib sonra gedərdi. Bizi tanıyan bütün ailələr Gülzarın analığına, mənə bəslədiyi hədsiz məhəbbətə təəccüb edər, həmyaşlarım mənə həsəd aparardı. Müharibə illərində o, öz çörək payını yeməz, məni yeməyə məcbur edərdi. Bu gün həyatda qazandığım nə varsa, hamısına görə Gülzar anaya borcluyam.

Əslən meşəçi, dağçı olan atam və qardaşlarım yeni iqtisadi siyasət dövründə baqqal və əllaf dükanları açmışdılar. Atalarının rəhbərliyi ilə Ələşrəflə Cahangirin baqqal dükanı, Mahmud ağa ilə Şirəlinin həllaf (un, buğda) dükanı varmış. Yeni iqtisadi siyasət dövrü qurtaran kimi atamı və qardaşlarımı səsvermə hüququndan məhrum edirlər. Şəkidə dolanmağın çətin olacağını başa düşən qardaşlarım Ələşrəflə Cahangir 1930cu ildə Bakıya köçməli olmuşlar. Qardaşlar Bakıda bir müddət iş tapa bilmir, nəhayət, ipək fabrikində işə düzəlirlər. Dükanını bağlamağa məcbur olan Mahmud ağa da uzun müddət Şəkidə iş tapa bilməmiş, ağır günlər keçirmişdir. Qardaşlar atamı da Bakıya dəvət etmişlər. O biri tərəfdən mənə görə Gülzar ana da Bakıya köçməyə can atmış, qorxurmuş ki, mən böyüdükcə doğma ata-ana mı tanıya bilərəm.

Nəhayət, 1934cü ildə biz də Bakıya köçdük. Bu köç indiki kimi yadımdadır. Yevlağa qədərki 80 kilometr yolu araba ilə iki günə gəldik. Şəkinin 35 kilometrliyindəki Suçma (Suçivini) kəndində axşamüstü bizi yağış tutdu. Gecəni kənddəki karvansarada qaldıq.

Ertəsi gün səhər tezdən yola düzəlib axşamüstü Yevlağa çatdıq.

Biz Bakıya köçəndən sonra Şirəli əmim də Şəkinin aşağı məhəlləsində ev alır və beləliklə, babam (atam) sonbeşik qızı Firuzə və Xanım ana ilə orada qalır.

***

"Topaldı qaç", "Çərpənək", "Gizlənpaç", "Qoduqodu", "Bir quşum var", "Ənzəli", "Dirədöymə", "Yalağa salma" və s... kimi uşaq oyunları həm fiziki, həm də mənəvi inkişafa kömək edirdi. Bu oyunların bir qismi şeirlə müşaiyət olunurdu:

Bir quşum var bu boydana,
Pipiyi da şanaşana...

O biri uşaq əlamətinə görə quşun adını tapmalı idi. Yaxud bir neçə gün yağış kəsməyəndə "qoduqodu" gəzib evlərdən pay istəyərdik. Qədim inama görə yeddi qapıdan pay yığılandan sonar yağış mütləq kəsməli idi. Qoduqolçaq, indiki anlayışa görə kukla deməkdir. Uzun bir ağaca şaquli vəziyyətdə iki qola bənzər taxta vurulur, həmin taxtaya pencək, yaxud arxalıq geyindirilir, ağacın başına papaq qoyulur, olur qolçaq... Adama bənzədilən həmin qolçağı ələm kimi başımın üstünə qaldırıb "Qoduqodu" mahnısını oxuyaoxuya məhlələri gəzirdik:

Qoduqodu dursana,
Çömçəni doldursana,
Qodunu yola salsana.
Verənin oğlu olsun,
Verməyənin qızı olsun,
Adı da Fatma olsun,
Qaşları çatma olsun,

O da çatlasın, ölsün!

Yaxud:

Əkilbəkil quş idi,
Divara qonmuş idi.
Getdim onu tutmağa,
O, məni tutmuş idi,
Meydana salmış idi.
Meydanın ağacları,
Dən gətirib ucları.
Çəpər çəkdim, yol açdım,
Qızıl gülə dolaşdım.
Bir dəstə gül dərməmiş
Nənəsi gəldi, mən qaçdım.

və s.

O zaman hamının əzbər bildiyi bu kimi məlum və məşhur uşaq şeirlərini deməkdən yorulmazdıq. Ümumiyyətlə, uşaqlıqda vəznli, qafiyəli söz deməyə hamının həvəsi olur. Çünki uşaq təbiəti ahəngə, harmoniyaya və ritmə meyllidir. Xüsusilə, oynaq yeddilik şeir ölçüsü uşağın oynaq təbiəti ilə həmahəngdir. Mən çox diqqət yetirmişəm. "Şəngülüm, Şüngülüm" uşaq nağılında yaddaşa həkk olunmasına yardım edən aparıcı qüvvə əvvəl keçinin, sonra da qurdun dediyi şeirdir:

Şəngülüm, Şüngülüm, Məngülüm,
Aç qapını mən gəlim.

Cəmi yeddi sözdən ibarət bu beytdə beş söz həmqafiyədir. Bu qafiyələrdən doğan ahəng və musiqi uşaq təbiətində unison yaradır, onu dilləndirir. Bu şeiri bir neçə dəfə dinləyən uşaq "Şəngülüm,

Şüngülüm, Məngülüm" misrasını eşidən kimi Şəngülümə qafiyə olan "mən gəlim" onun hafizəsində dilə gəlir, dərhal "Aç qapını mən gəlim" deyə şeirin ardını özü deyir.

Əksər uşaqlar kimi mən də sözü qafiyə ilə deməyi xoşlardım. İlk şeirimi isə dördüncü sinifdə oxuduğum zaman yazmışdım. Əlbəttə, ona şeir demək olmazdı. Bu, uşaq təbiətindəki ahəngə uymaq, qafiyəli söz demək arzusundan başqa bir şey deyildi. Mən uşaqlıqda şeirdən çox nəsr kitabları oxuyardım. İndi də belədir. Maraqlı burasıdır ki, "Aşıq Qərib", "Tahir və Zöhrə", "Abbas və Gülgəz" kimi dastanları mütaliə edərkən əksər hallarda "Aldı görək nə dedi" sözündən sonrakı şeir hissəsini ötürər, yalnız nəsr hissəsini oxuyardım. Şeir mətləbi uzatdığına görə hadisənin məbədini bilməyə tələsərdim. Mənim şair kimi yetişməmdə şeirdən çox nəsrin rolu və təsiri olduğunu desəm inanın!

***

Xanım bizim ocağa gələndə özüylə birinci ərindən olan Firəngiz adlı qızını da gətirmişdi. Firəngiz bizim evdə böyümüş, orta təhsil almış, ərgənlik yaşına çatmışdı. Gözəgəlimli qız olan Firəngizə qohumqonşudan elçi düşənlər çox idi. Amma qız heç birini bəyənmirdi. Çünki, əsasən, odunçuluq və kömürçülük lə məşğul olan "Yuxarı baş" məhəlləsində savadlı gənc yox idi. Firəngiz isə o zaman hələ nadir olan təhsilli, romantik təbiət li, əlindən kitab düşməyən, məktəb müsamirələrində mahnı oxuyan, əzbər şeir deyən qızlardan idi. Əlbəttə, belə bir qız ərə getmək üçün savadlı, mütaliəli gənci özünə münasib bilərdi.

Bizim evlə üzbəüz binada "qaradovoy Əhməd" adlı imkanlı bir kişi yaşayırdı. Onun dörd övladı vardı. Odunçuluqla güzəran keçirən bu ailədə bir nəfər də savadlı adam yox idi. Pəhləvan cüssəli oğlanlar ataları kimi yalnız fiziki gücünə güvənir, məhəl ləyə meydan oxuyurdular. Əhməd kişinin ikinci oğlu Nurəddin o birilərindən

daha amansız idi. Özünü məhəllənin atamanı hesab edən bu ötkəm gənc Firəngizi sevir, onu qarabaqara izləyirdi. Bunu bütün məhəllə əhli, o cümlədən ataanası da bilir, onu bu sevdadan daşındırmağa çalışırdılarsa da, Nurəddin fikrindən dönmür, qızı ölümlə hədələyirdi... Sevdiyi qızı ölümlə qorxudan bu nadanın sevgisinə necə inanasan? Bu, sevgi idimi? Xeyr! Bu, öz mənliyini, öz qüdrətini təsdiq etmək arzusundan başqa bir şey deyildi...

Bu, elə dövr idi ki, məsələni gənclərdən çox, hər iki gəncin ağsaqqalı həll etməli idi. Hadisələrin gedişindən məlum olurdu ki, hər iki ata bu izdivaca razı deyil. Babam inqilabdan əvvəl qorodovoy luqla məhəlləyə meydan oxuyan Əhməd kişiyə yalnız qonşuluq xatirinə salam verərdi. Əhməd kişi də öz növbəsində babamı dodaqucu dindirərmiş. Ən mühümü də o idi ki, Firəngizin o dövr üçün qəbahət sayılan təhsili və bir qədər də açıqsaçıqlığı Əhməd kişinin ürəyincə deyildi. Buna görə də ailələr susur, məhəllədə gedən sözsöhbəti qulaqardına vururdular.

Firəngiz isə Lütfəli adlı bir kənd müəllimini sevirmiş... Bizimkilər bu əhvalatı biləndə Nurəddinin şərindən qurtaracaqlarını zənn edib Lütfəlinin elçilərinə dərhal razılıq verdilər. Lakin onlar bilmədilər ki, əsl şər bundan sonra başlanır. Qızın başqa birisinə nişanlandığını bilən Nurəddin onu qaçırmaq qərarına gəlir. Lakin bacarmır. Çünki qız, qardaşlarının daimi nəzarəti ilə əhatə olunmuşdu. Hər gün onu dərsə bir qardaşı aparıb gətirirdi.

Toydan bir neçə gün əvvəl Firəngizi qardaşı arvadları ZAQS-a aparır. Mən də anamın yanında idim. ZAQS-dan çıxıb evə gəlirdik. Evə çathaçatda Nurəddinin bizə tərəf gəldiyini gördük. Arvadlar özlərini itirdilər. Nurəddin yanımızdan ötüb birdən bizim dəstəyə tərəf döndü. Mən düz Firəngizin arxasında idim. Öz aləmimdə onu qoruyurdum. Birdən Nurəddin məni kənara itələyib Firəngizin arxasına keçdi və əlindəki bıçağı düz onun kürəyinə sancdı. Qız qışqırdı. Arvadlar onun üstünə cumanda o, bıçağı qızın kürəyindən çıxarıb dərə aşağı qaçmağa başladı. Mən qızın kürəyindən sıçrayan qanı

görüncə özümdən gedib yıxıldım. Bir də ayıldım ki, evdəyəm...

Firəngizi xəstəxanaya aparırlar. Xoşbəxtlikdən yara dərin deyilmiş. Milis gəlir, akt bağlanır. Nurəddini tuturlar. Amma bir həftə keçməmiş buraxırlar... Mən o zaman - hələ 8-9 yaşlı uşaq ikən rüşvətin necə böyük qüvvəyə malik olduğunu başa düşdüm. Heç demə, pul qanın da üstünü örtə bilirmiş. Bu, haqsızlığın bir tərəfi. İkinci tərəfi isə Nurəddinin vəhşiliyi, özbaşınalığı və uzun əsrlərdən bəri xalqın qeydsiz-şərtsiz qəbul etdiyi əxlaq normalarını pozması idi. Adətə görə, kişi qadın yanında kişiyə əl qaldırmaz, o ki qala, qıza, qadına əl qaldırmaq! Bunu, xalq heç kəsə bağışlamaz. Amma yeni cəmiyyətdə rüşvət, bu müqəddəs adəti tapdayan nadana da haqq qazandırdı. Mən bu nadürüstlüyə dözə bilmirdim. O qanlı hadisədən sona Nurəddin hər gün qapımızın ağzından şəstlə keçir, bizə acıq verirdi.

Bir həftədən sonra Firəngiz xəstəxanadan çıxdı. Mən isə bir ay yatdım. Qatilin əlində gördüyüm qanlı bıçaq gözlərim önündən çəkilmirdi. Həmin bıçaq yuxuma da girir, üstümə gəlir, məni qorxudurdu. Gecələr sayıqlayırdım. O gündən əsəb xəstəliyinə tutuldum. Məni sarsıdan Nurəddinin özbaşınalığı, həyasızlığı və onun cəzasız qalması idi. Öz-özümə düşünür və bunu qeyrətimə sığışdıra bilmirdim ki, niyə hökumət onun cəzasını verməsin? Bu heç, bəs qardaşlar niyə susur, onun qudurğanlığının cavabını vermirdilər? Mən bu laqeydliyi atama və əmilərimə bağışlaya bilmirdim. Az ömrümdə şahidi olduğum bu ilk haqsızlıq məni yandırıb yaxırdı. Mən o zaman hardan biləydim ki, həyat başdan-başa haqsızlıqlardan ibarətdir?! Hardan biləydim ki, mənim zəmanəmdə ən böyük haqq gücdür. Lakin bir qədərdən sonra bu həqiqəti də başa düşdüm.

**Bir haşiyə**

Bəy nəslindən olan Əli adlı çox təmiz, namuslu bir qohumumuz vardı. O, direktor işlədiyi sovxozda hər qəpiyin üstündə əsər,

heç kəsi xəyanət etməyə qoymazdı. Onun büllur təmizliyinə hamı təəccüb edərdi. İşə baxın, təmizlik adamlarda təəccüb doğurarmış. Evi bir həsir, bir Məmmədnəsir idi. Gözü tox, nəfsi özündə idi, hamı onu "maymaq" hesab edər, ələlxüsus işçilərinin ondan zəhləsi gedərdi. Onun haqqında deyərdilər ki, nə özü yeyir, nə bizi qoyur. Sovxozun bütün işçiləri Əli kişinin əleyhinə idilər. Bu işçilər sözü bir yerə qoyub onu işdən qovdular. Rayonun katibi də bu məsələyə gözünü yumdu. Heç demə, onun qovulmasın da katibin də əli varmış. Əli kişi katibin haqqını vermir, bu da hərifi əsəbiləşdirirmiş.

Əli kişinin döyмədiyi qapı, yazmadığı yer qalmadı. Amma nə fayda?! Kim idi dərdlinin dərdinə baxan?! Atasından qalan qızıl saatını satıb Moskvaya getdi. 2 ay qapılar döydü, dinləyən olmadı.

Korpeşiman geri döndü. Atam danışırdı ki, günü bir manata yataqxanada qalır, olanqalan pulunu da günü bir manata bölüb xərcləyirmiş.

O zaman mən Əli kişinin başına gələn əhvalatdan təsirlənib bir şeir də yazmışdım. Həmin şeir "Ən böyük haqsızdır haqqı axtaran" misrası ilə bitirdi. Bu, o zaman idi ki, mən artıq bizim cəmiyyətdə haqqın, həqiqətin olmamasını anlamış və onu axtaranları ağıldan seyrək hesab etməyə başlamışdım. Amma 89 yaşında mən hələ duza gedir, Əli kişi kimi haqqın varlığına inanırdım.

Qəribə burasıdır ki, sonralar da haqqın tapdandığı yerdə susa bilmir, haqsızın cəzalanmasına çalışırdım. Haqq axtarmağın mənasız olduğunu biləbilə haqsızlıq ömrüm boyu məni narahat etmiş, əsəblərimi tarıma çəkmiş, məni dəlilik dərəcəsinə çatdırardı. Belə məqamlarda Xudu həmişə gülərdi. Mən daha da əsəbiləşər, deyərdim:

- Niyə gülürsən?

Xudu özünəməxsus təmkinlə:

- Sənin bu cəmiyyətdə haqqa inanmağın və onu qorumağa çalış mağın gülməli deyil?

Deyərdim:

- Bəs neyləyim, axı, dözmürəm.

Onda Xudu deyərdi ki, sən bu hadisələrin fövqünə qalx, ona yuxarıdan bax və Mirzə Cəlil kimi gül, yalnız gül!

Mən gülə bilmir, haqqı qoruya bilmədiyimə görə içiniçin ağlardım. Çünki, mən heç kəsə haqsızlığı bağışlaya bilmirdim. Ömrüm boyu ədalət hissini insanın ən ali hissi saymışam. İnsanlıq üçün ədalət hissini itirməkdən böyük qəbahət yoxdur, demişəm. İçində ədalət mizantərəzisi olmayan, haqqı nahaqqa qurban verən adamdan alçağını tanımamışam. Ömrüm boyu bu fakir də olmuşam ki, ədalət hissi olmayan adamdan insanlıq gözləmək qəbahətdir.

***

Nəsillikcə muzdur olan birisi inqilabdan sonra casusluğu özünə peşə seçmiş, adamları satasata milisdə hörmət qazanmış, Muzduroğlu dönüb yoldaş İsmayılov olmuşdu. 1930-cu ildə Şəki üsyanı yatırılandan sonra tuthatut başlandı, minlərlə adam həbs edildi, bir çoxu elə Şəkidəcə məhkəməsizfilansız güllələndi. Bu işdə Muzduroğlunun çox böyük "xidməti" vardı. O zaman atam da bu hərifin donosu əsasında həbs edilmişdi. Atam qaçaqlara yardım etməkdə günahlandırılırdı. Bu gün mən bu ittihamın nə dərəcədə həqiqət olduğunu deyə bilmərəm. Amma bir həqiqəti bilirdim ki, ailəmizdə mövcud vəziyyətə qarşı gizli bir üsyan vardı. Bunu bilən Muzduroğlu bizim ailəni izləyir və topladığı məlumatı dərhal lazımi yerinə çatdırırdı. "Yuxarılara" qulluq göstərmək və bu yolla özünə mövqe qazanmaq üçün təkcə bizim ailənin deyil, işıq gələn çox ailələrin ocağını söndürmək onun yaşamaq qayəsi idi.

O zaman Şəkidə milis rəisinin müavini işləyən Yaqub çavuş atamla bacanaq hesab olunurdu. Belə ki, anam Gülzarla Yaqub çavuşun arvadı əmiqızı idi. Ərinin həbs olunduğunu eşidən kimi, anam məni də götürüb Yaqub çavuşun yanına gəldi. Yaxşı yadım dadır, bizi gözləmə otağında görən Yaqub çavuş özündən çıxdı:

- Mən işdən xəbərdaram,  dedi.  Arvadsan, arvad işini gör, bu saat burdan elə gedərsən ki, izintozun da qalmasın.

Biz kor-peşiman evə qayıtdıq. Üç gündən sonra atamı buraxdılar. Əlbəttə, bu, Yaqub çavuşun işi idi. Nəhəng cüssəli, enlikürəkli, şeşə bığlı Yaqub çavuş çox zabitəli və nüfuzlu adamdı. Onun həm camaat yanında, həm də rəsmi dairələrdə bir sözü iki olmazdı. Bununla belə Muzduroğlu İsmayılov bizdən əl çəkmir, əlindən gələn pisliyi eləməkdən çəkinmirdi. Beləliklə də o, əmilərimin səsvermə hüququnu almağa müvəffəq oldu. Səsvermə hüququnun alınması vətəndaşlıq hüququndan məhrum olunmaq idi. Bu vəziyyətdə Şəkidə yaşamaq mümkün deyildi. Buna görə də yenə Yaqub çavuşun köməkliyi ilə qardaşların üçü birbirinin ardınca Bakıya köçməli oldu. Təkcə bir qardaş, yəni Şirəli Şəkidə qaldı.

1941-ci il! Müharibə yenicə başlanmışdı. Şəkidən teleqram aldıq ki, Şirəlini tutublar. Atamla Şəkiyə gəldik. O zaman həmin Muzduroğlu İsmayılov Şəkidə milis rəisi işləyirdi. Atam əlacsız qalıb onun qəbuluna getdi. İçəri keçdi. Mən gözləmə otağında qaldım. Heç beş dəqiqə keçməmiş atam pörtmüş halda cabinet dən çıxdı. Onun arxasınca bayıra atılan İsmayılov atamı nalayiq sözlərlə təhqir edib sinəsindən elə itələdi ki, kişi arxası üstə yerə dəydi. İsmayılov bağırırdı:

- Bakıya qaçmaqla elə bildiniz, əlimdən qurtaracaqsınız? Hələ utanmayıb minnətə də gəlmisən? Sizin burnunuzu ovmaq

mənə borc olsun!

Atam bir söz demədi, qalxıb otaqdan çıxdı. Mən o zaman atamı dünyanın ən güclü, ən fərasətli, ən qüdrətli adamı bilirdim. O alçaq, gözlərim qarşısında atamı alçaltmaqla mənim atam haqqındakı təsəvvürümü vurub dağıtdı və bununla da ürəyimə dağ çəkdi. Uzun müddət atamın üzünə baxa bilmədim. O da çox zaman gözlərini məndən yayındırır, qarşımda alçaldığından xəcalət çəkirdi.

Nəticəsi nə oldu? Şirəli əmimə yeddi il iş kəsdilər. Karaqandaya sürgün elədilər. Getdi və qayıtmadı. Allah bilir, harda məhv oldu.

Yeddi balası yetim qaldı. Müharibənin ağır illərində böyük bir külfət savadsız arvadının boynuna düşdü.

Mən atamın gözlərim önündə təhqir olunduğu o dəhşətli gündə ürəyimdə and içmişdim, böyüyüb vəzifəli bir adam olacaq və o muzdur İsmayılovdan intiqam alacağam... Dövran dolandı.

Yaddaşım məni aldatmırsa, 1970, yaxud 1971-ci il idi. Şəkidə istirahətdə idim. Qohumlarımdan biri qoluma girib məni qəzet köşkünün yanına gətirdi. Köşkün yanındakı daşın üstündə oturan eynəkli, nimdaş geyimli bir kişini mənə göstərib soruşdu:

- Bunu tanıyırsanmı?

Diqqətlə baxdım, tanıya bilmədim.

Dedi:

- Bu, Şirəli əminin başına oyun açan həmin İsmayılovdur.

Yaxınlaşıb salam verdim.

Dedim:

- Məni tanıyırsanmı?

- Dedi:

- Gözüm yaxşı görmür. Kimsən?

Qohumum məni ona tanıdınca, rəngi ağappaq oldu, əlləri əsdi, qalxıb getmək istədi, saxlayıb dedim:

- Vaxtilə elədiyin əməllərindən heç utanırsanmı?

- Hər zamanın bir hökmü var. İndi dövran sizindir, - dedi.

Dedim:

- Səhv eləyirsən, yenə də dövran sənin kimilərin əlindədir. Sən qocalıb sıradan çıxmısan. Varislərin yenə sənin kimilərdir.

Zamanın zəlil edib bir küncə atdığı o nadana bundan artıq nə deyə bilərdim?!

***

Bakıya köçəndən sonra uzun müddət bu qəribə şəhərə isnişə bilmədik. Evlərin damı mənə qəribə gəlirdi. Kirəmitsiz evlərə bax-

dıqca mənə elə gəlirdi ki, onların üstü yandığından beləcə düzlənib. Axı, mən evlərin üstünü yastı görməmişdim...

Şəkidə üçüncü sinfi bitirmişdim. Bakıda dördüncü sinifdə təhsilə başladım. Lakin oxuya bilmirdim. Bunun bir neçə səbəbi vardı.

Birinci səbəb:

Bakı şəhərinə və mühitinə uyuşa bilmir və ən əsası, sinif yoldaşlarım ilə dil tapmaqda çətinlik çəkirdim. Mən Şəki ləhcəsində danışırdım. Uşaqlar bu ləhcəyə gülür, məni ələ salırdılar. Onların da dili mənə qəribə gəlirdi. Uşaqlar məni özlərinə yad bilir, mənimlə oynamaq istəmirdilər. Daha doğrusu, mənə yuxarıdan aşağı baxırdılar. Teztez mənə öcəşir, vurur və incidirdilər. Mən sinfə girən kimi "Hacıdayı gəldi" deyə qışqırar, çantamı əlimdən alıb birbirinə atar, dəftərkitabımı yerə tökər, gətirdiyim çörəyi və meyvəni qapışdırıb yeyərdilər. Mən ac qalardım. Məktəbdə başıma gələn əhvalatları qorxudan evdə deyə bilməzdim. Sonralar anam hər şeyi başa düşmüşdü. O, hər gün böyük tənəffüsdə məktəbə gələr, məni yedirib gedərdi. Mən bir il məktəbdə olmazın dərəcədə əziyyət çəkdim, təhqir olundum.

İki misal çəkmək istəyirəm.

Birinci misal:

Bir gün tənəffüsdə gördüm ki, məndən yaşca böyük olan İdris adlı sinif yoldaşımı yerə yıxıb döyürlər. Ürəyim ağrıdı. İstədim ona kömək edəm. Amma cəsarətim çatmadı. İdrisi döyən lərdən biri mənim ona kömək etmək istədiyimi başa düşüb dedi:

- Hə, nə baxırsan, kişisən yaxın gəl, səni də salım onun gününə. Mən bir söz deməyib kənara çəkildim. Ertəsi məni direktorun yanına çağırdılar. Direktorun kabinetində çarşablı bir arvad da var idi. Arvad məni görən kimi "budur?" deyə üstümə atıldı. Mən heç nə başa düşməyib dala çəkildim.

Arvad:

- Mənim oğlumu döyənə bax. Bu ki cücədir. Haram olsun sənə yediyin çörək, İdris.

Mən yenə də heç nə başa düşmürdüm. Nəhayət, məlum oldu ki, İdris evdə valideynlərinə onu döyənlərin adını deməkdən qorxub, mənim adımı veribmiş. Mən bu boyda haqsızlığa inana bilmirdim.

Dedim:

- İdrisi çağırın, qoyun özü desin. Axı, mənim ona gücüm çatmaz.

Həqiqətən də İdris həm yaşca məndən böyük idi, həm də çox cüssəli idi. Mənim sözüm deyəsən direktorun beyninə batdı. İdrisi çağırdılar. Qəribədir ki, o, anasının dediyini təsdiq elədi. Təəccübdən donub qaldım. Bir söz deyə bilmədim. Anası düşdü oğlunun üstünə:

- Sən yəni bu qədər acizsən ki, bu cücə səni döyür? Bunun gücü sənə nə cür çatdı?

Arvadın bu məntiqindən yapışdım:

- Xala, vallah, onu başqaları idi döyən.

- Kim idi?

Susdum.

- Hə, de görüm kim idi?

Qorxudan boğazım qurudu. Qadının təkidlə verdiyi bu suala mən də cavab verə bilməyəndə İdrisi başa düşdüm. O da mənim kimi onu döyənlərdən qorxmuşdu, onların adını çəkməmiş, məni güdaza vermişdi. Bununla belə bütün ömrüm boyu bu haqsızlıq məni yandırıb yaxdı. Bu da mənim öz çiyinlərimdə hiss etdiyim ikinci haqsızlıq idi.

İkinci misal:

Ədəbiyyat müəllimimiz Tağı Şahbazi Simurğun “Xanın qəzəbi” hekayəsini keçirdi. Hekayədə belə bir əhvalat var idi: Xanın evinin yanından keçən bir kəndli uca səslə bayatı çağırır. Bu səsə yuxudan oyanan xan qəzəblənir. Kəndlini yanına çağırtdırır və nökərlərə əmr edir ki, kəndliyə 100 qamçı vursunlar. Nökərlər elə də edir, kəndli 21ci qamçıda ölür.

Bu əhvalatı danışan müəllim, üzünü şagirdlərə tutub dedi:

- Bu hekayənin adını yazıçı “Xanın qəzəbi” qoyub. İndi deyin görək, bu hekayəyə daha nə ad vermək olardı?

Uşaqlardan səs çıxmadı.

Müəllim:

- Kim bu hekayənin məzmununa daha uyğun adını tapsa, ona “5” verəcəyəm.

Mən hekayənin əsl adını tapmışdım. Amma deməyə cəsarət etmirdim. Çünki həm müəllimlərdən və həm də şagirdlərdən çəkinirdim. Gözüm o qədər qorxmuşdu ki, özümə də inamımı itirmişdim. Qorxurdum ki, mənə gülərlər. Odur ki, astadan:

- 21-ci qamçı, - deyə pıçıldadım.

Mənimlə eyni partada əyləşən sinif yoldaşım əlaçı Süleyman dərhal qışqırdı:

- 21-ci qamçı!

Müəllim “afərin” deyə ona “5” yazdı. Mən ömrümdə “5” görməmişdim. Süleyman isə əlaçı idi. Onun bu beşə heç ehtiyacı da yox idi. Müəllim ona “afərin” deyəndə mən yerimdə qurcalanıb çəpəki Süleymana baxdım. Çünki mən gözləyirdim ki, o, haram beşə sahib olmağı vicdanına sığışdırmaz və həqiqəti müəllimə deyər. Lakin demədi. Sonralar həmin Süleyman böyük bir ticarət idarəsinin sədri oldu. Uşaq ikən təkcə mənim haqqımı yeyən Süleyman böyüyəndən sonra “uf” demədən böyük bir millətin haqqını yedi. Amma vicdanı heç ağrımadı da.

Bu da həyatımda daddığım üçüncü haqsızlıq idi. Yavaş-yavaş haqqımın yeyilməsinə öyrəşirdim. İndi artıq adətkərdəyəm. Axı, indi təktək adamların deyil, bütöv bir millətin haqqı yeyilir, amma susuruq. Çünki haqqın tapdanması adi bir qaydaya çevrilmişdir.

İkinci səbəb:

Əlbəttə, Şəki müəllimlərinin səviyyəsi ilə Bakı müəllimlərinin səviyyəsi eyni deyildi. Heç şübhəsiz, Bakıda tələb daha yüksək idi. Mən isə bu tələbə cavab verə bilmir, müəllimlərdən də

çəkinirdim. Tamamilə tək qalmışdım. Şəraitimi və vəziyyətimi başa düşüb mənə mehribanlıq göstərən müəllimim də yox idi.

Tənəffüslərdə bir kənara çəkilib xısınxısın ağlamaqdan başqa əlimdən bir şey gəlmirdi.

Üçüncü səbəb:

O zaman rayon məktəblərində rus dili dördüncü sinifdən, Bakı məktəblərində isə üçüncü sinifdən başlayırdı. Mən kiril əlifbasını qətiyyən bilmirdim (O zaman əlifbamız latın idi).

Bakıdakı sinif yoldaşlarım isə keçən ildən kiril əlifbasını öyrənmiş, rus dilini də azçox bilirdilər. Mən isə ömrümdə bir dənə də olsun rus sözü eşitməmişdim. Buna görə də rus dili müəllimim mənə teztez acıqlanır və narazılığını bildirirdi.

Bu üç səbəbə görə mən həmin il dördüncü sinifdə qaldım. Bu bir il müddətində məni oxuduğum məktəbdə aciz, zəif, qorxaq və ən ümdəsi pis oxuyan şagird kimi tanımışdılar. O zaman uşaq ağlımla başa düşürdüm ki, mən özümü məktəbdə hamıya çox pis tanıtdırmışam. Nə qədər ki, bu məktəbdəyəm, mənim işlərim köhnə qayda ilə gedəcəkdir. Bundan sonra nə qədər çalışsam da müəllimlərimə qabiliyyətimi göstərmək mənim üçün çətin olacaqdır. Buna görə də anama yalvardım ki, mənim məktəbimi dəyişsin.

O birisi il Bakıda yeni açılan və o zaman nümunəvi sayılan Oktyabr rayonundakı 21 nömrəli məktəbə dəyişildim. Eyni sinifdə təkrar oxumağım mənə xeyli kömək elədi. Bu məktəbdə həm yaxşı oxudum, həm də Bakı mühitinə və şəraitinə öyrəşdiyimdən uşaqlarla dil tapır, onlara qaynayıbqarışırdım. Yeni məktəbdə dəqiq elmlərdən "4", başqa fənlərdən "5" qiymətlər almağa başladım.

1942-ci ildə orta məktəbi bitirdim. Anam məni həkim görmək istəyirdi. Elə həmin il sənədlərimi Gülzar ananın təkidilə Tibb İnstitutunun müalicə fakültəsinə verdim. İki ay birtəhər oxudum. Ancaq sümüklərin adlarını əzbərləyə bilmirdim. Bu fəndən dərs

deyən Balakişiyev bir gün mənə dedi:

- Bala, səndən həkim çıxmaz. Vaxtında başının çarəsini qıl.

Müharibənin qızğın dövrü idi. Cavanlar cəbhədə olduğun dan institutlarda tələbə çatmırdı. Odur ki, valideynlərimdən xəbərsiz attestatımın surətini Universitetin filologiya fakültəsinə verdim. Səhər Tibb İnstitutuna, günorta isə Universitetə gedirdim. Bu hal yanvara qədər beləcə davam etdi. 43-cü ilin yanvarında əhvalatı evdə danışdım. Fakt qarşısında qalan anam daha mənə etiraz edə bilmədi. Bundan sonra Tibb İnstitutunun daşını atdım. Universitetdə təhsilimi davam etdirdim.

Mən uşaqlıqdan özümə kənardan baxmaq və hərəkətlərimə nəzarət hissilə böyümüşəm. Ən mühümü də dəqiqlik, verdiyim sözə əməl etmək adətimdir. Özüm beləyəm, başqalarından da bu dəqiqliyi tələb edəndə çox vaxt məndən inciyirlər. Çünki verdiyi sözə əməl etməyən, ümumiyyətlə, vaxta hörmətsizlik göstərən adamı kimliyindən asılı olmayaraq danlamaqdan çəkinmirəm. Onda da xiyar bitir əyri...

İçimdə həmişə döyüş gedir. Bir addım atmamışdan əvvəl xeyli tərəddüd edirəm. Çox zaman “eləyim, eləməyim” deyə yol ayrıcında qalıram. Fikrim həmişə haçalanır. Teztez səhv edir, səhvimi anlayır və etiraf etməkdən çəkinmirəm. Belə bir vəziyyət təsəvvür edin: Vaxtım var işləmək istəyirəm, amma heç həvəsim yoxdur... Özümü məcbur edirəm. Birdən işıq sönür. Sevinir, işləyə bilməməyimin səbəbini işığın sönməsində görürəm.

“Neyləyim, işıq sönməsəydi, işləyəcəkdim”... Elə bu zaman qulağımda ikinci səs cınlayır: “Lampa ki var, yandır, işlə!”. Başqa bir səs ona cavab verir: “Lampanı mən alsam, uşaqlar işıqsız qalmazmı?”. Başqa səs: “Lampamız deyəsən, ikidir, axı...”. İndi uşaqlardan “neçə lampamız var?” deyə soruşmaqdan çəkinirəm.

Çünki iki olsa, işləməyə məcbur olacağam... Beləliklə, ömrüm boyu içimdə döyüş getmiş, məsələni həmişə öz dincliyimin, rahatlığımın əksinə həll etmiş, ağlımın səsini dinləmişəm.

***

Uşaqlıq xatirələrimdən ən çox yadda qalanı 1930-cu ildə baş verən Şəki üsyanıdır. Onda mənim 5 yaşım var idi. “Böyük dönüş ili” adlanan 1930-cu ildə partiya kütləvi halda kollektiv təsərrüfata keçmək siyasətini yeritdi. Bu tədbir kəndlini qorxutdu və ölkənin çox yerində, o cümlədən də Azərbaycanda böyük narazılıqlara səbəb oldu.

Gəncədə və Şəkidə üsyanlar başladı. Üsyançı kəndlilər şəhəri ələ aldı. Həbsxananın qapıları açıldı, dustaqlar buraxıldı. Düz bir həftə şəhər üsyançılarının əlində qaldı.

O zaman şəhər partiya komitəsinin katibi işləyən Babayev adlı birisi yuxarının “sağ ol”unu qazanmaq üçün Şəkidə kollektivləşmə işini daha sürətlə aparır, camaatın etirazını nəzərə almır. Narazılıq isə güngündən artır. Aşağı və yuxarı Köynük kəndləri etiraz səsini ucaldan ilk kəndlər idi. Bu hərəkatın başında isə Şabalıb kənd şeyxinin oğlu Mustafa idi. Deyilənə görə o, çox igid adam olmuş, Şəkinin bir çox kəndini ayağa qaldırmışdı.

Molla Mustafa və onun yeznəsi Hüseyn Əsəd oğlu Köynük kəndinin müəllimi və kənd komsomol özəyinin katibi Züleyxanı tutub camaatın gözü qarşısında öldürürlər. Bundan sonra Molla Mustafa üzünü camaata tutub deyir:

- Camaat, artıq Şura hökuməti yoxdur.

O zaman Şəkidə QPU-un işçisi olan Qasımov camaata çox zülm eləyibmiş. Odur ki, Molla Mustafa Qasımovu da öldürüb başın dakı dəstə ilə Şəkiyə hücum çəkir. 23 saatdan sonra bütün şəhər üsyançıların əlinə keçir. Şəhərin üzdə olan kommunistləri şəhər poçt idarəsinə sığınır. Burada Bakı ilə daimi əlaqə saxlayırlar.

Şəhərdə isə üsyanı Bəhram bəy idarə edir. Üsyançılar poçta nə qədər həmlə edirlərsə də ələ keçirə bilmirlər.

O zaman atamın dilindən eşitdiyim bir söz indi də qulağımda səslənir: “Şəhərə balandulunnu avtomobil gəldi”. Sonralar bildim ki, bu “bronirovannıy” (zirehli) avtomobil demək imiş. Bakıdan gələn qoşun hissələri ilə üsyançılar arasında döyüş başlanır.

Heç yadımdan çıxmaz. Həyətimizdəki alma ağacının altında oynayırdım. Birdən güllə səsi eşitdim. Bu səsi eşitməklə, düz qarşıma balaca bir dəmir parçasının düşməsi bir oldu. Dəmir parçasının nə olduğunu bilmədim. Əyilib onu torpağın içindən çıxartdım. Əlim yandı, dərhal gülləni tulladım.

Üsyan yatırıldı, üsyançıların bir hissəsi həbs edilib dərhal güllələndi, bir hissəsi isə dağlara çəkilib qaçaq oldular. Bizim evimiz şəhərin “Yuxarı baş” məhəlləsində dağın döşündə meşənin içində yerləşdiyindən qaçaqlar gecələr qapımızı döyür, bizə və yaxud da qonşularımıza pənah gətirirdilər. Səhər açılana qədər xurcunlarını ərzaqla doldurub yenidən dağlara, meşələrə çəkilir dilər. Qaçaqlara yardım edən “düşmən” elan edilib dərhal cəzalandırıldı. O zaman Şəkidə milis rəisi Zahidov adında bir qaniçən idi. Onun hər şeyə səlahiyyəti çatırdı. Qaçağa çörək verdiyinə görə Zahidov neçəneçə kəndlini məhkəməsiz, sübutsuz güllələmişdi. Onlardan ikisi atamın yaxın dostları idi. Qaçağa yardım göstərmək üstündə güllələnənlərdən biri də şəhərin ən hörmətli ağsaqqallarından Hacı Yusif Əfəndi idi. Atam onun haqqında danışırdı ki, üzünə güllələnmə aktını oxuyanda o, Zahidovdan bir rükət namaz qılmağa icazə istəmişdir. Torpaqla dəstəmaz alıb üzünü Zahidova tutmuşdur:

- Bir xahişim var, məni sinəmdən vurun.

Dediyi kimi də eləyirlər.

Qaçağa yardım etmək bəhanəsi ilə həbs olunanlardan biri də atam Mahmud ağa oldu.

O zaman Şəkidə qaniçənlərdən biri də “ispolkom” Ələşrəf idi.

30-cu il hadisəsindən sonra çoxlarının evini yıxmışdı. O zaman mən onu görməmişdim. Amma hər yerdə onun adını eşit-

mişdim. Camaat onun əlindən qan ağlayırdı. O da Muzdur İsmayılov kimi inqilabdan sonra meydana çıxan köhnə muzdurlardan idi. Çox qəribədir, 1937ci ildə onu da həbs edib sürgünə göndərdilər. 1956-cı ildə sürgündən qayıtdı. El demişkən, çirkli əskiyə od düşməz. 1960-cı il olardı. Şəkidə bir məclisdə idim. "İspolkom" Ələşrəf də burada idi. O, indiki raykom katiblərinin və ispolkomların natəmizliyindən, əliəyriliyindən danışıb əlavə etdi ki, indiki vəzifəlilər heç bir şeydən çəkinmədən özlərinə imarət tikdirir, qızıl toplayırlar. Mən on ildən çox "ispolkom" oldum, özümə bir daxma da tikdirmədim.

Məclisdəkilərdən biri dərhal ona cavab verdi:

- Sənin ev yıxmaqdan heç macalın oldu ki, ev tikəsən?

Bu cavab məclisdəkilərin hamısının ürəyindən oldu. Bizim ev uca bir təpənin üstündə idi. Təpənin qarşısındakı dərin dərədən Qurcana çayı axırdı (indi suyu çəkilib). Üsyan yatırılandan sonra həmin dərədən səhərə qədər güllə səsi gələrdi. Sonralar bildim ki, orda üsyançıları güllələyirmişlər.

1930-cu ildən 1947-ci ilə qədər Şəkidə qaçaqçılıq davam etmişdir. Axırıncı qaçaq, qaçaq Abbas idi ki, onu 1947-ci ildə vurdular. Abbasın meyidini dağdan düşürdükləri indi də gözümün qabağındadır. Meyidi şəlin üstünə qoyub dağ aşağı sürüyür dülər.

Eybəcər şəklə salınmış meyidi milis idarəsinin qarşısında şəlin üstündə yerə uzatmışdılar. Bütün şəhər meyidin yanından keçməli idi. Bununla rəsmi dairələr adamları qorxudub demək istəyirdi ki, hökumətdən narazı adamların aqibəti belə olacaq.

1930-cu ildə Şəkidə və Gəncədə baş verən kəndli üsyanları zorakı kolxozlaşdırma hərəkatına etiraz idi. Camaat zülmə və zorakılığa dözə bilməmişdi. Yenidənqurma ilə əlaqədar meydana çıxan sənədlər və son hadisələr göstərdi ki, bu zorakılıq Stalin despotizminin ən böyük günahlarından biri idi. Buna görə də o zaman baş qaldıran üsyanlara indi aşkarlığın işığında başqa

gözlə baxmaq lazımdır.

***

Ömrümün noğul dövründə gördüyüm, eşitdiyim, şahidi və iştirak çısı olduğum və bu gün hörmətli oxucularıma nəql etdiyim bu hadisələr dünyanı dərk etmək üçün qanadlanmış mənim uşaq könlümdə çox dərin izlər açmışdır. Mən ədəbiyyata sinəmdə açılan həmin izlərlə gəldim.

*"Şənbə gecəsinə gedən yol", Bakı, 1991.*





# AVTOBİOQRAFİYAM

Mən 1925-ci il avqust ayının 16-da Azərbaycanın dağlıq rayonlarından biri, qədim tarixə malik Şəkidə anadan olmuşam. Şəkinin dörd bir yanındakı dağlar başdan-başa palıd, qarağac, fısdıq və cökə meşəliyidir. Buna görə də rayonun dağlıq hissəsində yaşayan əhali, əsasən, odunçuluqla məşğul olur, həyətlərində düzəltdikləri quyularda meşədən gətirdikləri odundan kömür düzəldir, rayon mərkəzində satmaqla güzəran keçirirlər. Babam, atam və əmilərim də odunçuluqla məşğul idi. Uşaqlıqda atam və əmilərimlə meşəyə gedər, gündə bir neçə dəfə ulaq və qatırlarla həyətimizə odun daşıyardıq.

Uşaqlığım qoynu meşəli dağlarda keçsə də, bu günə qədər dağ və meşə mənim üçün sirr olaraq qalır. Çünki bu meşəli dağlar nənəmin və anamın danışdığı nağılların məkanı idi. Babam qışda və yazbaşı həyətimizdən görünən ağ çalmalı dağları göstərib deyərdi ki, arzumuz o dağın dalındadır. Uşaqlıq xəyallarımda və yuxularımda o dağa uçar, orda arzumla görüşərdim. Eşitdiyim nağılların qəhrəmanları da əlinə əsa alıb, ayağına dəmir çarıq geyib arzusunu həmin qarlı dağın arxasında axtarardı.

Qardaşım İsfəndiyar məndən 4 yaş böyük idi. O, artıq məktəbə gedirdi. 7 yaşım tamam olmamış mən də onun həvəsinə məktəbə getdim (o zaman uşaqları məktəbə 8 yaşından götürərdilər).

1934-cü ildə 3-cü sinfi başa vurdum, həmin il ailəmiz Bakıya köçdü. Mən 4-cü sinfə getməli idim. Lakin 4-cü sinifdə oxumağı bacarmadım. Çünki rus dilinin tədrisi rayon məktəblərində 4-cü sinifdən, Bakıda isə 3-cü sinifdən başlanırdı. Rus dilini qətiyyən bilmədiyimə görə yenidən 3-cü sinifdə oxumalı oldum.

Bakıya, bu şəhərin yoxsul təbiətinə və iqliminə uzun müddət uyuşa bilmirdim. Atam bir müddət ipək fabrikində fəhlə işləyəndən sonra xəstələndi, işini dəyişdi, uzun müddət Bakı restoranlarında çayçı və aşpaz işlədi. Anam Gülzar savadsız ev qadını idi. Amma çox yaxşı yaddaşı və fantaziyası vardı. Məlum nağılları qəribə əlavələrlə bəzəyər, bəzən də mənə aşılamaq istədiyi tərbiyəyə uyğun olaraq özündən ibrətli nağıllar uydurardı. Odur ki, anamın danışdığı nağıllar başqalarının danışdığı eyni nağıllara bənzəməzdi.

Babam, atam və əmilərim tamam savadsız idilər. Təkcə böyük əmim Əliəşrəf bir neçə il ruhani məktəbində oxuduğundan yazı-pozu bilirdi. Məndən böyük qardaşım nəslimizin ilk savadlısı sayılırdı.

1942-ci ildə orta məktəbi bitirib Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil oldum. İlk şeirlərimi hələ orta məktəbdə oxuduğum zamanlar yazmışdım. Əlbəttə, uşaq həvəsindən doğan bu yazıların heç bir bədii əhəmiyyəti yox idi. Universitetin nəzdində o zamanın görkəmli yazıçısı, professor Mir Cəlalın rəhbərliyi ilə təşkil olunmuş ədəbiyyat dərnəyi sənət aləmində müəyyən bir cığıra düşməyimdə böyük rol oynadı.

O zamankı Azərbaycan şeirində tərənnüm üsulu - obyektə birbaşa ritorik müraciət əsas idi. Predmetsiz tərənnüm üsulu ilə yazılan şeirlərə qanadlı sözlər, konkret bir məzmun ifadə etməyən trafaret deyimlər və sürtük qafiyələr hakim idi. O zaman ədəbiyyata yenicə gəlmiş yaşıdlarım A.Babayev, N.Gəncəli, N.Xəzri, Qabil, H.Hüseynzadə kimi gənc şairlər bu şablondan uzaqlaşmağa, fikri və hissi konkret detallarla ifadə etməyə çalışırdılar. Bu təşəbbüsdə həmin şairlərin yaratdığı "Mənəm" (N.Gəncəli), "Gümüş sərv" (N.Xəzri), "Çinar" (A.Babayev), "Qara şanı" (Qabil) və mənim

yazdığım "Yaşıl çəmən, ağac altı" kimi şeirlər poeziyada yeni bir addım idi. O zaman bu şeirlər S.Vurğunun və Mehdi Hüseynin diqqətini cəlb etmiş və onlar bu barədə fikirlərini söyləmişdilər. 1945-ci ildə Azərbaycan Yazıçılar İttifaqının sədri vəzifəsində çalışan S.Vurğunun zəmanəti ilə məni həmin ilin fevral ayında SSRİ Yazıçılar İttifaqının üzvlüyünə qəbul etdilər.

1949-cu ildə "Mənim dostlarım" adlı ilk kitabım, 1950-ci ildə isə "Bahar" adlı ikinci kitabım nəşr olundu.

1947-ci ildə universiteti qurtarıb aspiranturaya qəbul olundum. Mən hələ uşaqlıqdan S.Vurğunun şeirlərini sevmiş və yaradıcılığa da böyük ustadın təsiri ilə başlamışam. Bu sevgi məni həm bir şair kimi, həm də tədqiqatçı kimi ömürlük S.Vurğuna, onun əvəzsiz yaradıcılığına bağladı. Belə ki, 1951-ci ildə "S.Vurğun lirikası" mövzusunda namizədlik, 1964-cü ildə isə "S.Vurğunun yaradıcılıq yolu" mövzusunda doktorluq dissertasiyalarımı müdafiə etdim. 1950-ci ildən Azərbaycan Dövlət Universitetində (indiki Bakı Dövlət Universiteti) müəllim, dosent olmuşam, hazırda professor vəzifəsində çalışıram.

Oxucularımla görüşlərimdə tez-tez məndən soruşurlar: "Müəllimlik yaradıcılığınıza mane olmurmu?" "Yox" cavabı verirəm. Ona görə ki, əvvəla gənclərlə bir yerdə olmaq, onların istək və arzularını bilmək və bu arzularla yaşamaq, gənclik duyğuları ilə nəfəs almaq məni həyata bağlayır, ilhamımı hər gün təzələyir. Gənclik həyatı tükənməz ilham qaynağıdır. İkinci tərəfdən yazıçılıqla bərabər, müəllimliyin də ilkin vəzifəsi insanlarda gözəl duyğular oyatmaq, onları böyük fikirlərin arxasınca qanadlandırmaq deyilmi? Beləliklə, mənim şairliyimlə müəllimliyim bir nöqtədə birləşir, eyni hədəfə yönəlir, eyni məqsədə xidmət edir. Bunlardan başqa Çexovun "Həkimlik arvadım, yazıçılıqsa sevgilimdir" müddəasını da bura əlavə etsək, mənim sənətimlə vəzifəmin hansı mənada bir yerə sığdığı aydınlaşar. Mən tələbələrin həyatından bəhs etdiyim "Qiymət" poemamın proloqunda bu məsələyə münasibətimi belə bildirmişəm:

*Yarıya bölünür günüm, saatım,*
*Vaxt mənim sərvətim, mənim varımdır.*
*Müəllimlik - mənim günüm, həyatım,*
*Şairlik - ən uca duyğularımdır.*

Ədəbiyyatımızın bu və ya digər məsələlərinə, problemlərinə, həmçinin yeni yaranan şeir və nəsr əsərlərinə dair məqalələrimdə əsasən öz yaradıcılıq laboratoriyama istinad edərək ədəbiyyat və sənət haqqında fikir və düşüncələrimi əks etdirməyə çalışıram.

Haqqımda yazan tədqiqatçılar məni, ümumiyyətlə, ənənəyə bağlı bir şair hesab edirlər. Eyni rəngli inkubator cücələrindən başqa dünyada ənənəsiz heç nə yoxdur. Eyni rəng isə sənətin düşmənidir. Sənət və ədəbiyyat əlvanlıq, müxtəliflik sevir, yeni rənglər, çalarlar axtarır. İndiki sovet ədəbiyyatında yazıb-yaradan yüzlərlə şair əgər eyni rəng və eyni intonasiyada yazsaydı, bu qədər şairə ehtiyac olardımı? Bununla yanaşı, ənənə heç vaxt yalnız bir rəngin, bir səsin müdafiəsi demək deyil. Ənənə kökə sədaqətdir. Ağacın varlığı üçün kök nə qədər vacibdirsə, sənət üçün də ənənə bir o qədər gərəklidir. Bəs, onda novatorluq nədir? Mən novatorluğu kökə bağlanıb, torpaqdan qidalanıb yeni, təkrarsız şaxələr, budaqlar atmaqda görürəm. Novatorluğu fikrin, hissin təzəliyində, müasirliyində axtarmaq lazımdır. Əgər fikir, hiss yenidirsə, yəni bu günün havasından, iqlimindən doğubsa, həmən yeni hiss, yeni fikir özü ilə yeni forma gətirəcək. Bunun üçün baş sındırıb yeni formalar axtarmaq lazım deyil. Belə forma axtarışı qış vaxtı elektrik peçinin istisilə yetişdirilən istixana tərəvəzinə bənzər. Zahirən hər şey öz yerindədir, amma istixana tərəvəzinin dadı al günəşin istisilə yetişən təbii tərəvəzin dadını verərmi?

Şair özünü, fikrini, hissini təzələməyi, günün havasında çimdirməyi, yəni müasirlərinin fikir və duyğuları ilə yaşamağı bacararsa, şeirlərinin müasir və yeni olacağı, oxucunun qəlbinə yol tapa-

cağı labüddür. Bir sözlə, novatorluğu qarşısına məqsəd qoyan şairin novator olacağına inanmıram. Sənət aləmində yenilik şüarı ilə meydana çıxanlar əksərən yeniliyi kənarda axtarır, öz milli ənənəsini bəyənmir, kökünə, şirə çəkdiyi torpağa dodaq büzür. Qəribə burasıdır ki, beləlləri yeniliyi özgəni yamsılamaqda görür. Bu barədə mən “Nənəmin xalçası” adlı bir hekayə də yazmışdım. Hekayənin qısa məzmunu belədir:

Azərbaycanlı bir rəssam sənətdə yenilik eləməyə çox çalışır, lakin bir şey çıxmır. Bir gün onun əlinə fransız rəssamının bir şəkli keçir. Şəkil çox xoşuna gəlir. Rəssam fransız rəssamının təsiri ilə yeni əsərlər yaradır. Bu əsərlər çox bəyənilir. Təqdirdən sonra rəssam vicdan əzabı çəkir və nəhayət, fransız rəssamına məktub yazır, ondan öyrəndiyini bildirir. Fransız rəssamı isə cavabında bizim rəssama yazır ki, Azərbaycanın filan kəndində toxunan xalçalar onu çox maraqlandırır və onun sənəti Azərbaycan xalçaçılığı üzərində qurulmuşdur. Deməк, azərbaycanlı rəssam nənəsinin toxuduğu xalçalara biganə qalmış, orijinallığı, novatorluğu onun xalqının sənətindən öyrənən fransızdan öyrənməli olmuşdur.

Biz bəzən yeniliyi özümüzdən öyrənmək əvəzinə bizdən öyrənən özgədən əxz edirik.

*Yaz ilham deyəni, ürək deyəni,*
*Yol özü dolanıb tapacaq səni.*
*Qəlbini, beynini nahaq yorma sən.*
*Amandır, özündən yol uydurma sən.*
*Yenilik xətrinə yazmaqdan saqın,*
*İlhamdır yaradan sənəti, şeiri.*
*Yağmaq xatirinə yağan yağışın*
*Nə bağa xeyri var, nə dağa xeyri.*
*Qəlbinə, hissinə daim arxalan.*
*Bir də... əlvan səsli illərimizə.*
*Köhnə söz deməmiş ilham heç zaman,*

*Hər qəlbin öz sözü təzədir bizə.*
*Nəsənsə, özün ol,*
*təzəsən onda,*
*Sən köhnə olursan yamsılayanda.*

Məqsəd günün duyğuları ilə yaşamaq, müasirlərin fikir və duyğularını əks etdirmək olmalıdır. Bu duyğuların ifadə forması isə məqsəd deyil, vasitədir. Daha doğrusu, sənətdə ifadə forması - daşıma vasitəsidir, yəni nəqliyyatdır. Eyni yükü qatarla da daşıya bilərsən, yolu kəsə gedən təyyarə ilə də. Yükə görə nəqliyyat vasitəsi seçildiyi kimi, məzmuna görə də forma - ifadə vasitəsi seçilir. Forma məzmunu deyil, məzmun formanı yaradır.

Yaradıcılığım boyu mən əvvəlcədən heç vaxt forma barədə ayrıca düşünüb daşınmamışam, məni yerimdən tərpədən fikir və duyğuların özləri müəyyən bir axar yaratdıqdan sonra qələmə sarılmışam. Forma fikrimə dar gəlməyib, fikrin, məzmunun havası elə bir axar yaradıb ki, forma öz-özünə məzmunun boyuna biçilib, mən forma qəlibində istədiyimi deyə bilmişəm. Lakin mənim istədiyimin oxucunun istədiyinə nə dərəcədə çevrildiyini isə deyə bilmərəm. Ancaq forma nə qədər məhdud olsa, şair ifadəni o qədər yığcam və lakonik deməyə məcbur olur, artıq söz işlənmir. Götürək qoşmaları. Aşıq qoşmanın məhdud forma qəlibi içərisində fikri son dərəcə dəqiq və yığcam deyir. Qoşmada sözlər bir-birinin içinə şəbəkə taxtaları kimi geydirilir. Bir sözü belə yerindən dəbərtmək olmur.

*Ayrılıqmı çəkmiş, boynu əyridir,*
*Heç yerdə görmədim düz bənövşəni.*

Bu beytdə, söz bir yana qalsın, vergülü, intonasiyanı da dəyişdirmək, başqa yerə keçirmək mümkün deyildir.

Bu müddət ərzində ana dilində qırxdan artıq, rus dilində 12, erməni dilində 2, özbək dilində 2, türk dilində 3, alman dilində 1

kitabım çap olunmuşdur.

1965-ci ildən bu günə qədər Azərbaycan Dövlət Akademik Dram Teatrında “Vicdan”, “İkinci səs”, “Yağışdan sonra”, “Yollara iz düşür”, “Fəryad” adlı mənzum və mənsur pyeslərim oynanmışdır. Həmin pyeslərdən bəziləri erməni, türkmən və özbək dillərində də tamaşaya qoyulmuşdur.

1960-cı ildən bu günə qədər həm turist, həm də nümayəndə kimi müxtəlif vaxtlarda İraq, Mərakeş, Yunanıstan, İtaliya, Türkiyə, Qərbi Almaniya, İngiltərə, Portuqaliya, Livan, Misir və sair ölkələrdə olmuş, bu ölkələrdəki müşahidələrim əsasında məqalə və şeir silsilələri yazmışam.

Dünya xalqları poeziyasının xoşuma gələn, məni bir şair kimi həyəcanlandıran nümunələrini dilimizə çevirmişəm. Bu tərcümələrimi 1982-ci ildə “Hər çiçəkdən bir ləçək” adı altında kitabhalın da çap etdirmişəm.

Sənət yollarındakı çoxsaylı gör-götürümə söykənib deyə bilirəm ki, bir insan kimi duyub həyəcanlandığım mövzularda yazarkən uğur qazanmışam, duymadan uydurduğum mövzulara üz tutarkən dilim topuq çalıb, şeirim kəsərsiz olub, doğulduğu gün qocalıb.

O yazılarımı ki, sevgim və ya nifrətim yazdırıb, onlar ürəklərə yol tapıb, bir könülün odunu min könülə daşıyıb. Nədir sevgi, nədir nifrət? Qəlbin təlatümü, hisslərin tufanı, ağlın üsyanı!.. Sevmədən sevgidən necə yazmaq olar? Son 30 il ərzində mənim silsilə təşkil edən məhəbbət lirikam həm də həyat və zaman haqqında fəlsəfi düşüncələrim, daxili iztirablarımdır. Mən bu şeirlərdə daha çox özüməm. Çünki burda daha çox səmimiyəm. Səmimiyyət isə ədəbiyyatın və sənətin çarpan ürəyi, şah damarıdır. Bu şeirlər mənim qəlbimin tərcümeyi-halıdır. Mənim sevgim sevmək ehtiyacından yarandığına görə bu ehtiyacın ömrümün sonuna qədər məni yandırıb yaşadacağına inanıram. Çünki bu sevgi fitrətdən gəlir. Əgər hədəfin özü də sevgiyə layiq olursa, sevgi aradakı maneə qədər tutar qazanır. Gənclik dövrümdən bu günə qədər yazdığım sevgi şerilərinin hədəfi

eynidir. Şeirlərdəki konkret vəziyyətlərin və halların təsvirindən aydın olur ki, bunların hər biri bir sarsıntının, bir etirazın, bir təlatümün, yaxud bir üsyanın ifadəsidir. Onlarda heç bir uydurma yoxdur. Bu şeirlər hamısı duyğularımdan süzülmüşdür. Şair insan kimi duymalı, şair kimi yazmalıdır. İnsan nə zaman həyatı və dünyanı duymağa başlayır? İztirab odundan keçəndən sonra...

*Oxşadı gözümü hələ uşaqkən*
*Ocağın al-əlvan alovu, közü.*
*Dünyaya gələli, bilmirəm, nədən*
*Nəyə vurulduqsa, yandırdı bizi.*
*Mən oddan qorxmadım yanana qədər,*
*Mən qorxu bilmədim qanana qədər.*
*Elə ki, yandım,*
*Odla oynamaqdan qorxdum,*
*dayandım.*
*Başlandı qorxu,*
*Başlandı ehtiyat*
*Başlandı həyat.*

Həyatı idrak iztirabdan, yanmaqdan keçir. Bu iztirab, bu yanğı nifrətə çevriləndə hisslər daha geniş miqyas alır, fərdi hisslər ictimailəşir, vətəndaşlıq duyğuları baş qaldırır.

Yazıçının bioqrafiyası onun əsərlərinin bioqrafiyasıdır. Filan ildə doğuldum, filan ildə filan məktəbi bitirdim, filan ölkələrdə oldum, filan əsərləri yazdım və filan mükafata layiq görüldüm deyə olan hadisələri səliqə-sahmanla cərgəyə düzmək yazıçı bioqrafiyasının gözqamaşdırıcı paltarıdır. Bu paltarın altında döyünən ürək isə yazıçının yaratdığı və yaranan əsərlərinin xalq qəlbindəki əks-sədasıdır. Klassiklərdən biri çox gözəl demişdir: "Mən əsərlərimi deyil, əsərlərim məni yaratmışdır". Həqiqətən belədir. Yazıçı yaratdıqlarında həm də özünü yaradır. Yazıçının valideynindən aldığı

ad və familiya sənətkar istedadının qüdrətilə yeni məzmun qazanır, simvollaşır. Aleksandr adı və Puşkin familiyası şair Puşkinə qədər Rusiyada adi ad və familiya idi. Şair Puşkin isə bu adi adları öz sənəti ilə parlatdı, simvollaşdırdı. İndi biz bu ad və familiyanı şair Puşkinlə tanıyırıq.

Bəzi hallarda şairlər valideyn adı ilə kifayətlənmir, özləri özlərinə ləqəb seçir və şair tarixdə bu adla yaşayır. Füzuliyə atası Məhəmməd adı vermişdi. Bu ad bütün Şərqdə ən çox işlənən adi adlardan biridir. Məhəmmədin özünə verdiyi Füzuli ləqəbi isə bütün dünyada yeganə addır. Füzulidən sonra atalar şairin təxəllüsünü övladlarına ad verir. Beləliklə, böyük qüdrət sahibləri öz əməlləri ilə həm özlərini yenidən yaradır, həm də məlum adlara yeni məzmun və yeni həyat verir, onu parladırlar.

Ulu dastanımız "Dədə Qorqud"da doğulan uşağa dərhal ad vermirlər. Uşaq böyüyüb bir işin qulpundan yapışandan sonar ona əməlinə, hal-hərəkətinə uyğun ad verirlər. Bu adət, insanın özünü yaratması fikrinin gözəl təsdiqi deyilmi?

Mən yaşamağı yanıb ərimək kimi başa düşürəm. Mənə görə yaşamaq - nəyin naminəsə yanmaq, ömrü nəyin yolundasa əritmək deməkdir.

*Yaşamaq yanmaqdır, yanasan gərək,*
*Həyatın mənası yalnız ondadır.*
*Şam - əgər yanmırsa, yaşamır demək,*
*Onun da həyatı yanmağındadır.*

Oxucularımla görüşlərimin birində mənə belə bir sual verdilər: "Sizi bədii yaradıcılığa sövq edən səbəb nədir?". Doğrusu, mən bu barədə heç düşünməmişdim. Lakin elə oradaca "Şeirim - mənim imanım" adlı şeirim yadıma düşdü. Mən həmən şeiri oxumaqla suala cavab verdim. Həqiqətən, bu şeir mənim yaradıcılıq məramnaməmdir. Çünki yaranan, həqiqətən, yaradanın imanıdır, dinidir, əqidəsidir.

Buradan çıxıb deyə bilərəm ki, yaratdığım şeirlər hissimin, fikrimin, əqidəmin ifadəsi olmaqla mənim imanımdır, dinimdir, həyat qayəmdir. Beləliklə də, şairin bioqrafiyasını cansız rəqəmlərlə deyil, onun yaratdıqlarında axtarmaq lazımdır.

Hər insanın bioqrafiyası olduğu kimi, yaranan hər şeirin də öz yaranma səbəbi və öz bioqrafiyası var. "Şeirim - imanım mənim" şeirinin yaranmasına səbəb çox sevdiyim türk şairi Behcət Kamal Çağların "İstiyordum" şeirindəki "Bir iman istiyorum uğrunda baş qoyacaq" misrası oldu. Bütövlükdə, çox böyük təsirə malik olan bu şeirin misal gətirdiyim misrası ilə razılaşa bilmədim: Necə yəni iman istəyirəm? Bəs hələ bu vaxta qədər imanını tapmamısansa, hələ onu axtarırsansa, sən necə şair ola bilmisən? Məncə, əvvəlcə iman, sonra o imanın, o əqidənin ifadəsi olan şeir gəlir. İmansız şeir, şeir ola bilməz.

Demək, mənim üçün şeir, ürəkdə aşıb-daşan, çarpazlaşan duyğuların, beynimi gəmirən fikirlərin ifadə vasitəsidir. Bir sözlə, Vətənin və xalqın ağrı-acılarını şəxsi ağrı-acılar kimi öz qəlbində yaşadan bir vətəndaş olmadan Vətənin şairi olmaq mümkün deyil. Bu mənada Sabiri ən böyük ustadım hesab edirəm:

*Mənim sevincim belə ürəyimdə gizlənən*
*Dərdə, qəmə borcludur.*
*Şeirim, şairliyim də*
*Özümü özləşdirən əqidəmə borcludur.*
*Şeirim namusum mənim,*
*Şeirim vicdanım mənim,*
*Şeirim imanım mənim.*

Buna görə də dünyada baş verən irili-xırdalı bütün hadisələrə qəlbimin qapıları açıqdır. O hadisələr qəlbimdən keçib duyğuya, duyğudan keçib şeirə çevrilir. Yalnız bunu demək kifayətdir ki, onlarla şeirim ("Baş", "Dan yeri", "Elm-əxlaq", "Təbəssüm ordeni",

“Qurbanlıq quzu”, “Sülh mükafatı”, “Neytron bombası”, “Göz, ya qulaq”, “A.Liliyentalın Kartera məktubu”, “Şairləri öldürürlər”, “Tarixin qanunu” və s.) və bir neçə poemam (“Təzadlar”, “Amerika gözəli”, “Yollar - oğullar”, “Bağışlayın, səhv olub” və s.) adi qəzet xəbərləri əsasında yazılmışdır. Söhbət bu əsərlərin bədii dəyərindən deyil, dünyanın ictimai dərdləri ilə yüklənməkdən və ona səs verməkdən gedir. Bu ümumbəşəri ictimai dərdlər fırtınasında mənim Vətənimin gəmisi də gələcəyə yol gedir. Bütün bu duyğuların, həyəcan və iztirabların nəticəsində “Bir gəmidə səfərdəyik” kitabım yarandı. Beləliklə, öz zəmanəsinin və öz Vətəninin oğlu olan bir vətəndaş eyni zamanda dünyanı düşünən bir vətəndaşa çevrilir. Burda ən vacib şərtlərdən biri də vaxtı öz nəbzində döyündürməyi bacarmaqdır:

*Öz kökümə güvənməklə*
*Öz yurdumun, torpağımın övladıyam,*
*Budaq-budaq qollarımla,*
*Çalın-çarpaz yollarımla*
*Atamdan çox,*
*öz çağımın övladıyam.*

Hər bir insan özünü inkar edə-edə yaşayır və bu inkarlarda böyüyür. Ömrün pillələrinə baxaq: uşaqlıq, cavanlıq, ahıllıq və qocalıq. Bu bölgü təbiətin fəsilləri ilə nə qədər uyğun gəlir: yaz, yay, payız, qış! Təbiətin fəsilləri də ömrün fəsilləri kimi bir-birinə ziddir. Lakin bəzən təbiətdə yazda yayın, yayda payızın, payızda qışın əlamətlərini gördüyümüz kimi, insan ömründə də uşaqlıqda gəncliyini, ahıllıqda qocalığını, yaxud da tərsinə, qocalıqda cavanlığını yaşamaq istəyənlər tapılır. Təbiətdə bu, bizə qeyri-adi göründüyü kimi, insan ömründə də qeyri-adi görünür, xüsusən əksini götürəndə, yəni qocalığında gəncliyini yaşamaq arzusu ətrafındakılarda ikrah hissi oyadır. Bu, məsələnin bir tərəfidir. Mənim demək istədiyim tərəfi insanın bioqrafiyasında öz-özünü inkarlardakı tamlıq məsələsidir.

Təbiət gecə-gündüzü, ağ-qarası, qış-yayı ilə tam olduğu kimi, insan da inkarı-təsdiqi, yaxşısı-pisi, enişi-yoxuşu, qalxması-enməsi ilə tamdır. Kim öz gəncliyində elədiyi hərəkətə qocalığında gülmür?

*Gəncliyimdə bilməməzlik bəlasından*
*Vallah, elə bilirdim ki,*
*Bu dünyanı bilirəm mən.*
*Onda hökm verərdim ki,*
*Bu yaxşıdır, bu yamandır,*
*Bu doğrudur, bu yalandır.*
*... İndi çalar çalasında*
*Mən ehtiyat məktəbini bitirmişəm.*
*Zidd qütblər arasında sərhəd olan*
*hüdudları itirmişəm.*
*Yaxşıyla pis,*
*Haqla nahaq,*
*Qarayla ağ*
*arasında dayanmışam.*

İnsan kamillik dövründə qarada ağı, ağda qaranı, pisdə yaxşını, yaxşıda pisi görməyə başlayır. Buna görə də yaradıcılığım boyu insanın daxilinə baş qaldıran ikiliyi, daxili çəkişmələri və ziddiyyətləri göstərməyə çox meyl göstərmişəm. Mən xüsusən poema və dram əsərlərimdə qəhrəmanın kiminləsə mübarizəsini deyil, onun öz içində baş qaldıran duyğu və fikirlərin toqquşmasını göstərməyi vacib sayıram. Mənə görə Otello da, Yaqo da insanın öz içindədir.

Orta məktəbdən mütaliəni vərdiş etmişəm. Bircə gün oxumasam özümü narahat hiss edirəm. Elə bil nəsə çatmır. Daha doğrusu, yeməyinin vaxtı keçən adamın aclıq hissini keçirirəm. İnformasiya aclığı! Beyin də daim qida istəyir. Bu, bəlkə XX əsr adamının xüsusiyyətidir. Klassik rus, dünya və Azərbaycan ədəbiyyatından vaxtilə nəyi oxumuşamsa oxumuşam, indi onları mütaliə məqsədilə

oxumağa vaxt yoxdur. Yalnız işimlə yazmaqda olduğum əsərlə və yaxud məqalə ilə bir bağlılıq olanda klassikləri yenidən varaqlayıram. Məsələn, "Fəryad" pyesini yazmaq üçün mən Nəsiminin söykəndiyi hürufiliyi, onunla bağlı sufiliyi bilməli idim. Bununçün birinci növbədə türk qaynaqlarını araşdırmalı oldum. Çünki Nəsimi və onunla bağlı hürufilik bizim ədəbiyyatşünaslığımızda yaxşı öyrənilməmişdir. Mən, ilk növbədə, Cəlaləddin Ruminin "Məsnəvi"sini və bu barədə Türkiyədə kifayət qədər yazılmış elmi kitabları, Şəms Təbrizinin əsərlərini və onun haqqında yazılmış elmi əsərləri, eyni zamanda Yunus İmrə ilə bağlı qaynaqları diqqətlə araşdırdım. Yalnız bundan sonra Nəsimi və onun özünü idrak fəlsəfəsi mənim üçün aydın oldu.

Eləcə də "Muğam" poemasını yazmamışdan əvvəl muğamların təhlilini, köklərini araşdıran bir sıra Şərq qaynaqları ilə tanış oldum.

İlk növbədə, gündəlik qəzetləri və aylıq jurnalları oxuyuram ("Kommunist" qəzetindən "Pravda"ya, "Azərbaycan" jurnalın dan "İnostrannaya literatura"ya qədər).

Müasir adam üçün bunlar kifayətdirmi? Əlbəttə, yox! Həyatım da iki dostumun mənə güclü təsiri olmuşdur. Birincisi geologiya və mineralogiya elmləri doktoru Xudu Məmmədov , ikincisi tibb elmləri doktoru Nurəddin Rzayev! Bu iki nəfərin məlumat və maraq dairəsi çox genişdir.

Onlar ədəbiyyatı, sənəti, tarixi və fəlsəfəni dərindən bilməklə yanaşı, dünyada elə bir elm sahəsi yoxdur ki, onunla maraqlanmasınlar, xüsusilə təbiət elmləri ilə. Onların hər ikisi rus dilindən başqa ingilis dilini də bilir, dünyanın bir sıra jurnallarını oxuyur, elm aləmində baş verən bütün dəyişikliklərdən dərhal xəbər tuturlar. Mən Azərbaycan, rus və türk dillərində oxuya bilirəm. Hər üçümüzdə bir xasiyyət var: oxuduğumuz kitabın kənarında qeydlərimizi etmədən keçinə bilmirik. Eyni kitabı oxuyan üçün bu qeydlər çox maraqlı olur. Həftədə ən azı bir dəfə görüşür, oxuduqlarımız haqda bir-birimizə məlumat verir, həmin xəbərləri təhlil edirik. Mən onların vasitəsilə dünyadakı

yeni elmi kəşflərdən, elmi kitablardan xəbər tutur, rus dilində olanları onlardan alıb oxuyuram. Bəzər aramızda mübahisə başlanır. Bu çəkiş mələrdə birimiz digərimizə təslim olduğumuz hallar da olur, hər kəsin öz fikrində qaldığı məqamlar da.

Eləcə də üçlükdə baxdığımız tamaşalar, filmlər birlikdə də müzakirə olunur. Mənim hər yeni yazdığım əsərin ilk oxucusu dostlarımdır. Bəzən mənim yeni əsərimi bəyənmir və onu amansız casına tənqid edirlər. Mən bu barədə çox düşünməli olur, çox götürqoydan sonra yenidən həmin əsərə qayıdıram. Onların əsərim haqqında dedikləri proqnoz əksərən düz olur. Çox nadir hallarda yanılırlar.

Mən bir insan kimi özümü dərk edəndən daxili çəkişmələr içərisin də böyümüşəm. Məndə özümə nəzarət çox erkən başlanmışdır. Orta məktəbdə oxuduğum zaman humanitar elmlərdən yüksək qiymətlər alsam da, dəqiq elmləri, xüsusən riyaziy yatı heç cür başa düşməz, orta qiymətdən yuxarı ala bilməzdim. Valideynlərim bunun səbəbini soruşanda, riyaziyyat müəlliminin mənimlə düşnüşdüyünü deyər, bununla da canımı qurtarardım. Bu yalanı o qədər demişdim ki, uydurmama özüm də inanmışdım. Bir gün riyaziyyat müəllimim mənə kömək niyyəti ilə məni evinə çağırdı. O, evində mənimlə bir müddət məşğul oldu. Yavaşyavaş riyaziyyatı dərk etməyə başladım. Müəllimin böyük qayğısı, yəni həqiqət və mənim valideynlərimə dediyim yalan qəlbimdə qarşıqarşıya gəldi. İçimdə döyüş başladı. Müəllimim qayğı göstərdikcə mən onun gözlərinin içinə baxa bilmir, utanırdım. Beləliklə, müəllimin qayğısı və yaxşılığı məni tərksilah etdi. Xeyirxahlığı ilə mənə həqiqəti dərk etdirən müəllimim könlümə şübhə toxumunu salmaqla mənə yalnız riyaziyyatı deyil, özümə kənardan baxmaq dərsini də öyrətdi.

Buradan da mən ikiləşməyə - özünü təhlilə, özünə nəzarətə başladım. Bu daxili çəkişmədə insan özünü dərk edir, bu dərketmə yollarında yetkinləşir.

Bir atalar sözündə deyilir: “Ən güclü pəhləvan özüözünü yıxmağı bacarandır”. “Kimdir mənim düşmənim” şeirimdə deyirəm ki,

mənim nöqsanlarımı görənlərin gözlərini öz gözlərimə taxıb, özümü kənardan görə bilsəydim, mən, mən olardım. Mənim fikrimcə, insan özü barədə nə qədər böyük fikirdədirsə, o, bir o qədər kiçik adamdır. Həm bədii yaradıcılığımda, həm də pedaqoji fəaliyyətimdə həm özümə, həm də başqalarına özünə kənardan baxa bilmək hissini aşılamağa çalışmışam. İnsan bir işi tutmazdan əvvəl bu işin törədəcəyi bədbəxtliyi dərk etmək üçün özünü həmin adamın yerində görə bilərsə, dünyada heç bir əyər-əskik qalmaz.

Mənim azçox qazandığım nailiyyətlərə səbəb vaxt və onun nisbiliyini dərk etməyim olmuşdur. Vaxtı ölçülərə bölən saatı insanelar uydurmuşdur. Əslində vaxt yoxdur. Vaxt ölçüsü nisbidir.

Bir bayatıda deyilir: "İl var, bir günə dəyməz, gün var min aya dəyər". İnsan yaratdığı zaman vaxt onun gözünə görünmür, intizar dəqiqələrində isə bir saat bir il qədər uzanır. Ç.Aytmatov demişkən: "İ den dlitsya dolşe veka".

Gecələr işləyirəm. Çünki gecələr özümlə, öz qəlbimin çırpıntıları ilə başbaşa verir, özümlə ürək söhbəti eləyə bilirəm. Təsadüfi deyil ki, kitablarımdan birinin adı "Özümlə söhbət"dir. Mən dincəlməyi, ilin ayrıca ayını və günün ayrıca saatını istirahətə ayırmağı bacarmıram. Mən işləyəndə dincəlirəm. Yaza bilməyəndə, vaxtımı xırda qayğılara sərf edəndə özümü pis hiss edir, özümdən acığım gəlir.

İlhama könüllü qul olub işgüzar ovqata köklənəndə gümrahlaşıram, cəmi ağrıacılar canımdan çıxıb gedir. İşləmək, özümüzü yandıraraq yaşamaq, boşalaraq dolmaq! Budur yaradıcının həyatı! İnsan həmişə müəyyən vaxt ərzində müəyyən işi görmək istəyir. Bu zaman o, vaxtla yarışır.

Bu yarışda sürətə pənah gətirir. Bəzən sürət də vaxtı qabaqlaya bilmir. "Gözəl lik önündə" şeirimdə yazıram ki, maşınla getdiyim zaman gözəl bir dağ mənzərəsi ilə qarşılaşıram. Sürücüdən xahiş edirəm ki, maşını saxlasın. Bir neçə dəqiqə dağ mənzərəsinin gözəlliyinə dalan dan sonra deyirəm:

*İndi sür, yüzlə yox, minlə də sürsən,*
*Vaxtı qabaqlaya bilməyəcəksən.*
*Ancaq o anda*
*Gözəllik önündə fikrə dalanda*
*Vaxtı bir anlığa biz qabaqladıq,*
*Onda maşını yox, vaxtı saxladıq.*

Ölçüyə gələn vaxt maddidir. Vaxt ölçüdən çıxanda o mənəviyyata, ruha, gözəlliyə çevrilir. Çünki barada vaxt da insan kimi donur, heykəlləşir. Klassiklərin də yaratdıqları ona görə ölümsüzdür ki, sənətin qeyri-adiliyi onlara sərf olunan vaxtı əbədiləşdirmişdir.

Ömrüm boyu vaxtdan qiymətli və ona tay olan bir şey tanımamışam. Çünki gəncliyimdən məqsədyönlü olmuş, vaxtın qədrini bilmişəm. Yaddaşım o qədər də yaxşı deyil. Buna görə də gəncliyim dən görəcəyim işlərin siyahısını tutmaq, onları vaxtın çərçivəsin də həyata keçirmək adətimdir. Verdiyim sözə dəqiq olduğum kimi, başqalarından da eyni dəqiqliyi tələb etmişəm.

Azərbaycan SSR Ali Sovetinin deputatı kimi tez-tez seçicilərim lə görüşür, onların tapşırıqlarını yerinə yetirməyə çalışıram. Hər gün onlarla məktub alıram. Bu məktubların bir qismində mənə şair kimi deyil, deputat kimi üz tutulur, istək və arzular bildirilir. Əlbəttə, bu məktubları cavabsız qoymaq mümkün deyil. Vaxtımın müəyyən hissəsi də buna gedir.

1985ci ildən M. Qorbaçovun fəaliyyəti nəticəsində Sovetlər İttifaqında, o cümlədən də Azərbaycanda yeni demokratiya iqlimi yarandı. Bu iqlim istər Sovet İttifaqında, istərsə də

Azərbaycanda birinci növbədə qələm sahiblərini yeni yaradıcılıq cığırına saldı; belə ki, yazıçıların, jurnalistlərin fikri, düşüncəsi ilə dili və qələmi arasında dayanmış dəmir sərhədlər götürüldü. Stalin despotizmi və durğunluq dövründə sovet adamlarının keçirdiyi iztirablar, əzabəziyyətlər, işgəncə və məhrumiyyətlər yeni yaranmış bədii əsərlərdə öz əksini tapmağa başladı.

1998-ci ildə yazdığım "İki qorxu" adlı poemamda Stalin müstəbidliyi dövründə bütün qələm sahiblərinin, o cümlədən də özümün keçirdiyim qorxu hissini və məhrumiyyətləri dilə gətir dim. Bununla yanaşı, durğunluq illərində yazıb, gizlətdiyim "Gülüstan" poemamı və onlarla şeirimi çapa verdim. Mənim mövcud diktatura rejiminə etirazım yalnız bu əsərlərlə məhdud deyildi. Fikrimi və beynimi gəmirən, məni narahat edən fikir və duyğularımı çox zaman tarixə və yaxud başqa ölkələrə keçir məklə ifadə edirdim. Tarixi mövzuda yazdığım "Dar ağacı" (1972), "Fəryad" (1981-1984) pyeslərimin, "Yollar - oğrular" poe mamın (1963), müxtəlif mövzulara həsr etdiyim "Amerika gözəli" (1982), "Mərziyə" (1984), "Bağışlayın, səhv olub" (1983) poemalarımın, xarici ölkələrə səyahət təəssüratı əsasında yazdığım "Latın dili" (1967), "Şairləri öldürürlər" (1978), "Haydpark" (1978), "Ehramların önündə" (1959), "Açıq şəhər" (1960), "Ələddinin çırağı" (1959), "Küləkot" (1976), "Dan yeri" (1972), "Qara qutu" (1975) və s. kimi onlarla şeirimin əsas hədəfi müasir həyat və içində yaşadığım totalitar rejim idi. Onu da deyim ki, bu əsərlərin əsas qayəsi bəzi hallarda rəsmi dairələr tərəfindən anlaşıl mış, uzun illər təqib edilmişəm, adım "qara" siyahıya salınmış və məhrumiyyətlərə məruz qalmışam. O illərdə hər gün, hər ay həbs olunacağımı gözləmiş, bütün bunlarla yanaşı tutduğum həqiqət yolundan sarpmamışam.

Bütün dünyada "perestroyka" adı ilə tanınan yenidənqurma və aşkarlıq indi yazıçıların və jurnalistlərin dilindən qismən qıfılı götürsə də, ölkədə baş verən milli azadlıq dalğası xalqlar arasında milli çəkişmələrə gətirib çıxartdı ki, bu da, ələlxüsus, mənim xalqıma çox baha başa gəldi. Xalqımın günahsız qanı tökül dü. Ermənilərin uydurduğu əsassız "Qarabağ problemi" xalqımı qanına qəltan elədi. Sovet Ordusu Konstitusiya hüququmuzu pozaraq kağız üzərində "suveren" elan edilmiş respublikama qəflətən daxil oldu, günahsız qocaları və körpələri tankların altın da əzdi. Bu da Qorbaçovun elan etdiyi "yeni təfəkkür"ün və "demokratiya"nın bəhrəsi!

Ən dəhşətlisi bu idi ki, rus ordusu yalnız küçələrdəki dinc insanlara deyil, həm də evlərin pəncərələrin dən içəri atəş açmış, yaralıları xilas etmək istəyən şəfqət bacılarına, həkimlərə, xəstəxanadakı yaralılara qəsd etmiş, yardım əli uzadanları da öldürmüş, bununla da bütün beynəlxalq insani normaları belə pozmuşlar. Bu vəhşiliyə səbəb nə idi? Nədən ötrü idi? Cavab birdir: yenidənqurmadan sonra oyanan milliazadlıq hərəkatını boğmaq, xalqın demokratik ruhunu susdurmaq və bunun la da rus imperiyasını qoruyub saxlamaq! Əgər yenidənqurma bundan ibarətdirsə, mən buna lənət oxuyuram. Bir şair, gözləriy lə gördüyü bu dəhşətlərə necə dözə bilərdi? Və buna görə də mən həmin günün ertəsi Azərbaycan Mərkəzi Komitəsinin ətrafın da etiraz mitinqinə yığılmış on minlərlə həmvətənlərimin qarşısında Kommunist Partiyası sıralarından çıxdığımı elan etdim.

Dünya ictimaiyyətinin fikrini azdırmaq və törətdiyi cinayətlərə haqq qazandırmaq üçün Moskvanın rəsmi dairələri belə bir şaiyə uydurdular ki, rus ordusu guya Bakıdakı erməniləri müdafiəyə gəlibmiş. Yalan, ağ yalan! Çünki yanvar ayının 19da (1990) Sovet Ordusu Bakıya daxil olanda Bakıda bir nəfər də olsun erməni qalmamışdı. İkincisi, əgər həqiqətən Sovet Ordusu Bakıya erməniləri müdafiə məqsədilə daxil olmuşdusa, bəs onda bundan bir il əvvəl ermənilər iki yüz minə yaxın azərbaycanlını Ermənis tandan döyədöyə, qanına qəltan eləyəeləyə qovanda həmin ordu niyə Yerevana daxil olub azərbaycanlıları müdafiə etməmişdi? Suallar çoxdur, bu cinayəti törədənlər mənim millətimin verdiyi sualların heç birinə cavab verə bilməz.

Bu sualların cavabı üçün mən dünyadan ədalət məhkəməsi tələb edirəm.

1981ci ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, X və XI çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişəm.

Azərbaycanın əməkdar incəsənət xadimi, Azərbaycanın xalq şairiyəm. 1976cı ildə “Leninlə söhbət” və “Muğam” poemalarıma görə respublika, 1984-cü ildə isə “Bir gəminin yolçusuyuq” şeirlər

kitabıma görə SSRİ Dövlət mükafatlarına layiq görülmüşəm.

Bu adlar, bu titullar doğrudanmı yüksəlişin göstəricisidir? Enməyin bir növü də qalxmaq deyilmi? Bəzən böyük şöhrət sahib ləri şöhrətin kölgəsində xumarlanıb yatmamışlarmı? Bu, çox təhlükəli yuxudur. Sənətkar özünü bu razılıq yuxusundan ayıltmağı bacarmalıdır.

İnsan qarşısına qoyduğu məqsədə və bütün arzularına tam nail ola bilməz. Bir şeirimdə deyilir:

*Ürəkdəki arzular əməllərdən əzəldir,*
*Eləmək istədiyim mənim elədiyimdən*
*Həm çox, həm də gözəldir.*
*Eləysə... nekroloqa ömür tam olsun deyə*
*Əməllərlə bərabər ən gözəl arzular da*
*Niyə yazılmır, niyə?*

*"Şənbə gecəsinə gedən yol", Bakı, 1991.*





# İMTAHAN

***(Ömər Faiq)***

"Aydınlıq" qəzetinin 6 avqust (1993) tarixli sayında böyük publisist Ömər Faiq Nemanzadənin "İmtahan" məqaləsini oxuyub, məqalənin tarixinə baxdım: 1915ci il! Gözlərimə inanmadım. Bu məqalə elə bil bu gün yazılmış, bugünkü dərdlərimiz dən, əlacsızlığımızdan və acizliyimizdən bəhs edir. Birinci Cahan müharibəsini millətlərin zaman qarşısında imtahanı adlan dıran müəllif, yazır ki, bu müharibə hansı millətin nəyə qadir olduğunu göstərdi. Hələ keçən əsrdən özünü bir millət kimi dərk edən, milli şüura malik olan erməni və gürcü millətlərini bizimlə müqayisə edərək bizim zəif cəhətlərimizdən ürək ağrısı ilə söhbət açır. "Bəs biz nəyə qadirik?" sualına müəllif belə cavab verir: "Bu imtahan cahanın həyatimilliyə mübarizəsinə əsla hazır olmadığımızı, bu gedişlə udulacağımızı göstərdi... Göstərdi ki, millətimizin Türklük qanı xarab olmuş, müsəlmanlıq ruhu, imanı sönüb bitmişdir... Göstərdi ki, bizdə cürət, təşəbbüs, səbat, mərdanəlik, qardaşlıq, birlik hissi batıb getmişdir".

İndi də gözlərinə inan ki, bu sözlər 1993-cü ildə deyil, 1915ci ildə yazılmışdır. Demək, hələ əsrimizin əvvəllərindən biz bu kökdəymişik. Elə isə bəs bu uzun illər ərzində yəni heç bir qarış

da olsa irəli getməmişik? Bəs tarixin bizə verdiyi ibrət dərslərindən yəni heç nə öyrənməmişik? Konkret deyəcək olsaq 1918ci ildə ermənilərin bizim başımıza gətirdiyi müsibətlərdən bir şey öyrənib bu müddət ərzində niyə özümüzə bir gün ağlamamışıq? Axı, ermənin bizim başımıza gətirdiyi müsibətlər barədə bizim böyük ədiblərimiz, publisistlərimiz vaxtilə yazmışlar. Bəs bu yazılar niyə bizim yaddaşımızda qalmamışdır? Əgər bu ədiblərin, publisistlərin yanayana yazdıqları da bu gün hafizəmizdən silinibsə, demək biz sözün həqiqi mənasında əsl manqurtlarıq.

Bəli, nə qədər acı olsa da, boynumuza almalıyıq ki, biz Ö.Faiqin yazdığı o dövrdən keçən son 78 il ərzində öz yerimizdə saymış və heç bir qarış da irəli gedə bilmədiyimizdən bu gün də "həyatimilliyə mübarizəsinə və bizi imtahana çəkən bugünkü müharibəyə də hazır deyildik. Heç demə 78 il əvvəl o kişinin yazdığı kimi "millətimizin türklük qanı xarab olmuş, müsəl manlıq ruhu və imanı sönüb bitmiş, cürət, təşəbbüs, səbat, mərdanəlik, qardaşlıq hissi ölüb getmişdir".

Əgər belə olmasaydı heç olmasa bu gün erməni kimi qanımıza susamış hiyləgər xarici düşmənlə əlbəyaxa olduğumuz bir zaman da birləşər, bir-birimizlə didişməzdik.

Millətimizi "azarlı" adlandıran müəllif, xəstəliyimizin səbəbini də göstərməyi unutmamışdır. O, yazır: "Yalnız rəsmi məktəblərin özgə tərbiyə və hissiyyatın böyütdüyü millət ziyalıları bizə haqq ilə ziya verə bilməyəcəklər". Və sözünə davam edərək o, bizi millətin "öz məktəbi", "öz tərbiyəsi", "öz ruhu" uğrunda mübarizəyə səsləyir.

"Özgə tərbiyəsi", "öz tərbiyəsi", "özgə məktəbi", "öz məktəbi" deyəndə Ömər Faiq nəyə işarə edirdi? Doğma ana dilində təlim-tərbiyə görməyən, özgə dili ilə dil açan, özgə məktəblərin də təhsil alan ziyalının öz millətinə, öz vətəninə xidmət etməyəcəyi gün kimi aydındır. Mən bütün yaradıcılığım boyu bu həqiqəti demiş və bu məsələni təbliğ edən "Yollaroğullar", "Ağlargüləyən" poemalarıma,

"Ana dili", "Oğluma", "Anamın kitabı", "Latın dili" və s. şeirlərimə görə cəza çəkdiyim hamıya məlumdur. Mən bu məsələlərdən bəhs edən məqalələrimdə özümü müdafiə üçün həmişə böyük rus pedaqoqu Uşinskiyə istinad edirəm. Məlumdur ki, keçən əsrin ortalarından Rusiyada yuxarı təbəqə övladlarını ya alman, ya da fransız məktəblərində oxudur, doğma ana dilini "mujik dili" sayardılar. Bununla razılaşmayan Uşinski "Ana dili" məqaləsində yazırdı ki, Almaniyadan, yaxud Fransadan gətirilən dayələrin tərbiyəsilə yad dillə dil açan, xarici dillərdə təhsil alan rus balalarının Rusiyaya canidildən xidmət edəcəklərinə inanmıram.

Bu sözlər Ömər Faiqin dediklərilə nə qədər də səsləşir.

"Oqonyok" jurnalının 1981ci il, ikinci sayında Fransada yaşayan Cinçiyan familiyalı bir erməninin Ermənistana göstərdiyi xidmətlərdən bəhs olunur. Bu erməni ömrü boyu erməni hesab etdiyi Ayvazovskinin əsərlərini toplamış və onları Yerevan şəkil qalereyasına hədiyyə göndərmişdir.

Həmən məqalədə yazılır ki, Parisdə yaşayan ermənilər balalarınıorada açdıqları erməni məktəblərində oxudurlar. Onlar istəyir ki, yeni yetişən nəsl öz kökü üstündə böyüsün və milli kimliyini dərk etsin.

O zaman mən bu məqaləni oxuyanda gündəliyimə bu sözləri yazmışam: "Paradoksa baxın! Erməni Parisdə balasını erməni məktəblərində, azərbaycanlı isə Bakıda övladını rus məktəbin də oxutdurur. Parisdə yaşayıb erməni məktəbində oxuyan uşağın böyüyəndən sonra Yerevana, Bakıda yaşayıb rus məktəbin də oxuyan uşağın isə böyüyüb Moskvaya qulluq edəcəyi mühəqqəqdir! Erməni ilə bizim fərqimiz budur! Buna görə də biz onlarla eyni tərəziyə girə bilmərik. Hələ körpəlikdən övladlarına milli şüur aşılayan, ona dostunu və düşmənini tanıdan bu millət hər şeyə qadir ola bilər. Mən bir çox azərbaycanlı ailələrində uşaqlarının ana dilini bilməməsini

onlara irad tutanda mənə gülürlər. Onlar başa düşmür ki, milli varlığını dərk etməyən öz dilindən, öz ruhundan, öz tarixindən xəbərsiz olan bu uşaqlar öz vətənlərinin qədrini bilməz, əksinə, bu vətənə, bu millətə, onun tarixinə, dilinə, mənəviyyatına yuxarıdan baxarlar".

Çox təəssüf ki, hələ də bu böyük həqiqəti başa düşməyənlər başa düşənlərdən çoxdur. Bununla belə, bu məsələ barəsində vaxtilə mənimlə mübahisə edən, mənim dediyim həqiqəti başa düşmək istəməyənlərin bir çoxu dilimiz həqiqi mənada dövlət dili elan olunandan sonra öz nəvələrini rus məktəblərindən çıxarıb, Azərbaycan məktəblərinə verdilər. Siz elə güman etməyin ki, onlar mənim dediyim həqiqəti başa düşdüklərindən və artıq milli şüura yiyələndiklərindən belə edirlər. Xeyir! Onlar artıq yuxarılar da dövlət işlərinin Azərbaycan dilində aparıldığını gördüklərində nəvələrinə gələcəkdə yüksək vəzifələr qapdırmaq üçün belə edirlər. Allah eləməsin, əgər gələcəkdə Azərbaycan dilinin deyil, moltanı dilinin dövlət dili olma ehtimalını bilsələr bu şərəfsizlər nəvə və nəticələrini indidən həmin dildə oxutmağa çalışarlar. Bu isə bizim milli şüurumuzun yetkin olmamasının ən birinci sübutudur.

İnsanın vətənpərvər kimi yetişməsində ana dilinin əhəmiyyətinə ikinci dərəcəli bir şey kimi baxmaq olmaz. Ana dili Vətəndir, millətdir, onun ruhudur, psixologiyasıdır. Bu ruhda, bu psixologi ya ilə silahlanmayan adamın vətənpərvərliyinə inanmaq çətin dir.

Özgə məktəblərində övladlarımıza özgə ruhun, özgə psixologiyanın aşılanması bizim milli varlığımızı əlimizdən aldı, bizi mənən yoxsullaşdırdı. 170 illik rus və Sovet əsarəti dövründə milli məktəblərdə də uşaqlarımıza "SSRİ tarixi" adı altında Rusiya tarixini, beynəlmiləlçilik şüarı altında isə ruslaşdırma siyasətini yeritdilər. Beləliklə də, Ö.Faiqin dediyi kimi, millətimizin türklük qanını xarab etdilər, müsəlmanlıq ruhu və imanını öldürdülər.

Bir millətin övladları öz xeyri üçün düşmənlə sazişə girib öz

millətinin torpağını satırsa, mənsəb pillələrində bir pillə yuxarı qalxmaq üçün Vətən övladını güdaza verirsə, Vətən torpaqlarının əldən getdiyi bir zamanda ölkənin müdafiə naziri xalqın müdafiə fonduna verdiyi pulları mənimsəyirsə, vəzifədən ötrü ölkəni daxilindən parçalamağa çalışırsa, vallahbillah, o kişinin dediyi kimi, qanımız xarab olmuş, özümüz də imansızıq.

Mütəllibovu taxtdan salmaq üçün Laçını, Xocalını, Y.Məmmədovu yıxmaq üçün Şuşanı, Əbülfəz Elçibəyi yıxmaq üçün Kəlbəcəri, Ağdərəni, indi də Əliyevi gözdən salmaq üçün Ağdamı düşmənə təslim edənlərdən hansı milli qanı, hansı imanı gözləmək olar?

Beləliklə, əsrin əvvəlində böyük ədiblərimizin millətimizdə gördüyü xəstəlik əsrin sonunda da davam etməkdədir.

Bununla bərabər, Ömər Faiq böyük bir ümidlə gələcəyə baxır və gələcək nəsilləri gələcəyə hazırlamaq yollarından danışır. O zamankı fəlakətləri istiqbalımıza qurban verməyə hazır olduğunu bildirir: "Əgər bugünkü nöqsanlarımız imtahan ilə dəyərsizliyimizi qanıb gələcəyimizə hazırlana bilsək çəkdiyimiz fəlakətlər, həqarətlər qoy millətin istiqbalına qurban olsun".

Bu gün təəssüflə deməliyik ki, millətin o vaxt çəkdiyi müsibət lər və acılar onun "İstiqbal" dediyi bu günə heç nə vermədi.

Bu böyük vətəndaş "istiqbal" sözünü yazarkən əgər bilsəydi ki, 1993-cü ildə də həmin faciələr, həmin həqarətlər təkrar olunacaq və milləti onun 1915-ci ildə yazdıqlarından heç nə öyrənməyəcək, yəqin ki, ürəyi partlardı. Bəs bu günün qələm sahib ləri olan bizlər bütün bu tarixi həqiqətləri biləbilə və millətimizin bugünkü faciələrini öz gözlərimizlə görəgörə bunlara necə dözür, necə yaşaya bilirik?

Əllərimi göyə qaldırıb deyirəm: İlahi, biz də heç! Barı gələcək nəsil bizim buraxdığımız nöqsanları təkrarlamasın. Böyük ədiblərimizin dediklərindən öyrənsin, tarixi dərslərdən ibrət götür

sün!

Sözümün sonunda orta və ali məktəblər üçün proqram tərtib edən müəlliflərdən xahiş edirəm: Dərsliklərə Ömər Faiq Nemanzadə kimi vətəndaş ədiblərin xalqa ibrət dərsi verən bu cür məqalələrindən nümunələr salsınlar. Onların ürək yanğısını gənc nəslə çatdırsınlar. Bəlkə bu yazıların köməyilə yeni nəsil bizdən ağıllı oldu, ata və babalarının nöqsanlarını təkrar etmədi.

*"Azərbaycan" qəzeti, 1 sentyabr, 1993.*
*"Yanan da mən, yaman da mən", Bakı, 1995.*





## ÇEVRİLMƏ

***(Şəhid balamız Oruc Musa oğlunun əziz xatirəsinə)***

Əzizim Oruc, ay mənim millətimin fədakar oğlu, bu gün sənin yoxluğunu bütün varlığımızla hiss edir və göynəmgöynəm göynəyirik. Min dəfə təəssüf olsun ki, bu gün mən sənin özünə deyil, müqəddəs ruhuna müraciət edirəm.

Hamı - bütün yaranmışlar bir atanın, bir ananın övladı olur. Sən də doğulanda Səkinə ananın və Musa atanın övladı kimi doğul dun. Amma dünyanı dəyişəndə bu boyda Vətənin övladına çevrildin. Bu çevrilmə birdən olmadı, sən xalqın öz azadlığı yolun da apardığı mübarizəyə qoşulduğun gündən başladı. Son dörd ildə sən üç gülüzlü balana deyil, yeddi milyonluq xalqına qulluq etməyə başladın. Bu müddətdə sən təkcə öz ciyərinlə deyil, 7 milyonluq xalqın ciyəriylə nəfəs aldın, 7 milyonun ağlı ilə düşünüb, ürəyi ilə duydun, əlindən gələni elədin.

Sən adi bir rabitəçi idin. Lakin sən bu adiliyi öz əməlinlə qeyri-adilik mərtəbəsinə qaldırdın. 20 Yanvar qırğını günlərin də sən hər gün neçə dəfə məni dünya radioları ilə birləşdirir, xalqımızın fəryad səsini dünyaya çatdırırdıq.

Ey adsız adlandırılan uca qəhrəman, sən ömründə bir dəfə şüar demədin, amma səni tanıyanlar üçün şüara döndün.

Heç yadımdan çıxmaz, türk jurnalistləri məndən müsahibə almaq

üçün bizə gəlmişdilər. Təsadüfən sən də bizdə idin. Başımıza gələn erməni bəlasının mahiyyətini, bu olayların arxasında duran məqsədi, məramı elə açdın ki, izahatına mən də heyran qaldım, jurnalistlər də... Sonra Türk mətbuatında sənin dediklərini dərc edildi və dünya bizim başımıza açılan oyunların əsl mahiy yətindən agah oldu.

Sən bu Vətən üçün əlindən gələni elədin, ey Vətənimizin namus lu oğlu! Bu da təsadüfi deyil ki, sən sevimli balanın adını Atatürk qoymuşdun. Ataktürk adı ilə sən demək istəyirdin ki, övladın doğma Vətəninə Ataktürk kimi gərəkli olsun! Atatürk balanın Azərbaycanımıza layiqli oğul olacağına mənim şübhəm yoxdur. Çünki o, sənin kimi qeyrətli atanın oğludur. Beləliklə də, sənin qeyrət damarın və bu damarda axan saf, təmiz qanın nəslində davam edəcək, bu nəsil də yenə sənin kimi bu xalqın, bu Vətənin qeyrətini çəkəcək.

Mən sənin nəslində əsrlər boyu davam edəcək bu təmiz qanın hərarəti ilə yaranacaq gələcək günlərin gözəlliyinə inanıram.

*“Axtarış” qəzeti, 13 may, 1992.*
*“Yanan da mən, yaman da mən”, Bakı, 1995.*





# BÖYÜKLÜK VƏ NƏCABƏT RƏMZİ

Məmməd Cəfər müəllim! Bakı Universitetində, pedaqoji institutların filologiya fakültələrində, İncəsənət Universitetin də və Akademiyanın Ədəbiyyat və Dilçilik institutlarında çalışan onlarca alimin ustadı, müəllimi! Bu alimlərin hər birinin ruhun da, mənəvi dünyasında Məmməd Cəfər işığından bir zərrə var. Həm alimliyi, həm müəllimliyi, həm də ən ümdəsi, insanlığı, alicənablığı ilə bizim hamımız üçün nümunə olan bu böyük insan

böyük bir ədəbi nəslin mənəvi atası olmuşdur. O, təvazökarlıq etalonu, nəcabət və xeyirxahlıq simvolu, sözün geniş mənasında, ziyalılıq örnəyi idi.

Ən mühüm olan o idi ki, içində yaşadığımız cəmiyyətin qeyriinsaniliyi, dəhşətləri və müsibətləri onun təbiətindəki böyüklüyü, xasiyyətindəki nəcibliyi və büllur təmizliyi korlaya bilmədi. O, dünyamıza saf gəldi, saf da getdi. 50 ildən artıq bir müddətdə Azərbaycan ədəbiyyatşünaslıq elminin ağır yükü Məmməd Cəfər müəllimin çiyinlərində getmiş və o, bu elmi istiqamətləndirmişdir. Ədəbiyyatımızın qədim dövrlərindən tutmuş bu günə qədər, Nizamidən tutmuş C.Cabbarlıya qədər böyük sənət korifeylərimiz haqqında ən tutarlı və ən doğru sözü o demiş, ictimai fikrimizin əsas yönlərini, söz sənətimizin bütün incəlik və dərinliyini qəlbinin və

ağlının süzgəcindən keçirib onların düzgün dəyərini vermişdir.

Doğrusu, bu gün mənə təəccüblü görünən odur ki, hələ o zaman yəni 50 və 60cı illərdə sevimli müəllimimiz bizimlə açıq siyasi söhbətlər etməkdən çəkinməz və bizə dünya hadisələrinə ayıq gözlə baxmağı öyrədərdi. O, mövcud totalitar sistemin bütün eybəcərlikləri barədə bizimlə danışar və bu sistemin mütləq dağılacağının bir zərurət olduğunu bildirərdi.

Onun nəcibliyinə və böyüklüyünə dair bir əhvalatdan söhbət açmaq yerinə düşər:

Təxminən 194849cu illər olardı. O zaman universitetin filologi ya fakültəsində dekan olan Məmməd Cəfər müəllim, eyni zamanda, "Ədəbiyyat qəzeti"ndə Baş redaktor işləyirdi. Mən isə universitetdə yazıçı Mir Cəlalın aspirantı idim. Təqaüdlə dolana bilmədiyimi hiss edən M.Cəfər müəllim məni qəzetə ədəbi işçi götürmüşdü.

Bir gün fakültəyə səs düşdü ki, M.Cəfər müəllimin kabine-tindən onun paltosu oğurlanıb. Və IV kursda oxuyan son dərəcədəkasıb olan bir tələbədən şübhəleniblər.

Həmin gün M.Cəfər müəllim evinə paltosuz getməli oldu. Ertəsi məni yanına çağırıb dedi ki, heç kəsin bilməməsi şərtilə, sən

həmin tələbəni tap, ona de ki, heç nədən qorxmasın. Paltonu neçəyə satıbsa, sənə desin, mən o pulu verim. O da paltonu geri alıb sənə versin. Mən elan edəcəyəm ki, paltonu kabinetimdə deyil, birinci mərtəbənin girəcəyindəki asılqandan asmışammış. Əks təqdirdə, qorxuram məsələ böyüyər və o tələbəni universitetdən qovarlar.

M.Cəfər müəllimin dediyi kimi də elədim. Tələbə paltonu alıb mənə verdi. Və paltonun tapıldığını elan elədik. Tələbə qovul maqdan qurtardı.

Bu əhvalatdan bir müddət sonra M.Cəfər müəllim mənim vasitəm lə o tələbəyə hər ay cib xərcliyi göndərirdi. Zaman keçdi. Tələbə universiteti bitirdi. Onu rayonların birinə müəllim göndərdilər. Son-

ralar eşitdim ki, o, işlədiyi rayonda hansısa böyük vəzifədə çalışır.

Günlərin bir günü həmin keçmiş tələbənin məni axtardığını eşitdim. Mən o zaman artıq universitetin dosenti idim. Onunla görüşdük. O, utanautana məndən xahiş etdi ki, minnətdarlığını bildirmək üçün onu M.Cəfər müəllimlə görüşdürüm. Qaldığı otelin telefon nömrəsini də verdi. Mən tələbənin arzusunu M.Cəfər müəllimə çatdırdım. O, vaxtilə ləyaqətsiz iş görmüş tələbəni utandırmamaq üçün görüşdən imtina etdi.

Mənim namizədlik ("S.Vurğunun lirikası") və doktorluq ("S.Vurğunun yaradıcılıq yolu") dissertasiyalarımın hər ikisinin opponentti M.Cəfər müəllim olmuşdur. Namizədik dissertasiyamın müdafiəsi 1951-ci il mart ayının 9na təyin olunmuşdu. Martın 7 də məni o zaman universitetin rektoru olan Cəfər Xəndanın yanına çağırdılar. Mən rektorun kabinetində elmi rəhbərim Mir Cəlal, fakültənin dekanı M. Cəfər, fakültənin partkomu dilçialim Nəsir Məmmədov, o zaman ən tanınmış ədəbiyyatşünası M.Rəfili və bir iki nəfər də indi adlarını unutduğum alimlərlə qarşılaşdım.

Rektor C.Xəndan mənə bildirdi ki, dissertasiyanı professor M. Rəfili oxumuş, bəyənməmiş və ayın 9-na təyin olunmuş müdafiənin saxlanmasını tələb edir.

Burada kiçik bir haşiyəyə çıxmalıyam: Professor M.Rəfilinin hücumunun mənə qarşı deyil, mövzuya - yəni S.Vurğuna qarşı olduğunu müzakirəyə toplaşanların hamısı bilirdi. O zaman S.Vurğun Mərkəzi Komitənin birinci katibi M.C.Bağırovun hədəfin də idi.

Rəfili qəlbində tutduğu bu məsələnin üstünü vurmadan, ümumiyyətlə, dissertasiyanın zəif olduğunu, gəldiyim nəticələri elmi surətdə əsaslandıra bilmədiyimi iddia edirdi.

Amma onu da deyim, mən bilirdim ki, M.Rəfilini cin atına mindirən dissertasiyanın bir yerində S.Vurğundan misal gətir diyim iki beyt idi:

*Kosmopolit tənqidçilər ömrü boyu dandı məni*
*Dedi, əsl şairlərin nə yurdu var, nə vətəni.*
*Dedi, bütün yer üzüdür sənətkarın ana yurdu*
*Bizim çoban şairi də saz üstündə şeir qurdu.*

S.Vurğunu danan və onu "çoban şairi" adlandıran isə M.Rəfili idi. Amma mən onun adını çəkməmişdim. Bundan başqa, S.Vurğunun qələm yoldaşının bir qismi, o cümlədən də, əsasən, M.Rəfili onun əleyhinə idi. Mənim dissertasiyamsa o dövrdə müasir ədəbiyyatdan müdafiəyə təqdim olunan ilk dissertasiya idi. Və bu,şairin müasirlərində çox böyük qısqanclığa səbəb olmuşdu.

Kabinetə toplaşanlar əsəri müdafiəyə buraxaq, ya yox sualı qarşısında qalmışdılar. Nəsir Məmmədovla M. Cəfər bu işin adının müdafiə olduğunu irəli sürür və "müdafiəyə buraxaq, görək, dissertant öz mülahizələrini sübut edə biləcək, ya yox?" deyə M.Rəfilini susdurmağa çalışırdılar. Mir Cəlal elmi rəhbərim oduğundan bitərəf mövqe tutmuş, M. Rəfili isə dediyindən dönmürdü.

Uzun mübahisədən sonra əsəri müdafiəyə buraxmaq qərara alındı. Kabinetdən çıxanda M. Cəfər müəllim "axşam bizə gəl", deyə qulağıma pıçıldadı.

Axşam görüşdük. O, mənim müdafiə zamanı edəcəyim çıxışı oxuyub, ora bir əlavə elədi. Dissertasiyanın bütün dünyanı özünə vətən hesab edən kosmopolitlərə, doğma vətənə bağlı olan sənət karları "çoban şairi" adlandıranlara qarşı hücum yerində o, M. Rəfilidən yağlı bir misal gətirib dedi:

- Həmişə ilk silləni vuran aparır. Sən ilk çıxışında ona hücum edəndən sonra onun sənin əleyhinə danışması elm yox, intiqam hesab olunacaq.

Elə də oldu. Onun mənim əleyhimə çıxışı əvəz çıxmaq kimi

qəbul edildi.

Dekan olduğundan elmi şuranı M.Cəfər müəllim aparırdı. M.Rəfili məni başqa yerdə üstələmək üçün mənə 4 sual verdi. Etiraf edim ki, sualın birində dolaşdım. Mənim özümü itirdiyimi görən M.Cəfər müəllim məni vəziyyətdən çıxarmaq üçün M.Rəfilinin verdiyi sualın mahiyyətini izah etdiyi zaman sualın içində çox incə şəkildə cavabını da mənə ötürdü.

M. Rəfili mənə verilən işarəni başa düşüb, Məmməd Cəfərə etirazını bildirsə də, elmi şuranın üzvləri bunu qəbul etmədi.

Etiraf edim ki, M. Rəfili son çıxışında mənim cavablarımdan razı qaldığını deyib, şura üzvlərini mənə səs verməyə çağırdı və hamının gözü qarşısında açıq səs verdi və mən bir səslə keçdim.

Mən o zaman hardan bilə bilərdim ki, zaman keçəcək, mən M.Cəfər müəllimi tanıdığım zaman hələ dünyaya gəlməmiş oğlum İsfəndiyar da bu gözəl alimin və nəcib insanın rəhbərliyi altında M.Hadi haqqında dissertasiya yazacaq və mənə elədiyi xeyir xahlığı başqa şəkildə ona da göstərəcəkdir.

M.Cəfər müəllimlə bizim dostluğumuz mənim aspirantlıq illərim dən başlanmışdı. O zaman biz 4 dost idik. Məmməd Cəfər, Əziz Mirəhmədov, Məsud Əlioğlu və mən. Ən maraqlısı bu idi ki, Məmməd Cəfərlə Əziz Mirəhmədov mənim, mənsə Məsud Əlioğlunun müəllimi olmuşuq. Mənim universitetdə müəllimliyim illərində bu dostluq daha da möhkəmləndi və ailəvi dostluğa çevrildi.

M.Cəfər müəllimin bilik dairəsi çox geniş və əhatəli idi. Ədəbiyyatşünaslarımızın hərəsinin bir xalqın ədəbiyyatının bir dövrün, bir sahənin mütəxəssisi olduğu məlumdur. Lakin kim deyə bilər ki, M.C.Cəfərov yalnız Azərbaycan ədəbiyyatının, bu sahədə isə yalnız filan dövrün mütəxəssisi idi? Heç kəs! Çünki o, yalnız bizim ədəbiyyatımızın deyil, eyni zamanda, Qərb və rus ədəbiyyatının

da yaxşı bilicisi idi. Yaxud, kim deyə bilər ki, o, bizim doğma ədəbiyyatımızın yalnız filan dövrünün tədqiqatçısı idi? Yenə heç kəs!

O, Tolstoydan, Dostoyevskidən, Çernışevskidən, Belinskidən, Dobrolyubovdan tutmuş Şekspirə, Balzaka qədər dünya ədəbiyyatını dərindən oxumuş, hətta Belinskinin Puşkin və ümumən, poeziya haqqında əsərlərini dilimizə çevirmişdi. Nizamidən tutmuş, Axundzadəyə qədər, Mirzə Cəlildən tutmuş, S.Vurğuna qədər bütün söz korifeylərimiz haqqında əsərlər yazmış, onların bizə məlum olmayan tərəflərini incəliyinə qədər açmışdır.

Buna görə də mən və mənim yaşıdlarım, vaxtilə mənim tələbələrim olmuş elm və sənət adamlarının bir neçə nəsli onun kitablarından öyrənmiş, bir sözlə, onun əlindən su içmişdir. Biz ondan yalnız elm öyrənməmişik, necə yazmağı, oxuduğumuz ədiblərin yaradıcılığının mahiyyətini necə anlamağı və harda axtarmağı, bir sözlə, təhlil üsulunu öyrənmişik. O, faktoloq deyil, belə ki, faktdan çox, mahiyyəti, qoyulan problemin psixoloji və mənəvi tərəflərini açmağı sevirdi. Bu cəhətdən bu loğman tədqiqatçının "Füzuli sevir" və "Füzuli düşünür" məqalələri onun yaradıcılığında çox böyük önəm daşıyır.

Buna görə də şəxsən mən onunla hər görüşümdə yazdığı yeni məqalədən, yaxud yeni kitabdan söhbət açmağa çalışar, onun təhlilini düz başa düşüb düşmədiyimi soruşardım.

Bizim görüş yerimiz Rotefane parkındakı (indiki Nizami parkı) gözdən iraq kiçik bir restoran idi. Etiraf edim ki, mən ləyaqət lə və qaydasında içməyi müəllimlərim M.Cəfər və Əzizdən öyrəndim. Ayda, heç olmasa, 34 dəfə orda görüşər və qəlbimiz dəkiləri bölüşərdik. Əziz müəllimin bizdən ayrılan yeganə cəhəti onun dövrə, zamana - bir sözlə sovet qurluşuna bizim qədər çılğın etirazının olmaması idi. Bununla belə, bizi daha çox xasiyyətimizdəki

ümumi cəhətlər və elmə, sənətə münasibət birləşdirirdi.

Biz telefonda bir-birimizə “restorana getmək” təklifini edəndə, onu açıq deyil, “Ağlamağa gedəkmi?” - deyərdik. Bizim üçün “ağlamaq” dərdləşmək mənasında idi.

Məmməd Cəfər müəllim mənim üçün kim idi? - sualına “idrakmüəllimi”, “insanlıq və xeyirxahlıq müəllimi” cavabını verərdim. Cəsarətlə deyərəm ki, onu tanıyanların hamısı, istisnasız olaraq, ona “mələk” deyir, onu yer insanı deyil, səma insanı adlandırır. Həqiqətən, o, mələk qədər təmiz, mələk kimi qərəzsiz, qeyri-adi bir insan idi. O, insanlığın əşrəfi idi.

Bu sətirləri yazarkən düşünürəm: 70dən çox yaşayan, yüzlərlə minlərlə insanlarla ünsiyyətdə olan mələk simalı, nur kündəsi bu insandan, görəsən, bir dəfə də olsun inciyən bir adam olmuşmu? İnsan bir yana, görəsən, o, ömründə bir milçəyə, bir qarışqaya toxunmuşmu?

Sağlığında da biz bunları bilirdik. Amma o, dünyasını dəyişəndən sonra biz kimi itirdiyimizi daha dərindən başa düşür və onun nəcib, xeyirxah əməlləri yadımıza düşəndə göyüm-göyüm göynəyir və onunla daha tez-tez görüşməməyimizə, onun böyüklüyünü üzünə qənşər deyə bilməməyimizə təəssüflənirik.

Bu gün yeganə əlacımız isə ona rəhmət oxumaq və nəhəng yaradıcılıq irsini gələcək nəsillərə çatdırmaqdır.





# CƏSARƏT

Hər kəsin özünəməxsus elə xarakter əlaməti olur ki, o adam həmin əlamətlə səciyyələnə bilir. 40 ilə yaxın bir müddətdir, eyni zindana çəkic vurduğumuz, eyni əqidəyə qulluq etdiyimiz qələm dostum Qulu Xəlilovu mən bircə sözlə səciyyələndirə bilərəm: Cəsarət!

Bəli, cəsarət Qulunun həyat kredosudur. Onun həmişə öz sözü, öz cəbhəsi var. O, tutuquşu kimi ağızdan söz qapıb, kiməsə xoş gəlmək üçün, nəyəsə uyğunlaşmaq üçün söz deyən adam deyil. Qulu hər zaman, hər məsələdə yalnız öz düşündüyünü demiş, ürəyini deşən fikirlərini yazmışdır. Hər kəsin düşündüyündə səhv ola bilər. Lakin səhv başqa, bir cür danışıb, başqa cür danışmaq və yazmaq isə tamam başqa məsələdir.

Hamıya məlumdur ki, bizim nəsl elə bir zəmanədə yaşayıb-yaratmışdır ki, beynimizi və ürəyimizi gəmirən fikirləri tam açıqlığı ilə demək imkanımız olmayıb. Daha doğrusu, qoymayıblar. Belə bir vəziyyətdə namuslu yazıçı həqiqəti, istədiyi açıqlıqda deyə bilməsə də heç olmasa yalan yazmayıb. O zaman üçün bu da kişilik idi. Böyük Sabir "kimdir arif?" sualına "əsrə görə" cavabını verir. Bəli, arif öz əsrinin imkanları daxilində bu imkan məhdudluğunu yarıb çıxana deyərlər. Əgər biz zəmanəmizin fikir adamlarının dediklərini və yazdıqlarını "əsrə görə" mizantəraziyə qoysaq, yalnız bir neçəsinin yazdığı əsərlər əsrin çəki daşını basa bilər. Bax belələrindən biri də bu gün 60 yaşı tamam olan qələm dostumuz Qulu Xəlilovdur.

Qulu ədəbiyyata kənddən, təbiətin qoyunundan gəlmiş, həyatın əzab və məhrumiyyətlərindən göyərmişdir. Buna görə də biz onun yazılarından həyatın ağrı və acılarını oxuyuruq. “Yaşamaq istəyirəm”, “Ömrün baharı” romanları və bir sıra hekayələri başdan-başa həyatın göynərtiləridir.

Maraqlı burasıdır ki, onun tədqiqat əsərləri də bu məqsədə yönəlmiş, o, araşdırdığı bədii əsərləri xalq həyatının, xalq dərdinin nə dərəcədə əks etdirilməsi baxımından qiymətləndirmişdir. Onun Azərbaycan romanının inkişaf yollarına həsr etdiyi elmi əsərində tədqiq olunan romanlar məhz bu baxımdan araşdırılır.

Qulu bir şəxsiyyət kimi həyatın özü qədər əlvan, təbiətin özü qədər təbii olduğu üçün ömründə riyakarlıq bilməmiş, üzünə riya pərdəsi çəkməmiş, yazılarında da, söhbətlərində də düşündüyünü demiş, bunun ona nəyə başa gələcəyini fikirləşməmişdir. Bu xasiyyətinə görə də böyük yazıçımız S.Rəhimov Qulunu “Koroğlu toppuzu” adlandırardı.

Son illərdə qələmini daha çox publisistika sahəsində işlədən Q.Xəlilov ekologiya məsələlərinə dair çox kəsərli məqalələrlə çıxış edir. Bu məqalələrdə millətimizin və təbiətimizin başına gətirilən dəhşətli münasibətlərdən ürək ağrısı ilə danışır və bunlara qarşı mübarizədə bizi vəhdətə çağırır. Mən onun bu mövzuda yazdığı kəsərli məqalələri Vətən övladının, əsl Vətəndaşın fəryadı adlandırardım.

*“Azərbaycan müəllimi” qəzeti, 19 dekabr, 1990.*
*“Yanan da mən, yaman da mən”, Bakı, 1995.*





# TELEFON SÖHBƏTİ

***(Heydər Əliyevi Bakıda kimlər qarşıladı, necə qarşıladı...)***

Xalq şairi Bəxtiyar Vahabzadə ilə "Demokratik Azərbaycan" qəzetinin baş redaktoru İsa İsmayılzadənin söhbəti.

...Eşitmişdim ki, Heydər Əliyev bazar günü, fevralın 28-də Bakıya qayıdır, onu da eşitmişdim ki, qarşılayanlar arasında xalq şairi Bəxtiyar Vahabzadə də olacaq. Təxminən iki il bundan öncə, H.Əliyev Moskva ilə "sağollaşıb" birdəfəlik doğma yurda dönəndə, həmin bu aeroportda Mütəllibovun fitvası ilə ona qarşı nə həngamələr törədildiyini də bilirdim: nifrət, qəzəb dolu şüarlar, atmacalar, təhqirlər... Onda H.Əliyev başını aşağı salıb, qeyzlənmiş kütlənin arasından Bəxtiyar müəllimin köməyilə birtəhər çıxmışdı. Bu dəfə isə...

Dəstəyi şairin nəvəsi Adilə Sultan qaldırır, babanı istədiyimi deyirəm, sonra həyat yoldaşı cavab verir, sonra da...

- Xoş görmüşük, Bəxtiyar müəllim, çoxdandı səsinizi eşitmirəm - nə telefonla, nə də...

- Xoş gördük. Vallah, elə ki, adamın kölgəsini qılınclayanlar tapıldı, nə səsini çıxarmaq istəyirsən, nə də özünü göstərmək istəyirsən.

- Bəxtiyar müəllim, eşitdim, dünən (söhbət martın 1də oldu) siz də aeroportda olubsunuz, Heydər Əliyevi qarşılayanlar arasında. Az

qala, nağıl kimi danışırlar: görünməmiş hörmət-izzətlə, məhəbbətlə...

- Elədi. Amma iş burasındadı ki, ikiüç il bundan qabaq bu adamların çoxu Mütəllibovun göstərişi ilə onu, az qala, daşqalaq eləyəcəkdi. Həmin millətin oğulları, həmin qonaq... O qəzəbli adamları çıxsaq, o zaman Heydər Əliyevi 56 adam qarşılamışdı. O dəfə söyüşlər, təhqirlər, atmacalar, bu dəfə... ayağı altında kəsilən qoç... Bəlkə də, 10 min adam yığışmışdı aeroporta. Tanışlara üzümü tutdum: “Lotular, bəs onda hardaydınız?” Güldülər.

- Bağışlayın, siz danışdıqca, iki il bundan əvvəl parlament iclasında onu sancmaq, təhqir eləmək üçün növbəyə dayananlar göz önünə gəlir.

- Elə bu dəfə də onu qucaqlayıb öpməyə növbəyə duranlar çoxalmışdı. İlahi, bu necə xalqdı!

- Söyəndə də birinci, sevəndə də birinci. Birincilik azarı...

- Mən çəkilib kənarda durmuşdum, özü çağırdı. Onu deyim ki: bu dəfə təyyarə düz deputat otağının qarşısına yaxın sürüldü. Adamları görüb təəccübləndi: “A kişilər, mən Məkkədən gəlirəm ki?..” Hə, məni çağırdı, “gəl, görüşək” - dedi, dedim, növbə gözləyirəm, güldü. “Heydər müəllim, 100-dən çox maşın gəlib, o dəfə də mən sizi öz maşınımla qarşıladım, mənim maşınımda da getdik şəhərə. İndi də gedək”. Razılaşdı. Çıxdıq. Gördük, prezident də maşın göndərib. Dedi: “Bu dəfə sən mənimlə getməlisən”. Mindik maşına.

- Yol boyu nədən danışdınız - gizli deyilsə?..

- Bizi, xalqımızı maraqlandıran məsələlərdən elə bir söz demədi. Dedi ki, sənin, mənim yaşım keçib, elədiyimizi eləmişik, amma millətin bu dar günündə millətimizə öz kömək əlimizi uzatmasaq, gələcək nəsil bizi bağışlamaz. İmkanım olsa, nə bacarıram, eləyərəm - əgər bunun üçün şərait yaratsalar... Təki millətimiz bu vəziyyətdən xilas olsun. Bir də onu dedi ki, biriki günə kimi görüşərik. Belə-belə işlər...

- Doğrudanmı, niyə görünmürsünüz?

- Desəm, xalqımdan incimişəm - düz çıxmaz. Amma atmaca atanlar, su bulandıranlar, qəzet səhifələrini təhqirlə, söyüşlə dol-

duranlar çoxalıb; yəqin, onların bir məqsədi var, xalqın sevdiyi, hörmət etdiyi, üzdə olan adamları gözdən salmaqla hörmətə minmək istəyirlər. İsmayıl Şıxlı, Bəxtiyar, Anar, nə bilim kimlər nə vaxtdan xalqın ögey oğulları oldu? Yadıma düşür Əli bəy Hüseynzadənin, Məmməd Əminin, Əhməd bəy Ağaoğlunun taleyi... Cəmiyyət öz ziyalısına arxa çevirəndə, iqtidar onu saymayan da - halbuki, bu iqtidarın hakimiyyətə gəlməsində bizim necə rolumuz olub, bir Allah bilir - biz neyləməliyik? Ya susmalıyıq, ya da üzümüzə xoş baxılan yerə üz tutmalıyıq.

- İnciməyin, belə dar günümüzdə mən Vətəndən uzaqlaşanlara haqq qazandırmıram, Bəxtiyar müəllim! İndi adam özünə adi yaradıcılıq evinə, istirahətə, məzuniyyətə getməyi də qıymır.

- Əlbəttə, qazanc yolu tutub gedənlərə mən də haqq qazan dırmaq istəmirəm... Yaxşı, mənə nə qədər atmaca atarlar? Oğlu filan yerdə işləyir, prokurordu, nə bilim, nə? Mənim oğlum olduğuna görə heç yanda işləməməlidi? Bəs onun ailəsi? İxtisasca hüquq şünasdırsa, o neyləməlidi? Biz hamımız, sən də, mən də qələm lə çörək qazanırıq, hərəyə Allah bir ömür yolu verib. Teztələsik adamın adının üstündən xətt çəkmək, nə deyim, nankorluqdu.

- Ürəyinizə salmayın, Bəxtiyar müəllim, onsuz da əvvəllər, imperiya dövründə də həqiqəti yazanlara heç vaxt "sağ ol" deməyiblər. İllərlə, günlərlə alqışladığımız, həsrətini çəkdiyimiz azadlıq idealımız gərək gözümüzdən düşməsin, bizi ruhdan salmasın hətta istədiyimiz azadlıq olmasa belə... Sağ olun...

*"Demokratik Azərbaycan" qəzeti, 3 mart, 1993.*
*"Yanan da mən, yaman da mən", Bakı, 1995.*



## PROFESSOR OQTAY SİNANOĞLU:
## *“BİR ÖLKƏNİ KÖLƏLƏŞDİRMƏK İSTƏSƏNİZ, TƏHSİLİNİ YABANÇILAŞDIRIN!”*

***Tanıtma:*** Oqtay Sinanoğlu 34 il Türkiyədən kənarda, Amerikada və Avropanın tanınmış elm və təhsil ocaqlarında çalışmış, görkəmli fizika alimidir. Uzun illərdir ki, təhsilin yabançılaşdırılmasına qarşı ardıcıl mücadilə aparır. Türkiyədə Özəl İşıq Universitetinin açılışı zamanı tələbələrin prezident S. Dəmirəli ingilis dilində şüarlarla qarşılamasından qayğılandığını bildirdi. O.Sinanoğlu Tansu Çillərlə bağlı özgə bir əhvalatı xatırlatdı:

*O.Sinanoğlu:* T. Çillər Yaponiyaya səfəri zamanı yaponiyalı həmkarına “Mən ingiliscə danışacağam” demişdir. Yaponlar bundan çox məyus olmuşlar. Orada yaxşı türkoloqlar, tərcüməçilər var. Yaponiyada ingiliscə təhsil yoxdur. Keçən əsrin sonlarında üç il İngiltərədə oxumuş bir yapon “Elm dili yaponca deyil, ingiliscə olmalıdır” demiş, ertəsi səhər onun meyiti evindən tapılmışdır. Heç vaxt, heç bir şeyin ingiliscə olmadığı Yaponiyada Tansu xanım ingiliscə danışmışdır. İki aylıq Baş nazirlik dövründə Xarici İşlər Nazirliyinə gələrək, “mənə ingiliscə brifinq verin” deyə tələb etmişdir. Fikrimizcə, xarici işlər naziri Mümtaz Soysalın istefasına bunun da təsiri olmuşdur.

Bunlar təsadüfi hallar deyil, bir mərkəzdən planlanan və yönəldilən işlərdir. Amerikada çeşidçeşid türkamerikan dərnəkləri

var. İki il öncəyə qədər bunların hamısında bülletenlər, açıqlama və toplantılar türkcə idi. Artıq hamısı ingiliscədir. Bunun səbəbini soruşdum, dedilər ki, böyük elçi Nüsrət Kantemirdən yazılı göstəriş var: "Bundan sonra bütün görüşlərinizi, söhbətlərinizi ingiliscə aparacaqsınız".

Bundan bir müddət əvvəl dünya Nəsrəddin Xoca həftəsi keçirir di. Almaniyadakı türk dərnəkləri və konsulluq tədbirlər təşkil etmişdi. İştirakçıların hamısı türk idi, bir də Yaponiyadan türkoloq bir xanıma Baş konsul "Çıxışınızı ingiliscə edəcəksiniz" buyurmuşdu. Hamı ingiliscə çıxışa başladı. Baş konsul "ingiliscə danışın" dedikdə yaponiyalı xanım "Nəsrəddin Xoca ingiliscə anladılarmı? söyləyərək, çıxışını türkcə bitirdi.

Bəllidir ki, türk dilini yox etmək üçün planlı bir iş görülür. Dövlətin təhsil siyasətinə görə, hər kəsin ingiliscə bilməsi vacib sayılır. Romalılardan üzü bəri ölkələrin işğalında ən yaxşı istila yolu hərb yolu deyil//. Bir ölkəni kölələşdirmək istəsən, təhsilini yabançılaşdır. Aşağı məktəblərindən dilini yabançılaşdırdığın nəsillə hər işi görmək olar.

Mən 20-30 ildir qorxuram ki, bizdə də belə ola bilər. İndi olur! Bunu da başlayan mister Doğramacıdır. Aşağı məktəblərdə aparılan bu təhsil siyasəti sayəsində uşaqlar ana dilini bilmir, fransızlar da Əlcəzairdə belə etdi, ərəb dili aradan getdi, indi hər şey fransızcadır!

Mən yabançı dil öyrənməyi çox sevirəm, çeşidli dilləri bilmək insan üçün qazancdır. 20 il öncə əlimə gizli bir raport keçdi. Amerika dövləti bir təhqiqat şirkətinə neçə milyon dollar verib araşdırma aparmışdır ki, 20 il sonra aşağı məktəblərdən tutmuş bütün təhsil ocaqlarında tədris ingiliscə olduğu zaman amerikan kitab şirkətləri üçün Türkiyə nə boyda bazar ola bilər. Mən o zaman "Belə şey ola bilməz!" düşündüm. Amma 20 il keçdi və bu, oldu. İndi dərs kitabları İngiltərədən, Amerikadan gətirilir. Son rəqəmə görə 48 min 320 tələbə xaricdə oxuyur, ildə bunlara 5 milyardla 12 milyard dollar

arasında xərc çəkilir. Bəs Türkiyədə bütün universitetlərin xərci nə qədərdir? 1 milyard dollardan az! Qərb Türkiyənin yerini bilir. Onları qayğılandıran gənc nəsil dir ki, bu nəsil baş qaldırsa, Qərbin halı pis ola bilər. İndi Türk dünyasının müsəlman dünyası ilə bütünləşməsi gedir. Bu, Qərb ölkələrini narahat edir. Bunlar bizim ölkələrimizi sümürərək yaşayır, qaynaqlar, bazarlar buralardadır. Bu qaynaqları bircə dəfə kəssən, Qərb ölkələrinin halı pərişan olar.

Türkiyədə ilk dəfə yabançı dildə təhsil 1954-cü ildə Oksford Universitetinin əməkdaşı mister Braun tərəfindən başlandı. O

vaxta qədər ingiliscə təhsil verən məktəb yox idi. Zatən, Atatürk də buna qarşı olmuşdu. Mister Braun Ankara kollecində yapdığı işinə görə 20 il sonra İngiltərə kraliçasının əlindən medal aldı Türkiyəyə ingiliscə təhsili sırıdığına görə! Ondan sonra yüzlərcə Anadolu liseyi açıldı. Nədir Anadolu litseyi? “Anadolu” türkcə deyil, kökü “Anatoliya” olub. Qərbin Türkiyəyə verdiyi bir əcnəbi addır.

Heç yanda öz dilində deyil, özgə dilində təhsil verən bir sistem yoxdur. Dünyanın heç yerində hazırlıq sinfi deyilən bir şey yoxdur. Burada qayə satqın və xəfiyyə qafalılar yetişməkdədir. Türkiyədə ilk dəfə bu addımı Robert kolleci atmışdır ki, ölkəmizin bir çox rəhbərləri, nazirləri bu kollecin məzunudur.

Dünyada iki cür kapitulyasiya (təslimat) var, biri iqtisadi kapitul yasiyadır, ondan daha qorxuncu təhsil kapitulyasiyasıdır! Bu gün təhsil sistemi xaricilərə təslim edilir. Hər bir milli təhsil nazirinin yanında görünməz bir yabançı nazir, yabançı mütəxəssis var. Təhsil təslimçiliyi ilə yanaşı, ölkənin sənayesi, torpağı sümürülür. Qərb buranın işini 2000ci ildə bitirməyə qərarlıdır. Bunların niyyəti Türkiyəni dünyadan silməkdir. Bunun üçün də öncə dilimiz gəlir...

Buna qarşı nə edə bilərik? Ağıllı və ürəkli adamlar bu “olum və ölüm” davasında təhsil imperializminə qarşı birləşməlidir. Atatürk deyirdi: “Təhsil bütünlükdə milli olmalıdır!” O zaman Atatürk missioner məktəblərinin çoxunu bağlamışdı, təkcə Ankara kollecini saxlamışdı. İndi “Atatürkçülük” deyənlər Anadolu liseyi kollecini

açır. “Milliyyətçiyəm” deyənlər Anadolu İmam Xatib liseyi açıb müsəlmanlığı ingiliscə kitabdan öyrədir, “imperializmə qarşıyam” deyənlər hərbi liseyləri kollecə çevirməyə çağırır.

Ürəkli insanlar qalxıb, artıq bunlara qarşı mücadiləyə başlamalıdırlar.

*(Türkiyə, “Aydınlıq” qəzeti, 8 aralıq 1996-cı il sayında Dilək Uğuzun müsahibəsindən ixtisarla)*

*“Zaman və mən”, Bakı, 1999.*





# BÖYÜK
# TÜRKÇÜ

Mən hələ 60-cı illərdən Alparslan Türkeşin adını eşitmiş, onun böyük ideyası və bu ideya uğrunda apardığı şərəfli mübarizə ilə tanış olmuşam. Bu illərdən başlayaraq daim onun fəaliyyətini izləyir, türkçülük, ülgüçülük yolunda nə qədər əzab və işgəncələr çəkdiyini öyrəndim.

1977-ci ildə turist kimi Türkiyəyə getmişdim. Hələ o zamanlar Alparslan bəyin "Sovet imperiyası tərkibində olan əsl türklərin Kreml əsarətindən gectez qurtaracağına şübhəm yoxdur" sözlərinə və onun bu yolda apardığı mübarizəyə Türkiyənin özündə də istehza edənlər var idi. Amma zaman göstərdi ki, o, öz uzaqgörənliyi ilə vaxtı qabaqlamışdı.

Onun öz şəxsi dərdi yox idi. Özünü ideyasında elə əritmişdi ki, ömrü boyu türk xalqlarının dərdi onun ürəyindən gəlib keçirdi. Mən bir neçə dəfə onunla görüşmüş, evinin qonağı olmuş, hansı böyük fikirlər və arzularla yaşadığının şahidi olmuşam.

Bu böyük insanın, bu böyük türkçünün vəfatı yalnız Türkiyəni deyil, bütün türk dünyasını sarsıtdı. Buna görə də onun matəmi böyük Türk dünyasının matəmidir. Cəsarətlə deyə bilərik ki, 6 türk respublikasının müstəqilliyi Türkeş bəyin şah əsəridir.

Keçən ilin dekabrında mən Ankarada xəstəxanada yatarkən, o,

mənim görüşümə gəldi. Onda mən hardan biləydim ki, bu, bizim sonuncu görüşümüzdür.

Bu gün mən bir türk kimi, böyük türk oğlu Alparslan Türkeş bəyin xatirəsi önündə baş əyir və ona ulu Tanrıdan rəhmət diləyirəm.

*"Azadlıq" qəzeti, 8 aprel, 1997.*
*"Zaman və mən", Bakı, 1999.*





# HƏYƏCAN TƏBİLİ ÇALAN VƏTƏNDAŞ ALİM

Mən hələ tələbəlik illərindən Həsən Əliyevin adını yaxşı bir torpaqşünas alim kimi eşitmişdim, lakin şəxsən tanış deyildim. Filarmoniyada keçirilən bir yığıncaqda şair dostum İslam Səfərli bizi tanış etdi. Fasilə zamanı o dövrdə qapılar dalında qalan Azərbaycan dilinin taleyi barədə onun ürək yanğısı ilə dediyi sözlər məni əfsunladı. O vaxta qədər mən onun da şahidi idim ki, rəsmi yığıncaqlarda Həsən Əliyev həmişə yalnız ana dilində danışardı. Buna görə də o zamanın ədəbi gəncliyinin tamam başqa sahənin adamı olan Həsən Əliyevə dərin hörməti var idi. Sovet dövlətinin zirvədə olduğu zamanlar rəsmi idarələrdən qovulan ana dilimizin taleyi barədə hər adam açıqaçığına danışa bilməz, bu dərdi hər kəs ürəyində çəkərdi. İlk tanışlığımızda artıq Azərbaycanda çox məşhur olan bu alimin cavan şairlə bu qədər açıq danışıb, dilimizin qəsdən öldürüldüyünü deməsi məni həm sevindirmiş, həm də heyrətləndirmişdi. Ona görə sevinirdim ki, həmdərdimi tapmışam, ona görə heyrətlənirdim ki, mən bu sözləri dilçi və ədəbiyyatçının dilindən deyil, ana dili ilə o qədər də bağlı olmayan bir sahənin mütəxəssisindən eşidirdim. Heyrətimin bir səbəbi də o idi ki, dilimizin əridilməsi prosesi getdiyi zaman dilçi və ədəbiyyatçılar belə susduqları halda, Həsən müəllim bu qəsdə hər

yerdə etirazını bildirirdi.

İlk tanışlığımızdan bir müddət keçmiş, yəni 1959-cu ildə radio da mənim yenicə yazdığım "Şəbi-hicran" poemasının verildiyi gecə Həsən Əliyev evimizə zəng çalıb məni təbrik etdi. Bu zəngdən sonra bizim tanışlığımız, aradakı yaş fərqinə baxmayaraq, əqidə dostluğuna çevrildi. Biz tez-tez Dövlət Dram Teatrın da görüşər və fasilələrdə dərdləşərdik. Onu da deyim ki, Həsən müəllim Dram Teatrında olan ilk tamaşalara gələr, yeni yaranmış yaxşı əsərlərə sevinər, fikrini əsərlərini bəyənmədiyi müəlliflərin üzünə deyərdi.

1970-ci illərdə Dram Teatrında mənim "Yağışdan sonra" pyesim oynanılırdı. Həmin pyesdə Azərbaycan ekologiyasının bərbad hala salınmasından söhbət gedirdi. Tamaşadan sonra Həsən müəllim məni qucaqlayıb dedi:

- Zəmanəsinin qüsurlarını deməyi bacarmayan sənətkar qələmini sındırsa yaxşıdır. Sən bir çox əsərlərində xalqı narahat edən ciddi problemlərə toxunursan. Buna görə sağ ol.

Həqiqətən, Həsən Əliyev o zamanlar yaranan bütün bədii əsərləri bu baxımdan qiymətləndirərdi. Bu mənada o, İsa Hüseynovun kənd mövzusunda yazdığı əsərlərini çox bəyənərdi. Bu əsərlərdə onu narahat edən yaralı məsələlərə böyük ustalıqla eyham və işarələrlə toxunulduğunu görər, buna sevinərdi. Həmin məsələlərdən biri də respublikada taxıl üçün əlverişli olan torpaqların üzümçülüyə çevrilməsi idi. Bu məsələlərin həlli üçün çağırılmış bir müşavirədə Həsən müəllimin çıxışı bugünkü kimi yadımdadır. O, kürsüdən "Azərbaycan xalqı süd içməlidir, şərab yox", - deyə üzümçülüyün həddini aşdığına etirazını bildirmişdi.

Mən belə hesab edirəm ki, əgər o zaman Həsən Əliyevin etirazını eşitsəydilər, bu gün biz xarici ölkələrdən od qiymətinə taxıl alıb çörəyin qiymətini fantastik səviyyəyə qaldırmazdıq.

Bu gün məndən Həsən müəllimin insani xarakterini səciyyələndirməyi soruşsalar, bircə cümlə ilə deyərdim: "O, Azərbaycan üçün yanan bir vətəndaş idi." Buna görə də onun alimliyi vətəndaşlığından

doğurdu. O, Vətənimizin hər guşəsini, rayonunu, kəndini, dağını, dərəsini, meşəsini ovcunun içi kimi tanıyır, harda nəyin daha münasib olduğunu çox yaxşı bildirdi. Bir zamanlar döşünü ordenlərlə bəzəmək üçün təbiətin ağ ciyərləri olan meşələrimizi qırıb yerində pambıq əkən raykom katiblərinə etiraz səsini ucaldan, onları ittiham edən bir nəfər var idisə, o da Həsən Əliyev idi.

Təbiət aşiqi Həsən müəllim “Biz təbiətdən mərhəmət gözləməməli, onu öz iradəmizə tabe etməliyik” - şüarına istehza edər, “tabe et görüm, necə edəcəksən”, - deyərdi. Onun bu barədə yazdığı “Həyəcan təbili” kitabı təbiətimizin müdafiəsinə qalxan vətən daş alimin, sözün həqiqi mənasında, həyəcan təbili idi. Amma neyləyəsən ki, o zaman onu eşitmədilər.

Quruyan çeşmə və çaylarımızın, qırılan meşələrimizin, şoranlaşan torpaqlarımızın dərdi, ağrısı Həsən Əliyevin ürəyindən keçirdi. Adamları təbiəti mühafizə ideyası ilə maarifləndirməyə çalışar, mühazirələr oxuyar, məqalələr yazardı. Respublikamızda bir çox qoruq və yasaqların təşkili məhz onun adı ilə bağlıdır. Yox olmaq təhlükəsi qarşısında qalmış neçəneçə heyvan və bitki növünün bugünkü varlığı üçün biz Həsən müəllimə borcluyuq.

Həsən müəllimin həyatı Azərbaycanı sevənlər üçün örnəkdir. Allah ona rəhmət eləsin!

*“Elin oğlu” kitabı,*
*“Elm” nəşriyyatı, 1995.*
*“Zaman və mən”, Bakı, 1999.*





# GÖZ HƏKİMİ

Bakı Oftalmologiya İnstitutunun direktoru Nazim Əfəndiyevi çoxdan tanıyıram. O, həkimə xas olan bütün gözəl keyfiyyətlərə malik adamdır. Ona görə ki, həkim, əvvəlcə, sözün geniş mənasın da insan olmalı, insana xas olan bütün gözəl keyfiyyətlər onda cəmləşməlidir. Bu, adi bir həqiqətdir, çünki insan olmayan insan qədri bilə bilməz. Ruslarda bir "soçuvstvie" sözü var. Bu sözün dilimizə dəqiq tərcüməsi yoxdur. Təxminən belə tərcümə etmək olar: "Başqasının dərdinə şərik olmaq", "başqasının ağrı-acısını öz ağrı-acısı kimi yaşamaq". Bu hissə qabil olmayan adam nə qədər yüksək tibbi təhsilə malik olsa da, həkim ola bilməz. Nazim Əfəndiyev həkimliyindən öncə, bu gözəl insani keyfiyyətlərə malik olan, adı böyük hərflərlə yazıla biləcək insandır.

Onda olan bu gözəl keyfiyyət onun kökündən, əsl-nəcabətindən gəlir. Onun atası Mirqasım müəllim mənim tanıdığım ən gözəl müəllimlərdən biridir. Belə atanın tərbiyə etdiyi oğul məhz elə belə olmalı idi. El demişkən "ot kökü üstə bitər".

Bu yazımda yeri gəlmişkən bir mühüm məsələyə də toxunmaq istəyirəm. Mənə belə gəlir ki, həkimlik peşə deyil, sənətdir. Xüsusilə göz həkimliyini mən incəsənət adlandırardım. Bildiyimiz kimi, insan üzvləri içərisində gözdən incə, gözdən həssas, gözdən zərif ikin-

ci üzv yoxdur. Bədənin bu üzvü ilə məşğul olan adam gözün özü qədər həssas, incə və zərif olmalıdır. Köhnə dostum Nazim məhz bu cür həkimdir. Altmışıncı illərdə yazdığım “Gözün dili” adlı şeirimdə belə bir kənd var:

*Gözdən hansı qəlbə dağlar çəkilməz?*
*Gözün dediyini dil deyə bilməz*
*Həm incə, həm dərin dili var gözün*
*Sözünü ürəklər anlayar gözün.*

Həqiqətən, gözün dediyi dərin mətləbləri ən yüksək bədii obrazlarla da ifadə etmək mümkün deyil. Amma bu incə mətləbləri quru ağıl və soyuq idrakla deyil, yalnız isti ürəklə anlamaq olar.

Burda başqa bir mətləb də var: Həqiqəti bilmək istəyən hər kəs eşitdiklərindən çox, gördüklərinə inanmalıdır. Çünki:

*Gözlərim şövqünü salır dərinə*
*Açılır önümdə yer varaqvaraq*
*Qulaqlar inanır özgələrinə,*
*Gözlərsə özünə inanır ancaq.*

Demək, göz həqiqətin aynasıdır. Qocalıq qapını döyəndə insan təklənir. Təqaüdə çıxmış qoca artıq heç kəsə lazım olmur. O, öz hissi və fikirləri ilə başbaşa qalır. Evdə təktənha qalan bu halında qocanın əlindən tutan, köməyinə gələn, onu tənhalıq dəhşətindən qurtaran yeganə üzvü gözləridir. O, başlayır kitab oxumağa və bununla da tənhalığını unudur. Buna görə də mən hələ gəncliyimdən əllərimi göyə qaldırıb Allahıma dua etmişəm: “Ulu Tanrım, qocalığımda hansı üzvümü istəyirsən əlimdan al, yalnız gözlərimə toxunma”.

İnsan xarakteri belədir ki, o, malik olduğu zaman malik olduğunun qədirqiymətini lazımınca dərk edə bilmir. Gözlərimiz sağlam olduğu və bizə dünya gözəlliklərini göstərdiyi zaman biz onların nə

qədər böyük nemət olduğunu anlamırıq. Həkim dostum Nurəddin bir təkyə kəlamı var: “Bədbəxtliyin qurtardığı nöqtədə insan öz xoşbəxtliyini daha yaxşı dərk edə bilir”.

Bu, həqiqətən, belədir. Qarabağ hadisələrinin başlandığı zaman Ali Sovetin sessiyasındakı çıxışımdan sonra əsəbilikdən gözlərim tor gətirdi. Dərhal Nazim Həkimin yanına getdim. O, gözlərimi müayinə elədiyi zaman bütün diqqətim onun üzündə idi. Mən onun üzündən gözlərimin vəziyyətini oxumaq istəyirdim. Axı, gözlərimin tutulacağından bərk qorxurdum. O isə bunu hiss elədiyin dən üzünə incə bir təbəssümdən pərdə çəkmişdi. O, bu təbəs sümlə məni arxayınlaşdırmaq, mənə ürəkdirək vermək istəyir di. Müayinəni qurtarıb o, mənə çox gülməli bir lətifə danışdı. Hər ikimiz qəhqəhələrlə güldük. Və mən elə bil gözlərimin toranını da unutmuşdum. Burada məşhur bir həkimin gözəl bir kəlamı yadıma düşdü: “Xəstəliyinin dərəcəsindən asılı olmayaraq, xəstə həkimin qəbulundan ümidlə, güləgülə çıxmırsa, o, həkim deyil.”

Nazim həkim reseptləri güləgülə yazıb məni güləgülə də yola saldı. Gözlərim bir neçə həftəyə sağaldı. Amma məni sağaldan verdiyi dərmanlardan çox, onun insani rəftarı olduğuna bütün qəlbimlə inanıram.

Təxminən 15 il əvvəl Cənubi Azərbaycan şairi böyük ustad Şəhriyardan bir məktub aldım. O, məktubu mənə təqdim edən Məhəmməd adlı gənc şairin hər iki gözünün günügündən zəiflədiyini və yerli həkimlərin müalicə üçün çox böyük məbləğ tələb etdiklərini yazır və məndən xahiş edirdi ki, Bakıda bu gəncin gözlərinin müalicəsinə çalışım. Xəstəni Nazim həkimin yanına gətirdim. O, müayinə edib müalicəsini iki mərhələ ilə mümkünlüyünü bildirdi. Elə həmin günü onu xəstəxanada saxladı.

Heç demə, onun müalicəsi üçün uzun müddət hazırlıq lazımmış. Bu müddətdə mən hər dəfə xəstəyə baş çəkir, onun bir şeyə ehtiyacı olubolmadığını soruşurdum. Hər dəfə Məhəmməd Nazim həkimdən çox razı qaldığını, ona yalnız bir həkim deyil, həm də ata münasibəti

göstərdiyini, hər cür ehtiyacını təmin etdiyini bildirirdi.

İki aydan sonra Məhəmmədin bir gözündə, bir qədərdən sonra isə o biri gözündə əməliyyat aparıb sağaltdı. Bu müalicə təxminən altı aya başa gəldi. Bu müddət ərzində Məhəmməd, başda Nazim həkim olmaqla, xəstəxananın tibb bacılarındantutmuş, bütün həkimlərə qədər hamısının sevgisi və qayğısı ilə əhatə olundu.

Hamımıza məlumdur ki, bu gün göz xəstəxanasının yerləşdiyi bina heç bir cəhətdən müasir tələblərə cavab vermir. Bünövrəsi təxminən on il bundan əvvəl qoyulan göz xəstəxanasının binası isə hələ tikilməkdədir. Bu binanın başa gəlməsində Nazim həkimin keçirdiyi həyəcanların, çəkdiyi əziyyətin şahidiyəm. Arzum budur ki, yaxın bir vaxtda bu bina tikilib qurtarsın və müasir avadanlıqla təchiz olunsun. Biz də onun tikilməsində hər cür əzab və əziyyətlərə qatlaşmış dostumuzu təbrik edək.

Bu gün Məhəmməd və onun kimi bir vaxt dünya işığından məhrum olmuş yüzlərlə vətən övladlarımız dünyaya Nazim həkimin gözləri ilə baxır və ona öz təşəkkürlərini bildirirlər. Buna görə də Nazim Əfəndiyevin xalqımız qarşısındakı xidmətlərinin mində birini qələmə alan bu yazımı mən aşağıdakı sözlərlə bitirmək istəyirəm:

Bu gün vətənimizdə dünyanı bizə göstərən, gözlərimizin ləyaqət li keşikçisi olan Nazim Əfəndiyev kimi həkimlərimizi Allah öz pənahında saxlasın.

**Ş.Cəlilli,**
*"Ömür dedikləri" kitabı, 1996.*
*"Zaman və mən", Bakı, 1999.*





**KİŞİ**
**ÖMRÜ**

Ədəbiyyata gəldiyi gündən keçdiyi yolları izlədiyim, şəxsiyyətindəki bütövlüyə dərin hörmət bəslədiyim, əqidə yoldaşım Sabir Rüstəmxanlı bizdən sonra ədəbiyyata gələn nəslin seçilən oncüllərindəndir. O, 50 illik ömrünü elə-belə yaşamamış, mərhum şairimizin - Xəlil Rzanın dediyi kimi "kişi ömrü" yaşamışdır.

Cəsarətlə və bütün məsuliyyətimlə deyə bilərəm ki, onun ömür yollarında, bu keşməkeşli yolların bütün dolaylarında atdığı addımlar ayaqlarının deyil, əqidəsinin addımlarıdır. Bir sözlə, Sabir amal və əqidəsinin övladı olduğuna görə əqidə atasının buyruğu ilə də ədəbiyyata gəlmişdir. Onu şairliyi əqidə sahibi etməyib, əksinə, əqidəsi onu şair edib.

Heç yadımdan çıxmaz, sovet imperiyasının zirvə dövründə Gəncənin istiqlalı uğrunda çar Rusiyası ilə döşdöşə gəlib canını qurban verən Cavad xan haqqında Sabirin yazdığı poemanı oxuyub həm sevindim, həm də müəllifin həyatı üçün narahat oldum. Ertəsi gün nəşriyyatda Sabirlə görüşüb dedim:

- Qardaş, sən mənim səhvimdən ibrət götürməli idin. Mən hələ gənc yaşlarımdan "Gülüstan"ı yazıb millətçi kimi tanındım. Buna görə də indiyə qədər yazılarımı mikroskopla oxuyur, mənə göz verib işıq vermirlər. 60cı illərdə mənim başıma gətirilən oyunlardan dərs götürüb, sən gərək fikrini bir-başa yox, dolayısı ilə deyəydin.

O gülüb dedi:

- Siz o zaman “Gülüstan”ı yazmasaydınız, bu gün Bəxtiyar olmazdınız.

O, haqlı idi. Çünki söz öz vaxtında deyilməsə, gücünü və sanbalını itirər. Beləliklə, Sabir heç bir şeydən çəkinmədən, hər hansı şəraitdə həmişə sözünü mərdimərdanə deməyi bacarmışdır. Buna görə də mənim gözüm önündə böyüyən gənc Sabir bu gün xalqımızın güvəncinə çevrilən Sabir Rüstəm xanlı oldu.

Azərbaycanın tarixi, bu tarixin bütün dolayları, bu dolaylardakı enibqalxmalar, ələlxüsus son illərin müsibətləri – hamısının ağrıya dönüb Sabirin ürəyindən keçdiyinin şahidiyik. O, haqlı olaraq, “Keçir ürəyimdən millətin ruhu”, “Keçir körpələrin göz yaşı məndən”, “Keçir yüz illərin məğlubiyyəti” deyir. Buna görə də o, millətin ağrıacılarını öz şəxsi dərdinə, şəxsi müsibətinə çevirib, “Ömür kitabı”nı yaratdı.

Öz vaxtında yazılmış bu kitab dünənimizin və bu günümüzün ağrıacılarını gələcəyimizə çatdıran lazımlı və ləyaqətli kitablarımızdan biridir. Vətən, millət, onun dili, tarixi, bayrağı, ordusu! Bütün bunlar Sabir Rüstəmxanlı yaradıcılığının baş mövzularıdır. Axı, bütün bunlar hamısı bizim milli varlığımızın atributlarıdır. Buna görə də o, bu atributların hansına toxunursa, başda Vətən və millət olmaqla, hamısına toxunmuş olur. Bu baxımdan onun məramnamə şerlərindən biri olan “Sağ ol, ana dilim” çox səciyyəvidir:

*Harda bircə kəlmə sözüm yaşayır,*
*Oranı halalca yurdum sanmışam,*

- deyən şair, ana dilindən Vətən məhəbbətinə körpü salır və bir millət kimi parçalanmağımızın, iki yerə bölünməyimizin dərdini bura əlavə edib ana dilimizə müraciətlə:

*Döyüşdə qılınc tək sıyrıldı qından*

*Başımın üstündə bayrağım oldu.*
*Torpağım ikiyə bölünən zaman*
*Bu dil bölünməyən torpağım oldu.* -

deyir.

Sözümün sonunda üzümü əqidə qardaşıma tutub deyirəm: Əlli yaşın mübarək olsun, əzizim, bu vaxta qədər şərəflə yaşamış, millətimizə şərəflə xidmət etmisən. Qoy, sənin bu vaxta qədər elədiklərin bundan sonra edəcəklərinə tranplin olsun. Səni daha böyük üfüqlər, daha böyük uçuşlar, daha böyük meydanlar gözləyir!..

*"Ədəbiyyat qəzeti", 24 may, 1996.*
*"Zaman və mən", Bakı, 1999.*



## KƏRPİC HƏSƏN

Əgər məndən, Həsən Əziz oğlu Həsənov kimdir və bir insan kimi onu səciyyələndirən əlamətlər hansılardır? - deyə xəbər alsalar, mən belə cavab verərdim:

- Həsən Əziz oğlu, hər şeydən əvvəl, yaxşı və xeyirxah insandır. İkinci əlaməti, bu torpağın dəyanətli oğlu, həqiqi vətən pərvəridir. Üçüncü əlaməti, öz vəzifəsini namusla yerinə yetirən işgüzar dövlət xadimidir. Dördüncü əlaməti, sözünün ağasıdır, beşinci əlaməti, qərəsizdir, kinküdurəti yoxdur və s... və s... Bütün bunlardan çıxan nəticə isə bir sözlə ifadə olunur: kamil və bütöv adamdır.

Mən onu 60cı illərdən tanıyıram. Bu müddət ərzində onu həmişə eyni məcazda, eyni xarakterdə görmüş, ətrafına və baş verən irili-xırdalı hadisələrə yuxarıda saydığım xarakter əlamətlərindən doğan münasibəti heç vaxt dəyişməmişdir. O, Mərkəzi Komitənin adi təlimatçısı olanda da, sonralar MKnın ideoloji katibi vəzifəsində işləyəndə də, baş nazir vəzifəsinə yüksələndə də, bu böyük vəzifədən götürülüb ABŞa sürgün ediləndə də eyni adam olmuş, ətrafına münasibətini dəyişmiş, bir sözlə, insani sifətlərini itirməmişdir. Ona görə ki, o, vəzifə kürsülərinin bütün pillələrində Azərbaycan torpağının övladı olduğunu və kürsülərə deyil, məhz bu yurda, bu millətə qulluq etdiyini unutmamış, boynuna düşən vəzifəni namusla yerinə yetirmişdir. Buna görə də vaxtilə yazdığım aşağıdakı beyti mən

Həsən Əziz oğlunun xarak terinə şamil edirəm:

*Vəzifə insana şanşöhrət deyil,*
*İnsan vəzifəyə şöhrət olmalı.*

Bəli, o, tutduğu böyüklükiçikli bütün vəzifələri şöhrətləndirməyi bacaran əsl insan, əsl vətəndaş olmuşdur.

Təəssüf ki, “Vətəndaş” sözünün əsl mənasını və mahiyyətini bütün incəlikləri ilə başa düşməyən, mənsub olduğu xalqın tarixindən, adətənənəsindən, mədəniyyətindən, dilindən xəbərsiz manqurtlar da indi vətənpərvər olduqlarını sübuta yetirmək üçün dəridənqabıqdan çıxırlar. İndi iclaslarda ana dilində danışıb, sovet diktaturasının və kommunist partiyasının törətdiyi rəzalətləri söyməyə nə var ki... Lakin sovet hakimiyyətinin cövlan etdiyi dövrdə kommunist partiyasının başında duranlardan biri olub, bu zirvədə xalqa qulluq etmək, onun mədəniyyətinə rəvac vermək, ana dilinin keşiyində durmaq, millətçi damğası ilə ləkələnmiş elm və mədəniyyət xadimlərini hər cür hücumlardan qorumaq hər oğulun işi deyildi. Həsən Əziz oğlu millətinin məhz belə oğullarındandır.

İlk tanışlığımızdan bizim qanımız bir-birimizə qaynadı və bu, getgedə əqidədaşlığa, məsləkdaşlığa çevrildi. Bir-birimizə inandığımızdan, içində yaşadığımız rejimin törətdiyi cinayətlər barədə açıq danışır və bundan xilasolma yollarını düşünərdik. Təsəvvür edin, MKnın ideoloji katibi ölkədə millətçi kimi tanınan şairlə bu rejimin əleyhinə danışır, millətinin taleyini düşünür. Bu cür söhbətlər zamanı o, hər ehtimala qarşı kabinetdə ola biləcək səsyazanı azdırmaq üçün radionun səsini qaldırır və mənimlə pıçıltı ilə danışardı.

O, öz sahəsi üzrə idarə rəhbərləri ilə görüşərkən onlardan ana dilində danışmağı, heç olmasa, bəzi sənədlərin Azərbaycan dilin də yazılmasını, ana dilində yazılmış ərizələrin qəbul edilməsini tələb etdiyinin dəfələrlə şahidi olmuşam.

Həsən müəllimin katibliyi dövründə bir çox klassiklərimizin və görkəmli müasir yazıçılarımızın çoxcildlikləri çap olundu.

Böyük sənətkarımızın Ümumittifaq və dünya səviyyəsində təntənəli yubileylərinin keçirilməsində də Həsən müəllimin əvəzsiz xidməti olmuşdur. Klassiklərimizdən M.F.Axundzadəyə xüsusi məhəbbəti olan Həsən müəllimin onun oğlu Rəşid bəyin Brüsseldən atasına yazdığı məktubları min bir əziyyətlə topladığının və bu məktublar toplusunu inandığı qələm sahiblərinə oxudub, onların fikirlərini təhlildən keçirdiyinin şahidiyəm.

Yaxşı yadımdadır, böyük əzabkeş yazıçımız H.Cavidin yubileyi ərəfəsində Həsən müəllimin məni və mərhum rejissorumuz Mehdi Məmmədovu yanına çağırıb, Cavidin yubileyini hansı səviyyədə keçirmək barədə məsləhətləşdiyini və bizə verdiyi tapşırığı heç vaxt unutmaram. O, bizimlə açıq danışıb dedi ki, Cavidin yubileyini yalnız respublika səviyyəsində təntənəsiz keçirməyi təklif edənlər var. Siz mənə kömək etməlisiniz ki, biz dünyadan nakam getmiş bu əzabkeş yazıçının yubileyini ümumittifaq səviyyəsində adına layiq şəkildə keçirə bilək. Bu söhbətdən bir neçə gün sonra Yazıçılar İttifaqının o zamankı rəhbərliyinin və bir neçə elm və mədəniyyət xadimlərinin iştirakı ilə Həsən müəllimin kabinetinə toplaşdıq. Adlarını çəkmək istəmədiyim bir neçə yazıçı Cavidin yubileyinin respublika səviyyəsin də keçirilməsini təklif etdi. Amma Həsən müəllimin əvvəlcədən hazırladığı adamlar, o cümlədən M.Məmmədov və mən bu təklifin əleyhinə çıxıb, fikrimizi əsaslandırdıq və yubiley ümumittifaq səviyyəsində keçirildi.

Mən onlarla belə misallar gətirə bilərəm. Bütün bunlar onun dünya görüşünün, milli varlığımıza, tarix və ədəbiyyatımıza vətən daşlıq münasibətinin təzahürləridir. O, bizim milli mədəniyyətimizi, tarix və ədəbiyyatımızı mütəxəssis səviyyəsində bildiyindən və sevdiyindən klassiklərimizin nəşri və onların respublikamızın xaricində də yayılması və tanınmasında çox böyük işlər görmüşdür.

Bizim aramızda bəzən ciddi mübahisələr də olub. Bu mübahisələr də sona qədər hər kəs öz mövqeyində qalar, lakin bu, bizim münasibətimizə zərrə qədər xələl gətirməzdi.

O, Gəncədə işlədiyi bir il ərzində milli abidələri, bərpa adı ilə anbara çevrilmiş məscidlərimizi təmir etdirdi. O zamankı şəraitdə Gəncənin adını özünə qaytarmaq mümkün olmadıqda, şəhərin böyründəcə "Yeni Gəncə" qəsəbəsi saldırmaqla uzun illər boyu xalqın qəlbində qövr edən arzunu yerinə yetirdi. Bir il ərzində Gəncədə qırmızı kərpicdən xeyli binalar ucaltdığına görə o, "Kərpic Həsən" ayamasını qazandı.

Daim tikibquran Həsən Əziz oğlu bu gün bizim xarici siyasət idarəmizin başında durur. Bu mühüm sahədə də onun böyük uğurlar qazanacağına əminik. Quruculuq işlərində böyük nailiyyətləri olan bu adamın yaratdıqlarının mühafizəsində möhkəm duracağına, dövlətimizin mənafeyini canidildən qoruyacağına inanırıq.

*"Zaman və mən", Bakı, 1999.*



# RÜSTƏM KÖRPÜSÜ

Mən Rüstəm Əliyevi Bakı Dövlət Universitetində tələbəlik illərindən tanıyıram. O, sonralar təhsilini davam etdirmək üçün Moskvaya, oradan Leninqrada (indiki SanktPeterburq) getdi. Buna görə də təhsil illərində Rüstəmlə əlaqəmiz kəsildi. Rüstəm Leninqrad Universitetinin şərqşünaslıq fakültəsinin fars bölməsin də oxuyurdu. Oxuculara çox yaxşı məlumdur ki, hələ keçən əsrdən Peterburq dünyanın ən qüdrətli şərqşünaslıq mərkəzlərindən biri hesab olunurdu. Buradakı böyük şərqşünaslar dünyanın təqdir etdiyi bir məktəb yaratmışlar. Bu məktəbin yaradıcılarının Kraçkovski, Bertels, Boqolyubov və Freyman kimi dünya səviyyəli böyük davamçıları var idi. Bizim Rüstəm də bu böyük məktəbin ən yaxşı yetirmələrindən biri idi.

Rüstəm ali şərqşünaslıq təhsilini bitirdikdən sonra Moskvaya gəldi və orada keçmiş SSRİ Elmlər Akademiyasında, sonralar akademik Babacan Qafurovun rəhbər olduğu Şərqşünaslıq İnstitutunda çalışmağa başladı. O, Moskvaya gələndən sonra bizim əlaqələrimiz yenidən bərpa olundu. Mən hər dəfə Moskvaya gedəndə onunla görüşər, bir-birimizdən haləhval tutardıq. 1971-ci ildə baş verən məlum hadisədən sonra o, Bakıya köçdü və bu-

nunla bizim əlaqələrimiz daha da möhkəmləndi. Onu da deyim ki, Rüstəmin Bakıda işə başladığı dövrlərdə müəyyən rəsmi dairələrdə bəzi "alimlərin" ona münasibəti yaxşı deyildi. Bu adamlar müxtəlif yollarla onun işinə əngəl törədir, ona mane olmağa çalışırdılar. Bunu hiss edən Moskvanın və Leninqradın görkəmli şərqşünaslarının Bakının rəsmi dairələrinə müraciət etdiklərinin dəfələrlə şahidi olmuşam. Rüstəmin müəllimi olmuş Freymanın o zaman bir məktubunu oxumuşdum. Alim həmin məktubda Rüstəm Əliyevin istedadına çox yüksək qiymət verdiyini yazır və bu görkəmli alimdən lazımınca istifadə olunmasını, ona şərait yaradılmasını o zamankı iqtidar sahiblərindən dönədönə xahiş edirdi. Eyni məzmunlu xahişi akademik Babacan Qafurov da edirdi.

Təxminən qırx illik dostluğumuz və müşahidələrim nəticəsində mən Rüstəmin böyük istedadına və yaradıcılıq qabiliyyətinə valeh olmuşdum. Hər şeydən öncə, onun çox qüvvətli hafizəsi var idi. O, yalnız ərəb, türk və fars mənbələrini deyil, Avropa mənbələrini də lazımi səviyyədə bilir, ən kiçik şairdən tutmuş dahilərə qədər, nəyin harda və hansı saylı kataloqda olduğunu əzbərdən deyərdi.

Bu, bir həqiqətdir ki, islam dinini, bu dinin müqəddəs kitabı Quranı mükəmməl bilmədən Şərq ədəbiyyatını təhlil və tədqiq etmək mümkün deyil. Buna görə də Rüstəm QuraniKərimdən və onun təfsirinə dair yazılmış yüzlərcə kitablardan xəbərdar idi.

Əslində, Rüstəm fars dili və ədəbiyyatı mütəxəssisi idi. Amma o, hələ gəncliyində dərk etmişdi ki, ərəb dilini bilmədən, islamı dərindən öyrənmədən nə fars, nə də türk ədəbiyyatını tədqiq etmək mümkün deyil. Ərəb dilini necə öyrəndiyi barədə o, mənə bir əhvalat danışmışdı: O, hələ Leninqradda olduğu zaman ərəbşünas aspirantlardan biri onu ərəb dilini bilməməkdə günahlandırmış və buna görə də fars ədəbiyyatını dərinliyinə qədər anlaya bilməyəcəyini deyib, onu yarımçıq şərqşünas adlandırıbmış. Bu söz Rüstəmə toxunmuş və aspi-

ranta deyibmiş ki, mən ərəb dilini üç aya öyrənərəm. Aspirant ona cavab vermiş ki, sən bu dili üç ilə də öyrənə bilməzsən. Rüstəm ona cavab verməmiş və həmin gündən ərəb dilini təkbaşına öyrənməyə başlamış və həqiqətən, üç aya öyrənibmiş. Onunla mübahisəyə girən aspirant Rüstəmi imtahan etmiş və onun qabiliyyətinə heyran qalıbmış.

Rüstəm Əliyev bir neçə il Əlyazmaları İnstitutunda çalışdı. O, burda işlədiyi müddətdə institutdakı əlyazmalarını dünya standartları səviyyəsində kataloqlaşdırdı.

60-cı illərin əvvəllərindən başlayaraq, keçmiş SSRİ Elmlər Akademiyası Şərqşünaslıq İnstitutu Rüstəmi tez-tez İrana ezam edirdi. O zamanlar İran şahının xüsusi fərmanı ilə böyük fars şairi Sədinin əsərlərinin düzgün variantlarının tapılması barədə müsabiqə elan olunmuşdu. Bu müsabiqədə dünyanın çox məşhur iranşünas ları iştirak etmiş, amma müsabiqədə qalib çıxan Rüstəm Əliyev olmuşdu. Buna görə də o, İranda çox böyük nüfuz və hörmət qazanmışdı.

Nizami "Xəmsə"sinin tədqiqi, təhlili və şərhi Azərbaycan və rus dillərinə doğrudüzgün filoloji tərcüməsi işində Rüstəmin fəaliyyəti son dərəcədə əhəmiyyətlidir. Belə ki, fars dilini tədqiqatçılıq səviyyəsində bilməyən alimlərimiz üçün onun tərcümə və izahları, nöqsansız qaynaq ola bilər. Əlbəttə, bir Azərbaycan türkü olmaq etibarilə hər bir azərbaycanlı üçün öz böyük şairini dərindən bilmək, tanımaq baxımından da Rüstəmin elədikləri əvəzsiz xidmətdir. Şəxsən mən Nizaminin böyüklüyünü, onun Azərbaycan milli təfəkkürünə hansı böyük fikirləri gətirdiyini Rüstəmin filoloji tərcümələrindən və onlara yazdığı izahlardan öyrənmişəm.

Rüstəm Əliyevin Azərbaycan şərqşünaslıq elminə göstərdiyi böyük xidməti, şübhəsiz, bu sahənin adamları daha yaxşı və dəqiq dəyərləndirə bilər. Mən onun başqa bir cəhətindən danışmağı özümə borc bilirəm. Çünki mən onun bu xidmətinin, bu zəhmətinin

bilavasitə iştirakçısı olmuşam.

Mən bütün məsuliyyətimlə deyə bilərəm ki, 6070ci illərdə Azərbaycan quzeyi ilə güneyini mənən birləşdirmək, arada mənəvi körpü salmaq xidməti Rüstəmin adı ilə bağlıdır. Buna görə də mən o zamanlar "Rüstəm körpüsü" adlı bir şeir də yazmışdım. Yuxarıda dediyim kimi, 6070-ci illərdə Rüstəm elmi işi ilə ilgili tez-tez İranda olardı. O, bu illərdə İran Azərbaycanının tanınmış fikir adamlarıhəkim, şair və yazıçıları ilə dostluq əlaqələri yaratmış, onları Azərbaycan ocağı ətrafına toplaya bilmişdi. Şair Səhəndin vasitəsilə ustad Şəhriyarın Təbrizdən Tehrana köçürülməsində, şairlər məclisinin yaranmasında, məşhur "Varlıq" dərgisinin naşiri, cərrah, alim Cavad Heyətin bu məclisə cəlb edilməsində Rüstəm Əliyevin çox böyük rolu olduğunu Şəhriyarın və Səhəndin mənə və başqa şairlərimizə yazdığı məktublardan və özünün söhbətlərindən bilirdik.

Ümumiyyətlə, quzey Azərbaycan şairlərinin Səhənd və Şəhriyar la əlaqələrini Rüstəm yaratmışdır. Bu danılmaz həqiqəti biz ustad Şəhriyarın şeirlərində də oxuyuruq. Biz o zaman Səhəndə, Şəhriyara, Sönməzə yazdığımız məktubları Rüstəmlə göndərərdik.

*Səhənd "Üçüncü ərməğan" şeirində yazırdı:*
*Dağını görməyim, Rüstəm, qardaşım,*
*Dar gündə sən gəlib dadıma çatdın.*
*Sənin gəlişinlə ucaldı başım,*
*Bizim aramızda körpü yaratdın.*
*...Bəxtəvər başıma, bəxtiyar oldum.*
*Mənə namə gəldi Bəxtiyarımdan*
*Vaqif yaraşıqlı, Vurğun simalı*
*Arxamdan, dostumdan iftixarımdan.*

Bu gün Rüstəm aramızda yoxdur. Allah ona rəhmət eləsin, ruhu şad olsun. Bu gün biz güney Azərbaycanın ən mötəbər ziyalıların dan olan Cavad Heyətlə, şair Sönməz və Savalanla görüşəndə, bu görüşlərin əsasını qoyan mərhum dostumuz Rüstəmi xatırlayır, xalqımız qarşısındakı böyük xidmətlərinə görə onun ruhuna minnətdarlığımızı bildiririk.

*"Rüstəm körpüsü" qəzeti, 1, 13 yanvar, 1995.*
*"Zaman və mən", Bakı, 1999.*





## DOST HAQQINDA
## BİR NEÇƏ SÖZ

Respublika mətbuatının və poliqrafiya sənayesinin maddi-texniki əsaslarının möhkəmləndirilməsində xidmətlərinə, bir sıra ədəbiillüstrativ albom və kitabların yaradılmasında yaradıcı iştirakına görə və anadan olmasının 60 illiyi münasibətilə Nazim Sadıq oğlu İbrahimov Azərbaycan Kütləvi İnformasiya vasitələri

İşçiləri Həmkarlar İttifaqının "Ustad" ali jurnalistika mükafatına layiq görülmüşdür.

Məlum həqiqətdir ki, adamları başqasının verdiyi xasiyyətnamə ilə tanımaq olmaz. Bir adam haqqında müəyyən fikrə gəlmək üçün onun özü ilə şəxsi təmasda olmaq vacibdir. Buna görə də indi haqqında söz açmaq istədiyim Azərbaycan ziyalılarından Nazim İbrahimovla mən yalnız şəxsi təmaslarım əsasında fikir söyləyəcəyəm.

* * *

Bu gün "Azərbaycan" nəşriyyatının direktoru vəzifəsində çalışan Nazim İbrahimovla mənim tanışlığımın maraqlı tarixçəsi var.

Yetmişinci illərin əvvəlləri idi. Universitetdə "Müasir ədəbiyyat" kafedrasının açılması məsələsi qaldırılmış və kafedranın müdirliyinə

mənim namizədliyim irəli sürülmüşdü. Universitet partiya komitəsinin o zamankı katibi mənim namizədliyimi müdafiə eləsə də, DTK-nın xüsusi şöbəsi bu təklifə etirazını bildirmiş və öz fikrini o zamankı Oktyabr rayonunda raykomun birinci katibi işləyən N.İbrahimova sübut etmək üçün haqqımda yazılan danosları ona çatdırmışdı.

Bütün bunları bildiyim üçün işin mənim xeyrimə həll olunmayacağına tam əmin idim. Lakin gözləmədiyim halda məsələ mənim xeyrimə həll olundu: məni həmin kafedraya müdir təyin etdilər. Sonradan məlum oldu ki, raykom katibi məsuliyyəti öz boynuna götürərək, məsələnin bu şəkildə həllinə nail olub.

Mən o vaxtlar N. İbrahimovla şəxsən tanış deyildim. Ona görə də cürətlənib, DTK əməkdaşının təklifini rədd etməsinin nədən irəli gəldiyini heç cürə başa düşə bilmirdim.

Sonradan kafedra müdiri işlədiyim dövrdə əleyhdarlarım auditoriyada tələbələrə millətçilik ideyaları aşıladığımı dəstəvuz edərək, açıq imza ilə məndən danos yazmağa başladılar. Bu danoslar fakültə və universitet partiya bürolarında müzakirə olunub raykoma göndərildi. Son sözü raykom katibi deməli, taleyim raykomun bürosunda müzakirə olunmalı idi.

Həmin günlərin birində məni raykoma - N.İbrahimovun yanına çağırdılar. Katib məni "suçlu kommunist" kimi deyil, köhnə tanışı, dostu kimi gülərüzlə qarşıladı. Xeyli söhbət etdik. Məlum oldu ki, universitetdə partiya bürolarındakı müzakirələr zamanı nəzərdən qaçan və mənim xeyrimə olan bir cəhət N.İbrahimovun diqqətini cəlb etmiş, elə ona görə də danosların iftira olduğu qərarına gəlmişdi. Bu cəhəti isə, əslində, o zaman fakültə partiya təşkilatı bürosunun üzvü olan Şirməmməd Hüseynov üzə çıxarmışdı, amma müzakirələrdə bu məqamdan yan keçmişdilər. Bu isə mühüm məsələ idi: danosçu mənim auditoriyada millətçilik təbliğatı ilə məşğul olduğumu

sübut etmək üçün iki tələbəni üzümə durğuzmuşdu. Heç demə, bu tələbələrdən biri danosçunun yaxın qohumu imiş. Bu nöqtədən yapışan N. İbrahimov məsələni raykomun bürosuna çıxarmamış, özü həll etmiş, danosların iftira olduğunu elan etmişdi.

O, söhbəti tamamlayıb:

Belə iftiralara fikir verməyin, mən sizə inanıram, - deyə gülərüz lə məni yola saldı.

Rayon partiya komitəsi katiblərinin külliixtiyar sahibi olduğu və əlinə düşən hər hansı bir bəhanə ilə adamların başına min oyun aça bildiyi bir zamanda gənc raykom katibinin “qatı millətçi” damğası vurulmuş bir müəllimlə bu cür insani rəftarı çox müstəsna hal idi. Buna görə də onun xeyirxahlığı və alicənablığı ömürlük yaddaşıma həkk olundu.

Zaman elə gətirdi ki, günlərin bir günü N. İbrahimov Dövlət Nəşriyyat, Poliqrafiya və Kitab Ticarəti İşləri Komitəsinə sədr təyin olundu və elə həmin vaxtdan bizim adi tanışlığımız dostluğa çevrildi. Doğrusunu deyim ki, həmişə partiya işində çalışan cavan bir adamın tanış olmadığı bir sahəyə rəhbərlik edə biləcəyinə yazıçıların çoxu inanmır və hətta bəziləri çox məsul toplantılarda açıqaşkar bu təyinata qarşı çıxırdılar.

Xatirimdədir, 1981-ci ildə Azərbaycan yazıçılarının V qurultayında nüfuzlu yazıçılardan biri çıxış edərək, ixtisasca geoloq olan N.İbrahimovun Dövlətnəşrkoma sədr təyin olunmasına narazılığını bildirəndə yığıncaqda iştirak edən Azərbaycan KP MKnın birinci katibi Heydər Əliyev Nazimi qətiyyətlə müdafiə etdi. Və Nazim də bu etimada tam layiq olduğunu tezliklə sübuta yetirdi.

Nazim İbrahimov sözün ən yaxşı mənasında inadkarlığı, işgüzarlığı, məqsədyönlülüyü sayəsində nəşriyyat işinin, xüsusilə ən mürəkkəb sahələrdən olan poliqafiyanın sirlərinə yüksək ixtisaslı mütəxəssis səviyyəsində yiyələnərək, tez bir zamanda respublika-

nın ən səriştəli, nüfuzlu naşirlərindən biri kimi tanındı, təbiətinə xas olan daxili mədəniyyət, fitri qabiliyyət sayəsin də qələm sahibləri ilə, yaradıcı ziyalılarla mənəvi ünsiyyət körpüsü sala bildi.

Yaxşı yadımdıdar: xalq yazıçımız Süleyman Rəhimov xəstəxanada yatırdı. Mən Nazim İbrahimova bunu deyincə, o, dərhal mənimlə bərabər xəstəxanaya gəldi. Söhbət əsnasında S.Rəhimov son zamanlar əsərlərinin az çap olunmasından gileylənib, kitablarının gələn il üçün nəşriyyat planına salınmasını xahiş etdi.

Onu böyük səbrlə dinləyən N.İbrahimov hörmətli yazıçıya ürəkdirək verib dedi:

- Süleyman müəllim, gələn il niyə? Sizin sadaladığınız kitabların bir qismini elə bu il çap edərik. Mən elə buna görə sizin yanınıza gəlmişəm...

İnsan qədri bilən, mədəniyyətə dərin hörmət bəsləyən komitə sədrinin bu sözü ölüm yatağında olan ağsaqqal yazıçının ömrünü, bəlkə də, bir neçə gün uzatdı.

Nazimlə tez-tez iş yerində görüşdüyümdən, Dövlətnəşrkomda gördüyü işlər barəsində şəxsi müşahidələrin əsasında çox şey deyə bilərəm. Onun fəaliyyətində dərhal gözəçarpan əsas söhbət, mənsə, bu adamın nəşriyyat işinə hədsiz bağlılığı, sözün əsl mənasında vurğunluğu idi. Bu iş sanki onu ovsunlamışdı; elə bil o, həyatda əsl yerini tapmışdı.

Nazim respublikada kitab nəşrini və poliqrafiyanı müasir dünya standartları səviyyəsinə qaldırmaq üçün tükənməz enerji ilə, gecə-gündüz fədakarcasına çalışır, qovrulur, mümkün olan və olmayan bütün vasitələrdən istifadə edirdi.

Onun Dövlətnəşrkoma rəhbərlik etdiyi illər, haqlı olaraq respublikada kitab mədəniyyətinin və poliqrafiyanın keyfiyyətcə yüksəliş dövrü sayılır. Bunun danılmaz həqiqət olduğu bu gün daha aydın görünür. İndi bunu onun əleyhidarları da etiraf etməli olurlar.

On cildlik Azərbaycan ensiklopediyası, üççildlik "Uşaq ensiklopediyası"nın iki cildi məhz həmin illərdə yüksək poliqrafik səviyyədə nəşr olundu. Yüzcildlik "Dünya ədəbiyyatı kitabxanası", əllicildlik "Uşaq ədəbiyyatı kitabxanası" və s. nəşrlər də bilavasitə N.İbrahimovun təşəbbüsü ilə həyata keçirildi.

Respublikada müasir poliqrafiya bazasının yaradılmasında N.İbrahimovun müstəsna xidməti var. Məhz N.İbrahimovun zəhməti və səyi ilə səksəninci illərdə Əhmədlidə müasir səviyyəli mətbəə tikildi. Bakıda və bir çox rayonlarda köhnə mənbəələr yeni avadanlıqla təchiz olundu.

Bununla yanaşı, o, ixtisaslı poliqrafçı kadrların hazırlanmasını da yaddan çıxarmır, bacarıqlı, qabiliyyətli gəncləri Moskvaya və SSRİnin digər şəhərlərinə təhsil almağa göndərirdi. İndi respublikamızda təcrübəli, səriştəli poliqrafçıların böyük bir dəstəsi özlərini N. İbrahimovun yetirməsi sayırlar.

N.İbrahimovun poliqrafiyadakı fəaliyyətindən danışarkən onun bu sahədə beynəlxalq əlaqələrin yaradılmasında və inkişafın da xidmətini ayrıca vurğulamaq istərdim. Məhz onun təkidli səyləri, şəxsi əlaqə və münasibətləri sayəsində bir sıra nəfis və nadir kitablar xarici ölkələrdə nəşr olundu. Ustad naşir kimi o, keçmiş İttifaq miqyasında da böyük hörmət və nüfuz qazanmışdı.

N.İbrahimovun işgüzarlığının bir üzü də onun, ilk növbədə, özünə və başqalarına qarşı tələbkarlığıdır. Məncə, bu, tamamilə təbiidir; çünki tələbkarlıq olmayan yerdə heç bir uğurdan danışmaq mümkün deyil. Lakin o, tələbkar olduğu qədər də həssas qayğıkeş adamdır. Dövlətnəşrkomun sədri olduğu illərdə Nazim nəşriyyat sistemində çalışan çoxsaylı əməkçilərin sosial-məişət məsələlərinin həllini də yaddan çıxarmırdı. Həmin illərdə komitənin tabeliyində olan müəssisələrdə çalışan əməkçilər üçün xeyli mənzil alınmış, doqquzmərtəbəli yaşayış binası, ailələr üçün doqquzmərtəbəli ya-

taqxana, uşaq bağçası tikilib istifadəyə verilmişdir. N.İbrahimovun həmin illərdəki qayğıkeşliyindən bəhrələnənlər sədrin bu sahədəki xidmətlərini indiyədək minnətdarlıqla xatırlayırlar.

Nazim səliq-əsahmanı çox xoşlayır. Yadımdadır, komitənin sədri olarkən istər aparatda, istərsə də müəssisələrdə bu cəhətə xüsusi diqqət yetirərdi. Komitənin köhnə binasını əla zövqlə təmir etdirmişdi. Hazırda Mətbuat və İnformasiya Nazirliyinin yerləşdiyi həmin binaya indi də hərdən yolum düşəndə o səliqə-sahmanın əlamətlərini görürəm.

Mən Nazimin başqa bir keyfiyyətindən də söz açmaq istəyirəm. Bir neçə il əvvəl o, əsassız olaraq sıxmaboğmaya məruz qaldı, sevdiyi iş sahəsindən uzaqlaşdırıldı. Uzun müddət ona heç yerdə iş vermədilər, məhrumiyyətlər keçirdi. Lakin sınmadı, vüqarını heç kimin qarşısında alçaltmadı. Əvvəl kim idisə, yenə də həminki adam olaraq qaldı. Bu da insanlığın başqa bir gözəl keyfiyyətidir.

Bu gün iqtisadiyyatımızın ağır və çətin dövründə ölkənin ən nəhəng nəşriyyatpoliqrafiya kompleksi olan “Azərbaycan” nəşriyyatına rəhbərlik edən N. İbrahimov yuxarıda sadaladığım nəcib keyfiyyətlər sayəsində yenə böyük hörmətizzət sahibidir.

Bu gün 60 yaşı tamam olan yaxın dostuma, əziz qardaşıma uzun ömür, möhkəm cansağlığı diləyir, ölkəmizdə mətbuat və kitab çapı mədəniyyətinin tərəqqisi naminə gördüyü nəcib işlərdə yeniyeni uğurlar arzulayıram.

*“Səhər” qəzeti, 3 fevral, 1995.*
*“Zaman və mən”, Bakı, 1999.*





# XEYİRXAHLIQ VƏ ƏDALƏT TİMSALI

Respublikamızda xeyirxahlıq, alicənablıq və insan pərvərlik timsalı kimi tanınmış Kamran Əsəd oğlu Hüseynovun adını ilk dəfə əllinci illərdə böyük yazıçımız Süleyman Rəhimli və Əli Vəliyevdən eşitmişəm. Bu yazıçılarla mənim aramda böyük yaş fərqinin olmasına baxmayaraq, hər ikisi ilə çox isti münasibətimiz var idi. Ayda heç olmasa 12 dəfə mən onlarla bir yerdə olar (ya onlarda, ya bizdə), bu iki qüdrətli sənət karın şirin söhbətlərini huşguşla dinlərdim.

Bu iki söz ustadının xatirələrinin bir qismi Kamran Əsəd oğluna həsr olunardı. Hər ikisi Kamran Əsəd oğlunun xeyirxah əməllərindən, alicənablığından, həmişə haqq tərəfində durmasından ağızdolusu danışardılar. İnandığım və dərin hörmət bəslədiyim sənətkarların K. Əsədoğlu haqqındakı söhbətləri mənim qəlbimdə bu gözəl insanın heykəlini ucaltmışdı. Amma şəxsən tanış deyildim. Altmışıncı illərin sonunda o, nazirlər soveti sədrinin müavini vəzifəsində işlədiyi zaman mən onunla ilk dəfə tanış oldum.

Mən burada bir məsələni xatırlatmaq istəyirəm. Müharibədən sonra Mingəçevir su elektrik stansiyasını tikmə və orda şəhər salma

işləri başlandı. ÜİKP nümayəndəsi kimi Kamran Əsəd oğlunu bu böyük inşaat işlərinə rəhbər təyin etdilər. Mingəçevir və Sumqayıtın tikintisində Moskvanın maddi marağından başqa, Azərbaycanı ruslaşdırmaq məqsədi də vardı. Bu məqsədlə Rusiyanın müxtəlif şəhərlərindən axınaxın gənc oğlan və qızlar bu şəhərlərə doldurulurdu.

Mingəçevirdə inşaatın rəhbəri və sonralar Sumqayıtda şəhər partiya komitəsinin katibi vəzifələrində işləyən Kamran Əsəd oğlu rus axınının qarşısını almaq üçün Azərbaycanın müxtəlif rayon larından gəncləri işə dəvət edir və onlara hər cür şərait yaradır dı. O zaman ziyalıların, demək olar ki, hamısı Kamran kişinin bu təşəbbüsünü bilir, alqışlayır və öz aralarında bu barədə xısınlaşırdılar.

Burada böyük şairimiz S. Vurğunla bağlı eşitdiyim bir əhvalatı yada salmaq istəyirəm: Deyilənə görə, müharibə qurtarandan biriki ay sonra Mir Cəfər Bağırov Moskvada Mingəçevir tikintisinin layihəsini Stalinə təsdiq etdirib Bakıya qayıdırmış. Vağzal da uzaqdan S. Vurğunu görür. Yanındakılara tapşırır ki, S.Vurğunu onun şəxsi vaqonuna dəvət etsinlər. Belə də olur.

Vaqonda M. C. Bağırov sevinəsevinə təsdiq olunmuş Mingəçevir tikintisinin layihəsini S. Vurğuna göstərib tikintinin respublika üçün nə qədər böyük əhəmiyyətə malik olduğunu uzunuza dı ona izah edir. Baxır ki, dedikləri şairi heç sevindirmədi.

Bağırov şairdən soruşur:

- Hə... Necə baxırsan bu böyük işə?

S.Vurğun rəhbərdən soruşur:

- Bəs bu boyda inşaatda kimlər işləyəcək? Bizimkilər, yoxsa?..

Bağırov şairin nəyə işarə vurduğunu dərhal başa düşür və "Sən köhnənin millətçisisən" - deyə onu vaqondan qovur.

S.Vurğun bu tikintidə Moskvanın əsas məqsədini şair fəhmi ilə çox gözəl başa düşmüşdü. Ancaq əlindən dərdini deməkdən savayı nə gələ bilərdi? Azərbaycanın başqa bir oğlu K.Əsədoğlu böyük şa-

irin arzusunu heç nə demədən, haraysızhəşirsiz yerinə yetirdi, yeni tikilən 2 böyük şəhərimizi çox böyük məharətlə milliləşdirdi. Yalnız bu xidmətinə görə həmin bu gözəl insana hər iki şəhərimizdə heykəl qoyardım. Bu gün Mingəçevir şəhərinin küçələrindən birinin sağ ikən onun adını daşıması da təsadüfi deyil.

Bu günlərdə köhnə dostum, xalqımızın ləyaqətli oğlu prof. İmamverdi Əbilovun Kamran müəllim haqqında yazdığı məktubməqaləsi əlimə keçdi. Heç demə, 195253-cü illərdə Kamran Əsədoğlu Neftçalada raykomun birinci katibi vəzifəsində işləmiş və bu 2 il müddətində rayonda çox böyük işlər görmüşdür: Çörək zavodu, mədəniyyət sarayı, stadion, xəstəxana şəhərciyi, nümunəvi şəhər məktəbi, Həsənabad, Qoltuq, Yeniqışlaq kəndlərinə çəkilən su kəməri, kəndlər arasında asfalt yollar və s. hamısı Kamran kişinin əməllərinin bəhrəsidir.

İmamverdi müəllim yazır ki, Kamran Əsədoğlu Neftçalada rayon partiya komitəsinin katibi vəzifəsində olduğu zaman onun yanına şikayətçilər gəlib bildirirlər ki, rayonun əyyaş prokuroru günahsız adamları həbs etdirir və sonra məhbusların xanımlarını axşamlar yanına çağırtdırıb dindirir. Bunu eşidən katib dərhal rayon həbsxanasına gəlib həbsxana rəisinin etirazlarına baxmadan onu zindan hücrələrini açmağa məcbur edir. Özü məhbusları bir-bir dindirir. Sonra Bakıya zəng çalıb əlaqədar təşkilatlardan işin yoxlanılmasını tələb edir. Yoxlama nəticəsində aydın olur ki, 6 məhbus tamamilə günahsızmış. Bu faktı oxuyanda bu günlər də qəzetlərdə rastlaşdığım bir məlumat yadıma düşdü:

Heç demə, 95 nəfər yüksək rütbəli polis işçisi adamları döyədöyə, zorakılıqla olmayan cinayəti onların boynuna qoyurmuş. Qanunu hər şeydən üstün tutan bizim sivil adlandırdığımız bu ölkədə biz belə qanunsuzluqlara təəssüf ki, tez-tez rast gəlirik. Bəs, bu gün hanı bizim rayonlarımızda K. Əsədoğlu kimi haqqı-nahaqqa verməyən qanunun aliliyini hər şeydən üstün tutan, ədalətli rəhbər işçilərimiz?

Sözümün sonunda üzümü K.Əsədoğluna tutub deyirəm: əziz qardaşım, sən öz ədalətin və həqiqətpərəstliyinlə, xeyirxahlığın və alicənablığınla, işlədiyin bölgələrdə qurduğun fabrik və zavodlarla, mədəniyyət sarayları və xəstəxanalarla, məktəb və uşaq bağçaları ilə özünözünə abidə qurmusan. Sənin bu əməllərindərin hörmətini qazandığın xalqının yaddaşında əbədi yaşayacaq. Çünki sən xalqının böyük oğlu, vətəninin əsl vətəndaşısan!

*"Zaman və mən", Bakı, 1999.*





# AXIRA QALMAQ QORXUSU

***(Nurəddin Rza haqqında etüd)***

“Nurəddin sənin üçün kimdir?” sualına ikicə sözlə - “ehtiyacdır”, “zəruətdir” cavabını verərdim.

Bir adamın bir adama ehtiyacı varsa, demək, o adamın varlığı o birisi üçün zərurətdir. Bu iki tələb isə fikir, əqidə, zövq və amal birliyindən doğur. Demək, fikir və əqidə birliyi mənim Nurəddin və rəhmətlik Xudu ilə dostluğumun təməl daşıdır.

Xudu rəhmətə gedənə qədər bu dostların hər ikisi mənim irilixırdalı bütün əsərlərimin ilk oxucuları idi. Bəyəndikləri də olurdu, bəyənmədikləri də. Bəzən biri bəyənirdi, o biri yox. Onda ikisinin arasında mübahisə başlanırdı. Bu mübahisədə mən bitərəf mövqedə durur, onların dediklərini mizan tərəzidə çəkir və həqiqəti özüm üçün müəyyənləşdirirdim.

Xudu rəhmətə gedəndən sonra isə mənim ilk oxucum təkcə Nurəddindir. Mən onun poetik zövqünə həmişə inanmışam, bu gün də inanıram. Çünki onda rasional düşüncə ilə emosional düşün cə vəhdətdədir. Həm də o, yalnız ədəbiyyatın deyil, ətrafımız da cərəyan edən bütün hadisələrin; ədəbi və ictimai prosesin bəzəyini

deyil, özəyini; zahiri effektini deyil, mahiyyətini, cövhərini görməyi bacarır, həyata fəlsəfi gözlə baxan bir alim, hər şeydən əvvəl isə geniş təbiətə malik olan, sözün əsl mənasında, vətəndaşdır.

30 ildən artıqdır, həyatın bütün dolaylarını, ağrı və acılarını, sevincini və fərəhini bir yerdə dadmış, bir yerdə kədərlənib, bir yerdə sevinmişik. Onun şəxsi kədəri mənim kədərim, mənim şəxsi uğursuzluğum onunku olmuşdur.

Nurəddinin bir məşhur kəlamı var: sevinci dostla bölüşəndə o daha da artır, dərdi, kədəri bölüşəndə isə, azalır. Buna görə də bizim tez-tez görüşümüzün əsas səbəbi sevinci də, kədəri də bir-birimizlə bölüşmək ehtiyacıdır.

Nurəddin mənim əsərlərimin yalnız qiymətvericisi deyil, o həm də mənim bəzi yazılarımın ilhamvericisidir. O, bəzən adi hadisələr haqqında elə tutarlı, elə lakonik və fəlsəfi ümumiləşdirmələr verir ki, bu ümumiləşdirici fəlsəfi baxış məni silkələyir və ilhamıma təkan verir. Dostluq, sirdaşlıq, həmdərdlik münasibətimizə əsaslanaraq deyə bilərəm ki, bu dünyada Xudunun, Nurəddinin xarakterini, insani keyfiyyətlərini mənim qədər, mənim insani keyfiyyətlərimi və xarakterimi Nurəddin və Xudu qədər bilən ikinci adam tapılmaz. Bununla belə bu vaxta qədər mətbuatda biz bir-birimiz haqqında yazmamışıq. Yalnız mən bəzi məqalələrimdə yaxın bir dost kimi onların adlarını çəkmişəm.

Bütün respublika bizim yaxın dost olduğumuzu bildiyindən bir-birimiz haqqında fikir deməkdən çəkinmişik. Əziz dostumuz və əqidə qardaşımız, adı çəkiləndə, əməlləri yadımıza düşəndə ürəyimizi titrədən Xudumuz dünyasını dəyişəndən sonra Nurəddin böyük bir məhəbbətlə onun insani keyfiyyətləri və kristalloqrafiya elminə gətirdiyi yeniliklər barədə “Xudu açarı” adlı bir kitab, mən isə “Bizim Xudu - sirrixuda” adlı məqaləmi yazdım.

Xudunun dəfnində Nurəddin göz yaşları içində mənə tərəf əyilib: “Xudumuzu itirdik, vay axıra qalanın halına”, deyə hönkürdü. Bu söz məni sarsıtdı. İndi Xudunun ölümündən 11 il keçir. Bu 11 ildə

Nurəddinlə mənim elə bir görüşümüz və söhbətimiz olmayıb ki, biz Xudunu xatırlamayaq. Və bu xatırlmada ikimizin də gözündən "Vay, axıra qalanın halına" sözləri oxunmamış olsun.

Bir gün Nurəddingildə Nurəddinin atası rəhmətlik Bağır kişi ilə bərabər televiziyada 150 il yaşamış Mahmud Eyvazov haqqında verilişə baxırdıq. Nurəddin verilişə baxıb Mahmud kişi haqqında "Nə xoşbəxt adamdır" deyincə, atası onun üzünə tərstərs baxıb dedi:

- Nurəddin, sən bu sözü düşünüb dedin, yoxsa, elə-belə?

Nurəddin təəccüblə atasına baxıb sualın mənasını başa düşmədiyini bildirincə, Bağır kişi: - Amma mənə görə, dünyada 150 il yaşayan Mahmuddan bədbəxt adam yoxdur, dedi və sonra fikrini belə açıqladı: Dostlarını, yaşıdlarını, yaxınlarını, nəhayət, övladlarını, nəvənəticələrini gözləri qabağında itirən adama necə xoşbəxt demək olar?

O zaman cavan olan biz, yaş yetirmiş Bağır kişinin həyat təcrübəsin dən doğan bu dərin kəlamının mənasını bugünkü qədər dərk etməmişdik.

Bir gün mən 85 yaşlı qayınanam Fatma anaya "O gün olsun, nəticə toyu görəsən" dediyim zaman o, Bağır kişi kimi mənə tərstərs baxıb "məni qarğama" cavabını verdi. Fatma ananın mənim alqışımı qarğış kimi qəbul etməsinin əsl mənasını indi anlayır və qayıdıram Nurəddinin və mənim gözlərimizdən oxunan "Vay, axıra qalanın halına" kəlamındakı ağrınınacının izahına.

İnsan yaşlaşdıqca yaşıdlarını, həmsöhbətlərini, dost və sirdaşlarını itirir və illər keçdikcə tamam təklənir. Mən bu barədə "Ucalıqda tənhalıq" adlı bir şer də yazmışam. Bu təklənmənin səbəbini yalnız itirdiklərinin ağrı-acısını yaşamaqda görmək düz deyil. İnsan yaşlaşdıqca dünyaya baxışı dərinləşir, o, ətrafına yalnız baxmır, o, görür. Onun gördüyünü isə ətrafındakılar görə bilmir. O, gördüyünü deyəndə, ətraf onu anlamır. Bax, bu yerdə o təklənir. İndi o, kiminlə dərdləşsin, içindəki ağrıları kimlə bölüş sün? Axı, onu anlaya biləcək, dərdinə şərik ola biləcək yaşıdlarını, sirdaşlarını itirmiş,

aşıq demişkən: “Ocaqlar başında fikrən, ruhən yalqız qalmışdır”.

Bu isə faciədir. Bu faciəni indi ahıl çağımızda dərk etdiyimiz dən hər ikimiz axıra qalmaqdan qorxuruq.

Mən Nurəddin haqqında bu kiçik qeydlərimlə kifayətlənsəm də, əsl sözüm, əsl mətləbim onun ölçüyə gəlməyən bütövlüyü, kamilliyi barədəki fikir və düşüncələrimin çoxu ürəyimdə qaldı. Çox qəribədir, qələm əhli toxunduğu mövzunu nə qədər dərindən və yaxşı bilirsə, hardan başlayacağı və əsas fikrini necə açıqlayacağın da bir o qədər çətinlik, acizlik çəkir. Çünki çox mətləblər yazı prosesində açılır. Ona görə də bu yazını Nurəddin barədə beynimdə və qəlbimdə yuvalanıb çölə çıxmaq üçün fışqıran fikir və duyğularımın yalnız eskizi adlandırardım. Yazı prosesində bir şeyi özüm üçün aydınlaşdırdım ki, son 50 ildə millətimin yetirdiyi ziyalılar içərisində iftixar edilə biləcək bu böyük dost və insan haqqında, onun adına və əməllərinə layiq yaxşı bir kitab da yaza bilərəm.

**Çərkəz Cəfərov,**
*“Professor Nurəddin Rza”,*
*“Günəş” nəşriyyatı, 1999.*
*“Ədəbi düşüncələr”, Bakı, 2000.*





## LƏYAQƏT
## MÜCƏSSƏMƏSİ

Əzizim Şirməmməd müəllim!

75 illik ömür yolunun 50 ildən çoxunu bir yerdə çiyinçiinə keçdik. Bu müddət ərzində sənin də, mənim də nə qədər dostumuz, həmkarımız, həmsöhbətimiz olmuş, amma ömrün döngələrin də müxtəlif səbəblərdən biz onları ya itirmiş, ya da ayrılmışıq.

Mən sənin 75 yaşının tamam olduğu günü "525-ci qəzet"də keçmiş tələbən və bugünkü həmkarın, məqalələrini sevəsevə oxuduğum Cahangir Məmmədlinin sənin haqqında yazdığı və sənin xarak terinin incəliklərini böyük məharətlə açan məqaləsini oxuyub özözümə düşündüm: ömür yollarımızın 50 ildən çoxunu biz necə oldu ki, bərabər keçə bildik? Bunun sirri nədədir? Çünki bizim ömür yolumuz adicə ömür yolu deyildi. Bu, əqidə, amal yoludu. Bizim ömür yollarındakı birliyimiz də fikir, düşüncə və əqidə birliyi idi.

Səninlə bərabər universitetdə işlədiyim zaman müxtəlif bəhanələr lə məni müəllimlikdən uzaqlaşdırmaq üçün donoslar, imzalı imzasız məktublar təşkil edilir və tez-tez mühakimə olunurdum. O zaman

sən fakültə partiya təşkilatının katibi idin. Mənə verilən ittihamların əksəriyyətində auditoriyada millətçilik təbliğatı ilə məşğul olmağım göstərilirdi. Sən dəmir məntiqin və kəskin ağlınla bu ittihamları rədd edir və mənim müdafiəmə qalxırdın. Sən o zamanlar mənimlə bərabər, mənimlə ortaq olduğun əqidəni müdafiə edirdin.

Burda təxminən 20-25 il əvvəl olmuş bir əhvalatı xatırlatmaq istəyirəm.

Bir gün böyük bir vəzifə sahibinin xahişi ilə onunla görüşdüm. Məlum oldu ki, bu adamın yaxın qohumlarından biri jurnalistika fakültəsində oxuyur. Şirməmməd müəllimə dəfələrlə müraciət olunsa da o, tələbəyə qiymət vermir.

Buna görə də vəzifə sahibi Şirməmməd müəllimin ən yaxın dostu kimi indi də mənə müraciət edir ki, mən bu işi yoluna qoyum.

Mən gülüb dedim ki, sənin bu ciddcəhdinin heç bir mənası yoxdur. Bunun yalnız bircə yolu var: düzlük! O, heç bir xahişə, minnətə baxan adam deyil.

Həqiqətən də, belə oldu. Sonralar eşitdim ki, həmən tələbə oxumağa məcbur olmuş və bundan sonra səndən qiymət ala bilmişdir. Bax, budur müəllimlik borcuna sədaqət, namus, əxlaq və dəyanət!

Yaradıcılığına gəlincə, mən sənin mətbuat tariximiz haqqında yazdığın məqalələrin, demək olar ki, hamısını oxumuşam. Lakin sənin son 78 ildə müstəqil Azərbaycan cümhuriyyətinin banisi M.Ə.Rəsulzadə haqqında yazdığın məqalələrin və o böyük öndərin yaradıcılığını bugünkü gəncliyə çatdırmağın millətimiz qarşısın da ən böyük xidmətindir.

Anan səni, sözün həqiqi mənasında, müəllim doğmuşdur. Çünki sən yalnız auditoriyada deyil, həyatda da müəllimsən, yəni öyrədənsən. Buna görə də mən burda "müəllim" sözünü yalnız ləyaqət mənasında deyil, daha geniş örnək, nümunəvilik mənasın da işlədirəm. Sən öz əxlaqın, ləyaqətin, təmizliyin, bütövlüyün,

mərdliyin və kişiliyinlə həm öz yaşıdlarına, həm də çağdaş gəncliyə ən bariz nümunəsən, örnəksən.

Əziz qardaşım, əgər məndən "Şirməmməd kimdir?" deyə soruş salar, mən iki misra ilə belə cavab verərdim:

Şirməmməd əxlaqın, haqqın öz səsi,
Ləyaqət, dəyanət mücəssəməsi!

*"525ci qəzet", 22 dekabr, 1999.*
*"Ədəbi düşüncələr", Bakı, 2000.*





# NƏCABƏT VƏ NƏZAKƏT SİMVOLU

Ədalət Tahirzadə milli azadlıq hərəkatının öncüllərindən biri olan əziz dostumuz Nəcəf Nəcəfov haqqında xatirə yazmağı mənə təklif edəndə içdən sarsıldım. Axı, yaşlı adamın özündən cavan mərhum haqqında xatirə yazması çox ağırdır. Çünki bu, mənim üçün, elə bil, təbiətin əleyhinə getməkdir. Bu məqamda bir neçə il əvvəl yazdığım şerin misraları yadıma düşdü: "Məndən cavan adamların öldüyünü eşidəndə qaldığıma utanıram".

Ancaq bu da alın yazısıdır.

Əlimə qələm götürəndə Nəcəfin işıqlı siması gözlərim önündə canlandı. Adətən, mən, janrından asılı olmayaraq, bütün yazılarımın sərlövhəsini yazı bitəndən sonra qoyuram. Amma bu xatirə məqaləmdə əvvəlcə sərlövhəni yazdım: "Nəcabət və nəzakət simvolu".

Mən Nəcəfi meydan hadisələrindən çox əvvəllər o, "Molodyoj Azerbaydjana" qəzetinin redaktoru işlədiyi zaman dan tanıyıram. Buna görə də Nəcəf haqqında yazmaq istədiyim xatirələrimi yadıma salmaq üçün 1950-ci illərdən yazmağa başladığım gündəliklərimin

19861989cu illərini varaqladım. 1988ci ilin fevralında Nəcəf mənə zəng vurubmuş. Sovet dönəmində rusdilli qəzetlərin redaktorları bizə zəng vuranda, adətən, rusca danışardılar. Amma hələ üzünü görmədiyim, yalnız adını eşitdiyim rusdilli qəzetin redaktoru, öncə, özünü təmiz ana dilində təqdim edib söhbətə başladı. O, mənim "Yunost" jurnalının sonuncu sayında çap olunmuş şerlərim haqqında fikrini bildirib, sonra xahiş etdi ki, şeirlərimdən onun qəzetinə də verim. Razılaşdıq. Bir neçə gündən sonra L.Şereşevskinin tərcüməsində bir neçə şeirimi ona göndərdim. Ertəsi gün o, mənə yenidən zəng vurub bu şerləri bəyəndiyini, lakin şerlərin orijinalına baxmaq istədiyini bildirdi. Elə bu, mənə bu cavan oğlanı tanımaq üçün kafi idi. Bir neçə gündən sonra şerlərin orijinalı ilə bərabər Nəcəfin yanına gəldim. O, şerlərin orijinalı ilə tərcüməsini səbrlə tutuşdurub gülümsündü:

- Mən deyəndə ki, şerin dəqiq tərcüməsi mümkün deyil, çoxları mənimlə razılaşmır.

Baxdım ki, o, "Yaşdan gileyliyəm" şeirimin tərcüməsindən razı qalmadığını demək istəyir. Bu şerdə artıq yaşlanmağıma baxmayaraq, yaşımı hiss etməməyimdən yenə də uşaqlarla gizlənqaç oynamaq arzumdan söhbət gedir:

*İstərəm gizlənqaç oynayım yenə*
*Başıma götürüb çölü, çəməni.*
*Elə gizlənim ki, düşüb izimə*
*Heç tapa bilməsin qocalıq məni.*

Tərcüməçi bu bəndi belə tərcümə etmişdir:

***Mne bı v prətki poiqratğ, rastaətğ v sizoy dımke,***
***Zabitğsə b v tişinu dalekoqo uqla.***
***Takuö bı nadetğ mne şapkunevidimku,***
***Çtob starostğ na moy sled vovek ne nabrela.***

Nəcəf təəssüflə başını yelləyib dedi:

- Tərcüməçi fikri dəqiq saxlayıb. Amma orijinaldakı "gizlənmək" sözünü "şapkanevidimka" ilə əvəz etməklə şerdəki söz oyununa (gizlənqaç - gizlənmək) diqqət yetirmədiyinə görə, misraların daxili gözəlliyinə xələl gətirmişdir.

Nəcəf tamamilə haqlı idi. Çünki bəndin ilk misrasında gizlən qaç oyunundan söhbət gedirsə, qocalığın məni tapmaması arzusunu bildirmək üçün "gizlənmək" sözü işlənməli idi. Ən mühümü də "Şapkanevidimka" əfsanəsi bizim folklorumuzda yoxdur.

Bu söhbətimizdən mənə aydın oldu ki, "Molodyoj Azerbaydjana" qəzetinin redaktoru olan bu gənc poeziyanın incəliklərini nə qədər dərindən bilir.

Bu görüşdən sonra bizim bir-birimizə olan hörmətimiz ildən-ilə dərinləşməyə başladı.

AXC-nin mübarizə dövründə və parlament iclaslarında tez-tez görüşər, məsləhətləşərdik. Mən o zamanlar parlamentdə tez-tez çıxış edər, çox hallarda Nəcəf mənim təkliflərimi dəstəkləyər di. Onlardan biri heç zaman yadımdan çıxmır. Mən çıxışım da ermənilərin silahlandığını və bizim də ordu yaratmağımızın zəruri olduğunu dediyim zaman general Bərşadlı mənə qarşı çıxdı. O zaman mənim təklifimi müdafiə edənlərdən biri də Nəcəf oldu.

20 Yanvar hadisəsinin ertəsi mənim çağırdığım parlament iclasın da rus ordusunun törətdiyi qanlı faciəyə siyasi qiymət veril

məsi məsələsini qaldıranlardan ən fəalı Nəcəf idi. Nəcəf fövqəladə vəziyyətin dərhal götürülməsini və rus ordusunun Bakını tərk etməsini, əks halda, bizim Sovetlər İttifaqının tərkibin dən çığacağımızı da təklif etdi. Sonuncu məsələnin müzakirəsi uzun çəkdi. Bizə xəbər gəldi ki, rus əsgərləri parlament binasını mühasirəyə almış, soldatların bir qismi də binanın zirzəmisində yerləşdirilmişdir. Məsələnin bu yerə qədər dərinləşdiyini görən bəzi deputatların parlamenti tərk etmək fikrinə düşdüyünü bilən Nəcəf bu xəbəri mənə

çatdırıb təşəbbüsü ələ aldı. AXC üzvlərin dən bir neçəsi ilə bərabər Nəcəf çıxış qapılarının hamısını bağlatdırdı. Və mənə xəbər göndərdi ki, “sən işində ol, qapıları bağlatdırmışam”.

Elə də oldu. Toplantı səhərə qədər davam etdi.

Nəcəfin bir insan kimi xarakterinə gəlincə, onu deyə bilərəm ki, mənim bu yaşa qədər tanıdığım adamlar içərisində o öz yumşaqlığı, nəcabət və nəzakəti ilə hamıdan seçilərdi. “İnsanın üzü və gözləri onun qəlbinin aynasıdır” - kəlamının nə qədər doğru olduğunu şamil etdiyim adamlardan biri də Nəcəf idi. Onun içində nə qədər ağrı, acı olsa da, üzü və gözü həmişə işıqlı idi. Çünki üzündə içinin gözəlliyini, xeyirxahlığını əks etdirən xəfif bir təbəssüm var idi. Mən onun əsəbiləşdiyini, özündən çıxdığını heç vaxt görmədim. Çünki o, həmişə özündə idi.

Qısası, Nəcəf Nəcəfov sözün ən geniş mənasında Nəcəf bəy Vəzirov və Həsən bəy Zərdabi ənənəsindən gələn əsl azəritürk ziyalısı idi.

“525-ci qazet”də Nəcəfin vaxtsız ölümü haqqında yazılan məqalədə o, “cənnətlik adam” adlandırılır. Məqalə müəllifi tamamilə haqlıdır. Ömründə heç kəsi incitməyən, heç kəsin xətrinə dəyməyən, hamını özünə dost bilən, alicənablığı və xeyirxahlığı ilə özünü hamıya sevdirən, bütün bunlarla bərabər öz əqidə və prinsipindən dönməyən bu adam, həqiqətən, cənnət adamıdır.

Bu gözəl ziyalıya Allahdan rəhmət, ailəsinə isə səbr diləyirəm.

*“İlk xatirələr”*
*(“Dostlarının Nəcəf Nəcəfov haqqında xatirələri”)*
*Bakı, “Yeni nəsil” nəşriyyatı, 2000.*
*ncələr”, Bakı, 2000.*





# XATİRƏ-
# ELEGİYA

***(Əzizim Əziz Mirəhmədovun
xatirəsinə)***

Özümə mənəvi qardaş saydığım, hər sözündən, hərəkətindən, adi işarəsindən, eyhamından, hətta incə zarafatlarından belə nümunə götürdüyüm, dərs aldığım, böyük ədəbiyyatşünas alim, hamının əzizi Əziz Mirəhmədovun xatirəsi önündə baş əyir, Allahdan rəhmət diləyirəm.

Onun haqqında yazmaq, gözəl keyfiyyətlərini, alicənablığını, xeyirxahlığını yada salmaq, şəxsiyyətinin bütövlüyünə, kamilliyinə dair misallar çəkməklə onu tanımayanlara olduğu kimi tanıtmaq çox çətindir.

Mənəvi qardaşım, könül sirdaşım Əziz Mirəhmədovun ömürgün yoldaşı, mənim tələbə yoldaşım Əminə xanım onun haqqında xatirə yazmağı mənə təklif edən kimi masa arxasına keçdim. Lakin qələm əlimdə titrədi, ilk cümləni hardan və necə başlamaq haqqında xeyli düşünüm.

Xəyalım ilk tanışlığımıza - 1943-cü ilin sentyabrına getdi. Bu o gün idi ki, gənc, ucaboy, qarayanız aspirant Əziz Mirəhmədov

bizə dərs deyirdi. Gənc olmasına baxmayaraq, onda çılğınlığın, ötkəmliyin əlaməti belə yox idi. Çox asta və təmkinlə danışır, izah etmək istədiyi mətləbi yalnız faktlarla bizə dərk etdirməyə çalışırdı. Dərs başlanandan bir müddət sonra bizim sinifə səliqəli və müasir geyimli, sakit və sanballı davranışı ilə hamıdan seçilən gözəl bir tələbə qız gəldi. Biz, rayon uşaqları bu qızın şəhərli olduğunu, ziyalı ailədən çıxdığını dərhal anlayıb, onunla ehtiyatla davranmağa çalışırdıq. Əminə adlanan bu qız sonralar Əziz Mirəhmədovun ömürgün yoldaşı oldu. Mən bunu biləndə bu izdivacı ürəyimdə alqışlayıb, Əziz kimi bir ziyalının məhz Əminə xanım kimi bir ziyalı xanımla ailə qurmasının təsadüfi olmadığını anladım.

Əziz müəllimlə yaş fərqimiz çox olmadığına görə, biz müəl limtələbə ikən bir müddətdən sonra dostlaşdıq. Məni müəllimimə çəkən, onunla dost olmağa sövq edən əsas cəhət onun biliyi, dərin ağıllı, tutarlı mühakimələri, sözün geniş mənasında, ziyalılığı idi. Onu mənə bağlayan cəhət isə, yəqin ki, mənim bilmədiklərimi öyrənmək hərisliyim, ümumən, ədəbiyyata sevgim, sənətin incəliklərini bilmək həvəsim idi. Buna görə də o, mənə tez-tez müxtəlif mövzulu kitablar verir, məni oxudur, ən maraqlısı isə kitabda qoyulan problemin, məqsədin nədən ibarət olduğunu soruşur, mənə çatmayan mətləbləri təmkinlə izah edirdi.

O, məni tez-tez evinə dəvət edərdi. Saatlarla ədəbiyyat, tarix və fəlsəfənin məqsədləri barədə danışır, o mənə bu qohum elmlərin bir-birinə bağlılığını və fərqli cəhətlərini başa salırdı. Bu söhbətlərdə mən onun bilik dairəsinin genişliyinə, məsələlərə yanaşma üsuluna, çıxartdığı nəticələrə heyran qalırdım.

Bir dəfə mən onu evdə radioqəbuledicinin qarşısında oturub hansısa simfonik musiqini dinlədiyinin şahidi oldum. O, məni görən kimi əli ilə oturmağımı və susmağımı işarə elədi. Oturdum, amma çalınan musiqidən heç nə anlamadığımdan darıxır, onun bu “tap-patrupdan” ləzzət almağına təəccüblənirdim. Biriki dəfə danışmaq istədim, qoymadı. Susdum.

Musiqi bitən kimi dözməyib partladım:

- Bu haray-həşir, bu gurultupatıltı, yəni doğrudan xoşuna gəlir? O, sakitcə qalxıb mənə o zaman Azərbaycan dilində yenicə nəşr olunmuş Çaykovski haqqında bir kitab, bir də Çaykovskinin o zaman "dolqoiqrayuşiy" adlanan plastinkasını verib dedi:

- Bu, böyük rus bəstəkarı Çaykovskinin fortopiano ilə orkestr üçün konsertinin plastinkasıdır. Get, mağazadan bir dənə patefon (maqnitofon) al, bu plastinkanı hissəhissə, hövsələ ilə dinlə və bu kitabdan həmin hissələr barədə yazılanları oxu və öyrən. Onda sənə aydın olacaq ki, simfoniya elə-belə "tappaturup" deyil, fikirdir, düşüncədir, mənadır. Bu mənaları, bu fikirləri biləndən sonra sən simfoniyanın nə olduğunu biləcək və sevəcəksən.

Mən, əlbəttə, ona, onun biliyinə, dünyagörüşünün zənginliyinə inanırdım. Buna görə də onun dediklərinə əməl etdim. Və doğrudan da, bir neçə müddətdən sonra tədricən mən Çaykovskinin dəlisi oldum. Ondan sonra Borodini, Raxmaninovu, Qlinkanı, Betxoveni, Baxı, Motsartı, Şopeni, Şuberti dinləməyə və dinlədikcə də sevməyə başladım.

Bu gün mənim simfonik Qərb musiqisini başa düşməyimin, sevməyimin, sevmək azdır, bu janra aludəliyimin baiskarı Əziz müəllimdir. Hər dəfə dünyanın böyük musiqi korifeylərini dinləyəndə, məndən asılı olmayaraq, Əziz müəllimin nurani çöhrəsi qarşımda canlanır, musiqinin təsiri altında gözlərim dolur və qəlbimdə ona minnətdarlığımı bildirirəm.

1950-ci ildə evim olmadığından toyumu qonşunun evində eləmiş dim. Bu toyda o zamanın elm və sənət adamlarından yalnız 3 nəfər iştirak edirdi: Mir Cəlal, Qasım Qasımzadə və Əziz Mirəhmədov. Toyun tamadası isə Əziz müəllim idi. O, mənalı, məzmunlu sağlıqları, incə yumoru, müdriklərdən gətirdiyi misal

larla mənim kasıb toyumu zənginləşdirdi.

1951-ci ildə qüdrətli yazıçımız və alimimiz Mir Cəlalın rəhbərliyi ilə "S.Vurğun**un lirikası mövzusunda yazdığım dissertasiyam ha-**

**zır idi.** (Mir Cəlal Əziz müəllimin də elmi rəhbəri olmuşdu). Avtoreferatımı rus dilinə çevirtdirib üslubi cəhətdən yoxlamaq üçün Əziz müəllimə vermişdim. O, avtoreferatımı oxuyub məni evinə çağırdı. Söhbətindən məlum oldu ki, avtoreferat rus dilinin imkanları müqabilində zəif tərcümə olunub. Buna görə də yazını cümləcümlə redaktə etməyə başladı. 23 səhifədən sonra redaktə fikrindən daşındı və mətnin orijinalını götürüb özü yenidən tərcümə etməyə başladı. Bu tərcümə iki gecəyə başa çatdı.

Yeri gəlmişkən, onu da deyim ki, bu əlavə zəhmətdən qorxduğum üçün doktorluq dissertasiyamın avtoreferatının tərcüməsini, elə bu başdan, Əziz müəllimdən xahiş etmişdim. O, mənim xahişimi məmnuniyyətlə qəbul edib, bu ağır zəhməti təmən nasız boynuna götürdü.

Mən Əziz müəllimin, demək olar ki, bütün əsərlərini, xüsusən Mirzə Cəlil haqqında yazılarını oxumuş və bu böyük ədibin dahiliyinin mahiyyətini Mir Cəlalın və Əziz Mirəhmədovun təhlillərin dən öyrənmişəm. Daha dəqiq desək, Əziz müəllim öz təhlilləri ilə C.Məmmədquluzadə dühasının görünməyən cəhət lərini, sətiraltı mənalarını açmaqda əvəzsiz iş görmüşdür. Əziz müəllimin qələmi demək istədiyi fikrin daha aydın ifadəsin də riyazi dəqiqliyə malikdir. Mən bir dəfə onun ifadə ustalığın dakı dəqiqliyin sirrini soruşduqda, o, gülümsəyib dedi ki, “mən ədəbiyyata riyaziyyatdan gəlmişəm”.

Mən bu kiçik yazımda Əziz Mirəhmədovun yaradıcılığını, bu yaradıcılığın özünəməxsusluğunu təhlil etməkdən uzağam. Bu yazıda mən yalnız onun böyük qəlbini və xarakterini açan bir vacib məsələyə toxunmaq istəyirəm:

Məlum səbəblərə görə, Sovet dövründə XX əsrin inqilaba qədər ki dövr ədəbiyyatşünaslığında Əli bəy Hüseynzadə, Əhməd bəy Ağa oğlu, Ömər Faiq Nemanzadə kimi nəhənglər haqqında həqiqəti demək, onların Vətən və millət sevgisinin mahiyyətini olduğu kimi açmaq mümkün deyildi. Bu səbəbdən Əziz müəllim də yazılarında, dövrün tələbinə uyğun olaraq, onların əsl simalarını, əsərlərinin

mahiyyətini deyə bilməmiş, əksinə, onları “həqiqəti görməməkdə”, “milli məhdudiyyətdə” ittiham etmişdi.

Mən Əziz müəllimin şəxsiyyət bütövlüyünə, dəyanətinə, insan kimi təmizliyinə (o zamanlar KQB-nin qorxusundan heç kəs qəlbini başqasına açmazdı) qəlbən inandığıma görə bir dəfə Buzovnadakı bağ evində heç nədən çəkinmədən onun Əli bəy və Əhməd bəy haqqında yazdıqları ilə razılaşmadığımı, onların böyük vətənpərvər olduqlarını dedim. Buna qədər də bu məsələ ilə bağlı bir neçə dəfə ona etirazımı bildirmişdim. O, hər dəfə susmuş, mənimlə mübahisədən qaçmışdı. Lakin, nədənsə, bu dəfə o, mənimlə ötəri mübahisəyə girişdi və məni bir qədər ehtiyatlı olmağa çağırdı. Bununla belə, o, qəlbinin dərinliyində mənim kimi düşündüyünü, lakin fikrini bildirmək istəmədiyini anlayırdım. Mən başa düşürdüm ki, zamanın hökmü, çəkdiyi ağır iztirablar, başına gələnlər ona qəlbini tam açmağa imkan vermir. Mən onu da bilirdim ki, onun böyük millətçi Məhəmməd Hadi haqqında yazdığı namizədlik dissertasiyasını o, hələ aspirant ikən ləğv etmişdilər. Bu hadisədən sonra o, adamlarla çox ehtiyatla davranır və açıq söhbətlərdən çəkinirdi. Bir həqiqət də vardı ki, mən hiss adamı, o isə ağıl və tədbir adamı idi. Mən hələ o zamanlar da hissə qapılaraq, ürəyimdəkiləri açıqca bildirdiyimdən başım çox bəlalar çəkmişdi.

Zaman keçdi, Sovet imperiyası dağıldı, Əli bəyləri, Əhməd bəyləri, Ömər Faiqləri, Hadiləri millətçilikdə ittiham edən ədəbiyyatşünaslar içərisində ilk olaraq kişi kimi öz səhvini etiraf edən, o böyük qələm sahiblərinin müqəddəs ruhu qarşısında üzr istəyən Əziz Mirəhmədov oldu. Onun “Ədəbiyyat qəzeti”nin 21 fevral, 1992-ci il sayında “Təqsirimi yumaq istəyirəm” məqaləsi bu cəhətdən çox əlamətdar idi.

1995-ci ildə 70 illik yubileyim münasibətilə haqqımda yazdığı “Qalib şair” məqaləsində (“Günay” qəzeti, 14 oktyabr, 1995) vaxtilə etdiyimiz mübahisələri xatırladaraq, mənim haqlı olduğumu da səmimi şəkildə etiraf etmişdi. Bu, Əziz müəllimin qəlbən böyüklü-

yünün və səmimiyyətinin təsdiqi idi.

Əziz Mirəhmədovun ən yaxın dostu, eyni zamanda, hamımızın dostu və sevimlisi Məmməd Cəfər Cəfərov idi. Mən Əziz müəllim haqqında bu qeydlərimi yazarkən, onun haqqında düşün cələrimin mərkəzində Məmməd Cəfər müəllim durur. Əvvəla, yuxarıda yazdığım kimi, o, Əziz müəllimin ən yaxın dostu və könül sirdaşı idi. İkincisi isə, vəfatından çox illər keçməsinə baxmayaraq, bu vaxta qədər o, böyük və böyüklüyü qədər də təvazökar olan insan, eyni zamanda, öz nəcabəti və ziyalılığı ilə bir neçə nəsli yetişdirmiş, sözün geniş mənasında, vətənpərvər alim və gözəl müəllim haqqında kiçik bir məqalə də olsa, yazmamağımı özümə bağışlaya bilmirəm.

Hər iki müəllimim - Əziz və Məmməd Cəfər, bir də hər üçümüzün tələbəsi olan - Məsud Əlli oğlu ilə, heç olmasa, ayda ikiüç dəfə görüşər və Qara şəhərdə o zaman Rotefane (indiki Nizami) parkındakı kiçik restoranda otururdıq. Bu görüşlərdə ürəklərimiz açılar, Füzulidən, Cəlaləddin Rumidən tutmuş Sabirə, Aşıq Ələsgərə qədər sevdiyimiz dahilərdən şeirlər oxuyar, xüsusən Mirzə Cəlilin gülüşündə ağlayan felyetonlarından misallar çəkər və onların böyüklüyü qarşısında heyrətimizi bildirərdik.

Etiraf edirəm ki, içkinin hərarəti altında nəğmə də oxuyardıq. Məmməd Cəfər müəllimin ən çox sevdiyi türk mahnısı "Fincanım" idi. Bu mahnıdan sonra Məmməd Cəfər müəllimin özünün yazdığı bir şeirin hər bəndini birimiz əzbər deyərdik. Həmin şeirdən yalnız bir bəndi yadımdadır:

*Mən səni sevirəm, yaradan bilir,*
*Bəs bu sirri ellər haradan bilir?*
*Yoxsa, sən vurdğun yaradan bilir*
*Mənim sualıma cavabın nədir?*

Məmməd Cəfər müəllim həmişə Əziz haqqında ağız dolusu danışır, mənə və Məsuda deyərdi ki, məndən çox Əzizi eşidin, onun

tövsiyələrinə əməl edin. Çünki o, hissdən çox ağlın, məntiqin hökmü ilə yaşayan adamdır. Qəribə burasıdır ki, eyni sözləri Əziz də Məmməd Cəfər haqqında deyərdi.

Əzizim Əziz müəllim, Əminə xanım məndən sənin haqqında xatirə yox, elegiya yazmağımı istəmişdi. Ona görə də mən sözümün sonunda sənin ruhunla danışmaq istəyirəm. Allahın varlığına inandığımıza görə, cismi olmayan ruhun da varlığına inanıb, sənin ruhuna müraciət edirəm:

Sən sağlığında mənim üçün ehtiyac idin. Sən o dünyaya köçməyinlə mənim əlimdən bu ehtiyacı aldın. Biz nə qədər xoş günlər keçirmiş, ağrılıacılı, şirinlişəkərli günlərimiz olmuş, söhbətlərimizlə bir-birimizi tamamlamış, lakin bu günlərin sonu olduğunu heç zaman düşünməmişdik. Əgər bunu düşünsəydik, o günlərin qədrini elə o günlərdə bilərdik. Bu niyə belədir? Niyə biz insanlar xoşbəxt ikən xoşbəxtliyimizi anlaya bilmir, o günlərin xoşbəxtliyini o günlər əlimizdən çıxandan sonra anlayır və buna təəssüflənirik.

İndi mən bu sətirləri yazarkən ruhən səninləyəm, sənin nurani çöhrəni görürəm. Çünki indi sənin ruhun mənim yazı masamın ətrafında dolanır, yazdıqlarımı oxuyur və yalnız indi bilirəm ki, bizim bir-birimizə nə qədər böyük ehtiyacımız var imiş. İndi sən cismən olmasan da, ruhən varsan. Mənimlə, dostlarınla, səni sevənlərlə, sənin ruhunla yaşayan sədaqətli ömürgün yoldaşın Əminə xanımlasan.

İndi mən düşünürəm: Biz ki, bu qədər bir-birimizə yaxın və əziz idik - niyə mən sənə, heç olmasa, tez-tez zəng çalmır, səndən xəbər tutmurdum? Xəstəliyindən də xəbər tutmamış, hətta hiss etməmişdim. Məni əfv elə, dost, keç günahımdan! Mən itirdiyim dostlarım, əzizlərim haqqında xatirə yazarkən, yaxud onları, sadəcə, yada salarkən, göyümgöyüm göynəyir və yalnız o zaman nə qədər böyük itkilər verdiyimi və indi tək qaldığımı anlayıram. Təkliyin dəhşətlərini yaşamaq və anlamaq isə dünyanın ən böyük əzablarındandır:

*Çay çaya qovuşmaz sular daşmasa,*
*Ulduzun ulduza ünsiyyəti var.*
*Göydə buludlar da qoşalaşmasa,*
*Nə ildırım çaxar, nə yağış yağar.*
*Öz el obasını tərk etdiyindən*
*Tək tənha dolaşır bayquş bu gün də.*
*Kolların dibində tək bitdiyindən*
*Boynu bükük olur bənövşənin də.*

*Yarpağı tez solar tək ağacın da*
*Arxası yoxdursa, necə solmasın?*
*Meşələr sultanı, meşələr şahı*
*Aslanın özü də yalqız olmasın.*

Ey əziz dost, indi səni dörd gözlə axtarır, Nizami parkının o kiçik restoranında səninlə üzbəüz oturub yenə mübahisə etmək, ortaq məxrəcə gəlsək də, gələ bilməsək də - M.Hadilərin, Əhmədbəy Ağaoğluların, Əlibəy Hüseynzadələrin xatirəsini anmaq, yenə anmaq, o böyük Kişilərin böyük əməlləri naminə yanmaq istəyirəm.

*"Rekviyem", Bakı, 2003.*

# ÇIXIŞLAR, RƏYLƏR





*Tale artıq neçənci dəfədir ki, xalqımızı mərhəmət və xeyirxahlıqda dözümlüyə, imtahana çəkir. Mən bilmirəm, harada və daha hansı xalqa sülh dövründə, son illər ərzində Azərbaycan xalqının üzərinə düşmüş əzab-əziyyətə və iztirablara davam gətirmək müyəssər olmuşdur...*

## ƏZİZ VƏ HÖRMƏTLİ MÜƏLLİMLƏR!

*(Müəllimlərin VI qurultayında çıxış)*

Sizi respublika müəllimlərinin VI qurultayı münasibətilə yaradıcı ziyalılar adından təbrik edir, gənc nəslin tərbiyəsi kimi mühüm və şərəfli işinizdə sizə uğurlar diləyirəm.

Müəllim - bizim ilk dostumuz, mənəvi atamız, anamızdır. Ən çox hörmət etdiyimiz, planetimizin fəxri sayılan ən böyük şəxsiyyətləri "Müəllim" adlandırırıq. Beləliklə, "müəllim" sözü dar, lüğəti mənasından çıxıb daha böyük mənalar kəsb edir, misilsiz məzmuna malik olur. Məndən olsaydı, əlifbadakı sıra qanunlarını pozub "müəllim" sözünü bütün dillərin lüğətində ilk söz kimi yazardım. Böyük yunan filosofu Əflatundan xəbər aldılar:

- Atanı çox sevirsən, ya müəllimini?

Filosof cavab verdi:

- Müəllimimi!

- Nə üçün? - deyə xəbər alanda, o belə cavab verdi:

- Atam məni göydən yerə endirdi, müəllimim isə yerdən göyə qaldırdı.

Bu, çox böyük sözdür. Yerdən göyə qalxmaq - əsrin səviyyəsində duran böyük fikirlər, böyük ideyalarla yaşamaq, gələcəyə

qanadlanmaq deməkdir. Bizi hələ uşaq ikən böyük fikirlər və böyük əməllərlə silahlandıran, gözümüzü dünyaya açan, əllərimizdən tutub bizi sirlər dünyasına aparan, bizə uçmaq üçün qanad verən müəllimimizdir. Müəllim beyinlərə fikir, ideya toxumu səpir, gözlərə işıq, ürəklərə od verir. Ən ümdəsi də bizə düşünmək öyrədir. Bu qədər böyük və lazımlı bir vəzifəni cəmiyyət müəllimə tapşırmışdır.

Müəllim hələ ayna kimi saf olan uşaq beyninə pis toxumlar da əkə bilər, gözəl və faydalı toxumlar da. Pis toxumların məhsulu qanqal, kolkos, yaxşı toxumların məhsulu isə qızılgül və faydalı meyvələr olar. Buradan müəllimin cəmiyyətdəki yeri aydın olur.

Cəmiyyətimizə layiq insan, ideallarımıza layiq vətəndaş yetirmək vəzifəsini qarşısına məqsəd qoyan müəllim hər şeydən əvvəl özü sənətinin məsuliyyətini bütün ciddiyəti ilə dərk edən bir vətəndaşdır. Belə müəllimlərlə biz öyünür, fəxr edirik.

Əziz yoldaşlar, mən burada qəsdən müəllimliyi peşə deyil, sənət adlandırdım. Çünki, doğrudan da, uşaq beynində ilk naxışlar açan müəllimə peşəkar yox, sənətkar demək lazımdır.

Müəllimlər unutmamalıdır ki, o, cəmiyyət üçün sözün geniş mənasında vətəndaş hazırlayır. Bu vətəndaşın həyat da tutacağı mövqe ondan asılıdır. Müəllim öz gələcəyini də qarşısında əyləşən körpə balalarda görməlidir. Böyük rus pedaqoqu A.S.Makarenkonun dediyi kimi, "Bizim balalarımız bizim qocalığımızdır. Düzgün təlimtərbiyə bizim xoşbəxt qocalığımız, nöqsanlı təlim-tərbiyə isə vətən qarşısın da bizim dərdimiz, göz yaşlarımız və günahımızdır".

Beləliklə, müəllim bu gün sabahı yaradır. Əgər cəmiyyəti nəhəng bir binaya bənzətsək, bu binanın bünövrəsini tikən müəllimlərdir. Bina bünövrəsindən lazımi səviyyədə tikil məsə, onun içinə və çölünə nə qədər bəzək-düzək vurulsa da, o bina laxlamalıdır. Bünövrəni möhkəm quran vətəndaş müəllimlərə eşq

olsun!

İnqilabdan əvvəl Azərbaycanda uşaqlar üçün "Məktəb" adlı bir jurnal buraxılmışdır. Həmin jurnalın titul səhifəsində qaranlıq kənd, ortada balaca bir məktəb binası, binanın arxasın da isə doğan günəş təsvir olunmuşdur. Rəssam demək istəmiş ki, kəndə işıq məktəbdən doğur. Məktəb biliyin, işığın, həqiqətin, gözəlliyin qaynağıdır, başlanğıcıdır.

İnqilabdan əvvəl Sabir, Cəlil Məmmədquluzadə, Firidun bəy Köçərli, Nəriman Narimanov, Üzeyir Hacıbəyli, Hüseyn Cavid kimi maarifçilərimiz xalqın nicatını və səadətini maa rifdə görür, məktəblər açır, xalqı savadlandırmağa çalışırdılar. Bu ilk maarif qaranquşları müəllimliyə xalq üçün yanmaqdan, öz şəxsi arzularını unudub xalqın yüksəliş arzusu ilə yaşamaqdan, bir sözlə, vətəndaşlıq hissindən gəldilər. "Ürək yanmasa, gözdən yaş çıxmaz" deyirlər. Ürək yanğısı - Vətən üçün, xalq üçün, onun gələcəyi üçün yanmaqdır. Bu yanğı onları müəllimliyə gətirdi. Onların dərs dediyi məktəblərdən inqilabçılar, yazıçılar, alimlər yetişdi.

İndi inkişaf etmiş cəmiyyətin müəllimləri həmin ənənəni daha ardıcıl surətdə davam etdirməklə, dövlətimizin qarşıya qoyduğu bütün məsələlərin həyata keçirilməsində onun köməkçisidir. Cəfər Cabbarlının Almaz obrazını yada salaq. Almaz müəllimlikdən başqa həm də ictimai tərəqqinin həyata keçirilməsində fədakar mübarizdir.

Burada müəllim nüfuzu barədə danışmamaq olmaz. Müəllim nüfuzu və hörməti necə qazanır? Aydındır ki, ilk növbədə, biliyi, tədris etdiyi fənnə böyük və tükənməz məhəbbəti, böyük duyğularla yaşaması, mənəvi təmizliyi - bir sözlə, yenə də vətəndaşlığı ilə.

Müəllim dərs dediyi zaman unutmamalıdır ki, onun sözlərinə, sözlərinin gözəlliyinə, ahənginə və məzmununa bir sinif uşaq,

hərəkətlərinə, geyiminə, davranışına nə qədər göz, rəftarına, münasibətinə nə qədər ağıl və ürək diqqət yetirir. Həm də bu ürəklər təqlidə meyllidir. Uşaq həmişə kimisə, nəyisə təqlid etməyi, özünü ona oxşatmağı sevir. Uşaq atasından güclü, müəllimindən bilikli adam tanımır. Uşağın bu düşüncəsinə xələl gətirməmək üçün müəllim özünə, sözünə, rəftarına nə qədər diqqətli olmalıdır. Müəllimində təqlidə, pərəstişə layiq heç nə görə bilməyən şagirdlərin vay halına!

Həqiqi müəllim uşağa yalnız bilik öyrətmir. Həm də, öz mənəvi təmizliyi ilə ona mənəvi keyfiyyətlər aşılayır. Belə müəllimi özünə ideal seçən şagirdin sonrakı idealını gözləriniz qabağına gətirin.

Mənəvi gözəllik və təmizlik tərbiyə məsələsidir. Bu iş birbaşa müəllimin vəzifəsinə aiddir. Ona görə də bu mühüm məsələdə müəllimlərimiz bizim ilk köməkçilərimizdir.

Bizim yolumuz kənd və rayonlara düşdüyü zaman ilk növbədə getdiyimiz yer məktəb və kitabxana olur. Mən şəxsən nümunəvi məktəblərə çox rast gəlmişəm. Onlardan biri Şamaxı rayonunun Leninabad kəndindəki orta məktəbdir. Bu məktəbin müəllim heyəti direktorun rəhbərliyi ilə təşəbbüslər qaldırmış, şagirdlərin köməyi ilə məktəbin nəzdində, gözəl bir ölkəşünaslıq muzeyi düzəltmiş, idman zalı tikmiş və həmin məktəbin müharibədə həlak olmuş məzunlarının şərəfinə nəbatat bağı salmış, abidə ucaltmışdır və buraya onların şəkilləri vurulmuşdur. Şəkillərin altındakı dolablarda döyüşçülərin cəbhədən ana və atalarına yazdıqları məktublar və qısa tərcümeyihalları saxlanır. Məktəbin zəngi abidənin başından asılmış zəngə calaşdırılmışdır. Belə ki, məktəbin zəngi çalınanda abidənin zəngi də səslənir. Bu zəng səsləri ilə elə bil məktəb otuz beş il bundan əvvəl onun yolunda həlak olmuş keçmiş şagirdlərini də dərsə çağırır. Axı, o cavanların ömürləri kimi, təhsilləri də yarımçıq qalmışdır. Bəlkə də,

indi məktəb bu zəng səsləri ilə müharibədə həlak olmuş keçmiş şagirdlərinin ruhuna xatirə nəğməsi oxuyur.

Başqa bir misal. Şəki rayonunun Oxud kənd orta məktəbinin təşəbbüsləri də təqdirəlayiqdir. Bu məktəb həftənin müəy yən günləri kənddə radio vasitəsilə maraqlı verilişlər təşkil edir. Həmin verilişlərdə şagirdlərin həftə ərzində məktəbdə özlərini necə aparmaları barədə məlumat və aldığı qiymətlər verilir. Əgər bir şagird məktəbdə özünü nalayiq aparıbsa, onu həftənin sonunda nəinki məktəb, bütün kənd bilir. Bu, gözəl tərbiyə vasitəsi deyilmi? Yaxud müəllim heyətinin təşəbbüsü və şagirdlərin köməyi ilə məktəbin həyətin də üzgüçülük hovuzu yaradılmışdır.

Deməκ, bayaq dediyimiz yanğı və vətəndaşlıq hissi olarsa, şagird və müəllimlərin köməyi ilə hər şey eləmək mümkündür.

Mən bu uca kürsüdən bir məsələdən də danışmaq istəyirəm. Kəndlərimiz gündəngünə abadlaşır, yeni binalar tikilir, yeni yollar salınır. Evlərin ətrafına hasar çəkmək dədə-baba adətimizdir. Bəzən bu hasarlar bizi çöldən ayırır. Görürsən ki, hasardan içəri - həyət-baca, ev-eşik, gözəl və səliqəlidir. Amma küçələr, ictimai binalar, məktəb, xəstəxana, kitabxana o qədər də ürəkaçan olmur.

Bir neçə il əvvəl Ağdam rayonunun Novruzlu kəndinə getmişdik. Bu kənd "Novruzlu" şərabı ilə məşhurdur.Camaatın dediyinə görə, vaxtilə bu kənddə 80-ə yaxın üzüm növü olmuşdur. İndi bu növlərdən yalnız 15-20-ci becərilir.

Kənd sonralar yenidən tikilmişdir. Burada da səliqəli evlər, güllü-çiçəkli həyətlər sıra ilə düzülmüşdür. Lakin kitab xana, xəstəxana və məktəb, yaşayış evləri qədər səliqəli deyil. Bəs nə üçün evimizi, həyət-bacamızı özümüzünkü hesab edirik, məktəbi, kitabxananı özgəninki? Axı, məktəb də, kitabxana da hamımızındır. Ev, həyət-baca mənimkidir, küçə, yol, xəstəxana, məktəb, kitabxana bizimkidir. Niyə mənim ki mənə əziz, doğma, bizimki

bizə yad və ögey olmalıdır?

*Deyirəm insanmı, insanmı, görən,*
*Vətən namusuyla yaşamayanlar?*
*Heyhat, hələ çoxdur; evini vətən,*
*Qohum qardaşını millət sayanlar.*

Əziz müəllimlər, bu işdə sizin təbliğatınız və müdaxiləniz lazımdır. Biz istərdik ki, bu işdə siz təşəbbüskar olasınız. Siz izah edəsiniz ki, ictimai duyğu şəxsi duyğudan üstündür. "Mən"dən "bizə" keçmək vaxtı çoxdan gəlib çatmışdır. Gəlin, mənliyimizin yağında yanmayaq, el malına şəxsi sərvətimiz kimi baxaq. Xalqın özünü bir xalq kimi dərk etməsində yeganə yol "mən"dən "bizə" keçməkdir. Xalqımızın yetiş dirdiyi Nizami, Füzuli, Mirzə Cəlil, Səməd Vurğun kimi söz ustaları, Əcəmi kimi memarı, Nəsrəddin Tusi, Yusif Məmmədəliyev kimi alimləri, Üzeyir Hacıbəyli kimi sənətkarı yalnız bir nəfərin deyil, bir kəndin, bir şəhərin deyil, hamımızın olduğu kimi, ictimai təsərrüfat da, bu dahiləri yetiş dirən ictimai ocaqlar da hamımızındır. Onları göz bəbəyi kimi qoruyub saxlamaq hamımızın borcudur, çünki onlar ən böyük və ən qiymətli sərvətimiz olan balalarımızı yetişdirib cəmiyyətə təqdim edir.

***1978.***
***"Sadəlikdə böyüklük", Bakı, 1978.***

## BİRLİYİ ƏLDƏN VERMƏYƏK

***(Məqalə müəllifin Azərbaycan televiziyası və radiosu ilə çıxışının mətni əsasında yazılmışdır)***

Biz indi son dərəcə ağır günlər içindəyik və bu günlərdə adicə bir səhv hamımıza çox baha başa gələ bilər. Ona görə də mən xalqıma birinci növbədə təmkin arzulayıram. Təmkin! Əlbəttə, demək istəmirəm ki, xalqım öz mübarizəsini dayan dırmalıdır. Qətiyyən yox! Son günlərdə çox gözəl bir ifadə teztez təkrar edilir: "Xalq sözü - haqq sözü".

Xalq öz haqqını tələb eləyir.

Biz mitinqə, nümayişə bəxtəvərlikdən çıxmamışıq. Dərdimiz bir gündə, iki gündə yaranmayıb, bu, bir ilin, iki ilin dərdi deyil. Daha səbrimiz tükənib. Ona görə də xalq öz ürəyindəkiləri açıq bildirir və öz haqqını tələb edir. Xalqın tələbinə isə biganə qalmaq olmaz.

Nümayişdə xalqın tələblərindən biri - Dağlıq Qarabağın muxtariyyətinin ləğv olunmasıdır. Axı, neçə illər boyu heç bir muxtariyyətə malik olmayan 200 min azərbaycanlı, nəhayət, Ermənistanda yaşamaq hüququndan da məhrum edildi. Özü də

zorla, vəhşiliklə məhrum edildi. Belə olan surətdə Dağlıq Qarabağ Muxtar Vilayəti ləğv olunmalıdır. Xalq bunu tələb edir və mən də buna tamamilə şərikəm. Ona görə də bu barədə Azərbaycan SSR Ali Sovetinə, SSRİ Ali Sovetinə və Ermənistan SSR Ali Sovetinə teleqramlar göndərmişəm.

Bir neçə saatdan sonra teleqramların ünvan sahiblərinə çatdığına dair məlumat gəldi. Onlar nə cavab verəcəklər, özləri bilərlər. Güman edirəm, mənfi cavab alınacaq. Nə olar, deməli, biz də Ali Sovetin fövqəladə sessiyasını çağırıb Dağlıq Qarabağ Muxtar Vilayətini ləğv etməliyik.

Xalqın ikinci tələbi belədir: "Qarabağ" təşkilatının bütün üzvləri cəzalandırılmalıdır. "Qarabağ" təşkilatının üzvü olan "saqqallılar" cəzalarını almalıdırlar. Poqosyanların, manuçarov ların və başqalarının dərsi verilməlidir. Mən hələ bu işə başlayan Aqanbeqyanı, Zori Balayanı və sairlərini demirəm.

Xalqın tələbləri çoxdur. Ən mühüm tələblərdən biri Azərbaycan dilinə, tarixinə, mədəniyyətinə aiddir. Boynumuza alaq ki, *(əgər boynumuza almasaq, xalq bizimlə ayrı dildə danışar)*, dilimizin başına oyunlar açmışıq. Əslində, xalqın dilini əlindən almışıq. Uzun illər boyu - 40 il, 50 il bundan əvvəl də Azərbaycan xalqının dili işlənməyib dövlət idarələrin də. Məgər bizim xalqın dili olmayıb?

Vaxtilə "Latın dili" adlı şeir yazmışdım. Deyirdim ki, indi Yer üzündə latın dilində danışan xalq yoxdur, amma dil qalıb. Elə xalqlar da var ki, özü yaşayır, dilini öldürüblər. Bu şeirə görə başıma çox müsibət gətiriblər - sən nəyi nəzərdə tutur san, kimi nəzərdə tutursan? - deyə sorurdular. Bilirdilər, çox gözəl bilirdilər ki, mən nəyi, kimi nəzərdə tuturam. "Ana dili" şeirimdə isə demişəm ki, ey öz doğma dilində danışmağı ar bilən, fasonlu ədəbazlar, ruhunuzu oxşamır, qoşmalar, telli sazlar, bunlar qoy mənim olsun,

ancaq Vətən çörəyi sizlərə qənim olsun!

Qənim olmadı. Belələri vəzifə başına çıxarıldı, xalqı tapdaladılar, yəni xalqın dilini, tarixini, mədəniyyətini... Bir xalqın əlifbası neçə dəfə dəyişdirilərmiş?! Bir xalqın tarixini neçə dəfə dəyişmək olar? Gah midiyalı oluruq, gah farsın törtökün tüsü... Gəlin, birdəfəlik qətiyyətlə deyək: Azərbaycan türkləridir bu xalq!

Tarixçiləri təqsirləndirirlər ki, onlar tariximizə dair sanballı əsərlər yaratmırlar. Necə yaratsınlar? Yuxarıdan buyurmuşlar ki, xalqın tarixini belə yazmalısan, onu midiyalı adlandırmalısan. Bəs zavallı tarixçi hara getsin, haradan məlumat gətirsin ki, biz midiyalıyıq?

Bakı Dövlət Universitetinin, pedaqoji institutların, ali məktəblərin Azərbaycan fakültələrini qurtaranlar iş tapa bilmirlər. Burada başqa millətlərə iş var, amma Azərbaycan xalqının oğlanlarına yox!

Məcbur olub gedirlər uzaqlara. Orada özlərinə iş axtarırlar. Azərbaycan xalqının minlərlə cavanı gedib kənarda işləyir. Qızlarımız ərə gedə bilmirlər. Evdə qalıb qarıyırlar. 40-45 yaşında qızlarımız var. Çünki oğlanlarımız bir tikə çörək üçün gedib uzaqlarda çalışırlar. Bu cür hallara son qoyulmalıdır!

Azərbaycan dilini dövlət dili səviyyəsinə qaldırmalıyıq. Görək kim cürət eləyib xalqımın dilini işlətməyəcək! Ana dilin də danışa bilməyən nazirlərdən, idarə və təşkilat başçıların dan rəhbərmi çıxar?

Bütün bunlardan sonra mən yenə də qayıdıram sözümün əvvəlinə. Kiçicik bir səhv bizi fəlakətə apara bilər. Sumqayıt hadisəsini bir xeyirdə, bir şərdə bizim başımıza çaxırlar. Amanın günüdür, Sumqayıt hadisəsi təkrar olunmamalıdır! Biz qəlbi yumşaq millətik. Biz vətənpərvər millətik, biz insan pərvər millətik.

Gəlin, insanpərvərliyimizi saxlayaq, humanizmimizi qoruyaq. Təmkinli olaq, kiçik bir səhvə belə yol verməyək.

Amma mübarizəmizi davam etdirək!

Dediklərimiz yerinə yetməlidir. Xalqıma indi bircə şey su və hava kimi zəruridir: birlik!

***Noyabr 1988.***
***"Şənbə gecəsinə gedən yol", Bakı 1991.***

## AĞRILARIMIZ, DƏRDLƏRİMİZ

***(On birinci çağırış Azərbaycan SSR Ali Sovetinin növbədən kənar onuncu sessiyasındakı çıxışdan)***

Biz bu gün tariximizin çox mürəkkəb, ziddiyyətli və təhlükəli günlərini yaşayırıq. Əgər bu gün rus yazıçıları - "Vətən təhlükədədir. Gəlin, bu haqda düşünək!" - deyirlərsə, biz "Vətən də, xalq da, milli varlığımız da, şərəf, namus və qeyrətimiz də təhlükədədir!" - deməliyik. Bunu başa düşmək, dərk etmək lazımdır. Həm də bilmək lazımdır ki, bu təhlükə qlobal xarakter daşıyır. Son vaxtlar türkdilli xalqların başına gətirilən oyunlar elə-belə, təsadüfi deyil. Məsələ bizim düşündüyümüzdən daha dərindir. Əgər biz bu təhlükəni anlamasaq, onun dərin köklərini araşdırıb tapmasaq, ona qarşı əks tədbirlər görməyib, sadəlövhlük və siyasi korluq göstərsək, gələcək və tarix qarşısında utanmalı olacağıq.

Mən bu gün bu yüksək kürsüdən Azərbaycan Xalq Cəbhəsinin rəsmi orqanlar tərəfindən tanınması münasibətilə xalqımızı təbrik edir və xalqın tələblərinə səs verdiyinə görə səlahiyyətli orqanlara minnətdarlığımı bildirirəm.

Artıq xalq cəbhəsi xalqın istək və arzularını, xalqın iradəsini və qüdrətini təmsil edən bir qüvvə olduğunu təsdiq etdi. Xalq cəbhəsi yalnız və yalnız xalqa arxalandığından xalq da ona inanır və onun arxasınca gedir. Öz isti kabinetini, gözəl güzəranını və böyük imkanlarını əldən vermək istəməyənlərin xalq cəbhəsinin üzvlərinə atdığı böhtanlar artıq boşa çıxmışdır. Xalq özünün əsl dostunu və düşmənini görməyə başladı.

Bu gün bizim qarşımızda bir məqsəd və bir cəbhə var: o da vətənimizin bütövlüyü və suverenliyi naminə xalqın birliyinə nail olmaqdan ibarətdir. Mən bu gün bütün xalqımızı fəhlədən tutmuş ziyalıya qədər, kəndlidən tutmuş məmura qədər, ən balaca kargüzardan tutmuş partiya və dövlət işçisinə qədər yumruq kimi birləşməyə, hər şeyi unudub Vətən naminə eyni hədəfə vurmağa çağırıram.

Bu ağır günlərdə xalqımızla həmrəy olan, respublikamız da yaşayan gürcü, rus, talış, udin, yəhudi, ləzgi, lahıc və başqa xalqların nümayəndələrinə xalqımızın adından dərin minnətdarlığımızı bildirirəm. Ona görə ki, bu dar məqamda onlar bizim səsimizə səs verib həqiqət uğrundakı mübarizəmiz də bizə dayaq olublar.

Azərbaycanın siyasi-hüquqi, iqtisadi-mədəni suverenliyinin təmin olunması indi bütün ictimai həyatımızın başlıca məsələsinə çevrilmişdir. Şəxsiyyətə pərəstiş və durğunluq illərin də azərbaycanlılar milli hüququ ən çox tapdanan xalqlardan olmuşdur. Müttəfiq respublika ilə təmsil olunan on beş xalq içərisində yalnız azərbaycanlılar həyata keçirilən kütləvi köçürülmə siyasətinə məruz qalmışdır. Kütləvi köçürülmə, müttəfiq respublikası olmayan xalqlara *(çeçenlərə, qaraçaylara, Krım tatarlarına, almanlara)* qarşı tətbiq edilirdi. Ancaq Stalin və onun əlaltıları azərbaycanlıları da bu cərgəyə qatdılar. Onlar 30-cu illərdə 80 min nəfərə yaxın Cənubi azərbaycanlını zorla İrana köçürərək Azərbaycan fəhlə sinfinin milli tərkibinə zərbə vurdular. 1948-

1953-cü illərdə isə 100 mindən artıq azərbaycanlını Ermənistan SSR-dən zorla köçürməklə bu xalqın məhz bütövlükdə bir xalq kimi hüquqlarını ayaqlayıb onun milli ləyaqətini təhqir etdilər. Lakin yenidənqurmanın dördüncü ili olan 1988-ci ildə 200 min azərbaycanlının vətəndaşlıq, siyasi, mənəvi və mülki hüquqlarını kobudcasına pozaraq, həmin respublikadan çıxarılması Azərbaycan SSR-in suverenliyi məsələsinin bu gün üçün aktuallığını bütün kəskinliyi ilə ortaya qoyur.

İş o yerə çatmışdır ki, Azərbaycan SSR-in öz ərazisi içərisində də azərbaycanlılar zorakı qaydada qovulur, ev-eşiyini, iş yerini buraxıb başqa yerlərə qaçır, Vətənində minillik ata-baba ocağının həsrətini çəkməli olur. Bu rəzillik 1 il 7 aydır ki, Dağlıq Qarabağ Muxtar Vilayətində baş verməkdədir. Erməni millətçiləri indi qarşılarına bir məram qoymuşlar: vilayəti Azərbaycanın tabeliyindən çıxarmaq, respublika ilə bütün idarəçilik, iqtisadi və mədəni telləri qırıb atmaq, Xüsusi İdarə Komitəsi vasitəsilə onu Mərkəzin tabeliyinə keçirmək! Bütün bu fitnəkarlıqlar respublika partiya, dövlət və hökumət orqanlarının gözü qarşısında həyata keçirilir.

Məlum olduğu kimi, SSRİ Konstitusiyası üzrə müttəfiq respublikalardan biri olmaqla Azərbaycan SSR öz hüquq və səlahiyyətlərinin çox dəyərli bir hissəsini ittifaq ali dövlət orqanlarının ixtiyarına vermiş, bu orqanlar isə Azərbaycan SSR-in dövlət suverenliyini, ərazi bütövlüyünü və təhlükəsizliyini qorumağı öz öhdəsinə götürmüşdür. Ancaq Dağlıq Qarabağ hadisələri bütün aydınlığıyla göstərdi ki, ittifaq orqanlarının SSRİ Konstitusiyasında göstərilmiş bu öhdəliyi də quru sözdən başqa bir şey deyilmiş. Əksinə, mərkəzi ittifaq orqanlarının anlaşılmaz ikili davranışı Dağlıq Qarabağdakı azərbaycanlı əhalisinin adi təhlükəsizliyini kobud şəkildə pozmağa gətirib çıxarmışdır. Daxili qoşun dəstələri isə erməni millətçilərinin təsiri altında hərəkət etməkdədirlər.

Ən dəhşətlisi budur ki, Sov. İKP-nin gələcək milli siyasət platformasının layihəsi də müttəfiq respublikaların suverenlik təminatı baxımından bizi təmin edə bilməz. Bu layihədə nə bu suverenliyin bütün mahiyyət və şərtləri, nə də onun təminatına zəmanət müəyyən edilmişdir. Respublika öz ərazisi üzərində gerçək suveren hüququnu necə və hansı qaydada həyata keçirə bilər? - bu məsələ də layihədə öz əksini tampamışdır. Hətta 1922-ci ildə ittifaq müqaviləsi üzrə respublikalara verilmiş olan SSRİ-nin tərkibindən çıxmaq hüququ layihədən götürülmüşdür. Halbuki, bu hüquq müttəfiq respublika suverenliyinin ən mühüm şərtidir. Xalqların öz taleyini müəyyən etmək haqqının dialektik ifadəsidir. Hələ bu azmış kimi, bu işdə mənfəəti olanlar, layihəni respublikaların ərazi suverenliyini pozmaq üçün vasitəyə çevirmişlər. Bu layihəyə görə "Müttəfiq respublikalar öz sərhədlərinin dəyişdirilməsi barədə razılığa gələ bilməsələr, bu məsələlərin həlli ittifaq orqanlarının səlahiyyətinə verilməlidir".

Biz bu müddəa ilə razılaşa bilmərik.

Bütün bunlar suverenlik məsələsinin ancaq siyasi tərəfi ilə bağlıdır. Ancaq məsələnin siyasi tərəfi olduqca genişdir. Misal üçün, mən yalnız bir məsələnin üzərində dayanmaq istərdim. 1975-ci il Helsinki və 1989-cu il Vyana razılaşmaları üzrə insan hüququnun təminatı üçün müxtəlif ölkələrdə yaşayan parçalanmış ailə üzvlərinin görüşüb birləşməsindən ötrü şərait yaradılmışdır. İndi aydın olur ki, ən çox azərbaycanlı yaşayan ölkə qonşu Türkiyədir. Deməli, müvafiq işlərin Bakıda və Ankarada aparılması üçün konsulluq açılmalıdır. Sual olunur: Suverenliyindən söhbət gedən respublikaya belə məsələləri həll etmək hüququ veriləcəkmi, yoxsa, yenə də illərlə saysız-hesabsız Moskva idarələrinin qapılarını döyməli olacağıq?

Suverenliyin iqtisadi tərəfinə gəldikdə, mən bizim iqtisadiyyatçıların işinə qarışmaq fikrində deyiləm. Ancaq onu demək

istəyirəm ki, respublikanın iqtisadi hüquqsuzluğu heç bir ölçüyə sığışmır. Misal üçün, qız-gəlinlərimizin sağlamlığı, körpələrimizin şikəstliyi və kütləvi qırğını hesabına yetişdirilən pambığı götürək. Pambıqdan alınan mahlıcın yalnız 12 faizi respublikamızda son məhsula çevrilir, qalanı isə su qiymətinə başqa respublikalardakı toxuculuq mərkəzlərinə aparılır, onlara milyonlarla gəlir gətirir.

Gəlin, etiraf edək ki, biz öz torpağımızın, təbii sərvətlərimizin, dövlətimizin əsl sahibləri deyilik. Bizi bu hüquq lardan məhrum etmişlər. Bizi, sözün əsl mənasında, öz torpağımızda muzdlu köləyə çevirmişlər. Nə üçün Azərbaycanda olan sənaye müəssisələrinin 93 faizi ittifaq tabeliyində olmalıdır? Nə üçün milli gəlir balansında neft cüzi çəkiyə malikdir? Nə üçün Azərbaycan SSRİ-nin xammal bazasına çevrilmişdir? Alimlərimiz hesablamışlar ki, təkcə pambıq sahəsində xammal ixracına görə respublika hər il iki milyard manatdan çox, şərab məmulatı sahəsində isə təqribən 3 milyard manat itirir. Tütün, yun, tərəvəz və digər kənd təsər rüfatı məhsulları sahəsində də vəziyyət belədir. Başa düşə bilmirəm, biz nə üçün öz yunumuzu hazırlayıb Ermənistana verməliyik ki, onlar hazır məhsul istehsal edib qazan sınlar? Yəni, bizim yun parça, yundan geyim şeyləri toxumağa da qabiliyyətimiz yoxdur? Bəlkə, işçi qüvvəsi çatış mır? Yox! Əksinə, hazırda respublikada təxminən 400 minə yaxın işsiz var. Hələ mən yayda pambıq becərib yığan, qışda işsiz qalan 100 minləri demirəm. Respublikanı ona görə bu günə salıblar ki, onun cavanlarının xeyli hissəsi işsizlik dərdindən respublikadan çıxıb getsinlər. Hər il respublikadan gedənlərin sayı 5-6 mini keçir. Azərbaycanın Cənubi Qafqazda iqtisadi, elmi-texniki cəhətdən qüdrətli, güclü respublikaya çevrilməsinə qarşı çox güclü müqavimət göstərilir. Burada strateji məqsədlər gizlənir. Torpaqlarımıza göz dikənlər bizi min illər boyu yaşadığımız doğma yerlərdən sıxışdırmaq planları hazırlayıb, onu haranınsa köməyi ilə həyata keçirməyə çalışanların nə

məqsəd güddüklərini başa düşmək üçün böyük ağıl sahibi olmaq lazım deyildir.

Bizim milli gəlirimiz Ermənistandan 2 dəfə, əhalimiz 2,1 dəfə çoxdur. Bəs büdcəmiz necə? Respublikamızda milli gəlir, istehsalın həcmi, əhalinin sayı və ərazimiz Gürcüstandan çoxdur, böyükdür, amma ittifaq büdcəsindən bizə ayrılan vəsait həmişə Gürcüstandan az olur. Niyə?

Bu onunla əlaqədardır ki, torpağına, xalqına yox, oturduğu kürsüyə, vəzifəyə bağlı olan manqurtların qabağına nə tullasalar, onunla razılaşır. Vətən və milli hissini itirmişlər bizə başçılıq etmişlər. Nə mərkəzdə, nə də respublikada bizim işbilənlərimizi, başa düşənlərimizi yaxın qoymamışlar. Ona görə də biz belə bir faciəli vəziyyətə düşmüşük.

Respublikada iqtisadiyyatın strukturunu köklü surətdə dəyişməklə iqtisadi müstəqillik qazanmaq olar. Ancaq bu yolla biz respublikamızı başqa respublikaların xammal bazası vəziyyətindən çıxara bilərik. Xammal bazası səciyyəsin də olan iqtisadiyyat isə, hamıya məlumdur ki, müstəmləkə səciyyəli iqtisadiyyatdır. Əsas varidatımız olan nefti biz neçəyə satırıq? Tonu 35 manata. *(Dünya bazarlarında isə neftin tonu, orta hesabla, 140 dollara gedir).* 1987-ci ildə çıxarılan 13 milyon ton neft respublikaya 455 milyon manat gəlir gətirmişdir. Bu, milli gəlirin yalnız 3,9 faizinə bərabərdir. Biz, əslində, qızılı xammal adı ilə çöp qiymətinə satıb, özgələrinin bizim xammaldan düzəltdiyi məhsulu qızıl qiymətinə alırıq.

200 minə qədər azərbaycanlını öz doğma torpaqlarından qovmaq, Ermənistanı monorespublika etmək daşnakların çoxdankı arzusu idi. Bu arzularına çatdılar. Onlar bu işi həyata keçirərkən Ermənistanda olan ordu nəinki bu işə mane olmadı, əksinə, onlara kömək etdi. Azərbaycanlıları sonuncu adamınadək Ermənistandan qovandan sonra erməni ziyalıları, təcili olaraq,

Ali Sovetin növbədənkənar sessiyasını çağırmağı və həmin sessiyada "Azərbaycanda və Dağlıq Qarabağda yaşayan ermənilərin təhlükəsizliyini qorumaq" məsələsini irəli sürdülər. DeməK, onlar azərbaycanlıların Ermənistandan qovulmasını qanuni hal hesab edir, ancaq Azərbaycandan ermənilərin öz xoşlarına köçməsini isə qanunsuz sayır, bizim daxili işlərimizə qarışmağı belə lazım bilirlər. Adamı dəhşət götürür. Görəsən, bu haqqı onlara kim verib? Deyək ki, biz buna da dözdük. Bəs aramızda həqiqəti və ədaləti bərpa etmək missiyasını boynuna götürən Moskva niyə onlara demir ki, Ermənistandan qovduğunuz azərbaycanlılar insan deyildi? Bəs onların haqqı yoxdur? Nə üçün onların öz doğma torpaqlarından qovulmasını siz ədalət hesab edirsiniz? Əgər bu ədalətdirsə, ermənilərin Azərbaycandan öz xoşları ilə köçməsini niyə ədalət hesab etmirsiniz?! Siz hələ bu işdə suveren Azərbaycan respublikasının işinə barmaq uzadırsınız? Görəsən, bu məsələlərdə Moskva niyə susur?! Bu bir yana qalsın, niyə Moskva qəzetləri onların bu hərəkətini ifşa etmir?

Mən başa düşə bilmirəm, nə vaxta qədər biz mərkəzi qəzetlərin birtərəfli mövqeyinə dözməliyik? Nə vaxta qədər mərkəzi qəzetlər bizi haqlı ikən haqsız, onları haqsız ikən haqlı kimi qələmə verəcək, bizim haqlı tələblərimiz barədə susacaqlar?

Bir neçə kəlmə də suverenliyin mədəni tərəfi barədə. Burada birinci göstərici dilimizin dövlət dili statusunun sözdə yox, işdə təmin olunmasıdır. Bizim MK-nın hazırladığı sənəd bugünkü tələblərə cavab vermir. Azərbaycan dilinin gerçək dövlət dili hüququ təmin olunmalı, bütün dövlət və ictimai idarələr kargüzarlıq işlərini bu dildə aparmalı, Azərbaycan dili ilə yanaşı rus dilinin millətlərarası ünsiyyət vasitəsi kimi nüfuzu saxlanmalıdır. Dövlət dili haqqında sənəddə xalqımızın inqilabi-mədəni keçmişinin bəxş etdiyi, elmi baxımdan dilimizin qanunlarına tam uyğun gələn latın əlifbası da xalqa qaytarılmalıdır.

Mən sözümü böyük vətənpərvər jurnalist Ömər Faiq Nemanzadənin 1917-ci il yanvarın 18-də "Açıq söz" qəzetində yazdığı aşağıdakı sözlərlə bitirmək istəyirəm: "Bizdə, bizim xasiyyətimizdə özgələrlə olan dostluğun davamı üçün, özümüzün mənfəətimiz, özümüzün təhlükədə olduğunu düşünməmək adəti var, həm də çoxdan var.

Bu xasiyyət yalnız tək-tək kişilərin beyinlərində deyil, millətimizin ruhunda, ictimai əxlaqımızda köklənmiş, möhkəmlənmişdir.

Dostluq xəncəri ilə yaralanmaq və o yaranın acısını duymamaq igidliyi bizdə çoxdan milli əxlaq yerini tutmuşdur.

İşdə bu yaman adət və xasiyyətimizin zərəri bu gün elə artmış, dostluq yolu ilə milli mənfəətimizə endirilən baltanın acısı bu gün elə şiddətlənmişdir ki, artıq onu duymamaq, anlamamaq aşkar bizim qabalığımızı, quru cahilliyimizi bildirir.

Vaxtdır ki, biz də bu həqiqətləri qanıb, yaşamağa layiq olduğumuzu, millətimizin şərəfini lovğalıq ilə yox, əməllərimizlə, köməyimizlə göstərək!".

*Sentyabr, 1989.*
*"Şənbə gecəsinə gedən yol", Bakı, 1991.*

## RESPUBLİKA RƏHBƏRLƏRİNƏ DEPUTAT SORĞUSU

1. SSRİ Konstitusiyasının 119-cu maddəsinin 14-cü bəndi üzrə SSRİ Ali Soveti Rəyasət Heyəti "SSRİ-nin müdafiəsi və onun vətəndaşlarının təhlükəsizliyi mənafeyinə uyğun olaraq ölkədə, habelə ayrı-ayrı yerlərdə hərbi, yaxud fövqəladə vəziyyət elan edir - bu məsələnin müttəfiq respublikanın Ali Sovetinin Rəyasət Heyəti ilə hökmən müzakirə edilməsi şərti ilə; göstərilən hallarda SSR İttifaqının və müttəfiq respublikaların dövlət orqanları tərəfindən həyata keçirilən xüsusi idarəetmə formalarını tətbiq edə bilər".

Soruşulur. Belə isə, nə üçün Dağlıq Qarabağ Muxtar Vilayətində həyata keçirilən xüsusi idarəetmə formasında respublikanın dövlət orqanları əməli surətdə iştirak etmir?

Dağlıq Qarabağda partiya və dövlət orqanlarının, iqtisadiyyatın respublika tabeliyindən çıxarılmasını, tarixən mövcud olan əlaqələrin pozulmasını nə ilə izah etmək olar? Azərbaycan SSR-in ərazi və dövlət suverenliyinin qorunması üçün respublika hökuməti nə etmişdir və nə etmək fikrindədir? Bununla bağlı A.Volskinin başçılıq etdiyi Xüsusi İdarə Komitəsinin mövcud qanunçuluğa uyğun gəlməyən fəaliyyətinin qarşısı nə üçün alın-

mır? Bütövlükdə, bu Komitə qarşısında qoyulan vəzifələri yerinə yetirmədiyi halda onun saxlanmasına ehtiyac varmı?

2. Ermənistan SSR-in suveren Azərbaycan dövlətinin daxili işlərinə kobudcasına qarışmasına, onun əsassız ərazi iddialarına nə üçün siyasi qiymət verilmir və onların qarşısı alınmır? Nə üçün bu barədə Azərbaycan SSR hökuməti tərəfindən SSR İttifaqı hökuməti qarşısında, SSRİ xalq deputatları qurultayı və SSRİ Ali Soveti qarşısında məsələ qaldırılmamışdır? Bu məsələlər üzrə beynəlxalq səlahiyyətli orqanlar qarşısında biz nə üçün məsələ qaldırmırıq?

3. SSRİ Daxili İşlər Nazirliyi qoşun hissələrinin Dağlıq Qarabağda birtərəfli, qeyri-obyektiv, açıq-aşkar qərəzli mövqeyini nə ilə izah edirsiniz?

4. Dağlıq Qarabağda Azərbaycan SSR-in Konstitusiya hüquqlarını kobudcasına pozaraq, respublikanın səlahiyyətinə aid olan idarəçilik məsələlərinin ittifaq orqanlarına və başqa respublikalara verilməsinə necə baxırsınız?

5. Dağlıq Qarabağda hakimiyyəti özbaşına ələ almaq cəhdini necə qiymətləndirirsiniz? Məlum deyilmi ki, qüvvədə olan cinayət qanunvericiliyinə görə, hakimiyyəti ələ keçirmək məqsədi ilə suiqəsd düzəltmə xüsusi təhlükəli ən ağır dövləti cinayət - vətənə xəyanət kimi qiymətləndirilir. Belədirsə, nə üçün üzdəniraq "milli şuranın" təşkilatçıları məsuliyyətə cəlb edilmirlər? Dağlıq Qarabağda Azərbaycan SSR-in qanunları artıq öz qüvvəsini bütünlüklə itirməmişmi?

6. Ermənistan SSR-də uzun illərdən bəri mütəmadi olaraq azərbaycanlılara qarşı düşmənçilik təbliğatı aparılması, onların əmlakının talan edilməsi, özlərinin şil-küt edilib qovulması, Ermənistan SSR-in Quqark rayonunun Şaumyankəndində bir gündə 12 nəfər azərbaycanlının öldürülməsi, başlarının kəsilib meyitlərinin yandırılması nə üçün respublika Ali Sovetində

müzakirə edilməmiş, ona siyasi qiymət verilməmiş, hökumət tərəfindən rəsmən pislənilməmişdir? Nə üçün bütün bu məsələlərə respublikanın ali hakimiyyət orqanının deputat korpusu öz münasibətini bildirməmişdir?

*"Şənbə gecəsinə gedən yol", Bakı, 1991.*

# GÜRCÜ HƏMKARLARIMA

Gürcüstanda yaşayan azərbaycanlılar tariximizin, mədəniyyət və dilimizin saflığını və ilkinliyini qoruyub saxlamış, bu günümüzə qədər gətirib çıxarmışlar. Onların qoruyub saxladığı mədəniyyət, tarix və dil keçmişimizi, soykökümüzü öyrənmək, onları cilalayıb gələcək nəsillərə çatdırmaq baxımından çox qiymətlidir. Bu qədim mədəniyyət və tarix çeşməsindən su içən gürcüstanlı azərbaycanlıların dili, deyimtərzi Dədə Qorqud dilinə çox yaxındır. Mən bir zaman "Çeşmə" almanaxında toplanan şeirlərdən danışanda bu vacib məsələyə də toxunmuşdum.

Gürcüstanda yaşayan azərbaycanlılar qonşu gürcü xalqı ilə daim təmasda olduqlarından onların folkloru, etnoqrafiyası, adət və ənənələri qarşılıqlı təsirlə yetkinləşmiş və cilalanmışdır.

Maarifçi yeni ədəbiyyatımızın məhz Gürcüstanın paytaxtı Tbilisidə yaranması da təsadüfi deyildir. Çünki Tbilisi Cənubi Qafqazda Avropa mədəniyyəti havası ilə yaşayan ilk şəhər idi. Bakıxanov, M.F.Axundov, daha sonralar Mirzə Cəlil kimi fikir bahadırlarımızın Tbilisi mühitində yetişməsi, Gürcü xalqı ilə qədim dostluğumuzun parlaq səhifəsidir F.Köçərli, S.S.Axundov, Üzeyir Hacıbəyov, Mirzə Cəlil, Ömər Faiq Nemanzadə, Rəşid bəy

Əfəndiyev və başqa onlarla fikir və sənət adamlarımız Qori seminariyasının yetirmələridir. Ötən əsrin 20-ci illərinin əvvəllərində nəşrə başlayan "Dan ulduzu", "Yeni fikir" də Gürcüstan mühitinin məhsuludur. Belə faktlardan istədiyimiz qədər misal gətirə bilərik. Dostluq ənənəmizin bu qədər geniş və qədim olmasına baxmayaraq, son zamanlar baş verən bəzi xoşagəlməz hadisələr bizi narahat edir. Gürcüstanın bəzi rayonlarında azərbaycanlıların kütləvi olaraq işdən çıxarılmasını nə ilə izah etmək olar? İndi, azərbaycanlıların bu dar məqamında, bu soyuq küləyin haradan əsdiyini bilmək çox da çətin deyildir.

Gürcü xalqını və gürcü mədəniyyətini sevən, ona dərin hörmət bəsləyən bir vətəndaş kimi bu küləyin qarşısını almaq, qədim dostluq və qardaşlıq tellərini qorumaq üçün bütün gürcü həmkarlarımı səfərbərliyə səsləyirəm. Mən gürcü həmkarlarımı babalarımızın alışdırdığı dostluq və qardaşlıq ocağının istisinə qızınmağa çağırıram. Elə edək ki, vaxtilə əl-ələ verib bu ocağın ətrafında yallı gedən babalarımızın ruhu bizdən inciməsin.

*1991.*
***"Yanan da mən, yaman da mən", Bakı 1995.***

## AZƏRBAYCAN CÜMHURİYYƏTİNİN BUGÜNKÜ DURUMU

*(Türkiyə kültür mərkəzindəki çıxışdan)*

Azərbaycanın bugünkü durumu, ilk öncə, iki amil ilə bağlıdır. Bunlardan birinci Cümhuriyyətin baş kəndi - düşünən beyni və vuran ürəyi olan Bakıda imperatorluq komandası başda olmaqla fövqəladə əsgəri vəziyyətin saxlanmasıdır.

Fövqəladə əsgəri vəziyyət 1990-cı il ocak qətliamından sonra qoyuldu. O zaman tank tırtılları altında qurban gedən şəhidlərin ata və qardaşlarının üsyanından qorxan Mərkəz, təbii olaraq belə bir bədnam "idarəçilik" üsuluna əl atmalı oldu. Ancaq aylar ötdükcə, Azərbaycanın öz rəhbərliyinin bu təsisatdan özünü öz xalqından qorumaq üçün bir sipər kimi istifadə etdiyi üzə çıxdı. Təsisatın bu günə kimi qalmasının səbəbi budur. İş o yerə çatır ki, 1990-cı ocak ayının 22-də əsgəri vəziyyətin dərhal götürülməsi haqda Cumhurun Yüksək Şurasında qərar çıxarılmasına qız-ğınlıqla səs verən Ali Sovetin sədri Elmira xanım indi yeni Yüksək Məclis qarşısında: "Mən bu qərarı məcburən qəbul etməli olmuşam" söyləyir.

Bugünkü Cümhur Başkanlığı, əslində, əsgəri vəziyyəti illərlə saxlamaq niyyətindədir. Çünki onun gözlədiyi kimi olmadı,

əsgəri qüvvə xalqın milli bağımsızlıq iradəsini qıra bilməmişdir. Referendumdan sonra Cumhur Başkanı İttifaq müqaviləsinə qol çəkməlidir, millət isə boylə bir davranışı alqışlarla qarşılamaq durumunda deyildir.

Bizim faciələrimizdən biri də Sovetlər birliyinin konstitusiyadan 6-cı maddənin götürülməsi, bizim respublikada isə saxlanmasıdır. Konstitusiyanın bu maddəsinə görə Kommunist Partiyası Sovetlər Birliyinin rəhbər və aparıcı qüvvəsidir. Sovetlər birliyinin son parlament iclasında Demokratik qüvvələrin təzyiqi altında Qorbaçov bu maddəni götürməyə məcbur oldu. Lakin bizim Mərkəzi Komitənin keçmiş sekreteri, indi isə Ali Sovetin sədr müavini Telman Orucov deyir ki, Azərbaycan Kommunist Partiyası ən nüfuzlu partiyadır. Və biz 6-cı maddəni olduğu kimi saxlayırıq.

Bizim demokratik cəbhədən çıxış edən "İstiqlal" qəzetimiz T.Orucova belə cavab vermişdir: "Düzdür, hansı başqa partiya Sovet ordusunu Bakıya çağırıb öz itirilmiş hakimiyyətini bərpa edə bilərdi? Heç biri! Hansı partiyanın biletlərini onun üzvləri tüpürüb atandan sonra quzu kimi çörək ağacını itirməmək üçün geri götürərdi? Hansı partiya 70 il ərzində xalqa qarşı misilsiz cinayətlər törədib ölkəni xarabazara çevirə bilərdi? Əlbəttə, Kommunist partiyası. Belə partiyadan necə keçəsən?"

Bəli, əvvəldə olduğu kimi, indi də Kommunist Partiyası onun başında duranların çörək ağacı, rahat güzəranı deməkdir. Partiyanın başında duranlar üçün nə Vətən, nə Milləti? Onlar Vətəni və Milləti öz ailələrinin səadəti naminə addım başı satır və xəyanətlərinin kölgəsində rahat-rahat uyuyurlar:

*Heyhat! Hələ çoxdur evini Vətən,*
*Qohum-qardaşını millət sayanlar.*

İkinci amil Azərbaycanın "yeni" yüksək Şurasının acınacaqlı durumda olmasıdır. Bu parlament partiya sekreterlərinin, polis və ədliyyə işçilərinin yığnağıdır. Sovetlər Birliyinin qorunub saxlanmasına yönəlmiş olan üzdəniraq referendum-rəy sorğusu bu Parlamentə qiymət vermək üçün örnək sayıla bilər. Qorbaçova Azərbaycan üzrə səs çoxluğu "toplamaq" üçün bu referendum, komendant təsisatının və ona arxalanan kommunist rejiminin yumruğu altında keçirirdi. Sekreterlər xalqa qarşı açıq zorakılıq işlədir, Sovetlər Birliyinə səs verməyənləri 5000 rubl cərimə ilə, onları Azərbaycandan və Birlikdən qovub çıxarmaq ilə qorxudurlardı.

Yeni Parlamentin işi, o sıradan "Rəy sorğusu" nə göstərdi? Aldığımız siyasi dərs nədən ibarətdir?

Azərbaycanın Cümhur Başkanı və Parlamentosu Moskva qarşısında bütünlüklə mövqesizlik durumundadır.

a) Referendum keçirilərkən nəinki ondan boyun qaçırmağa, Moskvanın irəli sürdüyü sorğuya kiçicik bir "düzəliş" belə etməyə onların iqtidarı çatmamışdır. Halbuki Qazaxıs tanda, Nursultan Nazarbayev belə bir tutarlı sorğu əlavə etmişdi: "Siz Sovetlər Birliyinin Bağımsız Dövlətlər Birliyinə çevrilməsinə razısınızmı?"

Malasəf, Azərbaycan bütün millətlərin nifrətini qazanmış olan, gerçəkdən dağılmakda olan əski Sovetlər Birliyi Federasiyasını üzdən bəzək-düzək vurmaqla qoruyub saxlamaq mövqeyinə keçmişdir. "Keçmişdir" söyləyirəm ona görə ki, Cümhur Başkanı Ayaz Mütəllibov ilkin aylar federasiyalı Cümhur birliyindən deyil, konfederasiyalı birlik, yəni Bağımsız dövlətlər birliyi mövqeyindən çıxış edirdi. Azərbaycan, heç olmasa, bu mövqeyində qalsaydı, Qazağıstan, Rusiya, Ukrayna və Belorusiya kimi respublikalar ilə təbii anlaşma qazana bilərdi, Tacikistan, Türkmənistan, Özbəkistan, Qırğızıstan kimi respublikaların sırasına düşməzdi.

Bəli, indiki Rus İmperiyasını, Qorbaçovu, yalnız türk-müsəlman respublikaları müdafiə edir. Yeltsinin başçılığı ilə Rusiyanın özü də imperiyadan ayrılmağa çalışdığı bir zaman da öz haqqını, xeyrini, şərini hələ başa düşməyən türk-müsəlman respublikaları imperiyanı qoruyub saxlayır. Bu yaxın günlərdə rus qəzetlərinin birində maraqlı bir məqalə oxudum. Qəzet yazır ki, xristianlar ölünü bir neçə gün evində saxlaya bilir. Müsəlmanlar isə adam ölən kimi dərhal onu dəfn etməlidir. İndi Rus imperiyası çoxdan ölüb. Amma müsəlman respublikaları bu ölünü dəfn etməyə qoymur.

b) Böylə olan durumda Mərkəz: Moskva və Qorbaçov Azərbaycan ilə çox az "hesablaşacaqdır". Qarabağın "Azərbaycanın ayrılmaz bir hissəsi olması" barədə Qorbaçovun son bəyanatı qoy sizləri şaşırtmasın. Bu bəyanatı Türkiyə Cümhur Başkanı Özalın səfəri, ötə yandan adı gecen bədnam referendum qarşısında söylədiyini unutmayın. Hər halda, bu bəyanat Azərbaycanın referen-duma qoşulması qarşısında ortaya atılan bir yağlı kökədir. Qanunsuz əsgəri qoşunların tərk-silah edilməsi barədə Qorboçovun 1990-cı il fərmanını yadasalır. Bizim soyuqqanlı düşünən, uzağı görən arkadaşlarımız bu fərmanın Ermənistanda həyata keçirilməyəcəyini ilk günlərdən bilir-dilər. Yaraqlı erməni quldurları Ermənistan Yüksək Şurasının ixtiyarına veriləcək, bununla da "qanunsuzluqdan" çıxıb "qanuni" əsgəri qüvvəyə çeviriləcək - mən bilirəm ki, eylül 1990-da arkadaşım Süleyman Əliyarlı Ankarada Azərbaycan Kültür Mərkəzində fərmanı məhz belə açıqlanmışdır - Belə də oldu.Qarabağ durumunu yeni bəyanat deyil, yalnız Azərbaycanın özü, onun xalqı köklü dəyişikliyə uğrada biləcəkdir, Ancaq hələ çox qurbanlar verməli olacağıq.

Azərbaycanın bugünkü siyasi durumunun ötəki qütbü, xalqın milli bağımsızlıq hərəkatı, bu hərəkatın başında duran Xalq Cəbhəsidir. Qoy, heç kəs bu amilin gücünü və gələcəyini kiçik

güzgüdə görməsin. Bu, bir həqiqətdir ki, milli hərəkatımız çox ağır zərbələr ilə qarşılaşmış və indi də qarşılaşmaqdadır. Ancaq hərəkat öz gücünü, potensionunu saxlamaqdadır: - Fövqəladə əsgəri təsisatın və bütün kommunist-amirlik sisteminin çalışmasına baxmayaraq, tarix də ilk dəfə Azərbaycan Parlamentində Demokratik bölüm yaranmışdır.

- Xalq cəbhəsi öz təşkilatı qurumlarını şəhərlərdə və inzibati bölgələrin çoxunda qoruyub saxlaya bilmişdir.

- Azərbaycanın Dövlət bağımsızlığının bərpa edilməsini bir proqram kimi qarşısına qoyan və bu yönümdə gerçək iş aparan Azərbaycan Müxalifət Birliyi yaranmışdır. Mart ayında Azərbaycan Xalq Cəbhəsi, Azərbaycan Xalq Dirçəliş Partiyası, Azərbaycan Milli Müsavat Partiyası ayrıca Təşkilat Komitəsi yaratmışlar *(İsa Qəmbərov, Vaqif Heydərov, Niyazi İbrahimov, Araz Əlizadə).*

Təsadüfi deyildir ki, Azərbaycan rəhbərliyi milli hərəkatın nüfuzunun genişlənməsini açıq qısqanclıqla qarşılayır, buna yol verməməyə çalışır. Martın 15-də Xalq Cəbhəsinin Turqut Özalı hava alanında qarşılamağa gələn otobusunu Bakı milisi geriyə qaytardı. Özalın Xalq Cəbhəsi binasında aclıq keçirən Əbülfəz Əliyev və Nəcəf Nəcəfovla görüşməməsi, hətta Şəhidlər Xiyabanına getməməsi yəqin ki, bizim rəsmi dairələrin işidir. Xatırlatmaq istərdim: keçmiş Amerika prezidenti Riçard Nikson Vilnüsə varan kimi 1991-ci il 13 ocak şəhidlərinin qəbrini ziyarət edib, gül qoydu...

Sovetlər Birliyində olan bugünkü siyasi durumu gözdən qaçırmaq olmaz. Bu durum çox dəyişkən və ziddiyyətlidir. Hamımızı rahatsız edəcək bir bilgi: Hələ açıq şəkildə bildirməsə də, Qorbaçov Təhlükəsizlik Şurası yaratmışdır. Deməli, Federasiya Şurası da, Parlamentin hər iki palatası da öz dəyərini itirmiş, birinci Şura, bəlkə də, buraxılmışdır. Aydındır ki, Sovet Prezidenin-

ti əsgəri komutan Şurasının yardımına daha çox güvənir. Yeni Təhlükəsizlik Şurası Baltika ölkələrində qanuni yolla seçilən demokratik respublikaları yıxmağa çalışan gizli Milli Təhlükəsizlik Şuralarının mərkəzi təsisatından başqa bir şey deyildir.

Ancaq bununla yanaşı, demokratik hərəkat yüksəliş yolundadır. Rusiya prezidenti Yeltsinin fəaliyyəti, kömür şaxtalarında uzun müddətdən bəri davam edən tətillər çox ciddi amillərdir.

Kim kimi üstələyəcək: Əsgəri komutanlar demokrasini, yoxsa, əksinə? Allah bilir!

*1991.*
*"Yanan da mən, yaman da mən", Bakı, 1995.*

## AĞRIMIZ VƏ QAYĞIMIZ

***(Parlament tərəfindən qaçqınlar məsələsi üzrə yaradılmış komissiyanın sədri, deputat B.Vahabzadənin Ali Sovetin noyabrın 1-də keçirilmiş iclasındakı məlumatı)***

Hörmətli millət vəkilləri! Bu gün Azərbaycanda 240 mindən artıq qaçqın, yaxud 50 mindən çox qaçqın ailəsi vardır. Ev-eşiklərindən, yaşayış üçün vacib olan ən zəruri vasitələrindən belə məhrum olmuş, alçaldılmış və təhqir olunmuş bu zavallıların siyasi, sosial və iqtisadi problemlərin son həddə qədər kəskinləşdiyi bir dövrdə bizim respublikaya gəlməsi ictimaisiyasi mühitdə sabitliyin pozulmasına səbəb olmuşdur.

Tale artıq neçənci dəfədir ki, xalqımızı mərhəmət və xeyirxahlıqda dözümlüyə imtahana çəkir. Mən bilmirəm, harada və daha hansı xalqa sülh dövründə, son illər ərzində Azərbaycan xalqının üzərinə düşmüş əzab-əziyyətə və iztirablara davam gətirmək müyəssər olmuşdur. Hətta Almaniya Federativ Respublikası kimi varlı bir ölkə sovet almanlarının Almaniyaya axınına davam gətirməmişdir. Lakin Azərbaycan xalqı canını dişinə tutaraq, bütün ağırlıqlara və məhrumiyyətlərə mərdlik və qeyrətlə tab gətirir. Cəsarətlə demək olar ki, qaçqınlar problemi bütün Azərbaycan

xalqının probleminə çevrilmişdir. Belə bir fövqəladə şəraitdə bizim xalqın ən yaxşı keyfiyyətləri bir daha üzə çıxdı. Bütün bunlar ölkədə sosial-iqtisadi böhranın çox gərginləşdiyi, daxili istehlak bazarının tarazlığının pozulduğu, əhalinin həyat səviyyəsinin aşağı düşdüyü bir şəraitdə baş vermişdir. Və ən nəhayət, bütün bunlar respublikanın Ermənistan ilə sərhədində və DQMV-də elan olunmamış müharibənin gedişi şəraitində baş verir.

Doğrudan da, ekstremal bir vəziyyətdə respublikanın dövlət və ictimai təşkilatları tərəfindən qaçqınların qəbul edilməsi, onların yerləşdirilməsi, maddi və digər vacib köməyin göstərilməsi, sığınacaq və yeməklə təmin olunması, səhiyyə xidməti və başqa lazım olan ən mühüm təxirəsalınmaz tədbirlərin vaxtında yerinə yetirilməsi adi məsələ deyil. Sözsüz, birinci növbədə, respublikanın və şəhər rəhbərliyinin bu sahədə gördüyü işləri qiymətləndirmək lazımdır. Son zamanlarda Bakıda yaşayan qaçqınlar ordusunun üçdə bir hissəsini öz qoynuna almış, onlara hərarət və təskinlik verilmişdir. Buna görə də bu gün bütün Bakı əhlinə səmimi təşəkkürümüzü bildirməliyik.

Çılın çılpaq, yalın bir vəziyyətdə didərgin salınmış bu insanlara, ilk növbədə, müvəqqəti yaşayış və müəyyən vəsaitlə kömək göstərilməsi vacib sayılmış və bu məqsədlə onlar respublikanın 5 şəhərində, 48 rayonunda və Naxçıvan MR-də yerləşdirilmiş, onlara Dövlət büdcəsindən və ictimai təşkilatların fondları hesabına 100 min manata yaxın maddi köməklik göstərilmişdir.

Qaçqınlar probleminin çoxcəhətliliyi və onların ağırlığı nəzərə alınaraq, respublika hökumətinin qərarı ilə 1990-cı ildə qaçqınlarla iş aparan Dövlət Komitəsi yaradılmış və onlarla bağlı olan məsələlərin həlli bilavasitə bu komitəyə həvalə olunmuş, qaçqınlar üçün mənzil tikintisini sürətləndirmək məqsədi ilə onun nəzdində tikinti təşkilatları yaradılmışdır.

Dövlət tərəfindən hazırlanmış proqrama uyğun olaraq, respub-

likanın ayrıayrı rayonlarında, o cümlədən Ağdamda, Şəmkirdə, Goranboyda, Xaçmazda, Laçında, Qubada, Şəkidə 51 yeni qəsəbə və yaşayış məntəqəsinin layihələşdirilməsi başa çatdırılmış, tikinti işlərinə başlanılmışdır.

Respublika hökumətinin Xızı-Altıağac zonasının tərk olunmuş kəndlərinin bərpası və buraya ilkin mərhələdə 10 min qaçqın ailəsinin köçürülməsi ilə bağlı xüsusi proqramın həyata keçirilməsi ilə əlaqədar olaraq, 1990-cı ildə burada 2 müasir tipli, Yeni Yaşma və Sitalçay qəsəbəsinin tikintisinə başlanılmış, 10-dan çox köhnə yaşayış məntəqəsində mənzil və sosial obyektlərin tikintisi ilə bağlı mühüm işlər görülmüşdür. Bu gün buraya artıq 800-dən çox ailə köçmüşdür.

Görülmüş işlərin faydasını və mahiyyətini heç də kiçiltmədən millət vəkillərinin diqqətini hələ də çoxlu sayda acınacaqlı bir vəziyyətdə olan qaçqınların məsələsinə yönəltmək istəyirəm. Hal-hazırda respublikanın şəhər və rayonlarında daimi qeydiyyatdan keçməmiş, müvafiq həyat və iş şəraiti olmayan minlərlə qaçqın ailəsinin olması, həmin yerlərdə ictimai-siyasi sabitliyi pozan əsas amillərdən biridir. Bu problem Bakı şəhərində daha kəskin surətdə özünü göstərir. Respublikanın paytaxtında bu günün özündə iyirmi mindən çox qaçqın qeydiyyatsız yaşayır. Onların yerbəyer edilməsi, işə düzəldilməsi və digər sosial-mədəni və məişət xidmətləri ilə təmin olunması sahəsində ciddi çətinliklər vardır.

Qaçqınların günahı deyil ki, bu bədbəxt və məzlum insanlar, illərlə zəhmət və alın təri ilə qurduqları doğma ocaqlarını, torpaqlarını, mal-qaralarını və əşyalarını məcburiyyət qarşısında ataraq, gəlib bizə sığınmışlar. Yeri gəlmişkən, qeyd edim ki, DQMV ilə bağlı respublikanın apardığı siyasətdə bir qədər uzaqgörənlik edilsəydi, bu gün hamıya gün kimi aydın olan bir şeyi - qaçqınlar problemi ilə DQMV məsələsini həll etmək mümkün olardı.

Bu gün biz fikirləşməliyik ki, bu insanlara hansı köməyi göstərməliyik ki, onlar həyatda öz yerlərini tapa bilsinlər. Bunu da unutmayaq ki, onların çoxu artıq qısa bir müddət ərzində ikinci və üçüncü dəfədir ki, qaçqın düşürlər. Onlar bir dəfə Ermənistandan, sonra isə DQMV və Goranboy rayonunu kəndlərindən qovulmuşlar. Belə vəziyyət onların bu kəndlərdə müdafiəsiz qalması və həyatlarının təhlükəsizliyinin təmin olunmaması nəticəsində əmələ gəlmişdir.

O ki qaldı Bakıda olan qaçqınların məskunlaşmasına, bunu daha uzatmaq olmaz. Onsuz da həyata qəzəblənmiş bu insanları bir daha incitmək ən azı insafsızlıqdır. Nə qədər çətin olsa da, bədbəxtliyə düçar olmuş qardaşlarımıza yenə də biz bakılıların köməyi lazımdır. Bunu bir də ona görə tez həll etmək lazımdır ki, məsələnin uzadılması ictimai-siyasi mühitdə gərginliyin artmasına və şəhərdə sabitliyin pozulmasına gətirib çıxara bilər. Təcili olaraq, onların Bakı şəhərində yaşayışlarının qanunlaşdırılmasının əleyhinə olan süni surətdə yaradılmış maneələri götürmək lazımdır. Bu sirr deyildir ki, onların əksəriyyəti bu evləri külli miqdarda pulun hesabına əldə edə bilibdir. Təəssüflər olsun ki, elələri də var ki, bu yazıq insanların taleləri hesabına qazanc və mənfəət əldə edirlər. Belə hallara qəti surətdə son qoymaq lazımdır. Ona görə də mən belə hesab edirəm ki, qaçqınları qeydə götürmək və onları işlə təmin etmək təxirə salınmamalıdır. Bu barədə, sadəcə olaraq, Prezident Şurasının 1990-cı il 5 oktyabr tarixli qərarını yerinə yetirmək lazımdır.

Əlbəttə, mən o fikirdən uzağam ki, biz bununla qaçqınların, hətta Bakı şəhərində belə, bütün problemlərini həll etmiş olarıq. İndi bizə bütün qaçqınların hal-hazırda olduqları yerlərdə məskunlaşması üçün ciddi tədbirlər həyata keçirmək lazımdır. Təəssüf ki, heç də hər yerdə yerli hakimiyyət orqanları məsuliyyət hissi ilə bu məsələyə yanaşmırlar. Bu günün özündə qaçqınla-

rın bir çoxu əvvəlki kimi vaqon-evlərdə, ictimai binalarda, qohum və tanışlarının evlərində yaşamağa məcburdurlar. Bəzi rayon rəhbərləri belə düşünürlər ki, bu insanlar üçün nə qədər çox çətinlik yaradılsa, bir o qədər onlar rayonu tez tərk edərlər. Əgər belə davam edərsə, Bakı şəhərinə gələn qaçqınların sayı, şübhəsiz ki, gündən-günə artacaqdır. Bunun necə acı nəticələrə gətirib çıxaracağı hamımıza məlumdur.

Yaraqlı erməni quldurların əlindən cana gəlmiş və bu səbəbdən öz arzuları ilə Dağlıq Qarabağın ayrı-ayrı yaşayış məntəqələrini, Xanlar və Goranboy rayonlarının bir neçə kəndini erməni əhalisi tərk etmişdir. Bununla əlaqədar olaraq, boşalmış kəndlərə, ilk növbədə, qaçqın ailələrinin köçürülməsi və bu prosesin nizamlı surətdə həyata keçirilməsi, qaçqınların mənzillə təmin edilməsi problemində olan gərginliyin qismən azalmasına səbəb olar.

Bütün bu problemlər əyani surətdə bir də onu göstərir ki, rayon və şəhər Sovetləri və onların icraiyyə komitələrinin simasında yerli hakimiyyət orqanları bütünlüklə qaçqınlar problemini həll etmək iqtidarında deyillər və onlar bu vəzifənin öhdəsindən gələ bilməzlər. Bu hal son zamanlar, yerlərdə icra intizamının son dərəcə aşağı düşdüyü bir vaxtda daha çox nəzərə çarpır. Bununla əlaqədar olaraq, yerli hakimiyyət orqanları strukturunun və fəaliyyətinin respublika Prezidentinin qərarı ilə təkmilləşdirilməsi, bəlkə də, çox yerinə düşmüşdür. Rayon və şəhərlərdə yeni icra hakimiyyətinin başçıları, təcili surətdə, əvvəlki süründürməçiliyə yol vermədən, qaçqınların vacib problemlərinin həllinə başlamalıdırlar. Onlar bilməlidirlər ki, bu işin nəticəsi ilə onlar yalnız Prezident və Ali Sovet qarşısında deyil, həmçinin də xalq və tarix qarşısında cavab verirlər.

Bu vacib və ciddi məsələ barədə mənim düşündüklərim bunlardır. Güman edirəm ki, daha dəqiq və konkret olaraq bu problemlər barədə qaçqınlarla iş aparan Dövlət Komitəsinin sədri

Ş.K.Kərimov və bu məsələlərə çox ciddi məşğul olan Nazirlər Soveti sədrinin birinci müavini Firuz Mustafayev yoldaşlar danışacaqlar. Müzakirə nəticəsində qəbul olunacaq müvafiq sənədin yerinə yetirilməsi qaçqınların taleyinin asılı olduğu hər bir kəs üçün məcburi olmalıdır.

Sözümün sonunda səlahiyyət sahiblərinin nəzərinə bir məsələni də çatdırmaq istəyirəm. Şübhəsiz, qanun qanundur, ona əməl etmək hamımızın borcudur. Qaçqınlar məsələsinin həllində isə soyuq hüquq qanunları ilə yanaşı bir də isti ürəyin və insafın, mərhəmətin və milli təəssübkeşliyin qanunları da var. Bu qanunlar qanun kitabına yazılmır. Ulu tanrının bizə verdiyi vicdanın və insaniyyətin diqtəsi ilə ürəyə yazılır. Gəlin, qaçqın bacı və qardaşlarımıza vicdanın və insanlığın diqtəsi ilə yazılmış ürək qanunları ilə yanaşaq.

***"Vətən səsi" qəzeti, 1991.***
***"Yanan da mən, yaman da mən", Bakı, 1995.***

## MÜSTƏQİLLİYƏ GEDƏN YOLDA

*(1991-ci il avqustun 29-da Respublika Ali Sovetinin fövqəladə sessiyasında çıxış)*

Hörmətli millət vəkilləri!

302 il hökmranlıq etmiş Romanovlar imperiyası 1917-ci ildə bir günün içində dağıldı və hərc-mərclik başlandı. Yaranan şərait və məqamdan istifadə edən böyük atamız M.Ə.Rəsulzadə quru yer üstündə, heç nədən Şərqdə ilk Demokratik respublikanı yaratdı. Lakin bizim manqurtların əli ilə respublikamızı beşiyindəcə boğub, həmin imperiyanı başqa adla yenidən dirçəltdilər. Başqa adla qurulan həmin imperiya indi can üstündədir. Gözümüzün qarşısında çapalayır. Başqa respublikalar, kimi, indi biz bu vəziyyətdən, bu şansdan istifadə edib, Rəsulzadənin yaratdığı respublikamızı bərpa edə bilməsək, gələcək nəsillər bu xəyanəti bizə bağışlamayacaq.

Hörmətli millət vəkilləri, bu gün tarix bizim qarşımızda böyük bir vəzifə qoymuş, əgər biz nədənsə çəkinib, yaxud öz şəxsi xeyrimizi düşünüb bu vəzifəni yerinə yetirməsək, nəvə-nəticələrimiz bizi lənətləyəcək.

Bünövrəsi çürümüş dünyanın bu son imperiyası indi dağılmaq

üzrədir. Onu saxlayan qüvvələr nə qədər güclü olsalar da, bu prosesin qarşısını ala bilməyəcəklər. 6 ildir ki, bu mübarizə davam edir. Ali Sovetin son sessiyasında Anatoli Sobçak çox gözəl dedi ki,son 6 ilin ən böyük səhvi ondan ibarət idi ki, iqtidar sahibləri bu sistemi, bu qozbel əjdahanı düzəltmək, islah etmək istəyirdilər. Lakin xalq demişkən, qozbeli qəbir düzəldər. Avqust demokratik inqilabının qayəsi, bu qozbeli, yəni bu imperiyanı basdırmaqdır. Çox təəssüf ki, bu qozbeli düzəltmək tərəfdarları bizim respublikada da az deyildir. Qozbelin verdiyi hökmə sahib olub xalqın canına və qanına daraşsınlar öz xoşları ilə hakimiyyətdən əl çəkməyəcəklər. Onları bu işə məcbur etmək bütün demokratik qüvvələrin ən birinci qayəsi olmalıdır. 70 illik imperiyanın 3 əsas dayağı sarsıdılmalıdır. Bu dayaqlar bir ideologiyanın inhisarı, bir partiyanın diktaturası, bir dövlət mülkiyyətinin hökmfərma olmasıdır. İndi, əgər biz qozbel əjdahanın yalnız bir ayağını kəsib, yəni bir ideologiyanın və bir partiyanın diktaturasına son qoysaq, lakin dövlət mülkiyyətinin inhisarını saxlasaq, 2 ayağından məhrum əjdaha yenə baş qaldıracaqdır. Bunu birdəfəlik başa düşmək lazımdır ki, xüsusi mülkiyyət forması olmadan demokratiya yoxdur. Demokratiya olmadan hüquqi dövlət mümkün deyildir. Mülkiyyət forması demokratiyanı müəyyənləşdirir. İndi, gəlin görək, bu əsas məsələ bizdə həll edilirmi? Yox! Mülkiyyət eyni ilə, yenə də qalmaqdadır Biz bilməliyik ki, mülkiyyətdən məhrum olan xalq hər şeydən məhrumdur.

Doğrudur, bayrağımız Məmməd Əmin Rəsulzadənin qaldırdığı bayraqdır. Bayraq var, istiqlaliyyət yoxdur. 28 may istiqlaliyyət günümüzdür. Bu günü də bizə qeyd etməyə imkan verildi. Bununla belə, istiqlaliyyət günü var, istiqlal yoxdur. Bir ideologiyanın inhisarı ləğv olunur, lakin göstərdiyim kimi, mülkiyyətdə dövlət inhisarı qalır. Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi buraxılır. Partokratiya qalır. Suverenlik və müstəqillik

elan olunur, lakin onun özü yoxdur. Mərkəzə tabeçiliyimiz yenə də qalır. Demokratiya sözü dillərdən düşmür. Amma onun özü, sözün həqiqi mənasında, hələ həyatımızın aparıcı meylinə çevrilməyib. Leninin heykəli götürülür, lakin leninizm ruhu qalır. Bu, ideologiyanın Azərbaycan torpağında nə dəhşətlər törətdiyi hamıya məlumdur. Xalqın ruhuna, ənənəsinə zidd olan bu ideologiyadan hələ də bürokratlar əl çəkmək istəmirlər.

Bizim hamımızı düşündürən məsələlər çoxdur. Çoxlu və lazımlı fərmanlar verilir. Elə dünənin özündə respublika prezidentinin neçə fərmanı elan olundu. Buna sevinməmək olmaz. Lakin bir şərtlə: Bu fərmanlara əməl edən ola. Onlar qanuna çevrilə, fəaliyyət proqramı ola. Gözdən pərdə asmaq vaxtı qurtarıb. Nə qədər ki, Azərbaycan torpağında həqiqi müstəqillik bərqərar olmayıb, bu fərmanlar kağız üzərində qalacaq. Amma ilk addımlar real olmalıdır. Xalq inanmalıdır ki, biz həqiqi müstəqilliyə gedirik, torpağımızın sahibi olmaq əzmindəyik. Əgər yadınızdadırsa, həmin bu salonda biz milli ordumuzun yaradılması məsələsini ortaya atarkən o zaman raykom katibi və özünü hərbi mütəxəssis hesab edən general mənə necə hücum çəkdilər?

Ermənistan silahlanıb, bizim torpağımız və xalqımız təhlükə altındadır. Amma biz yenə də mərkəzin, rus ordusunun ətəyindən bərk yapışmışıq. Sizin xəbəriniz vardırmı ki, Dağlıq Qarabağda rus ordusu indi Yeltsinə tabe olunub? Və Yeltsin kimin əhatəsindədir. Yenəmi yatmalıyıq? Yenəmi təhlükəni dərk etməyəcəyik? Mən düşünürəm, necə olur ki, 1918-ci ildə 3-4 ayın ərzində geri qalmış, orduda qulluq etməkdən məhrum olmuş, heç bir hərbi təlim görməmiş bir xalq 40 minlik ordu yaratdı və Azərbaycan torpağını müdafiə etdi. İndi 100 minə yaxın gənclərimiz ordu sıralarında olduğu bir vaxtda yenə bizi inandırmağa çalışırlar ki, Azərbaycan özünün ordusunu yarada bilməz. Bunun üçün imkan yoxdur.

Dünən İttifaq Ali Sovetinin sessiyasında Volkov respublika-

ların iqtisadi imkanlarından danışarkən dedi ki, 15 respublikadan yalnız ikisi - RSFSR və Azərbaycan iqtisadi cəhətdən müstəqil yaşamaq imkanına malikdir. Bunu mütəxəssislər deyir. Bizim iqtisadçı alimlərimiz isə bizi inandır mağa çalışırlar ki, müstəqillik elan olunarsa, Azərbaycan bütün digər respublikalarla iqtisadi əlaqələri, guya, kəsməlidir. Bu nə qədər riyakarlıqdır! Kim deyir ki, iqtisadi əlaqələr kəsilməlidir?

Görürsünüzmü? Baltik respublikaları artıq özünün istiqlaliyyətinə nail oldu. O da məlumdur ki, bu respublikaların nə təbii sərvəti, nə də iqtisadi potensialı bizim respublika ilə müqayisə oluna bilməz. Bununla bərabər, onlarda elə bir üstün cəhət var ki, o, bizdə yoxdur. O da milli birlikdir. Milli birlik deyəndə mən nəyi nəzərdə tuturam? Yuxarıda duran özünü deyil, xalqı düşünməli, xalqın iradəsini ifadə etməlidir. Xalqın sağlam qüvvələrinə istinad etməlidir. Xalqı özünün deyil, özünü xalqın iradəsinə tabe etdirməlidir. Əgər 1918-ci ildə yaranan şanslardan bizim böyüklərimiz məharətlə istifadə etdilərsə, bu şans indi daha əlverişlidir. Birinci, ona görə ki, 1918-ci ildə onlar yaratdılar. Biz isə bu gün vaxtı ilə yaranmışı bərpa etmək istəyirik. Biz onların açdığı cığırla gedirik. Yəni açılmış cığırla getmək, yaranmışı təzələmək bu qədər çətindir?! İkinci tərəfdən, o zaman Azərbaycanda əhalinin yalnız 10-15 faizi savadlı idi. İndi isə, Allaha şükür, millətin 95 faizi savadlıdır. Qüvvətli ziyalı ordumuz var.

Vətən deyəndə öz evini, millət deyəndə öz qohum-qardaşını nəzərdə tutanlar hər məsələdə öz şəxsi xeyrini düşünənlər milli birliyin nədən ibarət olduğunu çətin anlayar.

Mən ondan qorxuram ki, yaxın vaxtlarda Azərbaycan bütün SSRİ-də fövqəladə vəziyyəti saxlayan yeganə respublika olsun.

Adamlar istər-istəməz düşünür: nəyə görə bütün pis və mühafizəkar şeylərdə qabaqcıl, yaxşı məsələlərdə isə arxada sürü-

nürük? Unutmaq lazım deyildir ki, süngü gücünə xalqı müəyyən müddətə qədər itaətdə saxlamaq olar. Amma uzun müddət süngü üstündə oturmaq olmaz.

Mənim fikrimcə, indiki parlament Azərbaycan xalqının mənafeyini, taleyini, müstəqilliyini idarə etmək iqtidarında deyildir. Mən indiki parlamentin buraxılmasını istərdim. Cəsarətimiz olsun, özümüz istefa verək. Dəstəbazlıq və yerlibazlıqdan əl çəkək. Gələcək azad seçkili parlamentimizə seçilən hüquqşünaslar, əsl iqtisadçılar, tükü-tükdən seçən siyasətçilər, büdcə məsələlərindən başı çıxan maliyyəçilər, bu sahələrdə beynəlxalq təcrübəni bilən və yaradıcı surətdə tətbiq etməyi bacaran mütəxəssislər seçilməlidir.

Respublikada yalnız növbəti siyasi böhran başlayanda xalqın ağzını yummaq üçün ya heykəl uçururlar, ya da xalqın gözlədiyi bir məsələ həll olunur. Heykəli uçurmaq lüzum idisə, bunu böhrandan əvvəl eləmək olmazdımı? Siz o vaxt eləyirsiniz ki, arzu gecikir və işimizin xalqa bir müsbət təsiri olmur. Onda xalq başa düşür ki, siz bu işi öz ürəyinizin tələbi ilə eləmirsiniz, xalqa xoş görünmək üçün eləyirsiniz!

Götürək, əlifba məsələsini. 2 ildir bu barədə söhbət gedir. Mən özüm 3-4 dəfə bu məsələnin tez həll olunmasını prezidentdən xahiş etmişəm. Hər dəfə də söz verib. Amma adi bir fərmanla həll olunacaq bu işi aydan-aya keçiririk. Moldovanlar isə bu məsələni 1 fərmanla 1 günün içində həll etdilər. İstər-istəməz fikirləşməli oluruq: rəsmi dairələr niyə bu işi ləngidir? Cavab aydındır: Çünki Kiril əlifbası onlar üçün daha sərfəlidir. Kiril əlifbası onlar üçün doğmadır. Çünki onlar ailədə də rus dilində danışır, xalqın əlifba dərdi onların şəxsi dərdi deyil. Amma onların xalqdan xəbəri yoxdur. Bakının küçələrində reklamlara, heç olmasa, maşınların pəncərəsindən baxsalar, görərlər ki, bir çox kafelərin, kooperativlərin adlarını camaat latın əlifbası ilə yazmışdır.

Yəqin ki, hamınız Ümumittifaq Ali Sovetinin srağagünkü sessiyasına baxmısınız. Həmin sessiyada bizim respublika necə təmsil olundu? Yəqin siz də mənim kimi xəcalət çəkmisiniz. Başqa cür ola bilməz. Damarlarından qeyrət qanı axan hər kəs həmin sessiyada o cür zəif təmsil olunmamızdan utanmalı idi. Halbuki, bizim dərdimiz başqa respublikaların dərdindən qat-qat çoxdur. Qırılan biz, söyülən biz, torpaqlarından qovulan biz, qorxa-qorxa danışan, dili qısa olan da biz. Halbuki, biz bu 70 ildə heç bir xalqın hesabına yaşamamışıq, əksinə, onlar bizim hesabımıza yaşayıblar.

Mənim E.Qafarovaya çox böyük hörmətim var. Adamı səfərdə yaxşı tanıyarlar. Mən bir neçə dəfə Elmira xanımla xarici səfərlərdə olmuşam və hər dəfə onun mədəniyyətinə, xeyirxahlığına və ən ümdəsi, nəzakətinə heyran qalmışam. Lakin etiraf edək ki, nəzakət və xeyirxahlıq bir şeydir, haqqı tapdanmış bir xalqın haqqını ali məclislərdə sinəsini kürsüyə gərib müdafiə etmək isə başqa şeydir.

Qafarova çıxışında sübut etməyə çalışdı ki, Azərbaycanda demokratik qüvvələr boğulmur - əslində boğulur - və biz Moskvada baş verən hərbi çevrilişi təqdir etməmişik. Çox yaxşı. Amma bu fikri elə cansız və təsirsiz dedi ki, buna heç kəs inana bilməzdi. Halbuki, onun əlində çox gözəl faktlar var idi. O, bu inandırıcı faktlardan istifadə edə bilmədi. Orda demək lazım idi ki, Azərbaycanda 20 Yanvar faciəsini törədənlər Yazov və Kryuçkov bandası idi. Bizim xalqımız və prezidentimiz 200-ə qədər günahsız adamımızı qıran Yazov-Kryuçkov bandasına necə rəğbət bəsləyə bilərdi?

Əzizim Qafarova, bax, bu olardı inandırıcı fakt. Amma siz bu tutarlı faktdan bu şəkildə istifadə edə bilmədiniz.

İncimәyin, bu, ümumi dərdimizdir. Bu yerdə əgər qüsurlarımızı bir-birimizə deyiriksə, bu bizim düşmənçiliyimizə səbəb

olmamalıdır.

Bu salondan həmişə dediyim kimi, bu gün də təkrar edirəm, gəlin şəxsi hisslərimizi cilovlayaraq, millətimizi düşdüyü böhrandan xilas etmək, ən ümdəsi isə tam müstəqilliyə nail olmaq üçün əlimizdən gələni əsirgəməyək.

***"Ədəbiyyat qəzeti", 6 sentyabr 1991.***
***"Yanan da mən, yaman da mən", Bakı 1995.***

## KİTABIN İÇİNDƏKİLƏR

**Bəxtiyar Vahabzadənin publisisistikası.** (*R.Qafarlı)*______3

## VƏTƏN SEVGİSİ

Vətən sevgisi______21
Mənim Azərbaycanım ______26
"Vətəni sevməyən insan olmaz..."______30
Vətən ocağının istisi...______34
Vətən haqqında düşüncələr______38
İstisu dedim, ürəyim yandı...______44
Vətən sənsən, Vətən mənəm, Vətən biz!______54
İstiqlal günü______61
Vətənindən qovulmuşlar______64
Arzu______66
Allah amanatı______68
Qardaş dərdinə biganəlik______70

## ANA DİLİM - VARLIĞIM

Xalq! Yenə xalq!______75
Ana dilim ana kököm______79
İftiraya cavab______88
Tarix, dil, ənənə______95
Ana dili______99
Dil haqqında sorğu______102
Bir daha ana dili haqda______104
Su başdan bulanar______110
Ana dili dövlət dili______112
Qatıq qara ola bilməz______115
Dil və əlifba______117

Dilimizin və millətimizin adı 121
Ana dili, yenə ana dili 125
Məmurlar yenə də öz övladlarını anadilli məktəblərdə oxutmurlar 128

## MƏNƏVİYYAT

Ana laylası, uşaq dünyası 135
Ana 139
Çörək 146
Mənəvi dayaqlarımız 152
Son zəng 169
Oxud məktəbində 172
Xətir-hörmət, qədir-qiymət 177
Müqəddəs hisslər 183
Duymaq, anlamaq! 189
Dili yoxdur, o danışır 194
Amal nə deməkdir? 199
Mənəvi təmizlik 202
Ləyaqət 206
Haram tikə və ya "ağ qızıl"ın qara ləkəsi 214
Yeniyetmə və zaman barədə düşüncələr 220
Vicdan, namus və ləyaqət 229
Yanan da mən, yaman da mən 239
Saqqal darağı fabriki 246
Gedənin arxasınca... 250
"Azərbaycan" qəzetinin oxucularına 256
Nənəm mənə kor deyib... 258
Unutqanlıq 260
Məkrli yalan və böhtan kimə gərəkdir? 263
Dini dəyişmək nə deməkdir? 266
Allah fəryadımıza çatsın 269
Dildə, əməldə, fikirdə birlik! 272

Əsrin görüşü 275
Geyinmək, yoxsa, soyunmaq? 277

## TARİX, TARİXİ ABİDƏLƏR

Tarixi adları dəyişmək olmaz 281
Gəlin, biz də düşünək 283
Tarix nə deyir? 288
Dağlıq Qarabağ: iddialar və həqiqət 308
Bir neçə mühüm problem 321
Şənbə gecəsinə gedən yol 327
Tarixsiz biz heçik 398
Tariximizi saxtalaşdıran "alim" 400

## PROBLEMLƏR

"Mən", yoxza, "biz"? 405
Qəbul imtahanları barədə 411
Bir kənd məktəbi 418
Ağdam, Mərzili kəndi 424
Forma, yoxsa, məzmun? 430
Borc hissi 435
Həyat-ölüm 438
Təbiəti qoruyaq 445
Maraqlı təkliflər 448
Həyatın romantikası 453
Jurnalist 458
Vaxt və insan haqqında düşüncələr 462
Gəlin, açıq danışaq... 479
Adlarımız barədə 487
Şəxsi fikir, ictimai duyğu 492
Xalqı çörəklə imtahana çəkmək olmaz 498
Ədavətə haqqımız varmı? 500
Ayının min oyunu var... 506

"Yeniləşmiş ittifaq" nədir"? 509
Kim bilir? 513
Qızım, sənə deyirəm, gəlinim, sən eşit 515
Biz və onlar 518
Elmimiz nə üçün geri qalır? 520
Ön söz 523
Müstəqillik baharının ilk qönçələri 536
Bizim kimimiz var? 538
Sənət sənət üçündür, yoxsa, xalq üçün? 542
Üz, yoxsa, astar? 548
Dini savadsız mollalardan qorumalı 551
Tarixi şəxsiyyətləri siyasi oyunlara qatmayaq 558
Klip musiqini və sözü zorlayanda... 567

## ŞƏXSİYYƏTLƏR

Mehdi Hüseyn haqqında xatirə 571
Məsud Əlioğlu 574
Əbədi iz 581
Bizim Xudu sirri xuda 583
Onun susmağı da danışmaq idi 595
Camal Kamal 599
Ömürdən səhifələr 603
Ömrün noğul dövrü 606
Avtobioqrafiyam 640
İmtahan 659
Çevrilmə 665
Böyüklük və nəcabət rəmzi 667
Cəsarət 674
Telefon söhbəti 676
Professor Oqtay Sinanoğlu: "Bir ölkəni kölələşdirmək istəsəniz, təhsilini yabançılaşdırın" 679

Böyük türkçü 683
Həyəcan təbili çalan vətəndaş alim 685
Göz həkimi 788
Kişi ömrü 792
Kərpic Həsən 795
Rüstəm körpüsü 799
Dost haqqında bir neçə söz 704
Xeyirxahlıq və ədalət timsalı 710
Axıra qalmaq qorxusu 714
Ləyaqət mücəssəməsi 718
Nəcabət və nəzakət simvolu 721
Xatirə elegiya 725

## ÇIXLIŞLAR, RƏYLƏR

Əziz və hörmətli müəllimlər 799
Birliyi əldən verməyək 785
Ağrılarımız, dərdlərimiz 789
Respublika rəhbərinə deputat sorğusu 797
Gürcü həmkarlarıma 800
Azərbaycan Cumhuriyyətinin bugünkü durumu 802
Ağrımız və qayğımız 808
Müstəqilliyə gedən yolda 814

**BƏXTİYAR VAHABZADƏ**

**ƏSƏRLƏRİ**

**On iki cilddə**

**XI cild**

***(Publisistika)***

*«Qafqaz Plus» MMC-də hazırlanmışdır.*

*Bədii dizayneri*
**Xəyyam Əliyev**

*Texniki redaktorları*
**Adilə Osmanova,**
**Ləman Qafarova**

Çapa imzalanmış 05.02.2009. Kağız formatı 84x108 1/32.
Həcmi 46,01. Tirajı 500. Sifariş 034.
Qiymәti müqavilә ilә.

*Direktor:* **prof. N.B.Məmmədli**
*Nəşrə məsul:* **Əziz Ələkbərli**

Kitab «Nurlan» nəşriyyat-poliqrafiya müəssisəsində
hazır diapozitivlərdən çap edilmişdir.
E-mail: nurlan 1959@yahoo.com
Tel.: 497-16-32; 050-311-41-89